AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ
AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ

G.Z.YÜZBAŞOVA, Z.S.ABDULLAYEV

# AZƏRBAYCANIN NEFT-QAZ STRATEGİYASI: PROBLEMLƏR VƏ PROQNOZLAR

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İŞLƏR İDARƏSİNİN KİTABXANASI

Bakı – "Nurlan" – 2006

2520

*Elmi redaktor:* İqtisad elmləri doktoru, professor
**A.B.Abbasov**

*Rəyçilər:* Texniki elmlər doktoru, professor
**C.M.Mahmudov**
İqtisad elmləri namizədi, dosent
**Ə.H.Nağıyev**

***Gülşən Zahid qızı Yüzbaşova*** – iqtisad elmləri doktoru, ***Zahid Süleyman oğlu Abdullayev*** – texnika elmlər namizədi, professor. **Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar.** *Monoqrafiya.* Bakı, 2006, 755 səh.

*Monoqrafiyada Azərbaycan Respublikasında karbohidrogenlər hasilatı və onun inkişaf mərhələlərindən, mənfəət karbohidrogenləri və onların bölüşdürülməsi qaydasından, Azərbaycanın neft strategiyasının mahiyyətindən, məqsəd və vəzifələrindən, həmçinin onun milli iqtisadiyyatın formalaşması və inkişafındakı rolundan, «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri – Azərbaycanın neft strategiyasının tərkib hissəsi kimi, neft strategiyasının formalaşması və reallaşdırılmasında mühüm rol oynayan amillərdən bəhs edilir. Monoqrafiyanın yazılmasında məqsəd milli iqtisadiyyatın ən başlıca sahələrindən biri olan neft-qazçıxarma sənayesində obyektiv iqtisadi qanunların konkret təzahür formalarını və fəaliyyət mexanizmini qiymətləndirmək, bu proses zamanı qarşıya çıxan və ya çıxa biləcək problemlərin həllində neft-qazçıxarma sənayesi işçilərinə köməklik göstərməkdən ibarətdir.*

*Bunu nəzərə alaraq, monoqrafiya ali və orta ixtisas məktəblərində təhsil alan tələbələr və neft-qazçıxarma sənayesində çalışan mütəxəssislər üçün nəzərdə tutulmuşdur. Monoqrafiyanın oxucularından öz iradlarını və tənqidi qeydlərini müəlliflərə bildirmələrini xahiş edirik və bunun üçün əvvəlcədən həmin oxuculara öz minnətdarlığımızı bildiririk.*

© «Nurlan», 2006

$\frac{4602000000}{N-098-2006}$ ***Qrifli nəşr***



## MÜNDƏRİCAT

**Oxucu ilə söhbət və yaxud ön söz əvəzi** ........................ 8
***Fəsil 1. Maddi istehsal sahələri və onların Azərbaycanda təşəkkül formaları*** ........................ 15
1.1. İstehsalın mahiyyəti, növləri, tərkib ünsürləri və təşkilinə edilən əsas tələblər ........................ 15
1.2. Azərbaycanda maddi istehsal sahələrinin təşəkkül formaları və onların inkişaf perspektivləri ........................ 34
1.3. Maddi istehsal sahələrinin inkişafında maliyyə bazarının rolu ........................ 58
1.4. İstehsal amilləri və istehsal potensialı, onların qarşılıqlı əlaqəsi və optimal nisbətləri ........................ 61
1.5. Sahənin istehsal potensialı ilə istehsal proqramı arasındakı asılılıq ........................ 67
1.6. Müasir dövrdə sahənin istehsal potensialından səmərəli istifadə problemləri ........................ 70
***Fəsil 2. Ölkənin sosial-iqtisadi inkişafında neft strategiyasının rolu və yeri*** ........................ 73
2.1. Neft strategiyasının mahiyyəti, məqsədi və vəzifələri ...... 73
2.2. Azərbaycanda karbohidrogenlər erasının təşəkkülü və inkişaf perspektivləri ........................ 91
2.3. Azərbaycanda karbohidrogenlər hasilatının dinamikası ..... 94
2.4. Azərbaycanda neft hasilatının artırılması üsulları ........... 99
2.5. Neft bonusu və digər ödənişlərin mahiyyəti, hasilatın artırılmasında onlardan istifadənin əhəmiyyəti ........................ 115
2.6. Mənfəət karbohidrogenləri və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılmasında onun rolu ............ 122
***Fəsil 3. Ölkənin sosial-iqtisadi inkişafının yaxşılaşdırılmasında neft strategiyasının rolu*** ........................ 139
3.1. Ölkənin sosial-iqtisadi inkişafının müasir durumu və onun daha da yaxşılaşdırılmasında neft strategiyasının rolu ........... 139
3.2. Ölkənin iqtisadi inkişafının sürətləndirilməsində neft amilinin rolu və yeri ........................ 155
3.3. Azərbaycanın iqtisadi müstəqilliyi və neft strategiyası ...... 167
3.4. Neft və qaz Azərbaycanın ən qiymətli təbii sərvətləridir ........................ 177
3.5. Məşğulluq imkanlarının artırılması və yoxsulluğun azaldılmasında neft strategiyasının rolu ........................ 183

***Fəsil 4. Xəzər regionunun karbohidrogen resursları və müasir dövrdə onlardan istifadə problemləri*** ........................ 190
4.1. Xəzər regionunun karbohidrogen resursları və onlardan səmərəli istifadənin əhəmiyyəti ................................... 190
4.2. Müasir dövrdə Xəzərin karbohidrogen resurslarından istifadə problemləri ................................................. 196
4.3. Xam neftin emalı və neft məhsulları ......................... 210
4.4. Neft və qazın nəql edilməsi marşrutları, onların siyasi-iqtisadi əhəmiyyəti ................................................ 214
4.5. Qrant və Xəzər regionu üzrə layihələrin həyata keçirilməsində ondan istifadənin əhəmiyyəti ................................ 225
***Fəsil 5. Neft sənayesində institutsional islahatlar və sahənin bazar iqtisadiyyatına uyğunlaşdırılması problemləri*** ........... 227
5.1. Neft sənayesində institutsional islahatlar bazar iqtisadiyyatına keçidin mühüm mərhələsi kimi, onun əhəmiyyəti və zəruriliyi ......................................................... 227
5.2. Menecment mexanizmi və müasir dövrdə ona edilən əsas tələblər ........................................................... 245
5.3. Menecment prosesinin mahiyyəti və funksiyaları ........... 255
5.4. Neft sənayesində struktur islahatlar .......................... 261
5.5. Neft-qazçıxarma idarələrinin təkmilləşdirilərək bazar iqtisadiyyatı subyektinə çevrilməsinin xarakterik cəhətləri ......... 279
***Fəsil 6. Neft-qazçıxarma idarələri dərinləşən bazar münasibətləri şəraitində*** ...................................................... 292
6.1. Bazar münasibətlərinin mahiyyəti və tərkib ünsürləri ...... 292
6.2. Bazar iqtisadiyyatının təzahür formaları və fərqləndirici cəhətləri ........................................................ 293
6.3. Bazar münasibətləri şəraitində neft-qazçıxarma idarələrinin iqtisadi məzmunu, əlamətləri və əsas vəzifələri ............. 298
6.4. Bazar iqtisadiyyatı şəraitində müəssisələrin yaradılmasının hüquqi-təşkilati formaları və təsnifatı ............................ 302
6.5. Müasir dövrdə müəssisələrin yaradılması və ləğvi qaydaları .......................................................................... 310
***Fəsil 7. Neft sənayesində texnoloji yeniləşmənin zəruriliyi və iqtisadi əhəmiyyəti*** ................................................ 319
7.1. Neft sənayesinin texnoloji cəhətdən yenidən qurulmasında elm və texnikanın rolu ............................................. 319
7.2. Yeni texnikanın yaradılması və onun mərhələləri ........... 325



7.3. Texnoloji yeniləşmənin mahiyyəti və zəruriliyi ............. 332
7.4. Texnoloji yeniləşmədə innovasion fəaliyyətin rolu və əhəmiyyəti ........................................................ 341
7.5. İstehsalın texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyi ........................................................ 358
***Fəsil 8. Neft sənayesində iqtisadi islahatların mahiyyəti və xüsusiyyətləri*** ................................................. 377
8.1. Neft sənayesində iqtisadi islahatların aparılmasının zəruriliyi və xüsusiyyətləri ............................................. 377
8.2. Dövlətsizləşdirmə və özəlləşdirmə - iqtisadi islahatların mühüm istiqaməti kimi, onların ümumi və fərqləndirici cəhətləri ........................................................................ 392
8.3. Azərbaycanda neft sənayesi obyektlərinin özəlləşdirmənin xüsusiyyətləri ........................................................ 406
***Fəsil 9. Neft sənayesinin dünya iqtisadiyyatına inteqrasiya edilməsi problemləri*** ................................................ 412
9.1. Beynəlxalq iqtisadi inteqrasiya və neft sənayesinin ixracat potensialının artırılmasında onun rolu ............................ 412
9.2. Neft sənayesinin dünya iqtisadiyyatına inteqrasiya edilməsi problemləri ........................................................ 424
9.3. Müştərək müəssisələr sahənin dünya iqtisadiyyatına inteqrasiya edilməsinin mütərəqqi forması kimi ..................... 436
9.4. Sahənin dünya iqtisadiyyatına inteqrasiya edilməsində neft kontraktlarının rolu və əhəmiyyəti .................................. 453
***Fəsil 10. Neft biznesi və Azərbaycanda onun təşkili prinsipləri*** .. 460
10.1. Biznes fəaliyyətinin mahiyyəti və inkişaf mərhələləri .... 460
10.2. Biznes fəaliyyətinin subyektləri və tətbiqi sahələri ........ 475
10.3. Azərbaycanda neft biznesinin təşkili prinsipləri və xüsusiyyətləri ........................................................ 480
10.4. Neft biznesinin inkişaf istiqamətləri və infrastrukturu ..... 489
10.5. Azərbaycanda neft biznesinin inkişaf perspektivləri ....... 498
10.6. Dünya neft bazarında qiymət meylləri ........................ 502
10.7. Milli neft sektorunda qiymətin formalaşması amilləri ...... 504
***Fəsil 11. Neft sənayesinə investisiya qoyuluşu və ondan istifadə istiqamətləri*** .................................................. 507
11.1. Azərbaycanın investisiya siyasəti və onun əsas vəzifələri ... 507
11.2. İnvestisiya qoyuluşunun mahiyyəti, tərkibi və strukturu ...515
11.3. Sahədə investisiya qoyuluşunun obyektləri və maliyyələşdirilməsi mənbələri ................................................. 523

11.4. Sahədə investisiya qoyuluşundan istifadənin qiymətləndirilməsi ........ 527
11.5. İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyinin hesablanma metodikası ........ 536
***Fəsil 12. Sahənin infrastrukturu və onun yaradılmasında Azərbaycan beynəlxalq əməliyyat şirkətinin rolu*** ........ 544
12.1. «Xidmət» anlayışı, onun formaları və obyektiv zəruriliyi.. 544
12.2. Sahədə göstərilən xidmətlərin növləri və təsnifatı ........ 548
12.3. Sahədə infrastrukturun təşkili prinsipləri və ona edilən əsas tələblər ........ 558
12.4. «Səngəçal» terminalı – onun xam neftin dünya bazarlarına çıxarılmasında rolu ........ 564
12.5. Sahənin iqtisadiyyatının inkişafında infrastrukturun rolu .. 571
12.6. Yeni təsərrüfatçılıq şəraitində sahə infrastrukturunun təkmilləşdirilməsinin əsas istiqamətləri ........ 575
12.7. ABƏŞ və onun yaradılmasının siyasi-iqtisadi əhəmiyyəti ... 584
***Fəsil 13. Milli iqtisadiyyatın formalaşdırılmasında qaz amili*** .. 596
13.1. Milli iqtisadiyyat, onun növləri və formalaşması amilləri.. 596
13.2. Milli iqtisadiyyatın inkişafında qaz amilinin rolu və yeri... 599
13.3. Dövlət Neft Fondu və ondan istifadənin prioritet istiqamətləri ........ 604
***Fəsil 14. Fiskal siyasət və neft-qazçıxarma idarələrində rentabelli fəaliyyətin təşkili*** ........ 613
14.1. Fiskal siyasət və onun həyata keçirilməsi mexanizmi ...... 613
14.2. İstehsalın rentabelliyinin mahiyyəti və növləri ........ 615
14.3. İstehsalın rentabellik səviyyəsinin hesablanma metodikası... 623
14.4. İstehsalın rentabellik səviyyəsinin təhlili ........ 625
14.5. Müəssisə mənfəətinin artırılması – istehsalın rentabellik səviyyəsinin yüksəldilməsinin mühüm amilidir ........ 630
14.6. İstehsalın rentabellik səviyyəsinin yüksəldilməsi yolları... 640
***Fəsil 15. İstehsalın səmərəli təşkili və sahədaxili iqtisadi islahatların dərinləşməsi problemləri*** ........ 650
15.1. İstehsalın səmərəliliyinin mahiyyəti və meyarı ........ 650
15.2. Məsrəflərin iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilər sistemi ........ 653
15.3. Azad sahibkarlıq – səmərəli təsərrüfatçılıq forması kimi, onun mahiyyəti və nəzəri əsasları ........ 661
15.4. İstehsalın səmərəliyinin yüksəldilməsinin əsas istiqamətləri ........ 666



***Fəsil 16. İstehsal xərclərinin və maya dəyərinin idarə edilməsi*** ........ 676
16.1. İstehsal xərclərinin mahiyyəti, məhsulun maya dəyəri və qiymətinin formalaşdırılmasında onun rolu ........ 676
16.2. İstehsal xərclərinin təsnifatı və dinamikası ........ 684
16.3. İstehsal xərclərinin və maya dəyərinin idarə edilməsinin mahiyyəti və zəruriliyi ........ 693
16.4. İstehsal xərcləri və maya dəyərinin planlaşdırılması metodları ........ 703
16.5. İstehsal xərclərinin azaldılmasının və maya dəyərinin aşağı salınmasının əsas istiqamətləri ........ 714
16.6. Neft-qazçıxarma idarələrində karbohidrogenlər hasilatına çəkilən xərclərin azaldılması mənbələri və amilləri ........ 721
***Fəsil 17. Sahədə maliyyə menecmenti və lizinq xidməti*** ........ 731
17.1. Sahədə maliyyənin zəruriliyi, mahiyyəti və funksiyaları.. 731
17.2. Neft-qazçıxarma idarələrində maliyyə sistemi və onun subyektləri ........ 733
17.3. Maliyyə menecmenti – neft-qazçıxarma idarələrinin maliyyə vəsaitlərinin formalaşmasını təmin edən idarəetmə sistemi kimi ........ 744
17.4. Bazar iqtisadiyyatına keçid dövründə neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin pisləşməsi səbəbləri və sanasiyası ... 746
17.5. Neft-qazçıxarma idarələrində lizinq xidmətinin təşkili .... 747
**ƏDƏBİYYAT** ........ 753

*Kitabı səmimi və mehriban ailəmə həsr edirəm*

## OXUCU İLƏ SÖHBƏT VƏ YAXUD ÖN SÖZ ƏVƏZİ



***Salam əziz oxucu!*** Ömür vəfa qıldı və Sizinlə yenidən görüşə bildim. Çünki mən sonuncu kitabı «Müəssisənin iqtisadiyyatı» dərsliyini kafedramızın mehriban və səmimi üzvü Zenfira xanımla 2003-cü ildə yazdıqdan sonra, yaş həddimi nəzərə alaraq, kitab yazmağı bir növ, tərgitmək istəyirdim. Lakin bəzi səbəblər üzündən və iqtisad elmləri doktoru, 46 yaşlı qızım Gülşənin təkidindən sonra yenidən kitab yazmaq həvəsinə düşdüm və «Azərbaycanın neft-qaz strategiyası: problemlər və proqnozlar» adlı monoqrafiyanı Gülşənlə birlikdə yazmaq qərarına gəldim. Adı çəkilən kitabın yazılmasının və giriş əvəzinə oxucu ilə söhbət və yaxud ön söz əvəzi yazılmasının səbəbini qısa aydınlaşdırmaq istəyirəm.

*Əziz oxucu!* Dünyamız haqqında nə bilirik? Kim öz yeddi arxa dönənini tanıyır? Özümüzdən sabaha nə yadigar qoyub dünyamızı dəyişirik? Bu sualların sayını çox artırmaq da olar. Doğrudan da, dünənimiz bizim üçün nə qoyub gedib və biz də sabahımız üçün nə edirik? Əsas məsələ budur.

Yaxın keçmişimiz, adət-ənənələrimiz, dini əqidələrimiz və s. bu gün tez-tez xatırlanır. Tariximizin və adət-ənənələrimizin unudulmasında, saxtalaşdırılmasında, dini-əqidələrimizə əməl olunmamasında günahkar axtarırıq. Ancaq əsas günahın özümüzdə olduğunu deməyə cəsarətimiz çatmır. Bəzi tarix yazanlarımız öz cılız hisslərinə qapılaraq elə şeylərin, hadisələrin, proseslərin üstündən sükutla keçiblər ki, elə hadisələri və şeyləri unudublar ki, sonralar bütün bunlar xalqın yaddaşından silinib.

Bəli, bu kitabı mənim üçün bəlkə də sonuncu kitab adlandırmaq olar. Artıq mən XX əsri yaxşı-pis başa vurub, XXI əsrə keçmişəm. Buradan isə axirət dünyasına getməliyəm. İnsan dünyasını dəyişəndən sonra onu başqalarına xatırladan məzarı



və başdaşı olur. İllər keçdikcə məzar da unudulur, başdaşı da dağılıb gedir. Ən qiymətli qəbirüstü abidələr də artıq uzaq olan qohumlar tərəfindən yaddan çıxarılır. Mən istəmişəm ki, bu kitabı yazıb gələcək nəsillərimə əbədi xatirə qoyum. Yüz illər keçsə də, nəvə-nəticələrim bu kitabı vərəqləyəndə öz ulu babalarını, nənələrini, ata-analarını yad etsinlər, xatirələrində saxlasınlar, öz nəsillərini unutmasınlar, necə deyərlər, adət-ənənəmizi yaşatsınlar. Fikrimcə, hər bir ailə üzvlərim evində qorunub saxlanılacaq bu kitabı vərəqlədikcə bizləri də xatırlayar və ruhumuza rəhmət duası oxuyarlar. Şair demişkən:

***Yanımdan ötürdü yel kimi Zaman,***
***Əl atıb yapışdım tez yaxasından,***
***Dedim: – Dayan, Zaman, bircə an dayan!***
***Söylə, nə vaxtdan əzizlərimi***
***Həyatdan qoparıb aparacaqsan?***

* * *

***– Taleyin hökmüdür, – o dedi, – ey İnsan!***
***Gəl, bu həqiqəti unutma bir an,***
***Səndən sonra, – deyir böyük Yaradan, –***
***Vətənə, tarixə pak əməllərin,***
***Bir də bu kitabdır yadigar qalan.***

***Əziz oxucu!*** Mən 1932-ci ildə yurdumuzun ən gözəl və səfalı guşələrindən biri olan Neftçala rayonunun Aşağı Qaraymanlı kəndində (keçmiş Xıllı rayonunun) kəndli ailəsində anadan olmuşam. Özüm və ailəm haqqında danışmazdan öncə bir az Neftçala rayonu və doğulduğum kənd haqqında Sizinlə söhbət açmaq istərdim.

Neftçala rayonu ona görə gözəl və səfalı yerdir ki, onun çox da hündür olmayan dağı, dərin olmayan dərəsi, dənizi-gölü, Kürü-Arazı, geniş tarlaları, düzənlikləri, yaşıl yamacları, mehriban və qonaqpərvər, qayğıkeş və əməksevər insanları var. «Neftçala» sözü vaxtilə qazıq-qazıq edilmiş, neft sızılıb toplanmış çalaların adlarından yaranmışdır. Hələ qədim zamanlardan yerli əhali bel, kərki və digər alətlərdən istifadə edərək həmin

çalaları qazaraq neft əldə etmiş, ondan müalicə vasitəsi kimi istifadə etmiş, heyvanların yaralarını sağaltmış və həm də onu evlərdə, alaçıqlarda çıraq kimi yandırmışlar.

Neftçala rayonu Azərbaycan SSR-də inzibati rayon kimi ilk dəfə 1940-cı ildə təşkil edilmişdir. O vaxta qədər Salyan rayonunun, cəmi bir il isə 1939-cu ildə yaranan Xıllı rayonunun tərkibində olmuşdur. Neftçala rayonu sırf sənaye rayonu idi. Qonşu kəndlər isə kənd təsərrüfatı ilə məşğul olduqlarına görə Xıllı rayonunun tərkibinə aid idilər. Xıllı rayonu 1959-cu ilə kimi rayon statusunu saxladı və bu vaxtdan da ləğv edilib Neftçala rayonunun ərazisinə daxil edildi.

Neftçala rayonunun özü də 1959-cu ildən ləğv edilib Salyan rayonunun tərkibinə daxil edildi. 1973-cü ildən isə Neftçala rayonunun statusu özünə qaytarıldı və bu günə kimi həmin statusu qoruyub saxlayır.

Karamanlı kəndinin özünəməxsus tarixçəsi vardır. Belə ki, kəndin yaranma tarixi əsrimizdən çox-çox uzaqlara gedib çıxır. Qaramanlı – bu söz təkcə Azərbaycanda deyil, bütün türk dünyasında müxtəlif fonetik dəyişikliklərə məruz qalaraq şəhər, kənd, qəsəbə və şəxs adları bildirir. Qaraman, Karaman, Karamanoğlu, Karamanus, Karamanlı və s.

Elmi araşdırmalar sübut edir ki, qaramanlılar əsasən Kiçik Asiyada yaşamış türkdilli tayfadır. Onların Türkiyəyə, Azərbaycana və başqa yerlərə nə vaxt gəlmələri haqqında fikirlər müxtəlifdir. Məşhur tarixçi F.Rəşidəddin qaramanlıların Səlcuq sultanı Toğrulun (1038-1068) Anadoluya gəlib orada məskunlaşdığını göstərir. Orta Asiyada qaramanlılar köçəri heyvandarlıqla məşğul olurdular. Amurdərya ətrafındakı torpaqları tərk edərkən, yolları İrandan Azərbaycana və buradan da Türkiyəyə keçib gedirdi. İndi respublikamızın Ağsu, Ağdam, Şamaxı, Göyçay və Yevlax rayonlarında da bu adda kəndlərin olması qaramanlılarla əlaqədardır.

Ankarada nəşr olunmuş üç cildlik «Türkiyə tarixi»nin birinci cildində Karamanoğlu bəyliyi fəslində göstərilir ki, qaramanlıların ulu babaları Səlcuq türkləri olmuşdur. Qaraqoyunlu dövlətinin ilk hökmdarı Qara Yusifin (1355-1420) sərkərdəsinin adı Qaraman olduğu da məlumdur. Şifahi xalq ədəbiyyatında deyilir:



***Əslim Qaramanlıdır,***<br>
***Elim adlı-sanlıdır,***<br>
***İgid döyüşdən gəlir,***<br>
***Gözləri nə qanlıdır.***

Kür çayı Qaramanlı kəndini iki hissəyə: yuxarı və aşağı Qaramanlı kəndlərinə bölmüşdür. Yuxarı Qaramanlı kəndi çayın sol sahilində, Aşağı Qaramanlı kəndi isə çayın sağ sahilində yerləşir. Sovet hakimiyyəti illərində kəndin adı təhrif edilərək Qaraymanlı, Qaraimanlı kimi sadələşdirilmişdir. Bu da soykökümüzün bilərəkdən təhrif edilməsi demək idi.

İnqilabdan əvvəl kənddə dulusçuluq sənəti inkişaf etmişdir. Ətraf rayonların kənd və qəsəbələrində əhalinin məişətini Qaramanlı dulusçularının yaraşıqlı şirli qabları bəzəyirdi. Burada gildən bişirilən qırmızı kərpic, kirəmit materialları, nehrə, küp, bardaq, badya, kasa, kuzə, fincan və s. istehsal olunurmuş. Lakin Sovet hakimiyyəti illərində biganəlik ucbatından dulusçuluq sənəti unudulmuş, dulus kürələri, əl və ayaq çarxları sındırılıb dağıdılmışdır. Sonuncu dulusçu Ağsoltan adlı bir nəfər idi. O da zaman keçdikcə dulusçuluq sənətindən əl çəkərək kənd təsərrüfatı ilə məşğul olmağa başladı.

***İndi isə özüm və ailəm haqqında.*** Artıq qeyd etdiyim kimi, 1932-ci ildə Aşağı Qaraymanlı kəndində kəndli ailəsində anadan olmuşam. 1952-ci ildə Xıllı rayonunda orta məktəbi bitirib M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyasının) neft-mədən fakültəsinə daxil olmuşam və 1957-ci ildə həmin fakültənin qazma şöbəsini bitirərək, dağ mühəndisi ixtisasına yiyələnmişəm. 1961-ci ildə ikiillik Marksizm-Leninizm Universitetinin iqtisadiyyat fakültəsini, 1964-cü ildə isə Bakı Ali Partiya məktəbinin sənaye şöbəsini bitirmişəm. 1965-ci ildə Azərbaycan Elmlər Akademiyasının Dərin Neft-Qaz Yataqlarının İşlənilməsi Problemləri institutunun aspiranturasına daxil olmuşam. 1968-ci ildə, yəni vaxtından tez «Quyuların effektivli qazılmasına qazma rejimlərinin və bəzi texnoloji amillərin təsiri» mövzusunda dissertasiya müdafiə edərək, texnika elmləri namizədi alimlik dərəcəsinə layiq görülmüşəm.

Əmək fəaliyyətimə 1957-ci ildə Lökbatan qəsəbəsindəki

«Qaradağneft Neft Mədənləri İdarəsi»ndə başlamışam və 1970-ci ilin sentyabr ayına kimi həmin idarədə müxtəlif vəzifələrdə: qazma köməkçisi, qazmaçı, buruq ustasının köməkçisi, buruq ustası, sahə rəisi, mühəndis, böyük mühəndis, şöbə müdiri və ilk partiya təşkilatının katibi işləmişəm. Elə həmin il müsabiqədən keçərək, D.Bunyad-zadə adına Azərbaycan Xalq Təsərrüfatı institutunun «Sənayenin iqtisadiyyatı» kafedrasında baş müəllim, 1972-ci ildən 1975-ci ilədək «Sənayenin iqtisadiyyatı» fakültəsinin dekanı, 1976-cı ildən 1978-ci ilədək həmin fakültənin dekan müavini, 1978-ci ildən 1984-cü ilədək D.Bunyad-zadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun partiya komitəsinin katibi vəzifəsində çalışmışam. 1976-cı ildən 2005-ci ilin mart ayına kimi Azərbaycan Dövlət İqtisad Universitetinin «Sənayenin iqtisadiyyatı» kafedrasının dosenti, 2005-ci ilin mart ayından indiyə kimi professor vəzifəsində çalışıram. İşlədiyim müddət ərzində əmək fəaliyyəti ilə yanaşı, həm də geniş elmi-tədqiqat işləri aparmış və yaxşı nəticələr əldə etmişəm. Bu vaxta kimi 80-dən artıq elmi məqalələrim, üç monoqrafiyam, beş dərs vəsaitim və üç dərslim və digər əsərlərim vardır.

***Atam – Abdullayev Süleyman Səməd oğlu*** – 1998-ci ildə anadan olmuş və 1972-ci ildə vəfat etmişdir. ***Anam – Abdullayeva Tükəzban Məmmədhəsən qızı*** 1902-ci ildə anadan olub, 1974-cü ildə vəfat etmişdir. Onların 13 övladları olmuş və onlardan üç nəfəri – bacım Tubu, qardaşım Orucqulu və mən sağ-salamat qalaraq müəyyən ömür sürmüşük. Digərləri isə müxtəlif xəstəliklər ucbatından vaxtından tez dünyalarını dəyişmişlər.

***Mənim həyat yoldaşım – Abdullayeva (Əhməd-zadə) Nəzifə Cümşüd qızı*** 1933-cü ildə anadan olmuş, mənim kimi o da 1957-ci ildə M.Əzizbəyov adına Azərbaycan Sənaye İnstitutunun «Neft Mədən» fakültəsini, 1964-cü ildə Ali Partiya məktəbini bitirmişdir. Əmək fəaliyyətinə Lökbatanda yerləşmiş «Qaradağneft Neft Mədənləri İdarəsi»ndə başlamış və həmin rayonda 1977-ci ilədək müxtəlif vəzifələrdə – operator, usta, Qaradağ Rayon Partiya Komitəsində təşkilat şöbəsinin müdiri, rayon partiya komitəsinin katibi, həmin rayonun İcra komitəsinin sədri, 1977-ci ildən 1985-ci ilədək Azərbaycan Respublikasının Məişət Xidməti Nazirinin müavini vəzifələrində çalışmışdır. Hazırda təqaüdçüdür, kiçik nəvəsi Nəzifəni saxlayır və necə deyərlər, onunla nəfəs alır.



***Böyük qızım – Məhərrəmova Sevinc*** 1958-ci ildə anadan olmuş, Azərbaycan Dövlət Tibb Universitetini bitirmişdir. İndi 2 saylı Tibb məktəbində dərs deyir. İki övladı var: Güney və Ənvər. Güney Bakı Slavyan Universitetini bitirmiş və hazırda həmin universitetdə dərs deyir. Ənvər Bakı Maliyyə-kredit kollecini, İdman və Bədən tərbiyəsi Akademiyasını bitirmişdir. İndi idmanla məşğul olur.

***İkinci qızım Gülşən*** – 1960-cı ildə anadan olmuş, Azərbaycan Xalq Təsərrüfatı İnstitutunu fərqlənmə diplomu ilə başa vurmuşdur. Əvvəl namizədlik dissertasiyası müdafiə edərək, iqtisad elmləri namizədi, 2005-ci ildə isə doktorluq dissertasiyası müdafiə edərək, iqtisadi elmləri doktoru adına layiq görülmüşdür. Hazırda Azərbaycan Dövlət Milli Akademiyasının «İqtisad» institutunda baş elmi işçi vəzifəsində çalışır. İki övladı vardır: İsrəfil və Mədinə. İsrəfil Xəzər Universitetini Mədinə isə baba və nənəsinin, həmçinin atasının yolu ilə gedərək, Azərbaycan Dövlət Tibb Universitetini bitirmiş və indi «Neftçilər» xəstəxanasında həkim-kardioloq işləyir.

***Oğlum – Abdullayev Arzu*** 1964-cü ildə anadan olmuş, vaxtından əvvəl orta məktəbə getmiş və 19 yaşında Azərbaycan Politexnik institutunu bitirmişdir. Atasının 50 yaşında nişanlanmış, anasının 50 yaşında isə evlənmişdir, yəni ailə qurmuşdur. Hazırda Azərbaycan Tele-radio şirkətində «İnformasiya və perspektiv texnologiya idarəsi»ndə rəis vəzifəsində çalışır. İki oğlu – Zahid və Orxan, bir qızı – Nəzifə vardır. Oğulları Zahid və Orxan ali məktəbdə oxuyurlar, qızı Nəzifə isə 4-cü sinif şagirdidir. Balaca Nəzifə dilli-dilavər, gözəl və yaraşıqlı, incə və gülərüzlüdür, həddindən çox bilikli, mədəni və qayğıkeş uşaqdır. Onun belə xasiyyətlərinə görə bizim hamımız onu çox istəyir və əzizləyirik, xüsusi ilə də atası.

Demokrat demişdir: «Kimin rastına yaxşı kürəkən və gəlin çıxıbsa, o özü üçün oğul və qız qazanıb; pis kürəkən və gəlin çıxıbsa, həm qızını, həm də oğlunu itirib». Bu sahədə mən deyərdim ki, mənim və həyat yoldaşım Nəzifə xanımın bəxti gətirib, ona görə ki, hər iki kürəkənim və gəlinim işgüzar və qayğıkeş insanlardır. Onların hər üçü həyat yoldaşlarını və övladları-

nı çox istəyir, onların gələcək xoşbəxtlikləri üçün daima çalışırlar. Bundan başqa, onlar nəinki yaxşı və qayğıkeş insandırlar, eyni zamanda bir-biriləri ilə yaxşı dostdurlar. Çünki onlar gözəl başa düşürlər ki, yaxşı ailə qurmaq üçün təkcə məhəbbət kifayət deyildir. Bundan ötrü böyük dostluq da gərəkdir. Bəzən belə olur ki, gənclər bir-birilərini sevirlər, lakin möhkəm ailə qura bilmirlər. Möhkəm və mehriban ailə qurmaq üçün nəinki çalışmaq, hətta vuruşmaq, mübarizə aparmaq lazımdır. Mən indi övladlarımın ailələrinə baxdıqca fərəh hiss edirəm və deyirəm:

***Yaş niyə tez ötdü, niyə? Bilmirəm,***
***Qəlbimdən keçəni deyə bilmirəm,***
***Daha özümü də yaxşı öyə bilmirəm,***
***Yönü qocalığa dayanan ömrüm.***

* * *

***Nələrin düşmədim həvəsinə də,***
***Gah sevinc qaynadı, gah qəm sinədə,***
***Ucaldım şöhrətin zirvəsinə də,***
***Yatıb qocalanda oyanan ömrüm.***

Bəli, əziz oxucu, sözümün canı ondadır ki, insan yaşadığı dövrdə nə isə yaratmalı, xeyirxah əməllər etməli və dünyasını dəyişərkən nə isə qoyub getməlidir. Bu məqsədlə də mən daima çalışmışam və indi də çalışıram. Bəzən buna nail oluram, bəzən də nail ola bilmirəm. Hər halda bunun üçün cəhd göstərmək lazımdır. Xalq şairimiz Bəxtiyar Vahabzadə demişkən:

***Yaşamaq yanmaqdır, yanasan gərək,***
***Həyatın mənası bundadır demək,***
***Şam, əgər yanmırsa, yaşamır demək,***
***Şamın da yanması, yanmasındadır.***

**Zahid ABDULLAYEV**



# FƏSİL 1. MADDİ İSTEHSAL SAHƏLƏRİ VƏ ONLARIN AZƏRBAYCANDA TƏŞƏKKÜL FORMALARI

## 1.1. İstehsalın mahiyyəti, növləri, tərkib ünsürləri və təşkilinə edilən əsas tələblər

***İstehsal*** dedikdə, cəmiyyətin mövcud olması və inkişafı üçün zəruri olan maddi nemətlər istehsalı və xidmətlər göstərilməsi prosesi nəzərdə tutulur. İstehsal insan həyatının təbii şərti olub, digər fəaliyyət növlərinin də maddi əsasını təşkil edir. İstehsal cəmiyyətin inkişafının bütün pillələrində mövcuddur. Konkret istehsal şəraitindən asılı olaraq, istehsalın məzmununu əmək prosesi müəyyən edir və aşağıdakı üç şərti nəzərdə tutur:

***a) əmək,*** yəni insanın məqsədəuyğun fəaliyyəti; onun köməyi ilə insan şeylərə (cisimlərə) və təbiət qüvvələrinə təsir göstərib, onları tələbatını ödəyə biləcək formaya salır. Əmək – insan cəmiyyətinin həyat fəaliyyəti və inkişafının əsasıdır. ***Əməyin məzmunu*** – tətbiq edilən texnikanın, texnologiyanın və istehsalın təşkilinin növü ilə müəyyən olunur. Texniki tərəqqi nəticəsində istehsalda ağır əl əməyinin xüsusi çəkisi azalır, əqli əməyin əhəmiyyəti və payı isə artır. Əmək həmişə istehsal vasitələri üzərində mülkiyyət formasından asılı olaraq tarixən müəyyən ictimai-iqtisadi formada olur. Hazırda əməyin yaradıcı məzmununun gücləndirilməsinə, mədəniyyətinin yüksəldilməsinə, yüksək ixtisaslı və məhsuldar işin genişləndirilməsinə xüsusi fikir verilir;

***b) əmək cisimləri,*** yəni əmək prosesində bu və ya digər dəyişikliklərə məruz qalan və istehlak dəyərinə çevrilən təbiət məhsulları. Əmək cisimləri təbiətdən hazır şəkildə götürülən və ilk emaldan keçən əmək cisimlərinə bölünür. Məhsulun maddi əsasını əmələ gətirən əmək cisimləri – ***əsas materiallar***, əmək prosesinin özünə səbəb olan və ya əsas materiala yeni xassə verən əmək cisimləri isə ***yardımçı materiallar*** adlanır.

Elmi-texniki inqilab şəraitində əmək cisimlərinin təbii qıtlığı yeni, təbiətdə olmayan materiallar yaradılmasını sürətləndirir. Onlar qabaqcadan müəyyən edilən xassəyə malik olmaqla bir çox parametrlərinə görə mövcud olanlardan üstündür. Belə əmək cisimləri iqtisadiyyatın bir çox sahələrinin inkişafında

mühüm rol oynayır. Bu növ materiallara misal olaraq konstruksiya materiallarını göstərmək olar.

***Konstruksiya materiallarından*** maşın, avadanlıq və cihazlar hazırlanır, bina, körpü və digər konstruksiyaların karkasları (özülləri) qurulur və istifadə zamanı əsas ağırlıq onların üzərinə düşür. Konstruksiya materialları geniş əlamətlərə görə təsnifləşdirilir. Məsələn, ***tətbiqinə görə*** – maşınqayırmada, tikintidə və digər sahələrdə tətbiq edilən materiallara; ***əmələgəlmə təbiətinə görə*** – metal, qeyri-metal və kompozisiyalı materiallara; ***xarici təsirlərə reaksiya verməsinə görə*** – yanan, korroziyaya, istiyə və soyuğa davamlı materiallara; ***müxtəlif emal üsulları zamanı meydana çıxan xassələrinə görə*** – plastik, çətinəriyən, qaynaqedilən, çatlar əmələ gəlməsinə meylli olan, tablanan və s. materiallara; ***alınma üsullarına görə*** – ərintilər, preslənmiş, yayılmış, toxunmuş, qəliblənmiş materiallara, plyonkalara və s. ayrılır.

Konstruksiya materiallarının mühüm göstəriciləri onların möhkəmlik keyfiyyətləridir: sıxılmaya, dartılmaya müqavimətli, əyilməyə meylli, vibrasiya yükləmələrinə davamlı olması, habelə maşınlar, avadanlıqlar, tikinti qurğuları layihələşdirilərkən nəzərə alınan bir sıra xüsusi xassələrin olması. Bu xassələr arasında müəyyən möhkəmlik keyfiyyətlərinə malik olmaqla yüngüllük, aşınmaya davamlılıq, elektrik və istilikkeçirmə, qazkeçirmə qabiliyyəti və s. xassələr var. Məmulatların layihələşdirilməsi prosesində konstruksiya materiallarını seçərkən, onların texniki-iqtisadi parametrlərindən, məsələn, dəyərindən, istifadə əmsalından, hazır məhsul çıxımı əmsalından istifadə edilir.

Müasir şəraitdə məhsulun, xüsusilə maşın və avadanlıqların texniki səviyyəsinin və keyfiyyətinin əsaslı surətdə yüksəldilməsi maddi ehtiyatlara hər vasitə ilə qənaət edilməsi, ehtiyatlara qənaət edən texnologiyaların tətbiqi, konstruksiyaların etibarlılığının yüksəldilməsi, kütləsinin azaldılması məsələsi ön plana çəkildiyi vaxtda konstruksiya materiallarının keyfiyyət göstəricilərinə tələbat kəskin surətdə artmışdır. Məsələn, yüngül və eyni zamanda istiyə davamlı, həm yüksək, həm də aşağı temperaturda möhkəmliyini saxlayan, plastiki və zərbəyə yaxşı davam gətirən konstruksiya materiallarının olması zəruridir. Bu cür tələblər bir sıra yeni növ konstruksiya materiallarının mey-

2520



dana çıxmasına səbəb oldu. Alüminium, titan və xüsusilə maqnezium əsasında ərintilər perspektivli sayılır.

***c) əmək alətləri,*** yəni insanların əmək cisimlərinə təsir göstərib öz tələbatına uyğun şəklə salmaq üçün istifadə etdiyi mexaniki əmək vasitələri – maşınlar, dəzgahlar, avadanlıqlar, mühərriklər, texnoloji alət və tərtibatlardır. Bunların məcmusunu K.Marks istehsalın sümük və əzələ sistemi adlandırmışdır (bax Marks K., Kapital, c.1, B., 1969, səh. 186). Onlar əməyin texniki silahlanma ölçüsüdür, iş qüvvəsinin inkişaf meyarıdır, cəmiyyətin təbiət qüvvələrinə yiyələnmə dərəcəsi göstəricisidir. Əmək məhsuldarlığı əmək alətlərinin mövcudluğundan, tərkibindən, texniki səviyyəsindən və istifadə dərəcəsindən çox asılıdır.

Elmi-texniki inqilab şəraitində maşın-avtomat kompleksi, elektron-hesablama texnikası, rəqəmli proqramla idarə olunan dəzgahlar, çevik avtomatlaşdırılmış istehsal və digər mütərəqqi texnika kimi əmək alətlərinin əhəmiyyəti kəskin artır. Odur ki, maşınqayırma elə yüksək texniki-iqtisadi səviyyəli maşın, avadanlıq və cihazlar kompleksləri buraxmalıdır ki, onlar istehsalın texnologiyasında və təşkilində inqilabi dəyişiklikləri, əmək məhsuldarlığının qat-qat yüksəldilməsini, istehsalın material tutumunun və məhsulun enerji tutumunun azalmasını, buraxılan məhsulun keyfiyyətinin yaxşılaşdırılmasını, fondveriminin artırılmasını təmin etmiş olsun.

Avtomatlaşdırmanın müasir mərhələsi elektron hesablama texnikasındakı inqilaba, iqtisadiyyatın elektronlaşdırılmasına, robot texnikasının, rotor və rotor-konveyer xətlərinin, çevik istehsal sisteminin sürətlə inkişafına əsaslanır. Əmək alətlərində inqilabi dəyişikliklər cəmiyyətin maddi-texniki bazasının yeniləşdirilməsinin, elmi-texniki və sosial-iqtisadi tərəqqinin sürətləndirilməsinin, maşınqayırmada və iqtisadiyyatın digər sahələrində yüksək texniki səviyyəyə nail olunmasının mühüm şərtidir.

İnsanın fəaliyyəti əmək alətlərinin köməyi ilə əmək cisimlərində əvvəlcədən nəzərdə tutulan dəyişiklikləri yaradır. Başqa sözlə, məhsuldar qüvvələrin hər bir konkret inkişaf səviyyəsində əmək prosesinin (istehsalın) üç sadə anından ikisi, yəni əmək cisimləri və əmək alətləri daimi, yalnız biri – əmək dəyişəndir. Bu baxımdan əmək alətləri və əmək cisimləri istehsalın əşya, maddi ünsürü olub, məhsuldar qüvvələrin konkret in-

KITABXANASI

kişaf səviyyəsi ilə şərtlənir, insanın məqsədəuyğun fəaliyyəti və ya əməyin özü isə canlı ünsür olmaqla məhsuldar qüvvələrin konkret inkişaf səviyyəsində ictimai istehsalın səmərəliliyinə mühüm təsir göstərir.

İstehsalın iki növünü: maddi və qeyri-maddi növlərini fərqləndirirlər. Maddi istehsalın əsas meyarı əmək vasitələrinin köməyi ilə təbiət cisimlərinə təsir göstərməsidir. ***Maddi istehsal sahəsində*** insanlar maddi nemətləri təklikdə, təcrid olunmuş şəkildə istehsal etmirlər. Onlar maddi nemətləri birlikdə istehsal edir və bu zaman müəyyən istehsal münasibətlərinə girirlər. Buna görə də maddi nemətlər istehsalı həmişə ictimai istehsaldır. Maddi istehsal sahəsində məcmu ictimai məhsul və milli gəlir yaradılır. Maddi istehsal sahələrində sərf edilən əmək maddi nemətlərdə – istehsal vasitələrində, yaxud istehlak mallarında maddiləşir. Maddi istehsal sahəsinə sənaye, kənd təsərrüfatı, tikinti, yük nəqliyyatı, istehsala xidmət edən rabitə, habelə istehsalın gedişini davam etdirdikdə və maddi nemətləri istehlakçılara çatdırmaqda iştirak edən ticarət, ictimai iaşə, maddi-texniki təchizat və s. aiddir.

Beləliklə, ***maddi istehsal*** – insan fəaliyyətinin həlledici sahəsidir; maddi rifahın artması və ölkənin müdafiəsinin möhkəmləndirilməsi imkanı onun inkişafından asılıdır. Odur ki, hazırda təsərrüfat mexanizminin, investisiya və struktur siyasətinin, elmi-texniki tərəqqinin sürətləndirilməsi sahəsində həyata keçirilən kompleks tədbirlər ilk növbədə maddi istehsal sahəsinin hərtərəfli inkişafına və təkmilləşdirilməsinə yönəldilmişdir.

Maddi istehsalın qeyri-maddi istehsal sahəsindən fərqləndirici meyarı, birincisi, insanın təbiət maddələrinə təsirilə, ikincisi, dəyişdirici təsirilə müəyyən olunur. Üçüncüsü, bu, insanların elə bir əmək fəaliyyəti formasıdır ki, onların bütün fəaliyyətinin, qeyri-maddi istehsal fəaliyyəti də daxil olmaqla, maddi əsasını təşkil etməklə həyata keçirilir. Bu üç fərqləndirici xüsusiyyət birlikdə maddi istehsalın mahiyyətini və onun bütün digər fəaliyyət növlərindən, eynilə insanın mənəvi fəaliyyətindən fərqini göstərir.

Maddi istehsalın mahiyyəti insanla təbiət arasında baş verən maddələr mübadiləsi ilə xarakterizə olunur və bu zaman əmək cismi kimi təbiət əşyaları və qüvvələri çıxış edir, təbiətə dəyişdirici təsir isə əmək vasitələri ilə həyata keçirilir. Deməli, maddi istehsalın insanın fəaliyyət növlərindən fərqi əmək prosesinin mahiyyəti və onun üç şərti (əmək, əmək cismi, əmək vasitəsi) ilə müəyyən olunur. İnsanla təbiət arasında bilavasitə maddələr mübadiləsini təmin etməyən bütün digər fəaliyyət növləri maddi istehsal sahəsindən kənarda qalır və birlikdə qeyri-maddi istehsal sahəsini təşkil edir.



Beləliklə, ***qeyri-maddi istehsal sahəsinin*** fəaliyyəti maddi istehsaldan fərqli olaraq, təbiətin maddəsi və qüvvələrinə dəyişdirici təsirlə əlaqədar deyil, bilavasitə əmək vasitələri yaradılması ilə səciyyələnmir və insanla təbiət arasında maddələr mübadiləsi kimi çıxış etmir. Onun təsir obyekti insan, insanın həyat və fəaliyyətinin sosial şərtləri, habelə ictimai orqanizm olan cəmiyyətdir.

Qeyri-maddi istehsal sahəsindəki fəaliyyət bilavasitə ya maddi dünyanı insan başında əks etdirən (məsələn, elmi biliklər, incəsənət əsərləri və s. şəkildə) mənəvi nemətlər yaradır, ya da əmək prosesinin özündə istifadə olunan faydalı səmərə formasında xidmət göstərən fəaliyyət kimi çıxış edir. Qeyri-maddi istehsal sahəsində əmək fəaliyyəti spesifik istehlak dəyərləri – xidmətlər yaradır və reallaşdırır.

Məlumat üçün qeyd edək ki, qeyri-maddi istehsal əmək fəaliyyətinin bir çox sahələrində əməyin nəticələri olan maddi əşyalar: kitab, heykəl, rəsm və s. şəklində mövcuddur. Lakin bu, məsələnin mahiyyətini dəyişdirmir, belə ki, maddi vasitələrlə təbiətə təsir göstərmək qeyri-maddi istehsal əmək fəaliyyətinin mahiyyətini təşkil etmir. Bu fəaliyyət özündə ideal olmaqla, əşyalar deyil, ideyalar yaratmaqla xarakterizə olunur. Yazıçıların, heykəltəraşların, rəssamların ideyalarını onların öz əməyi deyil, maddi istehsal sahələrindəki əmək maddiləşdirir, incəsənət əsərlərinin sayını artırmaqla onu maddi istehsal məhsuluna çevirir.

Qeyri-maddi istehsal sahələrində yaradılan xidmətlərin müxtəlifliyinə baxmayaraq, onlar arasında bir ümumilik var ki, bu onları bir sahə daxilində birləşdirir və maddi istehsaldan aşağıdakı xüsusiyyətlərinə görə fərqləndirir:

a) qeyri-maddi istehsal sahələrinin fəaliyyəti, ilk növbədə, insan amilinin formalaşmasına şərait yaradır. Odur ki, bu sahə-

lərin inkişafı əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və insanların mənəvi inkişafına bilavasitə təsir göstərir;

b) qeyri-maddi istehsal sahələrində əmək prosesi maddi istehsala nisbətən yaradıcı, yüksək intellektual xarakter daşıyır, yəni burada canlı əmək böyük rol oynayır. Ona görə də qeyri-maddi istehsal sahələrində canlı əməyin maddiləşmiş əməklə əvəz olunması, onun mexanikləşdirilməsi və avtomatlaşdırılması üçün geniş imkanlar yoxdur. Bu o deməkdir ki, qeyri-maddi istehsal sahələrinin inkişafı, əsasən, əmək resursları hesabına həyata keçirilir;

c) qeyri-maddi istehsal sahələri maddi istehsal sahələrinə nisbətən daha əmək tutumludur. Bununla belə, xidmətlərin yaradılmasında maddi resursların əhəmiyyəti getdikcə artır. Bu, öz əksini qeyri-maddi istehsal sahələrinin fondtutumunun, məsrəflərin ümumi həcminin quruluşunda maddi xərclərin və qeyri-maddi istehsal fondlarının tərkibində onun aktiv hissəsinin xüsusi çəkisinin artmasında büruzə verir;

ç) bəzi qeyri-maddi istehsal sahələrində xidmətlərin istehsalı və istehlakı məkan və zaman ərzində üst-üstə düşmür, deməli, qeyri-maddi istehsal sahələrində çalışan işçilərin əməklərinin nəticələrini bir yerdən digər yerə daşımaq və yığıb saxlamaq mümkün deyil. Odur ki, maddi istehsala nisbətən qeyri-maddi istehsal sahəsi daha çox regional amillərdən asılıdır və xidmət bazarı, əsasən yerli, lokal xarakter daşıyır;

d) qeyri-maddi istehsal sahələrində əməyin nəticələri maddi istehsal sahələrindən fərqli olaraq, ancaq şəxsi və qeyri-maddi istehsal təyinatlı ictimai istehlakı ödəyir. Bu baxımdan, maddi istehsala nisbətən qeyri-maddi istehsal sahəsi həmişə istehlak sahəsi kimi çıxış edir və burada əmək vasitələri kimi uzun müddət istifadə edilən istehlak malları öz dəyərlərini istehsal olunan poliqrafiya məhsullarının üzərinə keçirmir;

e) qeyri-maddi istehsalın əksər sahələrinə, məsələn, təhsilə, səhiyyəyə, mədəniyyətə və s.-yə ictimai nemətlər yaradan sahə, bazar mexanizminin mövcudluğu, büdcə maliyyələşdirilməsi və normativ iqtisadiyyat kimi baxmaq olar. Maddi istehsal sahələrinin məhsullarından fərqli olaraq, qeyri-maddi istehsal sahələrinin məhsulları bölünməzliyi, birgə istehlak edilməsi, yüksək sosial əhəmiyyət kəsb etməsi, ictimai-dövlət mülkiyyəti



və dövlət maliyyələşdirilməsi formasının üstünlük təşkil etməsi ilə fərqlənirlər. İctimai nemətlərin bölünməzliyi ayrı-ayrı şəxslər tərəfindən onların fərdi formada istehlakını mümkün etmir. Bu nemətlərin istehlakı cəmiyyətin bütün üzvlərinə şamil edilir və bir qayda olaraq, ictimai, birgə formada həyata keçirilir. Dünyanın bir çox ölkələrində ictimai nemətlər dövlət tərəfindən maliyyələşdirilir. Bu o deməkdir ki, qeyri-maddi istehsal sahəsinin məhsullarının, xidmətlərinin müəyyən hissəsi bazar mexanizmindən kənarda qalır.

ə) qeyri-maddi istehsal sahələrində tətbiq edilən əmək dəyər yaratmır və bu sahədə istifadə edilən maddi vəsaitlərin dəyəri əməyin nəticələrinin üzərinə keçirilmir. Lakin, bazar şəraitində qeyri-maddi istehsal sahələrindəki xidmətlər dəyər, pul forması alır. Xidmətlərin dəyəri olmadan dəyər (qiymət) forması alması yeganə hal deyil. Belə ki, real həyatda dəyəri olmayan şeylər də dəyər, qiymət forması alır. Məsələn, torpaq, qiymətli kağızlar, təbiət nemətlərinin dəyəri olmasa da qiyməti var.

İqtisadiyyatın sosial inkişaf istiqamətinin gücləndirildiyi şəraitdə ictimai tələbatın ödənilməsində qeyri-maddi istehsal sahələrinin rolu xeyli yüksəlir. İctimai istehsalın inkişafı xeyli dərəcədə iqtisadiyyatın, elm və mədəniyyətin təşkili və idarə edilməsindən, maddi istehsala xidmətdən asılıdır. Həm əhalinin tələbatının ödənilməsinin və həm də istehsalın inkişafı üçün mənzil-kommunal təsərrüfatının, səhiyyənin, maarifin, idmanın və digər sosialyönümlü tədbirlərin böyük əhəmiyyəti vardır. Odur ki, son illərdə iqtisadiyyatda məşğul olanların ümumi tərkibində qeyri-maddi istehsal sahələrində çalışan işçilərin sayı tədricən artır. Bunu cədvəl 1-də verilmiş məlumatlar da sübut edir.

İstehsalın iki tərəfi var: məhsuldar qüvvələr və istehsal münasibətləri. ***Məhsuldar qüvvələr*** – istehsal vasitələri və onları öz əmək vərdişi, istehsalat təcrübəsi və biliyi sahəsində hərəkətə gətirib maddi nemətlər istehsal edən insanlardır. İstehsal vasitələrinə əmək vasitələri və əmək cisimləri aiddir. İnsan onların köməyi ilə öz tələbatını ödəmək üçün əmək cisimlərinə təsir göstərir. Əmək vasitələrinə aiddir: torpaq, istehsalat binaları, qurğular, şose və dəmir yolları, kanallar. Əmək vasitələri içərisində əmək alətləri xüsusi yer tutur. Çünki onla-

Cədvəl 1

**Məşğul olan əhalinin iqtisadiyyatın fəaliyyət sahələri üzrə bölgüsü, yekuna görə %-lə**

| İllər | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | Maddi istehsal sahəsi | Qeyri-maddi istehsal sahəsi |
| 1990 | 100,0 | 72,5 | 27,5 |
| 1995 | 100,0 | 70,2 | 29,8 |
| 2000 | 100,0 | 68,1 | 31,9 |
| 2001 | 100,0 | 67,9 | 32,1 |
| 2002 | 100,0 | 67,5 | 32,5 |
| 2003 | 100,0 | 67,3 | 32,7 |
| 2004 | 100,0 | 67,1 | 32,9 |
| 2005 | 100,0 | 66,7 | 33,3 |

rın köməyi ilə əmək cisimlərinə bilavasitə təsir göstərilir. Əmək alətlərinə maşınlar, dəzgahlar, avadanlıqlar, mühərriklər, alətlər və s. daxildir. İstehsal vasitələrinin daim təkmilləşdirilməsi məhsuldar qüvvələrin inkişafının mühüm amilidir. Məhsuldar qüvvələrin müasir inkişaf mərhələsi üçün yüksək məhsuldar maşın-avtomatların, robototexnika komplekslərinin, rotor və rotor-konveyer xətlərinin, qabaqcıl texnologiyanın – elektron-şüa, plazma və s.-nin tətbiqi səciyyəvidir. Məhsuldar qüvvələr müəyyən sosial-iqtisadi formada inkişaf edir. Bu forma işçilərin istehsal vasitələri ilə birləşməsi üsulunu xarakterizə edən istehsal münasibətlərinin tipi ilə şərtləndirilir.

***İstehsal münasibətləri*** – maddi nemətlər istehsalı, bölgüsü, mübadiləsi və istehlakı prosesində insanlar (siniflər, sosial-qruplar, kollektivlər və s.) arasındakı ictimai münasibətlərdir; cəmiyyətin iqtisadi bazisidir. Deməli, istehsal münasibətlərinə daxildir: istehsal vasitələri üzərində mülkiyyət formaları, siniflər, ictimai qrupların istehsaldakı mövqeyi, onların qarşılıqlı münasibətləri və məhsulların bölgüsü formaları. Məhsuldar qüvvələrin həlledici təsiri altında inkişaf etməklə onlara fəal əks təsir göstərir, elmi-texniki tərəqqini, iqtisadiyyatın səmərəliliyinin artırılmasını sürətləndirə və ya ləngidə bilər. İstehsal münasibəti iki formada çıxış edir: birincisi, ***təşkilati-istehsal münasibətləri*** məhsuldar qüvvələrin təşkilini və xarakterini, istehsalın ixtisaslaşmasını, kooperativləşməsini və təmərküzləşməsini xarakterizə edir; ikincisi, ***ictimai-istehsal münasibətləri*** isə istehsal vasitələrinin ictimai mənimsənilməsi forması və xarakteri ilə müəyyən olunan insanlar arasındakı münasibətləri ifadə edir və hər bir istehsal üsulu üçün səciyyəvidir.



İstehsal münasibətlərinin məhsuldar qüvvələrin inkişafına uyğunluğu ictimai istehsalın dönmədən və səmərəli inkişafının zəruri şərtidir. Odur ki, elə etmək lazımdır ki, istehsal münasibətləri məhsuldar qüvvələrin keyfiyyətcə təzələnməsi meylinə və səviyyəsinə, həmçinin dərinləşən elmi-texniki inqilabın tələblərinə uyğunlaşdırılsın, iqtisadiyyatın intensiv inkişaf yoluna keçirilməsi və ictimai istehsalın səmərəliliyinin yüksəldilməsi üçün geniş imkan yaradılsın.

Sənaye müəssisələrində material-enerji, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə olunmasında istehsalın düzgün təşkili müstəsna rol oynayır. Belə ki, sənaye müəssisələrində istehsal düzgün təşkil edilərsə, onda müəssisə nəinki ən az xərclə daha çox məhsul istehsal etmiş olar, eyni zamanda istehsal vaxtı və tsikli qısalar, istehsal tullantılarının və zay məhsulların miqdarı xeyli azalar, növbədaxili və növbələrarası boşdayanma halları minimuma endirilər, yaxud da tamamilə aradan qaldırılar. İstehsal aparatından və elmi-texniki potensialdan daha dolğun istifadə olunar ki, bütün bunların da əsasında əmək məhsuldarlığı artar, məhsulun keyfiyyəti yüksələr və maya dəyəri aşağı düşər. Bunlar isə istehsalın səmərəliyinin yüksəldilməsinin əsas amillərindəndir.

***İstehsalın təşkili*** – konkret sosial-iqtisadi şəraitdə canlı əməyin istehsalın maddi ünsürləri ilə səmərəli əlaqələndirilməsinə yönəldilmiş kompleks tədbirləri əhatə edir. İstehsalın təşkili mövcud ehtiyatlardan daha səmərəli istifadə etməklə müəssisənin sosial-iqtisadi inkişafını və sifarişlərin (tapşırıqların, müqavilələrin) vaxtında yerinə yetirilməsini təmin etməlidir.

Xalq təsərrüfatı, sənaye və müəssisə səviyyələrində istehsalın təşkilini fərqləndirirlər. ***Xalq təsərrüfatı miqyasında*** istehsalın təşkili səmərəli sahə strukturunun seçilməsi respublikanın regionlarının proporsional inkişafını tələb edir. ***Sənaye səviyyəsində*** istehsalın təşkili onun təmərküzləşdirilməsində, sənaye müəssisələrinin səmərəli ölçüsünün müəyyən edilməsində və

seçilməsində, onların ixtisaslaşdırılmasında, kooperativləşdirilməsində, kombinələşdirilməsində və ərazicə yerləşdirilməsində təzahür edir. ***Müəssisə miqyasında*** istehsalın təşkili isə məkan, zaman və funksional aspektlərdə həyata keçirilir. Funksional aspekt istehsal proseslərinin müxtəlif mərhələlərində qarşılıqlı əlaqələrin yaradılmasını, məkan aspekti – müəssisə və istehsal bölmələrində həyata keçirilən istehsal proseslərinin məkan etibarilə, zaman aspekti isə həmin proseslərin vaxt etibarilə bir-birilərinə uyğunluğunu nəzərdə tutur. Lakin, buna baxmayaraq, bütün hallarda istehsalın səmərəli təşkili aşağıdakı əsas prinsiplərin gözlənilməsini tələb edir:

***Mütənasiblik prinsipi*** – müəssisənin sex, istehsal sahəsi və iş yerləri üzrə məhsul buraxılışının uyğunlaşmasını nəzərdə tutur. İstehsalın mütənasibliyinin təmin edilməsi – onun «dar, zəif» yerlərinin aradan qaldırılması və beləliklə də, müəssisənin (sexin, istehsal sahəsinin və ayrı-ayrı iş yerlərinin) mövcud istehsal gücündən (məhsul buraxma qabiliyyətindən) tam istifadə olunması deməkdir. İstehsalın mütənasibliyini müəyyən etmək üçün mütənasiblik əmsalından istifadə edilir. Bu əmsalı hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$Ə_{müt} = t_{ə.t.} : (t_{fay} \times F_{əm}),$$

burada $t_{ə.t.}$ – yerinə yetirilən əməliyyatın əmək tutumu, *saat*; $t_{fay.}$ – fəhlənin illik faydalı iş vaxtı fondu, *saat*; $F_{əm.}$ – əməliyyatı yerinə yetirən fəhlələrin sayıdır, *nəfər*.

Tutaq ki, maşınqayırma zavodunun yığma sexində yerinə yetiriləcək bütün əməliyyatların ümumi əmək tutumu ($t_{ə.t.}$) 700 saat, bir fəhlənin gündəlik faydalı iş vaxtı fondu ($t_{fay.}$) 8 saat və bütün əməliyyatların yerinə yetirilməsi ilə məşğul olan fəhlələrin sayı ($F_{əm.}$) 90 nəfərdir. Bu o deməkdir ki, verilmiş şərtlər daxilində istehsalın mütənasiblik əmsalı 0,9-a [700:(8×90)] bərabər olacaqdır.

***Fasiləsizlik prinsipi*** – istehsal vaxtının qısaldılmasının və deməli, onun səmərəliliyinin yüksəldilməsinin ən mühüm şərtlərindən biridir. İstehsalın fasiləsizliyi prinsipi onun elə təşkilini nəzərdə tutur ki, bu zaman təşkilati-texniki səbəblər üzündən texnoloji avadanlıqların və digər texniki vasitələrin boşdayanma halları olmasın, bütün iş vaxtı ərzində normal iş rejimi təmin edilsin, avadanlığın işinin növbəlik əmsalı artırılsın. İstehsalın



fasiləsizliyini müəyyən etmək məqsədilə fasiləsizlik əmsalından istifadə edilir ki, bunu da hesablamaq üçün növbə ərzindəki fasilə vaxtını ($t_{fas}$), həmin növbənin faydalı iş vaxtı fondunun kəmiyyətinə ($t_{növ}$) bölüb, alınan kəmiyyəti vahiddən çıxmaq lazımdır, yəni:

$$Ə_{fas} = 1 - (t_{fas} - t_{növ}).$$

Fərz edək ki, maşınqayırma zavodunun mexaniki-emal sexində iş növbəsinin uzunluğu 420 dəqiqə ($t_{növ}$) və növbə ərzində 55 dəqiqə fasilə ($t_{fas}$) olmuşdur. Verilmiş şərtlər daxilində istehsalın fasiləsizlik əmsalı 0,87-yə [1 – (55 : 420)] bərabər olacaqdır.

***Ahəngdarlıq prinsipi*** – dövrlər (ay, ongün, gün və saat) üzrə bərabər, yaxud artan ölçüdə (əgər belə bir artım planda nəzərdə tutulmuşdursa) məhsul buraxılışını nəzərdə tutur. İstehsalın qeyri-ahəngdarlığı müəssisənin mövcud istehsal gücündən, maddi-enerji və əmək ehtiyatlarından istifadəni pisləşdirir, məhsulun keyfiyyətinə mənfi təsir göstərir. İstehsalın ahəngdarlığını müəyyən etmək məqsədilə ahəngdarlıq əmsalından istifadə edilir. Bu əmsalı təyin etmək üçün ongünlüklər üzrə buraxılan məhsulun həcmini bütövlükdə ay üzrə məhsul buraxılışının həcminə bölmək lazımdır. Ahəngdarlıq əmsalını nəinki ongünlüklər, həmçinin eyni qayda ilə günlük, növbəlik və saatlıq üzrə də hesablamaq məqsədəuyğundur.

Tutaq ki, cari ildə maşınqayırma zavodunun mexaniki-emal sexində bir ay ərzində 315 min ədəd hissə ($N_{his}$) hazırlanması nəzərdə tutulmuşdur ki, ondan da 1-ci ongünlükdə – 100 min ədəd, 2-ci ongünlükdə – 105 min ədəd və 3-cü ongünlükdə isə – 110 min ədəd istehsal ediləcəkdir. Verilmiş şərtlərə görə mexaniki-emal sexində ayrı-ayrı ongünlüklər üzrə hissə buraxılışı həcminin faizlə ifadəsi aşağıdakı kimi olacaqdır:

*1-ci ongünlükdə:* Ə = 100 : 315 = 31,8%
*2-ci ongünlükdə:* Ə = 105 : 315 = 33,3%
*3-cü ongünlükdə:* Ə = 110 : 315 = 34,9%

***N ə t i c ə.*** Hesablamalar göstərir ki, maşınqayırma zavodunun mexaniki-emal sexi ay ərzində ahəngdar işləmişdir, çünki ayrı-ayrı ongünlüklər üzrə buraxılan hissələrin xüsusi çəkisi təqribən eyni səviyyədədir.

Fərz edək ki, cari ildə maşınqayırma zavodunun mexaniki-emal sexində yerinə yetiriləcək işlərin həcmi ($Q_{il}$) 100 mln.

manat müəyyən edilmiş və faktiki olaraq həmin işin həcmi ($Q_{fak}$) 80 mln. manat olmuşdur, yəni plandan kənarlaşma ($Q_{kən}$) 20 mln. manat təşkil etmişdir. Verilmiş şərtlərə əsasən mexaniki-emal sexində istehsalın təşkilinin birqərarlılıq əmsalı aşağıdakı kimi təyin edilir:

$$Ə_r = Q_{fak} : Q_{il} = 80 : 100 = 0{,}8$$

və ya:

$$Ə_r = 1 - (Q_{kən} : Q_{il}) = 1 - (20 : 100) = 0{,}8.$$

**N ə t i c ə.** Hesablama göstərir ki, maşınqayırma zavodunun mexaniki-emal sexində məhsul buraxılışının birqərarlılıq əmsalı 0,8-ə bərabərdir. Bu o deməkdir ki, sex birqərarda işləmişdir, çünki birqərarlılıq əmsalı vahidə yaxınlaşarsa, onda istehsal birqərarda (bizim misalda olduğu kimi) həyata keçirilmiş olur və yaxud da əksinə.

***Paralellik prinsipi*** – istehsal prosesinin bütün mərhələləri üzrə ayrı-ayrı əməliyyatların eyni vaxtda, yəni paralel surətdə yerinə yetirilməsi ilə xarakterizə olunur. İstehsal prosesinin paralelliyi eyni vaxtda həyata keçirilən əməliyyatların sayını artırır ki, bu da istehsal vaxtının və tsiklinin qısaldılmasına səbəb olur. İstehsalın paralelliyini müəyyən etmək məqsədilə paralellik əmsalından istifadə edilir və onu hesablamaq üçün paralel surətdə həyata keçirilən əməliyyatların sayını ($N_{ə.p.}$), ümumi əməliyyatların sayına ($N_{üm.}$) bölmək lazımdır, yəni:

$$Ə_{par} = N_{ə.p.} : N_{üm.}$$

Tutaq ki, maşınqayırma zavodunun yığma sexində 100 əməliyyat ($N_{əm}$) yerinə yetirilir ki, ondan da 50-si paralel surətdə ($N_{par}$) həyata keçirilir. Verilmiş şərtlər daxilində maşınqayırma zavodunun yığma sexində istehsalın təşkilinin paralellik əmsalı 0,5-ə (50:100) bərabər olacaqdır.

***Düzxətlilik prinsipi*** – elə bir istehsalın təşkilini nəzərdə tutur ki, bu halda aralıq həlqələr aradan qaldırılır və istehsal prosesində əmək cisimlərinin ən qısa hərəkət yolu təmin edilir. İstehsalın təşkilinin düzxətliliyini müəyyən etmək üçün düzxətlilik əmsalından istifadə edilir. Bu əmsalı hesablamaq üçün əməliyyatın yerinə yetirilməsinin ən qısa hərəkət yoluna sərf olunan vaxtı ($t_{qısa}$), həmin əməliyyatın faktiki hərəkət yoluna sərf olunan vaxta ($t_{fak.}$) bölmək lazımdır, yəni:

$$Ə_{düz.} = t_{qısa} : t_{fak.}$$



Fərz edək ki, istehsal prosesində plan üzrə əmək cisimlərinin ən qısa hərəkət vaxtı ($t_{qısa}$) 48 dəqiqə müəyyən edilmiş, faktiki olaraq ($t_{fak.}$) 56 dəqiqə olmuşdur. Verilmiş şərtlər daxilində istehsalın təşkilinin düzxətlilik əmsalı 0,86-ya (48:56) bərabər olacaqdır.

***Avtomatiklik prinsipi*** – bütövlükdə istehsalın iqtisadi cəhətdən məqsədəuyğun avtomatlaşdırılmasını nəzərdə tutur. Bu zaman istehsal prosesləri (əməliyyatlar) işçinin iştirakı olmadan avtomatlaşdırılmış mexanizmlər vasitəsilə həyata keçirilir. İstehsalın təşkilinin avtomatiklik səviyyəsi avtomatiklik əmsalı ilə xarakterizə olunur və avtomatik mexanizmlərin köməyi ilə yerinə yetirilən əməliyyatların ($N_{a.ə.}$) ümumi əməliyyatlara (Nüm) olan nisbəti kimi müəyyən edilir, yəni:

$$Ə_{avt.} = N_{a.ə.} : N_{üm.}$$

Tutaq ki, maşınqayırma zavodunun yığma sexində 100 əməliyyat yerinə yetiriləcəkdir ki, ondan da 50-si avtomat mexanizmlərin köməyi ilə həyata keçiriləcəkdir. Verilmiş şərtlər daxilində istehsalın təşkilinin avtomatiklik əmsalı 0,5-ə (50:100) bərabər olacaqdır.

***İxtisaslaşdırma prinsipi*** – icraçıların iş funksiyalarının ixtisaslaşdırılmasını nəzərdə tutur. Bu, əmək bölgüsü və əmək kooperasiyasının hüdudunun dəqiq müəyyənləşdirilməsi nəticəsində əldə edilir. İstehsalın ixtisaslaşdırılması səviyyəsini müəyyən etmək üçün ixtisaslaşma əmsalından istifadə edilir. Bu əmsalı müəyyən edərkən verilmiş əməliyyatların yerinə yetirilməsində iştirak edən fəhlələrin sayını ($F_{əm.}$), həmin fəhlələrin yerinə yetirdikləri əməliyyatların miqdarına ($N_{əm.}$) bölmək lazımdır, yəni:

$$Ə_{ixt.} = F_{əm.} : N_{əm.}$$

Fərz edək ki, cari ildə maşınqayırma zavodunun yığma sexində 10 əməliyyat ($N_{əm.}$) yerinə yetirilir və həmin əməliyyatların yerinə yetirilməsində 5 nəfər fəhlə ($F_{əm.}$) iştirak edir. Bu o deməkdir ki, verilmiş şərtlər daxilində istehsalın ixtisaslaşdırılması səviyyəsi 0,5-ə (5:10) bərabərdir.

Məlumdur ki, hər bir müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin formalaşdırılmasının əsasını maddi nemətlər istehsalı təşkil edir. ***İstehsal*** – ilk növbədə insanla təbiət arasında qarşılıqlı təsir, insanın maddi nemətlərə olan tələbatını ödəmək na-

minə bu nemətləri istehsal etməyə yönəldilmiş məqsədəuyğun fəaliyyət prosesidir. Müəssisə miqyasında istehsalın təşkili, əsasən, aşağıdakı üç aspektdə həyata keçirilir:

***a) funksional aspektdə istehsalın təşkili*** – onun ayrı-ayrı mərhələlərində qarşılıqlı istehsal əlaqələrinin yaradılmasını nəzərdə tutur. Bu növ istehsalın təşkili, onun bütün tərəflərini əhatə edir və odur ki, bu aspekt əsas təşkil edir;

***b) məkan aspektdə istehsalın təşkili*** – müəssisənin struktur bölmələrində həyata keçirilən bütün əməliyyatların (proseslərin) məkan etibarilə bir-birilərinə müvafiq olaraq yerinə yetirilməsini nəzərdə tutur;

***c) zaman aspektdə istehsalın təşkili*** – müəssisənin bütün struktur bölmələrində yerinə yetiriləcək proseslərin eyni vaxt müddətində həyata keçirilməsini tələb edir. İstehsalın belə təşkili nəinki bütövlükdə müəssisənin, eyni zamanda onun bütün struktur bölmələrinin bir qərarda, ahəngdar işləməsini təmin edir, məhsulun hazırlanmasında istifadə edilən texnoloji maşın və avadanlıqların boşdayanma hallarını aradan qaldırır, onların tam yüklənməsinə şərait yaradır və s.

Maddi istehsalın əsasını istehsal prosesi təşkil edir. İstehsal prosesi müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin əsasını təşkil edir və müəyyən maddi nemətlərin təkrar istehsalı ilə səciyyələnir. İstehsal prosesində insanlar əmək alətləri ilə əmək cisimlərinə təsir edərək, onda əvvəlcədən düşünülmüş keyfiyyət, bəzi hallarda isə kəmiyyət dəyişiklikləri əmələ gətirir, yəni onu müəyyən əmək məhsuluna çevirir. İnsanın bu fəaliyyəti nəticəsində əmək cismi bir sıra dəyişilmə mərhələlərindən keçir. Texnoloji cəhətdən yekcins və bitmiş hər bir belə mərhələ bütöv bir istehsal prosesinin müəyyən hissəsidir. Məsələn, maşınqayırma zavodlarında əksər hissələrin (komplektləşdirici məmulatların) istehsalı hazırlıq, emaletmə və yığma mərhələlərini keçir.

İnsanlar öz tələbatlarını ödəmək üçün daima təbiətlə təmasda olmuş, ona təsir etmiş və ondan öz məqsədlərinə görə istifadə etmişlər. Ancaq fərq bunun necə və hansı üsullarla əldə edilməsindədir. Bu onu göstərir ki, əmək həmişə cəmiyyətin həyatında əsas rol oynamış və daima oynayacaqdır. İnsanın əmək fəaliyyəti istehsal prosesi ilə, habelə təkrar istehsalın ayrı-ayrı



fazaları – istehsal, bölgü, mübadilə və istehlakla əlaqədardır. Beləliklə, istehsal prosesi, tələbatı ödəmək üçün istehsal vasitələrindən istifadə etməklə, maddi nemətlər istehsalı üzrə insanların fəaliyyətidir. Özü də təbiət cisimlərinin dəyişdirilməsində insan əmək alətlərindən məqsədəuyğun şəkildə istifadə edir. Bu baxımdan əmək – insanın məqsədəuyğun fəaliyyətidir.

Beləliklə, ***istehsal prosesi dedikdə, bir-birilə qarşılıqlı surətdə əlaqədar olan və məhsulun hazırlanmasının texnoloji hazırlığı üzrə aparılan müxtəlif əməliyyatların məcmusu nəzərdə tutulur.*** İstehsal prosesində əməliyyatlar istehsalın əsas ünsürləri ilə həm məkan, həm də zaman etibarilə elə əlaqələndirilməlidir ki, istehsal vasitələrindən səmərəli istifadə olunsun. Bu əlaqələndirməni təmin edən üsulların məcmusu ***istehsal prosesinin təşkili*** adlanır. İstehsal prosesinin təşkili səviyyəsi yüksəldikcə, müəssisənin istehsal aparatından daha səmərəli istifadə olunur, elmi-texniki tərəqqi və ictimai istehsalın effektivliyinin yüksəldilməsi məsələləri daha müvəffəqiyyətlə həll olunur.

Ümumi şəkildə istehsal prosesi iki hissədən: əmək və təbii proseslərdən ibarətdir. Əmək prosesi təbii prosesə nisbətən əsas təşkil edir. ***Əmək prosesi*** mürəkkəb ictimai və iqtisadi hadisə olub, yeni istehlak dəyəri yaratmaq məqsədilə əməyin daşıyıcısı kimi çıxış edən işçi qüvvəsinin və istehsal proseslərinin birləşdirilməsi və istehlakı prosesidir. Əmək prosesi fizioloji və ictimai mahiyyətə malikdir. O, bir tərəfdən insanın təbiət cisimlərinə təsir edərək, onu özünün tələbatına uyğunlaşdırılması prosesidir. İnsan təbiət cisimlərinə təsir edərkən fiziki və zehni əmək sərf edir. Bu vəziyyət əmək prosesinin fizioloji tərəfini səciyyələndirir. Digər tərəfdən, əmək prosesində insanlar əmək alətlərinin vasitəsilə əmək cisimlərinə təsir göstərərkən bir-biriləri ilə müəyyən münasibətdə olurlar. Bu baxımdan, əmək prosesi ictimai mahiyyət kəsb edir. Beləliklə, əmək prosesi insanın əmək cisimlərinə təsiri prosesi baxımından konkret iş yerində hər hansı bir tapşırığı icra edən işçilərin məqsədəuyğun fəaliyyətinin məcmusudur. Bu mənada «əmək prosesi» anlayışı «istehsal prosesi» anlayışına nisbətən daha dar anlayışdır.

Bundan başqa, istehsal prosesində əmək cisimlərinə yalnız insanlar təsir göstərmir, bir sıra hallarda onlar əmək proseslə-

rindən kənarda, yəni insanın iştirakı olmadan ***təbii proseslərin*** təsiri altında olur. Məsələn, çörəkbişirmə zavodlarında xəmirin təbii acıması (qıcqırması), taxta-şalbanın və rəngin günəş şüası altında təbii surətdə quruması prosesi və s. Lakin istehsal prosesinin tərkibində təbii proseslərin xüsusi çəkisi elmi-texniki tərəqqinin təsiri altında, yəni mütərəqqi texnoloji proseslərin tətbiqi nəticəsində getdikcə azalır və yaxud tamamilə yeni mütərəqqi süni proseslərlə əvəz olunur. Məsələn, taxta-şalbanın, süxurun və s. xüsusi qızdırıcı peçlərdə qurudulması təbii proseslərin tamamilə aradan qaldırılmasına imkan verir.

Elmi-texniki tərəqqi əmək proseslərinin də xüsusi çəkisinin azalmasına səbəb olur, çünki o, insan fəaliyyətinin xarakterini dəyişir, yəni istehsal proseslərinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi nəticəsində insan fəaliyyətinin əsas funksiyası əmək alətlərinə proqram tərtib etməkdən və komanda (sərəncam) verməkdən ibarət olur.

Əməyin xarakterindən və istehsal prosesinin həyata keçirilməsində fəhlələrin iştirakından asılı olaraq istehsal (əmək) prosesləri aşağıdakı qruplara ayrılır:

***a) əl əməyinin tətbiqinə əsaslanan proseslər*** zamanı əmək prosesi ya tamamilə əllə, ya da heç bir enerji növündən istifadə olunmadan həyata keçirilir. Məsələn, rəngin məmulatın üzərinə çəkilməsi, məmulatların taralara qablaşdırılması, kərpicin qoyulması və s.;

***b) əl-mexanikləşdirilmiş proseslər*** – bu və ya digər enerji növlərindən istifadə etməklə, hər hansı mexanikləşdirilmiş əmək vasitələrinin köməyi ilə fəhlənin bilavasitə yerinə yetirdiyi proseslərdən ibarətdir. Məsələn, ütü ilə parçanın ütülənməsi, elektrik burğusu ilə deşikaçma, pnevmatik alətlə hissənin pərçimlənməsi və kəsilməsi;

***c) maşın-əl prosesləri*** – icraçı mexanizmlərin, maşınların həyata keçirdikləri proseslərin fəhlə tərəfindən istiqamətləndirilməsidir. Məsələn, tikiş maşınında məmulatın tikilməsi, metalkəsən və ağac emalı dəzgahlarında əl ilə verilməklə hissənin emalı;

***ç) maşınlı proseslər*** – onunla səciyyələnir ki, burada əmək cisimləri fəhlənin idarə etdiyi maşının icra mexanizminin köməyi ilə emal olunur, köməkçi işlər isə əl ilə fəhlə tərəfindən həyata keçirilir. Məsələn, metalkəsən dəzgahda hissənin emalı prosesində alətin yonma istiqamətinə əllə yönəldilməsi;

***d) avtomatlaşdırılmış proseslər*** – avtomatlaşdırılmış mexanizmlər, cihazlar və s. vasitəsi ilə həyata keçirilir. Bu zaman fəhlə mexanizm və cihazların işinə nəzarət funksiyasını yerinə yetirir;

***e) aparatlaşdırılmış proseslər*** – xüsusi aqreqatlarda (məsələn, marten peçlərində, elektrik vannalarında və s.) əmək cisimlərinə istilik, elektrik və ya kimyəvi enerjinin təsiri ilə yerinə yetirilir. Bu zaman işçi yalnız istehsal prosesinin gedişini müşahidə edir.

Əmək (istehsal) prosesləri ayrı-ayrı əməliyyatlara, əməliyyatlar keçidlərə, keçidlər isə əmək fəndlərinə, fəaliyyətinə və hərəkətlərinə ayrılır. Əmək proseslərinin əməliyyatlara ayrılması dərəcəsi və onların tərkibi istehsalın miqyasından və ixtisaslaşdırılması səviyyəsindən, tətbiq olunan texnika və texnoloji proseslərin xarakterindən, istehsalın və əməyin təşkilindən asılıdır.

***Əməliyyat*** – məlum iş yerində əmək cismi üzərində həyata keçirilən istehsal (əmək) prosesinin ayrılmış bir hissəsidir. Əməliyyat bir və ya bir qrup fəhlə tərəfindən yerinə yetirilə bilər. Əməliyyat əmək cisminin emalı prosesində fəhlənin bütün ardıcıl hərəkətlərini əhatə edir. Odur ki, fasiləsiz istehsal proseslərində əməliyyat dedikdə, şərti olaraq müddəti bir iş növbəsinə bərabər olan istehsal proseslərinin müəyyən bir hissəsi nəzərdə tutulur. Əməliyyat əmək alətləri və əmək cisimlərinin daimiliyi ilə, habelə əmək məhsulunun texnoloji tamlığı ilə səciyyələnir.

***Keçid*** – istehsal prosesinin texnoloji cəhətdən yekcins, təşkilati nöqteyi-nəzərdən isə bölünməz hissəsidir. Məsələn, tornaçı torna dəzgahında pastahı emal edərkən onun ucunu kəsir, burğulayır, yonur və deşir; beləliklə o, dörd keçiddən ibarət bir əməliyyat həyata keçirir.

***Əmək fəndi*** – fəhlənin müəyyən məqsədli təyinatı olan bitmiş fəaliyyətinin məcmusudur. Əmək fəndləri əsas və köməkçi ola bilər. Təyinatlı əmək cisminin dəyişilməsi üzrə məlum texnoloji prosesin məqsədinin bilavasitə həyata keçirilməsindən

ibarət olan fəndlərə *əsas fəndlər*, əsas fəndlərin normal gedişatını təmin edən fəndlərə isə *köməkçi fəndlər* deyilir.

***Əmək fəaliyyəti*** – əmək fəndinin bir hissəsi olub, fəhlənin özünün, onun gövdəsinin, bilək və barmaqlarının bir sıra fiziki hərəkətlərinin məcmusundan ibarətdir. Əmək proseslərinin mürəkkəbliyinə baxmayaraq, hər bir əl işi iki əsas fəaliyyətin birləşməsi kimi çıxış edir: onlardan birincisi, əmək cismini götürmək, ikincisi isə onun yerini dəyişdirmək (məsələn, qoymaq, çıxarmaq, döndərmək).

Sənaye müəssisələrində müxtəlif təyinatlı və xarakterli məhsullar hazırlandığından müxtəlif istehsal proseslərinin tətbiqi zərurəti meydana çıxır. Belə bir hal istehsal proseslərinin səmərəli təşkilini və həyata keçirilməsini müəyyən qədər çətinləşdirir. Odur ki, aşağıdakı əlamətlərə görə istehsal proseslərini təsnifləşdirmək lazım gəlir:

***Məhsulun hazırlanmasındakı roluna görə*** – istehsal prosesləri üç qrupa: əsas, köməkçi və xidmətedici istehsal proseslərinə ayrılır. Əsas istehsal prosesləri nəticəsində bilavasitə maddi nemətlər istehsal olunur. Əsas istehsal proseslərinə misal olaraq maşınqayırma zavodlarında hazırlıq, emaletmə və yığma proseslərini göstərmək olar. Köməkçi istehsal prosesləri bilavasitə məhsulun hazırlanmasında iştirak etmir, lakin onlar əsas istehsal proseslərinin normal gedişatı üçün bütün zəruri şəraiti yaradır. Belə proseslərə misal olaraq binaların, maşın və avadanlıqların təmirini, xammal və materialların qəbulunu, saxlanılmasını və iş yerlərinə paylanmasını göstərmək olar. Xidmətedici proseslər də köməkçi proseslər kimi bilavasitə məhsulun hazırlanmasında iştirak etmir, lakin onlar həm əsas, həm də köməkçi proseslərin normal gedişatını təmin edirlər. Xidmətedici proseslərə misal olaraq binaların qızdırılmasını, iş yerlərinin tör-töküntülərdən təmizlənməsini və s. göstərmək olar.

***Mürəkkəblik dərəcəsinə görə*** – sintetik, analitik və birbaşa istehsal prosesləri fərqləndirilir. Sintetik istehsal prosesində bir neçə növ xammal və materialdan bir növ məmulat (məsələn, avtomobil, saat, televizor, radio və s.), analitik istehsal prosesində bir növ xammal və materialdan bir neçə növ məhsullar (məsələn, neftdən 300-ə yaxın məhsullar alınır) və birbaşa istehsal prosesində isə bir növ xammal və materialdan yalnız bir



növ məhsul (məsələn, pambıqdan ipliyin alınması) hazırlanır.

***Əmək cisimlərinə etdikləri təsirə görə*** – mexaniki və fiziki-kimyəvi prosesləri fərqləndirirlər. Mexaniki istehsal prosesləri zamanı əmək cisimlərinin formasının, ölçüsünün və vəziyyətinin dəyişməsi mexaniki qüvvələrin təsiri altında baş verir. Mexaniki proseslər özləri də emaledici, forma əmələ gətirən və yığma proseslərə ayrılır. Fiziki-kimyəvi proseslər – istilik, kimyəvi və elektrik enerjisinin təsiri altında materialların və onların daxili strukturunun fiziki-kimyəvi və mexaniki xassələrində dəyişikliklər əmələ gətirən proseslərdir.

***Mexanikləşdirmə və avtomatlaşdırma dərəcəsinə görə*** – istehsal prosesləri əl, qismən mexanikləşdirilmiş, kompleks mexanikləşdirilmiş və avtomatlaşdırılmış proseslərə ayrılır. Bu zaman istehsal prosesləri ya əl ilə, yaxud maşın və mexanizmlərin köməyi ilə, ya da avtomatik cihazların tətbiqi ilə həyata keçirilir, yəni insan nəzarət funksiyasını icra edir.

***İxtisaslaşdırma dərəcəsinə görə*** – universal və ixtisaslaşdırılmış istehsal prosesləri fərqləndirilir. Fərdi və kiçik seriyalı istehsal şəraitində universal proseslər, iri seriyalı və kütləvi istehsal şəraitində isə ixtisaslaşdırılmış proseslər tətbiq edilir.

***Təşkili tipinə görə*** – istehsal prosesləri fərdi, seriyalı və kütləvi istehsal proseslərinə ayrılır. İstehsal proseslərinin bu və ya digər tipə ayrılması məhsul buraxılışının kütləvilik dərəcəsindən asılıdır.

***Təşkili üsuluna görə*** – istehsal prosesləri fərdi, dəstəli və axınlı proseslərə bölünür. Bunlardan iqtisadi cəhətdən ən səmərəlisi axınlı istehsal prosesləridir. Bu onunla izah edilir ki, axınlı istehsal proseslərinin tətbiqi istehsalın kompleks mexanikləşdirilməsini və avtomatlaşdırılmasını nəzərdə tutur.

Yuxarıda deyilənlərdən əlavə sənaye müəssisələrində nəqliyyat və texniki nəzarət prosesləri də həyata keçirilir. ***Nəqliyyat prosesləri*** əmək cisimlərinin yerinin dəyişdirilməsi və bununla əlaqədar olan yükləmə-boşaltma proseslərini əhatə edir. ***Texniki nəzarət prosesləri*** – buraxılan əmək məhsullarının standartlara, texniki şərtlərə və fabrik-zavod normativlərinə uyğunluğunun yoxlanılması ilə əlaqədardır.

İnsan məhsul istehsal edərkən, qeyd etdiyimiz kimi, təbiətin obyektlərinə təsir göstərir, onu maddi tələbatın ödənilməsi

üçün məqsədəuyğun formaya salır. Deməli, istehsal prosesi – bilavasitə istehlak və yaxud gələcək istehsal üçün təbiət cisimlərinin emalıdır. İstehsal prosesinin belə funksiyası onun hər bir sosial formasında saxlanılır və istehsal resurslarına əsaslanır.

## 1.2. Azərbaycanda maddi istehsal sahələrinin təşəkkül formaları və onların inkişaf perspektivləri

Cəmiyyətin mövcudluğu və tərəqqisi üçün maddi nemətlərin yaradılması istehsalda təcəssüm olunur. Əsas meyarı əmək vasitələri olmaqla təbiət cisimlərinə təsir göstərərək, istehsal prosesi maddi formada təzahür edir və inkişaf tapır. Maddi istehsal cəmiyyət həyatının bütün sferalarında xalq sərvətinin yaradılmasının əsas mənbəyini təşkil edir. Bu məqsədlə, iqtisadiyyatın bütün sahələrində maddi istehsalı təmin edən strukturlar formalaşdırılır. Azərbaycanda da mövcud təbii sərvətlərdən səmərəli istifadə etmək məqsədi ilə bir sıra maddi istehsal sahələri yaradılmış və inkişaf etdirilmişdir. Ölkəmizdə geniş inkişaf tapmış əsas maddi istehsal sahələrinə sənaye, kənd təsərrüfatı, nəqliyyat (yükdaşıma nəqliyyatı), tikinti, rabitə, su təsərrüfatı və yer təkinin geologiyası və kəşfiyyatı aiddir. Bunlardan sənaye iqtisadiyyatın ən mühüm sahəsi hesab olunur.

***Sənaye*** – cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf səviyyəsinə həlledici təsir göstərir. Sənaye həm özü və həm də iqtisadiyyatın digər sahələri üçün əmək alətləri istehsalı, həmçinin xammal, material, yanacaq hasilatı, enerji istehsalı, meşə tədarükü və sənayedə alınmış, yaxud kənd təsərrüfatında tədarük edilmiş məhsulların sonrakı emalı ilə məşğul olan müəssisələrin (zavod, fabrik, mədən, şaxta, elektrik stansiyası) məcmusudur. Faktiki materialların təhlili göstərir ki, Azərbaycan sənayesi son illər sürətlə inkişaf edir və ölkə iqtisadiyyatının subyektləri arasında aparıcı yer tutur.

Əlavə dəyərin 66,7%-i iqtisadiyyatın istehsal sahələrində əldə edilmiş və 2004-cü ildəkindən 37% çox olmuşdur. Xidmət, yəni qeyri-istehsal sahələrində 2004-cü ilə nisbətən 9,6% çox əlavə dəyər yaradılmışdır. ÜDM-nin strukturunda sənaye sahələri 47,5%, kənd təsərrüfatı 9,2%, tikinti kompleksi 10,0%, ticarət və pullu xidmətlər 6,9%, nəqliyyat 5,8%, rabitə 2,1%, digər sahələr isə 18,3% təşkil etmişdir.



Ölkə iqtisadiyyatında aparıcı rola malik olan sənaye sahəsi 2005-ci ildə bəzi yeni sənaye müəssisələrinin tikilib işə salınması, neft strategiyasının uğurla həyata keçirilməsi nəticəsində «Mərkəzi Azəri» yatağının istifadəyə verilməsi və Azərbaycanda sənayenin inkişafı tarixində ən yüksək artım sürəti əldə edilmişdir. Ölkə sənayesində 8,9 milyard manatlıq və ya 2004-cü illə müqayisədə 33,5% çox sənaye məhsulu istehsal edilmiş və xidmətlər göstərilmişdir. Artım əsas etibarilə nəqliyyat avadanlıqlarının istehsalı (79,0%), toxuculuq və tikiş sənayesi (55,7%), neft və qaz hasilatı (41,4%), metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı (30,2%), digər qeyri-metal mineral maddələrin (tikinti materialları) istehsalı (20,0%), rezin və plastik kütlə məmulatlarının istehsalı (18,3%), neft məhsullarının istehsalı (14,23) və s. üzrə müəssisələrin uğurlu işi hesabına əldə edilmişdir. Ümumiyyətlə, sənaye məhsullarının ümumi həcmində o qədər də böyük olmayan xüsusi çəkiyə malik oduncaqların emalı və ağac məmulatlarının istehsalı, sellüloz-kağız istehsalı, nəşriyyat işi və maşınqayırmanın bir sıra sahələri istisna olunmaqla, qalan sənaye sahələrində istehsalın həcmi 2004-cü ilin səviyyəsini üstələmişdir.

Sənayenin 2005-ci ildəki işi əldə edilmiş bəzi yüksək nailiyyətlərlə səciyyələnir. Sənaye istehsalının ümumi həcmində məhsulların payı 94%, sənaye xarakterli xidmətlərin xüsusi çəkisi isə 6% təşkil etmişdir. İstehsal edilmiş sənaye məhsullarının 59,8%-i hasilat, 34,1%-i emal sənayesi, qalan hissəsi isə elektroenergetika, qaz və suyun istehsalı və bölüşdürülməsi müəssisələrinin payına düşür.

ÜDM-in 76%-i qeyri-dövlət bölməsində yaradılmışdır. Bu onu göstərir ki, sənayenin inkişafında qeyri-dövlət bölməsinin rolu getdikcə artmaqdadır. Əgər 1997-ci ildə sənaye məhsulunun ümumi həcmində qeyri-dövlət müəssisələrinin məhsul payı 25,1%, 2000-ci ildə 48,4% təşkil etmişdisə, 2005-ci ildə də bu meyl davam etmişdir. 2004-cü illə müqayisədə qeyri-dövlət sektorunda istehsalın səviyyəsi 51,5% artaraq sənayenin ümumi məhsulunda onun xüsusi çəkisi nəzərəçarpacaq dərəcədə artmış və 69,2%-dək yüksəlmişdir. Ölkə iqtisadiyyatında sənayenin payının artmasına dair məlumatlar cədvəl 2-də verilmişdir.

*Cədvəl 2*

***Ölkə iqtisadiyyatında sənayenin payı, %***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Əlavə dəyər | 38,4 | 40,8 | 40,7 | 40,4 | 41,1 |
| Ümumi mənfəət | 40,5 | 43,4 | 43,9 | 44,4 | 45,1 |
| Xalis mənfəət | 41,7 | 44,9 | 45,8 | 46,1 | 47,0 |
| İşçilərin sayı | 18,5 | 18,3 | 14,8 | 14,1 | 13,7 |
| Orta aylıq əmək haqqı | 196,7 | 192,2 | 180,0 | 177,3 | 188,1 |
| Əsas fondlar | 40,0 | 38,9 | 42,1 | 47,0 | 51,2 |
| Əsas kapitala investisiyalar | 68,1 | 70,5 | 77,3 | 79,4 | 79,5 |

***Mədənçıxarma sənayesi*** – öz əmək cisimlərini təbiətdə tapan, emal sənayesi üçün xammal çıxaran, meşə tədarükü, balıq və dəniz heyvanları ovu ilə məşğul olan və dəniz məhsulları hasil edən müəssisələrin məcmusudur. Planlaşdırma və statistikada mədənçıxarma sənayesinə, həmçinin su kəmərləri və su elektrik stansiyaları aid edilir. Mədənçıxarma sənayesinin tərkibində mədən sənayesi fərqləndirilir. Buraya kimyəvi xammal, qara və əlvan metallar filizi, metallurgiya üçün qeyri-filiz xammalı, neft, qaz, kömür, torf, şist, duz, qeyri-filiz tikinti materialları (məsələn, gil, qum və s.), əhəng hasil edən müəssisələr aiddir. İstehsalın intensivləşdirilməsi, maddi ehtiyatlardan istifadənin yaxşılaşdırılması qanunauyğun surətdə emal sənayesinə nisbətən mədənçıxarma sənayesinin artım sürətinin aşağı düşməsinə səbəb olur. Lakin 2005-ci ildə 2004-cü illə müqayisədə mədənçıxarma sənayesi müəssisələrində məhsul buraxılışının həcmi 41,4%, o cümlədən neft hasilatı 42,9%, qaz hasilatı 14,7%, tikinti qumu 48,9%, çınqıl, qırma daş, xırda çay daşı 19,2%, duz istehsalı 13,7%, bentonit istehsalı 81,2% artmışdır. Mədənçıxarma sənaye müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası cədvəl 3-də verilmişdir.

***Emal sənayesi*** – başqa müəssisələrin istehsal (yaxud hasil) etdikləri məhsulları əmək cisimləri kimi qəbul edən müəssisələrin məcmusudur. Emal sənayesi müəssisələri mədənçıxarma sənayesinin verdiyi filiz, əhəng, gil, asbest və s.-dən, kənd təsərrüfatında istehsal olunan məhsullardan, məsələn, taxıldan,



*Cədvəl 3*

***Mədənçıxarma sənaye müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi o cümlədən: | 125 | 161 | 173 | 204 | 209 |
| dövlət | 52 | 45 | 53 | 54 | 45 |
| qeyri-dövlət | 73 | 116 | 120 | 150 | 164 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 66 | 80 | 145 | 182 | 242 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 8129 | 9223 | 10012 | 11495 | 14791 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 101,1 | 105,9 | 102,5 | 101,4 | 102,3 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 53,5 | 58,7 | 59,5 | 56,9 | 57,4 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 56,1 | 53,3 | 54,4 | 52,3 | 56,5 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 33,7 | 35,6 | 34,9 | 38,6 | 39,6 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, % | 16,8 | 19,2 | 19,7 | 22,6 | 22,6 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 991,2 | 1090,7 | 1290,5 | 1451,7 | 2256,3 |
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 18703 | 22325 | 28012 | 38960 | 52720 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 2405,3 | 3360,2 | 7193,9 | 13723,6 | 18533,7 |

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 73 | 81,3 | 88,3 | 91,3 | 94,7 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 108,8 | 98,0 | 118,8 | 117,4 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | | | |
| Neft hasilatı, min ton | 14017 | 14909 | 13333 | 15381 | 15548 |
| Təbii qaz hasilatı, mln. kubmetr | 5642 | 5535 | 5144 | 5128 | 4995 |
| Tikinti qumu, min kubmetr | 88,5 | 136 | – | – | – |
| Tikinti qumu, min ton | – | – | 428 | 517 | 684 |
| Çınqıl, qırma daş, xırda çay daşı və çaxmaq daşı, min ton | – | – | 416 | 686 | 538 |
| İnşaat üçün əhəng daşı, min ton | – | – | 632 | 762 | 694 |
| Duz hasilatı, ton | 2663 | 2437 | 4029 | 5044 | 5184 |
| Yodlaşdırılmış duz, ton | 1370 | 1297 | 1351 | 2601 | 4050 |

pambıqdan, meyvə-tərəvəzdən və s.-dən istifadə edir. Emal sənayesi, həmçinin sənaye məmulatlarını təmir və bərpa edir. Emal sənayesinə maşınqayırma, yüngül, yeyinti, kimya (mədən-kimya sənayesindən başqa), ağac emalı, sellüloz-kağız və digər sənaye sahələri aiddir. Emal sənayesində maddi istehsalın bütün sahələri üçün əmək vasitələri yaradılır, bu da xeyli dərəcədə onların texniki səviyyəsini müəyyən edir. Emal sənayesində əhali üçün istehlak şeylərinin əksər hissəsi istehsal edilir. İstehsalın intensivləşdirilməsi şəraitində emal sənayesi məhsulu mədənçıxarma sənayesinə nisbətən daha sürətlə artır. Bu, hasil edilən xammal və yanacaqdan istifadənin yaxşılaşdırılması, sənaye məhsulunun metal tutumunun azaldılması ilə izah olunur. Emal sənaye müəssisələrinin uğurlu işi nəticəsində sahənin ümumi istehsal səviyyəsi 2004-cü ilə nisbətən xeyli artmışdır. Bunu cədvəl 4-də verilmiş məlumatlar da sübut edir.



*Cədvəl 4*

***Emal sənayesi müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi o cümlədən: | 1646 | 1821 | 1959 | 1876 | 1890 |
| dövlət | 503 | 419 | 520 | 419 | 389 |
| qeyri-dövlət | 1143 | 1402 | 1439 | 1457 | 1501 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 2157 | 2625 | 3724 | 4743 | 5809 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, müvafiq illərin cari qiymətləri ilə, mlrd. manat | 7763 | 7718 | 8320 | 11100 | 12717 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 115,3 | 102,8 | 105,5 | 117,7 | 110,2 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 31,3 | 29,2 | 30,0 | 33,1 | 33,6 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda qeyri-dövlət sektorunun payı, % | 43,8 | 46,5 | 44,7 | 46,3 | 42,1 |
| İşləyənlərin orta illik siyahı sayı, min nəfər | 131,7 | 116,5 | 106,1 | 95,3 | 100,0 |
| Sənayedə məşğul olanların ümumi tərkibində sahə işçilərinin payı, % | 65,8 | 62,7 | 60,0 | 55,8 | 57,0 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 284,2 | 303,2 | 348,8 | 444,4 | 491,3 |
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 12536,0 | 13391,4 | 13900,6 | 14228,6 | 14599,5 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 400,4 | 312,5 | 141,6 | 388,9 | 729,0 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 12,1 | 7,6 | 1,7 | 2,6 | 3,7 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 102,6 | 93,0 | 117,1 | 107,4 |

*Neft sənayesi* – neft və qaz yataqlarının kəşfiyyatını, neft-qaz quyularının qazılmasını, neft və qazın hasilatını və emalını, xam neftin, neft məhsullarının və təbii qazın nəqlini əhatə edir. Dünyanın ən qədim neft rayonlarından olan Abşeron yarımadasında ta qədimdən neft çıxarılmış və qaz hasil edilmiş, onlardan müxtəlif məqsədlər üçün istifadə olunmuşdur. Lakin Azərbaycanda neft sənayesinin əsası 1871-ci ildə qoyulmuşdur. Çünki həmin ildə artıq Bakı şəhərinin yaxınlığındakı Balaxanı kəndində ilk dəfə olaraq mexaniki üsulla qazılmış neft quyusundan gündə 700 pud xam neft çıxarılırdı.

Bundan başqa, 1872-ci ildə neft sənayesində icra sisteminin ləğvi yerli və xarici kapitalın yüksək mənfəət təmin edən neftqazçıxarma sənayesinə sürətli axını üçün əlverişli şərait yaratdı. Azərbaycanda istismar olunan neft quyularının sayı 1873-cü ildən 1901-ci ilə kimi 9-dan 1740-a, orta dərinliyi 53 metrdən 3645 metrə, neft hasilatı 3,9 min puddan 667,1 min puda, yaxud 10,67 mln. tona qədər artdı. Yerli və xarici neft inhisarları meydana gəldi. XIX əsrin sonunda Azərbaycan neft hasilatına görə ABŞ-ı ötüb keçdi və 1898-ci ildə dünyada birinci yerə çıxdı. Lakin çox çəkmədən yüksək mənfəət götürmək ehtirası və neft yataqlarının sürətlə istismarı nəticəsində Azərbaycanda neft çıxarılması 1913-cü ildə 7,7 milyon tona, 1920-ci ildə isə 2,9 milyon tona endi.

1920-ci ildən sonra Azərbaycanda neft sənayesini inkişaf etdirmək üçün Azərbaycan neft komitəsi (Azərneftkom) təşkil edildi və həmin komitənin qarşısında neft sənayesinin yenidən qurulması vəzifəsi qoyuldu və bu, neft hasilatının artırılmasına təkan verdi. Artıq 1927-1928-ci illərdə neft çıxarılması 1913-cü il səviyyəsini ötüb keçdi və beləliklə də, Azərbaycan neft sənayesinin yeni dövrü başlandı. 1940-cı ildə Azərbaycan neft sənayesi keçmiş SSRİ neft hasilatının dördə üç hissəsi qədər neft verdi.

Böyük vətən müharibəsindən sonra Azərbaycanın neft sənayesinin inkişafında yeni mərhələ başlandı. 1948-ci ildə açıq dənizdə (Xəzərdə) neft-mədən estakadaları tikilməyə başlandı. 1949-cu ildə Neft daşlarında qazılmış ilk quyudan güclü neft fontanı müşahidə edildi. Həmin dövrdən indiyə kimi Xəzər dənizindən çıxarılan neft Azərbaycan neft sənayesinin hasil etdiyi ümumi neftin təqribən 75-80%-ni təşkil edir.



Ölkə iqtisadiyyatının aparıcı sahəsi kimi neft sənayesi təbii sərvətlərdən qidalanaraq, bazar iqtisadiyyatına keçid dövründə ildən-ilə inkişaf edir. 1994-cü ildə aparıcı xarici ölkələrin neft şirkətləri ilə «Əsrin müqaviləsi»nin imzalanması son onilliyin ən əhəmiyyətli və tarixi hadisəsi olmuşdur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin müqavilə üzrə müvəffəqiyyətlə həyata keçirdiyi işlərdən sonra 1997-ci ilin noyabrında «Çıraq» yatağının ilk quyusundan neft fontan vurdu. Bundan başqa, 2005-ci ilin fevral ayında «Mərkəzi Azəri» yatağının istismara verilməsi hesabına ABƏŞ il ərzində 13,2 milyon ton neft və 1,7 milyard kubmetr təbii qaz hasil etmişdir. Hazırda ölkənin neft və qaz hasilatı sektorunda ABƏŞ-lə yanaşı, «Şirvanoyl», «Anşad Petrol», «Salyanoyl», «Azgerneft», «Qarasu» və s. kimi neft və qazçıxarma müəssisələri fəaliyyət göstərir.

Ümumiyyətlə, 2005-ci ildə Azərbaycanda 22,2 milyon ton neft hasil edilərək, son iyirmi altı ildə ən yüksək göstəriciyə nail olunmuşdur. Neft hasilatının dinamikasına dair məlumatlar cədvəl 5-də verilmişdir.

*Cədvəl 5*

***1990-2005-ci illərdə neft hasilatının dinamikası, mln. ton***

| İllər | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | Dənizdə | Quruda |
| 1990 | 12,5 | 9,9 | 2,6 |
| 1995 | 9,2 | 7,5 | 1,7 |
| 1996 | 9,1 | 7,5 | 1,6 |
| 1997 | 9,1 | 7,5 | 1,6 |
| 1998 | 11,4 | 9,8 | 1,6 |
| 1999 | 13,8 | 12,3 | 1,5 |
| 2000 | 14,1 | 12,4 | 1,5 |
| 2001 | 14,9 | 13,2 | 1,6 |
| 2002 | 15,3 | 13,8 | 1,5 |
| 2003 | 15,4 | 13,7 | 1,7 |
| 2004 | 15,8 | 13,7 | 1,8 |
| 2005 | 22,2 | 20,3 | 1,9 |

***Qaz sənayesi*** – təbii qaz yataqlarının kəşfiyyatı, istismarı, təbii qazın boru kəmərləri vasitəsi ilə uzaq məsafələrə nəql edilməsi, təbii qazın emalı, xalq təsərrüfatının müxtəlif sahələrinə və kommunal-məişət təsərrüfatına qaz verilməsi ilə məşğul olur. Azərbaycan qaz sənayesinin yaradılması və inkişafı 1920-ci ildən başlanmışdır. Bu, 1920-ci ildən sonrakı illərdə yeni qaz yataqlarının kəşfi və istismarı ilə bilavasitə əlaqədar olmuşdur. Bu dövrdə Qaradağ, Zirə, Siyəzən və s. qaz yataqları kəşf edilmiş və həmin yataqlardan qaz hasil edilmişdir. 2005-ci ildə 5820 mln. metrkub qaz hasil edildiyi halda, həmin rəqəm 1928-ci ildə – 0,17; 1940-cı ildə – 2,5; 1950-ci ildə – 1,23; 1960-cı ildə – 5,84; 1970-ci ildə – 5,52; 1980-ci ildə – 15,2; 1990-cı ildə – 9926; 2000-ci ildə isə 6286 olmuşdur. Azərbaycanda təbii qaz ehtiyatı, istehsalı və istehlakı haqqında məlumatlar cədvəl 6-da verilmişdir.

*Cədvəl 6*

***Azərbaycanda təbii qaz ehtiyatı, istehsalı və istehlakı, mln. kubmetr***

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ehtiyatlar – cəmi | 9191 | 6706 | 6420 | 6014 | 6510 | 6337 | 9270 | 9408 | 9541 | 10139 |
| İstehsal | 6644 | 6305 | 5964 | 5590 | 5997 | 5642 | 5534 | 5144 | 5128 | 4995 |
| Daxili istehlak o cümlədən | 8151 | 5702 | 5552 | 5110 | 6089 | 5949 | 8319 | 8342 | 8725 | 9201 |
| sənaye | 4752 | 3324 | 3237 | 2520 | 2534 | 2935 | 2845 | 3112 | 3112 | 3362 |
| itkilər | 639 | 548 | 423 | 391 | 368 | 477 | 622 | 620 | 470 | 501 |
| ilin axırına qalıq | 401 | 456 | 445 | 513 | 421 | 388 | 329 | 446 | 346 | 437 |

***Elektroenergetika sənayesi*** – külli miqdarda elektrik enerjisinin alınması, uzaq məsafələrə ötürülməsi və istehlakçılar arasında paylaşdırılması problemləri ilə məşğul olur. Elektroenergetika sənaye, nəqliyyat, kənd təsərrüfatı, rabitə, mənzil-kommunal təsərrüfatı energetikasının əsasıdır. Elektroenergetikanın əsas ehtiyatları yanacaq (məsələn, kömür, xam neft, təbii qaz, yanar şist və s.), su və nüvə enerjisidir. Az miqdarda külək enerjisi, Günəş enerjisi və Yerin daxili istiliyindən də istifadə edilir. Azərbaycanda elektrik enerjisinin əsas hissəsi böyük energetika sistemlərinə daxil olan güclü elektrik stansiyalarında hasil edilir. Azərbaycanda istehsal edilən ümumi enerjinin təqribən 80%-i elektrik stansiyalarının payına düşür. 2005-ci ildə 18,6 milyard kvt-saat və ya 2004-cü illə müqayisədə 3,4% çox elektrik enerjisi istehsal olunaraq, əhalinin elektrik enerjisi ilə təminatı yaxşılaşmışdır. Bir nəfərə düşən elektrik enerjisinin istehsalına görə (2300 kvt-saat) Azərbaycan Respublikası MDB ölkələri arasında üçüncü yeri tutur. Azərbaycanda elektrik enerjisi ehtiyatları, istehsalı və istehlakı üzrə məlumatlar cədvəl 7-də verilmişdir.



*Cədvəl 7*

***Elektrik enerjisi ehtiyatları, istehsalı və istehlakı, mln. kvt-saat***

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Ehtiyatlar – cəmi | 17856 | 18027 | 18348 | 19148 | 19842 | 19571 | 20812 | 20980 | 23722 | 24117 |
| İstehsal | 14914 | 14298 | 14133 | 15235 | 18926 | 19193 | 19646 | 16114 | 18407 | 18955 |
| Daxili istehlak o cümlədən | 4749 | 4695 | 4761 | 3977 | 2844 | 2671 | 3881 | 3041 | 4390 | 4998 |
| sənaye | 2443 | 5800 | 3460 | 2911 | 2787 | 1770 | 966 | 925 | 871 | 1008 |
| itkilər | 499 | 149 | 803 | 1002 | 886 | 378 | 2560 | 3941 | 4444 | 4154 |

***Yanacaq sənayesi*** – müxtəlif yanacaq növlərinin çıxarılması və emalı ilə məşğul olan sənaye sahələrinin məcmusudur. Yanacaq sənayesinə neftçıxarma, neftayırma, qazçıxarma, qazayırma, torf və şist sənayesi daxildir. Yanacaq sənayesi ağır sənayenin ən mühüm sahələrindən biridir. Azərbaycan Respublikası keçmiş SSRİ-də yanacaq sənayesi inkişaf etmiş respublikalardan biri olmuşdur. Burada neft və qaz sənayesi xeyli inkişaf etmişdir. 2005-ci ildə Azərbaycan Respublikasının yanacaq sənayesi 1940-cı ildəkinə nisbətən təqribən 2 dəfə artmışdır. 2005-ci ildə Azərbaycanda hasil edilən ümumi qaz hasilatının 95,8%-i dəniz qaz hasilatının payına düşür. Yanacaq sənayesinin tərkibinə daxil olan bölmələrin xüsusiyyətləri nəzərə alınaraq, onların inkişaf sürətləri də müxtəlif olmuşdur. Belə ki,

Azərbaycanda neft-qazçıxarma və neft-qazayırma maddi istehsal sahələri torf və şist istehsalına nisbətən daha sürətlə inkişaf etdirilmişdir.

***Neftçıxarma*** – neftin və onunla birgə çıxan qazların Yer təkindən çıxarılması (hasilatı), toplanması və qabaqcadan emala hazırlanması, yəni sudan və bərk qatışıqlardan təmizlənməsi prosesidir. Dünyada hasil olunan neftin, demək olar ki, çox hissəsi yüksək təzyiqli polad borularla bərkidilmiş quyulardan çıxarılır. Nefti, onunla birlikdə çıxan qazları və suyu Yer səthinə qaldırmaq üçün quyuda qaldırıcı borular, mexanizmlər və lay təzyiqinə hesablanmış bağlayıcı armaturdan ibarət hermetik sistem yaradılır. Əvvəllər neft primitiv üsullarla (məsələn, açıq su hövzələrinin səthindəki nefti toplamaqla, neft hopmuş əhəngdaşı və ya qumdaşını emal etməklə, yaxud dayaz quyulardan nefti çıxarmaqla) hasil edilirdi. Abşeron yarımadasında neft hələ çox qədimdən dayaz quyulardan çıxarılırdı. 1825-ci ildə Bakıda 120 quyudan 4126 ton, 1862-ci ildə isə 220 quyudan 5480 ton neft çıxarılmışdır. XIX əsrin 60-cı illərində neftçıxarmada qaldırıcı alət kimi dolama çarxdan istifadə edilirdi. Sonralar neftçıxarmada nasos qurğularından istifadə edildi. Hazırda neft quyudan fontan, nasos və kompressor üsulları ilə çıxarılır.

***Neftayırma*** – neft emalı və neft məhsulları istehsalı ilə məşğul olan zavodları özündə birləşdirir. Azərbaycanda XIX əsrin 2-ci yarısından neft yataqlarına və neftdən daha qiymətli məhsullar almaq məqsədilə, onun emalına böyük maraq göstərilməyə başlanmışdır. Hələ 1837-ci ildə Bakı yaxınlığındakı Balaxanı kəndində neftayırma zavodu, 1861-ci ildə Suraxanıda sənaye sahibkarı Kokorev D.İ.Mendeleyevin köməyi ilə kerosin zavodu yaratmışdı. 1863-cü ildə bakılı texnik Cavad Məlikov Bakıda neft emalı zavodu tikdirmişdir. 1866-cı ildə Bakıda təqribən 100 min pud kerosin istehsal olunmuşdur. 1868-ci ildə Bakı şəhərində 23 kiçik neftayırma zavodları fəaliyyət göstərirdi. 1875-ci ildə Bakıda neft emalı müəssisələrinin sayı 62-yə, kerosin istehsalı 848,7 min puda çatdırıldı və beləliklə də, Bakıda neft sənayesinin cəmləşdiyi **«Qara şəhər»** yarandı. 1883-cü ildə rus kimyaçısı D.İ.Mendeleyevin təklifi ilə «Nobel qardaşları» zavodunda neft emalını sürətləndirmək məqsədi ilə ilk dəfə olaraq batareya ilə işləyən kub formasında cihaz-qurğu



istifadəyə verildi və digər zavodlar tədricən bu üsulla neft emalına keçdi. Artıq 1900-cü ildə Bakıda 66 kerosin, 18 kerosin-yağ, 3 yağ, 4 benzin, 1 surroqat və 2 qudron zavodu var idi. XX əsrin əvvəllərində Rusiyada başlanmış iqtisadi böhran neft sənayesində də özünü göstərdi. Azərbaycanda neft sənayesi müəssisələrinin sayı 91-dən (1901) 53-ə (1915), kerosin istehsalı 128,3 mln. puddan (1900) 73,4 mln. puda (1914) endi. Neft sənayesində xarici kapitalın rolu böyük idi. Təkcə kerosin istehsalının 75%-i «Nobel qardaşları» şirkətinin payına düşürdü.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra bütün neft emalı müəssisələri milliləşdirildi. Sovet hakimiyyətinin ilk illərində bütün neft təsərrüfatı kimi neft emalı müəssisələri də dağınıq halda idi. Cəmi 18 neft emalı müəssisəsi fəaliyyət göstərirdi ki, onların da əksəriyyəti yarı gücü ilə işləyirdi. 1920-ci ildə neft emalı 1913-cü ildəki səviyyənin 41%-ni təşkil edirdi. Odur ki, Sovet hakimiyyəti qurulduqdan sonra neft emalı müəssisələrinin bərpasına, texniki cəhətdən yenidən qurulmasına başlandı. 1927-ci ildə keçmiş SSR-də ilk dəfə olaraq Bakıda güclü borulu qurğu tikilib işə salındı. 1940-cı ildə benzin istehsalı 1913-cü ildəki səviyyəni 39 dəfə ötdü. 1953-cü ildə nəhəng Yeni Bakı neftayırma zavodu (YBNZ) işə düşdü, digər neftayırma zavodları yenidən quruldu, müasir texnika ilə təchiz edildi. 1976-cı ildə Bakıda ELOU-AVT neftayırma zavodu işə düşdü. Katalitik riforminq üsulu ilə benzin istehsal edən və ilkin qaydada neft emal edən bu texnoloji qurğular kompleksi Azərbaycan neft-qazçıxarma sənayesinin əsaslı surətdə yenidən qurulmasına və yeni texnika ilə təchiz olunmasına, istehsalın effektivliyini, neft məhsullarının keyfiyyətini xeyli yüksəltməyə, xammal və material ehtiyatlarından daha səmərəli istifadə etməyə imkan verdi.

Lakin 1990-cı ildən sonrakı dövrlərdə neftayırma zavodları tam gücləri ilə işləmirdi, ona görə də neft məhsullarının istehsalı və istehlakı müəyyən qədər azalmışdır. Bununla belə, son illərdə neft məhsullarının istehsalı artmağa başlamışdır. 2005-ci ildə neft məhsullarının, demək olar ki, bütün əsas növlərinin istehsalının xeyli artması nəticəsində sahənin ümumi istehsal səviyyəsi 2004-cü ilin səviyyəsini 14,2% üstələmişdir. Neft bitumu 24,1%, yanacaq mazutu 20,1%, dizel yanacağı 17,4%, ağ

neft 15,5%, avtomobil benzini istehsalı 6,4% və s. yüksəlmişdir. Neft məhsullarının istehsalı müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası cədvəl 8-də verilmişdir.

*Cədvəl 8*

***Neft məhsullarının istehsalı müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi o cümlədən: | 14 | 11 | 10 | 8 | 7 |
| dövlət | 3 | 5 | 5 | 4 | 3 |
| qeyri-dövlət | 11 | 6 | 5 | 5 | 4 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 1 | 2 | 2 | 2 | 2 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 2804,4 | 2337,7 | 2357,1 | 3171,5 | 3548,5 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 111,4 | 75,3 | 101,0 | 104,2 | 109,1 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 18,4 | 14,9 | 14,0 | 15,4 | 13,8 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 0,02 | 0,03 | 0,1 | 0,1 | 0,2 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 6,7 | 6,2 | 6,3 | 6,4 | 6,8 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, % | 3,3 | 3,3 | 3,6 | 3,7 | 3,9 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 478,3 | 460,9 | 475,2 | 515,5 | 631,9 |
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 1341,7 | 1500,2 | 1522,0 | 1678,7 | 1882,7 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 104,5 | 72,6 | 50,9 | 132,2 | 144,4 |



| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 3,2 | 1,8 | 0,6 | 0,6 | 0,7 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 103,7 | 100,0 | 129,4 | 102,0 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | | | |
| Avtomobil benzini, min ton | 537,0 | 598,0 | 610,5 | 719,9 | 852,4 |
| Kimya üçün benzin, mln. kubmetr | 200,1 | 130,0 | 193,4 | 212,1 | 264,8 |
| İlkin emal benzini, min ton | 124,8 | 49,5 | 79,5 | 11,5 | 33,8 |
| Ağ neft, min ton | 755,8 | 624,0 | 649,7 | 654,5 | 646,8 |
| Soba mazutu, min ton | 4072,1 | 2648,4 | 2568,8 | 2470,2 | 2520,8 |
| Dizel yanacağı, min ton | 1957,3 | 1562,2 | 1593,5 | 1641,1 | 1789,1 |
| Neft bitumu, min ton | 18,3 | 28,6 | 51,2 | 79,3 | 103,5 |
| Neft koksu, min ton | 11,1 | 23,6 | 71,3 | 20,8 | 25,9 |

***Qazayırma*** – qaz qarışığının öz tərkib hissələrinə və ya müxtəlif fraksiyalara ayrılması prosesini həyata keçirir. Bakıda 1953-cü ildə qazayırma (Qazolin) zavodu tikilib işə salınmışdır. Buna səbəb Azərbaycanda qaz hasilatının sürətlə artması olmuşdur. Lakin son illərdə respublikamızda qaz hasilatı ildən-ilə azalmağa başlamışdır. Azərbaycanda 1990-2005-ci illərdə qaz hasilatının dinamikası cədvəl 9-da verilmişdir.

***Kimya sənayesi*** – ağır sənaye sahələrindən biri, xalq təsərrüfatının kimyalaşdırılmasının maddi-texniki bazasıdır. Kimya sənayesində müxtəlif növ kimya məhsulları – mədən kimya xammalı, əsas kimya məhsulları (məsələn, ammonyak, qeyri-üzvi turşular, qələvilər, mineral gübrələr, soda, xlor və xlor məhsulları, maye qaz və s.), sintetik qatran və plastik kütlə, kimyəvi lif və sap, sintetik rənglər, foto-kimyəvi məhsullar, məişət kimyası malları və s. istehsal edilir. İlk kimya sənayesi müəssisələri Böyük Britaniyada (1740), Fransada (1766), Rusiyada (1805), Almaniyada (1810), Azərbaycanda (1879) yaradılmışdır. 1920-ci ilədək Azərbaycanda kimya sənayesi zəif inkişaf etmişdi və xeyli dərəcədə xarici kapitaldan asılı idi.

*Cədvəl 9*

***Azərbaycanda 1990-2005-ci illərdə qaz hasilatı, mln. kubmetr***

| İllər | Cəmi | O cümlədən | | | |
|---|---|---|---|---|---|
| | | dənizdə | | quruda | |
| | | Mln. kubmetr | Yekuna görə % | Mln. kubmetr | Yekuna görə % |
| 1990 | 9926 | 9525 | 96,0 | 401 | 4,0 |
| 1995 | 6644 | 6407 | 66,4 | 237 | 3,6 |
| 1996 | 6305 | 6066 | 96,2 | 299 | 3,8 |
| 1997 | 5964 | 5712 | 95,7 | 255 | 4,3 |
| 1998 | 5590 | 5338 | 95,5 | 252 | 3,5 |
| 1999 | 5997 | 5754 | 95,9 | 243 | 4,1 |
| 2000 | 6286 | 6054 | 96,2 | 232 | 3,8 |
| 2001 | 5535 | 5293 | 95,6 | 242 | 4,4 |
| 2002 | 5837 | 5582 | 97,2 | 245 | 2,8 |
| 2003 | 5100 | 4865 | 94,6 | 235 | 5,4 |
| 2004 | 4875 | 4745 | 93,6 | 230 | 5,4 |
| 2005 | 5820 | 5580 | 93,4 | 240 | 5,6 |

1920-ci ildən başlayaraq, Azərbaycanda kimya sənayesi daha sürətlə inkişaf etdirilmiş və bir sıra kimya sənaye müəssisələri yaradılmışdır. Bu müəssisələrdə oksigen, azot turşusu, kükürd turşusu, duz turşusu və s. məhsullar istehsal olunurdu.

Azərbaycanda kimya sənayesi xammal bazası – neft və qaz, kükürd kolçedanı, alünit, neft-mədən suları, daş duz və s. əsasında inkişaf edir. Azərbaycan Respublikasında kimya sənayesinin əsas müəssisələri Bakı, Gəncə, Sumqayıt, Neftçala şəhərlərindədir. Hazırda kimya sənaye müəssisələrində etil spirti, sintetik kauçuk, soda, duda, yuyucu vasitələr, yod, brom, kimyəvi maddələr, əczaçılıq preparatları və s. istehsal olunur. Azərbaycan Respublikasında kimya və neft-kimya sənayesinin ümumi məhsulu 1940-1980-ci illərdə 280 dəfədən çox artmışdır.

Kimya sənaye müəssisələrində 2005-ci ildə 2004-cü ilə nisbətən 6,2%-lik artıma nail olunmuşdur. Əsas məhsul növlərindən – lak-boya məmulatları 54,9%, polivinilxlorid lövhələr 34,2%, xlorid turşusu 18,2%, kaustik soda buraxılışı 6,8% artmışdır. Kimya sənayesi müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası cədvəl 10-da verilmişdir.



*Cədvəl 10*

***Kimya sənayesi müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi o cümlədən: | 73 | 89 | 93 | 922 | 89 |
| dövlət | 19 | 19 | 19 | 18 | 16 |
| qeyri-dövlət | 54 | 70 | 74 | 74 | 73 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 10 | 11 | 11 | 13 | 32 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 511,0 | 541,6 | 572,1 | 688,1 | 901,1 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 143,4 | 86,1 | 139,9 | 108,0 | 125,0 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 3,4 | 3,4 | 3,4 | 3,3 | 3,5 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 1,0 | 0,9 | 0,9 | 1,3 | 1,2 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 13,6 | 15,6 | 12,5 | 11,5 | 11,4 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, % | 6,8 | 8,4 | 7,1 | 6,7 | 6,5 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 271,1 | 295,1 | 343,1 | 401,7 | 500,5 |
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 1830,9 | 2378,2 | 2393,0 | 2407,6 | 2463,3 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 6,5 | 6,7 | 17,3 | 14,0 | 16,4 |

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 0,2 | 0,2 | 0,2 | 0,1 | 0,08 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 102,9 | 92,7 | 108,5 | 115,0 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | | | |
| Kaustik soda (maye), min ton | 25,3 | 21,8 | 20,5 | 21,6 | 24,7 |
| Propilen, min ton | 18,5 | 15,9 | 22,9 | 26,7 | 33,1 |
| Etilen, min ton | 40,1 | 31,9 | 46,4 | 50,5 | 61,6 |
| Polietilen, min ton | 32,3 | 27,2 | 40,5 | 47,2 | 59,0 |
| İzopropil spirti, min ton | 18,4 | 16,6 | 36,3 | 38,4 | 46,3 |
| Azot, mlyn. kubmetr | 12,0 | 14,0 | 13,4 | 9,6 | 8,2 |
| Lak-boya məmulatları, min ton | 1,6 | 1,8 | 1,9 | 1,7 | 1,5 |
| Xlorid turşusu, ton | 4510 | 4960 | 6205 | 7942 | 6600 |
| Sulfat turşusu, min ton | 38,0 | 9,5 | 17,0 | 22,5 | 26,7 |
| Barium sulfat, min ton | 32,6 | 37,3 | 21,2 | 28,4 | 37,1 |

***Maşınqayırma*** – xalq təsərrüfatı üçün əmək alətləri, eləcə də istehlak predmetləri və müdafiə məhsulları istehsal edir. Maşınqayırma bütün xalq təsərrüfatının texniki cəhətdən silahlandırılmasının maddi əsasıdır. İctimai əmək məhsuldarlığı, texniki tərəqqi, xalqın maddi rifahı və ölkənin müdafiə qüdrəti xeyli dərəcədə maşınqayırmanın inkişaf səviyyəsindən asılıdır. Maşınqayırmanın ümdə vəzifəsi xalq təsərrüfatının bütün sahələrini yüksək effektivli maşın və avadanlıqlarla təmin etməkdir. Maşınqayırma geniş təkrar istehsalda aparıcı rol oynadığından respublikamızın iqtisadiyyatında xüsusi yer tutur. Azərbaycanda ilk metal emalı müəssisəsi 1858-ci ildə Bakıda yaradılmış mexaniki-təmir emalatxanası olmuşdur. Sonrakı illərdə neft, kimya və gəmiçiliyin inkişafı ilə əlaqədar bu sahələrə xidmət edən maşınqayırma və metal emalı müəssisələrinin sayı artmışdır. 1911-1913-cü illərdə Bakıda 12 maşınqayırma zavodu, 1940-cı illərin axırında isə 127 mexaniki, metal emalı müəssisələri fəaliyyət göstərirdi və həmin müəssisələrdə 8066 nəfər çalışırdı.

Daha sonralar maşınqayırmanın perspektiv və mütərəqqi sahələri – elektrotexnika, cihazqayırma və s. yaradılmış və sürətlə inkişaf etdirilmişdir. Digər tərəfdən, maşınqayırma müəssisələrinin coğrafi yerləşməsi də xeyli genişləndirilmişdir. Bakı ilə yanaşı, Mingəçevir, Gəncə, Sumqayıt, Salyan, Quba, Naxçıvan, Xankəndi və s. şəhərlərdə maşınqayırma müəssisələri yaradılmışdır. Belə müəssisələrə misal olaraq Səttarxan adına Bakı maşınqayırma zavodunu, Keşlə maşınqayırma zavodunu, Bakı mayesiz transformatorlar zavodunu, Bakı məişət kondisionerləri zavodunu və s. göstərmək olar.



Keçmiş SSRİ-də istehsal olunan neft maşınqayırma məhsulunun 35%-i Azərbaycan Respublikasının payına düşürdü. Azərbaycan neft maşınqayırma müəssisələri Sovet hakimiyyəti illərində 500 növdən artıq avadanlıq istehsal edirdi. Bu məhsullar keçmiş SSRİ-nin bütün neft rayonlarına, habelə 30-dan çox xarici ölkəyə ixrac olunurdu. Keçmiş SSRİ-nin neftçıxarma rayonlarında işlədilən dərinlik nasosları, quyuların yeraltı və əsaslı təmiri üçün qaldırıcılar və aqreqatlar, nasos ştanqları, mancanaq dəzgahları, bir neçə neft layını bir quyu vasitəsi ilə birgə və ayrılıqda istismar etmək üçün avadanlıq və s. Azərbaycanda hazırlanırdı.

Artıq Azərbaycanın neft maşınqayırma sənayesi özünün yeni inkişaf mərhələsinə qədəm qoymuşdur. Əvvəllər Dövlət Şirkəti kimi fəaliyyət göstərən sahə ölkədə keçirilən özəlləşdirmə proqramına uyğun olaraq Azərbaycan Respublikasının keçmiş Prezidenti, ümummilli liderimiz Heydər Əliyevin fərmanı ilə açıq tipli səhmdar cəmiyyətinə (ASC) çevrilmişdir. 2001-ci ilin martından bu statusu alan ASC bu gün 14 sənaye müəssisəsini, 4 elmi-tədqiqat və layihə-konstruktor təşkilatlarını öz ətrafında birləşdirir. Cəmiyyətin müəssisələrində 90 çeşiddə, 600-dən artıq tip-ölçüdə geoloji, kəşfiyyat, qazma, neftçıxarma, quyuların əsaslı və yeraltı təmirləri, mədənlərin abadlaşdırılması üçün maşın və avadanlıqlar, texnoloji alət və tərtibatlar, neft maşın və avadanlıqlarına ehtiyat hissələri istehsal edilir.

Neft maşınqayırma sənayesi iki mühüm amilə görə Azərbaycan iqtisadiyyatında əsas rol oynayır. Əvvəla, neft-mədən və kimya avadanlıqlarını dünya bazarına çıxarmaqla ölkəyə valyuta axınını təmin etməyə imkan verir. Digər tərəfdən də, bu sahə Azərbaycanın neft-kimya avadanlıqlarına olan tələbatını tam ödəməyə imkan verir və ölkəyə xaricdən maşın və ava-

danlıqlar idxal edilməsinin qarşısını alır. Odur ki, «Azneftkimyamaş» ASC öz qarşısına beynəlxalq standartlara cavab verən rəqabət qabiliyyətli məhsullar istehsal edilməsi, buraxılan məhsulların keyfiyyətinin yüksəldilməsi, yeni satış bazarlarının mənimsənilməsi, istehsalın həcminin artırılması və s. bu kimi məsələlərinin həllini qoymuşdur. Maşın və avadanlıqlar istehsal edən müəssisələrin işinin əsas göstəricilərinin dinamikası cədvəl 11-də verilmişdir.

*Cədvəl 11*

***Maşın və avadanlıqlar istehsal edən müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi o cümlədən: | 86 | 86 | 85 | 78 | 75 |
| dövlət | 59 | 57 | 54 | 44 | 44 |
| qeyri-dövlət | 27 | 29 | 31 | 34 | 31 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 4 | 5 | 7 | 4 | 12 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 169,9 | 158,4 | 213,6 | 200,1 | 230,1 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 132,4 | 105,4 | 74,8 | 109,0 | 70,4 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 1,1 | 1,0 | 1,3 | 1,0 | 0,9 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 0,1 | 0,06 | 0,03 | 0,3 | 0,5 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 16,6 | 13,6 | 12,8 | 11,2 | 9,7 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, % | 8,3 | 7,3 | 7,2 | 6,6 | 5,5 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 304,5 | 333,4 | 310,1 | 343,7 | 396,9 |



| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 1311,8 | 1360,3 | 1429,0 | 1411,2 | 1393,0 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 18,6 | 1,5 | 0,9 | 2,6 | 3,3 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 0,6 | 0,04 | 0,01 | 0,02 | 0,01 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 104,1 | 103,85 | 100,6 | 103,2 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | | | |
| Quyu işlərinin quyuüstü kipləşdirilmədən aparılması üçün qaldırıcı qurğular və bucurğadlar, ədəd | 35 | 15 | 1 | 3 | 3 |
| Fəvvarə armaturu, ədəd | 163 | 178 | – | – | – |
| Fəvvarə armaturu, ton | – | – | 205,4 | 118,6 | 169,9 |
| Ştanqlı quyu nasosları, ton | 16110 | 8396 | 11322 | 12077 | 12178 |
| Mancanaq dəzgahları, ədəd | 68 | 50 | 190 | 119 | 14 |
| Manifold blokları, ədəd | 63 | 357 | – | – | – |
| Manifold blokları, ton | – | – | 222,3 | 208,1 | 45,4 |
| Tullantılara qarşı avadanlıq, ədəd | 4 | 13 | 19 | 57 | 31 |
| Məişət kondisionerləri, ədəd | 2918 | 1780 | 917 | 1086 | 229 |
| Məişət soyuducuları, ədəd | 801 | 2153 | 4000 | 5400 | 10101 |
| Elektrik şirə sıxanları, qəhvə üyüdənləri, elektrik mikserləri və ət maşınları, ədəd | 2492 | 683 | 302 | 28 | 416 |

***Metallurgiya sənayesi*** – filiz, yaxud digər materiallardan metal alınması proseslərini, habelə metal ərintilərinin kimyəvi tərkib və quruluşunu dəyişdirməklə, onlara müvafiq xassələr verilməsi ilə əlaqədar prosesləri əhatə edən elm, texnika və sənaye sahəsidir. Metallurgiya sənayesinə Yer təkindən çıxarılmış filizlərin ilkin emalı, metal və ərintilər alınması və saflaşdırılması, onlara müəyyən forma və xassələr verilməsi prosesləri aiddir. Arxeoloji tapıntılar metallurgiya sənayesinin hələ çox

qədim zamanlardan məlum olduğunu göstərir. Məsələn, Azərbaycan ərazisində metalın istehsalı və sadə emal üsulları məlum idi. Müasir texnikada metallurgiya qara və əlvan metallurgiyaya ayrılır: qara metallurgiyaya dəmir əsaslı ərintilər (çuqun, polad, ferroərinti), əlvan metallurgiyaya isə qədim metalların istehsalı aiddir. Azərbaycanda Sovet hakimiyyəti illərində metallurgiya sənayesi sürətlə inkişaf etdirilmişdir. Lakin ölkəmiz müstəqillik əldə etdikdən sonrakı illərdə bu və ya digər obyektiv və subyektiv səbəblər üzündən metallurgiya sənayesi öz əvvəlki inkişaf səviyyəsini xeyli azaltmışdır.

Buna baxmayaraq, son illərdə bu sahədə də müəyyən irəliləyişlər əldə edilmişdir. Məsələn, 2005-ci ildə metallurgiya sənayesi müəssisələrində istehsalın həcmi 2004-cü ilə nisbətən 30,2% artmış, əsas məhsul növlərinin istehsalı – poladtökmə 3,2 dəfə, armatur 36,4%, alüminium oksidi 35,5%, çuqun istehsalı 26,5% və s. artmışdır. Metallurgiya məhsulunun təxminən yarısını qeyri-dövlət müəssisələri istehsal etmişdir. Metallurgiya sənayesi müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası cədvəl 12-də verilmişdir.

*Cədvəl 12*

***Metallurgiya sənayesi müəssisələrinin işinin əsas göstəricilərinin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi<br>o cümlədən: | 98 | 111 | 108 | 109 | 103 |
| dövlət | 36 | 28 | 39 | 33 | 33 |
| qeyri-dövlət | 62 | 83 | 69 | 76 | 70 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 75 | 111 | 148 | 179 | 212 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 58,1 | 123,7 | 229,7 | 752,2 | 1229 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 94,2 | 141,7 | 142,9 | 2,7 | 177,6 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 0,4 | 0,8 | 1,4 | 3,6 | 4,8 |



| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 0,1 | 0,6 | 1,4 | 2,8 | 3,6 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 9,8 | 9,2 | 11,3 | 12,3 | 13,1 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, % | 4,9 | 4,9 | 6,4 | 7,2 | 7,5 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 264,2 | 463,3 | 493,1 | 857,5 | 849,1 |
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 1005,3 | 1352,1 | 1538,4 | 1795,1 | 1954,5 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 12,2 | 110,5 | 10,4 | 106,8 | 50,5 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 0,4 | 2,7 | 0,1 | 0,7 | 0,3 |
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 96,2 | 110,2 | 103,1 | 105,5 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | | | |
| Çuqun tökmə, ton | 321,7 | 658,1 | 718,0 | 954,2 | 1219,2 |
| Polad tökmə, ton | 43,0 | 1604,9 | 523,8 | 1530,6 | 21570,3 |
| Polad borular, ton | 3673 | 2076 | 2545 | 5430 | 84,0 |
| Gil-torpaq, min ton | 214,7 | 87,5 | 91,0 | 180,0 | 232,3 |
| Alüminium qapı və pəncərə blokları, ədəd | 1730 | 3060 | 3005 | 5752 | 4639 |

***Meşə sənayesi*** – meşə materiallarının emalı ilə məşğul olan sənaye sahələrinin məcmusudur. Azərbaycan Respublikasının meşələrində təbii halda palıd, fıstıq, vələs, dəmirağac, fındıq, əzgil, zoğal və s. bitir. Azərbaycan ərazisinin 10,8%-i meşəlikdir. Meşə sənayesi taxta qapı və pəncərə blokları, taxta lövhəli parket, taxta taralar və s. istehsalı ilə məşğul olur. Oduncaqların emalı və ağacdan məmulatların istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəricilərinin dinamikası cədvəl 13-də verilmişdir.

Cədvəl 13

**Oduncaqların emalı və ağacdan məmulatların istehsalı ilə məşğul olan müəssisələrin işinin əsas göstəricilərinin dinamikası**

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Fəaliyyət göstərən müəssisələrin sayı, cəmi<br>o cümlədən: | 63 | 87 | 89 | 71 | 67 |
| dövlət | 12 | 10 | 11 | 10 | 8 |
| qeyri-dövlət | 51 | 77 | 78 | 61 | 59 |
| Sənaye fəaliyyəti ilə məşğul olmaq üçün qeydə alınmış fərdi sahibkarların sayı, nəfər | 260 | 439 | 618 | 907 | 1049 |
| Sənaye məhsulunun (işlərin, xidmətlərin) həcmi, mlrd. manat | 9,7 | 10,1 | 13,9 | 9,5 | 23,0 |
| Sənaye məhsulunun fiziki həcm indeksi, % | 194,5 | 83,3 | 124,5 | 97,1 | 100,1 |
| Ölkədə istehsal olunmuş sənaye məhsulunun ümumi həcmində sahənin payı, % | 0,1 | 0,1 | 0,08 | 0,05 | 0,1 |
| Ölkə sənayesinin qeyri-dövlət sektorunda sahənin qeyri-dövlət sektorunun payı, % | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,1 |
| İşləyənlərin orta siyahı sayı, min nəfər | 1,6 | 1,3 | 1,5 | 1,0 | 1,5 |
| Sənayedə məşğul olanların ümumi sayında sahə işçilərinin payı, % | 0,8 | 0,7 | 0,8 | 0,6 | 0,9 |
| Bir işçinin orta aylıq əmək haqqı, min manat | 61,0 | 76,7 | 99,7 | 98,6 | 122,1 |
| İlin sonuna əsas fondların mövcudluğu, mlrd. manat | 62,6 | 74,6 | 74,3 | 85,0 | 85,7 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 0,1 | 0,2 | 1,6 | 0,8 | 0,2 |
| Sənaye sektoruna yönəldilən investisiyaların ümumi həcmində sahəyə qoyulan investisiyaların payı, % | 0,0 | 0,0 | 0,02 | 0,01 | 0,0 |



| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Sənaye məhsulu istehsalçılarının qiymət indeksi,% | – | 85,1 | 106,0 | 94,1 | 108,8 |
| **Əsas məhsul növlərinin natura ifadəsində istehsalı** | | | | | |
| Taxta qapı blokları, ədəd | 3067 | 3497 | 6677 | 6912 | 8645 |
| Taxta pəncərə blokları, ədəd | 5390 | 2732 | 3692 | 3770 | 11546 |
| Taxta lövhəli parket, min metr kvadrat | 20,4 | 14,2 | 28,1 | 19,2 | 11,9 |
| Taxta taralar, ton | – | 5,5 | 6,5 | 5,0 | – |

***Mədən sənayesi*** – faydalı qazıntı yataqlarını kəşf edən, faydalı qazıntıları çıxaran və ilkin emal edən istehsal sahələrini özündə cəmləşdirir. Azərbaycan Respublikasında mədən sənayesi sahələrindən ən çox neft, qaz, dəmir filizi, mərmər, tikinti daşı, mineral su və s. çıxarılması inkişaf etdirilmişdir.

***Neft-kimya sənayesi*** – başlıca olaraq neft və təbii yanar qaz emalı məhsulları əsasında sintetik material və məmulatlar istehsal edir. Adətən, neft-kimya sənayesi müəssisələrində sintetik kauçuk, əsas üzvi sintez məhsulları (məsələn, etilen, propilen, polietilen, səthi aktiv maddələr, yuyucu maddələr, bəzi mineral gübrə növləri və s.), duda, rezin məmulat (məsələn, avtomobil şinləri, texniki rezin məmulatı, çoxişlənən mallar), texniki-asbest məmulatı hazırlanır. Azərbaycanda neft-kimya sənayesi 1920-ci ildən sonra yaranmış və sovet hakimiyyəti illərində sürətlə inkişaf etdirilmişdir. 1952-ci ildə keçmiş SSRİ-də ilk dəfə Azərbaycanın Sumqayıt şəhərində sintetik etil spirti istehsal edən zavod istifadəyə verilmişdir. 1959-cu ildə Bakı Şin zavodu işə salınmışdır. Bütün bunlar neft-kimya sənayesinin ümumi həcmini 2,63 dəfə, o cümlədən texniki rezin məmulatı istehsalını 8,3 dəfə artırmağa imkan vermişdir.

***Tikinti materialları sənayesi*** – mülki mənzil tikintisi üçün, sənaye, kənd təsərrüfatı və digər növ tikinti üçün tikinti materialları istehsal edən sahələri birləşdirən sənaye sahəsidir. Tikinti materialları sənayesi tikintinin maddi-texniki bazasının mühüm hissəsidir, tikinti-quraşdırma işləri həcminin və tikintidə texniki tərəqqinin fasiləsiz yüksəlişini təmin edir. Tikinti materialları sənayesinin Sovet hakimiyyəti illərində sürətlə inkişaf etməsinə baxmayaraq, son illərdə bəzi obyektiv və subyektiv səbəblər

üzündən bu sahədə xeyli geriləmə müşahidə olunur. Tikinti materialları istehsalı müəssisələrində məhsul istehsalının həcmi 2005-ci ildə 2004-cü ilə nisbətən 20,0% çox olmuş, sahənin əsas məhsullarından – tikinti gipsinin istehsalı 5,2 dəfə, tikinti kərpici 31,7%, hörmə üçün hazır beton qarışığı 98,8%, asfalt örtüyü 85,5%, tikinti şüşəsi 19,9%, sement istehsalı 4,9% artmışdır.

## 1.3. Maddi istehsal sahələrinin inkişafında maliyyə bazarının rolu

Dövlət büdcəsinin maddi istehsalın əsas sahələri ilə əlaqələrinin səmərəliliyi iqtisadiyyatın real sektorunda artımı şərtləndirən əsas amillərdəndir. Maliyyə bazarı ilə maddi istehsal sahələri arasında əlaqələrin birtərəfli və qeyri-ahəngdar xarakteri xüsusilə keçid iqtisadiyyatı ölkələrində pul axınlarının hərəkətini tənzimləməklə makroiqtisadi səmərə əldə etməyi çətinləşdirir. Belə ki, pul axınlarının istiqaməti adətən real sektordan maliyyə sektoruna tərəfdir. Əks əlaqənin olmaması, başqa sözlə, maliyyə sektorunun maddi istehsala nəzərən təcrid olunmuş fəaliyyəti normal bazar nöqteyi-nəzərindən arzuolunmaz hesab edilir.

İnvestorlar sərbəst pul vəsaitlərini maddi istehsal sahələrindən daha çox dövriyyənin sürətli olduğu sahələrə yönəltməyə çalışırlar. Həmin sahələrə keçid dövrü iqtisadiyyatı ölkələrində ticarət, xidmət aid edilə bilər. Normal bazarın təşəkkül tapdığı ölkələrdə isə investorlar sərbəst pul vəsaitlərini daha çox qiymətli kağızların alınmasına sərf edirlər. Sənaye sektoruna yönəldilmiş investisiyaların həcmi haqqında məlumatlar cədvəl 14-də verilmişdir.

Faktiki materialların təhlili göstərir ki, əsas kapitala yönəldilmiş investisiyaların tərkibində xarici investisiyaların payı ildən-ilə artır. Belə ki, əgər 1995-ci ildə əsas kapitala yönəldilmiş investisiyaların tərkibində xarici investisiyaların payı 34,5%, 2000-ci ildə isə 52,4% olduğu halda, həmin rəqəm 2004-cü ildə 73,1% olmuşdur. Əsas kapitala yönəldilmiş investisiyalardan xarici investisiyaların xüsusi çəkisi haqqında məlumatlar cədvəl 15-də verilmişdir.



*Cədvəl 14*

***Sənaye sektoruna yönəldilmiş investisiyalar, fəaliyyətdə olan qiymətlə, mlrd. manat***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Bütün sənaye ondan: | 3298 | 4129 | 8148 | 15024 | 19879 |
| xarici investisiyalar | 2315 | 3483 | 7426 | 13239 | 16684 |
| daxili investisiyalar | 983 | 646 | 722 | 1785 | 2895 |
| Mədənçıxarma sənayesi ondan: | 2405 | 3300 | 7194 | 13729 | 18534 |
| xarici investisiyalar | 1678 | 2857 | 6659 | 12969 | 16152 |
| daxili investisiyalar | 727 | 503 | 535 | 755 | 2882 |
| Emal sənayesi ondan: | 400 | 313 | 142 | 389 | 729 |
| xarici investisiyalar | 203 | 204 | 40 | 79 | 378 |
| daxili investisiyalar | 198 | 109 | 102 | 310 | 351 |

*Cədvəl 15*

***Əsas kapitala yönəldilmiş investisiyalardan xarici investisiyalar***

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|
| Milyard manat | 393,5 | 2537,7 | 36665,4 | 7804,7 | 14507,9 | 17994,0 |
| Ümumi həcmində payı, % | 34,5 | 52,4 | 62,4 | 74,3 | 76,8 | 73,1 |

Məlumat üçün qeyd edək ki, müəssisə və təşkilatların qarşılıqlı hesablaşmalardakı qarşılıqlı borclarının astronomik səviyyəyə çatması müəssisə və təşkilatların öz vəsaitləri hesabına əsas kapitala investisiyalarda iştirakını məhdudlaşdıran mühüm amilə çevrilmişdir. Müəssisə və təşkilatların bank ssudaları və qarşılıqlı borcları haqqında məlumatlar cədvəl 16-da verilmişdir.

Müasir dövrdə inkişaf etmiş ölkələrdə ödəmələrin gecikdirilməsi və ixracatçıların kreditə olan tələbatının artması kreditin yeni forması olan lizinq, faktorinq və forfetləşdirmənin inkişafına gətirib çıxarır. Lizinq əməliyyatları yalnız inkişaf etmiş ölkələr üçün deyil, eyni zamanda beynəlxalq borcları çox olan ölkələr üçün də sərfəlidir. Lizinq xidmətinin genişləndirilməsi

*Cədvəl 16*

**_Müəssisə və təşkilatların bank ssudaları və qarşılıqlı borcları, mlrd. manat_**

| İllər | Cəmi | o cümlədən: bank hesablaşmaları üzrə | qarşılıqlı hesablaşmalar üzrə |
|---|---|---|---|
| 1990 | 128,0 | 37,0 | 91,0 |
| 1995 | 9481,1 | 588,1 | 6893,0 |
| 2000 | 17394,6 | 500,8 | 16893,8 |
| 2001 | 9893,0 | 672,2 | 9220,8 |
| 2002 | 13607,9 | 558,1 | 13049,8 |
| 2003 | 7472,1 | 594,9 | 6877,2 |
| 2004 | 8290,5 | 275,3 | 8015,2 |

istehsal bölmələrini möhkəmləndirir, strateji mühüm sahələrin inkişafı üçün əlverişli şərait yaradır.

Beynəlxalq miqyasda lizinqin inkişafına likvid vəsaitlərinin kifayət qədər olmaması, investisiyaların optimallaşdırılmasını tələb edən rəqabətin kəskinləşməsi, müəssisələrin mənfəətinin azalması, istehsalı arzu olunan qədər genişləndirmək üçün vəsaitayırma imkanlarının məhdudlaşması və iqtisadi artımın stimullaşdırılması üçün hökumət və maliyyə orqanları tərəfindən lizinq əməliyyatlarına yardım edilməsi təsir etmişdir.

Lizinqin inkişafı ona dövlət səviyyəsində edilən vergi və gömrük güzəştlərindən də çox asılıdır. Bu, «Azərlizinq»in fəaliyyət dairəsinin genişləndirilməsinə, əldə edilən vəsait hesabına ölkənin lizinq bazarında xarici şirkətlərlə uğurlu rəqabət aparmağa, əldə edilən vəsaitlərin xaricə axmamasına gətirib çıxarır.

İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, vergiləri artırmaqla büdcə xərclərini örtmək cəhdləri əlavə təsirli tədbirlər olmadan uğursuzluqla nəticələnir. Vergi bazarını genişləndirərək vergi yükünü azaltmaqla vergi ödəyicilərinin fəaliyyətini yüksəltməyə yönəldilmiş yeni Vergi Məcəlləsi irəliyə doğru atılmış addım hesab oluna bilər. Bununla belə, gəlirin xeyli hissəsinin vergiyə tutulması, bir çox inkişaf etmiş dünya ölkələrinin təcrübəsinə görə, nəinki təkrar istehsalın genişləndirilməsini, hətta istehsalın sadə təkrarlanmasını da stimullaşdırmağa imkan vermir.



Hazırda iri istehsal sahələrinin tam gücü ilə işləməməsi respublikamızda büdcə gəlirlərinin formalaşmasına mane olur. Ona görə də kapital qoyuluşunun məhdudluğu və müəssisələrə dövlət yardımının hazırkı qeyri-qənaətbəxş səviyyəsində onlardan tutulan mənfəət vergisi dəyişkən dərəcələrlə tətbiq edilməli, yəni mənfəət artdıqca, vergiyə cəlb olunan mənfəətin kütləsi də azalmalıdır.

İnkişaf etmiş və bir sıra inkişaf etməkdə olan ölkələrdə əsas kapitalın maliyyələşdirilməsində məqsədli proqramlardan istifadə üzrə çox faydalı təcrübə əldə edilmişdir. Bu istiqamətdə Azərbaycanda görülən işlər əsasən karbohidrogen ehtiyatlarının mənimsənilməsi və emalı sahələrində həyata keçirilir.

Məlumat üçün qeyd edək ki, 1996-cı ildən başlayaraq istehsal təyinatlı obyektlərin tikintisinə yönəldilən investisiyaların həcmi ildən-ilə artır. Belə bir hal Azərbaycan sənayesinin, xüsusilə onun aparıcı sahələrindən biri olan neft sənayesinin dinamik inkişafını təmin edir. İndi ölkəmiz sənaye istehsalının həcminin artım sürətinə görə dünyada lider dövlətdir. İstehsal və qeyri-istehsal obyektləri üzrə kapital qoyuluşunun dinamikası cədvəl 17-də verilmişdir.

*Cədvəl 17*

**_İstehsal və qeyri-istehsal obyektləri üzrə kapital qoyuluşunun dinamikası, %_**

| | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 | 2005 |
|---|---|---|---|---|---|---|---|---|
| Kapital qoyuluşu - cəmi o cümlədən: | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| istehsal təyinatlı | 63,5 | 54,7 | 81,8 | 88,0 | 89,2 | 92,1 | 90,5 | 90,0 |
| qeyri-istehsal təyinatlı | 36,5 | 45,3 | 18,2 | 12,0 | 10,8 | 7,9 | 9,5 | 10,0 |

## 1.4. İstehsal amilləri və istehsal potensialı, onların qarşılıqlı əlaqəsi və optimal nisbətləri

Məlumdur ki, iqtisadi ədəbiyyatlarda bəzən «İqtisadi resurslar» ifadəsi ilə yanaşı, «İqtisadi amillər» ifadəsinə də rast gəl-

mək olur. Belə isə, görəsən, onlar eyni mənaya daşıyır və ya bir-birindən fərqlənirlər?

Adətən, istehsal resursları dedikdə, istehsala cəlb oluna bilən təbii və sosial qüvvələr nəzərdə tutulur, istehsal amilləri dedikdə isə artıq real surətdə istehsal prosesinə cəlb olunan resurslar başa düşülür. Deməli, «İstehsal resursları» anlayışı «İstehsal amilləri» anlayışından daha geniş məna daşıyır. Başqa sözlə, istehsal resursları ***«baza»*** resursları olduğu halda, istehsal amilləri istehsalın ilkin nəticələrinə həlledici təsir göstərən hər bir mühüm ünsür və ya obyekt olmaqla ***«törəmə»*** resurslardır. Bu baxımdan, istehsal resurslarından fərqli olaraq, istehsal amilləri yalnız qarşılıqlı fəaliyyət çərçivəsində olur. Odur ki, istehsal daima onun amillərinin qarşılıqlı fəaliyyət birliyini təşkil edir. Beləliklə, maddi nemətlərin hazırlanmasında hansı amillərin iştirak etməsi məsələsinin araşdırılması mühüm əhəmiyyət kəsb edir.

Ümumiyyətlə, istehsal amillərinin araşdırılmasında, tədqiqində müxtəlif yanaşma mövqeləri mövcuddur. Məsələn, marksizm nəzəriyyəsi *iş qüvvəsi*, *əmək cisimləri* və *əmək vasitələri* kimi istehsal amillərini iki qrupa: istehsalın şəxsi və maddi amilləri qrupuna ayırır.

***İstehsalın şəxsi amilinə*** həmişə iş qüvvəsi, yəni insanın əməyə fiziki və əqli qabiliyyətlərinin məcmusu kimi baxılır. Bütün istehsal vasitələrinin məcmusu isə ***maddi amil*** kimi qəbul edilir. İstehsal prosesinin gedişatında şəxsi və maddi amillər mürəkkəb qarşılıqlı fəaliyyət sistemi yaradır. Bunun da səmərəliliyi istehsalın texnologiyası və təşkili ilə müəyyən olunur. Bununla texnologiya istehsalın başlıca amilləri arasında qarşılıqlı fəaliyyəti ifadə edir. O, müxtəlif emal üsullarından istifadə edilməsini, əmək cisimlərinin vəziyyətinin, forma və xüsusiyyətlərinin dəyişməsini nəzərdə tutur.

İstehsalın təşkili isə bütün istehsal amillərinin uyğunlaşdırılmış, sinxronlaşdırılmış fəaliyyətini, onların mütənasib kəmiyyət nisbətlərini, qarşılıqlı əvəzlənməsini və s. təmin edir.

Xalq təsərrüfatı miqyasında istehsalın təşkili səmərəli sahə strukturunun seçilməsini, ölkənin regionlarının dinamik inkişafını tələb edir. Sənaye sahələri çərçivəsində istehsalın təşkili onun təmərküzləşməsində, müəssisələrin səmərəli ölçüsünün seçilməsində və texniki-iqtisadi cəhətdən əsaslandırılmasında,



onların ixtisaslaşmasında, kooperativləşməsində, kombinələşməsində və yerləşdirilməsində təzahür edir. Təmərküzləşmə, ixtisaslaşma, kooperativləşmə və kombinələşmə istehsalın sahələr üzrə, yerləşdirmə isə ərazi üzrə təşkili formalarıdır. İstehsalın təşkilinin bütün formaları qarşılıqlı əlaqədədir. Belə ki, elmi-texniki tərəqqi ayrı-ayrı aqreqatların gücünün artırılması və deməli, müəssisələrin də gücünün artırılması yolu ilə istehsalın yüksək təmərküzləşməsi imkanını təmin edir. Eyni zamanda istehsalın daha bərabər yerləşdirilməsi, kiçik və orta şəhərlərin (rayonların) inkişaf problemlərinin həlli, xırda və orta, lakin yüksək ixtisaslaşdırılmış müəssisələrin yaradılmasını, mövcud müəssisələrin texnoloji cəhətdən yenidən qurulmasını tələb edir. Müəssisələrdə istehsalın təşkili əsas istehsalın köməkçi və xidmətedici sex və təsərrüfatlarla səmərəli əlaqələndirilməsini nəzərdə tutur. Ayrı-ayrı müəssisələrdə istehsalın təşkilinə daxildir: istehsalın texniki hazırlığının, istehsala texniki xidmətin, məhsulun keyfiyyətinə nəzarətin, maddi-texniki təchizatın təşkili, zavoddaxili planlaşdırma, əməyin təşkili və s. Bazar iqtisadiyyatı şəraitində istehsalın təşkilinin təkmilləşdirilməsi müəssisələrdə mövcud ehtiyatlardan səmərəli istifadə olunması, çox xərc çəkmədən ictimai əmək məhsuldarlığının yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

Marjinalist nəzəriyyə istehsal amillərini dörd qrupa ayırır: torpaq, əmək, kapital, sahibkarlıq fəaliyyəti. ***Torpağa*** təbii amil kimi baxılır, çünki o, insan fəaliyyətinin nəticəsi deyildir. Bu istehsal amilinə istehsal prosesinə cəlb edilmiş təbii sərvətlər, mədən yataqları aiddir. Bu kateqoriyaya əkin yerləri, meşələr, sular və s. daxil edilir. Torpaq istehsal amili kimi üçlü məna kəsb edir: geniş mənada o, istehsal prosesində istifadə olunan bütün təbii resursları təmsil edir. Belə ki, bəzi sahələrdə, məsələn, aqrar, mədən sənayesində, balıqçılıq istehsalında «torpaq» təsərrüfatçılıq obyektidir. O, eyni zamanda həm «əmək cismi», həm də «əmək vasitəsi» kimi özünü büruzə verir. İqtisadiyyatın bütün sahələrində «torpaq» mülkiyyət kimi çıxış edir; bütün həyat, o cümlədən maddi nemətlər istehsalı onun üzərində qurulur.

***Kapital*** istehsal amili kimi əmtəə istehsalında və xidmətlər göstərilməsində istifadə edilən nemətlər məcmusu formasında çıxış edir. Bu nemətlərə əmək alətləri, maşın və avadanlıqlar,

anbar binaları, nəqliyyat və rabitə vasitələri və s. aiddir. Elmi-texniki tərəqqi nəticəsində onların texniki vəziyyəti daim təkmilləşdirilir, istehsal prosesinin ümumi nəticəsinə və onun səmərəliliyinə, istehsal prosesində əmək vasitələri formasında olan kapital vasitəsilə əmək cisimlərinə həlledici təsir göstərərək istehlak dəyərlərinə çevrilirlər.

Məlumat üçün qeyd edək ki, kapital haqqında müxtəlif mülahizələr mövcuddur. Məsələn, bir qrup iqtisadçılar qeyd edirlər ki, kapital istehsal vasitələridir. Belə mülahizənin müəllifləri siyasi iqtisadın klassikləri sayılan A.Smit və D.Rikardo olmuşlar. Belə ki, A.Smitə görə kapital toplanmış və maddiləşmiş əməkdir; D.Rikardo hesab edirdi ki, kapital istehsal vasitələridir. Fransa iqtisadçıların fikrincə kapital – torpaqdır.

XX əsrin görkəmli iqtisadçıları U.Baumol və A.Blinder qeyd edirdilər ki, ***kapital – firma, fərd və yaxud bəzi başqa təşkilatların sahib olduqları müəssisə ehtiyatları, avadanlıqlar və digər istehsal resurslarıdır.*** P.Samuelson və U.Nordhauzun yazırdılar ki, kapital – yeni əmtəələrin istehsalı üçün iqtisadiyyatın yaratdığı, uzun müddət istifadə olunan nemətlərdən ibarətdir. ***Bu nemətlərə müasir iqtisadiyyatın əsasını təşkil edən dəzgahlar, bahalı kompüterlər, böyük çəkiclər, yük maşınları, prokat dəzgahlar, binalar*** və s. daxildir. D.Beqq, S.Fişer və R.Dornbuşa görə fiziki kapital – başqa nemətlər və xidmətlər istehsalına sərf olunan nemətlər ehtiyatıdır.

***C.Robinsonun fikrincə, «indiki zamanda mövcud olan kapital nemətlər həmin andakı bütün nemətlərdir».*** Lakin onun fikrincə, bütün mövcud olanları kapitala aid etmək olmaz. Məsələn, zibil topası (tayası), Kazbek və Elbrus dağları kapital deyildir. Nemətlərin xarakterini müəyyən edən fərqləndirici cəhət onların dəyərinin olmasıdır.

***Kapital puldur.*** S.Fişer, D.Bent, R.Doribuş, B.Mints, M.Şvarts, C.Robinson kimi iqtisadçılar iddia edirlər ki, kapital «pul məbləği» və «qiymətli kağızlar», eyni zamanda «maliyyə kapitalı»dır.

***Kapital insanın əmtəələr istehsalında və xidmətlər göstərilməsində istifadə olunan biliyi və təcrübəsi, onun sərf etdiyi enerjidir.*** «İnsan kapitalı»a gəlirlərin mənbəyi kimi baxılır. İnsanın təhsilinə çəkilən xərclər «insan kapitalı»a yönəldilən investisiyadır. Bu isə gələcək gəlirlərin kəmiyyətini müəyyən edir. Bura sağlamlığın mühafizəsi, qorunub saxlanılması, ixtisasın artırılması və s. xərclər də aiddir. Belə nöqteyi-nəzərə C.Bekker, F.Maxlun və başqaları tərəfdar çıxırlar.



***Kapital – vaxtdır.*** Vaxt – gəlir yaradan sərbəst amildir. Lakin deyilənləri nəzərə alsaq, onda deyə bilərik ki, kapital istehsal vasitələrdir, adamlardır və puldur.

Marksın kapital haqqındakı fikri yuxarıda qeyd etdiyimiz iqtisadçıların fikrindən xeyli fərqlənir. Belə ki, Marksın fikrincə, kapital mürəkkəb anlayışdır. ***Adi baxışda kapital konkret formada, yəni istehsal vasitələri (sabit kapital), pul (pul kapitalı), adam (dəyişən kapital) və əmtəə kapital şəkilində özünü büruzə verir, fəqət bunlar öz-özlüyündə kapital deyil, istehsal münasibətlərini xarakterizə edir.*** Ona görə də kapitalın bir sıra tərifi mövcuddur. Belə ki:

Kapital – muzdlu fəhlənin əməyi ilə yaradılan, öz-özünə artan dəyərdir.

Kapital – bir hərəkətdir, yəni dövran prosesidir ki, bu, müxtəlif mərhələlərdən keçir və bunun özündə dövran prosesinin üç müxtəlif forması vardır. Bu, kapitalın pul formasından əmtəə, sonra istehsal, yenidən əmtəə və yenə pul forması kimi dəyər formasının dəyişməsidir. Deməli, pul əmtəə forması almasa, kapital ola bilməz.

Kapital əşya deyil, müəyyən ictimai münasibətdir ki, əşyada təmsil olunması ona spesifik ictimai xarakter verir.

Beləliklə, deyilənlərdən aydın olur ki, kapitalın tam mahiyyətini, yəni iqtisadi məzmununu yalnız Marks açmışdır. Belə ki, Marksa görə kapital müxtəlif formalar, o cümlədən adamların ictimai münasibətləri formasını kəsb edən hərəkətdir.

***Əmək*** – əmtəələrin hazırlanmasına və xidmətlərin göstərilməsinə yönəldilən, sərf edilən əqli və fiziki fəaliyyətdir. Bu amil cəmiyyətdə adamların bilavasitə istehsal prosesində çalışan hissəsidir. Bu hissənin fəaliyyəti nəticəsində həm iş qüvvəsinin, həm də kapitalın istehlakı prosesi baş verir, yəni məqsədə – istehsal və xidmətlərin son nəticələrinə nail olunur. Odur ki, insanın əməyi nə qədər yüksək olarsa, onun kapitalı və müvafiq olaraq əldə etdiyi gəlir də, yəni əmək haqqı bir o qədər çox olar. Deməli, əmək insan cəmiyyətinin həyat fəaliyyəti

və inkişafının əsasıdır. Əməyin məzmunu – nemətlərin hazırlanmasında və xidmətlərin göstərilməsində istifadə olunan texnikanın, texnologiyanın və istehsalın təşkilinin növü ilə müəyyən olunur. Texniki tərəqqi nəticəsində istehsalda ağır əl əməyinin xüsusi çəkisi azalır, əqli əməyin əhəmiyyəti və payı artır.

Sahibkarlıq fəaliyyəti də istehsal amillərinin mühüm tərkib hissəsini təşkil edir. Qərb ölkələrində sahibkarlıq fəaliyyəti o qədər nüfuzlu bir fəaliyyət növüdür ki, ona müstəsna amil kimi diqqət yetirilir. Bütün dünyada getdikcə daha böyük əhəmiyyət kəsb edən sahibkarlıq fəaliyyəti istehsalın təşkilində xüsusi qabiliyyət, bazar konyunkturasında düzgün istiqamət bacarığı, fərasət və ağıllı risk tələb edir. Sahibkarlıq fəaliyyətinin əsas məqsədi rentabelli istehsalın təşkil edilməsini təmin etməkdən ibarətdir.

Sahibkarlıq qabiliyyəti insan kapitalının xüsusi növüdür. Bu, özünü əmək məhsulu hazırlamaq və xidmətlər göstərmək məqsədilə, bütün digər istehsal amillərinin əlaqələndirilməsi və kombinələşdirilməsi sahəsindəki fəaliyyətdə göstərir. Bu insan resursunun fərqli spesifikası istehsal prosesində kommersiya əsasında yeni məhsul növləri istehsalını, texnologiyasını, müəyyən risk dərəcəsində biznesin təşkili formalarını tətbiq etmək və zərərçəkmə imkanlarını anlamaq bacarığı və istəyindən ibarətdir.

Müasir dövrdə göstərilən amillərlə yanaşı, ekoloji amil də böyük əhəmiyyət kəsb edən amillərdən biridir. Çünki bu, həm iqtisadi artımın stimulu, həm də istehsalın ekoloji cəhətdən pisləşməsi ilə əlaqədar onun imkanlarını məhdudlaşdıran amil kimi çıxış edir.

Məlumat üçün qeyd edək ki, istehsal amilləri bir-birilərilə qarşılıqlı surətdə əlaqədardır, biri digərini tamamlayır və onlardan birgə istifadə edildikdə müsbət nəticələr əldə edilir. Bu isə məhsulun və xidmətlərin müxtəlif istehlak xüsusiyyətlərinə səbəb olur. Amillərin qarşılıqlı əvəz olunması yalnız tələbatın spesifikliyi və məmulatların konstruksiya müxtəlifliyi ilə deyil, həm də başlıca olaraq bir tərəfdən resursların məhdudluğu və digər tərəfdən onlardan səmərəli istifadə edilməsi zəruriliyindən irəli gəlir. Bu məqsədlə sahibkar elə istehsal texnikası və texnologiyası seçib istehsala tətbiq etməlidir ki, onlar nadir tapı-



lan və bahalı istehsal amillərindən istifadəni təmin etmiş olsunlar.

Təcrübə və aparılan tədqiqatlar göstərir ki, istehsal amilləri bir-birini müəyyən həddə qədər əvəz edə bilər. Məsələn, maşınlar canlı əməyi istehsalda maksimum səmərə verə biləcək həddə qədər əvəz edə bilər və əksinə. Deməli, istehsal amillərinin əvəzlənməsi elmi cəhətdən əsaslandırılmalıdır, yəni istehsal amilləri optimal nisbətdə olmalıdır. Bunu resurslardan, xüsusilə tükənən resurslardan daha səmərəli istifadə etmək, istehsal amillərinin düzgün əlaqələndirilməsi və faydalı əvəzlənməsi mənafeyi, getdikcə güclənən rəqabət mübarizəsi şəraitində bazarda üstün mövqe tutmaq cəhdi tələb edir. Ona görə də sahibkar çalışır ki, istifadə etdiyi istehsal amilləri dəstində hər bir amilin daha çox gəlir gətirməsi üçün onların optimal nisbətdə sərfinə nail olunsun.

Bu problemin həllinə nail olunması respublikamızın iqtisadiyyatını yüksəltmək baxımından çox vacibdir. Məlumdur ki, ölkəmiz hər cür istehsal resursları ilə çox zəngindir. Odur ki, ölkəmizin mənafeyi və xalqın rifahının yüksəldilməsi onlardan səmərəli və optimal nisbətdə istifadə olunmasını tələb edir.

## 1.5. Sahənin istehsal potensialı ilə istehsal proqramı arasındakı asılılıq

Məlumdur ki, istehsal potensialı ilə istehsal proqramı arasında sıx qarşılıqlı əlaqə mövcuddur. Belə ki, istehsal potensialına əsasən sahənin (müəssisənin) istehsal proqramı işlənib hazırlanır. Başqa sözlə, ***istehsal proqramı*** – cari ildə istehsal olunmalı məhsulun (işin, xidmətin) həcmini və tərkibini müəyyən edən sahənin (müəssisənin, sexin və s.) proqramının əsas tərkib hissəsidir. Bazar iqtisadiyyatı şəraitində sahənin (müəssisənin) istehsal proqramı dövlət tapşırıqları, istehlakçıların sifarişləri və bağlanmış müqavilələr əsasında formalaşır.

İstehsal proqramının işlənib hazırlanması və yerinə yetirilməsində məqsəd ictimai tələbatın daha dolğun ödənilməsindən, malgöndərmə üzrə müəyyən olunmuş müddətdə öhdəliklərin yerinə yetirilməsindən, məhsulun keyfiyyətinin hərtərəfli yüksəldilməsindən, mövcud ehtiyatlardan və istehsal potensialından daha səmərəli istifadə olunmasından ibarətdir.

Bütün sənaye müəssisələrində olduğu kimi, neft-qazçıxarma idarələrində istehsal proqramını yüksək səviyyədə həyata keçirmək üçün aşağıdakı tələblər nəzərə alınmalıdır: birincisi, istehsal proqramı elə tərtib olunmalıdır ki, onun yerinə yetirilməsi dövlət tərəfindən verilmiş tapşırıqların, bağlanmış təsərrüfat müqavilələrinin və istehlakçıların sifarişlərin tam və vaxtında yerinə yetirilməsini təmin etmiş olsun; ikincisi, istehsal proqramında nəzərdə tutulmuş göstəricilər elmi cəhətdən əsaslandırılmalıdır, yəni o, elmi-texniki tərəqqinin nailiyyətlərini, qabaqcıl istehsalat təcrübəsini, yenilikçilərin tövsiyələrini özündə əks etdirməlidir; üçüncüsü, istehsal proqramı müəssisənin bütün istehsal bölmələrinin ahəngdar və birqərarda gedişatını təmin etməlidir, çünki bu, müəssisənin mövcud istehsal potensialından, material-enerji, əmək və maliyyə resurslarından səmərəli istifadəni təmin edir və öhdəliklərin vaxtında yerinə yetirilməsinə şərait yaradır; dördüncüsü, istehsal proqramı optimal olmalıdır, yəni istehsal proqramı elə işlənib hazırlanmalıdır ki, əksər sex və istehsal sahələri tərəfindən yerinə yetirilmiş olsun və nəhayət, istehsal proqramı müəssisənin mövcud istehsal aparatından tam və dolğun istifadə olunmasını təmin etməlidir.

Neft sənayesinin tərkibinə daxil olan struktur bölmələrində işlənib hazırlanan istehsal proqramlarının tərkibi və strukturu eyni deyildir, çünki hər bir konkret struktur bölməsində istehsal proqramının tərkibi və strukturu istehsalın təşkili tipindən, texnika ilə silahlanma səviyyəsindən, struktur bölməsinin məqsəd və iqtisadi strategiyasından, onun ixtisaslaşma səviyyəsindən və s. amillərdən asılı olaraq formalaşdırılır. Odur ki, neft sənayesində istehsal proqramını işləyib hazırlamaq üçün müxtəlif göstəricilər sistemindən istifadə edilir. Belə göstəricilər sisteminə aiddir:

***Geoloji-kəşfiyyat kontoru üzrə:*** geoloji-kəşfiyyat işlərinin həcmi; aşkar edilmiş neft, qaz və qaz-kondensat yataqlarının sayı; həmin yataqlarda kateqoriyalar üzrə neft, qaz və qaz-kondensat ehtiyatları.

***Qazma kontorları üzrə:*** qazma metrlərinin miqdarı; qazmanın sürəti; qazılmağa başlanmış quyuların sayı; qazmanın orta dərinliyi; bir baltaya düşən qazma metrlərinin miqdarı; bir metr qazmanın maya dəyəri; bir quyunun qazılıb istismara verilməsi müddəti; bir quyunun qazılmasına sərf ediləcək xərclərin həcmi və s.



***Neft mədənləri üzrə:*** hasil ediləк neft, qaz və qaz-kondensatın həcmi; lay təzyiqi və temperaturu; lay rejimləri; layın neftvermə əmsalı; quyuların istismar üsulları üzrə neft, qaz və qaz-kondensat hasilatının həcmi; bir ton neftin və bir kubmetr qazın maya dəyəri; quyunun gündəlik neft və qazvermə qabiliyyəti və s.

***Neft emalı üzrə:*** emal olunan neft və qazın həcmi; neft məhsullarının ayrı-ayrı növləri üzrə istehsalının həcmi; neft məhsullarından istifadə əmsalı; neft və neft məhsullarının daşınmasına, saxlanılmasına və istehlakçılara çatdırılmasına çəkilən xərclərin miqdarı; bir ton neftin və bir metrkub qazın emal edilməsinin maya dəyəri və s.

***Neft maşınqayırma kompleksi üzrə:*** istehsal ediləcək məhsulun həcmi, nomenklaturası, çeşidi və keyfiyyəti; mühüm məhsul növlərinə istehlakçıların tələbatı; mövcud istehsal gücü və ondan istifadə səviyyəsi; istehsal gücünün yerinə yetirilməsi üçün lazım olan material-enerjinin miqdarı; işçilərin sayı və s.

Ümumi şəkildə neft sənayesində istehsal proqramını işləyib hazırlamaq üçün natural, dəyər və əmək göstəricilərindən istifadə edilir. Natural göstəricilər istehsalın həcmini ona xas olan natural formada səciyyələndirir və hadisələrin fiziki vəziyyətini əks etdirən vahidlərlə ölçməyə imkan verir. Məsələn, maşınqayırma zavodlarında istehsal proqramına belə göstəricilər aşağıdakılardır: natural ifadədə əsas məhsul növlərinin istehsalı, hər il məhsulun təzələnmə əmsalı, cari ildə realizə olunacaq məhsulun həcmi (bağlanmış müqaviləyə, yerinə yetirilmək üçün götürülmüş sifarişlərə uyğun nomenklaturada – çeşiddə, keyfiyyətdə və müddətdə malgöndərmə öhdəliklərinin yerinə yetirilməsinin qiymətləndirilməsi üçün).

Lakin natural ölçülər yalnız eyni cinsli məhsul həcmini təyin etməyə qadirdir. Təqribən eyni təyinatlı məhsulların tipləri, ölçüləri və markaları çox müxtəlif olduqda şərti-natural ölçülərdən istifadə edilir, yəni şərti olaraq buraxılan bütün məhsul növləri baza kimi qəbul edilmiş bir növə gətirilir. Bir sıra hallarda neft maşınqayırma kompleksində istehsal proqramını işləyib hazırlamaq üçün iki natural göstəricidən istifadə edilir.

Məsələn, güc transformatorları ədədlə və kilo-vatla planlaşdırılır. Şərti-natural göstəricilər də natural göstəricilər kimi universal xarakter daşımır. Ona görə də dəyər göstəricilərindən istifadə etmək lazım gəlir ki, bunlar da natural və şərti-natural göstəricilərə nisbətən universal olsalar da, bəzi təhriflərə məruz qalırlar. Belə ki, onlarda bu və ya digər səviyyədə maddiləşmiş əmək öz əksini tapır.

Beləliklə, istehsal proqramını işləyib hazırlamaq üçün dəyər göstəricilərindən istifadə edilməsi zərurəti yaranır. İstehsal proqramının dəyər göstəricilərinə ümumi məhsul, əmtəəlik məhsul, realizə məhsulu, normativ xalis məhsul, normativ emal dəyəri, xalis məhsul və şərti xalis məhsul aiddir.

## 1.6. Müasir dövrdə sahənin istehsal potensialından səmərəli istifadə problemləri

***İstehsal potensialı*** sahənin iqtisadi gücünün dəyərcə və maddi-əşyaca səciyyələndirilməsini, istehsal aparatının müəyyən tərkibdə, texniki səviyyədə, keyfiyyətdə və maksimum həcmdə məhsul istehsal etmək qabiliyyətini ifadə edir. Sahə səviyyəsindəki istehsal aparatının məcmusu istehlak dəyəri kimi istehsal potensialı – eyni növ məhsul buraxan müəssisələrin istehsal güclərinin cəmi ilə xarakterizə edilir. Müasir dövrdə istehsal aparatının modernləşdirilməsi və kompleks yeniləşdirilməsi prosesləri istehsal potensialının keyfiyyətcə təkmilləşdirilməsinə və genişləndirilməsinə istiqamətləndirilmişdir.

Eyni zamanda, istehsal güclərinin yüksəldilməsinin artırılması, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması əsasında yaradılmış istehsal potensialından intensiv istifadə olunması vəzifələri həll edilir. Ən yeni texnika və ondan maksimum istifadə əsasında istehsal potensialının inkişafı istehsalın intensivləşdirilməsinin və sahənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinin mühüm zəminidir. Bununla belə hər bir sahənin (müəssisənin) istehsal potensialı istehsal resurslarının mövcudluğu ilə bağlıdır. Deməli, istehsal resurslarından səmərəli istifadə etməklə, sahənin istehsal potensialını xeyli artırmaq olar.

***İstehsal resursları*** – sahənin dövriyyə vəsaitinin istehsal sa-



həsində olan hissəsidir. İstehsal resurslarına istehlakçılarda olan, lakin hələ bilavasitə istehsal prosesinə cəlb edilməyən (texnoloji tsiklin ilk əməliyyatını keçməyən) əmək cisimləri – xammal, material, yanacaq, satın alınan yarımfabrikatlar, komplektləşdirici məmulatlar, alət və ehtiyat hissələr, quraşdırma avadanlıqları daxildir. İstehsal resursları maddi resursların müəssisəyə daxil olması və istehlakı şərtlərini nəzərə almaqla istehsalın fasiləsizliyini və normal ahəngini təmin etmək üçün nəzərdə tutulur. İstehsal resursları natural, əşya, sahə və ərazi strukturuna malikdir.

İstehsal resurslarının həcmi fiziki vahidlə, yaxud dəyər ifadəsində, dövriyyənin sürəti isə istehsalı təminetmə günləri ilə ölçülür. Müəssisələrdə istehsal resurslarının əksər hissəsini istehsal ehtiyatları, yəni müəssisənin anbarında olan resurslar təşkil edir. Əmək ehtiyatlarının həcmi fiziki vahidlə, yaxud dəyər ifadəsində, dövriyyəsinin sürəti isə istehsalı təminetmə günləri ilə ölçülür. Müəssisələrdə istehsal ehtiyatları təchizatın ahəng və etibarlığını əks etdirən üç hissəyə – cari, hazırlıq və sığorta hissələrinə bölünür.

***Cari hissə*** müəyyən edilmiş (müqavilə və sifarişlərdə nəzərdə tutulmuş) malgöndərmə şərtlərinə əsasən maddi ehtiyatlar dəstənin növbə ilə daxil olması arasındakı fasilə zamanı istehsalı təmin etmək üçündür. ***Hazırlıq hissəsi*** məhsulun növbəti dəstinin daxil olması vaxtı ilə istehsala buraxılması vaxtı arasındakı dövrdə istehsalı təmin etmək üçündür. İstehsal ehtiyatlarının ***sığorta hissəsi*** məhsulun istehlakçılara daxil olmasının nəzərdə tutulmuş müddəti pozulduqda istehsalın normal gedişatını təmin edir.

Məlumdur ki, istehsal ehtiyatlarının formalaşması və salamat saxlanılması xeyli xərc tələb edir. İstehsal ehtiyatlarının dövriyyəsinin sürətləndirilməsi, həmçinin optimallaşdırılması – müəssisələr arasında müqavilələrin rolunun artırılması ilə, malgöndərmə intizamının möhkəmləndirilməsi, topdan ticarətin inkişafı, birbaşa uzunmüddətli təsərrüfat əlaqələrinin genişləndirilməsi, istehlakçıların anbar təchizatının payının artırılması və təşkilinin yaxşılaşdırılması, ehtiyatların proqnozlaşdırılması və tənzimlənməsi metodlarının təkmilləşdirilməsi ilə əldə edilir.

***Müqavilə intizamı*** – tərəflərin müqavilələri, onlarda nəzər-

də tutulmuş bütün öhdəliklərin tam və vaxtında icra edilməsi deməkdir. Müqavilə intizamının gözlənilməsi – bazar iqtisadiyyatının mühüm şərtlərindən biridir. Təsərrüfat müqavilələri içərisində malgöndərmə müqavilələri mərkəzi yer tutur. Malgöndərməyə dair müqavilə intizamı həm tərəflərin razılığında göstərilən öhdəliklərin, həm də əsasında müqavilə bağlanılan tapşırıqların, sifarişlərin yerinə yetirilməsini nəzərdə tutur. İstehsalçı müəssisələr (malgöndərənlər) üçün onların buraxdıqları məhsullara ictimai tələbat təsərrüfat müqavilələrində və naryad-sifarişlərdə konkretləşdirilir.

Hazırda məhsulun bağlanmış müqavilələrə və icra üçün qəbul olunmuş naryad-sifarişlərə uyğun olaraq reallaşdırılması üzrə proqnozun vaxtında, həm də məhsul nomenklaturası, kəmiyyəti və keyfiyyəti üzrə yerinə yetirilməsi, müəssisənin fəaliyyətini qiymətləndirməkdə birinci dərəcəli meyar olmuşdur. Malgöndərmə müqaviləsini tam yerinə yetirən əmək kollektivində əlverişli iqtisadi vəziyyət yaranır. Belə şəraitdə müqavilələrin dəqiq reallaşdırılmasında qarşılıqlı məsuliyyəti və marağı gücləndirmək üçün bir-biri ilə bağlı olan tərəflərin birgə tədbirlər işləyib hazırlaması xüsusilə mühüm əhəmiyyət kəsb edir. Müqavilə öhdəliklərinin tam həcmdə yerinə yetirilməsində və vaxt müddətlərinə əməl olunmasında müəssisələr əmlak, maddi və mənəvi məsuliyyət daşıyırlar. Müqavilə intizamı yalnız müəssisələrdən deyil, həmçinin maddi-texniki təchizat orqanlarının, nəqliyyatın, idarəetmənin bütün pillələrinin işindən asılıdır. Müqavilə intizamı həmçinin müəyyən olunmuş qaydada bağlanan və hər iki tərəfin üzərinə müəyyən vəzifələr qoyan podrat, daşıma, borc, kollektiv və əmək müqavilələrinin şərtlərinə əməl olunmasını da nəzərdə tutur.



# FƏSİL 2. ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFINDA NEFT STRATEGİYASININ ROLU VƏ YERİ

## 2.1. Neft strategiyasının mahiyyəti, məqsədi və vəzifələri

Azərbaycanın yeni neft-qaz strategiyasının inkişafı 1994-cü ilin sentyabr ayının 20-dən başlamışdır. 1994-cü il sentyabrın 20-də «Xəzər dənizinin Azərbaycan sektorunda Azəri, Çıraq yataqlarının və Günəşli yatağının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında» Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında sonralar tarixə «Əsrin müqaviləsi» kimi düşən böyük saziş imzalandı. Bu saziş ümummilli lider Heydər Əliyev cənablarının yeni neft-qaz strategiyasının və ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi oldu. Bütün böyük layihələr kimi, təbii ki, bu saziş də asan başa gəlməmişdi, daşlı-kəsəkli yollardan keçmişdi.

Artıq «Əsrin müqaviləsi»nin imzalanmasından on iki il keçir. Bu dövrdə Azərbaycan öz müstəqilliyini möhkəmləndirmiş, suverenliyini və dövlətçiliyini inkişaf etdirmiş, ictimai-siyasi sabitliyə, iqtisadiyyatda irəliləyişə nail olmuş və bazar iqtisadiyyatı prinsipləri istiqamətində tədricən dünya iqtisadiyyatına inteqrasiyanı təmin etmişdir. Bu illər ərzində Azərbaycan neftçiləri çoxsaylı problemləri dəf edərək yeni-yeni nailiyyətlər əldə etmişlər. Ümummilli liderimiz Heydər Əliyevin yeni neft-qaz strategiyasının həyata keçirilməsi nəticəsində Azərbaycan Cənubi Qafqazda və Xəzər regionunda mühüm geosiyasi rol oynamağa başlamış, nəinki neft və qaz ehtiyatlarına görə, eyni zamanda Qara dəniz və Xəzər dənizi hövzələrindəki mövqelərinə görə regionun aparıcı dövlətinə çevrilmişdir.

Azərbaycan Respublikası Dövlət Neft Şirkəti keçən 10 il ərzində dünyanın aparıcı neft şirkətləri ilə birlikdə neft və qazın hasilatı, onların dünya bazarlarına çıxarılması, Azərbaycanın neft-qaz yataqlarının işlənilməsi, istismarı üzrə birgə proqrama uyğun olaraq böyük həcmdə işlər görmüşdür. Bu müddət ərzində respublikamızın ictimai-siyasi və iqtisadi həyatında xüsusi əhəmiyyət kəsb edən yeni neft-qaz strategiyası və doktrinası uğurla həyata keçirilmiş və bu zaman kəsiyində Azərbaycan

Respublikasında ümumi neft hasilatının vəziyyəti kökündən dəyişməyə başlamışdır. Belə ki, əgər neft hasilatı 1997-ci ildə 9 mln. ton olmuşdursa, həmin rəqəm 2004-cü ildə 15,5 mln. tona çatdırılmışdır.

Azərbaycan Respublikasının neft-qazçıxarma sənayesi bugünkü səviyyəyə çox da asanlıqla gəlib çatmamışdır. Məlum olduğu kimi, müstəqilliyinin ilk illərində Azərbaycan Respublikasının digər sənaye sahələri kimi neft-qazçıxarma sənayesi də maliyyə və texniki xarakterli bir sıra çətinliklərlə üzləşmişdir. Əsas problemlər Sovet İttifaqının dağılması və keçmiş müttəfiq respublikalar arasında iqtisadi əlaqələrin birdən-birə qırılması ilə bağlı idi. Bu səbəbdən texniki təchizat sıfıra enmiş, xalq təsərrüfatının əsas sahələri, o cümlədən neft-qazçıxarma sənayesi dərin böhranla üzləşmişdir. Hətta o vaxtlar artıq kəşf olunmuş və Xəzər dənizinin Azərbaycan sektorunun dərin sulu hissəsində yerləşmiş iri neft-qaz yataqları – «Azəri», «Çıraq» və «Günəşli» (dərin sulu hissəsinin) yataqlarının neft-qaz ehtiyatlarının işlənməyə daxil edilməsi texniki vasitələrin, təchizatın və əsasən maliyyə vəsaitinin çatışmaması səbəbindən mümkün olmamışdır. Odur ki, Azərbaycan xalqının tələbi ilə ikinci dəfə hakimiyyətə gələn cənab Heydər Əliyev respublikanın neft-qazçıxarma sənayesinin yenidən bərpası və inkişafı ilə yaxından məşğul olmağa başladı. Neft-qazçıxarma sənayesində yaranmış çətin vəziyyətdən çıxmaq və yataqların mənimsənilməsi üçün ya 15-20 il ölkəmizin maliyyə-iqtisadi vəziyyətinin yaxşılaşmasını gözləmək, ya da respublikanın sosial-iqtisadi durumunu nəzərə alaraq xarici neft şirkətləri ilə əməkdaşlıq etmək kimi iki variantdan birini seçmək lazım idi. Azərbaycan Respublikasının Prezidenti cənab Heydər Əliyev ölkəmizin sosial-iqtisadi vəziyyətini nəzərə alaraq, xarici neft şirkətlərini Azərbaycan Respublikasına dəvət etmək və birgə işləmək variantına üstünlük verdi.

Məlumat üçün qeyd edək ki, o zamanlar Azərbaycan Respublikasında xarici neft şirkətləri ilə birgə işləmək məsələsinə qonşu dövlətlər, xüsusilə Rusiya və İran İslam Respublikası qısqanclıqla yanaşırdılar. Əvvələ, o vaxtlar Azərbaycan Respublikasında Xəzər dənizinin dərin sahələrində işləmək imkanı yox idi; ikincisi isə, birgə işlərin aparılmasını həyata keçirən yalnız Azərbaycan deyildi. Dünya praktikasında iri neft layihələrində ABŞ, İngiltərə, Fransa, Norveç və s. kimi dövlətlər alyanslar təşkil etmişlər və heç vaxt bu cür işlərin yerinə yetirilməsində təkbaşına risk etmirlər.



1994-cü ilin 20 sentyabrında cənab Heydər Əliyevin iştirakı ilə Dövlət Neft Şirkəti və dünyanın 8 ölkəsindən olan 11 iri neft şirkəti arasında sonralar «Əsrin müqaviləsi» adını almış «Azəri», «Çıraq» və «Günəşli» (suyun dərin hissəsi) yataqlarının birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında sazişin imzalanması keçirildi. Bu sazişin mühüm iqtisadi faydasından başqa, başlıca əhəmiyyəti ondan ibarətdir ki, dünyanın aparıcı dövlət və şirkətləri Azərbaycan Respublikasının müstəqil dövlət və etibarlı müttəfiq olduğuna tam əminliklə inandılar. Beləliklə, «Əsrin müqaviləsi» bütün dünya ölkələrinin Azərbaycan Respublikasına inamını artırdı və sonradan dünyanın ən böyük neft şirkətlərinin ölkəmizə gəlişinə şərait yaratdı. Bununla da, Azərbaycan Respublikası öz qapılarını xarici investisiyalar üçün taybatay açdı.

«Əsrin müqaviləsi»nin imzalanmasından keçən bu vaxt ərzində Çıraq-1 özülündən 18 quyu qazılmışdır ki, bunlardan 14-ü istismar, 4-ü isə suvurma quyularıdır. Hazırda «Çıraq» yatağında gündə orta hesabla 21 min tona yaxın neft və 3,6 milyon kubmetrə qədər səmt qazı hasil olunur. Bütövlükdə isə 1994-cü ilin oktyabr ayına kimi Çıraq-1 özülündən 34,7 milyon ton neft və 7,2 mlrd. kubmetr mavi yanacaq çıxarılmışdır.

Məlum olduğu kimi, «Əsrin müqaviləsi»nə «Çıraq»dan başqa «Azəri» və «Günəşli» yataqları da daxildir. «Azəri-Çıraq-Günəşli» yataqlarında tammiqyaslı işlənmə proqramına uyğun olaraq qazma, istismar və texnoloji özüllər tikilməsi, eyni zamanda bu yataqlarda proqram üzrə digər işlərin həyata keçirilməsi, eləcə də «Fasilə» Lay kəsəsindən ehtiyatların kəşfiyyatı, istismara daxil edilməsi və s. kimi başqa texniki işlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur. Beləliklə, saziş müddəti ərzində bu yataqlarda 233 quyunun qazılması, təxminən 730 milyon ton neft və 150 mlrd. kubmetr səmt qazının çıxarılması proqnozlaşdırılır.

Hasil edilən neft hələlik iki istiqamətdə: Bakı-Novorossiysk və Bakı-Supsa neft kəmərləri vasitəsilə ixrac edilir. 2004-cü ilin oktyabrınadək bu kəmərlər vasitəsilə 45 milyon tondan ar-

tıq neft ixrac olunmuşdur.

Artıq 5 ilə yaxındır ki, «Azəri-Çıraq-Günəşli» yataqları, o cümlədən Azərbaycan «mənfəət nefti»ndən gəlir əldə etməyə başlamışdır. Əgər 1999-cu ilin sonuna qədər hasil edilən neftin satışından əldə edilən gəlir yalnız istismar və kapital xərclərinin ödənilməsinə sərf olunurdusa, 1999-cu ilin dekabrında Azərbaycanın «mənfəət nefti» ilə doldurulmuş ilk tanker dünya bazarlarına çıxarılmışdır. Bu günə kimi ölkəmizin payına düşən «mənfəət nefti» ilə yüklənmiş 37 tankerlə 4,8 milyon tondan çox neft xarici bazarlara çıxarılmışdır. Bu neftin satışından əldə edilən xalis gəlir Azərbaycan Respublikası Dövlət Neft Fonduna toplanmışdır ki, bu da xalqa xidmət edir. Azərbaycanın «mənfəət nefti»nin ixracı ilbəil artmaqdadır.

«Əsrin müqaviləsi» imzalandıqdan sonra 22 neft sazişi imzalanmışdır ki, bunlardan 15-i Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən sahələri üzrədir. «Əsrin müqaviləsi» dəniz sahələri üzrə bağlanılmış yeganə sazişdir ki, kəşf olunmuş yataqlara aiddir. Digər sazişlər isə karbohidrogen yataqlarının aşkar edilməsi üçün axtarış-kəşfiyyat işlərinin aparılması lazım olan perspektiv sahələr üzrə bağlanmışdır. Aparılan axtarış-kəşfiyyat işləri xarici neft şirkətlərinin qoyduqları sərmayələrin hesabına həyata keçirilir. Sazişlərdə dünyanın 15 ölkəsindən, o cümlədən ABŞ, Böyük Britaniya, Rusiya, Fransa, İtaliya, Yaponiyadan 34 neft şirkəti iştirak edir. Bu sazişlərin həyata keçirilməsi nəticəsində yerinə yetiriləcək işlərə təxminən 60 mlrd. ABŞ dollarına yaxın ümumi sərmayə qoyuluşu nəzərdə tutulmuşdur. 2004-cü ilin oktyabrınadək neft və qaz sektoruna 10 mlrd. ABŞ dollarına yaxın sərmayə yönəldilmişdir ki, bunun da 7 mlrd. ABŞ dollarından çoxu «Əsrin müqaviləsi»nin payına düşür.

«Əsrin müqaviləsi»nin imzalanmasının 8-ci ildönümü ərəfəsində, yəni 2002-ci il sentyabrın 18-də müstəqil Azərbaycan Respublikası üçün daha bir əlamətdar hadisə baş vermişdir. Ölkəmiz üçün həm iqtisadi, həm də siyasi cəhətdən mühüm əhəmiyyət kəsb edən bu əlamətdar hadisə yeni neft-qaz strategiyasının həyata keçirilməsində növbəti mərhələnin başlanğıcını qoydu. Belə ki, respublikamızın keçmiş Prezidenti Heydər Əliyevin, Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Əhməd Necdət Sezərin və Gürcüstan Respublikasının keçmiş prezidenti



cənab Eduard Şvardnadzenin iştirakı ilə «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin «təməl daşı»nın qoyuluşu mərasimi keçirildi və bu nəhəng layihənin həyata keçirilməsinə «xeyir-dua» verildi.

Beləliklə, Azərbaycan neftinin Avropa və dünya bazarlarına daha çox ixracını reallaşdırmaq üçün möhkəm əsas yaradıldı. Bu kəmərin neftötürmə gücü ildə 50 milyon ton və ümumi dəyəri təqribən 3 milyard ABŞ dollarına bərabərdir. Kəmər nəinki Azərbaycan neftinin dünya bazarına çıxarılmasına imkan verəcək, həmçinin «İpək yolu»nun üstündə yerləşən dövlətlər üçün də əsas enerji dəhlizi olacaqdır. «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin istiqamətinin seçilməsi ümummilli lider Heydər Əliyevin böyük siyasi uzaqgörənliyinin və cəsarətinin nəticəsi idi.

«Əsrin müqaviləsi»nin uğurla həyata keçirilməsi ölkəmizin qaz sənayesində də mühüm dəyişikliklərə səbəb olmuşdur. Ehtiyatları 1 trilyon kubmetr qaz, 200 milyon tondan çox kondensat olan «ah-dəniz» kimi nəhəng qaz-kondensat yatağının kəşf edilməsi belə qənaətə gəlməyə əsas verir ki, Azərbaycan Respublikası yaxın gələcəkdə qaz idxal edən ölkədən qaz ixrac edən ölkəyə çevriləcəkdir. Bu yatağın işlənməsi və istismar edilməsi üçün «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinə paralel «Bakı-Tbilisi-Ərzurum» qaz ixrac kəməri çəkiləcək. Bu kəmər vasitəsilə Azərbaycan qazı Gürcüstan ərazisindən keçməklə Türkiyəyə, oradan da Avropa ölkələrinə ixrac ediləcəkdir. «Bakı-Tbilisi-Ərzurum» qaz kəmərinin uzunluğu 970 km, qazötürmə qabiliyyəti ildə 30 milyard kubmetr, dəyəri təxminən 1 milyard ABŞ dollarına bərabərdir.

Azərbaycanın yeni neft-qaz strategiyasının uğurla həyata keçirilməsi üçün keçən dövr ərzində çox böyük həcmdə işlər görülmüş, Dövlət Neft Şirkətinin müəssisə və obyektlərinin bir çoxu əsaslı təmir edilmiş, modernləşdirilmiş və dünya standartları səviyyəsinə çatdırılmışdır. «Dədə Qorqud», «İstiqlal» qazma qurğuları, «Azərbaycan» kran gəmisi, «İsrafil Hüseynov» borudüzən gəmisi və neft sənayesinə xidmət edən çoxlu gəmilər, eləcə də digər infrastruktur obyektləri bərpa olunmuşdur. Bakıda tamamilə yeni bir qurğu – dənizin 105 metr dərinliklərində axtarış-kəşfiyyat işləri aparan «Qurtuluş» üzən qazma

qurğusu tikilib istifadəyə verilib. Bakıda və Sinqapurda Danimarkanın Maersk şirkəti tərəfindən Xəzər dənizinin 1000 metr dərinliyində 9140 metr dərinliyinədək quyu qazmaq imkanına malik olan «Lider» qazma qurğusunun (DSS-20) tikintisi başa çatdırılıb. Hazırda bu qurğu vasitəsilə «Zəfər» yatağında kəşfiyyat quyusu qazılır.

Məlumat üçün qeyd edək ki, yeni neft-qaz strategiyasının həyata keçirilməsində qərbdən gətirilən texnika və texnologiyanın da çox böyük rolu vardır. Xüsusilə tikinti-quraşdırma işlərində və yataqların işlənilməsində, neft-qaz quyularının qazılmasında və istismarında tətbiq edilən dünya səviyyəli yeni texnika, texnologiyalar və avadanlıqlar neft sənayesinə müsbət təsir göstərmişdir. Belə ki, Azərbaycanda ilk dəfə olaraq «Mərkəzi Azəri» yatağında 48 quyudan ibarət dərin dəniz özülü tikilir və onun yerində bərkidilməsində yeni üsuldan istifadə edilir. Bu işləri «AMEK-Tekfen-Azneft» alyansı icra edir ki, buraya da 38 yerli subpodrat təşkilat cəlb edilmişdir.

Məlum olduğu kimi, Səngəçal terminalı dünya miqyasında ən iri neft terminalından birinə çevrilir. Hazırda «Azneft-Tekfen» alyansı burada terminalın genişləndirilməsi proqramını həyata keçirir. «Enterpos» şirkəti isə hər birinin tutumu 125 min kubmetr (880 min barel) olan üç nəhəng neft çəni inşa edir. Qeyd etmək lazımdır ki, bu terminala «Azəri» yatağından gələn 186 kilometrlik 30 düymə sualtı neft və 187 kilometrlik 28 düymə sualtı qaz kəmərlərinin tikintisi artıq başa çatmışdır.

1994-cü ildən keçən dövrlərdə yeni neft-qaz strategiyasının uğurla həyata keçirilməsi nəticəsində sənaye məhsulu istehsalında 1990-cı illərin əvvəllərindən başlayaraq davam edən tənəzzül 1997-ci ilin əvvəllərində dayandırılmış, müəyyən irəliləyişlər əldə olunmuş, bu müsbət meyllər sonrakı illərdə daha da inkişaf etmiş və dönməz xarakter almışdır. Ölkə iqtisadiyyatındakı müsbət irəliləyiş qiymətlərin maksimum dərəcədə sabit qalmasına, əhalinin həyat səviyyəsinin və alıcılıq qabiliyyətinin sabitləşməsinə, nominal pul gəlirlərinin artırılmasına, ailə büdcəsində ehtiyatların yaradılmasına imkan vermişdir.

Respublika iqtisadiyyatının formalaşmasında və inkişafında neft sektorunun mühüm rolu vardır. Ölkə rəhbərliyi tərəfindən düzgün neft strategiyasının müəyyən edilməsi nəticəsində



Azərbaycanda neft və qeyri-neft sahələrinə sərmayə qoyuluşu davam edir. Dövlət Neft Fondunun yaradılması, mənfəət karbohidrogenlərindən gələn gəlirlərin toplanması gələcək iqtisadi proqramların həyata keçirilməsinə, öz doğma yurd yerlərindən didərgin düşmüş qaçqın və məcburi köçkünlərimizin maddi təminatının yaxşılaşdırılmasına imkan verir. Rəqəmlərin dili ilə desək, 2004-cü ildə ölkədə aparılan iqtisadi islahatların dərinləşdirilməsi və iqtisadi sabitliyin qorunub saxlanılması nəticəsində ümumi daxili məhsul 2003-cü illə müqayisədə 10,6% artaraq 29,6 trilyon manata çatmışdır. Əgər 2003-cü ildə ÜDM-in 1% artımı 235,9 milyard manat əlavə dəyərə bərabər idisə, 2004-cü ildə bu, 266,7 milyard manat təşkil etmişdir. Adambaşına istehsal olunan 3,7 milyon manatlıq ümumi daxili məhsul 2001-ci ilə nisbətən 9,8% artmışdır. Bu göstəriciyə görə Azərbaycan Respublikası MDB ölkələri içərisində Rusiya, Ukrayna, Belorus və Qazaxıstandan sonra beşinci yerdədir. ÜDM-in 34,9%-i sənayenin, 14,2%-i kənd təsərrüfatının, 10,8%-i tikintinin, 7,8%-i nəqliyyatın, 2%-i rabitənin, 30,3%-i isə sosial və digər xidmət sahələrinin payına düşür.

Məlumat üçün qeyd edək ki, «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissələrinin çıxarıla bilinən ehtiyatları 4,6 milyard barel (620 milyon ton) neft və təmənnasız olaraq ölkəmizə çatacaq 3,5 trilyon kub fut (99 milyard kubmetr) səmt qazından ibarətdir. Yataqların tammiqyaslı işlənməsi üçün tələb olunan sərmayə qoyuluşu 10 milyard ABŞ dollarından artıqdır. Neft hasilatında ən yüksək səviyyə gündəlik 800 min bareldən 1 milyon barelədək (il ərzində 40-50 milyon ton) olacağı proqnozlaşdırılır.

Saziş qüvvəyə mindikdən sonra Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə tərəfdaşlıqda işləmək, habelə tərəfdaşlar adından sazişi reallaşdırmaq üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradıldı. İlk dövrdə bu quruma 11 xarici neft şirkəti daxil oldu: BP, AMOKO, YUNOKAL, LUKoyl, Statoyl, Ekson, TRAO, Pennzoyl, MakDermott, Remko və DNKL. Keçən dövr ərzində müqavilə iştirakçılarının tərkibində müəyyən dəyişikliklər baş vermişdir. Belə ki, hazırda bu sazişə Devon, İtocu, Delta Hess neft şirkətləri də qoşulmuşdur. 1999-cu ilin iyun ayından etibarən BP ABƏŞ-in vahid operatorudur.

Azərbaycan Respublikasının yeni neft-qaz strategiyası sahənin iqtisadi-təsərrüfat fəaliyyətinin həm yaxın, həm də uzaq perspektivlərdəki məqsəd və strategiyasının işlənib hazırlanmasını özündə əks etdirir. Neft-qazçıxarma sənaye sahəsinin məqsədi onun iqtisadi inkişafının əsas istiqamətlərinin konsepsiyasını müəyyən edir. Strategiya isə müəyyən edilmiş məqsədə nail olmaq üçün əsaslandırılmış tədbir və proqramların işlənib hazırlanmasını nəzərdə tutur.

Yeni neft strategiyasının həyata keçirilməsi nəticəsində 1996-cı ildən başlayaraq Azərbaycan iqtisadiyyatının inkişaf və yüksəliş dövrü başlanmışdır. Belə ki, 1991-1995-ci illərdə iqtisadi inkişafın əsas makroiqtisadi göstəricisi sayılan ümumi daxili məhsulun real həcmi orta hesabla ildə 20-25%, sənaye məhsulu istehsalı isə 15-20% azaldığı halda, 1996-2005-ci illərdə bütün makroiqtisadi göstəricilər 2-3 dəfədən çox artmış, ölkənin strateji valyuta ehtiyatları çoxalaraq bir milyard üç yüz milyon dollara çatmışdır. Son 12 ildə Azərbaycanda ÜDM istehsalı 18,3 dəfə artaraq, 2005-ci ildə 11875,6 mln. trilyon manat olmuşdur.

1993-2002-ci illərdə adambaşına ÜDM istehsalı 222,1 min manatdan 3,7 milyon manata (756,3 ABŞ dolları) çatmış və ya 16,6 dəfə artmışdır. Bu göstəriciyə görə Azərbaycan Respublikası MDB ölkələri arasında Rusiya, Ukrayna, Belarus və Qazaxıstandan sonra beşinci yeri tutur. 2002-ci ildə ÜDM istehsalının orta illik artım tempi Qırğızıstanda 8,6%, Ukraynada 5%, Belarusda 4%, Ermənistanda 3,3% təşkil etdiyi halda, Azərbaycanda 9,1% olmuşdur. 2002-ci ildə ümumi daxili məhsulun 59,8%-i maddi istehsal sahələrində, 32,9%-i xidmət sahələrində və 7,3%-i isə digər sahələrdə yaradılmışdır. Bu sahədə yeni neft-qaz strategiyası mühüm rol oynamışdır. Təkcə bunu göstərmək kifayətdir ki, 1997-ci ilin noyabrında istismarına başlanan «Çıraq» yatağından 2003-cü ilin əvvəlinədək 24,5 milyon ton neft və 3,5 milyard kubmetr qaz hasil edilmişdir. 2002-ci ildə Azərbaycanda hasil edilmiş neftin həcmi 15,3 milyon tona çatmışdır ki, bu da son 24 ildə əldə edilmiş rekord göstəricidir. Bütün bunlar respublika iqtisadiyyatının, o cümlədən sənayenin inkişafına müsbət təsir göstərmiş və onun davamlı inkişafının əsasını qoymuşdur.



Yeni neft-qaz strategiyasını işləyib hazırlayan zaman neftqazçıxarma sənaye sahəsinin elmi-texniki potensialı və istehsal-satış imkanları nəzərə alınır. Ümumiyyətlə, Azərbaycan Respublikasının yeni neft-qaz strategiyası aşağıdakıları nəzərdə tutur:

a) sahənin və onun ayrı-ayrı struktur bölmələrinin strateji məqsəd və vəzifələrinin formalaşdırılmasını və əsaslandırılmasını;

b) sahənin istehsal-təsərrüfat fəaliyyətinin güclü (müsbət) və «zəif» (qüsur) cəhətlərinin müəyyənləşdirilməsini və araşdırılmasını. Sahənin istehsal-təsərrüfat fəaliyyətinin araşdırılmasında ən mühüm vəzifə – tapşırıq və sifarişlərin (bağlanmış müqavilələrin) yerinə yetirilməsi nəticələrini qiymətləndirməkdən, istehsaldaxili ehtiyatları vaxtında aşkara çıxarıb səfərbərliyə almaqdan, verilmiş tapşırıqların və sifarişlərin elmi cəhətdən əsaslandırmaqdan, lazımi informasiyaları toplamaqdan və s. ibarətdir;

c) sahənin mövcud və gələcəkdə mümkün olacaq istehsal-təsərrüfat fəaliyyətinin son nəticələrini müəyyənləşdirməsini. Sahə miqyasında istehsalın son nəticələrini əks etdirən ən mühüm göstəricilərə – müqavilələr (sifarişlər) üzrə malgöndərmə öhdəliklərinin yerinə yetirilməsi, mənfəətin məbləği, material və maliyyə ehtiyatlarından istifadənin səmərəlilik səviyyəsi və s. aiddir;

ç) sahənin makro və mikromühitinin təhlilini və onun nəticələrindən praktikada istifadə edilməsini. Bu zaman sahənin mikro və makromühit amilləri nəzərə alınır;

d) sahənin (müəssisənin) istehsal-təsərrüfat fəaliyyətinin inkişaf alternativlərinin müəyyənləşdirilməsi və onların içərisindən ən səmərəlisinin seçilməsini;

e) sahənin illik büdcəsinin işlənib hazırlanmasını.

Neft-qazçıxarma sənayesinin yeni neft-qaz strategiyasını işləyib hazırlayan zaman müəyyən keyfiyyət və kəmiyyət göstəricilərindən istifadə edilmişdir. Keyfiyyət göstəriciləri praktikada istiqamətləndirmə (meylləmə) adlanır, kəmiyyət göstəriciləri isə – proqramların işlənib hazırlanmasını ifadə edir. Başqa sözlə, istiqamətləndirmə müəyyən strategiyanın işlənib hazırlanması əsasında sahənin gələcək dövrlərdəki məqsədidir. Hər bir məqsədin özünəxas strategiyası vardır. Çünki bir məqsəd

üçün işlənib hazırlanmış strategiya digər məqsəd üçün istifadə edilə bilməz. Bu o deməkdir ki, hər bir strategiya konkret məqsədə xidmət edir və ona görə sahənin məqsədi bu və ya digər səbəb üzündən dəyişərsə, onda onun strategiyası da dəyişməlidir. Sahənin ümumi (qlobal) və spesifik (xüsusi) məqsədləri fərqləndirilir. Ümumi məqsədlər sahənin gələcək dövrlərdəki inkişaf perspektivlərini özündə əks etdirir. Sahənin ümumi məqsədi onun fəaliyyətinin ayrı-ayrı istiqamətləri üzrə müəyyən edilir və bunun üçün, adətən, aşağıdakı göstəricilərdən istifadə edilir:

***Sahənin optimal rəqibinin müəyyən edilməsi üzrə:*** satış həcminin artma tempi; mənfəət norması və istehsalın rentabellik səviyyəsi; vahid səhmdən əldə edilən gəlirin məbləği; səhmin qiyməti; sahənin inkişafına yönəldilmiş kapitalın strukturu; dividentin səviyyəsi; əmək haqqı fondunun məbləği; məhsulun rəqabət qabiliyyəti.

***Sahənin dayanaqlı vəziyyətinin (pozisiyasının) təmin edilməsi üzrə:*** elmi-tədqiqat işlərinin həyata keçirilməsinə və yeni istehsal sahələrinin yaradılmasına sərf ediləcək xərclərin məbləği (investisiya qoyuluşunun həcmi); istehsal xərclərinin azaldılması faizi; yeni əlverişli bazarların aşkar edilməsinə çəkilən xərclərin miqdarı; sahənin xarici-iqtisadi fəaliyyətinin səmərəlilik dərəcəsi; sahənin əmək, material-enerji resursları ilə təmin olunma imkanları; sahənin sosial inkişafına yönəldilən kapitalın həcmi və s.

***Sahənin yeni fəaliyyət növünün və inkişaf istiqamətinin müəyyənləşdirilməsi üzrə:*** bu sahənin struktur siyasətinin işlənib hazırlanması üzrə tapşırıqlar; yeni məhsul növlərinin yaradılması və mənimsənilməsi üzrə sifarişlər; realizə ediləcək səhmlərin dəyəri və həcmi.

Sahənin spesifik məqsədləri onun ümumi məqsədləri əsasında işlənib hazırlanır və ona görə də həmin məqsədlər elə olmalıdır ki, onların yerinə yetirilməsi sahənin ümumi məqsədinin həyata keçirilməsini təmin etmiş olsun. Adətən, sahənin spesifik məqsədlərinə aşağıdakılar aiddir:

***a) sahənin hər bir struktur bölməsi üzrə rentabelliyin təmin edilməsi üzrə məqsədlər*** – özündə məhsul (iş, xidmət) satışından əldə ediləcək mənfəətin səviyyəsini, mənfəət normasını, mənfəətin illik artım tempini, vahid səhmə görə dividentin kütləsini əks etdirir;

***b) elmi-tədqiqat işləri üzrə məqsədlər*** – yeni növ məhsulların (işlərin, xidmətlərin) yaradılması və mənimsənilməsi, sahə tərəfindən buraxılan məhsulların bazarın tələblərinə uyğunluq dərəcəsinin müəyyənləşdirilməsi, istehsalın texniki-iqtisadi səviyyəsinin təkmilləşdirilməsi üzrə işləri əhatə edir;

***c) məhsul satışı üzrə məqsədlər*** – müəyyən satış həcminə nail olmağı, onun daima artırılmasını, yeni məhsul növlərinin mənimsənilməsini, bazar kanallarının bölgüsü üzrə tələblər sistemini nəzərdə tutur;

***ç) istehsal üzrə məqsədlər*** – özündə mövcud material-texniki, əmək və maliyyə resurslarından daha səmərəli istifadə edilməsini təmin edən normativ göstəricilərin müəyyənləşdirilməsini, müxtəlif proqramların işlənib hazırlanmasını, istehsal xərclərinin azaldılmasını, məhsulun keyfiyyəti üzərində nəzarətin təşkilini, buraxılan məhsulların modernləşdirilməsini, yeni məhsul növlərinin yaradılmasını və tətbiqini və s. əks etdirir.

Strategiyanın işlənib hazırlanmasının və həyata keçirilməsinin mahiyyəti sahənin istehsal-təsərrüfat fəaliyyətinin daha da inkişaf etdirilməsinin müxtəlif, alternativ variantları içərisindən ən səmərəli variantı seçib, onun istehsal-təsərrüfat fəaliyyətini həmin səmtə yönəltməkdən ibarətdir. Bütövlükdə sahənin strategiyasının işlənib hazırlanması yuxarı idarəetmə səviyyələrində, pillələrində həyata keçirilir və aşağıdakı vəzifələrin həllinə xidmət edir:

– ARDNŞ-in strateji məqsədinin işlənib hazırlanması – uzun dövr ərzində ARDNŞ-nin iqtisadi inkişafının ümumi istiqamətlərini müəyyən edir və iri miqyaslı vəzifələrin həllini nəzərdə tutur. Hazırda ARDNŞ-nin strateji məqsədi istehsalın və ictimai həyatın bütün tərəflərinin kökündən yeniləşdirilməsinə yönəldilmişdir, yəni ARDNŞ-nin strukturu bazar iqtisadiyyatı münasibətlərinə uyğunlaşdırılır, daha səmərəli infrastrukturlar yaradılır və s.;

– ARDNŞ-in mövcud imkanların və ehtiyatlarının qiymətləndirilməsi – ən yeni texnika və ondan maksimum istifadə əsasında istehsalın intensivləşdirilməsinin və şirkətin sosial-iqtisadi inkişafının sürətləndirilməsinin mühüm zəminidir;

– ARDNŞ-in marketinq fəaliyyəti sahəsindəki meylin təhlili – aşkar edilmiş qüsurları aradan qaldırmağa və bu sahədəki ehtiyatlardan istifadəyə yönəldilən qərarların qəbul edilməsi və həyata keçirilməsinə imkan verir;

– ARDNŞ-in strateji strategiyasının alternativ istiqamətinin qiymətləndirilməsi – bu və ya digər fəaliyyət növünü həyata keçirmək üçün mövcud vəsaitlərin sərf olunmasının iqtisadi cəhətdən nə dərəcədə əlverişli olub-olmamasının müəyyənləşdirilməsi zəruriliyindən irəli gəlir. Başqa sözlə, mövcud iqtisadi ehtiyatları mümkün təsərrüfat fəaliyyətindən hansına yönəltmək məsələsi meydana çıxdıqda alternativ strateji strategiyanı müəyyənləşdirmək lazım gəlir;

– perspektiv dövr üçün strategiyanın işlənib hazırlanması – hökumət tərəfindən həyata keçirilən iqtisadi siyasətə əsaslanır. Hazırda Azərbaycan hökumətinin iqtisadi siyasətinin əsas məqsədi respublikanın iqtisadi inkişafını təmin etməklə əhalinin yaşayış səviyyəsinin yüksəldilməsini təmin etməkdən ibarətdir;

– operativ proqramların və onlara müvafiq büdcələrin işlənib hazırlanması – istehsal prosesinin bütün mərhələlərinin düzgün əlaqələndirilməsinə və uzlaşdırılmasına imkan verir;

– konkret göstəricilərin (meyarın) vasitəsi ilə ARDNŞ-in istehsal fəaliyyətinin son nəticələrini qiymətləndirməsi – sahənin fəaliyyətindəki müsbət və qüsur cəhətləri aşkar etməyə və sahənin iqtisadi inkişafına dair düzgün idarəetmə qərarlarının qəbul edilməsinə imkan verir.

Yuxarıda göstərilən vəzifələrin müvəffəqiyyətlə həll edilməsi üçün sahənin neft strategiyasının işlənib hazırlanması prosesində aşağıdakı məsələlər həll edilir:

– sahənin mövqeyinin möhkəmləndirilməsini, kommersiya, texnoloji və sosial problemlərin inkişafını təmin edən sahədaxili və sahəxarici amillər təhlil edilir;

– sahənin iqtisadi inkişafının alternativ variantları işlənib hazırlanır və onların arasından ən səmərəlisi seçilir;

– sahənin iqtisadi inkişafı üçün müvafiq idarəetmə qərarları qəbul edilir və onların həyata keçirilməsi üçün konkret tədbirlər müəyyənləşdirilir.

Sahənin məqsədi müxtəlif olduğundan onların yerinə yetirilməsi üçün çoxvariantlı strategiya işlənib hazırlanmalıdır. Sahənin iqtisadi inkişaf strategiyası özündə aşağıdakı yarım strategiyaları əhatə edir:



***Sahənin bazar strategiyası*** – sahə tərəfindən buraxılan məhsulların rəqabət qabiliyyətinin yüksəldilməsinə, konkret növ məhsul və texnologiyanın işlənib hazırlanmasına xidmət edir.

***Proqnozlaşdırma strategiyası*** – sahənin məqsəd və vəzifələri, onun potensial imkanları və şansları arasında strateji uyğunluğun yaradılmasının və qorunub saxlanılmasının idarə edilməsi prosesidir. O, sahənin proqramına, məqsəd və vəzifələrin mövcudluğuna, elmi-tədqiqatlara, geoloji-kəşfiyyat işlərinin nəticələrinə və s. istinad edir. Proqnozlaşdırma strategiyası planlaşdırma sahəsində çalışan menecerləri, təsərrüfat rəhbərlərini daim gələcək haqqında düşünməyə həvəsləndirir, sahənin səylərinin daha dəqiq və düzgün əlaqələndirilməsinə imkan verir, iqtisadi inkişafa nəzarət üçün əlverişli şərait yaradır, əmək kollektivini sahənin məqsəd və vəzifələrinin daha düzgün müəyyənləşdirməyə məcbur edir. Beləliklə, proqnozlaşdırma strategiyası gələcəkdə obyektin (və ya hadisənin) həddi və arzuolunan vəziyyətləri, onlara nail olunmasının və reallaşdırılmasının alternativ yolları haqqında ehtimal təsəvvürün işlənib hazırlanmasını nəzərdə tutur, sahəni gözlənilməz dəyişikliklərə qarşı daha hazırlıqlı edir və bütün rəhbər işçilərin vəzifələrinin qarşılıqlı əlaqəsini daha aydın şəkildə nümayiş etdirir. Müasir şəraitdə respublikanın iqtisadi inkişafında elmi-texniki tərəqqinin rolunun artması, uzun müddət üçün nəzərdə tutulmuş irimiqyaslı proqramların işlənib hazırlanması və həyata keçirilməsi, yeni infrastrukturların yaradılması ilə əlaqədar olaraq iqtisadiyyatda elmi proqnozlaşdırmanın rolu xeyli dərəcədə artmışdır.

***Nəzarət strategiyası*** – sahənin proqramları çərçivəsində əldə edilmiş nəticələrin ölçülməsi, təhlili və müvafiq düzəlişlərin aparılmasını nəzərdə tutur. Nəzarət strategiyasının üç tipini fərqləndirirlər: a) illik proqramların yerinə yetirilməsinə nəzarət – prosesinin həyata keçirilməsində məqsəd şirkətin konkret il üçün nəzərdə tutulmuş satış, mənfəət və s. məqsədli parametrləri həqiqətən əldə etdiyinə əmin olmaqdır. İllik proqramların yerinə yetirilməsinə nəzarət zamanı bəzi suallara, o cümlədən biz nəyə nail olmaq istəyirik?, hansı sahədə nə baş

verir?, bu nəyə görə baş verir? və vəziyyəti düzəltmək üçün nə etmək lazımdır? suallarına cavab müəyyənləşdirilir; b) mənfəətliliyə nəzarət – neft-qazçıxarma sənayesinin struktur bölmələrinin buraxdığı ayrı-ayrı məhsullar üzrə rentabelliyin yoxlanılmasını nəzərdə tutur; c) strateji nəzarət – vaxtaşırı sahənin ümumi istehsal nəticələrini qiymətləndirməyə imkan verir.

***Yüksəliş strategiyası*** – sahə miqyasında həyata keçirilən hansı istehsalatların dayandırılmasının və gələcəkdə öz qüvvələrini hansı istehsalların inkişafına yönəltməyin məqsədəuyğunluğunu aydınlaşdırmağa imkan verir. Sahənin yüksəliş strategiyasını işləyib hazırlanmaq üçün aşağıdakı işlər yerinə yetirilməlidir:

– hazırkı fəaliyyət miqyası daxilində sahənin istifadə edə biləcəyi imkanlar aşkar edilir. Buna ***intensiv artım imkanları*** deyilir. İntensiv artım imkanları sahənin öz mövcud əmtəələrinə xas olan imkanlardan axıradək istifadə edildiyi hallarda özünü doğruldur. İntensiv artımın özü də aşağıdakı üç istiqamətdən ibarətdir: a) bazara dərindən daxilolma – sahənin daha düşünülmüş strategiyası sahəsində mövcud əmtəələrin konkret bazarda satışının artırılması yollarının axtarılması deməkdir; b) bazar hüdudlarının genişləndirilməsi – mövcud əmtəələrin yeni bazarlara çıxarılması sayəsində satışı artırmaq üçün göstərdiyi cəhdlərdir; c) mövcud əmtəənin təkmilləşdirilməsi (modernləşdirilməsi) – sahənin mövcud bazarlarda satılan əmtəələrin möhkəmləndirilməsi və ya yerlərinin yaradılması hesabına satış həcmini artırmaq cəhdidir;

– sahənin əsas fəaliyyət sahələrinin digər köməkçi və xidmətedici sahələrlə birləşdirilməsi imkanları müəyyənləşdirilir. Buna ***birgə artım imkanları*** deyilir. Birgə artım imkanları əsas fəaliyyət sahələrinin möhkəm mövqeyi və ya sahə daxilində reqressiv (geriyə doğru), mütərəqqi (irəliyə doğru) və üfüqi istiqamətlərdə hərəkət hesabına əlavə fayda götürülməsinin mümkün olduğu hallarda özünü doğruldur. Birgə artım imkanlarının üç növünü fərqləndirirlər: a) reqressiv birləşmə – şirkətin malgöndərənlərinin öz sahibkarlarına çevrilməsi və ya onları daha ciddi nəzarət altına almaq cəhdlərindən ibarətdir; b) mütərəqqi birləşmə – şirkətin bölgü sistemini öz mülkiyyətinə, əmlakına keçirmək və ya ona nəzarəti daha da gücləndirmək üzrə



göstərdiyi səylərdir; c) üfüqi birləşmə – şirkətin bir sıra rəqib şirkətləri öz mülkiyyətinə çevirmək və ya ciddi nəzarət altına almaq cəhdləridir;

– sahənin hüdudlarından kənarda açılan imkan aydınlaşdırılır. Buna ***diversifikasiya artımı imkanları*** deyilir. Diversifikasiya artımı imkanları sahə daxilində şirkətin iqtisadi artımına imkan olmadıqda və ya bu sahə hüdudlarından kənarda iqtisadi artımın daha cazibədar olduğu hallarda özünü doğruldur. Diversifikasiya artım imkanlarının aşağıdakı üç növü vardır: a) ümumi mərkəzli diversifikasiya artımı – texniki baxımdan sahənin mövcud əmtəələrinə oxşar məmulatları öz nomenklaturasına daxil etməyi nəzərdə tutur; b) üfüqi diversifikasiya artımı – hazırkı dövrdə buraxılan əmtəələrlə heç bir əlaqəsi olmayan, lakin mövcud müştərilərin (istehlakçıların) marağına səbəb ola bilən məmulatların öz nomenklaturasına daxil edilməsi cəhdləridir; c) konqlomerat diversifikasiya artımı – nə şirkətin tətbiq etdiyi texnologiyaya, nə də onun əmtəələri və bazarlarına heç bir aidiyyatı olmayan məmulatların öz nomenklaturasına daxil edilməsi deməkdir.

***Marketinq strategiyası*** – sahənin çərçivəsi daxilində məqsəd və vəzifələrinin müəyyənləşdirilməsini nəzərdə tutur. O, özündə məqsədli bazarlar, marketinq kompleksi və marketinq xərcləri üzrə konkret vəzifələri birləşdirir. Bazar iqtisadiyyatı şəraitində marketinq strategiyası bazarın kompleks təhlilinə əsaslanır, istehsal edilmiş məhsulların satılması və maksimum mənfəət götürülməsi probleminin həllinə yönəldilir. Odur ki, sahənin marketinq strategiyasının mühüm vəzifəsi istehlak tələbini məqsədəuyğun formalaşdırmaq və onu sahənin struktur bölmələrinin mənafeyinə tabe etməkdir.

***Xarici bazara çıxmaq strategiyası*** – müasir dövrdə ən mühüm strategiyalardan biridir. Xarici ölkələrdə satışı təşkil etmək qərarına gəlməkdən öncə sahə rəhbərləri beynəlxalq marketinq mühitinin xüsusiyyətlərini dəqiq öyrənməli, beynəlxalq ticarət sisteminə xas olan məhdudiyyətlərdən və imkanlardan baş çıxarmalıdır. Adətən, xarici bazara çıxmaq strategiyası özündə aşağıdakı üç strategiyanı əhatə edir:

***a) ixrac strategiyası*** – xarici bazarda fəaliyyətə başlamağı təmin edir. İxracatın qeyri-müntəzəm və fəal növlərini fərqlən-

dirirlər. Qeyri-müntəzəm ixrac – xarici bazara çıxmağın passiv formasıdır və bu zaman sahə hərdən bir öz artıq mallarını xarici ölkələrə ixrac edir və onları xarici müəssisələri təmsil edən yerli müəssisələrə satır. Fəal ixracatda isə sahə öz qarşısına konkret bazarda ixrac əməliyyatlarını genişləndirmək məqsədini qoyduğu hallarda baş verir. Hər iki halda sahə bütün mallarını öz ölkəsində istehsal edir. Sahə onları xarici bazara həm modifikasiya olunmuş, həm də modifikasiya olunmamış halda təqdim edə bilər. Sahə öz əmtəəsini iki yolla ixrac edə bilər: ya müstəqil beynəlxalq marketinq vasitəçilərinin xidmətlərindən istifadə edə bilər (buna bilavasitə ixrac deyilir), yaxud da ixrac əməliyyatlarını müstəqil surətdə özü yerinə yetirə bilər (buna birbaşa ixrac deyilir). Hazırda ARDNŞ xam nefti dünya bazarlarına çıxarmaq üçün birbaşa ixrac formasından geniş istifadə edir;

***b) müştərək sahibkarlıq fəaliyyəti yaratmaq strategiyası*** – ixracat strategiyasından onunla fərqlənir ki, bu zaman yaranan əməkdaşlıq nəticəsində xaricdə bu və ya digər istehsal gücləri işə salınır;

***c) birbaşa investisiya strategiyası*** – xarici ölkələrdəki bazarda fəaliyyətə qoşulmağın ən qənaətli formasıdır. Çünki birincisi, bu zaman sahə nisbətən ucuz iş qüvvəsi və ya xammal hesabına, xarici ölkə hökumətlərinin xarici sərmayəçilərə etdiyi güzəştlər nəticəsində, nəqliyyat xərclərinin azaldılması sayəsində kapitala qənaət etmək mümkün olur; ikincisi, bu zaman xarici ölkələrdə iş yerləri yaratmaq mümkün olur ki, bu da ona xeyirxah ad qazanmağı təmin edir; üçüncüsü, şirkət onun malını qəbul edən dövlətin yerli idarələri, təşkilatları, müştəriləri və s. ilə daha dərin əlaqələr yaratmağa imkan verir ki, bu da ona öz mallarını yerli marketinq mühitinə daha yaxşı uyğunlaşdırmağa imkan verir; dördüncüsü, şirkət öz investisiyasına tam nəzarət olunmasını qoruyub saxlayır və deməli, istehsal sahəsində onun beynəlxalq aləmdə məqsədinə cavab verən mövqeyini təmin edir.

Azərbaycanın neft strategiyası, qeyd etdiyimiz kimi, ilk beynəlxalq neft müqaviləsi – «Əsrin müqaviləsi» adlanan müqavilə ilə başlayır. Belə ki, 1994-cü ildə ABŞ-ın «AMOKO», «Lunokal», «Penzoyl» və «Makdermost», Böyük Britaniyanın «BP» və «Remko», Rusiyanın «Lukoyl», Norveçin «Statoyl», Türkiyənin «TPAO» və Səudiyyə Ərəbistanının «Delta» kimi nüfuzlu neft şirkətlərinin təmsil olunduğu konsorsium ilə ARDNŞ arasında Xəzər dənizinin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının birgə istismarına dair hasilatın pay bölgüsü sazişi imzalanmışdır. Bundan bir il sonra ABŞ-ın «EKSON», 1996-cı ildə isə Yaponiyanın «İTOÇU» neft şirkəti həmin müqaviləyə qoşulmuşdur.



Tarixə ***«Əsrin müqaviləsi»*** kimi daxil olmuş bu sazişin həyata keçirilməsini təmin etmək üçün iştirakçı neft şirkətləri Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətini (ABƏŞ) təsis etmişlər. Müqaviləyə əsasən 30 il müddətinə 511 milyon ton neft hasil etmək nəzərdə tutulmuşdur. İnvestisiya qoyuluşunun həcmi 8 milyard ABŞ dolları həddində olacaqdır. Mənfəət neftinin 80%-i Azərbaycana, 20%-i isə xarici neft şirkətlərinə, yataqların istismarı zamanı çıxarılacaq 55 mlrd. kubmetr səmt qazı əvəzsiz olaraq Azərbaycana çatacaqdır. Bununla yanaşı, Azərbaycanın əvvəllər göstərilən üç neft yatağının öyrənilməsinə sərf etdiyi maliyyə vəsaitini ödəmək məqsədilə xarici neft şirkətləri müəyyən mərhələlərlə respublikamıza 420 mln. dollar həcmində bonus verməlidirlər. Son illərdə aparılmış geoloji-kəşfiyyat işlərinin nəticəsi göstərir ki, «Azəri», «Çıraq» və «Günəşli» yataqlarında proqnozlaşdırıldığından daha çox, yəni 700 mln. tona yaxın neft vardır.

Neft strategiyasının əsas vəzifələrindən biri Azərbaycanın müxtəlif xarici ölkələrlə iqtisadi, siyasi və mədəni əməkdaşlığını maksimum dərəcədə genişləndirməkdir. Respublikada ictimai-siyasi sabitliyin bərqərar olması, zəngin neft və qaz yataqlarının mövcudluğu xarici investorların ölkəmizə marağını daha da artırmışdır. «Əsrin müqaviləsi»nin ardınca keçən dövr ərzində 19 yeni neft sazişləri imzalanmışdır. Onlardan 14-ü Xəzər dənizindəki perspektivli strukturların kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü haqqındakı sazişlərdir. Quruda kəşfiyyat blokları və ya mövcud neft-qaz yataqlarının bərpası üzrə isə 5 saziş imzalanmışdır. İmzalanmış həmin müqavilələr çərçivəsində Azərbaycan iqtisadiyyatına birbaşa xarici investisiya qoyuluşunun gözlənilən həcmi 60 mlrd. ABŞ dolları təşkil edəcəkdir. 2000-ci ilədək neft müqavilələri üzrə investisiya qoyuluşunun həcmi 3 mlrd. dollar olmuşdur. Bu müqavilələr

qabaqcıl Qərb texnologiyasının Azərbaycanın neft sənayesinin inkişafına cəlb edilməsinə, neft-qazçıxarma idarələrinin müasir texnologiya əsasında yenidən qurulmasına və bazar iqtisadiyyatına müvafiq infrastrukturların yaradılmasına geniş imkanlar açmışdır.

Məlumat üçün qeyd edək ki, Azərbaycanın neft strategiyasının həyata keçirilməsində mühüm mərhələ 1997-ci il noyabr ayının 12-də «Çıraq-1» platformasında ilk neft quyusunun istismara verilməsi oldu. Hazırda «Çıraq-1» platformasında 12 neft quyusu və 2 suvurma qurğu qazılıb, yataqdan gün ərzində 14 min ton neft və 3 mln. kubmetr səmt qazı çıxarılır. Neft hasilatının tədricən artırılması nəticəsində neft-qazçıxarma sənayesinin tənəzzülünün qarşısı alınmış və dinamik inkişaf üçün əlverişli zəmin yaradılmışdır. 2002-ci ildə neft hasilatı 1995-ci ildəki 9 milyon 200 min tondan və 2000-ci ildəki 14 milyon 100 min tondan 15 milyon 300 min tona çatmışdır.

Beləliklə, yeni neft strategiyasının başlanğıc mərhələsi olan «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin 10 illik tarixi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və milli iqtisadiyyatımızın dirçəldilməsində mühüm mərhələ olmuşdur. 2000-ci ilədək neft layihələrinin həyata keçirilməsi üçün 2 mindən artıq Azərbaycan neftçilərinin çalışdığı 10 müştərək müəssisə yaradılaraq işə salınmışdır ki, onlar nüfuzlu xarici neft şirkətləri ilə rəqabət mübarizəsində 381 mln. dollar dəyərində müqavilə işlərini aparmışlar. Deməli, neft strategiyasının ardıcıl həyata keçirilməsi müstəqilliyimizin möhkəmləndirilməsi və iqtisadiyyatımızın gücləndirilməsi üçün bir vasitədir.

«Əsrin müqaviləsi» çərçivəsində işlərin uğurlu yerinə yetirilməsi 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasının payına 135 min ton həcmində ilk mənfəət neftinin ayrılmasına imkan vermişdir. Proqnozlara görə 2000-ci ildən başlayaraq Azərbaycan Respublikası hər il 200 milyon dollar məbləğində mənfəət nefti əldə edəcəkdir. Gələcəkdə «Azəri», «Çıraq» və «Günəşli» neft yataqlarının istismarının inkişafı və neft hasilatının çoxalması ilə əlaqədar olaraq bu gəlirlərin həcmi xeyli artacaqdır.



## 2.2. Azərbaycanda karbohidrogenlər erasının təşəkkülü və inkişaf perspektivləri

Azərbaycan Respublikasının iqtisadi-siyasi suverenliyinin təmin olunması, digər şərtlərlə yanaşı, onun ərazisindəki mövcud təbii sərvətlərdən, iqtisadi, mənəvi və elmi-texniki potensialından birbaşa asılıdır. Bu baxımdan Azərbaycan Respublikası qonşu dövlətlərdən çox böyük üstün cəhətlərə malikdir. Odur ki, yaxın gələcəkdə respublikamızın iqtisadiyyatının dirçəldilməsində onun təbii sərvətləri, xüsusilə də neft və qaz yataqları mühüm rol oynayacaqdır.

Azərbaycan həm qeyri-filiz faydalı yataqlarla, həm də maye və qaz halında olan faydalı qazıntılarla məşhurdur. Məsələn, maye və qaz halında olan faydalı qazıntılardan neft və qaz respublikamızın iqtisadiyyatının əsasını təşkil edir. Özü də bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan Respublikasında neft və qaz həm quru, həm də dəniz neft-qaz yataqlarından çıxarılır. Quru ərazilərdən sənaye üsulla neft çıxarılması təqribən 1871-ci ildən, dənizdən isə 1949-cu ildən başlanmışdır. Məlumat üçün qeyd edək ki, hazırda Azərbaycanda çıxarılan ümumi neftin təqribən 80%-i dəniz neft-qaz yataqlarının payına düşür (cədvəl 18).

*Cədvəl 18*

***1990-2005-ci illərdə Azərbaycanda neft-qaz hasilatı***

| İllər | Quruda | | Dənizdə | |
|---|---|---|---|---|
| | Neft, mln.ton | Qaz, mln. kubmetr | Neft, mln.ton | Qaz, mln. kubmetr |
| 1990 | 2,6 | 401 | 9,9 | 9525 |
| 1995 | 1,7 | 237 | 7,5 | 6407 |
| 2000 | 1,5 | 232 | 12,7 | 4843 |
| 2001 | 1,6 | 242 | 13,2 | 5293 |
| 2002 | 1,6 | 253 | 13,7 | 5582 |
| 2003 | 1,7 | 235 | 13,7 | 4865 |
| 2004 | 1,8 | 230 | 13,7 | 4895 |
| 2005 | 1,9 | 240 | 20,3 | 5545 |

Ümumiyyətlə, mütəxəssislərin fikrincə, Azərbaycan Respublikasının Böyük və Kiçik Qafqaz, həmçinin Talış dağlarını

çıxmaq şərti ilə və Xəzər dənizi daxil olmaqla bütün əraziləri neft-qaz cəhətcə perspektivlidir. Odur ki, heç də təsadüfi deyildir ki, indi dünyanın bir çox iri neft şirkətləri Xəzərdən neft-qaz çıxarılması ilə əlaqədar olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) ilə birlikdə fəaliyyət göstərirlər. 1994-cü ildən indiyədək dünyanın 14 ölkəsindən 33 neft şirkəti ilə ARDNŞ arasında Azərbaycanın neft-qaz yataqlarının birgə işlənməsi üçün 26 müqavilə bağlanmışdır.

Beləliklə, neft və qaz Azərbaycanın ən qiymətli təbii sərvətləridir. Neft yanar maye, faydalı qazıntı olub, Yer səthinə yaxın olan laylarda və ya çatlarda yerləşərkən oksidləşərək qatı maltaya, yarımbərk asfalta və başqa maddələrə çevrilir. Spesifik qoxusu var. Rəngi açıq-qəhvəyidən tünd-qonura və qarayadək dəyişir. Neft müxtəlif karbohidrogenlərdən ibarətdir. Kimyəvi analiz göstərir ki, neftin tərkibində 82,5-87,0% karbon, 11,5-14,5% hidrogen, 0,05-0,7% oksigen, 0,001-5,3% kükürd və 0,001-1,8% azot vardır. Karbon və hidrogen atomları bir-birilə kimyəvi surətdə birləşərək, neftin tərkibində müxtəlif maddələr əmələ gətirir. Bu birləşmələrə ***karbohidrogenlər*** deyilir.

Neftə ilk adı midiyalılar vermişlər. Onlar Yer altından çıxan bu maddəni «Nafata», yəni «Sızan», «Süzülən» adlandırmışlar. Məlumdur ki, Midiya dövləti eramızdan əvvəl IX-XI əsrlərdə indiki Cənubi Azərbaycan və şimali-qərbi İranın ərazilərində yerləşirdi. Daha sonralar «Nafata» tədricən «Nafat» və nəhayət isə «Neft» sözü ilə əvəz edilmiş və hazırda da həmin adla işlədilir.

***Təbii qazlar*** – Yer qabığında sərbəst halda, suda və neftdə məhlul şəklində, süxurlarda, xüsusilə qazıntı kömrüklərdə udulmuş halda gələn qazlardan ibarətdir. Qaz əmələ gətirən proseslərdən asılı olaraq bütün təbii qazlar 9 qrupa ayrılır. Bunlardan katagenetik, metamorfik, vulkanik, biokimyəvi, radioaktiv və hava mənşəli qazlar daha mühümdür. Kimyəvi tərkibinə görə təbii qazlar 3 əsas qrupa bölünür: karbohidrogenli, azotlu və karbon qazlı. Qazların sərbəst və həll olmuş şəkildə miqrasiya etməsi xassəsi onların müxtəlif mənşəli qazlarla qarışmasına və təbiətdə geniş yayılmasına səbəb olur.

Neft istehsalı durmadan artır. Dünyada 1901-ci ildə 20 mln. tondan bir qədər artıq (bunun yarısından çoxu Abşeron yarımadasının payına düşür) çıxarılmışdır. 2002-ci ildə isə dünyada



neft istehsalı 4,3 mlrd. tondan çox olmuşdur. Bütün kontinentlərdə (Antarktidadan başqa) və onlara bitişik akvatoriyaların xeyli hissəsində neft yataqları aşkar edilmişdir. Dünyada təqribən 28-30 min neft yatağı məlumdur. Bunun 15-20%-i neft-qaz yataqlarıdır. Kiçik neft yataqları ilə yanaşı, ehtiyatı 0,5 mlrd. tondan çox olan nəhəng yataqlar da var. Ən nəhəng neft yataqları Qavar (Səudiyyə Ərəbistanı) və Əl-Burqan (Küveyt) neft yataqlarıdır. Onların ehtiyatı kəşf edilmiş dünya neft ehtiyatlarının 20%-dən çoxdur.

Azərbaycan ərazisi mühüm neftçıxarma rayonu kimi dünyada məşhurdur. Bu da təsadüfi deyil, çünki dünyada ilk neft quyusu məhz burada, Abşeron yarımadasında 1847-ci ildə qazılmışdır. Azərbaycanın neft yataqlarından indiyədək 1 mlrd. tondan çox neft çıxarılmışdır. Əsas neft-qaz yataqları məhsuldar qat çöküntüləri ilə əlaqədardır. Məlumat üçün qeyd edək ki, Azərbaycanda çıxarılan neft dünyada ən yüksək keyfiyyətli neftlərdən biridir. Azərbaycanda yanacaq neftindən əlavə, dünyada yeganə müalicə nefti də vardır ki, bu da Naftalan neft yatağından çıxarılır.

Neft və qaz yataqları neftli-qazlı zonalarda və hövzələrdə yerləşir. Dünyada məlum olan təqribən 350 neftli-qazlı hövzənin 140-ından neft və təbii qaz çıxarılır, qalanları isə perspektivli hövzələr hesab edilir. Neft və qazın böyük iqtisadi əhəmiyyəti vardır. Neft maye yanacaq, sürtgü yağları, müxtəlif neft məhsulları və kimya sənayesi üçün xammaldır. Hazırda iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada bu və ya digər formada neft məhsullarından və təbii qazlardan istifadə edilməsin. Bundan başqa, məişətdə və ictimai təsərrüfatlarda müxtəlif növ yanacaqlardan, məsələn, daş kömürdən, torfdan, şistdən, neft və neft məhsullarından, təbii qazlardan, oduncaqdan geniş istifadə edilir. Lakin bütün yanacaq növlərindən ən çox istifadə edilən neft məhsullarıdır. Çünki neft məhsullarının istilik törətmə qabiliyyəti digər yanacaq növlərinə nisbətən daha yüksəkdir. Hələlik neft məhsulları heç bir xammalla əvəz olunmayan təbii sərvətdir.

## 2.3. Azərbaycanda karbohidrogenlər hasilatının dinamikası

Azərbaycanda karbohidrogenlər – neft və qaz hasilatının inkişafı bir neçə mərhələdən keçmişdir. ***Birinci mərhələ*** 1806-1919-cu illəri əhatə edir. Bu mərhələdə ilk neft quyusu Bakının Suraxanı kəndində qazılmışdır. Bu da heç də təsadüfi deyil, çünki Suraxanı kəndi ən qədim dövrlərdən özünün «daimi odları» və ağ «müalicə» nefti ilə dünyada tanınmışdır. Hazırda Suraxanıda keçmiş atəşpərəstlərin (dindarların) məbədi sayılan «Atəşgah» qalmaqdadır. Ən qədim dövrlərdə İran və Hindistan atəşpərəstləri buraya sitayiş etməyə gəlmişlər.

Yeni eradan əvvəl VI-IV əsrlərdə Azərbaycanda neft-qaz mədənlərinin olması haqqında da məlumat verilir. Bundan başqa, Abşeron nefti haqqında bir sıra Ərəb və İran tarixçilərinin əsərlərində də qeydlər vardır. VIII əsrdə yaşamış məşhur səyyah Əbu-İsaq İstəxri bakılıların ocaqlarda odun əvəzinə neftli torpağın yandırılmasını göstərmişdir. Azərbaycan yarımadasında neft hasilatı haqqında geniş tarixi məlumat X əsrə təsadüf edilir. O zamanlar neft Suraxanı və Balaxanı kəndlərində dərinliyi 8-10 metr olan neft quyularından çıxarılırmış, X əsrdə yaşamış Ərəb səyyahı və tarixçisi Məsudi Əbdul Həsən ibn Hüseyn Bakı rayonunun neft mədənləri haqqında bir sıra qeydlər etmişdir. Onun yazdığına görə, Bakıda iki əsas neft mənbəyi olmuşdur. Bunlardan birində sarı və ağ rəngli neft, digərində isə qara və abı rəngli neft çıxarılırmış. Məşhur Venesiyalı səyyah Marko Polonun yazdığına görə, XIII əsrdə Abşeron yarımadasında bir çox neft quyuları olmuş, neftdən işıqverici material kimi istifadə edilirmiş. O zamanlar Bakıda hasil edilmiş neft dəvələrə yüklənərək Bağdad bazarlarına aparılıb satılırmış.

Rus taciri Afanasi Nikitinin XV əsrdə Hindistana səfər edərkən yolu Bakıdan düşmüş və Bakı neft mədənləri haqqında öz gündəliyində xüsusi qeydlər etmişdir. Balaxanı kəndində keçmiş dövrlərdə qazılmış köhnə neft quyularının birindən çıxarılan daşın üzərində həmin quyunun 1594-cü ildə usta Allahyar Məmmədnur oğlu tərəfindən qazıldığı qeyd edilmişdir.

Bakı nefti haqqında birinci dəfə ətraflı məlumatı 1683-cü ildə İranda İsveç müvəkkilinin katibi Y.Kempfer vermişdir. O, yazırdı ki, əbədi odlar yaxınlığında ağ neft verən bir neçə quyu vardır. Bu quyulara neft yeraltı mənbələrdən damcı-damcı süzülərək toplanılıb çıxarılırdı. Onun qeydlərinə görə, Bakının ağ nefti yaxşı müalicə vasitəsi imiş. Sonra Y.Kempfer göstərirdi ki, Bakı ətrafında çıxarılan qara neft Şamaxıya, Özbəkistana, Çərkəzə və Dağıstana daşınırmış. Y.Kempfer qara neft mənbəyi dedikdə, Balaxanı kəndini, ağ neft dedikdə isə Suraxanı kəndini nəzərdə tuturmuş.

1771-ci ildə Bakıya gəlmiş akademik S.Qmelin Y.Kempferi vaxtilə təsvir etdiyi Bakı ağ neft mənbələri haqqında yeni elmi məlumatlar vermişdir. O, Abşeronda neft quyularının dərinliyinin 40-50 metr və diametrinin isə 0,7-1,0 metrə qədər olduğunu göstərirdi. 1812-14-cü illərdə Yartsev tərəfindən yazılmış «Rusiyanın mədən tarixi» adlı kitabda Balaxanı nefti haqqında məlumatlar qeyd edilmişdir. Onun əlyazmalarında göstərilir ki, neft Bakının 12 verstliyində çox da dərin olmayan quyulardan məlum olmayan miqdarda hasil edilirmiş.

Xəzər dənizində ilk neft quyusu da Azərbaycanda qazılmışdır. Tarixi materiallardan aydın olur ki, 1803-cü ildə Qasım bəy Mənsurbəyov adlı bir bakılı dünyada ilk dəfə olaraq Bibiheybətdə dəniz dibindən neft çıxarmışdır. O, dəniz sahilindən 18-30 metr aralıda iki neft quyusu qazmış və həmin quyuları kip bərkidilmiş taxta lövhələrlə sudan ayırmışdır. Qasım bəy həmin iki quyudan birlikdə gündə 3-4 vedrə neft çıxarırmış. Ancaq 1825-ci ildə dənizdə qalxan tufan bu quyuları vurub dağıtmışdır. 1825-ci ildə Abşeron yarımadasında quruda – Balaxanı, Suraxanı, Binəqədi, Bibiheybət və Şubanıda neft quyuları qazılmış və onlardan neft hasil edilməyə başlanmışdır. Həmin dövrlərdə neft quyusu əsasən kərki və bel ilə qazılırdı, ona görə də quyuların dərinliyi çox olmurdu. 1848-ci ildən başlayaraq əl qazması vurma qazma üsulu əvəz edildi və quyuların dərinliyi getdikcə artmağa başladı. Vurma qazma üsulu ilə neft quyularının qazılmasına Azərbaycanda 1872-ci ildən başlanmış və həmin ildə qazılmış neft quyusunun dərinliyi 64 metr olmuşdur. Bu vaxtdan etibarən Azərbaycanda neft sənayesinin əsası qoyulmuşdur. Birinci mərhələdə Azərbaycanda neft hasilatının dinamikası cədvəl 19-da verilmişdir.

*Cədvəl 19*

***1872-1919-cu illərdə Azərbaycanda neft hasilatının dinamikası, min ton***

| İllər | Hasilat | İllər | Hasilat | İllər | Hasilat | İllər | Hasilat |
|---|---|---|---|---|---|---|---|
| 1872 | 26 | 1884 | 1460 | 1896 | 6365 | 1908 | 7815 |
| 1873 | 66 | 1885 | 1884 | 1897 | 6949 | 1909 | 8303 |
| 1874 | 82 | 1886 | 1876 | 1898 | 8014 | 1910 | 8232 |
| 1875 | 105 | 1887 | 2327 | 1899 | 8534 | 1911 | 7537 |
| 1876 | 183 | 1888 | 2986 | 1900 | 9866 | 1912 | 7799 |
| 1877 | 248 | 1889 | 3249 | 1901 | 10979 | 1913 | 7669 |
| 1878 | 329 | 1890 | 3737 | 1902 | 10504 | 1914 | 7101 |
| 1879 | 395 | 1891 | 4499 | 1903 | 9854 | 1915 | 7481 |
| 1880 | 343 | 1892 | 4658 | 1904 | 10182 | 1916 | 7894 |
| 1881 | 656 | 1893 | 5381 | 1905 | 6784 | 1917 | 6646 |
| 1882 | 818 | 1894 | 4808 | 1906 | 7452 | 1918 | 3435 |
| 1883 | 983 | 1895 | 6256 | 1907 | 7934 | 1919 | 3739 |

***İkinci mərhələ*** 1920-1990-cı illəri əhatə edir. Bu mərhələdə Azərbaycan sənayesinin bərpası və inkişaf etdirilməsi üçün mühüm tədbirlər işlənib hazırlanmış və həyata keçirilmişdir. Bu onunla əlaqədar idi ki, Azərbaycanda Sovet hakimiyyətinin qurulması ərəfəsində neft sənayesi bərbad halda idi: yüksək mənfəət götürmək ehtirası və neft yataqlarının vəhşicəsinə istismarı nəticəsində Azərbaycanda neft hasilatı 1913-cü ildə 7,7 mln. puda qədər enmişdir və ondan sonrakı illərdə də enməyə doğru meyl edirdi; minlərlə neft quyuları dayanmış, bir çox mədənlərdə neftli horizontları su basmışdı; qazma işləri, demək olardı ki, aparılmırdı.

Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra geoloji-kəşfiyyat işlərinin həcmi artırıldı, qazma işləri genişləndirildi, yüksək ixtisaslı kadrlar hazırlanması, yeni texniki avadanlıqlardan istifadə edilməsi, neft-mədənlərinin başdan-başa elektrikləşdirilməsi nəticəsində neft hasilatı surətlə artmağa başladı. Artıq 1940-cı ildə Azərbaycanda neft hasilatı keçmiş SSRİ-nin neft hasilatının təqribən 75%-i qədər neft verirdi. 1941-ci ildə Azərbaycan neftçiləri 23541 min ton neft hasil etmişdilər. Ümumiyyətlə, 1941-1945-ci illərdə Azərbaycan neft sənayesi ölkəyə 75 mln. ton neft, 22 mln. ton benzin və s. neft məhsulları vermişdir.



Müharibən sonrakı illərdə Azərbaycan neft-qazçıxarma sənayesi daha sürətlə inkişaf etməyə başlamışdır. Bu, Xəzər dənizində yeni neft-qaz yataqlarının kəşfi ilə əlaqədar olmuşdur. Belə ki, 1949-cu ildə Xəzər dənizində (Neft Daşlarında) qazılmış kəşfiyyat quyusundan neft güclü fontan vurdu və həmin ildən başlayaraq Xəzər dənizində geoloji-kəşfiyyat işlərinin həcmi artdı və beləliklə də, neft hasilatının artırılması üçün zəmin yarandı. İkinci mərhələdə Azərbaycanda neft hasilatının dinamikası cədvəl 20-də verilmişdir.

*Cədvəl 20*

***1920-1990-cı illərdə Azərbaycanda neft hasilatının dinamikası, min ton***

| İllər | Hasilat | İllər | Hasilat | İllər | Hasilat | İllər | Hasilat |
|---|---|---|---|---|---|---|---|
| 1920 | 2915 | 1938 | 22105 | 1956 | 15560 | 1974 | 17755 |
| 1921 | 2437 | 1939 | 21548 | 1957 | 15957 | 1975 | 17203 |
| 1922 | 2945 | 1940 | 22176 | 1958 | 16475 | 1976 | 15609 |
| 1923 | 3485 | 1941 | 23540 | 1959 | 17055 | 1977 | 14785 |
| 1924 | 4125 | 1942 | 15700 | 1960 | 17850 | 1978 | 14155 |
| 1925 | 4663 | 1943 | 12700 | 1961 | 18702 | 1979 | 13058 |
| 1926 | 5514 | 1944 | 11700 | 1962 | 19700 | 1980 | 13054 |
| 1927 | 6810 | 1945 | 11070 | 1963 | 20500 | 1981 | 12628 |
| 1928 | 7574 | 1946 | 11934 | 1964 | 21251 | 1982 | 11664 |
| 1929 | 8683 | 1947 | 13412 | 1965 | 21500 | 1983 | 11545 |
| 1930 | 10521 | 1948 | 13890 | 1966 | 21729 | 1984 | 11572 |
| 1931 | 13153 | 1949 | 14352 | 1967 | 21605 | 1985 | 12677 |
| 1932 | 12181 | 1950 | 14777 | 1968 | 21138 | 1986 | 12659 |
| 1933 | 15327 | 1951 | 15215 | 1969 | 20420 | 1987 | 12203 |
| 1934 | 19183 | 1952 | 15656 | 1970 | 20187 | 1988 | 11200 |
| 1935 | 19340 | 1953 | 15706 | 1971 | 19203 | 1989 | 10723 |
| 1936 | 20557 | 1954 | 15217 | 1972 | 18386 | 1990 | 10723 |
| 1937 | 21361 | 1955 | 15284 | 1973 | 18265 | | |

***Üçüncü mərhələ*** 1991-ci ildən sonrakı dövrü əhatə edir. Məlum olduğu kimi, Azərbaycan xalqı 1991-ci ildən yenidən müstəqillik əldə etmiş və buna görə də hazırda öz təbii sərvətlərindən özü istədiyi kimi istifadə etmək imkanı əldə etmişdir. Milli iqtisadiyyatın sağlamlaşdırılmasında neft-qazçıxarma sə-

nayesinin inkişafı və onun strukturun təkmilləşdirilməsi mühüm rol oynaya bilər. Çünki sağlam milli iqtisadiyyat bazar münasibətlərinin inkişafının ana xəttini təşkil edir. O, rəqabət qabiliyyətli əmtəə dövriyyəsinə malik olur, iqtisadi sərbəstlik, sabit pul tədavülü, dinamik inkişaf, diversifikasiya meyli, yüksək yaşayış tərzi və s. onda səciyyəvi hal olur. Sağlam milli iqtisadiyyat – suverenlik rəmzidir. Bunu nəzərə alaraq, Azərbaycan Respublikasının rəhbərliyi, xüsusilə ümummilli lider H.Əliyev milli iqtisadiyyatın sağlamlaşdırılması sahəsində bir çox işlər görmüşdür. Bunun nəticəsi olaraq ölkə iqtisadiyyatının bəzi sahələrində, xüsusilə də neft-qazçıxarma sənayesində son illərdə xeyli irəliləyişlər əldə edilmişdir. Neft hasilatı sabitləşmiş və ildən-ilə artım müşahidə olunmuşdur. Qaz hasilatında da son illərdə müəyyən irəliləyişlərdə əldə olunub. 1991-2005-ci illərdə Azərbaycanda neft hasilatının dinamikası cədvəl 21-də verilmişdir.

*Cədvəl 21*

***1991-2005-ci illərdə Azərbaycanda neft hasilatının dinamikası, min ton***

| İllər | Hasilat | İllər | Hasilat | İllər | Hasilat | İllər | Hasilat |
|---|---|---|---|---|---|---|---|
| 1991 | 11700 | 1995 | 9200 | 1999 | 13806 | 2003 | 15400 |
| 1992 | 11100 | 1996 | 9100 | 2000 | 14100 | 2004 | 15500 |
| 1993 | 10300 | 1997 | 9100 | 2001 | 14900 | 2005 | 22200 |
| 1994 | 9600 | 1998 | 11400 | 2002 | 15300 | | |

Verilmiş cədvəldən görünür ki, 2005-ci ildə neft hasilatı 1991-ci illə müqayisədə 10500 min ton və 2000-ci ilə nisbətən isə 8100 min ton çox olmuşdur. 2005-ci ildə mədənçıxarma sənayesi (hasilat sənayesi) müəssisələrində məhsul buraxılışının həcmi keçən illə müqayisədə 41,4%, o cümlədən neft hasilatı 42,9%, qaz hasilatı 14,7%, tikinti qumu 48,9%, çınqıl, qırma daş, xırda çay daşı 10,2%, duz istehsalı 13,7%, bentonit istehsalı 81,2% artmışdır. 2005-ci ildə ölkədə hasil edilmiş 22,2 mln. ton neft son 25 ildə ən yüksək göstərici olmuşdur.

Məlumat üçün qeyd edək ki, XIX əsrin sonunda Bakı neftinin Rusiyada əsas istehlakçıları Moskva, Sankt-Peterburq şəhərləri idi. Azərbaycan neftinə əsaslanan Rusiyadakı neft ixracı bu illərdə Hindistan, Türkiyə, Misir, Çin, Yaponiya, hətta daha



uzaqlara – Avstraliyaya göndərilirdi. XX əsrin əvvəllərində Rusiyada neft ixracı 50 milyon puda çatdı. 1904-cü ildə isə 85,1 milyon pud təşkil etdi. Bununla belə, Rusiya kerosin istehsalına görə çox geridə qalmışdı. Adambaşına illik kerosin bölgüsü burada 5 kq olduğu halda, ABŞ-da 75 kq, İngiltərədə 13,4 kq idi. 1905-1906-cı illərdə isə artıq əksinə, ABŞ Rusiyanı Avropanın kerosin bazarından sıxışdırmaqda idi. Rusiyanın kerosin göndərmək imkanları bu mərhələdə müəyyən qədər Almaniya vasitəsilə reallaşırdısa, sonradan bu bazar da ABŞ-ın inhisarına keçdi. Çar Rusiyasının baş naziri S.Y.Vitte öncə maliyyə naziri olanda ölkə büdcəsini neft hesabına doldurmağa başlamışdı. XIX və XX əsrlərin qovşağında Rusiya Azərbaycan nefti hesabına dünya liderliyini ələ aldı. Lakin bütün bu keyfiyyətlər 1900-1903-cü illərdə dünya iqtisadi böhranı ilə dəyişikliklərə uğradı. Böhranın ilk çağlarında Azərbaycan nefti bir neçə il əvvəl əldə etdiyi dünya neft hasilat liderliyini yenidən ABŞ-a verdi. Cədvəl 22-də Rusiyada, Azərbaycanda və ABŞ-da dünya neft hasilatının faizlə nisbəti verilmişdir.

*Cədvəl 22*

***1901-1940-cı illərdə ABŞ-da, Rusiyada və Azərbaycanda neft hasilatı, %***

| İllər | Bütün dünya | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | Rusiya | Azərbaycan | ABŞ | Digər ölkələr |
| 1901 | 100,0 | 4,0 | 49,0 | 39,0 | 8,0 |
| 1902 | 100,0 | 4,0 | 42,0 | 46,0 | 8,0 |
| 1903 | 100,0 | 1,0 | 41,0 | 48,0 | 10,0 |
| 1911 | 100,0 | 5,5 | 14,0 | 66,0 | 14,5 |
| 1940 | 100,0 | 2,6 | 7,4 | 62,0 | 28,5 |

## 2.4. Azərbaycanda neft hasilatının artırılması üsulları

***Neftçıxarma*** – neftin və onunla birlikdə çıxan qazların Yer təkindən çıxarılması (hasilatı), toplanması və qabaqcadan emala hazırlanması, yəni sudan və bərk qatışıqlardan təmizlənməsi prosesidir. Dünyada hasil olunan neftin, demək olar ki, çox hissəsi yüksək təzyiqli polad borularla bərkidilmiş quyulardan çıxarılır. Nefti və onunla birlikdə çıxan qazları və suyu Yer səthi-

nə qaldırmaq üçün quyuya qaldırıcı borular, mexanizmlər və lay təzyiqinə hesablanmış bağlayıcı armaturdan, fəvvarədən ibarət hermetik sistem yaradılır. Əvvəllər neft primitiv üsullarla (məsələn, açıq su hövzələrinin səthindəki nefti toplamaqla, neft hopmuş əhəng və ya qumdaşını emal etməklə, yaxud dayaz quyulardan vedrə və jelonka ilə nefti çıxarmaqla) hasil edilirdi. Abşeron yarımadasında neft hələ çox qədimdən dayaz quyulardan vedrə və jelonka ilə çıxarılırdı. Qazma quyuları vasitəsilə neft hasilatı XIX əsrin 60-cı illərindən daha geniş tətbiq olunmağa başlanmışdır. Bu dövrdə neftçıxarmada qaldırıcı alət kimi dolamaçarxdan istifadə edilirdi. Sonralar neftçıxarmada nasos qurğularından istifadə edildi. Nasosla neftçıxarma ilk dəfə 1865-ci ildə ABŞ-da, 1876-cı ildə Bakıda, 1895-ci ildə isə Qroznıda tətbiq edilmişdir. 1886-cı ildə V.Q.Şuxovun təklif etdiyi kompressor üsulu ilə neftçıxarma Bakı mədənlərində 1897-ci ildə sınaqdan keçirilmişdir. Nefti quyudan çıxarmaq üçün qazlift üsulunu 1914-cü ildə M.M.Tixvinski təklif etmişdir.

Neftçıxarma prosesini üç mərhələyə ayırmaq olar: a) neft yataqlarının işlənilməsi; b) neft quyularının qazılması; c) neftin, onunla birgə çıxan qaz və suyun toplanması, neftin su və mineral duzlardan çıxarılması (buna xam neftin emala hazırlanması prosesi deyilir), neftlə birgə çıxan qazların toplanması.

Müasir dövrdə neft daha dərin laylardan çıxarılır və ona görə də neftçıxarmaya yeni tələblər irəli sürülür, yəni indi neft yataqlarının istismarı zamanı elə texniki və texnoloji tədbirlər həyata keçirmək lazımdır ki, ən az məsrəflə layın maksimum neftverməsi mümkün olsun. Layın neftverməsi dedikdə, mövcud üsullarla Yer təkindən çıxarıla bilinən neftin miqdarı nəzərdə tutulur.

Təcrübə göstərir ki, hazırda neft yataqlarının neftvermə əmsalı 0,3-0,7 arasında dəyişir. Bu o deməkdir ki, ən yaxşı halda belə, laydakı neftin orta hesabla yarısını, yəni 50%-ni çıxarmaq mümkündür, qalan hissəsi isə «qalıq neft» halında layda qalır. Akademik A.X.Mirzəcanzadənin hesablamalarına görə, mövcud neftvermə əmsalının yalnız 1% artırılması çox böyük neft ehtiyatına malik olan yatağın açılmasına bərabərdir.

Layın enerjisi və ya layın hərəkətverici qüvvələri layın neftvermə əmsalına təsir edən əsas amillərdir. Laydakı təsiredici



qüvvələr iki cür olur: birincisi, nefti quyunun dibinə itələyən hərəkətverici qüvvələr; ikincisi, neftin hərəkətinə müqavimət göstərən qüvvələr. Hərəkətverici qüvvələrə aiddir: qazın təzyiqi, kənar suların təzyiqi, ağırlıq qüvvəsi və s.

Layda baş verən qüvvələrin təsiri cəminə və mayenin quyudibinə axıb gəlməsini təmin edən şərtə ***neft yatağının rejimi*** deyilir. Hazırda enerji mənbəyinə görə layların aşağıdakı altı əsas iş rejimi mövcuddur:

***a) subasqılı rejim.*** Bu zaman nefti itələyib quyunun dibinə gətirən hərəkətverici qüvvə kimi kənar suların təzyiqi çıxış edir;

***b) elastik subasqılı rejim.*** Bu zaman enerji mənbəyi kimi, əsas rolu sıxılmış su, neft və süxurların elastik qüvvələri oynayır;

***c) qazbasqılı rejim*** – onunla xarakterizə olunur ki, burada neftin laydan basılıb-çıxarılması onun «qaz şapkası»ndakı sərbəst qazın genişləndirilməsinin təsiri altında baş verir;

***ç) həll olunmuş qaz rejimi.*** Bu zaman neftin laydan basılıb-çıxarılması qaz-neft qarışığından ayrılan qaz enerjisinin təsirindən yaranır;

***d) qravitasiya rejimi*** – onunla səciyyələnir ki, bu zaman neftin quyudibinə axıb gəlməsi mayenin ağırlıq qüvvəsinin təsiri nəticəsində əldə edilir;

***e) qarışıq rejim.*** Bu zaman neft müxtəlif lay qüvvələrinin birgə təsiri altında hərəkətə gətirilir.

Layda neftin hərəkətinə mane olan qüvvələr aşağıdakılardan ibarətdir: müqavimət qüvvəsi; neft və qazın qum dənəsi səthinə sürtünmə qüvvəsi; neftin özünün özlülüyü və s.

Beləliklə, yuxarıda göstərilənlərdən aydın olur ki, lay rejimindən asılı olaraq bu və ya digər neft yatağını istismar etmək lazımdır. Hazırda bütün neft yataqları üç əsas üsulla: fontan, kompressor və dərinlik nasosu ilə istismar olunur və onların hər birinin öz tətbiq sahələri vardır.

Neft quyularının istismar edilməsinin birinci dövründə, adətən, onlar fontan üsulu ilə istismar olunur. Bu dövrdə lay qüvvələri nefti quyunun dibinə itələyib, onu quyudan atmaq üçün xeyli qüvvəyə, təzyiqə malik olur. Lay həyatının bu dövrü quyuların yüksək məhsuldarlığı və enerjisinin ən çox sərf edilməsi

ilə xarakterizə edilir. Adətən, layın fontan həyatı çox uzun sürmür. O, bir neçə aydan 2-3 ilə qədər davam edir. Fontan üsulu digər neftçıxarma üsullarına nisbətən asan və iqtisadi cəhətdən əlverişlidir. Çünki bu halda əlavə vəsaitdən istifadə edilmədən neft, layın təbii gücündən istifadə edilərək Yer səthinə güclü axınla qaldırılır, işçi qüvvəsinə xeyli qənaət edilir, neftçıxarma avadanlıqlarının və qurğularının quraşdırılmasına və onlara qulluq edilməsinə ehtiyac olmur və s. Aktiv dövrlərdə fontan quyuları sutkada 300-400 ton və daha çox neft verə bilir.

Lay enerjisi zəifləyərək mayeni quyudibindən Yer səthinə qaldıra bilməyəndə, qaldırıcı boruların aşağı ucuna sıxılmış hava və ya qaz verməklə xaricdən ona əlavə enerji verilir. Quyuya sıxılmış hava verən quyuya hava qaldırıcısı (*«erlift»*), sıxılmış qaz verən quyuya isə qaz qaldırıcısı (*«qazlift»*) deyilir. Neft çıxarmaq üçün sıxılmış hava kompressor stansiyalarında qurulmuş xüsusi maşınlar – kompressorlar vasitəsilə hazırlanır və quyuya vurulur. Bu kompressor stansiyası 100 vahid və daha çox quyuya qulluq edə bilər. Bu üsul hazırda ən geniş yayılmış üsullardan biridir. Lakin kompressor üsulu ilə neftin çıxarılmasının tətbiqi sahəsi məhduddur. Belə ki, bu üsulun bir sıra üstün cəhətlərinə baxmayaraq (öz konstruksiyalarına görə yeraltı və yerüstü avadanlıqlar mürəkkəb olmur, onlar təmir və müşahidə üçün olduqca asandır və s.), onu bütün quyularda tətbiq etmək olmaz. Təcrübə göstərir ki, 2500 metr dərinlikdə olan və neft hasilatı 25 tondan az olmayan quyularda mayenin mexaniki qatışıq faizi çox (adətən, 5%-dən artıq) və qaz amili yüksək (məsələn, 100 metr tondan çox) olub, dərinlik nasosu ilə istismarı çətin olan quyularda kompressor üsulunun tətbiqi daha əlverişlidir.

Aydındır ki, quyunun kompressor üsulu ilə istismarı dövrü də müəyyən müddət davam edə bilər. Quyu işlədikcə neft layının təzyiqi azalır, quyudibində neftin səviyyəsi aşağı düşür və nəticədə qaldırıcı boruları xeyli uzatmaq lazım gəlir. Nəhayət, neftin səviyyəsi o qədər aşağı düşür ki, daha kompressor üsulu həm texniki, həm də iqtisadi cəhətdən əlverişli olmur, çünki az miqdarda nefti çıxarmaq üçün çoxlu miqdarda baha başa gələn sıxılmış hava və ya qaz sərf edilir. Belə olan halda quyunun istismarını davam etdirmək üçün dərinlik nasosu ilə istismara keçirilir. Bu üsul bütün dünyada, o cümlədən də Azərbaycanda ən geniş yayılmış üsullardan biridir. Bu üsulun geniş yayılmasına səbəb nisbətən qənaətli olması, nasosa qulluq edilməsinin sadəliyi, neftçıxarma prosesinin tamamilə mexanikləşdirilməsi və avtomatlaşdırılması, istismar rejiminin sabitliyi və s.-dir. Quyuların dərinlik nasosu ilə istismarına o zaman keçirilir ki, layın təbii enerjisinin neftin fontan vurulmasına gücü çatmır və kompressorla istismarında çıxarılmış hər bir ton neftə sərf edilmiş sıxılmış havanın miqdarı hədsiz dərəcədə çox olur. Hazırda Azərbaycanda neft hasilatının əksər hissəsi kompressor üsulu ilə əldə edilir. Belə ki, əgər 1990-cı ildə hasil edilən neftin 20,2%-i dərinlik nasos üsulu, 61,7%-i kompressorlarla və 18,1%-i isə fontan üsulu ilə əldə edilirdisə, həmin rəqəm, müvafiq surətdə, 1995-ci ildə 17,0%, 67,7%, 15,3% və 2004-cü ildə isə 16,8%, 65,9% və 17,3% olmuşdur.



Qeyd etmək lazımdır ki, neft quyusu dərinlik nasosu ilə də daim istismar edilə bilmir. Buna səbəb lay təzyiqinin vaxt keçdikcə azalmasıdır. Elə bir vaxt gəlib çatır ki, laydan quyudibinə çox az miqdarda neft daxil olur və ya heç gəlmir. Bu hadisənin əsas səbəbi nefti məsaməli mühitdə quyudibinə itələyən qaz və ya su təzyiqinin kifayət qədər olmamasıdır. Neft yataqlarında lay təzyiqinin aşağı düşməsinin və bunun nəticəsi olaraq istismar quyularında neft hasilatının azalmasının qarşısını almaq üçün müxtəlif geoloji və texniki tədbirlər həyata keçirilir. Bu tədbirləri aşağıdakı iki qrupa ayırmaq olar:

***a) neft və qaz yataqlarına süni təsiretmə üsulları.*** Bura aşağıdakı tədbirlər aiddir:

– *neft layı konturunun arxasından və ya kontur daxilindən laya su vurulması üsulu* – layda mayenin hərəkətinə sərf edilən enerji ehtiyatını tezliklə bərpa etmək və neftin layda qazlaşdırılmasının qarşısını almaq üçün tətbiq edilir. Bu üsul cari hasilatı və layın yekun neftvermə əmsalını artırmaq üçün ən yaxşı vasitədir. Bu üsulu həyata keçirmək üçün neft layının arxasından 1-1,5 km məsafədə yerləşmiş inyeksiya quyularının köməyi ilə quyuya su vurulur ki, burada da əsas məqsəd layda olan nefti istismar quyularına doğru hərəkət etdirməkdən ibarətdir;

– *yatağın yüksək hissəsinə və yaxud «qaz şapkası»na qaz vurulması* – üçün kompressor stansiyalarından istifadə edilir. Belə kompressor stansiyalarının yaratdığı təzyiq lay təzyiqindən 10-

20% artıq olmalıdır. Bu tədbir çox xərc tələb edir və ona görə də ondan neft yataqlarının işlənməsinin son mərhələsində istifadə edilir. Bu onunla izah edilir ki, qazın laya vurulması suvurmaya nisbətən iqtisadi cəhətdən o qədər də səmərəli deyildir;

– *təkrar neftçıxarma üsulları.* Məlumdur ki, kompressor və dərinlik nasosu ilə biz yataqlarda olan neftin bu və ya digər səbəblər üzündən hamısını çıxara bilmirik. Belə yataqlarda və laylarda qalan neft ehtiyatını çıxarmaq üçün təkrar istismar üsulundan istifadə edilir. Bu məqsədlə, neft layına su və qaz vurulur. Onu da qeyd etmək lazımdır ki, neft yataqlarının istismarının son mərhələsində qalıq neftin çıxarılması bir sıra çətinliklərlə əlaqədardır: layda təzyiq azaldığından neft qazsızlaşır və neftin özlülüyü artır ki, bu da öz növbəsində neftin layda hərəkətini çətinləşdirir və neft yatağı sulaşmış olur;

– *mayenin sürətlə çıxarılması üsulu.* Bəzi hallarda yataqların istismarının son mərhələsində kontur sularının hesabına lay çox sulaşır və orada çıxarılmamış külli miqdarda neft ehtiyatı qalır ki, bunu da adi təzyiqlər fərqində çıxarmaq mümkün olmur. Belə hallarda qalıq neftin çıxarılması üçün mayenin sürətlə çıxarılması üsullarından istifadə edilir. Bu məqsədlə, böyük diametrli quyu nasoslarından, mərkəzdənqaçma elektrik dalma nasoslarından, qaz-hava qaldırıcılarından və s. istifadə edilir. Nəticədə lay və kontur suları intensiv surətdə quyudan sorulur və onlar da özləri ilə birlikdə qalıq nefti çıxarır. Bu üsul ilk dəfə 1943-cü ildə Novo-Qroznı neft yatağında tətbiq edilmiş və yaxşı nəticələr əldə edilmişdir. Belə ki, 28 ayda bu üsulun tətbiqi nəticəsində əlavə olaraq 28000 ton neft əldə edilmişdir. Hazırda mayenin sürətlə çıxarılması üsulu müvəffəqiyyətlə Azərbaycanda və neft rayonlarında geniş tətbiq edilir;

– *neftin vakuum-nasos üsulu ilə çıxarılması üsulu.* Bəzən quyudibində təzyiqlər fərqi o qədər azalır ki, mayenin quyudibinə hərəkəti mümkün olmur. Bunun üçün quyudibində vakuum yaradılır. Bu məqsədlə, quyu ağzını möhkəm kipləşdirib, vakuum nasoslarına birləşdirirlər. Bu zaman quyudibində vakuum 0,5-0,6 atm-ə qədər aşağı düşə bilir. Nəticədə neftin yüngül fraksiyaları qaz fazasına keçir. Həmin məhsullar quyudibinə hərəkət edərkən özü ilə bərabər nefti də hərəkət etdirir. Azərbaycanda və keçmiş SSRİ-də vakuum-nasos üsulundan istifadə edilmirdi, çünki bunun üçün bizdə lazımi avadanlıqlar olmamışdır və indi də yoxdur. Əgər gələcəkdə bizim respublikamızda vakuum-nasos üsulu ilə nefti çıxarmaq üçün zəruri avadanlıqlar yaradılarsa, onda sözsüz ki, Azərbaycanda da bu üsuldan istifadə ediləcəkdir. Vakuum-nasos üsulundan başqa layın neftvermə əmsalını artırmaq üçün laya istiliklə təsiretmə üsulundan və yataqda neftin qaz fazasına keçirilməsi üsulundan da istifadə edilir. Bu üsul Azərbaycanda tətbiq edilir və çox yaxşı nəticələr verir.



***b) quyuların hasilatının artırılması üsulları.*** Aparılan tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, quyuların hasilatının artırılmasında quyudibi zonasının keçiriciliyinin artırılması mühüm rol oynayır. Bu məqsədlə, kimyəvi-istilik və mexaniki təsiretmə üsullarından istifadə edilir. Bu üsulların ən geniş yayılmış formaları aşağıdakılardan ibarətdir:

– *istismar quyularının xlorid turşusu ilə işlənməsi üsulu* – xlorid turşusunun əhəng və dolomitlərdən təşkil edilmiş süxurlarla kimyəvi reaksiyaya girməsinə əsaslanır. Bu reaksiyaların nəticəsində layda genişlənmiş kanallar əmələ gəlir və həmin kanallar layın içərisinə tərəf yayılaraq quyudibi zonasının keçiriciliyini çoxaldır. Reaksiya nəticəsində alınan məhsullar suda çox yaxşı həll olur ki, bu da onların quyudan çıxarılmasını xeyli asanlaşdırır;

– *quyuların termoturşu üsulu ilə işlənməsi.* İstismar quyularında quyudibində bəzən parafin və qatran çöküntüləri əmələ gəlir. Belə hallarda parafin quyudibinə çökərək neft kanallarını tutur və beləliklə də, quyunun məhsuldarlığını, yəni layın neftvermə əmsalını azaldır. Parafin, qatran və s. maddələri quyudibindən kənar etmək üçün onlar həll edilməlidir. Bunun üçün bir sıra üsullardan istifadə edilir. Bu üsullardan ən geniş yayılanı və iqtisadi cəhətdən əhəmiyyət kəsb edəni quyudibinə kimyəvi reagentlərin yaratdığı istilik vasitəsilə təsir etməkdir. Termokimyəvi təsir zonası həm də quyu gövdəsində gil məhlulunun və duzların yaratdıqları qabıqları da dağıdır, təmizləyir. Quyudibinə termokimyəvi təsiretmənin ən geniş yayılmış üsulu xlorid turşusu ilə metallik maqnezium arasında gedən reaksiyanın istiliyindən istifadə etməkdir;

– *layın hidravlik yarılması üsulu* – iqtisadi cəhətdən ən səmərəli üsullardan biridir. Bu üsulla layın orta keçiriciliyinin və

deməli, məhsuldarlığının artırılması mümkün olur. Təcrübə göstərir ki, lay hidravlik yarıldıqdan sonra quyuların hasilatı təqribən 10 dəfə və daha çox artır. Bu onu göstərir ki, hidravlik yarılma nəticəsində yeni əmələ gələn yarıqlar layda əvvəllər olan yarıqlarla birləşir və quyuya neft axını ayrı-ayrı məhsuldar qatlardan axıb gəlir. Bu üsul hazırda Azərbaycanda neft hasilatının artırılmasında ən geniş istifadə olunan üsullardan biridir;

– *quyuların torpedalınması üsulu* – quyudibi zonasının turşu ilə işlənmə səmərəliliyini artırmaq üçün yaxşı nəticələr verir. Torpedalınmanın əsas üstünlüyü layın fiziki xassələrindən asılı olmayaraq onda şaquli yarıqlar sisteminin yaradılmasıdır. Məlumdur ki, quyunun radiusu artıqda onun hasilatı da artır. Torpedalınma zamanı quyunun hasilatının artmasında əlavə quyunun istismarına təsir edən bir sıra texnoloji səmərələr də əldə edilir: quyunun gövdəsi laydakı təbii yarıqlarla əlaqələndirilir; qazma prosesi zamanı əmələ gələn gil təbəqəsi aradan qaldırılır; quyudibinin perforasiyası (torpedlənməsi) zamanı açılmamış kiçik neftli laylar quyunun gövdəsi ilə birləşdirilir; neftli laylar asan açılır və s.;

– *quyudibi zonasına istiliklə təsiretmə üsulu* – nəticəsində bilavasitə quyu gövdəsi ətrafındakı məsamələrdə çökən parafin və qatran maddələri əriyir və neftlə birlikdə yer səthinə qaldırılır. Bundan sonra öz əvvəlki hasilatını bərpa edir. Quyudibinə istiliklə təsir etmək üçün isti neftdən, elektriklə qızdırmadan istifadə edilir. Elektriklə qızdırma üsulunda quyudibinə ştanqlar vasitəsilə kontakt fonarlı xüsusi elektrik peçi endirilir və 380 V-luq mədən şəbəkəsindən alınan cərəyanla qızdırılır;

– *quyudibi zonasının soyudulma vasitəsilə işlənməsi üsulu* – son zamanlar tətbiq edilir. Bu üsulun mahiyyəti aşağıdakı kimidir: hidravlik yarılma, yaxud təzyiq altında turşu ilə işləmə aparılacaq quyunun quyudibi zonasına alçaq temperaturlu soyuducu agent, məsələn, maye azot vurulur. Müəyyən vaxtdan sonra layda olan neft və su donaraq, öz axma qabiliyyətini itirərək bərkiyir və həmin zonadakı məsamələri tutur. Bu isə quyudibində yüksək təzyiqin alınmasına imkan yaradır. Quyudibi zonası dondurulduqdan sonra hidravlik yarılma, yaxud təzyiq altında turşu ilə işləmə aparılır. Sonra layda olan təzyiq və temperaturdan asılı olaraq quyudibi zonasına istiliklə təsir edilir və beləliklə də quyu işə salınır.



Quyudibi zonasına yuxarıda göstərilən təsir üsullarının səmərəsi quyunun cari hasilatının artması, əlavə əldə edilən neftin qiyməti və aparılan təsir üsullarına sərf edilən məsrəflərlə təyin edilir. Bu göstəricilər quyudibi zonasının işlənməsindən alınan iqtisadi səmərəni və eyni zamanda həmin zonanın keçiriciliyinin dəyişməsini xarakterizə edir. Məsələn, quyudibi zonasının turşu ilə işlənməsi nəticəsində cari hasilatın artması işlənmədən əvvəl və sonrakı hasilatın müqayisəsi ilə əldə edilir.

Beləliklə, neft sənayesində, xüsusilə köhnə neft rayonlarında hasilatın artırılmasında texniki-iqtisadi tədbirlərin həyata keçirilməsi, işin səmərəli təşkili mühüm əhəmiyyət kəsb edir. Məhz elmi-metodik texnologiyaya və standartlara uyğun iş rejiminin təşkili bu gün quruda neft-qazçıxarma kompleksini depressiya və böhranlı vəziyyətdən çıxara bilər. Cədvəl 23-də bəzi metodların tətbiqi nəticəsində neft-qazçıxarma idarələrində əldə edilən əlavə neft hasilatının həcmi verilmişdir.

*Cədvəl 23*

***2004-cü ildə layların neftverməsini artıran müasir üsulların tətbiqi***

| NQÇİ-nin adları | Metodların adları | Əlavə neft hasilatı, min ton |
|---|---|---|
| «Balaxanıneft» | Daxili yanma, termokimyəvi təsir, su-hava qarışığı ilə təsir | 12,5 |
| «Binəqədineft» | Buxar-istilik təsiri, mikrobioloji təsir, su-hava qarışığı ilə təsir | 28,0 |
| «Suraxanıneft» | Köpük-hava sistemi, daxili yanma, maye fazlı oksidləşdirici | 10,0 |
| «Bibiheybətneft» | Mikrobioloji təsir | 0,5 |

Məlumdur ki, Azərbaycanda quruda 150 il və ondan artıq müddətdə istismarda olan neft-qaz yataqlarında əsas vəzifə quyu fondu üzərində işin təşkilidir. Bu sahədə quruda NQÇİ-i bütün mövcud imkanlardan istifadə edərək, boş dayanan quyu-

ların istismara qaytarılmasını müəyyən qədər sürətləndirmişlər. Belə ki, 1995-ci ildə fəaliyyətsiz quyu fondundan 448 neft quyusu, 1996-cı ildə isə 593 neft quyusu istismara qaytarılmışdır. 1997-ci ildə istismara qaytarılmış 700 neft quyusundan 82,5 min ton neft hasil edilmişdir. Lakin son illərdə müxtəlif obyektiv və subyektiv səbəblər üzündən qazmadan qurtarmış quyuların mənimsənilməsi işi xeyli ləngidilir ki, bu da neft hasilatının artırılmasına çox böyük mənfi təsir göstərir.

Məlumat üçün qeyd edək ki, hər bir quyu yüz milyonlarla manata başa gəlir. «Nə qədər quyu qazılmalıdır?» – sualına düzgün cavab vermək məsələsi bu günə kimi mübahisə doğuran məsələlərdəndir. Akademik A.X.Mirzəcanzadənin Ç.A.Sultanovla birgə yazdığı «Диакоптика процессов нефтеотдачи пластов» monoqrafiyasında bu suala müəyyən qədər cavab verilmişdir. Belə ki, monoqrafiyada neftvermənin mexaniki ünsürləri, neft-qaz hasilatının dinamik sistemi, layın neftverməsinin proqnozlaşdırılmasının qiymətləndirilməsi metodları, neft ehtiyatlarının hasilatı mexanizmi və s. məsələlər öz əksini tapmışdır.

Beləliklə, neft hasilatının artırılmasında yeni qazılacaq neft quyuları sayının düzgün müəyyənləşdirilməsi həm iqtisadi, həm də texniki cəhətdən mühüm əhəmiyyət kəsb edir. Çünki tələb edildiyindən artıq quyu qazıldıqda külli miqdarda vəsait sərf ediləcək, az quyu qazıldıqda isə neft hasilatını tələb olunan səviyyəyə qədər artırmaq mümkün olmayacaqdır. Azərbaycan Dövlət Neft Akademiyasında neft-qazçıxarma idarələrinin mövcud istehsal gücünü nəzərə alaraq illik neft hasilatını hesablamaq üçün metodik göstəriş işlənib hazırlanmışdır. Bu metodik göstərişə əsasən neft-qazçıxarma idarələrində illik neft hasilatı həcmini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilməsi tövsiyə edilmişdir:

$$Q_{il} = Q_{real} : Ə_{it.}$$

burada $Q_{real}$ – il ərzində realizə ediləcək neftin həcmi; $Ə_{it.}$ – mədəndaxili neft itkilərini nəzərə alan əmsal.

$$Ə_{it.} = Q_{tex.} : Q_{rez.}$$

$Q_{tex.}$ – satılmaq məqsədilə texnoloji hazırlanmış neftin həcmi; $Q_{rez.}$ – il ərzində mədən rezervuarlarına daxil olan neftin həcmi.

Məlumdur ki, neft hasilatının artırılmasında yeni neft quyularının qazılıb istismara verilməsi mühüm rol oynayır. Bununla belə, quruda son illərdə NQÇİ-də qazma işlərinin həcmi həm istismar qazması, həm də kəşfiyyat qazması üzrə xeyli azalmışdır. Belə ki, əgər 1986-cı ildə ümumi qazma işləri 441852 metr, o cümlədən kəşfiyyat qazması 367887 metr və istismar qazması isə 73965 metr təşkil edirdisə, həmin rəqəm, müvafiq surətdə, 1990-cı ildə 291137, 244035, 47102 metr, 1995-ci ildə 38886, 38218, 668 metr, 1996-cı ildə isə 52811, 50432 və 2379 metr olmuşdur. Verilmiş rəqəmlərdən görünür ki, 1986-cı ilə nisbətən 1996-cı ildə, yəni 10 il ərzində ümumi qazmaların həcmi 83,6 dəfə, o cümlədən istismar qazması 72,9 dəfə və kəşfiyyat qazması isə 31,1 dəfə azalmışdır ki, bu da neft-qaz hasilatının azalmasına səbəb olmuşdur.



Neft-qazçıxarma idarələri üzrə mövcud olan və işlənmiş quyu layları üzrə tapşırıqların yerinə yetirilməsi səviyyəsinin təhlili göstərir ki, bir sıra NQÇİ bu göstərici üzrə tapşırıqları yerinə yetirmədikləri halda, neft hasilatı planını yerinə yetirmişlər. Belə bir hal quyunun orta hasilatının artırılması nəticəsində mümkün olmuşdur. İstismara daxil olmuş bir yeni quyu üzrə orta gündəlik hasilat son illərdə, demək olar ki, sabit qalmışdır: 1990-cı ildə – 2,8 ton; 1991-ci ildə – 3,9 ton; 1992-ci ildə 3,0 ton; 1993-cü ildə – 3,0 ton; 1994-cü ildə – 4,2 ton; 1995-ci ildə – 3,7 ton və 1996-cı ildə isə – 3,9 ton. Hazırda neft hasilatının əsas hissəsi, qeyd etdiyimiz kimi, kompressor üsulu ilə əldə edilir və NQÇİ-lər üzrə işlənmiş quyuların orta hasilatı 21-50 ton arasında tərəddüd edir.

Neft hasilatının artırılmasında quyuların istismar əmsalının yüksəldilməsi də mühüm rol oynayır. Belə ki, bu əmsalı yüksəltməklə əlavə xərc çəkmədən neft hasilatını artırmaq mümkün olur. Məsələn, «Binəqədineft» NQÇİ üzrə 1996-cı ildə quyuların istismar əmsalının 1,6% artırılması nəticəsində əlavə olaraq ildə 6974 ton neft əldə edilmişdir.

Faktiki materialların təhlili göstərir ki, NQÇİ üzrə maddi-texniki təchizat sistemindəki çatışmazlıqlar ən kəskin surətdə neft hasilatının artırılmasına mənfi təsir göstərir. Bu da müvafiq təchizat sisteminin hələlik planlı iqtisadiyyat dövründə olduğu kimi qalması ilə izah olunur. Vəziyyətin yaxşılaşdırılması üçün neft sənayesində təchizat sisteminin təşkilinin təkmilləşdirilməsinə diqqəti artırmaq lazımdır. Hesablamalar göstərir ki, təkcə

maddi-texniki təchizat sisteminin lazımi səviyyədə olmaması üzündən çoxlu miqdara neft əldə edilmir.

Bundan başqa, neft hasilatının artırılmasında neft-qaz quyularının qazılmasında təqvim vaxtından istifadənin yaxşılaşdırılması da mühüm rol oynayır. Təcrübə göstərir ki, NQÇİ-də xeyli iş vaxtı itkiləri – boşdayanmalar, qeyri-məhsuldar iş vaxtı sərfi vardır; bunlar əməyin və istehsalın təşkilindəki qüsurlarla, maddi-texniki təchizatla, əmək intizamının və nizam-qaydalarının pozulması ilə əlaqədardır. İş vaxtından istifadənin yaxşılaşdırılmasına – əməyin və istehsalın təşkilinin təkmilləşdirilməsi, əmək intizamının möhkəmləndirilməsi, əmək şəraitinin və təhlükəsizlik texnikasının yaxşılaşdırılması hesabına xəstəlik və xəsarətlərin azaldılması, rəhbərliyin icazəsi ilə məzuniyyətlərin qısaldılması, iş yerlərinin attestasiyası və səmərələşdirilməsi və s. səbəb olur. Bütün növbə ərzində və növbədaxili vaxt itkilərinin azaldılması, normal əmək intensivliyinin təmin olunması mühüm əhəmiyyətə malikdir. İş vaxtı itkisinin azaldılması, ondan istifadənin yaxşılaşdırılması istehsalın intensivləşdirilməsinin, əmək məhsuldarlığının artırılmasının, bununla da NQÇİ üzrə neft hasilatının artırılmasının mühüm ehtiyatlarından biridir. 1980-2004-cü illərdə qazma kontorlarında təqvim vaxtından istifadənin dinamikası cədvəl 24-də verilmişdir.

*Cədvəl 24*

***Qazma işlərində təqvim vaxtından istifadənin dinamikası, %-lə***

| İllər | Qazma işlərinə | Qəzaların ləğvinə | Təşkilati səbəblərdən boşdayanmalara |
|---|---|---|---|
| 1980 | 76,7 | 7,9 | 15,4 |
| 1990 | 72,5 | 6,3 | 21,2 |
| 1995 | 79,5 | 6,2 | 14,3 |
| 1999 | 80,8 | 5,9 | 13,3 |
| 2000 | 83,7 | 6,6 | 9,7 |
| 2001 | 81,5 | 5,5 | 13,0 |
| 2002 | 84,3 | 5,7 | 10,0 |
| 2003 | 85,4 | 5,6 | 9,0 |
| 2004 | 79,6 | 4,8 | 8,7 |



Hasiledici sənaye sahələrinin spesifik xüsusiyyətləri əmək məhsuldarlığı göstəricilərinə də öz təsirini göstərir. Qeyd etmək lazımdır ki, hasiledici sənaye sahələrində məhsulun əmək-tutumluğu göstəricisindən son illərə qədər geniş istifadə edilirdi. Bu sənaye sahələrində əmək məhsuldarlığının istər natural, istərsə də dəyər göstəricilərinin səviyyəsi təkcə əməyin nəticəsi kimi formalaşmır, burada təbii amillərin, yataqların məhsuldarlığı xüsusi əhəmiyyət kəsb edir. Debiti yüksək olan yataqlar, təbii ki, əmək məhsuldarlığının yüksək olması ilə səciyyələnir. Texniki tərəqqi, avtomatlaşdırma, kompleks mexanikləşdirmə, istehsalın və əməyin təşkili ilə əlaqədar həyata keçirilən tədbirlər bu meylin zəifləməsinə müəyyən dərəcədə təsir etsə də, o sabit xarakter daşımır. Burada bir quyuya xidmət edən işçilərin miqdarı və ya bir quyuya xidmətin əməktutumluluğu göstəricisindən də istifadə edilməsinin əhəmiyyətini qeyd etmək lazımdır. «Azərneft» İstehsalat Birliyi üzrə bir quyuya xidmət edən işçilərin sayı son 40 il ərzində 2 dəfədən çox aşağı düşmüşdür. Geoloji-kəşfiyyat işlərinin texniki səviyyəsinin yüksəlməsi, yeni, məhsuldar qazma texnikasının, geofiziki aparatlar, nəzarət-ölçü cihazlarının tətbiqi, axtarış-kəşfiyyat işləri, yeni mütərəqqi metodlardan istifadə hər quyu üzrə əməktutumluluğunun aşağı düşməsini təmin edə bilər.

Neft-qazçıxarma sənayesində əmək məhsuldarlığına təsir edən çoxsaylı amillər mövcuddur. Bu amilləri şərti olaraq iki qrupa ayırmaq olar: a) quyuların orta debitini müəyyən edən amillər; b) sənaye istehsal heyətinin nisbi miqdarını müəyyən edən amillər. İkinci qrup amillər içərisində istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması, əməyin təşkili və istehsalın idarə edilməsi, iş vaxtından istifadə üstünlük təşkil edir və hazırda bu amillərin rolu artmaqdadır.

Faktiki materialların təhlili göstərir ki, neft-qazçıxarma idarələrində əmək məhsuldarlığının səviyyəsi uzun bir dövr ərzində aşağı düşməyə meyl edir. Belə bir meyl təkcə bizim respublikamızda deyil, keçmiş SSRİ-nin digər neft rayonlarında, eləcə də dünyanın bir çox ölkələrində uzun illər boyu istismar olunan yataqlarda da özünü büruzə verir. 1960-cı ildə «Azərneft» İstehsalat Birliyi üzrə bir işçiyə 555 ton neft düşürdüsə, həmin rəqəm 1965-ci ildə 496, 1970-ci ildə – 399 olmuş, 1997-ci ildə

isə 55 ton təşkil etmişdir.

Əmək məhsuldarlığına təsir edən amillər içərisində əmək və icra intizamı mühüm yer tutur. Məhz buna görə də neft-qazçıxarma sənayesində əmək intizamı problemi həmişə diqqət mərkəzində durmuş və indi də durmaqdadır. Neft-qazçıxarma sənayesində uzun illər iş vaxtı itkisi, üzrsüz səbəblərdən işə-çıxmamaların səviyyəsi orta respublika göstəricilərindən aşağı olmuşdur. Bu müsbət meyl bu gün də özünü büruzə verir. Əlbəttə, müasir şəraitdə bir sıra NQÇİ-də neft hasilatı sahəsindəki gerilemələr iş vaxtından səmərəli istifadə edilməməsi ilə bilavasitə əlaqədardır. Lakin NQÇİ-də aparılan müşahidələr göstərir ki, bu sahədə boşdayanmaları və iş vaxtı itkilərini xeyli azaltmaq olar.

Məlumdur ki, Azərbaycanın neft sənayesi yüksək ixtisaslı mütəxəssislərlə məşhurdur. Hələ 1960-cı illərdə respublikanın neft-qazçıxarma sənayesində 3,9 min nəfər ali və orta ixtisas təhsilli mütəxəssis çalışırdı ki, bu da bütövlükdə sənaye üzrə mütəxəssislərin təqribən 25%-ni təşkil edirdi. Hazırda respublikamızda kifayət qədər neftçi kadrları vardır. Bu mütəxəssislər dünyanın əksər dövlətlərinin mütəxəssisləri ilə rəqabət aparmaq imkanlarına malikdirlər. Bazar iqtisadiyyatına keçid dövründə neft hasilatının azalması ilə əlaqədar olaraq, ixtisaslı mütəxəssislərdən səmərəli istifadə olunması müşkül hala düşmüşdür. Ayrı-ayrı NQÇİ-də işçi kateqoriyalarının say tərkibində struktur dəyişiklikləri baş verir. Buna misal olaraq, 1996-cı ildə neft hasilatı 1990-cı ilə nisbətən 39%, qaz hasilatı 20,4%, qazma işlərinin həcmi 82,0% aşağı düşdüyü halda, sənayedə çalışanların sayı 15,6% azalmış, qazma işləri üzrə işçilərin sayı 17,3%, tikinti-quraşdırma işlərində çalışanların sayı isə 3,3 dəfə artmışdır.

Maddi istehsalın digər sahələrində olduğu kimi, neft sənayesində də mənfəətin artırılmasında istehsal xərclərinin aşağı salınması mühüm rol oynayır. Çünki istehsal xərclərinin və deməli, maya dəyərinin aşağı salınması, qeyri-məhsuldar xərclərin və itkilərin (qeyri-məhsuldar xərclər və itkilər dedikdə, istehsalın təşkili və idarə edilməsindəki qüsurlar, müqavilə öhdəliklərinin və plan-uçot intizamının pozulması nəticəsində əmələ gələn nəzərdə tutulmamış məsrəflər və itkilər başa düşülür.



Qeyri-məhsuldar xərclərə daxildir: vaxtın qeyri-məhsuldar sərf edilməsinin ödənilməsi; ehtiyatlardan qeyri-məhsuldar istifadəyə görə çəkilən məsrəflər; malgöndərmə müqavilələrinin pozulmasına görə, hər cür nəqliyyat növlərinin boşdayanmasına görə cərimələr və penyalar, vaxtı keçmiş kreditə görə verilən əlavə faizlər; digər qeyri-məhsuldar xərclər, məsələn, materialların ölçüyə gəlməməsi, nizamlaşdırılmış iş şəraitindən kənarlaşmalar üzündən əlavə işə görə haqqın ödənilməsi, fəhlənin əsas işdən ayrılması vaxtına görə əməyin ödənilməsi) azaldılması mənfəətin artırılması amilləridir. Faktiki materialların təhlili göstərir ki, yanacaq sənaye sahəsində istehsal xərclərinin əsas hissəsini materiallara çəkilən xərclər təşkil edir (cədvəl 25).

*Cədvəl 25*

***Mədənçıxarma sənayesində məhsul vahidinin istehsalına çəkilən xərclərin strukturu, %***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Cəmi<br>o cümlədən | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| material xərcləri | 39,7 | 20,4 | 26,8 | 30,6 | 39,4 |
| əsas fondların amortizasiyası | 12,2 | 16,5 | 18,0 | 17,1 | 13,8 |
| əmək haqqı xərcləri | 12,5 | 13,8 | 15,8 | 15,3 | 15,4 |
| sair xərclər | 35,6 | 39,3 | 39,6 | 37,0 | 31,4 |

Müasir dövrdə neft-qazçıxarma idarələrində işçi qüvvəsinin axıcılığı maddi istehsalın digər sahələrindən öz intensivliyinə görə xeyli fərqlənir. ***İşçi qüvvəsinin axıcılığı*** dedikdə, işçilərin qeyri-müntəzəm surətdə bir neft-qazçıxarma idarəsindən digərinə keçməklə yerlərini dəyişməsi prosesi başa düşülür. Öz xahişi ilə iş yerini dəyişməyə görə işçilərin işdən azad edilməsi, proqula və əmək intizamının başqa şəkildə pozulmasına görə işçilərin işdən çıxarılması işçi qüvvəsinin axıcılığı hesab edilir. İşçi qüvvəsinin axıcılığı çox halda istehsalın təşkilindəki və idarə edilməsindəki qüsurlar, işçilərə mədəni məişət xidməti göstərən sahələrin zəif inkişafı, əmək haqqının az olması və s. üzündən baş verir. NQÇİ-də işdənçıxma səbəbləri içərisində əmək haqqının az olması amili üstünlük təşkil edir. İşçi qüvvə-

sinin axıcılığının intensivlik göstəricisi – işdən çıxmış işçilərin sayının onların orta siyahı sayına nisbətindən ibarətdir. Həmin saya işdən çıxması planda nəzərdə tutulan işçilər, təhsil müəssisələrinə daxil olduqlarına görə, pensiyaya gedənlər və digər səbəbdən işdən çıxarılanlar daxil edilir. Təcrübə göstərir ki, işçi qüvvəsi axıcılığının yüksək olduğu neft-qazçıxarma idarələrində hasilatın artırılması çətinləşir, istehsal prosesinin ahəngdarlığı pozulur, yeni işçilərin peşə hazırlığı xərcləri artır və s.

Neft-qazçıxarma idarələrində işçi qüvvəsinin axıcılığını azaltmaq üçün işçilərin əmək və məişət şəraitinin yaxşılaşdırılmasına, onların ümumtəhsil və mədəni səviyyəsinin yüksəldilməsinə, neft-qazçıxarma idarələrində işlə təhsili əlaqələndirməyə imkan verən və s. işlərə yönəldilmiş texniki-təşkilati və sosial-iqtisadi tədbirlər kompleksi işlənib hazırlanmalı və həyata keçirilməlidir. Düzdür bu sahədə neft-qazçıxarma idarələrində son illər xeyli işlər görülmüşdür. Lakin bununla kifayətlənmək olmaz. Çünki faktiki materialların təhlili göstərir ki, neft-qazçıxarma idarələrində son 10 il ərzində işdən çıxarılan işçilərin orta illik sayı 14,2-26,0%; həmin dövrdə işə qəbul olunmuş işçilərin orta illik sayı isə 12,9-21,6% təşkil etmişdir. Neft-qazçıxarma idarələrində işçilərin işdəngetmə əmsalının yuxarı olması bir tərəfdən ildən-ilə bu sahədə işçilərin obyektiv azalması ilə izah edilsə də, bir sıra hallarda iş, əmək şəraitinin işçini təmin etməməsi üzündən irəli gəlir. Sənayenin sahələri üzrə işləyənlərin sayının hərəkəti cədvəl 26-da verilmişdir.

Məlumdur ki, əhalinin sosial müdafiəsi məsələləri dövlətin iqtisadi siyasətinin əsasını təşkil edir və bu sahədə ardıcıl səmərəli iş aparılır. Düzdür respublikamız müstəqillik əldə etdikdən sonrakı dövrlərdə əhalinin sosial vəziyyəti müəyyən qədər pisləşmişdir. Lakin qonşu ölkələrlə müqayisə etdikdə, respublikamızda bu sahədə vəziyyət nisbətən yaxşıdır. Xüsusilə neft-qazçıxarma idarələrində sosial məsələlərin həllinə münasibət iqtisadiyyatın digər sahələrinə nisbətən yaxşı səviyyədədir. Məsələn, «Azərneft» İstehsalat Birliyi üzrə 1996-cı ildə 16746 kv. metr, 1997-ci ildə – 21562 kv. metr mənzil sahəsi tikilib istifadəyə verilmişdir. Həmin dövrlərdə 300-dən çox neftçi ailəsi yeni mənzillərlə təmin edilmişdir. Bundan başqa, neft-qazçıxarma sənayesində maddi istehsalın digər sahələrinə nis-



*Cədvəl 26*

***İqtisadi fəaliyyət növləri üzrə sənayedə işləyənlərin hərəkəti, ümumi saya görə %***

| İllər | İl ərzində işə qəbul olunanlar | | | İl ərzində işdən çıxarılanlar | | |
|---|---|---|---|---|---|---|
| | Bütün sənaye | o cümlədən | | Bütün sənaye | o cümlədən | |
| | | Hasilat sənaye | Emal sənaye | | Hasilat sənaye | Emal sənaye |
| 1998 | 19,6 | 7,8 | 9,7 | 21,8 | 10,5 | 26,2 |
| 1999 | 10,6 | 4,7 | 11,6 | 16,8 | 6,1 | 21,5 |
| 2000 | 13,1 | 5,0 | 15,4 | 20,6 | 5,5 | 26,8 |
| 2001 | 14,6 | 4,1 | 15,8 | 20,2 | 5,8 | 27,1 |
| 2002 | 14,7 | 4,5 | 17,6 | 20,5 | 6,7 | 27,7 |
| 2003 | 17,0 | 7,9 | 21,1 | 18,7 | 5,8 | 26,4 |
| 2004 | 19,2 | 10,0 | 24,6 | 17,5 | 7,8 | 22,4 |

bətən əmək haqqı orta respublika səviyyəsindən yüksəkdir, lakin sosial ehtiyacların ödənilməsi baxımından kifayət deyildir. Məhz buna görə də bu amil üzrə işdənçıxmaların artması meyli diqqəti cəlb etməlidir. Faktiki materialların təhlili göstərir ki, neft-qazçıxarma idarələrində bazar münasibətləri şəraiti ilə bağlı sosioloji tədqiqatların aparılmasına ciddi ehtiyac vardır. İş yerlərinin ixtisarı ağır məsələ olsa da, belə proses bazar iqtisadiyyatının tələblərindən irəli gəlir. Bundan başqa, elmi-texniki tərəqqi sürətləndikcə, kompüterləşmə prosesi genişləndikcə fiziki əməkdən istifadə də azalmağa doğru meyl edir.

## 2.5. Neft bonusu və digər ödənişlərin mahiyyəti, hasilatın artırılmasında onlardan istifadənin əhəmiyyəti

Beynəlxalq təcrübədə mineral resursların hasilatında müxtəlif ödəniş növlərindən istifadə olunur. Mineral xammal sektoruna dövlət ikili fiskal münasibət bəsləyir: o, bir tərəfdən təbii resursların sahibi kimi bunlardan maksimum gəlir əldə etməyə çalışır, digər tərəfdən isə, ali vergi orqanı kimi burada fəaliyyət göstərən xarici şirkətləri vergiyə cəlb edir. Buna görə də ölkənin vergi sistemi, bir tərəfdən, dövlətin uzun müddət ərzində müvafiq gəlirlər əldə etməsinə imkan verməli, digər tərəfdən

isə, layihələrin iqtisadi səmərəliliyinin təmin edilməsinə yönəlmiş stimulları saxlamaqla mineral xammal sektorunun potensial investorlar üçün cəlbediciliyini qoruyub saxlamalıdır. Ümumiyyətlə, neft hasil edən dünyanın qabaqcıl ölkələrinin təcrübəsi göstərir ki, mineral resursların hasilatında aşağıdakı növ maliyyə yardımlarından geniş istifadə edilir:

***Royaltı*** (buna bəzən vaxtaşırı ödəmə də deyilir) – lisenziya razılaşmalarının fəaliyyəti dövründə lisenziat tərəfindən hazır məhsulun qiymətindən ayırmalar şəklində, ya da məhsul vahidindən yığım şəklində verilən mükafatdır. Royaltı daha geniş yayılmış ödəniş formasıdır, istehsalçının ümumi gəlirindən müəyyən faizlə ödənilir. Bu zaman təbii resursların mülkiyyətçisi olan dövlət mədənlərin işlənilməsi hüququnu şirkətə verməsinin əvəzində istehsal olunan məhsulun dəyərinin müəyyən hissəsini ondan götürür. Ayrı-ayrı ölkələrin neft sənayesində royaltının dərəcəsi 0-dan 50-51%-dək fərqlənir.

Lakin əksər ölkələrdə onun dərəcəsi hasil olunan neftin dəyərinin 12,5-20,0%-i qədərdir. Bəzi ölkələrdə royaltı hesablanmasının proqressiv dərəcələri tətbiq olunur. Burada hesablama zamanı müəyyən amillərdən, məsələn, hasilatın həcmi, dəniz şelfinin dərinliyi və s. asılı olaraq sürüşkən dərəcələrdən istifadə edilir. Məsələn, Çinin neft sənayesində royaltı dərəcələri hasilatın dərinliyindən asılı olaraq 0-dan 12,5%-dək dəyişir. Nigeriyada 1000 metrdən dərində yerləşən əksər neft mədənləri üçün dərəcə 0-dırsa, dərinliyi 200 metrədək olan yataqlar üçün 16,67-dir.

***Vergilər*** – Neft müqavilələrinin reallaşdırılması, ölkənin neft sektorunda fəaliyyət göstərən xarici neft şirkətlərinin sayının artmasına səbəb olub. Rəsmi məlumatlara görə, hazırda ölkəmizdə neft hasilatı ilə məşğul olan 400-dək müxtəlif şirkətlər fəaliyyət göstərir. Bu baxımdan xarici neft şirkətlərinin, həm əməliyyatçı, həm də podratçı və subpodratçı şirkətlərin vergiyə cəlb olunması məsələsi mühüm əhəmiyyət kəsb edir.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda karbohidrogen resurslarının hasilatı ilə məşğul olan əməliyyat şirkətlərinin vergiyə cəlb olunması prinsipləri ayrıca razılaşma protokolu ilə tənzimlənir. Belə ki, bu protokola əsasən, Azərbaycanda karbohidrogen resurslarının hasilatı ilə məşğul olan xarici neft şir-



kətləri bütün növ dolayı vergilərdən azaddırlar.

Qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, «Bakı-Tbilisi-Ceyhan» Əsas İxrac Boru Kəməri haqqında və digər bu qəbildən olan sazişlər və ya qanunlar çərçivəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisə və şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir və belə müəssisələr «Xüsusi vergi rejimli müəssisələr» hesab edilir. «Xüsusi vergi rejimi» dedikdə, müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası başa düşülür. Qanun qüvvəsinə malik hər bir müqavilədə, müəyyən edilən dövr ərzində bu müqavilə çərçivəsində fəaliyyət göstərən xüsusi vergi rejimli müəssisə və şirkətlər tərəfindən vergilərin hesablanması və ödənilməsi qaydası müəyyənləşdirilir. Bundan başqa, müqavilələrdən irəli gələn vergilərin tətbiqi və alınması mexanizmi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında yaradılan İşçi Komissiyası ilə Podratçı tərəflər arasında imzalanan Protokollarla tənzimlənir. Bu protokollar «Mənfəət vergisi haqqında», «Əlavə dəyər vergisi haqqında», «Xarici subpodratçıların vergiyə cəlb olunması haqqında», «Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında», «İdxal və ixrac vergiləri haqqında» qanunlara əsaslanır.

Müqavilələr üzrə nəzərdə tutulmuş neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi məqsədilə podratçı tərəflər müxtəlif işlərin yerinə yetirilməsi üçün subpodratçı təşkilatları, o cümlədən xarici subpodratçıları (Azərbaycan Respublikasında karbohidrogen resurslarının hasilatı ilə məşğul olan və xarici dövlətin qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış hüquqi şəxslər) karbohidrogen əməliyyatlarına cəlb edirlər. Karbohidrogen resurslarının hasilatı ilə məşğul olan xarici subpodratçılar üçün mənfəət vergisinin hesablanmasının sadələşdirilmiş mexanizmi müəyyən edilmişdir.

Belə ki, xarici subpodratçılar karbohidrogen resurslarının hasilatından əldə etdikləri gəlirlərdən yalnız ödəniş mənbəyində mənfəət vergisinin ödəyiciləridirlər. Bu verginin dərəcəsi hər bir müqavilə üzrə, müqavilənin imzalandığı tarixə Azərbaycan Respublikasının vergi qanunvericiliyində mövcud olan mənfəət vergisi dərəcəsindən asılı olaraq 5,0%, 6,25%, 7,5% və 8,0%

həcmində müəyyən edilmişdir. Xarici subpodratçılarla ödənişlər aparan hər hansı şəxs həmin ödənişlərdən bu vergini tutur və ·ödəmə tarixindən sonra 30 gün ərzində dövlət büdcəsinə ödəyir. Yerinə yetirilmiş iş və ya göstərilən xidmətlərə görə xarici subpodratçılarla aparılan ödənişlərdən mənfəət vergisindən əlavə heç bir vergi tutulmur və bununla da xarici subpodratçıların vergi məsuliyyəti və öhdəlikləri tamamilə yerinə yetirilmiş hesab edilir.

Podratçı tərəflər isə karbohidrogen resurslarının hasilatından əldə etdikləri mənfəətdən müqavilənin imzalandığı tarixdən Azərbaycan Respublikasının vergi qanunvericiliyində qüvvədə olan dərəcə ilə mənfəət vergisi ödəyirlər. Podratçı tərəflərin vergiyə cəlb olunan mənfəətinin hesablanması və xüsusiyyətləri hər bir müqavilə üzrə ayrılıqda müəyyən edilir.

İştirakçılar arasında bağlanmış müqavilələrə uyğun olaraq podratçı tərəfin, əməliyyat şirkətinin və ya onların ortaq şirkətlərinin, həmçinin subpodratçı müəssisə və təşkilatların əməkdaşları, eyni zamanda xarici subpodratçı kimi fəaliyyət göstərən fiziki şəxslər – rezidentlər ölkəmizdəki əmək fəaliyyəti nəticəsində əldə etdikləri gəlirlərdən Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və dərəcələrlə gəlir vergisi ödəyirlər və vergi orqanlarına müvafiq Protokolda nəzərdə tutulmuş formada hesabatlar təqdim edirlər.

Məlumat üçün qeyd edək ki, xarici əməkdaşların rezidentliyinin müəyyən edilməsində və onlardan vergi tutulmasında bir sıra xüsusiyyətlər mövcuddur. Karbohidrogen resurslarının hasilatı ilə bağlı fəaliyyət göstərən xarici əməkdaşlar arasındakı şərtlərdən hər hansı birinə əməl edilməklə rezident hesab edilirlər:

a) təqvim ili ərzində Azərbaycan Respublikasında ardıcıl olaraq 30 gündən artıq qalan xarici vətəndaşlardan vergi həmin müddətdən artıq olan günlərin gəlirlərindən ödənilir. Bu şəxslərin Azərbaycana hər gəlişi 30 ardıcıl gündən az, lakin təqvim ili ərzində üst-üstə 90 gündən çox olarsa, vergi 90 gündən artıq olan günlərin gəlirlərindən ödənilir;

b) təqvim ili ərzində Azərbaycan Respublikasında nəzərdə tutulmuş qrafik üzrə işləyən xarici vətəndaşlar (rotatorlar) təqvim ili ərzində 90 günədək olduqda, onlardan vergi tutulmur. Belə şəxslər, təqvim ili ərzində Azərbaycan Respublikasında 90 gündən artıq qaldıqda, həmin 90 günün gəlirləri daxil olmaqla, ilk gündən başlayaraq əldə etdikləri gəlirdən vergi ödəməlidirlər.



Bundan başqa, iştirakçılar arasında bağlanmış müqavilələr çərçivəsində fəaliyyət göstərən müəssisə və şirkətlər tərəfindən karbohidrogen resurslarının hasilatı ilə bağlı olaraq, onlara birbaşa və ya dolayısı ilə təqdim olunan, yaxud idxal olunan mallar, görülən işlər və ya göstərilən xidmətlər əlavə dəyər vergisindən azdır. Mövcud qanunvericiliyə əsasən karbohidrogen resurslarının hasilatı ilə məşğul olan əməliyyatların əlavə dəyər vergisindən azad olunması haqqında podratçı tərəflərə, əməliyyat şirkətinə və ya onların ortaq şirkətlərinə, həmçinin subpodratçılara xüsusi Sertifikatın verilməsi nəzərdə tutulub. Belə Sertifikat müraciət olunduqdan sonra 30 gün ərzində Azərbaycan Respublikasının Vergilər Nazirliyi yanında İri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisə və şirkətlər üzrə Departament tərəfindən verilir.

Mineral resurslar hasilatının vergiyə cəlb olunmasında beynəlxalq təcrübədə həm mənfəət vergisi, həm də digər xüsusi növ, məsələn, mədən vergisi istifadə olunur. Neft şirkətinin mənfəəti, məsələn, OPEK ölkələrində 50-85% dərəcələri ilə vergiyə cəlb edilir. Bununla belə, xarici ölkələrin təcrübəsində neft hasilatı şirkətləri ilə münasibətləri tənzimləyən fiskal sistemlərin sayı kifayət qədər çoxdur. Hətta elə neft hasil edən ölkələr vardır ki, onlar eyni zamanda bir neçə vergi sistemindən istifadə edirlər.

Əksər ölkələr layihələrin gəlirlilik səviyyəsindən asılı olaraq vergilərin, yaxud hasilatın bölgüsü qaydalarının proqressiv şkalalarını tətbiq edirlər. Bu zaman layihələrin daxili gəlirliliyi yüksəldikcə dövlətin əldə edəcəyi gəlir, yaxud pay da artır. Belə vergi sistemində şirkətlərin çəkdiyi ilkin xərclər ödənilməyincə və müəyyən məbləğdə mənfəət əldə edilməyincə dövlət heç nə götürmür.

Bəzi ölkələr, məsələn, Venesuela, Kolumbiya, Peru, Tunis, Malayziya və başqaları, o cümlədən Azərbaycan Respublikası layihənin gəlirlilik göstəricisi kimi «R-faktoru»ndan istifadə edirlər. Bu göstərici yığılmış xalis gəlirin yığılmış məcmu xərclərə nisbəti kimi müəyyən edilir. Xarici ölkələrin neft şirkətlə-

rinin təcrübəsi göstərir ki, neft hasilatı gəlirlərindən mülkiyyətçi-dövlətin pay götürməsi formalarında böyük müxtəliflik mövcuddur. Məsələn, ABŞ-da bu məqsədlə yalnız iki adda çox sadə vergi sistemi tətbiq olunur: ofşor, yəni dəniz şelfində yerləşən yataqlar üçün 16,67% dərəcəsində adi royaltı və korporasiyaların mənfəətindən standart vergi. Eyni zamanda, ABŞ-da istismar edilən mədənlərdən yaranan iqtisadi rentanın əhəmiyyətli hissəsi də lisenziyanın rəqabətli satışı mexanizmi vasitəsi ilə dövlətə satılır. Bir sıra ölkələrdə, məsələn, Avstraliyada təbii resurslara xüsusi renta vergi sistemi tətbiq edirlər. Böyük Britaniyada və Norveçdə neft şirkətlərinin gəlirlərinə karbohidrogenlərin hasilatına tətbiq edilən vergi sistemləri də bu qəbildəndir.

Beləliklə, dünya ölkələrinin təcrübəsində iqtisadiyyatın mineral-xammal sektorunun vergiyə cəlb edilməsi sistemi elə təşkil edilib ki, dövlət həm özünün təbii resurslarına görə müvafiq haqq alır, həm də onların istifadəsindən əldə edilən gəlirlərin bölgüsü mexanizmi vasitəsi ilə sabit iqtisadi artımın təmin edilməsinə və uzunmüddətli mənfəət alınmasına nail olur.

***Mədən vergisi*** – ölkə qanunvericiliyində nəzərdə tutulmuş vergi növlərindən biridir və Azərbaycan Respublikasının ərazisindəki və Xəzər dənizinin şelfindəki faydalı qazıntıların çıxarılmasına görə tutulur. Bu vergini yerin təkindən faydalı qazıntıları çıxaran fiziki şəxslər və müəssisələr ödəyirlər. Mədən vergisinin vergitutma bazası faydalı qazıntıların topdansatış qiymətidir. Vergitutma məqsədləri üçün topdansatış qiyməti dedikdə, vergi ödəyicisinin faydalı qazıntılar üçün müəyyən etdiyi (əlavə dəyər vergisiz) sonuncu faktiki buraxılış səlahiyyətli dövlət orqanları tərəfindən tənzimləndikdə isə əlavə dəyər vergisi nəzərə alınmadan tənzimlənən qiymətlər nəzərdə tutulur. Mədən vergisi hər ay ödənilir.

***İcarə haqqı*** – karbohidrogen resurslarının hasilatının həcmindən və istehsalın gəlirlilik dərəcəsindən asılı olmayan əsas ödəniş növlərindən biridir. Bonuslardan fərqli olaraq bu, sistemli ödəniş hesab edilir. İcarə ödənişlərinin məbləği bir qayda olaraq çox da böyük olmur. Neft sənayesi obyektlərinin icarəyə verilməsi üçün haqq konkret regionda mövcud olan icarə haqqı dərəcəsi üzrə alınır. Avadanlıq və nəqliyyat vasitəsi üçün icarə



haqqı icarəyə verilən obyekt üzrə amortizasiya ayırmaları həcmində müəyyənləşdirilir. Müəssisə və təşkilatlar mənzil-tikinti kooperativlərinə və dövlətə məxsus evlərdə qeyri-yaşayış yerləri icarəyə götürə bilərlər. İcarə neft sənayesinin əsas fondlarından istifadəni yaxşılaşdırmağa imkan verir. İcarə haqqının ödənilməsində icarə intizamına ciddi əməl olunması mühüm əhəmiyyət kəsb edir. ***İcarə intizamı*** – hər bir işçi və ya kollektivin daha yüksək idarəetmə səviyyəsində qəbul edilmiş qərar, sərəncam və göstərişlərə tam və dəqiq əməl edilməsini nəzərdə tutur. İcarə intizamı icranın təşkilinin və ona nəzarətin yüksək keyfiyyəti, tapşırılmış iş üçün hər bir işçidə məsuliyyət hissinin tərbiyə edilməsi ilə təmin olunur. İcarə intizamı bir çox şərtlərdən asılıdır: əməyin düzgün təşkili və normalaşdırılmasından; işçilərin peşə ixtisasının artırılmasından; ayrı-ayrı iş yerlərinin texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsindən və s.

***Neft bonusu*** – mükafat xarakterli birdəfəlik ödənişlər olmaqla, dövlətin gəlirlərinin az bir hissəsini təşkil edir. Buna görə də ona müqavilələrdə dövlət gəlirlərinin artırılmasına yönəldilmiş əlavə müddəa kimi baxılır. Bonuslar bir və ya bir neçə mərhələdə ödənilə bilər. Adətən belə mükafatlar müqavilələr imzalananda, kəşfiyyat mərhələsi başa çatanda, ilkin hasilat baş tutanda ödənilir. Bu baxımdan, bonuslar xronoloji olaraq birinci ödənişlər hesab edilir. Bəzi ölkələrdə bonusların ödənilməsi qaydaları qanunvericiliklə müəyyən edilsə də, əksər hallarda bu, danışıqların mövzusu olur və müqavilədə öz əksini tapır. Azərbaycan Respublikasında bağlanan neft müqavilələri üzrə müxtəlif dərəcəli bonusların ödənilməsi xarakterikdir. Xüsusilə, böyük bonuslar «Azəri», «Çıraq» və «Günəşli» yatağının işlənməsi layihəsinə (350 mln. dollara yaxın) və «Zəfər»-«Məşəl» strukturlarının işlənməsi layihəsinə (90 mln. dollar) görə alınıb. Bu vəsaitlər Azərbaycan Respublikası Milli Bankının ehtiyatlarına yönəldilib və ondan müxtəlif dövrlərdə dövlət büdcəsinin kəsirinin örtülməsi, təyyarə parkının yeniləşdirilməsi, «Bakı-Tbilisi-Ceyhan» Əsas İxrac Boru Neft Kəmərinin tikinti-quraşdırma xərclərinin ödənilməsi məqsədilə istifadə olunub.

## 2.6. Mənfəət karbohidrogenləri və Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılmasında onun rolu

Müasir dövrdə karbohidrogenlər amili dünya iqtisadiyyatında ən əsas və başlıca amillərdən hesab edilir. Çünki indi hasil ediləcək karbohidrogenlərin miqdarı və dəyəri dünya iqtisadiyyatına çox böyük təsir göstərir. Bəzən hasil ediləcək karbohidrogenlərin miqdarı və dəyəri ilə əlaqədar məsələlərdə ölkələr arasında razılaşmamalar müxtəlif xarakterli konfliktlərə, toqquşmalara gətirib çıxarır ki, bunları da xoşa gəlməz hal kimi qiymətləndirmək lazımdır.

Digər tərəfdən, bir çox hallarda karbohidrogenlər hasilatında aparıcı rola malik olan ölkələr karbohidrogenlərin hasilatı və dəyərinin müəyyən edilməsində vahid bir mövqedən çıxış edirlər. Karbohidrogenlərin əsas istehsalçıları olan Qərb ölkələri karbohidrogenlər hasilatında mühüm rol oynayan, əsasən, Şərq ölkələrinin bu cür mövqeyini zəiflətmək, təsir dairəsini azaltmaq məqsədilə müxtəlif təzyiq üsullarından istifadə edirlər.

Avropada karbohidrogenlər məhsullarına olan tələbatı təmin etmək üçün 1961-ci ildə Haaqa şəhərində 54 karbohidrogenlər hasil edən ölkələrin iştirakı ilə Avropa energetika xartiyası imzalanmışdır. Bu, enerji daşıyıcılarının satışı sahəsində niyyət deklarasiyası idi və o, əsasən karbohidrogenlər istehsalçıları ilə onların istehlakçıları arasında baş verə biləcək münaqişələrin tənzimlənməsinə yönəldilmişdir. Məsələn, həmin deklarasiyaya görə karbohidrogenlər hasil edən ölkələr istehlakçı ölkələrdə baş verə biləcək enerji balansında çatışmayan hissənin kompensasiyasını həyata keçirməlidir.

Məlumat üçün qeyd edək ki, keçmiş SSRİ-də neft və digər mineral sərvətlərin qiyməti (dəyəri) onların istehsalına çəkilən xərclərə müvafiq olaraq müəyyən edilmirdi. Məsələn, SSRİ dövləti neftin xaricə satışını əlində cəmləşdirərək, xam nefti ucuz qiymətlərlə sataraq özünün daxili problemlərini həll edirdi. Bu gün isə Azərbaycan Respublikası müstəqil dövlətdir, özü sərbəst siyasət yeridir ki, onun da tərkib hissələrindən biri karbohidrogenlər hasilatının və dəyərinin müəyyən edilməsidir. Lakin dünya bazarında karbohidrogenlərə hər bir ölkə özü istədiyi kimi qiymət qoya və istədiyi qədər mənfəət karbohidrogenlərini dünya bazarına çıxara bilməzlər. Çünki xarici bazarda karbohidrogenlərin satış qiyməti artıq formalaşmışdır. Bununla belə, dünyada baş verən bəzi münaqişələr dünya bazarında karbohidrogenlərin dəyərinə müəyyən təsir göstərə bilər.



Neft-qazçıxarma sənayesində iqtisadi islahatların həyata keçirilməsi prosesində karbohidrogenlərin qiymətinin müəyyən edilməsi məsələsi daha öncül xarakter alır və ona görə də bu məsələni düzgün həll etmədən heç bir yeniləşmə prosesindən söhbət gedə bilməz. Sovet hakimiyyəti illərində neft-qazçıxarma sənayesində qiymət sistemi elə qurulmuşdur ki, guya bu sahə öz xərclərini ödəmək qabiliyyətinə malik deyildir və ona görə də sahə dotasiya (***Dotasiya*** – gəliri plan məsrəflərini ödəyə bilməyən müəssisələrə, təşkilatlara, idarələrə dövlət tərəfindən ayrılan təxsisatdır) ilə qidalanırdı.

Keçmiş SSRİ-də, o cümlədən Azərbaycan Respublikasında karbohidrogenlər üçün müxtəlif qiymət hədləri mövcud idi. Məsələn, 1 iyul 1967-ci ilə kimi SSRİ-də 113 neft-qazçıxarma idarələri üzrə 98 cür qiymət həddi müəyyən edilmişdir. Belə bir hal onunla əsaslandırılırdı ki, neft-qazçıxarma idarələrində istehsal xərcləri neft-qaz yataqlarının göstəricilərindən asılı olaraq xeyli fərqlənirdi və ona görə də belə vəziyyət vahid qiymətdən istifadə etməyə imkan vermirdi. Belə bir təcrübə özlüyündə neftayırma zavodlarının fəaliyyətinin planlaşdırılmasını və zona qiymətlərinin tətbiqini çətinləşdirirdi. Geoloji-kəşfiyyat işləri üzrə xərclər istehsal xərclərinə aid edilməyərək, mərkəzləşdirilmiş qaydada dövlət büdcəsindən maliyyələşdirilirdi. Başqa sözlə, neft və qaz hasilatı üzrə xərclər daha çox subyektiv amillər hesabına müəyyən edilirdi.

1 iyul 1967-ci ildən neft-qazçıxarma sənayesində istehsal xərclərində geoloji-kəşfiyyat işlərinin həyata keçirilməsinə sərf edilən xərclər neft və qaz üçün müəyyən edilmiş qiymətlərdə öz əksini tapdı. Digər tərəfdən, 1 iyul 1967-ci ildən sonra SSRİ üzrə neftin qiyməti 8 zona üzrə müəyyən edilirdi və 1 ton xam neftin qiyməti 8-25 manat (rubl) hədlərində müəyyənləşdirildi. Azərbaycan Respublikası üzrə 1 ton xam neftin qiyməti 10,5 manat (rubl), o cümlədən «Xəzərdənizneft» İstehsalat Birliyi üzrə 11 manat və «Azərneft» İstehsalat Birliyi üzrə isə 24,95

manat həddində müəyyən edilmişdir. Neft sənayesinin daxilində isə bir-birindən bir neçə dəfə fərqlənən qiymətlərdən istifadə edilirdi. Məsələn, 1 ton xam neftin satış qiyməti «Artyomneft» NQÇİ (indiki «Abşeronneft») üzrə 27 manat, «Salyanneft» NQÇİ üzrə isə 15,5 manat həcmində müəyyən edilmişdir.

1991-1992-ci illərdə qiymətlərin liberallaşdırılması prosesində xam neftin qiymətinin qaldırılması problemi kəskin problem kimi qarşıda dururdu. Həmin müddət ərzində 1 ton xam neftin topdansatış qiyməti 17,6 dəfə artaraq 2200 manata, 1 milyon kubmetr qazın qiyməti isə 5,8 dəfə artaraq 87,7 manata çatdırıldı. Lakin belə bir tədbirin həyata keçirilməsi yenə də neft-qazçıxarma idarələrinin rentabelli işləmələri üçün kifayət deyildi. Çünki neft-qazçıxarma idarələrində istifadə olunan avadanlıqların, xammal və materialların, kimyəvi reagentlərin, enerjidaşıyıcılarının qiyməti tez-tez dəyişirdi ki, bu da öz növbəsində neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin daha da ağırlaşdırılmasına səbəb olurdu. Həmin dövrlərdə neft-qaz hasilatını sabitləşdirmək, onların azalmasının qarşısını almaq üçün isə külli miqdarda maliyyə vəsaiti olmalı idi.

Daxili ehtiyat mənbələrinin və digər vəsaitlərin olmaması, həmin dövrlərdə yüksək inflyasiya neftin qiymətinin müntəzəm surətdə artırılmasını zəruri edirdi. Belə bir şəraitdə 1992-ci ildə 1 ton xam neftin orta topdansatış qiyməti artırılaraq 6056 manat həddində müəyyən edildi. Bu qiymət həddi neft-qazçıxarma sənayesinin inkişafı üçün nəzərdə tutulmuş sabitləşdirmə fondunun yaradılmasına, sahədə əmək haqqının artırılmasına, sosial problemlərin həllinə müvəqqəti də olsa xeyli imkan yaratdı. Bununla belə, respublika iqtisadiyyatını tam sağlamlaşdırmaq mümkün olmadı.

1995-1996-cı illərdə neftin və digər enerjidaşıyıcılarının qiymətləri yenidən artırıldı və bu, neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətlərinin daha da yaxşılaşdırılmasına xeyli kömək-lik etdi. Belə ki, 1996-cı ildə respublika üzrə neft hasilatı artmadığı halda, qiymət amili hesabına onun həcmi 756 milyard manat, yəni 1994-cü il səviyyəsindən 18 dəfədən çox, xərclər isə 15 dəfə artmışdır. Belə bir tədbirin həyata keçirilməsi neft-qazçıxarma idarələrinin rentabelli işləmələrinə imkan vermiş və müəyyən qədər mənfəət əldə edilməsi mümkün olmuşdur.



1995-1996-cı illərdə neft-qazçıxarma sənayesi üzrə əldə edilən mənfəətin ümumi məbləği 123 milyard manat təşkil etmişdir.

1996-cı ildə Azərbaycan Respublikası ilə Beynəlxalq Valyuta Fondu arasında müəyyən edilmiş razılaşmaya əsasən ARDNŞ-də 1 ton xam neftin topdansatış qiyməti əlavə dəyər vergisi də daxil olmaqla 328 min manata çatdırılmışdır ki, bu da neftin o vaxtkı mövcud dünya qiymətinin 60-70%-i həddində idi. Özü də qurudakı neft-qazçıxarma idarələrində hasil edilən 1 ton xam neftin satış qiyməti 500 min manat, dəniz neft-qazçıxarma idarələrində isə 287 min. manat olmuşdur ki, bu da dünya qiyməti səviyyəsinə bərabər idi. ARDNŞ-nin daxilində isə ayrı-ayrı neft-qazçıxarma idarələrində 1 ton xam neftin topdansatış qiyməti müxtəlif olmuşdur (cədvəl 28).

*Cədvəl 28*

***ARDNŞ üzrə 1 ton xam neftin topdansatış qiyməti, min manat***

| Neft-qazçıxarma idarələrinin adları | Qiymət | Neft-qazçıxarma idarələrinin adları | Qiymət |
|---|---|---|---|
| «Balaxanıneft» NQÇİ | 495 | «Salyanneft» NQÇİ | 450 |
| «Ə.C.Əmirov» adına NQÇİ | 593 | «Muradxanlı» NQÇİ | 451 |
| «Bibiheybətneft» NQÇİ | 750 | «Azərpetoyl» MM | 494 |
| «Binəqədineft» NQÇİ | 457 | «Anşad-Petrol» MM | 286 |
| «Suraxanıneft» NQÇİ | 565 | «Azgerneft» MM | 286 |
| «H.Z.Tağıyev» adına NQÇİ | 650 | «YMB OYL İNK» MM | 286 |

1998-ci ildə dünya bazarında 1 ton xam neftin qiymətinin aşağı düşməsi ilə əlaqədar olaraq, Azərbaycan hökuməti də neftin topdansatış qiymətində müəyyən dəyişikliklərin edilməsi məcburiyyətində qaldı. 1998-ci ilin fevral ayından 1 ton xam neftin topdansatış qiyməti ARDNŞ üzrə 273 min manata, iyul ayının 1-dən isə 193 min manata endirildi. Lakin bəzi səbəblərdən ARDNŞ üzrə müəyyən edilmiş topdansatış qiymətlərə əməl olunmamış və 1998-ci ilin ikinci yarısında bir sıra neft-qazçıxarma idarələrində xam neftin maya dəyəri 250-300, hətta H.Z.Tağıyev adına NQÇİ-də 400 ABŞ dolları həcmində olmuşdur.

1998-ci ildə xam neftin maya dəyərinin artmasında ARDNŞ-də istifadə olunan neft avadanlıqlarının, xammal və materialların, qazmanın texniki vasitələrinin xarici ölkələrdən yüksək qiymətlərlə alınması da mühüm rol oynamışdır. Odur ki, neftqazçıxarma idarələrində istehsal xərclərini azaltmaq, deməli xam neftin maya dəyərini aşağı salmaq üçün baha qiymətlərlə xarici ölkələrdən neft avadanlıqları və texniki vasitələri almaq əvəzinə, Azərbaycan neft maşınqayırmasının istehsal gücündən tam istifadəsinə nail olmaq lazımdır.

Dünya bazarlarında karbohidrogenlərin dəyəri tələb və təklifdən asılı olaraq son zamanlar tez-tez dəyişilir. Lakin ən yüksək qiymətin tələbatla, ən aşağı qiymətin isə istehsal xərcləri ilə şərtlənməsinə baxmayaraq, qiymətin əmələ gəlməsinin aşağıdakı hesablama üsullarından istifadə edilir:

***a) qiymətin «orta xərclər, üstəgəl mənfəət» üsulu*** – ilə hesablanması qiymətin əmələ gəlməsinin ən sadə üsuludur. Bu üsulun mahiyyətini əmtəənin maya dəyərinə müəyyən əlavə olunması təşkil edir. Məsələn, satıcı müəyyən əmtəəni alır və onu ilkin dəyərinə (qiymətinə) bəzi əlavələr etməklə satır;

***b) zərərsizliyin və məqsədli mənfəətin təmin olunmasının təhlili əsasında qiymətqoyma üsulu*** – əmtəənin elə qiymətlə satılmasını nəzərdə tutur ki, bu zaman satıcı əvvəlcədən müəyyən edilmiş məbləğdə mənfəət əldə etmiş olsun. Bu üsulla əmtəəyə qiymət qoymaq üçün zərərsizlik qrafiki işlənib hazırlanır. Bu qrafikdə satışın müxtəlif səviyyələrində ümumi xərclər və gözlənilən gəlirlər göstərilir. Xərclər məhsul hazırlanmasına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərinin məcmusudur. Bu xərclər əmtəə-pul münasibətləri şəraitində dəyər formasında çıxış edir. Adətən iki növ xərclər: ictimai istehsal xərcləri və müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri fərqləndirilir. İctimai istehsal xərclərinə istehlak edilmiş istehsal vasitələrinin keçirilmiş dəyəri və bütün yeni yaradılmış dəyər daxildir. Bu xərclər əmtəə dəyərinə bərabərdir və nəzərdə tutulan qiymətlərin obyektiv əsasıdır. Müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri əmtəənin dəyərindən azdır. Bu xərclər məhsulun maya dəyəri formasında çıxış edir; maya dəyərinə isə istehlak edilmiş maddi ehtiyatlara və işçilərin əməyinin ödənilməsinə çəkilən xərclər daxil edilir.



Müəssisənin ümumi gəliri onun fəaliyyəti nəticəsində əldə edilən qazancdan ibarətdir. Müəssisənin ümumi gəliri əsasında təsərrüfat hesablı gəlir yaranır. Ümumiyyətlə, müəssisənin üç növ gəlirini: ümumi, təsərrüfat hesablı və xalis gəlir növlərini fərqləndirirlər.

***c) əmtəənin dəyəri əsasında qiymətqoyma üsulu*** – hazırda ən geniş yayılmış üsuldur. Bəzi satıcılar elə hesab edirlər ki, qiymətqoymanın əsas amili onların xərcləri deyil, alıcıların qavrayışıdır. Bunun üçün onlar müxtəlif reklamlardan istifadə edirlər. Lakin satıcı alıcının qəbul etdiyi dəyərlilik əhəmiyyətindən yuxarı qiymət istəyirsə, əmtəənin satış həcmi mümkün olduğu səviyyədən müəyyən qədər aşağı düşə bilər;

***ç) cari qiymətlər səviyyəsində qiymətqoyma üsulu*** – çox yayılmış üsuldur. Qiyməti cari qiymətlərin səviyyəsini nəzərə almaqla təyin etdikdə, satıcılar rəqiblərin qiymətlərinə istinad edir və bu zaman öz xərclərini və bazarın tələbatını kifayət qədər nəzərə almırlar, yəni satıcı öz əmtəəsinə qiyməti əsas rəqiblərinin qiyməti səviyyəsində, ya da ondan fərqli qoya bilər;

***d) qapalı sövdələşmələr əsasında qiymətqoyma üsulu*** – güclü rəqabət mübarizəsi olan bazarlarda tətbiq edilir. Bu zaman satıcı öz əmtəəsinə qiymət qoyarkən rəqiblərin gözləyəcəyi qiymətlərinə əsaslanır, yəni satıcı öz əmtəəsinə qiyməti rəqiblərin öz əmtəələrinə qoyduqları qiymətdən müəyyən qədər aşağı səviyyədə müəyyənləşdirir. Lakin bu qiymət həddi əmtəənin maya dəyərindən aşağı ola bilməz, əks halda satıcı özünə ziyan vurmuş olar.

Beləliklə, qiymət və tələbat bir-biriləri ilə qarşılıqlı surətdə əlaqədardır, yəni qiymət bu və ya digər dərəcədə əmtəəyə tələbat səviyyəsində öz əksini tapır. Qiymətin artması tələbatın azalmasına gətirib çıxarır, çünki bu zaman istehlakçıların alıcılıq qabiliyyəti azalır. Əhalinin alıcılıq qabiliyyəti tədiyyə qabiliyyətli tələbin həcmi ilə müəyyən edilir.

Beləliklə, hazırda karbohidrogenlərin elmi cəhətdən əsaslandırılmış qiymətlərinin müəyyən edilməsi günün ən vacib məsələlərindən biridir. ARDNŞ ilə xarici ölkələrin aparıcı neft şirkətlərinin arasında bağlanmış neft müqavilələrində bu məsələyə xüsusi diqqət yetirilmişdir. Belə ki, bağlanmış neft müqavilələrinə görə karbohidrogenlər hasilatına çəkilən məsrəflərin

əvəzinin ödənilməsi və mənfəət karbohidrogenlərinin kontrakt iştirakçıları arasında bölüşdürülməsi üçün xam neftin və sərbəst təbii qazın dəyəri hər hansı təqvim kvartalında ***xalis ixrac dəyəri*** kimi aşağıdakı qaydada müəyyən edilir.

a) təqvim kvartalı ərzində hər hansı tərəf kontrakt sahəsindən çıxarılan xam nefti, yaxud kontrakt sahəsindən çıxarılan xam neftin əvəzinə mübadilə və ya «svop» sazişləri nəticəsində əldə edilmiş digər xam nefti satış məntəqəsində kommersiya cəhətdən müstəqil əqdlərə əsasən ixraca satırsa, – bu, satışların hamısında tətbiq olunan orta xüsusi satış qiyməti üzrə (komisyon və broker haqqı çıxıldıqdan sonra);

b) çatdırılma məntəqəsində xam neftin dəyərini (buna xalis ixrac dəyəri də deyilir) təyin etmək üçün xam neftin satış məntəqəsinə nəql olunmasına tərəflərin çəkdiyi xərcləri, o cümlədən boru kəməri tariflərini, tranzit rüsumlarını, nəqletmə itkilərini, terminallardan istifadə haqqını, tankerlərin fraxt edilməsini, boru kəməri üçün vergiləri və i.a nəzərə almaqla; bu şərtlə ki, bütün tərəflərin kommersiya cəhətdən müstəqil əqdlər əsasında satışlarının ümumi həcmi təqvim kvartalı ərzində bütün tərəflərin satışlarının hamısının ümumi həcminin 33,1%-dən çox olsun;

c) əgər kommersiya cəhətdən müstəqil ixrac satışlarının ümumi həcmi 33,1%-dən artıq deyildirsə, onda müəyyən edilmiş əqdlər həm müqavilə, həm də qeyri-müstəqil əqdlər daxilində satılmış xam neftin orta xüsusi qiyməti üzrə təyin edilir. Əgər müqavilə və əqdlərdə heç bir qiymət həddi göstərilməmişdirsə, onda xüsusi FOB qiymətlərindən istifadə edilir;

ç) xam neftin xalis ixrac dəyərini təyin edərkən onun keyfiyyəti, sortu, həcmi, satış məntəqəsinə qədər nəql edilməsinə çəkilən xərclər nəzərə alınır. Əgər tərəflər sənaye üsulu ilə hasilat başlananadək xam nefti üç nümunə sortu barəsində razılığa gələ bilməsələr, onda xam neftin ixrac dəyəri (qiyməti) barəsində son qərarı beynəlxalq nüfuza malik ekspert qəbul edir;

d) hər hansı təqvim kvartalında məsrəflərin əvəzinin ödənilməsi və mənfəət karbohidrogenlərinin bölüşdürülməsi üçün sərbəst təbii qazın dəyəri podratçının sərbəst təbii qazı satış məntəqəsinə çatdırmaq üçün çəkdiyi xərclər, o cümlədən boru kəməri tarifləri, nəqletmə itkiləri və boru kəməri üçün vergilər



və i.a çıxılmaqla müəyyən edilir. Adətən, bu dəyər qaz satışına dair müqavilə əsasında kommersiya cəhətdən müstəqil satış zamanı tətbiq edilən faktiki qiymətə bərabər olur. Podratçı sərbəst təbii qazı kommersiya cəhətdən qeyri-müstəqil əqdlərlə satdığı hallarda isə sərbəst təbii qazın dəyəri üstünlük təşkil edən beynəlxalq qiymətqoyma prinsipləri əsasında və bazar, sort, keyfiyyət, həcm, daşınma, habelə digər müvafiq amillər nəzərə alınmaqla ARDNŞ ilə podratçı arasında razılaşdırılmış qiymətlə müəyyən edilir.

e) mövcud qaydaya əsasən xam neftin və sərbəst təbii qazın xalis ixrac dəyəri müəyyən edilərkən satış anı, məntəqəsi, nəqletmə itkiləri və kommersiya cəhətdən müstəqil satış həcmi nəzərə alınır. Satış məntəqəsində xam neftin və sərbəst təbii qazın üzərində mülkiyyət hüququnun tərəflərdən alıcıya keçdiyi an ***satış anı*** hesab olunur. ***Satış məntəqəsi*** elə bir coğrafi nöqtə və ya nöqtələr məcmusudur ki, satışın hansı şərtlərlə – istər FOB, SİF və FOR şərtləri ilə, istərsə də beynəlxalq neft-qaz sənayesində hamılıqla qəbul edilmiş hər hansı başqa şərtlərlə aparılmasından asılı olmayaraq, orada xam neftin və ya söhbət sərbəst təbii qazdan gedirsə, sərbəst təbii qazın üzərində mülkiyyət hüququ satıcıdan alıcıya keçir. Mümkün satış məntəqələrinin nümunələri sırasına ixrac boru kəmərinin son məntəqəsindəki terminalın çıxış flansında qoyulmuş buraxılış sayğacı, neftayırma zavodundakı giriş sayğacı və ya tankerdəki giriş flansı daxildir.

***Nəqletmə itkiləri*** dedikdə, çatdırılma məntəqəsindən ixrac boru kəmərinin son məntəqəsinə xam neftin və sərbəst təbii qazın vurulması gedişində əmələ gələn və boru kəmərlərində beynəlxalq praktikada qəbul edilmiş normal itki hədlərindən, yəni 0,1%-dən artıq olan itkilər nəzərdə tutulur. ***Kommersiya cəhətdən müstəqil satış*** – əqd bağlamaq istəyən müstəqil alıcı və satıcı arasında sərbəst dönərli valyuta müqabilində beynəlxalq bazarda karbohidrogenlər satışı və ya mübadiləsi deməkdir.

Karbohidrogenlərin dəyərinin düzgün müəyyən edilməsi Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılmasında mühüm rol oynayır. Çünki mənfəət karbohidrogenlərinin dəyəri nə qədər düzgün müəyyən edilərsə, onda həmin mənfəət karbohidrogenlərindən əldə edilən gəlirlərin də həcmi çox

olacaqdır. 2001-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında Əsasnamə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmışdır. Bu Əsasnamədə Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında ümumi müddəalar, Fondun əsas vəzifələri, formalaşdırılması mənbələri, vəsaitinin istifadə olunması istiqamətləri, idarə edilməsi qaydası və s. göstərilmişdir.

2002-ci ilin noyabr ayında «Azərbaycan Respublikası Dövlət Neft Fondunun 2002-ci il büdcəsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 21 dekabr tarixli 604 saylı fərmanında əlavə və dəyişikliklər edilməsi haqqında Azərbaycan Respublikasının Prezidenti xüsusi fərman imzalamışdır. Bu fərmanda mövcud Əsasnaməyə müəyyən əlavələr və düzəlişlər edilməsi ilə yanaşı, qeyd edilir ki, «Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Neft Boru Kəməri layihəsində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin iştirak payının maliyyələşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 30 iyul tarixli 739 nömrəli fərmanının icrası ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaiti hesabına Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin törəmə şirkətində əldə ediləcək dövlətə məxsus pay üzərində sahiblik hüququ Azərbaycan Respublikasının İqtisadi İnkişaf Nazirliyinə verilir, həmin pay üzrə dividentlər isə Azərbaycan Respublikasının Dövlət Neft Fonduna yönəldilir.

Əsasnamənin ümumi müddəalarında qeyd edilir ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan ərazisində neft və qazın kəşfiyyatı, işlənməsi və hasilatına pay bölgüsünə dair ARDNŞ ilə xarici dövlətlərin aparıcı neft şirkətləri arasında bağlanmış sazişlərin həyata keçirilməsindən, həmçinin Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair digər bağlanmış sazişlərin həyata keçirilməsində Azərbaycan Respublikasının əldə etdiyi vəsaitin səmərəli idarə olunması məqsədilə yaradılır. Bunun üçün:

a) Fond Azərbaycan Respublikası Prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır;

b) Fond büdcədənkənar dövlət təsisatıdır, hüquqi şəxsdir, bank təşkilatlarında hesablaşma və digər hesablara, üzərində



Azərbaycan Respublikası Dövlət Gerbinin əksi və öz adı olan möhürə, müvafiq ştamp və blanklara malikdir;

c) Fondun vəsaitinin formalaşması və xərclənməsi üzərində ümumi nəzarət Müşahidə Şurası tərəfindən həyata keçirilir;

ç) Fond öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları fiziki və hüquqi şəxslərlə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

d) Azərbaycan Respublikası Prezidentinin Fərmanları və bu Əsasnamə ilə Fonda verilmiş hüquqlar və vəzifələr istisna olunmaqla Fond Azərbaycan Respublikasının hökuməti, digər dövlət hakimiyyəti orqanları, o cümlədən nazirliklər, dövlət komitələri, təsisatları, müəssisələri, təşkilatları və maliyyə institutlarına münasibətdə və onların qarşısında, habelə Azərbaycan Respublikasının və digər ölkə və yurisdiksiyaların hər hansı sosial fondları, ictimai və digər qeyri-hökumət təşkilatlarına münasibətdə və onların qarşısında heç bir hüquqa, vəzifəyə malik deyildir, heç bir öhdəlik və məsuliyyət daşımır;

e) Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası Prezidentinin Fərman və Sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun əsas vəzifəsi respublikamızın vətəndaşlarının bugünkü və gələcək nəsillərinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsini, fondun öz fəaliyyətindən əldə olunan valyuta və digər vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin etməkdən ibarətdir.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun formalaşması mənbələri aşağıdakılardan ibarətdir: Azərbaycan Respublikasının payına düşən xam neftin və təbii qazın qatışığından əldə edilən gəlirlər (qanunvericiliklə nəzərdə tutulmuş ödənişləri çıxmaq şərtilə); bonus ödənişləri; akrhesabı ödənişləri; xarici ölkələrin neft şirkətləri ilə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icazə haqqı; xarici ölkələrin neft şirkətləri ilə bağlanmış müqavilələrə uyğun olaraq Azərbaycan tərəfinə verilən aktivlərin satışından və digər daxilolmalardan əldə edilən gəlirlər; xarici ölkələrin aparıcı neft

şirkətləri ilə birgə fəaliyyət nəticəsində əldə edilən gəlirlər; Fondun vəsaitinin maliyyə idarələrində yerləşdirilməsindən əldə edilən gəlir. Faktiki məlumatlara əsasən 2002-ci ilin sonuna Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitinin məbləği 3387 milyard manat təşkil etmişdir. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun 2003-cü il büdcəsinin gəlirləri 1219516 mln. manat, xərcləri isə 1217755 mln. manat müəyyən edilmişdir.

Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitinin istifadə olunması qaydası aşağıdakı kimidir:

– investisiya məqsədləri üçün, əsasən fondun yüksək reytinqli kredit təşkilatlarında yerləşdirilən depozitlərindən əldə edilən gəlirlər istifadə edilir. Depozit əməliyyatları passiv və aktiv ola bilər. Passiv depozit əməliyyatları müəssisələrin, dövlət idarələrinin, bankların və əhalinin əmanət qoyduğu müddətli və tələb edilənə kimi vəsaitlərindən ibarətdir; bu, bank vəsaitlərinin əsas mənbəyidir. Aktiv depozit əməliyyatlar isə müvəqqəti boşalmış vəsaitlərin bir bankdan digər kredit idarələrinə yerləşdirilməsini göstərir;

– fondun vəsaitinin istifadəsi Azərbaycan Respublikası Prezidentinin sərəncamları ilə hər il üçün təsdiq edilmiş əsas istiqamətlərə (proqramlara) uyğun olaraq həyata keçirilir;

– fondun vəsaiti ölkənin sosial-iqtisadi tərəqqisi naminə ən mühüm ümummilli problemlərin həllinə və strateji əhəmiyyətli infrastruktur obyektlərin inşa və yenidən qurulması üçün istifadə edilə bilər. Məsələn, 1999-cu ildə ölkə ərazisində bəzi yeni istehsal və sosial obyektlərin tikintisində, bazar iqtisadiyyatı münasibətlərinə uyğun infrastrukturların yaradılmasında Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitindən istifadə edilmişdir. Özü də 2000-ci ildə sənaye, kənd təsərrüfatı, rabitə, ticarət, xidmət, tikinti və digər kommunal, sosial və fərdi xidmətlər sahəsinə yönəldilmiş vəsaitlərin həcmi 1999-cu ilə nisbətən xeyli artmışdır;

– fondun vəsaiti dövlət hakimiyyəti orqanlarına, dövlət və qeyri-dövlət müəssisə və təşkilatlarına kredit verilməsinə, eləcə də Azərbaycan Respublikasının yuristiksiyasında olan hər hansı bir obyektin borcunun və ya digər yüklənməsinin girovu qismində istifadə oluna bilər;



– fondun gəlirləri vergi, rüsum və digər məcburi ödənişlərdən qanunvericiliyə müvafiq olaraq azaddır;

– hər il fondun vəsaitinin istifadə edilməsinin təsdiq olunmuş istiqamətləri haqqında hesabat mətbuatda dərc edilir.

Fondun fəaliyyətinə operativ rəhbərliyi icraçı direktor həyata keçirir. O, Azərbaycan Respublikasının Prezidenti tərəfindən vəzifəyə təyin edilir və vəzifədən azad edilir. Fondun icraçı direktoru aşağıdakıları təmin edir:

a) Fondun cari işini təşkil edir və ona rəhbərlik edir;

b) fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərinə (proqramına) dair təkliflər hazırlayır və onu Müşahidə Şurasının rəyi ilə birlikdə təsdiq olunmaq üçün Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

c) Fondun fəaliyyəti barədə illik hesabatı hazırlayır və onu Müşahidə Şurasının rəyi ilə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edir;

ç) Fondun idarə edilməsi ilə bağlı xərclər smetasının layihəsini hazırlayır və təsdiq olunmaq üçün Azərbaycan Respublikasının prezidentinə təqdim edir;

d) Fondun idarəetmə aparatının işçilərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edir və vəzifədən azad edir, onlara münasibətdə həvəsləndirmə və tənbeh tədbirləri tətbiq edir;

e) Azərbaycan Respublikası prezidentinin təyin etdiyi auditor tərəfindən auditin keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir və fondun illik fəaliyyətinin nəticələrini əks etdirən auditor rəyini mətbuatda dərc etdirir, fondun fəaliyyəti ilə bağlı analitik arayışlar hazırlayır, onları Azərbaycan Respublikası Prezidentinə və Müşahidə Şurasına təqdim edir;

ə) Fondun fəaliyyətinə ümumi nəzarəti təmin etmək məqsədilə müvafiq dövlət orqanlarının və ictimai təşkilatların nümayəndələrindən, habelə digər şəxslərdən ibarət Müşahidə Şurasını formalaşdırır və həmin şuranın formalaşmış üzvləri Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq olunur;

f) Müşahidə Şurası icraçı direktorun təqdimatına əsasən fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərini (proqramını), onun illik hesabatını (ona əlavə olunmuş auditor rəyi ilə birlikdə) və balansını, habelə fondun illik xərclər smetasının

layihəsini nəzərdən keçirir və onlara rəy verir. Müşahidə Şurası öz iclaslarını zərurət olduqca, lakin rübdə bir dəfədən az olmayaraq keçirir. Müşahidə Şurasının növbədənkənar iclasları icraçı direktorun və ya Müşahidə Şurasının üzvlərinin yarısının təşəbbüsü ilə keçirilə bilər. Müşahidə Şurası üzvlərinin fəaliyyəti ictimai (əvəzi ödənilmədən) əsaslarla həyata keçirilir.

Fond qanunvericiliklə müəyyən edilmiş qaydada mühasibat uçotu və statistik hesabatlar aparır. Fondun illik maliyyə fəaliyyəti haqqında hesabat Azərbaycan Respublikasının Prezidenti tərəfindən təyin olunan müstəqil auditor tərəfindən yoxlanılmalı və təsdiq olunmalıdır.

Hər il Azərbaycan Respublikasının Dövlət Neft Fondunun büdcəsi Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilir. Belə ki, Azərbaycan Respublikasının Prezidentinin 2 mart 2005-ci il fərmanına əsasən Azərbaycan Respublikasının Dövlət Neft Fondunun 2006-cı il büdcəsinin gəlirləri 807842,6 min. manat, xərcləri isə 954287,7 min. manat təsdiq edilmişdir (cədvəl 29).

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun həcmi 2000-ci ildən başlayaraq ildən-ilə daima artır. Hesablamalara görə 30 il ərzində Neft fondundan Azərbaycan iqtisadiyyatına xalis gəlir 28 mlrd. ABŞ dolları həcmində olacaqdır.

Məlumat üçün qeyd edək ki, dünyanın bir sıra neft hasil edən ölkələrində neft fondları yaradılmış və həmin ölkələrin iqtisadiyyatında onlardan istifadə mühüm əhəmiyyət kəsb etmişdir. Təcrübəvi əhəmiyyət kəsb etdiyinə görə bəzi ölkələrdə yaradılmış Neft Fondu haqqında qısa danışmaq məqsədyönlü olardı. Dünyanın bir çox neft hasil edən ölkələri təbii resurs ehtiyatlarının zənginliyi ilə seçilir və onların əksəriyyəti məhz həmin resursların ixracı hesabına böyük gəlirlər əldə edirlər. Zəngin təbii resurslara malik olan belə ölkələrin bəziləri çox ciddi problemlərlə də rastlaşırlar. Çünki:

– həmin təbii resurslar tükənən olduğu üçün, onların gətirdiyi gəlirlər də daimi deyil, buna görə də həm ehtiyatlardan, həm də onların gətirdiyi gəlirdən istifadəni zaman baxımından düzgün planlaşdırmaq və ölkənin həm cari, həm də perspektiv sosial-iqtisadi inkişafına yönəltməyə nail olmaq lazımdır;



*Cədvəl 29*

***2006-cı il üçün Azərbaycan Respublikasının Dövlət Neft Fondunun həcmi***

| Gəlirlərin mənbələri | Gəlirin məbləği, mln. manat |
|---|---|
| 1. Azərbaycan Respublikasının payına düşən xam neftin satışından əldə edilən gəlir | 684000,0 |
| 2. Karbohidrogen ehtiyatlarının işlənməsi ilə əlaqədar sərmayəçilər tərəfindən müqavilə sahəsindən istifadə üçün akrhesabı ödənişlər | 7434,0 |
| 3. Neft və qazın Azərbaycan Respublikası ərazisi ilə ötürülməsindən əldə edilən gəlirlər | 13500,0 |
| 4. Fondun aktivlərinin yerləşdirilməsindən və idarə edilməsindən əldə edilən gəlirlər | 35318,6 |
| 5. Neft-qaz sazişlərin imzalanması və ya icrası ilə bağlı Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinə və ya səlahiyyətli dövlət orqanına sərmayəçilər tərəfindən ödənilən bonuslar | 67500,0 |
| 6. Digər gəlirlər və daxilolmalar | 90,0 |
| Cəmi gəlirlər | 807842,6 |
| Xərclərin məbləği o cümlədən: | 954287,7 |
| 1. Qaçqın və məcburi köçkünlərin sosial-məişət və məskunlaşma məsələləri ilə bağlı bəzi tədbirlərin maliyyələşdirilməsinə | 110311,0 |
| 2. Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsi ilə bağlı xərclər | 38000,0 |
| 3. Azərbaycan Respublikasının 2006-cı il dövlət büdcəsinə transfer | 585000,0 |
| 4. Oğuz-Qəbələ zonasından Bakı şəhərinə su kəmərinin çəkilməsi | 90000,0 |
| 5. Samur-Abşeron suvarma sisteminin yenidən qurulması layihəsinin maliyyələşdirilməsi | 37000,0 |
| 6. Dövlət investisiya Şirkətinin nizamnamə kapitalının formalaşdırılması | 90000,0 |
| 7. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər | 3976,7 |

– xammal resurslarının dünya bazar qiymətləri ayrı-ayrı dövrlərdə kəskin dəyişikliklərə məruz qalır ki, bu da dövlət gəlirlərinin həmin xammal gəlirlərindən asılılığının azaldılmasını zəruri edir.

Bir sıra ölkələr bu məsələləri stabilləşdirmə fondlarının yaradılması yolu ilə həll etməyə çalışırlar. Lakin, belə fondlar müəyyən dövrlərdə yüksək əlavə gəlir əldə etməyə imkan verən mənbələr, məsələn, neft və digər xammal satışından əldə edilən gəlirlər, dövlət əmlakının özəlləşdirilməsindən götürülən gəlirlər və s. hesabına formalaşdırılır. Bu mənbələr isə daimi deyil, müvəqqəti xarakter daşıyır. Odur ki, bu növ fondların yaradılması bütün hallarda mümkün deyil. Hazırda dünyanın neft hasil edən 15-dək ölkəsində belə fondlar fəaliyyət göstərir ki, onları da təyinatından asılı olaraq aşağıdakı 3 qrupa ayırmaq olar:

***a) stabilləşdirmə fondları*** – Alyaskada, Venesuelada, Kolumbiyada, Küveytdə, Nigeriyada və Çilidə yaradılmışdır;

***b) gələcək nəsillər fondu*** – Alberta, Alyaska, Kiribati, Küveyt, Oman, Papua-Yeni Qvineya ölkələrində yaradılmışdır;

***c) büdcə rezerv (ehtiyat) fondları*** – Honkonq, Sinqapur, Estoniya və CAR ölkələrində yaradılmışdır.

Yuxarıda göstərilən fondlara malik olan dövlətlər yaratdıqları fondlar vasitəsilə ölkələrinin valyuta bazarını tənzimləyir və ya tükənəcək təbii resurslardan gələcək nəsillər üçün ehtiyat saxlamaq məqsədi güdür. Təcrübəvi əhəmiyyətə malik olduqları üçün həmin fondların bəzilərini qısa xarakterizə etmək, bizim üçün də faydalı olardı.

***Küveyt Neft Fondu*** – neft ixracatından əldə edilən gəlirlər nəticəsində dövlət büdcəsində yaranmış profisit (gəlirin xərcdən artıq olması) vəsaitin toplanması məqsədi ilə 1960-cı ildə Ümumi Ehtiyat Fondu formasında təsis edilib. Fondun vəsaitinin istifadəsinin konkret qaydaları dəqiq müəyyən edilmədiyindən dövlətin bütün növ xərclərinin maliyyələşdirilməsi üçün istifadə olunur. 1976-cı ildə isə gələcək nəsillərin gəlirlərinin təmin edilməsi məqsədilə Gələcək Nəsillər üçün Ehtiyat Fondu yaradılıb. İlk dəfə fond yaradılarkən ölkədə mövcud olan və normal fəaliyyət göstərən Ümumi Ehtiyat Fondunun həmin dövrə olan vəsaitinin 50,0%-ni təşkil etmişdir. Fondun daimi gəlir mənbələri isə bunlardır: dövlət gəlirlərinin 10,0%-i, fondun vəsaitinin investisiya olunmasından əldə edilən bütün növ gəlirlər.

Yeni fond yaradıldıqdan sonra Ümumi Ehtiyat Fondu stabilləşdirmə funksiyasını yerinə yetirməyə, həmçinin dövlət borclarına xidmət və dövlət investisiyaları məqsədlərinə istifadə olunmağa başlanıb. Fondun formalaşmasının və vəsaitlərinin istifadəsinin dəqiq qaydaları müəyyən edilməmişdir. Lakin fondun vəsaitlərinin xərclənməsinə ölkənin Nazirlər Şurasının razılığı ilə icazə verilir. Hər iki fond, yəni həm Küveyt Neft Fondu, həm də Gələcək Nəsillər üçün Ehtiyat Fondu dövlətdən asılı olmayan müstəqil Küveyt İnvestisiya Agentliyi tərəfindən idarə edilir. Fondların vəsaitləri xarici maliyyə aktivlərinə investisiya olunur. Fondların vəsaitlərinin həcmi haqqında məlumatların yayılması qadağandır.



***Alyaska ştatının (ABŞ) Neft Fondları*** – özündə iki fondu: yığım fondu olan Alyaska Daimi Fondunu və sabitləşmə fondu adlanan Konstitusiya Büdcə Ehtiyat Fondunu birləşdirir. Alyaska Daimi Fondu 1976-cı ildə trast fondu kimi gələcək nəsillər üçün təsis edilib. Onun əsas məqsədi gələcək nəsillər üçün dövlət təbii resursları tükənəndən sonra gəlirləri təmin edə biləcək investisiya bazarının yaradılmasından ibarətdir. Fondun vəsaiti mineral resurslardan istifadə və royaltı üzrə, həmçinin mineral resurslardan əldə edilən gəlirin bölgüsü üzrə federal ödənişlər və transfertlər (***Transfert*** – pulun bir maliyyə idarəsindən başqasına və ya ölkədən ölkəyə köçürülməsidir) üzrə Alyaska ştatının aldığı bütün ödənişlərin 25,0%-i həcmində ayırmalar hesabına formalaşır. Beləliklə, fondun gəliri dövlət büdcəsinin vəziyyətindən birbaşa asılı deyil. Fondun vəsaitinin əsas hissəsi daimi olaraq investisiyaya yönəldilir və referendum yolu ilə ştatın konstitusiyasında dəyişiklik edilmədən başqa məqsədlər üçün istifadə edilə bilməz.

Fondun vəsaitinin investisiya edilməsindən əldə edilən gəlirlərin istifadə edilməsi qaydası ştatın qubernatoru və qanunvericilik hakimiyyəti tərəfindən hər il müəyyən edilir. Adətən belə gəlirlərin bir qismi «divident» kimi (***Divident*** – vergiləri ödədikdən, istehsalatın genişlənməsi üçün məbləğləri ayırdıqdan, ehtiyatları doldurduqdan, istiqraz vərəqələrinin faizlərini verdikdən və direktorları mükafatlandırdıqdan sonra hər il səhmdarlar arasında bölüşdürülən səhmdar cəmiyyətlərinin gəlir hissəsidir) Alyaska ştatının bütün vətəndaşlarına ödənilir, qalan hissəsi isə yenidən investisiya olunur.

Fondun vəsaiti Alyaska Daimi Fondunun ictimai korporasiyası tərəfindən idarə edilir və sabit gəlirə malik qiymətli kağızlar portfelinə investisiya olunur. 1999-cu ilin sonuna fondun əsas vəsaitinin həcmi 27,1 mlrd. ABŞ dolları məbləğində olub, «divident»lərin məbləği isə adambaşına 1770 dollar təşkil edib.

Konstitusiya Büdcə Ehtiyat Fondu isə XX əsrin 80-ci illərinin sonunda neftin bazar qiymətinin kəskin aşağı düşməsi nəticəsində 1990-cı ildə yaradılıb. Fondun yaradılmasında əsas məqsəd ştatın büdcə gəlirlərinin azaldılmasını kompensasiya etməkdən, o cümlədən maliyyə ili ərzində büdcə kəsirini maliyyələşdirməkdən ibarətdir. Fondun gəlirləri hər il ştatın Konqres tərəfindən müəyyən edilən vergi gəlirlərinin və royaltinin bir hissəsi, həmçinin fondun vəsaitinin investisiya olunmasından əldə edilən gəlirlər hesabına formalaşır. Fondun vəsaitinin xərclənməsi də ştatın Konqresinin qərarı ilə həyata keçirilir. Xərclərin yuxarı həddi Konqresin hər iki palatasında üçdə iki səs çoxluğu ilə təsdiq edilməlidir. Fondun vəsaiti ştatın hökumətinə kredit kimi verilir ki, bu kredit də büdcədə profisit olan dövrdə qaytarılmalıdır. 1991-1999-cu illərdə Fondun vəsaitinin ümumi həcmi 6,1 mlrd. ABŞ dollarına bərabər olmuşdur.

***Norveç Dövlət Neft Fondu*** – 1990-cı ildə təsis edilmişdir. Fondun yaradılması zərurəti ölkədəki demoqrafik proseslərlə və neft hasilatı həcminin azalması ilə əlaqədardır. Fond həm yığım, həm də sabitləşdirmə funksiyalarını yerinə yetirir və uzunmüddətli dövrdə büdcə sferasının sabitliyini təmin etməlidir. Fonda vəsaitin daxil olması üçün dövlət büdcəsində profisit olmalıdır, bu isə öz növbəsində neftin qiymətinin səviyyəsi və büdcə gəlirlərinin neft sahəsindən daxilolmaları çıxıldıqdan sonra büdcə kəsirinin məbləği ilə müəyyən olunur. Fonda ayırmaların məbləğinin müəyyən edilməsi üçün konkret qayda və metodika yoxdur. İllik ayırmaların həcmi ümumi büdcə prosesi çərçivəsində ölkə parlamenti tərəfindən ayrıca təsdiq olunur.

Fondun vəsaitinin istifadəsi qaydaları vəsaitlərin toplanması mexanizminə oxşardır. Belə ki, qanunvericiliyə müvafiq olaraq, hökumət fondun vəsaitini həm qısamüddətli məqsədlərə, həm də neft hasilatının azalması və sosial xərclərin artması nəticəsində gələcəkdə büdcədə yarana biləcək gərginliyin aradan qaldırılması üçün uzunmüddətli sabitləşdirmə məqsədlərinə yönəltmək üçün parlamentdən icazə almaq hüququna malikdir. Ölkənin Maliyyə Nazirliyi fondun vəsaitinin əsas investisiya istiqamətlərini, həmçinin baza portfelinin tərkibini müəyyən edir. Həmin portfelin gəlirliyi əsasında da fondun vəsaitinin istifadəsinin səmərəliliyi qiymətləndirilir. Fondun aktivlərinin operativ idarə edilməsi Dövlətin Mərkəzi Bankı tərəfindən həyata keçirilir. Hazırda fondun aktivləri xarici maliyyə aktivlərindən ibarətdir.



# FƏSİL 3. ÖLKƏNİN SOSİAL-İQTİSADİ İNKİŞAFININ YAXŞILAŞDIRILMASINDA NEFT STRATEGİYASININ ROLU

## 3.1. Ölkənin sosial-iqtisadi inkişafının müasir durumu və onun daha da yaxşılaşdırılmasında neft strategiyasının rolu

Bazar iqtisadiyyatı yolunda atılan inamlı addımlar ölkəmizin sosial-iqtisadi həyatında uğurlu dəyişikliklərlə müşahidə olunur. Müstəqilliyimizin son 15 ilində iqtisadi və sosial sahələrdə əldə olunmuş uğurlar ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə aparılan düzgün, ardıcıl islahatlar kursunun bəhrəsidir. Ötən illər böyük müvəffəqiyyətlə həyata keçirilən vahid, mükəmməl iqtisadi konsepsiya iqtisadiyyatımızın dinamik inkişafını təmin etmişdir. Ölkə iqtisadiyyatında və sosial sahələrdə 1996-cı ildən başlamış tərəqqi 2005-ci ildə də davam edərək ölkənin iqtisadi və sosial həyatında yeni nailiyyətlərlə əlamətdar olmuş, bu prosesləri əyani nümayiş etdirən makroiqtisadi göstəricilər isə əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşmışdır. Bunu cədvəl 30-da verilmiş məlumatlar da sübut edir.

Məlumdur ki, ölkə iqtisadiyyatı və sosial sahələrdəki vəziyyəti xarakterizə edən əsas ***indikator*** – ümumi daxili məhsul istehsalıdır. 2005-ci ildə bu göstərici 2004-cü ilə nisbətən 26,4% və ya müqayisəli qiymətlərlə 2250,9 mln. manat artaraq 11875,6 mln. manata çatmışdır. Adambaşına düşən ÜDM 1435,7 manatlıq (1517,6 ABŞ dolları), yaxud 25,1% çox belə məhsul istehsal edilmişdir. Əsaslı iqtisadi islahatların ölkə sənayesinə müsbət təsiri getdikcə daha çox hiss olunur. Ötən dövrdə donmuş istehsal sahələrinin hərəkətə gətirilməsi, sənaye obyektlərində dünya standartlarına cavab verən texnologiyalar əsasında rəqabət qabiliyyətli məhsul buraxılışının təmin edilməsi ÜDM-in strukturunda sənaye məhsulunun payının xeyli artmasına səbəb olmuşdur. Bu da öz növbəsində daxili bazarın xarici istehsaldan asılılığının tədricən azalmasına gətirib çıxarmışdır. Sənayedə dinamik inkişaf meylləri 2005-ci ildə də davam etmişdir.

Cədvəl 30

**2005-ci ildə ölkənin sosial-iqtisadi inkişafı**

| | 2005-ci il, mln. manat | 2005-ci il 2004-cü ilə nisbətən, % |
|---|---|---|
| Ümumi daxili məhsul | 11875,6 | 126,4 |
| Sənaye məhsulunun ümumi həcmi | 8857,4 | 133,5 |
| Əsas kapitala yönəldilən investisiyalar | 5424,3 | 112,7 |
| Kənd təsərrüfatının ümumi məhsulu | 1731,2 | 107,5 |
| Yük daşınması, mln. ton | 128008,3 | 109,2 |
| Poçt və rabitə xidmətlərinin həcmi | 437,2 | 136,0 |
| Pərakəndə əmtəə dövriyyəsi | 4622,2 | 113,2 |
| Əhaliyə göstərilən pullu xidmətlər | 960,7 | 126,1 |
| Xarici ticarət dövriyyəsi, mln. dollar<br>o cümlədən: | 8547,2 | 119,1 |
| ixracın ümumi həcmi | 4346,9 | 120,2 |
| idxalın ümumi həcmi | 4200,3 | 119,5 |
| Dövlət büdcəsinin gəlirləri | 2055,2 | 138,8 |
| Dövlət büdcəsinin xərcləri | 2140,7 | 142,6 |
| Dövlət büdcəsinin kəsiri | -85,5 | - |
| Əhalinin nominal pul gəlirləri | 7792,3 | 127,0 |
| Adambaşına düşən pul gəlirləri, manat | 942,0 | 125,7 |
| Orta aylıq əmək haqqı, manat | 117,9 | 121,9 |
| Qeydə alınmış işsizlərin sayı, nəfər | 56341 | 100,7 |
| İstehlak qiymətləri indeksi | – | 109,6 |

Ümumi daxili məhsulun 76,0%-i qeyri-dövlət sektorunda yaradılmışdır. Bu o deməkdir ki, iqtisadiyyatın inkişafında qeyri-dövlət sektorunun rolu getdikcə artmaqda davam edir. Əgər 1997-ci ildə ümumi daxili məhsulun həcmində qeyri-dövlət sektoru müəssisələrinin məhsulu 25,1%-lik, 2000-ci ildə 48,4%-lik paya malik idisə, 2005-ci ildə də bu meyl davam etdirilmişdir.



Sənayenin 2005-ci ildəki işi qazanılmış bir sıra yüksək nailiyyətlərlə səciyyələnir. Hasil olunmuş 22,2 mln. ton neft 1941-ci ildən bəri, istehsal edilmiş 22,5 mlrd. kv-saat elektrik enerjisi 1991-ci ildən bəri, 1,49 mln. ton sement isə Azərbaycanda bu məhsulların istehsalı tarixində ən yüksək göstəricidir.

Sənaye məhsulunun ümumi həcmində məhsulların payı 94,0%, sənaye xarakterli xidmətlərin payı isə 6,0% təşkil etmişdir. İstehsal edilmiş sənaye məhsulunun 59,8%-i hasilat, 34,1%-i emal sənayesi, qalan hissəsi isə elektroenergetika, qaz və suyun istehsalı və bölüşdürülməsi müəssisələrinin payına düşmüşdür. Azərbaycanda yaradılan siyasi-iqtisadi sabitlik və əlverişli iqtisadi şəraitdən məqsədyönlü istifadə edən yerli və xarici iş adamları 2005-ci ildə 2004-cü ildəkindən 13,5% çox və ya 5,5 milyard manat investisiya əsas kapitala yönəltmiş və onun 67,2%-i xarici sərmayədarlar tərəfindən qoyulmuşdur. İnvestisiyanın 4,2 milyard manatı və ya 76,8%-i sənaye sahəsinə – mövcud güclərin işlək vəziyyətində saxlanılmasına, yeni obyektlərin inşası, genişləndirilməsi və digər məqsədlərə sərf edilmişdir. Bütün bunlar öz bəhrəsini verərək sənayedə işgüzar fəallığın artmasına, yeni iş yerlərinin açılmasına, kiçik sahibkarlığın inkişafına güclü təkan vermişdir. Fəaliyyət göstərən sənaye müəssisələrinin, o cümlədən tam xarici investisiyalı və müştərək müəssisələrin sayı ildən-ilə artmaqdadır və hazırda onların sayı 192-yə çatmışdır.

Sənaye ölkə iqtisadiyyatının əsasını təşkil etdiyi kimi, neft və qaz hasilatı da sənayenin əsasını təşkil edir. 2005-ci ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) uğurlu işini davam etdirmişdir. 2005-ci ilin fevral ayında «Mərkəzi Azəri» yatağının istismara verilməsi hesabına ABƏŞ 2005-ci ildə 13,2 mln. ton neft və 1,7 milyard kubmetr təbii qaz hasil etmişdir. Hazırda ölkənin neft və qaz hasilatı sektorunda ABƏŞ-lə yanaşı, «Şirvanoyl», «Anşad Petrol», «Salyanoyl», «Azgerneft», «Qarasu» və s. kimi neft və qazçıxarma müəssisələri fəaliyyət göstərir.

Lakin müasir dövrdə dünyanın bir çox ölkələrində olduğu kimi, bazar iqtisadiyyatının obyektiv və subyektiv çətinlikləri

ilə bağlı bizim ölkəmizdə də yoxsulluq problemi vardır və bunun aradan qaldırılması üçün ciddi tədbirlər həyata keçirilir. Belə tədbirlərdən ən mühümü 2002-ci ildə qəbul olunmuş «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı»dır. Həmin proqramda göstərilir ki, beynəlxalq təşkilatların araşdırılma metodikasının nəticələrindən aydın olur ki, ölkəmizdə əhalinin təqribən 42%-i yoxsulluq səviyyəsindədir. Deməli, bizim əsas vəzifəmiz bundan sonra aparılan işlərlə yoxsulluqla mübarizəni gücləndirmək, yoxsulluğu azaltmaq və gələcəkdə Azərbaycan Respublikasında yoxsulluğu tamamilə aradan qaldırmaqdan ibarətdir. Bu sahədə Azərbaycanın yeni neft strategiyası mühüm rol oynaya bilər. Çünki respublikamızda mənfəət karbohidrogenlərinin həcminin və satışının artması Azərbaycan Respublikası Dövlət Neft Fonduna daxil olan gəlirin çoxalmasına imkan verər ki, bu da əhalinin sosial problemlərinin həllini sürətləndirə bilər.

2003-2005-ci illəri əhatə edən «Yoxsulluğun Azaldılması və İqtisadi İnkişaf üzrə Dövlət Proqramı» məhz bu məqsədlə hazırlanmışdır. Bu proqramda aparılacaq islahatların həm iqtisadi, həm sosial, həm də institutsional aspektləri kompleks şəkildə əhatə olunmuş və burada nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi nəticəsində ölkəmizin əhalisinin sosial rifahının yüksəlməsi təmin olunacaqdır.

Dövlət proqramında yoxsulluğun azaldılması ilə əlaqədar nəzərdə tutulmuş tədbirlərin əsas istiqamətlərindən biri də sosial sahədə islahatların aparılması, yoxsulluğa daha həssas olan əhali qruplarının üzləşdikləri problemlərin həllinin ön plana çəkilməsidir. Azərbaycan dövləti tərəfindən son illərdə əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya və müavinətlərin məbləğinin tədricən artırılması sahəsində çox mühüm, məqsədyönlü tədbirlər həyata keçirilmişdir. Əhalinin sosial müdafiəsinin daha da təkmilləşdirilməsi, onun həssas qruplarının daha ünvanlı sosial yardımla təmin olunması məqsədilə yeni sosial siyasətin həyata keçirilməsinə ehtiyac vardır. Sosial siyasətin müvəffəqiyyətlə aparılması yalnız bu sahə ilə bağlı tədbirlərin həyat səviyyəsinə deyil, eləcə də bütün cəmiyyətin ümumi vəziyyətinə, həyat tərzinə, maddi təminatına öz təsirini göstərir. Ona görə də əhalinin sosial müdafiəsi məsələləri ölkəmizdə



aparılan sosial-iqtisadi inkişafla birbaşa bağlıdır. Məhz bu səbəbdən də dövlətimizin sosial siyasəti ilk növbədə yoxsulluğun aradan qaldırılması və əhalinin rifah halının yüksəldilməsinə yönəldilmişdir.

Ölkə əhalisinin sosial müdafiə hüquqlarının qorunması və xalqın maddi vəziyyətinin yaxşılaşdırılması ilə bağlı tədbirlərin hamısı əhalinin real gəlirlərinin artırılmasına, onların maddi rifahının yaxşılaşdırılmasına yönəldilmişdir. Bununla bağlı son illərdə həyata keçirilmiş tədbirlərin bəzilərini nəzərdən keçirmək məqsədəuyğun olardı. Belə ki, 1997-ci ilin avqust ayında ölkə üzrə pensiyaçıların yarıdan çoxunun pensiyasının məbləği 2,2 dəfə artırılmış, eləcə də əlillərin, tənha və ahıl vətəndaşların, sosial pensiyaçıların pensiyalarına əlavə müavinətlər müəyyən edilmiş, 1998-ci ilin avqust ayından şəhid ailələrinin, müharibə əlillərinin, qaçqın və məcburi köçkünlərin pensiyalarının məbləği 2 dəfədən çox artırılmışdır. 2000-ci il yanvarın 1-dən pensiya və müavinətlərin ümumi məbləğinin minimum həddi 50 min manata, 2002-ci il yanvarın 1-dən isə 70 min manata çatdırılmışdır. 2000-ci ilin noyabr ayından sosial pensiyaçıların pensiyalarına əlavə olaraq 10 min manat aylıq müavinət müəyyən edilmiş, 2001-ci il yanvarın 1-dən isə 20 Yanvar əlillərinin və Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda əlil olanların pensiyalarına hesablanan aylıq müavinətlər orta hesabla 1,5 dəfə, aztəminatlı ailələrdə uşaq doğularkən verilən birdəfəlik müavinət 1,4 dəfə, dəfn üçün müavinət 1,5 dəfə, üç uşağa qulluğa görə düşən ödənişli sosial məzuniyyətdə olanlara verilən aylıq müavinət orta hesabla 1,8 dəfə artmışdır. Dövlətimizin bu istiqamətdə apardığı məqsədyönlü tədbirlərin həyata keçirilməsi davam etdirilir və 2006-cı ildə pensiya və müavinətlərin nəzərəçarpacaq dərəcədə artırılması gözlənilir. Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun 2006-cı il büdcəsində bu məqsədlərə böyük məbləğdə vəsait ayrılmışdır. Bütün bu tədbirlər onu göstərir ki, sosial siyasət, əhalinin sosial müdafiəsi məsələləri dövlətimizin iqtisadi siyasətində əsas yer tutur.

2006-cı ildə ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft sənayesini daha böyük uğurlar gözləyir. Yeni neft-qaz strategiyasının həyata keçirilməsi istiqamətində nəzərdə tutulmuş tədbir-

lər, neft və qaz hasilatına dair illik proqnozlar bunu deməyə əsas verir. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti üzrə neft hasilatına dair əldə olunmuş sabitliyi qoruyub saxlamaq, qaz istehsalındakı böhranı aradan qaldırmaq üçün kompleks tədbirlər proqramı işlənib hazırlanmışdır. Neft hasilatındakı sabitliyi qoruyub saxlamaq məqsədilə köhnə yataqlarda yeni, mütərəqqi üsulların tətbiqi, işlək quyu fondunun artırılması və yeni hasilat quyularının qazılması nəzərdə tutulur. Ölkənin mavi yanacağa olan tələbatını ödəmək üçün daxili imkanlarla yanaşı, 2003-2005-ci illərdə Rusiyanın «İtera» şirkətindən də əlavə qaz alınmışdır.

2006-cı ildə ölkəmizin neft sənayesinə xarici investisiya qoyuluşunun həcmi də xeyli artırılacaq. 2003-cü ilin mayından «Çıraq» yatağının hasilat həcminin artırılması layihəsinin birinci mərhələsi başa çatmışdır. Platformada və Səngəçal terminalındakı neft və qaz qurğularının modernləşdirilməsi nəticəsində gündəlik hasilat 145 min barelə çatdırılmışdır. Adı çəkilən layihənin ikinci mərhələsi isə 2003-cü ilin ikinci yarısından başlanmışdır.

2006-cı ildə ümumi dəyəri 8,6 milyard dollar olan «Azəri» layihəsi üzrə dənizdə və quruda nəhəng tikinti-quraşdırma işlərinin aparılması nəzərdə tutulur. «Əsrin müqaviləsi»nin operatoru BP şirkəti tərəfdaşları ilə birlikdə «Azəri-Çıraq-Günəşli» layihəsi üzrə əməliyyatlara 100 milyon dollar, əsaslı işlərə isə 2 milyard 52 milyon dollar vəsait sərf ediləcəkdir. «Azəri» layihəsi çərçivəsində tikinti-quraşdırma işlərinin davam etdirilməsi, ilk sualtı boru kəmərinin çəkilməsi, «Azəri» yatağının qərb hissəsində öncə qazma-dayaq tavasının quraşdırılması, «Faza-3» layihəsi üzrə müfəssəl mühəndis-layihə işlərinin aparılması və s. 2006-cı ildə görüləcək əsas işlərdəndir. Bütün layihələr üzrə təsdiq olunmuş illik iş proqramları və büdcəyə uyğun olaraq 2006-cı ildə BP tərəfdarları ilə birlikdə Azərbaycandakı əməliyyatlara 4,3 milyard dollar investisiya yönəldəcək.

2006-cı il H.Əliyev adına «Bakı-Tbilisi-Ceyhan» Əsas İxrac Boru Kəmərinin istifadəyə verilmişdir. Məlumat üçün qeyd edək ki, kəmərin Azərbaycan ərazisindən keçən hissəsini CCİC, buradakı texniki qurğuları isə «Petrofak» şirkəti inşa etmişdir.

2006-cı ildə «Şahdəniz» layihəsi üzrə də geniş tədbirlər həyata keçiriləcək. «Şahdəniz» tərəfdaşları kommersiya və maliyyələşdirilmə ilə bağlı son danışıqları yekunlaşdırdıqdan sonra 2003-cü ilin birinci rübündə adı çəkilən layihənin birinci mərhələsinə başlamağa dair qərar qəbul edilmişdir. Bu da ilk qazın, əvvəlcədən nəzərdə tutulduğu kimi, 2006-cı ildə Türkiyə bazarına çıxarılmasına imkan verəcəkdir.



2006-cı ildə Xəzərin Azərbaycan sektorundakı yataqların xarici şirkətlərlə birgə işlənməsinə dair hasilatın pay bölgüsü üzrə digər sazişlərin də həyata keçirilməsi istiqamətində konkret işlər yerinə yetirilmişdir. «İnam» perspektiv strukturunda axtarış-kəşfiyyat quyularının qazılması, eləcə də «Alov» yatağı üzrə texniki araşdırmalar və kollektorun qiymətləndirilməsi davam etmişdir.

Azərbaycanın yeni neft strategiyasının güzgüsü hesab edilən Azərbaycan Respublikasının Dövlət Neft Fondunun 2006-cı ildə xeyli zənginləşməsi, Fondun vəsaitinin bir qədər də artacağı gözlənilir. Təqribi hesablamalara görə, «Bakı-Tbilisi-Ceyhan» Əsas İxrac Boru Kəmərində ARDNŞ-in payının maliyyələşdirilməsi və dövlət büdcəsində bir sıra sosial məsələlərin həlli üçün nəzərdə tutulmuş xərclər ödənildikdən sonra 2006-cı ilin sonunadək Fonda 1 mlrd. 400 mln. ABŞ dollarına yaxın vəsait yığılacağı gözlənilir.

Proqnozlaşdırıldığına görə, 2006-cı il dövlət büdcəsinin xərcləri ümumi daxili məhsulun 19,6%-ni təşkil etməklə mütləq ifadədə 2 mlrd. dollar olacaqdır. Başqa sözlə, bu, 2005-ci ilə nisbətən 1 trilyon 293 milyard manat və ya 25,2% çoxdur.

2006-cı ildə sosialyönümlü xərclərin üstünlüyü saxlanılmaqla iqtisadiyyatın bir sıra sahələrinə dövlət büdcəsindən maliyyə yardımları da artırılacaq. Xərclərin 60%-dən çoxu sosialyönümlü tədbirlərin maliyyələşdirilməsinə yönəldiləcək. Bu, 2005-ci illə müqayisədə 20,3% artıqdır. Respublikamızda hazırda 1,2 milyondan artıq vətəndaş pensiya və müavinət alır. Hər büdcə ilində onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müəyyən addımlar atılır. 2006-cı ildə də sözügedən tendensiya daha ciddi surətdə davam etdirilir. Belə ki, pensiya islahatlarının reallaşdırılması, yoxsulluğun azaldılması proqramının icrasına başlanğıc kimi pensiya və müavinətlərin artımı üçün 224 milyard manat, o cümlədən dövlət büdcəsindən

138 milyard manat vəsait yönəldiləcəkdir.

Ölkəmizin ortamüddətli sosial-iqtisadi inkişaf konsepsiyası da diqqəti cəlb edir. Ekspertlərin proqnozuna görə, 2006-cı ildə ümumi daxili məhsulun real artımı 30,5% təşkil edəcək, qeyri-dövlət sektorunun ümumi daxili məhsulda xüsusi çəkisi isə 76%-ə çatacaqdır. Beləliklə, 2006-cı ildə ümumi daxili məhsulun artım tempinə görə Azərbaycan Respublikası dünyada birinci yerə çıxacaqdır.

Məlumat üçün qeyd edək ki, Azərbaycan böyük neft-qaz ehtiyatlarına malik olan ölkələrdən biridir. Fəqət onları kəşf etmək və mənimsəmək yalnız respublikanın daxili imkanları hesabına hələlik mümkün deyildir. Bu, indiki şəraitdə xarici kapitalın, yəni xarici sərmayəçilərin bu işə cəlb edilməsilə mümkündür. Xarici kapitalın bu işə cəlb edilməsi neft-qaz hasilatının artırılması ilə yanaşı, yeni iş yerlərinin yaradılması baxımından da əhəmiyyətlidir. Digər tərəfdən, belə bir tədbirin həyata keçirilməsi yüksək ixtisaslı neftçi kadrların xarici ölkələrə axınının da qarşısını ala bilər. Son illərdə xarici kapitalın idxalı ilə əlaqədar olaraq respublikamızda yeni idarəetmə təcrübəsi, müasir menecment standartları, yüksək istehsalat mədəniyyəti tətbiq olunmağa başlamışdır.

Azərbaycanın sosial-iqtisadi inkişaf proqramında xarici iqtisadi münasibətlər mühüm yer tutur. Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxşaxəli inkişafını təmin etmək üçün böyük üstünlüklərə malikdir. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir. Azərbaycan bir çox həyati əhəmiyyətə malik siyasi və iqtisadi məsələlər baxımından dünyanın yaxın və uzaq, böyük və kiçik dövlətlərinin, beynəlxalq və regional təşkilatların diqqətini özünə cəlb edən bir qütbdür. Mühüm strateji əhəmiyyətli ərazidə yerləşən ölkəmizdə dünyanın nəhəng dövlətlərinin mənafeyi toqquşur, onlar arasında nüfuz dairəsi uğrunda dərin rəqabət mübarizəsi gedir. Azərbaycan Respublikası öz sosial-iqtisadi inkişafında xarici ölkələrlə əməkdaşlığın daha da genişləndirilməsinə can atır və beynəlxalq əmək bölgüsünün dərinləşməsindən irəli gələn üstünlüklərdən maksimum dəyərlənməyə çalışır. Siyasi istiqlaliyyət əldə edilməsi, inzibati-amirlik sistemindən bazar münasibətləri sisteminə keçilməsi, uzun müddət mövcud olmuş köhnə xarici iqtisadi əlaqələr sisteminə yenidən baxılması və bərabərhüquqlu, qarşılıqlı faydalı münasibətlərin yaradılması üçün mühüm zəmin təşkil edir. SSRİ-nin süqutu böyük bir ərazidə geopolitik vəziyyəti kökündən dəyişdirərək, Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin səmərəliliyinin artırılması və intensivləşdirilməsi, beynəlxalq əmək bölgüsünün üstünlüklərindən respublikamızın mənafeyinə uyğun olaraq istifadə edilməsi üçün geniş perspektivlər açdı.



Azərbaycan Respublikasının xarici iqtisadi siyasəti dedikdə, beynəlxalq iqtisadi əlaqələrdə qarşıya qoyduğu məqsədlərin həyata keçirilməsinə yönəldilmiş fəaliyyəti başa düşülür. Xarici iqtisadi siyasət iqtisadi anlayış olub, ümumi iqtisadi siyasətin tərkib hissəsidir və ölkənin sosial-iqtisadi proqramı ilə bilavasitə əlaqədardır. Azərbaycan dövlətinin xarici iqtisadi fəaliyyət sahəsində qəbul etdiyi qərarlar iqtisadiyyatın bütün istiqamətlərinə təsirini göstərir. Azad bazar münasibətlərinə keçid şəraitində dövlətin daxili və xarici iqtisadi siyasətini bir-birindən təcrid etmək mümkün deyildir.

Azərbaycanın sosial-iqtisadi inkişaf proqramında xarici iqtisadi siyasət, əsasən, dörd istiqamətdə həyata keçirilir. Onlar aşağıdakılardan ibarətdir:

*1. Xarici ticarət siyasəti.* Müstəqillik əldə etdikdən sonra Azərbaycan Respublikasının xarici ticarət siyasəti yeni maliyyə mənbələrinin yaradılması və istifadə olunmasına xidmət edir. Bu siyasətin əsas təsir vasitəsi tarif və qeyri-tarif tənzimləmələridir. Ölkə iqtisadiyyatının və əhalinin gündəlik tələbat mallarına olan ehtiyaclarının ödənilməsində xarici ticarətin tarif tənzimlənməsinə iqtisadiyyat əldə edilməsindən sonra böyük əhəmiyyət verilir. Real həyatda dövlətlər xarici ticarətə bu və ya digər şəkildə müdaxilə edirlər. Xarici ticarətə müdaxilə etmək üçün istifadə edilən ən mühüm vasitələrdən biri gömrük tarifləridir. Gömrük tarifinin məqsədləri aşağıdakılardan ibarətdir:

a) idxalın əmtəə strukturunu səmərələşdirmək;

b) Azərbaycan Respublikası ərazisində malların gətirilməsi və çıxarılmasının valyuta gəlirləri və xərclərinin əlverişli nisbətini təmin etmək;

c) valyuta sərvətlərinin Azərbaycan Respublikasının gömrük ərazisinə gətirilməsi və bu ərazidən çıxarılmasını səmərəli nəzarət etmək:

ç) Azərbaycan Respublikasında malların istehsal və istehlak strukturunda mütərəqqi dəyişiklikləri təmin etmək üçün əlverişli şərait yaratmaq;

d) iqtisadiyyatı xarici rəqabətin mənfi təsirindən qorumaq və onun dünya təsərrüfatı ilə səmərəli inteqrasiyasına şərait yaratmaq.

Gömrük tarifi Azərbaycan Respublikasının gömrük sərhədindən keçirilən mallara tətbiq edilir və xarici iqtisadi fəaliyyətin əmtəə nomenklaturasına uyğun olaraq sistemləşdirilmiş gömrük rüsumu dərəcələrinin məcmusudur. İdxal və ixrac gömrük rüsumlarının dərəcələri və eyni zamanda əlverişli ticarət rejimi tətbiq olunan ölkələrin siyahısı Nazirlər Kabineti tərəfindən müəyyən edilir. Əlverişli ticarət rejimi tətbiq olunmayan ölkələrin mallarına və ölkə mənşəyi müəyyənləşdirilməyən mallara idxal gömrük rüsumlarının dərəcələri iki dəfə artırılır. Azərbaycan Respublikasında aşağıdakı növ gömrük rüsumları tətbiq edilir:

– advaler, yəni malların gömrük dəyərinə görə faizlə hesablanan gömrük rüsumu;

– spesifik rüsum, yəni mal vahidinə görə müəyyən olunmuş dəyərlə hesablanan gömrük rüsumu;

– kombinə edilmiş rüsum, yəni hər iki növü *birləşdirməklə* hesablanan gömrük rüsumu.

Malların ixracını və idxalını operativ tənzimləmək üçün bəzi mallara, mövsümi rüsumların altı aya qədər tətbiq olunmasına qanun icazə verir. Azərbaycan Respublikasının iqtisadi mənafeyini qorumaq üçün idxal edilən mallara müvəqqəti olaraq aşağıdakı xüsusi növ rüsumlar tətbiq oluna bilər: xüsusi rüsumlar, antidempinq rüsumları, kompensasiya rüsumları.

Qeyri-tarif tənzimlənməsi xarici ticarətin liberallaşdırılmasına və qeyri-iqtisadi amillərin məhdudlaşdırılmasına yönəldilmişdir. Azərbaycan Respublikasında bu sahədə aşağıdakı rəsmi sənədlər qəbul edilmişdir: «Azərbaycan Respublikasında xarici ticarətin səmərəliliyinin artırılması təbirləri haqqında» (10.01.1994); «Azərbaycan Respublikasında xarici ticarətin



sərbəstləşdirilməsi haqqında» (5.04.1994); «Azərbaycan Respublikasında xarici ticarətin tənzimlənməsinin təkmilləşdirilməsi haqqında» (17.12.1996).

***2. Ödəniş balans siyasəti.*** Düzgün maliyyə və xarici ticarət siyasətini dəyərləndirmək, onu dəyişdirmək üçün dövri və əhatəli statistik məlumatlar öz əksini ödəniş balanslarında tapır. Ödəniş balansı bir ölkə sakinlərinin müəyyən dövr ərzində bütün digər ölkələrin rezidentləri ilə apardığı xarici iqtisadi əməliyyatların cəmini balans formasında əks etdirən sənəddir. Azərbaycan Respublikasının ödəniş balansı Beynəlxalq Valyuta Fondunun müəyyən etdiyi qaydaya əsasən aşağıdakı göstəriciləri əks etdirir:

– Azərbaycan Respublikası ilə xarici ölkələr arasında baş verən əmtəə, xidmət və gəlirlər üzrə bütün əməliyyatlar;

– ölkənin xarici dünya ölkələri qarşısında olan öhdəlikləri, maliyyə tələblərində özünü göstərən mülkiyyət və digər bütün dəyişikliklər;

– qarşılıqlı ödənişləri bir-birinə bağlamayan əməliyyatları və dəyişiklikləri balanslaşdırmaq üçün lazım olan bütün birtərəfli köçürmə və kommersiya xarakterli qeydlər.

Azərbaycan Respublikasında ödəniş balansı 1995-ci ildən başlayaraq Beynəlxalq Valyuta Fondunun metodik göstərişləri əsasında tətbiq olunmağa başlanmışdır. Ödəniş balansının dövlət tənzimlənməsinin aşağıdakı üç üsulu vardır:

a) birbaşa nəzarət şəklində həyata keçirilən üsulla idxalın tənzimlənməsi, gömrük və digər yığımlar, xarici investisiyalar üzrə gəlirlərin və özəl şəxslərin sərmayələrinin xaricə köçürülməsinin qadağan edilməsi və ya məhdudlaşdırılması, əvəzsiz yardımların, uzun və qısa müddətli kapital ixracının kəskin surətdə azaldılması və s.;

b) daxili iqtisadi vəzifələrin yerinə yetirilməsinə yönəldilmiş, lakin, eyni zamanda ödəniş balansı vəziyyətinə təsir göstərən deformasiya tədbirlərindən istifadə olunması;

c) mübadilə məzənnəsinin dəyişməsi.

***3. Xarici investisiya siyasəti.*** 15 yanvar 1992-ci ildə qəbul olunmuş «Xarici investisiyanın qorunması haqqında» Azərbaycan Respublikasının qanunu ilə xarici investisiya siyasətinin əsasları müəyyən edilmişdir. Bu qanuna görə xarici investorlara

aşağıdakı güzəştlər nəzərdə tutulur:

– mənfəətdən vergi Azərbaycan Respublikasının ərazisində yaradılmış və nizamnamə fondundan, xarici kapitalı 30%-dən çox olan müəssisələr üçün – 25%, kənd və dağ yerlərində isə 10%;

– maddi istehsal sahələrində fəaliyyət göstərən xarici kapital ilk iki il, kənd yerlərində olduqda isə ilk üç il ərzində mənfəət vergisindən azaddır;

– vergiyə cəlb olunan mənfəət istehsalın inkişafına, elmi-tədqiqat işlərinin aparılmasına, təbiəti mühafizə tədbirlərinə, uzunmüddətli kreditlər üzrə faiz ödəmələrinə yönəldilən məbləğlər qədər azaldılır;

– müəssisənin ehtiyat fonduna ayırmalar vergidən azad olunur.

***4. Xarici yardım siyasəti.*** Azərbaycan Respublikasının xarici yardım siyasəti beynəlxalq təşkilatlardan və dövlətlərdən yardımların alınması və istifadəsi tədbirlərini əhatə edir. Bu siyasət beynəlxalq aləmdə son dövrlərdə strukturlaşdırılmış yeni bir xarici siyasətdir. Azərbaycan Respublikası ikinci dəfə müstəqillik əldə etdikdən sonra bazar iqtisadiyyatı yolunda islahatlar həyata keçirdiyi üçün aparıcı beynəlxalq təşkilatlar tərəfindən iqtisadi inkişafın təmin olunması, ödəniş balansı kəsirlərinin ləğvi, milli valyutanın sabitliyinin təmin olunması, milli müdafiəyə ayrılan yardımlarla dəstəklənir. Azərbaycan Respublikasına edilən beynəlxalq yardım Avropa Birliyi Komissiyasının (ABK) yardımlarıdır. ABK 1993-cü ildə əhalini ərzaq və dərmanla təmin etmək məqsədilə 68 mln. EKJU kreditin açılması ilə fəaliyyətə başlamışdır. Avropa Birliyinin «TASİS» proqramı üzrə Azərbaycan Respublikasına edilən texniki yardım dövlət müəssisələrinin yenidən qurulması, özəl bölmə, kənd təsərrüfatı, infrastruktur, energetika, maarif və digər sahələrin inkişafı məqsədlərinə görə verilir. TASİS və MDB dövlətlərarası proqramlarının 24 layihəsində Azərbaycan Respublikası kifayət qədər iştirak edir.

Məlumdur ki, Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas formalarından biri xarici ticarətdir. Son illərdə ölkənin xarici ticarət dövriyyəsinin istiqaməti və strukturu respublikamızın atributları əsasında qurulur ki, bu da ticarət dövriyyəsinin ildən-ilə artmasına səbəb olmuşdur. İdxal və ixracatın dinamikası cədvəl 31-də verilmişdir.



*Cədvəl 31*

***İdxal və ixracatın dinamikası, min ABŞ dollar***

| İllər | Ticarət dövriyyəsi | o cümlədən: | | |
|---|---|---|---|---|
| | | İdxal | İxrac | Saldo |
| 1990 | 4002234,3 | 1881266,2 | 2120968,1 | +239701,9 |
| 1995 | 1304856,5 | 667657,2 | 637199,3 | -30457,9 |
| 1996 | 1591881,8 | 960636,3 | 631245,5 | –329390,8 |
| 1997 | 1575652,9 | 794343,2 | 781309,7 | –13033,5 |
| 1998 | 1682645,9 | 1076497,4 | 6061501,5 | -470346,9 |
| 1999 | 1965131,0 | 1035888,8 | 929242,2 | -106646,6 |
| 2000 | 2917333,4 | 1172081,5 | 1745251,9 | +883409,0 |
| 2001 | 374159,8 | 1430877,4 | 2314282,4 | +883409,0 |
| 2002 | 3833064,3 | 1665564,2 | 2167500,1 | +501935,9 |
| 2003 | 5218146,7 | 2626427,3 | 2591719,4 | –34707,9 |
| 2004 | 7118600,0 | 3504300,0 | 3614300,0 | +110000,0 |
| 2005 | 8547200,0 | 4200300,0 | 4346900,0 | +146600,0 |

Verilmiş cədvəldən görünür ki, Azərbaycan Respublikasının xarici dövlətlərlə aparılan idxal və ixrac əməliyyatlarının ümumi həcmi 2005-ci ildə 8547200 min ABŞ dolları, o cümlədən idxal 4200300 min dollar, ixrac isə 4346900 min dollar təşkil etmişdir. Xarici ticarət dövriyyəsinin 50,8%-ni ixrac, 49,2%-ni idxal təşkil etmiş, ölkə üzrə təqribən 147 milyon dollar həcmində müsbət saldo yaranmışdır. 2004-cü illə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 19,9%, o cümlədən idxal 19,5%, ixrac isə 20,2% artmışdır.

Mal mübadiləsinin 58,7%-i, o cümlədən idxalın 55,4%-i, ixracın 61,9%-i sərbəst dönərli valyuta sövdələşmələri üzrə, 18,7%-i müəssisə və obyektlərin tikintisinə dair saziş-öhdəlik hesabına avadanlıq və materialların keçirilməsi yolu ilə aparılmışdır. 2004-cü illə müqayisədə sərbəst dönərli valyuta sövdələşmələrinin həcmi 38,2%, müəssisə və obyektlərin tikintisinə dair saziş-öhdəlik hesabına göndərilən mallar isə 24,3% artmışdır.

Ümumi dövriyyənin 6195,3 milyon dolları və ya 72,5%-i, o cümlədən ixracın 3000 milyon dolları və ya 79,2%-i, idxalın 3303,8 milyon dolları və ya 65,6%-i uzaq xarici dövlətlərin

payına düşmüşdür. 2004-cü illə müqayisədə uzaq xarici dövlətlərlə ticarət dövriyyəsinin ümumi həcmi 16,5%, o cümlədən idxal olunan malların həcmi 18,9%, Azərbaycandan onlara göndərilən malların həcmi 14,7% artmış, nəticədə 146,6 milyon dollar məbləğində müsbət ixrac-idxal saldosu yaranmışdır.

2005-ci ildə əhalinin pul gəlirləri 27,0% artaraq 7792,3 trilyon manat olmuş, adambaşına pul gəlirlərinin məbləği isə 942 manata çataraq keçən ilki səviyyəni 25,7% üstələmişdir. Əhalinin pul xərclərinin 70,3%-i müxtəlif istehlak mallarının alınması və xidmətlərin ödənilməsinə, 5,1%-i vergilərin və könüllü üzvilik haqlarının ödənilməsinə, 24,6%-i əmanət qoyuluşlarının artırılmasına və xarici valyuta alınmasına sərf edilmişdir.

Əhalinin sosial müdafiəsini gücləndirmək məqsədilə ölkədə əməyin ödənilməsi sahəsində aparılan ardıcıl islahatlar dövlətin iqtisadi siyasətində əsas yeri tutur və bu sahədə müntəzəm olaraq məqsədyönlü iş aparılır.

Ölkə Prezidentinin 2004-cü ildə imzaladığı müvafiq fərmanları əsasında minimum əmək haqqının məbləği 100 min manata, 2005-ci ilin yanvarın 1-dən 125 min manata və həmin ilin iyunun 1-dən isə 150 manata qədər qaldırılmışdır. Minimum əmək haqqının artırılması ilə əlaqədar «Dövlət büdcəsindən maliyyələşdirilən sahələrdə çalışan işçilərin Vahid Tarif Cədvəli ilə müəyyən edilmiş aylıq tarif (vəzifə) maaşlarının tənzimlənməsi haqqında» qərara uyğun olaraq büdcə təşkilatlarında çalışanların əmək haqları artırılmışdır.

2004-cü ildə dövlət qulluqçularının vəzifə maaşları, daxili işlər orqanları işçilərinin, hərbi qulluqçuların və Milli Təhlükəsizlik sistemi işçilərinin, mədəniyyət, incəsənət işçilərinin, elm xadimlərinin və s. əmək haqları artırılmışdır.

Ölkə Prezidenti tərəfindən görülmüş tədbirlər nəticəsində 2004-cü ildə muzdla çalışan işçilərin orta aylıq əmək haqqı 2003-cü ilə nisbətən 26,2% artaraq 483,4 min manata çatmışdır.

2005-ci ilin yanvarın 1-nə olan məlumata görə, Azərbaycan Respublikasının Sosial Müdafiə Fondu sistemində 1339 min nəfər pensiyaçı qeydiyyatda olmuş və onlara təyin edilmiş aylıq pensiyaların orta məbləği 120,1 min manat təşkil etmişdir.



2005-ci ildə əhaliyə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün ümumilikdə 474,2 milyon manat vəsait yönəldilmişdir ki, bu da 2004-cü ilə nisbətən 76,2 milyon manat və ya 19,0% çoxdur. Nominal, nəqliyyat və digər güzəştlərinin əvəzinə 45,6 milyon manat müavinətlər verilmişdir. Müavinətlərin digər növləri üzrə xərclər (pensiya və müavinətlərin ümumi məbləği 100 min manatdan az olan işləməyən pensiyaçılara əlavələr, əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə, hamiləliyə və doğuşa görə müavinətlər və s.) 175,5 milyon manat təşkil etmişdir.

Ölkənin sosial-iqtisadi inkişafında yeni növ müəssisələrin yaradılması və məşğulluq problemlərinin həlli mühüm yer tutur. Odur ki, son bir il ərzində ölkənin iqtisadi inkişafında yeni keyfiyyət dəyişikliklərinə nail olunmasına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, regionların, sahibkarlığın inkişafına, investisiyaların cəlb olunmasına əlverişli şəraitin yaradılması təsərrüfat subyektlərinin say və tərkibinin dəyişməsinə də öz müsbət təsirini göstərmişdir. Uçot vahidlərinin dövlət reyestrinin təhlili göstərir ki, 2005-ci ildə 5516 yeni müəssisə qeydiyyata alınmışdır ki, bu da 2004-cü ildə yaradılan müəssisələrdən 12,1% çoxdur. Yeni yaradılmış müəssisələrin 2232-si topdan və pərakəndə ticarət, avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri, 771-i tikinti, 90-ı kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatı, 468-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və istehlakçılara xidmət göstərilməsi, 400-ü emal sənayesi, 463-ü isə iqtisadiyyatın digər bölmələri üzrə fəaliyyətə başlamışdır.

2005-ci ildə qeydiyyata alınmış müəssisələrin 4872-si xüsusi mülkiyyətə, 211-i dövlət mülkiyyətinə, 273-ü yüz faiz xarici investisiyalı mülkiyyətə, 90-ı birgə mülkiyyətə, 70-i isə bələdiyyə mülkiyyətinə mənsub olan müəssisələrdir. Yeni yaranmış müəssisələrin 59,3%-i Bakıda, 8,9%-i Aran, 6,5%-i Abşeron, 6,3%-i Gəncə-Qazax, 5,4%-i Naxçıvan, 4,1%-i isə Lənkəran iqtisadi rayonunda fəaliyyətə başlamışdır.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı Dövlət Proqramının qəbul edilməsindən keçən bir il ərzində ölkənin bütün regionlarında iqtisadiyyatın davamlı inkişafı sahəsində müsbət nəticələr əldə olunmağa başlanmışdır. 2004-cü

ildə 167,3 min yeni iş yerləri açılmış, iş yerlərinin 90%-i qeyri-dövlət sektorunun payına düşmüşdür. Daimi iş yerlərinin 30,8%-i yeni yaradılmış, 33,4%-i mövcud, 5,8%-i fəaliyyətini bərpa etmiş müəssisələrdə, 30%-i isə fiziki şəxslərdə yaradılmışdır.

2005-ci ildə açılmış iş yerlərinin iqtisadi fəaliyyət növlərinə görə bölgüsü göstərir ki, onların 13,6%-i tikintiyə, 10,8%-i topdan və pərakəndəsatış, avtomobillərin satışı, motosikletlərin, məişət malları və şəxsi əşyaların təmirinə, 14,2%-i emal sənayesinə, 8,1%-i kənd təsərrüfatı, ovçuluq və meşə təsərrüfatına, 3,2%-i dövlət idarəetməsi və müdafiə, məcburi sosial təminata, 3,9%-i daşınmaz əmlakla əlaqədar əməliyyatlar, icarə və kommersiya fəaliyyətinə, 2,1%-i təhsil, səhiyyə və sosial xidmətlərə, 2,2%-i digər kommunal, sosial və fərdi xidmətlərə, 1,1%-i elektrik enerjisi, qaz və su təsərrüfatına, 1,9%-i nəqliyyat, anbar təsərrüfatı və rabitəyə, 0,7%-i balıqçılıq və balıq yetişdirilməsinə, 0,7%-i maliyyə vasitəçiliyinə, 0,5%-i mədənçıxarmaya, 0,6%-i mehmanxana və restoranlara, 30,1%-i ayrı-ayrı fiziki şəxslərə aiddir.

*Cədvəl 32*

***Sənaye sektoru üzrə əsas makroiqtisadi göstəricilərin dinamikası***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Əlavə dəyər, mlrd. manat | 8495 | 9998 | 8350 | 13334 | 15950 |
| Ümumi mənfəət, mlrd. manat | 6814 | 8232 | 9360 | 10900 | 13031 |
| Xalis mənfəət, mlrd. manat | 5789 | 7041 | 8013 | 9521 | 11388 |
| İşçilərin sayı, min nəfər | 200,2 | 185,9 | 176,9 | 170,9 | 175,3 |
| Orta aylıq əmək haqqı, min manat | 435,9 | 499,8 | 567,8 | 685,6 | 935,1 |
| Əsas fondların dəyəri, mlrd. manat | 36309 | 40795 | 46991 | 59720 | 75733 |
| Əsas kapitala investisiyalar, mlrd. manat | 3298 | 4129 | 8148 | 15024 | 19579 |



## 3.2. Ölkənin iqtisadi inkişafının sürətləndirilməsində neft amilinin rolu və yeri

Azərbaycanın neft sənayesi son illərdə mütərəqqi dəyişikliklərə məruz qalmış və bu sahədə islahatlar prosesi genişlənmişdir. Xəzərin Azərbaycan sektorunda sənaye əhəmiyyətli neftlə zəngin yataqların işlənilməsi üzrə çoxsaylı beynəlxalq müqavilələr bağlanmışdır. Respublikamızda dövlət büdcəsinin əsas hissəsinin məhz neftdən gələn gəlirlər hesabına formalaşması, həmçinin ixracın 93-95%-nin neft və neft məhsullarının payına düşməsi bu sahənin Azərbaycan iqtisadiyyatına təsiri məsələsini araşdırmağı zəruri edir.

Məlumat üçün qeyd edək ki, hazırda dünyada 140,9 milyard ton neft ehtiyatı vardır. Bunun 93,6 milyard tonu və ya 66,4%-i Yaxın Şərq ölkələrinin payına düşür. Regional təsnifatda ikinci yeri Qərb yarımkürəsi (neft ehtiyatının həcmi 20,5 milyard ton və ya 14,6%-i), üçüncü yeri Afrika (ehtiyat 10 milyard ton və yaxud 7,3%), dördüncü yeri Şərqi Avropa və MDB ölkələri (ehtiyat 8,1 milyard ton və ya 5,7%), beşinci yeri Asiya-Sakit okean regionu (ehtiyat 6 milyard ton və yaxud 4,3%) və altıncı yeri isə Qərbi Avropa (ehtiyat 2,4 milyard ton, yaxud 1,7%) tutur.

Həm ehtiyatlar, həm də hasilat səviyyəsi baxımından əsas neft hasilatçılarına gündəlik 8 milyon barellə Səudiyyə Ərəbistanı başçılıq edir. Dünyadakı neft ehtiyatlarının dörddə bir hissəsi, yəni təqribən 262 milyard barel neft ehtiyatı məhz bu ölkəyə məxsusdur. Səudiyyə Ərəbistanına və onun OPEK kartelindəki müttəfiqlərinə məxsus 815 milyard barel neft dünya neft ehtiyatlarının dörddə üç hissəsidir. Müqayisə üçün xatırladaq ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələr dünyadakı neftin çox hissəsini istehlak etdikləri halda, həmin ölkələrə məxsus neft ehtiyatları planetdəki ümumi neft ehtiyatlarının onda bir hissəsindən azdır.

İndiyədək dünyada 710 milyard bareldən çox neft hasil edilmişdir. Kəşf olunmuş neft ehtiyatları isə 891 milyon barel təşkil edir. Hazırda planetin 95 ölkəsində neft hasil edilir. Mütəxəssis hesablamalarına görə, mövcud dünya neft ehtiyatlarının istifadə müddətinin ümumi toplumda 40 ilə qədər kifayət edəcəyi proqnozlaşdırılır. Qeyd olunur ki, dünya neft ehtiyatları

2,3 trilyon barel təşkil edə bilər. Bunun üçün axtarış və kəşfiyyatın investisiyalaşdırılması sürətləndirilməlidir. Lakin yeni neftli yataqların kəşfi və axtarılması perspektivi gündəlikdə dayandığından, ehtiyatların XXI əsr boyu bəs edəcəyi proqnozu bəşəriyyət üçün açıq olaraq qalır. Hazırda hasilat artımının tempi onun istehlak tələbi tempini üstələyir. Bununla belə, gündəlik hasilatın müasir 75,6 milyon barel həcminin 80-85 milyon barelə qədər yüksələcəyi gözlənilir. 2010-cu ildə hasilat ən yüksək səviyyəyə qalxaraq, dünyəvi böyük iqtisadi artımla müşayiət olunacaq. Proqnozlara görə, böyük neft ehtiyat mənbəyi Rusiya, Yaxın Şərq, Qrelandiya şelfində, Cənub Şərqi Asiya və Avstraliyada gözlənilir. Dünyanın neft ehtiyatları qitələr üzrə aşağıdakı kimidir:

***Şimali Amerika*** – ölkələrinə ABŞ, Kanada və Meksika aid edilir. Bu ölkələr müəyyən olunmuş neft ehtiyatlarına görə dünyada neftlə zəngin olan Yaxın Şərq ölkələrindən sonra dünyada beşinci yeri tuturlar. Bu, əsasən ABŞ-ın hesabınadır. Belə ki, araşdırmalar göstərir ki, ABŞ ərazisində təqribən 30 minə yaxın neft və qaz yataqları mövcuddur. Kanadada neft ehtiyatlarının 60%-dən çoxu ölkənin qərb və cənub bölgəsinin payına düşür. Mütəxəssislərin hesablamalarına görə, Meksikanın neft ehtiyatlarının həcmi 2,5 mlrd. tona bərabərdir. Bu ölkədə indiyədək 400-dən çox neft və qaz yataqları aşkar olunmuşdur.

***Cənubi Amerika*** – ölkələrinə Venesuela, Braziliya, Kolumbiya, Tobaqo, Peru və Çili aid edilir. Bu ölkələrdə də, mütəxəssislərin fikrincə, zəngin neft ehtiyatları vardır. Buradakı neft ehtiyatlarının həcmi 6 mlrd. tondan çoxdur ki, bunun da təqribən 70-73%-i Venesuelanın payına düşür. Bu ölkənin əsas neft ehtiyatları Bolivar və Lamar yataqları hesab edilir. Braziliyanın neft ehtiyatları isə Atlantik okeanın sahilboyunda yerləşib. Cənubi Amerikanın neft ehtiyatlarının təqribən 20-40%-i dəniz neftinin payına düşür.

***Avropa*** – qitəsinin yalnız 18 ölkəsində hələlik sənaye əhəmiyyətli neft və qaz yataqları aşkar edilib. Avropa ölkələrində 700-ə yaxın neft yatağı mövcuddur. Bununla belə, hasil edilən neft qitə ölkəsinin müasir tələbini ödəmir və Avropa bu gün dünyanın ən iri neft istehlakçısıdır.

***Yaxın və Orta Şərq.*** Bu qitə dünyanın ən zəngin neft və qaz



ehtiyatlarına malikdir. Bu qitədə ən çox neft və qaz ehtiyatları Fars körfəzində yerləşmişdir. Bu regionun əsas neft hasilatçıları Səudiyyə Ərəbistanı, İraq, İran, Küveyt və Birləşmiş Ərəb Əmirlikləridir.

***Mərkəzi və Cənub-Şərqi Asiya*** – qitəsində əsas neft və qaz ehtiyatları Çin, İndoneziya, Malayziya, Bruney, Hindistan və Vyetnam ölkələrindədir.

***Avstraliya*** qitəsində neft ehtiyatları, əsasən, onun cənub hissəsində yerləşir. Avstraliyadakı ən böyük neft yatağı Kinqfisdir və onun ehtiyatlarının həcmi 300 mln. ton təşkil edir.

***Afrika*** – qitəsində müəyyən olunmuş neft və qaz ehtiyatlarının böyük hissəsi üç dövlətin: Liviya, Nigeriya və Əlcəzairin payına düşür. Afrikada neft ehtiyatları nisbətən az olan ölkə Misirdir. Burada neft və qaz ehtiyatlarının həcmi 600 mln. tona yaxındır. Mərakeşdə, Qabonda, Anqolada, Konqoda, Tunisdə və digər Afrika ölkələrində perspektivli neft və qaz ehtiyatlarının kəşf olunmasına baxmayaraq, bu ölkələrdə neft hasilatı ildə cəmi 15 mln. tondur.

Qitələr və regionlar üzrə neft hasilatının 60%-dən çoxu Yaxın və Orta Şərqin payına düşür. Bu göstərici Mərkəzi və Cənubi Amerikada 12,5%, Şərqi Avropada 6,6%, Afrikada 6,7%, Asiyanın qalan hissəsində isə 5,0%-dir. Qərbi Avropa və Şimali Amerikada neft ehtiyatlarının xüsusi çəkisi birlikdə cəmi 5,0% təşkil edir.

Dünyada ən çox neft hasilatçıları Səudiyyə Ərəbistanı, ABŞ və Rusiya hesab edilir. Belə ki, Səudiyyə Ərəbistanında illik hasilat 422,9 mln. ton, ABŞ-da və Rusiyada 348,7 mln. ton təşkil edir. 2000-ci ilin məlumatına görə, dünyada hasil edilən neftin 12%-i Səudiyyə Ərəbistanın, 10,0%-i ABŞ-ın, 9,0%-i Rusiyanın, 5,0%-i İranın, 5,0%-i Çinin, 5,0%-i Venesuelanın, 5,0%-i Meksikanın, 4,0%-i Böyük Britaniyanın, 4,0%-i İraqın, 4,0%-i Norveçin və 37,0%-i isə digər ölkələrin payına düşür.

Hazırda dünya qaz ehtiyatı 149,9 trilyon kubmetr, hasilatı isə 2,4 trilyon kubmetrdir. Dünyada qaz ehtiyatına görə Rusiya birinci, İran isə ikinci yeri tutur. Ümumiyyətlə, «Oil and Gas Journal» mənbəyinə görə dünya neft və qaz ehtiyatlarına dair məlumatlar cədvəl 33-də verilmişdir.

*Cədvəl 33*

***1992-2001-ci illərdə dünyanın neft və qaz ehtiyatları***

| İllər | Neft ehtiyatları, milyard ton | OPEK üzrə neft ehtiyatları, mlrd. ton | Qaz ehtiyatları, trilyon kubmetr |
|---|---|---|---|
| 01.1992 | 135,75 | 105,40 | 123,99 |
| 01.1997 | 139,56 | 108,02 | 140,05 |
| 01.1998 | 139,66 | 109,19 | 144,05 |
| 01.1999 | 141,66 | 109,65 | 145,70 |
| 01.2000 | 139,18 | 109,93 | 145,74 |
| 01.2001 | 140,88 | 111,56 | 149,48 |

Yarım əsrə yaxındır ki, Yaxın Şərq dünyanın ən aparıcı neft istehsalçısı kimi məşhurdur. Burada çıxarılan neft-qaz resurslarının həcmi hələ əvvəllər də mövcud hasilatın dörddə bir hissəsinə bərabər olub. Enerji ehtiyatlarının zənginliyi Yaxın Şərqi dünya siyasətinin ən qaynar nöqtəsinə çevirib. Ən pessimist proqnozlar belə regionun bütün XXI əsr boyu öz potensialını qoruyub saxlayacağını, öndə gedəcəyini göstərir. Zəngin ehtiyatlar, ucuz hasilat, əlverişli coğrafi mövqe və nəqliyyat infrastrukturu regionu son dərəcə cəlbedici edir. Dünya iqtisadiyyatına sarsıdıcı zərbə vurmaq qüvvəsi olan OPEK-in əsas dayaqları da bu regionun ölkələrindədir. Məlumat üçün qeyd edək ki, dünya neft ehtiyatlarının 111,6 milyard tonu və ya 79,2%-i, qaz ehtiyatlarının 66,9 trilyon kubmetri və ya 44,7%-i, dünya neft istehsalının 407,8 milyon tonu və yaxud 42,0%-i və qaz istehsalının 3999,2 milyard kubmetri və ya 16,3%-i OPEK ölkələrinin payına düşür. Ona görə də biz dünya enerji balansının Yaxın Şərqdəki hadisələrlə əlaqəsini, öz təsərrüfatlarını neft amili üzərində qurmuş Yaxın Şərq ölkələrinin Xəzər hövzəsi regionu ilə, o cümlədən Azərbaycan Respublikası ilə rəqabət apardığını nəzərdən qaçırmamalıyıq.

Sovet hakimiyyətinin süqutundan sonra Xəzər hövzəsində zəngin karbohidrogen ehtiyatlarının aşkarlanması dünyanın neft-qaz balansında müəyyən dəyişikliklərə səbəb oldu. Bu ehtiyatların 25-30 milyard ton olduğu ehtimal edilir ki, bunun da 7 milyard tonu artıq kəşfiyyat təsdiqini tapmışdır. Ehtimal olunan neft ehtiyatının 3-3,5 milyard tonu, qazın isə 3 trilyon kubmetri



Azərbaycan Respublikasının payına düşür. Azərbaycanın neft ehtiyatları dünya neft ehtiyatlarının təqribən 2,5%-ni, qaz ehtiyatlarının isə 2,5%-ni təşkil edir. İraqın neft ehtiyatları isə dünya neft ehtiyatlarının 10,9%-ni (15,4 milyard ton), qaz ehtiyatları isə 2,1%-ni (3,1 trilyon kubmetr) təşkil edir. Beləliklə, İraqın neft ehtiyatları Azərbaycan Respublikasının neft ehtiyatlarından 4 dəfə artıqdır. Azərbaycan, Qazaxıstan və Türkmənistanın ehtimal olunan neft ehtiyatları birlikdə dünya neft ehtiyatlarının 8,5%-ni təşkil edir.

İstehsala gəldikdə, proqnozlarda göstərilir ki, 2010-15-ci illərdə dünya neft istehsalının 6 – 7%-i Xəzər bölgəsinin payına düşəcəkdir. 2001-ci ildə isə Xəzər hövzəsində neft çıxaran Azərbaycan, Qazaxıstan və Türkmənistanın ümumi neft istehsalı 53,5 milyon ton, qaz istehsalı isə 51,9 milyard kubmetr olub. Bu isə dünya neft istehsalının 1,6%-i, qaz istehsalının 2,1%-idir. Azərbaycanı ayrıca götürdükdə isə neft hasilatı 14,9 milyon ton, qaz istehsalı isə 5,5 milyard kubmetr olub ki, bu da dünya neft istehsalının 0,4%-i, qaz istehsalının isə 0,2%-idir.

Hazırda Cənubi Xəzər regionu neft və qaz yataqlarının axtarışı, kəşfiyyatı və istismarı baxımından dünyanın ən çox diqqəti cəlb edən regionlarındandır. Uzun illər burada geniş miqyaslı geoloji-geofiziki tədqiqat işləri aparılaraq, çoxlu neft və qaz yatağı aşkar edilmiş və perspektiv strukturlar müəyyənləşdirilmişdir. Həmin yataqlardan indiyə kimi böyük həcmdə neft və qaz hasil olunub, fəqət çıxarılmamış ehtiyatların da kifayət qədər yerin dərin qatlarında qaldığı güman edilir. Bütün bu ehtiyatlar yalnız aşkar olunmuş yataqların göstəriciləri əsasında və istismar oluna bilən dərinlik intervalı hüdudunda müəyyənləşdirilmişdir. Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Geofizika və Mühəndis Geologiyası İstehsalat Birliyinin mütəxəssislərinin fikrincə, Azərbaycan Respublikasının neft potensialı deyilənlərdən daha çoxdur. Xəzər dənizinin karbohidrogen resurslarının həcmi haqqında məlumatlar cədvəl 34-də verilmişdir.

Son 10-15 ildə respublikamızın elmi-tədqiqat müəssisələri tərəfindən həm quru, həm də Xəzər dənizinin Azərbaycan sektorunda ölkəmizin neft ehtiyatları bir neçə dəfə qiymətləndirilmişdir. Çox təəssüf ki, bu barədə müxtəlif fikirlər söylənilmişdir, çünki hesablama aparılan zaman bir sıra amillər elmi cəhət-

Cədvəl 34

**Xəzər dənizinin karbohidrogen resursları, milyard ton**

| Milli sektorlar | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | Kontinental | Dəniz |
| Rusiya | 17,0 | 12,0 | 5,0 |
| Qazaxıstan | 28,0 | 11,0 | 17,0 |
| Azərbaycan | 27,0 | 9,0 | 18,0 |
| Türkmənistan | 11,0 | 4,0 | 7,0 |
| İran | 7,0 | 2,0 | 5,0 |
| CƏMİ | 90,0 | 38,0 | 52,0 |

dən əsaslandırılmamışdır. Məlum olduğu kimi, indiyədək aparılan axtarış və kəşfiyyat işləri yalnız antiklinal tip strukturlarda həyata keçirilmişdir və bu strukturlarla əlaqəli neft-qaz yataqlarından hasil olunan məhsul dövrün tələblərini kifayət qədər ödəmişdir. Son illər axtarış və kəşfiyyat metodlarının və yeni inteqrasiya üsullarının yaranması daha optimal sayılan qeyri-antiklinal və digər formalı neft-qaz yataqlarının kəşfinə şərait yaratmışdır. Hazırda Azərbaycan Respublikasının ərazisində perspektivli hesab edilən zəngin qeyri-antiklinal tip strukturların mövcudluğu inandırıcı şəkildə yenidən dəqiqləşdirilir. Son zamanlar bu istiqamətdə geniş miqyaslı elmi-tədqiqat və praktiki işlər aparılır. Artıq yeni yanaşma metod və üsulları ilə Cənubi Xəzər regionunun öyrənilməsi aktual bir problem kimi elmi-tədqiqatçıların diqqət mərkəzindədir. ABŞ-in Enerji İnformasiyaları İdarəsinin proqnozlarına görə, Xəzərsahili region ölkələrinin ümumilikdə ehtiyatları haqqında proqnozların nəticələri cədvəl 35-də verilmişdir.

Azərbaycan Respublikasının ərazisinin əvvəllər neftlilik-qazlılıq cəhətdən rayonlaşdırılması bir çox variantda aparılsa da, son illər əldə olunan yeni geoloji və geofiziki məlumatlar bu xəritənin yenidən işlənib hazırlanmasını zəruri etmişdir. Bütün bunları nəzərə alaraq bir qrup Azərbaycan alimi – K.Kərimov, Ə.Hüseynov, F.Hacıyev, İ.Həsənov, N.Əliyev, Ş.Köçərli, N.Hüseynov və M.Zeynalov respublikanın neftli-qazlı ərazisinin 1:500000 miqyaslı xəritəsini tərtib etmişdir.

Tektonik rayonlaşma xəritəsində struktur elementlər öz ölçülərinə, o cümlədən əhatə dərinliyinə və mənşəyinə görə təsnif



Cədvəl 35

**Xəzərsahili region ölkələrinin ümumilikdə neft-qaz ehtiyatları**

| Resurslar | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | Mümkün resurslar | Təsdiq olunmuş ehtiyatlar |
| Neft, mlrd. barel | 176,2-189,7 | 15,2-28,7 | 161,0 |
| Qaz, tril. kubmetr | 455,0-542,0 | 162-249,0 | 293,0 |
| Yanacaq-enerji resursları, mlrd. ton | 34,2-36,9 | 3,0-5,7 | 31,2 |

olunmuşdur. Həmin xəritədə neftlilik-qazlılıq cəhətdən böyük maraq doğuran Kür-Cənubi Xəzər meqaçökəkliyi, Quba-Şimali Abşeron ön çökəkliyi, Skif-Turan epihersin platformasının cənub-qərb hissəsi, Cənubi Azərbaycan mikrokontinentinin şimal hissəsi, Təngi-Beşbarmaq-Şimali Qobustan-Şimali Abşeron qalxım zonası və s. fərqləndirilmiş, 639-dan çox perspektivli lokal struktur qeydə alınmışdır. Bu xəritədə Azərbaycan Respublikasının ərazisinin geoloji-tektonik strukturu və neftlilik-qazlılıq perspektivi haqqında müasir konsepsiyalara tamamilə uyğun olan elmi cəhətdən dəqiq əsaslandırılmış məlumatlar öz əksini tapmışdır.

Aparılmış geoloji və geofiziki elmi-tədqiqat işləri nəticəsində çoxsaylı, zəngin informasiyalı və müxtəlif miqyaslı xəritələr işlənib hazırlansa da, son illər əldə edilmiş yeni məlumatlar və litosfer qatı haqqında yeni modelləşdirmə işləri onların yenidən işlənməsi zərurətini yaradır. Bu istiqamətdə elmi-tədqiqat və praktik əhəmiyyəti olan çox dəyərli işlər görülmüş, ümumi qalınlığı 25 km-dən artıq olan çökmə qatın ayrı-ayrı çökəkliyi kompleksinin struktur xəritələri tərtib edilmiş, müxtəlif istiqamətli kəsilişlərdə neftlilik-qazlılıq perspektivi müəyyənləşdirilmişdir.

Elmi-tədqiqatlar gələcəkdə neft və qaz yataqlarının axtarışı və kəşfiyyatında əsas diqqəti antiklinal tip strukturlarla yanaşı, qeyri-antiklinal və digər tip strukturların öyrənilməsinə yönəl-

tməyin daha faydalı olduğunu əsaslandırmışdır. Bu istiqamətdə aparılan işlərdə ən müasir planlama metod və üsullarından istifadə olunması tövsiyə edilmişdir. Eyni zamanda, işlənməkdə olan yataqlarda müxtəlif texniki və texnoloji səbəblərdən istismardan yayınmış neftli-qazlı obyektlərin aşkar olunması istiqamətində araşdırmalar aparılmışdır. Son illər nəzərdən yayınma hallarını yaradan səbəblərdən biri kimi tərəfimizdən geodinamik-tektonik gərginliyin təsirindən geofiziki sahələrin anomal dəyişmələri ətraflı öyrənilmişdir. Nəticədə bu effektin geofiziki məlumatların təhlilində nəzərə alınmaması üzündən bir çox hallarda neftli-qazlı obyektlərin düzgün təyin olunmadığı müəyyənləşdirilmişdir. Belə obyektləri aşkar etməyin metodikası işlənib hazırlanmış və qalıq neftin çıxarılmasında onun tətbiqi məqsədəuyğun hesab edilmişdir.

Karbohidrogen ehtiyatlarının zənginliyinə görə Azərbaycanın adı yenə də neft hasil edən ölkələr arasında birincilər sırasında çəkilir. İndiyə kimi aşkar olunmuş yataqların neft-qaz ehtiyatları çox böyük rəqəmlərlə göstərilir və son vaxtlar qazılan neft quyuları bu ehtimalların doğruluğunu təsdiqləyir. Məlum strukturlar üzrə aparılmış hesablamalara görə, Azərbaycanın quru və dəniz sahələrində hasil edilə bilən karbohidrogen ehtiyatlarının 8 milyard ton neft və 10 trilyon kubmetr qaz olduğu göstərilir. Mütəxəssislərin fikrincə, bu da son hədd deyildir. Bu ehtiyatlar təqribən 7 km dərinlikdə aşkar olunmuş və perspektivliyi təsdiqlənmiş strukturlar əsasında hesablanmışdır. İndiyə kimi Azərbaycanda aparılan geofiziki və geokimyəvi metodlarla axtarış və kəşfiyyat işləri, demək olar ki, yalnız antiklinal tip strukturların aşkar olunmasına yönəldilmişdir və çox zəngin neft ehtiyatları olan yataqlar aşkar olunduğundan bu cür metodik yanaşma neft tədqiqatçılarını qane etmişdir. Son zamanlar yanacaq-enerji resurslarına tələbat artdığından başqa tip – qeyri-antiklinal strukturlarla əlaqəli yataqların axtarışına başlanılmışdır. Məlumat üçün qeyd edək ki, dünyanın digər regionlarında, əsasən də Amerikada çıxarılan neftin çox hissəsini belə yataqlardan hasil edilən neft təşkil edir. Azərbaycanda da belə yataqların olması ehtimalı çox böyükdür və aparılan geofiziki tədqiqatların nəticələri bunu təsdiq edir. Beləliklə, göstərilən neft-qaz ehtiyatlarının yaxın gələcəkdə daha da artacağı gözlənilir.



Qeyd edilən qeyri-antiklinal tip strukturların öyrənilməsində müəyyən xarakterik cəhətlər var. Belə ki, qeyri-antiklinal tip strukturların öyrənilməsində metodik yanaşma və materialların təhlili üsulları fərqlənir. Bu cür metodik yanaşmada əldə edilən geofiziki məlumatların geoloji yozumu müasir texnika və texnologiya ilə aparılmalıdır. Belə texnologiya isə Azərbaycana indi-indi gətirilir və yaxın gələcəkdə bu sahədə də, şübhəsiz, müəyyən nailiyyətlər əldə ediləcəkdir. Hazırda Azərbaycanla əlaqə quran xarici neft şirkətləri aşkar olunmuş və perspektivliyi yüksək olan yataqlarda tədqiqat və istismar işləri aparırlar. Sözsüz həmin neft şirkətləri bu yataqlardan gəlir əldə etdikdən sonra öz tədqiqat dairəsini genişləndirəcək və yeni tip strukturların istismara verilməsində maraqlı olacaqlar. Bütün bunlar yaxın gələcəyin işləridir.

Məlumdur ki, Azərbaycan ərazisi həmişə geodinamik və seysmoaktiv zona olduğundan, bu regionda baş verən geodinamik-tektonik proseslər qeyri-antiklinal tip strukturların yaranmasına səbəb olmuşdur. Dünyanın başqa regionlarında kəşf edilmiş və yataq kimi istismar olunan qeyri-antiklinal strukturlu yataqların bizim regionda da formalaşma ehtimalı çox yüksəkdir. Ona görə də bu tip strukturların axtarışı və kəşfiyyatı məqsədəuyğun hesab edilməlidir. Hazırda indiyə kimi məlum olmayan formada yataqların da mövcudluğu müəyyənləşdirilir. Azərbaycanda bu istiqamətdə də elmi-tədqiqat işləri aparılmağa başlanmışdır.

İstismar olunan neft yataqlarında qalıq nefti iki səbəbdən nəzərdən yayınır: birincisi, istismar texnologiyasının zəifliyi; ikincisi, neftli-qazlı obyektlərin tədqiqat zamanı düzgün qiymətləndirilməməsi. Hər iki istiqamətdə elmi-tədqiqat işləri aparılır. Aparılan elmi-tədqiqat işləri əvvəllərdə istismarda olan yataqların neftli-qazlılığının qiymətləndirilməsi prosesində nəzərdən yayınmış və düzgün qiymətləndirilməmiş məhsuldar obyektlərin aşkar olunmasına yönəldilmişdir. Belə obyektlərin nəzərdən yayınmasına bəzi amillər səbəb olmuşdur. Biz bunlardan birini – seysmogeodinamik amilin aktivləşmə dövrlərində qazılmış quyuların mədən geofiziki məlumatlarında yaratdığı dəyişmələri öyrənirik. Son illərə qədər regionda baş verən geodinamik aktiv proseslərin təsirindən yaranan seysmogeodinamik

amillərin geofiziki sahələrə təsiri öyrənilməmişdir. Yataqların istismarı dövründə seysmogeodinamik aktiv və sakit vaxtlarda qazılmış quyuların geofiziki materialları eyni qaydada təhlil olunmuş və kəsilişlərin neftlilik-qazlılığının qiymətləndirilməsində zaman və məkan etibarilə mühitdə baş verən dəyişmələr nəzərə alınmamışdır.

Son 20 ildə aparılan elmi-tədqiqat işləri göstərir ki, geodinamik-tektonik proseslərin təsirindən aktivləşmə zamanı neftli-qazlı kəsilişlərdə geofiziki sahələr 20-30%, bəzən daha çox dəyişir. Belə dəyişmələr aktivləşmə zamanı qazılmış quyuların geofiziki göstəricilərinə təsir edir və nəticədə bu amillər nəzərə alınmadıqda neftli-qazlı obyektlər səhvən sulu kimi qiymətləndirilir. 1992-ci ildən başlayaraq, qeyd etdiyimiz amilləri geodinamik-tektonik gərginliyin təsirindən nəzərdən yayınmış neftli-qazlı obyektlərin aşkar olunması istiqamətində Aşağı Kür çökəkliyinin yataqlarında yeni metodika əsasında tədqiqat işləri aparılır. Bu yataqların 1960-cı illərdən istismarda olduğunu nəzərə alaraq, seysmik aktivləşmə dövrləri müəyyənləşdirilmiş və həmin müddətlərdə qazılmış quyuların geofiziki materialları yeni metodik yanaşma ilə təhlil olunmuşdur. Nəticədə 100-ə yaxın nəzərdən yayınmış neftli-qazlı məhsuldar obyektlər aşkar edilmiş və istismara təklif olunmuşdur. Aşkar edilmiş obyektlərin orta hesabla gündəlik hasilatı 15-20 tondur. Elə bu faktın özü aparılan elmi-tədqiqat işlərinin çox böyük iqtisadi səmərə verdiyini bir daha sübut edir. Biz bu istiqamətdə elmi-tədqiqat işlərini gələcəkdə Abşeron yarımadası və dənizdəki yataqlarda da aparmağı nəzərdə tuturuq.

Məlumdur ki, Azərbaycanda müasir dövrdə texnoloji baxımdan yalnız 7 km dərinliyə kimi istismar işləri aparılır. Yəqin ki, yaxın gələcəkdə daha dərin qatlardakı yataqların istismarı mümkün olacaqdır. Bütün bunları nəzərə alaraq, biz geofiziki metodlarla Cənubi Xəzər meqaçökəkliyinin dərinlik strukturunu bünövrə səthinə kimi öyrənməyə cəhd edirik. Çökmə kompleksinin anomal termobarik şəraiti öyrənilməklə regionda dərin qatlarda karbohidrogenlərin əmələgəlmə və miqrasiya prosesinin qanunauyğunluqları dəqiqləşdirilir. Aparılan elmi-tədqiqat işlərinin nəticələri dərin qatlarda (təqribən 10 km-ə kimi) karbohidrogen yataqlarının olması ehtimalını söyləməyə əsas verir. Bu istiqamətdə başqa institutlarda da geniş elmi-tədqiqat işləri aparılır və ilkin nəticələr söylənilərkən proqnozların çox inandırıcı olduğunu göstərir.



Neft-qazçıxarma kompleksinin iqtisadi inkişaf modeli monoqrafiyasında iqtisadçı alim E.M.Hacızadənin hesablamalarına görə quruda hələ çoxlu neft və qaz ehtiyatları var. Onun hesablamalarına görə, 2005-75-ci illərdə Quruda Neft-Qazçıxarma İstehsalat Birliyində neft və qaz istehsalında hasilat tempinin və istismar müddətinin mərhələli təsnifatda proqnozu cədvəl 36-da verilmişdir.

*Cədvəl 36*

***2005-2075-ci illərdə Quruda Neft-Qazçıxarma İstehsal Birliyində neft və qaz hasilatında hasilat tempinin və istismar müddətinin mərhələli təsnifatda proqnozu***

| İllər | Müddət | Neft, mln. ton | | | Qaz, mln. kubmetr | | |
|---|---|---|---|---|---|---|---|
| | | Orta illik artım-eniş | Orta illik hasilat | Kommulyativ hasilat | Orta illik artım-eniş | Orta illik hasilat | Kommulyativ hasilat |
| 2005-2020 | 15 | +10% | 3,5 | 52,5 | +10-12% | 0,8 | 12000 |
| 2020-2040 | 20 | sabit | 6,0 | 120,0 | sabit | 1,4 | 28000 |
| 2040-2060 | 20 | -2% | 5,0 | 100,0 | -3-4% | 1,0 | 20000 |
| 2060-2075 | 15 | -2-3% | 3,8 | 57,5 | -5-6% | 0,7 | 10000 |

Keçən əsrin sonunda dünya bazarında xam neftin qiymətinin aşağı düşməsi nəticəsində Azərbaycan iqtisadiyyatına ciddi ziyan dəymişdir. Zəngin qaz ehtiyatları aşkar ediləndən sonra əsas diqqətini ölkə iqtisadiyyatının yalnız neft-qaz sektoruna yönəldən Niderlandın «Holland sindromu» adını almış acı təcrübəsi də çoxlarına məlumdur. Fəqət Norveç və Kanada böyük neft-qaz ehtiyatlarına malik olsalar da, bu ölkələrin iqtisadiyyatında neft amili aparıcı rol oynamır. Dünyanın bir çox inkişaf etmiş ölkələrində isə böyük neft ehtiyatları yoxdur. Lakin bu ölkələr hər il milyonlarla ton xam neft idxal edərək həm daxili ehtiy-

aclarını ödəyir, həm də həmin neftdən daha dəyərli, çeşidli məhsullar hazırlayıb xarici bazarlarda satır və bundan xeyli gəlir əldə edirlər.

Elə dövlətlər də var ki, onlar külli miqdarda neft ehtiyatlarına malik olsalar da, yüksək iqtisadi nəticələr əldə edə bilmirlər. Hətta OPEK-in üzvü olan bəzi ölkələr səmərəli maliyyə sistemi və optimal iqtisadi mexanizm yarada bilmədiklərindən hələ də Avropa və ABŞ-dan investisiya asılılığındadırlar. Məsələn, zəngin neft-qaz ehtiyatlarına malik olan Venesuela, Meksika, İndoneziya və Nigeriya kimi ölkələr mühüm iqtisadi göstərici olan ÜDM və ÜDM-in adambaşına düşən payına görə Qərbi Avropanın kiçik dövlətləri olan neftsiz və qazsız Lüksemburq və İslandiyadan bir neçə dəfə geri qalır.

Belə bir vəziyyət müasir mərhələdə Azərbaycana da xasdır və bu proses davamlı ola bilər. 130 ildən artıq müddətdə sənaye üsulu ilə neft hasil etdiyimizə baxmayaraq, ölkəmizin iqtisadiyyatı və normal inkişafı əsaslı dərəcədə neft amilinə söykənməkdədir. Bu aşkar həqiqət və çoxillik təcrübə bizi daha real olmağa səfərbər etməlidir. Digər tərəfdən, ekspertlər hesablayırlar ki, dünyada neftə olan tələbat növbəti 20 il ərzində ildə 32% artacaq. 2010-cu ildə neftə olan gündəlik tələbat indikindən 1,3 dəfə artıq olacaq. Bu isə son bir neçə ildə təkcə MDB məkanında, o cümlədən Azərbaycanda istismar edilən yataqların sürətindən xeyli azdır.

Dünya neft bazarında təklif tələbata nisbətən daha sürətlə artır. Bu fakta gələcəkdə yeni yataqların aşkar edilməsi ehtimalını və yaxud neft və neft məhsullarını əvəz edə bilən maddələrin aşkar edilməsini də (məsələn, benzinə alternativ olan etil spirtinə çəkilən xərclər azaldılarsa, o, neft məhsulları ilə ciddi rəqabətə girə bilər) əlavə etsək, onda Azərbaycanın öz iqtisadiyyatını yalnız neft amili üzərində qurmamasının labüdlüyü daha aydın olar. Məlumdur ki, neft və qaz tükənən resurslara aiddir. Dünyanın bəzi ölkələri üzrə indiki templə neft və qaz hasil edilərsə, onların tükənmə müddətləri aşağıdakı kimi ola bilər (cədvəl 37).



*Cədvəl 37*

***Dünyanın bəzi ölkələri üzrə neft və qazın tükənmə müddətləri***

| Ölkələr | Ehtiyatlar, mln. ton | Dünyada payı, % | Tükənmə müddətləri, il |
|---|---|---|---|
| Səudiyyə Ərəbistanı | 35782,2 | 26,97 | 85 |
| İraq | 13698,6 | 10,32 | 129 |
| Küveyt | 13220,2 | 9,96 | 128 |
| İran | 12082,2 | 9,11 | 67 |
| Azərbaycan | | | 67 |
| Rusiya | 6605,8 | 5,09 | 20 |

### 3.3. Azərbaycanın iqtisadi müstəqilliyi və neft strategiyası

1994-cü il sentyabrın 20-də «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və neft hasilatının pay bölgüsü haqqında» Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın tanınmış neft şirkətləri arasında sonralar tarixə «Əsrin müqaviləsi» kimi düşən böyük saziş imzalandı. Bu saziş mərhum Prezidentimiz Heydər Əliyevin neft strategiyasının və ümumiyyətlə, Azərbaycan iqtisadiyyatının hərəkətverici qüvvəsi oldu. Bütün böyük işlər kimi, təbii ki, bu saziş də asan başa gəlməmişdir, yəni daşlı-kəsəkli yollardan keçmişdir.

1993-cü ilin yazında ümummilli liderimiz Heydər Əliyev xalqın təkidi ilə hakimiyyətə qayıdanda Azərbaycanda, sözün əsl mənasında, xaos hökm sürürdü. Müstəqilliyimiz böyük təhlükə qarşısında idi. İş o yerə çatmışdı ki, müstəqilliyə, müstəqil dövlətçiliyə qarşı bir biganəlik yaranırdı. Siyasi sahədə çox ağır böhran yaşanırdı, iqtisadiyyat dağılırdı, mənəviyyat pozulurdu. Vəziyyət, demək olardı ki, çıxılmaz idi. Bəzi xarici ölkələrin xüsusi xidmət orqanlarında artıq planlar cızılır, Azərbaycanın üç yerə bölünməsi və hər hissənin bir dövlətə verilməsi məsələsi müzakirə olunurdu. Belə ağır bir zamanda, xalqın varlığı tapdalananda ziyalılar irəli düşdü, xalqın ümummilli liderinə – Heydər Əliyevə müraciət etdi, onu xalqı, ölkəni, dövləti xilas et-

məyə dəvət etdi. O, ziyalıların təklifini böyük məmnuniyyətlə qəbul etdi və Azərbaycan xalqının harayına yetdi. Ölkədə əmin-amanlıq, sabaha inam yarandı. Artıq iqtisadiyyatı bərpa etmək vaxtı gəlib çatmışdır və bu məqsədlə bir sıra əməli təşkilati-texniki tədbirlər həyata keçirilməyə başlandı. Bu tədbirlərdən biri də yeni neft strategiyasının işlənib hazırlanması idi.

Həmin dövrdə neft strategiyası ilə əlaqədar fikir ayrılığı mövcud idi. Bir qrup iqtisadçılar xarici neft şirkətləri ilə bir böyük saziş imzalamağı və gözləməyi təklif edirdilər. Sonra bu sazişdən mənfəət əldə olunmalı və bunun hesabına ARDNŞ perspektivli strukturları özü işləməli idi. Amma digər qrup iqtisadçılar – mütəxəssislər bu fikirlə razı deyildilər. Onlar hesab edirdilər ki, perspektivli strukturların işlənməsi çox bahalı və riskli işdir, gənc müstəqil dövlət bu işin öhdəsindən gələ bilməz. Odur ki, bir-iki sazişlə kifayətlənməməyi, bu praktikanı genişləndirməyi, Azərbaycanın bütün perspektivli strukturlarının xarici şirkətlərlə müştərək işləməsini təklif edirdilər. Doğrudur, burada mənfəət azalırdı, amma risk də azalırdı. Heydər Əliyev Azərbaycan neftçiləri ikinci qrup iqtisadçılarının fikrini dəstəklədi, onların fikrini qəbul etdi.

Beləliklə, 1994-cü ilin sentyabrın 20-də ARDNŞ-lə dünyanın aparıcı neft şirkətləri arasında birinci müqavilə imzalandı. Xalqımızın ümummilli lideri Heydər Əliyevin rəhbərliyi altında hazırlanmış, beynəlxalq aləmdə yüksək qiymətləndirilərək «Əsrin müqaviləsi» adını qazanmış bu saziş qanun qüvvəsinə minərək, müasir Azərbaycanın tarixinə qızıl hərflərlə həkk olundu və Heydər Əliyevin neft strategiyasının şanlı səhifəsini açdı.

Deməli, Azərbaycan Xəzəryanı dövlət olaraq ilk dəfə Qərbin böyük neft şirkətləri ilə saziş imzalamaqla, ümumiyyətlə, Xəzər regionunda beynəlxalq əməkdaşlığın əsasını qoydu. Bununla da Prezident Heydər Əliyev öz ölkəsinin – Azərbaycanın bütün dünyada təsdiq olunmasına – sivil ölkə kimi qəbul olunmasına nail oldu. Transmilli şirkətlərin Azərbaycana gəlməsi yalnız sərmayə axını demək deyildi, bu, həm də dünyanın Azərbaycana inamı demək idi. Hamıya aydın idi ki, əmin-amanlığın olmadığı, qanunvericilik bazasının yaradılmadığı, işləmədiyi bir ölkəyə xarici şirkətlər, xarici sərmayələr gələ bilməz. Deməli, Azərbaycanda bütün bunlar vardı, ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə yaradılmışdı və qorunurdu.



«Əsrin müqaviləsi», sözün əsl mənasında, indiyə qədər imzalanmış 26 neft müqaviləsinə yol açdı və beynəlxalq sərmayələrin Azərbaycana gəlməsinə təkan verdi. Bu müqavilələr çərçivəsində görülən müştərək işlər ölkəmizə mütərəqqi texnologiyaların və qabaqcıl idarəetmə üsullarının gətirilməsi, neft sənayesinin infrastrukturlarının yenidən qurulması, nəqliyyat və xidmət sahələrinin inkişafı, yüksək peşəkarlığa malik kadrların hazırlanması və minlərlə yeni iş yerlərinin açılması üçün geniş imkanlar yaratmışdır. Hazırda Azərbaycan regionda həyata keçirilən bütün qlobal iqtisadi layihələrin ən fəal iştirakçılarından biridir. İqtisadiyyata yatırılmış xarici sərmayələrin adambaşına düşən həcminə görə Azərbaycan MDB və Şərqi Avropa ölkələri arasında qabaqcıl yerlərdən birini tutur. Belə ki, son 11 ildə ölkə iqtisadiyyatına bütün maliyyə mənbələri hesabına 17,9 milyard ABŞ dollarından çox sərmayə yönəldilmişdir. 2004-cü ildə sərmayələrin həcmi 4056,3 mln. dollar təşkil etmişdir ki, bunun da 81,2 mln. dolları maliyyə krediti, 3650,4 mln. dolları neft sektoruna və 324,7 mln. dolları isə müştərək müəssisələrə yönəldilmişdir. 1995-2005-ci illərdə xarici investisiyaların həcmi haqqında məlumatlar cədvəl 38-də verilmişdir.

*Cədvəl 38*

***Ölkə iqtisadiyyatına xarici investisiyaların həcmi, mln. ABŞ dolları***

| İllər | Cəmi | Maliyyə krediti | Neft sektoruna | Müştərək müəssisələrə |
|---|---|---|---|---|
| 1995 | 375,1 | 220,4 | 139,8 | 14,9 |
| 2000 | 927,0 | 262,9 | 546,1 | 118,0 |
| 2001 | 1091,8 | 192,0 | 820,5 | 79,3 |
| 2002 | 2234,9 | 223,0 | 1693,0 | 318,9 |
| 2003 | 3786,3 | 213,0 | 2810,2 | 45,4 |
| 2004 | 4575,5 | 293,0 | 4088,1 | 104,2 |
| 2005 | 4444,3 | 281,8 | 4074,4 | 87,1 |

Bu əməliyyatların ölkəmizdə bundan sonra da yaxşılaşdırılması məqsədilə qanunvericilik bazasının daha da təkmilləşdirilməsi, qeyri-neft sektorunun, regionlarımızın inkişafı sahəsində kompleks işlər görülür. Proqnoz hesablamalarına görə, 2004-

2008-ci illərdə Azərbaycan iqtisadiyyatına yönəldiləcək sərmayələrin həcmi artmaqda davam edəcəkdir. Bu illər ərzində bütün maliyyə mənbələri hesabına 16,9 milyard ABŞ dollarından çox, o cümlədən daxili mənbələr hesabına 5,7 milyard ABŞ dolları, xarici mənbələr hesabına isə 11,2 milyard ABŞ dolları həcmində sərmayə cəlb olunacaqdır.

Heydər Əliyevin müəllifi olduğu «Əsrin müqaviləsi»nin xalqımıza, dövlətimizə ən böyük xidmətlərindən biri də Azərbaycan ətrafında, sözün əsl mənasında, təhlükəsizlik zolağının yaradılmasıdır. «Əsrin müqaviləsi»nin reallaşması Azərbaycana yalnız neft sahəsində indiyədək 7 milyard ABŞ dollarından artıq sərmayə qoyuluşunu təmin etmişdir. Bu sərmayələrin böyük bir hissəsi də xarici neft şirkətləri tərəfindən qoyulmuşdur. Məlum olduğu kimi, bu şirkətlər sərmayə qoymağa qadir olduqları qədər də onları qorumağa qadirdirlər, yəni bundan sonra Azərbaycana qarşı hər hansı təhlükə, həm də bu şirkətlərin sərmayələrinə qarşı olan təhlükədir. Odur ki, transmilli neft şirkətlərinin sərmayələrinin obyekti kimi Azərbaycan da qorunur və təhlükəsizliyi təmin olunur.

Son 11 ildə Azərbaycanda ümumi neft hasilatı artmaqdadır. Belə ki, neft hasilatının səviyyəsi 1995-ci ildən 2005-ci ilə qədər olan dövrdə 9,2 mln. tondan təqribən 20 mln. tonadək qalxmışdır.

«Azəri», «Çıraq» və «Günəşli» yataqlarının ilkin neft layihəsi «Mərhələ-1» və «Mərhələ-2» üzrə mühüm işlər görülmüşdür. İlkin neft və qazın sahilə nəqli üçün sualtı boru kəmərləri çəkilmiş, Səngəçalda müasir terminal kompleksi inşa edilmiş, «Mərhələ-3» üzrə hazırlıq işlərinə başlanılmışdır. Azərbaycanın «Əsrin müqaviləsi» üzrə əsası qoyulan neft sənayesinin inkişafı yeni neft ixrac kəmərlərinin inşası üçün şərait yaratmışdır. Azərbaycan neftinin dünya bazarlarına nəqlini təmin etmək üçün şimal – «Bakı-Novorossiysk» kəməri bərpa olunmuş və qərb – «Bakı-Supsa» kəməri istifadəyə verilmişdir. Bu kəmərlər Azərbaycan neftinin artan nəqlini təmin etmədiyindən əsrin ən böyük layihəsinin «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin inşasına başlanmış və hazırda bu tam başa çatdırılaraq xam neftlə doldurulur. Artıq 2005-ci ilin sonundan başlayıraq Azərbaycanın xam nefti Ceyhan terminalından tankerlər vasitəsi ilə dünya bazarlarına çıxarılmaqdadır.



Hazırda «Bakı-Tbilisi-Ceyhan» boru kəməri ilə yanaşı, «Bakı-Tbilisi-Ərzurum» qaz kəmərinin tikintisi də uğurla həyata keçirilir. Qaz boru kəməri Azərbaycanın nəhəng «Şahdəniz» qaz-kondensat yatağının məhsulunu Türkiyəyə, oradan da Yunanıstan vasitəsilə Qərbi Avropaya çatdıracaq.

Beləliklə, «Əsrin müqaviləsi» ilə əsası qoyulan neft-qaz müqavilələri üzrə aparılan işlər artıq həm keyfiyyətcə, həm də kəmiyyətcə yeni mərhələyə qədəm qoymuşdur. Məlumat üçün qeyd edək ki, dünya bazarında neftin qiymətinin artması ən böyük vergi ödəyicisi olan ARDNŞ-in mənfəət vergisinin də həcmi artır. Bunu cədvəl 39-da verilmiş rəqəmlər də sübut edir.

*Cədvəl 39*

***1996-2002-ci illərdə dövlət büdcəsinə vergi daxilolmalarında ARDNŞ-in payı, %***

| İllər | Vergidaxilolmalarının məbləği, mlrd. manat | Ümumi daxilolmada payı, % |
|---|---|---|
| 1996 | 757,2 | 46,0 |
| 1997 | 1064,8 | 50,8 |
| 1998 | 608,8 | 35,8 |
| 1999 | 724,9 | 37,4 |
| 2000 | 1055,8 | 41,4 |
| 2001 | 1338,5 | 46,2 |
| 2002 | 1660,1 | 48,8 |

Beləliklə, faktiki materiallardan istifadə edərək, neft strategiyasının Azərbaycan iqtisadiyyatının inkişafındakı rolunu müəyyənləşdirdik. İndi isə iqtisadi müstəqilliyin mahiyyətindən və Azərbaycanda qurulacaq iqtisadiyyatın prinsiplərindən bəhs edək. Çünki millətin-dövlətin müstəqillik qazanması haqqında yalnız o vaxt ciddi danışmaq olar ki, onun qurduğu dövlətin siyasi müstəqilliyi iqtisadi və mədəni-mənəvi müstəqilliklə tamamlansın. Sözsüz, dünyada tam və yaxud mütləq müstəqillik yoxdur, çünki həyatda hər şey nisbidir. İqtisadi müstəqillik o deməkdir ki:

– xalq-dövlət öz tarixi təcrübəsinə və mədəniyyətinə uyğun hesab etdiyi iqtisadi sistemi öz iradəsi ilə özü seçsin, yaratsın və

inkişaf etdirsin, iqtisadiyyatı idarə etməyin formasını və dövlət tərəfindən tənzimlənməsi üsullarını, iqtisadi tərəqqinin uzunmüddətli prioritet istiqamətini özü müəyyənləşdirsin. Təbii ki, bu zaman bəşəriyyətin topladığı bütün iqtisadi təcrübə nəzərə alınmalı, onun müsbət cəhətlərindən istifadə olunmalıdır. Lakin o, heç nədən asılı olmayaraq, vergi-büdcə, pul-kredit, struktur, gömrük, məşğulluq, investisiya siyasətini özü müstəqil şəkildə qurmalı və həyata keçirməlidir. O, iqtisadiyyatı tənzimləməyin bütün alətlərinə, vasitələrinə özü nəzarət etməli və onları digər dövlətlərin və dövlətlər birliyinin təsir dairəsinə verməməlidir. Beləliklə, iqtisadi müstəqillik odur ki, xalq-dövlətin ərazisindəki bütün təbii sərvətlər, kapitalın və iqtisadi potensialın əsas hissəsi onun özünə məxsus olsun. Məsələ təkcə qanunvericiliklə həmin varidatı mülkiyyətə çevirməkdə deyil, eyni zamanda onun məhz bu dövlətin bu günü və gələcəyi naminə səmərəli istifadə olunmasını real surətdə təmin etməkdən ibarətdir.

– xalq-dövlətin beynəlxalq səviyyədə tanınan pulu və bank sistemi olsun. Siyasi müstəqilliyin başqa dövlətlər tərəfindən tanınması olduğu kimi, iqtisadi müstəqilliyin də tanınması var. Doğrudur, o, bir dəfəyə qəbul edilən siyasi-hüquqi akt şəklində həyata keçirilmir. Dolayı yolla, məsələn, digər dövlətlərin bizim pulun kursunu rəsmən müəyyənləşdirmək və onların vətəndaşlarının da öz pullarını bizim pula sərbəst dəyişmək istəyi ilə ölçülür. Bunun üçün, dövlətin bəlli bir qızıl-valyuta ehtiyatı olmalıdır. Lakin ən mühümü də bu deyil. Ən mühüm olanı dövlətin iqtisadi öhdəliklərinə, o cümlədən maliyyə öhdəliklərinə başqalarını hörmətlə yanaşmağa sövq edən ümumi iqtisadi varidatı və daima yüksələn iqtisadiyyatıdır.

– iqtisadi müstəqillik həm də iqtisadiyyat üçün, onun keçmişi, bu günü və gələcəyi üçün məsuliyyət deməkdir, bu məsuliyyəti indidən biz özümüz daşımağa məhkumuq, yəni biz öz iqtisadi problem və çətinliklərimizin günahkarlarını kənarda axtara bilmərik, bizim nailiyyətlərimiz isə məhz bizim uğurlarımızdır.

– iqtisadi müstəqillik özü-özlüyündə dəyərdir, amma son və yeganə məqsəd deyil. O, öz mövcudluq haqqını bununla təsdiqləyir ki, onun münbit zəminində güclü və çiçəklənən iqtisadiyyat qurulsun. Məlumdur ki, iqtisadiyyatın çiçəklənməsi, inkişafı son nəticədə ictimai rifahın yüksəldilməsində, insanların sosial problemlərinin həllində və s. üzə çıxır. Əslində iqtisadiyyatın çiçəklənməsi və səmərəliliyi ilk baxışdan göründüyü qədər mücərrəd anlayış deyil. O, hər bir ailənin süfrəsində açıq-aydın görünməlidir. Lakin biz unutmamalıyıq ki, bu və ya digər inkişaf strategiyasının, iqtisadiyyatı bazar üsulları ilə tənzimləməyin bu və ya digər modifikasiyasının seçimi yalnız o vaxt həqiqətən uğurlu olur ki, tarixi inkişaf təcrübəsindəki, milli psixologiya və düşüncə tərzindəki daxili yaradıcı potensialdan istifadəyə əsaslanır.



Biz müstəqillik əldə etdikdən sonra elə iqtisadiyyat qurmaq istəyirik ki:

– o, mülkiyyət azadlığına, təsərrüfatçılıq formalarının rəngarəngliyinə və bərabərhüquqluluğuna əsaslansın. Lakin bu bərabərhüquqluluq çərçivəsində özəl mülkiyyət, həm də iqtisadiyyatdakı xüsusi çəkisi etibarilə aparıcı yer tutmalıdır. Elə etmək lazımdır ki, müəyyən bir müddətdən sonra, deyək ki, 10-15 ildən sonra bütün kapitalın təxminən 65-70%-i xüsusi olsun. Özəl şirkətlər, xüsusi səhmdar cəmiyyətlər, özəl milli kapitalın xarici kompaniyalarla birgə yaratdığı müştərək şirkətlər başlıca müəssisə formasına çevrilsin. Mütəxəssislər mülkiyyətin hüquqi və iqtisadi cəhətlərini fərqləndirirlər. Hər hansı bir müəssisənin (şirkətin, firmanın) formal surətdə kiminsə mülkiyyəti elan edilməsi hələ onu özəl müəssisəyə (şirkətə, firmaya) çevirmir. Deməli, dövlət mülkiyyətini həqiqətən xalqın mülkiyyətinə çevirmək indi son dərəcə vacibdir. Bundan ötrü onların fəaliyyətinin iqtisadi şərtlərində, xüsusən də onların idarə edilməsi sistemində, gəlirin bölünməsi və ona sərəncam verilməsi qaydalarında bir sıra dəyişikliklər lazımdır. Son nəticədə dövlət müəssisələri, indi olduğu kimi, rəhbər vəzifələrdə əyləşən bir qrup adamların varlanmasına deyil, bütün xalqın mənafeyinə xidmət edəcək.

– o, qiymət azadlığına əsaslansın. Müəssisələr öz buraxdıqları məhsullara və göstərdikləri xidmətlərə sərbəst şəkildə qiymət qoya bilməyəndə xüsusi mülkiyyət hüququ tam təmin olunmur, yəni sərbəstlik nisbidir, çünki bütün sahibkarlar qiyməti bazarın diktəsi ilə, tələb və təkliflərin nisbətini nəzərə almaqla müəyyənləşdirirlər. Sərbəst qiymətqoyma bazar iqtisadiyyatı-

nın ayrılmaz xassəsidir, yəni zəruri şərtidir. Lakin bəzən bir qrup inhisarçılar süni şəkildə bəzi məhsulların qiymətlərini bazarın təklif və tələbindən asılı olaraq deyil, öz mənafeləri naminə müəyyənləşdirirlər.

– o, rəqabət azadlığına əsaslansın. Dövlətin təminatı ilə gerçəkləşən rəqabət azadlığı qiymətqoyma sərbəstliyinin yeganə məhdudiyyəti olmalıdır. Bu o deməkdir ki, ayrı-ayrı müəssisələr iqtisadiyyatda inhisarçı mövqe tutduqda bundan istifadə edərək, öz məhsul və xidmətlərinin qiymətini süni surətdə artırmaq cəhdində olarsa, dövlət vergi sistemi ilə və müəyyən antiinhisarçı təşkilati-inzibati tədbirlərlə həmin cəhdlərin qarşısını almalıdır. Qiymətlərin liberallaşdırılması sahəsində bizdə problem, demək olar ki, yoxdur; bu iş artıq görülüb. Lakin antiinhisar siyasəti çox zəif həyata keçirilir. İqtisadiyyatın aparıcı sahələri inhisarçı qrupların himayəsindədir. Hətta hazırkı dövrdə özəl bölmədə də iqtisadi fəaliyyətin bir sıra növlərində özünəməxsus inhisarçı qruplar fəaliyyət göstərir. Lakin mülkiyyət və qiymət azadlığı kimi, rəqabət azadlığı da normal bazar iqtisadiyyatının ayrılmaz xüsusiyyətidir. Bazar iqtisadiyyatı şəraitində rəqabət azadlığını təmin etmək sadəcə olaraq zəruridir, əks halda biz iqtisadiyyatın bütün mümkün formalarının ən əcaibinə sahib olacağıq.

– o, xarici iqtisadi fəaliyyət azadlığına təminat versin. Dünya ölkələrinin təcrübəsi göstərir ki, açıq iqtisadiyyat yaratmadan bazar iqtisadiyyatına keçid qeyri mümkündür, yəni buna alternativ yoxdur. Xarici iqtisadi əlaqələrin tənzimlənməsi sahəsində siyasətdə iki qütb var. Onların biri proteksionizm (latınca protektio – himayə, müdafiə sözlərindəndir), digəri isə fritrederçilik (ingilis dilindəki free trade – azad ticarət ifadəsindədir) sayılır. Birinci – iqtisadi, bəzən isə həm də siyasi üsullardan istifadə edərək, daxili bazarın xaricdən gələn iqtisadi intervensiyadan mühafizəsini və ölkə sahibkarlarının beynəlxalq bazarda müdafiəsini nəzərdə tutur. İkincisi isə, əksinə, dövlətlərarası iqtisadi əlaqələrdə hər növ məhdudiyyətlərin aradan qaldırılmasını tələb edir. Dövlət iqtisadi cəhətdən nə qədər güclü olsa, məhsullarının rəqabət qabiliyyəti nə qədər yüksək olsa, sahibkarları digər ölkələrin bazarlarında özlərini nə qədər ürəkli apara bilsələr, həmin ölkələrlə ticarətdə məhdudiyyətlərin aradan qaldırılmasına bir o qədər meyl göstərər.



– o, sahə prinsipləri ilə yox, əsasən funksional üsullarla idarə edilsin. İqtisadiyyatı sahələr üzrə idarə etməyin əsassız şəkildə qabardılması sovet quruluşunun və keçmiş ittifaqda həyata keçirilən imperiya iqtisadi siyasətinin birbaşa törəməsidir. Bu yolla keçmiş ittifaq respublikalarının iqtisadiyyatı, hər birinə mərkəzdən müvafiq nazirliyin dirijorluq etdiyi ayrı-ayrı sahələrin sadə hesabi cəminə çevrilirdi. Ərazi öz iqtisadi mənasını itirirdi. Mütəxəssislərin əksəriyyəti özəl mülkiyyətə keçəndən sonra sahələr üzrə idarəetmənin üstünlüyü prinsipcə mümkün deyil. Azad iqtisadiyyat bütün müəssisələrin, yəni özəl müəssisələrlə yanaşı, dövlət müəssisələrinin də müstəqilliyi deməkdir.

– o, kəndlinin bu günədək davam edən istismarına, nəhayət, son qoysun. Bu sahədə ilkin şərt torpağı onu əkib-becərənə verməkdən ibarətdir. Bu məqsədlə, respublikamızda torpaq islahatları aparılmış və hər bir kəndliyə torpaq sahəsi verilmişdir. Hazırda torpaq islahatı artıq başa çatmışdır. Əsas problem həmin torpaqdan səmərəli istifadənin təşkilindən ibarətdir. Çünki kəndlinin torpağı olsa da, ondan lazımınca istifadə edə bilmir: kənd təsərrüfatı texnikası çatışmır; su təchizatı pis vəziyyətdədir; işığın olmaması ucbatından kənd yerlərində qazılmış artizan quyuları işləmir və s.

– o, vergilər və büdcə iqtisadiyyatın dəlmə-deşiklərini yamamağa deyil, təşəbbüskarlığı, işgüzarlığı və sahibkarlığı həvəsləndirməyə, iqtisadiyyatın sahə və ərazi strukturunu yaxşılaşdırmağa, sosial problemlərin həllinə xidmət etsin. Müasir dünyada vergi siyasətinə iki yanaşma üsulu formalaşıb. Birinci onu əsas götürür ki, dövlətin sosial proqramlarını genişləndirməkdən ötrü vergilərin səviyyəsini qaldırmaq zəruridir. İkinci qrup baxışlara əsaslananlar belə hesab edirlər ki, insanlara mümkün qədər çox qazanc əldə etmək imkanı verilərsə, cəmiyyətin sosial problemlərini onlar özləri, özü də dövlətdən daha yaxşı həll edə bilərlər, bunun üçün müəssisələrin daşıdığı vergi yükünü yüngülləşdirmək lazımdır. Fikrimizcə, biz bu yolla getməliyik. Aparılan təhlil göstərir ki, vergi sistemində radikal islahatları aparan zaman dövlət bu və ya digər təsərrüfat subyektlərinə, iqtisadi fəaliyyətin həvəsləndirilməsi nəzərdə tutulan bu və ya digər sahələrə münasibətdə dünya ölkələrinin vergi güzəştləri

üzrə mövcud olan bütün formalardan istifadə etməlidir. Konkret olaraq, həmin formalara aşağıdakılar daxildir:

a) bir sıra vergi dərəcələrinin, xüsusən mənfəət vergisinin və əlavə dəyər vergisinin aşağı salınması;

b) həvəsləndirilməsi nəzərdə tutulan iqtisadiyyat sahələrində çalışan müəssisələrin fəaliyyətinin əsasən ilk dövrlərində müxtəlif vergi güzəştlərinin tətbiqi, lazım gələrsə, müəyyən müddət ərzində vergidən azadetmə;

c) iqtisadi regionların inkişafının sürətləndirilməsi məqsədilə burada sahibkarlıq subyektlərindən toplanılan vergilərin bir hissəsinin yerli icra hakimiyyəti orqanlarının sərəncamında saxlanılması;

ç) müəssisələr tərəfindən müvafiq dövr üçün iqtisadi fəaliyyətinin yekunları haqqında hesabatlar vergi orqanlarına vaxtında və dolğun verildiyi hallarda, onların yersiz yoxlamalardan azad edilməsi;

d) vergi yoxlamalarının seçmə qaydasında və bunun üçün əsaslı səbəb olduğu zaman aparılması və s.

Göstərilənlərdən əlavə, hazırda inkişaf etmiş bazar ölkələrində dövlət tərəfindən kiçik sahibkarlığa kömək edən bir çox iqtisadi subyektlər üçün, o cümlədən kiçik sahibkarlığa kömək fondları, investisiya və lizinq kompaniyaları, kredit və sığorta təşkilatları, reklam və informasiya müəssisələri və s. üçün də bir sıra vergi güzəştləri həyata keçirilir. Şübhəsiz, dünya ölkələrinin vergi siyasəti sahəsində bu təcrübəsi də diqqətdən kənarda qalmamalıdır.

– biz Azərbaycanda elə iqtisadiyyat qurmaq istəyirik ki, regionların rolu indikindən qat-qat daha yüksək olsun. Paytaxtda həll olunan bir çox məsələlər var ki, onları yerli idarəetmə orqanlarının səlahiyyətlərinə vermək mümkündür və lazımdır. Yerli idarəetmə demokratiyanın mühüm göstəricilərindən olduğu kimi, bələdiyyələrin nisbi iqtisadi müstəqilliyi də iqtisadi demokratiyanın tərkib hissəsidir. Odur ki, gələcək iqtisadiyyatımızda yerli büdcələrin əhəmiyyəti kəskin surətdə artacaq, lakin əvəzində məsuliyyət də yüksələcək. Ölkənin rayonları dövlət büdcəsindən əsassız maliyyə almaq yolu ilə öz zəif işini digərlərinin hesabına ört-basdır etmək imkanlarından tamamilə məhrum olacaq.



Şübhəsiz, arzusunda olduğumuz iqtisadiyyatı qurmaq asan iş deyil. Lakin bunun üçün bizim hər cür imkanlarımız vardır. İnkişaf edən bir iqtisadiyyat qurmaq üçün bizim imkanlarımız, məsələn, 20 il öncə iqtisadi sistemi modernləşdirmək yoluna qədəm qoyan və bunun sayəsində indi dünyanın inkişaf etmiş dövlətləri sırasına əzmlə daxil olan Türkiyənin o vaxtkı imkanlarından qat-qat çoxdur. Bizim təbii sərvətlərimiz, iqtisadiyyatımızın və onun infrastrukturunun ilkin səviyyəsi, mühüm nəqliyyat yollarının üstündə yerləşdiyimiz üçün dünya iqtisadiyyatına qovuşmaq baxımından əlverişli coğrafi mövqeyimiz, bazarımızın və bizimlə qonşu ölkələrin bazarlarının strukturu, kadr potensialımız və nəhayət, xüsusi mülkiyyətçiliyi, sahibkarlığı və işgüzarlığı bütünlüklə qəbul edən və müəyyən mənada hətta bunlara söykənən milli mədəniyyətimiz – bütün bunlar Azərbaycanda qabaqcıl dünya standartlarına uyğun gələn azad, ədalətli və öncül iqtisadiyyat qurmaq üçün çox əlverişli şərait olduğuna açıq dəlalət edir.

### 3.4. Neft və qaz – Azərbaycanın ən qiymətli təbii sərvətləridir

Artıq qeyd etdiyimiz kimi, Azərbaycan həm qeyri-filiz faydalı yataqlarla, həm də maye və qaz halında olan faydalı qazıntılarla məşhurdur. Məsələn, maye və qaz halında olan faydalı qazıntılardan neft və qaz respublikamızın iqtisadiyyatının əsasını təşkil edir. Özü də bəzi ölkələrdən fərqli olaraq, Azərbaycan Respublikasında neft və qaz həm quru, həm də dəniz neft-qaz yataqlarından çıxarılır. Quru ərazilərdən sənaye üsulla neft çıxarılması təqribən 1871-ci ildən, dənizdən isə 1949-cu ildən başlanmışdır.

Quru ərazilərdə yerləşən neft-qaz yataqları, əsasən, aşağıdakı rayonlardadır: «Balaxanı-Sabunçu-Ramana» neft yatağı, «Bibiheybət», «Suraxanı», «Binəqədi», «Buzovna-Maştağa», «Qala», «Lökbatan», «Aşağı Küryanlı», «Murovdağ», «Muradxanlı», «Şamaxı-Qobustan», «Umbakı», «Siyəzən», «Neftçala», «Naftalan» və s. Xəzər dənizində «Neft Daşları», «Kürsəngdəniz», «Darvin» adası, «Qum» adası, «Qaradağ-dəniz», «Səngəçal», «Günəşli», «Bahar», «Çıraq», «Azəri» və s. neft-qaz

yataqları hazırda istismar edilir və ya istismar edilmək ərəfəsindədir. Məlumat üçün qeyd edək ki, hazırda Azərbaycanda çıxarılan ümumi neftin təqribən 80%-i dəniz neft-qaz yataqlarının payına düşür.

Ölkəmizin yeni neft strategiyası uğurla həyata keçirilməkdədir. Xəzərin Azərbaycan sektorundakı «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərinlikdə yerləşən hissəsinin kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsü sazişi – ***«Əsrin müqaviləsi»***nin iştirakçıları 2003-cü ili uğurla başa vurmuşlar. ARDNŞ-lə tərəfdaşlıqda işləyən ABƏŞ səhmdarları ilkin neft layihəsi çərçivəsində ilin sonunadək «Çıraq» yatağından hasilatı 6,4 milyon tona çatdırmışlar ki, bu da 2002-ci ilə nisbətən 7% çoxdur. Bütövlükdə isə ilkin neftin hasilatına başlanıldığı 1997-ci ilin noyabr ayından adı çəkilən yataqlardan indiyədək 23,9 milyon ton xam neft hasil edilmişdir. 2003-cü ildə «Çıraq» platformasında gündəlik neft hasilatı 158 min barelə çatdırılıb. Supsadan neft ixracının qrafik üzrə davam etdirilməsi 2003-cü ildə ABƏŞ-in tərəfdaşlarına və ARDNŞ-ə adı çəkilən limandan 155 tankerlə 19,7 milyon ton neft yola salmağa imkan vermişdir. 2002-ci ildə Azərbaycanda neftlə bağlı əməliyyatlara sərf olunmuş istismar xərcləri 88 milyon dollar, əsaslı xərclər isə 1 milyard 172 milyon dollar təşkil etmişdir.

Məlumat üçün qeyd edək ki, Azərbaycan nefti dünyada ən yüksək keyfiyyətli neftlərdən biridir. Azərbaycanda yanacaq neftindən əlavə, dünyada yeganə müalicə nefti də vardır ki, bu da Naftalan neft yatağından çıxarılır. Bundan başqa, Azərbaycanda həm quruda, həm də Xəzər dənizi akvatoriyasında neft və qaz-kondensat çıxarılır. Beləliklə, neft və qazın böyük sosial-iqtisadi əhəmiyyəti vardır.

2005-ci ildə «Əsrin müqaviləsi»nin tammiqyaslı işlənməsinin əsas mərhələsi sayılan «Azəri» layihəsinin reallaşdırılması istiqamətində də əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. Artıq «Azəri» yatağının mərkəzi hissəsi üzrə nəzərdə tutulmuş tikinti-quraşdırma işlərinin 50%-i yerinə yetirilmişdir. Həmin işlərə 2500 nəfər Azərbaycan vətəndaşı və 31 yerli şirkət cəlb edilib. İşlərin sürətlə aparılması «Azəri» yatağının mərkəzi hissəsinin 2005-ci ilin əvvəlinədək istismara verilməsinə imkan yaratmışdır.



2005-ci ilin ilk ən böyük uğuru isə, heç şübhəsiz ki, «Azəri» yatağının mərkəzi hissəsindən neft çıxarılmasına başlanılması oldu. Fevral ayının 13-də «Mərkəzi Azəri» platformasının istismara verilməsi ilə Azərbaycanda böyük neft hasilatına start verildi. Xəzər dənizinin dibi ilə çəkilmiş sualtı boru kəməri ilə nəql olunan neft mart ayının 3-də qurudakı Səngəçal terminalına çatdı. «Azəri» yatağının mərkəzi hissəsində əvvəlcədən qazılmış qabaqlayıcı quyular bir-bir platformaya birləşdirildikcə neft istehsalı da artmağa başladı və bunun da hesabına ötən il buradan 6 milyon tona yaxın neft hasil edildi. İl ərzində «Çıraq» və «Azəri» yatağının mərkəzi hissəsindən 13 milyon tona yaxın neft və 2 milyard 888 milyon kubmetr qaz hasil edilib ki, bu da 1997-ci ilin noyabr ayından bəri ən yüksək göstəricidir.

Ötən il ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə işlənib hazırlanmış yeni neft strategiyasının məntiqi nəticəsi olan Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsinin reallaşdırılmasında həlledici dövr oldu. Kəmərin Azərbaycan ərazisindən keçən hissəsinin çəkilişi və hidrosınaq işləri uğurla tamamlandı. Bu da xam neftin boru kəmərinə doldurulmasına başlamağa imkan yaratdı.

Bununla da, Heydər Əliyev adına Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin 442 kilometrlik Azərbaycan hissəsi istismara verildi. Avqust ayında isə xam neft Azərbaycanın hüdudlarını aşaraq Gürcüstan ərazisinə daxil oldu. Hazırda isə neft Türkiyə ərazisi ilə bu ölkənin Aralıq dənizi sahilindəki Ceyhan terminalına doğru axır. İndiyədək kəmərə 6 milyon barel xam neft vurulmuşdur. Qeyd edək ki, il ərzində Bakı-Tbilisi-Ceyhan kəmərinin inşasına 1,3 milyard dollara yaxın vəsait xərclənib.

«Azəri» layihəsi çərçivəsində Bibiheybətdəki tikinti-quraşdırma sahəsində inşa olunan kompressor və suvurma platformasının tamamlanması da ötən ilin uğurlarındandır. 2005-ci ilin buraxılış obyektlərindən biri olan bu nəhəng qurğu iyun ayında dənizə yola salındı. Kompressor və suvurma platforması STB-1 barjı ilə dənizə aparıldıqdan sonra «Mərkəzi Azəri» qazma, hasilat və yaşayış platformasına körpü vasitəsilə birləşdirildi.

Məlumat üçün bildiririk ki, bu nəhəng platforma elektrik enerjisi istehsal edən iki qurğudan, dörd qazvurma kompressorundan və həmin sayda suvurma nasosundan ibarətdir. Onun su

və qazvurma imkanları olduqca genişdir. Belə ki, beş texniki quyu vasitəsilə platformadan laylara gün ərzində bir milyard standart kub fut qaz vurmaq mümkün olacaq. Bundan əlavə, 12 quyu vasitəsilə laylara sutkada bir milyon barel su vurulacaq. Beləliklə, bu unikal qurğu «Azəri» yatağının mərkəzi, qərb və şərq hissələrindəki platformalara gələcək hasilat əməliyyatları üçün zəruri olan su və qazvurma xidmətlərini tam təmin edəcək. Eyni zamanda, həmin platformalara birləşdirildikdən sonra qurğu həmçinin neft ixracı ilə bağlı qaz əməliyyatlarını da idarə edəcək.

Ötən il Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun tikinti-quraşdırma sahəsində irimiqyaslı inşaat işləri həyata keçirilib. «Azəri» layihəsinin mühüm işlərindən sayılan «Qərbi Azəri» və «Şərqi Azəri» qazma, hasilat və yaşayış platformalarının, eləcə də bu qurğuların dənizdə quraşdırılması üçün tələb olunan dayaq bloklarının inşası bu qəbildən olan tədbirlərdəndir. İlin üçüncü rübündə dənizə yola salınaraq, təhlükəsiz şəkildə dayaq bloku üzərində oturdulan «Qərbi Azəri» platformasında nizamlama və istismar sınaqları uğurla başa çatdırıldı.

Hazırda öncə qazma quyuları bir-bir platformaya birləşdirildikcə gündəlik neft hasilatının həcmi də tədricən artır. Bütövlükdə isə cari ilin sonunadək «Əsrin müqaviləsi» çərçivəsində gündəlik neft hasilatı 600 min barelə yaxın olacaq.

«Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin işlənməyə cəlb edilməsini nəzərdə tutan «Faza-3» layihəsi üzrə də il ərzində mühüm işlər həyata keçirilib. «Dərinsulu Günəşli» qazma, texnoloji, təchizat və yaşayış platformasının üst modullarının və dayaq blokunun ölkə daxilində quraşdırılması işlərinin 23%-ə yaxını tamamlanıb. Bundan əlavə, ötən ilin dördüncü rübündə sualtı suvurma obyektləri üzrə mühəndis-layihə və tədarük işləri sona çatdırılıb.

İl ərzində xam nefti qəbul edib onu texnoloji prosesdən sonra ixrac marşrutları sisteminə vuran dünya səviyyəli Səngəçal terminalının genişləndirilməsi işləri də uğurla davam etdirilib. Burada ayrı-ayrı tikinti sahələri üzrə nəzərdə tutulmuş işlər müvəffəqiyyətlə başa çatdırılaraq terminalın imkanları qat-qat artırılıb.



Ötən il Azərbaycanda daha bir iri enerji layihəsi olan «Şahdəniz» qaz ixracı layihəsi ilə bağlı da geniş tədbirlər həyata keçirilib. Bu baxımdan 2005-ci ili ölkəmizin regionun qaz ixrac edən bir ölkəsinə çevrilməsinə imkan verən «Şahdəniz» yatağının birinci işlənmə mərhələsi üçün həlledici dövr hesab etmək olar. Belə ki, il ərzində birinci işlənmə mərhələsi çərçivəsində nəzərdə tutulmuş tikinti işlərinin 90 faizi başa çatdırılıb.

Avqust ayında «Şahdəniz» yatağında dördüncü öncə qazma quyusunun qazılmasına başlanılıb və artıq quyu 6500 metr dərinliyə çatdırılıb. Qaz istehsalına başlamağa imkan verən TPG-500 hasilat platformasının tikinti işləri də qrafikə uyğun davam etdirilib. Onu da deyək ki, platformanın inşa olunduğu «Zığ» tikinti-quraşdırma sahəsindəki işlərə il ərzində 2750 nəfər cəlb edilib ki, onların da 77%-i yerli vətəndaşlardır.

Ötən il «İsrafil Hüseynov» borudüzən gəmisi vasitəsilə sualtı boru kəmərinin çəkilişinə başlanılması da «Şahdəniz» qaz ixracı layihəsinin mühüm nailiyyətlərindəndir. «Şahdəniz» layihəsinin birinci işlənmə mərhələsi çərçivəsində çıxarılacaq qazın dünya bazarına çıxarılmasını nəzərdə tutan Cənubi Qafqaz boru kəmərinin 442,4 kilometrlik Azərbaycan hissəsinin tikintisi də ötən il sona çatdırılmış və boruların hidrosınaqdan keçirilməsinə başlanılmışdır.

Yeni neft strategiyasının uğurla reallaşdırılması ölkəmizin quru ərazisində 150 il əvvəl başlanılmış köhnə yataqlara da investisiya yönəltmək imkanı yaratmışdır. Ötən illər ərzində xarici neft şirkətləri ilə qurudakı neft ehtiyatlarının birgə işlənməsinə dair hasilatın pay bölgüsü sazişləri imzalanmışdır. İndi həmin sazişlər uğurla həyata keçirilir və köhnə yataqlara yönəldilən investisiyaların iqtisadi səmərəsi ildən-ilə artır.

Ötən il birgə müəssisələr və əməliyyat şirkətləri tərəfindən quru ərazisindən bir milyon tona yaxın neft çıxarılıb. Avqustun 16-da ARDNŞ ilə Birləşmiş Ərəb Əmirliklərinin «Rafi Oyl» şirkəti arasında «Suraxanı» yatağının bərpası və işlənməsinə dair hasilatın pay bölgüsü sazişinin imzalanması Azərbaycanın yeni neft strategiyasının daha bir təntənəsi idi.

Hazırda ölkə Prezidenti İlham Əliyevin uğurlu iqtisadi siyasəti Azərbaycanın yeni neft strategiyası çərçivəsində növbəti nailiyyətlərinin əldə olunmasına möhkəm təminat yaradır. Bu

da ölkəmizin iqtisadi qüdrətinin getdikcə artmasına, beynəlxalq aləmə inteqrasiyanın sürətlənməsinə səbəb olur.

Beləliklə, «Əsrin müqaviləsi» dünyanın aparıcı neft şirkətlərinin Azərbaycana marağını getdikcə artırdı. Bu marağı artıran əsas səbəblərdən biri də bilavasitə Heydər Əliyevin təşəbbüsü ilə işlənib hazırlanan yeni qanunvericilik aktları və ölkə daxilindəki sabitlik idi. Belə ki, xarici neft şirkətlərinin Azərbaycana gətirdiyi sərmayənin qorunması üçün lazımi qanunlar qəbul edilmişdir. «Əsrin müqaviləsi»ndən sonra Azərbaycan neftinin müştərək işlənməsi üçün xarici neft şirkətləri ilə daha 21 saziş imzalanmışdır ki, bu da Azərbaycana yaxın 10 illərdə 60 milyard dollar sərmayə gətirilməsini təmin edəcəkdir.

Azərbaycanın yeni neft strategiyasının həyata keçirilməsi artıq, qeyd etdiyimiz kimi, öz müsbət nəticələrini verməkdədir. Belə ki, adı çəkilən saziş əsasında görülən işlərin tərkib hissəsi kimi 1997-ci il noyabrın 7-də «Çıraq-1» platformasından ilkin neft hasil edilmişdir. ***«Bakı-Supsa»*** və ***«Bakı-Novorossiysk»*** neft kəmərləri ilə Azərbaycan neftinin dünya bazarına çıxarılması isə sübut etdi ki, öz başlanğıcını 1994-cü ildən götürən yeni neft strategiyası artıq xəyal deyil, günün reallığıdır.

Bir sözlə, neft hələ uzun müddət dünyanın siyasi mənzərəsinə təsir göstərən faktor olaraq qalacaqdır. Ən azı ona görə ki, alternativ enerji mənbələrinin əldə olunması baha başa gəlir. Buna görə də, ***«qara qızıl»***a yönəlmiş diqqət azalmayacaq, neft bir çox regionların inkişafında böyük rol oynayacaqdır. Ancaq bunun neftə malik olanlarla olmayanlar arasında münasibətlərin inkişafından asılı olacağı şübhəsizdir.

Yaranmış vəziyyət bir neft ölkəsi kimi Azərbaycan üçün də əlverişli olacaq. Birincisi, ona görə ki, Azərbaycan Cənubi Qafqazın iri neft və qaz ixracatçılarından birinə çevriləcək və bu da ölkəyə regionda siyasətin formalaşmasına və inkişaf istiqamətinin müəyyənləşdirilməsinə təsir etmək imkanı verəcək. İkincisi, xam məhsulların satışından əldə ediləcək gəlirlərdən faydalanaraq, Azərbaycan daxili bazarını daha da inkişaf etdirə biləcək. Bu isə Azərbaycanı regionun iqtisadi güc mərkəzinə çevirəcək. Başqa sözlə, yaxın gələcəyin Azərbaycana dünya siyasətində çəkisini artırmağa imkan yaradacağı şübhə doğurmur, yeni proqnozlar bizim xeyrimizədir. Deməli, Azərbaycanda ya-



xın 25-30 il ərzində neft hasilatının artırılmasına diqqət artırılacaqdır.

Hazırda ölkə iqtisadiyyatının aparıcı sahəsi sayılan neft sənayesində dinamik inkişaf meylləri davam edir. Son illərdə ölkə neftçiləri proqnoz tapşırıqlarını, bir qayda olaraq, vaxtından əvvəl və artıqlaması ilə yerinə yetirirlər. Bu baxımdan yola saldığımız 2005-ci il neft sənayesi üçün daha uğurlu olub. Keçən illərdə olduğu kimi, 2005-ci ildə də görülmüş məqsədyönlü işlər, mədənlərdə geoloji-texniki tədbirlərə, eləcə də quyuların cari və əsaslı təmirlərinə diqqətin artırılması müsbət nəticələr verib. 2005-ci ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti uğurlu işini davam etdirmişdir. Belə ki, 2005-ci ilin fevral ayında «Mərkəzi Azəri» yatağının istismara verilməsi hesabına şirkət il ərzində 13,2 mln. ton neft və 1,7 mlrd. kubmetr təbii qaz hasil etmişdir. Qeyd etdiyimiz kimi, hazırda ölkənin neft və qaz hasilatında ABƏŞ-lə yanaşı, «Şirvanoyl», «Anşad Petrol», «Salyanoyl», «Azgerneft», «Qarasu» və s. kimi neft və qazçıxarma müəssisələri fəaliyyət göstərir.

### 3.5. Məşğulluq imkanlarının artırılması və yoxsulluğun azaldılmasında neft strategiyasının rolu

Zəngin təbii ehtiyatlarına malik ölkələrin əksəriyyəti öz ehtiyatlarını müstəqil şəkildə hasil edə bilmədikləri üçün bu işə xarici neft şirkətlərini cəlb edirlər. Azərbaycan Respublikası da 1994-cü il sentyabrın 20-də imzalanan ***«Əsrin müqaviləsi»*** ilə dünya praktikasında geniş yayılmış bu yola üstünlük verməklə yeni neft strategiyasının əsasını qoymuşdur. Məlum olduğu kimi, həmin vaxt ölkəmiz «Azəri» və «Çıraq» yataqlarının, həmçinin «Günəşli» yatağının dərin su qatlarında (200 metr və daha çox dərinliklərdə) yerləşən hissəsi üçün dünyanın ən nüfuzlu neft şirkətlərini cəlb etməklə «Əsrin müqaviləsi»ni imzalayıb. Sonradan bu siyasət davam etdirilib və götürülmüş strateji kursa uyğun olaraq Xəzər dənizinin Azərbaycana məxsus hissəsində və quruda neft və qazın xarici ölkələrin aparıcı neft şirkətləri ilə birgə (müştərək) mənimsənilməsi haqqında bütövlükdə 22 kontrakt bağlanılıb. Bununla belə, Azərbaycanın yeni neft strategiyası öz başlanğıcını 1994-cü ildən götürmüşdür.

Azərbaycanın yeni neft strategiyasının siyasi əhəmiyyəti ilə yanaşı, onun iqtisadi əhəmiyyəti də vardır. Belə ki, yeni neft strategiyasının həyata keçirilməsi yüzlərlə, minlərlə Azərbaycan vətəndaşının işlə təmin olunması deməkdir. 2003-cü ilin məlumatlarına əsasən, ölkənin neft sənayesinin əsasını təşkil edən ARDNŞ-də 61000 nəfər işçi çalışır ki, bunun da 74%-i kişilər, 26%-i isə qadınlardır. ARDNŞ-də çalışanların 20 mindən çoxu mühəndis-texniki işçilərdir. Onların arasında 50 nəfərədək elmlər doktoru və 300 nəfərə yaxın elmlər namizədi var. Neft kontraktları ilə əlaqədar olaraq, xarici şirkətlərdə, podratçı və subpodratçı təşkilatlarda çalışan işçilərin sayı isə 4 min nəfərə qədərdir. Beləliklə, bütövlükdə Azərbaycan sənayesində məşğulluq məsələsi müasir dövrdə ən aktual problemlərdən biridir. Bu problemin həllində neft kontraktları mühüm rol oynaya bilər.

Ötən əsrin sonlarında ölkəmizin karbohidrogen ehtiyatlarının xarici neft şirkətlərilə birgə, müştərək işlənməsinə dair imzalanmış neft sazişlərinin bir çoxu artıq regional layihələrə çevrilib. İndi bu layihələr nəinki Azərbaycan, Gürcüstan və Türkiyədə, eləcə də bir sıra xarici ölkələrdə yeni iş yerlərinin açılmasına imkan yaradıb. Belə ki, hazırda «Əsrin müqaviləsi»nin «Azəri» layihəsi çərçivəsində Fransa, Birləşmiş Ərəb Əmirlikləri, İsveç və s. ölkələrdə tikinti-quraşdırma işləri həyata keçirilir. Artıq Azərbaycanın «Şahdəniz» zəngin qaz-kondensat yatağının işlənməyə cəlb edilməsi məqsədilə də analoji işlərə başlanılıb ki, bu da əlavə məşğulluq imkanları deməkdir. Başlıcası isə odur ki, ən vacib işlər Azərbaycanda həyata keçirildiyindən nəzərdə tutulmuş investisiyaların da əsas hissəsi burada xərclənir, iş yerlərinin çoxu ölkəmizdə yaradılır. Məlumat üçün qeyd edək ki, yaxın bir neçə il ərzində Azərbaycandakı iri layihələrin reallaşdırılmasına 18 milyard dollar investisiya yönəldiləcək, BP-nin digər tərəfdaşları ilə birlikdə sərf edəcəyi bu investisiyanın elə təqribən 6 milyard dolları adı çəkilən İngiltərə şirkətinin payına düşür.

Məlumat üçün onu da qeyd edək ki, ölkəmizin yeni neft strategiyasının reallaşdırılmasına yönəldilən investisiyalar müasir dövrün tələblərinə cavab verə bilən infrastrukturlarının yaradılması imkanlarını artırmaqla yanaşı, əhalinin məşğulluq probleminin həllinə də təkan verib. Təkcə onu demək kifayətdir ki, son iki ildə «Azəri» yatağının işlənilməsinə yönəldilən «Faza-1» və «Faza-2» layihələri çərçivəsində aparılan tikinti-quraşdırma işlərinin həyata keçirilməsi ilə bağlı tədbirlərə Azərbaycanın 6 min nəfərdən çox vətəndaşı cəlb edilib. Bundan başqa, ölkəmizin 3 minədək vətəndaşı hazırda xam neftin Aralıq dənizi vasitəsilə dünya bazarına çıxarılmasını nəzərdə tutan «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin tikintisində çalışır.



BP şirkətinin tərəfdaşları ilə birlikdə Azərbaycanda həyata keçirdikləri iri layihələr çərçivəsində tikinti-quraşdırma işləri 2004-2005-ci illərdə başa çatdırılacaq və onların hər biri ölkəmizə böyük məbləğdə gəlir gətirəcək. Proqnozlara görə, dünya bazarında neftin qiymətindən və digər amillərdən asılı olaraq Azərbaycan qarşıdakı 30 il ərzində təqribən 50-60 milyard dollar gəlir əldə edəcək. Həmin gəlirdən səmərəli istifadə isə yaxın gələcək üçün prioritet məsələdir. Qeyd edək ki, neft gəlirlərindən səmərəli istifadə və bu məqsədlə şəffaflığın təmin edilməsi üçün 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasının Prezidentinin müvafiq fərmanı ilə Azərbaycan Respublikasının Dövlət Neft Fondu (ARDNF) yaradılmışdır. Hazırda həmin Fondun həcmi 830 milyon dollar təşkil edir. Bu vəsaitin həcmi getdikcə artaraq neft hasilatının ən yüksək həddə çatdığı dövrlərdə il ərzində 4-5 milyard dolları ötəcək. Bu isə yeni istehsal sahələrinin və infrastrukturların yaradılmasına və ölkəmizdə məşğulluğun artmasına güclü təkan verəcək.

Hazırda isə neft layihələrinin reallaşdırılmasında yerli ehtiyatlardan səmərəli şəkildə istifadə olunur. Belə ki, indiyədək 100-dən artıq yerli şirkət podratçı kimi neft sənayesində həyata keçirilən tikinti-quraşdırma işlərinə cəlb edilib. «Azərkörpü» və «Azərtunel» səhmdar cəmiyyətləri, Azfen birgə müəssisəsi, Xəzərdənizneftdonanma idarəsi, Dərin Özüllər zavodu, Azərpetoyl, Enkotek, Neptun, Kristal LTD şirkətləri hazırda neft layihələrinin reallaşdırılmasında fəal iştirak edirlər.

Azərbaycanda ötən əsrin 70-80-ci illərində yaradılmış nəhəng istehsal sahələrinin gücündən indi neft layihələrinin reallaşdırılmasında səmərəli şəkildə istifadə olunur. Bu baxımdan 25 il bundan öncə istifadəyə verilmiş Dərin Özüllər zavodunu xüsusi qeyd etmək lazım gəlir. 2003-cü ilin noyabr ayının 24-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev zavodda inşa edilən platformalarla tanış olarkən, ölkəmizin yeni neft strategiyası üçün nəhəng baza rolunu oynayan bu istehsal sahəsinin işini yüksək qiymətləndirərək, demişdir: «Bu, artıq

beynəlxalq bir müəssisədir, zavoddur. Əgər belə demək mümkündürsə, keyfiyyətli məhsul buraxan bir müəssisədir». İndi zavodda dünya standartları səviyyəsində aparılan tikinti-quraşdırma işlərini yerli kadrlar həyata keçirirlər.

Neft layihələri çərçivəsində görülən tikinti-quraşdırma işlərindən əlavə, Azərbaycanda xarici şirkətlərin vəsaitləri hesabına bir sıra sosial və ekoloji sərmayə proqramları da həyata keçirilir. Həmin proqramlar da öz növbəsində yeni iş yerlərinin yaradılmasına imkan verir. Bu işdə Azərbaycandakı iri neft layihələrinin operatoru olan BP şirkətinin fəaliyyəti diqqəti xüsusilə cəlb edir. Artıq ölkəmizdə sosial sərmayələrə dair proqramların həyata keçirilməsinə başlanılıb. «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəməri layihəsi çərçivəsində nəzərdə tutulan sosial proqramlar Azərbaycan, Gürcüstan və Türkiyədə həyata keçirilsə də digər layihələr (məsələn, «Azəri», «Şahdəniz» və s.) üzrə analoji işlər yalnız ölkəmizi əhatə edir. Məlumat üçün qeyd edək ki, sosial proqramlar özəl müəssisələrin yaradılması, idarəetmə sisteminin təkmilləşdirilməsi və ictimai sərmayə kimi üç əsas sahəni əhatə edir.

Özəl sektora sərmayə yönəltməkdə məqsəd yeni iş yerləri açmaq, biznes qabiliyyətləri formalaşdırmaqla bütövlükdə regionun iqtisadi inkişafını artırmaqdır. Artıq bu sahədə atılan ilk addımlar uğurlu olub. BP Azərbaycan şirkətinin davamlı inkişaf məsələləri üzrə direktoru Martin Maylzın bildirdiyinə görə, yerlərdə yaradılan kiçik müəssisələr bütövlükdə özəl sektorun inkişafına təkan verəcək. Belə ki, ilkin nümunə kimi yaradılmış 60 nəfərlik özəl müəssisənin uğurları ümidləri doğruldub. Buradakı tikiş sexi və istixanada istehsal olunmuş məhsullar bazara çıxarılaraq müəssisəyə gəlir gətirməyə başlayıb.

BP-nin sərmayəsi hesabına yaradılan BP müəssisələrinin fəaliyyəti daim diqqət mərkəzində saxlanılır. 2003-cü ilin yayında Quba və Xaçmaz rayonlarında yaradılmış pendir hazırlayan sexlər də belə istehsal sahələrindəndir. Hazırda həmin sexlər uğurla fəaliyyət göstərirlər və burada onlarla yerli sakin çalışır. Bütövlükdə isə 2003-cü ildə Azərbaycanda BP şirkəti tərəfindən kiçik və orta müəssisələrə 29 milyon dollar vəsait yönəldilib. Bundan əlavə, yerli kiçik və orta müəssisələr üçün BP, Statoyl, Yunokal və s. şirkətlər tərəfindən texniki yardım proqramlarına başlanmışdır.



Sosial proqramların əhatə etdiyi sahələrdən biri də idarəetmə sisteminin təkmilləşdirilməsi ilə bağlıdır. Bunda məqsəd gəlirlərin idarə olunması, vətəndaş cəmiyyəti və yerli enerji məsələlərinə xüsusi maraq göstərməklə, inzibati qabiliyyətlərin və şəffaflığın təkmilləşdirilməsidir.

İctimai sərmayə də sosial proqrama daxil olan sahələrdəndir. Bu zaman əsas diqqət neft layihələrinin həyata keçirildiyi əməliyyatların yaxınlığındakı yerli əhaliyə yönəldilir. Qarşıya qoyulan əsas məqsəd isə birbaşa, nisbətən daha tez təsirə malik olmaq, insanların həyatında sanballı dəyişikliklər etməkdir. Artıq Səngəçal terminalının yaxınlığında yerləşən qəsəbələrdə, eləcə də «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru neft və Cənubi Qafqaz qaz boru kəmərlərinin dəhlizi boyunca ictimai sərmayə proqramlarının reallaşdırılmasına başlanılıb. Bütövlükdə isə yaxın illərdə ictimai sərmayə qoyuluşunun həcmi 30 milyon dollar təşkil edəcək. Bu vəsait də gəlirlərin artırılmasına, kənd təsərrüfatı layihələrinə, yeni infrastrukturların yaradılmasına, mövcud olanların yenidən qurulmasına və bərpasına, mövcud sağlamlıq müəssisələrinin təkmilləşdirilməsinə xərclənəcəkdir. Bütün bunlar isə öz növbəsində regionların davamlı inkişafına təkan verəcək.

Ölkənin sosial problemlərinin həllində onun dövlət büdcəsinin formalaşması və ondan sosial problemlərin həllində istifadə edilməsi mühüm rol oynayır. Bu sahədə dövlətin 2004-cü il üçün büdcəsi mühüm əhəmiyyət kəsb edir, çünki bu ildə dövlət büdcəsinin təqribən 60%-nin sosial problemlərin həllinə yönəldilməsi nəzərdə tutulmuşdur. Dövlət büdcəsinin formalaşmasında ARDNŞ aparıcı mövqe tutur. Belə ki, mövcud qaydaya əsasən ARDNŞ qanunvericiliklə nəzərdə tutulmuş vergiləri və bank məcburi ödəmələri müəyyən edilmiş qaydada ödədikdən sonra, fəaliyyətindən əldə etdiyi gəlirdən müstəqil şəkildə, özü istədiyi qaydada istifadə edir. ARDNŞ-i dövlət büdcəsinə onun sərəncamına daxil olan bütün vəsaitlərin təqribən yarısına qədərini ödəyir, yerdə qalanını özü istifadə edir. Belə ki, Vergilər Nazirliyinin məlumatına görə, bütün müəssisə və təşkilatların dövlət büdcəsinə vergi daxilolmalarında ARDNŞ-in payı əksəriyyət təşkil edir.

Neft kontraktlarını müvəffəqiyyətlə həyata keçirmək məqsədilə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) yaradılmışdır ki, bu da məşğulluq imkanlarının artırılmasında və so-

sial problemlərin həllində müəyyən müsbət rol oynayır. Bu qurumun Azərbaycan hökuməti qarşısında yerli işçilərin işə götürülməsi ilə bağlı öhdəliyi var. Hazırda ABƏŞ «Əsrin müqaviləsi» çərçivəsində tammiqyaslı işləmə layihəsinin 1 və 2-ci Fazasını həyata keçirir.

Birgə Əməliyyat Şirkətində çalışacaq işçi heyətində Azərbaycan vətəndaşlarının sayı aşağıdakı nisbətdə müəyyən edilmişdir (cədvəl 40).

*Cədvəl 40*

***Azərbaycan vətəndaşları ilə xarici vətəndaşlar arasındakı nisbət, %***

| | Vətəndaşların bölgüsü | |
|---|---|---|
| | Azərbaycan | Xarici ölkələr |
| Yataqların tam miqyasda işlənilməsinədək: | | |
| Mühəndis-texniki işçilər | 30,0 | 50,0 |
| Fəhlə heyəti | 70,0 | 30,0 |
| Yataqların tam miqyasda işlənilməsi dövründə: | | |
| Mühəndis-texniki işçilər | 75,0 | 25,0 |
| Fəhlə heyəti | 85,0 | 15,0 |
| Yataqların tam miqyasda işlənməsindən 5 il sonra: | | |
| Mühəndis-texniki işçilər | 90,0 | 10,0 |
| Fəhlə heyəti | 95,0 | 5,0 |

İşçi heyətinin tərkibinin bu istiqamətdə müəyyənləşdirilməsi sazişlərin uzunmüddətli olması baxımından çox əlverişlidir. Məlumat üçün qeyd edək ki, 2003-cü ildə ABƏŞ-də 1100 nəfər işçi çalışıb ki, onlardan da 900 nəfəri yerli vətəndaşlar olub.

«Əsrin müqaviləsi» layihəsi çərçivəsində yatırılan sərmayənin həcmi 2003-cü ilin iyuluna qədər 5 milyard dollardan çox olub. Xərclər bütövlükdə iki istiqamətdə təsnifləşdirilir: əməliyyat və kapital xərcləri. Hər bir layihə başa çatdıqdan sonra, məsələn, İlkin Neft Layihəsi (İNL), Faza-1 və s., ilk növbədə sahədən əldə edilən neft tam həcmdə əməliyyat xərclərinin ödənilməsinə yönəldilir. Əməliyyat xərcləri tam qapandıqdan sonra əldə edilən neftin 50%-i kapital xərclərinin ödənilməsinə, qalan 50%-i isə mənfəət nefti formasında bölüşdürülməyə yönəldilir.



Beləliklə, indiyədək ABƏŞ iki layihəni başa çatdırıb. Bu, Məcburi İşlərin Minimum Proqramı (MİMP) və İlkin Neft Layihəsidir. ABƏŞ-in ilkin iş proqramının əsasını təşkil edən MİMP-ə görə, ABƏŞ üzərinə 9 öhdəlik götürmüşdü. Öhdəliklərin yerinə yetirilməsinə 1995-ci ildə illik proqram üzrə 77,6 mln., 1996-cı ildə – 93 mln. və 1997-ci ildə isə 66 mln. dollar təsdiqlənmiş büdcə vəsaiti ayrılmışdır. 1995-ci ilin ortalarından 1997-ci ilin sonlarına olan dövrü əhatə edən İNL-nin isə məqsədi «Çıraq-1» platformasından ilk neft hasilatına nail olmaq, ilkin kəmərlərin çəkilişi və neftin Qara dənizə ixracını təmin etmək idi. İNL-nin büdcəsi çərçivəsində 48,6 mln., 1996-cı ildə – 321,7 mln. və 1997-ci ildə isə 566 mln. dollar dəyərində vəsait ayrılmışdır. İlkin Neft Layihəsinin ən mühüm cəhətlərindən biri indiyədək hər barel neftə 2 dollardan az xərc çəkməklə, layihəyə 2 milyard dollar sərmayə qoyulmuşdur ki, həmin məbləğin də təqribən yarısı dənizdəki əməliyyatlara sərf olunub. 1997-ci ilin noyabrında ilkin neft hasilatının başlanmasından sonra «Çıraq-1» platformasından 200 mln. barel və ya 28 mln. ton neft hasil edilmişdir. Hazırda «Faza-1» layihəsi üzrə kapital qoyuluşları davam etdirilir. Cədvəl 41-də 1998-2003-cü illərdə ABƏŞ-in illər üzrə xərclər smetası verilmişdir.

*Cədvəl 41*

***1998-2003-cü illərdə ABƏŞ-in xərclər smetası, mln. dollar***

| İllər | Ümumi xərclər | o cümlədən: | |
|---|---|---|---|
| | | Əməliyyat xərcləri | Kapital xərcləri |
| 1998 | 598 | 131 | 467 |
| 1999 | 319 | 107 | 212 |
| 2000 | 249 | 91 | 158 |
| 2001 | 329 | 81 | 248 |
| 2002 | 1260 | 88 | 1160 |
| 2003 | 2152 | 100 | 2052 |

ABƏŞ öz xərclərini fəaliyyəti nəticəsində əldə etdiyi gəlirlər hesabına ödəyir. ABƏŞ son illərdə Azərbaycan Dövlət büdcəsinin əsas donorlarından birinə çevrilib. İndiyə qədər ABƏŞ dövlət büdcəsinə 115 mln. dollardan artıq vergi, sosial ödəmələr formasında isə 310 mln. dollardan çox vəsait ödəyib. 2002-ci ildə ABƏŞ-in dövlət büdcəsinə keçirdiyi verginin məbləği 60,5 mlrd. manat təşkil etmişdir.

# FƏSİL 4. XƏZƏR REGİONUNUN KARBOHİDROGEN RESURSLARI VƏ MÜASİR DÖVRDƏ ONLARDAN İSTİFADƏ PROBLEMLƏRİ

## 4.1. Xəzər regionunun karbohidrogen resursları və onlardan səmərəli istifadənin əhəmiyyəti

Xəzər dənizi dünyada ən böyük qapalı su hövzəsidir. Xəzər regionunda Rusiya, Qazaxıstan, Türkmənistan, Azərbaycan dövlətləri yerləşir. Ölçüsünə, proseslərin xarakterinə və inkişaf tarixinə görə dəniz hesab edilir. Tarixi mənbələrdə və ədəbiyyatlarda Xəzər dənizinin 100-dək adına (məsələn, Abeskun, Bakı, Kaspi, Gürgan, Xəzər, Kirkan, Şirvan və s.) rast gəlinir. Bunlardan hazırda Xəzər və Kaspi adları daha çox işlədilir.

Xəzər dənizinin uzunluğu təqribən 1200 km, orta eni 320 km, sahil xəttinin uzunluğu 6,5 min km-dir. Ondan 800 km-i Azərbaycan Respublikasının payına düşür. Xəzər dənizinə 130-dan çox çay tökülür. Onlardan ən böyüklərinə aiddir: Volqa, Kür, Emba, Ural, Terek, Sulak, Samur, Səfidrud və Kürkan (hər ikisi İran ərazisində yerləşir).

Relyefinə və hidroloji xüsusiyyətlərinə görə Xəzər dənizi üç hissəyə – Şimali Xəzərə (dərinliyi 25 m-dək), Orta Xəzərə (Dərbənd çökəkliyində dərinliyi 788 m-dək) və Cənubi Xəzərə (dərinliyi 1025 m-dək) bölünür. Orta Xəzərin Şimali Xəzərlə təbii sərhədi Manqışlaq astanası, Cənubi Xəzərlə təbii sərhədi isə Abşeron astanası boyunca keçir. Xəzər dənizi Üst Miosenə qədər Qara dənizlə əlaqədə olmuşdur. Sonra bu əlaqə kəsilmiş, Xəzər dənizi qapalı su hövzəsinə çevrilmişdir. Üst Pliosendə (Akçaqıl əsrində) okeanla yenidən birləşmişdir. Xəzər dənizinin dibində neft, qaz, kimyəvi xammal yataqları var. Deməli, Xəzər dənizi mühüm xalq təsərrüfatı əhəmiyyətinə malikdir. Xəzər dənizinin əsas faydalı qazıntısı neft və qazdır; Abşeron və Bakı arxipelaqları akvatoriyalarında, Türkmənistan və Dağıstan Muxtar Respublikasının sahil suları zonasında çıxarılır. Xəzər dənizindən neft ilk dəfə 1923-cü ildə keçmiş İliç buxtasında çıxarılmışdır. Sonralar dənizdə, sahilə yaxın Bibi-Heybət (1926-cı ildə), Pirallahı (1934-cü ildə), Gürdən-dəniz (1947-ci ildə) yataqları kəşf olunmuşdur. Onların əsas xüsusiyyətlərindən biri odur ki, bu yataqların işlənməsi ayrı-ayrı dambalardan, qurulması sahildən başlamış estakadalardan və eləcə də sahildən qazılmış maili istiqamətləndirilmiş quyular vasitəsi ilə aparılmışdır.



İkinci dünya müharibəsindən (1941-1945-ci illərdən) sonra əsas neftçıxarma rayonu sayılan Abşeron yarımadasında neft ehtiyatı tədricən azaldığına görə Azərbaycan geoloqları respublikanın başqa sahələrində, o cümlədən Xəzər dənizinin şelf hissəsində yeni neft və qaz yataqlarının kəşfiyyatına başlamışlar.

1941-1945-ci illərdə açıq dənizdə «Neft Daşları» sahəsinin geoloji xəritəsi qurulmuş, xəritədə şimal-qərb, cənub-şərq istiqamətdə uzanan antiklinal qırışıq dəqiq əks olunmuş, Tağ hissəsində isə Məhsuldar qatın aşağı şöbəsinin süxurlarının dənizin dibində üzə çıxması müəyyənləşdirilmişdir. Alınan məlumatlara əsaslanaraq, Xəzər dənizinin bu hissəsində dərin axtarış kəşfiyyat qazmasına başlanmış və 7 noyabr 1949-cu ildə Azərbaycanın neft sənayesi tarixində açıq dənizdə ilk dəfə olaraq Neft Daşları yatağı açılmışdır. Neft Daşlarında qazılmış ilk quyudan gündə 100 ton neft hasil edilirdi.

«Neft Daşları» yatağının açılması açıq dənizdə neft və qaz yataqlarının kəşfiyyat işlərini xeyli genişləndirməyə imkan vermişdir. Aparılan axtarış kəşfiyyat işləri nəticəsində 1950-ci ildə Darvin bankası, 1952-ci ildə Qum-dəniz, 1954-cü ildə Palçıq Pilpiləsi, Abşeron bankası, 1962-ci ildə Cənub, 1963-cü ildə Səngəçal-Duvannı-Xərə-Zirə adası, 1968-ci ildə Bahar, 1973-cü ildə Bulla-dəniz, 1979-cu ildə Günəşli, 1985-ci ildə Çıraq, 1987-ci ildə Azəri, 1988-ci ildə Kəpəz, 1999-cu ildə Şahdəniz və s. neft və qaz-kondensat yataqları aşkar edilmişdir. Bu yataqlardan çıxarıla bilən, karbohidrogen ehtiyatları 100 milyon tondan artıq olan yataqlar aşağıdakılardır.

Səngəçal-dəniz-Duvannı-dəniz-Xərə-Zirə adası qırışığı Xəzər dənizi akvatoriyasının dayaz olan zolağında, Bakı arxipelaqının şimal hissəsində Bakı şəhərindən cənub-qərbə doğru 50 km məsafədə yerləşmişdir. Bu qarışıq Kənizdağ-Xərə-Zirə adası antiklinal qurşağına daxil olub, Səngəçal-dəniz, Duvannı-dəniz və Xərə-Zirə adası kimi üç lokal qalxımdan ibarətdir.

1959-cu ildə Səngəçal-dəniz sahəsində dəqiq seysmik kəşfiyyat işləri ilə struktur aşkar edilmiş və struktur-axtarış qazma-

sı ilə onun quruluşu dəqiqləşdirilmişdir. 1952-ci ilin iyul ayında 24 saylı kəşfiyyat quyusunun qazılmasına başlanmış və 1963-cü ilin aprel ayında yataq açılmışdır. Yataqda kəşfiyyat-axtarış işləri başlanandan indiyə kimi 720 min metrdən çox həcmində axtarış-kəşfiyyat qazma işləri aparılmışdır. İlkin çıxarıla bilən neft ehtiyatı 80,3 mln. tona yaxın, qaz 66 mlrd. kubmetr və kondensat 4 mln. tondan artıq olmuşdur. İşlənmənin əvvəlindən 2003-cü ilə qədər 67 mln. ton neft, 56 mlrd. kubmetr qaz və 3,4 mln. ton kondensat hasil edilmişdir. Çıxarıla bilən qalıq neft ehtiyatı 14 mln. ton, qaz 10 mlrd. kubmetr və kondensat 0,2 mln. tona yaxındır.

Bahar yatağının geoloji-geofiziki metodlarla öyrənilməsi 1950-ci ildən başlayaraq müntəzəm surətdə həyata keçirilmiş və 1958-ci ilin mart ayında neft-qazlılığı aşkar olunmuşdur. Suraxanı, Sabunçu və Balaxanı lay dəstəsində qaz-kondensat yatağı aşkar edilmiş, cənub perikinal VIII horizontunda çox da böyük olmayan neft yığımı və şimal hissəsində isə sənaye əhəmiyyəti olmayan neft zolağı kəşf edilmişdir. Yataqda indiyə kimi 406391 ton həcmində axtarış-kəşfiyyat qazma işləri aparılmışdır. İlkin çıxarıla bilən neft ehtiyatı 9 mln. ton, qaz 140 mlrd. kubmetr və kondensat 12 mln. tona yaxın olmuşdur. İşləmənin əvvəlindən 2003-cü ilədək 6,2 mln. ton neft, 126,5 mlrd. kubmetr qaz və 10,5 mln. ton kondensat hasil edilmişdir. Hesablamalara görə, çıxarıla bilən qalıq neft ehtiyatı 3 mln. ton, qaz 10 mlrd. kubmetr və kondensat isə 1 mln. tondan artıqdır.

Bulla-dəniz yatağı dənizdə qazılmış dərin quyuların sayına görə birinci yerdə durur. Bulla-dəniz strukturu ilk dəfə 1957-ci ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmiş və dərin kəşfiyyat qazmasına 1965-ci ildə başlanmışdır. 1973-cü ildə VII horizontun, 1974-cü ildə V horizontun və 1982-ci ildə VIII horizontun sənaye əhəmiyyətli neft-qazlılığı müəyyən edilmişdir. Bulla-dəniz yatağında karbohidrogen ehtiyatlarını hesablamaq və çıxarmaq üçün dərinliyi 5000 metrdən yuxarı olan 40 kəşfiyyat quyusu, o cümlədən 16 quyu 6000 metrdən yuxarı qazılmışdır. Bunlardan ən dərin quyu 6542 metrə qazılmış 87 saylı quyudur. Azərbaycanda neft verən ən dərin quyu Bulla-dəniz yatağında qazılmış 67 saylı quyudur ki, bu quyudan 6206-6160 metr intervalında VII horizontdan gündə 50 ton neft alınmışdır.



Yataqda indiyə kimi 425442 metr həcmində axtarış-kəşfiyyat qazma işləri aparılmışdır. Aparılan kəşfiyyat-axtarış işləri nəticəsində müəyyən edilmişdir ki, çıxarıla bilən neft ehtiyatı 5 mln. tona yaxın, qaz 87 mlrd. kubmetr və kondensat isə 11 mln. tondur. İşləmənin əvvəlindən indiyədək 1 mln. ton neft, 60 mlrd. kubmetr qaz və 9 mln. ton kondensat hasil edilmişdir. Çıxarıla bilən qalıq neft ehtiyatı 1,5 mln. ton, qaz 27 mlrd. kubmetr və kondensat 2 mln. ton təşkil edir.

Günəşli strukturu 1964-cü ildə seysmik kəşfiyyat işləri nəticəsində aşkar edilmiş və 1977-ci ildə 1 saylı özüldən dərin kəşfiyyat qazmasına başlanmışdır. Yatağın uzunluğu 12,5 km, eni 4 km, əhatə etdiyi sahədə dənizin dərinliyi 90-250 metrdir. 1979-cu ilin 28 avqust tarixində dənizin dərinliyi 84 metr olan sahədə tikilmiş 1 saylı özüldən 4 saylı quyu vasitəsilə Günəşli yatağı aşkar edilmişdir. Yataqda karbohidrogen ehtiyatlarının həcmini dəqiqləşdirmək məqsədilə dənizin dərinliyi 170 metrədək olan sahəsində 25 kəşfiyyat quyusu qazılmışdır. Bunlardan 2 quyu (5 və 9 saylı quyular) texniki səbəbdən ləğv edilmiş, 2 quyu (1 və 21 saylı quyular) neft konturundan kənara düşmüş, 20 quyu isə qazma ilə qurtarmış və sınaq işləri aparılmışdır. Sınaq işləri aparılarkən Qala lay dəstəsindən qaz, «Fasilə» L.D və Balaxanı lay dəstəsindən IX və X horizontlarından neft alınmışdır. Yataqda hal-hazır kimi 91322 ton həcmində axtarış-kəşfiyyat qazma işləri aparılmışdır. İlkin çıxarıla bilən neft ehtiyatı 175 mln. ton, qaz 48 mlrd. kubmetr və kondensat 4 mln. tondan artıq olmuşdur. İşləmənin əvvəlindən indiyədək 103 mln. ton neft, 29 mlrd. kubmetr qaz və 0,3 mln. ton kondensat hasil edilmişdir. Çıxarıla bilən qalıq neft ehtiyatı 72 mln. ton, qaz 20 mlrd. kubmetr və kondensat 4 mln. tona yaxındır. Hazırda Günəşli yatağı dənizdə çıxarılan neftin 79%-ni və Azərbaycan neftinin isə 65%-ni təmin edir. Yataqda istismar qazmasının nəticəsinə görə, məhsuldar horizontların sayı 8-ə çatdırılmışdır. Qala və Balaxanı lay dəstəsinin VIII horizontundan başqa altısı hazırda işlənmədədir.

Çıraq yatağı 1983-cü ildə aşkar edilmişdir. Burada dənizin dərinliyi 200 metrə kimi olan sahələrdə kəşfiyyat-axtarış quyuları qazılmağa başlanmışdır. 1985-ci ilin iyul ayında 1 saylı quyu vasitəsilə yataq aşkar edilmişdir. Gündəlik neft hasilatı

400 ton təşkil edir.

Azəri sahəsində 1985-ci ildə «Şelf-1» qazma qurğusu ilə dərin kəşfiyyat qazmasına başlanmışdır. 1987-ci ilin fevral ayında 1 saylı quyu vasitəsilə «Azəri» yatağı aşkar edilmişdir. Burada gündəlik neft hasilatı 325 ton təşkil edir.

Kəpəz sahəsində 1986-cı ildə «Şelf-3» qazma qurğusu ilə dərin kəşfiyyat qazmasına başlanmışdır. 1988-ci ilin yanvar ayında 1 saylı quyu vasitəsi ilə yataq aşkar edilmişdir.

1991-ci ildə «Şelf-5» qazma qurğusu ilə Novxanı sahəsində dərin kəşfiyyat qazmasına başlanmışdır. 1993-cü ilin iyul ayında 1 saylı quyu vasitəsilə yataq aşkar edilmişdir. Yatağın gündəlik qaz hasilatı 150 mln. kub metr və 25 ton kondensat təşkil edir.

Əşrəf və Qarabağ sahələrində xarici neft şirkətləri tərəfindən aparılmış axtarış-kəşfiyyat qazma işləri nəticəsində 1998-ci ilin yanvar ayında 1 saylı kəşfiyyat quyusu vasitəsilə Əşrəf və həmin ilin may ayında 2 saylı kəşfiyyat quyusu vasitəsilə Qarabağ qaz-kondensat yataqları aşkar edilmişdir. Xarici neft şirkətləri bu strukturlardan neft əvəzinə qaz-kondensat axımı alındığından, kəşfiyyat işlərini dayandıraraq, açılmış yataqlar Quruda neft-qazçıxarma istehsalat birliyinə qaytarılmışdır.

Şahdəniz sahəsində aparılmış axtarış-kəşfiyyat qazma işləri nəticəsində 1999-cu ilin iyul ayında 1 saylı kəşfiyyat quyusu vasitəsilə qaz-kondensat (burada gündəlik qaz hasilatı 1,5 mln. kubmetr, kondensat isə 450 ton təşkil edir) və Balaxanı lay dəstəsinin VIII horizontu (burada gündəlik qaz hasilatı 1,8 mln. kubmetr, kondensat isə 450 ton təşkil edir) yatağı aşkar edilib. Yataq böyük qaz və kondensat ehtiyatına malik olduğuna görə, ehtiyatın həcmini dəqiqləşdirmək məqsədilə əlavə 2 kəşfiyyat quyusu qazılmışdır. Hazırda yatağın istismarı üçün hazırlıq işləri görülür.

Müasir dövrdə Xəzər regionunun dövlətləri, o cümlədən Azərbaycan Respublikası öz iqtisadi inkişafını Xəzər dənizinin neft-qaz potensialı ilə bağlayır. Mütəxəssislərin hesablamalarına görə, Xəzər dənizinin neft-qaz potensialı 50 milyard bareldən 200 milyard barelə kimi neft və kondensata bərabərdir. Xəzər regionun dövlətləri üzrə neft və təbii qaz ehtiyatı aşağıdakı kimidir:

***Azərbaycan*** üçün təsdiq edilmiş neft ehtiyatı 3,6 milyard bareldən 12,5 milyard barel arasında dəyişilir. Mümkün (ehtimal) olan neft ehtiyatı mütəxəssislər tərəfindən 27 milyard barel həcmində proqnozlaşdırılır. Ümumi neft ehtiyatı isə 31-40 milyard barel nəzərdə tutulur. Azərbaycan neft və qaz hasilatına görə Xəzər dənizi regionu ölkələri arasında ikinci yeri tutur.



***Qazaxıstan*** üçün təsdiq edilmiş neft ehtiyatı 10 milyard bareldən 17,6 milyard barelə bərabərdir. Mümkün (ehtimal) olunan neft ehtiyatı 85 milyard barel, ümumi neft ehtiyatı isə 95 milyard bareldən 103 milyard barel həcmindədir. Hazırda Qazaxıstan neft hasilatına görə Xəzər dənizi regionu ölkələri arasında birinci yeri tutur.

***Türkmənistan*** üçün təsdiq olunan neft ehtiyatı 1,7 milyard barelə, mümkün neft ehtiyatı 32 milyard barelə və ümumi neft ehtiyatı isə 34 milyard barelə bərabərdir.

***Rusiya*** üçün təsdiq olunan neft ehtiyatı 0,3 milyard barelə, mümkün olan neft ehtiyatı 5 milyard barelə və ümumi neft ehtiyatı isə 5 milyard barelə bərabərdir.

***İran İslam Respublikası*** üçün təsdiq olunan neft ehtiyatı 0,1 milyard barelə, mümkün olan neft ehtiyatı 12 milyard barelə və ümumi neft ehtiyatı isə 12 milyard barelə bərabərdir.

Beləliklə, Xəzər unikal daxili kontinental hövzə olmaqla böyük yanacaq-enerji resurslarına malikdir. Xəzəryanı region ölkələrinin ümumilikdə ehtiyatları haqqında məlumatlar cədvəl 42-də verilmişdir.

*Cədvəl 42*

***Xəzəryanı region ölkələrinin ümumilikdə ehtiyatları***

| | Mümkün resurslar | Təsdiq edilmiş ehtiyatlar | Cəmi |
|---|---|---|---|
| Neft, mlrd. barel | 15,2-28,7 | 161,0 | 176,2-189,7 |
| Qaz, trln. kubmetr | 162-249 | 293,0 | 455,0-542,0 |
| Yanacaq-enerji resursları, mlrd. ton | 3,0-5,7 | 31,2 | 34,2-36,9 |

Mütəxəssislərin hesablamalarına görə, Xəzəryanı ölkələr tərəfindən ixracat 2015-ci ilə qədər hər il 100, maksimum 200 mln. ton təşkil edə bilər. Bu isə dünya neft hasilatının 3,5-7,0%-ni təşkil edir. Qaz ehtiyatlarının ixracı isə dünya üzrə hasilatın maksimum 10%-ni təşkil edə bilər. Bu isə o deməkdir ki,

Xəzər İran körfəzi ilə əhəmiyyətli rəqabət apara bilməz, amma Meksika körfəzi və Şimal dənizi ilə müqayisəyə gələ bilər.

Bu regionun enerji ehtiyatları ilə bağlı hətta ən optimal qiymətləndirmələr belə, yalnız Səudiyyə Ərəbistanının ehtimal olunan ehtiyatlarından dəfələrlə azdır. Ona görə də Xəzər hövzəsinin enerji ehtiyatlarını ən yaxşı halda Şimal dənizinin mövcud ehtiyatları ilə müqayisə etmək məqsədəuyğun olardı.

Xəzər hövzəsinin Yaxın Şərqlə müqayisəsi yalnız resurslara münasibətdə deyil, həm də hasil olunan neftin maya dəyərində də özünü büruzə verir. Məsələn, «Tengiz» yatağı istismar olunmaqla, Xəzər dənizində neftin 1 barelinin maya dəyəri orta hesabla 5 dollar arasında dəyişir və hətta bəzi yataqlarda hasilat daha baha başa gəlir.

Xəzər regionunda yerləşmiş dövlətlər tərəfindən hasil və ixrac edilən neftin miqdarı haqqında məlumatlar cədvəl 43-də verilmişdir.

*Cədvəl 43*

***Xəzər regionu üzrə neftin hasilatı və ixracı, gün ərzində min barel***

| Dövlətlər | Neft hasilatı | | İxracın xalis həcmi | | 2004-2010-cu illərdə nəzərdə tutulan ixrac |
|---|---|---|---|---|---|
| | 1990 | 1997 | 1990 | 1997 | |
| Azərbaycan | 259,3 | 192,9 | 76,8 | 54,8 | 1000-1500 |
| Qazaxıstan | 602,1 | 573,3 | 109,2 | 310,9 | 2000 |
| Türkmənistan | 124,8 | 107,3 | 69,0 | 39,2 | 50 |
| Rusiya | 144,0 | 60,0 | – | – | – |
| Yekunu: | 1130,2 | 933,5 | 255 | 404,9 | 3050-3550 |

## 4.2. Müasir dövrdə Xəzərin karbohidrogen resurslarından istifadə problemləri

Yaxın gələcəkdə respublikamızın iqtisadiyyatının dirçəldilməsində ölkəmizin təbii sərvətləri, xüsusilə də neft və qaz yataqları mühüm rol oynayacaqdır. Ona görə də bazar iqtisadiyyatına keçid dövründə əsas məsələ Azərbaycan iqtisadiyyatına maraq göstərən xarici ölkələrin kapitallarını xammal istehsal edən sahələrin inkişafına deyil, əsasən əhali üçün son məhsullar buraxan sahələrin inkişafına yönəldilməsini təmin etməkdən ibarətdir.



Qeyd etmək lazımdır ki, Azərbaycan nəinki qeyri-filiz faydalı yataqlarla, eyni zamanda maye və qaz halında olan faydalı qazıntılarla da məşhurdur. Məsələn, maye və qaz halında olan faydalı qazıntılardan neft və qaz respublikamızın iqtisadiyyatının əsasını təşkil edir. Özü də bəzi ölkələrdən fərqli olaraq Azərbaycanda neft və qaz həm quru, həm də dəniz neft-qaz yataqlarından çıxarılır. Quru ərazilərdən neft çıxarılması təqribən 1871-ci ildən, dənizdən isə 1949-cu ildən başlanmışdır. Quru ərazilərdə yerləşən neft-qaz yataqları, əsasən, aşağıdakı rayonlardadır: Balaxanı-Sabunçu-Ramana neft yatağı, Bibiheybət, Suraxanı, Binəqədi, Buzovna-Maştağa, Qala, Lökbatan, Aşağı Küryanlı, Murovdağ, Şamaxı-Qobustan, Umbakı, Siyəzən, Naftalan, Neftçala və s. neft-qaz yataqları. Xəzər dənizində Neft Daşları, Kürsəng-dəniz, Darvin adası, Qum adası, Qaradağ-dəniz, Səngəçal, Günəşli, Bahar, Çıraq və s. neft-qaz yataqları hazırda istismar edilməkdədir. Məlumat üçün qeyd edək ki, Azərbaycanda çıxarılan neftin təqribən 80%-i dəniz neft-qaz yataqlarının payına düşür (cədvəl 44).

Qeyd etmək lazımdır ki, neft və təbii qaz dünyanın bütün ölkələrinin energetika-yanacaq balansında mühüm yer tutur. Dünya ölkələri içərisində neft və təbii qazdan ən çox istifadə edən ölkə ABŞ-dır. Məlumat üçün qeyd etmək lazımdır ki, ABŞ-da adambaşına düşən neft və qazın illik miqdarı dünya səviyyəsinin orta qiymətindən təqribən 7 dəfə çoxdur. Ona görə də istehsal olunan neft və qazın illik miqdarı adamların tələbatını ödəmir. Bu səbəbdən də hazırda ABŞ neft və qaz hasil edən digər ölkələrdən, xüsusilə inkişaf etməkdə olan ölkələrdən xeyli miqdarda neft və neft məhsulları alır. Məsələn, ABŞ ildə təqribən 430 mln. ton neft istehsal etdiyi halda, Venesuela, Küveyt, Kanada, Səudiyyə Ərəbistanı, Əlcəzair, Liviya, Nigeriya və s. ölkələrdən hər il orta hesabla 110 mln. ton neft məhsulları və 265 mln. tondan çox xam neft alır.

Yeri gəlmişkən, qeyd edək ki, neft və təbii qaz ehtiyatları tükənməz deyildir. Alimlərin hesablamalarına görə, dünyada neft ehtiyatı 200-250 mlrd. tona, qaz ehtiyatı isə 1994-cü il məlumatına görə 142 trilyon kubmetrə bərabərdir. Odur ki, mütə-

Cədvəl 44

*1970-2005-ci illərdə Azərbaycanda neft-qaz hasilatı*

| İllər | Quruda | | Dənizdə | |
|---|---|---|---|---|
| | Neft, mln.ton | Qaz, mln.kubmetr | Neft, mln.ton | Qaz, mln.kubmetr |
| 1970 | 7,8 | 1748 | 13,7 | 3773 |
| 1975 | 5,9 | 1572 | 11,3 | 8318 |
| 1980 | 5,1 | 1227 | 9,6 | 12777 |
| 1985 | 3,9 | 714 | 9,2 | 13353 |
| 1990 | 2,6 | 401 | 9,9 | 9525 |
| 1995 | 2,3 | 237 | 7,5 | 6407 |
| 1996 | 2,4 | 299 | 7,5 | 6066 |
| 1997 | 1,6 | 255 | 7,5 | 5709 |
| 1998 | 1,7 | 252 | 9,8 | 5338 |
| 1999 | 1,2 | 243 | 12,3 | 5754 |
| 2000 | 1,5 | 231 | 12,5 | 5411 |
| 2001 | 1,6 | 242 | 13,3 | 5293 |
| 2002 | 1,5 | 245 | 13,8 | 4899 |
| 2003 | 1,6 | 274 | 13,8 | 4854 |
| 2004 | 1,7 | 230 | 13,8 | 4765 |
| 2005 | 1,9 | 240 | 20,3 | 5580 |

xəssislər həm quruda, həm də dənizdə yeni-yeni neft və təbii qaz yataqlarının kəşfi ilə əlaqədar bir çox işlər aparırlar, daha böyük dərinliklərdən neft və təbii qazın hasil edilməsi üçün yeni texnologiya və texnika hazırlayır, quyunun neft hasilatının süni yollarla artırılması üçün elmi-tədqiqat işlərini genişləndirirlər, neft və qaz çıxaran ölkələr arasında inteqrasiyaya daha çox fikir verilir və s.

Alimlərin hesablamalarına görə, neft ehtiyatının təqribən 66%-i və təbii qaz ehtiyatının isə 32%-i Orta Şərq ölkələrində, keçmiş SSRİ-də neft ehtiyatları 6% və təbii qaz ehtiyatı isə 40% təşkil edir. 1993-cü ildə dünyada 3,2 mlrd. ton neft çıxarılmışdır ki, bunun da 30%-i Orta Şərq ölkələrinin, 12%-i isə keçmiş SSRİ-nin tərkibində olan respublikaların payına düşür. Dünyada neft və təbii qaz ehtiyatlarının təqribən 72%-i, hasilatın isə 42%-i Orta Şərq və keçmiş SSRİ-nin payına düşdüyü



halda, neft istehsalının 28%-i Şimali Amerikanın, 31%-i Avropanın, 24%-i Asiya və Avstraliyanın, təbii qaz istehlakının isə 33%-i Şimali Amerikanın, 45%-i Avropanın, 9% isə Asiya və Avstraliyanın payına düşür.

Son məlumata görə, dəniz yataqları dünya neft ehtiyatının beşdə birini təşkil edir. Elə ona görə də hazırda okean və dənizlərdə neft-qaz yataqlarının axtarışına və kəşfiyyatına diqqət xeyli artmışdır. Məsələn, hazırda dünya miqyasında neft hasil edən 100-dən çox ölkədən təxminən 45-i dəniz və okeanlarda yerləşən neft-qaz yataqlarının axtarışı, kəşfiyyatı və işlənilməsi ilə məşğuldur. ABŞ-da dəniz neft-qaz yataqları Luiziana və Texas ştatlarının kontinental şelf sahəsində, qərb sahil zonasında, Alyaska ştatının Kuk körfəzində və həmin ştatın şimal hissəsində müəyyən edilmişdir. Məlumat verilir ki, son zamanlar böyük ehtiyata malik olan neft-qaz yataqları Meksikanın dəniz akvatoriyasında kəşf edilmişdir. Venesuelanın ümumi neft ehtiyatının üçdə iki hissəsi Marakaib gölündə kəşf olunan neft yataqlarının payına düşür. Qeyd olunur ki, hazırda böyük neft-qaz ehtiyatlarına malik olan Şimal dənizində (B. Britaniya, Niderland, Norveç ərazilərində) böyük kəşfiyyat işləri aparılır. Bundan başqa, Afrika qitəsinin qərb və şərq sahillərində (Hind və Atlantik okeanlarında), Fars körfəzində, İndoneziyanın dəniz sularında (Yavna dənizində), Aralıq dənizində, Atlantik okeanının şərq sahillərində, Latın Amerikasının qərb zonalarında, Benqal körfəzində və s. ərazilərdə də neft-qaz yataqlarının kəşf edilməsi ilə əlaqədar bir çox işlər aparılır.

Keçmiş SSRİ-nin ərazisində sualtı neft-qaz yataqlarının Xəzər dənizində, Şimal Buzlu okeanda, Qara dənizdə, Azov dənizində, Baltik dənizində, Sakit okeanda kəşf olunduğu artıq məlumdur. Bunlardan Xəzər dənizi akvatoriyası daha ətraflı öyrənilmişdir. Hazırda burada axtarış, kəşfiyyat işləri, neft-qaz yataqlarının qazılması və onların istismarı Azərbaycan, Dağıstan, Türkmənistan, Qazaxıstan və İran ərazilərində aparılır. Hazırda Azərbaycan Respublikasında 15,8 mln. ton neft və 4,9 mlrd. kubmetr qaz hasil edilir. Neft hasilatının təqribən 80%-dən çoxu dəniz neft yataqlarının payına düşür. Ona görə də neft hasilatını dəniz neft yataqlarının hesabına artırılması ön plana çəkilir.

Xəzər regionunun karbohidrogen potensial böyükdür. Azər-

baycan və Rusiya alimlərinin yenicə çapdan çıxmış «Moskva-Bakı» ünvanlı müştərək monoqrafiyası belə adlanır: «Xəzər regionunun karbohidrogen potensialı». Çoxillik tədqiqatların birmənalı nəticəsi budur: Xəzər regionunun karbohidrogen ehtiyatları böyükdür.

Məlum olduğu kimi, son dövrlərə qədər rusiyalı alimlər Xəzərin karbohidrogen ehtiyatları məsələsinə, əsasən də Azərbaycan sektorunun potensialına şübhə ilə yanaşırdılar. Elmilikdən daha çox siyasi mülahizələrə əsaslanan bu mövqeni başa düşmək olardı. «Əsrin müqaviləsi» imzalanan dövrdə Rusiya ilə Azərbaycan arasında Xəzərin hüquqi statusu məsələsində fikir ayrılığı var idi. Azərbaycan Xəzərin göl kimi milli sektorlara bölünməsində, Rusiya isə dəniz kimi qəbul olunmasında israrlı idi. Rusiyanın keçmiş rəhbərliyi hətta «Əsrin müqaviləsi» imzalanarkən öz etirazını bildirmiş, Rusiya XİN BP-yə etiraz notası göndərmişdi. Amma indi vəziyyət dəyişmiş, Rusiyada hakimiyyətə gəlmiş praqmatik qüvvələr Azərbaycanın haqlı mövqeyini dəstəkləmişlər. Odur ki, rusiyalı alimlərin də elmi mövqedən çıxış etmələri, Xəzərin karbohidrogen ehtiyatlarını real qiymətləndirmələri gözlənilən idi.

Müəlliflərin gəldiyi əsas nəticə budur ki, Xəzər regionu karbohidrogen ehtiyatlarının yüksək səviyyəsi ilə xarakterizə olunur. Bu ehtiyatların həcmi regionun yalnız dəniz hissəsində 50 milyard ton səviyyəsindədir. Bu ehtiyatların mənimsənilməsində təbii fəlakətlərlə – zəlzələlərlə, palçıq vulkanları ilə, dəniz səviyyəsinin dəyişməsi ilə əlaqədar olan geodinamik risklər mütləq nəzərə alınmalıdır.

Xəzər regionunda yüksək ehtiyat potensialına malik olan iki kateqoriya qurşaq ayırmaq olar: neft-qaz sənayesi üçün təhlükəli olan seysmik və aseysmik qurşaqlardır. Birinci kateqoriyaya aşağıdakı qurşaqlar aiddir: Şimali Xəzər hövzəsinin cənubu, Orta Xəzər hövzəsinin şimal və Cənubi Xəzər dərin çökəkliyi. İkinci kateqoriyaya isə Abşeron-Balaxanı kandarı, Şimali Abşeron əyintisi və Kür çökəkliyi ilə birlikdə Terek-Xəzər əyintisi, Cənubi Xəzər qobusunun qərb və şərq yamacları, Şimali-Qərbi kəsici qurşağı, Dərbənd qobusu və Orta Xəzər hövzəsinin mərkəzi hissəsi daxildir.

Regionda potensial ehtiyatların ən böyük sıxlığı isə Cənubi



Xəzər hövzəsi Abşeron-Balaxanı kandarı qovşağının şimali-qərb hissəsində – Azərbaycan ərazisində müşahidə olunur. Karbohidrogen ehtiyatlarının paleozoy – dördüncü dövr çöküntülərində dəniz və kontinent üzrə paylanması isə cədvəl 45-də göstərilən kimidir.

*Cədvəl 45*

***Karbohidrogen ehtiyatlarının paleozoy – dördüncü dövr çöküntülərində dəniz və kontinent üzrə paylanması, (milyard tonla)***

| Milli sektorlar | Kontinent | Dəniz | Cəmi |
|---|---|---|---|
| Rusiya | 12 | 5,0 | 17,0 |
| Qazaxstan | 11 | 17,0 | 28,0 |
| Azərbaycan | 9,0 | 18,0 | 27,0 |
| Türkmənistan | 4,0 | 7,0 | 11,0 |
| İran | 2,0 | 5,0 | 7,0 |
| **Cəmi** | **38,0** | **52,0** | **90,0** |

Göründüyü kimi, Xəzər regionunda karbohidrogen ehtiyatları potensialının ən böyük həcmi Azərbaycan və Qazaxıstanın ərazisində müşahidə olunur.

Məlumdur ki, Azərbaycan Respublikası dünya miqyasında neft resursları ilə zəngin olan ölkələrdən biridir. Azərbaycan ta qədimdən özünün nefti ilə dünyada məşhur olmuşdur. Odur ki, neft resurslarından səmərəli istifadə olunması Azərbaycan üçün həmişə aktual problem olmuş və indi də olmaqdadır. Çünki neft resurslarından səmərəli istifadə olunarsa, ona olan tələbat da azalar. Digər tərəfdən, hazırda iqtisadiyyatın elə bir sahəsi yoxdur ki, orada neft və neft məhsullarından istifadə edilməsin. Deməli, iqtisadiyyat inkişaf etdikcə neft və neft məhsullarına olan tələbat da getdikcə artır. Gündən-günə neft və neft məhsullarına artan tələbatın ödənilməsində neft resurslarından səmərəli istifadə olunması mühüm rol oynaya bilər.

Ümumiyyətlə, resurs nədir? ***Resurs*** dedikdə, istər-istəməz, təbii, əmək, kapital və s. nəzərdə tutulur. Resursların əksər hissəsini təbii resurslar, o cümlədən neft resursları təşkil edir. Təbii resurslar – istehsala tətbiq etmək üçün yararlı olan potensial təbii qüvvələr və əşyalardır. Bunlar isə tükənən və tükənməyən, başqa sözlə, bərpa olunan və bərpa olunmayan resurslar

şəklində özünü göstərir. Bu və ya digər ərazilərdəki mövcud təbii resursların bütün məcmusu və onlardan istifadənin xarakteri nəzərə alınmaqla dəyərləndirilməsi təbii-resurs potensialını təşkil edir. Ölkənin təbii-resurs potensialı onun milli sərvətinin mühüm tərkib hissəsidir (***Milli sərvət*** dedikdə, əməklə yaradılan və cəmiyyətin malı kimi toplanmış maddi nemətlərin məcmusu nəzərdə tutulur. Milli sərvət xalqın maddi və mədəni həyat səviyyəsinin əsası, geniş təkrar istehsal prosesindəki maddi zəmini və nəticəsidir). Təbii-resurs potensialının saxlanması, mühafizəsi və bərpası problemi təbiətin mühafizəsinin mühüm vəzifələrindən biridir; təbiətin mühafizəsi isə təbiətlə cəmiyyətin qarşılıqlı fəaliyyətinin tarazlaşdırılmasına yönəldilmişdir.

Bazar münasibətləri şəraitində Azərbaycanın iqtisadiyyatında, mədəni inkişafında, sosial problemlərin həllində neft-qaz resursları başlıca rol oynayır. Son iki əsrdə neft-qaz resursları Azərbaycanın iqtisadi həyatında mühüm mərhələni formalaşdıraraq, həm də milli-mental dəyərlərdə əksini tapmışdır. Ölkəmizin malik olduğu təbii sərvətlərinin əksər hissəsini təşkil edən neft-qaz resursları üzərində qurulan sənaye indi də iqtisadiyyatımızın aparıcı sahəsi olaraq qalmaqdadır. Neft resurslarından səmərəli istifadə olunması onların təsnifləşdirilməsini zəruri edir. Məşhur rus neftçi alimi Qubkin resursları hazırlanmış, tədqiq edilmiş, görünən, güman edilən və geoloji təsnifata müvafiq olaraq 5 qrupa ayırmışdır. Daha sonralar, yeni Sovet hakimiyyəti illərində neft resursları aşağıdakı 4 qrupa ayrılmışdır:

a) tam öyrənilmiş;
b) karotaj və qazma ilə müəyyən edilmiş;
c) geoloji öyrənilmiş və bir quyu qazılması ilə təsdiq edilmiş;
ç) yeni strukturdakı resurslar.

ABŞ-ın mütəxəssisləri neft resurslarını sübuta yetmiş, mümkün, ehtimal olunan və hipotetik qruplara ayırırlar.

Rusiyalı iqtisadi alim Arbatov neft resurslarının hasilatı ilə əlaqədar olan zərrəcikləri nəzərə alaraq onları beş qrupa ayırır: birincisi, yüksək səmərəli resurslar; ikincisi, qeyri-dayanıqlı səmərəliliyə malik olan resurslar; üçüncüsü, kiçik səmərəli resurslar; dördüncüsü, marginal (sosial) səmərəlilik resurslar və nəhayət, beşincisi, balansarxası resurslar (istismarı müasir tələblər baxımından öyrənilir).



İqtisadi yanaşmada neft və qaz resursları işlənməsi təsnifatında balans və balansarxası bölgüyə də məruz qalınır. Balans resursları sənaye ehtiyatları anlayışını verərək, istismarı mümkün olan resurslardır. Balansarxası resursları isə indiki məqamda, dövrdə istismarı qeyri-rentabelli olan resurslar hesab edilir.

Təbii resurslar təhlil edilərkən iqtisadçı alimlər onları iki qrupa ayırırlar: a) mənimsənilmiş resurslar – bu resurslar istehsalçısının tam ixtiyarında olur; b) mənimsənilməyən resurslar – fərdi istehsalçılar üçün dəyərsiz, cəmiyyət üçün isə dəyərli olan resurslardır. Neft resurslarının təsnifatı sxemi şəkil 1-də göstərilən kimidir.

Məlumat üçün qeyd edək ki, müasir dövrdə neft-qaz resurslarının əksər hissəsi Xəzər dənizinin Azərbaycan sektorunun payına düşür. Proqnozlara görə, Xəzər hövzəsinin və onun Azərbaycana aid hissəsinin neft resurslarının həcmi 20 mlrd. ton şərti yanacağa və ya 14 mlrd. tona bərabərdir. ABŞ mütəxəssislərinin proqnozlarına görə, 2015-ci ilə qədər regiondan neft ixracatı hər il 100, maksimum 200 mln. ton, qaz ixracatı isə dünya üzrə hasilatın maksimum 10%-ni təşkil edə bilər. Bu isə o deməkdir ki, Xəzər İran körfəzi ilə əhəmiyyətli rəqabət apara bilməz, amma Meksika körfəzi və Şimal dəniziylə müqayisəyə gələ bilər. Dünyanın və Xəzərin təsbit olunmuş neft resurslarının həcmi haqqında məlumatlar cədvəl 46-da verilmişdir.

2004-cü ilədək Azərbaycanda ümumilikdə yerin təkindən 1,4 mlrd. ton neft, 450 mlrd. kubmetr qaz hasil edilib. Hasil edilmiş neftin 87%-i quru, 59%-i isə dəniz neft yataqlarının payına düşür. Azərbaycanda hasil edilən neft və qaz resurslarının əksər hissəsi (təqribən 89,2%-i) dəniz neft-qaz yataqlarının payına düşür. Perspektivdə dəniz mədənlərində neft hasilatının dəfələrlə artacağı və ümumi hasilatda bunun 97%-dən çox olacağı gözlənilir.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda çıxarılan neftin maya dəyəri bütövlükdə baha başa gəlir. Buna ARDNŞ-in infrastrukturunun kifayət qədər köhnə olması, işçi heyətinin çox saxlanılması və s. amillər təsir göstərir. Müqayisə üçün deyək ki, Azərbaycanda neft hasilatının xərcləri Küveyt və Qətərdən 8-10 dəfə yüksəkdir. Məsələn, Küveytdə 1 barel neftin maya dəyəri 1 dollar olduğu halda, həmin rəqəm bizdə 1,2-2 dollara bərabərdir.




*Şəkil 1*

BP şirkətinin ekspertlərinin qiymətləndirilməsinə görə, Azərbaycan nefti indiki templə hasil edilərsə, onda yaxın 67 ildə tükənə bilər. Rusiya mütəxəssislərinin hesablamalarına görə, bu müddət ən yaxşı halda 35 ilə, pis halda isə 25 ilə bərabər ola bilər. Deməli, Azərbaycanda neft resurslarından səmərəli istifadə olunması günün ən aktual problemlərindən biridir.

Azərbaycanın ən böyük neft resursları «Günəşli» yatağındadır. Yataqda ilk neft quyusu 1980-ci ildə qazılıb. Həmin vaxtdan indiyədək strukturda 221 quyu qazılıb və hazırda ildə 6,6 mln. ton neft hasil edilir ki, bu da ümumi neft hasilatının təqribən 73%-ni təşkil edir. Respublikamızın ümumi qaz hasilatının 48,5%-i isə «Günəşli» yatağının payına düşür. «Günəşli» yatağının dayaz sulu hissəsi indi sutkada 16 min tondan çox neft verir. Bu yatağın dərin sulu hissəsinin istismarına isə ABƏŞ 2007-ci ildən başlamağı planlaşdırır.



*Cədvəl 46*

***Dünyanın və Xəzərin təsbit olunmuş neft resurslarının həcmi***

| | Mlrd. barel | Mlrd. ton | Yekuna görə %-lə |
|---|---|---|---|
| Yaxın Şərq ölkələrində | 654,0 | 89,6 | 59,7 |
| Şimali Amerika ölkələrində | 87,7 | 12,0 | 8,0 |
| Latın Amerikası ölkələrində | 68,0 | 9,3 | 6,2 |
| Afrika ölkələrində | 56,9 | 7,8 | 5,2 |
| Asiya ölkələrində | 45,1 | 6,2 | 4,1 |
| Avropa (MDB-siz) ölkələrində | 18,5 | 2,5 | 1,7 |
| MDB ölkələrində | 165,5 | 22,7 | 15,1 |
| o cümlədən: Rusiya | 136,5 | 18,7 | 12,5 |
| Xəzərsahili ölkələrində | 29,0 | 4,0 | 2,6 |
| **Cəmi** | **1095,7** | **150,1** | **100** |

Azərbaycanda təbii qaza olan tələbat ildə 12-14 mlrd. kubmetrdir. Lakin ölkənin daxili qaz istehsalı bu tələbatı ödəmir. Qaz hasilatı ilə məşğul olan ARDNŞ-nin illik istehsal həcmi 4,5-4,6 mlrd. kubmetrdir. ABƏŞ «Çıraq» platformasından səmt qazı kimi ildə 540-550 mln. kubmetr qaz təhvil verir. Azərbaycanda mövcud və işləyən yataqlar üzrə qaz ehtiyatları tükənmək üzrədir. Proqnozlara görə, 2010-cu ildə respublikanın qaz hasilatı ildə 1 mlrd. kubmetrə düşəcək. Hazırda Azərbaycanda hasil edilən qazın 30-40%-i «Bahar» yatağından əldə edilir. Lakin bu yataqdan da qaz hasilatı getdikcə tükənir. Belə ki, mütəxəssislərin hesablamalarına görə, 2005-ci ildə burada hasilat 0,6 mlrd. kubmetrə düşmüşdür. Bundan başqa, ölkənin iki böyük qaz yatağı – «Bulla-dəniz» və «8 mart» yataqları da var. Hər iki yataqdan birlikdə 2 mlrd. kubmetr qaz hasil edilir. Lakin 2005-ci ildən bu rəqəm 0,6 mlrd. kubmetrə qədər azalmışdır. 2005-ci ildən «Şahdəniz» yatağından qaz hasilatına başlanmışdır.

Lakin Xəzər regionunun bəzi problemləri mövcuddur. Xəzər, məlum olduğu kimi, dünyanın okeana çıxışı olmayan, ən böyük qapalı dənizdir. Sahəsi 378,4 min kv.km., sahil xəttinin

ümumi uzunluğu 7 min km-dir. Xəzərin təbii sərvətləri dedikdə, neft və qaz yataqları, bir də əsasən nərəkimilərdən ibarət olan balıq ehtiyatları nəzərdə tutulur. Xəzərin bütün münaqişəli problemləri də, şübhəsiz ki, bu sərvətlərin bölünməsi ətrafında yaranır. Xəzərin hüquqi statusunun təyin olunması bu sərvətlərin sahilyanı ölkələr – Rusiya, Qazaxıstan, Azərbaycan, Türkmənistan və İran arasında ədalətli, beynəlxalq normalar əsasında bölünməsini tənzimləyəcək.

Hazırda bütün dünyanın diqqəti Xəzərin neft-qaz yataqlarına yönəlmişdir. Bu da təbiidir. Əvvəla, bütün dünyada neftə və qaza tələbat getdikcə artır. Xəzərin münaqişəli problemləri də birinci növbədə dənizin şelfində perspektivli strukturların bərabər paylanması ilə əlaqədardır. Xəzər şelfinin karbohidrogenlərlə zəngin strukturları Şimalda Qazaxıstanın, cənubda isə Azərbaycanın və Türkmənistanın milli sektorlarına (sahil xətti üzrə) təsadüf edir. Xəzərin Rusiya sektoru o qədər də zəngin (hazırkı məlumatlara görə) hesab olunmur, İran sektorunda isə axtarış-kəşfiyyat işlərinin aparılması dərinlik səbəbindən xeyli çətindir. Hazırda neft-qaz istehsalının dünyada ən perspektivli biznes növünə çevrildiyini nəzərə alsaq, aralarında münaqişələr yaranan Xəzəryanı dövlətləri də başa düşmək olar. Amma hamısını yox. Diqqət edin: regionun ən iri dövlətləri olan Rusiyanın və İranın milli sektorları bir o qədər də (o biri sərvətlərlə müqayisədə) zəngin sayılmır. Amma Rusiyanın da (Tümen vilayəti), İranın da (Fars körfəzi) Xəzərdən kənarda az qala Xəzər boyda neft ehtiyatları var. Bununla belə, Rusiya və İran Xəzərin statusu məsələsində tamamilə fərqli mövqe tuturlar. Məsələn, Rusiyanın keçmiş rəhbərliyi bu məsələdə qeyri-konstruktiv mövqe tuturdu. Xəzərin dəniz kimi bölünməsini (dəniz şelfinin sahildən 200 km-lik məsafədə hesablanmasını) tələb edirdi. Halbuki Xəzərin ölçüləri kiçikdir və bu cür bölgü məqbul deyildir. 2000-ci ildə Rusiyada hakimiyyət dəyişdikdən, rəhbərliyə yeni fikirli qüvvələr gəldikdən sonra məsələyə münasibət dəyişdi. Yeni rəhbərlik Xəzərin dibinin orta xətt üzrə bölünməsi, suyunun isə ümumi istifadədə saxlanması təklifini müdafiə etdi. Qeyd etmək lazımdır ki, yaranmış yeni geosiyasi situasiyada bu ən optimal çıxış yolu idi. Azərbaycan və Qazaxıstan artıq 1994-1995-ci illərdən bəri öz milli sektorlarında, beynəlxalq müqavi-



lələr əsasında iş aparırdı. Doğrudur, Rusiyanın keçmiş rəhbərliyi Xəzərin Azərbaycan sektorunda aparılan işlərə etiraz etmiş, Xarici İşlər Nazirliyi səviyyəsində BP-yə etiraz notası göndərmişdi. Amma Azərbaycan beynəlxalq hüquq normalarına uyğun mövqe tutur, öz sektorunda işlərini davam etdirirdi. İran tərəfi isə əvvəlcədən qeyri-konstruktiv mövqe tuturdu. Cənub qonşumuz Xəzərin heç bir beynəlxalq normaya uyğun olmayan kondominimum (hər dövlətə 20 faiz olmaqla sahilyanı xətt üzrə 5 bərabər hissəyə bölmə) kimi bölünməsində israr edirdi. Bu variantın sair neqativ tərəflərini kənara qoysaq belə, Azərbaycanın Lənkəran və Astara inzibati dairələrinə aid olan Xəzəryanı şelfinin İran sektoru hesab olunması heç bir məntiqə sığmırdı. Bu, problemi həll etmək deyil, bir dövləti razı salmaq xatirinə sonsuz sayda yeni problemlər yaratmaq demək idi. Odur ki, bu variant Xəzəryanı dövlətlərin heç biri tərəfindən ciddi qəbul olunmadı və indi də olunmur.

Qeyd etmək lazımdır ki, Qazaxıstan Rusiya ilə bu sahədə bütün problemlərini keçən əsrin axırlarında (1998) həll edib, Xəzərin şimal hissəsinin orta xətt üzrə bölünməsi haqqında müqavilə bağlayıb. Yeni əsrin əvvəllərində (2001) Azərbaycan da bu müqaviləyə qoşulub və Xəzərin şimalında problemlərimiz qalmayıb. Amma məsələ ondadır ki, Xəzərin Azərbaycan sektorunun neftlə zəngin strukturları (o cümlədən Azəri, Çıraq, Günəşli) daha çox cənub istiqamətində cəmləşib. Bu da Türkmənistanla problemlərin yaranmasına səbəb olur. Doğrudur, Türkmənistan prinsip davası aparmır, Rusiyanın təklif etdiyi prinsiplə – dənizin dibinin orta xətt üzrə bölünməsi ilə razıdır. Amma bu orta xəttin haradan keçməsi, daha doğrusu, bu və ya digər neft yatağının hansı sektora düşməsi məsələsini problemə çevirir. Amma bu – ümumi prinsipin qəbul olunması artıq məsələnin həlli prosesinin başlanğıcı deməkdir. Azərbaycan xarici işlər nazirinin müavini, Xəzərin statusu üzrə ekspert Xələf Xələfov da hesab edir ki, Rusiya, Qazaxıstan və Azərbaycan tərəfindən qəbul olunan orta xətt prinsipini əsas tutmaqla Xəzərin statusu məsələsini həll etmək olar.

Xəzər regionunun ikinci qrup problemləri istehsal olunan neftin və qazın daşınması ilə əlaqədar meydana çıxır. Axı, nefti tapmaq, çıxarmaq hələ işin yarısıdır. Onu dünya bazarlarına

nəql etmək, alıcıya çatdırmaq lazımdır. Bunun üçün beynəlxalq əhəmiyyətli neft kəmərləri çəkilməlidir. Bu kəmərlərin keçdiyi ölkələr də beynəlxalq standartlar əsasında müəyyən olunmuş tranzit xərci alırlar, həm də özlərinin yanacaq problemlərini həll edirlər. Kəmərlərin uzunluğu və nəql olunan neftin miqdarını nəzərə alsaq, bu, külli miqdarda vəsait deməkdir. Neft istehsal edən ölkələr, təbii ki, bu cür kəmərlərin çox olmasında maraqlıdırlar. Əvvəla, tranzit xərcini azaltmaq, sonra da tranzit ölkələrindən az asılı olmaq üçün.

Tranzit ölkələri isə əksinə, neft kəmərlərinin sayının az olmasında və yalnız öz ölkələrindən keçməsində maraqlıdırlar. Məsələn, Rusiya Qazaxıstan və Azərbaycan neftinin, eləcə də Türkmənistan qazının öz ərazisi ilə nəqlində maraqlıdır. Azərbaycan Rusiya ərazisindən keçən Bakı-Novorossiysk kəməri ilə yanaşı, Gürcüstan və Türkiyədən keçərək Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişində israrlıdır. Türkmənistan isə Xəzərin dibi ilə İran ərazisindən Azərbaycana keçəcək qaz kəməri çəkmək və eyni zamanda öz qazını Çinə də satmaq niyyətindədir. Karbohidrogen ehtiyatları ilə daha zəngin olan Qazaxıstan da kəmərlərin sayının çox olmasında maraqlıdır və Bakı-Novorossiysk və Bakı-Tbilisi-Ceyhan neft kəmərlərindən eyni zamanda istifadə etmək niyyətini gizlətmir.

Üçüncü qrup problemlər Xəzərin balıq ehtiyatlarının ədalətli bölünməsi ilə əlaqədardır. Hələ bir qədər əvvəl, SSRİ dövründə Xəzərin nərə balıqlarının və qara kürüsünün eksportundan gələn gəlirlər neft və qaz istehsalının gəlirləri ilə müqayisəolunan idi. Amma son dövrlərdə Xəzərdə ekoloji vəziyyətin gərginləşməsi və brakonyerliyin nəzarətdən çıxması qiymətli balıq növlərinin sürətlə azalmasına səbəb olmuşdur. Artıq nərəkimilərin bəziləri kökü kəsilmək təhlükəsinə məruz qalmışdır. Odur ki, bu şəraitdə Rusiya tərəfinin təklif etdiyi – Xəzərin suyunun ümumi istifadədə qalması məsələsi çox mühüm əhəmiyyət kəsb edir. Yəni ekoloji gərginliyi aradan qaldırmaq, balıq sərvətlərini qorumaq bir ölkənin, iki ölkənin işi deyil, bu layihələrə bütün sahilyanı ölkələr qoşulmalı və qüvvələr birləşdirilməlidir. Əks halda biz Xəzərin qiymətli balıq növlərini birdəfəlik itirə bilərik.

Nəhayət, dördüncü qrup problemlər Xəzərin silahsızlaşdırılması (demilitarizasiya) məsələləri ilə əlaqədardır. Bu məsələdə də fikir ayrılıqları mövcuddur, amma ortaq məxrəcə gəlmək imkanları da var. Məsələn, Qazaxıstan son zamanlar Xəzərin milli balıqçılıq sektorlarına bölünməsi təklifi ilə çıxış edir. Rusiya tərəfi isə buna qətiyyətlə etiraz edir. Rusiya xarici işlər nazirinin müavini Viktor Kolyuoni bunun mümkün olmadığını elan etdi. Əvvəla, bu, Xəzərdə yeni sərhədlərin yaranması və bu sərhədləri qorumaq üçün çoxlu miqdarda hərbi qüvvələrin cəlb olunması demək olardı. Sahilyanı ölkələr isə, məlum olduğu kimi, Xəzərin demilitarizasiyası problemləri üzərində düşünürlər. Digər tərəfdən, Xəzərin səthinin milli sektorlara bölünməsi ekologiya, balıqçılıq, gəmiçilik kimi sahələrin inkişafına tam mənfi təsir göstərə bilərdi. Məlum olduğu kimi, nə çirkli sular, nə də qiymətli balıqlar sərhəd tanıyır. Odur ki, rusiyalı diplomat Xəzərin səthinin ümumi istifadədə qalmasını daha məqsədəuyğun hesab edir.



Qeyd etmək lazımdır ki, Rusiya Xəzərdə silahların azaldılması təklifi ilə çıxış etsə də, tam silahsızlaşdırmanın əleyhinədir. V.Kolyuoni bunun təhlükəli olduğunu vurğulayır: «Yaxşı, tutaq ki, biz Xəzərdən bütün silahları və hərbi qüvvələri yığışdırdıq. Axı, beynəlxalq terrorizm bu fikirdə deyil, o, əksinə, bütün dünyanı silahla doldurmaq niyyətindədir. Biz Xəzəri tam silahsızlaşdırsaq, beynəlxalq terrorizmin yuvasına çevirə bilərik».

Azərbaycanda dəniz hüququ üzrə tanınmış mütəxəssis, politoloq Rüstəm Məmmədov da rusiyalı diplomatın fikrinin əsaslı olduğunu qeyd edir: «Rusiya Xəzərdə tam silahsızlaşdırmağa qol qoymaqla özünün cənub sərhədlərini boş qoymuş olur. Cənub isə Yaxın Şərqdən Əfqanıstana qədər münaqişə ocağıdır. İran da Xəzərdə silahlı qüvvələrini gücləndirmək niyyətini gizlətmir. Odur ki, Rusiya heç vaxt buna getməz. Əsas odur ki, Xəzərdə silahlar artmasın, olduğu səviyyədə qalsın».

Xəzəryanı ölkələrin əhalisi isə Xəzərin sülh və əmin-amanlıq dənizi olmasında israrlıdır. Qazaxıstanın tanınmış mədəniyyətşünas alimi Murad Auezov İran səfərindən sonra (7-8 may) bu qənaətə gəlib. Qazaxıstanın «Qazmunayqaz» milli kompaniyasının təşəbbüsü ilə keçiriləcək «Xəzər: neft və mədəniyyət ekspedisiyası» barədə danışıqlar aparan alim bu ölkədə ictimaiyyətin tam dəstəyini qazanıb. İran xalqı, əsasən də

Xəzəryanı sahələrdə yaşayan əhali Xəzərin mübahisə və münaqişə mənbəyi yox, sülh və əmin-amanlıq mərkəzi olmasını istənir. Konkret olaraq, Xəzər sahilində yerləşən Mazandaran quberniyasının rəhbərliyi tez bir zamanda «Xəzəryanı ölkələrin mədəniyyəti və sivilizasiyası: dünən və bu gün» mövzusunda konfrans keçirmək təklifi ilə çıxış etmişdir. Konfransda bütün Xəzəryanı ölkələrin – Rusiyanın, Azərbaycanın, Qazaxıstanın, və Türkmənistanın iştirakı nəzərdə tutulmuşdur.

Azərbaycan rəhbərliyi isə artıq bu məsələ ilə əlaqədar fikrini bildirib, Xəzərin silahsızlaşdırılması təklifi ilə çıxış edib. Növbə sair Xəzəryanı ölkələrindir. Bu, Xəzərin münaqişəli problemlərini həll etməyin, Xəzəri sülh və əmin-amanlıq dənizinə çevirməyin yeganə yoludur.

### 4.3. Xam neftin emalı və neft məhsulları

Neftin ilkin emalından öncə onu bu prosesə hazırlamaq lazımdır. Məlumdur ki, xam neftin tərkibində həll olunmuş su və bir neçə mineral duz olur. Əvvəlcə bu maddələrin neftdən ayrılması tələb olunur. Əgər bu proses aparılmasa sonradan bu mineral duzlar texnoloji avadanlıqları korroziyaya uğradaraq sonrakı emal prosesində kimyəvi reaksiyaların effektivliyini aşağı sala bilər. Mineral duzların və suyun xam neftdən ayrılması, təmizlənməsi «ELOU» adlanan xüsusi avadanlıqda aparılır. Bu texnoloji prosesin əsas mahiyyəti ondan ibarətdir ki, xam neft deemulqator su məhlulu ilə qarışdırılır. Sonra alınmış məhlul +80-120 dərəcəyə qədər qızdırılaraq elektrik cərəyanı sahəsinə ötürülür. Bu prosesin nəticəsində neftdə həll olunmuş su və qeyri-üzvi birləşmələr ondan ayrılır. Texnoloji baxımdan xam neft yalnız o vaxt ilkin emala hazır hesab edilir ki, «hazırlıq» mərhələsi nəticəsində onun tərkibində duzların xüsusi çəkisi 3-4 mq-dan çox olmasın və su 0,1%-ə yaxın olsun. Bu proses başa çatdıqdan sonra xam neftin ilkin emalına başlanılır.

***Neft emalı*** – neftin mexaniki qatışıqlarından təmizlənib distillə vasitəsilə lazımi fraksiyalara ayrılması prosesidir. Arxeoloqların fikrincə, neftdən e.ə. 6-cı minillikdə istifadəyə başlanmışdır. E.ə. 3-cü minillikdə Mesopotamiya və Misirdə asfaltdan sukeçirməyən və birləşdirici maddə kimi inşaatda istifadə edildiyi göstərilir. O dövrdə neft piltəli çıraqlarda yandırılır, dəyirman preparatları kimi işlədilir, onun şora, kükürd və qatran qarışığından hərbi məqsədlə «yandırıcı ox» hazırlanmasında istifadə edilirdi.



Bakıda neft çıxarılmasını, qeyd etdiyimiz kimi, XIII əsrdə italyan səyyahı Marko Polo təsvir etmişdir. O göstərirdi ki, Bakı neftini çıraqlarda yandırır və onunla dəri xəstəliklərini müalicə edirlər. XVI-XVII əsrlərdə Bakıdan Rusiyanın mərkəz rayonlarına neft göndərilməyə başlanmışdır. Müalicə məqsədi ilə işlədilən neftin xoşagəlməz iyini (qoxusunu) aradan qaldırmaq və ya heç olmazsa azaltmaq üçün eramızın əvvəllərində onu distillə yolu ilə təmizləməyə başlamışlar. Qədim müalicə kitablarında Roma həkimi Kassiya Feliks və XI əsr ərəb alimi İbn Sinanın distillə üsullarına aid təcrübələri təsvir edilmişdir.

Bakı neftinin distillə edilməsini ilk dəfə XIII əsrdə orta əsr müəllifi Nəcib Bəkran-əl-Həmdani qələmə almışdır. Neftin kubda vaxtaşırı qızdırmaqla distillə edildiyi ilk nefttəmizləmə qurğu 1823-cü ildə Mozdok şəhəri yaxınlığında təhkimçi kəndli Dubinin qardaşları tərəfindən tikilib istifadəyə verilmişdir. Kuba hər dəfə 40 vedrə xam neft doldurulur və ondan 16 vedrə distillə edilmiş neft məhsulları alınırdı. 1837-ci ildə Balaxanıda işə salınan neftayırma qurğusunda 19,4 ton xam neft distillə edilmişdir. 1861-ci ildə Suraxanıda sənaye sahibkarı Kokorev D.İ.Mendeleyevin köməyi ilə kerosin zavodu tikmişdir. Bakılı texnik Cavad Məlikov 1863-cü ildə Bakıda və 1865-ci ildə Qroznıda ilk neftayırma zavodunu tikmişdir. Artıq 1868-ci ildə Bakıda 23 kiçik neftayırma zavodu işləyirdi. Neft emalı zavodlarında kerosin, mazut, az miqdarda sürtgü yağları və benzin alınırdı. XIX əsrin 70-ci illərində neft məhsullarına olan tələbat xeyli artdığından, neftayırma zavodlarında distillə kublarının sayı və həcmi artırıldı. Lakin, buna baxmayaraq, vaxtaşırı işləyən kublar bu tələbatı yenə də ödəyə bilmirdi.

1872-ci ildə icarə sisteminin ləğvindən sonra Azərbaycanda neft-qazçıxarma sənayesinin inkişafı üçün əlverişli şərait yarandı. Neft hasilatının artması neftayırma zavodlarına olan tələbatı xeyli artırdı. 1873-cü ildə A.Təbrizov neftin fasiləsiz emalı prosesini işləyib hazırladı. 1875-ci ildə Bakıda neft emalı müəssisələrinin sayı 62-yə, kerosin istehsalı 848,7 min puda çatdırıldı.

Bakıda neft-qazçıxarma sənayesinin cəmləşdiyi «Qara şəhər» yarandı. 1883-cü ildə D.İ.Mendeleyevin təklifi ilə «Nobel qardaşları» zavodunda ilk kub batareyası istifadəyə verildi və digər zavodlar tədricən bu üsulla neft emalına keçdi. XX əsrin əvvəllərində Rusiyada başlanmış iqtisadi böhran Azərbaycan neft-qazçıxarma sənayesində də özünü göstərdi. Azərbaycanda neft-qazçıxarma sənayesi müəssisələrinin sayı 91-dən (1901) 53-ə (1915), kerosin istehsalı 128,3 mln. puddan (1900) 73,4 mln. puda (1914) endi. Bu dövrlərdə Azərbaycan neft-qazçıxarma sənayesində xarici kapitalın rolu böyük idi. Təkcə kerosin istehsalının 75%-i «Nobel qardaşları» şirkətinin payına düşürdü.

Sonralar neft emalı zavodlarının sayı və məhsuldarlığı, habelə alınan neft məhsullarının çeşidi tədriclə artırıldı. 1920-1921-ci illərdə Bakıda neft emalı 1913-cü il səviyyəsinin 41%-ni təşkil etdi. Beləliklə də 1921-ci ildən sonra neftayırma zavodlarının bərpasına, texniki cəhətdən yenidən qurulmasına başlandı. 1927-ci ildə ilk dəfə olaraq Bakıda güclü borulu qurğu tikilib işə salındı. 1940-cı ildə benzin istehsalı 1913-cü il səviyyəsini 39 dəfə ötdü. 1953-cü ildə nəhəng Yeni Bakı neftayırma zavodu işə düşdü, digər neftayırma zavodları yenidən quruldu və müasir texnika ilə təchiz edildi. Bütün bunlar imkan verdi ki, Bakıda çıxarılan neftin əksər hissəsi Bakı neftayırma zavodlarında emal edilsin. 50-ci illərdə Bakıda fəaliyyət göstərən üç neftayırma zavodlarında təqribən 90 adda neft məhsulu (məsələn, benzin, kerosin, mazut, sürtgü yağları, aşqarlar, neft kimyası üçün xammal və s.) istehsal edilirdi. Həmin zavodlar tərəfindən istehsal olunan neft məhsulları nəinki keçmiş SSRİ-nin tərkibində olan respublikalara, həmçinin xarici ölkələrə də ixrac olunurdu. Hazırda həmin zavodlarda yenidənqurma işləri həyata keçirilir.

***Neft məhsulları*** – neftin emalı prosesi nəticəsində alınan karbohidrogenlərlə onların bəzi törəmələrinin qarışığı və ya fərdi kimyəvi birləşmələrdən ibarətdir. Onlardan yanacaq, sürtgü yağı, yol örtüyü, elektroizolyasiya materialı, həlledici, neft-kimya sənayesi üçün xammal kimi və başqa məqsədlər üçün istifadə edilir. Neft məhsuluna duru yanacaq və qaz yanacağı daxildir. Bura yerdən neftlə birgə çıxan qazların emal məhsullarından qazolin və qaz benzini, propan-butan fraksiyası, izobuti-



len, neft emalı qazları, benzin, kerosin və mazut da daxildir. Neft məhsullarının təqribən 60-65%-ni təşkil edən neft yanacaqları daxiliyanma mühərriklərində motor yanacağı kimi işlədilir.

Neft yağları öz həcmi və əhəmiyyətinə görə neft məhsullarının ikinci böyük qrupunu təşkil edir. Onların çoxu sürtgü yağlarıdır. Elektroizolyasiya yağlarının və texnoloji yağların da sənaye əhəmiyyəti böyükdür. Sürtgü yağları üçün əsas göstəricilər onların özlülüyü, oksidləşməyə qarşı sabitliyi, yağlama qabiliyyəti, alışma və donma temperaturudur. Neftdən alınan sürtgü yağı materiallarına plastik yağlar və soyuducu mayelər də daxildir.

Texniki bitum materialları istehsalı həcminə görə xalq təsərrüfatında geniş tətbiq olunan neft məhsullarının üçüncü qrupunu təşkil edir. Onlar tərkibində çoxlu miqdarda asfalt-qatran birləşmələri olan ağır distillə qalıqlarını vakuum altında yenidən distillə edib, içərisindən hava keçirmək yolu ilə alınır.

Neft məhsullarının mühüm bir qrupunu bərk karbohidrogenlər – parafin, serezin, vazelin və s. təşkil edir. Onlar neft fraksiyalarının parafinsizləşdirilməsi zamanı çıxarılan məhsulları ayırıb təmizləmək yolu ilə alınır. Bərk karbohidrogenlərdən yeyinti, elektrotexnika, kağız və rezin sənaye sahələrində, plastik sürtgü yağları istehsalında, tibdə və s. istifadə edilir. Hazırda Bakının neftayırma zavodlarında 100-dən çox neft məhsulları istehsal edilir. 2002-ci ildə yanacaq bazarına (ixrac da daxil olmaqla) 5,5 milyon ton və ya əvvəlki ilin səviyyəsinin 100,2%-i qədər neft məhsulları göndərilmişdir. Neft məhsullarının 47%-i yanacaq mazutunun, 29%-i dizel yanacağının, 12%-i aviasiya və s. üçün ağ neftin, 11%-i avtomobil benzininin və digər neft məhsullarının payına düşür. Neft məhsullarının 55%-i ölkə daxilində satılmış, 45%-i isə xarici ölkələrə ixrac olunmuşdur. 2002-ci ildə daxili bazara göndərilmiş əmtəəlik neft emalı məhsullarının strukturunda yanacaq mazutu, ağ neft, dizel yanacağı və avtomobil benzini əksəriyyət təşkil etmişdir.

Neftbitun 69,3%-i, mühərrik yağlarının 62,1%-i, dizel yanacağının 60,1%-i, avtomobil benzininin 39,0%-i, aviasiya üçün ağ neftin 27,8%-i «Azərnefttəchizat» Birliyinə, avtomobil benzinin 45,9%-i, dizel yanacağının 29,2%-i «Azpetrol» holdinq LTD-yə, aviasiya üçün ağ neftin 61,9%-i «Azərbaycan Hava

Yolları» Dövlət Konserninə, məişət-soba yanacağının 86,8%-i və mühərrik yağlarının 37,9%-i Dövlət Xəzər Dəniz Gəmiçiliyinə, yanacaq mazutunun 97,5%-i «Azərenerji» Açıq Tipli Səhmdar Cəmiyyətinə göndərilmişdir. «Azərnefttəchizat» Birliyi ölkə istehlakçılarına bazar fondundan ağ neftin 86,7%-i, avtomobil benzininin 71,9%-ni, məişət-soba yanacağının 62,1%-ni, dizel yanacağının 46,6%-ni realizə etmişdir.

## 4.4. Neft və qazın nəql edilməsi marşrutları, onların siyasi-iqtisadi əhəmiyyəti

Müasir şəraitdə neft və təbii qazın nəql edilməsi mühüm məsələlərdən biridir. Adətən, neft və neft məhsulları, həmçinin təbii qaz aşağıdakı nəqliyyat növlərindən istifadə etməklə istehlakçılara çatdırılır:

***Dəmiryolu nəqliyyatı*** – neft və neft məhsullarının nəqlində əsas yerlərdən birini tutur. Hazırda nəql olunan bütün neft və neft məhsullarının təqribən 40%-i dəmiryolu ilə daşınır. Dəmiryolu ilə neft və neft məhsullarının nəql olunmasının əsas xüsusiyyətlərindən biri odur ki, o, ilin fəsillərindən asılı olmayıb bütün il boyu işləyir. Dəmiryolu ilə neft və neft məhsullarının daşınmasının müsbət cəhətləri ilə yanaşı, onun qüsur, mənfi cəhətləri də vardır: tikinti zamanı böyük həcmdə əsaslı vəsait qoyuluşu tələb edir; istismar xərcləri çox olur; xidmət və təmir işlərinə çoxlu vaxt və vəsait sərf edilir.

Azərbaycanda ilk dəmiryolunun çəkilişinə 1878-ci ildə başlanmışdır və 1880-ci ilin yanvarında Bakı-Sabunçu-Suraxanı xətti istifadəyə verilmişdir. Bu xətt neft mədənlərini kerosin zavodları və dəniz portu ilə birləşdirdi və neft daşınmasında mühüm rol oynadı. 1883-cü ildə Bakı-Tbilisi xətti istifadəyə verildi və əvvəllər Tbilisidən Batuma və Potiyə çəkilmiş xətlər vasitəsilə Xəzər və Qara dəniz portları arasında birbaşa əlaqə yaradıldı. 1900-cü ildə istifadəyə verilən Biləcəri-Dərbənd xətti Zaqafqaziya Şimali Qafqaz və keçmiş SSRİ-nin başqa respublikaları və rayonları ilə, 1908-ci ildə istifadəyə verilən Culfa-Noraşen-Masis dəmiryolu isə Culfa stansiyasını Yerevanla və Zaqafqaziyanın digər məntəqələri ilə birləşdirdi. Bu xətlərdə nəinki sərnişin daşınırdı, həm də neft və neft məhsulları nəql



edilirdi. Dəmiryolu ilə neft və neft məhsullarını daşımaq üçün sisternlərdən istifadə edilir. ***Sistern*** latın sözü olub, su tutumu, yaxud su anbarı deməkdir. Stasionar sisternlər beton, dəmirbeton, polad, alüminium ərintilərindən hazırlanır. Dəmiryol sisternləri silindrik formalı qaynaqlanmış metal rezervuardan ibarət vaqondur. Mayeni boşaltmaq üçün xüsusi axıdıcı qurğu ilə təchiz edilir. Tutumu 140 tona qədərdir. Beləliklə də, dəmiryolu neft və neft məhsullarının ölkədaxili və ölkədən kənar daşınmasında mühüm rol oynadı.

***Dəniz nəqliyyatı*** – neft və neft məhsullarının, həmçinin digər maddi sərvətlərin və sərnişinlərin daşınmasında mühüm əhəmiyyət kəsb edir. Neft və neft məhsullarının dəniz nəqliyyat vasitələri ilə daşınması dəmiryolu ilə daşınmaya nisbətən az xərc tələb edir. Neft və neft məhsulları müxtəlif tipli dəniz və okeanlarda daşındığı üçün orada istifadə edilən gəmilər və tankerlər də bir-birindən fərqlənirlər. Neft və neft məhsullarını daşıyan gəmiləri hərəkətetmə xarakterinə görə iki qrupa ayırmaq olar: yedək gəmiləri ilə hərəkət etdirilən barjlar və özü hərəkət edən gəmilər. ***Tanker*** ingilis sözü olub, sistern, çən və tutum deməkdir. Tanker rezervuarlarında maye, yarımmaye və səpələnən yüklər (məsələn, neft, benzin, spirt, sürtgü və qida yağları, şərab, mayeləşdirilmiş qaz, yeyinti məhsulları və s.) daşıyan gəmidir. Tankerə yük qapalı boru kəməri ilə doldurulur və tankerdən gəmi nasosları ilə boşaldılır. Tankerin yükgötürmə qabiliyyəti 500 min tona qədər, subasımı isə 590 min tona qədər ola bilər.

XIX əsrin 70-80-ci illərində Azərbaycanda neft-qazçıxarma sənayesinin inkişafı dəniz nəqliyyat vasitəsilə yük dövriyyəsinin sürətli inkişafına səbəb olmuşdur. XX əsrin əvvəllərində Azərbaycanda neft və neft məhsullarının təqribən 80%-i dəniz nəqliyyat vasitələrindən istifadə etməklə nəql edilirdi. 1962-ci ildə Bakı və Krasnovodsk portları arasında böyük gəmi-bərələr işləməyə başlamışdır. Hazırda Xəzər dənizində yük dövriyyəsinin təqribən 42%-dən çoxu Bakı portunun payına düşür. Bakı portu Azərbaycanla İran arasında ticarət əlaqələrinin genişləndirilməsində də mühüm rol oynayır.

***Avtomobil nəqliyyatı*** – o zaman səmərəli olur ki, onlardan mərkəzləşdirilmiş qaydada istifadə edilsin. Avtomobil nəq-

liyyatı vasitəsi ilə, adətən, xüsusi kiçik qablarda neft və neft məhsulları nəql edilir. Uzaq məsafələrə neft və neft məhsullarının daşınmasında avtosisternlərdən istifadə edilir. Avtosistern maye və səpələnən yükləri daşıyan avtomobildir. Sistern silindrik, konusvarı və s. formada, həcmi 0,8-15 metrkub olur. Avtomobil nəqliyyatının üstünlükləri nəqliyyat xərclərinin az olması, asan idarə edilməsi, sürətli və mütəhərrik olması, başqa nəqliyyat növlərinin yardımı olmadan quruda yükləri lazımi məntəqəyə tez çatdırması, yükü tarasız, ya ucuz qablarda daşımasından ibarətdir. Göstərilən keyfiyyət xarakteristikasına görə avtomobil nəqliyyatı yükdaşıma həcminə görə nəqliyyat növləri arasında birinci yeri tutur.

***Aviasiya nəqliyyatı*** – vasitəsindən neft və neft məhsullarının, həmçinin mayeləşdirilmiş qazın digər nəqliyyat növlərindən istifadə edilməklə daşınması mümkün olmayan hallarda istifadə edilir. Hava nəqliyyatının əsas üstünlüyü yüksək sürətli uçuş hesabına vaxta qənaət etməsidir. Azərbaycanda hava nəqliyyatı 1924-cü ildə açılmışdır. Azərbaycan hava nəqliyyatının ölkənin yük dövriyyəsindəki payı digər nəqliyyat növlərinə nisbətən olduqca azdır, lakin sərnişin dövriyyəsindəki xüsusi çəkisi çoxdur.

***Boru kəməri*** – vasitəsilə neft, neft məhsulları, mayeləşdirilmiş və təbii qaz uzaq məsafələrə nəql edilir. Bu nəqliyyat növünün əsas üstün cəhətləri aşağıdakılardan ibarətdir: boru kəmərləri çox uzaq məsafəyə ən qısa yolla aparıla bilər; fasiləsiz nəqlolunmanı təmin etdiyi üçün xüsusi yığım məntəqələrinin yaradılmasına, tikilməsinə ehtiyac olmur; boru kəmərlərində məhsul itkisi az olur; boru kəmərləri ilə nəqlolunma maksimum mexanikləşdirməyə və avtomatlaşdırmaya imkan verir. Lakin bu nəqliyyat növünün müsbət cəhətləri ilə yanaşı, qüsurları da vardır. Əsas qüsur cəhəti ondan ibarətdir ki, bu zaman böyük metal sərfi və birdəfəlik vəsait qoyuluşu tələb olunur.

Boru kəmərləri nəql etdiyi məhsulun növündən asılı olaraq «neft kəmərləri», «qaz kəmərləri», «benzin kəmərləri» və «mazut kəmərləri» qrupuna ayrılır ki, bunlarda da yalnız adlarına uyğun gələn məhsullar, məsələn, neft, qaz, benzin və mazut nəql edilir. Neft və neft məhsullarının boru kəmərlərində hərəkət sürəti 1-1,5 m/san-yə bərabərdir. Uzunluğu 6 km olan ilk neft boru kəməri ABŞ-da çəkilmişdir. Azərbaycanda ilk neft kəməri 1878-ci ildə neft mədənlərindən neft emalı zavodlarına çəkilmişdir. 1897-1907-ci illərdə isə, həmin dövrdə dünyada ən uzun olan Bakı-Batumi magistral neft kəməri çəkilmişdir. Hazırda da istifadə olunan həmin neft kəmərinin uzunluğu 867 km, borusunun diametri 200 mm-dir; kəmər boyu 16 neftvurma stansiya var. Boru kəməri vasitəsilə yük dövriyyəsi 1990-cı ilə nisbətən sonrakı illərdə xeyli azalsa da, 1998-ci ildən başlayaraq çoxalmağa başlamışdır. 2002-ci ildə nəqliyyat sahəsində fəaliyyət göstərən müəssisələr və avtomobil nəqliyyatı üzrə çalışan fiziki şəxslər tərəfindən 97,9 milyon ton yük, 893,3 milyon nəfər sərnişin daşınmış, 2001-ci illə müqayisədə yük daşınması 5,7% artıb, sərnişin daşınmasının səviyyəsi isə təxminən 2001-ci ildəki qədər olub. 2002-ci ildə daşınmış yüklərin 54,9%-i avtomobil, 15,7%-i boru kəmərləri, 17,8%-i dəmir yolu, 11,6%-i isə dəniz nəqliyyatının payına düşür. Sərnişin daşınmasının 86,0%-i avtomobil nəqliyyatı, 12,9%-i Bakı Metropoliteni, qalanı isə dəmir yolu və su nəqliyyatı vasitəsi ilə həyata keçirilib. Yüklərin 56,0%-i, sərnişinlərin isə 85,0%-i qeyri-dövlət bölməsi ilə daşınıb.

Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan neft və qazın xarici bazarlara ixracı strategiyası 1996-cı və 2000-ci illərdən həyata keçirilməyə başlanmışdır. 1996-cı ildə Xəzər dənizinin Azərbaycan sektorunda çıxan neftin ixracı üçün iki neft boru kəmərinin: «Bakı-Novorossiysk» və «Bakı-Supsa» istiqamətlərində tikilməsi nəzərdə tutulmuşdur. Birinci neft boru kəməri Rusiya ərazisindən Qara dənizin Novorossiysk limanına, ikinci neft boru kəməri isə – Gürcüstan ərazisindən Qara dənizin Supsa limanına çıxır.

İlkin neftin ixracı üçün Rusiya və Gürcüstanla mühüm müqavilələr artıq imzalanmış və hazırda onlar müvəffəqiyyətlə həyata keçirilir. 1996-cı il yanvarın 18-də xam neftin nəqli barədə Azərbaycan və Rusiya arasında bağlanmış müqaviləyə əsasən Şimal neft boru kəmərində tikinti və bərpa işləri başa çatdırılmış, 1997-ci il oktyabrın 25-də Azərbaycan neftinin Novorossiysk limanına nəqli başlanmışdır. 1996-cı ilin mart ayında isə Azərbaycan və Gürcüstan Qərb ixrac boru kəmərinin inşasına dair dövlətlərarası müqavilə imzalanmışdır. Müqavilədə nəzər-

də tutulan işlərin uğurlu yerinə yetirilməsi nəticəsində 1999-cu il aprelin 17-də Gürcüstanın Qara dəniz sahilində terminalla birlikdə «Bakı-Supsa» ixrac neft boru kəməri istifadəyə verilmişdir. 2004-cü ilə qədər «Bakı-Novorossiysk» və «Bakı-Supsa» boru kəmərləri vasitəsilə təqribən 12,5 milyon ton xam neft ixrac olunmuş və bu zaman Xəzər dənizinin Azərbaycan sektorundan çıxarılan 1 milyard kubmetrdən artıq təbii səmt qazı əvəzsiz olaraq Azərbaycana verilmişdir.

Proqnozlara görə «Azəri», «Çıraq» və «Günəşli» layihəsi üzrə 2002-2004-cü illər üçün xam neft hasilatı həcminin 20 milyon tona qədər artırılması, sonralar isə onun 40-50 milyon tona çatdırılması gözlənilir. Azərbaycan Respublikasının quru ərazisində və Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən perspektiv strukturlara dair digər müqavilələr də uğurla həyata keçirilir və bu müqavilələrə əsasən ümumi ixrac potensialı 2010-2015-ci illər üçün ən azı 60-70 milyon ton təşkil edəcəkdir. Bu həcmdə neftin dünya bazarlarına etibarlı və fasiləsiz nəql edilməsi üçün çoxvariantlı ixrac kəmərləri sistemi yaradılmalıdır ki, bunun da əsas tərkib hissəsi «Bakı-Tbilisi-Ceyhan» marşurutu seçilmişdir.

1999-cu il noyabrın 18-də Türkiyənin İstanbul şəhərində ATƏT-in zirvə görüşü zamanı xam neftin Azərbaycan, Gürcüstan Respublikalarının və Türkiyə Cümhuriyyətinin əraziləri ilə nəql edilməsinə dair saziş imzalanmışdır. Avropa ölkələri, ümumən bəşəriyyət üçün mühüm əhəmiyyətə malik bu saziş və ona əlavə olunan paket sənədləri Azərbaycan, Gürcüstan, Türkiyə və ABŞ dövlət başçıları tərəfindən imzalanmışdır.

Dünyanın neft sənayesi tarixində analoqu olmayan «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft boru kəmərinin ümumi uzunluğu 1730 km-dir. Bunun 468 km-i Azərbaycanın, 225 km-i Gürcüstanın və 1037 km-i isə Türkiyənin ərazisindən keçir. Layihədə Səngəçal terminalının genişləndirilmiş, «Ceyhan» limanında yeni nəhəng terminalın inşaası, 11 nasos stansiyasının tikilməsi nəticəsində diametri 1100 mm, dəyəri 2,4 milyard dollar və ötürmə qabiliyyəti ildə 50 milyon tondan aşağı olmayan boru kəməri çəkilmişdir. Xam neftin Bakıdan Ceyhana nəqlinin ümumi tarifi bir tona təqribən 2 dollar təşkil edir.

***«Bakı-Tbilisi-Ceyhan»*** əsas ixrac neft boru kəməri iqtisadi



cəhətdən olmasa da, siyasi cəhətdən ən optimal variant olmaqla, böyük strateji əhəmiyyət kəsb edir. Əsas ixrac boru kəmərinin «Bakı-Tbilisi-Ceyhan» marşrutu istiqamətində çəkilməsi Azərbaycanla Qərb dövlətləri və aparıcı Avropa ölkələri arasında iqtisadi və siyasi əlaqələrinin güclənməsinə əlverişli şərait yaradacaq, həmçinin regional əməkdaşlığın genişləndirilməsinə təkan verəcəkdir. 2005-ci ildən etibarən «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft boru kəməri ilə, qeyd etdiyimiz kimi, ildə ən azı 50 milyon ton xam neft ixrac etmək mümkün olacaqdır. Təxmini hesablamalara görə, 30 il müddətində bu kəmərlə nəqli nəzərdə tutulan xam neftdən Azərbaycan Respublikası 35 milyard dollar həcmində gəlir əldə edəcəkdir. Əgər Qazaxıstan neftinin bu istiqamətdə nəql ediləcəyini nəzərə alsaq, bu məbləğ daha da artacaqdır. Xəzər regionunun xam neftinin ixrac marşrutları cədvəl 47-də verilmişdir.

*Cədvəl 47*

***Xəzər regionunun xam neftinin ixrac marşrutları***

| Marşrutun adı | Marşrutun uzunluğu, mil | Xam neftin həcmi, sutkada mln. barel | İnvestisiya qoyuluşu, milyon ABŞ dolları |
|---|---|---|---|
| Atara-Samara | – | 0,2-0,3 | 22 |
| Bakı-Supsa | 550 | 0,1-0,6 | 590 |
| Bakı-Novorossiysk | 868 | 0,1-0,3 | 600 |
| Bakı-Dağıstan-Novorossiysk | 868 | 0,6 | 1200-1500 |
| Tengiz | 930 | 1,34 | 2300 |
| Qazaxıstan-Çin | 1800 | 0,4-0,8 | 3900 |

İstanbulda həmçinin Türkmənistan qazının Azərbaycan və Gürcüstan ərazilərindən keçməklə Türkiyəyə nəqli ilə bağlı «Transxəzər» qaz kəmərinin çəkilişi haqqında çərçivə sənədi imzalanmışdır. Böyük strateji əhəmiyyət kəsb edən «Transxəzər» qaz kəməri Azərbaycan Respublikası üçün son dərəcə vacib layihədir. Belə ki, Azərbaycan Türkmən qazının tranzitinə görə iqtisadi səmərə götürəcək və həm də bu kəmərlə Xəzər dənizinin Azərbaycan sektorunda aşkar edilmiş böyük həcmdə səmt qazın ixracı problemi həll edilmiş olacaqdır. Eyni

zamanda Türkiyə Azərbaycan qazının öz ərazisinə və öz ərazisindən keçməklə Qərbə ixracın təmin etməyi öhdəsinə götürür.

«Şahdəniz» yatağından çıxarılan Azərbaycan qazının dünya bazarlarına «Bakı-Tbilisi-Ərzurum» boru kəməri vasitəsilə ixrac edilməsi nəzərdə tutulur. Bu barədə azərbaycanlı və gürcüstanlı mütəxəssislər 2001-ci ilin ortalarında Sürixdə ilkin razılığa gəlmişlər. Bu layihə «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft boru kəmərinə nisbətən Gürcüstan üçün iqtisadi cəhətdən daha əlverişli hesab edilməlidir. Belə ki, əgər «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft boru kəmərinin layihəsinə görə xam neftin Gürcüstan ərazisindən dünya bazarına ixraca üçün 65 milyon dollar gəlir əldə edəcəkdirsə, «Bakı-Tbilisi-Ərzurum» qaz boru kəmərindən 30 milyard kubmetr qaz və 92 milyon dollar vəsait əldə edəcəkdir.

2004-cü ilin sonunadək inşasının başa çatdırılması nəzərdə tutulan «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac neft boru kəməri və «Bakı-Tbilisi-Ərzurum» qaz boru kəməri tarixi «Böyük ipək yolu»nun bərpası istiqamətində atılmış mühüm addımdır. Qədim «Böyük ipək yolu»nun dirçəldilməsində və dünyanın nəqliyyat sisteminə inteqrasiyasında müstəqil Azərbaycan üçün mühüm istiqamətlərdən biri Avrasiya nəqliyyat dəhlizidir. Respublikamızın ərazisindən keçə biləcək əsas yük axınları bir tərəfdən Qərbi və Mərkəzi Avropa, digər tərəfdən isə Orta və Cənub-Şərqi Asiya ölkələrində formalaşır. Məhz buna görə də Avropa-Qafqaz-Asiya nəqliyyat dəhlizinin açılmasında və səmərəli fəaliyyət göstərməsində coğrafi baxımdan əks qütblərdə yerləşmələrinə baxmayaraq, həmin ölkə dövlətlərinin hamısı maraqlıdır. Bu marağın konkret ifadəsi Avropa-Qafqaz-Asiyanın Panavropa nəqliyyat yolları ilə birləşdirilməsi məqsədinin nəzərdə tutulduğu TRASEKA layihəsində öz əksini tapmışdır.

TASİS-in regional əməkdaşlıq üzrə 2000-2003-cü illər üçün İndaktiv proqram layihəsində (İnokeyt bölməsi) Orta Asiyadan xam neftin daşınmasına xüsusi yer ayrılmışdır. Avrasiya nəqliyyat dəhlizinin Xəzər hövzəsindən keçən su yollarında həmin işin bilavasitə Azərbaycan gəmiçiliyinə məxsus tankerlərlə yerinə yetirildiyini nəzərə alsaq, bu istiqamətdə irəliyə doğru atılan addımın ümumi əhəmiyyətini qiymətləndirmək o qədər də çətin deyil. Bu mənada İnokeyt layihəsinin 2001-ci ilin əvvəllərində Afinada keçirilən ilk seminarı da istisnalıq təşkil etməmişdir. Beynəlxalq səviyyəli tədbirdə Qazaxıstan, Azərbaycan, Gürcüstan hökumətlərinin, həmçinin onların neft daşınmasının çoxmodallı sistemi üzrə layihənin iştirakçıları olan müvafiq şirkətlərinin, başqa sözlə desək, yerli təşkilatların nümayəndələri iştirak etmişlər.



Beynəlxalq səviyyəli seminarın əsas məqsədi podratçı tərəfindən neft daşınmasının çoxmodallı sisteminin yaradılması ilə bağlı məsələlər üzrə təqdim edilmiş informasiya əsas götürülərək, həmin sistemin texniki, iqtisadi, kommersiya, institutsional, maliyyə və hüquqi baxımdan inkişafının müvafiq sxeminin nəzərdən keçirilməsi, müzakirəsi və müəyyənləşdirilməsindən ibarət olmuşdur. Seminar iştirakçıları İnokeyt üzrə çərçivə və saziş hüdudunda təqdim edilən layihənin inkişafına dərindən maraq göstərmişlər. Belə ki, çoxmodallı sistemin komponentlərinin gücünü arzuedilən səviyyəyə – ildə 10 milyon ton neftə qədər artırmaq məqsədilə nəzərə alınması lazım gələn texniki və istismar aspektləri ilə yanaşı, digər aktual məsələlər də ətraflı surətdə müzakirə edilmişdir. Seminar iştirakçıları səlahiyyətləri çərçivəsində bütün müvafiq və dəqiq informasiyaları podratçıya vaxtında təqdim etməyi öhdələrinə götürmüşlər ki, bu da həmin layihədə işlənib hazırlanan texniki-iqtisadi əsaslandırmaların və biznes-planın məlumatlarının doğruluğuna zəmanət verəcəkdir. Çoxmodallı sistemin komponentlərinin gücünün nəzərdə tutulan səviyyəyə qədər artırılması üçün lazımi işlərin, xidmətlərin və avadanlıqların qəti şəkildə razılaşdırılmış siyahısı müəyyənləşdirilmişdir və onların ümumi dəyəri 80-100 milyon ABŞ dolları təşkil edəcəkdir.

Neft daşınmasının çoxmodallı sistemində Qazaxıstan, Azərbaycan, Türkmənistan, Özbəkistan və Gürcüstandan neft göndərilməsinin planlaşdırılan həcmi əsas kimi götürülərək, layihənin kommersiya baxımından gerçəkləşdirilməsi təsdiq olunmuşdur ki, bu da müvafiq sistemin gücünün nəzərdə tutulan səviyyəyə qədər artırılmasına, habelə layihə tsiklinin maliyyələşdirilməsi üçün kreditlərin ödənilməsinə, layihənin həyata keçirilməsindən ötrü lazım gələn sərmayələrin təhlükəsizliyinə və mənfəətliliyinə zəmanət verəcəkdir. Bu mülahizəyə əsaslanaraq seminarda xüsusi qeyd edilmişdir ki, neft daşınmasının

çoxmodallı sistemi Xəzər regionundan qərb bazarlarına neft göndərilməsinin həcminin artırılması ilə bağlı problemi qısa-orta müddətdə həll edəcək, mövcud və planlaşdırılan, məsələn, əsas ixrac boru kəməri kimi layihələri tamamlayacaqdır. Sistemin həm də xam neftin daşınmasına dair qısamüddətli qərarlar həyata keçirildikdən sonra neft və neft məhsullarının nəqli üçün istifadə edilə bilən çeviklik xüsusiyyətinə malik olduğu vurğulanmışdır. Seminar iştirakçıları razılığa gəlmişlər ki, ümumi kommersiya operatorunun əsas vəzifələrindən biri də sistem vasitəsilə regionda konkret həcmdə neft və neft məhsulları nəql etmək istəyən potensial neft və neft məhsulları tədarükçüləri ilə danışıqların əlaqələndirilməsi əsasında layihənin zəruri buraxılış qabiliyyətini təmin etməkdən ibarət olacaqdır.

Seminar iştirakçıları razılığa gəlmişlər ki, İnokeyt üzrə çərçivə sazişinin gerçəkləşdirilməsi prosesində meydana çıxan mübahisələrin tənzimlənməsi sahəsində səmərəli mexanizm həm çərçivə sazişinin ümumi institutsional strukturunun yaradılmasının başa çatdırılmasından, həm də bu struktur çərçivəsində dövlətlərarası yükdaşımaların hər hansı layihəsinin, məsələn, neft daşınmasının çoxmodallı sisteminin işlənib hazırlanması üçün lazım gələn xarici sərmayəçilərin cəlb olunmasından ötrü zəruridir. Mübahisələrin tənzimlənməsinə dair protokolun texniki səviyyədə sonuncu tərtibi məqsədilə iştirakçı ölkələrin hökumətlərinə həmin layihənin həyata keçirilməsi üçün bu layihənin imzalanması prosedurasına başlamaq təklif olunmuşdur. Neft daşınmasının çoxmodallı sisteminin yaradılmasına dair protokolun rəsmiləşdirilməsi həmin layihənin yaradılması məqsədilə seminar iştirakçıları ölkələrinin hökumətləri tərəfindən atılacaq növbəti zəruri addım hesab edilmişdir. Çünki çoxmodallı sistemin layihəsi elə formalaşdırılmalıdır ki, risk amili imkan daxilində daha aşağı səviyyədə olsun. Həmin risklərin bir çoxu müqavilə sənədlərində öz əksini tapmalıdır. Buna baxmayaraq, çoxmodallı sistemin hər bir inkişaf mərhələsində özünəməxsus müəyyən risk amili olmalıdır və ona qarşı müəyyən tədbirlər müəyyənləşdirilməlidir.

ARDNŞ ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında bağlanmış müqavilələrdə idxal və ixrac qaydaları və gömrük rüsumları haqqında maddələr öz əksini tapmışdır. Həmin müqavilələrdə göstərilir ki, podratçı, onun agentləri və subpodratçıları heç bir vergi tutulmadan və məhdudiyyət qoyulmadan aşağıdakıları öz adlarından Azərbaycan Respublikasına gətirmək və geri aparmaq hüququna malikdirlər: hər cür avadanlıq, materiallar, dəzgahlar və alətlər, nəqliyyat vasitələri, ehtiyat hissələr, qida məhsulları (podratçının əsaslandırılmış rəyinə görə), neft-qaz əməliyyatlarının lazımınca aparılması və yerinə yetirilməsi üçün zəruri olan mallar və başqa şeylər; bu şərtlə ki, Azərbaycanın malgöndərənləri malların qiyməti, keyfiyyəti və mövcudluğu baxımından bütün mühüm cəhətlərdə xarici mənbələrlə rəqabət aparmaq qabiliyyətinə malik olduqları hallarda podratçı Azərbaycan malgöndərənlərini üstün tutacaqlar. Azərbaycan malgöndərənləri Azərbaycan Respublikasında qeydə alınmış və korporasiyaya girmiş, sahibinin kimliyindən asılı olmayaraq Azərbaycan Respublikasında qanuni əsaslarla fəaliyyət göstərən istehsalat, təsərrüfat şirkətləri (təşkilatları) və digər növ şirkətlər deməkdir.



Podratçı neft-qaz əməliyyatları üçün alınmış və məsrəfləri neft-qaz əməliyyatları hesabına daxil edilmiş hər hansı maddi sərvət vahidlərini Azərbaycan Respublikasından kənara çıxarmaq hüququna malik deyildir. Podratçı, onun agentləri və subpodratçıları, onların bütün əməkdaşları və onların ailə üzvləri vergi tutulmadan və məhdudiyyət qoyulmadan Azərbaycan Respublikasına istənilən vaxt, qida məhsullarının idxalına dair qaydalara riayət olunmasını nəzərə almaqla istənilən qida məhsulları, mebel, paltar, məişət texnikası, nəqliyyat vasitələri, ehtiyat hissələri və Azərbaycan Respublikasına iş üçün ezam olunan, yaxud səfər edən əcnəbi əməkdaşların və onların ailə üzvlərinin şəxsi istifadəsindən ötrü hər hansı əmlak gətirmək və bunları geri aparmaq hüququna malikdirlər. Podratçı, yaxud onun subpodratçıları və ya onların Azərbaycan Respublikasında çalışan əməkdaşları tərəfindən gətirilən malların hər hansı üçüncü tərəfə şəxsi satışları zamanı Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq vergi qoyulur.

Qiyməti 100.000 ABŞ dollarından artıq olan malların, işlərin və xidmətlərin satın alınması bütün hallarda tender əsasında keçirilməlidir (ancaq bir malgöndərənin olması halları istisna edilməklə) və onun nəticələri haqqında ARDNŞ-ə məlumat verilir. ARDNŞ-in nümayəndəsi səsvermə hüququna malik olmamaq şərtilə tenderin keçirilməsinin bütün mərhələlərində iştirak edir. Hər podratçı tərəf, onun müştəriləri, onun və onla-

rın nəqletmə agentləri bağlanmış müqavilənin şərtlərinə uyğun olaraq, podratçıya çatan karbohidrogenləri qanun üzrə heç bir vergi ödəmədən (mənfəət vergisindən başqa) istənilən vaxt sərbəst şəkildə aparmaq hüququna malikdir.

Bütün idxal və ixrac əməliyyatları müvafiq gömrük qaydalarının və təlimatlarının tələblərinə əməl olunmaqla, lazımi sənədlər tərtib edilməklə həyata keçirilir və podratçı gömrük xidmətlərinin göstərilməsi (sənədləşdirilməsi) müqabilində rüsumları həmin xidmətin faktiki dəyərinə uyğun nominal məbləğdə və ayrı-seçkilik olmadan ödəyir, bu şərtlə ki, gömrük xidmətlərinin göstərilməsi müqabilində rüsumların məbləği heç bir halda cədvəl 48-də göstərilən dərəcədən artıq olmasın.

*Cədvəl 48*

***Daşınan yüklərin dəyərindən asılı olaraq gömrük rüsumlarının məbləği***

| Yükün elan edilmiş dəyəri, dollar | Gömrük rüsumlarının məbləği |
|---|---|
| 0-100,000 | dəyərin 0,15%-i |
| 100001-1,000,000 | $150 + $100.000-dan artıq məbləğ üçün dəyərin 0,10%-i |
| 1,000,001-5,000,000 | $1050 + $1000001-dən artıq məbləğ üçün dəyərin 0,07%-i |
| 5,000,001-10,000,000 | $3850 + $5000001-dən artıq məbləğ üçün dəyərin 0,05%-i |
| 10,000,000-dan yuxarı | $6350 + $10000000-dən artıq məbləğ üçün dəyərin 0,01%-i |

Məlumat üçün qeyd edək ki, bu gün Azərbaycanda ixracat gəlirlərinin böyük əksəriyyəti neft və neft məhsulları hesabına formalaşır. Nəzərə alsaq ki, hazırkı dövrdə ölkənin investisiya və sosial ehtiyatlarının ödənilməsində valyuta vəsaitlərinin rolu kifayət qədər yüksəkdir və belə ehtiyatların müqabilində digər mənbələr xeyli məhduddur, onda ölkədə hasil olunan xam neftin çox hissəsinin xaricə daşınmasının səbəbini başa düşmək olar. Digər tərəfdən, Azərbaycanda hasil edilən xam neft ölkənin daxili tələbatını tam ödədiyi üçün onun artıq qalan hissəsi hökmən dünya bazarlarına çıxarılmalıdır.

Yeri gəlmişkən qeyd edək ki, Azərbaycan xam neftini dünya bazarlarına çıxarmaqla yalnız kommersiya marağı güdmür, həm



də dünyaya inteqrasiya imkanlarını artırır və neft ixrac edən ölkələr arasında özünə əlverişli imic formalaşdırmaqla qlobal neft siyasətinə təsir etməyə cəhd göstərir.

### 4.5. Qrant və Xəzər regionu üzrə layihələrin həyata keçirilməsində ondan istifadənin əhəmiyyəti

***Qrant*** – humanitar, sosial və ekoloji layihələri, təhsil, səhiyyə, elm, mədəniyyət, informasiya, nəşriyyat və idman sahələrində proqramların həyata keçirilməsi məqsədilə göstərilən spesifik yardım formasıdır. Dünyanın bütün ölkələrində öz layihələrini həyata keçirmək üçün müxtəlif növ qrantlardan çox məharətlə istifadə edilir. Qrantlar ictimai təşkilatlar vasitəsi ilə verilir. Məsələn, Şərqi Avropa ölkələrində, SSRİ dağıldıqdan sonra yaranmış yeni müstəqil dövlətlərdə də onlardan geniş istifadə olunur.

Təəssüflə deməliyik ki, bu sahədə bizim respublikamızda vəziyyət bir o qədər də ürək açan deyil. Belə ki, qrantların alınması sahəsində biz qonşu Gürcüstandan və Ermənistandan çox geri qalırıq. Məsələn, ABŞ-ın Milli Demokratiya Fondunun 1996-1997-ci illərdə Azərbaycan, Gürcüstan və Ermənistandan olan təşkilatlara verdiyi qrantların ümumi məbləği 1:6:4 nisbətindədir. Başqa sözlə, «Avrasiya» Fondu, bizim respublikamızla müqayisədə Gürcüstanın ictimai təşkilatlarına 20 dəfə, Ermənistanın ictimai təşkilatlarına isə 14 dəfə çox qrantlar vermişdir. Sual oluna bilər: nəyə görə bizim respublikamızda fəaliyyət göstərən ictimai təşkilatlara belə az qrantlar ayrılır? Bunun əsas səbəbləri aşağıdakılardan ibarətdir:

– yaxın keçmişədək bizim qanunvericilik qrantların alınması və istifadəsi qaydalarını tənzimləyən qanunumuz yox idi. Yalnız 1998-ci ildə belə bir qanun Milli Məclis tərəfindən qəbul edilmişdir;

– respublikamızın müstəqilliyinin ilk çağlarında bizim vergi qanunvericiliyimiz qeyri-mükəmməl xarakter daşıyırdı. Mövcud qanunvericiliyə görə, Azərbaycan Respublikasına daxil olan qrant məbləğinin özündən 16,67% həcmində əlavə dəyər vergisi tutulurdu. Hansı ki, humanitar layihənin həyata keçirilməsinə vəsait sərfinə hazırlaşan donora (qrant verənə), bu yardımı göstərərkən üstəlik hələ bir vergi də ödəməli olduğunu izah etmək, adətən kifayət qədər çətindir. Bu bir yana, donorlar və-

saitin birbaşa Dövlət büdcəsinə daxil olmasına hökumətə göstərilən yardım kimi baxırlar, bu isə onların əsas fəaliyyət prinsiplərinə ziddir;

– qrant almaq imkanları və qrant verənlər haqqında zəruri məlumatların qıtlığı, bəzənsə də onların yoxluğu ilə bağlıdır. Cəmiyyətin mədəni, siyasi, elmi elitası da daxil olmaqla, sosial cəhətdən fəal hissəsi belə, qrantın nə olduğu, onun kimdən və necə alınması barəsində bəzən elementar təsəvvürə malik deyil;

– öz təyinatları etibarilə qrantlardan istifadə olunmasında fəaliyyət göstərməli olan təşkilatların yetərincə geniş təşəkkül tapmaması. Bu bir həqiqətdir ki, bizim respublikamızda bir sıra təşkilatlar qeydiyyatdan keçə bilmir və ona görə qrant almaq hüququndan istifadə edə bilmirlər;

– dünya ictimaiyyəti hələlik ikili standartlara əsaslanaraq Azərbaycan Respublikasını demokratik ölkə kimi tanımaq istəmir, yaxud arzusunda deyil. İndi Qafqazda belə bir dövlət imicinə Gürcüstan layiq hesab edilir. Müxtəlif beynəlxalq təşkilatlar tərəfindən ona göstərilən yardımın miqyası və getdikcə artması, o cümlədən Gürcüstan ictimai təşkilatlarına ayrılan böyük həcmli qrantlar bu müsbət imicin özünəməxsus formada təsdiqidir.

Yuxarıda deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, biz bundan sonra potensial qrantların informasiya təminatına və hüquqi bazasının hazırlanmasına daha çox fikir verməliyik. Sosial cəhətdən fəal cəmiyyətin məlumatlılıq səviyyəsini yüksəltmədən isə qrantların güclü axarla respublikamıza daxil olmasına inanmaq sadəcə sadəlövhlükdən başqa bir şey deyil. Məsələ həm də ondadır ki, qrant ayrılması barəsində qərar qəbul edərkən donor, ilk öncə, iddiaçıların yazılı müraciətlərini diqqətlə nəzərdən keçirir. Bu müraciət elə işlənib hazırlanmalıdır ki, o, donoru inandırmalıdır ki, qrantı məhz bu iddiaçıya, məhz onun nəzərdə tutduğu proqramın həyata keçirilməsi üçün və məhz onun istəyi həcmində vermək lazımdır. Odur ki, bu müraciətin işlənib hazırlanması ən məsuliyyətli məsələlərdən biridir. Bu baxımdan, yaxşı olardı ki, müraciətin işlənib hazırlanmasına iqtisadi-hüquqi konsaltinq şirkətləri cəlb edilsin. Konsaltinq – satıcılar və alıcılara müəssisələrin, firmaların, təşkilatların iqtisadi fəaliyyəti, eləcə də xarici iqtisadi sahədə geniş dairədə suallar ətrafında məsləhət vermək fəaliyyətidir.



# FƏSİL 5. NEFT SƏNAYESİNDƏ İNSTİTUTSİONAL İSLAHATLAR VƏ SAHƏNİN BAZAR İQTİSADİYYATINA UYĞUNLAŞDIRILMASI PROBLEMLƏRİ

## 5.1. Neft sənayesində institutsional islahatlar – bazar iqtisadiyyatına keçidin mühüm mərhələsi kimi, onun əhəmiyyəti və zəruriliyi

Faktiki materialların təhlili göstərir ki, ölkə iqtisadiyyatının aparıcı sahəsi olan neft-qazçıxarma sənayesi son illərdə dinamik inkişafa başlamışdır. Artıq bir neçə ildir ki, ölkəmizdə neft hasilatı tapşırıqlarına artıqlaması ilə əməl olunur. Bu o deməkdir ki, ölkəmizin yeni neft strategiyası uğurla həyata keçirilir.

2004-ci il qazma sahəsində uğurlu illərdən biri olmuşdur. Belə ki, 2004-cü ildə «Çıraq» platformasında 18 quyu var ki, onlardan 14-ü hasilat, 4-ü isə suvurma quyularıdır. 2004-cü ilin birinci rübündə A-08 quyusunun suvurma quyusuna çevrilməsi müvəffəqiyyətlə başa çatdırılıb və yaxın vaxtlarda analoji iş A-15 quyusunda da aparılacaqdır. Bundan əlavə, dekabr ayında A-18 istismar quyusunun qazılmasına başlanıb. Maili istiqamətdə 5 kilometrdən artıq məsafəyə uzanmaqla bu quyunun ümumi uzunluğu 6,5 kilometr olacaq və onun tamamlanması beş ay çəkəcək.

2004-cü ildə «Əsrin müqaviləsi»nin tammiqyaslı işlənməsinin əsas mərhələsi hesab edilən «Azəri» layihəsinin reallaşdırılması istiqamətində də əhəmiyyətli irəliləyişlərə nail olunmuşdur. «Azəri» yatağının mərkəzi hissəsi üzrə nəzərdə tutulmuş tikinti-quraşdırma işləri başa çatdırılaraq, 2005-ci ildən istismara verilməsinə imkan yaradacaqdır.

2002-ci ilin sentyabrın 18-də Azərbaycan, Türkiyə və Gürcüstanın dövlət başçılarının iştirakı ilə Səngəçal terminalı ərazisində Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəmərinin təməl daşının qoyulması mərasiminin qeyd olunması və həmin gün «Faza-2» layihəsinə başlamağa dair qərarın qəbul edilməsi «Əsrin müqaviləsi»nin həyata keçirilməsi istiqamətində növbəti uğurlu addım oldu. Bundan əlavə, 2002-ci ildə «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsi üzrə də mühəndis-layihə

işlərinə başlanılıb, «Alov» və «İnam» yataqlarının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişi imzalanmışdır ki, bu da adı səkilən yataqlar üzrə texniki tədqiqatların və araşdırmaların aparılmasına imkan vermişdir.

2005-ci ildə də Azərbaycan neftçilərinin qarşısında mühüm vəzifələr durur. Belə ki, 2005-ci ildə gündəlik neft hasilatı 133 min barelə çatdırılacaq. Əməliyyat xərcləri 100 milyon ABŞ dollar, əsaslı xərclər isə 2 milyard 52 milyon ABŞ dollar olacaq. 2005-ci ildə «Çıraq» yatağında daha bir istismar quyusu qazılacaq. «Azəri» layihəsi çərçivəsində tikinti işləri də qrafik üzrə davam etdiriləcəkdir.

«Bakı-Tbilisi-Ceyhan» Əsas İxrac Boru Kəmərinin tikintisinə 2003-cü ilin birinci rübünün sonunda başlanmışdır. Kəmərin tikintisinin maliyyələşdirilməsi istiqamətində danışıqlara isə 2003-cü ilin üçüncü rübündə yekun vurulub. 2003-cü ilin birinci rübündə «Şahdəniz» yatağının birinci mərhələsinə başlamağa dair qərar qəbul olunması da qarşıda duran əsas vəzifələrdəndir. Bununla da, ***«Şahdəniz»*** yatağından əldə edilən qazı 2006-cı ildə Türkiyə bazarına çatdırmaq mümkün olacaq. Ümumiyyətlə, 2005-ci ildə neft hasilatının artırılması üzrə işlərin həyata keçirilməsinə 4,3 milyard ABŞ dollar həcmində sərmayə qoyulmuşdur. Bu isə layihələrin həyata keçirilməsi üçün gün ərzində 11 milyon ABŞ dallarından artıq vəsait xərclənməsi deməkdir.

Bütün göstərilən nailiyyətlərin əldə edilməsində, digər şərtlərlə yanaşı, Azərbaycanın neft-qazçıxarma sənayesində son illərdə aparılan institutsional (təşkilati) islahatlar mühüm rol oynamışdır. Məlumdur ki, Azərbaycan Respublikasında 70 ildən çox sosialist iqtisadi-sosial quruluşu hökm sürmüşdü. 90-cı illərdə isə SSRİ məkanındakı bütün müttəfiq respublikalar kimi Azərbaycan Respublikası da yeni, demokratik iqtisadi sistemə, bazar iqtisadiyyatına keçməyə qədəm qoymuşdur. Bu zamandan etibarən Azərbaycan Respublikası keçid dövrünün problemlərinin həllinə başlamışdır. Sosialist iqtisadi-sosial quruluşdan yeni, bazar iqtisadiyyatı quruluşuna keçmək birdəfəlik akt deyil, uzun tarixi bir proseslə bağlıdır. Bu prosesdə bazar iqtisadiyyatı münasibətlərinin formalaşması prinsipləri tədricən bərqərar olmalıdır. Bu atributlardan biri də sosialist idarəetmə sistemindən



bazar iqtisadiyyatı idarəetmə sisteminə keçməsinin təmin olunmasıdır, yəni indi böyük kapital və torpaqtutumlu neft sənayesinin bazar münasibətləri prinsipləri əsasında optimal strukturunun işlənib hazırlanması məqamı yetişmiş və bizim subyektiv fikrimizcə, bu proses bəlkə də müəyyən qədər gecikmişdir.

Neft-qazçıxarma sənayesində aparılan institutsional islahatlardan daşınmazdan öncə, biz sahədə struktur islahatları və idarəetmənin təkmilləşdirilməsi problemlərinin tarixi ekskursiyasına nəzər salmağı məqsədəuyğun hesab edirik. Çünki Sovet hakimiyyəti illərində də dövlət sahənin strukturunun təkmilləşdirilməsinə daim qayğı göstərmişdir. Dövlət sosialist istehsalı inkişaf etdikcə köhnə, vaxtı keçmiş təşkilat formalarını dəyişdirib təsərrüfata rəhbərlik sistemini yenidən qurmuş və təsərrüfat quruculuğunun yeni şəraitinə uyğun olan daha mükəmməl idarəetmə formaları və üsulları müəyyən etmişdir.

Məlumdur ki, Azərbaycan Respublikasında neft-qaz hasilatı ilə «Azərneft» və «Xəzərdənizneft» İstehsalat Birlikləri məşğul olmuşdur. «Azərneft» İstehsalat Birliyi Azərbaycan Respublikasının qurudakı ərazilərindən neft və qaz çıxarılması ilə məşğul olub və indi də olmaqdadır. Bu birlik 1920-ci ildə yaradılmışdır. Ayrı-ayrı illərdə «Azərneft» İstehsalat Birliyi onun tərkibinə daxil olan struktur bölmələrinin xüsusiyyətlərindən və təyinatından asılı olaraq, ittifaq əhəmiyyətli trest və ya birlik kimi müxtəlif ittifaq və respublika təşkilatlarına, məsələn, Azərbaycan SSR XKS-na, SSRİ Ali Xalq Təsərrüfatı Şurasına, SSRİ Ağır Sənaye Nazirliyinə, SSRİ Neft Sənayesi Nazirliyinə, Azərb. SSR Xalq Təsərrüfatı Şurasına və s. orqanlara tabe olmuş və «Azərneftkomitə», «Azərneftkombinat» (sonralar «Azərneft», «Azərneftzavodları» və «Azərneftmaşınqayırma» birliklərinə ayrılmış), «Azərneftçıxarma» birliyi və s. adlanmışdır. «Azərneft» İstehsalat Birliyinin əsasında Azərbaycan Neft Sənayesi Nazirliyi (1954-1970), Azərbaycan Neft-qazçıxarma Sənaye Nazirliyi (1965-1970) yaradılmışdır. 1970-ci ilin avqust ayından indiyədək yenidən «Azərneft» İstehsalat Birliyi adlanır.

«Xəzərdənizneft» İstehsalat Birliyi 1990-cı ildən keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycan, Türkmənistan və Qazaxıstan respublikalarının, həmçinin Dağıstan Muxtar Respublikasının dəniz sahillərində, 1991-ci ildən isə Xəzər dənizinin

Azərbaycan sektorunda neft və qaz yataqlarının kəşfiyyatı və karbohidrogenlər hasilatı ilə məşğul olur. 1951-ciilədək «Azərneft» İstehsalat Birliyinin tərkibində olmuş, 1951-1953-cü illərdə sərbəst surətdə fəaliyyət göstərmiş, 1953-1962-ci illərdə yenidən «Azərneft» İstehsalat Birliyinin tərkibində olmuşdur. 1963-cü ildə «Başdənizneft» İstehsalat Birliyi yaradılmış və 1965-ci ildə həmin birlik «Dənizneft» Baş İdarəsi, 1970-ci ildə «Xəzərdənizneft» Neft Birliyi, 1978-ci ildən indiyədək «Xəzərdənizneft» İstehsalat Birliyi adlanır. Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, yəni 1991-ci ildən «Azərneft» İstehsalat Birliyi ilə birlikdə Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin tərkibində fəaliyyət göstərir.

Göründüyü kimi, Azərbaycanın neft-qazçıxarma sənayesində uzun illər boyu idarəetmənin təşkilati strukturu dəfələrlə təkmilləşdirilmişdir. Lakin bazar iqtisadiyyatına keçid dövründə neft sənayesində aparılan institutsional islahatlar əvvəlki illərdə aparılmış təşkilati dəyişikliklərdən köklü surətdə fərqlənir. Çünki indi aparılan institutsional islahatlar azad iqtisadi fəaliyyətə, bazar iqtisadiyyatı münasibətlərinə əsaslanır. Hazırda neft-qazçıxarma sənayesində, eləcə də iqtisadiyyatın digər sahələrində institutsional islahatları həyata keçirərkən aşağıdakı tələblərə, prinsiplərə əməl olunmalıdır:

– idarəetmənin təşkilati strukturu imkan dairəsində sadə olmalıdır, çünki təşkilati struktur nə qədər sadə və dəqiq olarsa, inzibati-idarəetmə heyəti də bir o qədər həmin strukturu tez mənimsəyər və neft-qazçıxarma idarələrini iqtisadi böhran vəziyyətindən çıxarmaq prosesində fəal iştirak edərlər. İdarəetmənin təşkilati strukturu dedikdə, idarəetmə sistemini yaradan ünsürlərin və onlar arasındakı əlaqələrin məcmusu nəzərdə tutulur. İdarəetmənin təşkilati struktur ünsürlərinə idarəetmə orqanları və onlara tabe olan obyektlər (məsələn, birlik, müəssisə, təşkilat, idarə və s.), yaxud onların bölmələri (məsələn, sex, istehsal sahəsi və s.) aiddir;

– idarəetmənin təşkilati strukturunun sxemi daha aydın və tez qavranılan olmalıdır. Elə etmək lazımdır ki, idarəetmənin təşkilati strukturunun sxemi aydın görünən yerdə divardan asılsın ki, hər bir işçi ona riayət etsin;

– inzibati-idarəetmə fəaliyyəti ilə məşğul olan işçiyə yazılı surətdə idarəetməyə dair təlimatlar, qaydalar verilməlidir. Özü də sanasiya dövründə bu təlimatlar müntəzəm surətdə nəzərdən keçirilməli və lazım gələrsə onlara zəruri düzəlişlər edilməlidir;



– inzibati-idarəetmə strukturları, bölmələri arasında texniki, iqtisadi və informasiya əlaqə sistemləri səmərəli, optimal olmalıdır ki, informasiyalar icra obyektlərinə, məsələn, sex və istehsalat sahələrinə dəqiq ötürülsün və əks əlaqə yaradılsın. İqtisadi obyektlərin idarə olunmasında informasiyanın həcmi bu obyektlərin müstəqillik dərəcəsilə, təchizat və satış, tikinti, iqtisadi stimullaşdırma və s. məsələlərin həllində onlara verilmiş hüquqların məsuliyyəti ilə müəyyən olunur;

– institutsional islahatları həyata keçirərkən idarəetmə səviyyələrinin, pillələrinin sayının minimuma endirilməsinə çalışmaq lazımdır. Ən səmərəli struktur iki pilləli sistemdir (məsələn, nazirlik-müəssisə), çünki bu halda idarəetmə orqanları ilə obyekti arasında birbaşa informasiya mübadiləsi gedir və bu informasiya çoxlu struktur ünsürlərini keçdikcə təhrifə məruz qalmır. Struktur (pillə) ünsürlərinin sayı bir çox amillərdən, hər şeydən öncə isə, idarəolunmadan, yəni müəyyən sayda obyektlərin idarə olunması funksiyalarının səmərəli həyata keçirilməsində idarəetmə orqanının imkanından asılıdır. Bu öz növbəsində alınmış, işlənmiş və ötürülmüş informasiyanın həcmi ilə əlaqədardır: o nə qədər azdırsa, idarəetmə orqanı çoxlu sayda obyektlərə rəhbərlik edə bilər;

– inzibati-idarəetmə strukturları üzrə məsuliyyətlərin koordinasiyasını ali rəhbərlik həyata keçirməlidir. Bu, ümumi məqsədə nail olunmasının zəruri şərtlərindən biridir;

– müəssisənin (sahənin, kompleksin) hər bir struktur bölməsi üçün rəhbərliyin idarəçilik hüquqları real surətdə işlənib hazırlanmalıdır. Bu o deməkdir ki, konkret idarəetmə səviyyəsindəki, pilləsindəki rəhbər ən çox 5-7 işçiyə bilavasitə rəhbərlik edə bilsin. İdarəetmə diapazonu nə qədər kiçik olarsa, idarəetmə prosesi də bir o qədər səmərəli olar;

– xətti rəhbərlərin və funksional şöbələrin funksiyaları dəqiq bilinməli və koordinasiya olunmalıdır ki, onlar xətti rəhbərlərə lazımi köməklikləri edə bilsinlər;

– neft-qazçıxarma idarələrinin zərərlə işləmələrinin qarşısını almaq üçün onların təşkilati strukturu çevik olmalı, daxili və

xarici mühitdə baş verən, yaxud başa verə biləcək dəyişikliklərə tez reaksiya verməyi bacarmalıdır;

– sahənin təşkilati idarəetmə strukturu neft-qazçıxarma idarələrinin təşkilati, iqtisadi və elmi-texniki potensialından səmərəli istifadə etməyə xidmət etməlidir. Bu, neft-qazçıxarma idarələrinin maksimum mənfəət əldə edilməsini təmin etməyə imkan verir.

Neft-qazçıxarma sənayesinin idarə edilməsinin təşkilati strukturunun təkmilləşdirilməsi ilə bağlı institutsional islahatların aparılması mərhələ-mərhələ həyata keçirilərsə, daha səmərəli olar. Neft-qazçıxarma sənayesində həyata keçirilən institutsional islahatlar özündə aşağıdakı səkkiz mərhələni əhatə edir:

– ***birinci mərhələ*** – idarəetmə sisteminin və onun təşkilati strukturunun təkmilləşdirilməsi ilə bağlı olan işləri özündə əks etdirir. Bu məqsədlə idarəetmə sisteminə aid olan sənədlərin təhlili və ya idarəetmə aparatı işçilərinin-mütəxəssislərinin sorğusu aparılır. Mövcud idarəetmə sisteminin təhlili isə həmin sistemin qiymətləndirilməsinə, idarəetmə prosesindəki mütərəqqi üsulların, metodların və «zəif yer»lərin aşkara çıxarılmasına, idarəetmənin təşkilati strukturunun inkişafının prioritet istiqamətlərinin və təkmilləşdirilməsinin ilkin obyektlərinin müəyyənləşdirilməsinə, idarəetmə sisteminin uzunmüddətli konsepsiyasının və inkişafının kompleks proqramının işlənib hazırlanmasına lazım olan məlumatların əldə edilməsinə imkan verir;

– ***ikinci mərhələ*** – idarəetmə sisteminin inkişaf konsepsiyasının işlənib hazırlanması ilə bağlı olan işləri əhatə edir. Bu konsepsiya işlənib hazırlanarkən hansı funksiyanın və ya idarəetmə bölməsinin ləğv olunması, yaxud yenisinin yaradılması haqqında tövsiyələr irəli sürülür;

– ***üçüncü mərhələ*** – yeni yaradılmış idarəetmə strukturunun məqsəd və funksiyalarının müəyyənləşdirilməsi ilə əlaqədar olan işləri özündə əks etdirir. Müəyyən olunmuş məqsəd istehsalın son nəticəsinə istiqamətləndirilmişdirsə, birmənalıdırsa, dəyişkəndirsə, neft-qazçıxarma idarəsinin digər məqsədlərinin yerinə yetirilməsinə maneçilik törətmirsə, onda həmin məqsəd səmərəli hesab edilir;

– ***dördüncü mərhələ*** – istehsalın son nəticələrinə görə idarəetmə funksiyalarının mümkün variantlarının qiymətləndirilməsi ilə bağlı işləri əhatə edir. İstehsalın son nəticələrinin səmərəliliyini, ictimai tələblərə və ehtiyaclara uyğun gəlməsi ifadə edir;



– ***beşinci mərhələ*** – idarəetmənin təşkilati strukturunun müxtəlif variantlarının işlənib hazırlanması ilə əlaqədar işləri özündə əks etdirir. Bu zaman idarəetmənin təşkilati strukturunun hər bir variantı üzrə idarəetmə bölmələrinin və onlarda çalışacaq işçilərin sayı, idarəetmə prosesinin əmək tutumu, idarəetmə aparatının saxlanılması xərcləri və idarəetmə funksiyalarının xarakteristikası müəyyənləşdirilir;

– ***altıncı mərhələ*** – işlənib hazırlanmış müxtəlif idarəetmə strukturu arasından səmərəli variantın seçilməsi ilə bağlı olan işləri əhatə edir. Bunun üçün müxtəlif göstəricilərdən istifadə edilir. Adətən, idarəetmənin təşkilati strukturunun səmərəli variantının iqtisadi meyarı kimi istehsal-təsərrüfat fəaliyyətinin keyfiyyət göstəricilərinin yaxşılaşdırılması əsasında əldə edilmiş mənfəət artımı götürülür. Çünki idarəetmə sistemində aparılan müsbət dəyişikliklər, yəni idarəetmə xərclərinin azaldılması, idarəetmə bölmələrinin və onlarda çalışan işçilərin-mütəxəssislərin sayının minimuma endirilməsi, idarəetmə prosesində təkrarçılığın aradan qaldırılması, idarəetmə siyasətinin əsas istiqamətinin strateji məsələlərin həllinə yönəldilməsi bu meyarın reallaşdırılmasına xidmət edir;

– ***yeddinci mərhələ*** – idarəetmənin təşkilati strukturun layihələşdirilməsi ilə əlaqədar olan fəaliyyət növlərini əhatə edir. Bu mərhələdə idarəetmənin təşkilati strukturunun mövcud vəziyyəti hərtərəfli təhlil edilir və ayrı-ayrı idarəetmə pillələrində onun necə həyata keçirilməsi qiymətləndirilir;

– ***səkkizinci mərhələ*** – idarəetmənin təşkilati strukturunun səmərəli variantının həyata keçirilməsi üzrə təşkilati-texniki tədbirlər kompleksini əhatə edir. Belə tədbirlərə idarəetmənin texniki-iqtisadi səviyyəsinin artırılması, optimal idarəetmə qərarlarının işlənib hazırlanması məqsədilə həyata keçirilən işləri aid etmək olar. Belə tədbirlərin həyata keçirilməsində məqsəd ən az xərclə idarəetmə prosesini yüksək səviyyədə həyata keçirməkdən, qabaqcıl idarəetmə təcrübəsini mənimsəməkdən və s. ibarətdir.

Qərb ölkələrinin institutsional islahatlar sahəsindəki təcrü-

bəsi göstərir ki, neft-qazçıxarma idarələrinin böhranlı vəziyyətində idarəetmənin təşkilati strukturunda dəyişiklikləri çevik surətdə aparmaq üçün ardıcıl olaraq aşağıdakı istiqamətlər üzrə təşkilati-texniki tədbirlər kompleksini həyata keçirmək lazımdır:

– ***neft-qazçıxarma idarələrində idarəetmə strukturunun təşkilati potensialının strateji diaqnozunun qoyulması.*** Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq Azərbaycan dövləti iqtisadiyyatın idarə edilməsinin təşkilati strukturunun yenidən qurulmasının əsas istiqamətlərini müəyyən etmişdir: həddindən çox mərkəzləşdirilmiş, amirlik idarəetmə sistemindən demokratik idarəetmə sisteminə keçilməsi; özünüidarəetmənin inkişafı, insan şəxsiyyəti potensialının fəallaşdırılması mexanizminin yaradılması və təsərrüfat orqanlarının funksiyalarının dəqiq ayırd edilməsi; fəaliyyət metodlarında və iş üsullarında əsaslı dəyişikliklər edilməsi və s.;

– ***idarəetmə fəaliyyətinin məqsədinin müəyyənləşdirilməsi.*** Müasir şəraitdə sənaye sahələrinin, o cümlədən neft-qazçıxarma sənaye sahəsinin idarə edilməsinin təkmilləşdirilməsi pilləliyin ixtisar olunmasını, əsasən, ikipilləli idarəetmə sisteminə keçirilməsini, qarşılıqlı surətdə əlaqədar sahələrin qruplarını idarə edən orqanların yaradılmasını nəzərdə tutur;

– ***müəyyən edilmiş məqsədin reallaşdırılması üçün zəruri konsepsiyasının işlənib hazırlanması.*** İdarəetmə konsepsiyasının işlənib hazırlanması – idarəetmənin texnoloji tsiklində başlıca pillədir. İdarəetmə konsepsiyası səlahiyyətli xətti rəhbər tərəfindən qüvvədə olan qanunvericiliklə ona verilmiş hüquq və normalar dairəsində işlənib hazırlanır və qəbul edilir;

– ***idarəetmənin səmərəli struktur növünün seçilməsi.*** İdarəetmənin təşkilati strukturunun səmərəliliyi dedikdə, idarəetmə aparatında çalışan işçilərin sayının və idarəetmə xərclərinin minimum həddi nəzərdə tutulur. Ümumiyyətlə, idarəetmənin təşkilati strukturunun üç növünü fərqləndirirlər: a) idarəetmənin xətti strukturu – adətən, müəssisənin aşağı idarəetmə pillələrində, məsələn, sex və istehsal sahələrində daha geniş tətbiq olunur. Bu növ idarəetmə strukturun mahiyyəti ondan ibarətdir ki, bu zaman idarə olunan ayrı-ayrı obyektlər üzrə rəhbərlər müəyyən edilir və onların hər biri konkret funksiyanı, vəzifəni yerinə yetirir, həmin obyektin idarə edilməsi ilə əlaqədar olan



bütün idarəetmə qərarlarını işləyib hazırlayır, qəbul və icra edir; b) idarəetmənin funksional strukturu – istehsalın idarə edilməsinə aid bütün iş növlərinin ayrı-ayrı funksional bölmələr arasında bölüşdürülməsi ilə səciyyələnir. Bu zaman idarəetmə aparatı daha da ixtisaslaşdırılmış olur ki, bu da texniki-iqtisadi cəhətdən əsaslandırılmış idarəetmə qərarlarının işlənib hazırlanmasına imkan verir. Bu strukturun qüsur cəhəti ondan ibarətdir ki, bu zaman vahid rəhbərlik prinsipi müəyyən qədər zəifləmiş olur, çünki idarə edilən obyektlərə müxtəlif funksional bölmələrdən çoxlu göstərişlər verilir; c) idarəetmənin xətti-funksional strukturu – müasir dövrdə ən geniş yayılmış strukturlardan biridir. Bu növ strukturda idarəetmə funksiyalarını müəssisə və onun struktur bölmələrinə başçılıq edən xətti rəhbərlər həyata keçirirlər; ç) idarəetmənin matris strukturu – xətti rəhbərliklə yanaşı funksional idarəetmə aparatının da fəaliyyət göstərməsini nəzərdə tutur; d) idarəetmənin proqramlı-məqsədli strukturu – son zamanlar idarəetmənin bütün pillələrində tətbiq edilir; e) idarəetmənin çevik strukturu – əmək kollektivinin çevikliyinin təmin olunmasına xidmət edir;

– ***idarəetmənin təşkilati strukturunun işlənib hazırlanması və ya təkmilləşdirilməsi üçün məsləhətçi qrupların yaradılması.*** Bu, idarəetmənin müxtəlif pillələrində idarəetmənin təşkilati strukturunun necə fəaliyyət göstərdiyini öyrənməyə, bu sahədə hansı qüsurların mövcudluğunu müəyyənləşdirməyə və s. imkan verir. İdarəetmənin təşkilati strukturunun müntəzəm təkmilləşdirilməsi idarəetmə prosesinin intensivləşdirilməsinin zəruri şərtlərindən biridir;

– ***əvvəlcədən müəyyən olunmuş məqsəd, strategiya və taktikanın dəqiqləşdirilməsi.*** Proqramlı-məqsədli idarəetmə – əvvəlcədən qoyulmuş müddətdə müəyyən problemlərin həllində, bu və ya digər sahənin və regionun inkişafında konkret son nəticələr əldə edilməsinə yönəldilmiş idarəetmə sistemidir. Proqramlı-məqsədli idarəetmənin əsas prinsipləri bunlardır: son məqsədə istiqamətləndirmə; idarəetmə obyektinin birbaşa planlaşdırılması; fasiləsizlik prinsipi. Proqramlı-məqsədli idarəetmənin əsas mərhələləri aşağıdakılardır: proqramın məqsədinin qısa və dürüst ifadə edilməsi; məqsədin ayrı-ayrı vəzifələrə və tədbirlərə bölünməsi (kompozisiyası) – məqsəd və məsələlər

şəcərəsinin (ağacının) formalaşması və elementlərinin qiymətləndirilməsi; proqramın məqsədlərinə nail olunmasında alternativ istiqamətlərin (vasitələrin) əsaslandırılması; məqsədlər ağacının ayrı-ayrı budaqları və maliyyələşdirmə sürətləri arasında ehtiyatlar bölgüsünün optimallaşdırılması; proqramın ayrı-ayrı məqsədlərinin, yaxud onlara nail olmaq vasitələrinin prioritetliyinin dəyişməsi; dəyişən xarici şəraitə proqramın məqsədli hissəsinin uyğunlaşdırılması;

– ***işlənib hazırlanmış təşkilati strukturun həyata keçirilməsi üçün maddi, əmək və maliyyə resursları ilə təmin olunması.*** Maddi resurslar dedikdə, istehsal ehtiyatlarının mühüm hissəsi, ictimai məhsul istehsalı prosesində istifadə üçün nəzərdə tutulan əmək cisimlərinin məcmusu; əmək resursları dedikdə, ölkə əhalisinin xalq təsərrüfatında işləmək üçün məcmu fiziki və mənəvi qabiliyyətə, ümumi-təhsil və peşə biliyinə malik hissəsi, ölkənin iqtisadi potensialının mühüm ünsürü; maliyyə resursu dedikdə isə, neft-qazçıxarma sənayesinin sərəncamında olan pul vəsaitləri nəzərdə tutulur;

– ***işlənib hazırlanmış təşkilati idarəetmə strukturun həyata keçirilməsinə nəzarət edilməsi.*** Bu, bütün idarəetmə pillələrində yeni işlənib hazırlanmış idarəetmənin təşkilati strukturunun düzgün həyata keçirilməsini təmin edir və onun gələcəkdə ciddi surətdə təkmilləşdirilməsini nəzərdə tutur. Nəzarət işlərinin vaxtında aparılması idarəetmə qərarlarının keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsinə, idarəetmə qərarlarının optimallaşdırılmasına, müasir texniki-iqtisadi səviyyəyə uyğun olmasına imkan verir;

– ***idarəetmənin təşkilati strukturunun həyata keçirilməsinin təmin olunması*** – təşkilati-texniki tədbirlər kompleksinin işlənib hazırlanması və onların yerinə yetirilməsi sayəsində mümkündür. Təşkilati-texniki tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi – elmi və texniki nailiyyətlərin idarəetmə prosesinə tətbiqinin, idarəetmənin səmərəliliyinin və keyfiyyətinin yaxşılaşdırılmasının mühüm şərtidir. Bu, xüsusilə bazar iqtisadiyyatı şəraitində daha böyük əhəmiyyət kəsb edir; belə ki, bazar iqtisadiyyatı bütün ehtiyat növlərindən maksimum istifadəni nəzərdə tutur;

– ***əmək kollektivlərində informasiya və təbliğat işlərinin təşkili.*** Bu, idarəetmənin yeni təşkilati strukturunun tez mənimsənilməsinə imkan verir və istehsalın idarə edilməsində əməkçilərin iştirakını təmin edir. İstehsalın idarə edilməsində əməkçilərin iştirakı – demokratiyanın inkişafının ən mühüm formalarından biridir. Onun köməyi ilə əməkçilər idarəetmə bacarığına yiyələnir və istehsalın sahibi olduğunu hiss edir, əməyə və onun bəhrələrinə qayğı ilə yanaşmağı öyrənirlər;



– ***ali və orta pilləli rəhbərlik səviyyələrində psixoloji mühitin, iqlimin öyrənilməsi.*** Sosial-psixoloji mühit dedikdə əmək kollektivlərində şəxslərarası münasibətlərin vəziyyəti nəzərdə tutulur. Əlverişli sosial-psixoloji mühit kollektivdə əmək məhsuldarlığının artırılmasına, kollektiv üzvlərinin öz əməklərindən razı qalmalarına və onların birliyinə səbəb olur. Xoşagəlməz sosial-psixoloji mühit şəraitində əmək kollektivi pis, az səmərə ilə işləyir. Sağlam sosial-psixoloji mühit kollektiv üzvlərinin yaradıcı fəallığının inkişafında, kollektiv əlaqələrinin möhkəmləndirilməsində başlıca şərtdir. Sosial-psixoloji mühit daxili və xarici amillərin təsiri altında formalaşır. Daxili amillərə – kollektiv üzvləri olan şəxsiyyətlərin fərdi xüsusiyyətləri, rəhbərin iş üslubu, əmək fəaliyyəti zamanı meydana çıxan konkret situasiyalar, xarici amillərə – əmək və həyat şəraiti, ailə vəziyyəti, məişət və nəqliyyat xidmətinin vəziyyəti aiddir;

– ***işgüzar oyunların vəziyyətinin öyrənilməsi.*** İşgüzar oyunlar – müxtəlif istehsal münasibətlərində verilmiş qayda üzrə idarəetmə qərarlarının hazırlanmasını təqlidetmə metodudur. İşgüzar oyunlar tədqiqat və idarəetmə kadrlarının seçilməsi üçün keçirilir. İşgüzar oyunlar prosesində istehsal prosesinin və xarici mühitin vəziyyəti haqqında çıxış (ilkin) informasiyalarından, yaxud oyunun gedişində alınan informasiyalardan istifadə etməklə qərar qəbul edən xətti və funksional rəhbərlərin fəaliyyəti modelləşdirilir. İşgüzar oyunlarda qərar oyun iştirakçılarının qarşısına qoyulmuş vəzifələrə və mövcud məhdudiyyətlərə uyğun qəbul olunur. İşgüzar oyunlar iştirakçılarının qarşılıqlı təsiri modelləşdirilən təsərrüfat prosesinin spesifik xassələrini və asılılıqlarını əks etdirən qaydalardan irəli gəlir;

– ***idarəetmə kadrlarının mövcudluğunun, onların hazırlanması və yenidən hazırlanması forma və sistemlərinin müəyyənləşdirilməsi.*** İdarəetmə kadrları dedikdə, bilavasitə idarə-

etmə funksiyalarını həyata keçirən və ya idarəetmənin texniki təminatı üzrə işləri yerinə yetirən işçilər kateqoriyası nəzərdə tutulur. İdarəetmə kadrlarının tərkibinə dövlət, kooperativ və ictimai sistemlərin idarəetmə orqanlarındakı bütün işçilər, kadrlar aiddir. Neft-qazçıxarma idarələrində idarəetmə kadrlarına rəhbərlər, rəhbərlərin müavinləri, neft-qazçıxarma idarəsinin idarəetmə funksiyalarını yerinə yetirən yarımbölmələrə (idarəetmə aparatına) rəhbərlik edən mütəxəssislər və s. aiddir;

– ***uğurlu strateji idarəetmə fəaliyyətinə görə idarəetmə işçilərinin maddi maraqlandırması.*** Bu zaman əməyin ödənilməsi sisteminin səmərəliliyi yüksəlir, idarəetmə işçilərinin mükafatlandırılmasının miqdarı onların əmək töhfələri ilə sıx əlaqələndirilir, əmək ölçüsü və istehlak ölçüsü üzərində nəzarət gücləndirilir, kollektiv podratının tətbiqi əsasında ən yaxşı son nəticələri əldə etməkdə inzibati-idarəetmə heyətinin və hər bir mütəxəssisin marağı artır;

– ***çevik idarəetmə və nəzarətetmə sistemlərinin təşkili.*** Məlumdur ki, idarəetmə və nəzarətetmə sistemləri dinamikdir, onların ünsürlərinin konkret məzmunu sosial və iqtisadi şəraitin dəyişməsi ilə dəyişir. İdarəetmə və nəzarətetmə sistemləri ictimai münasibətlərin formalaşmasına fəal təsir göstərir və rəhbərliyin müxtəlif səviyyələrində yaranan və idarəetmə obyektinin xüsusiyyətlərini əks etdirən alt sistemdən ibarətdir.

Neft-qazçıxarma sənayesində struktur islahatlarını həyata keçirərkən aşağıdakı üç hal ilə qarşılaşmaq ehtimalı vardır: birincisi, köhnə idarəetmə strukturun dövlətin tam sərəncamında qalaraq qapalı fəaliyyəti; ikincisi, özəl bazar formalı səhmləşmə sisteminə keçid; üçüncüsü, şaquli inteqrasiya olunan idarəetmə strukturunun formalaşması.

İnkişaf imkanlarının ilk variantda diqqətə çəkilən məhdudluğu və perspektivsizliyi haqqında mülahizələr tədqiqat işində əksini tapmışdır. Digər variantların isə substansiyasında tam bazar prinsiplərinə cavab verən yeni tipli qurumların formalaşması prosesi durur. Konqlomerat istiqamətli şaquli inteqrasiya olunan strukturun fəaliyyət göstərməsi əvvəlcə səhmləşmə sisteminin formalaşmasından, onun dayanıqlığından, daha çox özəl xarakterli elastikliyindən asılı olacaqdır. Belə reallıqlar kontekstində ilkin olaraq alomerant strukturun yaradılması daha məqsədəuyğundur. Köhnə idarəetmə strukturunun böyük xalq təsərrüfatı və sosial əhəmiyyəti əsas götürülərək, yeni idarəetmə strukturunun formalaşması, fikrimizcə, səhmdar əsasda dövlət və özəl qurumların birgə fəaliyyəti nəticəsində yaradılmalıdır.



ARDNŞ-nin mərkəzi idarəetmə aparatının və NQÇİ-nin strukturunda köhnə idarəetmə sistemindən miras qalan elementlər olduqca çoxdur. Digər tərəfdən, keçid iqtisadiyyatının şəbəkəsi qarışıq və keçici xarakterli olduğundan öz strukturlarında heç bir iqtisadi sistemi bütövlüklə ifadə etmir. Belə bir hal idarəetmənin təşkilati strukturunda yeniləşməni inkar etməklə mövcud idarəetmə sisteminin saxlanılmasına xidmət edir. Odur ki, bizim subyektiv fikrimizcə, ARDNŞ-nin və onun tərkibindəki NQÇİ-nin idarəetmə strukturunda institutsional islahatlar aşağıdakı formalarda həyata keçirilərsə, daha məqsədəuyğun olardı:

a) bazar iqtisadiyyatına uyğun neft-qazçıxarma istehsal qurumlarının təşkili;

b) vahid qazma işləri kompleksinin yaradılması;

c) ixtisaslaşdırılmış xidmət sahələrinin əlahiddə fəaliyyətinin təyinatı;

ç) səmərəli bazar seqmentli strukturun təşkili;

d) servis təşkilatlarının özəlləşdirilməsi;

e) yeni idarəetmə strukturuna uyğun çevik idarəetmə aparatının təşkili;

ə) vergi və qanunvericilik şəbəkəsinin təkmilləşdirilməsi.

Neft-qazçıxarma sənayesində institutsional islahatların aparılmasında ARDNŞ-in və NQÇİ-nin restrukturizasiyası mühüm rol oynayır. NQÇİ-nin restrukturizasiyası dedikdə, iqtisadi səməranı və bazar rəqabətinin yüksəldilməsi istiqamətində geniş dairəli tədbirlər sistemi nəzərdə tutulur. Milli real sektorun aparıcı sahəsi olan neft-qazçıxarmanın mahiyyətcə bazara dərin adaptasiyası da rekstrukturizasiyada əksini tapır. Keçid iqtisadiyyatı restrukturizasiyanı iki istiqamətdə – mikroiqtisadi səviyyədə fərdi neft-qazçıxarma idarələri kontekstində və iqtisadiyyatın ümumi sisteminin dəyişikliklərinin nəticəsi formasında aparır. Hər iki istiqamət fundamental investisiyalar müqabilində reallığa çevrilir. Bununla belə, restrukturizasiyanın çoxşaxəli üsulları daha çox təşkilati və maliyyə elementlərini cəm edən

qruplar üzrə ümumiləşir. Bu baxımdan neft-qazçıxarma sənayesində geniş istehsal restrukturizasiyası hər iki qrup elementlərini eyni zamanda nəzərə almalıdır. İnzibati-amirlik idarəetmə sistemindən fərqli olaraq restrukturizasiya sərt idarəetmə strukturları deyil, dinamik, elastikyönümlü kapitalın kombinasiyalı, çarpazlaşan qurumun düzülüşündə ifadə olunmalı, bazar kapitalı vasitəsilə təkrar bölgüyə və inkişafa məruz qalmalıdır.

Neft-qazçıxarma sənayesində səmərəli fəaliyyəti ləngidən səbəblərdən biri də struktur zəifliyi və artan struktur böhranıdır. Təşkilatın yenidən qurulmasında yeni idarəetmə strukturunun təşkilində müxtəlif variantlar nəzərdən keçirilə bilər. Neft-qazçıxarma idarələrinin bazar iqtisadiyyatı tələblərinə adaptasiyası uzun və mürəkkəb bir prosesdir. Keçid iqtisadiyyatında məsələnin həlli də aşağıdakı əsas istiqamətlərdə nəzərdən keçirilir:

– ***ənənəvi dövlət müəssisələrinin idarəetmə və mülkiyyət funksiyalarının bölgüsü əsasında səhmdar cəmiyyətlərinə (SC) və digər bu kimi ictimai, korporativ təşkilatlara çevrilməsi.*** Səhmdar cəmiyyət öz səhmləri müqabilində məsuliyyəti nəzərdə tutan bütün geniş əməkdaşlıq formasıdır. Onun ilk təzahürü Böyük Britaniyada təqribən 400 il bundan əvvəl, yəni 1600-cü ildə özünü büruzə vermişdir. Deməli, böyük tarixi yol keçmiş səhmləşmə prosesi postsovet məkanında iqtisadi yeniləşmədə ən geniş yayılan və əhəmiyyəti ilə seçilən struktur forması olmuşdur. Səhmləşmənin iki növünü: korporativ və qapalı tipli səhmdar cəmiyyətləri fərqləndirilir. Fikrimizcə, ARDNŞ-də strateji yönümlü islahatlar təşəkkül tapmalı və sahədə bazar oriyentasiyalı yeni struktur formalaşmalıdır. 2-ci və 3-cü şəkillərdə ARDNŞ-də («Azərneft» İstehsalat Birliyi timsalında) korporativ tipli səhmdar cəmiyyətinin (KTSC) və qapalı tipli səhmdar cəmiyyətinin (QTSC) idarəetmə strukturunun təxmini sxemi verilmişdir.

– ***dövlət müəssisələrinin özəlləşdirilməsi*** – dövlət mülkiyyətinin ayrı-ayrı şəxslərin, əmək kollektivlərinin, hüquqi şəxslərin şəxsi mülkiyyətinə çevirərək mülkiyyətin dövlətsizləşdirilməsi üsullarından biridir. Deməli, dövlətsizləşdirməni özəlləşdirmə ilə tam eyniləşdirmək olmaz, yəni dövlətsizləşdirmə özəlləşdirməyə nisbətən daha geniş anlamdır. Ümumiyyətlə,






***Şəkil 2. Korporativ tipli səhmdar cəmiyyəti strukturunun təxmini sxemi***




***Şəkil 3. «Azərneft» qapalı tipli səhmdar cəmiyyətinin (QTSC) təxmini sxemi***

dünya miqyasında özəlləşdirmənin aşağıdakı üç modelini fərqləndirirlər: a) dövlət müəssisələrinin əmlakının əhali arasında bərabər və pulsuz bölüşdürülməsi; b) dövlət müəssisələrinin səhmlərinin əmək kollektivləri tərəfindən müəyyən güzəştli şərtlərlə satın alınması; c) dövlət müəssisələrinin bazar qiyməti ilə əhaliyə satılması. Məlumat üçün qeyd edək ki, dünya iqtisadi sistemində neft-qazçıxarma sənayesi müxtəlif ölkələrdə, müxtəlif mülkiyyət formalarında mövcud olmuşdur. Azərbaycanda bu, ilk dövrlərdə sahibkarların sərəncamında, Sovet hakimiyyəti qurulduqdan sonra isə milliləşdirilərək dövlət mülkiyyətinə çevrilmişdir, 2001-ci ildən isə yenidən özəlləşdirilərək ayrı-ayrı sahibkarlara verilmişdir. Azərbaycanda neft-qazçıxarma sənayesində sahibkarlıq və neft biznesini inkişaf etdirmək üçün dövlət öz sahibkarlarına və biznesmenlərinə əlverişli şərait yaratmaqdadır. Statistika Komitəsinin məlumatına görə, Azərbaycan Respublikasında özəlləşdirmə prosesi başlanandan bəri ümumi dəyəri 488,7 milyard manat olan 33700 kiçik müəssisə və obyektlər özəlləşdirilib. Onlardan 653-i sənaye, 120-si kənd təsərrüfatı müəssisələri, 313-ü tikinti təşkilatı, 155-i başa çatdırılmamış tikinti, 2565-i ticarət, 716-sı iaşə müəssisəsi, 9534-ü məişət xidməti, 556-sı yanacaqdoldurma məntəqəsi, 15071-i nəqliyyat müəssisəsi və nəqliyyat vasitələri, 76-sı kommunal təsərrüfatı obyektləri, 3941-i digər obyektlər və avadanlıqlardır. Bütün bunlar Azərbaycan Respublikasında kiçik sahibkarlıq strukturlarının sayının surətlə artmasına, onların fəaliyyət dairəsinin genişlənməsinə səbəb olmuş, respublikanın iqtisadi resurslarının iqtisadiyyatın bu sahəsinə axınını gücləndirmişdir.

– ***vətəndaşların kapitalı, qeyri-dövlət təşkilatlarının vəsaitləri əsasında müəssisələrin təşkili.*** Məlumat üçün qeyd edək ki, təkcə 2002-ci ildə ölkənin iqtisadi və sosial sahələrinin inkişafına bütün maliyyə mənbələrindən 9 trilyon manat həcmində investisiya yönəldilmiş, 4,1 trilyon manatlıq tikinti-quraşdırma işləri görülmüşdür. 2001-ci illə müqayisədə istifadə edilmiş investisiyanın məbləği 90,4%, tikinti-quraşdırma işlərinin həcmi 2,6 dəfə artmışdır. Əsaslı vəsaitin 76,4%-ni və ya 6,9 trilyon manatını xarici investisiya təşkil etmişdir ki, bu da xarici investisiyalı müəssisələrin sayının artmasına səbəb olmuşdur. Bu gün Azərbaycanda 1974 xarici investisiyalı müəssisə fəaliyyət göstərir. Birgə müəssisələrin sayı isə 940-dan çoxdur. Başqa sözlə, 2002-ci ildə 2001-ci illə müqayisədə xarici investisiyalı müəssisələrin sayı 7,1%, birgə müəssisələrin sayı isə 3,5% artmışdır.



Hazırda ölkəmizdə milli sahibkarlıq strukturları ilə yanaşı, xarici investisiyalarla tam və ya şəriklik qaydasında yaradılmış sahibkarlıq strukturları da geniş fəaliyyət göstərirlər. Hazırda Azərbaycanın neft bölməsində xarici investorlar tərəfindən yaradılmış 11 xarici və birgə müəssisə, qeyri-neft bölməsində isə 1300-ə yaxın şirkət fəaliyyət göstərir.

Məlumat üçün qeyd edək ki, ARDNŞ-də aparılacaq restruktizasiyanın nəticəsi kimi Holdinq tipli idarəetmə strukturundan da istifadə edilə bilər. Holdinq vahid idarəetmə strukturunun birləşməsi, neft-qazçıxarma idarələrinin səhmlər paketinə nəzəri həyata keçirən idarəetməni təmin edən təşkilat formasıdır. Belə idarəetmə təşkilatının xarakterik xüsusiyyəti onun çoxşaxəli, kompleksli təsisat olunmasındadır ki, bu da özünü istehsal, kapital resurslarının fasiləsiz davamlı təminatlı, irimiqyaslı difеrensial istehsalatın yaranması, müxtəlif investisiya proqramlarının, yeni texniki-texnoloji həllin axtarışı və tətbiqinə istiqamətli olduğunda göstərir.

Holdinq dövləti və qeyri-dövləti sistem əsasında yaradıla bilər. Lakin bizim müasir təsərrüfat ukladı üçün neft bölməsində ilk mərhələdə, şübhəsiz ki, dövlətə məxsus formada yaradılması daha məqsədəuyğundur. Qeyd edək ki, hazırda Rusiyada dövlətin iştirak etdiyi yüzlərlə belə holdinq təşkilatları fəaliyyət göstərir. Holdinq tipli təşkilatın aşağıdakı üstünlükləri vardır:

– avtonomiya, qeyri-mərkəzləşmiş törəmə təşkilatlarda idarəetmənin qeyri-mərkəzliliyi;

– üfüqi və şaquli inteqrasiya üçün şəraitin təminatlılığı;

– diversifikasion struktura malik törəmə təşkilatların holdinq miqyasında birləşdirilməsi;

– ixtisaslı kadrlar hesabına səmərəli fəaliyyətin təşkili;

– nazirlikdən fərqli olaraq nəzarət mükəmməlliyinin nəzarət monitorinqində təminatı;

– menecer idarəetmə sisteminin tətbiqi;

– səmərəli məşğulluq;

– qeyri-səmərəli obyektlərin mütəmadi restrukturizasiyası.

Holdinq təşkilatı təcrübəsinə görə dövlət və ya özəl quruluşdan asılı olmayaraq, həm də təşkilati baxımdan zəif forma hesab edilir. Burada kadr seçimində, menecer təyinatında mövqe, siyasi məqsədlər, professionalizmin arxa plana çəkilməsi, müəssisənin mülkiyyətçisi ilə menecer arasında yeni bürokratik mühitin yaranması da istisna edilmir. Bununla belə, Holdinq təşkilati strukturunun üstünlükləri də kifayət qədərdir.

Fikrimizcə, ARDNŞ-də konsern formasında bazar iqtisadiyyatı tələblərinə cavab verə bilən qurumun yaradılması indiki konyunktur özəlliklərə, perspektivə, inkişafa daha çox uyğun olardı. Onun isə müxtəlif formaları ola bilər. Konsern müstəqil müəssisə və təşkilatların birliyi olub, ümumi iştirakçılıq sistemi ilə maliyyə resurslarını və istehsalı reallaşdıraraq, iştirakçı tərəfləri «şaquli» və ya «üfüqi» formada birləşdirir. Şaquli birlik istehsal prosesini rabitəli xarakterlə bağlılıqda olan müəssisələr, üfüqi birlik isə qarşılıqlı əlaqəliyi olmayan müxtəlif sahələrin, müəssisələrin, təşkilatların birləşməsidir. Konsern həm də öz növbəsində hüquqi şəxs olmaqla, səhmdar cəmiyyət holdinq, şaquli və üfüqi inteqrasiya olunan qurumlara ayrılır. Məsələn, Rusiyada iri neft-qazçıxarma idarələri sahəvi, regional əsasda yenidən birləşərək daha nəhəng birliklər yaradılmışdır. Bu isə onların dünya neft biznesinə imkan verən şaquli inteqrasiya olunan formada iş birliyi qurmağa sövq edir.

Quruda Neft-qazçıxarma İstehsal Birliyini şaquli inteqrasiya olunan təşkilatına da çevirmək mümkündür. Qeyd etdiyimiz kimi, Azərbaycanın qurudakı neft-qaz yataqları sovetləşmə dövründə vahid qurum – «Azneft»də birləşərək çox möhtəşəm iqtisadi gücə malik olmuşdur. Xaricə çıxış müstəqilliyi, nümayəndələr, emal zavodları, nəql, kommunikasiya azadlığı sonradan məhdudlaşdırılaraq, mərkəzi plan sisteminə uyğunlaşdırılmışdır. Vahid strukturda olan bir çox müəssisələr, təşkilatlar istehsal birliyindən müstəqillik əldə edərək, korporativ strukturunu zəiflətmişlər. SSRİ dövləti süquta düçar olduqda sadalanan qurumlar, o cümlədən, Azərbaycan ərazisində neft-qaz sənayesində istehsalı təmin edən regional təşkilatlar da ittifaqdan mərkəzi idarəetmədə müstəqillik qazanmışlar. Bir çox belə tipik əlahiddə profilli müəssisələr müəyyən müddət heç bir Nazirliyə tabe olmadan, ayrıca sahəvi təşkilat kimi fəaliyyət göstərmişlər. Sonrakı mərhələdə dövlət orqanları neftyönümlü təşkilatları yenidən mərkəzi qurumlar formasında birləşdirmişlər. Belə birləşmələri isə, qeyd olunduğu kimi, o qədər də məqbul hesab etmək olmazdı.



## 5.2. Menecment mexanizmi və müasir dövrdə ona edilən əsas tələblər

***Menecment mexanizmi*** – idarəetmə sisteminin ən mühüm ünsürlərindən biridir. İdarəetmə mexanizmi özündə idarəetmənin ümumi prinsiplərini, metodlarını, məqsəd və vəzifələrini əhatə edir. İdarəetmə mexanizminin göstərdiyimiz dörd tərkib ünsürləri arasında üzvü əlaqə vardır ki, bunlar da obyektiv xarakter daşıyır. Belə ki, prinsipsiz idarəetmə prosesi olmaz, olsa da həmin proses iqtisadi məqsəd olmadan həyata keçirilə bilməz. Məqsədlər idarəetmə prosesindən kənarda baş vermir, deməli, idarəetmə proseslərinin ardıcıl və normal gedişatı üçün idarəedici təsir vasitələri olmalıdır. Bu, idarəedici təsir idarəedən subyekt tərəfindən müxtəlif metodlardan istifadə edilərək həyata keçirilir.

Neft-qazçıxarma sənaye sahəsinin normal inkişafı istehsalın müəyyən qaydada təşkilini və idarə edilməsini tələb edir. Çünki istehsal-təsərrüfat sahəsindəki nailiyyətlər özü-öz başına əldə edilmir. Onlar təsərrüfat rəhbərlərinin, sahibkarların, menecerlərin böyük təşkilatçılıq və hər bir işçinin əzmkar əməyi və səyi nəticəsində əldə edilir. Bu baxımdan ictimai istehsal idarəetmə mexanizmi olmadan mütəşəkkil inkişaf edə bilməz. Özü də ictimai istehsal inkişaf etdikcə idarəetmənin də rolu artır. Ümumiyyətlə, sahənin sosial-iqtisadi siyasətini idarəetmədən kənarda təsəvvür etmək olmaz. Əslində sosial-iqtisadi siyasət müəyyən idarəetmə sistemləri və metodları vasitəsilə həyata keçirilir. İctimai istehsalın mütəşəkkil və sinxron inkişafı, müxtəlif mülkiyyət formalarından səmərəli istifadə edilməsi xeyli dərəcədə idarəetmənin keyfiyyətindən asılıdır. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, iqtisadi azadlıq istehsalın inkişafının real şəkildə sürətləndirilməsini, ona yeni dinamizm və keyfiyyət verilməsini, insan amilinin formalaşmasını, mövcud ehtiyatlardan qənaətcil istifadə olun-

masını təmin edir. Deməli, bazar iqtisadiyyatı idarəetmə mexanizmində mühüm dəyişikliklərin edilməsini, hər cür təsərrüfatçılıq hallarına qarşı mübarizəni, idarəetmə məsələlərinin həllinə prinsipcə yeni tərzdə yanaşmağı qarşıya qoyur. İndi idarəetmə əmək kollektivlərində müasir iqtisadi təfəkkürün formalaşmasına köməklik etməli, təsərrüfat məsələlərinin həllinə xalq təsərrüfatı baxımından yanaşmağı, idarəetmə vərdişini və elmini mənimsəməyə, səriştəli iş üslubunu öyrənməyi təmin etməlidir. Odur ki, hazırda hər bir təsərrüfat rəhbərinin, sahibkarın, menecerin idarəetmə elminə yiyələnməsi ən başlıca və zəruri şərtlərdən biridir.

Beləliklə, sahə miqyasında istehsal əlaqələrinin və əmək kollektivlərinin mütəşəkkilliyinin təmin edilməsində idarəetmə bir fəaliyyət növü kimi mühüm rol oynayır. Çünki idarəetmə ictimai-iqtisadi münasibətlərin konkret məqsədəuyğun təşkil edilməsi metodudur, bütöv bir sistemin ayrı-ayrı ünsürləri arasındakı əlaqəni təmin edən bir prosesdir. ***İdarəetmə əvvəlcədən nəzərdə tutulmuş və dərk edilmiş məqsədə nail olmaq üçün hər hansı konkret obyektə məqsədəuyğun təsiretmə vasitəsidir. İdarəetmə bütün obyektiv qanunlar sisteminin tələblərinin, həmçinin müasir cəmiyyətə, yəni bazar iqtisadiyyatına xas olan ictimai, kollektiv və şəxsi mənafelərin həyata keçirilməsi mexanizmidir.***

Deməli, sahə miqyasında idarəetmə mövcud qayda və qanunların həyata keçirilməsini, müəssisədə baş verə biləcək ziddiyyətlərin aradan qaldırılmasını, sosial-iqtisadi inkişafın vəhdətliyinin təmin olunmasını, müsbət meyllərin daha da inkişaf etdirilməsini, həmin sosial-iqtisadi sistemlərin mənfi, qüsurlu halların təsirindən uzaqlaşdırılmasını, kənarlaşdırılmasını nəzərdə tutur. Ona görə də idarəetmə insan amillərindən, maddi-texniki və enerji ehtiyatlarından səmərəli istifadə olunmasını, idarəetmə fəaliyyəti qarşısında qoyulan vəzifələrə nail olmaq məqsədilə şüurlu surətdə ardıcıl və planauyğun təsir vasitələrinin həyata keçirilməsini tələb edir.

Maddi istehsalın bütün sahələrində olduğu kimi, sənayedə də istehsalın idarə edilməsində əsas məqsəd sahənin bütün imkanlarından maksimum istifadə olunmasını təmin etməkdən ibarətdir. İdarəetmə əslində sahənin istehsal və elmi-texniki



potensialından istifadə etmənin mühüm amilidir. İdarəetmə həm də işçilərin əmək fəaliyyətinin təşkil edilməsi və səfərbərliyə alınmasının başlıca formasıdır.

Məlumdur ki, sosial-iqtisadi və mənəvi inkişafın əlaqələndirilməsi, ayrı-ayrı işçilərin və əmək kollektivlərinin fəaliyyətinin istiqamətləndirilməsi, sahə və onun struktur bölmələrində baş verən bir sıra sosial-iqtisadi problemlərin həlli ilə əlaqədardır. Bütün bunlar və digər məsələlər idarəetməni zəruri edir və onun öyrənilməsinə olan tələbatı artırır. Digər tərəfdən, müasir texnika, mürəkkəb texniki sistemlər, qurğular, axın xətləri, robototexnika kompleksləri, rotor və rotor-konveyer xətləri və s. də müəyyən qədər idarəetməyə möhtacdır. İdarəetmə bu baxımdan onun müəyyən funksiyalarının icra edilməsi ilə əlaqədardır. Buna görə də idarəetmə metodlarına və prinsiplərinə yalnız istehsal rəhbərləri deyil, sahənin bütün mütəxəssisləri və işçiləri eyni dərəcədə əməl etməlidirlər.

İdarəetmə bir fəaliyyət növü kimi çoxdan mövcuddur. Lakin əsrlər boyu idarəetmə prosesi sırf empirik xarakter daşımış və elmi əsaslara malik olmamışdır. Yalnız XX əsrin əvvəllərindən, yəni menecment fəaliyyətinin meydana gəlməsi ilə əlaqədar olaraq bu proses elmi müddəaların əsasında həyata keçirilir. Müasir dövrdə idarəetmə fəaliyyətinə olan tələbat obyektiv olaraq artmışdır. Bu aşağıdakılarla izah edilir:

a) müxtəlif mülkiyyət formalarına əsaslanan yeni təsərrüfatçılıq formalarının, məsələn, müştərək, kiçik, fərdi, xüsusi və s. kimi müəssisələrin yaradılması, onların strukturunun müxtəlifliyi, sahə və müəssisələr arasındakı istehsal əlaqələrinin mürəkkəbləşməsi və nisbətən zəifləməsi;

b) təşkilati, texniki və sosial əlaqələrin daha dərindən inteqrasiya olunması, onların bir-birilərinə nüfuz etmələrinin daha da dərinləşməsi və obyektiv xarakter alması;

c) müasir elmi-texniki tərəqqinin nailiyyətlərindən daha səmərəli istifadə olunmasının zəruriliyi və onun özünün yüksək səviyyədə idarəetməyə möhtac olması;

ç) milli istehsalın beynəlmiləlləşdirilməsi və hərtərəfli intensivləşdirilməsi, həmçinin istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinin zəruriliyi;

d) sosial-iqtisadi problemlərin kompleks həll edilməsi.

Beləliklə, müasir dövrdə idarəetmə dedikdə, aşağıdakılar nəzərdə tutulur: sahənin fəaliyyətini bazarın tələb və təklifinə, konkret istehlakçıların, alıcıların ehtiyaclarına və mənfəət gətirən məhsul istehsalına yönəltmək; daima istehsalın səmərəliliyini yüksəltməyə can atmaq, ən az məsrəflərlə optimal nəticələr əldə etmək; sahə və onun struktur bölmələrinin fəaliyyətinin son nəticələri üçün məsuliyyət daşıyan rəhbərlərin, sahibkarların, menecerlərin idarəetmə qərarlarının sərbəst surətdə qəbul edilməsini təmin edən təsərrüfat müstəqilliyi; bazarın mövqeyindən, vəziyyətindən asılı olaraq müəssisənin məqsəd və proqramını nəzərdən keçirmək və lazım gələrsə onlara zəruri dəyişikliklər etmək; sahənin fəaliyyətinin son nəticələrini bazarda mübadilə prosesində aşkar etmək; optimal və elmi cəhətdən əsaslandırılmış müasir kompüter texnikasına əsaslanan informasiya bazasından istifadə etmək.

Ümumiyyətlə, idarəetmənin məqsədi onun səviyyəsindən asılı olaraq xalq təsərrüfatı, sahə, ərazi və müəssisə məqsədlərinə ayrılır. ***Xalq təsərrüfatı səviyyəsində idarəetmənin məqsədi*** – sahə və ərazi idarəetmə prinsiplərinin düzgün əlaqələndirilməsindən ibarətdir. ***Sahə miqyasında*** – idarəetmənin əsas məqsədi aşağıdakılardan ibarətdir: xalq təsərrüfatının bu sahənin məhsullarına olan tələbatının müəyyən edilməsi və ödənilməsi; ETT-nin yeni nailiyyətlərinin və qabaqcıl istehsal təcrübəsinin istehsalata tətbiqini təmin etmək və s. ***Ərazi səviyyəsində*** – idarəetmənin mühüm məqsədi yerli təbii resurslardan daha səmərəli istifadə olunmasını, rayonlararası və rayonlardaxili kooperativləşdirmənin təşkilini daha yaxşılaşdırmaq yolu ilə bu və ya digər rayonun kompleks inkişafını təmin etməkdən ibarətdir. ***Müəssisə miqyasında*** – idarəetmə digər idarəetmə pillələrində olduğuna nisbətən çox sahələri əhatə edir. Çünki o, müəssisənin bütün fəaliyyət dairəsi ilə bilavasitə, yaxud dolayı yolla əlaqədardır. Digər tərəfdən, hər bir idarəetmə pilləsi nəticə etibarilə insanların fəaliyyətinin nizamlanması, qaydaya salınması, kiçik və böyük kollektivlərin idarə edilməsi, bu isə istehsal, əmək kooperasiyasının həyata keçirilməsi, həmçinin canlı əməklə istehsal vasitələrinin müəyyən qaydada əlaqələndirilməsi ilə bağlıdır. Deməli, idarəetmə fəaliyyəti canlı və cansız təbiətin bütün hadisələrinə xas olan bir prosesdir. Bununla əlaqədar olaraq, idarəetmənin iki əsas növünü: istehsalın idarə edilməsini və texnikanın idarə edilməsini fərqləndirirlər.



***İstehsalın idarə edilməsi*** – onun inkişafının obyektiv qanunlarına uyğun olaraq ictimai əmək prosesinə nizamlayıcı təsir göstərməyin konkret-tarixi üsuludur; sosial idarəetmənin əsas növlərindən biridir. Bazar iqtisadiyyatı şəraitində istehsalın idarə edilməsi üç inkişaf mərhələsinə ayrılır. Kapitalizmin təşəkkül tapdığı mərhələdə kapitalist manufakturasını (fabriki) sahibkar özü idarə edirdi; kapitalist istehsalının ümumi tənzimləyicisi kimi isə bazar mexanizmi çıxış edirdi. İri maşınlı istehsal mərhələsində idarəetmə funksiyası kapital-mülkiyyətdən ayrılır; idarəetmə funksiyasını muzdlu müdirlər həyata keçirir. Dövlət-inhisarçı kapitalizm dövrü istehsalın peşəkar təşkilatçılarının – menecerlərin formalaşması, idarəetmə prosesində müasir texniki vasitələrin tətbiqi, iqtisadiyyata dövlətin müdaxiləsi ilə xarakterizə olunur. Bazar iqtisadiyyatı ölkələrində elmi idarəetmə ayrı-ayrı müəssisələr (firmalar, şirkətlər) səviyyəsində həyata keçirilir.

***Texnikanın idarə edilməsi*** – texnoloji proseslərin (məsələn, neft və qaz quyularının qazılması və istismarı, xammal və materialın emalı, faydalı qazıntıların çıxarılması və s.), energetika proseslərinin (məsələn, enerjinin hasilatı, çevrilməsi, ötürülməsi və paylanması), nəqliyyat əməliyyatlarının (məsələn, yük və sərnişin daşınması), informasiya proseslərinin (informasiyanın toplanması, işlənməsi, ötürülməsi və saxlanılması) idarə edilməsini özündə birləşdirir. Deməli, göstərilən amillər texnikanın idarə edilməsinin obyektləridir.

Bazar iqtisadiyyatına keçid dövründə istehsalın idarə edilməsi müəyyən prinsiplərə əsaslanır. Bu prinsiplərdə istehsala rəhbərliyin əsas qaydaları, idarəetmə orqanlarına və onların iş üslublarına edilən tələblər, inzibati idarəetmə orqanlarının əmək kollektivləri ilə qarşılıqlı əlaqələri, istehsalın idarə edilməsinin müxtəlif pillələri arasındakı qarşılıqlı münasibətlərin forma və üsulları müəyyən edilmişdir. Hazırda istehsalın idarə edilməsi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

***Mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş idarəetmənin optimal uyğunlaşdırılması prinsipi*** – idarəetməyə ehtiyacı olan vahid xalq təsərrüfatı kompleksinin inkişaf tələblərindən,

həmçinin əmək kollektivlərinin istehsalın idarə edilməsinə cəlb etmək, bu sahədə onların fəaliyyətini artırmaq zərurətindən irəli gəlir. İstehsalın idarə edilməsində mərkəziyyət və qeyri-mərkəziyyət üzvi surətdə qarşılıqlı əlaqəlidirlər və onlar bir-birilərini tamamlayırlar. Mərkəziyyət yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün sözsüz məcburiliyini, yüksək dövlət, plan və əmək intizamını nəzərdə tutur. Eyni zamanda o, istehsalın idarə edilməsində əmək kollektivlərinin iştirakını da nəzərdə tutur. Hazırda qeyri-mərkəziyyət idarəetmə prinsipi istehsal münasibətlərinin yetkinlik dərəcəsinin, işçilərin mədəni-texniki biliklərinin və onların sosial fəallığının artırılması, təsərrüfat mexanizminin kökündən yenidən qurulması əsasında inkişaf edir. Bu prinsipə görə mərkəzi idarəetmə orqanlarının əsas səyləri getdikcə daha çox iqtisadi və sosial inkişafın strateji məsələlərinin həlli üzərində, elmi-texniki tərəqqi və investisiya qoyuluşu, ictimai istehsalın mütənasibliyinin təmin edilməsi, əməyin ödənilməsi və sosial təminat məsələlərinin qeyri-mərkəzləşdirilmiş qaydada həlli sahəsində əməli vahid siyasətin həyata keçirilməsi üzərində cəmləşdirilir. Hazırda aşağı təsərrüfat pillələrinin operativ fəaliyyətinə mərkəzin müdaxiləsi praktiki olaraq aradan qaldırılmışdır, yəni sahə və müəssisələr sərbəst surətdə öz fəaliyyətlərinin məqsəd və vəzifələrini, inkişaf sürətini və s. müəyyən edirlər.

***Demokratik mərkəziyyət prinsipi*** – əsas strateji məsələlərin həllində mərkəzləşdirilmiş rəhbərliyin demokratiyanın inkişafı ilə, idarəetmədə aşağı pillələrin rolunun, təşəbbüskarlığının artırılması ilə əlaqələndirilməsini nəzərdə tutur. Mərkəziyyətin ən mühüm təzahürü sənaye istehsalının inkişafında əsas istiqamətlərin, sürət və mütənasibliyin müəyyən edilməsi, əmək haqqı və qiymət siyasətinin həyata keçirilməsində büruzə verir. İdarəetmənin demokratikləşdirilməsi təsərrüfata rəhbərlikdə müəssisənin aşağı pillələrinin, yəni sex və istehsal sahələrinin rəislərinin, briqadirlərin hüquqlarının genişləndirilməsi və sosial-iqtisadi inkişafla əlaqədar olan məsələlərin həllində onların rolunun artırılması ilə bağlıdır.

***Təsərrüfat və sosial rəhbərliyin vəhdətliyi prinsipi*** – təsərrüfat məsələlərinin həllində dar çərçivəli idarəçilik və yerliçilik mövqeyindən yanaşma hallarını qəbul etmir. Bu prinsip idarəetmə sistemində birtərəfli yanaşma hallarının əleyhinədir, yəni maddi istehsal sahələrinin mənafeyi müəssisənin mənafeyi ilə, müəssisənin mənafeyi sahənin mənafeyi ilə, sahənin mənafeyi isə ümumdövlət mənafeləri ilə ziddiyyət təşkil etməməlidir. Bundan başqa, bu prinsip tələb edir ki, təsərrüfat məsələləri ilə sosial məsələlər vəhdət halında həll edilməlidir, onların heç birinə üstünlük verilməməlidir. Bu o deməkdir təsərrüfat rəhbərləri, sahibkarlar, menecerlər yalnız təsərrüfat məsələləri ilə deyil, eyni dərəcədə sosial problemlər ilə də məşğul olmalıdırlar.



***Komandanın vəhdətliyi prinsipi*** – sahənin məqsəd və strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi üçün müəssisədə çalışan müxtəlif mütəxəssislərdən vahid idarəetmə komandasının yaradılmasını nəzərdə tutur. Bu istehsalın operativ və təsirli idarə edilməsinin vacib şərtlərindən biridir. İstehsala rəhbərlikdə belə bir prinsipin həyata keçirilməsi idarəetmənin bütün səviyyələrində hər bir rəhbər işçinin hüquqları, vəzifələri və məsuliyyət dairəsinin dəqiq müəyyənləşdirilməsini tələb edir.

***Kollegiallıq prinsipi*** – tələb edir ki, sahənin bütün işçiləri, xüsusilə də idarəetmə aparatında çalışan mütəxəssislər sahənin inkişafının məqsəd və strategiyasının işlənib hazırlanmasında, idarəetmə qərarlarının qəbulunda və icrasında, işçilərin məişət və iş şəraitinin yaxşılaşdırılmasında fəal iştirak etsin və konkret məsələlərin həllində onların tövsiyələri, fikirləri nəzərə alınsın. Müasir dövrdə istehsalın idarə edilməsində kollegiallıq prinsipinə əməl olunmasına böyük ehtiyac vardır, çünki sosial-iqtisadi məsələlər o qədər çətinləşmiş və mürəkkəbləşmişdir ki, kollegiallıq prinsipinə əməl etmədən onları müvəffəqiyyətlə həll etmək olmaz.

***Hüquq, vəzifə və məsuliyyətin vəhdətliyi prinsipi*** – müasir şəraitdə istehsalın texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi və intensivləşdirilməsi ilə, müəssisələrin təşəbbüskarlığının və təsərrüfat müstəqilliyinin genişləndirilməsinə aparan təsərrüfat mexanizminin kökündən yenidən qurulması ilə obyektiv olaraq şərtləndirilir. Bu prinsip tələb edir ki, sahə və müəssisənin idarəetmə orqanlarında çalışan hər bir işçi öz hüquq və vəzifələrini dərindən dərk edərək onların həyata keçirilməsində müəyyən məsuliyyət hiss etsinlər.

***Sistemlilik prinsipi*** – idarəetmənin məqsədinin, funksiyaları-

nın və metodlarının tam vəhdət halında qarşılıqlı olaraq əlaqələndirilməsini nəzərdə tutur. İdarəetmə fəaliyyətinə sistem halında yanaşma sosial-iqtisadi sistemlərdə baş verən kəmiyyət və keyfiyyət dəyişikliklərini nəzərə almağa imkan verir. Sistemlilik prinsipi ümumi halda götürüldükdə obyektiv həqiqətin sistem bütövlüyü və onların daxilindəki ünsürlərin qarşılıqlı təsiri mexanizmindən ibarətdir. Bu, reallığın xüsusi qneseoloji prizmasını, ölçüsünü müəyyən edir. Başqa sözlə, burada bir-birilə qarşılıqlı əlaqədə olan ünsürlərin çoxluğu və vəhdətliyi nəzərdə tutulur. Bu ünsürlər çoxluğu bütöv bir mükəmməl sistemi əmələ gətirməklə, aralarında inteqral xassəli qanunauyğunluqlar yaradır. Ona görə də sosial-iqtisadi və digər sistemləri tədqiq edən zaman ən əsas məsələlərdən biri ünsürlərin sistemə çevrilməsinə səbəb olan determinantlarını aşkara çıxarmaq və müəyyən etməkdən ibarətdir.

***Komplekslilik prinsipi*** – idarəetmənin təşkilati-texniki və sosial-iqtisadi aspektlərinin, cəhətlərinin vəhdətliyinin təmin olunmasını nəzərdə tutur. Ona görə də burada yalnız idarəetmə sistemini deyil, həmçinin digər elmlərin, məsələn, iqtisadi nəzəriyyənin, fəlsəfənin və s. elmlərin müddəalarından da istifadə edilir. Deməli, komplekslilik prinsipi o deməkdir ki, təsərrüfat-istehsal rəhbəri, menecer konkret vəziyyəti yalnız bütün prosesləri əlaqəli şəkildə öyrəndiyi, tədqiq etdiyi tərzdə düzgün qiymətləndirə və optimal idarəetmə qərarları qəbul edə bilər. Bu, hər hansı bir idarəetmə qərarlarının işlənib hazırlanmasında və qəbul edilməsində birtərəfli yanaşma hallarının qarşısının alınması üçün başlıca təminatdır.

***Əməyin maddi və mənəvi stimullaşdırılmasının səmərəli əlaqələndirilməsi prinsipi*** – əməyin ödənilməsinin müxtəlif forma və sistemlərinin tətbiqində öz ifadəsini tapır. Maddi stimullaşdırma bölgü mexanizmi çərçivəsində həyata keçirilən tədbirlər sistemini əhatə edir, mənəvi stimullaşdırma isə əmək kollektivinin sosial tələbatı ilə bağlıdır. Mənəvi stimullaşdırma sistemi yüksək əmək fəallığına ictimai qiymət verməyin müxtəlif formalarını özündə birləşdirərək, insan amilinin rolunun artmasına, sahibkarlıq hissinin tərbiyə olunmasına köməklik edir.

***İstehsalın idarə edilməsində əməkçi kollektivlərin iştirakı prinsipi*** – onun demokratikləşdirilməsinin ən mühüm formalarından biridir. Bu prinsipin köməyi ilə işçilər idarəetmə bacarığına yiyələnir və istehsalın sahibi olduğunu duyur, əməyə və onun nəticələrinə qayğı ilə yanaşmağı öyrənir.



***Məsuliyyətlilik prinsipi*** – bazar iqtisadiyyatı şəraitində ən mühüm prinsiplərdən biridir. Bu, idarəetmə mexanizminin yenidən qurulması ilə bilavasitə əlaqədardır. Çünki sözünə əməl etməyən, sifarişləri (tapşırıqları, müqavilələri) vaxtında yerinə yetirməyən sahə və müəssisələrlə heç bir işbazlar əlaqə yaratmaq istəmirlər.

***Təkbaşçılıq prinsipi*** – tapşırılmış iş üçün istehsal rəhbərinin, sahibkarın, menecerin şəxsi məsuliyyətini, onun qəbul etdiyi idarəetmə qərarlarının hər bir işçi tərəfindən məcburi yerinə yetirilməsini nəzərdə tutur. Təkbaşçılıq prinsipi istehsalın idarə edilməsində geniş əməkçi kollektivinin iştirakını imtina etmir, əksinə, onlar üzvü surətdə əlaqələndirilir. Mövcud qaydaya əsasən təkbaşçılıq prinsipi bütövlükdə müəssisə və onun struktur bölmələrinin rəhbərlərinə şamil edilir. Lakin bu prinsipi həyata keçirərkən istehsalın demokratikləşdirilməsi prinsipinə ciddi əməl edilməlidir.

***Qənaətçilik prinsipi*** – tələb edir ki, sahə və müəssisə miqyasında sosial-istehsal məsələlər elə həll olunmalıdır ki, onların idarəetmə prosesində lüzumsuz məsrəflərin əmələ gəlməsinə şərait yaratmasın. Bu prinsip idarəetmədə mütərəqqi texniki vasitələrin tətbiqini, idarəetmə aparatı işçilərinin əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasını, icra intizamının möhkəmləndirilməsini və s. nəzərdə tutur.

***İdarəetmə qərarlarının optimallığı prinsipi*** – optimal idarəetmə qərarlarının işlənib hazırlanmasını və onlara kompleks halında yanaşmağı tələb edir. Optimal idarəetmə qərarı nəzərdən keçirilən bütün mümkün variantlar içərisində ən yaxşısına deyilir. Yaxşı variant isə qənaətli olması və onun zəruri informasiya ilə, idarəetmə funksiyaları ilə düzgün əlaqələndirilməsi və qısa vaxt ərzində həyata keçirilməsi imkanları ilə xarakterizə olunur.

***İdarəetmənin çevikliyi prinsipi*** – hər şeydən əvvəl, idarəetmə məsələlərinin xarakterindən, onun yaranma mənbələrindən, müəssisənin sosial-iqtisadi inkişafının dinamikliyindən, istehsalın bazarın tələb və təklifindən asılı olaraq tez-tez dəyişməsindən irəli gəlir. İdarəetmə mexanizmi və ya prosesi çevik

olarsa, sahə (müəssisə) miqyasında baş verən və ya baş verə biləcək ziddiyyətləri tez və asanlıqla həll etmək olar.

***Planauyğunluq prinsipi*** – o deməkdir ki, iqtisadi və sosial məsələlər bütün idarəetmə pillələrində kortəbii deyil, planlı qaydada həll edilməlidir. Bu prinsipə əməl edilmədikdə idarəetmə fəaliyyətində ahəngdarlıq pozulur və itkilər əmələ gəlir.

***Elmlilik prinsipi*** – idarəetmənin üsullarının, formalarının və vasitələrinin elmi surətdə əsaslandırılmasını tələb edir. Məlumdur ki, istehsal obyektiv qanunlar əsasında inkişaf edir və həmin qanunlardan irəli gələn müəssisənin özünəməxsus qanunauyğunluqları bilmək düzgün idarəetmə qərarlarının işlənib hazırlanmasına və həyata keçirilməsinə imkan verir. Beləliklə, idarəetmənin elmilik prinsipi iqtisadiyyatın dərk edilmiş inkişaf qanunauyğunluqlarından istifadə olunması, hər bir müəyyən dövrdə fəaliyyət göstərən obyektiv və subyektiv amillərin məcmusunun nəzərə alınmasına əsaslanır.

İdarəetmə prinsipləri müəyyən metodlar vasitəsilə həyata keçirilir. İdarəetmə metodları təsərrüfatçılığın həyata keçirilməsinə xidmət edir və kompleks idarəçilik funksiyalarının icrası ilə əlaqədardır. Ona görə də əslində idarəetmə metodu – idarəçilik fəaliyyətinin icra edilməsi vasitəsidir. Özü də istehsalın xarakterindən və həcmindən, təşkili formaları və tiplərindən asılı olaraq idarəetmə metodları çoxcəhətli və müxtəlifdir. Ümumiyyətlə, idarəetmə metodları – idarəetmə fəaliyyətini həyata keçirmək, qarşıya qoyulan məqsədlərə nail olmaq niyyəti ilə idarə olunan obyektlərə təsiretmə vasitələridir. İqtisadi, təşkilati, yaxud təşkilati-inzibati, sosial-psixoloji idarəetmə metodları fərqləndirilir. İstehsalı idarəetmə metodları sistemində aparıcı yeri iqtisadi qanunların nəzərə alınmasına əsaslanan iqtisadi idarəetmə metodları tutur. İdarəetmə metodları iqtisadi münasibətlərə müxtəlif cür təsiretmə üsullarını – təsərrüfat hesabını, qiymətqoymanı, maliyyələşdirməni, krediti, iqtisadi normativlər sistemini və s. əhatə edir.

### 5.3. Menecment prosesinin mahiyyəti və funksiyaları

İstehsalın idarə edilməsinin əsas mahiyyəti onun statistik, hərəkətsiz vəziyyətdə olmasında deyil, daim hərəkətdə olması



ilə xarakterizə olunur. Əks təqdirdə idarəetmə prosesi həyata keçirilməz. İdarəetmə prosesi, ilk növbədə, idarəetmə sisteminin vəhdətliyi və idarəetmə sahəsində olan əmək bölgüsü və əmək kooperasiyası ilə şərtlənir. Bu baxımdan idarəetmə prosesi müəssisənin mövcud ehtiyatlarından səmərəli istifadə etməklə bu və ya digər idarəetmə obyekti qarşısında qoyulan məqsədin, vəzifələrin və funksiyaların həyata keçirilməsinə yönəldilmiş idarəetmə qərarlarının əsaslandırılması, qəbul edilməsi və icrasının təşkili ilə qarşılıqlı əlaqədə olan və müəyyən ardıcıllıqla yerinə yetirilən müxtəlif xarakterli əmək və maşın əməliyyatları kompleksindən ibarətdir. İstehsalın idarə edilməsi prosesinin mahiyyəti özünü idarəetmənin mürəkkəbliyində, məqsədyönlüyündə və fasiləsizliyində, istehsala sosial-iqtisadi rəhbərlikdə, müəssisə və onun struktur bölmələrində təşkilati-texniki rəhbərliyin xarakterində, idarəetmə işində istifadə edilən texniki vasitələrdə ifadə edir.

Maddi istehsal sahələrində olduğu kimi, idarəetmə fəaliyyətində də müəyyən proses həyata keçirilir. Lakin maddi istehsal sahəsindən fərqli olaraq, idarəetmə prosesində yalnız əmək prosesləri həyata keçirilir, yəni idarəetmə prosesində təbii proseslər istisna edilir. Bu zaman əmək cisimləri rolunu informasiya oynayır, əmək alətləri kimi idarəetmə texnikası çıxış edir və hazır məhsul rolunu isə idarəetmə qərarlarının işlənib hazırlanması təşkil edir.

İdarəetmə prosesi strukturuna və tərkibinə görə müxtəlif olur. Məsələn, idarəetmə prosesi strukturuna görə yuxarı, orta və aşağı səviyyəli idarəetmə proseslərinə; tərkibinə görə – makro və mikro idarəetmə proseslərinə ayrılır. Buna baxmayaraq, çalışmaq lazımdır ki, idarəetmə prosesləri bütün səviyyələrdə səmərəli, konkret şəraiti nəzərə almaqla təşkil edilmiş olsun. İdarəetmə proseslərinin səmərəliliyi onun təşkili növlərindən və ona edilən tələblərdən xeyli dərəcədə asılıdır. Adətən, idarəetmə proseslərinin təşkilinin aşağıdakı növlərini fərqləndirirlər:

***a) idarəetmə prosesinin ünsürlər üzrə təşkili*** – idarəetmə prosesinin həyata keçirilməsi ilə məşğul olan işçilərin sayı və tərkibinin müəyyənləşdirilməsi, onların əməyinin təşkili məsələlərini və onlar arasındakı qarşılıqlı əlaqəni özündə əks etdirir;

*b) idarəetmə prosesinin məkan baxımından təşkili* – müəssisə və onun struktur bölmələrində həyata keçirilən idarəetmə funksiyalarının məkan etibarilə bir-birilərinə uyğun olaraq bölüşdürülməsini xarakterizə edir. Bu isə öz ifadəsini müəssisənin idarəetmə strukturunun formalaşmasında tapır;

*c) idarəetmə prosesinin zaman baxımından təşkili* – müəssisə və onun struktur bölmələrində həyata keçirilən idarəetmə funksiyalarının vaxt etibarilə bir-birilərinə sinxronlaşdırılmasını nəzərdə tutur;

*ç) idarəetmə prosesinin struktur baxımından təşkili* – idarəetmə aparatında çalışan işçilərin əmək bölgüsünə əsaslanır və idarəetmə fəaliyyəti ilə məşğul olan mütəxəssislərin əmək fəaliyyətini məkan və vaxtda vahid qarşılıqlı əlaqə prosesində birləşdirməyi təmin edir.

Sahə və müəssisələrdə idarəetmə prosesini səmərəli həyata keçirmək üçün bir sıra prinsiplərə əsaslanmaq lazımdır. Bu prinsiplərdə idarəetmə prosesinin təşkilinə olan tələblər öz ifadəsini tapır. Adətən, sahə və müəssisələrdə idarəetmə prosesi aşağıdakı prinsiplər əsasında həyata keçirilir:

*İdarəetmə proseslərinin təmərküzləşdirilməsi prinsipi* – idarəetmə fəaliyyəti ilə məşğul olan mütəxəssislərin-işçilərin sayının azaldılmasına, onun səmərəliliyinin yüksəldilməsinə imkan verir.

*İdarəetmə proseslərinin ixtisaslaşdırılması prinsipi* – sahə və müəssisə səviyyəsində müxtəlif idarəetmə pillələrində konkret idarəetmə funksiyasının, vəzifəsinin yerinə əlverişli şərait yaradır. İdarəetmə prosesinin ixtisaslaşdırılması idarəetmə fəaliyyətinin keyfiyyətinin yaxşılaşdırılmasına imkan verir.

*İdarəetmə proseslərinin mütənasibliyi prinsipi* – sahə və müəssisələr miqyasında bütün idarəetmə səviyyələrində yerinə yetirilən bütün idarəetmə prosesləri arasında düzgün nisbətlərin təmin olunmasını nəzərdə tutur. Bunun üçün idarəetmə pillələrində həyata keçirilən bütün idarəetmə işləri həcminə, xarakterinə və mürəkkəblik dərəcəsinə görə dəqiq müəyyənləşdirilməlidir.

*İdarəetmə proseslərinin fasiləsizliyi prinsipi* – onun dinamik xarakterindən irəli gəlir. Bu prinsip idarəetmə aparatında çalışan bütün işçilərin-mütəxəssislərin əməyinin elə təşkil olunmasını nəzərdə tutur ki, bu zaman təşkilati-texniki və digər səbəblər üzündən idarəolunan obyektlərdə idarəetmə prosesi ahəngdar yerinə yetirilmiş olsun.



*İdarəetmə proseslərinin uyğunlaşdırılması prinsipi* – o deməkdir ki, idarəetmənin təşkilati strukturu çevik və müəyyən dövr ərzində sabit qalsın. İdarəetmə proseslərinin çevikliyi idarəetmə qərarlarının operativ tənzimlənməsinə imkan verir və onun təsir dərəcəsini artırır.

*İdarəetmə proseslərinin müvazinətliyi prinsipi* – hər bir idarəetmə qərarlarının əsaslandırılmasına yönəldilmiş ayrı-ayrı idarəetmə əməliyyatlarının eyni vaxt müddətində yerinə yetirilməsini və onların qarşılıqlı əlaqəsini nəzərdə tutur. Bu prinsipə əməl olunması idarəetmə qərarlarının işlənib hazırlanmasına, qəbul və icra edilməsinə sərf olunan vaxtın qısaldılmasına imkan verir və idarəetmə fəaliyyətinin operativliyini yüksəldir.

*İdarəetmə proseslərinin varisliyi prinsipi* – müxtəlif dövrlərdə baş vermiş və konkret obyektə yönəldilmiş idarəetmə qərarlarının qarşılıqlı əlaqəsini tələb edir. İdarəetmədə varislik – müxtəlif idarəetmə strukturlarında çalışan mütəxəssislər-işçilər tərəfindən yerinə yetirilən işlərdə, proseslərdə əvvəlki illərdəki idarəetmə qərarlarından istifadəni nəzərdə tutur.

*İdarəetmə proseslərinin dəqiqliyi prinsipi* – konkret məsələnin həlli üçün real, dəqiq informasiyanın olmasını nəzərdə tutur. Bu prinsip idarəetmə aparatında çalışan işçilərin ixtisaslaşdırılması ilə sıx əlaqədardır və idarəetmə qərarlarının işlənib hazırlanması və qəbul edilməsi prosesində istifadə edilir. İnformasiyanın reallığı, dəqiqliyi idarəetmə prosesinin əsas şərtidir.

İdarəetmə prosesi idarəetmənin məqsəd və vəzifələrindən irəli gəldiyi üçün müəyyən idarəetmə funksiyalarının yerinə yetirilməsi ilə bağlıdır. İdarəetmə funksiyaları obyektiv məqsəd və nəticələrin ümumiliyi ilə səciyyələnir ki, bu da idarəetmə aparatında çalışan işçilərin əməyinin funksional bölgüsündən irəli gəlir. Buna uyğun olaraq müəyyən idarəetmə aparatı yaradılır. İdarəetmə aparatının hər bir şöbəsi, yaxud laboratoriyası konkret idarəetmə funksiyasının yerinə yetirilməsi üzrə ixtisaslaşdırılır.

*İdarəetmə funksiyası* dedikdə, ictimai istehsal proseslərinin yerinə yetirilməsinə yönəldilmiş üsul və vasitələrin məcmusu

nəzərdə tutulur. Deməli, idarəetmə funksiyası idarəetmə mexanizminin (fəaliyyətinin) xüsusi növü olub, idarəetmə sahəsində əmək bölgüsünün təzahür formasıdır. İdarəetmə funksiyaları olduqca müxtəlifdir. Lakin əksər hallarda idarəetmə mexanizmi aşağıdakı funksiyaları yerinə yetirməyə xidmət edir:

***Proqnozlaşdırma funksiyası*** – idarəetmənin ən mühüm funksiyalarından biridir. Onun məzmunu, sahə və onun struktur bölmələrinin sosial-iqtisadi inkişafını müəyyənləşdirməkdən, maddi istehsal sahələri üzrə plan tapşırıqlarını işləyib hazırlamaqdan və onları icraçılara çatdırmaqdan, istehsaldaxili ehtiyatları aşkara çıxarmaq üçün təşkilati-texniki tədbirlər hazırlamaqdan ibarətdir. Proqnozlaşdırma nəticə etibarilə müxtəlif idarəetmə pillələrində iqtisadiyyatın optimal inkişafını təmin etməlidir. Bu funksiyanı müəssisənin plan-iqtisadi şöbəsi, sex və istehsal sahələrində isə iqtisadi qruplar yerinə yetirir.

***Kadrların seçilməsi və yerləşdirilməsi funksiyası*** – istehsalı ona lazım olan işçi qüvvəsi, yəni əmək ehtiyatları ilə təmin edir. Bu məqsədlə sahə əmək kollektivlərinin hər bir üzvü ilə müqavilə bağlayır və onun icrasına nəzarət edir. Bu funksiyanı sahə və onun struktur bölmələrinin rəhbərləri, menecerlər həyata keçirir.

***Maliyyə və uçot funksiyası*** – biznesin, sahənin pul təsərrüfatına aid olan aspektləri əhatə edir. İdarəetmənin maliyyə funksiyası sahənin bütün fəaliyyət növlərinin normal gedişatı üçün maliyyə ehtiyatlarının yaradılmasına xidmət edir. Bu funksiyanı sahənin maliyyə şöbəsi həyata keçirir. Uçot işlərinə isə sahənin mühasibat şöbəsi rəhbərlik edir.

***Maddi-texniki təchizat funksiyası*** – iş qüvvəsini çıxmaqla istehsal prosesini bütün zəruri istehsal vasitələri ilə təmin etməklə məşğuldur. Sahədə maddi-texniki təchizat funksiyasının məqsədi sahəyə lazım olan xammal və materialın, maşın və avadanlıqların, texnoloji alət və tərtibatların, yanacaq və enerjinin miqdarını və növünü müəyyən etməkdən, onların əldə edilməsi mənbələrini aşkar etməkdən, ehtiyatlardan səmərəli istifadə edilməsini təmin etmək məqsədilə zəruri tədbirləri həyata keçirməkdən, onların müəssisəyə gətirilməsi formalarını müəyyənləşdirməkdən və məhsul satışı bazarlarını axtarmaqdan ibarətdir. Bu funksiyanı sahənin maddi-texniki təchizat şö-



bəsi həyata keçirir.

***Elmi-tədqiqat funksiyası*** – məhsul və istehsalın tərəqqisini sürətləndirmək işlərini əhatə edir. Bu funksiyanın əsas məqsədi elmi-tədqiqat işləri, təcrübə-konstruktor işləmələri, təcrübə istehsalı üzrə praktiki məsələləri həll etməkdir. Bu funksiyanı sahənin texniki və texnoloji şöbələri həyata keçirirlər.

***Məhsul istehsalının təşkili funksiyası*** – sahənin məhsul istehsalı üzrə qərarların işlənib hazırlanmasında əsas təşkil edir. Sahənin istehsal-təsərrüfat fəaliyyətini xarakterizə edən göstəricilərin yaxşılaşdırılmasında, ehtiyatlardan səmərəli istifadənin stimullaşdırılmasında sahənin digər fəaliyyət növlərinin normal gedişatının təmin olunmasında istehsal funksiyası mühüm rol oynayır. Odur ki, idarəetmənin istehsal funksiyası elə həyata keçirilməlidir ki, o, yüksək keyfiyyətli məhsullar buraxılışının artırılmasını, əmək məhsuldarlığının yüksəldilməsini, istehsal şəraitinin yaxşılaşdırılmasını, ətraf mühitin mühafizəsini təmin etmiş olsun. Bu funksiya sahənin istehsal-dispetçer şöbəsi tərəfindən həyata keçirilir.

***Qiymətqoyma funksiyası*** – çevik qiymət sisteminin fəaliyyət göstərməsi ilə bilavasitə əlaqədardır. Məlumdur ki, normal iqtisadiyyatda inflyasiya qiymətlərin artması ilə xarakterizə olunur. Qiymətlərin sürətlə artması, bir tərəfdən, məcmu tələbi azaldır, digər tərəfdən isə biznesin təkrar istehsalına lazım olan xərcləri çoxaldır. Bunların hər ikisi təsərrüfat subyektlərinin bir-birilə hesablaşmasını çətinləşdirir, böyük həcmdə debitor borclarının əmələ gəlməsinə səbəb olur. Nəticədə eyni vaxtda çoxlu sayda müəssisələrdə mənfəətlilik potensialı azalır və müflisləşmə prosesi kütləvi xarakter alır. Deməli, bazar iqtisadiyyatı çevik qiymət sisteminin olmasını tələb edir və ona görə də müasir dövrdə qiymətqoyma funksiyasının rolu və əhəmiyyəti daha da yüksəlir.

***Marketinq funksiyası*** – mübadilə yolu ilə ehtiyacların ödənilməsinə yönəldilən insan fəaliyyətinin növü kimi çıxış edir. Marketinq funksiyası sahənin istehsal və satış fəaliyyətinin idarə edilməsinin ən mühüm sistemi kimi Qərb ölkələrində XX əsrin əvvəllərində, bizim respublikamızda isə son 10 ildə fəaliyyət göstərir. Bu funksiya bazarın kompleks təhlilinə əsaslanır, istehsal edilmiş məhsulun satılması və maksimum mənfəət

əldə edilməsinin təmin olunmasına yönəldilmişdir. Marketinq funksiyasının əsas məqsədi – istehlak tələbini məqsədəuyğun formalaşdırmaq və sahənin mənafeyinə tabe etməkdir.

***Məhsul satışı funksiyası*** – məhsulun (xidmətin) istehlakçılara çatdırılmasına xidmət edir. Odur ki, bu funksiyanın yerinə yetirilməsi sahənin mənfəətlilik potensialının yüksəldilməsində mühüm rol oynayır. Bazar iqtisadiyyatı şəraitində sahənin mənfəətlilik potensialının yüksəldilməsi xeyli dərəcədə istehlakçıların sayından, müxtəlifliyindən və alıcılıq qabiliyyətindən asılıdır. Belə ki, istehlakçıların sayı çox və alıcılıq qabiliyyəti yüksək olarsa, sahənin mənfəətinin artırılması imkanları da bir o qədər çox olar. Bundan başqa, çalışmaq lazımdır ki, sahənin bir istehlakçısı olmasın. Çünki belə olan halda istehsalçı müəssisənin mənfəətlilik potensialı bir istehlakçının uğurlu fəaliyyətindən asılı olur.

***Təşkiletmə funksiyası*** – istehsal prosesinin həyata keçirilməsi istiqamətlərinin müəyyənləşdirilməsində, sahə tərəfindən buraxılan məhsulların vaxtında və tələb olunan qiymətlə realizə olunmasında mühüm rol oynayır. İdarəetmənin təşkiletmə funksiyası elə yerinə yetirilməlidir ki, o, dövlət plan tapşırıqlarının, istehlakçıların sifarişlərinin və müqavilələrin vaxtında və tam yerinə yetirilməsini təmin etmiş olsun

***Əlaqələndirmə funksiyası*** – istehsalat rəhbərləri və menecerlər tərəfindən həyata keçirilir. Bu onunla izah edilir ki, bazar iqtisadiyyatı şəraitində sahənin və onun struktur bölmələrinin hüquqlarının genişləndirilməsi, marketinq fəaliyyətinin meydana gəlməsi idarəetmədə xüsusi bilik, peşəkarlıq və işgüzarlıq tələb edir.

***Tənzimləmə funksiyası*** – sahənin bütün fəaliyyətinin və funksiyalarının müəyyən qaydada və ahəngdar gedişatının təmin edilməsi ilə bilavasitə əlaqədardır. Odur ki, tənzimləmə funksiyasının başlıca vəzifəsi idarəetmə fəaliyyətinin məqsədyönlüyünü təmin etməkdən, əmək kollektivlərinin qarşısında duran vəzifələrin həlli ilə əlaqədar idarəetmə qərarlarının işlənib hazırlanmasından ibarətdir.

***Təhliletmə funksiyası*** – sahənin bütün fəaliyyət növlərinin vəziyyətinin dərindən öyrənilməsi vasitəsidir. Bu funksiyanın ən mühüm vəzifəsi – tapşırıqların və sifarişlərin yerinə yetirilməsi yekunlarının qiymətləndirilməsindən, istehsaldaxili ehtiyatların aşkara çıxarılmasından, elmi əsaslandırılmış tapşırıqların işlənib hazırlanması üçün tələb olunan informasiyaları toplamaqdan ibarətdir.



***Sosial funksiya*** – sosial sahədə ictimai münasibətlərin tənzimlənməsinə xidmət edir və insan amilinin formalaşmasında özünü büruzə verir. Sosial funksiya sahə və əmək kollektivlərinin mənafelərinə, əmək və məişət şəraitinə, sağlamlıq və asudə vaxta aid olan geniş sahəli problemləri əhatə edir.

### 5.4. Neft sənayesində struktur islahatlar

İstehsalın idarə edilməsi strukturu idarəetmə sisteminin qurulmasının daxili formasını əks etdirir. İdarəetmə strukturunun ünsürləri bir-birilərilə qarşılıqlı surətdə əlaqədar olmaqla, vahid bir idarəetmə sistemini əmələ gətirirlər. Ona görə də idarəetmənin struktur ünsürləri idarəetmə sisteminin atributunu təşkil edir və obyektiv olaraq onun təşkil olunma xarakterini müəyyənləşdirir. İdarəetmə strukturu idarəetmə bölmələrinin miqdarı, tərkibi, onların qarşılıqlı əlaqəsi ilə xarakterizə olunur. Bu baxımdan idarəetmə strukturu idarəetmə prosesində əmək bölgüsünü xarakterizə edir, yəni idarəetmə strukturu bu əmək bölgüsünə müvafiq olaraq müəyyən funksiyaları diferensiallaşdırır. Çünki idarəetmə funksiyaları avtomatik olaraq həyata keçirilmir. Bunun üçün idarə edən sistem yaradılır ki, bu da idarəetmə aparatının formalaşması ilə əlaqədardır. Burada ən mühüm məsələlərdən biri idarəetmə aparatının funksiyaları ilə onun struktur bölmələri arasındakı düzgün əlaqənin təmin edilməsindən və idarəetmə funksiyalarının idarəetmə aparatı şöbələri üzrə optimal şəkildə bölüşdürülməsindən ibarətdir. Bu prosesin səmərəli həyata keçirilməsi istər istehsalın, istərsə də idarəetmə sisteminin səmərəliliyinin artırılmasına mühüm təsir göstərir.

İdarəetmə strukturu iyerarxiya qaydasında qurulur və ona görə də strukturun ünsürləri yuxarı, aşağı və eyni hüquqlu funksional bölmələrə ayrılır və onlar arasında müəyyən əlaqələr yaradılır. Bu əlaqələr üfüqi, şaquli, xətti və funksional formada həyata keçirilir. Üfüqi əlaqə idarəetmə həcmini və idarəolunma

miqyasını ifadə edir, şaquli əlaqə isə idarəetmə prosesində müəyyən əlaqədə olan işçilər arasındakı münasibət ilə bağlıdır. Bu mənada idarəetmə strukturunun təşkilati formaları xətti və funksional orqanların, şöbələrin tərkibi və onlar arasındakı əlaqə formasıdır. Sənaye müəssisələrində idarəetmə strukturundakı əlaqələrin aşağıdakı növlərini fərqləndirirlər:

***a) xidməti əlaqələr*** – üfüqi xətt halında, aşağı və yuxarı orqanların, vəzifəli şəxslərin: istehsal rəhbərlərinin, menecerlərin əlaqəsi formasında həyata keçirilir;

***b) funksional əlaqələr*** – aşağı və yuxarı idarəetmə orqanların, vəzifəli şəxslərin (məsələn, nazir ilə müəssisə direktoru) qarşılıqlı münasibəti formasında həyata keçirilir. Lakin yuxarı idarəetmə orqanın rəhbəri (nazir) aşağı idarəetmə orqanın rəhbərinə (direktora) xətt əlaqə formasından fərqli olaraq müəyyən məsləhətlər verir, yəni yuxarı idarəetmə orqanın rəhbəri özü birbaşa bu və ya digər məsələni həll etmir;

***c) texniki əlaqə*** – eyni funksiyanı icra edən ayrı-ayrı bölmələr, yaxud işçilər arasındakı əlaqə formasıdır. Bu əlaqə forması hazırda ən aktual problemə çevrilmişdir. Çünki müasir elmi-texniki nailiyyətlər əsasında müəssisələr texniki cəhətdən kökündən yenidən qurulur. Yeni nəsildən olan texnikanın, prinsipcə yeni texnologiyanın tətbiqinin səmərəli təşkili texniki əlaqələrin daha da genişləndirilməsini tələb edir;

***ç) informasiya əlaqələri*** – idarəedən və idarəolunan sistemlər, sistemdaxili bölmələr arasındakı əlaqə formasıdır. İnformasiya idarəetmənin ayrılmaz bir hissəsi, atributudur. İdarəetmə prosesi, idarəedici təsir yalnız müəyyən idarəetmə informasiyaları vasitəsilə həyata keçirilir, onların köməyi ilə idarəetmə obyektinin müəyyən optimal təsərrüfatçılıq fəaliyyətini istiqamətləndirmək mümkün olur. Öz növbəsində isə idarəetmə obyektindən idarəetmə subyektinə həmin obyektin təsərrüfat fəaliyyəti haqqında müəyyən informasiyalar verilir. Bütün bunlar müvafiq idarəetmə qərarlarının işlənib hazırlanması üçün əsas verir.

İstehsalın idarəetmə strukturunun formalaşması bəzi prinsiplər əsasında həyata keçirilir. Həmin prinsipləri şərti olaraq iki qrupa: ümumi və xüsusi prinsiplərə ayırmaq olar. Ümumi prinsiplərə aşağıdakılar aid edilir: idarəetmə strukturunun idarəetmə



mexanizminə uyğunluğu prinsipi; idarəetmə strukturunun idarəetmə obyektinin xarakteri və xüsusiyyətlərinə mütənasibliyi prinsipi; xətti-funksional prinsiplə proqram-məqsədli prinsipin düzgün əlaqələndirilməsi prinsipi; struktur bölmələrin məqsədlərinin bütövlükdə idarəetmə sisteminin son məqsədi ilə uyğunluğunun təmin edilməsi prinsipi; mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş idarəetmə prinsiplərinin mütənasibliyi və səlahiyyətlərin bu sistemlər üzrə optimal halda bölüşdürülməsi prinsipi; idarəetmənin məqsədli prinsipi.

***İdarəetmə strukturunun formalaşmasının xüsusi prinsiplərinə aşağıdakılar aiddir:*** idarəetmənin təşkilat strukturunun idarəolunan obyektin məqsədinə uyğunluğu prinsipi; idarəetmə aparatının operativliyi prinsipi, idarəetmənin çevikliyi prinsipi; idarəetmə pillələrinin sayının optimallaşdırılması, onların imkan dairəsində azaldılması prinsipi.

İdarəetmə prosesi birgə fəaliyyət prosesidir və ona görə də idarəetmə strukturunun ixtisaslaşdırılmış bölmələri arasında müəyyən əlaqə formaları mövcuddur. Lakin bu əlaqə və münasibətlər müxtəlif olur və o, idarəetmə orqanlarının özü tərəfindən qaydaya salınır. ETT sürətləndikcə, müəssisələrarası və müəssisədaxili əlaqələr mürəkkəbləşdikcə idarəetmə strukturunun məzmunundan irəli gələn təşkilati münasibətlər də mürəkkəbləşir, daha dinamik xarakter alır. Bütün bunlar idarəetmə sisteminin ahəngdar və əlaqəli fəaliyyətini tələb edir. Ona görə də idarəetmə strukturunun ünsürləri və bölmələrinin fəaliyyət mexanizmi daha da genişlənir. Bu bir tərəfdən, artıq formalaşmış əmək bölgüsü və əmək kooperasiyası ilə, digər tərəfdən isə idarəetmə sistemi və onun ayrı-ayrı bölmələri qarşısında qoyulmuş sosial-iqtisadi məqsəd və vəzifələrlə əlaqədardır. Həmin səbəbdən idarəetmə strukturu formalaşdırılarkən sosial və iqtisadi münasibətlərdəki konkret dəyişikliklər nəzərə alınmalıdır. Elə etmək lazımdır ki, ictimai istehsalın struktur əmələ gətirən amilləri ilə idarəetmənin təşkilati strukturunu müəyyən edən amillər vəhdətlik əmələ gətirmiş olsun. Bu isə öz növbəsində müəyyən tələblərə əməl olunmasını qarşıya qoyur. Həmin tələblər aşağıdakılardan ibarətdir:

***a) idarəetmə strukturunun optimallığı*** – seçilmiş meyar baxımından ən yaxşı optimal idarəetmə fəaliyyətinin müəyyən

olunması prosesidir. Başqa sözlə, optimal idarəetmə strukturu nəzərdən keçirilən bütün mümkün olan variantlar içərisində ən yaxşısına deyilir. Burada ən başlıca meyar seçilmiş variantın qənaətli olması və zəruri informasiya ilə, idarəetmə funksiyaları ilə düzgün əlaqələndirilməsi imkanları ilə bağlıdır. İdarəetmə strukturunun optimallığı meyarı kimi mənfəət, rentabellik, gətirilmiş məsrəflər və s. göstəricilərdən istifadə oluna bilər. Optimallaşdırma meyarı, adətən, kəmiyyət xarakteri daşıyır. İdarəetmə strukturunun optimallığını müəyyən edərkən optimallaşdırmanın, riyazi proqramlaşdırmanın iqtisadi-riyazi metodlarından istifadə olunur;

***b) menecment strukturunun çevikliyi, operativliyi*** – bir idarəetmə fəaliyyətindən, prosesindən tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif idarəetmə əməliyyatlarını yerinə yetirməyə imkan verir. Hesablama texnikası vasitələri çevik idarəetmə strukturunun əsas komponentləridir; mikroprosessor texnikasının əmələ gəlməsi çevik idarəetmə strukturunun inkişafına səbəb olmuşdur. Müasir hesablama texnikasının tətbiqi və avtomatlaşdırılmış idarəetmə sisteminin yaradılması idarəetmənin operativliyini xeyli artırır;

***c) menecment strukturunun qənaətçiliyi*** – çoxməsrəfliliyə qarşı təsərrüfat mexanizmi nəticəsində əldə edilir. Çoxməsrəfliliyə qarşı təsərrüfat mexanizmi isə sahə və təşkilatları minimum canlı və keçmiş əmək məsrəfi ilə ictimai tələbatın daha yaxşı ödənilməsinə, bütün istehsal ehtiyatlarından səmərəli istifadə olunması əsasında maksimum son nəticələr əldə edilməsinə yönəldilən təsərrüfatçılıq sistemidir. Ən az xərclə yaxşı məhsul istehsalını və satışını təmin edən müəssisələr daha çox mənfəət, gəlir əldə edirlər. İdarəetmə strukturunun qənaətçiliyi istehsalın bütün pillələrinin fəaliyyətinin nəticələri və xərcləri haqqında informasiyaların operativliyini, dəqiqliyini, düzgünlüyünü təmin edən dəqiq uçot sisteminin olmasını tələb edir;

***ç) menecment strukturunun etibarlılığı*** – idarəetmə fəaliyyətinin mövcud həddi dairəsində öz funksiyasının əhəmiyyətini saxlamaqla öhdəsinə düşən vəzifələri yerinə yetirə bilməsi qabiliyyətidir. Etibarlılıq idarəetmə strukturunun çox mühüm xarakteristikasıdır, onun layihələşdirilməsi zaman bu göstəriciyə xüsusi fikir verilir. İdarəetmə prosesinin ahəngdarlığı idarəetmə strukturunun etibarlığından asılıdır;



***d) mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş menecmentin optimal əlaqələndirilməsi*** – yuxarı orqanların qərarlarının aşağı orqanlar üçün sözsüz məcburiliyini, yüksək icra intizamını nəzərdə tutur. İcra intizamı dedikdə, hər bir işçi və ya kollektivin daha yüksək idarəetmə səviyyələrində qəbul edilmiş qərar, sərəncam və göstərişlərə tam və dəqiq əməl edilməsi nəzərdə tutulur. İcra intizamı əməyin düzgün təşkili və normalaşdırılmasından, işçilərin peşə hazırlığından və s. asılıdır. «Koordinasiya» sözü latın sözü olub, hər hansı bir hadisənin razılaşdırılmış şəklə gətirilməsi mənasında işlədilir;

***e) menecment obyektinə və subyektinə təsir edən amillərə sistem halında yanaşılması*** – bütövlükdə idarəetmə sisteminin normal gedişinin təmin olunmasında mühüm rol oynayır. İdarəetmə obyektləri və subyektləri ömürboyu sabit qalmır, o, konkret tarixi şərait, elmi-texniki tərəqqinin inkişaf tələblərindən asılı olaraq dəyişilə bilər;

***ə) menecment strukturu ilə informasiya sistemi arasında qarşılıqlı əlaqənin yaradılması*** – idarəetmə fəaliyyətinə mühüm təsir göstərir. Belə ki, informasiyanın həcmi, xarakteri və informasiya axını xeyli dərəcədə müəssisələrin struktur bölmələrinin tərkibi və qarşılıqlı əlaqəsini müəyyən edir, yaxud düzgün olmayan informasiyalar idarəetmə strukturunu mürəkkəbləşdirir, idarəetmə xərclərinin artırır. Qeyri-səmərəli informasiyalar və gecikdirilmiş informasiya axınları idarəetmə funksiyalarının bir-birini təkrar etməsinə, rəhbər və icraçıların məsuliyyətinin aşağı düşməsinə, beləliklə də idarəetmə sisteminin ahəngdar fəaliyyətinin pozulmasına səbəb olur;

***f) nəzərdə tutulan menecment strukturu, onun bölmələri üzrə əsasnamələrin, təlimatların, nizamnamələrin işlənib hazırlanması, onların funksiyalarının, vəzifələrinin və hüquqlarının dəqiq nəzərə alınması.***

Yuxarıda göstərilənlərdən əlavə, idarəetmə strukturunu formalaşdırarkən idarəetmə aparatının kənar xarici sistemlərlə əlaqəsinin təmin olunmasına, idarəetmə strukturunun çevikliyinə, idarəetmənin təşkilati strukturunun formalarına, idarəetmə sistemləri, onların bölmələri arasındakı subordinasiya əlaqələrinin dəqiqləşdirilməsi, onlar arasında səmərəli informasiya

axınları və sənəd dövriyyəsi sxemlərinin tərtib olunması, idarəetmə aparatının hər bir struktur bölmələri, iş yerləri üzrə optimal həcmdə idarəetmə işçilərinin sayı və tərkibinin müəyyən edilməsi də nəzərə alınmalıdır.

***İstehsal menecmentinin təşkilati strukturu*** – idarəetmə sistemini əmələ gətirən ünsürlərin və onlar arasındakı əlaqələrin məcmusudur. Müəssisənin struktur ünsürlərinə sexlər, istehsal sahələri, briqadalar, idarəetmə aparatının şöbələri, büroları, laboratoriyaları, həmçinin köməkçi və xidmətedici istehsallar və təsərrüfatlar daxildir. Başqa sözlə, istehsalın idarə edilməsinin təşkilati strukturu özündə ayrı-ayrı bölmələrin sayını, tərkibini, onun kadrlarını, prosesini və texnikasını əks etdirir. Ona görə də müxtəlif müəssisələrdə idarəetmənin təşkilati strukturu bir-birindən müəyyən qədər fərqlənir. Lakin buna baxmayaraq idarəetmənin təşkilati strukturunun aşağıdakı növlərini fərqləndirirlər:

***Menecmentin xətti strukturu*** – adətən, müəssisənin aşağı idarəetmə pillələrində, məsələn, sex və istehsal sahələrində daha geniş tətbiq olunur. Bu strukturun mahiyyəti ondan ibarətdir ki, bu zaman idarə olunan ayrı-ayrı obyektlər üzrə rəhbərlər təyin edilir və onların hər biri konkret funksiyanı, vəzifəni yerinə yetirir, həmin obyektin idarə edilməsi ilə əlaqədar bütün idarəetmə qərarlarını işləyib hazırlayır və icra olunmasını təmin edir.

***Menecmentin funksional strukturu*** – istehsalın idarə edilməsinə aid bütün fəaliyyət növlərinin ayrı-ayrı funksional bölmələr arasında dəqiq bölüşdürülməsi ilə səciyyələnir. Bu zaman müəssisənin idarəetmə aparatı daha da ixtisaslaşdırılmış olur ki, bu da texniki-iqtisadi cəhətdən əsaslandırılmış idarəetmə qərarlarının işlənib hazırlanmasına imkan verir. Bu strukturun qüsur cəhəti ondan ibarətdir ki, bu zaman vahid rəhbərlik sistemi müəyyən qədər zəifləmiş olur, çünki idarə olunan obyektlərə (struktur bölmələrinə) müxtəlif funksional bölmələrdən, şöbələrdən çoxlu göstərişlər verilir. Buna görə də hazırda idarəetmənin funksional strukturu məhdudlaşdırılmış şəkildə tətbiq edilir.

***Menecmentin xətti-funksional strukturu*** – müasir dövrdə ən geniş yayılmış idarəetmə strukturlarından biridir. Bu strukturda idarəetmə funksiyasını müəssisəyə və onun struktur bölmələrinə başçılıq edən xətti rəhbərlər həyata keçirirlər. Lakin ayrı-



ayrı idarəetmə qərarlarını işləyib hazırlayarkən xətti rəhbərlərə ixtisaslaşdırılmış idarəetmə aparat işçiləri-mütəxəssisləri köməklik edir. İdarəetmənin xətti-funksional strukturunda idarəetmə üsullarını və prinsiplərini tam həyata keçirmək mümkün olduğundan istehsala kompleks rəhbərlik təmin edilir ki, bu da həmin strukturun ən böyük üstünlüklərindən biridir.

***Menecmentin matris strukturu*** – xətti rəhbərliklə yanaşı, funksional idarəetmə aparatının da fəaliyyət göstərməsini nəzərdə tutur. Bundan başqa, istehsalın idarə edilməsi ilə əlaqədar olan konkret məsələlər üzrə dəqiq idarəetmə qərarlarının işlənib hazırlanması məqsədilə əşya üzrə xüsusi ixtisaslaşdırılmış idarəetmə bölmələri də yaradılır. Bu strukturun üstün cəhəti ondan ibarətdir ki, o, idarəetmənin hər üç ünsürünə, yəni idarə olunan obyektə, idarəetmə aparatına və onun texnikasına kompleks rəhbərlik etməyə imkan verir.

***Menecmentin proqramlı-məqsədli strukturu*** – son illərdə idarəetmənin bütün pillələrində tətbiq edilməyə başlanmışdır. Bu strukturun əsasını ayrı-ayrı idarəetmə pillələrində müəyyən məqsəd və vəzifələrin yerinə yetirilməsi təşkil edir. Müəssisənin digər bölmələri isə həmin məqsəd və vəzifələrin müvəffəqiyyətlə yerinə yetirilməsinə yardım göstərirlər.

***Menecmentin çevik strukturu*** – əmək kollektivlərinin çevikliyinin təmin olunmasına xidmət edir. Bu struktur istehsalın məqsəd və vəzifələri tez-tez dəyişən hallarda daha çox tətbiq edilir. İdarəetmənin çevikliyi idarəetmə aparatı işçilərindən-mütəxəssislərindən, onun texniki vasitələrindən, sistem və proseslərindən səmərəli istifadə olunmasına imkan verir. İdarəetmənin çevik strukturu dəqiqlik, itihərəkətlilik, etibarlılıq və davamlılıq kimi ən yüksək tələblərə cavab verməlidir.

Faktiki materialların təhlili göstərir ki, ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri olan neft-qazçıxarma sənayesi son illərdə dinamik inkişafa başlayıb. Artıq bir neçə ildir ki, ölkəmizdə neft hasilatı tapşırıqlarına artıqlaması ilə əməl olunur. 2003-cü ili uğurlu iqtisadi göstəricilərlə başa vurmuş neftçilərimiz 2004-cü ilin ilk aylarında da müsbət nəticələr əldə etmişdilər. Özü də hasil edilən ümumi neftin təqribən 80%-i dəniz neftçilərinin payına düşür. Beləliklə, ölkəmizdə həyata keçirilən iqtisadi və institutsional islahatların uğurlu nəticələri öz

bəhrəsini verməyə başlamışdır. Ötən illərdə neft sektorunun inkişafına yönəldilmiş investisiyaların həcminin ildən-ilə artırılması və innovasiya prosesinin sürətləndirilməsi neft-qazçıxarma sənayesinin daha sürətli inkişafına imkan vermişdir.

Son illərdə neft-qazçıxarma sənayesində müsbət dəyişikliklərin əldə edilməsində, digər amillərlə yanaşı, neft-qazçıxarma sənayesində aparılan institutsional islahatlar mühüm rol oynamışdır. Məlumdur ki, Azərbaycan Respublikasında 70 ildən çox sosialist iqtisadi-sosial quruluşu hökm sürmüşdür. Keçən əsrin 90-cı illərindən isə SSRİ məkanındakı bütün müttəfiq respublikalar kimi Azərbaycan Respublikası da yeni, demokratik iqtisadi sistemə, yəni azad bazar iqtisadiyyatına keçməyə qədəm qoymuşdur. Bu zamandan Azərbaycan Respublikası keçid dövrünün problemlərinin həllinə başlamışdı. Keçid iqtisadi-sosial quruluşun yeni iqtisadi-sosial quruluşa keçməsi bir dəfəlik akt deyil, uzun tarixi bir proseslə bağlıdır. Bu prosesdə bazar iqtisadiyyatının yaranmasının və formalaşdırılmasının bilavasitə özünəməxsus atributları tədricən bərqərar olmalıdır. Bu atributlardan biri də sosialist idarəetmə sistemindən bazar iqtisadiyyatı idarəetmə sisteminə keçməsinin təmin olunmasıdır.

Ümumiyyətlə, neft-qazçıxarma sənayesinin idarə edilməsinin təşkilati formalarının təkmilləşdirilməsinə dövlət həmişə diqqət yetirmişdir. Belə ki, Sovet hakimiyyəti illərində sosialist istehsalı inkişaf etdikcə dövlət köhnə, vaxtı keçmiş idarəetmənin təşkilatı formalarını dəyişdirib təsərrüfata rəhbərlik sistemini yenidən qurmuş və təsərrüfat quruculuğunun yeni şəraitinə uyğun olan, daha mütərəqqi idarəetmə formaları və üsulları yaratmış və tətbiq etmişdir.

Məlumdur ki, Azərbaycan Respublikasında neft-qaz hasilatı ilə «Azərneft» və «Xəzərdənizneft» İstehsal Birlikləri məşğul olmuşdur. «Azərneft» İstehsalat Birliyi Azərbaycan Respublikasının qurudakı ərazilərindən neft və qaz çıxarılması ilə məşğul olur. Bu birlik 1920-ci ildə yaradılmışdır. Ayrı-ayrı illərdə «Azərneft» İstehsalat Birliyi onun tərkibinə daxil olan struktur bölmələrinin xüsusiyyətlərindən və təyinatından asılı olaraq, ittifaq əhəmiyyətli trest və ya birlik kimi müxtəlif ittifaq və respublika təşkilatlarına, məsələn, Azərbaycan SSR XKS, SSRİ Ali Xalq Təsərrüfatı Şurası, SSRİ Ağır Sənaye Nazirliyi, SSRİ



Neft Sənayesi Nazirliyi, Azərbaycan SSR XTŞ və s. tabe olmuş və «Azərneftkomitə», «Azərneftkombinat» (sonralar «Azərneft», «Azərneftzavodlar» və «Azərneftmaşınqayırma» birliklərinə ayrılmış), «Azərneftçıxarma» birliyi və s. adlanmışdır. «Azərneft» İstehsal Birliyinin əsasında Azərbaycan Neft Sənaye Nazirliyi (1954-1959), Azərbaycan Neftçıxarma Sənaye Nazirliyi (1965-1970) yaradılmışdır. 1970-ci ilin avqust ayından 2003-cü ilin əvvəlinədək «Azərneft» İstehsalat Birliyi adlanırdı.

«Xəzərdənizneft» İstehsalat Birliyi 1990-cı ilədək keçmiş SSRİ-nin tərkibində olmuş Azərbaycan, Türkmənistan və Qazaxıstan respublikalarının, həmçinin Rusiyanın Dağıstan Muxtar Respublikasının dəniz sahillərində, 1991-ci ildən isə Xəzər dənizinin Azərbaycan sektorunda neft və qaz yataqlarının kəşfiyyatı və karbohidrogenlər hasilatı ilə məşğul olur. 1951-ci ilədək «Azərneft» İstehsal Birliyinin tərkibində olmuş, 1951-1953-cü illərdə sərbəst surətdə fəaliyyət göstərmiş, 1953-1962-ci illərdə yenidən «Azərneft» İstehsal Birliyinin tərkibində olmuşdur. 1963-cü ildə «Başdənizneft» İstehsal Birliyi yaradılmış və 1965-ci ildə həmin birlik «Dənizneft» Baş İdarəsi, 1970-ci ildən 2003-cü ilin əvvəllərinədək «Xəzərdənizneft» İstehsal Birliyi adlanırdı.

Göründüyü kimi, neft-qazçıxarma sənayesində uzun illər boyu idarəetmənin təşkilati strukturu dəfələrlə təkmilləşdirilmişdir. Lakin bazar iqtisadiyyatına keçid dövründə neft-qazçıxarma sənayesində aparılan institutsional islahatlar əvvəlki illərdə aparılmış təşkilati dəyişikliklərdən xeyli fərqlənir. Çünki indi aparılan institutsional islahatlar azad iqtisadi fəaliyyətə əsaslanır. Azərbaycan Respublikası dövlət müstəqilliyini əldə etdikdən sonra iqtisadiyyatda və dövlət idarələrində islahatların aparılması ən mühüm vəzifələrdən biri olmuşdur. Ölkədə bazar iqtisadiyyatı münasibətlərinin formalaşması və müasir standartlara cavab verən idarəetmə mexanizminin yaradılması köklü dəyişikliklərin aparılmasını tələb etmişdir.

Dövlət idarələrinin səmərəliliyinin artırılması, iqtisadiyyatın yeni prinsiplər əsasında tənzimlənməsi məqsədi ilə son illərdə mühüm təşkilati tədbirlər işlənib hazırlanmış və həyata keçirilmişdir. Çoxsaylı nazirlik, dövlət komitəsi, şirkəti, konserni və digər qurumların strukturlarına yenidən baxılmış, mövcud mər-

kəzi icra hakimiyyəti orqanlarının səlahiyyətləri bazar iqtisadiyyatının tələblərinə uyğunlaşdırılmış, zəruri funksiyalara malik yeni təsisatlar yaradılmışdır.

Həyata keçirilən islahatlar iqtisadiyyatın, dövlət idarələrinin bütün sahələrini əhatə etmiş və bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi təşəbbüsə geniş imkanların yaradılması, insanların etibarlı sosial vəziyyətinin təmin edilməsi və dövlət mülkiyyətinin özəlləşdirilməsi üçün münbit şəraitin yaradılmasına səbəb olmuşdur. Qeyd edilən hər bir istiqamətə dair dövlət tərəfindən konkret qərarlar qəbul edilmiş və tədbirlər görülmüşdür.

Tarixən Azərbaycan Respublikasının iqtisadiyyatının özəyini neft-qaz sənayesi təşkil etmişdir və ölkəmizin ən böyük nailiyyətlərindən biri bu sahədə qüdrətli elmi-texniki və kadr potensialının, geniş infrastrukturun yaradılması olmuşdur. Məhz bu sahə iqtisadiyyatın aparıcı amilinə çevrilmiş və onun inkişafına daim xüsusi diqqət yetirilmişdir.

Son dövrdə respublikamızın tərəqqisi üçün taleyüklü əhəmiyyət kəsb edən neft strategiyası və doktrinası irəli sürülmüş və indi həmin strategiya uğurla həyata keçirilir. Azərbaycan Respublikası 1994-cü il sentyabrın 20-də «Əsrin kontraktı»nın imzalanması ilə regionda ilk dəfə olaraq dünyanın bir sıra tanınmış şirkətləri ilə özünəməxsus olan neft və qaz yataqlarının birgə istismarına başlamışdır. Aparılan işlər ölkənin beynəlxalq aləmdə nüfuzunun artmasına, iqtisadi əlaqələrin inteqrasiyasına güclü təkan vermişdir.

Neft-qaz kompleksi aparılan iqtisadi və dövlət idarəetməsi sahəsində islahatlardan kənarda qalmamışdır. Belə ki, göstərilən zaman kəsiyində Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi məqsədilə dəfələrlə onun strukturuna dəyişikliklər edilmiş, mövcud infrastruktur təkmilləşdirilmişdir. Ən əhəmiyyətli addımlardan biri 2001-ci il 18 aprel tarixində Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə Azərbaycan Respublikasının Yanacaq və Energetika Nazirliyinin yaradılması olmuşdur. Eyni zamanda, dövlət siyasətinin başlıca istiqamətlərindən biri olan neft yataqlarının birgə işlənməsindən əldə edilən gəlirlərin ölkənin iqtisadi və sosial tərəqqisinə yönəldilməsini təmin etmək məqsədi



ilə 1999-cu il 29 dekabr tarixində Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması olmuşdur.

Mütəmadi və sistemli şəkildə aparılan iqtisadi və institutsional islahatların nəticəsidir ki, «Azərbaycan Respublikasında dövlət əmlakının özəlləşdirilməsinin ikinci Dövlət Proqramı»na uyğun olaraq Azərbaycan Respublikası Prezidentinin «Yanacaq-energetika kompleksi müəssisələrinin özəlləşdirilməsi haqqında» 2001-ci il 22 mart tarixli sərəncamına əsasən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin bilavasitə neftin hasilatı və emalı ilə məşğul olmayan 68 müəssisəsinin özəlləşdirilməsi barədə qərar qəbul edilmiş və onlar İqtisadi İnkişaf Nazirliyinin sərəncamına verilmişdir.

Görülmüş ciddi tədbirlər dərin islahatların daha məqsədyönlü aparılmasına imkan vermişdir. Lakin bununla belə, bu sahədə bir sıra əlavə tədbirlərin həyata keçirilməsinə, idarəetmə üsullarının keyfiyyətcə fərqli, beynəlxalq standartlara cavab verən səviyyəyə çatdırılmasına zərurət yaranmışdır.

Qeyd edilənlərlə əlaqədar respublikanın neft və qaz resurslarının daha səmərəli istifadəsi, daxili istehlakın və ixracat potensialının ehtiyaclarının tam ödənilməsi, yanacaq-energetika kompleksinin tərkibinə daxil olan müəssisələrin maliyyə nizam-intizamının əsaslı surətdə möhkəmləndirilməsi, onların fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun olaraq ardıcıl qurulması və bu vəziyyətin həyata keçirilməsini təmin edən Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni idarəetmə strukturu haqqında Azərbaycan Respublikası Prezidenti 24 yanvar 2003-cü ildə fərman imzalanmışdır. Həmin fərmanla Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin yeni Nizamnaməsi və strukturu təsdiq edilmişdir. Fərmana əsasən Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin strukturu aşağıdakı tərkibdə müəyyən edilmişdir:

a) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin idarəetmə strukturu. Bura rəhbərlik, yəni Prezident, Birinci vitse-prezident, geoloji, geofiziki və yataqların işlənməsi üzrə vitse-prezident, vitse-prezident və şirkətin aparatı aiddir;

b) Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin tərkibinə olan müəssisələr: «Azneft» İstehsalat Birliyi; «Geofizika və mühəndis geologiyası» İstehsalat Birliyi; «Neft kəmərləri» İda-

rəsi; «Marketinq və iqtisadi əməliyyatlar» İdarəsi; «Xarici sərmayələr» İdarəsi; «Azneftyağ» neft emalı zavodu; «Azərneftyanacaq» neft emalı zavodu və Bakı dərin özlülər zavodu.

Fikrimizcə, «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin fərmanı respublikamızın neft və qaz resurslarının daha səmərəli istifadəsinə, daxili istehlakın və ixracat potensialının ehtiyaclarının tam ödənilməsinə, yanacaq-energetika kompleksinin tabe müəssisələrinin maliyyə nizam-intizamının əsaslı surətdə möhkəmləndirilməsinə, onların fəaliyyətinin bazar iqtisadiyyatı prinsiplərinə uyğun şəkildə ardıcıl qurulmasına müsbət təsir göstərəcəkdir.

Mükəmməl idarəetmə sisteminin təşkili kadr seçimi, onların ixtisasının artırılması, attestasiyası, digər səriştə və bacarığı, peşəkarlıq və məsuliyyəti təmin edən kateqoriyalarla təchiz olunmasından faydalanır; həqiqi professional prosesi hiss edir, düşüncəni üstələyən bacarıq və vərdişlərə mütəmadi yiyələnir, edilən qüsurlar nəticəsində peşəkar daha da peşəkarlaşır, diletant isə bir qədər ehtiyatlı olur. Reallıq belədir ki, dərin bilik olmadan heç bir işdə böyük müvəffəqiyyətə ümid etmək olmaz. İqtisad diletantları kimi seçilən bir sıra təsərrüfat rəhbərləri bu baxımdan ***«bazar»*** treninqindən keçərək attestasiya olunmalıdır. Vəzifələrin hüquq, cavabdehlik məsuliyyəti ilə təlimatlandırılması – personifikasiyası inkişafa uyğun olaraq yeniləşməlidir.

İslahatların idarəetmə manifesti real bazar ölkələrinin inkişaf təcrübəsinin Azərbaycan Respublikası gerçəklikləri sintezində innovasion dəyərlərdən dolğun istifadədə əksini tapmalıdır. İndustrial sistemlərin sınanmış müvəffəq idarəetmə şəbəkəsinin keyfiyyətindən, səmərəli idarəetməni təmin edən optimal miqyaslı biznesindən bəhrələnərək islahatlar prosesinin bu mühüm istiqamətini uğurlu məcraya gətirmək mümkün olacaqdır. Komfortlu iş yeri, ***«insan-maşın»*** sisteminin genişləndirilməsi, əlverişli erqonomik mühit (***Erqonomika*** – istehsalın səmərələşdirilməsi məqsədilə konkret istehsal fəaliyyəti şəraitində insanla maşının qarşılıqlı təsirini ifadə edir. Erqonomikanın məqsədi – insan üçün optimal əmək şəraiti yaratmaqdır), kompüterləşmənin təminatı, texniki və istehsalat estetikasının bəslənməsi yeni idarəetmə alqoritmlərin tətbiqi, istehsal prose-



sinin səmərəliliyini artıracaqdır.

Bazar iqtisadiyyatı şəraitində idarəetmədə iqtisadi metodlardan istifadənin genişləndirilməsi mühüm şərtlərdən biridir. Əmək kollektivlərini, ayrı-ayrı fərdləri iqtisadi stimullaşdırma ilə maraqlı etmək onların bacarıqlılığını, əməkverimini daha da artırır. Məhdud resurslar müqabilində məhsuldarlığın artması əlavə əmək sərfi nəticəsində əldə oluna bilər. İnsan amilinin artması əmək sərfini stimullaşdırır. İstehsal xərclərinin digər komponentlərini sıxışdıraraq əmtəələri keyfiyyət dəyişikliklərinə uğradır və məhsulu daha çox əmək məsrəfli edir. Bu da öz növbəsində insanın artan istehlak tələblərinin daha yaxşı ödənilməsinə zəmin yaradır. Belə məhsulların istehsalı isə daha çox iqtisadi stimullaşdırmanın yüksək olduğu müəssisə və təşkilatlarda baş verir.

Məlumat üçün qeyd edək ki, inzibatçılığın böyük miqyas aldığı keçmiş ittifaqda da iqtisadi stimullaşdırma sistemi müəssisə və təşkilatlarda geniş tətbiq edilirdi. Mükafatlandırma ayrı-ayrı fərdlərə deyil, ümumi olaraq daha çox kollektivlərə istiqamətləndirilirdi. Belə vəziyyət isə paritetlərin pozulması, təşəbbüskarlığın zəifləməsinə gətirib çıxarırdı. Əlbəttə, intellektuallar nisbi də olsa fərdi mükafatlandırmadan bəhrələnirdilər. Stimullaşdırmanın fərdi yönümlü məhdudluğu zehni əməyin son dərəcə böyük axtarışına zəmin yaradırdı. Mikroiqtisadi səviyyədə iqtisadi qanunların tələbləri öz əksini idarəetmənin iqtisadi metodları vasitəsilə gerçəkləşdirir. Göstərişlərə əsaslanan təşkilati idarəetmə metodlarından fərqli olaraq, iqtisadi ünsürlü idarəetmə isə iqtisadi metodlar, iqtisadi qanunların təbiətinə uyğun onların istehsal münasibətlərində reallaşdırılmasını və maddi maraqları daha dolğun əks etdirir.

Ümumi fəaliyyəti nizamlayan əlahiddə fəaliyyət kimi idarəetmə mürəkkəb və çoxşaxəli bir prosesdir. Onun iqtisadi istehsal prosesinə müvafiq təşkili apriori və fövqəltəcrübə deyil, elmi və təcrübi biliklərin sistemli vəhdətində formalaşır. Struktur mükəmməlliyi, dəqiq səlahiyyət, vəzifə bölgüsü, cavabdehlik kredosu və başlıca olaraq intizam məsuliyyəti mürəkkəb situasiyalarda belə idarəetməni müvəffəq edir.

Bazar iqtisadiyyatı inkişaf etdikcə idarəetmə prosesi sosial tələblərin, ictimaiyyətin artan təsir effekti nəticəsində yeni ya-

ranışlarla zənginləşir, daha çevik və aşkar məzmun alır. Belə yaranışlardan biri də yaşadığımız zəmanədə «Pablik rileyşnz» (PR) ilə bağlıdır. PR təşkilatın iqtisadi müvəffəqliyinin təminat vasitəsi kimi çıxış edir. Sosial və psixoloji menecmentin məxsusi forması olan ***«Pablik rileyşnz»*** ingilis dilindən tərcümədə «ictimai əlaqələr», «ictimai münasibətlər», «kütlə üçün hekayət» kimi mənaları ifadə edir. PR-in yaranışı və inkişafı cəmiyyət qanunları, ictimai ənənə və tələblərlə şərtlənmişdir. ABŞ-da geniş inkişaf tapan demokratik prinsiplər və vətəndaş cəmiyyətinin yetkinliyi PR-nin yaranış zərurətini diqtə etmişdir. PR industriyası Qərbdə də ləyaqətli inkişaf yolu keçmişdir.

Müəssisə ilə cəmiyyət arasında idarə edilən kommunikasiya prosesi kimi, PR ictimaiyyətə sosial lüzumlu, təbliğat xarakterli olmayaraq özünün fəlsəfi qayəsi, kommersiya və digər məqsədləri informasiya edir. Burada əsas şərtlərdən biri də ictimaiyyətlə əlaqələrdə milli mentalitet elementlərinə müvafiq olan əlaqələr sistemini yaratmaqdan ibarətdir. Sahibkar və firmanın personalı anlayır ki, ətraf dünya ilə yalnız mehriban münasibətlər şəraitində kommersiya məqsədlərinin maksimal reallaşması mümkündür. Mütəşəkkil PR sahibkarlara firmanı görməyə dəqiq imkan verir. «Pablik rileyşnz» aşağıdakı istiqamətləri əhatə edir:

- ictimai rəy;
- ictimai münasibətlər;
- hökumət əlaqələri;
- ictimai həyat;
- sənaye əlaqələri;
- maliyyə münasibətləri;
- beynəlxalq əlaqələr;
- istehlakçılarla münasibətlər;
- tədqiqat və statistika;
- kütləvi informasiya vasitələri.

Bazar münasibətləri şəraitində təşkilatın iqtisadi müvəffəqliyinin başlıca amili kimi PR firmanın imicinin yüksəlməsinə və idarəetmə prosesinə ən geniş mənada yardım etmək imkanına malikdir. «Pablik rileyşnz»in (PR) əsas prinsipləri aşağıdakılardan ibarətdir:

- özün haqqında yalnız və yalnız həqiqəti söyləmək;



- kütləviləşdirilən informasiyanın kütləviləşdirilməyən informasiyadan ayrılması;
- həqiqətlə bağlı «bənzərləri» tapmaq, bu həqiqətləri bacarıqla hesablamaq və gerçəkləşdirmək;
- yaxşı PR gözəçarpan, qıcıqlandırıcı və usandırıcı olmamalıdır;
- kütləvi informasiya vasitələrinə informasiyaların verilməsində maraqlar və stil ciddi nəzarətə götürülməlidir.

PR çoxtərəfli və çoxölçülüdür. Onun məqsədlərini sadə kiçik formada vermək mümkün deyildir. Onun başlıca məqsədini, açıqlandığı kimi, cəmiyyətdə firmanın müvəffəq situasiyasını formalaşdırmaq təşkil edir. Nüfuzlu xarici neft kontraktları PR-ə yüksək önəm verirlər. Kompaniyalar anlayırlar ki, bazar iqtisadiyyatının aparıcı mövqedə dayandığı müasir dünyada onun köməyi olmadan reytinq toplamaq müşkül və mümkünsüz işdir. Reytinq və imic yüksəlişi isə birbaşa artan kommersiya effekti deməkdir. Neft-qazçıxarma sənayesində bazar münasibətləri tərəqqi etdikcə burada da PR təsisatlı idarəetmə strategiyasına keçid labüd olacaqdır.

Müasir idarəetmənin metodoloji əsasları bazar nəzəriyyəsinə istinad edir. Məhz formalaşan bazar mexanizmlərindən peşəkarcasına istifadə bacarığı ümumi toplumda idarəetmə çətinliklərinin dəf olunmasına zəmin yaradır. Neft-qazçıxarma sənayesində müasir idarəetmənin səmərəli təşkili bazar prinsiplərindən qaynaqlanaraq, fikrimizcə, ilk növbədə, islahatlara müvafiq optimal idarəetmə strukturunun müəyyən edilməsi ilə harmoniyada olmalıdır. Bu harmoniklik isə aşağıdakılarda öz əksini tapır:

- çoxpilləliliyin azaldılması, minimuma endirilməsi;
- istehsal strukturuna müvafiq idarəedici personalın və mərkəzi idarəetmə aparatının təyinatı;
- mükəmməl informasiya təminatı şəbəkəsinin formalaşdırılması;
- mütərəqqi səriştə və metodların təşkilatın bütün bölmələri üzrə tətbiqi və vahid intizam sisteminin təmin edilməsi;
- təşəbbüskarlığın, fərdi ustalığın, yüksək əməkveriminin mükafatlandırılması (maddi cəhətdən stimullaşdırılması);
- məşğulluğu mülayimləşdirən əmək haqqı sisteminin tətbiqi;
- optimal səlahiyyət və adekvat vəzifə bölgüsü;

– test üsullu dövri attestasiyanın keçirilməsi;
– qabaqcıl idarəetmə təcrübəsinin geniş yayılması;
– fərdi və kollektiv stimullaşdırma üçün əlavə göstəricilərin müəyyən olunması;
– strateji və faktiki planların işlənib hazırlanması;
– texnoloji yeniləşmənin kadr seçiminin yaxşılaşdırılması.

Tarix göstərdi ki, bəşəri məqsədlərə nail olmada təşkilatların rolu, onun struktur səmərəliliyi nə qədər yüksəkdir. Təsərrüfatlaşan obyektə çoxşaxəli təşkilati strukturlar xasdır. Beynəlxalq təcrübədə müvafiq departamentləşmədə törəmə istehsal qurumlarını əhatə edən xətti, yaxud iyerarxik, aparıcı şöbələr prinsipində xüsusiləşən funksional və nəhəng təşkilatlara xas menecer idarəetməsinə əsaslanan divizion, xarici təsirlərə, yeniləşməyə meyli ilə fərqlənən adaptiv, yaxud üzvi strukturlar təsnifatı vardır.

Digər bir təsnifatda adi şöbə bölgüsü, yəni funksional ənənəvi coğrafi və məhsul buraxılışı üzrə qruplaşmış divizion və bunların vəhdətlərini əks etdirən matrisa strukturu ilə yanaşı komandalı, yəni xüsusi tapşırıqları koordinasiya edən və daha çox beynəlxalq əlaqələrdə əhəmiyyətli olan broker tənzimli şəbəkəli strukturlar da mövcuddur. Hər bir struktur özünəməxsus təşkilata müvafiqdir, burada müsbət və mənfi cəhətlər mümkün və yetəri ola bilər. Kiçik müəssisələrə xətti quruluş istisna olmaqla, bütün digər təşkilatlarda bu strukturların heç biri xalis şəkildə idarəetmə mexanizminə çevrilmir. Bununla belə, əksər müəssisələr qarışıq idarəetməni həyata keçirirlər. Neft-qazçıxarma sənayesində isə bu, qarışıq xətti-funksional idarəetmə formasına əsaslanır. Lakin burada tətbiq edilən forma bazaryönümlü mütərəqqi elementlərlə əhatəli deyildir. Daha çox qərargah strukturlu, komandalı təmayül üstünlük təşkil edir. Bununla belə, kompleksin idarə edilməsində sadalanan digər struktur tiplərinin elementlərinə də rast gəlmək olur. Fikrimizcə, neft-qazçıxarma sənayesində rasional idarəetmə strukturunun təşkili aşağıdakı tələblərə cavab verməlidir:
– funksional yararlığın təminatı;
– informativlik;
– operativlik;
– rabitəlilik;



– idarəetmə xərclərinin optimallığı.

Ağıllı məqsədləri, amalları təqib edən optimal idarəetmə obyektiv həqiqi, tam informasiyaya arxalanır. Belə informasiyasız səmərəli idarəetmə müşkül məsələdir. İqtisadi informasiya düşündürən informasiya kimi, insan şüurunda emal olunaraq iqtisadi sferaya xərclənir. O, iqtisadi maraqlar və tələblərə şərtlənərək istehsalın təşkili prosesində dövr edir. Çağdaş zamanda iqtisadiyyatda informasiya olduqca nəhəng çəkiyə malik olaraq öncül mövqeyə çıxmışdır. O, müəyyən mənada resursları əvəz edir, yeni texnologiyaların əhəmiyyətini artırır, ənənəvi xammal növlərinə və digər bu kimi komponentlərə tələbi azaldır. İnformasiyanın mütəmadi, tez əldə edilməsi, informasiya birinciliyi və ya ilk məlumat effekti operativliyi şərtləndirən xüsusiyyətdir. İlk məlumat effekti obyektiv həqiqətin tamamilə kənar və ya nisbi həqiqət donlu ola bilər. Nə qədər fundamental faktlara əsaslanan, şəksiz həqiqət olsa da, ustalıq və peşəkarlıqla hazırlansa da, informasiya alternativ təhlil süzgəcindən keçdikdən sonra qərar mexanizminin məhsulu ola bilər. Yaddan çıxarılmamalıdır ki, elə mürəkkəb hadisələr, proseslər mövcuddur ki, onların mütləq həqiqətinin isbatı, sübutu uzun bir elmi təcrübi dövr və ya mistik olmasa da qiyamətə qədər haqqını tapmamış qalır. Pikant görünən bir reallıq da ondan ibarətdir ki, istənilən həqiqət təhrifə məruz qalmaqla və ya başqa müstəviyə keçməklə nizamını itirmiş olacaqdır. Hər amilin davranışı bütünlükdə tam bir sistemin taleyini həll edir.

İdarəetmə informasiya ilə təşkilatlanmanın qarşılıqlı əlaqəliyi ilə xarakterikdir. İdarəetmə mexanizmində fundamental rolu ***«geriyə əlaqə»*** prinsipi tutur. Bu prinsipə görə, informasiya və idarəetmə subyekti qəbuledici, istənilən münasibətdə yerdəyişməyə məruz qalırlar. Təşkilatın rəhbəri idarəetmə subyekti kimi tabeçiliyində olanlardan informasiyalar aldıqda həm də idarəetmə obyekti kimi çıxış edir, eyni zamanda bölmə rəhbəri də direktorlardan informasiya aldıqda icra prosesində idarəetmə subyektə çevrilir. Beləliklə, idarəetmə obyekti və subyekti ikili funksiyanı yerinə yetirir. Harada bu prinsip pozulur və ya mövcud deyil, idarəetmənin mahiyyət və nəticəliyi də təhrif olunur. İdarəetmə strukturunun əsas məqsədini idarəetmə qərarlarının hasili və icrası təşkil edir. Burada isə əsas yeri mak-

simum variantlardan məqsədləri daha dolğun və tam yerinə yetirməsini təmin edən optimallıq prinsipi tutur. İnteraktiv rəhbər bütün komandanın işində qarşılıqlı anlaşma və konsensusa nail olma ilə fərqlənir. Prosesdə menecerin kommunaktiv səriştəsi də müvəffəq fəaliyyəti şərtləndirir. Sadəcə ünsiyyət anlamını verən kommunikasiya prosesi iki və daha çox adamın informasiya yaratmasını və mübadiləsini əks etdirir.

Operativ idarəetmədə də informasiya texnologiyalarından geniş istifadə olunur. Bu baxımdan neft-qazçıxarma sənayesində 10 il öncə başlanan, indi daha sürətlə tədqiqini tapan müəssisələrin istehsal proseslərinin avtomatlaşdırılması konsepsiyası işlənib hazırlanmışdır. Neft-qazçıxarma sənayesində də idarəetmə strukturunun təkmilləşdirilməsi sahəsində müəyyən işlər görülür.

Yuxarıda göstərilənlərdən belə bir nəticəyə gəlmək olar ki, sənaye istehsalının, o cümlədən də neft-qazçıxarma sənayesinin idarəetmə strukturunun təkmilləşdirilməsinin müxtəlif yolları vardır. Onların ən əsasları aşağıdakılardan ibarətdir:

a) idarəetmə aparatının sadələşdirilməsi və ucuzlaşdırılması. Bazar iqtisadiyyatı istehsalının idarəetmə aparatına edilən mühüm tələblərdən biri, idarəetmə mədəniyyətinin yüksək səviyyədə olması, inzibati idarəetmə aparatının hər cəhətdən sadələşdirilməsi və ucuzlaşdırılması tələbindən ibarətdir. Odur ki, dövlət təsərrüfatı idarəetmə sistemini təkmilləşdirmək, inzibati-idarəetmə aparatının sayını və onun saxlanılması xərclərini ixtisar, azaltmaq üçün böyük işlər görür. Dövlət müəssisələrinin idarəetmə aparatının ixtisar edilməsi dövlət vəsaitinə qənaət etməklə bərabər, aparatdan azad edilmiş işçilərin istehsalata cəlb edilməsinə və bununla da ölkənin iqtisadi inkişafının sürətləndirilməsinə, daha çox maddi nemətlər yaradılmasına imkan verir. Lakin bazar iqtisadiyyatına keçid dövründə sənaye müəssisələrində, o cümlədən də neft-qazçıxarma sənayesində institutsional islahatların aparılmasına baxmayaraq, hələ də idarəetmə aparatı böyükdür və burada həddindən artıq mütəxəssis çalışır ki, onların da saxlanılmasına xeyli vəsait sərf olunur. İstehsalın ixtisaslaşdırılması səviyyəsinin yüksəldilməsi idarəetmə aparatının sayını ixtisar etmək üçün böyük ehtiyat mənbəyidir. Buraxılan məhsulun nomenklaturunun minimuma endirilməsi, axınlı-kütləvi istehsalın tətbiq edilməsi müəssisələrin təşkilat strukturunu sadələşdirmək üçün əlverişli şərait yaradır, köməkçi və xidmətedici sex və təsərrüfatların idarə aparatını xeyli ixtisar etməyə imkan verir;



b) istehsalın sexsiz idarə strukturunun tətbiq edilməsi – kiçik və orta müəssisələrin təşkilat strukturunu əsaslı surətdə yaxşılaşdırmağa imkan verir. Bu mütərəqqi idarəetmə formasının mahiyyəti ondan ibarətdir ki, müəssisələrdə istehsalın idarəetmə sistemindən, aralıq bölmə olan sex aparatı ixtisar edilir. Bu müəssisələrdə əsas istehsal vahidi istehsal sahələri olur. Bir çox müəssisələrin təcrübəsi göstərir ki, sexsiz idarəetmə strukturunun tətbiqi istehsal və iqtisadi cəhətdən daha məqsədəuyğun olduğunu inandırıcı surətdə sübut etmişdir.

c) idarəetmə işində ictimai əsasların inkişafı – idarəetmə aparatında çalışan işçilərin sayını azaltmaqla yanaşı, idarəetmədə əməkçi kollektivlərin iştirakını da təmin edir. Son illərdə ictimai konstruktor büroları, iqtisadi təhlil qrupları, texniki məlumat büroları və s. kimi əmək kollektivlərinin yaradıcılığının yeni, diqqətəlayiq formaları meydana gəlmişdir.

### 5.5. Neft-qazçıxarma idarələrinin təkmilləşdirilərək bazar iqtisadiyyatı subyektinə çevrilməsinin xarakterik cəhətləri

Təsərrüfat həyatının öyrənilməsi və onun mühüm proseslərinin tənzimlənməsində nəzəri və tətbiqi iqtisad elmi ön mövqedə durur. Təsərrüfat fəaliyyətini çox vaxt sadəcə olaraq iqtisadiyyat adlandırırlar. İqtisad elminin tərkib hissələrindən mühümü kimi, bizim tədqiqat obyektinin nəzəri və təcrübi əsaslarının təməlində dayanan müəssisələrin iqtisadiyyatı elmi tədqiq edir. Makro və mikroiqtisadiyyatla sıx təmasda inkişaf tapan müəssisənin iqtisadiyyatı müstəqil təlim olaraq ayrıca predmetə malik yetkin bir elm sahəsidir. Müəssisənin iqtisadiyyatı elmi təlimi də bütün tətbiqi iqtisadi elmlərə xas olan müvafiq tədqiqat metodlarından geniş istifadədə tərəqqi edir. İqtisadi nəzəriyyə terminologiyasında təsərrüfat subyektləri çox vaxt iqtisadi agentlər də adlanırlar. Fərdi xüsusiyyəti fəaliyyətində müstəqil qərar verməklə xarakterik olan təsərrüfat subyektləri, yəni müəssisələr özəl, korporativ, dövlət təsisatla-

rı, ev təsərrüfatı və qeyri-kommersiya təşkilatlarından ibarətdir.

Hər bir müəssisə öz-özlüyündə mövcud olmayıb, iqtisadiyyatla istehsal faktorları əsasında bazarla bağlıdır. Xalq təsərrüfatında baş verən istənilən təbəddülatlar, demokratik addımlar, struktur yenidənqurması, texniki tərəqqi müəssisənin vəziyyətinin dəyişkənliyində əks olunur. Sahibkarlıq, hüquqi, coğrafi, institutsional mühit, iqtisadi, siyasi situasiya, ekoloji vəziyyət müəssisə fəaliyyətinə təsir edən faktorlar sistemini təşkil edir. Bazar iqtisadiyyatı şəraitində müəssisə başlıca təsərrüfatlaşan vahid kimi çıxış edir. Müəssisənin tam sərbəstliyi, onun üzərində instansiyaların olmaması, yuxarı təşkilat nəzarətindən təcridliliyi ilə həllini tapsa da, digər tərəfdən o, həmişə bazardan onun sərt qanunlarından asılı olacaqdır.

Müəssisənin strukturunun təkmilləşdirilməsi istiqamətlərini əsaslandıran və qiymətləndirən təhlil, müxtəlif amillərin formalaşması şərtlərinə istinadən faktorial analitik şəkildə aparılır. Bunlar müəssisə strukturunun kompleksliliyi, onun struktur bütövlüyünü təyin edən ümumi daxili amillər, sahəvi xüsusiləşmə, diferensiasiya dərəcəsi, elmi-texniki inkişaf, regional və digər faktorları əhatə edir. Bununla belə, istehsalın təşkilini əhatə edən komponentlər daxili faktorlar qismində də özünü göstərir. Müəssisənin fəaliyyəti istehsal prosesi ilə xarakterizə olunur. Əsas üç amil – insanın əmək fəaliyyəti, əmək cisimləri, əməyin özünü ifadə edən istehsal prosesi ayrı-ayrı əmək proseslərinin məcmusu kimi mal-material qiymətlərinin hazır məhsula çevrilməsidir.

Bazar iqtisadiyyatı şəraitində müəssisə daha çox şəxsi mənafelərdən çıxış edir. Bu isə sahibkarlıq fəaliyyəti üçün mühüm amil hesab edilir. Sərbəstlik əldə edərək, müəssisə fəaliyyətinin həyata keçirməyin məsuliyyətini də öz üzərinə götürmüş olur. Burada ən mühüm xarakterik cəhət onun təsərrüfat riski ilə daim müşayiət olunmasındadır. Bazar iqtisadiyyatı müəssisələrdən keyfiyyətli rəqabət üstünlüklü, geniş çeşidli məhsul tələbində bölünür. Təsərrüfat riskində başlıca an güman edilən xərclərlə nəticələrin uzlaşması aspektidir. Bu sırada qiymətlərin ölçülərinin xərcləri üstələməsi müəssisənin səmərəli fəaliyyətini təmin etməlidir. Özlüyündə isə bu çoxcəhətli, müxtəlif kombinasiyaların tətbiqində yer alan yeni texnoloji həllin



əldə edilməsi, maya dəyərinin aşağı salınması ilə bağlı bir məsələdir. Bununla belə, bazarın xüsusiyyəti onunla işləmək bacarığı da səmərəli müəssisə fəaliyyətində mümkündür.

Neft-qaz hasilatı ixracat xüsusiyyətli sahə kimi özünün maliyyə bazası əsasında fəaliyyət göstərmək qabiliyyətindədir. Müəssisələr struktur-mülkiyyət, istehsal, həcm və digər iqtisadi-texniki parametrlərə görə təsnifata məruz qalır. Kapital mənsubiyyəti və müvafiq olaraq onun üzərində nəzarət müəssisələri milli, xarici və müştərək-qarışıq təsnifata bölür. İndi neftqazçıxarma sənayesində, qeyd edildiyi kimi, milli qurumlarla yanaşı müştərək profilli, elmi terminologiyada çoxmilli adlanan müəssisələr də fəaliyyət göstərirlər. Bununla belə, tam xarici kapitalla işləyən müəssisələr yoxdur.

Azərbaycan Respublikası müasir neft təsərrüfatı formal olaraq üç ümumiləşmiş müəssisə tipi formasında fəaliyyət göstərir. Onlara aiddir: istehsalat birlikləri; xarici kapitallı müştərək müəssisələr və konsorsiumlar.

Son illərədək bizim tədqiqat obyekti olan neft-qazçıxarma sənayesi klassik sovet iqtisadiyyatında olduğu struktur formada fəaliyyətini davam etdirirdi. Onun təsərrüfat sisteminin aparıcı təşkilatlarını, struktur bölmələrini neft-qazçıxarma idarələri (NQÇİ), qazma işləri idarələri, nəqliyyat departamenti, tikinti-quraşdırma işləri idarəsi və s. təşkil edir. Bununla belə, ARDNŞ-in strukturuna istehsal genişliyinə və təsərrüfat həcminə görə, heç də NQÇİ-dən geri qalmayan çoxminli kollektivli tikinti birlikləri də daxil olunmuşdur. 2001-ci ildə digər köməkçi və xidmətedici qurumlarla birlikdə yol inşasını və sosial-istehsal tikintisini təmin edən iki müvafiq istehsalat birliyi ARDNŞ-nin tərkibindən çıxarılaraq özəlləşdirmə məqsədilə İqtisadi İnkişaf Nazirliyinin sərəncamına verilmişdir.

«Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında» 24 yanvar 2003-cü ildə Azərbaycan Respublikası Prezidentinin fərmanına əsasən ARDNŞ-nə tapşırılmışdır ki, bir ay müddətində qanunvericiliklə nəzərdə tutulmuş qaydada Şirkətin tərkibinə daxil olan «Dənizdə neftqazçıxarma» İstehsalat Birliyini və «Qurudakı neft-qazçıxarma» İstehsalat Birliyini birləşdirsin və onların bazasında «Azneft» İstehsalat Birliyi, «Xarici İqtisadi Əlaqələr» idarəsini və «Azər-

nefttəchizat» Birliyini birləşdirsin və onların bazasında «Marketinq və İqtisadi Əməliyyat» İdarəsini, «Magistral Neft Kəmərləri» İstehsalat Birliyinin bazasında «Neft Kəmərləri» idarəsini, «Şelflayihətikinti» İstehsalat Birliyinin bazasında «Bakı dərin özüllər zavodu»nu, «Azərneftyağ» neft emalı zavodunu, «Azərneftyanacaq» İstehsalat Birliyinin bazasında «Azərneftyanacaq» neft emalı zavodunu yaratsın.

Göstərilən fərmanla müəyyən edilmişdir ki, ARDNŞ-nin tərkibinə daxil olan «Xəzərdənizqazmatikinti» Tresti, «Xəzərdənizneftsosialtikinti» Tresti və «Avtonəqliyyat» Kontoru özəlləşdirməyə açıq elan edilsinlər. ARDNŞ-nin və özəlləşdirməyə açıq elan edilmiş müəssisələrin rəhbərlərinə tapşırılmışdır ki, həmin müəssisələr özəlləşdirilənədək və ya səhmdar cəmiyyətlərinə çevrilənədək onların idarə olunmasına və əmlakının qorunub saxlanılmasına görə şəxsən məsuliyyət daşıyırlar.

Neftçıxarma müəssisələrinin səmərəli fəaliyyəti rasional təşkilati istehsal və idarə strukturu ilə də bağlıdır. İstehsal strukturu əməyin istehsal sahələri arasında sahəvi bölgüsünü ifadə edir və o, özünün dinamikliyi ilə fərqlənir. NQÇİ-nin istehsal strukturu çoxşaxəlidir. Min və bəzən bir neçə min işçi qüvvəsini əhatə edən bu idarələrin müasir strukturuna əsasən neft-qazçıxarma mədənləri, istismar, elektrik avadanlıqları təmiri və prokatı, quyuların əsaslı və yeraltı təmiri, elmi-tədqiqat və istehsalat işləri, istehsalın avtomatlaşdırılması, neftin və texniki suyun kompleks hazırlanması, xüsusi texnika, qazın yığılması, hazırlanması sexləri daxildir. Bundan başqa, NQÇİ-in əsas strukturuna sosial və xidmətedici digər təsisatlar, yəni məktəbəqədər uşaq müəssisələri, körpələr evi, yataqxanalar, gecə sanatoriyaları, tibb məntəqələri, mənzil-kommunal təsərrüfatı və s. qurumlar daxildir.

Böyük ərazi və torpaqtutumlu NQÇİ-i respublika inzibati bölgüsündə bir və bəzən bir neçə rayonun ərazisini əhatə edir. Burada yerləşən yaşayış məntəqələri böyük qəsəbə və şəhərlərin kommunikasiya xətləri, mədəni-məişət və digər sosial obyektləri, NQÇİ-in kapitalı hesabına stimullaşdırılır. Məlumdur ki, NQÇİ-lər mikrocoğrafi rayonlaşmış ərazilər üzrə fəaliyyət göstərirlər. Belə vəziyyət hasilatın regional təmərküzləşməsi ilə yanaşı, şəhərsalma və aqlomerasiya effekti ilə müşayiət olunur. Neft ətraf ərazidə sənaye kaskadının təşəkkülündə dominant rolunu oynayır və digər servis, xidmət sahələrinin yaranmasına təkan verir.



Şübhəsiz ki, NQÇİ-lər bazaryönümlü müasir təsərrüfat subyektini ifadə etmir. Ehtiyatların azalması, erkən potensialın zəifləməsi onların fəaliyyətində əks olunur. 20-30 il bundan əvvəl mövcud olan NQÇİ-ləri son vaxtlaradək öz strukturlarını saxlamış və bazar iqtisadiyyatı tələblərinə cavab vermirlər. Odur ki, onların təkmilləşdirilərək bazar iqtisadiyyatı şəraitinə uyğunlaşdırılmalıdır. NQÇİ-də yeni iqtisadi sistemə keçiddə NQÇİ-lərlə paralellik təşkil edən əsasən xarici kapitala əsaslanan bazar subyektli müştərək müəssisələr də artıq neçə illərdi ki, fəaliyyət göstərir. Deməli, mövcud NQÇİ-nin təkmilləşərək bazar iqtisadiyyatı müəssisələrinə çevrilməsində müştərək müəssisələr mühüm rol oynaya bilərlər. Lakin bu müəssisələrin real bazar subyektliliyi praktiki gerçək müstəvidə bir qədər mübahisəlidir. ARDNŞ sistemində müştərək müəssisələrə verilən xüsusi status milli müəssisələrin diskriminasiyasına gətirib çıxarır və qeyd olunduğu kimi, heç bir iqtisadi möcüzə ilə müşayiət olunmur.

ARDNŞ sistemində fəaliyyət göstərən müştərək müəssisələrdə xarici tərəfi kiçik tacirlər – debütantlar, kvazi qurumlar təmsil edirdisə, indi neft profilli transmilli korporasiyaların iştirakı ilə yeni tipli müştərək müəssisələr yaradılmışdır. İlkin təşkil edilən müştərək müəssisələrdə xarici investorlar köhnə istismar sahələrində hasilatın yüksəldilməsinə sərmayə qoyuluşunda passivlik nümayiş etdirməklə fərqlənir, kompanyon tərəflə strateji yönümdə iş birliyi qurmada ləng meyl göstərirlər. Yaradılmış müştərək müəssisələr arasında ümumi oxşarlıq, bənzərlik sezilir. Fəaliyyət hesabatlarının statistikasına nəzər yetirdikdə, onların fəaliyyətinin coşğun və yüksək məhsul verimliliyi diqqəti cəlb etmir. Burada gizli bir apatiya-süstlük daha çox sezilir. Müştərək Müəssisələr strategiyasına keçid təqdir olunan addım olsa da, onların fəaliyyətlərinin təsis müqavilələrinə uyğun icra mexanizmləri, burada çalışan işçilərin xüsusi sosial təminatlılığı yüksəkdə dayanmır. Köhnə ictimai dəyərlərin dağılması yeni səmərəli sistemin təşkil edilməməsi – anomiya təzahürü gənc sektorlar olan müştərək müəssisələrdə yer alan cə-

hətlərlə zəngindir. Azərbaycan Respublikasında bazar iqtisadiyyatı prinsipləri formalaşmaqda davam etsə də, mərkəzi planlı sistemdən qurtulmada hələ çox işlərin görülməsinə ehtiyac vardır.

Son 12-15 il ərzində ARDNŞ-nin tərkibində 8 müştərək müəssisə yaradılmışdır. Onlardan iksi «Azərpetoyl» Sovetlər ittifaqı vaxtı təsis edilmişdir. Bəzi obyektiv və subyektiv səbəblər üzündən «Azərpetoyl» müştərək müəssisəsi bir qədər sonra, yəni 1992-ci ilin mart ayından tam fəaliyyətə başlamışdır. Kəlaməddin və Mişovdağ yataqlarının istismarını nəzərdə tutan «Azərpetoyl»un fəaliyyəti 40 illik müddət üçün nəzərdə tutulmuşdur. Müştərək müəssisələrin iştirakçıları arasında neft hasilatının bölüşdürülməsi payı 50% təşkil edir. 2000-ci ildə «Azərpetoyl» müştərək müəssisəsi ABŞ-la Azərbaycan Respublikası arasında müqaviləyə görə, yenidən təşkil edilərək əməliyyat şirkətinə çevrilmişdir. Əsas səhmlər paketi ABŞ-a məxsusdur. Həmin müştərək müəssisə «Qarasu» Əməliyyat Şirkəti adlanır.

İkinci müştərək müəssisə «Abşeron-Petrol» keçmiş «Neftçalaneft» NQÇİ-nin bazası əsasında yaradılmış, «Neftçala» və «Xıllı» yataqlarını əhatə etməklə 1 mart 1994-cü ildən fəaliyyət göstərən Azərbaycan-Türkiyə müştərək müəssisəsidir. Müştərək müəssisənin iştirakçıları arasında pay bölgüsü belədir: ARDNŞ – 51%, Türkiyənin «Atil Doqan Petrol» şirkəti – 49%.

Üçüncü müştərək müəssisə «Azgerneft» 1994-cü ilin noyabrında «Balaxanıneft» NQÇİ-nin 7-ci neft-qazçıxarma mədəni bazasında təşkil edilmişdir. Müştərək müəssisənin iştirakçıları arasında pay bölgüsü aşağıdakı kimidir: ARDNŞ – 40%, Almaniyanın «Qrunvald İnterneşni» LTD şirkəti – 60%. Bu müştərək müəssisənin fəaliyyət müddəti 25 il müəyyən edilmişdir.

Dördüncü xüsusi statuslu müştərək müəssisə «Prodakşn şerinq» prinsipinə əsaslanın VMB OYL İNK – Azərbaycan-ABŞ müştərək müəssisəsi 1994-cü ildə yaradılmışdır. Müştərək müəssisənin fəaliyyət zonası sahəsi 909,5 kvadrat kilometr olan «Qarabağ», «Ümbakı» və «Korgöz» yataqları olmuşdur. Qeyri səmərəli fəaliyyəti müəssisənin 2000-ci ildə bağlanması ilə nəticələnmişdir.

Beşinci müştərək müəssisə 1997-ci ilin sentyabrında «Şirvanneft» NQÇİ-nin bazası əsasında yaradılmış Böyük Britaniya «İnterneyşnl Treyder» firması – Azərbaycan məhdud məsuliyyətli müştərək müəssisəsidir və «Şirvan OYL MMM» adlanır.



Altıncısı Kürsəngi-Qarabağlı yatağı üzrə «Salyanneft» NQÇİ-nin bazasında yaradılmış «Salyan-oyl» müştərək müəssisəsidir. Müştərək müəssisənin iştirakçıları arasında pay bölgüsü aşağıdakı kimidir: ARDNŞ – 50%, Amerika HESS Delta – 20%, Frontera – 30%.

«Muradxanlı» yatağının istismarını nəzərdə tutan yeddinci müştərək müəssisə Böyük Britaniyanın «Remko» şirkəti ilə bağlanmış neft müqaviləsi əsasında təşkil edilən «Muradxanlı Ko» müştərək müəssisəsidir. «Muradxanlı», «Cəfərli» və «Zərdab» neft yataqlarının daxil olduğu blokun reabilitasiyası, kəşfiyyatı, işlənməsi və hasilatının pay bölgüsü haqqında ARDNŞ ilə Remko Enerji Limited şirkəti arasında saziş 21.06.1998-ci ildə imzalanmışdır. İştirakçılar arasında pay bölgüsü 50% müəyyənləşdirilmişdir. Qazmada uğursuzluqlarla əlaqədar olaraq «Muradxanlı Ko» müştərək müəssisəsi 2001-ci ildən öz fəaliyyətini tam dayandırmışdır.

Qobustan müştərək müəssisəsi «Cənubi-Qərbi Qobustan» blokuna daxil olan (bu bloka «Şıxzərgərli», «Şeytanub», «Bürgüt», «Donquzbuq», «Nardaran», «İlxıçı», «Qərbi Hacıvəli», «Sundi», «Şərqi-Hacıvəli», «Turağay», «Kənizədağ», «Qərbi-Duvannı», «Duvannı», «Solaxay» və «Daşgil» yataqları daxildir), üç sahənin kəşfiyyatı və işlənməsini əhatə edir. Müqavilə 02.06.1998-ci ildə bağlanmışdır. Tərəflər ARDNŞ ilə Komonveis Qobustan Limited («Komonveis»), Yunion Texas Qobustan Limited («Yunion Texas») və ARDNŞ-in Ortaq Neft Şirkəti (ONŞ) arasında aşağıdakı kimi pay bölgüsünü müəyyənləşdirmişlər: ARDNŞ – 20%, Yunion Texas – 40% və Komonveis – 40%. Son vaxtlara kimi bu müştərək müəssisə tam fəaliyyəti ilə işləməmişdir.

Məlumat üçün qeyd edək ki, müştərək müəssisələrin yaradılmasında tələsikliklərə, perspektivlərin düzgün qiymətləndirilməməsinə, xarici tərəfin üstünlüyünə daha çox yer verilmişdir. Belə ki, neft-qaz hasilatının sutkalıq norması aşağı həcmdə proqnozlaşdırılmış, dəqiq nəzarət sistemi müəyyənləşdirilməmişdir. Daha sonra bu müəssisələrin yerləşdiyi ərazidə əvvəlki

neft-qazçıxarma idarələrinə mənsub olan əsas vəsaitlərin çox hissəsi balansa götürülməmişdir. Müştərək müəssisələr yaradılan zaman xarici investorların hesabına neft-qaz hasilatının artırılması əsas prioritet kimi, nəzərdə tutulsa da, hələlik belə tərəqqiyə real nail olunmamışdır.

Bazar iqtisadiyyatı şəraitində müəssisə quruculuğunun təsərrüfat yoldaşlılığı və cəmiyyəti, şəxslərin kapitalının birləşməsi, tam etibara əsaslanan komanbit yoldaşlıq, məhdud məsuliyyətli, ailə məsuliyyətli müəssisələr və digər səhmdar cəmiyyət formaları nəzərdən keçirilə bilər. İqtisadi-coğrafi, texniki mühit isə yüksək manevrli müəssisə seçimini şərtləndirir. Dünya təcrübəsində neft-qazçıxarmada, qeyd etdiyimiz kimi, daha çox rast gəlinən səhmdar cəmiyyətləridir. Səhmdar əməkdaşlıq milli neft-qazçıxarma sənayesi üçün də etibarlı forma kimi qəbul edilə bilər. ARDNŞ-də ilk mərhələdə bu baxımdan milli sahibkar kapitalına əsaslanan səhmdar cəmiyyətin konyunktura üçün gələn açıq və ya qapalı formasının seçilməsi məqsədə müvafiqdir. Belə yanaşma prioritetlik səhmdar cəmiyyətin əsasən neftçi kollektivlərinin bazası əsasında formalaşmasına verilməlidir. Bu xətt iqtisadi artımla yanaşı, eyni zamanda məşğulluq baxımından da effektivlik gətirərək həmin kollektivlərin uzun müddət NQÇİ-lərdə sahibliyini təmin etmiş olar. Sonrakı mərhələdə daha açıq tipli quruluş da nəzərdən keçirilə bilər.

Məlumdur ki, Azərbaycan Respublikasında Sovet hakimiyyətinin qurulmasına qədər neft-qazçıxarma sənayesi ayrı-ayrı şəxslərin, sahibkarların, səhmdar cəmiyyətlərin sərəncamında olmuşdur. Onların idarə edilməsi də yaxşı təəssüratlarla zəngindir. Şübhəsiz ki, belə fəaliyyət neftin fontanlarının yüksəlməsi zəmanəsinə təsadüf etmişdir. İndi isə mənzərə xeyli dəyişmişdir. Yenidən neft mədənlərini ilkin sahiblərinə qaytarmaq – reversiyaya baş vurmaq məqbul sayıla bilməz. İllər çox ötmüşdür. Bununla belə, yeni milli neft sahibkarlarının formalaşdırılması da virtual məsələ olmamalıdır.

Müəssisənin ilk əlaməti kimi onun müstəqilliyi çıxış edir. Lakin məlumdur ki, neft-qazçıxarma sənayesində müəssisələr, xüsusən NQÇİ-lər istehsalat birliyinin struktur vahidləri olmaqla dar hüquqi çərçivədə fəaliyyət göstərir. ARDNŞ-da neft-qazçıxarmada müəssisə strategiyasında bir tərəfdən müştərək müəssisə «fövqəladə» səlahiyyətlər verilir, digər tərəfdən NQÇİ-nin mövcud ənənəvi hüquqları məhdudlaşdırılır. Törəmə təşkilatların hüquqi statusları arasında divergensiya yaranır, disbalans dərinləşir. Bizim subyektiv fikrimizcə NQÇİ-lərində istehsalın təşkilində xüsusiləşmə, paralellik, proporsionallıq, fasiləsizlik, ritmlilik və texniki yeniləşmə prinsipləri əsas götürülə bilər.



Milli neft-qazçıxarma sənayesində müvafiq istehsal qurumları səhmdar formalı olmasalar da, perspektivdə onların sərbəstləşməsi istisna deyildir. Belə perspektivdə yeni istehsal və strukturu münasibətlərin üfüqi sistemlə müqavilə əsasında qurulması və özəlləşdirilməsi ilə müəyyən etmək olar. Məlumdur ki, bazar iqtisadiyyatına keçid dövründə onlarla yeni müəssisələr tikilib işə salınacaqdır. Bu müəssisələr tam mənası ilə bazar iqtisadiyyatı istehsalının yüksək tələblərinə uyğun qurulmalıdırlar. Lakin yeni müəssisələrin yaradılması ilə yanaşı hazırda fəaliyyətdə olan sosialist sənaye müəssisələrinin təkmilləşdirilərək, bazar iqtisadiyyatı müəssisələrinə çevrilməsi baş verəcəkdir. Sosialist sənaye müəssisələrinin təkmilləşdirilərək, bazar iqtisadiyyatı müəssisələrinə (subyektinə) çevrilməsi prosesinin müxtəlif xarakterik cəhətləri vardır. Həmin xarakterik cəhətlərin bəzilərini nəzərdən keçirək:

– ***birinci xarakterik cəhət*** yeni texnika və texnologiyanın geniş tətbiq edilməsindən, mövcud istehsalın texnoloji cəhətdən yenidən qurulmasından, istehsalat mədəniyyətinin yüksək səviyyədə olmasından ibarətdir. Bazar iqtisadiyyatı istehsalı – elmin və texnikanın ən son *nailiyyətlərindən istifadə etməyə* əsaslanan yüksək dərəcədə mexanikləşdirilmiş və çox mütəşəkkil istehsal olmalıdır. Odur ki, hazırda əvvəlki sənaye müəssisələri daha mükəmməl texnika ilə təchiz olunur və texnoloji cəhətdən yeniləşdirilir. Artıq Azərbaycan Respublikasında bir çox müəssisələr vardır ki, onlar öz texniki səviyyələrinə görə xarici ölkələrin ən yaxşı müəssisələrindən yüksəkdə dururlar. Lakin hələ də bir çox sənaye müəssisələrində fəhlələrin xeyli hissəsi əl əməyi ilə işləyir, yeni texnika bir çox hallarda isteh-

salın təşkilinin köhnə üsulları ilə bir yerdə tətbiq edilir, istehsal mədəniyyətinin səviyyəsi kifayət dərəcədə deyildir. Belə ki, 2001-ci ildə ağır fiziki əməklə məşğul olan fəhlələrin sayı sənayedə 1948 nəfər, tikintidə 102 nəfər, nəqliyyatda 63 nəfər və rabitədə 10 nəfər təşkil etmişdir. Yeni texnikanın tətbiqi, əməyin kompleksli mexanikləşdirilməsi və istehsalın daha da avtomatlaşdırılması, avtomatikanın idarə və nəzarət sferasına tətbiq edilməsi, istehsalın təşkili və texnologiyasının daha yüksək pilləsinə keçilməsi sosialist sənaye müəssisələrinin bazar iqtisadiyyatı müəssisələrinə daha müvəffəqiyyətlə çevrilməsi üçün ən mühüm şərtdir. Çünki istehsalın kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması əsasında mövcud istehsalın texnoloji cəhətdən yenidən qurulması ağır fiziki əməyi aradan qaldıraraq və əmək şəraitini əsaslı surətdə dəyişərək, sosializm əməyinin tədricən bazar iqtisadiyyatı əməyinə çevrilməsi üçün maddi əsas təşkil edir.

– ***ikinci xarakterik cəhət*** – fəhlələrin mədəni-texniki səviyyəsinin yüksəldilməsindən, fiziki əməklə zehni əməyin getdikcə daha artıq dərəcədə birləşməsindən ibarətdir. Bazar iqtisadiyyatı müəssisələrində hərtərəfli inkişaf etmiş, geniş elmi-texniki hazırlığa malik və istehsalata yaxşı bələd olan işgüzar adamlar işləyəcəklər. Hazırda sənaye müəssisələrində çalışan ümumi fəhlələrin tərkibində yüksək ixtisasla fəhlələrin xüsusi çəkisi təqribən 28-30% təşkil edir.

– ***üçüncü xarakterik cəhət*** təcrübə-tədqiqat işlərinin genişləndirilməsindən, müəssisələrin xarici ölkələrlə əlaqəsinin gücləndirilməsindən ibarətdir. Hazırda Azərbaycan Respublikası dünyanın 85 ölkəsi ilə müxtəlif əlaqələr yaratmışdır. Elmin və texnikanın tərəqqisi getdikcə daha artıq dərəcədə ictimai istehsalın yüksəlişinin həlledici amilinə çevrilmişdir. Dövlət və sahibkarlar elmi-texniki tərəqqinin maksimal dərəcədə sürətləndirilməsini, yeni texnikanın yaradılması və mənimsənilməsi müddətlərinin ixtisar edilməsini, elmi-texniki nailiyyətlərin istehsalata geniş tətbiq edilməsini, daxili və xarici ölkələrdəki önəmli təcrübənin öyrənilməsi və yayılmasını özlərinin əsas vəzifəsi hesab edirlər. Son illərdə, yəni Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra, respublikamızda elmin istehsalat ilə əlaqəsini gücləndirmək üçün çox işlər görülmüş və görülməkdədir. Çünki elmi-tədqiqat təşkilatları ilə yaradıcı əməkdaşlıqda önəmli müəssisələr, buraxılan məhsulun təkmilləşdirilməsi, istehsalın texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi sahəsində böyük işlər görülür. Bununla bərabər, bir çox müəssisələr, yeni texnikanın işlənib hazırlanması və tətbiq edilməsi, səmərələşdiriciliyin və ixtiraçılığın inkişaf etdirilməsi sahəsində öz imkanlarından hələ də çox zəif istifadə edirlər.



– ***dördüncü xarakterik cəhət*** – rəqabətin inkişaf etdirilməsindən və əməyin təşkilinin ən önəmli forma və üsullarının tətbiq edilməsindən ibarətdir. Ən yeni texnika ilə silahlanmış, yüksək ixtisaslı kadrlara malik olan, istehsalatla qarşılıqla əlaqədə olan bazar iqtisadiyyatı müəssisələri dünyada yüksək əmək məhsuldarlığına da malik olacaqlar.

– ***beşinci xarakterik cəhət*** – müəssisələrin idarə olunmasında əməkçi kollektivlərinin iştirakını təmin etməkdən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində istehsal bazasının təkmilləşdirilməsi ilə yanaşı olaraq ictimai münasibətlərin təkmilləşdirilməsi prosesi baş verir.

– ***altıncı xarakterik cəhət*** – qeyri-mərkəzləşdirilmiş planlaşdırma və idarəetmə sisteminin geniş tətbiq edilməsindən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində müəssisələr özləri istehsal proqramlarını sərbəst surətdə işləyib hazırlayır və onun müvəffəqiyyətlə yerinə yetirilməsi üçün lazımi tədbirləri həyata keçirir. Buna görə planlar daha qısa müddətlər üçün müəyyənləşdirilir, yəni əvvəlki illərdən fərqli olaraq perspektiv planlaşdırmaya nisbətən qısa müddətli planlaşdırmanın rolu artırılır. İndi planlar yuxarı dövlət təşkilatları tərəfindən verilən kontrol rəqəmlər əsasında deyil, müəssisələrin istehsal potensialına uyğun olaraq onların özləri tərəfindən işlənib hazırlanır. Bu zaman istehlakçıların sifarişləri və dövlət tapşırıqları nəzərə alınır.

– ***yeddinci xarakterik cəhət*** – müəssisələrə idxal və ixracat sahəsində müstəqilliyin verilməsindən ibarətdir. Bazar iqtisadiyyatına keçid dövründə müəssisələrin xarici iqtisadi fəaliyyə-

tin təkmilləşdirilməsi və onlara birbaşa xarici bazara çıxmaq hüququ verilməsi ixracat və idxalat sahəsində fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə imkan yaradır. Odur ki, hazırda idxalın və ixracatın strukturunu yaxşılaşdırmaq və effektivliyini artırmaq üçün tədbirlər həyata keçirilir. İdxalat siyasətində ciddi qənaət, valyuta vəsaitindən səmərəli istifadə etmək, keçinə bilməsi mümkün olan məmulatların satın alınmasından imtina etmək xətti yeridilir. İxracat strukturunun təkmilləşdirilməsi aparıcı meyl – onda hazır məmulatın və yarımfabrikatın, maşın və avadanlığın, komplektləşdirici məmulatın, sənaye və xalq istehlakı mallarının payının artmasıdır. İxracatın strukturunun yaxşılaşdırılması məhsulun keyfiyyətinin əsaslı surətdə yaxşılaşdırılması və bunun əsasında da dünya bazarında onun rəqabət qabiliyyətinin təmin edilməsi üzrə tədbirlər sisteminin həyata keçirilməsinə əsaslanır.

– ***səkkizinci xarakterik cəhət*** – kiçik və müştərək müəssisələrin yaradılmasına üstünlük verilməsindən ibarətdir. Sovet hakimiyyəti illərində iri və orta müəssisələrin yaradılmasına daha çox üstünlük verildiyi halda, indi kiçik müəssisələrin yaradılmasına daha çox meyl edilir. Hazırda ölkəmizdə kiçik müəssisələr bütün müəssisələrin təqribən 75-80%-ni təşkil edir. Müştərək müəssisələr dünya ölkələri tərəfindən sənayedə, nəqliyyatda, elm-texnika, ticarət və xidmət sahələrində yaradılan və fəaliyyətini birgə idarəetmə və təsərrüfat hesabı, özxərcləriniödəmə və özünümaliyyələşdirmə prinsipləri əsasında quran müəssisələrdir. Onlar istehsal, nəqliyyat, elmi-texniki vasitələrin, maliyyə, əmək və digər ehtiyatların birləşdirilməsi yolu ilə yaradılır. İkitərəfli əsasda yaradılan müştərək müəssisələr üstünlük təşkil edirlər. Müştərək müəssisələr dünya iqtisadi inteqrasiyası çərçivəsində qarşılıqlı əməkdaşlığın yeni və tez inkişaf edən formasıdır. O, iqtisadi inkişafın müasir səviyyəsinə uyğun gəlir və elmi-texniki tərəqqinin sürətləndirilməsinə və istehsalın intensivləşdirilməsinə imkan yaradır.

– ***doqquzuncu xarakterik cəhət*** – müəssisələrin özxərciniödəmə və özünümaliyyələşdirmə prinsipləri əsasında işləməsinin təmin edilməsindən ibarətdir. Özünümaliyyələşdirmə sis-



temində müəssisələr həm sadə, həm də geniş təkrar istehsala çəkilən bütün xərcləri öz xüsusi mənbələri hesabına ödəyir. Özxərciniödəmə büdcə maliyyələşdirilməsində olan xərcləri dövlət büdcəsindən daxilolmalar hesabına ödənilən müəssisə və təşkilatlardan fərqli olaraq onlar məhsul satışından, sənaye xarakterli işlərin və xidmətlərin yerinə yetirilməsindən əldə etdikləri pul ilə özlərinin bütün xərclərini ödəyirlər.

– ***onuncu xarakterik cəhət*** – fondlaşdırma təchizat formasından imtina edilməsindən ibarətdir. Yeni təsərrüfatçılıq şəraitində maddi-texniki təchizatın yenidən qurulması maddi ehtiyatların mərkəzləşdirilmiş fondlaşdırılmasından və istehlakçıları malgöndərənlərə təhkim etməkdən qəti əl çəkməyi və fondlarsız, naryadsız sərbəst alqı-satqı formasında istehlakçıların sifarişi üzrə, müqavilə qiymətlərini geniş tətbiq etməklə, alıcı tapmaq üstündə yarışmaq, işgüzar partnyor seçmək imkanı verməklə istehsal vasitələrinin topdansatış ticarətinə qətiyyətlə keçməyi tələb edir. Bu, gələcəkdə istehsalçının amirliyini və inhisarçılığını aradan qaldırmaqla istehsal vasitələri bazarının əmələ gəlməsinə gətirib çıxaracaqdır.

– ***on birinci xarakterik cəhət*** – məhsul istehsalı və satışı sahəsində müəssisələrə geniş hüquqların verilməsindən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində məhsul istehsalı və satışının sərbəst şəkildə həyata keçirilməsində məqsəd – ictimai tələbatın daha dolğun ödənilməsindən, malgöndərmə üzrə müəyyən olunmuş müddətdə öhdəliklərin yerinə yetirilməsindən, məhsulun keyfiyyətinin hərtərəfli yaxşılaşdırılmasından, ehtiyatlardan və istehsal potensialından daha səmərəli istifadə olunmasından ibarətdir. İndi müəssisə məhsul istehsal etməmişdən öncə aşağıdakı suallara cavab hazırlamalıdır: hansı növ məhsul istehsal edilməlidir?, nə qədər istehsal edilməlidir?, hansı qiymətlə realizə edilməlidir?, hansı bazarda satılmalıdır?, məhsul satışından nə qədər mənfəət (gəlir) əldə edilməlidir?

# FƏSİL 6. NEFT-QAZÇIXARMA İDARƏLƏRİ DƏRİNLƏŞƏN BAZAR MÜNASİBƏTLƏRİ ŞƏRAİTİNDƏ

## 6.1. Bazar münasibətlərinin mahiyyəti və tərkib ünsürləri

Müasir dövrdə Azərbaycan Respublikasında yaranmış sosial-iqtisadi inkişafın ləngiməsinin aradan qaldırılması, istehsalın sabit və müntəzəm artan sürətlə inkişaf etdirilməsi və onun səmərəliliyinin yüksəldilməsi üçün həyata keçirilən təşkilati-texniki tədbirlərlə yanaşı, radikal iqtisadi və institutsional islahatların əsasında bazar iqtisadiyyatına keçid müstəsna rol oynayır. Çünki radikal islahatlar və bazar iqtisadiyyatı mülkiyyətin dövlət tabeçiliyindən çıxarılmasını, qiymətlərin liberallaşdırılmasını (sərbəstləşdirilməsini), rəqabəti, bütün təsərrüfatçılıq subyektlərinə tam müstəqillik verilməsini, azad sahibkarlıq fəaliyyətinin yaradılmasını və onun normal fəaliyyət göstərməsi üçün zəruri şəraitin təmin olunmasını və s.-ni nəzərdə tutur. Deməli, bazar iqtisadiyyatı azad sahibkarlıq, müxtəlif mülkiyyət formalarının mövcudluğu və qiymətqoyma müstəqilliyi ilə səciyyələnir.

Beləliklə, respublikamızda 70 ildən artıq müddətdə mövcud olmuş inzibati-komanda iqtisadiyyatından yeni iqtisadi sistemə, yəni müasir bazar iqtisadiyyatına keçid sosial-iqtisadi inkişafımızın hazırkı dövrünün başlıca məzmununu təşkil edir. Burada əsas məqsəd cəmiyyətin hər bir üzvünün iqtisadi azadlığını təmin etmək əsasında özündə müasir elmi-texniki tərəqqinin nailiyyətlərini əks etdirən istehsalı formalaşdırmaq, mövcud istehsalın və xidmətlərin strukturunu əhalinin tələbatını ödəyə bilən istiqamətdə təkmilləşdirmək, son nəticədə isə istehsalı istehlakçıya doğru yönəltməyə imkan verən sosial səmərəliliyə malik azad iqtisadiyyat yaratmaqdan ibarətdir. Çünki azad iqtisadiyyat – bazar iqtisadiyyatının müəyyənedici şərtidir.

Bazar iqtisadiyyatının ən mühüm ünsürü kimi əmtəələrin mübadiləsi sferasının və onun təzahür forması olan bazarın fəaliyyətini tənzimləyən azad bazar mexanizminin mövcudluğu çıxış edir. Lakin müasir bazar iqtisadiyyatının məzmununu bazar mexanizminin mövcudluğu ilə əlaqələndirmək düzgün olmaz. ***Bu gün bazar iqtisadiyyatı dedikdə, bir tərəfdən mübadilə sferası da daxil olmaqla əmtəələrin istehsalı, bölgüsü və istehlakının qarşılıqlı əlaqəsini təmin edən bazar mexanizminin fəaliyyətini, digər tərəfdən isə cəmiyyətin bütün üzvlərinin mənafeyi naminə iqtisadiyyatın dövlət tərəfindən sosial cəhətdən tənzim edilməsini özündə üzvi vəhdət halında birləşdirən bir iqtisadi sistem başa düşülür.***



Ümumiyyətlə, azadlığın, demokratiyanın və son nəticədə insanın özünün inkişafı bütün tarixi inkişaf boyu ictimai tərəqqinin aparıcı meyarlarından biri olmuşdur. A.Smit vaxtilə bu barədə yazırdı ki, əgər hər hansı millət tam azadlıqdan istifadə edərək inkişaf edə bilməsəydi, bu halda yer üzündə, ümumiyyətlə, nə vaxtsa tərəqqi edə bilən millət tapmaq mümkün olmazdı. Bununla belə heç də indiyədək mövcud olan bütün iqtisadi sistemlərdə bu meyar cəmiyyətin bütün sahələrinə, iqtisadiyyatın hər bir subyektinə şamil edilməmişdir.

Yalnız cəmiyyətin hər bir üzvü üçün belə bir imkan yaradan kapitalizm quruluşunda, cəmiyyətində iqtisadiyyatı həqiqətən və əsasən bazarın tələbləri əsasında təşkil etmək mümkün olmuşdur. Məşhur Amerika iqtisadçısı, Nobel mükafatı laureatı M.Fridmen özünün «Kapitalizm və azadlıq» əsərində yazırdı ki, iqtisadiyyatın bazar əsasında təşkilinin xüsusiyyəti ondan ibarətdir ki, o heç bir kəsin, digərinin işinə qarışmasına imkan vermir. Belə ki, digər satıcılarla əlaqəyə girə bilmək imkanı istehlakçını konkret satıcının hökmranlığından, bir çox alıcıya əmtəə sata bilmək imkanı isə satıcını istehlakçının hökmranlığından, öz müəssisəsinə işçi götürmək istəyən bir çox sahibkarın olması muzdlu işçini öz sahibkarının hökmranlığından mühafizə edir və s. Bütün bunların hamısını bazar özü heç bir mərkəzi hakimiyyət olmadan həyata keçirir.

## 6.2. Bazar iqtisadiyyatının təzahür formaları və fərqləndirici cəhətləri

Kapitalizm cəmiyyətində iqtisadi azadlıq prinsipinin təsiri altında bazarın subyektləri kimi çıxış edən satıcılar və alıcılar arasında olan iqtisadi əlaqələr bir sıra xüsusiyyətlər kəsb edir ki, bunların da ən əsasları aşağıdakılardan ibarətdir:

a) qarşılıqlı tərəflər arasında baş verən əlaqələrin birinin di-

gəri üzərində hökmranlığına deyil, bərabərhüquqlu subyektlər arasında yaranan münasibətlərə əsaslanması;

b) hər hansı bir mülkiyyətçi tərəfindən özünə lazım olan qarşı tərəfin təsərrüfatçılıq prinsipi üzrə azad şəkildə, kənardan heç bir müdaxilə və məcburiyyət olmadan axtarılıb tapılması;

c) alıcılar və satıcılar arasında baş verən iqtisadi əlaqələrin hər iki tərəf üçün faydalı, səmərəli olması.

Qeyd etmək lazımdır ki, tərəflər arasında yaranan bu əlaqələr nəinki onların özləri üçün fayda, səmərə gətirir, eyni zamanda bütövlükdə cəmiyyət miqyasında faydanın artmasına səbəb olur. Buna zəruri məhsulların ehtiyatlarla, lüzumsuz məsrəflərə yol vermədən istehsalı nəticəsində nail olunur. Bu o deməkdir ki, öz büdcələri daxilində azad şəkildə mal seçmək imkanı olan istehlakçılar özlərinə lazım olmayan malı almayacaqlar, yəni bu baxımdan israfçılığa yol verilməyəcəkdir. Belə olan halda mənfəət əldə etmək məqsədilə fəaliyyət göstərən istehsalçılar bu vəzifəni yalnız alıcıya lazım olan məhsul istehsal etmək yolu ilə həyata keçirməyə çalışacaqlar. Bu isə öz növbəsində istehsalçıları maddi cəhətdən maraqlı edir. İqtisadi azadlıq bazar iqtisadiyyatı şəraitində təkcə tərəflərin, firmaların və digər təsərrüfat subyektlərinin iqtisadi fəaliyyətinin zəruri şərti deyildir. O, eyni zamanda azad iqtisadiyyatı inzibati-komanda iqtisadiyyatından fərqləndirən bütün cəhətlərlə bu və ya digər səviyyədə əlaqəli olub, onlara ciddi təsir edir və müəyyən mənada onların əsasını təşkil edir.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda kapitalist münasibətləri təqribən XIX əsrin 1-ci yarısında yaranmağa başlamışdır. Belə ki, Azərbaycanda hələ XVIII əsrdə neft, xam ipək və ipək parçalar dünya tranzit ticarətində iştirak edirdi. 1735-ci ildə Azərbaycanda 50 neft quyusu istismar olunurdusa, onların sayı 1829-cu ildə 82-yə, 1850-ci ildə isə 136-ya çatmışdır ki, bunlardan da ildə 5500 ton neft çıxarılırdı. Bu dövrlərdə neft sənayesində milli sahibkarlar meydana gəlməyə başlamış və nəticədə XIX əsrin 90-cı illərinin ortalarında Bakıda hasil edilən neftin 15%-dən çoxu H.Z.Tağıyev və Ş.Əsədullayevin iki neft firmasının payına düşürdü. XX əsrin əvvəllərində isə milli kapitalın əhəmiyyəti daha da artdı. 1908-1910-cu illərdə 60-dan çox azərbaycanlı sahibkara 80-dən artıq firmalar mənsub idi.



Özü də onların 8-i ildə 1 min puddan çox neft çıxaran sahibkarlar qrupuna daxil idi. 1913-1914-cü ildə 165 neftçıxarma şirkətlərindən 48-i milli kapitalın nümayəndələrinə mənsub idi.

Beləliklə, XIX əsrin sonu – XX əsrin əvvəllərində Azərbaycanda kapitalist sənayesinin nisbətən intensiv inkişaf mərhələsi başlanmışdır. Bu dövrdə Bakı rayonlarında kapitalist sənayesinin iri sahələri – neftçıxarma, neft emalı, mexaniki istehsal, gəmiçilik, yüngül və yeyinti sənayesi inkişaf etmişdir. Dünyada ilk dəfə olaraq Xəzərdə tankerlə neft daşınmasına başlanmışdır. Azərbaycanda mis və ipək sənayesi sürətlə inkişaf edirdi. 60-80-ci illərdə Qafqazda əridilən misin və bütün Zaqafqaziyada istehsal olunan baramanın və ipəyin üçdə iki hissəsi Azərbaycan Respublikasının payına düşürdü. Deməli, Azərbaycanda kapitalizm cəmiyyətin tarixi inkişafında qanunauyğun mərhələ kimi mütərəqqi rol oynamışdır. Kapitalizm insanlar arasında şəxsi asılılığa əsaslanan patriarxal və feodal münasibətləri aradan qaldırmış, onu əmtəə-pul münasibətləri ilə əvəz etmişdir. Kapitalizm iri şəhərlər yaratmış, feodal dağınıqlarına son qoymuş, iri maşınlı istehsalın inkişafına şərait yaratmışdır.

Bazar iqtisadiyyatı sisteminin tarixən uzun bir dövrdə formalaşmasına baxmayaraq, iqtisadi ədəbiyyatlarda indiyədək onun xarakterik cəhətləri haqqında müxtəlif fikirlərə rast gəlinir. Məsələn, macar iqtisadçısı Y.Kornianinin fikrincə, inzibati-komanda iqtisadiyyatından azad bazar iqtisadiyyatına keçid xüsusi mülkiyyətin, azad sahibkarlıq fəaliyyətinin formalaşmasını və dövlət sektorunun məhsul istehsalında xüsusi çəkisinin minimuma endirilməsini tələb edir.

Bazar iqtisadiyyatının xarakterik cəhətləri haqqında fikirlər amerikan iqtisadçıları K.Makkonel və S.Bryun tərəfindən yazılmış «Ekonomiks» adlı dərslikdə verilmişdir. Onların fikrincə, bazar iqtisadiyyatının xarakterik cəhətləri aşağıdakılardan ibarətdir:

– ***xüsusi mülkiyyətin mövcudluğu.*** Qeyd edək ki, xüsusi mülkiyyət heç də kapitalizm cəmiyyətinin yetişdirilməsi deyildir. O, tarixən ibtidai cəmiyyətin dağıldığı dövrdə ictimai əmək bölgüsünün yaranması və kollektiv icma mülkiyyətinin ayrı-ayrı fərdlər tərəfindən mənimsənilməsi nəticəsində meydana gəlmişdir. Deməli, xüsusi mülkiyyət kapitalizmə qədərki bütün

cəmiyyətlərin iqtisadi əsasını və fərqləndirici xüsusiyyətlərindən birini təşkil etmişdir. Lakin həmin cəmiyyətlərdə xüsusi mülkiyyətə malik olmaq hüququ heç də onların bütün üzvlərinə deyil, yalnız kiçik bir hissəsinə mənsub olmuşdur. Düzdür, bu cəmiyyətlərdə bazar üçün məhsullar istehsal edən və iqtisadi cəhətdən azad olan insanların sadə əmtəə təsərrüfatları da mövcud idi və o, istehsal vasitələri üzərində xüsusi mülkiyyətə əsaslanırdı. Buna baxmayaraq, həmin insanların sayı çox az idi və ona görə də istehsal olunmuş məcmu milli məhsulda mühüm rol oynaya bilmirdilər. Əvvəlki cəmiyyətlərdən fərqli olaraq kapitalizm cəmiyyətində xüsusi mülkiyyət və iqtisadi azadlıq bir-birini şərtləndirir və biri digərini tamamlayır. Belə ki, burada ictimai mənşəyindən, cəmiyyətdəki mövqeyindən, irqindən, cinsindən və s.-dən asılı olmayaraq cəmiyyətin bütün üzvlərinin azad surətdə xüsusi mülkiyyətə malik olmaq hüququ vardır. Deməli, istehsal vasitələrinə sərbəst surətdə malik olmaq, sərəncam vermək və ondan istifadə etmək hüququ ilə xarakterizə olunan xüsusi mülkiyyət məhz öz daşıyıcısı olan subyektə azad şəkildə fəaliyyət göstərməyə və özünün malik olduğu istehsal vasitələri üzərində sərəncam verməyə və səmərəli nəzarətə imkan verir. Müasir dövrdə bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən ölkələrdə, o cümlədən də Azərbaycan Respublikasında iqtisadi azadlıq prinsipi əsasında fəaliyyət göstərən bir çox mülkiyyət formalarına (məsələn, səhmdar, fərdi, müştərək, kooperativ və s.) gəldikdə isə, demək lazımdır ki, onların əksəriyyəti, əsasən, xüsusi mülkiyyət əsasında formalaşaraq inkişaf edir. Beləliklə, bazar iqtisadiyyatı şəraitində xüsusi mülkiyyət istehsal vasitələrindən səmərəli istifadəyə imkan verən əsas mülkiyyət formasıdır;

– ***azad sahibkarlıq və seçmə azadlığı*** – anlayışları bir-birilə sıx əlaqədardır və biri digərini şərtləndirir. Belə ki, seçmə azadlığı dedikdə, vətəndaşın istədiyi peşəni seçmək və bunun üçün zəruri olan təhsil almaq, öz gəlirini sərbəst xərcləmək və onların hansı hissəsini, yəni nə qədərini istehlaka, hansı hissəsini isə yığıma yönəltmək haqqında sərbəst surətdə qərar qəbul etmək, özünə müstəqil surətdə yaşayış və iş seçmək və s. nəzərdə tutulur. Bu baxımdan, «Seçmə» azadlığı anlayışı «Azad sahibkarlıq» anlayışından daha geniş məna daşıyır və axırıncı birincinin



tərkib hissəsini təşkil edir. Bu o deməkdir ki, bazar iqtisadiyyatı şəraitində göstərilən hər iki anlayışın qarşılıqlı fəaliyyəti iqtisadi azadlıq prinsipi ilə sıx əlaqəli şəkildə baş verir, yəni «Azad sahibkarlıq» və «Seçmə azadlığı» anlayışları bazar iqtisadiyyatının normal fəaliyyətinin əsas şərti olan iqtisadi azadlıq prinsipinin təzahür formalarıdır. Bu isə o deməkdir ki, xüsusi mülkiyyət və azad sahibkarlıq bir-biri ilə əlaqədardır;

– *şəxsi maddi maraq* – bilavasitə bazar iqtisadiyyatı ilə əlaqədar deyildir. Belə ki, əmək fizioloji varlıq olan insanın təbii tələbatı olduğu kimi, onun nəticələrinə olan yüksək maddi maraq da insanın daxili təbiətindən irəli gəlir. Başqa sözlə, yaşadığı cəmiyyətin ictimai-siyasi və iqtisadi formasından asılı olmayaraq hər bir insan öz iqtisadi fəaliyyətində hər şeydən öncə fərdi marağından çıxış edir. Bununla belə, istehsal vasitələrindən məhrum olmuş insan heç bir zaman öz şəxsi maddi marağını azad surətdə reallaşdıra bilməz. Yalnız öz iqtisadi fəaliyyətində azad olan hər bir şəxs öz qabiliyyətinə, bacarığına, imkanına və arzusuna uyğun olaraq ictimai əməyin onun üçün yüksək mənfəət təmin edə biləcək növünü seçərək, onunla məşğul olmaq üçün imkan əldə edir. Bazar iqtisadiyyatı şəraitində əməyin nəticəsinə görə yüksək maddi maraq hər bir işçini daim öz əməyinin səmərəsini artırmaq əsasında yüksək mənfəət qazanmağa istiqamətləndirildiyi üçün, nəticədə bütövlükdə iqtisadiyyatın ümumi səmərəsi də yüksəlmiş olur. A.Smit yazırdı ki, satış üçün əmtəə istehsal edən hər hansı bir adam (sahibkar) yalnız öz şəxsi maddi marağını güdür, yəni xüsusi mənfəətdən çıxış edir. Lakin bu zaman o, ***«gözəgörünməz əl»*** vasitəsi ilə öz məqsədinə nail olmayan məqsədə yönəldilir, yəni sahibkar bəzən özü də bilmədən cəmiyyətin mənafeyinə xidmət edir;

– ***rəqabət*** – dedikdə, iqtisadi cəhətdən azad olan istehsalçılar arasında əmtəələrin (işlərin, xidmətlərin) daha əlverişli istehsalı və satışı şəraitinə nail olmaqla yüksək mənfəət əldə etmək uğrunda aparılan mübarizə nəzərdə tutulur. Bu, bazar iqtisadiyyatının zəruri şərtidir. Qeyd edək ki, rəqabət xüsusi mülkiyyət kimi kapitalizm cəmiyyətindən xeyli öncə yaranaraq sadə əmtəə istehsalçılarının iqtisadi fəaliyyəti ilə əlaqədar olsa da, o, yalnız əmtəə istehsalının ən yüksək səviyyəyə çatdığı kapitalizm cəmiyyətində iqtisadi inkişafın hərəkətverici amili-

nə, qüvvəsinə çevrilmişdir;

– ***bazar sisteminin mövcudluğu.*** Adətən, bazar sistemi dedikdə, bazar mexanizmi vasitəsilə fəaliyyət göstərən bir iqtisadiyyat nəzərdə tutulur. Çünki bazar mexanizmi tələb, təklif və azad rəqabət əsasında formalaşan qiymət mexanizmi ilə bilavasitə əlaqədardır. Deməli, bazar mexanizmi formasından asılı olmayaraq hər bir əmtəə istehsalını tənzim edən və istiqamətləndirən bir mexanizmdir. Bu baxımdan o, kapitalizm cəmiyyətindən öncə, əmtəə istehsalının mövcud olduğu iqtisadi sistemlərdə də fəaliyyət göstərmişdir. Lakin bu cəmiyyətlərdə əmtəə-pul münasibətləri təsərrüfatçılığın yeganə və aparıcı forması olmadığı üçün bazar mexanizmi də bütövlükdə cəmiyyət miqyasında istehsalçılarla istehlakçılar arasında yaranan münasibətləri tənzimləyə bilən bir mexanizmə çevrilməmişdir. Belə bir hal kapitalizm cəmiyyətində mövcud olmuşdur;

– ***iqtisadiyyata müdaxilədə dövlətin məhdud rolu.*** Məlumdur ki, dövlət müxtəlif cəmiyyətlərdə, əsasən, siyasi xarakterli funksiyaları yerinə yetirmişdir. Lakin kapitalizm cəmiyyətində siyasi funksiyalarla yanaşı, iqtisadiyyatın tənzimlənməsində də az da olsa dövlət müəyyən rol oynayır, yəni iqtisadiyyata müdaxilə edir. Məsələn, A.Smit bazarın normal fəaliyyəti üçün bəzi funksiyaları dövlətin öz üzərinə götürməsini tövsiyə edirdi. Lakin ümumiyyətlə isə dövlətin iqtisadiyyatda fəal iştirakını məqsədəuyğun hesab etmirdi və onun əsasən «gecə gözətçisi» funksiyasını məsləhət görürdü. Məlumat üçün qeyd edək ki, dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində dövlətin iqtisadiyyata müdaxiləsi xeyli məhdudlaşdırılmışdır. İndi Azərbaycanda iqtisadiyyatın yeni strukturları – bazar iqtisadiyyatı strukturları yaradılmış və onlar dövlətin iştirakı olmadan normal fəaliyyət göstərirlər.

## 6.3. Bazar münasibətləri şəraitində neft-qazçıxarma idarələrinin iqtisadi məzmunu, əlamətləri və əsas vəzifələri

***Müəssisə*** – mülkiyyət formasından asılı olmayaraq ictimai tələbatın ödənilməsi və mənfəət alması məqsədi ilə məhsul istehsal edən və xidmətlər göstərən – hüquqi şəxs olan -



müstəqil təsərrüfat subyektidir. Bazar iqtisadiyyatı sisteminin tələb və təklif qanununun icra mexanizminin işləməsində müəssisələrin rolu çox böyükdür. Çünki müəssisələr tələb «təklifdən» resurs alan, təklif isə «tərəfə» məhsul satan, ya da sənaye xarakterli xidmətlər göstərən subyektlərdir. Başqa sözlə, müəssisə əmtəə istehsalçısı olduğuna görə müstəqil surətdə əmtəə istehsal edir və satır, sənaye xarakterli işlər yerinə yetirir və xidmətlər göstərir.

Müəssisə öz istehsal-təsərrüfat fəaliyyətini dövlət tapşırıqları, istehlakçıların sifarişləri (müqavilələri) əsasında tam təsərrüfat hesabı, özxərcləriniödəmə, özünü maliyyələşdirmə və özünü idarəetmə prinsiplərini nəzərə almaqla həyata keçirir. Bu məqsədlə müəssisə öz profilinə uyğun sifarişlər və tapşırıqlar qəbul edir, digər müəssisə və təşkilatlarla müqavilələr bağlayır, lazımi maddi-enerji resursları əldə edir, iş qüvvəsi işə cəlb edir və beləliklə də, konkret istehsal prosesini (işi, xidməti) həyata keçirərək maddi nemətlər istehsal edir.

Müəssisələr öz istehsal-təsərrüfat fəaliyyətlərinin nəticələri üçün tam əmlak məsuliyyəti daşıyırlar. Müəssisələrin əmlak məsuliyyəti müqavilə öhdəliklərinin, sifarişlərin və tapşırıqların, bağlanmış müqavilələrin, kredit-hesablaşma və vergi intizamının, məhsulun keyfiyyətinə aid olan tələblərin və nəhayət, təsərrüfat fəaliyyətinin digər qaydalarının pozulması ilə əlaqədardır. «Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanununda göstərilir ki, müqavilə şərtlərinin pozulmasına görə cərimələrin və dəbbə pulunun, habelə dəymiş zərərin ödənilməsi müəssisələri istehlakçıların, sifarişçilərin razılığı olmadan məhsul göndərilməsinə, iş görülməsinə və ya xidmət göstərilməsinə dair öhdəliklərdən, sifarişlərin və müqavilələrin yerinə yetirilməsindən azad etmir. Dövlət müəssisələrin öhdəlikləri üçün, müəssisələr də öz növbəsində dövlətin və digər təşkilat və idarələrin öhdəlikləri üçün cavabdeh deyildir.

Müəssisələr tabe olduqları yuxarı dövlət orqanları (əgər müəssisə dövlət təşkilatı tərəfindən yaradılmışdırsa) və təsisçilər (məsələn, özəl müəssisələr) tərəfindən işlənib hazırlanmış və təsdiq edilmiş Nizamnamə və pasport əsasında «Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanununa uyğun olaraq fəaliyyət göstərirlər.

***Müəssisənin Nizamnaməsində*** onun adı, fəaliyyət predmeti və məqsədi, yerləşdiyi yerin (məntəqənin) adı və ya poçt nömrəsi, əmlakının yaranma mənbələri və əldə edəcəyi mənfəətdən, təsərrüfat hesablı gəlirdən istifadə qaydası, fəaliyyətinin yenidən təşkili (əgər buna zərurət yaranarsa) və fəaliyyətinə xitam verilməsi şərtləri, nizamnamə fondunun olması və s. göstərilir. Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan Respublikasında müxtəlif növ müəssisələrin yaradılması ilə əlaqədar olaraq Nizamnamə fondu əvəzinə yeni fondlar, məsələn, ***«Aksiya fondu», «Pay fondu», «Cəlb olunmuş vəsait fondu»*** və s. bu kimi fondlar yaradılır. Lakin onların müxtəlifliyinə baxmayaraq hamısının mahiyyəti və təyinatı Nizamnamə fondunda olduğu kimidir.

***Müəssisənin pasportunda*** müəssisə haqqında ümumi məlumatlar, onun maddi-enerji bazası, yanacaq ehtiyatları ilə təmin olunma qaydası, struktur bölmələrinin sayı və tərkibi, mədəni-məişət və yaşayış fondları haqqında məlumatlar, maliyyə ehtiyatları və s. göstərilir.

Adətən, müəssisələr istehsal-texniki, təşkilati-inzibati və iqtisadi vəhdətlik ilə xarakterizə olunurlar. ***İstehsal-texniki vəhdətlik*** – müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin məqsədinə və buraxılacaq məhsulların xarakterinə uyğun olan iş şəraitini, maşın və avadanlıqlar sistemini əhatə edir. Müəssisənin istehsal-texniki vəhdətliyi vahid texniki sənədləşdirmə sisteminin və onun bütün istehsal bölmələri üçün ümumi olan texniki siyasətin həyata keçirilməsini nəzərdə tutur. Müəssisənin istehsal-texniki vəhdətliyini xarakterizə edən digər mühüm cəhət ondan ibarətdir ki, həmin müəssisənin sex və istehsal sahələrində eynicinsli texnoloji proseslər tətbiq olunur və bunların əsasında müəssisənin bölmələrində eyni məhsulun ya müxtəlif növləri, yaxud müxtəlif ölçülü hissələri hazırlanır. İstehsal-texniki vəhdətlik, həmçinin müəssisənin maddi-texniki bazası ilə də müəyyən edilir.

***Təşkilati-inzibati vəhdətlik*** – o deməkdir ki, müəssisələrdə birləşmiş işçi kollektivi həmin müəssisəni idarə edən vahid bir rəhbərə tabedir, öz işini dövlət tapşırıqları və istehlakçıların sifarişləri (müqavilələri) əsasında sərbəst surətdə qurur.

***İqtisadi vəhdətlik*** – müəssisənin istehsal, maliyyə və təsərrüfat fəaliyyətinin birliyini (vəhdətliyini) nəzərdə tutur. Başqa sözlə, iqtisadi vəhdətlik o deməkdir ki, eyni sənaye sahəsinə mənsub olan müəssisələrin istehsal-təsərrüfat fəaliyyətinin nəticələri eyni göstəricilər sistemi ilə xarakterizə olunur.



Müəssisələr yaradılarkən onların qarşısında, əsasən, aşağıdakı vəzifələr qoyulur:

a) ən az xərclə, daha yüksək son nəticələrə nail olmaq. ***İstehsalın son nəticələri*** dedikdə, istehsal-təsərrüfat fəaliyyətinin yekunları nəzərdə tutulur və onun səmərəliliyini, ictimai tələblərə və ehtiyaclara uyğun gəlməsini ifadə edir. Xalq təsərrüfatı, sahə, iqtisadi rayon və müəssisə səviyyələrindəki istehsalın son nəticələri fərqləndirilir. Xalq təsərrüfatı miqyasında istehsalın son nəticələri ən az ehtiyat sərf etməklə yaradılan milli gəlirin kəmiyyəti ilə səciyyələnir. Sahə və müəssisə səviyyəsində istehsalın son nəticələrini əks etdirən ən mühüm göstəriciləri – müqavilələr üzrə malgöndərmə tapşırıqlarının (sifarişlərin) tam yerinə yetirilməsindən, əmək kollektivlərinin sərəncamına daxil olan mənfəətin həcmindən, əmək, material və maliyyə ehtiyatlarından istifadənin səmərəliliyindən ibarətdir;

b) buraxılan məhsulların keyfiyyətini müntəzəm surətdə yaxşılaşdırmaq və onların rəqabət qabiliyyətini artırmaq, yeni növ məhsulların hazırlanmasını və mənimsənilməsini təmin etmək. ***Rəqabət qabiliyyətli məhsul*** dedikdə, bazarda təyinatına görə oxşar olan məhsullar içərisində yüksək istehlak xassələri ilə fərqlənən və bunun da nəticəsində daha çox tələb olunan məhsullar nəzərdə tutulur;

c) istehsalın texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi əsasında əmək məhsuldarlığının yüksəldilməsinə və fondveriminin artırılmasına nail olmaq;

ç) elmi cəhətdən əsaslandırılmış norma və normativləri işləyib hazırlamaq, lazım gələrsə, onlara yenidən baxmaq və müəssisə miqyasında normalaşdırma işlərini təkmilləşdirmək, materialın məsrəf normalarını işləyib hazırlayarkən mütərəqqi üsullardan istifadə etmək;

d) dövlət tapşırıqlarının və istehlakçıların sifarişlərinin (müqavilələrin) vaxtında və tələb olunan həcmdə və keyfiyyətdə yerinə yetirilməsini təmin edən təşkilati-texniki, iqtisadi və digər növ tədbirləri işləyib hazırlamaq, onların yerinə yetiril-

məsini təmin etmək;

e) müəssisənin rentabelli, gəlirli işləməsini təmin etmək, maddi-enerji, əmək və maliyyə ehtiyatlarından səmərəli istifadə etməklə məhsulun maya dəyərinin aşağı salınmasına nail olmaq;

ə) əmək kollektivinin iş (əmək) şəraitini yaxşılaşdırmaq və sosialyönümlü təşkilati-texniki və iqtisadi tədbirləri işləyib hazırlamaq və həyata keçirmək. İş (əmək) şəraitinə texnoloji, təşkilati və təbii amillər təsir göstərir.

## 6.4. Bazar iqtisadiyyatı şəraitində müəssisələrin yaradılmasının hüquqi-təşkilati formaları və təsnifatı

İqtisadiyyatın müxtəlif sahələrində istehsal prosesləri və onların həyata keçirilməsi şəraiti, üsulu və formaları, texnika və texnologiyası bir-birindən fərqləndiyinə görə müəssisələr də hazırladıqları məhsulların, göstərdikləri xidmətlərin və yerinə yetirdikləri işlərin iqtisadi təyinatına, mürəkkəblik dərəcəsinə və məzmununa görə bir-birilərindən fərqlənirlər. Belə bir hal onların təşkilini, fəaliyyətinin tənzimlənməsini və idarə edilməsini müəyyən qədər çətinləşdirir. Odur ki, bəzi əlamətlərə görə müəssisələri təsnifləşdirmək lazım gəlir. Bazar iqtisadiyyatı şəraitində müəssisələr, adətən, təsərrüfat fəaliyyətinin növü və xarakterinə, hüquqi vəziyyətinə, mülkiyyət xarakterinə, kapital və nəzarət mənsubiyyətinə, fəaliyyət dairəsinə görə təsnifləşdirilir.

***Təsərrüfat fəaliyyətinin növü və xarakterinə görə*** müəssisələr sənaye, ticarət, nəqliyyat, sığorta və nəqliyyat-ekspeditor müəssisələrinə ayrılır. Göstərilən müəssisələrin bir qisminin fəaliyyəti dövlət tərəfindən (əgər müəssisə dövlətə məxsusdursa), digər qismi isə təsisçilər (sahibkarlar) tərəfindən tənzimlənir.

***Sənaye müəssisələri*** – sənayenin müxtəlif sahələrində yaradılır və fəaliyyət göstərir. Sənaye müəssisəsi sənayenin ilk pilləsi olub, sərbəst təsərrüfatçılıq vahididir. Hazırda sənaye müəssisələrinin bir qismi dövlətə (orta və iri müəssisələrin bəziləri hələlik tam özəlləşdirilmədiyindən), digər qismi isə təsisçilərə məxsusdur (cədvəl 49).



Cədvəl 49

***Mülkiyyət formalarına görə sənaye müəssisələrinin sayı, vahid***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Bütün mülkiyyət formaları üzrə o cümlədən: | 1974 | 2178 | 2357 | 2421 | 2439 |
| Dövlət mülkiyyəti | 750 | 676 | 779 | 796 | 758 |
| Qeyri-dövlət mülkiyyəti ondan: | 1224 | 1502 | 1578 | 1625 | 1681 |
| xüsusi mülkiyyətli | 887 | 950 | 1391 | 1433 | 1486 |
| kollektiv mülkiyyətli | 206 | 267 | – | – | – |
| birgə mülkiyyətli | 78 | 156 | 103 | 95 | 99 |
| xarici mülkiyyətli | 51 | 129 | 84 | 97 | 96 |

***Ticarət müəssisələri*** – əmtəələrin alqı-satqısı üzrə əməliyyatları həyata keçirirlər. Ticarət müəssisələri ya sırf ixtisaslaşdırılmış, ya da geniş nomenklaturalı (çeşidli) əmtəələr satan müəssisələr kimi fəaliyyət göstərirlər. Ticarət müəssisələrinin iki növünü: pərakəndə və topdansatış ticarət müəssisələrini fərqləndirirlər.

***Sığorta müəssisələri*** – beynəlxalq daşımalarında yüklərin, eyni zamanda hüquqi və fiziki şəxslərin əmlaklarının sığortalanması ilə əlaqədar olan fəaliyyət növlərini həyata keçirirlər.

***Nəqliyyat-ekspeditor müəssisələri*** – məhsulların istehlakçılara çatdırılması ilə məşğul olurlar. Özü də bu növ müəssisələrin funksiyaları olduqca müxtəlifdir. Buraya taraların qablaşdırılması və vəziyyətinin yoxlanılması, əmtəə-göndərmə sənədlərinin hazırlanması və rəsmiləşdirilməsi, yükləmə-boşaltma işlərinin təşkili, kiçik göndərmələrin komplektləşdirilməsi, yükün gətirilməsi haqqında yükqəbuledicilərin məlumatlandırılması, kommersiya aktlarının alınması, gömrük sənədləşdirilməsinin həyata keçirilməsi, konteyner daşımalarının təşkili, sanitar-gigiyena nəzarəti və s. daxildir.

Müasir dövrdə iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən müəssisələr arasında sənaye müəssisələri əksəriyyət təşkil edir. Sənaye müəssisələri aşağıdakı əlamətlərə görə təsnifləşdirirlər:

***a) buraxılan məhsulun iqtisadi təyinatına görə*** – sənaye

müəssisələri iki əsas qrupa: istehsal vasitələri istehsal edən sənaye müəssisələrinə və istehlak şeyləri istehsal edən sənaye müəssisələrinə ayrılır. İstehsal vasitələri istehsal edən sənaye müəssisələrinə misal olaraq, ağır sənaye müəssisələrini (məsələn, maşınqayırma zavodlarını); istehlak şeyləri istehsal edən sənaye müəssisələrinə isə, əsasən, yüngül və yeyinti sənaye müəssisələrini göstərmək olar;

***b) istehsal etdikləri xammal və materialın xarakterinə görə*** – hasiledici və emaledici sənaye müəssisələri fərqləndirilir. Hasiledici sənaye müəssisələri təbiətin vermiş olduğu sərvətləri əldə edirlər. Bu növ sənaye müəssisələrinə misal olaraq, neft, qaz, filiz və s. hasil edən müəssisələri göstərmək olar. Emaledici sənaye müəssisələri əldə edilmiş xammalı emal prosesindən keçirərək, onların forma və ölçülərini dəyişir və istehlakçıların tələbatını ödəyən şəklə, hala salır. Emaledici sənaye müəssisələrinə misal olaraq neft-qazayırma zavodlarını, metallurgiya kombinatlarını, balıq emalı zavodlarını və s. göstərmək olar;

***c) istehsalın təşkili tipinə görə*** – sənaye müəssisələri üç cür olurlar: kütləvi, seriyalı və fərdi. Kütləvi istehsal tipli müəssisələrdə çoxlu miqdarda yekcins və daima təkrarlanan məhsullar istehsal edilir; seriyalı tipli müəssisələrdə – məhsullar müəyyən seriyalarla (partiyalarla) buraxılır və çox vaxt onlar təkrarlanmır; fərdi tipli müəssisələrdə geniş nomenklaturada və bəzən təkrarlanmayan məhsullar hazırlanır;

***ç) istehsal mərhələsini əhatə etməsinə görə*** – sənaye müəssisələri üç qrupa ayrılır: məhsulun hazırlanmasının bir mərhələsini əhatə edən müəssisələr. Belə müəssisələrə misal olaraq, metaləritmə, porşen, şin, diyircək, karbürator və s. bu kimi məmulatlar istehsal edən zavodları göstərmək olar; istehsalın iki və ya daha çox mərhələsini əhatə edən müəssisələr. Bu növ müəssisələrə misal olaraq, əyirmə, toxuma və bəzəkvurma sexləri olan toxuculuq fabriklərini göstərmək olar; məhsulun hazırlanmasının bütün mərhələlərini əhatən edən müəssisələr. Belə müəssisələrə misal olaraq, avtomobil, traktor, soyuducu və s. bu kimi tamamlanmış məhsullar hazırlayan müəssisələri göstərmək olar;

***d) istehsalın təşkili üsuluna görə*** – fərdi, dəstəli və axınlı istehsal üsuluna malik olan sənaye müəssisələri fərqləndirilir.



Bunlardan axınlı istehsal üsulu ilə təşkil edilmiş müəssisələr iqtisadi cəhətdən daha əlverişlidir. Axınlı istehsal üsulla təşkil edilmiş müəssisələrə misal olaraq, maşınqayırma zavodlarını, metallurgiya və kimya kombinatlarını və s. göstərmək olar;

***e) mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsinə görə*** – sənaye müəssisələri üç qrupa: qismən mexanikləşdirilmiş, kompleks mexanikləşdirilmiş və avtomatlaşdırılmış müəssisələrə ayrılır. Qismən mexanikləşdirilmiş müəssisələrdə, bir qayda olaraq, əl əməyinin payı xeyli saxlanılır, texnoloji prosesin əsas və ən çox əməktutumlu əməliyyatları mexanikləşdirilir. Kompleks mexanikləşdirilmiş müəssisələrdə həm əsas, həm də köməkçi əməliyyatlar texniki vasitələrin köməyi ilə həyata keçirilir. Avtomatlaşdırılmış müəssisələrdə istehsal prosesi insanın bilavasitə iştirakı olmadan həyata keçirilir.

Xalq istehlakı mallarının geniş əhali kütləsinə satışı pərakəndəsatış müəssisə və təşkilatları tərəfindən həyata keçirilir. Bazar iqtisadiyyatı şəraitində müəssisələr arasında pərakəndəsatış müəssisələri ikinci yeri tutur. ***Pərakəndəsatış müəssisələrinin aşağıdakı növlərini fərqləndirirlər:***

***Özünəxidmət pərakəndəsatış müəssisələri*** – istənilən güzəştli ticarətin təməlini təşkil edir. Hazırda bir çox inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində, o cümlədən də Azərbaycanda bu növ müəssisələrin sayı əksəriyyət təşkil edir.

***Əmtəələr sərbəst seçilən pərakəndəsatış müəssisələri*** – ticarətin daha mədəni növü sayılır. Çünki belə müəssisələrdə müştəri, alıcı satıcıya yanaşıb onunla aldığı məhsula görə hesablaşmaqla sövdələşməni başa çatdırır.

***Məhdud xidmət göstərən pərakəndəsatış müəssisələri*** – alıcıya ticarət heyəti tərəfindən nisbətən yüksək səviyyəli yardım təklif edirlər, çünki belə müəssisələrdə qabaqcadan seçilən əmtəələr satılır və alıcıya əmtəələr haqqında daha çoxlu informasiyalar tələb olunur.

***Tam xidmət göstərən pərakəndəsatış müəssisələri*** – alıcıya əmtəənin axtarılması, müqayisəsi və seçilməsi prosesinin bütün mərhələlərində şəxsən yardım göstərməyə hazır olan satıcılara malikdir. Belə müəssisələrin əsas növlərini ixtisaslaşdırılmış dükanlar, univermaqlar, universamlar və s. təşkil edir.

***Ticarət kompleksləri*** – öz ölçülərinə görə ən iri ticarət mü-

əssisələrindən ibarətdir. Hər bir ticarət kompleksi özündə bir neçə dükanı, universamı, univermağı və s. birləşdirir.

***Xidmətlər üzrə pərakəndə ticarət müəssisələri*** – dedikdə, mehmanxanalarda, motellərdə, aviaşirkətlərdə, kinoteatrlarda, dəmiryol stansiyalarında, xəstəxanalarda və s. ticarəti həyata keçirən satış xidmətləri nəzərdə tutulur.

***Ticarət mərkəzləri*** – çoxlu miqdarda ticarət müəssisələrini, dükanları, universamları və s. birləşdirir. Ticarət mərkəzləri, əsasən, əhalinin sıx yaşadığı yerlərdə, məsələn, mikrorayonlarda, rayon mərkəzlərində yaradılır.

***Topdansatış ticarət müəssisəsi*** – özündə yenidən satmaq və ya peşəkar istifadə üçün alanlara əmtəə və ya xidmətlərin satılması üzrə bütün fəaliyyət növlərini birləşdirir. Bütün topdansatış ticarətçilərini aşağıdakı dörd qrupa ayırmaq olar:

***a) topdansatış ticarətçilər*** – əmtəə üzərində mülkiyyət hüququnu əldə edirlər. Topdansatış ticarətçilər özləri də iki qrupa ayrılır: birincisi, tam xidmət silsiləsi olan topdansatış ticarətçiləri – əmtəə ehtiyatlarının saxlanılması, istehlakçılara çatdırılması, kreditləşdirmə və idarəetmə üzrə xidmətlər təklif edirlər. Öz xidmətlərinə görə bunlar ya topdansatış tacirləri, ya da sənaye təyinatlı əmtəələrin distributorlarıdır (***Distributor*** – istehsalçı müəssisələrlə müştərilər arasında əlaqə yaradandır). Topdansatış tacirləri, əsasən, pərakəndəsatış müəssisələri ilə alver apararaq, onlara tam xidmətlər dəsti təklif edirlər. Onlar bir-birindən yalnız əmtəələr dəstinin çeşid genişliyi ilə fərqlənirlər; ikincisi, məhdud xidmət silsiləsi olan topdansatış tacirləri – öz malgöndərənlərinə və müştərilərinə az sayda xidmətlər göstərirlər;

***b) brokerlər və agentlər*** – topdansatış tacirlərindən iki əlamətə: əmtəəyə sahiblik hüququnu öz üzərilərinə götürmələri və məhdud sayda funksiya yerinə yetirmələrinə görə fərqlənirlər. Onların əsas funksiyası alqı-satqıya yardım göstərməkdir. Öz xidmətlərinə görə onlar əmtəənin satış qiymətinin 2%-dən 6%-dək həcmində komissiya mükafatı alırlar. Topdansatış tacirləri kimi, onlar da ya təklif edilən əmtəə çeşidinin, ya da xidmət göstərdikləri müştərilərin tipinə görə ixtisaslaşırlar. Bazar iqtisadiyyatı ölkələrində ümumi topdansatış dövriyyəsinin təqribən 10%-i broker və agentlərin payına düşür. ***Brokerin əsas funksiyası*** – alıcı ilə satıcını calaşdırmaq və onların sazişə gəlmələrinə yardım göstərməkdir. Brokerin əmək haqqını onu bu işə cəlb edən ödəyir. Broker əmtəə ehtiyatları saxlamır, sazişlərin maliyyələşdirilməsində iştirak etmir, öz üzərinə heç bir risk qəbul etmir. Ən tipik nümunə kimi ərzaq məhsulları üzrə brokerləri, əmlak əməliyyatları üzrə brokerləri, sığorta brokerlərini və qiymətli kağızlarla əməliyyatlar üzrə brokerləri göstərmək olar. ***Agentlərin əsas funksiyası*** alıcı və satıcılara uzun müddət müvəkkillik etməkdən ibarətdir. Agentlərin aşağıdakı növlərini fərqləndirirlər: istehlakçı agentləri; satış üzrə səlahiyyətli agentlər; tədarük üzrə agentlər; topdansatış agentlər və s.;



***c) istehsalçıların topdansatış şöbələri və kontorları*** – satıcı və alıcıların azad topdansatış tacirlərini cəlb etmədən müstəqil surətdə həyata keçirdikləri əməliyyatlardan ibarətdir. Belə fəaliyyətlə məşğul olan müəssisələrin iki növünü: satış şöbələri (kontorları) və tədarük şöbələri (kontorları) fərqləndirirlər;

***ç) ixtisaslaşdırılmış topdansatış tacirləri*** – iqtisadiyyatın bir çox sahələrində yaradılır və fəaliyyət göstərirlər. Topdansatış tacirləri istehsalçılardan (məsələn, fermerlərdən, neft-bazalardan və s.) məhsulları satın alıb, istehlakçı müəssisələrə (məsələn, yeyinti sənaye müəssisələrinə, çörəkbişirmə zavodlarına, yanacaqdoldurma stansiyalarına və s.) satır və çatdırırlar.

***Müəssisələrin hüquqi vəziyyətinə görə*** – təsnifatı hansı müəssisənin nə dərəcədə məsuliyyət daşıdığını müəyyən etməyə imkan verir. Müqavilə və sazişlər bağlamaq üçün müəssisə kollektivi adından kimə səlahiyyət verilməsi müəssisələrin hüquqi vəziyyətindən bilavasitə asılıdır. Məlumdur ki, müəssisə hüquqi şəxsdir, müəyyən əmlaka malikdir, ondan istifadə və onu idarə edir, müstəqil balansı var, istehsal-təsərrüfat fəaliyyətinin nəticəsi olan mənfəəti və ziyanı aşkar edə biləcək uçotu və hesabatı aparır. Müəssisələr hüquqi şəxs kimi, dövlət tapşırıqları və istehlakçıların sifarişləri (müqavilələri) əsasında öz planlarını, proqramlarını işləyib hazırlayır və onu həyata keçirirlər. Hüquqi vəziyyətinə görə müəssisələr iki qrupa: fərdi müəssisələrə və müəssisə birliklərinə ayrılır.

***Mülkiyyət xarakterinə görə*** – müəssisələr dörd qrupa: dövlət, xüsusi, xarici və qarışıq tipli müəssisələrinə ayrılır. Dövlət müəssisələri dövlət əmlakı, xüsusi və xarici müəssisələr milli

və xarici ölkələrin fiziki şəxslərinin əmlakı, qarışıq müəssisələr isə iki və daha çox ölkələrin fiziki şəxslərinin əmlakı əsasında yaradılır və ona görə də həmin müəssisələrin fəaliyyəti təsisçilər və dövlət tərəfindən tənzimlənir. Xüsusi müəssisələrə kartel, sindikat, trest, konsern, maliyyə qrupları və s. aiddir. Dövlət müəssisələrinin iki növünü fərqləndirirlər: əmlakı tamamilə dövlət mülkiyyətinə əsaslanan müəssisələr və səhmlərinin nəzarət paketi dövlət orqanlarına məxsus olan müəssisələr. Qarışıq müəssisələrə misal olaraq ARDNŞ ilə xarici ölkələrin neft şirkətləri əsasında yaradılmış müəssisələri göstərmək olar.

***Kapital və nəzarət mülkiyyətinə görə*** – müəssisələr üç qrupa ayrılır: milli, xarici və qarışıq. Ümumxalq mülkiyyətinə əsaslanan müəssisələr milli, xarici ölkələrin sahibkarlarının kapitalı əsasında yaradılan və onların nəzarəti altında fəaliyyət göstərən müəssisələr xarici, iki və daha çox ölkənin kapitalları əsasında yaradılan müəssisələr isə qarışıq müəssisələr adlanır. Qarışıq müəssisələrə misal olaraq, müştərək və kiçik müəssisələri göstərmək olar.

***İl ərzində fəaliyyət göstərmə müddətinə görə*** – müəssisələr bütün il boyu fasiləsiz işləyən (məsələn, neftayırma zavodları, toxuculuq fabrikləri və s.), fasiləli işləyən (məsələn, maşınqayırma zavodları) və mövsümi işləyən (məsələn, pambıqtəmizləmə, şəkər, konserv, balıq emalı və s. zavodlar) müəssisələrə ayrılır.

***Miqyasına görə*** – müəssisələr kiçik, orta və iri müəssisələr qrupuna bölünürlər. Son illərə kimi Azərbaycan Respublikasında bütün müəssisələrin təqribən 60-70%-i iri və orta müəssisələr təşkil edirdi. Respublikamız müstəqillik əldə etdikdən sonra isə kiçik müəssisələrin sayı xeyli çoxalmış, orta və iri müəssisələrin sayı isə azalmışdır. Kiçik sahibkarlığı maliyyə köməyi mexanizminin formalaşması və sahibkarlıq üçün vergi yükünün azaldılması kiçik sahibkarlığın sabit inkişafına kömək etmişdir. Ölkədə fəaliyyət göstərən müəssisələrin ümumi sayının 81%-ni kiçik müəssisələr təşkil edir, onların əsas hissəsi ticarət və kənd təsərrüfatı sahələrində fəaliyyət göstərirlər. İqtisadiyyatın sahələri üzrə fəaliyyət göstərən kiçik müəssisələrin sayı cədvəl 50-də verilmişdir.



*Cədvəl 50*

***İqtisadiyyatın sahələri üzrə fəaliyyət göstərən kiçik müəssisələrin sayı, vahid***

| İllər | Cəmi | o cümlədən: | | | | |
|---|---|---|---|---|---|---|
| | | Sənaye | Tikinti | Ticarət | Nəqliyyat | Xidmət sahəsi |
| 1995 | 726 | 825 | 461 | 4254 | 29 | 468 |
| 1997 | 16027 | 1696 | 940 | 8313 | 200 | 2264 |
| 1998 | 16504 | 1450 | 1068 | 8476 | 227 | 2927 |
| 1999 | 19063 | 1518 | 792 | 7105 | 206 | 6647 |
| 2000 | 24254 | 1414 | 724 | 11062 | 279 | 7803 |
| 2001 | 25121 | 1486 | 897 | 14224 | 338 | 3464 |
| 2002 | 25113 | 2201 | 971 | 13215 | 396 | 2883 |
| 2003 | 21178 | 1960 | 1129 | 10351 | 386 | 1751 |
| 2004 | 19462 | 1966 | 1236 | 9485 | 421 | 1255 |

***İxtisaslaşdırılma dərəcəsinə görə*** – müəssisələr ixtisaslaşdırılmış, universal və qarışıq müəssisələr qrupuna ayrılır. İxtisaslaşdırılmış müəssisələrdə hazırlanma texnologiyasına və konstruktiv quruluşuna görə eynicinsli və istehsalı daima təkrarlanan məmulatlar hazırlanırsa, universal müəssisələrdə bir neçə adda məmulatlar hazırlanır və bəzi hallarda onların istehsalı təkrarlanmır, yəni universal müəssisələrdə məhsullar seriyalarla, partiyalarla buraxılır. Qarışıq müəssisələrin istehsal bölmələrinin bir qismi ixtisaslaşdırılmış, digər qismi isə universal xarakter daşıyır.

Məlumat üçün qeyd edək ki, ölkənin sosial-iqtisadi tərəqqisində müasir dövrün tələblərinə cavab verən yeni müəssisələrin yaradılması mühüm rol oynamışdır. Odur ki, əvvəlki illərdə olduğu kimi, 2003-cü ildə iqtisadiyyatda fasiləsiz davam edən islahatlara paralel olaraq, yeni müəssisə və təşkilatların yaradılması prosesi davam etmiş, dövlət mülkiyyətində olan müəssisələrin bir qismi özəlləşdirilərək xüsusi bölməyə keçmiş, onların strukturunda dəyişikliklər baş vermiş, bazar iqtisadiyyatının tələblərinə və rəqabətə davam gətirə bilməyən hüquqi şəxslərin bir hissəsi isə ləğv olunmuşdur. 2003-cü ildə hüquqi şəxslərin sayı 3,4% artaraq 2004-cü il yanvarın 1-nə 61136-a çatmışdır.

2003-cü ildə 3936 yeni müəssisə yaradılmış, onların 38,9%-i

«Topdan və pərakəndə ticarət; avtomobillərin, məişət məmulatlarının və şəxsi istifadə əşyalarının təmiri» və 12%-i «Tikinti» bölmələrinin payına düşür. Yeni yaradılmış müəssisələrin tərkibində 100%-li xarici investisiyalı müəssisələrin sayı 6,8%, xüsusi mülkiyyətli müəssisələrin sayı 6,3%, birgə müəssisələrin sayı 2,4% artmış, dövlət mülkiyyətli müəssisələrin sayı isə 2,9% azalmışdır.

### 6.5. Müasir dövrdə müəssisələrin yaradılması və ləğvi qaydaları

«Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanununda göstərilir ki, müəssisə əmlak mülkiyyətçisinin, yaxud onun vəkil etdiyi təşkilatın qərarı ilə bu qanunla və Azərbaycan Respublikasının digər qanunvericilik aktları ilə nəzərdə tutulan qaydada yaradıla bilər. Müəssisə mülkiyyətçinin və ya onun vəkil etdiyi təşkilatın razılığı olduqda və müəssisə tərəfindən götürülən öhdəliklərin yerinə yetirilməsi təmin edildikdə fəaliyyət göstərən müəssisənin tərkibindən bir və ya bir neçə struktur bölmənin ayrılması nəticəsində, habelə fəaliyyət göstərən birliklərin struktur vahidlərinin bazasında da yaradıla bilər.

«Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanununa görə müəssisənin təsisçisi kimi Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş hallarda və qaydada aşağıdakılar ola bilər: dövlət əmlakını idarəetməyə vəkil edilmiş dövlət orqanları (məsələn, Dövlət Əmlak Nazirliyi); Azərbaycan Respublikasının fiziki və hüquqi şəxsləri; xarici dövlətlər; xarici dövlətlərin vətəndaşları və hüquqi şəxsləri, vətəndaşlıq hüquqi olmayan şəxslər; beynəlxalq təşkilatlar. Bütün hallarda müəssisə bir, yaxud bir neçə təsisçi tərəfindən bu qanunla müəyyən olunmuş qaydada yaradılır. Müəssisə yaradılarkən təsisçilər, habelə müəssisə və təsisçi arasında qarşılıqlı münasibətləri tənzimləmək məqsədilə təsis müqaviləsi tərtib olunur. Müəssisənin təsis müqaviləsində müəssisənin adı və növü, təsisçilər haqqında məlumatlar, nizamnamə fondu, hər bir təsisçinin bu fonddakı payı, öhdəliklər, mənfəətin (təsərrüfat hesablı gəlirin) bölüşdürülməsi qaydası və s. göstərilir. Fərdi və dövlət müəssisələri təsis edilərkən təsis müqaviləsi tərtib olunmur. Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bəzi müəssisələrin yaradılması texnologiyasını nəzərdən keçirək.



Qeyd etdiyimiz kimi, fərdi müəssisələr vətəndaşın və onların ailə üzvlərinin ümumi pay mülkiyyətində olan müəssisələrdir. Fərdi müəssisə vətəndaşın, ya da ailə üzvlərinin başqa mülkiyyətçilərə məxsus olan müəssisələrin satın alınması yolu ilə də yaradıla bilər. Bu növ müəssisələrin mülkiyyətçiləri müəssisənin öhdəliklərinin yerinə yetirilməsinə görə öz əmlakları həcmində Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulan qaydada məsuliyyət daşıyırlar.

Müəssisələr birlikləri həmin birliyin tərkibinə daxil edilmiş müəssisələrin fəaliyyətinin əlaqələndirilməsi, hüquqlarının və onların hər birinin mənafelərinin müdafiə edilməsi, ümumi mənafelərin dövlət və digər orqanlarda, həmçinin beynəlxalq təşkilatlarda təmsil olunması və başqa məsələlər ilə könüllülük əsasında sahə, ərazi və başqa prinsiplərə əsasən ittifaqlar, konsernlər, şirkətlər və başqa birliklər yarada bilərlər. Birlik təsisçilərin təsdiq etdikləri nizamnamə əsasında fəaliyyət göstərir. Birlik hüquqi şəxsdir, bank idarələrində onun hesablaşma hesabı və digər hesablaşmaları, öz adını göstərən, təsdiqləyən möhürü vardır. Birlik onun tərkibinə daxil olan müəssisələrin öhdəlikləri, müəssisələr isə – birliyin öhdəlikləri üçün, əgər nizamnamədə (təsis müqaviləsində) digər qaydalar nəzərdə tutulmayıbsa, cavabdeh deyildir. Birliyin tərkibinə daxil olan müəssisələr onun tərkibindən çıxmaq hüququna malikdirlər. Bu halda birliyin tərkibindən çıxmaq istəyən müəssisə bağlanmış müqaviləyə görə birliyə daxil olan digər müəssisələr qarşısında öz öhdəliklərini saxlayır. Birlik onun tərkibinə daxil olan müəssisələrin qərarına əsasən ləğv edilə bilər. Birliyin ləğvi «Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanunu ilə müəssisələrin ləğvi üçün müəyyən edilmiş qaydada həyata keçirilir. Birliyin ləğvindən sonra qalmış əmlak, birliyin Nizamnaməsinə uyğun olaraq onun iştirakçıları arasında bölüşdürülür.

***Dövlət müəssisələri*** – dövlət mülkiyyəti əsasında yaradılır və onun fəaliyyəti dövlət orqanları tərəfindən tənzimlənir. Hazırda dövlət müəssisələri respublikanın iqtisadi potensialının inkişafında mühüm rol oynayır. Bu onunla izah edilir ki, hələlik

orta və iri müəssisələr dövlətə məxsusdur. Dövlət müəssisələri dövlət tərəfindən onlara təhkim edilmiş əmlak üzərində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş qaydada və hüdudlarda sahiblik, istifadə etmək və sərəncam vermək səlahiyyətlərini həyata keçirir. Dövlət müəssisələri öz öhdəliklərinə görə qanunvericiliklə müəyyən edilmiş qaydada müəssisələrin əmlakı həcmində məsuliyyət daşıyır, yəni dövlət müəssisənin öhdəliklərinə görə, eyni zamanda müəssisə də dövlətin öhdəlikləri üçün məsuliyyət daşımır. Dövlət müəssisələri, əsasən, dövlət tapşırıqları və sifarişləri əsasında öz planlarını işləyib hazırlayır və həyata keçirirlər.

***Kooperativ müəssisələr*** «Kooperasiya haqqında» Azərbaycan Respublikasının qanununa müvafiq olaraq istehsal, elmi-istehsal, tikinti, ticarət-satınalma, xidmət və s. fəaliyyət növləri ilə məşğul ola bilərlər. Kooperativlər şəriklilik əsasında yaradılır. Kooperativlərin nəzdində «Qız» firmaları və digər filiallar fəaliyyət göstərə bilərlər. Bundan başqa, kooperativlər öz maliyyə vəziyyətlərini yaxşılaşdırmaq və elmi-texniki nailiyyətlərdən tez istifadə etmək üçün qiymətli kağızlar (məsələn, səhmlər) buraxa bilərlər. Kooperativlər rayon icra hakimiyyətinin razılığı ilə yaradılır və orada qeydiyyatdan keçir.

***Şərikli (tam ortaqlı) müəssisələr*** – azı iki fiziki və hüquqi şəxs tərəfindən müqavilə əsasında təsis edilir (yaradılır). Müəssisənin şərikləri onun öhdəliklərinin yerinə yetirilməsinə görə özlərinin bütün əmlakı ilə məsuliyyət daşıyırlar. Fəaliyyət göstərən müəssisəyə sonradan daxil olan şərik də müəssisənin əvvəlki borclarına (əgər müəssisənin fəaliyyəti nəticəsində belə bir borc yaranmışdırsa) görə bütün əmlakı ilə məsuliyyət daşıyır. Müəssisədən çıxan şərik həmin vaxta qədər müəssisənin fəaliyyəti nəticəsində yaranmış borclara görə digər iştirakçılarla birlikdə bütün əmlakı ilə məsuliyyət daşıyır. Digər tərəfdən, şərik müəssisədən çıxdıqda öz payını geri ala bilər. Şəriklərin razılığı ilə həmin pay müəssisənin digər şəriklərinə və ya kənar şəxslərə satıla, yaxud da verilə bilər. Müəssisənin şərikləri payın alınmasında üstün hüquqa malikdirlər. Pay satılmadıqda müəssisənin nizamnamə fondunun həcmi onun məbləğinə uyğun olaraq azaldılır. Müəssisənin şəriklərindən biri, yaxud bir neçəsi vəfat etdikdə, hüquqi şəxs olan şərik isə ləğv edildikdə onun (onların) varisi şərik kimi müəssisəyə qəbul edilir.



***Payçı müəssisə*** – azı bir şərik və bir payçı tərəfindən təsis edilir. Şərik və payçı həm fiziki, həm də hüquqi şəxs ola bilər. Şərik müəssisənin öhdəliklərinə və borclarına görə özünün bütün əmlakı ilə, payçı isə yalnız müəssisəyə verdiyi, qoyduğu pay həcmində məsuliyyət daşıyır. Fəaliyyət göstərən müəssisəyə daxil olan yeni şərik (şəriklər) müəssisənin həmin vaxta kimi olan borclarına görə bütün əmlakı ilə məsuliyyət daşıyır. Müəssisənin idarə heyəti üzvlərinin seçilməsində və onların səlahiyyətlərini müəyyənləşdirən Nizamnamə müddəalarının qəbul edilməsində yalnız şəriklərin səs vermək hüququ vardır. Payçı və şərik müəssisədən çıxdıqda öz payını geri ala bilər. Şəriklərin razılığı ilə həmin pay müəssisənin digər şəriklərinə və ya kənar şəxslərə satıla, yaxud verilə bilər. Müəssisənin şərikləri, payçıları payın alınmasında üstün hüquqa malikdirlər. Pay satılmadığı halda, müəssisənin Nizamnamə fondunun həcmi onun məbləğinə uyğun olaraq azaldılır. Müəssisənin payçı və şəriklərindən biri, yaxud bir neçəsi vəfat etdikdə, hüquqi şəxs olan şərik isə ləğv edildikdə, onun (onların) varisi müvafiq olaraq payçı və ya şərik kimi müəssisəyə qəbul edilir.

***Məhdud məsuliyyətli müəssisə*** – bir və ya bir neçə fiziki və yaxud hüquqi şəxs tərəfindən yaradılan, Nizamnamədə müəyyən edilmiş həcmdə fondu təsis müqaviləsi ilə paylara bölünən müəssisədir. Müəssisənin təsisçiləri onun öhdəliklərinə görə ancaq Nizamnamə fondundakı payları həcmində məsuliyyət daşıyırlar. Müəssisənin Nizamnamə fondunda nəzərdə tutulan pay şərik tərəfindən qismən ödənildikdən, müəssisənin öhdəliklərinə görə həmin şərik payın qalan hissəsinin üzvlərinə düşən öhdəlik üçün özünün əmlakı ilə payın qalan hissəsi həcmində məsuliyyət daşıyır. Şərik müəssisədən çıxdıqda öz payını geri alır. Əgər payçı öz payını geri almazsa, onda şəriklərin razılığı ilə həmin pay müəssisənin şəriklərinə və ya kənar şəxslərə satıla, ya da verilə bilər. Müəssisənin şərikləri satılan payın alınmasında üstün hüquqa malikdirlər. Pay satılmadığı halda müəssisənin nizamnamə fondunun həcmi onun məbləğinə uyğun olaraq azaldılır. Müəssisənin şəriklərindən bir və ya bir neçəsi vəfat etdikdə, hüquqi şəxs olan şərik isə ləğv edildikdə, onun (onların) varisi şərik kimi müəssisəyə qəbul edilir. Müəssisənin

şəriki olan hər bir hüquqi şəxs öz hüquqi şəxs statusunu saxlayır.

***Səhmdar cəmiyyətləri*** – təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə Nizamnamə fondunu səhm buraxmaq yolu ilə fondlaşdıran fiziki və ya hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəssisədir. Səhmdar cəmiyyəti azı üç fiziki və ya hüquqi şəxs tərəfindən yaradılır (təsis edilir). Mövcud qanuna əsasən səhmdar cəmiyyətinin öhdəliklərinə görə səhmdarlar özlərinin verdikləri pay həcmində (onlara məxsus olan səhm paketi hüdudunda, məbləğində) məsuliyyət daşıyırlar. Səhmdar cəmiyyəti səhmdarların əmlak öhdəliklərinə görə məsuliyyət daşıyır. Adətən, səhmdar cəmiyyətləri ***«açıq tipli səhmdarlar cəmiyyəti»*** və ya ***«qapalı tipli səhmdarlar cəmiyyəti»*** formasında yaradılır. Cəmiyyətin üzvü olan hüquqi şəxslər öz hüquqi şəxs statusunu saxlayırlar.

***Konsern*** – formal olaraq müstəqil, üzərilərində maliyyə nəzarəti qoymaq yolu ilə bir sıra müəssisələri birləşdirən təsərrüfat formasıdır. O, bu müəssisələrin ziyanı, yaxud öhdəliyi üçün yalnız konsernin sahib olduğu səhm paketinin qiyməti çərçivəsində cavabdehdir. Bununla belə, nəzarət edilən müəssisələr üzərində real hakimiyyət konsernin tərkibinə daxil olan bütün müəssisələrin faktiki sahibi olan baş firmaya (müəssisəyə) məxsusdur. Konsern, adətən, müxtəlif sənaye sahələrinin müəssisələrini, ticarət təşkilatlarını, bankları, nəqliyyat və maliyyə kompaniyalarını birləşdirir.

***Sindikat*** – bazar iqtisadiyyatı ölkələrində ən geniş yayılmış təsərrüfatçılıq formalarından biridir. Sindikat yekcins əmtəələr istehsal edən müəssisələrin elə birliyidir ki, burada istehsal vasitələri sindikat iştirakçılarının öz mülkiyyətində qalır, istehsal olunmuş məhsul isə sindikatın mülkiyyəti olur və yaradılmış xüsusi kontor, idarə tərəfindən realizə edilir. Karteldən fərqli olaraq sindikat ayrı-ayrı müəssisələrin bazarla bilavasitə əlaqəsini kəsir. Sindikatlar, bir qayda olaraq, yekcins əmtəələrin kütləvi istehsal edildiyi sahələrdə yaradılır.

***Trest*** – sindikata nisbətən daha yüksək inhisar formasıdır ki, burada istehsal vasitələri üzərində mövcud sahibkarlar qrupunun birgə mülkiyyəti yaranır. Trestin təşkili zamanı müəssisənin sahibləri istehsal vasitələri üzərində mülkiyyətini, habelə texnologiya, patentlər və deməli, istehsal məhsulları üzərində də öz mülkiyyətini birliyə verir. Onlar verdikləri kapitalın



həcminə görə trestin səhmlərini alırlar və bununla da trestin idarə edilməsi və onun mənfəətindən müəyyən pay götürmək hüququnu almış olurlar. Sindikatlardan fərqli olaraq, trest üçün öz xarakterinə görə yekcins məhsullar buraxan müəssisələrin birləşməsi məcburi deyildir. Azərbaycan Respublikasında 60-cı illərədək neft sənayesində və tikintidə trestlərin yaradılmasına üstünlük verilirdi.

***Maliyyə qrupları*** – bir və ya bir neçə qarşılıqlı əlaqədə olan kapital sahibkarlarının nəzarəti altında olan sənaye, bank, sığorta, nəqliyyat, ticarət və başqa kompaniyaların məcmusundan ibarət olan maliyyə təşkilatıdır, birliyidir. Bu cür hər bir qrupun biznesi (sövdələşməsi) öz ölkəsinin çərçivəsi ilə məhdudlaşmır və bir qayda olaraq onun hüdudlarından kənara çıxır. Maliyyə qrupunun mərkəzində Baş müəssisə durur. İri bank, sənaye tresti, sığorta idarəsi, yaxud digər sahibkar kompaniyaları Baş müəssisə ola bilər. Maliyyə qruplarının hökmranlıq mexanizmi başlıca olaraq ***«iştirak sistemi»*** və ***«şəxsi uniyaya»*** əsaslanır. ***«İştirak sistemi»*** bir kompaniyanın bir neçə kompaniya üzərində onların səhmlərinin nəzarət paketlərini almaq yolu ilə nəzarəti ələ keçirməsidir. ***«Şəxsi uniya»*** «iştirak sistemi» ilə sıx surətdə bağlıdır. Bu onda ifadə olunur ki, hər bir maliyyə kapitalı, adətən, başqa kompaniyaların direktorları və idarə heyəti üzvlərinin tərkibinə daxil edilir, bununla belə iri bankların direktorları sənaye inhisarlarının idarə heyətinə daxil olurlar və əksinə. Kapital maqnatları arasında yaranmış qohumluq və işgüzarlıq əlaqələr «şəxsi uniya»nın mühüm tərəfi olub, bu və ya digər maliyyə qrupunun təsiri altında olan müəssisələrin dairəsini əhəmiyyətli dərəcədə genişləndirir.

«Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanununda ***törəmə müəssisələr, filiallar, nümayəndəliklər*** və müəssisələrin digər xüsusi bölmələri haqqında anlayışlar verilir, onların yaradılması qaydası müəyyənləşdirilmişdir. Qanunda göstərilir ki, mülkiyyətçinin və yaxud onun vəkil etdiyi orqanın razılığı ilə müəssisə törəmə müəssisələr və filiallar yarada bilər. Təsisçi törəmə müəssisələrin öhdəliklərinə, törəmə müəssisələr isə təsisçinin öhdəliklərinə görə, təsis sənədlərində başqa qayda nəzərdə tutulmamışdırsa, məsuliyyət daşımır.

Müəssisələrin dövlət qeydiyyatı Azərbaycan Respublikasının uçot vahidlərinin dövlət reyestrinə daxil edilmək üçün qey-

diyyat orqanları tərəfindən 10 gün ərzində Azərbaycan Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə və yeni yaradılacaq müəssisənin yerləşəcəyi rayonun (ərazinin) Dövlət Vergi Müfəttişliyi orqanına verilir. Qeydə alınmayan müəssisələrin fəaliyyəti qadağandır. Əgər müəssisə qeydə alınmadan müəyyən müddət fəaliyyət göstərmişdirsə, onda həmin müəssisənin fəaliyyəti nəticəsində əldə edilən gəlir, mənfəət qanunvericiliklə müəyyən edilmiş qaydada məhkəmənin qərarı ilə ondan alınır və yerli büdcəyə köçürülür. Müəssisənin dövlət qeydiyyatına alınması üçün təsisçi tərəfindən aşağıdakı sənədlər müvafiq dövlət orqanlarına təqdim edir:

– təsisçinin ərizəsi;

– yeni yaradılacaq müəssisənin Nizamnaməsi;

– müəssisənin yaradılması haqqında qərar və ya təsis müqaviləsi;

– qeydiyyat rüsumunun ödənilməsi haqqında sənəd.

Müəssisənin dövlət qeydiyyatını həyata keçirən dövlət orqanı yuxarıda göstərilmiş sənədlər təqdim edildikdən ən geci bir ay müddətində müəssisəni dövlət qeydiyyatına almalı və bu barədə təsisçiyə (ərizəçiyə) 5 gün müddətində yazılı surətdə məlumat verməlidir. Müəssisənin Nizamnaməsində dəyişikliklər edildikdə və ya onun təşkilati-hüquqi forması dəyişdirildikdə müəssisə yenidən dövlət qeydiyyatına alınmalıdır. Müəssisənin dövlət qeydiyyatına alınmasında imtina yalnız aşağıdakı hallarda mümkündür:

– müəssisənin yaradılmasına dair bu qanunla müəyyən edilmiş qaydalar pozulduqda, yaxud ona əməl olunmadıqda;

– müəssisənin təsis sənədləri Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olmadıqda.

Yuxarıda göstərilən iki haldan başqa müəssisənin dövlət qeydiyyatından imtina edilməsi qadağandır. Müəssisə müəyyən edilmiş müddətdə qeydə alınmadıqda və ya onun dövlət qeydiyyatına alınmasından əsassız olaraq imtina edildikdə, qanunvericiliklə müəyyən edilmiş qaydada Azərbaycan Respublikasının İqtisad Məhkəməsinə müraciət edilə bilər. Müəssisənin dövlət qeydiyyatına görə təsisçidən mövcud qanunvericiliklə müəyyən olunan məbləğdə dövlət büdcəsinə köçürülən rüsum tutulur.

«Müəssisələr haqqında» Azərbaycan Respublikasının qanununda göstərilir ki, müəssisənin ləğvi və ya yenidən təşkil



edilməsi (birləşməsi, bölünməsi, ayrılması, çevrilməsi və s.) əmlak mülkiyyətçisinin, müvafiq müəssisələr yaratmağa vəkil edilmiş orqanın, yaxud Azərbaycan Respublikasının İqtisad Məhkəməsinin qərarı ilə həyata keçirilir. Müəssisə aşağıdakı hallarda ləğv edilə bilər:

a) müəssisə iflas elan olunduqda;

b) qanunvericiliklə nəzərdə tutulmuş tələblərə riayət edilməməsinə görə müəssisənin fəaliyyəti qadağan olunduqda, qərarla müəyyən edilmiş müddətdə həmin tələblərə riayət olunması təmin edilmədikdə və ya fəaliyyət növü dəyişdirilmədikdə;

c) müəssisə yaratmaq barəsində təsis aktları İqtisad Məhkəməsinin qərarı ilə qanunsuz sayıldıqda;

ç) Azərbaycan Respublikasının qanunvericilik aktları ilə nəzərdə tutulan digər hallarda.

Müəssisə Azərbaycan Respublikasının dövlət qeydiyyat reyestrindən çıxarıldığı andan ləğv edilmiş sayılır və ya yenidən təşkil edilmiş hesab edilir. Müəssisə yenidən təşkil edildikdə və ya ləğv olunduqda mövcud qanunvericiliyə uyğun olaraq işdən çıxarılmış işçilərin hüquqlarının və mənafelərinin gözlənilməsinə təminat verilir. Bir müəssisənin digəri ilə birləşdiyi hallarda onların hər birinin bütün əmlak hüquqları və öhdəlikləri birləşmə nəticəsində yaranan müəssisəyə keçir. Müəssisə bölündükdə onun əmlak hüquqları və öhdəlikləri bölüşdürücü akt (balans) üzrə uyğun məntəqələrdə, yerlərdə yaranan yeni müəssisələrə keçir. Müəssisələrdən bir, yaxud bir neçə yeni müəssisə ayrıldıqda bölüşdürücü akt (balans) üzrə onların hər birinə bölünmüş, parçalanmış müəssisənin əmlak hüquqları və öhdəlikləri keçir. Bir müəssisə digər müəssisəyə çevrildikdə əvvəlki müəssisənin bütün əmlak hüquqları və öhdəlikləri yeni yaranan müəssisəyə keçir.

Müəssisənin ləğvi mülkiyyətçinin və ya onun vəkil etdiyi orqanın yaratdığı ləğvetmə komissiyası tərəfindən, müəssisə iflas elan olunduqda isə – İqtisad Məhkəməsinin qərarına əsasən həyata keçirilir. Onların qərarına əsasən müəssisə özü onun idarəetmə orqanı şəxsində həyata keçirilə bilər. Ləğvetmə komissiyası yarandığı vaxtdan müəssisənin idarəetmə səlahiyyəti ona verilir və müəssisənin idarəetmə orqanları, yəni idarəetmə aparatının şöbə və laboratoriyaları ləğvetmə komissiyasının qərarlarını həyata keçirirlər. Mülkiyyətçi, İqtisad Məhkəməsi və

ya müəssisə yaratmağa vəkil edilmiş orqan müəssisənin ləğv edilməsi barəsində qərar qəbul etdikdə ləğvetmə qaydasını və müddətini müəyyən edir, habelə müəssisənin ləğv edilməsi vaxtından iki aydan az olmayan kreditorların iddia qaldırılması müddətini təyin edir.

Ləğvetmə komissiyası, yaxud müəssisənin ləğvini həyata keçirən digər orqan bu barədə 10 gün müddətində Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə, Dövlət Statistika Komitəsinə, Vergi Nazirliyinə və qeydiyyat orqanlarına məlumat verir, müəssisənin yerləşdiyi rayonda onun ləğvi barəsində və kreditorların iddia irəli sürməsi müddəti və qaydası haqqında mətbuatda məlumat dərc etdirir. Bununla yanaşı, ləğvetmə komissiyası, yaxud ləğvetməni həyata keçirən orqan müəssisəyə olan debitor borclarının geri alınması və kreditorların iddialarının aşkar edilməsi məqsədilə iş aparmağa borcludur. Ləğvetmə komissiyası, yaxud müəssisənin ləğvini həyata keçirən orqan ləğv olunan müəssisənin mövcud əmlakını qiymətləndirir və kreditorlarla haqq-hesab çəkir, ləğvetmə balansını (aktını) tərtib edib mülkiyyətçiyə, yaxud ləğvetmə komissiyasının təyin etmiş olduğu orqana təqdim edir.

Ləğv olunan müəssisəyə kreditorların iddiaları həmin müəssisənin əmlakından ödənilir. Bu halda, ilk növbədə əmək haqqı, büdcəyə borclar ödənilir və ləğv edilən müəssisənin istifadəsində olan torpaqların rekultivasiyası ilə əlaqədar xərclər kompensasiya olunur. İddia irəli sürülməsi üçün müəyyən edilmiş müddətdən sonra aşkar edilən və bildirilən iddialar, ilk növbədə, verilən və aşkar edilmiş iddialar, habelə müəyyən olunmuş müddətdə irəli sürülən iddialar ödənildikdən sonra, müəssisənin yerdə qalan əmlakından ödənilir. Əmlakın çatışmamasına görə ödənilməyən iddialar ödənilmiş hesab edilir. Ləğvetmə komissiyasının, yaxud ləğvetməni həyata keçirən orqanın qəbul etmədiyi iddialarda kreditorlar tərəfindən iddiaların tam və ya qismən qəbul edilməməsi barəsində məlumat aldıqları vaxtdan bir ay müddətində bu tələblərin ödənilməsi barəsində yerli məhkəməyə və İqtisad Məhkəməsinə müraciət edildikdə ödənilmiş hesab edilir. Kreditorların və əmək kollektivi üzvlərinin iddiaları ödənildikdən sonra, qalmış əmlakdan mülkiyyətçinin göstərişi ilə istifadə olunur. Müəssisə yenidən təşkil edilərkən onun hüquqları və öhdəlikləri hüquqi varislərinə keçir.



# FƏSİL 7. NEFT SƏNAYESİNDƏ TEXNOLOJİ YENİLƏŞMƏNİN ZƏRURİLİYİ VƏ İQTİSADİ ƏHƏMİYYƏTİ

## 7.1. Neft sənayesinin texnoloji cəhətdən yenidən qurulmasında elm və texnikanın rolu

Müstəqillik əldə etmiş Azərbaycan Respublikası müasir elmi-texniki inqilab və onun nəticələrindən səmərəli və məqsədyönlü istifadə edərək, öz təbii ehtiyatlarından intensiv istifadə olunması üçün şərait yaratmalıdır. Çünki Azərbaycan Respublikası yaxın gələcəkdə nəhəng neft istehsalçısına çevrilməsi gözlənilir. Bunun üçün respublikanın nəqliyyat sisteminin və kommunikasiya xətlərinin tamamilə yenidən qurulması, neft sənayesinin texnoloji cəhətdən silahlanması səviyyəsinin yüksəldilməsi, iqtisadi islahatların daha da dərinləşdirilməsi və s. tələb olunur. Son 100 ildə eyni məqsədləri və məramları ifadə edən Avropa kapitalının Azərbaycan Respublikasına ikinci böyük gəlişi ölkə iqtisadiyyatında yeni bir mərhələnin əsasını qoymuşdur. Qərb demokratiyası, liberallaşan iqtisadiyyat şübhəsiz olaraq yeni dövlət quruculuğunun prinsiplərini qaynaqlandırmışdır. Ötən illər ərzində respublikanın ictimai-siyasi, sosial-iqtisadi həyatında mühüm dəyişikliklər baş vermiş, yeni iqtisadi münasibətlər, demokratik təsisatlar, qlobal strukturlara inteqrasiya təşəkkül tapmışdır. Bununla belə, sosial-iqtisadi transformasiya mərhələsinin bünövrəsi, bazar strukturlarına adaptasiyada bir sıra maneələrə rast gəlmək olur ki, bunlar da keçid dövrünün uzanmasına gətirib çıxarır. Bu səbəbdən də keçid iqtisadiyyatını yaşayan bütün ölkələr kimi, Azərbaycan Respublikası da ümumi, əlahiddə və spesifik problemlərlə qarşılaşır. Bu problemlər içərisində böyük tərəqqi üçün mühüm detonator elmi inkişaf problemləri, texniki-texnoloji tərəqqi müstəsna əhəmiyyətə malikdir. Bu sahədə elm və texnika mühüm rol oynayır.

***Elm*** – insanın əməli və nəzəri fəaliyyətinin spesifik sahəsi olub, ictimai şüur formalarından biridir. Başqa sözlə, elm təbiət və cəmiyyətin dərk edilməsi nəticəsi, onların haqqında biliklər sistemi və məcmusudur. Lakin elmi bilik hələ elmin özü deyil-

dir. Bilik, elmin məhsulu və ünsürüdür. Elmi bilik isə insanın fəaliyyəti ilə əlaqədardır. Elm ilə texnika həmişə qarşılıqlı surətdə inkişaf etmişlər, yəni elmin inkişafı texnikanı inkişaf etdirmiş və yaxud da əksinə. Müasir dövrdə elm həm ekstensiv və həm də intensiv istiqamətlərdə inkişaf edir. Bu o deməkdir ki, hazırda bir tərəfdən müxtəlif elmlərin inteqrasiyası, digər tərəfdən isə onların diferensiasiyası prosesi baş verir. Lakin bütün hallarda elm və texnika, qeyd etdiyimiz kimi, qarşılıqlı surətdə inkişaf etmişdir.

Elmi-texniki inqilab dövründə elmin istehsalatla əlaqəsi daha da genişlənir; elm əvvəlki yardımedici rolunu dəyişərək elmi kəşflər kimi tətbiq edilir. ETT öz növbəsində maddi istehsal sahələrində çalışan işçilərin elmi biliklərə yiyələnməsini, qabaqcıl əmək üsullarının mənimsənilməsini və nəhayət, fiziki əməklə zehni əməyin üzvü surətdə əlaqələndirilməsini tələb edir. Bəşər cəmiyyətinin bütün tarixi ərzində elm inkişafın mühüm faktoru olmuş, təbiət və cəmiyyət qüvvələrinin özünə tabe etməsinin göstəricisinə, mənəvi həyatımızın müstəqil amilinə çevrilmişdir.

Elmin bir çox inkişaf mərhələləri olmuşdur: Qədim Şərq ölkələrində, məsələn, Babilistanda, Misirdə, Hindistanda və Çində toplanmış ilk biliklər elmlərin ilkin şərtlərini hazırlamışdır. Qədim yunan mütəfəkkirləri, məsələn, Aristotel və başqaları həyat haqqında abstrakt fikirlər irəli sürmüş, dünyanın yaranmasının təbii qanunauyğunluqlarını dərk etməyə çalışmışlar. Həmin dövrdə ayrı-ayrı bilik sahələri natural fəlsəfədən ayrılmağa başladı. Ellinizm dövründə həndəsə (Evklid), mexanika (Arximed) və astronomiyanın (Ptolemey) əsası yarandı. Orta əsrlərdə Ərəb Şərqi və Orta Asiya mütəfəkkirləri (İbn-Sina, İbn-Rüşd, Biruni və s.) qədim yunan elminin ənənəsini yeni biliklərlə zənginləşdirmişlər. Avropada bu ənənə xristianlığın təsirinə məruz qalaraq elmin spesifik forması olan sxolastikanı yaratmışdır. Müasir mənada elm yeni dövrdə (XVI-XVII əsrlər) kapitalist istehsal üsulunun tələbatı nəticəsində formalaşmağa başladı. Bu dövrdə elmdə baş verən dərin dəyişikliklər elmi inqilabla nəticələnmişdir (Q.Qaliley, İ.Kepler, U.Harvey, R.Dekart, İ.İyuton və b.). Müasir elm onun getdikcə bilavasitə istehsal qüvvəsinə çevrilməsi, həyatın bütün sahələrinə nüfuz etməsi və dərinləşməsi, sosial rolunun güclənməsi ilə xarakterizə olunur. Elm texnikanın tərəqqisi ilə inkişaf edərək, onu qabaqlamış, insanın təbiət və cəmiyyət qüvvələrini özünə tabe etməsinin göstəricisinə çevrilmişdir.



Azərbaycanda elmin qədim tarixi vardır. Hələ XII-XIII əsrlərdə Fazil Fəridəddin Şirvani, Fələki Şirvani, Xəqani riyaziyyatla məşğul olmuşlar. Xəqani, Nizami, Füzuli, Nəsimi təbiətşünaslığın bir çox məsələlərini düzgün şərh etmişlər. XIII əsrdə Nəsrəddin Tusi Marağada rəsədxana tikdirmiş və ona rəhbərlik etmişdir. Burada ulduzların dəqiq qlobusu tərtib edilmişdir (hazırda Drezden muzeyində saxlanılır). XIX əsrin 30-cu illərində A.A.Bakıxanov dünyanın heliosentrik sistemi təlimini müdafiə edən «Əsrarül-Mələkut» əsərini yazmışdır. 1880-ci ildə D.İ.Mendeleyev Bakı neftinin tədqiqi ilə məşğul olmuş və ondan sürtgü yağı almaq üsullarını göstərmişdir. Lakin Azərbaycanda Sovet hakimiyyəti qurulduqdan sonra (1920) ali məktəblərin, elmi-tədqiqat müəssisələrinin, xüsusilə EA-nın təşkil olunması (1945) sayəsində elm daha da inkişaf etmişdir. Azərbaycan alimlərinin nəzəri və eksperimental fizika, xüsusilə yarımkeçiricilər fizikası sahəsindəki bir sıra tədqiqatları dünya şöhrəti qazanmışdır. Astronomiyaya (Günəş fizikası, qalaktika, qaz dumanlıqları və s.) dair mühüm tədqiqatlar aparılır. Riyaziyyat, mexanika, kibernetika və s. sahəsində böyük işlər görülür. Neft emalı və kimyası sahəsindəki müvəffəqiyyətlərə görə Azərb. SSR «Neft akademiyası» adlanır. Respublikada oktan ədədi yüksək olan benzinin alınması, etilen, propilen kimi kiçikmolekullu oleinlərin istehsalı texnologiyası və polietilenin yeni sintez üsulu yaradılmışdır.

***Texnika*** – yunan sözü olub mahir, sənət, ustalıq, bacarıq deməkdir; istehsal proseslərinin yerinə yetirilməsində və cəmiyyətin istehsalla əlaqədar olmayan tələblərinin ödənilməsində istifadə üçün yaradılan vasitələrin məcmusudur. İctimai istehsalın inkişafı boyu bəşəriyyətin əldə etdiyi təcrübə və biliklər texnikada öz maddi təcəssümünü tapmışdır. Texnikanın əsas vəzifəsi – insan əməyini yüngülləşdirmək və əmək məhsuldarlığını artırmaq məqsədilə, onun istehsal funksiyalarını qismən və ya tamamilə əvəz etməkdir. Texnika təbiət qanunlarının dərk olunması əsasında insan əməyinin səmərəliyini yüksəl-

tmək və ona məqsədəuyğun əmək fəaliyyətindəki imkanlarını genişləndirmək üçün şərait yaradır. Texnikanın köməyi ilə təbii sərvətlərdən səmərəli (kompleks tərzdə) istifadə olunur, yerin dərinlikləri, dünya okeanı, hava və kosmik fəza mənimsənilir.

İstehsalın inkişafı və yeni əmək vasitələrinin meydana çıxması ilə əlaqədar texnika ardıcıl surətdə insanın fiziki və zehni əməklə bağlı olan istehsal funksiyalarını öz üzərinə götürür. Maddi və mədəni nemətlərin yaradılmasında əmək cisimlərinə təsir göstərmək, enerji əldə etmək, onu çevirmək və ötürmək, təbiətin və cəmiyyətin inkişaf qanunlarını tədqiq etmək, rabitə yaratmaq, informasiya toplamaq, saxlamaq, emal etmək və ötürmək, istehsalı idarə etmək, məişət xidməti göstərmək və s. üçün texnikadan istifadə edilir. Funksional təyinatına görə texnika istehsal texnikası və istehsalla əlaqədar olmayan texnika kimi təsnifləşdirilir.

Ümumiyyətlə, elm ilə texnikanın qarşılıqlı əlaqəsini və inkişaf mərhələlərini şərti olaraq aşağıdakı üç dövrə ayırmaq olar:

– birinci dövrdə (təqribən XVIII əsrə qədər) elm və texnika insan fəaliyyətinin iki müxtəlif və müstəqil sahəsi kimi təzahür etmiş, onların əlaqəsi nisbətən zəif olmuş və elmin nəticələrinin istehsalata tətbiqi təsadüfi xarakter daşımışdır. Bu dövrdə elmin inkişafı texnikanın inkişafından geri qalırdı və onun nailiyyətlərini xeyli ləng izah edirdi. Belə ki, texniki ixtiraları alimlər-mütəxəssislər deyil, istehsalçıların özləri edirdi;

– ikinci dövrdə (XX əsrin 40-cı illərinə qədər) elmin inkişaf səviyyəsi ilə texnikanın inkişaf səviyyəsi, demək olar ki, bərabərləşir, elm texnikanın tələbatı ilə daha çox hesablanır və onun «sifarişi» ilə irəliləyir;

– üçüncü dövrdə, yəni XX əsrin 40-cı illərindən başlayaraq elm öz inkişafında texnikanın inkişafını qabaqlayır. Bu dövrdə «Elm-texnika» sistemi inkişaf edib «Elm-texnika-istehsal-insan» sisteminə çevrilir. Bu dövr elm ilə istehsalın sıx qarşılıqlı əlaqəsi ilə, sənaye istehsalının geniş surətdə elektronlaşdırılması, robotlaşdırılması, kompüterləşdirilməsi və yeni mütərəqqi texnologiyanın tətbiqi ilə səciyyələnir.

Beləliklə, elm və texnikanın inkişafı texnoloji yeniləşmənin əsasını təşkil etmiş və neft sənayesinin texnoloji cəhətdən yenidən qurulmasında mühüm rol oynamışdır. Sahənin texniki və



texnoloji cəhətdən yenidən qurulması dedikdə, sahədə əsas istehsal fondlarının təkrar istehsalının mütərəqqi formaları nəzərdə tutulur. Neft-qazçıxarma istehsalının texniki təchizatının təmin olunmasında yeni texnikanın yaradılması və tətbiqi mühüm rol oynayır. Yeni texnika anlayışı – özünün texniki və iqtisadi göstəricilərinə görə fəaliyyət göstərənlərdən daha üstün göstəriciləri olan yeni və təkmilləşdirilmiş konstruksiyalı maşın, mexanizm və cihazları, bina və qurğuları, xammalı, materialları, texnoloji prosesləri əhatə edir. Yeni texnikanın istehsalına çəkilən xərclər, əsasən, bu məqsədə yönəldilmiş investisiya qoyuluşundan, nəticəsi isə məhsul həcminin artırılmasından, ucuzlaşdırılmasından, keyfiyyətinin yaxşılaşdırılmasından, əmək məhsuldarlığının artırılmasından ibarətdir.

Kifayət qədər olmasa da, artıq tətbiq edilmiş yeni texnika ilə yanaşı, ən yeni, özünün istehsalı və tətbiqinə görə hələ başlanğıc mərhələsində olan texnika da mövcuddur. Belə texnikaya, məsələn, sürətli neytronlarla işləyən reaktorlar, altıncı nəsil kompüterlər, yeni növ robotlar və s. aiddir. Ən yeni texnikanın mənimsənilməsi, kütləvi istehsala verilməsi, tətbiq sahəsinə yönəldilməsi çox böyük investisiya qoyuluşu tələb edir, lakin sonradan çox yüksək səmərə verə bilər. Yeni texnika tətbiq olunmaq və təkmilləşdirmək üçün az investisiya qoyuluşu tələb edir, az həcmdə səmərə verir, lakin bu səmərə qısa müddətdə alınır və tez reallaşdırılır.

Yeni texnikanın qiyməti elə səviyyədə müəyyən olunmalıdır ki, onun buraxılmasına istehsalçının, tətbiq olunmasına isə – istehlakçının marağı təmin olunmuş olsun. Yeni texnikadan istifadə istehsalın son nəticələrinin yaxşılaşdırılması ilə yanaşı, işçilərin də azad olunmasına, əmək şəraitinin yaxşılaşdırılmasına və sağlamlaşdırılmasına, materiallar, o cümlədən də qıt (defisit) materiallar sərfinin azaldılmasına, məhsulun keyfiyyətinin və etibarlığının yüksəldilməsinə səbəb olur.

Texnikanın etibarlığı dedikdə, məmulatın göstərilmiş həddi dairəsində öz istismar göstəricilərinin əhəmiyyətini saxlamaqla öhdəsinə düşən funksiyaları yerinə yetirə bilməsi qabiliyyəti nəzərdə tutulur. Bu funksiyalar göstərilmiş rejimlərlə və istifadə, texniki xidmət, təmirlər, saxlanma və nəqletmə şərtləri ilə müəyyən olunur. Texnikanın etibarlığı saz işləməsi, uzunömür-

lülüyü, təmirə yararlığı ilə xarakterizə olunur. Saz işləmə dedikdə, müəyyən rejimlərdə və istismar şəraitində texnikanın fasiləsiz iş qabiliyyətini saxlamaq xassəsi; uzunömürlülük dedikdə, rejimlərə və istismar qaydalarına əməl etməklə uzun müddət iş qabiliyyətini saxlamaq xassəsi, təmirə yararlıq dedikdə isə, qüsurları bərpa etməyə uyğunlaşma qabiliyyəti başa düşülür.

Etibarlıq texnikanın çox mühüm xarakteristikasıdır, onun layihələşdirilməsi, istehsalı və istismarı zamanı bu göstəriciyə xüsusi diqqət verilir. İstehsalın fasiləsiz gedişatı, təmirə və texniki xidmət işlərinə çəkilən xərclər texnikanın etibarlığından asılıdır. Yüksək etibarlıq xarici bazarda maşın və avadanlıqların rəqabət qabiliyyətli olmasının vacib şərtidir. Layihələşdirmə mərhələsində etibarlığın yüksəldilməsi ən səmərəli konstruktiv nəticələrin seçilməsi, ümumiləşdirilmiş və standart elementlərdən maksimum istifadə olunması, materialların səmərəli seçilməsi, istismar üçün rahatlığın, texnolojiliyin və təmirə yararlığın yaradılması ilə təmin edilir.

İstehsal prosesində məmulatın hazırlanmasının yeni texnologiyası işlənib hazırlanır və texnoloji intizama əməl olunması təmin edilir. İstismar mərhələsində texnikanın etibarlığının yüksəldilməsinə – lazımi texniki xidmət, texnikanın düzgün istismarına nəzarət edilməsi, habelə profilaktika işlərinin və təmirin keyfiyyətlə və vaxtında aparılması, etibarlığı qiymətləndirən texniki vasitələrin tətbiqi, məhsulun keyfiyyətinə nəzarətin təşkili ilə nail olunur.

Sahənin texniki cəhətdən yenidən qurulmasında məqsəd istehsalı hər vasitə ilə intensivləşdirməkdən, istehsal gücündən istifadəni yaxşılaşdırmaqdan, əmək məhsuldarlığının yüksəldilməsini təmin etməklə məhsul buraxılışını artırmaqdan və keyfiyyətini yaxşılaşdırmaqdan, lüzumsuz iş yerlərini ixtisar etməkdən, məhsulun material tutumu və maya dəyərini aşağı salmaqdan, material və yanacaq-energetika ehtiyatlarına qənaət etməkdən, istehsalının texniki-iqtisadi səviyyəsini yüksəltməkdən ibarətdir.

İstehsalın texniki-iqtisadi səviyyəsi dedikdə, istehsalın müəyyən vaxta (ana, momentə) görə texniki və iqtisadi durumu nəzərdə tutulur. İstehsalın texniki-iqtisadi səviyyəsi istifadə olunan istehsal aparatının yaş strukturundan, texniki durumun-



dan, mexanikləşdirmə və avtomatlaşdırılması dərəcəsindən, tətbiq olunan texnoloji proseslərin mütərəqqiliyindən, buraxılan məhsulun keyfiyyətindən və istehsalın effektivliyindən, kadrların ixtisas səviyyəsindən, istehsalın və əməyin təşkilindən asılıdır. Sahədə nail olunmuş istehsalın texniki-iqtisadi səviyyəsi sahənin buraxdığı məhsulun sifarişçinin, dünya bazarının tələblərinə uyğun gəlməsi imkanlarını əks etdirir.

Fəaliyyətdə olan istehsal aparatının keyfiyyəti, yeniliyi, istehsal prosesindəki texnolojiliyi və bir-birinə bağlılığı istehsalın texniki səviyyəsini və gücünü, beləliklə də, xeyli dərəcədə məhsulun həcmini və keyfiyyətini, əmək məhsuldarlığının artırılması imkanlarını qabaqcadan müəyyən edir. İctimai istehsalın yüksək səmərəliyinə nail olunmasının mühüm şərti istehsal aparatından istifadənin intensivləşdirilməsi və onun təkmilləşdirilməsidir.

Ayrı-ayrı sahələrdə istehsalın texniki-iqtisadi səviyyəsinin diferensiasiya edilmiş göstəriciləri tətbiq olunur. Məsələn, qara metallurgiyada bu, domna sobalarının faydalı həcmindən istifadə əmsalı, 1 ton hazır prokata polad külçəsi sərfi, fasiləsiz üsulla poladtökmə kimi mütərəqqi üsuldan istifadə dərəcəsi; maşınqayırma və metal emalında – mütərəqqi plastik deformasiya metodlarından istifadə etməklə hissələrin hazırlanması deməkdir.

## 7.2. Yeni texnikanın yaradılması və onun mərhələləri

Məlumdur ki, elmi-texniki tərəqqinin təsiri altında istehlakçıların yeni məhsullara olan tələbatı daima artır, çünki bu gün istehlakçıların tələbatını ödəyən hər hansı bir məhsul, sabah həmin tələbatı ödəməyə bilər. Odur ki, hər bir istehsalçı hazırladığı məhsulları ya daim təkmilləşdirməli, ya da ən yeni məhsullar buraxmalıdır. Əks təqdirdə istehsalçı müəssisə bazarda rəqabət mübarizəsinə tab gətirməyib müflisləşəcəkdir. Müflisləşmə dedikdə, borclunun borc öhdəçiliyini yerinə yetirə bilməməsinin məhkəmə yolu ilə müəyyənləşdirilməsi nəzərdə tutulur. Müflisləşmənin rəsmi şəkildə elan olunduğu gündən borclu öz əmlakını müstəqil şəkildə idarə etmək və sərəncam vermək hüququndan məhrum olur.

İstehsalçı müəssisə yeni texnikanı (məhsulu) iki yolla əldə

edə bilər: birincisi, yeni texnika (məhsul) buraxan müəssisəni bütövlükdə satın almaqla, yəni yeni texnikanın (məhsulun) istehsalı üçün patent və ya lisenziya almaqla; ikincisi, özünün elmi-texniki potensialını səfərbərliyə almaqla, yəni özündə elmi tədqiqatlar və layihə-konstruktor şöbələri yaratmaqla. Əgər müəssisə öz elmi-texniki potensialını səfərbərliyə almaqla yeni texnika (məhsul) istehsal edərsə, onda yeni texnikanın (məhsulun) yaradılması və hazırlanması üzrə aşağıdakı səkkiz mərhələdən ibarət proqram işləyib hazırlamalıdır.

1) İdeyaların yaradılması mərhələsi - yeni növ məhsulların, o cümlədən yeni texnikanın işlənib hazırlanması müvafiq ideya axtarışları ilə əlaqədardır. Bu ondan irəli gəlir ki, elmi-texniki tərəqqinin müasir durumunda yeni məhsulların yaradılması sahəsində müxtəlif ideyalar, təkliflər ola bilər. Belə bir müxtəliflik yeni məhsulların yaradılması üçün müxtəlif mənbələrin olmasından irəli gəlir. Yeni məhsulların yaradılması üçün ideyaların yaradılmasının əsas mənbələrindən biri istehlakçılardır. Onların zövq və tələbatlarının artması yeni xassə və xüsusiyyətlərə malik olan məhsulların yaradılması ideyasını irəli sürür. Bu zövq və tələblər istehsalçı müəssisələrə daxil olan istehlakçıların məktub və şikayətlərində (reklamasiyalarda) öz əksini tapır. Yeni məhsulların yaradılması üçün ideyanın yaradılmasının ikinci mühüm mənbəyi alimlərdir-mütəxəssislərdir, çünki onlar yeni məhsulların yaradılması və ya onların təkmilləşdirilməsi, modernləşdirilməsi üçün yeni növ xammal və materiallar ixtira edə və ya axtarıb tapa bilərlər. Bundan başqa, satıcılar, bazar məsləhətçiləri, dilerlər, reklam agentləri, marketinq tədqiqatçıları, səmərələşdiricilər, ixtiraçılar, patent vəkilləri, kommersiya laboratoriyaları və peşə assosiasiyaları da ideya mənbələri ola bilər.

2) İdeyanın seçilməsi mərhələsi – yeni məhsulların yaradılması üzrə olan müxtəlif ideyaların içərisindən, arasından ən səmərəlisinin seçilməsini özündə əks etdirir. Konkret müəssisə üçün yüksək mənfəət əldə edilməsini təmin edə biləcək ideya səmərəli ideya hesab edilir.

3) Mənanın işlənib hazırlanması mərhələsi – ən mühüm əhəmiyyət kəsb edən mərhələlərdən biridir. Çünki bu mərhələdə yeni məhsulun yaradılması ideyası, mənası və surəti arasındakı



fərqlər yoxlanılır. Məhsulun yaradılması ideyası – bazarın tələblərinə uyğun məhsullar yaratmaq haqqında ümumi təsəvvürdür; məhsulun mənası – ideyanın istehlakçılar üçün əhəmiyyətli olan konkret variantıdır; məhsulun surəti isə real mövcud olan və ya potensial məhsul haqqında istehlakçılarda yaranmış konkret təsərrüfatdır.

4) Marketinq strategiyasının işlənib hazırlanması mərhələsi – üç hissəni özündə əks etdirir: birinci hissədə məqsədli bazarın kəmiyyəti, quruluşu və davranışı, məhsulun nəzərdə tutulmuş mövqeyi və həcminin yaxın bir neçə il üçün satış həcmi, bazar payı və əldə ediləcək mənfəətin kəmiyyəti göstərilir; ikinci hissədə – məhsulun nəzərdə tutulmuş qiyməti, onun birinci il ərzində smeta üzrə marketinq xərcləri haqqında məlumatlar verilir; üçüncü hissədə isə satış və mənfəət göstəriciləri üzrə perspektiv məqsədlər və marketinq kompleksinin formalaşmasına uzun müddətli strateji yanaşma göstərilir.

5) İstehsal və satış imkanlarının təhlili mərhələsi – satışların, xərclərin və mənfəətin nəzərdə tutulmuş məbləğinin təhlili və qiymətləndirilməsi ilə əlaqədardır. Təhlilin nəticələri haqqında lazımi məlumatlar əldə edildikdən sonra yeni texnikanın (məhsulun) işlənib hazırlanmasına başlanılır.

6) Yeni texnikanın (məhsulun) hazırlanması və sınaqdan keçirilməsi mərhələsi – elmi tədqiqatlar və təcrübə-konstruktor işlərini əhatə edir. Bu mərhələdə yeni yaradılacaq texnikanın (məhsulun) mənası real məhsula çevrilir, yəni burada yeni texnika (məhsul) ideyasının məmulatda öz əksini tapa bilməsi həm texniki, həm də kommersiya nöqteyi-nəzərindən sərfəli olub-olmaması müəyyənləşdirilir. Yeni məhsulun (texnikanın) hazırlanmasının sürətləndirilməsində istehsal hazırlığı mühüm rol oynayır. İstehsal hazırlığı dedikdə, müəssisənin labüd müddətdə minimum əmək, maddi-texniki və digər ehtiyatlar sərf etməklə nəzərdə tutulmuş yeni məhsul buraxılışı üzrə işlənib hazırlanmış proqramın yerinə yetirilməsini təmin edəcək bir-birilə bağlı təşkilati, texniki, texnoloji, iqtisadi tədbirlər kompleksi başa düşülür. Yeni məhsullar buraxılışının layihələşdirilməsi və mənimsənilməsi mərhələlərini əhatə edən texniki istehsal hazırlığı ilə texnoloji prosesin normal gedişini təmin edən təşkilati istehsal hazırlığı bir-birindən fərqləndirilir. Texniki istehsal ha-

zırlığı texnoloji prosesin işlənməsini, texnoloji prosesləri təmin etmək üçün lazımi avadanlığın, qurğuların, xüsusi alətlərin layihələşdirilməsini, istehsal gücünün hesablanmasını, normativ sənədlərin hazırlanmasını və s. nəzərdə tutur. Təşkilati istehsal hazırlığı isə yeni məhsulların buraxılışı üzrə işlənib hazırlanmış proqramın yerinə yetirilməsi prosesində müvafiq xidmət növlərinin əlaqələndirilməsini nəzərdə tutur. İstehsal hazırlığının kompleks vəzifələrinin texniki cəhətdən düzgün yerinə yetirilməsi yeni texnikanın yaradılması üzrə işlərə çəkilən xərclərin azaldılmasına və həyata keçirilməsinə müddətinin qısaldılmasına və onun səmərəliliyinin artırılmasına imkan verir.

7) Yeni texnikanın (məhsulun) bazar şəraitində sınaqdan keçirilməsi mərhələsi – yeni yaradılmış texnikanın istehlak prosesində sınaqdan keçirilməsini nəzərdə tutur. Bu məqsədlə istehsalçı müəssisə yeni yaradılacaq texnikadan bir neçə nümunə istehsal edir və bazar şəraitində onu sınaqdan keçirir, yəni yeni yaradılmış texnikanın istehlakçılar arasında necə rəğbətlə qarşılandığını yoxlayır. Bu zaman sınaq marketinqi mühüm rol oynayır. Belə ki, sınaq marketinqi istehlakçıların yeni məhsul haqqında rəylərini, fikirlərini öyrənir, onların şikayət ərizələrini toplayır və həmin ərizələri istehsalçı müəssisəyə göndərir. Bundan sonra, istehsalçı müəssisə öz elmi-texniki potensialını səfərbərliyə alaraq yeni yaradılmış texnikada istehlakçılar tərəfindən aşkar edilmiş qüsurları aradan qaldırmaq üçün əlavə elmi-tədqiqat işləri və konstruksiya işləmələri aparır (əgər belə bir zərurət yaranarsa) və lazım gələrsə həmin yeni texnikanı təkmilləşdirir.

8) Kommersiya istehsalının təşkili mərhələsi – yeni yaradılacaq məhsulun nə vaxt, harada, hansı qiymətlə və necə satılacağı haqqında məlumatları özündə əhatə edir. Məlumdur ki, hər bir yeni yaradılacaq məhsulun, texnikanın özünəməxsus həyat dövrü, yəni bazara çıxmaq dövrü vardır. Lakin bu dövrün xarakterini və müddətini əvvəlcədən dəqiq müəyyənləşdirmək çox çətindir. Buna baxmayaraq, bütün yeni yaradılan məhsulların bazara çıxarılmasının aşağıdakı dörd dövrünü fərqləndirirlər:

a) yeni yaradılmış məhsulun bazara çıxarılma dövrü – satışın tədricən artması prosesi ilə xarakterizə olunur, lakin yeni məhsulun hazırlanması və ilk dəfə bazara çıxarılması üçün böyük



xərclər sərf edildiyindən, bu dövrdə bir o qədər də yüksək mənfəət əldə edilmir, yaxud əldə edilsə də, onun həcmi az olur;

b) artım dövrü – yeni yaradılmış məhsulun bazar tərəfindən sürətlə qəbul olunması və mənfəətin kəskin surətdə artması ilə xarakterizə olunur. Bazarın sürətli artım dövrünü mümkün qədər uzatmaq məqsədilə istehsalçı müəssisə bir neçə strateji yanaşmadan istifadə edə bilər: yeni məhsulun keyfiyyətini yaxşılaşdırmaq, ona əlavə xassələr vermək, onun yeni modellərini buraxmaq; bazarın yeni seqmentinə girmək; yeni bölgü kanallarından istifadə etmək; reklamın bir hissəsini əmtəə haqqında məlumatlar yaymaqla onun alınmasının stimullaşdırılmasına yönəltmək; yeni məhsul alıcılarını daha çox cəlb etmək üçün qiymətləri aşağı salmaq (bunu elə etmək lazımdır ki, istehsalçı müəssisə zərərlə işləməsin);

c) yetkin dövr – potensial alıcıların sayının azalması nəticəsində satış sürətinin zəifləməsi ilə səciyyələnir. Bunun qarşısını almaq üçün istehsalçı müəssisə həmin məhsulu ya təkmilləşdirməli, ya da modernləşdirməlidir. Bütün bunlar isə əlavə xərc sərfini tələb edir ki, bu da məhsulun maya dəyərinin artmasına, deməli mənfəətin azalmasına gətirib çıxarır, çünki reklam xərcləri artır, ticarət sahəsi və istehlakçılarla güzəştli sövdələşmələrin sayı çoxalır. Yeni məhsulun təkmilləşdirilməsi və modernləşdirilməsi məqsədilə ETTKİ-yə ayrılan vəsait artır. Bütün bunlar isə mənfəətin azalması deməkdir;

ç) tənəzzül dövrü – satışın kəskin surətdə aşağı düşməsi və mənfəətin azalması ilə xarakterizə olunur. Satışın aşağı düşməsi bir sıra səbəblərlə, o cümlədən, texnologiyada müvəffəqiyyətlər, istehlakçıların zövqünün dəyişməsi, ölkədaxili və xarici rəqiblər tərəfindən rəqabətin kəskinləşməsi ilə izah olunur. Satış və mənfəət aşağı düşdükcə, bəzi istehsalçı müəssisələr bazardan çıxmaq məcburiyyətində qalırlar. Belə bir hal yeni, daha səmərəli məhsulun, texnikanın hazırlanmasını zəruri edir, çünki istehsaldan vaxtında çıxarılmayan, köhnəlmiş məhsullar özlərinə əvəz axtarılmasına mane olurlar. Deyilənləri nəzərə alaraq, istehsalçı müəssisə özünün köhnəlmiş, tənəzzül dövrünə qədəm qoymuş məhsulları vaxtında aşkar edib və onu yenisi ilə əvəz etməlidir.

Məlumat üçün qeyd edək ki, istehsalçı müəssisələr yeni məhsulların, texnikanın və xidmətlərin işlənib hazırlanmasının zəruriliyini və bununla əlaqədar olan xeyirlərini get-gedə daha çox başa düşürlər. Çünki bazar iqtisadiyyatı şəraitində mövcud olan məhsulların həyat müddəti qısalır və onları yeniləri ilə əvəz etmək lazım gəlir. Lakin bunu düşünülmüş halda həyata keçirmək lazımdır, çünki yeni məhsul uğursuzluğa düçar ola bilər. Yenilikçiliklə əlaqədar olan risk böyükdür, fəqət onun gətirdiyi maddi xeyir də bir o qədər çoxdur. Müvəqqəti yenilikçilik fəaliyyətinin rəhni yeni məhsul ideyaları ilə işləmək üçün möhkəm təşkilati qurumların yaradılması, ciddi tədqiqatların və layihə-konstruktor işlərinin aparılması, həmçinin yeniliyin yaradılmasının bütün mərhələlərində əsaslandırılmış qərarların qəbul edilməsindədir. İstehsalın xarakterindən, həcmindən və mürəkkəblik dərəcəsindən asılı olaraq müxtəlif risk növləri vardır. Odur ki, riskləri təsnifləşdirmək lazım gəlir. Adətən, risklər aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

a) yeni texnika və mütərəqqi texnoloji proseslərin yaradılması üzrə layihələrin işlənib hazırlanmasına təsir xarakterinə görə – risklər qeyri-həyat qabiliyyətli risklərə, borcun ödənilməsi ilə əlaqədar olan risklərə və bitməmiş tikinti-quraşdırma işləri ilə əlaqədar olan risklərə ayrılır. Qeyri-həyat qabiliyyətli risklər layihənin kifayət qədər vəsaitlər axınını generasiya etmək qabiliyyəti olmaması imkanını nəzərdə tutur. Hətta daha yararlı layihələr də pul vəsaitlərinin axını üzrə müvəqqəti problemlərlə və kreditlər üzrə faizlərin ödənilməsində imkansızlıqlarla qarşılaşa bilər. Belə növ imkansızlıqlar borcların ödənilməsi üzrə risklər adlanır. Yeni texnika və texnologiya tətbiq edilən layihələrdə bitməmiş tikinti riskləri çox böyükdür, baxmayaraq ki, bu layihələrin cari dəyəri əvvəlcədən nəzərdə tutulduğu dəyərdən əhəmiyyətli dərəcədə fərqlənir;

b) yaranma mənbələrinə görə – texniki, qiymət, kredit, vergi, iqtisadi və siyasi risklər fərqləndirilir. Texniki risk dedikdə, texniki və texnoloji problemlərin həlli ilə əlaqədar olan risk nəzərdə tutur. Qiymət riski həm layihədə nəzərdə tutulmuş məhsulun, həm də layihənin həyata keçirilməsi zamanı istifadə olunan resursların qiymətlərinin dəyişilməsi ilə xarakterizə olunur. Vergi riski – tikinti-quraşdırma işlərinin müddətinin uzanması nəticəsində vergi güzəştlərinin alınmaması və yaxud vergi tariflərinin dəyişməsi ilə səciyyələnir. Kredit riski – götürülmüş kreditlər üzrə bankların faiz tariflərinə yenidən baxılması və yaxud onların artırılması ilə yaranan problemlər ilə bağlıdır. İqtisadi risklər ümumi iqtisadi durumun dəyişməsi və bu dəyişmələrin layihəyə təsiri imkanlarını özündə birləşdirir. Siyasi risklər bir çox müxtəlif problemlərin həlli ilə əlaqədar olaraq yaranır və bəzi hallarda onların da əsasında müxtəlif xarakterli toqquşmalar baş verir;



c) aradan qaldırılması imkanına görə – risklər müntəzəm (bazar, diversifikasiya olunmayan) və qeyri-müntəzəm (spesifik, diversifikasiya olunan) risklərə bölünür. Müntəzəm risklər iqtisadiyyatda baş verən diversifikasiya yolu ilə aradan qaldırmaq mümkün olmur. Bazar riskləri ümumi risklərin təqribən 30-50%-ni təşkil edir. Qeyri-müntəzəm risklər isə risklərin diversifikasiya yolu ilə, yəni müxtəlif layihələrə vəsaitlər qoymaqla aradan qaldırıla bilinən risklərdir.

Məlumat üçün qeyd edək ki, respublikamızda fəaliyyət göstərən bir çox xarici neft şirkətlərinin və digər təşkilatların kifayət qədər maliyyə vəsaitlərinə malik olmalarına baxmayaraq, uzunmüddətli borc kreditləşdirilməsinə üstünlük verirlər. Bunun müsbət cəhəti ondan ibarətdir ki, bu zaman riskin bir hissəsi borcu verən bank idarəsinə ötürülür.

Uzunmüddətli kreditləşmə kredit verən idarələr tərəfindən reqress (tənəzzül, geriləmə, dala qalma) dərəcəsinə görə üç qrupa ayrılır: birincisi, tam reqress hüquqlu kreditlər – borc vəsaitlərinin müəssisənin bütün vəsaitləri və istənilən maliyyə əməliyyatı hesabına qaytarılmasını nəzərdə tutur; ikincisi, reqress hüququ olmayan kreditlər və yaxud layihə maliyyələşdirilməsi yaranan borc vəsaitlərinin yalnız həyata keçirilən layihədən alınan gəlirlər hesabına ödənilməsini nəzərdə tutur. Bu zaman kredit idarələri üçün riskin dərəcəsi artır və buna görə də verilmiş kreditlər üzrə faiz tarifləri də yüksək olur; üçüncüsü, məhdud reqress hüquqlu kreditlər isə tam reqress hüquqlu və reqress hüququ olmayan kreditlərin verilməsi qaydalarının eyni zamanda qarışıq tətbiqini nəzərdə tutur.

Vəsaiti borc verən hüquqi, yaxud fiziki şəxs kreditor, alan isə – borclu adlanır. Kredit pul və texniki formada verilə bilər.

Müasir şəraitdə pul formasında verilən kredit üstünlük təşkil edir. Kreditdən səmərəli istifadə edilərsə, sənaye istehsalının inkişafına müsbət təsir göstərə bilər.

### 7.3. Texnoloji yeniləşmənin mahiyyəti və zəruriliyi

***Texnologiya*** – yunanca sənət, ustalıq, bacarıq deməkdir. Texnologiya aşağıdakı mənalarda işlədilir: a) istehsalat prosesində hazır məhsul almaq üçün işlədilən xammal, material və ya yarımfabrikatların emalı, hazırlanması, aqreqat halının, xassələrinin, formasının dəyişdirilməsi metodlarının məcmusudur. Texnologiyanın işlənib hazırlanması istehsalat sahələri üzrə (məsələn, maşınqayırma texnologiyası; cihazqayırma texnologiyası; kimya texnologiyası) həyata keçirilir. Texnika inkişaf etdikcə daima müxtəlif istehsalat texnologiyaları yeniləşdirilir və dəyişdirilir; b) kosmik texnologiyası – kosmik fəza şəraitində materialların alınması və onların özlərini necə aparması haqqında elmdir. Kosmik texnologiyada, əsasən, kosmik fəza şəraitinin, yəni temperaturun, vakuumun, kosmik şüalanmanın və çəkisizlik şəraitinin materialların xassələrinə birgə təsiri öyrənilir. Bu sahədə dünyada ilk eksperiment 1969-cu ildə «Soyuz-6» sovet kosmik gəmisində həyata keçirilmişdir.

***Texnoloji yeniləşmə*** – istehsal prosesində tətbiq edilən köhnə texnologiyanın daha mütərəqqi texnologiya ilə əvəz edilməsi prosesidir. Texnoloji yeniləşmə nəticəsində emal obyektləri keyfiyyətcə dəyişir. Texnoloji yeniləşmənin iqtisadi səmərəliliyi – məhsul vahidinə düşən xammal, material, yarımfabrikat, enerji məsrəflərinin xüsusi çəkisi, hazır məmulatın keyfiyyəti, əmək məhsuldarlığının səviyyəsi, prosesin intensivliyi, məhsulun maya dəyəri ilə səciyyələndirilir. Elmi-texniki tərəqqinin təsiri altında texnoloji yeniləşmə prosesi sürətlənir, daha yaxşı son nəticələr verən yeniləri mənimsənilir. Çevik və tullantısız texnologiyalar daha çox tətbiq edilir.

Çevik avtomatlaşdırılmış istehsalatlar (ÇAİ) – rəqəmli proqramla idarə olunan dəzgahların, emal mərkəzlərinin, mini HEM ilə birləşdirilən avtomatik anbarların daxil olduğu, müəyyən idarəetmə proqramları dəsti ilə təchiz olunan və çoxnomenklaturalı maşınqayırma istehsalının avtomatlaşdırılmasını



təmin edən avtomatlaşdırılmış texnoloji sistemlərdir. ÇAİ bir məmulatın emalından tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir. ÇAİ istehsal tələbi ilə müəyyən olunan müxtəlif formalarda çox müxtəlif dəzgah hissələrinin, mühərriklərin, nəqliyyat vasitələrinin, turbinlərin düzəldilməsi üçün tətbiq edilir. ÇAİ-nin köməyi ilə geniş dairədə əməliyyatlar – kontur (çevrə) frezerləmə, səthin frezerlənməsi, burğu ilə deşmə, naxışvurma, xarrat-ağac emalı, karusel dəzgahlarda emal, diş frezerlənməsi, cilalama və bir çox digər əməliyyatlar yerinə yetirilir. ÇAİ dəqiqlik, itihərəkətlilik və davamçılıq kimi ən yüksək tələblərə cavab verməlidir.

Tullantısız texnologiyanın mahiyyəti, itkilərin və tullantıların maksimum mümkün olan qədər və hətta tam aradan qaldırılmasından ibarətdir. Tullantısız və aztullantılı texnologiyanın tətbiqi «istehsal-istehlak-təkrar maddi ehtiyatlar» tsiklində xammal və enerjidən daha səmərəli və kompleks istifadə olunur, ətraf mühitə zərərli təsir göstərilmir. Tullantısız və az tullantılı texnologiyanın tətbiqində məqsəd «istehsal-istehlak» kimi qapalı sistemə, yəni istehsal və istehlak sahələri ilə ətraf mühit arasında obyektiv şəkildə mövcud olan qarşılıqlı əlaqəni nəzərə almaqla qapalı tullantısız tsikl yaratmağa nail olmaqdan ibarətdir. Tullantısız və az tullantılı texnologiyanın səmərəliyi xammaldan istifadə əmsalı, məhsul istehsalına çəkilən xərclərin azalması, hazır məhsul alınmasının artması, xammal hasilatına çəkilən məsrəflərin azalması, investisiya qoyuluşundan götürülən faydanın artması kimi göstəricilərlə ölçülə bilər.

Texnoloji yeniləşmənin təmin olunmasında ETT, səmərələşdiricilik, ixtiraçılıq və innovasiya fəaliyyətinin rolu və əhəmiyyəti danılmazdır. Bu sahədə elmi-texniki tərəqqi, xüsusi ilə texniki-texnoloji yeniləşmə mühüm rol oynayır. Elmi-texniki tərəqqi təkcə məhsuldar qüvvələrin yüksəldilməsindən ibarət olmayıb, o, eyni zamanda cəmiyyətdə siyasi, iqtisadi, mədəni, təbii-bioloji və s. bu kimi proseslərlə bağlı köklü dəyişikliklərin baş verməsində həlledici rola malikdir.

Ümumiyyətlə, elmi-texniki tərəqqi – iri maşınlı istehsala xas olan elm və texnikanın irəliləyə doğru və qarşılıqlı əlaqədə inkişafıdır. ETT elmi axtarışlar, konstruksiyaetmə, məmulatların təcrübə-sınaq halında hazırlanması və onların mənimsənilməsi

üçün tətbiqini əhatə edən ardıcıl əməliyyatların (fəaliyyət növlərinin) vəhdətliyi prosesini özündə birləşdirir. Odur ki, ETT istehsalın intensivləşdirilməsinin müəyyənedici amilidir. Lakin buna baxmayaraq, ETT-nin müəyyən edilməsində son illərədək bəzi qeyri-müəyyənlik vardır, yəni onun mahiyyəti və məzmunu haqqında yekdil fikir yox idi. Məsələn, bəzən ədəbiyyatlarda ETT dedikdə, yalnız əmək vasitələrinin təkmilləşdirilməsi prosesi nəzərdə tutulurdu. Belə bir anlayış əslində ETT-nin mahiyyətini tam xarakterizə etmirdi və onun məzmununu müəyyən qədər daraldırdı. Düzdür, əmək vasitələrinin təkmilləşdirilməsi ETT-nin təsiri altında baş verir və onun istiqamətlərindən biridir. Bununla belə, ETT-nin mahiyyəti, məzmunu bununla bitmir, yəni ETT əmək vasitələrinin təkmilləşdirilməsindən başqa, istehsalın idarə edilməsinin qabaqcıl üsul və formalarının tətbiqini, mövcud maşın və avadanlıqların modernləşdirilməsini, yeni növ avadanlıqların, materialların yaradılmasını, buraxılan məmulatların yeniləşdirilməsini, istehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsi səviyyəsinin yüksəldilməsini, əməyin və istehsalın təşkilinin qabaqcıl forma və üsullarının tətbiqini də özündə əks etdirir.

ETT-nin mahiyyətinin dürüst müəyyənləşdirilməməsi üzündən son illərədək və indinin özündə də bəzi ədəbiyyatlarda ETT ilə əlaqədar bir sıra anlayışlara, terminlərə rast gəlmək olur. Məsələn, indinin özündə də bir çox hallarda ədəbiyyatlarda tez-tez *«Texnikanın inkişafı», «Elmin inkişafı», «Elmi-texniki tərəqqi», «Elmi tərəqqi», «Elmi-texniki inqilab», «Elmi-texniki potensial», «Texniki tərəqqi», «Elmi-texniki inkişaf»* və s. anlayışlara, terminlərə rast gəlmək olur. Lakin belə müxtəlif anlayışların, terminlərin meydana gəlməsinə baxmayaraq, onların hamısı elmin və texnikanın inkişafını özündə əks etdirir və beləliklə də ETT-nin mahiyyətini tam şəkildə olmasa da qismən səciyyələndirir.

İqtisadi inkişafın müxtəlif dövrlərində ETT-nin özünəməxsus xüsusiyyətləri və fərqləndirici cəhətləri olmuşdur. Məsələn, istehsalın ekstensiv yolla artırılmasında ETT, əsasən, mövcud maşın və avadanlıqların texniki parametrlərinin yaxşılaşdırılmasına yönəldiyi halda, intensiv artımda prinsipcə yeni, əvvəlki dövrlərdə mövcud olmayan texnika və texnologiya yaradılır və istehsala geniş tətbiq edilir. İctimai tələbatın artmasının və mürəkkəbləşməsinin təsiri altında ETT də sürətlənir ki, bu da təbii sərvətləri və ehtiyatları insanların xidmətinə yönəltməyə, istehsalı təbiət və başqa elmlərin məlumatlarının məqsədyönlü tətbiqinin texnoloji prosesinə çevirməyə imkan verir. ETT-nin fasiləsizliyi, hər şeydən öncə, təbiətin və cəmiyyətin yeni xüsusiyyətlərini və qanunlarını kəşf edən fundamental tədqiqatlardan, habelə elmi ideyaları yeni texnika və texnologiyada təcəssüm etdirməyə imkan verən tətbiqi tədqiqatlardan və təcrübə-konstruktor işləmələrindən asılıdır.



Fundamental tədqiqatlar – yeni biliklərin əldə edilməsinə, təbiətin və təfəkkürün inkişaf qanunlarını aşkara çıxarmağa imkan verir. Fundamental tədqiqatların nəticələri tətbiqi tədqiqatların aparılmasının əsasıdır. Odur ki, elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin etmək üçün fundamental tədqiqatlar öz inkişafında tətbiqi tədqiqatları qabaqlamalı və onlar üçün nəzəri əsas yaratmalıdır.

Tətbiqi tədqiqatlar – nəticəsində praktiki məsələlər həll edilir. Odur ki, tətbiqi tədqiqatların nəticələri təcrübədə bilavasitə tətbiq edilir, yeni texnoloji proseslərdə, konstruksiyalarda, materiallarda və s. öz əksini tapır.

Təcrübə-konstruktor işləmələri – özünə təcrübə nümunələrinin layihələşdirilməsini, hazırlanmasını, sınaqdan çıxarılmasını və sazlanmasını, həmçinin yeni məhsulun, yaxud yeni texnoloji proseslərin seriyalı və kütləvi istehsalının sonrakı təşkili üçün lazım olan texniki sənədlərin buraxılışını daxil edir. Təcrübi-konstruktor işləmələri nəzəri tədqiqatlara, ixtiralara, istehsal yenilikçilərinin təkliflərinə əsaslanır.

Təcrübə istehsalı – yeni məhsul növlərinin, yaxud texnoloji proseslərin yaradılmasının mühüm mərhələsi, təcrübə-konstruktor, yaxud elmi-tədqiqat təşkilatlarının əsas fəaliyyət növlərindən biridir. Təcrübə istehsalı elmi tədqiqat, yaxud təcrübə-konstruktor işlərinin yüksək keyfiyyətlə başa çatdırılmasında, layihə-konstruktor sənədlərinin hazırlanmasında mühüm rol oynayır.

ETT bir-birindən asılı olan iki formada həyata keçirilir: birincisi, elm və texnikanın ənənəvi əsaslarının nisbətən yavaş və qismən təkmilləşdirilməsini bildirən təkamül formada. ETT-nin

təkamül formasının mahiyyəti texnika və texnologiyanın mövcud çərçivəsində əmək alətlərinin təkmilləşdirilməsindən, onların kəmiyyətcə artmasından ibarətdir. Bu, bir qayda olaraq, maşın və mexanizmlərin gücünün və məhsuldarlığının artırılmasında öz əksini tapır; ikincisi, elmi-texniki inqilab şəklində keçən inqilabi formada. Bu forma prinsipcə yeni texnika və mütərəqqi texnologiya doğurur, cəmiyyətin məhsuldar qüvvələrinin köklü dəyişilməsinə səbəb olur. ETİ XX əsrin 40-50-ci illərində böyük elmi-texniki kəşflər nəticəsində başlamışdır. 1970-ci ildən ETİ-nin yeni mərhələsi başlanmışdır ki, onun da əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

a) hesablayan elektron maşınları (HEM) – informasiyanın işlənməsi prosesini və hesablamaları avtomatlaşdırmağa imkan verir. İnformasiyaları işləmək üsuluna görə oxşar hesablayan maşınları (OHM), rəqəmlə hesablayan maşınlar (RHM) və hidrid hesablayan maşınlar (HHM) fərqləndirilir. Sənayedə bir neçə mindən on və yüz milyona qədər əməliyyatı yüksək sürətlə icra edən RHM daha geniş yayılmışdır. Təyinatına görə hesablayan elektron maşınlar ixtisaslaşdırılmış, yəni məhdud dairədə xüsusi məsələləri həll etmək üçün və universal, məsələn, geniş əhatəli məsələləri həll etmək üçün maşınlara ayrılır.

b) kompleks mexanikləşdirmə və avtomatlaşdırma – bir-birinə uyğun gələn rejimlərdə maşın və digər avadanlıqlar yaradılması və tətbiqi əsasında həyata keçirilir; belə maşın və avadanlıqlar məhsuldarlığa görə bir-birilə əlaqəli olur və texnoloji prosesin daha yaxşı yerinə yetirilməsini təmin edir. Bu zaman əl əməyindən maşınları idarə etməkdə, nizamlamaqda və sazlamaqda, həmçinin əməyi yüngülləşdirmək və məhsuldarlığı yüksəltmək üçün mexanikləşdirilməsi o qədər də mühüm əhəmiyyət kəsb etməyən və iqtisadi cəhətdən məqsədəuyğun olmayan az əməktutumlu proseslərdə istifadə olunur. İstehsalın mexanikləşdirilməsinin ən yüksək mərhələsi istehsalın avtomatlaşdırılmasıdır, bu, əməyin mexanikləşdirilməsini başa çatdırır və insanın bilavasitə iştirakı olmadan bütün iş tsiklini həyata keçirməyə imkan yaradır və texnikanın keyfiyyətcə yeni inkişaf mərhələsi sayılır. Müasir dövrə istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılmasının ən mütərəqqi istiqaməti – rəqəmli proqramla idarə edilən dəzgahların və çevik avtomatlaşdırılmış istehsalların tətbiqidir; bunlar bütün əməliyyatların, o cümlədən anbarlarda pəstahların iş yerinə çatdırılması, məmulat hazırlanması və hazır məhsulun anbarlara daşınmasının avtomatlaşdırılması ilə xarakterizə edilir.

c) prinsipcə yeni materiallar, onların istehsalı və emalı texnologiyası. Prinsipcə yeni materiallara misal olaraq konstruksiya materiallarını göstərmək olar. Konstruksiya materialları – son zamanlar iqtisadiyyatın bütün sahələrində geniş tətbiq olunur. Konstruksiya materiallarının mühüm göstəriciləri onların möhkəmlik keyfiyyətləridir: sıxılmaya, dartılmaya müqavimətli, əyilməyə meylli, vibrasiya yükləmələrinə davamlı olması, habelə maşınlar, avadanlıqlar, tikinti qurğuları layihələşdirilərkən nəzərə alınan bir sıra xüsusi xassələri olması. Bu xassələr arasında müəyyən möhkəmlik keyfiyyətinə malik olmaqla yüngüllük, aşınmaya davamlılıq, elektrik və istilik keçirmə, qaz keçirmə qabiliyyəti və s. xassələr var. Yeni texnikanın layihələşdirilməsi prosesində konstruksiya materiallarının növünü seçərkən onların texniki-iqtisadi parametrlərindən – dəyərindən, istifadə əmsalından və müxtəlif emal şəraitində əməktutumundan və s. istifadə edilir.

ç) biotexnologiyanın sürətli inkişafı – bir çox material və preparat çeşidini genişləndirməyə, istehsalını xeyli ucuzlaşdırmağa və səmərəliliyini artırmağa, insan fəaliyyətinin ətraf mühitə mənfi təsirini kəskin azaltmağa imkan verir.

Müasir dövrdə elmi-texniki tərəqqi və onun nəticələrindən hərtərəfli istifadə olunması sayəsində elm, ictimai istehsalın inkişafının aparıcı amillərinə çevrilmişdir. Bu baxımdan yeni cisim, maddə və materialların yaradılması, yeni enerji mənbələrinin aşkar edilməsi, resursların işlədilməsinin və qorunmasının yeni sistemlərinin formalaşması, ictimai istehsalın təşkilinin mütərəqqi formalarının yaradılması, onun texnoloji cəhətdən modernləşdirilməsi, kimyalaşdırılması, ixtisaslaşdırılması, ictimai əmək bölgüsünün dərinləşməsi, kompüterləşdirilməsi və s. istiqamətlərdə ictimai istehsalın inkişafına təsir edir.

Bazar iqtisadiyyatına keçid dövründə istehsalın maddi əsasında baş verən keyfiyyət və buna müvafiq kəmiyyət dəyişiklikləri bilavasitə elmi-texniki tərəqqinin inkişafı ilə yaranmışdır. Alimlərin qeyd etdikləri kimi, son onilliklərdə elm dünya-

nın insan tərəfindən dərk edilmiş mühüm sahələrini xeyli dərinləşdirmiş və biliklərimizi bir çox qanunauyğunluqlarla zənginləşdirmişdir. Bu aspektdən müasir elmi-texniki tərəqqiyə aşağıdakı amilləri aid etmək olar:

– elmin bilavasitə məhsuldar qüvvəyə çevrilməsi;

– ictimai əmək bölgüsünün get-gedə dərinləşməsi;

– məhsuldar qüvvələrin bütün ünsürlərinin keyfiyyətcə yeniləşməsi;

– informasiyanın iqtisadi və sosial əhəmiyyətinin yüksəldilməsi və kommunikasiya vasitələrinin geniş şəbəkəsinin yaradılmasını.

Beləliklə, ETT istehsalın intensivləşdirilməsində və səmərəliliyinin yüksəldilməsində mühüm rol oynayır, ona görə ki:

– ETT istehsal texnologiyasını müntəzəm surətdə təkmilləşdirir və dəyişir. Belə ki, fəaliyyətdə olan əmək vasitələrinin modernləşdirilməsi nəticəsində onların texniki-iqtisadi parametrləri, göstəriciləri yaxşılaşır. Əmək vasitələrinin modernləşdirilməsi – fəaliyyətdə olan əmək vasitələrinin təkmilləşdirilməsi və onlarda əməli dəyişiklik aparmaq, qovşaq və hissələri əvəz etmək, istehsal əməliyyatlarını mexanikləşdirmək və avtomatlaşdırmaq üçün yeni tərtibatlar və cihazlar quraşdırmaqla, onların istehsalın müasir texniki-iqtisadi səviyyəsinə cavab verən vəziyyətə gətirilməsi prosesidir. Əmək vasitələrinin modernləşdirilməsi əsas fondların, başlıca olaraq, əmək alətlərinin və hər şeydən öncə texnoloji maşın və avadanlıqların daim təzələnməsi formasıdır. O, maşın və avadanlıqların texniki səviyyəsinin yüksəldilməsini, işin iqtisadi göstəricilərinin yaxşılaşdırılmasını təmin edən bəzi konstruksiya dəyişiklikləri etməyi nəzərdə tutur və əsas fondların mənəvi aşınmasını qismən aradan qaldırmağa imkan verir.

– ETT əməyin xarakterini və məzmununu dəyişir, yeni peşələrin yaranmasına və köhnə peşələrin ləğvinə səbəb olur, fəhlələrin ümumi tərkibində yüksək ixtisaslı fəhlələrin xüsusi çəkisini artırır və beləliklə də ETT-nin təsiri altında müəssisənin əmək kollektivlərinin strukturunda müsbət dəyişikliklər baş verir ki, bu da mövcud maşın və avadanlıqlardan daha səmərəli istifadə etmək üçün geniş imkanlar yaradır. Əməyin məzmunu – tətbiq edilən texnikanın, texnologiyanın və istehsalın təşkilinin növü ilə müəyyən olunur. Texniki tərəqqi nəticəsində istehsalda ağır əl əməyinin xüsusi çəkisi azalır, əqli əməyin əhəmiyyəti və xüsusi çəkisi artır.



– əmək cisimlərinin tərkibində və xarakterində çox böyük dəyişikliklər bilavasitə ETT ilə bağlıdır. Belə ki, ETT nəticəsində yeni süni materiallar yaradılır ki, bunlar da öz keyfiyyət göstəricilərinə görə təbii materiallardan heç də geri qalmırlar. Süni materiallardan istifadə edilməsi, yəni təbii materialların süni materiallarla əvəz olunması məhsulun maya dəyərini aşağı salmağa və əmək məhsuldarlığını yüksəltməyə imkan verir. Süni materiallara misal olaraq konstruksiya materiallarını göstərmək olar.

– ETT mövcud texnoloji proseslərin təkmilləşdirilməsində və daha mütərəqqi texnologiyanın yaradılmasında çox böyük rol oynayır. Sənaye müəssisələrində tullantısız, yaxud az tullantılı texnologiyanın tətbiqi istehsalın səmərəliliyinin yüksəldilməsinə səbəb olur.

– ETT istehsalın ünsürlərindən, yəni əmək ehtiyatlarından, əmək alətlərindən və əmək cisimlərindən daha səmərəli istifadə edilməsi üçün geniş imkanlar açır. Belə ki, ETT istehsalın fasiləsizliyini təmin edir, maşın və avadanlıqların boşdayanma hallarını minimuma endirir, əmək şəraitinin yaxşılaşdırılması əsasında iş vaxtından səmərəli istifadə olunmasına şərait yaradır və deməli, əmək məhsuldarlığının yüksəldilməsinə səbəb olur.

– ETT işçilərin ixtisasının artırılmasını və onların mədəni-texniki səviyyəsinin yüksəldilməsini, yeni peşələrin əmələ gəlməsini və ağır fiziki əməklə məşğul olan işçilərin sayının azaldılmasını təmin edir. Məsələn, 1990-cı ildə sənayedə ağır fiziki əməklə məşğul olan işçilərin sayı 7804 nəfər olduğu halda, həmin rəqəm 1995-ci ildə – 4032, 2000-ci ildə 1948 və 2003-cü ildə isə 1010 olmuşdur.

– sənaye istehsalının mütərəqqi strukturunun yaradılmasına şərait yaradır. Bu isə məhsulun maya dəyərinin aşağı salınmasının və müəssisənin xarici-iqtisadi fəaliyyətinin genişləndirilməsinin və onun ixrac potensialının artırılmasının zəruri şərtlərindən biridir.

– ETT-nin nailiyyətləri əsasında sənaye istehsalı texnoloji cə-

hətdən yenidən qurulur və yeni infrastrukturlar yaradılır. Ümumiyyətlə, infrastruktur dedikdə, istehsalın ümumi şəraitini və adamların həyat fəaliyyətini təmin edən kompleks təsərrüfat sahələri nəzərdə tutulur. İstehsal və sosial-məişət infrastrukturu fərqləndirilir. İstehsal infrastrukturunun inkişafı istehsalın daha da intensivləşdirilməsinin, cəmiyyətin artan maddi və mənəvi tələbatının ödənilməsi və insan amilinin fəallaşması ilə bağlı olan sosial məsələlərin həllinin zəruri şərtidir. Son zamanlar beynəlxalq əmək bölgüsünün dərinləşməsi və ölkələr arasında iqtisadi əlaqələrin genişləndirilməsi nəticəsində beynəlxalq istehsal infrastrukturu da meydana gəlmişdir. Beynəlxalq istehsal infrastrukturu – xarici iqtisadi fəaliyyətə və beynəlxalq ünsiyyətə xidmət edən nəqliyyat sisteminin, informasiya və rabitə sisteminin, ətraf mühitin mühafizəsini, təbii ehtiyatlardan səmərəli istifadəni, birgə obyektlərin normal fəaliyyətini təmin edən bir çox obyekt və qurğuların milli ünsürlərinin məcmusu deməkdir.

***Səmərələşdiricilik*** – sahənin istehsal-təsərrüfat fəaliyyətinin təkmilləşdirilməsinə və səmərəliyinin yüksəldilməsinə yönəldilmiş yeni texniki həllər işlənib hazırlanmasıdır. Səmərələşdiriciliyin nəticəsi məhsulun texniki xarakteristikasının, texnoloji proseslərin, maşın və avadanlıqların, əməyin və istehsalın təşkilinin dəyişməsini nəzərdə tutan tədbirlərdən ibarətdir. Bazar iqtisadiyyatı səmərələşdiricilik fəaliyyətinin inkişafı üçün geniş imkan açır.

***İxtiraçılıq*** – konkret texniki məsələnin həllinin yaradıcı prosesidir. İxtiraçılıq fəaliyyətinin nəticəsi müəyyən edilmiş qaydada rəsmiləşdirilən və qeydə alınan yeni texniki həllidir-ixtiradır. Elmi-texniki tərəqqinin sürətləndirilməsi konsepsiyasının həyata keçirildiyi bir şəraitdə təsərrüfat mexanizminin təkmilləşdirilməsi ilə yanaşı, bilavasitə insan amilinin fəallaşması, ixtiraların istehsalata tezliklə tətbiqində həm ixtiraçıların özlərinin, həm də müəssisə rəhbərlərinin marağının artırılması ilə bağlıdır. Bazar iqtisadiyyatı şəraitində müəssisələr əmək kollektivinin bütün üzvlərini elmi-texniki tərəqqi vəzifələrinin həllinə cəlb etməyə, məhsulun keyfiyyətini, istehsalın təşkili səviyyəsini və istehsal mədəniyyətini yüksəltməyə, əmək kollektivlərinin elmi-texniki yaradıcılığını hər vasitə ilə həvəslən-



dirməyə nail olurlar. Adətən, sənaye müəssisələrində ixtiraçılıq və səmərələşdirmə üzrə işləri özlərində təşkil edirlər və əldə etdikləri mənfəət hesabına onların həyata keçirilməsinə sərf olunan xərcləri ödəyirlər.

### 7.4. Texnoloji yeniləşmədə innovasion fəaliyyətin rolu və əhəmiyyəti

Sahənin innovasion fəaliyyəti elmi-texniki, intellektual potensialı səfərbər edərək, sənaye istehsalının səmərəliliyinin və digər iqtisadi inkişafa nail olmaları əhatə edən, özündə birləşdirən kompleks təşkili, texniki, iqtisadi və sosial tədbirlər sistemidir. Məhsuldar və prosesli olmaqla texnoloji innovasiya hər iki istiqamətdə sənayedə əhəmiyyətini nümayiş etdirə bilər. Sahə elminin vəziyyəti indiki elmi-tədqiqat işlərinə, layihə-konstruktor işləmələrinə və innovasion fəaliyyətlərə olan tələblərə cavab vermir. Laborator avadanlıqların fiziki və mənəvi aşınması müasir elmi-texniki tədqiqatların aparılmasına imkan vermir. Bu baxımdan son illərdə sənayedə prinsipial olaraq texnoloji yeniləşmə, yeni radikal məhsuldar innovasiya prosesi həyata keçirilir.

Texnika və texnologiyanın geniş həcmdə dəyişdirilməsi, yeniləşdirilməsi müəyyən problemlərin yaranmasına səbəb ola bilər. Odur ki, sənayedə, eləcə də iqtisadiyyatın digər sahələrində yeniləşmə prosesini həyata keçirərkən, onu texniki-iqtisadi cəhətdən əsaslandırmaq lazımdır. Bir tərəfdən, istehsalın texnoloji cəhətdən yeniləşməsinin lazımi səviyyədə olmaması əmək məhsuldarlığını yüksəltməyin bütün imkanlarından istifadə olunmasına imkan vermir, digər tərəfdən isə – əgər istehsalın texnoloji cəhətdən yeniləşdirilməsi əlavə investisiya qoyuluşunun ödənilməsini təmin etmirsə, istehsalın texnoloji cəhətdən yenidən qurulması özünü doğrultmaya bilər.

Hazırda dünya iqtisadiyyatında yeni bir meyl, yəni qeyri-material resurslarının ÜDM-də xüsusi çəkisinin artması nəzərə çarpır. Belə bir hal daha çox sənayecə inkişaf etmiş ölkələrdə müşahidə olunur. Məsələn, iqtisadiyyatca inkişaf etmiş ölkələrdə qeyri-material resurslarına çəkilən xərclər ümumi istehsal xərclərinin xeyli hissəsini təşkil edir. İnnovasion fəaliyyətin

inkişaf etdirilməsi onun elmi-texniki potensialının durumu, keyfiyyət və kəmiyyət parametrləri ilə əlaqədardır. Elmi-tədqiqat işlərinin vəziyyəti, elmi tutumluluq səviyyəsi, ixtisaslı kadr potensialı, ixtiraçılıq təcrübəsi və təşəbbüskarlıqlı, informasion təminat, erqonomik vəziyyət, idarəetmə qabaqcıllığı və əsasən də maliyyə imkanlılığı ilə ölçülür. Sənayenin texnoloji cəhətdən yenidən qurulmasında göstərilən amillər içərisində elmi-texniki potensial əsas təşkil edir.

***Elmi-texniki potensial*** – sahənin qarşısında duran elmi-texniki inkişaf vəzifələrinin həlli üçün nəzərdə tutulan kadr, maddi-texniki, informasiya və təşkilati ehtiyatların məcmusudur. Elmi-texniki potensial hər şeydən öncə elmi-tədqiqat işləri və təcrübə-konstruktor işləmələri üzrə ixtisaslaşdırılmış bütün elmi-tədqiqat müəssisələri ilə, onların laboratoriya, sınaq, stend avadanlıqları və s. avadanlıqlarla təchiz edilməsi ilə, ixtisaslı mütəxəssislərin və elmi-yaradıcı heyətin olması ilə müəyyən olunur. Elmi-texniki potensialın inkişafı və ondan səmərəli istifadə sənaye istehsalının texnoloji cəhətdən qurulmasının, elmi-texniki tərəqqinin sürətləndirilməsinin, elmi tədqiqatların intensivləşdirilməsinin, «elm-texnika-istehsal» tsiklinin qısaldılmasının mühüm şərtidir.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən ölkələrin uzunmüddətli təcrübəsi göstərir ki, maddi istehsalın inkişafında innovasion fəaliyyət mühüm rol oynayır. Bu, müstəqil respublikamız üçün daha önəmlidir, çünki bizdə hələlik maddi istehsal sahələrinin yeni texnika və mütərəqqi texnoloji proseslərlə silahlanma səviyyəsi digər inkişaf etmiş ölkələrə nisbətən xeyli aşağı səviyyədədir. Bunun da nəticəsində Azərbaycan Respublikasında istehsal olunan bir çox məhsulların keyfiyyəti dünya standartlarına cavab vermir. Odur ki, bazar iqtisadiyyatına keçid dövründə sənaye müəssisələri elm və texnika nailiyyətlərini, ixtiraları istehsalata tətbiq edərək öz fəaliyyət sferasını daima təkmilləşdirməyə və genişləndirməyə çalışmalıdırlar. ***Elmi-texniki tərəqqinin nailiyyətləri istehsalata yeniliklər formasında tətbiq edilir ki, buna da innovasiya deyilir. Başqa sözlə, innovasiya – texnika və texnologiyanın yeni nəslini təmin edəcək bir proses kimi vəsaitlərin iqtisadiyyatda yerləşdirilməsi; obyekt kimi isə – elmi-texniki tərəqqinin nailiyyətləri olan yeni texnika və mütərəqqi texnologiya deməkdir.***



İnkişaf etmiş ölkələrdə, eləcə də Azərbaycan Respublikasında son zamanlar innovasion fəaliyyətin təşkili və inkişafına diqqət xeyli artmışdır. İnnovasion fəaliyyətə diqqət XX əsrin 70-ci illərində Qərb ölkələrində, respublikamızda isə 1990-cı ildən sonra yaranmağa başlamışdır. İnnovasion fəaliyyətin təşkilinin fərqləndirici cəhəti ondan ibarətdir ki, o, elm və texnikanın hərtərəfli tətbiqinə, yeni növ məhsulların işlənib hazırlanmasına, mütərəqqi texnoloji proseslərin yaradılmasına, mövcud məhsul növlərinin keyfiyyətinin yaxşılaşdırılmasına və əmək vasitələrinin modernləşdirilməsinə, yaradıcılıq axtarışlarına və yenilikçilərə, iqtisadi artımın əldə edilməsinə və s. yönəldilmişdir. Deməli, innovasion fəaliyyət yalnız müəssisənin sərəncamında olan iqtisadi ehtiyatları deyil, həmçinin istehsal, bölgü, mübadilə və istehlakla əlaqədar olan münasibətlərin bütün kompleksini əhatə edir və konkret müəssisənin texniki, iqtisadi, elmi, kadr və s. potensialına əsaslanır.

***İstehsal*** – maddi nemət və xidmətlərin hazırlanması prosesidir. İnsan məhsul istehsal edərkən təbiətin obyektlərinə təsir göstərir, onu maddi tələbatın ödənilməsi üçün məqsədəuyğun formaya salır. Deməli, istehsal – bilavasitə istehlak və yaxud gələcək istehsal üçün təbiət cisimlərinin emalıdır. İstehsalın belə funksiyası onun hər bir sosial formasında saxlanılır və istehsal resurslarına əsaslanır. ***İstehsal resursları*** dedikdə, əmtəələr, xidmətlər və digər dəyərlərin yaradılması prosesində istifadə olunan təbii, sosial və mənəvi qüvvələrin məcmusu nəzərdə tutulur. İstehsal resursları çox müxtəlif və rəngarəngdir. Onları aşağıdakı dörd qrupa ayırmaq olar:

***Təbii resurslar*** – insanların maddi və mənəvi tələbatını ödəmək məqsədilə cəmiyyət tərəfindən istifadə edilən və ya istifadə edilməsi mümkün olan təbiətin bir hissəsidir. Təbii resursların ən mühüm növləri mineral, torpaq və su ehtiyatlarından, bitki və heyvanat aləmindən, atmosfer havasından və günəş enerjisindən ibarətdir. Bu və ya digər ərazidəki mövcud təbii ehtiyatların bütün məcmusu və onlardan istifadənin xarakteri nəzərə alınmaqla qiymətləndirilməsi təbii ehtiyat potensialını təşkil edir. Ölkənin təbii ehtiyat potensialı onun milli sərvətinin mühüm tərkib hissəsidir.

***Maddi resurslar*** – istehsal ehtiyatlarının mühüm tərkib hissəsi olub, ictimai məhsul istehsalı prosesində istifadə üçün nəzərdə tutulan əmək cisimlərinin məcmusudur. Maddi ehtiyatlar natural-əşya tərkibinə görə hasilat sənayesi məhsullarından, kənd təsərrüfatı xammalından, həmçinin gələcəkdə yenidən emal, yaxud yığılmaq üçün nəzərdə tutulan emal sənayesi məhsullarından, o cümlədən yarımfabrikatlardan, qovşaqlardan, hissələrdən, komplektləşdirici məmulatlardan və s.-dən ibarətdir. İstehsalın spesifikliyindən asılı olaraq istehsal xərclərinin tərkibində material ehtiyatlarının bu və ya digər növlərinin əldə edilməsinə çəkilən xərclərin xüsusi çəkisi xeyli fərqlənir, sənaye sahələri isə müvafiq olaraq metal tutumlu, enerji tutumlu, yanacaq tutumlu olur.

***Əmək resursları*** – ölkə əhalisinin iqtisadiyyatın bu və ya digər sahəsində işləmək üçün məcmu fiziki və mənəvi qabiliyyətə, ümumi təhsil və peşə biliyinə malik hissəsidir ki, bu da ölkənin iqtisadi potensialını mühüm ünsürüdür. Əmək ehtiyatlarına aiddir: ictimai istehsalda məşğul olan 16-63 yaşlı kişilər; 16-61 yaşlı qadınlar. Müasir dövrdə əmək ehtiyatlarının tərkibində struktur dəyişikliklərinin xarakterik meyli – qeyri-istehsal sahələrində məşğul olanların xüsusi çəkisinin artmasından ibarətdir ki, bu da istehsalın səmərəliliyinin yüksəldilməsini göstərir. Məsələn, 1990-cı ildə sənaye müəssisələrində çalışan ümumi işçilərin tərkibində qeyri-istehsal sahələrində çalışanların xüsusi çəkisi 27,5% təşkil edirdisə, həmin rəqəm 1995-ci ildə – 29,8%, 2000-ci ildə – 31,9% və 2003-cü ildə isə 33,1% olmuşdur.

***Maliyyə resursları*** – müəssisə və təşkilatların sərəncamında olan pul vəsaitləridir. Müəssisələrin maliyyə ehtiyatlarının tərkibinə onların əldə etdikləri mənfəət, amortizasiya ayırmaları, dövlət sosial sığorta büdcəsinə ödəmələr, əhalinin dövlət tərəfindən maliyyə sisteminə səfərbər edilən vəsaiti və gəlir vergisidir.

Yuxarıda göstərilən resurslardan təbii, maddi və əmək resursları istənilən istehsala məxsusdur. Ona görə də bunlar «baza» resursları, bazar mərhələsində yaranan maliyyə resursları isə «törəmə» resursları adlanır. İstehsalın hər bir ünsürü öz sahibinə gəlir gətirməyə qabildir. Gəlir dedikdə, müəyyən vaxt ərzində təsərrüfat fəaliyyəti nəticəsində əldə edilən pul vəsaiti nəzərdə tutulur. Gəlirin yaranma mənbələri olduqca müxtəlifdir. Məsələn, mənimsəmə subyektindən asılı olaraq gəlirlər əhali gəlirlərinə, müəssisə gəlirlərinə və dövlət gəlirlərinə ayrılır. Müəssisənin gəlirinin aşağıdakı üç növünü fərqləndirirlər:



***Müəssisənin ümumi gəliri*** – onun istehsal-təsərrüfat fəaliyyəti nəticəsində cari ildə müəssisənin hesabına daxil olan pul vəsaitlərinin əməyin ödənilməsi fondunun və müəssisənin xalis gəlirinin yaradılmasına yönəldilə bilən hissəsidir. Məhsulun, sənaye xarakterli işlərin və xidmətlərin realizəsindən götürülən qazancdan əmələ gəlir; bu qazanca, həmçinin müstəqil balansda olan və özünün qeyri-sənaye təsərrüfatlarına məhsul realizə etməkdən və əmək kollektivlərinə pullu xidmətlər göstərməkdən götürülən qazanc da daxildir.

***Müəssisənin təsərrüfat hesablı gəliri*** – əməyin ödənilməsi üçün müəssisənin tam sərəncamına daxil olan vəsaitdən və mənfəətin bir hissəsindən ibarətdir. Təsərrüfat hesablı gəlir müəssisə kollektivinin istehsal və sosial inkişafının mənbəyidir. Müasir şəraitdə təsərrüfat hesablı gəlir müəssisədən götürülə və yenidən bölüşdürülə bilməz.

***Müəssisənin xalis gəliri*** – müəssisə işçilərinin əməyi ilə yaradılmış izafi məhsulun pulla ifadəsidir; məhsulun realizə qiymətində hesablanmış dəyəri ilə tam maya dəyəri arasındakı fərqdən yaranır. Xalis gəlirin ümumi məbləğində mənfəətin payı çoxdur.

***Bölgü*** – ictimai istehsalın zəruri ünsürlərindən biridir. O, istehsal vasitələri və istehlakçıların cəmiyyətdəki bölgüsünü və istehlak şeylərinin bölgüsünü əhatə edir. Bölgünün xarakteri hakim istehsal üsulunun xarakteri ilə müəyyən edilir. Odur ki, bölgü istehsala müəyyən təsir edir, yəni onun inkişafını sürətləndirə və yaxud da ləngidə bilir.

***Mübadilə*** – arzu olunan obyektin kimdənsə alınması və əvəzinə ona hər hansı bir başqa şeyin təklif edilməsi prosesidir. Mübadilənin baş verməsi üçün aşağıdakı beş şərtə əməl olunmalıdır: a) ən azı iki tərəf olmalıdır; b) hər hansı tərəf digərinə lazım olan nəyəsə malik olmalıdır; v) hər hansı tərəf öz əmtəəsini əlaqələndirmək və çatdırmaq imkanına malik olmalıdır; q) hər bir tərəf digərinin təklifini qəbul, yaxud rədd etməkdə tamamilə azad olmalıdır; d) hər bir tərəf digəri ilə iş görməyin məqsədəuyğunluğuna və faydalılığına tam əmin olmalıdır.

***İstehlak*** – iqtisadi tələbatın ödənilməsi prosesində ictimai məhsulun istifadə edilməsidir. İnsanlar öz zəruri tələbatlarını ödəmək üçün istehlak məqsədilə məhsullar istehsal edirlər. Deməli, istehsal son nəticədə istehlaka xidmət edir və onun inkişafı ilə müəyyənləşdirilir. İstehlak özünü iki formada: məhsuldar və qeyri-məhsuldar istehlak formasında büruzə verir. Əgər hazırlanmış əmək məhsulu yenidən istehsal etmək üçün istifadə olunursa, bu, məhsuldar istehlakdır və nəticədə yeni növ məhsul əldə edildiyinə görə bu cür istehlak istehsal prosesinə aiddir. Əgər hazırlanmış məhsullar insanlar tərəfindən istifadə edilərsə, bu, qeyri-məhsuldar istehlakdır. Qeyri-məhsuldar istehlak əhalinin istehlakına (yaxud şəxsi istehlaka və ümumi ictimai tələbatın ödənilməsi istehlakına bölünür. Bütün hallarda, istehsal ilə istehlak vəhdətlik təşkil edir, yəni hər hansı bir istehsal prosesi eyni zamanda yeni maddi nemətlərin yaradılması üçün istifadə edilən istehsal vasitələrinin istehlakı prosesidir. İstehsal prosesinin ictimai formasından asılı olmayaraq bu proses fasiləsiz getməlidir, yəni hər bir iş yerində kifayət qədər istehsal vasitələri olmalıdır.

İnnovasion fəaliyyətin ən ümdə məqsədi daha çox mənfəət (gəlir) əldə etməkdən ibarətdir. Belə ki, bazara yeni keyfiyyət parametrinə malik olan məhsullarla çıxan və yaxud maddi-enerji və digər növ ehtiyatlara qənaət etməyə imkan verən, məhsulun hazırlanmasında daha mütərəqqi texnologiya tətbiq edən hər hansı bir müəssisə müəyyən dövr ərzində eyni xarakterli və təyinatlı məhsulla bazarda çıxış edən başqa müəssisələrə nisbətən daha çox mənfəət (gəlir) əldə etmək imkanı qazanır. Bununla belə, innovasion fəaliyyəti təkcə cari ildə mənfəət əldə etməyə yönəltmək düzgün deyildir, çünki strateji əhəmiyyətli məhsulların hazırlanmasını təmin etmən, perspektivli texnologiyanı işləyib hazırlamadan, istehsalatda yenilik yaratmadan bazarda uzun müddət möhkəm mövqe tutmaq olmaz. Odur ki, müasir dövrdə innovasion fəaliyyətin məqsədi müəssisənin elmi-texniki, həmçinin istehsal-təsərrüfat fəaliyyəti üzrə innovasiyanın konkret istiqamətlərini müəyyənləşdirməkdən və səmərəli innovasion fəaliyyəti həyata keçirməkdən ibarətdir.

Beləliklə, sənayenin texnoloji cəhətdən yenidən qurulması, ictimai istehsalın normal inkişafına nail olunması, iqtisadiyyatın



tarazlığı və səmərəliyi, məsrəflərin hər manatına görə daha çox məhsul (iş, xidmət) və mənfəət artımı əldə edilməsi xeyli dərəcədə düzgün innovasion fəaliyyətin həyata keçirilməsindən asılıdır. İnnovasion fəaliyyətin əsas vəzifəsi ehtiyat çıxaran, emal və istehlak edən sahələrlə investisiyalar arasındakı nisbəti yaxşılaşdırmaqdan, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir.

Bazar iqtisadiyyatı şəraitində hər bir istehsalçının fəaliyyətinin nəticəsi mənfəətin kəmiyyəti ilə müəyyən edilir və mənfəətin artırılması istehsalın əsas məqsədi kimi çıxış edir. Bununla belə, mənfəətin mahiyyətinin izahında, indiyə kimi müxtəlif iqtisadi məktəblərin arasında ciddi fikir ayrılığı mövcuddur.

Marksist nəzəriyyəyə görə mənfəət, fəhlənin (işçinin) əməyinin istismarı nəticəsində yaranmış, izafi dəyərin çevrilmiş forması kimi istismarı pərdələyən kateqoriyadır. Beləliklə, mənfəət xüsusi mülkiyyətin törəməsi olan istismarın nəticəsi kimi kapitalizmə xas olan istehsal münasibəti hesab edilir. Mənfəət məhsulun (işin, xidmətin)realizəsindən götürülən ümumi qazancın bir hissəsidir; istehsala çəkilən xərclər həmin qazancdan çıxıldıqdan sonra əmələ gəlir. Balans mənfəəti, əmtəəlik məhsul istehsalından əldə edilən mənfəət və hesablaşma mənfəəti fərqləndirilir. Balans mənfəəti müəssisənin bütün istehsal-təsərrüfat fəaliyyətinin nəticəsindən, istehsal və qeyri-istehsal fəaliyyətinin bütün növləri, o cümlədən realizədən kənar gəlir və itkilər saldosu üzrə mənfəətin ümumi məbləğindən ibarətdir. Əmtəəlik məhsul istehsalından əldə edilən mənfəət müəssisənin topdansatış qiymətlərində əmtəəlik məhsulun həcmi ilə onun tam maya dəyəri arasındakı fərqi bildirir. Hesablaşma mənfəəti nəzərdə tutulmuş ödəmələrin həcmi qədər balans mənfəətindən azdır.

Müasir iqtisadi ədəbiyyatda ***mənfəət*** dedikdə, istehsal amillərinin, yəni əmək, torpaq və kapitalın istifadə olunması dərəcəsi, sahibkarlıq fəaliyyətinin nəticəsi, istehsalın idarə edilməsində göstərilən istedad və yenilikçiliyin nəticəsi, sahibkarlıq fəaliyyəti ilə əlaqədar məsuliyyət və riskə görə haqq, istehsalçının istehsal şəraiti və ya bazarda olan inhisarının nəticəsi nəzərdə tutulur. 2000-2004-cü illərdə sənaye müəssisələrinin

ümumi və xalis mənfəətləri haqqında məlumatlar cədvəl 51-də verilmişdir.

*Cədvəl 51*

***Sənaye müəssisələrinin ümumi və xalis mənfəəti, mlrd. manat***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Ümumi mənfəət, cari qiymətlərlə, mlrd. manat | 6814 | 8232 | 9360 | 10900 | 13030 |
| Xalis mənfəət, cari qiymətlərlə, mlrd. manat | 5789 | 7041 | 8013 | 9521 | 11388 |

Azərbaycan Respublikasında innovasion fəaliyyətin səciyyəvi xüsusiyyəti ağırlıq mərkəzini yeni müəssisə və istehsal obyektlərin tikintisindən mövcud müəssisə və istehsal obyektlərinin yeni texnika və mütərəqqi texnologiya ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, yenidən qurulmasına keçirməkdən, istehsal məqsədli investisiyanın ümumi həcmində bu məqsədlərə yönəldilən vəsaitin xüsusi çəkisini artırmaqdan, maşın və avadanlıqlar əldə etmək üçün məsrəflərin payını artırmaqdan ibarətdir ki, bu da istehsal əsas fondların keyfiyyətcə yeniləşdirilməsinə (təzələnməsinə), fiziki və mənəvi cəhətdən köhnəlmiş istehsal əsas fondların yenisi ilə əvəz olunmasına imkan verir. Əsas fondların təzələnməsi və sıradan çıxması əmsalı cədvəl 52-də verilmişdir.

*Cədvəl 52*

***Sənayedə əsas fondların təzələnməsi və sıradan çıxma əmsalı***

| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Təzələnmə əmsalı | 4,1 | 7,5 | 2,5 | 3,6 | 2,6 | 2,4 | 4,8 | 3,6 | 1,7 | 4,3 | 2,6 |
| Sıradan çıxma əmsalı | 2,4 | 0,5 | 0,1 | 1,0 | 1,0 | 1,2 | 1,4 | 0,6 | 0,4 | 0,4 | 0,3 |

İnnovasion fəaliyyəti həyata keçirərkən onun iqtisadi səmərəliliyinə xüsusi fikir verilməlidir. İnnovasion fəaliyyətin iqtisadi səmərəliyi onun həyata keçirilməsinə çəkilən məsrəflərlə əldə olunan nəticələr arasındakı nisbətlə xarakterizə edilir. İnnovasion fəaliyyətin birbaşa nəticəsi sahənin (müəssisənin) istehsal güclərinin artırılması, son nəticəsi isə – məhsulun (işin, xidmətin) həcminin və mənfəətin artımıdır. İnnovasion fəaliyyətin iqtisadi səmərəliyinin yüksəldilməsi istehsalın intensivləşdirilməsinin mühüm istiqamətlərindən biridir. Beləliklə, innovasion fəaliyyət aşağıdakıları nəzərdə tutur:



– innovasion proqramların işlənib hazırlanması;

– yeni texnika və texnologiyanın layihələşdirilməsi, hazırlanması və mənimsənilməsi üzrə təşkilati-texniki tədbirlərin işlənib hazırlanması;

– sahə miqyasında vahid innovasion siyasətin həyata keçirilməsi;

– innovasion fəaliyyətin həyata keçirilməsi ilə bağlı olan proqramların maliyyə və material-enerji ehtiyatları ilə təmin olunması;

– innovasion fəaliyyətin həyata keçirilməsi ilə əlaqədar problemlərin həlli üzrə müvəqqəti məqsədli, yaradıcı qrupların yaradılması və s.

Deməli, innovasion fəaliyyət bir tərəfdən, sahənin ümumi istehsal-təsərrüfat fəaliyyətinin yaxşılaşdırılması vasitəsi kimi, digər tərəfdən isə sahənin struktur bölmələrində operativ-istehsal vəzifələrin, problemlərin həlli aləti kimi çıxış edir. Başqa sözlə, innovasion fəaliyyət sahənin struktur bölmələrinin elə fəaliyyət növlərinə yönəldilməlidir, istiqamətləndirilməlidir ki, bu, istehsalın intensivləşdirilməsini və onun səmərəliliyinin yüksəldilməsini təmin etmiş olsun. Bütün hallarda innovasion fəaliyyətin təşkili və həyata keçirilməsi aşağıdakı vəzifələrin həllini təmin etməlidir:

a) konkret bazar şəraitinə istehsalın tez və dəqiq uyğunlaşdırılmasını və bunun da nəticəsində yüksək mənfəətin (gəlirin) əldə edilməsini;

b) cari proqnozlara zəruri düzəlişlərin edilməsini (əgər buna zərurət yaranarsa);

c) innovasion fəaliyyətlə bağlı olan proqramların dəyişdirilməsi ilə əlaqədar olaraq istehsal xərclərinin minimumlaşdırılmasını;

ç) istehsalın texnoloji cəhətdən yenidən qurulması əsasında onun səmərəliyinin yüksəldilməsini və s.

Yuxarıda göstərilən vəzifələrin müvəffəqiyyətlə həll edilməsini təmin etmək üçün konkret istehsal şəraitindən asılı ola-

raq aşağıdakı əsas istiqamətləri özündə əks etdirməklə müəssisə innovasion fəaliyyət proqramı işləyib hazırlayır: istehsalın yeni növ məhsullar buraxılışına səmtləşdirilməsi, istiqamətləndirilməsi; istehsalın tez bir zamanda yeni növ məhsulların mənimsənilməsinə yönəldilməsi; istehsalın köhnəlmiş, lakin hələlik bəzi bazarlarda tələbatı ödəyən ənənəvi məhsullar buraxılışına istiqamətləndirilməsi. Beləliklə, innovasiya fəaliyyətini həyata keçirmək üçün işlənib hazırlanmış proqramın məqsəd və vəzifələrindən asılı olaraq, o, aşağıdakı məsələlərin həllini özündə əks etdirməlidir:

– bazarda analoqu olmayan, prinsipcə yeni məhsul növlərinin buraxılışını. Belə innovasion fəaliyyət öz texniki-iqtisadi parametrlərinə görə ən yüksək olan və istehlakçıların zövq və ehtiyaclarına tam uyğun gələn yeni məhsul növlərinin yaradılmasına və mənimsənilməsinə yönəldilmişdir. Ona görə də belə bir fəaliyyətin həyata keçirilməsi böyük xərclər tələb edir, çünki yeni məhsul növlərinin yaradılması elmi-tədqiqat işlərinin və təcrübə-konstruktor işləmələrinin aparılması ilə bilavasitə əlaqədardır;

– bazarda kommersiya müvəffəqiyyətinə malik və analoqu olmayan məhsul növlərinin buraxılışını. Lakin belə məhsulların buraxılışı bazarda müəyyən mövqeyin əldə edilməsini təmin etməlidir. Belə bir innovasion fəaliyyətin həyata keçirilməsi müəssisənin təcrübə-konstruktor işləmələri üzrə möhkəm bazasının olmasını tələb edir. Çünki təcrübə-konstruktor işləmələri özündə yeni məhsul nümunələrinin layihələşdirilməsini, hazırlanmasını, sınaqdan keçirilməsini və lazım gəldiyi hallarda onların təkmilləşdirilməsini, həmçinin yeni məhsulun, yaxud texnoloji proseslərin seriyalı və kütləvi istehsalının sonrakı mərhələləri üçün lazım olan texniki sənədlərin işlənib hazırlanmasını nəzərdə tutur;

– buraxılan məhsulun texniki və texnoloji cəhətdən yeniləşdirilməsinə istehsalın istiqamətləndirilməsini. Bu, mövcud məhsulların modernləşdirilməsi və təkmilləşdirilməsinin məqsədəuyğunluğu ilə əlaqədar olan məsələlərin həllini nəzərdə tutur. Mövcud məhsulların texniki cəhətdən yeniləşdirilməsi istehsalın intensivləşdirilməsinin və onun səmərəliliyinin yüksəldilməsinin vacib şərtidir. Bundan başqa, mövcud məhsulların təkmilləşdirilməsi və modernləşdirilməsi buraxılan məhsulların keyfiyyətini yaxşılaşdırır və onların bazarda rəqabət qabiliyyətli olmasını da təmin edir;

– istehsalın ənənəvi məhsul buraxılışına yönəldilməsi – tələb edir ki, həddindən artıq köhnəlmiş, lakin hələlik bəzi bazarlarda özünə qarşı müəyyən tələbat, rəğbət yaradan məhsullar buraxılışı davam etdirilsin. Belə bir innovasion fəaliyyətin həyata keçirilməsi müəssisəyə ucuz başa gəlir.

Məlumat üçün qeyd edək ki, innovasion fəaliyyət bir sıra xarakterik cəhətlərə malikdir və özünəxas iqtisadi-texniki anlayışlar vasitəsilə reallaşdırılır. Belə ki, onun xarakterik cəhətləri kimi innovasiya prosesinin tsikllik və ehtimal xarakteri, yüksək risk dərəcəsi, funksional qeyri-adi çevikliyi və s. çıxış edir. Ümumiyyətlə, innovasion fəaliyyət patent-lisenziya, müəllif hüququ, ixtiraçılıq, səmərələşdiricilik, vençur kapitalı və s. fəaliyyət növləri ilə sıx bağlıdır. Biz əvvəllərdə ixtiraçılıq və səmərələşdiricilik fəaliyyəti haqqında qısa bəhs etmişik. İndi isə patent-lisenziya, müəlliflik və vençur kapitalı haqqında danışmaq istərdik.

Patent-lisenziya fəaliyyəti – patent müdafiəsi, yaxud lisenziya sazişləri predmeti ola bilən elmi-texniki nəticələrin aşkar edilməsindən ibarətdir. Onun əhəmiyyəti, bir tərəfdən, öz texniki-iqtisadi göstəricilərinə görə ölkədəki və xaricidəki analoqları ötüb keçən yeni texnika və texnoloji proseslər yaradılmasına və hazırlanmasına fəal təsir göstərməklə elmi-texniki tərəqqinin sürətləndirilməsinə yardım etmək, digər tərəfdən isə, patent-lisenziya informasiyasının beynəlxalq miqyasda yayılması təcrübəsinin genişləndirilməsinə kömək etməklə müəyyən olunur. Patent-lisenziya fəaliyyəti aşağıdakıları təmin edir: yeni texniki nailiyyətlərin yüksək səviyyəsini; milli ixtiraların, kəşflərin xarici ölkələrdə patentlənməsi haqqında tövsiyələrin, təkliflərin hazırlanmasını; texniki və texnoloji obyektlərin patent təmizliyinin yoxlanılmasını; lisenziyaların alınması və satılması haqqında təkliflərin, sifarişlərin müəyyənləşdirilməsini və s.

***Müəlliflik hüququ*** – ixtiraçılıq fəaliyyətinin dövlət tərəfindən müdafiə olunmasını nəzərdə tutur. Məsələn, ABŞ-da 200 ildən çoxdur ki, müəlliflik hüququnu müdafiə edən qanunvericilik aktları fəaliyyət göstərir. Belə bir halın mövcudluğu ixti-

raçıya öz kəşfindən istifadəyə görə «innovasiya gəliri» əldə etməyə imkan verir. İnnovasion gəlir dedikdə, innovasion fəaliyyətin həyata keçirilməsinə çəkilən xərclə, onun həyata keçirilməsi nəticəsində əldə edilən qazanc arasındakı fərq nəzərdə tutulur.

***Vençur kapitalı*** – innovasion fəaliyyətin həyata keçirilməsində mühüm rol oynayır. Vençur kapitalı risklə bağlı olan maliyyələşmə növüdür. O, ABŞ-da hələ XX əsrin 40-cı illərində meydana gəlmiş, 60-70-ci illərdə isə maliyyə kapitalının müstəqil funksional formalarından birinə çevrilmişdir. Bu prosesin yaranmasının əsas səbəbi elmi-texniki tərəqqinin sürətləndirilməsi nəticəsində innovasion fəaliyyətə tələbatın xeyli artması və bu prosesləri maliyyələşdirmək üçün müxtəlif mənbələrdən daxil olan maliyyə imkanlarının mövcudluğu olmuşdur. Vençur kapitalı bir çox təşkilati formalarına malikdir, lakin bunların ən əsasları müstəqil innovasiya firmaları və korporasiyaların daxili vençur şöbələridir. Vençur firması sənayenin «riskli» texnologiyaya çatdırılmasını təsdiq etmək üçün yaradılan və bir qayda olaraq, bir neçə şəxsi kapitalların birləşməsi yolu ilə meydana gələn «riskli» müəssisədir.

Dünya ölkələrinin təcrübəsi göstərir ki, hansı ölkədə vençur firmaları fəaliyyət göstərirsə, həmin ölkələrin iqtisadiyyatında onlar mühüm rol oynayırlar. Məsələn, belə firmaların sayı ABŞ-da və Yaponiyada 14-15 min, Almaniyada isə 7 mindən çoxdur və onlar yüksək iqtisadi göstəricilərə malikdirlər. Belə ki, ABŞ-ın bütün iri kəşflərin təqribən 50%-i, Almaniyada isə 30%-i bu firmaların payına düşür.

Azərbaycan Respublikasında, qeyd etdiyimiz kimi, son illərdə innovasion fəaliyyətin təşkili və inkişafına qayğı xeyli artmışdır ki, bu da yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növünə görə innovasiya məhsullarının həcminin artmasına səbəb olmuşdur. Özü də innovasion fəaliyyətin həyata keçirilməsi nəticəsində əhəmiyyətli dəyişikliklərə məruz qalmış və yeni tətbiq olunmuş məhsulların həcmi daha yüksək olmuşdur. 1999-2001-ci illərdə Azərbaycan sənayesində yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsullarının həcminin artım dinamikası cədvəl 53-də verilmişdir.



*Cədvəl 53*

***Yenilik səviyyəsinə və iqtisadi fəaliyyət növlərinə görə innovasiya məhsullarının həcmi, mln. manat***

| İllər | Əhəmiyyətli dəyişikliklərə məruz qalmış məhsullar | | | Təkmilləşdirməyə məruz qalmış məhsullar | | |
|---|---|---|---|---|---|---|
| | Bütün sənaye | o cümlədən: Hasilat | o cümlədən: Emal | Bütün sənaye | o cümlədən: Hasilat | o cümlədən: Emal |
| 1999 | 31161,6 | 13118,4 | 18043,2 | 913,1 | 100,0 | 813,1 |
| 2000 | 4456,9 | – | 4456,9 | 571,8 | – | 571,8 |
| 2001 | 382261,8 | – | 382261,8 | 384,6 | – | 384,6 |
| 2002 | 3681,5 | 19,4 | 3662,1 | – | – | – |
| 2003 | 2093,0 | – | 2093,0 | – | – | – |
| 2004 | 6334,7 | – | 6334,7 | 990,6 | – | 990,6 |

Məlumat üçün qeyd edək ki, innovasion fəaliyyətin həyata keçirilməsində hər bir ölkənin özünə xas olan xüsusiyyətləri vardır. Məsələn, ABŞ-da onu fərqləndirən əsas cəhətlərdən biri innovasion fəaliyyət üçün əlverişli iqtisadi mühitin yaradılmasıdır. Bu o deməkdir ki, ABŞ-da innovasion fəaliyyət dövlət səviyyəsində geniş təbliğ edilir, yəni yaradılan vençur firmalarına dövlət tərəfindən maliyyə yardımı göstərilir, yeni texnikanın yaradılması və mütərəqqi texnoloji proseslərin işlənib hazırlanması məqsədilə həyata keçirilən layihələrə dövlət maliyyə ehtiyatları ayırır və s.

Son zamanlar innovasion fəaliyyətin həyata keçirilməsi sahəsində Yaponiya dövləti ABŞ-dan, həmçinin digər inkişaf etmiş ölkələrdən xeyli irəli getmiş, həmin proses XX əsrin 60-70-ci illərindən başlamış və indiyə kimi davam etdirilir. Müasir dövrdə Yapon «möcüzəsi»nin, yəni 60-70-ci illərdən başlayaraq bu ölkənin sürətli iqtisadi sıçrayışının əsas səbəbləri haqqında müxtəlif fikirlər, mülahizələr söylənilir. Bu fikir və mülahizələrdən ən mühümü həmin «möcüzə»nin səbəbini məhz elmi-texniki tərəqqi və innovasion fəaliyyətdəki əsaslı dəyişikliklərlə bağlayır. Konkret olaraq bu, özünü son illərdə hesablayan elektron texnikasının, informativ idarəetmə sistemlərinin, texnoloji proseslərin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılmasının geniş yayılmasında göstərir ki, bütün bunlar da sənaye istehsalının texnoloji cəhətdən yenidən qurul-

masına gətirib çıxarır.

Yaponiyada həyata keçirilən innovasion fəaliyyətin digər fərqləndirici cəhətlərindən biri də iqtisadi inkişafda xarici ölkələrin kəşflərindən, ideyalarından, layihələrindən, proqramlarından və s. geniş istifadə edilməsidir. Belə ki, son 30-35 ildə Yaponiyada xarici ölkələrin texnologiyasının alınmasına 10 mlrd. ABŞ dollarından artıq vəsait sərf edilmişdir. Bu dövrdə Yapon firmaları tərəfindən təqribən 42 min xarici lisenziya əldə edilmişdir ki, bunların da yarısından çoxu ABŞ-ın payına düşür.

Yaponiyada həyata keçirilən innovasion fəaliyyətin üçüncü fərqləndirici cəhəti ondan ibarətdir ki, bu ölkədə texniki-texnoloji məqsədlər ümumdövlət səviyyəsində həyata keçirilir, müəyyən edilmiş məqsədə nail olmaq üçün iqtisadiyyatın bütün imkanları səfərbərliyə alınır, innovasion fəaliyyət digər fəaliyyət növlərinə nisbətən iqtisadi cəhətdən daha geniş həvəsləndirilir. Məsələn, Yaponiyada 70-ci illərdən başlayaraq xarici texniki-texnoloji layihələrin idxalı xeyli azaldılmış, bunun əvəzində isə yerli texniki-texnoloji nailiyyətlər əsasında iqtisadi artım təmin olunmuşdur. Lakin bu o demək deyildir ki, artıq Yaponiya xarici ölkələrdən lisenziya almır, əksinə, Yapon konsernləri özlərinin müstəqil elmi-texniki potensialını yaratmaqla yanaşı, yenə də xarici lisenziyalardan istifadəyə üstünlük verirlər.

Qeyd edək ki, ABŞ-a və Yaponiyaya nisbətən dünyanın digər inkişaf etmiş ölkələri innovasion fəaliyyətin təşkili və tətbiqi sahəsində bir o qədər də fərqlənmirlər. Başqa sözlə, innovasion fəaliyyətin həyata keçirilməsində bir o qədər də inkişaf etməmişlər. Bunun əsas səbəblərindən biri Qərbi Avropa ölkələrində risklə bağlı əməliyyatların həyata keçirilməsinə lazımınca diqqət verilməməsindədir. Belə ki, B. Britaniyanın və İtaliyanın kiçik innovasion kompaniyaları, əsasən iri korporasiyalarla əlaqə yaradırlar ki, bu da həmin kiçik innovasiya kompaniyalarını onlardan asılı vəziyyətə salır və beləliklə də, onların müstəqil inkişafı məhdudlaşır. Deməli, innovasion fəaliyyətini inkişaf etdirmək üçün risklə bağlı əməliyyatların, proqramların və layihələrin həyata keçirilməsinə daha çox diqqət yetirilməlidir. Risk – vəziyyətin müəyyən ehtimalla aydınlığı deməkdir.

İnnovasion fəaliyyəti həyata keçirən firmalarda risklə qarşılaşma aşağıdakı üç aspektdə təzahür edir: birincisi, istehsalla



bağlı; ikincisi, buraxılan məhsulun qiymətlərinin dəyişməsi ilə və üçüncüsü, istehsal faktorlarının qiymətinin dəyişməsi ilə. Riskin təsirini azaltmaq məqsədilə aşağıdakı tələblərə əməl edilməlidir: riskin aşkarlanması; riskin qiymətləndirilməsi; riskin idarə edilməsinin seçim fəndləri və üsullarının müəyyənləşdirilməsi; seçim fəndlərinin və üsullarının reallaşdırılması; nəticənin qiymətləndirilməsi.

Bundan başqa, riskin idarə edilməsinin aşağıdakı dörd üsulunu fərqləndirirlər: riskdən qaçma; zərərin qarşısının alınması; riskin özünə qəbulu; riski daşıma.

Azərbaycan Respublikasında innovasion fəaliyyətin həyata keçirilməsi sahəsində son zamanlar xeyli işlər görülmüşdür. Bunun da nəticəsində sənayenin ümumi xərclərinin tərkibində sənaye innovasiyalarının növü və iqtisadi fəaliyyət növləri üzrə texnoloji innovasiyalara çəkilən xərclərin payı artmışdır. Bunu cədvəl 54-də verilmiş məlumatlar da sübut edir.

*Cədvəl 54*

***İnnovasiyaların tiplərinə görə sənayedə texnoloji innovasiyalara çəkilən xərclər, mln. manat***

| | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|
| Bütün sənaye üzrə ümumi məsrəflər o cümlədən: | 117724 | 5437 | 51482 | 10649 | 398 | 2086 |
| məhsul innovasiyalı | 117724 | 4498 | 39252 | 10611 | 366 | 1716 |
| proses innovasiyaları | – | 939 | 12231 | 35 | 32 | 379 |
| Mədənçıxarma sənayesi üzrə ümumi məsrəflər o cümlədən: | 3021 | 5273 | 4360 | 535 | 259 | 772 |
| məhsul innovasiyalı | 3021 | 4401 | 4351 | 525 | 259 | 772 |
| proses innovasiyaları | – | – | – | – | – | – |
| Emal sənayesi üzrə ümumi məsrəflər o cümlədən: | 114701 | 164 | 47123 | 10114 | 139 | 1314 |
| məhsul innovasiyalı | 114701 | 97 | 34892 | 10022 | 108 | 944 |
| proses innovasiyaları | – | 67 | 12230 | 37 | 31 | 370 |

Məlumat üçün qeyd edək ki, sənayenin aparıcı sahələrindən biri olan neft sənayesi riskli fəaliyyət baxımından daha mürək-

kəb və uzun müddət istehsal prosesini həyata keçirən sahələrdən biridir. Odur ki, neft-qaz yataqlarının işlənməsi müddətində neft və qaz hasilatı həcminin artması, onun sabitləşməsi, azalması və həmçinin köhnə yataqlarda qalıq neftinin çıxarılması prosesi baş verir. Yataqların işlənməsi və mənimsənilməsi investisiya qoyuluşlarının müntəzəm surətdə artırılmasını, fasiləsiz olaraq yeni neft və qaz yataqlarının axtarılmasını, qazma işlərinin həcminin artırılmasını və yeni neft-qaz quyularının istismara verilməsini, fəaliyyətsiz quyuların bərpasını və istismara qaytarılmasını tələb edir. Layihə-axtarış işlərinin başlanmasından ilkin neft və qazın əldə edilməsinə qədər olan vaxt müddəti orta hesabla 4-6 il təşkil edir. Deməli, neft-qaz yataqlarının axtarılması və mənimsənilməsi çox risk tələb edir. Adətən, risklər aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

Neft-qaz yataqlarının işlənməsi layihəsinə etdiyi təsirə görə – risklər qeyri həyat qabiliyyətli risklərə, borcun ödənilməsi ilə əlaqədar olan risklərə və bitməmiş tikinti-quraşdırma işləri ilə bağlı olan risklərə ayrılırlar. Qeyri-həyat qabiliyyətli risklər neft-qaz yataqlarının işlənməsi məqsədilə işlənib hazırlanmış layihələrin kifayət qədər elmi-texniki və iqtisadi cəhətdən əsaslandırılmamasını nəzərdə tutur. Digər tərəfdən, elmi-texniki və iqtisadi cəhətdən əsaslandırılmış layihələr iş prosesində pul vəsaitlərinin çatışmaması, kreditlərin alınması, faizlərin ödənilməsi problemləri ilə üzləşə bilər. Belə növ problemlərin həlli əlavə vəsait tələb edir ki, bunun üçün də nəzərdə tutulmamış məbləğdə borc almaq zərurəti yaranır. Buna borcla bağlı risklər deyilir. Yeni texnika və texnologiyanın tətbiq edilməsini nəzərdə tutan layihələrdə bitməmiş tikinti-quraşdırma işlərinin həcmi çox böyük olur ki, bunlar da müəyyən risklərlə əlaqədardır. Belə risklərə tikinti-quraşdırma ilə bağlı risklər deyilir.

Yaranma mənbələrinə görə texniki, geoloji, qiymət, vergi, kredit, iqtisadi və siyasi riskləri fərqləndirirlər. Texniki risk dedikdə, yeni texnikanın və mütərəqqi texnoloji proseslərin yaradılması və mənimsənilməsi ilə əlaqədar olan risklər; geoloji risk dedikdə, neft-qaz yataqlarının axtarılması və aşkar edilməsi ilə bağlı risklər; qiymət riski dedikdə, həm layihənin həyata keçirilməsi zamanı, həm də ilkin layihənin işlənib hazırlanması prosesində istifadə edilən müxtəlif növ və xarakterli resursların qiymətlərinin dəyişilməsi ilə bağlı risklər; vergi riski dedikdə, tikinti-quraşdırma müddətinin uzanması nəticəsində vergi güzəştlərinin alınmaması və yaxud vergi tariflərinin dəyişməsi ilə əlaqədar olan risklər; kredit risk dedikdə, dövlət və qeyri-dövlət banklarından götürülmüş kreditlər üzrə bankların faiz tariflərinə yenidən baxılması və onların artırılması ilə bağlı risklər; iqtisadi risk dedikdə, ümumi iqtisadi durumun dəyişməsi və bu dəyişmələrin ilkin layihələrə təsiri ilə əlaqədar olan risklər və nəhayət, siyasi risk dedikdə, bütöv bir problemin, layihənin həlli ilə bağlı olan risklər nəzərdə tutulur.



Aradan qaldırılması imkanlarına görə risklər müntəzəm, yəni diversifikasiya olunmayan və qeyri-müntəzəm, yəni diversifikasiya olunan risklərə bölünürlər. Müntəzəm risklər iqtisadiyyatda baş verən müxtəlif hadisə və proseslər nəticəsində baş verir və onları diversifikasiya yolu ilə aradan qaldırmaq mümkün olmur. Belə risklər ümumi risklərin təqribən 30-50%-ni təşkil edir. Qeyri-müntəzəm risklər diversifikasiya yolu ilə, yəni müxtəlif layihələrə əlavə vəsaitlər qoymaqla aradan qaldırılması mümkün olan risklərdir.

Sahənin artım imkanları özündə onun gələcəkdə hansı istehsalların yaradılmasının, öz qüvvələrini hansı sahələrə yönəldilməsinin arzu olunduğunu aşkar edir. Yüksəliş strategiyasını aşağıdakı üç səviyyədə keçirilmiş təhlil əsasında işləyib hazırlamaq olar: birinci səviyyədə hazırkı fəaliyyət miqyası daxilində sahənin istifadə edə biləcəyi imkanlar aşkar edilir (buna intensiv artım imkanları deyilir); ikinci səviyyədə sahənin marketinq sisteminin digər ünsürləri ilə birləşmə imkanları müəyyənləşdirilir (buna birgə artım imkanları deyilir); üçüncü səviyyədə sahənin hüdudlarından kənarda açılan imkanlar aydınlaşdırılır (buna diversifikasiya imkanları deyilir). Diversifikasiya artımı imkanları sahə daxilində istehsalın həcminin artırmağa imkan olmadıqda və ya bu sahə hüdudlarından kənarda artımın daha ucuz olduğu hallarda özünü doğruldur. Diversifikasiya heç də sahənin qarşıya çıxan hər bir imkandan yapışması demək deyil. Diversifikasiyanın aşağıdakı üç növünü fərqləndirirlər:

a) ümumi mərkəzi diversifikasiya – texniki və ya marketinq baxımından sahənin mövcud əmtəələrinə (işlərinə, xidmətlərinə) oxşar məmulatları öz nomenklaturasına daxiletmə deməkdir.

b) üfüqi diversifikasiya – indi buraxılan əmtəələrlə heç bir əlaqəsi olmayan, lakin mövcud istehlakçıların, alıcıların marağına səbəb ola bilən məmulatların öz çeşidinə daxil edilməsi ilə səciyyələnir;

c) konqlomerat diversifikasiyası – nə sahənin tətbiq etdiyi texnologiyaya, nə də onun əmtəələri və bazarlarına heç bir aidiyyatı olmayan məmulatların öz çeşidinə daxil edilməsini nəzərdə tutur.

## 7.5. İstehsalın texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyi

***İstehsalın səmərəliliyi*** – onun nəticəliyi, istehsal fəaliyyətinin nəticələri ilə onlara nail olunmasına sərf edilən əmək və maliyyə ehtiyatlarının nisbətini xarakterizə edir. İstehsalın səmərəliliyinin yüksəldilməsi prosesinin mahiyyəti – məsrəflərin hər vahidinə düşən iqtisadi nəticələrin yüksəldilməsidir. Bütövlükdə xalq təsərrüfatı və onun ayrı-ayrı sahələri üzrə istehsalın ümumi səmərəliliyinin əsas göstəriciləri milli gəlirin illik artımının bu artımı təmin edən və maddi istehsalın inkişafına yönəldilən investisiya qoyuluşunun həcminə olan nisbəti götürülür; ayrı-ayrı texniki-iqtisadi problemlər üzrə ümumi iqtisadi səmərəlik göstəricisi – xalis məhsul həcmi artımının bu artımı təmin edən investisiya qoyuluşunun həcminə olan nisbətini xarakterizə edir; müəssisə səviyyəsində – ümumi iqtisadi səmərəlilik göstəricisi illik mənfəət artımının bu artımı təmin edən texniki-təşkilati və iqtisadi tədbirlərin həyata keçirilməsinə sərf edilən investisiya qoyuluşunun həcminə nisbəti kimi müəyyən edilir.

Məlumdur ki, ictimai istehsalın məqsədi – cəmiyyət üzvlərinin və cəmiyyətin özünün ehtiyaclarını müxtəlif əmək məhsulları və xidmətlərlə təmin etməkdir. Bu baxımdan, sahənin iqtisadi siyasətinin işlənib hazırlanması və onun istehsal-təsərrüfat və digər növ fəaliyyətinin yaxın və uzaq perspektivdə məqsəd və strategiyasının müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edir. Sahənin əsas məqsədi onun gələcək dövrlərdəki inkişafının başlıca istiqamətlərinin konsepsiyasını müəyyən edir. Strategiya isə müəyyən edilmiş əsas məqsədə nail olmaq üçün sahənin iqtisadi, elmi-texniki və istehsal-satış imkanlarını nəzərdə tutur. Bu o deməkdir ki, müəyyən olunmuş məqsədə çatmaq üçün hər şeydən öncə, sahənin malik olduğu istehsal, elmi-texniki və kadr potensialından tam istifadə olunmalı, ictimai istehsalın iqtisadi artımı təmin olunmalı və istehsalın texniki-iqtisadi səviyyəsi yüksəldilməlidir.



İstehsal potensialı – sahənin iqtisadi gücünün dəyərcə və maddi-əşyaca səciyyələndirilməsi, istehsal aparatının (***İstehsal aparatı*** dedikdə, əmək vasitələrinin məcmusu nəzərdə tutulur ki, onların köməyi ilə istehsalın digər amilləri, yəni canlı əmək və əmək cisimləri ilə əlaqəli şəkildə məhsul istehsal olunur və xidmətlər göstərilir) müəyyən tərkibdə, texniki səviyyədə, keyfiyyətdə və maksimum həcmdə məhsul istehsal etmək qabiliyyətini ifadə edir. Sahə səviyyəsindəki istehsal aparatının məcmu istehlak dəyəri kimi istehsal potensialı – eyni növ məhsul buraxan müəssisələrin istehsal güclərinin cəmi ilə xarakterizə edilir. İstehsal aparatının modernləşdirilməsi və kompleks yeniləşdirilməsi prosesləri istehsal potensialının keyfiyyətcə təkmilləşdirilməsinə və genişləndirilməsinə istiqamətləndirilmişdir. Eyni zamanda, istehsal güclərinin yüklənməsinin artırılması ən yeni texnika və ondan maksimum istifadə əsasında istehsal potensialının inkişafı istehsalın intensivləşdirilməsinin və sahənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinin mühüm zəminidir.

Elmi-texniki potensial – qeyd etdiyimiz kimi, sahənin qarşısında qoyulan elmi-texniki inkişaf vəzifələrinin həlli üçün nəzərdə tutulan kadr, maddi-texniki, informasiya və təşkilati ehtiyatların məcmusunu səciyyələndirir. Elmi-texniki potensial, hər şeydən öncə, elmi-tədqiqat və təcrübə-konstruktor işləri üzrə ixtisaslaşdırılmış bütün elmi-tədqiqat müəssisələri ilə, onların laboratoriya, sınaq, stend avadanlıqları və s. avadanlıqlarla təchiz edilməsi ilə, ixtisaslı mütəxəssislərin və elmi-yaradıcı heyətin olması ilə müəyyən olunur. Elmi-texniki potensialın inkişafı və ondan səmərəli istifadə – elmi-texniki tərəqqinin sürətləndirilməsinin, elmi tədqiqatların intensivləşdirilməsinin, «elm-texnika-istehsal» tsiklinin qısaldılmasının mühüm şərtidir.

***İqtisadi artım*** – istehsal və qeyri-istehsal istehlakı məqsədilə məhsul istehsalının və xidmətlərin çoxaldılmasıdır. İki tipdə

iqtisadi artım mövcuddur: ekstensiv və intensiv. Birincisi, istehsalın əvvəlki elmi-texniki əsas üzərində genişləndirilməsini, ikincisi isə daha səmərəli istehsal vasitələrinin tətbiqi əsasında məhsul buraxılışının artırılmasını nəzərdə tutur. İqtisadi artımın son nəticəsi əhalinin real gəlirinin artırılması, istehlak predmetləri ilə təminatının yüksəldilməsi, şəxsiyyətin azad, hərtərəfli inkişafı üçün şəraitin yaradılmasıdır. İqtisadi artımın sürətləndirilməsi elmi-texniki inqilabın nailiyyətlərindən geniş istifadə olunmasına, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin daha yüksək sürətlə artmasına, məhsulun keyfiyyətinin əsaslı surətdə yaxşılaşdırılmasına, insan amilinin fəallaşmasına əsaslanır. Məhz bu intensiv keyfiyyət amilləri iqtisadi artımın yeni keyfiyyətini müəyyən edir.

***İstehsalın texniki-iqtisadi səviyyəsi*** dedikdə, istehsalın müəyyən vaxta görə texniki və iqtisadi durumu nəzərdə tutulur. İstehsalın texniki-iqtisadi səviyyəsi istifadə olunan istehsal aparatının yaş strukturundan, texniki durumundan, mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsindən, tətbiq olunan texnoloji proseslərin mütərəqqiliyindən, buraxılan məhsulun keyfiyyətindən və istehsalın səmərəliyindən, kadrların ixtisas səviyyəsindən, istehsalın və əməyin təşkilindən asılıdır. Müəssisədə nail olunmuş istehsalın texniki-iqtisadi səviyyəsi müəssisənin buraxdığı məhsulun sifarişçinin, dünya bazarının tələblərinə uyğun gəlməsi imkanlarını əks etdirir. Ayrı-ayrı sahələrdə istehsalın texniki-iqtisadi səviyyəsinin diferensiasiya edilmiş göstəriciləri tətbiq edilir. Məsələn, qara metallurgiyada bu, domna sobalarının faydalı həcmindən istifadə əmsalı, 1 ton hazır prokata polad külçəsi sərfi, fasiləsiz üsulla poladtökmə kimi mütərəqqi üsuldan istifadə dərəcəsi; maşınqayırmada və metal emalında – mütərəqqi plastik deformasiya metodlarından istifadə etməklə hissələr hazırlanması və s. deməkdir.

Sahə miqyasında mütləq iqtisadi səmərəlilik xalis məhsulun, müəssisə səviyyəsində isə mənfəətin artımının, həmin artımı təmin edən investisiya qoyuluşuna olan nisbətidir. Xalis məhsul maddi istehsal sahələrində yaradıldığına görə investisiya qoyuluşu da həmin sahələrdə, həm də geniş təkrar istehsala yönəldilmiş həcmdə (yığım fondu hesabına) nəzərə alınır, sadə təkrar istehsala yönəldilmiş (yəni, amortizasiya fondu hesabına)



investisiya qoyuluşu isə nəzərə alınmır. Xalis məhsulun artımı əvvəlki ilin investisiya qoyuluşuna aid edilir, çünki investisiya qoyuluşu ilə buradan irəli gələn nəticələr arasındakı vaxta görə laq (***Laq*** – vaxt etibarilə bir hadisənin onunla bağlı digər hadisəyə nisbətən geridə qalmasını, yaxud onu ötüb keçməsini əks etdirən göstəricidir) nəzərə alınır.

Məsrəflərin mütləq iqtisadi səmərəlilik göstəricisini əsas fondların səmərəlilik göstəricisindən fərqləndirirlər. Sonuncu göstərici xalis məhsulun əsas fondların orta illik dəyərinə olan nisbətini, yəni fondverimi göstəricisini xarakterizə edir. Məsrəflərin artımı, bir qayda olaraq, cari məsrəflərin azalması hesabına kompensasiya olunur və əvəzi müəyyən müddətdə ödənilir. Mütləq effektivliyin, yaxud fondveriminin yüksəldilməsi – istehsalın həcminin artması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, tikinti-quraşdırma xərclərinin və müddətlərinin azaldılması, istehsal güclərinin mənimsənilməsinin sürətləndirilməsi, işçilərin ixtisasının yüksəldilməsi nəticəsində mümkün olur. Qeyri-istehsal sahələrində investisiya qoyuluşunun və digər məsrəflərin effektivliyi onlardan istifadə nəticəsində əldə edilən səmərə ilə müəyyən edilir.

Məsrəflərin ümumi iqtisadi səmərəliliyini qiymətləndirərkən bir sıra göstəricilərdən, məsələn, əmək məhsuldarlığından, fondverimindən, fondtutumundan və istehsalın material tutumu göstəricilərdən istifadə edilir. Bu göstəricilərin hər birinin istehsalın iqtisadi səmərəliliyinə necə təsir etdiyini nəzərdən keçirək.

Əmək məhsuldarlığı – istehsal işçilərindən istifadəni xarakterizə edən ən mühüm göstəricilərdən biridir. Bu onunla izah edilir ki, ***əmək məhsuldarlığı*** maddi istehsalda vaxt vahidi ərzində yaradılan məhsulun miqdarı ilə ölçülür. Bu baxımdan əmək məhsuldarlığının artım sürəti bilavasitə maddi istehsal sahələrində çalışan işçilərin əməyindən necə istifadə olunması ilə əlaqədardır. Beləliklə, əmək məhsuldarlığı maddi istehsal sahəsində işçilərin istehsal fəaliyyətini, onun səmərəliliyini əks etdirir. Ona görə də əmək məhsuldarlığının yüksəldilməsi məhsul vahidinin istehsalı üçün zəruri olan əmək məsrəflərinin azaldılması deməkdir. Məhsul vahidinə əmək sərfini azaltmaqla müəssisə (sahə) adambaşına daha çox məhsul istehsal etmək imkanına malik olur.

Əmək məhsuldarlığının yüksəldilməsi istehsalın həcminin artırılmasının ən mühüm şərti, onun inkişafının iqtisadi qanunudur. Əmək məhsuldarlığının yüksəldilməsi istehsalın miqdarca artmasını və işçilərə qənaəti təmin etməklə yanaşı, eyni zamanda müəssisənin iqtisadi göstəricilərinin yaxşılaşdırılmasına, yəni məhsulun maya dəyərinin aşağı salınmasına, istehsalın rentabellik səviyyəsinin yüksəldilməsinə də həlledici təsir göstərir. Məlumdur ki, məhsulun (işin, xidmətin) maya dəyəri sərf edilmiş istehsal vasitələrində təcəssüm edən keçmiş, maddiləşmiş əmək məsrəflərindən və əmək haqqı formasında istifadə olunan yeni əmək sərfindən ibarətdir. Əmək məhsuldarlığı yüksəldikcə məhsulun (işin, xidmətin) hazırlanmasına sərf edilən canlı əməklə maddiləşmiş əməyin arasındakı nisbət də dəyişir, yəni canlı əməyin payı azalır, maddiləşmiş əməyin xüsusi çəkisi isə artır, lakin elə artır ki, bütövlükdə məhsulun hazırlanmasına sərf edilən ümumi vaxt azalır.

Aparılan tədqiqatlar göstərir ki, əmək məhsuldarlığı canlı əməyin (iş vaxtının) sərfi ilə ölçüldüyündən, onun artması heç də bütün hallarda məhsulun (işin, xidmətin) maya dəyərinin aşağı düşməsinə səbəb olmur. Elə hallar ola bilər ki, canlı əməyə qənaət böyük miqdarda maddiləşmiş əmək məsrəfləri hesabına əldə edilir və bu zaman məhsulun (işin, xidmətin) hazırlanması əvvəlkinə nisbətən baha başa gəlir. İctimai nöqteyinəzərdən əmək məhsuldarlığının yalnız elə artması səmərəli sayılır ki, burada canlı əmək sərfinin azalması ilə bərabər məhsul (iş, xidmət) istehsalına çəkilən bütün məsrəflər azalsın, yəni əmək məhsuldarlığının artım sürəti əmək haqqının artım sürətini qabaqlamış olsun.

Məsələn, fərz edək ki, məhsul (iş, xidmət) vahidinin maya dəyəri 20 min manatdır; bundan 14 min manat maddi-enerji məsrəflərinə, 6 min manat isə əmək haqqına düşür. Əgər vaxt vahidi ərzində, deyək ki, bir ayda 20 ədəd belə məhsul istehsal edilirsə, onda əmək haqqı 120 min manat (20 min × 6 min) təşkil edəcəkdir. Sonra, fərz edək ki, yeni texnikanın, ya da mütərəqqi texnologiyanın tətbiqi və bunların əsasında əmək məhsuldarlığının yüksəldilməsi hesabına həmin məhsulun istehsalı 50% çoxalmışdır, yəni ayda 30 ədədə çatmışdır. Əmək haqqı isə bütün istehsal olunan məhsulun miqdarı üzrə 150 min manata qədər (yəni, 25%) artmışdır. Deməli, vahid məhsulun maya dəyərinə əmək haqqı 6 min manat deyil, 5 min manat daxil ediləcəkdir (150000 : 30000). Məhsul vahidinə düşən başqa məsrəfləri əvvəlki miqdarda saxladıqda, vahid məhsulun maya dəyəri 20 min manatdan 19 min manata (14000 + 5000) enəcəkdir, yəni məhsul vahidinin maya dəyəri 5% azalır.



Əmək məhsuldarlığının yüksəldilməsi əməyin intensivliyindən və fondla silahlanma səviyyəsindən xeyli dərəcədə asılıdır. Yəni əməyin intensivliyi və fondla silahlanma səviyyəsi yüksəldikcə, eyni miqdarda işçilərlə daha çox məhsul hazırlamaq, deməli, əmək məhsuldarlığını artırmaq imkanı yaranır. Lakin, 2001-2002-ci illəri nəzərə almasaq, son illərdə istehsal əsas fondlarının həcminin və əməyin fondla silahlanma səviyyəsinin yüksəldilməsi nə fondveriminin, nə də əmək məhsuldarlığının artmasına səbəb olmamışdır, çünki bu dövrdə əməyin fondla silahlanma səviyyəsinin yüksəldilməsi sürəti, əmək məhsuldarlığının artma sürətini qabaqlamışdır.

***Fondverimi*** – sahənin istehsal əsas fondlarından istifadənin səmərəlilik səviyyəsini xarakterizə edən ümumiləşdirici göstəricidir. Fondverimi göstəricisi istehsal əsas fondların 1000 manatlıq, yaxud 10000 manatlıq dəyərinə düşən məhsul istehsalının miqdarıdır. Fondverimi məhsulun illik həcmini istehsal əsas fondların orta illik tam balans dəyərinə olan nisbəti kimi təyin edilir. Fondverimi göstəriciləri fəaliyyətdə olan və yeni işə salınan müəssisələr üçün bütün fondlar və ayrılıqda isə əsas fondların aktiv hissəsi üzrə hesablanır. Fondverimini hesablamaq üçün məhsulun illik həcmi müəssisənin topdansatış qiymətində hesablanır, əsas fondlar isə, aşınma nəzərə alınmadan, onların ilk dəyəri ilə qiymətləndirilir. Fondveriminin yüksəldilməsinə – əsas fondların strukturunun təkmilləşdirilməsi, iş yerlərinin attestasiyasının keçirilməsi, növbədaxili boşdayanma hallarının aradan qaldırılması və hazırkı dövrdə müəssisə üçün lüzumsuz hesab edilən maşın və avadanlıqların satılması, planlı-xəbərdarlıq təmir işlərinin vaxtında və dəqiq yerinə yetirilməsi, ona texniki xidmətin yaxşılaşdırılması hesabına nail olunur.

***Fondtutumu*** – fondverиminə əks olan göstəricidir; məhsulun 1000 manatına düşən istehsal əsas fondların dəyərini səciyyələndirir. Müəssisə miqyasında fondtutumu istehsal əsas fondla-

rın orta illik balans dəyərinin müəyyən dövrdə (məsələn, ildə) buraxılmış xalis (əmtəəlik) məhsulun həcminə nisbəti kimi müəyyən olunur. Fondtutumu göstəricisindən tikinti-quraşdırma işlərini layihələşdirəndə, məhsul buraxılışını artırmaq üçün əlavə investisiya qoyuluşu həcmi müəyyən ediləndə və digər hesablamalarda istifadə edilir. İstehsal fondlarından istifadənin yaxşılaşdırılması əsasında fondtutumunun aşağı salınması istehsalın səmərəliliyinin yüksəldilməsində və intensivləşdirilməsində mühüm istiqamətdir.

***İstehsalın material tutumu*** – pul ifadəsində məhsul (iş, xidmət) vahidinə düşən material sərfinin həcmini səciyyələndirən göstəricidir. İstehsalın material tutumu hesablanarkən bütün material ehtiyatlarının (məsələn, xammal, əsas və köməkçi materiallar, yanacaq, istilik və elektrik enerjisi, satın alınmış komplektləşdirici məmulatlar və yarımfabrikatlar) sərfi nəzərə alınır. Xalq təsərrüfatı, sahə, müəssisə və ayrı-ayrı məhsul növləri üzrə istehsalın material tutumu fərqləndirilir. Xalq təsərrüfatı üzrə material tutumu ümumi ictimai məhsula görə, sahə və ya müəssisə üzrə isə əmtəəlik məhsula görə hesablanır. Məhsulun metal tutumu, enerji tutumu və kimya tutumu istehsalın material tutumunun ayrı-ayrı tərkib ünsürləridir. İstehsalın material tutumunu azaltmağın əsas amilləri – texniki tərəqqi (maşın və mexanizmlərin konstruksiyasını təkmilləşdirmək, parametrlərini yaxşılaşdırmaqla yanaşı, kütləsini (vəznini, çəkisini) azaltmaq, elektronikanın son nailiyyətləri əsasında məmulatları miniatürləşdirmək və mikrominiatürləşdirmək, mütərəqqi materiallar tətbiq etmək, aztullantılı və tullantısız texnologiya tətbiq etmək), qənaəti maddi cəhətdən stimullaşdırmaq və ehtiyatlardan israfçılıqla istifadəyə görə məsuliyyəti artırmaq, onların ciddi uçotunu aparmaq, hər kəsdə sahiblik, ictimai əməyin nəticələrinə qayğılı münasibət hissi tərbiyə etməkdən ibarətdir.

***Məhsulun metal tutumu*** – məhsul (iş, xidmət) vahidinə metal sərfini xarakterizə edir. Bu göstərici natural və dəyər ifadəsində hesablanır: məhsul (iş, xidmət) vahidinə, 1 milyon manatlıq əmtəəlik məhsula, xalis məhsula, ümumi ictimai məhsula və ya milli gəlirə tonla, yaxud manatla metal sərfi. Məhsulun metal tutumunun xüsusi göstəriciləri sərf olunan metalın və istehsal olunan məhsulun (işin, xidmətin) növləri üzrə – məhsul



vahidinə qara metal prokatı sərfi, çuqun və polad ərintiləri sərfi və başqa metal məhsulu növləri üzrə müəyyən edilir. Bütövlükdə xalq təsərrüfatı üzrə məhsulun metal tutumu natural ifadədə (məsələn, tonla) istehlak olunmuş qara metal həcminin ictimai məhsulun (işin, xidmətin), yaxud milli gəlirin həcminə olan nisbəti kimi, ayrı-ayrı sahələr və müəssisələr üzrə isə istehlak olunmuş qara metal həcminin əmtəəlik məhsulun həcminə olan nisbəti kimi hesablanır.

***Məhsulun enerji tutumu*** – məhsul (iş, xidmət) vahidinə sərf olunmuş enerjini səciyyələndirən göstəricidir. Bütövlükdə xalq təsərrüfatı üzrə ilkin yanacaq-enerji ehtiyatları sərfinin müəyyən dövr ərzində (məsələn, il ərzində) istehsal olunmuş milli gəlirin, yaxud ümumi ictimai məhsulun həcminə nisbəti kimi, müəssisə və sahə miqyasında isə əmtəəlik məhsulun həcminə nisbəti kimi təyin edilir. Hesaba istehsal-istismar ehtiyaclarında istehlak olunmuş, yəni texnoloji ehtiyaclara sərf olunmuş hər cür yanacaq-enerji növləri – elektrik, istilik enerjisi, ölkədə vahid ekvivalentlər (yenidən hesablama əmsalları) üzrə ton şərti yanacağa çevrilmiş şəkildə daxil edilir. Məhsulun enerji tutumu müəyyənləşdirilərkən, enerji təchizatı mənbəyindən asılı olmayaraq hər cür yanacaq və enerji növlərinin bütün istiqamətlər üzrə istehlakı, o cümlədən isitmə sistemi, ventilyasiya, su təchizatı, şəbəkələrdə itkilər üzrə sərfi nəzərə alınır. Məhsulun enerji tutumu hesablanarkən, dəyər ifadəsində yanacaq və enerji qüvvədə olan qiymət və tariflə qiymətləndirilir.

Son zamanlar metaldan, yanacaqdan və enerjidən istifadənin yaxşılaşdırılması nəticəsində məhsulun (işin, xidmətin) metal tutumu və material tutumu müəyyən qədər azalsa da, onun enerji tutumu artmışdır.

***Məhsulun kimya tutumu*** – məhsul (iş, xidmət) vahidinə kimya sənaye müəssisələrinin məhsullarının sərfini xarakterizə edir. Hazırda elə bir məhsul yoxdur ki, onun istehsalında kimya sənaye müəssisələrinin məhsullarından istifadə edilməsin. Kimya sənaye müəssisələrinin məhsullarından istifadə edilməsi təbii materiallara qənaət etməyə imkan verir.

Elm və texnikanın müasir inkişaf mərhələsi təsərrüfat məsələlərinin çoxvariantlılığı ilə xarakterizə olunur. Belə bir hal müqayisəli iqtisadi səmərəlilik göstəricilərindən istifadə olun-

masını zəruri edir. Müqayisəli iqtisadi səmərəliyin əsas göstəricilərinə investisiya qoyuluşunun həcmi, onun özünüödəmə müddəti və effektivlik əmsalı, məhsulun maya dəyəri, illik qənaətin məbləği və s. aiddir. Bundan başqa, istehsalın iqtisadi səmərəliliyini müəyyən etmək üçün əlavə müqayisəli iqtisadi səmərəlilik göstəricilərindən də istifadə edilir. Belə göstəricilər həm ictimai əmək məsrəflərinin ayrı-ayrı ünsürlərinin kəmiyyətini, həm də mütərəqqi üsulların tətbiqi şəraitində onların dəyişilməsini düzgün ifadə edirlər. Belə göstəricilərə aiddir: məhsul vahidinə düşən maddi məsrəflərin sərfi normaları; məhsulun əmək tutumu; işçilərin nisbi azad olması və s.

***İnvestisiya qoyuluşu*** – həm maddi, həm də qeyri-maddi istehsal sahələrində əsas fondların sadə və geniş təkrar istehsalı üçün nəzərdə tutulur və ona görə də hər bir konkret şəraitində onun həcminin düzgün müəyyən edilməsi mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Ümumiyyətlə, investisiya qoyuluşunun birbaşa nəticəsi – istehsal gücünün və qeyri-istehsal obyektlərinin işə salınmasından; son nəticəsi isə – məhsul buraxılışının və xidmətlərin həcminin artırılmasının təmin edilməsindən ibarətdir. Ona görə investisiya qoyuluşu elə obyektlərə yönəldilməlidir ki, onlar tələbatı daha tam ödəmək şərtilə, müəyyən dövr ərzində ictimai istehsalın optimal proporsional artımını təmin etmiş olsun. Sahənin (müəssisənin) bütün investisiya qoyuluşu iki qrupa: sahənin inkişafı ilə bilavasitə əlaqədar olan tam investisiya qoyuluşuna və əsas istehsal ilə əlaqədar olan infrastrukturun yaradılmasına yönəldilən investisiya qoyuluşuna, yəni «əlaqədar» investisiya qoyuluşuna bölünür. Tam investisiya qoyuluşunun tərkibinə müstəqim və əlavə investisiya qoyuluşları, müəssisənin dövriyyə vəsaitlərinin yaradılmasına yönəldilmiş məsrəflər və istehsalın hazırlanması və mənimsənilməsi ilə əlaqədar olan məsrəflər daxildir. İnfrastrukturun, yəni əlaqədar sahələrin inkişafına yönəldilən investisiya qoyuluşunun tərkibinə tikilməkdə olan obyekti tikinti materialları, tikinti və texnoloji avadanlıqla təmin edən sahələrin inkişafına yönəldilən vəsaitlər daxildir.

***Məsrəflərin iqtisadi səmərəlilik əmsalı*** – həmin məsrəflərin minimum səmərəlilik normasını ifadə edir və digər şərtlər eyni olduqda, bundan da aşağı səviyyədə olması məqsədəuyğun deyildir. Başqa sözlə, məsrəflərin iqtisadi səmərəlilik əmsalı il ərzində onun nə qədər hissəsinin ödənildiyini göstərir. O, maya dəyəri üzrə məhsul buraxılışı həcmi fərqlərinin (*Vm.ə.–Vm.s.*), müqayisə edilən variantlara yönəldilən investisiya qoyuluşları arasındakı fərqlərə (*İs. – İə.*) nisbətini ifadə edir, yəni:

$$En = (Vm.ə. - Vm.s) : (İs. - İə.)$$

***Məsrəflərin özünüödəmə müddəti*** – onun normativ effektivlik əmsalına əks olan kəmiyyətdir, yəni o, məsrəflərin həcminin onun gətirdiyi səmərəyə nisbətindən alınır. Bir qayda olaraq, müxtəlif variantlar investisiya qoyuluşu və cari xərc tələb edir. Çoxlu miqdarda variantlar içərisindən ən yaxşısını seçmək üçün həmin variantlar cüt-cüt müqayisə edilir və onlardan ən az müddətdə ödənilən variant seçilir. Sənayenin bəzi sahələri üzrə investisiya qoyuluşunun özünüödəmə müddətinin və normativ effektivlik əmsalının həddi cədvəl 55-də verilmişdir.

*Cədvəl 55*

***Sənayenin bəzi sahələri üzrə investisiya qoyuluşunun özünüödəmə müddətinin və normativ effektivlik əmsalının həddi***

| Sənaye sahələri | Özünüödəmə müddəti | Normativ effektivlik əmsalı |
|---|---|---|
| Maşınqayırma sənayesi | 5,6-8,33 | 0,12-0,18 |
| Neft sənayesi | 6,00 | 0,17 |
| Qaz sənayesi | 8,33 | 0,12 |
| Yüngül sənaye | 3,50 | 0,20-0,33 |
| Yeyinti sənayesi | 11,10 | 0,09 |

Gətirilmiş məsrəflər göstəricisi texniki və təsərrüfat məsələlərinin həlli variantlarından ən yaxşısının seçilməsində tətbiq olunur. Hər hansı texniki məsələlərin, səmərələşdirici təkliflərin, texniki təkmilləşdirmənin, məhsulun keyfiyyətinin müxtəlif üsullarla yaxşılaşdırılmasının həllində mümkün variantlar müqayisə edilərkən, digər şərtlər bərabər olduqda, minimum gətirilmiş məsrəflər tələb edən variant ən yaxşı, səmərəli variant hesab olunur. Gətirilmiş məsrəflər ($G_m$) – məhsulun maya dəyərində nəzərdə tutulan cari məsrəflərin məbləğindən ($M_c$), birdəfəlik investisiya qoyuluşundan ($İ_q$) ibarətdir; investisiya

qoyuluşunun cari məsrəflərlə müqayisəsinə həmin məsrəfləri investisiya qoyuluşunun normativ effektivlik əmsalına ($E_n$) vurmaqla nail olunur. Sonuncu – investisiya qoyuluşunun minimum effektivlik normasını ifadə edir və digər şərtlər eyni olduqda, bundan da aşağı səviyyədə olması məqsədəuyğun sayılmır.

***Məhsulun maya dəyəri*** – sahənin (müəssisənin) məhsul istehsalına və satışına sərf etdiyi cari xərclər pul formasında ifadə olunur. Məhsulun maya dəyəri – sahənin (müəssisənin) istehsal-təsərrüfat fəaliyyətinin bütün tərəflərini əks etdirən və onun işinin səmərəliliyini xarakterizə edən sintetik, ümumiləşdirici göstəricidir. Məhsulun maya dəyərinin strukturu ayrı-ayrı xərc növlərinin nisbəti ilə xarakterizə olunur və hər bir sahənin spesifik xüsusiyyətlərini əks etdirir. Belə ki, neft sənayesində ən çox xərclər əməyin ödənilməsi və əsas istehsal fondlarının amortizasiyasına çəkilən xərclərdir; yüngül və yeyinti sənayesində isə əməyin ödənilməsi xərclərinin xüsusi çəkisi nisbətən kiçik olmaqla xammal və materiala çəkilən xərclər 85-90% təşkil edir. Məhsulun maya dəyərinin aşağı salınması canlı və maddiləşmiş əməyə qənaəti əks etdirir, mənfəətin artmasını təmin edir, topdansatış və pərakəndəsatış qiymətlərin aşağı salınmasına imkan yaradır.

***Məhsulun əməktutumu*** – məhsul vahidi istehsalına, yaxud müəyyən texnoloji əməliyyatın yerinə yetirilməsinə sərf olunan iş vaxtının göstəricisidir. Məhsulun əmək tutumu texnoloji, tam və xalq təsərrüfatı məhsulunun əmək tutumuna görə fərqləndirilir.

***Məhsulun keyfiyyəti*** – məhsulun təyinatına müvafiq olaraq müəyyən şəxsi və istehsal tələbatını ödəmək qabiliyyətini şərtləndirən xassələrin məcmusudur. Məhsulun keyfiyyətinin yüksəldilməsi iqtisadi artımın ən mühüm amili, istehsalın intensivləşdirilməsinin vacib şərtidir. Bazar iqtisadiyyatı şəraitində məhsulun keyfiyyətinin artırılması mühüm iqtisadi və siyasi vəzifə kimi çıxış edir. Bunu həll etmədən bazar iqtisadiyyatına keçidi təmin etmək olmaz. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması – əhalinin tələbatını daha tam ödəməyin, əmtəə-pul tədavülünün normal fəaliyyət göstərməsinin, ölkənin ixracat imkanlarını artırmağın vacib amilidir.

***Qənaət*** – təkrar istehsalın bütün mərhələlərində bütün ehtiyat növlərindən daha səmərəli olunması nəticəsində əldə edilir. Qənaət rejimi mütərəqqi texnologiya və qabaqcıl texnikanın, istehsalın mexanikləşdirilməsinin və avtomatlaşdırılmasının, əməyin elmi təşkilinin tətbiqini, əmək intizamının möhkəmləndirilməsini, maddi və mənəvi stimullaşdırmanın təkmilləşdirilməsini nəzərdə tutur. Qənaət rejiminə əməl edilməsi – bütün fəaliyyət sahələrində maddi, əmək və maliyyə ehtiyatlarından daha səmərəli istifadə etmək deməkdir.



Qənaət rejimi ictimai istehsalın səmərəliliyinin yüksəldilməsində, əmək kollektivlərinin rifahının artırılmasında mühüm amildir. Bazar iqtisadiyyatı şəraitində ehtiyatlara qənaət edilməsi mühüm əhəmiyyət kəsb edir. Elə etmək lazımdır ki, yanacağa, enerjiyə, xammala və materiala tələbatın artımı onlara qənaət edilməsi hesabına ödənilsin. Bunun üçün təbii və maddi ehtiyatlardan kompleks istifadə olunmalı, itkilər və səmərəsiz xərclər maksimum aradan qaldırılmalı, təkrar maddi ehtiyatlar, həmçinin əlaqədar məhsullar təsərrüfat dövriyyəsinə geniş cəlb edilməlidir. Qənaət rejimi həm istehsal və tədavül sahəsini, həm də istehlak sahəsini əhatə edir. Məişətdə istifadə olunan bütün ehtiyatlardan və məhsullardan, yanacaq və enerjidən qənaətlə istifadə olunması – onların təkrar istehsalına qoyulan investisiya qoyuluşuna və cari xərclərə xalq təsərrüfatı miqyasında qənaət olunmasına bərabərdir.

Müasir şəraitdə istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinin əhəmiyyəti kəskin surətdə artmışdır. Çünki yalnız belə olan halda sahənin (müəssisənin) sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə əlaqədar olan məsələləri müvəffəqiyyətlə həll etmək mümkündür. Odur ki, bazar iqtisadiyyatına keçid dövründə əsas məsələlərdən biri – sənaye istehsalını texnoloji cəhətdən yenidən qurmaqla onun iqtisadi səmərəliliyinin artırılmasını təmin etməkdən ibarətdir. Sahənin (müəssisənin) yeni iqtisadi strategiyasının həyata keçirilməsi – yalnız ictimai istehsalın daha da artırılması və onun strukturunun təkmilləşdirilməsi bazar iqtisadiyyatına uyğun yeni strukturların yaradılması və onların normal inkişafının təmin edilməsi, buraxılan məhsulların (işlərin, xidmətlərin) rəqabət qabiliyyətinin artırılması sayəsində mümkündür.

İctimai istehsalın müntəzəm surətdə yüksəldilməsinə və

strukturunun təkmilləşdirilməsinə nail olmaq üçün elm və texnikanın ən yeni nailiyyətlərindən istifadə etməklə mövcud istehsal obyektlərin yenidən qurulmasını, genişləndirilməsini və texnoloji cəhətdən silahlanma səviyyəsinin yüksəldilməsini sürətləndirmək lazımdır. İctimai istehsalın iqtisadi səmərəliliyinin artırılmasının müxtəlif yolları vardır. Bu, istehsalın konkret şəraitindən asılı olaraq müəyyən edilir. Lakin bütün bunlarla yanaşı, ictimai istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas yolları aşağıdakılardan ibarətdir:

– ***sənaye istehsalını texnoloji cəhətdən yenidən qurmaq əsasında, iqtisadiyyatı intensiv inkişaf yoluna keçirməklə istehsalın ən yüksək səviyyəsinə nail olmaq.*** Bu, istehsalın ekstensiv inkişafı ilə müqayisədə daha qənaətli yoldur, çünki məhsul vahidi hesabı ilə əmək sərfinə və maddi ehtiyatlara qənaət olunmasına, istehsalın son nəticələrinin yaxşılaşdırılmasına səbəb olur. Deməli, istehsalın intensivləşdirilməsi onun iqtisadi səmərəliliyinin artırılmasının zəruri şərtidir. Son illərdə respublikamızda istehsalı intensiv inkişaf etdirmək məqsədilə, onun texnoloji cəhətdən yenidən qurulmasına diqqət xeyli artmışdır ki, bu da müəssisə və təşkilatların mənfəətlə işləməsinə imkan vermişdir.

– ***canlı və maddiləşmiş əməyə qənaət etməklə, ictimai əmək məhsuldarlığının artımını təmin etmək.*** Belə bir tədbirin həyata keçirilməsi sahənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinin mühüm şərtlərindən biridir. Lakin son illərdə, qeyd etdiyimiz kimi, istehsal əsas fondların həcminin və əməyin fondla silahlanma səviyyəsinin artması sənaye istehsalının həcmini müəyyən qədər artırsa da, nə fondveriminin, nə də əmək məhsuldarlığının artmasına səbəb olmamışdır.

– ***maddi istehsal sahələrində istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi hesabına əmək ehtiyatlarından istifadənin səmərəliliyini artırmaq.*** Son illərdə əmək ehtiyatlarının tərkibində struktur dəyişikliklərinin xarakterik meyli – qeyri-istehsal sahələrində çalışanların xüsusi çəkisinin artmasından ibarətdir ki, bu da istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsini göstərir. Əmək ehtiyatlarının keyfiyyəti, hər şeydən öncə, istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi üçün işçilərin elm və texnikanın ən



yeni nailiyyətlərindən istifadə edə bilməsi bacarığından, qabiliyyətindən, onların istehsal dinamizminə nail ola bilməsindən asılıdır. Əmək ehtiyatlarından səmərəli istifadə etmək məqsədilə hər bir müəssisədə (sahədə) əmək ehtiyatları balansları işlənib hazırlanır. Bu balanslar iki hissədən ibarət olur. Birinci hissədə mövcud əmək ehtiyatları, ikinci hissədə isə onların məşğuliyyət növləri üzrə, sahənin struktur bölmələri üzrə bölüşdürülməsi əks olunur.

– ***mövcud istehsal gücündən istifadəni yaxşılaşdırmaq.*** Mövcud istehsal güclərindən istifadənin yaxşılaşdırılması – eyni investisiya qoyuluşunda məhsul buraxılışının artırılmasının mühüm ehtiyat mənbəyidir. İstehsal güclərindən istifadənin yaxşılaşdırılmasına istehsalın texnoloji cəhətdən yenidən qurulması, mənəvi cəhətdən köhnəlmiş maşın və avadanlıqların yenisi ilə əvəz edilməsi, növbədaxili boşdayanma hallarının aradan qaldırılması, yeni istehsal güclərinin işə salınması və s. hesabına nail olmaq olar. Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində sənayenin ümumi iqtisadi göstəriciləri xeyli yaxşılaşmışdır. 1995-2004-cü illərdə sənayenin ümumi iqtisadi göstəricilərinin dinamikası cədvəl 56-da verilmişdir.

*Cədvəl 56*

***Sənayenin ümumi iqtisadi göstəricilərinin dinamikası***

| İllər | Məhsulun həcmi, mlrd. manat | Müəssisələrin sayı, vahid | İşçilərin sayı, min | Əsas fondların həcmi, mlrd.m | Fondverimi, manat |
|---|---|---|---|---|---|
| 1995 | 8856 | 2984 | 304,3 | 21954,1 | 0,83 |
| 1996 | 11316 | 3601 | 271,7 | 26915,7 | 0,59 |
| 1997 | 12569 | 4189 | 214,6 | 26969,6 | 0,52 |
| 1998 | 11620 | 4637 | 191,6 | 27293,2 | 0,52 |
| 1999 | 12945 | 4611 | 186,0 | 27648,0 | 0,51 |
| 2000 | 16681 | 4835 | 193,2 | 36309,0 | 0,51 |
| 2001 | 17252 | 5018 | 179,5 | 40794,9 | 0,44 |
| 2002 | 19742 | 5202 | 180,5 | 42019,0 | 0,44 |
| 2003 | 24673 | 2412 | 170,9 | 59720,0 | 0,46 |
| 2004 | 28835 | 2439 | 175,3 | 75733,4 | 0,40 |

– ***maddi ehtiyatlardan təkrarən istifadənin təşkili.*** Bu, eyni investisiya qoyuluşunda daha çox məhsul buraxılışına nail olmağa imkan verir. Təkrar maddi ehtiyatlar dedikdə, ilkin istifadədən sonra istehsalda ilkin xammal və ya material kimi təkrarən istifadə oluna bilən məmulatlar nəzərdə tutulur. Onların istifadəsi sayəsində məhsulun (işin, xidmətin) maya dəyəri və investisiya qoyuluşunun həcmi azalır, iqtisadi artım isə çoxalır. Təkrar maddi ehtiyatlardan istifadənin çox böyük xalq təsərrüfatı əhəmiyyətinə malik olmasına baxmayaraq son illərdə respublikamızda bu işə ciddi yanaşılmır (cədvəl 57).

*Cədvəl 57*

***Təkrar xammalın tədarükü, ton***

| | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Kağız qırıntıları | 801 | 920 | 508 | 356 | 605 | 230 | 162 | 103 | 104 | 191 |
| Toxuculuq materialı | 507 | 316 | 137 | 81 | 203 | 133 | 54 | 9 | 68 | 3 |
| Şüşə qırıntıları | 94 | 83 | 32 | 26 | – | – | – | – | – | – |
| Polimer xammal | 29 | 11 | 3 | 1 | 0,02 | 0,25 | – | – | – | – |
| Köhnəlmiş işin | 57 | 44 | – | 1 | – | – | – | – | – | – |

Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyinin hesablanma metodikası ETT üzrə tədbirlərin iqtisadi səmərəliliyinin hesablanma metodikası kimidir. Odur ki, ETT üzrə tədbirlərin iqtisadi səmərəliliyi kimi, sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyi də maddi-enerji və maliyyə ehtiyatlarına qənaət olunması, əmək məhsuldarlığının yüksəldilməsi, məhsulun maya dəyərinin aşağı salınması, onun keyfiyyətinin yaxşılaşdırılması və s. ilə xarakterizə olunur. Deməli, sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyi o zaman hesablana bilər ki, o, bilavasitə məhsulun maya dəyərinin aşağı salınmasına və onun keyfiyyətinin yaxşılaşdırılmasına, maddi-enerji, əmək və maliyyə ehtiyatlarına qənaət olunmasına, bütün bunlarında əsasında istehsalın iqtisadi artımının təmin olunmasına yönəldilmiş olsun.



Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyinin aşağıdakı üç növünü fərqləndirirlər: a) ilkin iqtisadi səmərə – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması üzrə tədbirlər müəyyənləşdirildikdə və ona görə də bu cür iqtisadi səmərə ehtimal xarakteri daşıyır; b) gözlənilən iqtisadi səmərə – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması üzrə bu və ya digər tədbirin həyata keçirilməsi haqqında hər hansı bir qərar qəbul edildikdən sonra hesablanır və bu, onların nəticələrinin istehsalata tətbiq edilməsində əsas təşkil edir; c) faktiki iqtisadi səmərə – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması üzrə işlənib hazırlanmış tədbirlərin istehsalata tətbiqindən sonra müəyyənləşdirilir və o, konkret tədbirin qiymətləndirilməsində əsas götürülür.

Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması üzrə həyata keçirilən bəzi tədbirlərin iqtisadi səmərəliliyinin hesablanma metodikasını nəzərdən keçirək. Əgər sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması üzrə həyata keçiriləcək tədbir buraxılan məhsulların keyfiyyətinin yaxşılaşdırılmasına xidmət edəcəkdirsə, onda həmin tədbirin iqtisadi səmərəliliyini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$S_{key.} = (ƏMc. - En \times İ_{təd.}) \times Nc.$$

burada: *ƏMc.* – cari ildə keyfiyyəti yaxşılaşdırılmış məhsulların realizəsindən əldə edilmiş əlavə mənfəətin məbləği, manat; $İ_{təd.}$ – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasına yönəldilmiş investisiya qoyuluşunun həcmi, manat; *En* – həmin investisiya qoyuluşunun normativ effektivlik əmsalı; *Nc.* – cari ildə reallaşdırılmış keyfiyyətli məhsulların miqdarıdır, ədəd.

Əgər sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması məqsədilə elmi-tədqiqat işlərinin aparılması zərurəti yaranarsa, onda həmin ETT işlərinin iqtisadi səmərəliliyini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$S_{tex.} = [(Xə. - Xs.) - (En \times İ_{təd.}) : Nc.]\, Nc.,$$

burada: *Xə.* və *Xs.* – tədbirin həyata keçirilməsindən əvvəl və sonra məhsul vahidinin hazırlanmasına çəkilən xərclərin miq-

darıdır, manat.

Əgər sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində buraxılan məhsulun maya dəyəri aşağı düşəcəksə, onda maya dəyərinin aşağı düşməsi sayəsində əldə ediləcək səmərəni hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$S_{m.d.} = (M_{d.ə.} - M_{d.s.}) \times Nc.,$$

burada: $M_{d.ə.}$ və $M_{d.s.}$ – tədbirin tətbiqindən əvvəl və sonrakı məhsul vahidinin tam maya dəyəridir, manat.

Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyini xarakterizə edən ən mühüm göstəricilərdən biri, qeyd etdiyimiz kimi, əmək məhsuldarlığıdır. Əgər sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması növbədaxili və növbələrarası iş vaxtı itkilərini aradan qaldırarsa, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsini yüksəldərsə, məhsulun əmək tutumunu və işçilərin sayını azaldarsa, onda əmək məhsuldarlığı da yüksəlmiş olacaqdır. Çünki bunlar əmək məhsuldarlığının artırılması amilləridir.

Məhsulun əmək tutumunun azaldılması hesabına əmək məhsuldarlığının yüksəldilməsi faizini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$ƏMF_{ə.t.} = (100 \times K_{ə.t.}) : (100 - K_{ə.t.}),$$

burada: $K_{ə.t.}$ – məhsulun əmək tutumunun azalma faizidir.

Növbə ərzində işçinin faydalı iş vaxtı fondunun artırılması hesabına əmək məhsuldarlığının artma faizini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$ƏMF_{fay.} = [(t_{f.s.} - t_{f.ə.}) \times 100] : t_{f.ə.},$$

burada $t_{f.ə.}$ və $t_{f.s.}$ – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasından əvvəl və sonra işçinin növbə ərzindəki faydalı iş vaxtı fondudur, saat.

Növbədaxili və növbələrarası iş vaxtı itkilərinin aradan qaldırılması hesabına əmək məhsuldarlığının artma faizini müəyyən etmək üçün aşağıdakı düsturdan istifadə edilir:

$$ƏMF_{it.} = [(K_{it.ə.} - K_{it.s.}) \times 100] : (100 - K_{it.s.}),$$

burada $K_{it.ə.}$ və $K_{it.s.}$ – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasından əvvəl və sonra növbədaxili və növbələrarası iş vaxtı itkilərinin məbləğidir, %-lə.

Fəhlələrin sayının azaldılması hesabına əmək məhsuldarlığının artma faizini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:



$$ƏMF_{az.} = [(Fə. - Fs.) \times 100] : (Fə. - Faz.),$$

burada $Fə.$ və $Fs.$ – istehsalın texnoloji cəhətdən yenidən qurulmasından əvvəl və sonra müəssisədə maddi istehsal sahələrində çalışan fəhlələrin sayı, nəfər; $Faz.$ – cari ildə fəhlələrin sayının azalmasıdır, nəfər.

Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliliyi istehsalın rentabellik səviyyəsinə və birdəfəlik məsrəflərin həcminə görə də qiymətləndirilə bilər. Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində əldə ediləcək rentabellik səviyyəsini hesablamaq üçün aşağıdakı düsturlardan istifadə etmək olar:

a) müəssisə üzrə: $P`_{m.} = (ƏXMc. \times 100) : (D_{əsas} + D_{döv.})$;

b) sahə üzrə: $P`_{s.} = (ƏXMc. \times 100) : (D_{əsas} + D_{döv.})$;

burada $D_{əsas}$ və $D_{döv.}$ – cari ildə istehsal əsas fondların və dövriyyə vəsaitlərinin orta illik dəyəri, manat; $ƏXMc.$ – cari ildə əldə edilmiş əlavə xalis məhsulun həcmidir, manat.

Əgər istehsalın iqtisadi səmərəliliyi birdəfəlik məsrəflərin minimal həcminə görə hesablanarsa, onda aşağıdakı düsturlardan istifadə etmək olar:

$$BM_{min.} = M_{d.v.} + En \times İq.$$

və ya

$$BM_{min.} = İq. + t_{öd.} \times M_{d.v.}$$

burada $M_{d.v.}$ – variantlar üzrə məhsulun tam maya dəyəri, manat; $İq.$ – həmin variantlar üzrə investisiya qoyuluşu, manat; $t_{öd.}$ – həmin investisiya qoyuluşunun özünüödəmə müddətidir, il.

Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasının iqtisadi səmərəliyi əldə edilən qənaət ilə də ölçülə bilər. Sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində cari əldə ediləcək illik qənaətin məbləğini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$Q_{il.} = Mc. \times N_{r.c.} - En \times İq.,$$

burada $Mc.$ – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində cari ildə əldə ediləcək mənfəətin məbləği; $N_{r.c.}$ – həmin ildə realizə ediləcək məhsulların miqdarıdır, ədəd.

Əgər sənaye istehsalının texnoloji cəhətdən yenidən qurul-

ması nəticəsində avadanlıq sərbəstləşərsə (azad olarsa), onda sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulması nəticəsində əldə ediləcək illik qənaətin məbləğini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$Q_{il.} = [(A_{ay} : Nr_{il}) - (A'_{ay} : Nr'_{il})] \times Nr_{il};$$

burada $A_{ay}$ və $A_{ay}$ – sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasından əvvəl və sonra amortizasiya ayırmalarının məbləği, manat; $Nr_{il}$ və $Nr'_{il}$ – həmin dövrlərdə realizə edilmiş məhsulların miqdarı, ədəd.

Əgər elmi-texniki tərəqqinin təsiri altında yeni texnika və mütərəqqi texnologiya yaradılıb istehsalata tətbiq edilmişdirsə və bu sənaye istehsalının texnoloji cəhətdən yenidən qurulmasına səbəb olmuşdursa, onda həmin texnika və texnologiyanın istehsalata tətbiqi nəticəsində cari ildə əldə ediləcək illik qənaətin məbləğini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$Q_{tex.} = (Nc. - Nb.) \times N_{c.a.};$$

burada $Nc.$ və $Nb.$ – cari və bazis illərində məhsul buraxılışının həcmi, man; $N_{c.a.}$ – cari ildə məhsul buraxılışının artımıdır, ədəd.



# FƏSİL 8. NEFT SƏNAYESİNDƏ İQTİSADİ İSLAHATLARIN MAHİYYƏTİ VƏ XÜSUSİYYƏTLƏRİ

## 8.1. Neft sənayesində iqtisadi islahatların aparılmasının zəruriliyi və xüsusiyyətləri

Son illər ölkə iqtisadiyyatı və sosial sahələr böyük tərəqqi ilə xarakterizə olunur. İqtisadiyyatda və sosial sahələrdə əvvəlki illərdə müşahidə olunmuş geriləmənin qarşısı ümummilli liderimiz Heydər Əliyevin rəhbərliyi ilə ölkədə həyata keçirilən köklü islahatlar nəticəsində alınmış, artım əldə edilmişdir. 2002-ci il də bu baxımdan əlamətdar olmuş, ölkənin iqtisadi və sosial həyatını əks etdirən makroiqtisadi göstəricilər əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə artmışdır. İqtisadiyyatın və sosial sahələrin ümumiləşdirici göstəricisi – indikatoru olan ümumi daxili məhsul istehsalı 2002-ci ildə 2001-ci ilə nisbətən 10,6% artaraq 29,6 trilyon manata çatmışdır. Əgər 2001-ci ildə ümumi daxili məhsulun 1% artımı 235,9 milyard manat əlavə dəyərə bərabər idisə, 2002-ci ildə bu həmin rəqəm 266,7 milyard manat təşkil etmişdir. Adambaşına ümumi daxili məhsul istehsalı 2001-ci illə müqayisədə 9,8% artaraq 3,7 milyon manata (756,3 dollar) çatmışdır. Bu göstəriciyə görə Azərbaycan Respublikası MDB ölkələri içərisində Rusiya, Ukrayna, Belarus və Qazaxıstandan sonra beşinci yerdədir. 2002-ci ilin məlumatlarının təhlili göstərir ki, bu göstəriciyə görə bizim respublikamız artıq Ukraynaya çatmaq üzrədir.

Yuxarıda göstərilən nailiyyətlərin əldə edilməsində neft sənayesində son illərdə həyata keçirilən iqtisadi islahatlar mühüm rol oynamışdır. Ümumiyyətlə, ***iqtisadi islahat*** dedikdə, təsərrüfatçılığın yeni sistemə keçirilməsi prosesi nəzərdə tutulur. Bizim respublikamızda iqtisadi islahatların həyata keçirilməsi təsərrüfat hesabına, qiymət, mənfəət, kredit və mükafatdan geniş istifadə olunmasına keçilməsi ilə xarakterizə olunur. Neft sənayesində iqtisadi islahat idarəetmə sahəsində mərkəzləşdirilmiş rəhbərliyi istehsalın inkişafının daha mühüm perspektiv məsələlərinin, həmçinin iqtisadi idarəetmə metodlarının daha geniş tətbiqi məsələlərinin həllinə yönəldilmişdir. Neft sənayesində iqtisadi islahatların gedişində sahə üzrə idarəetmənin

bərpası və gücləndirilməsinin böyük əhəmiyyəti olmuşdur. Belə ki, iqtisadi islahatlar nəticəsində qeyri-mərkəzləşdirilmiş planlaşdırma sisteminin rolu artırılmışdır.

Neft sənayesində 1990-cı ilin əvvəlindən start götürən islahatlar prosesi köklü dəyişikliklərə məruz qalacaq yeni mərhələyə qədəm qoyur. Respublika prezidenti H.Ə.Əliyev tərəfindən əsası qoyulan neft strategiyasının uğurlu nəticələri bu gün daha geniş şəkildə özünü büruzə verir. «Əsrin müqaviləsi» çərçivəsində hasil ediləcək neftin illik həcmi yaxın gələcəkdə 10 milyon tonluq həddi aşacaqdır. Azərbaycan Xəzərin enerji resurslarının Avropa bazarlarına çıxarılacağı ən mühüm əraziyə, gerçəkləşən böyük ipək yolu baxımında isə həm də bütün Xəzər hövzəsi regionunun tranzit məkanına çevriləcəkdir. Deməli, gələcəkdə neft sənayesində böyük nailiyyətlərin əldə edilməsi məqsədi ilə iqtisadi islahlar daha dərinləşdirilməli və təkmilləşdirilməlidir. Bizim subyektiv fikrimizcə, neft sənayesində iqtisadi islahatların daha da dərinləşdirilməsi və təkmilləşdirilməsi aşağıdakı nəticələrin əldə edilməsini təmin etməlidir:

***a) istehsalın səmərəliliyi və rentabelliyinin artırılmasını.*** İstehsalın səmərəliliyi – onun nəticəliyini, yəni istehsal fəaliyyətinin nəticələri ilə onlara nail olunmasına sərf edilən əmək və material ehtiyatlarının nisbətini xarakterizə edir. İstehsalın səmərəliliyinin yüksəldilməsi prosesinin mahiyyəti – məsrəfin hər vahidinə düşən iqtisadi nəticələrin yüksəldilməsindədir. İstehsalın səmərəliliyi cəmiyyət miqyasında istehsalın şəxsi və cismi (maddi) amillərinin iqtisadi cəhətdən reallaşdırılması dərəcəsini səciyyələndirir. Müəssisələrdə və onların bölmələrində təsərrüfat hesabı münasibətlərinin təkmilləşdirilməsi, qənaət rejiminə əməl olunması rentabelliyin artmasına səbəb olur;

***b) servis xidmətinin genişləndirilməsini.*** Servis xidmətini təşkil edərkən bazar xadimi üç qərar qəbul etməlidir: a) servis çərçivəsinə hansı xidmətləri daxil etməli; b) hansı səviyyəli servis təklif etməli; c) xidmətləri müştərilərə hansı formada təklif etməlidir.

***c) maliyyə sabitliyinin təminatını.*** Maliyyə sabitliyinin təmin olunmasında maliyyə intizamına ciddi əməl olunması mühüm əhəmiyyət kəsb edir. Maliyyə intizamı – bütün müəssisə, təşkilat, idarə və vəzifəli şəxslər üçün pul vəsaitlərindən istifadə ilə əlaqədar məcburi fəaliyyət qaydasıdır. Maliyyə intizamına maliyyə planlarının düzgün yerinə yetirilməsi, dövlət büdcəsinə ödəmələrin vaxtlı-vaxtında və tam keçirilməsi, büdcə təxsisatının məqsədli və səmərəli xərclənməsi, bank kreditlərinin ödənilməsi, əmək haqqı fondunun formalaşdırılması və ondan istifadə olunmasının norma və normativlərinə əməl olunması, əsas fəaliyyət və əsaslı tikinti ehtiyatlarının ciddi bölgüsü, öz dövriyyə vəsaitlərinin salamat saxlanmasının təmin edilməsi və s. daxildir. Maliyyə sabitliyinin təminatı pul ehtiyatlarından istifadə olunmasında qənaət rejiminin gözlənilməsinə yönəldilir və təsərrüfat hesabının zəruri şərtidir. Maliyyə sabitliyinin təminatı üzərində nəzarəti müəssisənin maliyyə şöbəsi həyata keçirir;



***ç) iqtisadi inteqrasiya, rəqabətin gücləndirilməsi və infrastrukturun yeniləşdirilməsini.*** İqtisadi inteqrasiya təsərrüfat fəaliyyətinin beynəlmiləlləşdirilməsi prosesi olmaqla ölkələr arasında əmək bölgüsünü dərinləşdirir, istehsalın inkişafına və səmərəliliyinin artmasına şərait yaradır. Əmək bölgüsünün çox yüksək səviyyədə olması Qərbi Avropada və Amerikada regional iqtisadi inteqrasiyanın geniş vüsət almasına səbəb olmuşdur. İqtisadi inteqrasiya Afrika və Latın Amerikası ölkələrində, nisbətən güclü formada islam təşkilatlarına daxil olan ölkələr arasında da getməkdədir;

***d) elmi-texniki nailiyyətlərin müntəzəm və geniş tətbiqini.*** Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq müasir elmi-texniki nailiyyətlər əsasında iqtisadiyyat texniki cəhətdən kökündən yenidən qurulur. Yeni nəsildən olan texnikanın, prinsipcə yeni texnologiyanın tətbiqini təmin edən maşınqayırma ETT-nin sürətləndirilməsində aparıcı rol oynayır. ETT-nin strateji istiqamətləri üzrə böyük kompleks proqramların həyata keçirilməsinin və istehsalın texniki cəhətdən yeniləşdirilməsinin asılı olduğu sahələr daha sürətlə inkişaf etdirilir. Hazırda elm və texnikanın inteqrasiyası gücləndirilir, onların qarşılıqlı təsirinin yeni səmərəli formaları meydana çıxır, texnika yeniliklərinin təşkili yaxşılaşdırılır, işlənməsi və iqtisadiyyatda mənimsənilməsi müddəti azaldılır;

***e) iqtisadi artımın təmin olunmasını.*** İqtisadi artım – istehsal və qeyri-istehsal istehlakı məqsədilə məhsul istehsalının və

xidmətlərin çoxaldılması deməkdir. İki tipdə iqtisadi artım mövcuddur: ekstensiv və intensiv. Birincisi, istehsalın əvvəlki elmi-texniki əsas üzərində genişləndirilməsini, ikincisi isə daha səmərəli istehsal vasitələrinin tətbiqi əsasında məhsul buraxılışının artırılmasını nəzərdə tutur. İqtisadi artımın əsas göstəricilərinə aiddir: milli gəlirin artım sürəti; məhsulun keyfiyyətinin yaxşılaşdırılması; elmi-texniki tərəqqinin səviyyəsi və sürətləri; istehsalın səmərəliliyi dinamikası. İqtisadi artımın sürətləndirilməsi elmi-texniki inqilabın nailiyyətlərindən geniş istifadə olunmasına, əmək məhsuldarlığının və istehsalın səmərəliliyinin daha yüksək sürətlə artmasına, məhsulun keyfiyyətinin əsaslı surətdə yaxşılaşdırılmasına, insan amilinin formalaşmasına əsaslanır. Məhz bu intensiv keyfiyyət amilləri iqtisadi artımın yeni keyfiyyətini müəyyən edir;

***ə) təsərrüfat subyektlərinin çevikliyinin və transformasiya qabiliyyətinin artırılmasını.*** Təsərrüfat subyektlərinin çevikliyi bir məmulatın emalından tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir.

Göründüyü kimi, iqtisadi islahatların həyata keçirilməsi problemi o qədər ciddidir ki, onun həlli yalnız məsələyə kompleks halında yanaşılması şəraitində mümkündür. Neft sənayesi respublika iqtisadiyyatının digər sahələri ilə o dərəcədə sıx əlaqədardır ki, iqtisadi islahatları burada təcrid olunmuş şəkildə həyata keçirmək qeyri-mümkündür. Bu baxımdan, respublika iqtisadiyyatında bütünlükdə iqtisadi islahatların ümumi xarakter daşıyan prinsipial istiqamətlərini müəyyən etmək və onların neft sənayesində xarakterik cəhətlərini nəzərə almaqla tətbiqi mühüm məsələdir.

Bazar iqtisadiyyatına keçid dövründə iqtisadiyyatı azad bazar prinsipləri, yəni tam təsərrüfat hesabı, özxərcləriniödəmə, özünümaliyyələşdirmə, özünüidarəetmə və rəqabət prinsipləri əsasında qurmaq, iqtisadi sarsıntılardan imkan dairəsində xilas olmaq zəruriliyi tələb edir ki, iqtisadiyyatın tənzimlənməsində dövlətin rolu düzgün müəyyən edilməlidir. Lakin müstəqilliyimizin ilk çağlarında «planlı təsərrüfat sistemi heç bir işə qadir deyil», «bazar iqtisadiyyatı dövlətin rolunu heçə endirməlidir» – fikrini rəhbər tutan bəzi «islahat»çılar, demək olar ki, MDB ölkələrinin hamısında xeyli dərəcədə köhnə iqtisadiyyatın dağıdılmasına nail oldular. Hazırkı mürəkkəb şəraitdə bu və ya digər səbəblərlə əlaqədar olaraq ölkənin iqtisadi, siyasi müstəqilliyində həlledici amillərdən olan yanacaq-energetika kompleksinin əsas və mühüm hissəsi dövlətin nəzarəti və himayəsi altında olmalıdır. İnkişaf etmiş bütün ölkələrdə dövlətin iqtisadiyyatdakı rolu inkaredilməzdir. Unutmaq olmaz ki, tarixin inkişaf mərhələlərində istehsal üsulundan asılı olmayaraq dövlət sosial-iqtisadi inkişafımızın parametri olmuş və olmaqda davam etməlidir.



Azərbaycan Respublikasında neft hasilatı məsələsi bu gün dünya siyasətində müzakirə olunan mühüm problemlərdən birinə çevrilmişdir. Belə bir vəziyyətdə neft-qaz hasilatında dövlətin rolu əvəzedilməzdir. Bu strateji xətt həm də o demək deyildir ki, neft sənayesində bazar münasibətləri formalaşmasın, mülkiyyət münasibətləri dəyişməz qalsın və s. Əksinə, dövlət bu strateji sahəni özünün nəzarətində saxlamaqla orada bazar münasibətlərinin, kommersiya strukturlarının və milli sahibkarlığın inkişafına əlverişli şərait yarada bilər. Bu gün neft sənayesində iqtisadi islahatların aparılması zəruriliyi aşağıdakılarla izah edilir:

a) bazar iqtisadiyyatının «sərt oyun qaydaları» neft-qazçıxarma idarələrinin təsərrüfat fəaliyyətinə bilavasitə təsir edir və bu təsirin az itkilərlə başa gəlməsi üçün neft sənayesində iqtisadi islahatların aparılması hər bir istiqamət üzrə müəyyənləşdirilməli, onlar texniki-iqtisadi cəhətdən əsaslandırılmalı, prioritet məsələlərə üstünlük verilməlidir;

b) bazar iqtisadiyyatına keçid dövründə neft sənayesində mövcud olan güclü maddi-texniki təchizat, nəqliyyat, energetika sektorlarının inkişafını tələb edir. Bu, sahələrin hər birində iqtisadi islahatların həyata keçirilməsinin özünəməxsus xarakterik cəhətləri vardır ki, onlar da iqtisadi islahatların aparılması prosesində nəzərə alınmalıdır. Bu cəhət neft sənayesində iqtisadi islahatların məqsədini respublika üzrə aparılacaq iqtisadi islahatların strategiyası və taktikasından asılı edir. Vəziyyətdən müəyyən mənada çıxış yolu dünya təcrübəsinə istinad edərək, inkişaf etmiş neft-qazçıxarma istehsalına malik olan ölkələrdə istifadə edilən iqtisadi mexanizmlərdən respublikanın xüsusiyyətlərini nəzərə almaqla istifadə etməkdən ibarətdir;

c) neft sənayesində iqtisadi islahatların həyata keçirilməsini zəruri edən mühüm səbəblərdən biri də bu sahənin normal fəaliyyət göstərməsi üçün maliyyə vəsaitinin çatışmamasından ibarətdir. Əgər 1986-1990-cı illərdə bütünlükdə respublikanın neft sənayesinin ehtiyaclarını ödəmək məqsədilə orta hesabla hər il 250 milyon ABŞ dolları həcmində vəsait ayrılırdısa, bu rəqəm 1991-ci ildə cəmi bir neçə milyon dollar təşkil etmişdir. Respublikamızın müstəqilliyinin ilk günlərində, yəni 1992-ci ildə neft sənayesinin inkişafına valyuta ayrılmamış, 1993-cü ildə bu rəqəm 17,3 milyon dollar, 1994-cü ildə 31,8 milyon dollar, 1995-ci ildə isə 33,7 milyon dollar təşkil etmişdir. Belə bir vəziyyət neft sənayesində əsas fondların, xüsusilə texnika və avadanlıqların köhnəlməsinə, istehsalın texniki səviyyəsinin pisləşməsinə, əsas fondları təzələmək imkanlarının, neft-qazçıxarma idarələrində qazma və tikinti-quraşdırma işlərinin həcminin kəskin surətdə azalmasına gətirib çıxarmışdır. Belə ki, bütövlükdə sahə üzrə maddi-texniki təchizat sisteminin pisləşməsi nəticəsində 4000-dən artıq istismar quyuları dayandırılmışdır. Deməli, neft sənayesində iqtisadi islahatların aparılması neft-qazçıxarma idarələrində maliyyə vəziyyətinin sağlamlaşdırılması ilə bilavasitə əlaqədardır. Bu isə neft sənayesinin bazar iqtisadiyyatının tələblərinə uyğun yenidən qurulmasını, geniş iqtisadi islahatların həyata keçirilməsini tələb edir;

ç) Azərbaycan Respublikası artıq dünyanın ən çox neft hasilatına malik olan regionlarından biri kimi tanınmaqdadır. Mütəxəssislərin fikrincə, Azərbaycanın neft ehtiyatları Cənub-şərqi Asiya, Avstraliya və Okeaniya ölkələrinin birlikdə götürülmüş ehtiyatlarına bərabərdir. Ümumiyyətlə, mütəxəssislərin fikrincə, Azərbaycan Respublikasının Böyük və Kiçik Qafqaz, həmçinin Talış dağlarını çıxmaq şərti ilə və Xəzər dənizi daxil olmaqla bütün əraziləri neft-qaz cəhətdən perspektivlidir. Odur ki, heç də təsadüfi deyildir ki, indi dünyanın bir çox iri neft şirkətləri Xəzərdən neft-qaz çıxarılması ilə əlaqədar Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə birlikdə fəaliyyət göstərirlər. 1994-cü ildən indiyədək dünyanın 14 ölkəsindən 33 neft şirkəti ilə ARDNŞ arasında Azərbaycanın neft-qaz yataqlarının birgə işlənməsi üçün 20 müqavilə imzalanmışdır.

Məlumat üçün qeyd edək ki, son 10 il ərzində Azərbaycanda



adambaşına 1216-1754 kq neft ehtiyatı düşür ki, bu da əksər MDB ölkələrində olduğundan xeyli çoxdur. 1990-2004-cü illərdə MDB ölkələri üzrə əhalinin hər nəfərinə düşən neft hasilatının dinamikası cədvəl 58-də verilmişdir.

*Cədvəl 58*

***MDB ölkələri üzrə əhalinin hər nəfərinə düşən neft hasilatı, kq***

| Ölkələr | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|
| Azərbaycan | 1771 | 1226 | 1768 | 1866 | 1904 | 1895 | 1899 |
| Belarus | 200 | 187 | 184 | 185 | 185 | 184 | 184 |
| Qazaxıstan | 1542 | 1232 | 2375 | 2677 | 2186 | 3449 | 3949 |
| Qırğızıstan | 35,3 | 19,6 | 15,7 | 15,2 | 15,1 | 13,6 | 14,5 |
| Gürcüstan | 34,1 | 17,9 | 21,5 | 20,9 | 15,1 | 32,8 | 21,6 |
| Özbəkistan | 137 | 333 | 304,0 | 301,0 | 298,0 | – | – |
| Rusiya | 3481 | 2071 | 2224 | 2406 | 2645 | 2927 | 3186 |
| Tacikistan | 4,4 | 4,4 | 3,0 | 2,6 | 2,5 | 2,7 | 2,8 |
| Türkmənistan | 1538 | 1000 | – | – | – | – | – |
| Ukrayna | 101 | 79,4 | 74,5 | 75,3 | 77,2 | 82,5 | 88,1 |
| MDB üzrə: | 2029 | 1244 | 1396 | 1490 | 1645 | 1829 | 1903 |

Hesablamalara görə yaxın 10 il ərzində Azərbaycan Respublikasında neft hasilatının 3-5 dəfə artırılacağı gözlənilir. Belə inkişaf tempi Azərbaycanın XXI əsrdə böyük iqtisadi tərəqqi edəcəyi proqnozunu reallaşdırır. Dünya ölkələrinin, o cümlədən Qərbin Azərbaycana maraqları əsasən bu amil hesabınadır. Neft ehtiyatlarının Yer üzündə qeyri-bərabər yerləşməsi, ABŞ-da, həmçinin dünyanın bir çox ölkələrində neft hasilatının səmərəlilik göstəricilərinin aşağı olması (hesablamalara görə ABŞ neft ehtiyatlarının ödənilməsi göstəricisi və ya neftin aşkar edilməsi dəyərinə görə dünyada axırıncı yerlərdən birini tutur) Azərbaycana xüsusi marağın, onun zəngin neft-qaz resurslarının mənimsənilməsində böyük həcmdə investisiya qoyulmasını zəruri edir.

***İnvestisiya qoyuluşu*** – istehsal və qeyri-istehsal sahələrində əsas fondların sadə və geniş təkrar istehsalı üçün nəzərdə tutulan maliyyə vəsaitlərini özündə əks etdirir. Müasir dövrdə neft sənayesinin inkişafına investisiya qoyuluşu müəyyən edilərkən respublikanın neft və qaza, neft məhsullarına olan tələbatı, yeni neft-qaz yataqlarının aşkar edilməsinin zəruriliyi nəzərə alınır.

Neft sənayesinin struktur bölmələrində investisiya qoyuluşunun tərkibi və quruluşu eyni deyildir. Məsələn, qazma kontorlarında investisiya qoyuluşunun tərkibinə aşağıdakı məsrəflər daxil edilir: tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə çəkilən xərclər; qazma işlərinin həyata keçirilməsi üçün lazım olan maşın və avadanlıqların alınmasına, gətirilməsinə və quraşdırılmasına çəkilən xərclər; geoloji-kəşfiyyat işlərinin həyata keçirilməsinə çəkilən xərclər; inzibati-idarəetmə aparatının saxlanılmasına çəkilən xərclər; bazar iqtisadiyyatına uyğun infrastrukturun yaradılmasına və ətraf mühitin mühafizəsinin qorunmasına çəkilən xərclər.

Hazırda Azərbaycan Respublikasında adambaşına düşən xarici investisiyanın məbləği 523 ABŞ dolları təşkil edir. İqtisadi sistemin inkişafında vacib amil və onun yeni mərhələsini əks etdirən bu göstərici üzrə Azərbaycan Respublikası nəinki MDB ölkələrini, hətta bazar iqtisadiyyatına keçidi daha əvvəllər başlamış bir sıra Şərqi Avropa dövlətlərini də ötüb keçmişdir

Müasir dövrdə neft sənayesində, xüsusilə də onun quruda yerləşən neft-qazçıxarma idarələrində mövcud elmi-texniki potensialdan (sahənin elmi-texniki potensialı dedikdə, sahənin qarşısında duran elmi-texniki inkişaf vəzifələrinin həlli üçün nəzərdə tutulan kadr, maddi-texniki, informasiya və təşkilati ehtiyatların məcmusu nəzərdə tutulur. Elmi-texniki potensial hər şeydən əvvəl elmi-tədqiqat və təcrübə-konstruktor işləri üzrə ixtisaslaşdırılmış bütün elmi tədqiqat müəssisələri ilə, onların laboratoriya, sınaq, stend avadanlıqları və s. avadanlıqlarla təchiz edilməsi ilə, ixtisaslı mütəxəssislərin və elmi-yaradıcı heyətin olması ilə müəyyən olunur) daha səmərəli istifadə etməklə iqtisadi islahatları həyata keçirmək lazımdır. İqtisadi islahatların aparılmasında əvvəllər buraxılmış səhvlər təkrarlanmamalı, neft-qazçıxarma idarələrinin ahəngdar, dinamik inkişafına kömək edəcək istiqamətlər müəyyən olunmalıdır.

Məlumat üçün qeyd edək ki, keçmiş SSRİ-də 60-70-ci illərdə iqtisadiyyatda islahatlar aparılması sahəsində müəyyən cəhdlər edilmiş, mərkəzləşdirilmiş planlaşdırma sisteminin, inzibati-amirlik idarəetmə metodlarının yaratdığı çətinliklərdən azad olmaq üçün bir sıra əməli texniki-təşkilati və iqtisadi tədbirlər həyata keçirilmişdir. Sahələrin, sonralar neft-qazçıxarma



idarələrinin hüquqlarının genişləndirilməsi, onların təsərrüfat hesabı, özünü maliyyələşdirmə və özxərciniödəmə prinsipləri əsasında işləmələri üçün imkanlar axtarılır, müasir idarəetmə metodlarından istifadə sahəsində cəhdlər edilirdi. Məsələn, 1965-ci ildə aparılan təsərrüfat islahatları, 70-ci illərin axırları 80-ci illərin əvvəllərində təsərrüfat mexanizmlərinin təkmilləşdirilməsi ilə əlaqədar olan tədbirlərin həyata keçirilməsi, bəzi iqtisadi eksperimentlərin aparılması buna əyani sübutdur. Lakin həmin tədbirlər ardıcıl və çox hallarda məqsədyönlü xarakter daşımırdı. Çünki iqtisadi münasibətlərdə, yəni iqtisadi quruluş sistemində əsaslı dəyişikliklərin həyata keçirilməsi nəzərdə tutulmurdu. Buna görə sosializm dövründə həyata keçirilən islahatlar öz müsbət nəticəsini vermirdi.

Digər tərəfdən, 1970-1980-ci illərdə SSRİ kimi nəhəng bir ölkə son məhsul istehsal edib xarici bazara çıxmaqdan çox, xammal resursları hesabına dolanmağa daha çox üstünlük verirdi. Məhz buna görə də ölkənin iqtisadi böhran vəziyyətinin aradan qaldırılması üçün xam neftin xaricdə satışına çox böyük yer verilirdi. Yalnız bunu göstərmək kifayətdir ki, 1971-1985-ci illərdə SSRİ dövləti xam neftin və neft məhsullarının satışından 300 milyard ABŞ dolları həcmində vəsait əldə etmişdir. 1990-cı illərin əvvəllərində dünyada neftin satış qiymətinin kəskin surətdə aşağı düşməsi SSRİ dövlətini bu mühüm gəlir mənbəyindən xeyli dərəcədə məhrum etdi ki, bu da ölkə iqtisadiyyatında həll edilməmiş problemləri çox qabarıq şəkildə ortaya çıxartdı. Bəzi Qərb ekspertlərinin fikrincə, SSRİ-nin dağılmasının, onun ziddiyyətlərinin kəskinləşməsinin ən başlıca səbəblərindən biri dünyada neftin qiymətinin aşağı düşməsi siyasəti oldu.

1990-1991-ci illərdə zəifləməkdə olan SSRİ-də iqtisadi islahatlar pərdəsi altında aparılan sistemsiz dəyişikliklər respublika iqtisadiyyatına, o cümlədən neft sənayesinə də ciddi təsir edirdi. SSRİ dağıldıqdan sonra isə respublikanın neft-qazçıxarma kompleksi ölkə iqtisadiyyatında yaranmış böhranlı vəziyyətdən bir müddət qurtara bilmədi. Müstəqilliyin ilk illərində ittifaq tərəfindən maliyyələşdirmənin kəsilməsi ilə əlaqədar olaraq neft sənayesinin inkişafına ayrılan vəsaitin həcmi birdən-birə kəskin surətdə azaldı. Bir müddət sahədə yaranmış problemlərin həllinə biganəlik açıq-aşkar hiss edilirdi. Respublika üzrə

iqtisadi inkişaf konsepsiyasının olmaması, maliyyə-kredit, idarəetmə sistemindəki hərc-mərclik, tezliklə xarici bazara çıxmaq, yeni partnyorlar axtarmaq sahəsində atılan addımların səmərə verməməsi sahənin inkişafına çox ağır təsir edirdi. Respublikada qeyri-siyasi sabitlik, Qarabağ probleminin kəskinləşməsi, bir çox sərhəd rayonlarının ermənilər tərəfindən işğalı bütövlükdə respublika iqtisadiyyatına, o cümlədən neft sənayesinin normal fəaliyyət göstərməsinə imkan vermirdi. Belə şəraitdə ARDNŞ və Nazirlər Kabineti səviyyəsində həyata keçirilən tədbirlər lokal vəziyyətin normallaşdırılması üçün kifayət etmirdi. Dövlət siyasətində ən böyük çatışmazlıq ondan ibarət idi ki, neft amilindən respublikanın sosial-iqtisadi dirçəlişi üçün çox zəif istifadə olunurdu.

Son səkkiz ildə respublikada iqtisadi islahatların aparılması sahəsində mühüm addımlar atılmışdır. Mahiyyət etibarilə bazar iqtisadiyyatına xidmət edən bütün strukturlar yaradılmış, iqtisadiyyatın liberallaşdırılması, özəlləşdirmə, mülkiyyət münasibətlərinin köklü surətdə təkmilləşdirilməsi ilə əlaqədar əsas qanunlar, normativ aktlar Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul edilmiş, bir sıra əməli tədbirlər həyata keçirilmişdir. Ən başlıca cəhət ondan ibarətdir ki, mərkəzləşdirilmiş planlaşdırma sistemindən imtina edilmiş, iqtisadiyyatın idarə edilməsində iqtisadi amillərin rolu ön plana çəkilmişdir. Lakin SSRİ dağıldıqdan sonra iqtisadi əlaqələrin qırılması respublika iqtisadiyyatının bütün sahələrində böhran halını daha da dərinləşdirirdi və bu, 1993-1995-ci illərdə istehsalın əvvəlki illərə nisbətən xeyli aşağı düşməsi, digər iqtisadi göstəricilərin pisləşməsi ilə nəticələndi. Belə ki, 1990-cı ilə nisbətən 1995-ci ildə ümumi daxili məhsul istehsalı 2,5 dəfə, sənaye məhsulunun həcmi 2,9 dəfə, kənd təsərrüfatı məhsulları istehsalı 2 dəfə, bütün maliyyə mənbələri hesabına investisiya qoyuluşu 3,6 dəfə azalmışdır. 1994-cü ilin son aylarında inflyasiyanın səviyyəsi 60-70% arasında tərəddüd edirdi. 1994-cü ildə illik inflyasiya 18-80% olmuşdur.

1995-2002-ci illərdə maliyyə-kredit sahəsində ciddi islahatların aparılması, pul kütləsi üzərində dövlət nəzarətinin gücləndirilməsi, büdcədən maliyyələşdirilən xərclər üzərində nəzarət inflyasiyanın dəfələrlə, büdcə kəsirinin isə xeyli azalmasını təmin etdi. Bunun ən mühüm nəticələrindən biri ölkə maliyyə sabitliyinin təmin edilməsidir. Əgər 1994-cü ildə manatın ABŞ dollarına nisbətən məzənnəsi 12 dəfə azalmışdırsa, 1995-ci ildə bu rəqəm cəmi 3,6% olmuşdur. 1995-2000-ci illərdə də manatın sabitləşməsi sahəsində müsbət işlər davam etmiş, milli valyutaya inam bərpa olunmuş, manatın daxili dönərliyinin təmin olunması üçün əlverişli zəmin yaranmışdır. Bununla belə qeyd etmək lazımdır ki, yaranmış əlverişli makroiqtisadi sabitlikdən islahatların kompleks şəkildə aparılması üçün tam istifadə olunmamışdır. 1995-2002-ci illərdə iqtisadiyyatda tənəzzülün aradan qaldırılması tədbirlərinin heç də hər yerdə sistemli şəkildə aparılmaması da, iqtisadiyyatda sabitləşmə meyllərinin yaranmasında öz müsbət nəticələrini artıq göstərməkdədir.



Son illərdə xarici ticarətin liberallaşdırılması sahəsindəki tədbirlərin həyata keçirilməsi neft-qazçıxarma idarələrinin fəaliyyətinə də müəyyən təsir göstərmişdir. Belə ki, 1993-cü ilə qədər neft məhsullarının satışı iki neftayırma zavodu tərəfindən həyata keçirilirdi, bu da neft-qazçıxarma idarələrinin mənafelərini pozurdu. 1993-cü ildə ilk dəfə olaraq Azərbaycan Respublikası Dövlət Neft Şirkətinə xarici bazarlarda realizə etmək üçün 1 milyon 382 min ton kvota ayrılmışdı. 1995-ci ildə 1 milyon 635,8 min ton, yəni 1994-cü ildəkindən 636 min ton çox neft satılmışdır. Satışdan daxil olan valyutanın 33%-i ARDNŞ-nin ehtiyaclarına yönəldilmişdir. 1996-1997-ci illərdə neftin satışından əldə edilən gəlirin daha çox hissəsi sahənin ehtiyaclarına sərf edilmişdir. Neft-qazçıxarma idarələrinin məhsulun satışından əldə olunan valyuta resurslarında sərbəstliyin artması, ilk növbədə, sahənin ehtiyacları üçün istifadə edilməsi neft sənayesində iqtisadi islahatların daha da ardıcıllıqla və məqsədyönlü aparılmasına kömək etmişdir.

Lakin bütün bunlara baxmayaraq, neft-qazçıxarma idarələrində ilk iqtisadi islahatlar tədbirləri iqtisadi transformasiya ilə əlaqədar olmuşdur. Aparılmış iqtisadi islahatlar mahiyyət etibarilə əsas, proqramlı, sistemli olmamış, bir növ kosmetik xarakter daşımışdır. Konkret iqtisadi islahatlar konsepsiyasının olmaması, xüsusən islahat aparmaq təfəkkürünün kifayət qədər inkişaf etməməsi, təşəbbüskarlığın ardıcıl prinsipial səviyyə daşımaması məhz islahatların nəinki neft sənayesində, hətta ümumi-

likdə respublika miqyasında radikal inkişafını təmin edə bilməmişdir. İslahatçı təşəbbüslərin dəstəklənməməsi, sistemsiz, kortəbii aparılan islahat tədbirləri uğurlu hələ də keçid mərhələsində yaşaması, yeni iqtisadi sistemə uyğun kamil iqtisadi düşüncə tərzinin olmaması iqtisadi islahatların səmərəli aparılmasına maneçilik göstərmişdir.

Neft sənayesində iqtisadi islahatlar çoxşaxəli və çoxistiqamətliliyi ilə fərqləndirilir. Bu, onunla izah edilir ki, neft-qazçıxarma sənayesi ölkə və region münasibətlərindən asılı olmayaraq, çox mürəkkəb bir kompleksdir. Burada hasilatla bağlı bir çox yarım sahələr və istehsallar mövcuddur. Məhz buna görə də sahədə atılan hər bir radikal addım dəqiq ölçülüb-biçilməli, iqtisadiyyatın digər sahələri ilə sistemli şəkildə əlaqələndirilməlidir.

Yüksək fondtutumu ilə fərqlənən neft-qazçıxarma sənayesində iqtisadi islahatların aparılmasının mühüm istiqamətlərindən biri əsas fondların geniş təkrar istehsalı, bu problemlə bağlı olan amortizasiya problemi ilə əlaqədardır. Onu da qeyd etmək lazımdır ki, neft-qazçıxarma sənayesində əsas fondların amortizasiyası bir sıra xarakterik cəhətlərə malikdir. Uzun illər boyu neft və qaz quyularının amortizasiyası üzrə xərclər maya dəyərinin ən mühüm tərkib hissələrindən birini təşkil edib. Bu gün əsas fondlar, təkrar istehsalın mühüm mənbələrindən sayılan amortizasiya ayırmaları fondu məsələsini respublikanın özü həll edir. Odur ki, keçmiş SSRİ-də bu sahədə mövcud olan prinsiplər, metodlar təhlil edilməli, onların bazar iqtisadiyyatı şəraitinə, sahə xüsusiyyətlərinə uyğunlaşdırılması təmin edilməlidir. Məlumat üçün qeyd edək ki, neft və qaz quyularının amortizasiyası normaları keçmiş Sovetlər İttifaqında bir neçə dəfə dəyişmişdir. Məsələn, 1927-ci ildə Azərbaycan neft-qazçıxarma sənayesi üçün quyuların 5 il müddətinə istifadəsini nəzərdə tutan amortizasiya normaları müəyyən edilmişdir. Bu normalar qurğuların illər üzrə bərabər səviyyədə köhnəlməsini nəzərdə tuturdu. Belə bir müddəa əsas götürülürdü ki, quyular birinci il daha çox hasilatı təmin edirdilər və buna görə də birinci il üçün nəzərdə tutulan amortizasiya normaları quyuların dəyərinin 30%-ni, ikinci ildə 25%-ni, üçüncü ildə 20%-ni, dördüncü ildə 15%-ni və beşinci ildə isə 10%-ni əhatə edirdi. Lakin neft və qaz quyuları daha uzun müddət istismar olunurdular və bu da



son nəticədə hasil edilən neft və qazın maya dəyərinə təsir göstərirdi. Bundan başqa, hasiledici sənayedə ildən-ilə bir ton xam neft üçün tələb edilən xərclər, o cümlədən qurğuların, quyuların istismarı və təmiri ilə bağlı xərclər artmaqda davam edirdi. Lakin mövcud normalar isə quyuların əsaslı təmirini nəzərə almırdı.

1930-cu ildə qəbul edilmiş amortizasiya normaları quyuların 10 il müddətinə istifadəsini və eyni zamanda əsaslı təmir üçün vəsaiti də nəzərdə tuturdu. Azərbaycan neft sənayesində geoloji xüsusiyyətləri nəzərə alaraq, illik amortizasiya normaları 14%, o cümlədən əsaslı təmir üçün 4% müəyyən edilmişdir. Müharibədən sonrakı dövrlərdə neft-qazçıxarma sənayesinin problemləri ilə bağlı olaraq amortizasiya normaları 1954 və 1963-cü illərdə bir daha dəyişdirildi. Neft quyularının 15 il müddətinə amortizasiya normalarının hesablanması (ildə 6,7%) müəyyənləşdirildi. Belə nəzərdə tutulurdu ki, neft və qaz quyuları hər il bərabər qaydada köhnəlir, yəni amortizasiya fondu 15 il müddətində formalaşır, əlbəttə, burada quyuların debiti hesaba alınmırdı, yəni quyuların işləyib-işləməməsindən asılı olmayaraq əsas fondların təkrar istehsalını təmin etmək əsas götürülürdü.

Qaz və qaz-kondensat quyuları üzrə onların dəyərinin ödənilməsi üçün amortizasiya 12 il və ya ildə 8,3% nəzərdə tuturdu. 1996-cı ildə sahə üzrə amortizasiya ayırmaları 170 milyard manat təşkil etmişdir. Bu rəqəmin az və ya çox olmasını birmənalı qeyd etmək çətindir. Ona görə də amortizasiya probleminin yataqların xüsusiyyətlərini, əsas vəsaitlərin keyfiyyət tərkibini nəzərə almaqla yenidən qiymətləndirilməsi baxımından əsaslı işlənməsi zəruridir.

İqtisadi ədəbiyyatlarda amortizasiya ayırmaları ilə əlaqədar bəzi maraqlı fikirlər mövcuddur. Bəziləri deyirlər ki, amortizasiya məbləğinin çıxarılan hər ton neft üzrə müəyyən edilməsi quyuların amortizasiya normasının reallığı haqda daha aydın təsəvvür yarada bilərdi. Əlbəttə, uçotun sahələşdirilməsi baxımından bu metodun müsbət cəhətləri var. Lakin neft-qazçıxarma sənayesində hasilatın mərhələlər üzrə çıxarılması, yəni mərhələdən-mərhələyə hasilatın azalması meyli, quyuları dəyərinin bərpası üçün vəsaitin qeyri-bərabər toplanması və amortizasiyanın bir iqtisadi kateqoriya kimi rentabelliyin yüksəldil-

məsinə səfərbəredici rolunun bu halda azalması qeyd edilən metodun çatışmayan, qüsur cəhətlərini təşkil edir.

Neft sənayesində iqtisadi islahatların strategiyasında ikinci mühüm istiqamət məşğulluq problemidir. Ümumiyyətlə, bütün dünyada hasiledici sənaye sahələrində məşğulluq problemi ehtiyatların tükəndiyi və ya neft-qaz quyularının mənimsənilməsi səmərəli olmadığı hallarda kəskin xarakter alır. Məşğulluq probleminin həlli həm obyektiv (məsələn, hasilatın getdikcə azalması, ehtiyatların tükənməsi, istismarın səmərəliliyinin aşağı düşməsi), həm də subyektiv amillərdən asılıdır. Azərbaycanın quru ərazisində neft quyuları 100 ildən artıq müddətdir ki, istismar olunduğundan hasilatın həcmi azalmış və buna müvafiq olaraq işçi qüvvəsinə olan tələbat da azalmışdır. 1975-ci ildə 5662 min ton neft hasilatına 42111 nəfər, 1990-cı ildə 2582,2 min ton üçün 28200 nəfər, 1997-ci ildə 1563 min ton neft hasilatı üçün 28600 nəfər cəlb edilmişdir ki, bu da müvafiq olaraq bir adam üçün 1975-ci ildə 134, 1990-cı ildə 91 və 1997-ci ildə isə 54 ton olmuşdur. Mövcud problem yaxın illərdə quruda neft-qazçıxarma sənayesində iqtisadi islahatların ən çətin və mürəkkəb sosial əhəmiyyət kəsb edən istiqamətlərdən biri olacaqdır. Bu problem neft-qazçıxarma obyektlərinin özəlləşdirilməsi prosesində özünü daha qabarıq şəkildə büruzə verəcəkdir. Deməli, quruda neft-qazçıxarma idarələrində iqtisadi islahatları həyata keçirərkən məşğulluq problemini müəyyən qədər olsa da yüngülləşdirmək məqsədilə həmin bölmələrdə mövcud olan istehsal və sosial infrastrukturların, sahibkarlığın inkişaf etdirilməsi imkanlarından da istifadə edilməlidir.

Məlumdur ki, respublikamızın neft-qazçıxarma sənayesi özünün yüksək enerji tutumluğuna görə fərqlənir. Başqa sözlə, respublika sənayesində istehsal edilən elektrik enerjisinin təqribən yarıdan çoxu neft-qazçıxarma idarələrində istehlak olunur. Bu sahənin xalq təsərrüfatı üçün çox əhəmiyyət kəsb etdiyini nəzərə alaraq, onun elektrik enerjisi ilə təmin olunmasında demək olar ki, uzun bir dövr ərzində heç bir məhdudiyyət qoyulmamışdır. Ona görə də sahədə elektrik enerjisindən qənaətlə istifadə edilməsi məsələsini bir növ arxa plana atmışdılar. Faktiki materialların təhlili göstərir ki, neft-qazçıxarma idarələrində icarəyə verilmiş obyektlərin əksəriyyətində elektrik enerjisinin itkisinin uçotu dəqiq aparılmır. Bazar iqtisadiyyatına keçidlə əlaqədar olaraq, bir çox kommersiya strukturları neft-qazçıxarma idarələrinin sərəncamında olan elektrik enerjisindən pulsuz istifadə edirlər. Bundan başqa, mədən sahələrində mövcud olan yaşayış binaları, yardımçı təsərrüfatlar və s. də neft-qazçıxarma idarələrinin elektrik enerjisindən pulsuz istifadə edirlər. Odur ki, bu sahədə ciddi qayda-qanun yaradılmalıdır. Maraqlıdır ki, son 10 il ərzində neft-qazçıxarma idarələrində istehlak olunan elektrik enerjisinin miqdarının aşağı düşməsi meyli özünü büruzə versə də, bu azalma neft-qaz hasilatının enməsinə nisbətdə münasib olmamışdır. Belə bir müqayisə cədvəl 59-da verilmişdir.



*Cədvəl 59*

***1986-2001-ci illərdə quruda NQÇİ üzrə elektrik enerjisi neft-qaz hasilatının dinamikası arasındakı əlaqə***

| İllər | Elektrik enerjisi, min kv.saat | Neft hasilatı, min ton | Qaz hasilatı, min metrkub |
|---|---|---|---|
| 1986 | 1206124 | 3902 | 653,5 |
| 1987 | 1154172 | 3734 | 610,4 |
| 1988 | 1101531 | 3416 | 573,7 |
| 1989 | 1036140 | 3023 | 512,5 |
| 1990 | 910509 | 2582 | 400,4 |
| 1991 | 859664 | 2249 | 287,7 |
| 1992 | 797336 | 2009 | 238,3 |
| 1993 | 765550 | 1983 | 238,1 |
| 1994 | 638939 | 1790 | 235,2 |
| 1995 | 525120 | 1624 | 236,7 |
| 1996 | 519064 | 1575 | 239,0 |
| 1997 | 460978 | 1563 | 254,5 |
| 1998 | 488166 | 1555 | 251,3 |
| 1999 | 432197 | 1526 | 243,0 |
| 2000 | 426041 | 1510 | 231,2 |
| 2001 | 414720 | 1596 | 241,5 |

Cədvəl 56-nın məlumatlarından görünür ki, 1986-cı ildə 1 ton neft hasilatına 309 kv. saat elektrik enerjisi tələb edildiyi halda, həmin rəqəm 1996-cı ildə 330 kv.saat olmuşdur. Eyni bir hal qaz hasilatına da aiddir.

Neft sənayesində iqtisadi islahatlarının aparılmasının mühüm istiqamətlərindən biri də inzibati-amirlik idarəetmə üsuluna son qoyulmasıdır. Respublikada aparılan iqtisadi islahatların ilkin mərhələsində elə hesab edilirdi ki, amirlik metodlarının aradan qaldırılması dövlət müəssisələrinin bazar tənzimlənməsinə şərait yaradacaq.

### 8.2. Dövlətsizləşdirmə və özəlləşdirmə – iqtisadi islahatların mühüm istiqaməti kimi, onların ümumi və fərqləndirici cəhətləri

Məlumdur ki, Azərbaycan Respublikası 1991-ci ildən yeni, demokratik, azad iqtisadi sistemə, yəni bazar münasibətləri şəraitinə keçməyə qədəm qoymuşdur. Bu baxımdan, Azərbaycan Respublikası keçid dövrünün problemlərinin həllinə başlamışdır. Keçmiş iqtisadi-sosial quruluşun yeni iqtisadi-sosial quruluşa keçməsi birdəfəlik akt deyildir, uzun tarixi bir proseslə bağlıdır. Bu prosesdə bazar iqtisadiyyatının yaranmasının və formalaşmasının bilavasitə özünəməxsus atributları tədricən bərqərar olmalıdır. Bu atributlardan biri də Sosialist dövlət mülkiyyətinin özəlləşdirilməsini, yəni dövlət mülkiyyətinin dövlətsizləşdirilməsinin təmin olunmasıdır. İqtisadi islahatların həyata keçirilməsində dövlət mülkiyyətinin özəlləşdirilməsi əsas yerlərdən birini tutur. Bazar iqtisadiyyatına keçid dövründə mülkiyyət münasibətlərinin kökündən dəyişdirilməsi, planlı cəmiyyətdə hakim olan dövlət mülkiyyətinin əvəzinə özəl mülkiyyət formalarının yaradılması və inkişafı respublikamızın ictimai-iqtisadi, sosial həyatında yeni bir mərhələdir. Düzdür, bu gün onun müsbət cəhətləri haqda birmənalı fikir söyləmək çətin olsa da, artıq özəlləşdirmə və dövlətsizləşdirmə bir reallıqdır. Bununla belə, dövlətsizləşdirmə və özəlləşdirmədən danışmazdan öncə Azərbaycan Respublikasında mülkiyyətin müasir formalarından qısaca bəhs etmək məqsədəuyğun olardı.

Məlumat üçün qeyd edək ki, mülkiyyət çox zəngin ictimai-iqtisadi və sosial-siyasi məzmuna malikdir. Mülkiyyət dövlətin, şəxsin, qrupun, kollektivin və bütünlə cəmiyyətin həyat məsələsidir. Sosializm cəmiyyətində sosialist mülkiyyəti hökm sürürdü, yəni iki növ mülkiyyət forması meydana gəlmiş və inkişaf edirdi: ictimai mülkiyyətin aparıcı forması olan dövlət (ümumxalq) sosialist mülkiyyəti və kolxoz-kooperativ mülkiyyəti. Bu mülkiyyət formaları sosializmin iqtisadi sisteminin əsasını təşkil edirdi. İctimai təşkilatların mülkiyyəti də sosialist mülkiyyəti hesab edilirdi. Bazar münasibətlərinə keçid dövründə Azərbaycan Respublikasında mülkiyyətin müxtəlif formaları vardır. Hazırda Azərbaycan Respublikasında mülkiyyət münasibətlərində, onun formalarında ciddi yeniləşmə prosesi baş verir.



«Mülkiyyət haqqında» Azərbaycan Respublikasının qanununda mülkiyyətin əsas formaları və mülkiyyət hüququnun müdafiəsi problemləri müəyyən edilmişdir. «Mülkiyyət haqqında» Azərbaycan Respublikasının qanunu qəbul edildikdən sonrakı dövrlərdə daha bir sıra iqtisadi qanunlar qəbul edilmişdir. Məsələn, «Müəssisələr haqqında», «Səhmdar cəmiyyəti haqqında», «Aqrar islahatlarının əsasları haqqında», «Torpaq islahatı haqqında», «Torpaq bazarı haqqında», «Valyuta tənzimi haqqında», «Haqsız rəqabət haqqında», «Sahibkarlıq fəaliyyəti haqqında», «Səhmdar cəmiyyəti haqqında», «Əmtəə birjası haqqında», «Lizinq xidməti haqqında», «Antiinhisar fəaliyyəti haqqında» və sair. Bu qanunlar yeni iqtisadi sistemə uyğun mülkiyyət münasibətlərinin təkmilləşdirilməsinə xidmət edir. Daha sonralar dövlət mülkiyyətinin özəlləşdirilməsinin iki proqramı qəbul edilmişdir.

Dünyada mülkiyyətin xüsusi və dövlət mülkiyyət formaları əsas formalar kimi mövcuddur. Digər mülkiyyət formaları isə dövlət və xüsusi mülkiyyət formalarının törəmə formaları kimi çıxış edirlər. Bazar münasibətlərinə keçid dövründə Azərbaycan Respublikasında mülkiyyətin əsas formaları aşağıdakılardan ibarətdir.

***Dövlət mülkiyyəti*** – formasının subyekti Azərbaycan dövlətidir. Hər bir dövlətə öz vəzifələrini yerinə yetirmək üçün müəyyən əmlak və istehsal növlərinə malik olması zəruridir. Dünya təcrübəsində dövlət mülkiyyətinə dəmir yolları, rabitə, kosmos sistemləri, müdafiə kompleksləri, dövlət idarələrinin əmlakları daxil edilir. Qərb ölkələrində əsas fondlarda dövlət mülkiyyətinin payı 7%-dən 30% arasındadır. Azərbaycan Respublikasında əsas fondların tərkibində dövlət mülkiyyətinin xüsusi çəkisi konkret tarixi şəraitdən asılı olaraq göstərilən rə-

qəmdən az və ya çox ola bilər. «Azərbaycan Respublikasında mülkiyyət haqqında» qanununa əsasən Azərbaycanda dövlət mülkiyyəti hüququnun obyektləri torpaq (xüsusi mülkiyyətə verilməmiş sahələr), yerin təki, daxili və ərazi suları, qitə şelfi, xüsusi mülkiyyətdə olmayan bitkilər və heyvanlar aləmi, hava hövzəsi, Xəzər dənizinin Azərbaycan sektoruna aid olan hissəsi, özəlləşdirilməmiş və perspektivdə özəlləşdirilməsi nəzərdə tutulmuş müxtəlif əmlak növləri və s. hesab edilir. Dövlət mülkiyyətindən iqtisadi siyasətin həyata keçirilməsində mühüm amil kimi istifadə edilir. Dövlət mülkiyyət formasında dövlət özü mülkiyyətçi, sahibkar və tənzimçi kimi çıxış edir, bütövlükdə ictimai tələbatı nəzərə alır.

Hazırda dövlət mülkiyyətinə daxil müəssisələr, əsasən, üç formada idarə edilir: birincisi, bilavasitə inzibati orqanlara tabe olan və bu orqanlar tərəfindən maliyyələşdirilən və inzibati qaydada idarə edilən müəssisələr; ikincisi, özxərcləriniödəmə, özünümaliyyələşdirmə və özünüidarəetmə prinsipi ilə fəaliyyət göstərən müəssisələr və nəhayət, üçüncüsü, səhmlərin çox faizinin dövlətin sərəncamında olan, yəni nəzarət səhm paketi dövlətə məxsus olan səhmdar müəssisələr. Dövlət mülkiyyəti özü də iki qrupa: ümumrespublika əhəmiyyətli dövlət mülkiyyətinə və yerli əhəmiyyətli bələdiyyə mülkiyyətinə ayrılır. Bunların hər ikisi törəmə mülkiyyəti adlanır.

***Bələdiyyə mülkiyyəti*** – yerli dövlət hakimiyyəti və yerli özünüidarə orqanlarının əmlakı, yerli büdcənin və büdcədənkənar fondların vəsaiti, özəlləşdirilməmiş mənzil fondu, mənzil fondu evlərindəki qeyri-yaşayış otaqları, mühəndis infrastrukturu obyektləri (məsələn, su kəməri, kanalizasiya təsərrüfatı, istilik, elektrik və qaz təchizatı, şəhər elektrik nəqliyyatı qurğuları və şəbəkələri, bayır abadlıq obyektləri, istehlakçılara bilavasitə kommunal xidmətləri göstərən obyektlər) və s. ola bilər. Bundan başqa, kənd təsərrüfatı, ticarət, məişət xidməti, nəqliyyat, sənaye, tikinti-quraşdırma müəssisələri, digər özəlləşdirilməmiş müəssisə və obyektlər, əmlak kompleksləri, xalq təhsili, mədəniyyət, səhiyyə ocaqları və müəssisələri, inzibati ərazi qurumlarının iqtisadi və sosial inkişafı üçün lazım olan digər əmlak bələdiyyə mülkiyyətində ola bilər.

***Xüsusi mülkiyyət*** – azad sahibkarlıq fəaliyyəti və sərbəst



bazar iqtisadiyyatı ilə bilavasitə bağlıdır. Xüsusi mülkiyyətin meydana gəlməsi və inkişafı tarixi çox qədimdir. İbtidai icma quruluşunun pozulması meyli, nəticə etibarı ilə xüsusi mülkiyyətin, xüsusi təsərrüfatların meydana çıxmasına gətirib çıxarır. Sonrakı tarix xüsusi mülkiyyət münasibətlərinin müxtəlif məzmun və mahiyyətcə inkişafı dövrləri olmuşdur.

Vaxtilə C.Lokk, A.Smit və digər görkəmli iqtisadçılar əmlak üzərində xüsusi mülkiyyət formalarını insan azadlığının zəruri şərti hesab etmişlər. Onlar göstərirdilər ki, xüsusi mülkiyyət münasibətlərinin hökmranlığı və sağlam rəqabət olmayan cəmiyyətdə iqtisadi azadlıq da ola bilməz. Xüsusi mülkiyyət sahibkara daha yaxın olan mülkiyyət formasıdır. Tarixi təcrübə göstərir ki, xüsusi mülkiyyətçilər daha təşəbbüskar və yaradıcı olur, daha sərbəst fəaliyyət göstərir, istehsalın və xidmətin səmərəliliyinin və faydalılığının artmasında əhəmiyyətli rol oynayır, sosialyönümlü iqtisadiyyat yaradırlar. Ona görə də heç də təsadüfi deyildir ki, ölkəmizdə xüsusi mülkiyyətin yaradılmasına və normal inkişafına müstəsna diqqət verilir.

Müstəqillik şəraitində respublikamız öz konkret şəraitinə uyğun olaraq xüsusi mülkiyyətin çərçivəsini və formalarını, əməliyyat dairəsini özü müəyyənləşdirmək imkanına malik olmuşdur. «Azərbaycan Respublikasında mülkiyyət haqqında» qanunda qeyd edilir ki, xüsusi mülkiyyət hüququ istehsal vasitələrinə, qeyri-istehsal təyinatlı əşyalara və sərvətlərə, pul vəsaitinə və qiymətli kağızlara, onlardan istifadə olunmasının nəticələrinə sahiblik, onlardan istifadə və onların barəsində sərəncam sahəsində ayrı-ayrı şəxslərin qanunla qorunan hüquqlarının məcmusudur.

İnkişaf etmiş ölkələrdə xüsusi mülkiyyətin yeni təkamül etmiş formaları və buna əsaslanan tərəqqi etmiş təsərrüfatçılıq mövcuddur. Məsələn, ABŞ-ın xüsusi mülkiyyətçiləri Amerika əhalisi üçün yüksək keyfiyyətdə məhsul istehsal edir, ucuz məişət xidməti göstərir, səmərəli və keyfiyyətli topdan və pərakəndəsatış sistemi yaratmış, yüksək səviyyəli təmir-tikinti işlərini təşkil etmiş, yerli sənaye məhsulları istehsalını genişləndirmiş, kənd təsərrüfatında başqa ölkələrə də məhsul satmaq imkanına malik olan fermer təsərrüfatı yaratmışlar və s.

Məlumat üçün qeyd edək ki, xüsusi mülkiyyət çoxşaxəlidir.

Xırda, orta və iri leqal istehsal müəssisələri, ticarət və xidmət sahələri onun əsas qolları, tərkib hissələri hesab olunur. Xüsusi mülkiyyətin mühüm qollarından biri də qeyri-leqal (gizli) əmtəə istehsalı və xidmət sahələridir, burada fəaliyyət göstərənlər səlahiyyətli dövlət orqanlarından xüsusi icazə almayanlar və dövlətə vergi verməkdən gizlənənlərdir. Dünya təcrübəsi göstərir ki, hansı ölkədə vergilər çoxşaxəli və yüksəkdirsə, həmin ölkədə gizli iqtisadiyyatın səviyyəsi də yüksək olur.

Xüsusi mülkiyyətçilik fəaliyyətinin digər növlərindən biri də öz xüsusi əmlakından və yığımlarından müəyyən gəlir götürmək üçün müxtəlif formalarda istifadə etməkdir. Məsələn, evlərin kirayə verilməsi, pul kapitalının faizlə müvəqqəti istifadəyə verilməsi və s. «Azərbaycan Respublikasında mülkiyyət haqqında» qanunda göstərilir ki, mülkiyyətçi öz sərəncamındakı mülkiyyəti, yəni mənzilini, yaşayış evini, bağını, qarajını, başqa binalar və tikililərini istədiyi adama vermək, satmaq, bağışlamaq, vəsiyyət etmək, icarəyə vermək, bunlar barəsində qanuna zidd olmayan digər əqidlər bağlamaq hüququna malikdir. Mülkiyyətçinin qanunauyğun halda əldə etdiyi əmlakın miqdarı və ya dəyəri məhdudlaşdırılmır. Vətəndaş respublikamızın qanunvericiliyi ilə müəyyən edilmiş qaydada istehsal müəssisələrini, xidmət və ticarət obyektlərini, yaşayış binalarını, torpaq sahələrini və s. mülkiyyətə ala bilər. Xüsusi mülkiyyətçilər tam iqtisadi və operativ-təsərrüfat müstəqilliyinə malikdir.

***Şəxsi mülkiyyət*** – xüsusi mülkiyyətin müəyyən bir qolu kimi çıxış edir, yəni o törəmə mülkiyyət formasıdır. Şəxsi mülkiyyətə ev təsərrüfatı üçün lazım olan əşyalar, nəqliyyat vasitələri, yaşayış evi və evin içindəki mebel, xalı, xalça və digər əmlak, pul, bağ inventarları və alətləri, istehlak şeyləri, həyətyanı təsərrüfatdan götürülən məhsul və s. aiddir.

***Fərdi mülkiyyət*** – törəmə mülkiyyət forması olub, xüsusi mülkiyyətin mühüm qollarından biridir. Şəxsi mülkiyyətə nisbətən fərdi mülkiyyətdə istehsal vasitələrinə sahib olma və fərdi təsərrüfatçılıq dairəsi daha genişdir. Fərdi təsərrüfatçılıq öz müxtəlif formaları ilə iqtisadiyyatda mühüm rol oynayır. Bu formalardan biri də xırda istehsal sahibkarlığıdır ki, bu da xırda əmtəə istehsalı ilə səciyyələnən mülkiyyət forması xarakteri alır. Bunlar öz fərdi mülkiyyətlərindən istifadə edərək həyətyanı əmtəə istehsalı, sənətkarlıqla, xidmət işləri yerinə yetirməklə məşğul olurlar. Fərdi mülkiyyətçilər əsasən öz ailə əməklərinə əsaslanırlar. Vətəndaşların fərdi mülkiyyətində yaşayış evləri, bağ və bağ evi, pul əmanətləri, səhmlər və digər qiymətli kağızlar, nəqliyyat vasitələri və s. olur; fərdlər öz ehtiyaclarını ödəmək üçün az-çox məhsul istehsal edən və özünə xidməti təşkil edən iqtisadi vahid kimi mövcud olur.



***Əmək kollektivlərinin mülkiyyəti*** – dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində yaranır. Deməli, əmlak, kollektiv birgə mülkiyyət verildikdə hər kəsin payı bəlli olmaqla kollektiv payı əmlak olur, tam demokratik əsaslarla kollektiv müqaviləyə əsaslanan təsərrüfat kimi fəaliyyət göstərir və beləliklə də burada xüsusi mülkiyyətin əsasında kollektiv mülkiyyət və kollektiv münasibətlər yaranır.

***Kooperativ mülkiyyəti*** – dünyada ən çox yayılmış mülkiyyət formasıdır. Təxmini hesablamalara görə, dünyada 1 milyon kooperativ təşkilatı və onların 120-dən çox müxtəlif növləri var və bunlarda 600 milyon adam iştirak edir. Kooperativ mülkiyyət formasının əsas cəhəti istehsal vasitələrinin və istehsalın nəticələrinin kollektiv qrup xarakteridir, eyni zamanda burada kooperativ üzvlərinin hər birinin üzvlük payı bəlli olur. Kooperativlərin fəaliyyət xarakterinə uyğun olaraq torpaq, istehsal binaları, tiklilər, avadanlıq, nəqliyyat vasitələri, məhsuldar və işlək mal-qara, başqa əmlak kooperativ mülkiyyətində ola bilər. Sənaye, kənd təsərrüfatı, tikinti, nəqliyyat, ticarət və ictimai iaşə, xidmət sahələri, arxitektor-mühəndis işləri, kəşflər, elmi-istehsalat və sosial-mədəni həyat sahələrində kooperativlər yaradıla və fəaliyyət göstərə bilər.

***İstehlak kooperasiyasının mülkiyyəti*** – az miqyasda istehsalla məşğul olur və buna görə də ona tədavül dairəsinin kooperasiyası deyilir. Bu növ mülkiyyət forması əvvəllər əsasən kənd əhalisinə xidmət edirdisə, hazırda nəinki bütün əhaliyə xidmət göstərir, həmçinin çox geniş beynəlxalq əlaqələri var. Odur ki, Azərbaycanın istehlak kooperasiyası xarici və daxili fəaliyyətlərində yeni istiqamətlər axtarır, maddi-texniki təchizat, aqroservis, xarici firmalarla birgə kooperasiya və istehsal müəssisələri, xırda istehsal-satış kooperativləri yaradır və digər sahələrdə canlı iş aparır.

***Səhmdar cəmiyyəti mülkiyyəti*** – səhmlərin (qiymətli kağızların) buraxılması və satılması yolu ilə yaradılır. «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikasının qanununda qeyd edilir ki, Səhmdar cəmiyyəti təsərrüfat fəaliyyətini həyata keçirmək məqsədilə nizamnamə fondunu səhm buraxmaq yolu ilə formalaşdıran fiziki və hüquqi şəxslərin könüllü sazişi əsasında yaradılan müəssisədir. Səhmdar cəmiyyəti açıq və qapalı tipli ola bilər, yəni səhmdar cəmiyyəti tərəfindən buraxılan səhm hamıya satılırsa bu açıq, yalnız təsisçilərə satılırsa, qapalı tipli səhmdar cəmiyyəti olur.

***Təsərrüfat cəmiyyətinin və şirkətinin mülkiyyəti*** – iştirakçılarının əmanətləri, təsərrüfat fəaliyyəti nəticəsində əldə edilmiş və qanunun yol verdiyi başqa əsaslarla aldıqları əmlak hesabına yaradılır. Təsərrüfat cəmiyyəti və şirkəti iştirakçılarının əmlakına əsas və dövriyyə fondları, pul vəsaiti və qiymətli kağızlar, həmçinin əmlakdan istifadə hüquqları daxil ola bilər.

***Təsərrüfat assosiasiyalarının (birliklərinin) mülkiyyəti*** – iştirakçılar tərəfindən könüllü surətdə, habelə qanunda nəzərdə tutulmuş hallarda alınan əmlak əsasında yaradılır.

***İctimai birliklərin mülkiyyəti*** – binalar, tiklilər, mənzil fondu, avadanlıq, inventar, mədəni-maarif və sağlamlıq təyinatlı əmlak, pul vəsaiti, səhmlər, digər qiymətli kağızlar və onların nizamnamələrində nəzərdə tutulmuş fəaliyyətin maddi təminatı üçün zəruri sayılan digər əmlak ola bilər.

***Xeyriyyə və digər ictimai fondlarının mülkiyyəti*** – öz nizamnamələrində nəzərdə tutulan fəaliyyəti həyata keçirmək üçün təsisçilərin onlara verdikləri əmlak üzərində mülkiyyət hüququna malikdir.

***Dini təşkilatların mülkiyyəti*** – dini təşkilatların mülkiyyətində olan binalar, əyani əşyalar, istehsal, sosial və xeyriyyə təyinatlı obyektlər, pul vəsaitləri və onların fəaliyyəti üçün zəruri sayılan başqa əmlak ola bilər. Dini təşkilatlar öz vəsaiti, dindarların verdikləri vəsait hesabına satın aldıqları, tikdikləri, yaratdıqları, istehsal etdikləri və ya dövlət, başqa şəxslər tərəfindən verilmiş və qanunvericiliklə nəzərdə tutulmuş digər əsaslar üzrə əldə edilmiş əmlak üzərində birgə mülkiyyət hüququna malikdirlər.

***Qarışıq mülkiyyəti*** – vətəndaşların, hüquqi şəxslərin mülkiyyəti ilə dövlətin mülkiyyətində olan əmlakın birləşdirilməsinə və bunun əsasında mülkiyyətin qarışıq formalarının yaradılmasına əsaslanır. Əsas və törəmə müxtəlif mülkiyyət formalarının sahiblərinin pay birliyindən yaranan əmlak ümumi və qarışıq mülkiyyət hüququ ilə eyni vaxtda bir neçə şəxsə məxsus ola bilər. Belə pay birliyi əsasında Azərbaycan və xarici ölkə hüquqi vətəndaşlarının da iştirakı ilə birgə müəssisələr yaradıla bilər. Bu, birgə və qarışıq mülkiyyət əsasında yaradılan müəssisələrin mülkiyyətinə binalar, tikililər, avadanlıq, pul vəsaiti, nizamnamə fonduna daxil olan digər maddi sərvətlər, istehsal olunmuş məhsul, əldə edilmiş gəlirlər və birgə qarışıq mülkiyyət münasibətlərini həyata keçirmək üçün lazım olan başqa əmlak da daxildir. Vətəndaşların paylarını könüllü birləşdirməklə yaranan və sonra fəaliyyət prosesində artırılan ümumi mülkiyyətdə olan əmlaka sahib olmaq, ondan istifadə etmək və ona sərəncam vermək qaydası mülkiyyətçilərin sazişi ilə müəyyən edilir.



***İntellektual mülkiyyət*** – ziyalıların elmi yaradıcılığı, ədəbiyyat, incəsənət qabiliyyəti (istedadı) ilə, kəşflər, ixtiralar, layihələr, məlumatlar, xəbərlər ifadələri ilə xarakterizə olunur. İntellektual mülkiyyət dedikdə, alimin, mədəniyyəti və incəsənəti təmsil edən sənət alimlərinin (bəstəkarların, aktyorların, rəssamların), ədiblərin, bütün idarəetmə sistemi işçilərinin, konstruktorların, natiqlərin, müəllimlərin, həkimlərin və s. müvafiq ziyalı dəstəsinin əməyi üzərində mülkiyyət forması kimi başa düşülür.

Dövlət mülkiyyətinin dövlətsizləşdirilməsi və özəlləşdirilməsi nəticəsində, qeyd etdiyimiz kimi, müxtəlif mülkiyyət formaları yaradılmışdır ki, bu da sənaye məhsulunun strukturunda müəyyən dəyişiklərin əmələ gəlməsinə səbəb olmuşdur. Mülkiyyət formaları üzrə sənaye məhsulunun həcminin dinamikası cədvəl 60-da verilmişdir.

Məlumdur ki, iqtisadi münasibətlər hansı formada təzahür etməsindən asılı olmayaraq (məsələn, siyasi, sosial, məişət və s.) son nəticədə mülkiyyətlə müəyyən olunur. Cəmiyyətin inkişafının bütün mərhələlərində mövcud iqtisadi sistemin transformasiyasının ən mühüm məsələsi mülkiyyət münasibətlərinin yenidən qurulması və təkmilləşdirilməsidir. Dünya ölkələrinin təcrübələri göstərir ki, mülkiyyət münasibətlərinin qurulmasın-

Cədvəl 60

**_Mülkiyyət formaları üzrə sənaye məhsulunun həcmi, faktiki qiymətlərlə, mlrd manat_**

| İllər | Bütün sənaye | o cümlədən: dövlət sektoru | qeyri-dövlət sektoru |
|---|---|---|---|
| 1997 | 13713,7 | 10266,3 | 3447,4 |
| 1998 | 12877,6 | 8575,8 | 4301,8 |
| 1999 | 14412,3 | 8118,0 | 6294,3 |
| 2000 | 18197,9 | 9396,8 | 8801,1 |
| 2001 | 18845,0 | 9203,8 | 9641,2 |
| 2002 | 20097,7 | 9079,1 | 11018,6 |
| 2003 | 24672,6 | 10764,9 | 13907,7 |
| 2004 | 29807,0 | 12464,0 | 17343,0 |

da əhəmiyyətli dəyişiklik etmədən iqtisadiyyatı bazar münasibətlərinə uyğun yenidən qurmaq mümkün deyildir. Dünya təcrübəsində mülkiyyət çoxnövlülüyünün təmin olunmasının ən başlıca istiqamətlərindən biri dövlət mülkiyyətində olan müəssisə və təşkilatların dövlətsizləşdirilməsi və özəlləşdirilməsidir.

İqtisadi sistemin yeniləşməsi, transformasiyası məqsədindən asılı olaraq ayrı-ayrı ölkələrdə dövlətsizləşdirmə müxtəlif məqsədlər güdür. Məsələn, Qərbi Avropa ölkələrində dövlətsizləşdirmə mülkiyyət münasibətlərini dəyişmək yolu ilə iqtisadi sistemin dəyişdirilməsini deyil, zərərlə işləyən müəssisələri sataraq büdcə xəzinəsini doldurmaq, büdcə kəsirini azaltmaq, dövlət strukturunu məhdudlaşdırmaq və dövlət müəssisələrinin daha səmərəli işləməsini təmin etmək məqsədini güdür. Keçmiş sosialist ölkələrində isə dövlətsizləşdirmə iqtisadi sistemin dəyişdirilməsinə, azad rəqabət mühitinin yaradılmasının zəmini olan mülkiyyət çoxnövlülüyünün təmin olunmasına, xüsusi sektorun inkişaf etdirilməsinə, dövlət inhisarının aradan qaldırılmasına, sahibkarlar təbəqəsinin formalaşmasına, xarici kapitalın ölkəyə cəlb edilməsinə xidmət edir.

Bazar münasibətləri şəraitində mülkiyyətin yenidən qurulması çox vaxt özəlləşdirmə ilə eyniləşdirilir. Lakin özəlləşdirmə mülkiyyət dəyişikliklərinin həyata keçirilməsinin formalarından biridir. Mülkiyyət münasibətlərinin yenidən qurulmasına həm eyni mülkiyyət forması daxilində mülkiyyət hüququnun



yenidən bölüşdürülməsi, həm də mülkiyyətin bir formadan digər formaya keçməsi aiddir.

***Dövlətsizləşdirmə*** dedikdə, birbaşa təsərrüfat idarəçiliyi funksiyalarının dövlətdən alınaraq, mülkiyyətin xarakterində heç bir dəyişiklik etmədən müvafiq vəzifələrin (funksiyaların) müəssisələrə verilməsi, şaquli təsərrüfat əlaqələrinin üfüqi təsərrüfat əlaqələri ilə əvəz olunması prosesi nəzərdə tutulur. Başqa sözlə, dövlətsizləşdirmə iqtisadiyyatda dövlətin həddindən çox olan rolunun (funksiyasının) bir qədər azaldılması deməkdir. Əlbəttə, dövlətsizləşdirmə dövlətin iqtisadi sahələrdən tam təcrid olunması demək deyil, dövlətin fəaliyyət mexanizminin dəyişməsi, yəni onun yalnız nizamlayıcı və əlaqələndirici funksiyaları icra etməsidir.

Dünya təcrübəsində dövlətsizləşdirmənin aşağıdakı üç üsulunu fərqləndirirlər:

1) bazarların liberallaşdırılması. Bazarların daha azad və sərbəst olması üçün dövlət bazar prinsipləri əsasında öz fəaliyyətlərini qorumağa can atan yeni təsərrüfat subyektlərinin qarşısını ala biləcək maneələri aradan qaldırır, istehsalın və satışın diversifikasiyasını stimullaşdıraraq məhsulları müxtəlif, o cümlədən dövlət müəssisələrinin əvvəllər hökmran mövqe tutduğu bazarlara daxil olan, çoxsahəli rəqabət qabiliyyətli istehsalla məşğul olan müəssisələrin yaradılmasına şərait yaradır. Dövlət eyni zamanda, imtiyazlı vergi sistemi tətbiq etməklə kiçik sahibkarlığın inkişafı, xarici kapitalın ölkə daxilində geniş tətbiqi üçün əlverişli bazar mühiti yaradır. Bazarların liberallaşdırılması dövlət mülkiyyətində dəyişiklik etmədən dövlətsizləşdirilməsini əks etdirir;

2) dövlət mülkiyyətində olan müəssisələrin fəaliyyəti üçün əlverişli bazar mühitinin yaradılması. Belə bir tədbirin həyata keçirilməsi dövlət mülkiyyətində olan müəssisələrə verilən subsidiyaların (***Subsidiya*** – dövlətin büdcə vəsaiti hesabına yerli orqanlara, hüquqi və fiziki şəxslərə, başqa dövlətlərə pul formasında verdiyi yardımdır. Onun köməyi ilə dövlət perspektiv sahələrin inkişafına, iqtisadiyyatın inkişafı üçün zəruri olan, ancaq kifayət qədər xeyirli olmayan köhnəlmiş sahələri qaydaya salır, ölkənin geridə qalmış rayonların təkmilləşdirilməyə nail olur) azaldılması, bank borclarının silinməsinin aradan qaldırıl-

ması, vergi imtiyazlarının ləğv edilməsi vasitəsilə bu müəssisələrin fəaliyyəti üçün bazar mühitinin yaradılmasına şərait yaradır;

3)əks-milliləşdirmə. Bu zaman dövlət müəssisələrinin mülkiyyəti nəinki xüsusi şəxslərin, hətta bankların, dövlət müəssisəsi kollektivlərinin, kooperativlərin əlinə keçə bilər.

Mülkiyyətin dövlətsizləşdirilməsi onun özəlləşdirilməsi ilə sıx əlaqədardır. ***Özəlləşdirmə*** dedikdə, dövlət mülkiyyətinin müəyyən şərtlərlə dəyişdirilməsi prosesi nəzərdə tutulur. Mülkiyyətin yeni sahibi onun təsərrüfat fəaliyyətində istifadəetmə nəticələrinə görə tam maddi məsuliyyət daşıyır. Başqa sözlə, özəlləşdirmə dövlət mülkiyyətinin ayrı-ayrı şəxslərin, əmək kollektivlərinin, hüquqi şəxslərin özəl mülkiyyətinə verərək mülkiyyətin dövlətsizləşdirilməsi üsullarından biridir. Deməli, dövlətsizləşdirməni özəlləşdirmə ilə tam eyniləşdirmək olmaz, yəni dövlətsizləşdirmə özəlləşdirməyə nisbətən daha geniş anlayışdır. Ümumiyyətlə, dünya təcrübəsində özəlləşdirmənin aşağıdakı üç modelini fərqləndirirlər.

***Özəlləşdirmənin birinci modelinin*** əsasını dövlət müəssisələrinin əmlakının əhali arasında bərabər və pulsuz bölüşdürülməsi təşkil edir. Bu model özəlləşdirmə çeklərinin və investisiya kuponlarının (vauçerlər, bonlar) özəlləşdirilən müəssisələrin səhmlərinə dəyişdirilməsini nəzərdə tutur. Məlumdur ki, bu modeldə özəlləşdirmənin fiskal məqsədi ikinci dərəcəli əhəmiyyət kəsb edir. Burada əsas məqsəd qısa dövr ərzində bazar infrastrukturlarının yaradılması və özəlləşdirməyə cəmiyyət üzvləri tərəfindən olan inamsızlığın qarşısının alınmasıdır.

***Özəlləşdirmənin ikinci modeli*** dövlət müəssisələrinin səhmlərinin əmək kollektivləri tərəfindən müəyyən güzəştli şərtlərlə satın alınmasıdır. Bu model dövlət müəssisələrinin tez bir zamanda əmək kollektivlərinin mülkiyyətinə çevrilməsini təmin edir, lakin bu zaman özəlləşdirilən müəssisələrdə çalışan işçilərə qarşı ədalət prinsipinə tam əməl olunmur.

***Özəlləşdirmənin üçüncü modelində*** dövlət müəssisələri bazar qiyməti ilə əhaliyə satılır. Bu model bazar iqtisadiyyatının tədricən, mərhələlərlə yaradılması, geniş kütlə tərəfindən özəlləşdirmənin inamsızlıqla qarşılanması, daxili maliyyə resurslarının çatışmazlığı və xarici sərmayəçilərin özəlləşdirməyə maraq göstərməməsi ilə səciyyələnir.



Məlumat üçün qeyd edək ki, göstərilən modellərin heç biri tam formada heç bir dünya ölkələrində tətbiq edilməyib. Məsələn, Çexiyada, Slovakiyada, Baltikyanı dövlətlərdə, Rusiyada özəlləşdirmənin birinci modelindən istifadə edilib. Bu ölkələrdə əsas model kimi dövlət mülkiyyətinin satışı seçilsə də, əhalidə sərbəst maliyyə resurslarının olmaması və xarici sərmayəçilərin özəlləşdirməyə kifayət qədər az maraq göstərməsi nəticəsində pulsuz və bərabər bölüşdürmə modeli daha geniş yayılmışdır.

Keçmiş Yuqoslaviyada özəlləşdirmə ikinci model ilə həyata keçirilmişdir, yəni dövlət müəssisələri qapalı tipli səhmdar cəmiyyətlərə çevrilməsi yolu ilə əhaliyə satılmışdır. Bu zaman səhmlər yalnız dövlət müəssisələrinin hazırkı işçilərinə və əvvəllər bu müəssisələrdə çalışmış, lakin hazırda təqaüddə olan adamlara satılmışdır. Səhmlərin alışı prosesində bütün əhaliyə səhmin nominal dəyərinin 30%-i həcmində güzəşt, dövlət müəssisələrinin hazırkı və keçmiş işçilərinə isə işlədikləri hər il üçün səhmin dəyərinin 1%-i həcmində əlavə güzəşt nəzərdə tutulurdu. Bundan başqa, dövlət müəssisələrinin özəlləşdirilməsində digər güzəştlər də müəyyənləşdirilmişdir. Məsələn, səhmlərin dəyərindən asılı olmayaraq onun dəyərinin 10 il müddətinə ödənilməsi qərara alınmışdır. Bu modelin üstün cəhəti ondan ibarətdir ki, özəlləşdirmə prosesində səhmlərin satışından əldə edilən vəsait dövlət xəzinəsinə deyil, özəlləşdiriləcək müəssisələrin mövcud ehtiyaclarının və gələcəkdə onların modernləşdirilməsi üçün istifadə edilməsindədir. Qüsur cəhəti isə həmin müəssisədə işləməyən əhalinin özəlləşdirmədən təcrid olunmasıdır.

Özəlləşdirmənin üçüncü modelindən Macarıstanda, Şərqi Almaniyada, Polşada, Bolqarıstanda və digər Avropa ölkələrində istifadə edilmişdir. Məsələn, Macarıstanda hələ sosializm dövründə xüsusi sektorun yaradılması və inkişafı üçün əlverişli şərait yaradılmışdır. Belə ki, 80-ci illərin əvvəllərində əhaliyə göstərilən xidmətlərin təqribən 50%-i, əmtəə dövriyyəsinin üçdə bir hissəsi və texniki-layihə işlərinin həcminin 15%-i özəl sektorun payına düşürdü. Macarıstanda həyata keçirilən özəlləşdirmənin mühüm xüsusiyyətlərindən biri ölkənin qapılarının

xarici kapital üçün açıq olması, xarici sərmayəçilərə özəlləşdiriləcək dövlət müəssisəsinin səhmlərinin almağa icazə verilməsi, yerli kapitala nisbətən xarici kapital üçün vergi güzəştlərinin mövcud olmasında idi. Bundan başqa, Macarıstanda aparılan özəlləşdirmə, digər Avropa ölkələrindən fərqli olaraq, tədricən, yəni mərhələ-mərhələ həyata keçirilmişdir.

Şərqi Avropanın bir sıra ölkələrində (məsələn, Çexiyada, Slovakiyada, Macarıstanda, Bolqarıstanda və s.) həyata keçirilən özəlləşdirmə, özəlləşdirmənin qismən radikal variantı hesab edilir. Özəlləşdirməni həyata keçirərkən burada bir-birinə zidd iki məsələnin həllinə fikir verilməlidir. Bir tərəfdən, bu ölkələrdə özəlləşdirmənin sürətlə, qısa bir dövr ərzində aparılmasına, digər tərəfdən isə investisiya və texnoloji modernləşdirmə problemlərinin həllinə cəhd edilməlidir. Özəlləşdirmənin radikal variantı Polşada müşahidə olunmuşdur. Burada mülkiyyətin yenidən qurulmasına onun formasının dəyişdirilməsi nöqteyi-nəzərindən yanaşılmışdır. Özəlləşdirmənin Polşa variantının radikallığı özəlləşdirmənin həm borcu olan müəssisələrin ləğv olunması, həm də onların əmlaklarının satılması yolu ilə həyata keçirilməsində öz əksini tapmışdır.

Keçmiş SSRİ məkanına daxil olan ölkələr arasında Rusiyadakı mülkiyyət dəyişiklikləri təcrübəsi böyük maraq doğurur. Rusiyada aparılan özəlləşdirmənin xüsusiyyəti onun həyata keçirilən zaman bazar və inzibati metodların uyğunluğunu nəzərə alan qarışıq özəlləşdirmə modelindən istifadə olunmasıdır. Dövlət müəssisələrinin müsabiqə və hərraclarda satışı onun nağd pula satılması ilə yanaşı, özəlləşdirilən müəssisələrin səhmlərinə dəyişdirilməsini nəzərdə tutan pulsuz özəlləşdirmə vauçerləri (çekləri) vasitəsilə həyata keçirilmişdir. Deməli, Rusiyada özəlləşdirmə, əsasən aşağıdakı iki model üzrə aparılmışdır: birincisi, 30 iyun 1994-cü ilə qədər pulsuz özəlləşdirmə modeli (buna vauçer modeli deyilirdi); ikincisi, 1 iyul 1994-cü il satış modeli (buna pullu model də deyilirdi). Bütövlükdə Rusiyada özəlləşdirmə prosesi sahibkarlığın özəl sektorunun qısa bir dövr ərzində yaranmasını təmin edən yüksək templə aparılması ilə xarakterizə olunur.

Beləliklə, özəlləşdirmə metodları ayrı-ayrı ölkələr üçün



müxtəlif olsa da məqsəd eynidir – dövlət mülkiyyətinin tez bir zamanda xüsusi əllərə verilməsi və sərbəst rəqabət prinsipləri əsasında öz-özünü tənzimləyən bazar mexanizmi (münasibətləri) mühitinin yaradılmasıdır. Bazar mexanizmi təşkilati-iqtisadi forma və metodların məcmusu olub, onların köməyi ilə ictimai mülkiyyət iqtisadi cəhətdən reallaşdırılır və təkrar istehsal prosesi tənzimlənir. Bazar mexanizminin formalaşması mövcud istehsalın səmərəliliyinin yüksəldilməsinə və sosialyönümlü məsələlərin həllinə fəal təsir göstərməsinin ən mühüm ilkin şərtidir. Odur ki, bazar münasibətləri şəraitində bazar mexanizminin müntəzəm surətdə təkmilləşdirilməsi zərurəti yaranır. Bununla belə ictimai inkişafın dönüş mərhələlərində bazar iqtisadiyyatının özündə dərin keyfiyyət dəyişiklikləri baş verir və təsərrüfat mexanizminin yenidən qurulmasına tələbat yaranır.

***Təsərrüfat mexanizmi*** dedikdə, təşkilati-iqtisadi forma və metodların məcmusu; onların köməyi ilə ictimai mülkiyyət özəlləşdirilərək iqtisadi cəhətdən reallaşdırılır və təkrar istehsal prosesi nizamlaşdırılır. Təsərrüfat mexanizmi istehsal münasibətləri sistemi ilə məhsuldar qüvvələr arasındakı qarşılıqlı təsiri ifadə edir. Bazar münasibətlərinin hər bir inkişaf mərhələsinə cavab verən təsərrüfat mexanizminin bütün pillələrinin bir istiqamətə yönəldilməsi, onların öz aralarında razılaşdırılmış fəaliyyətin olması istehsalın səmərəliliyinin yüksəldilməsinə və sosial vəzifələrin həllinə təsir göstərməsinin ən mühüm ilkin şərtidir. Odur ki, bazar münasibətləri şəraitində təsərrüfat mexanizminin müntəzəm surətdə təkmilləşdirilməsini zəruri edir. Bununla belə ictimai inkişafın dönüş mərhələlərində iqtisadiyyatın özündə dərin keyfiyyət dəyişiklikləri baş verir və təsərrüfat mexanizminin yenidən qurulmasına tələbat yaradır. Məhz belə vəziyyət indi yaranmışdır ki, bu da təsərrüfat mexanizminin əsaslı islahatının keçirilməsini tələb edir. Qarşıda onun çoxməsrəfli xarakterini ləğv etmək, bütün pillələrini tamamilə elmi-texniki tərəqqinin sürətləndirilməsinə, iqtisadiyyatın hərtərəfli intensivləşdirilməsinə, yüksək son nəticələrə nail olunmasına yönəltmək vəzifəsi durur.

## 8.3. Azərbaycanda neft sənayesi obyektlərinin özəlləşdirmənin xüsusiyyətləri

Məlumdur ki, Azərbaycan keçmiş sosialist dövlətləri arasında özəlləşdirməni gec başlayan respublikalardan biridir, yəni 1993-cü ilin yanvarında «Azərbaycan Respublikasında dövlət mülkiyyətinin özəlləşdirilməsi haqqında» Qanun qəbul edilsə də, 1995-ci ilə kimi ticarət və xidmət sahələrini nəzərə almasaq, bizim respublikamızda, demək olar ki, geniş mənada özəlləşdirmə həyata keçirilməmişdir. 1995-ci oktyabrında Azərbaycan Respublikasının Qanununa uyğun olaraq «Azərbaycan Respublikasında 1995-1998-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsinin Dövlət Proqramı» işlənib hazırlanmış, Milli Məclis tərəfindən təsdiq olunmuşdur. Ümumiyyətlə, Azərbaycanda özəlləşdirmə prosesinin gedişini 4 mərhələyə ayırmaq olar:

*1-ci mərhələ* 1995-1997-ci illəri əhatə etmişdir. Bu mərhələ ən çətin və mürəkkəb mərhələ olmuşdur, çünki bu dövrdə əhalinin özəlləşdirməyə inamı az idi, əhali özəlləşdirmə çeklərini alarkən ondan necə istifadə edəcəyini bilmirdi, lazımi hüquqi normativ baza yaradılmamışdır. Digər tərəfdən, bu dövrdə yalnız kiçik dövlət müəssisələri özəlləşdirilirdi və beləliklə də xırda sahibkarların yaranması ilə məhdudlaşırdı. Bu mərhələdə 14783 kiçik müəssisə özəlləşdirilmişdir ki, onlardan da 344-ü sənayenin payına düşür.

*2-ci mərhələ* 1998-2000-ci illəri əhatə edirdi və bu mərhələ özəlləşdirmə prosesinin həyata keçirilməsində həlledici mərhələ hesab edilirdi. Bu mərhələnin xarakterik cəhəti ondan ibarət olmuşdur ki, məhz bu dövrdə dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində orta və iri sahibkarlar meydana gəlməyə başlamış, bazar iqtisadiyyatının bir sıra ünsürləri, yəni qiymətli kağızlar bazarı, onun institutları olan Milli Depozit Sistemi, Dövlət registri, fond birjaları yaradılmışdır. Bu mərhələdə 10158 kiçik müəssisə özəlləşdirilmişdir ki, bunlardan da 261-i sənayenin payına düşür. Həm birinci, həm də ikinci mərhələdə neft sənayenin müəssisələri özəlləşdirmə prosesində iştirak etməmişlər.

*3-cü mərhələ* 2001-2005-ci illəri əhatə edəcəkdir. Bu mərhələ stabil mülkiyyətçilər, səhmdarlar təbəqəsinin, qiymətli kağızlar bazarının yaradılması, respublika müəssisələrinin



səhmlərinə xarici ölkələrdə fəaliyyət göstərən nüfuzlu birjalarda istehlakçıların maraq göstərməsi ilə səciyyələnəcəkdir. 2001 və 2002-ci illərdə 5798 kiçik müəssisə özəlləşdirilmişdir ki, onlardan da 106-sı sənayenin payına düşür. Bu dövrdə neft sənayesinin bəzi müəssisələri özəlləşdirmədə iştirak etmişdir. Hazırda neft sənayesinin 68 müəssisəsi, obyekti özəlləşdirmək üçün respublikanın İqtisadi İnkişaf Nazirliyinin sərəncamına verilmişdir.

Bütün mərhələlər üzrə dövlət müəssisələrinin özəlləşdirilməsi nəticəsində dövlət büdcəsinə 638797 mln. manat vəsait daxil olmuşdur. 1995-2002-ci illərdə dövlət mülkiyyətinin özəlləşdirilməsi nəticəsində ayrı-ayrı formalarda dövlət büdcəsinə daxil olan vəsaitin həcmi haqda məlumatlar cədvəl 61-də verilmişdir.

*Cədvəl 61*

***Özəlləşdirmədən dövlət büdcəsinə daxil edilən vəsaitin həcmi, mln. manat***

| | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|
| Cəmi<br>o cümlədən: | 437 | 38188 | 93621 | 100362 | 96584 | 156930 |
| Əmək kollektivinə satış forması ilə | 437 | 17412 | 27139 | 29467 | 22911 | 30925 |
| İcarəyə götürülmüş əmlakın satışı forması ilə | - | 8021 | 19858 | 29689 | 14326 | 12936 |
| Səhmlərin satışı forması ilə | - | 8753 | 39300 | 32679 | 50152 | 35886 |
| Torpaqların özəlləşdirilməsi ilə | - | 2639 | 6807 | 7790 | 8447 | 13135 |

Məlumat üçün qeyd edək ki, keçmiş SSRİ-nin tərkində olmuş respublikalarda dövlət mülkiyyətinin özəlləşdirilməsi sahəsində həm ümumi, həm də fərqləndirici cəhətlər vardır.

***Ümumi cəhətlərə*** aiddir: özəlləşdirmənin inqilabi sıçrayış yolu ilə deyil, təkamül, yəni tədriclə, mərhələ-mərhələ aparılması; özəlləşdirməyə kiçik xidmətedici, ticarət müəssisə və təşkilatlarından başlanması; özəlləşdirmənin pulsuz və satış modeli əsasında həyata keçirilməsi, yəni çek özəlləşdirilməsinə

üstünlük verilməsi və s.

***Fərqləndirici cəhətlərə*** aşağıdakılar aiddir:

– Azərbaycanda özəlləşdirmə onun iki modelinin uzlaşdırılması yolu ilə həyata keçirilmişdir, yəni çeklərin əhaliyə pulsuz verilməsi və dövlət müəssisələrinin özəlləşdirilməsinin pullu hərraclarda satılması yolu ilə aparılması;

– respublikamızda özəlləşdirmə kənd təsərrüfatı obyektlərinin, yəni kolxoz və sovxozların, onların infrastrukturlarının kənd əhalisi arasında bölüşdürülməsindən başlanmışdır. Bu, obyektiv zərurətdən irəli gəlir: bir tərəfdən, əhalinin istehlak malları ilə, sənayenin isə xammalla təchiz olunması üçün əlverişli şərait yaradır; digər tərəfdən, inzibati-amirlik sisteminin sosial strukturunda bazar mexanizminə daha tez uyğunlaşan məhz kənd əhalisinin olmasıdır. 1996-cı ildə «Torpaq islahatı haqqında» Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən qəbul olunmuş qanununda torpaqların özəlləşdirilməsi və onların xüsusi mülkiyyətə verilməsi nəzərdə tutulmuşdur. Belə bir tədbirin həyata keçirilməsi nəticəsində kənd təsərrüfatı məhsullarının istehsalında xüsusi sektorun payı son illərdə xeyli artmışdır. Belə ki, 2003-cü ildə kənd təsərrüfatı məhsullarının istehsalında qeyri-dövlət bölməsinin xüsusi çəkisi 85-90-% təşkil etmişdir;

– özəlləşdirmə bütün dünya ölkələrinin üzünə açıq olmuşdur, yəni özəlləşdirmədə həm respublikamızın vətəndaşları, həm də xarici ölkələrin hüquqi və fiziki şəxsləri iştirak etmişlər. Azərbaycan Respublikasının qanunvericiliyinə görə xarici ölkələrin hüquqi və fiziki şəxsləri özəlləşdirmədə opsionların alınması yolu ilə həyata keçirilmişdir;

– dövriyyəyə buraxılan özəlləşdirmə çekləri nominal qiymətə malik olmuşdur, yəni respublikamızda özəlləşdirmə çeklərinin qiyməti sərbəst bazar prinsipləri əsasında alqı-satqı prosesində bazardakı tələblə təklif arasındakı nisbətlə müəyyən olunur.

Keçid dövründə qarşıda elə ümumi, strateji proqram vəzifələri durur ki, onların həyata keçirilməsi bir tərəfdən yeni demokratik cəmiyyətin və eyni zamanda bazar iqtisadiyyatının yaradılmasının təməl daşı hesab edilir. Belə problemlərdən biri də



sosialist sənaye müəssisələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılması və sanasiyalaşdırılmasıdır. Bazar iqtisadiyyatına keçid dövrü iqtisadiyyatın inzibati-amirlik metodları ilə idarə edilməsindən yeni iqtisadi üsullara keçirilməsini zəruri edir. Heç kəs üçün sirr deyildir ki, həmin dövr güclü iqtisadi bazanın yaradılmasını tələb edir. Bu isə düzgün maliyyə sisteminin həyata keçirilməsi və onun nəticələrindən xeyli dərəcədə asılıdır. Deməli, müəssisələrdə dövlətin maliyyə siyasəti düzgün təşkil edilməlidir. Bu işdə isə dövlət məharətlə, maliyyə-kredit, vergi, qiymət və s.-dən geniş surətdə istifadə etməlidir.

Məlumdur ki, maliyyə-kredit – mübadilə, dəyər, qiymət və s. bu kimi iqtisadi alətlərdən biridir. Kapitalist təsərrüfatında iqtisadiyyatın inkişafı alətləri olan maliyyə və kreditdən müvəffəqiyyətlə istifadə olunur. Bu alətlərin geniş və səmərəli tətbiq edilməsi neft-qazçıxarma idarələrinin maliyyə təsərrüfatının düzgün təşkil olunması ilə sıx əlaqədardır. Neft-qazçıxarma idarələrinin maliyyə təsərrüfatı pul resurslarının sistemli qaydada toplanması və məqsədəuyğun formada istifadə edilməsi ilə əlaqədar olan pul münasibətləri sistemindən ibarətdir. Pul resursları neft-qazçıxarma idarələrinə, əsas fondlar və dövriyyə vəsaitləri yaratmaq, büdcə ilə və malgöndərənlərlə hesablaşmaq, bank borclarını qaytarmaq və s. məqsədlər üçün lazımdır. Neft-qazçıxarma idarələri tərəfindən pul resurslarının toplanması və məqsədəuyğun istifadə olunması ayrı-ayrı müəssisələr arasında, neft-qazçıxarma idarələri ilə dövlət və onların əmək kollektivləri arasında, neft-qazçıxarma idarələrinin özləri arasında olan pul münasibətlərinin müəyyən sisteminə əsaslanır.

Deməli, möhkəm və sağlam maliyyə sistemi olmadan, yaxşı və kifayət qədər maliyyə vəziyyəti yaratmadan təkrar istehsal prosesini təsəvvür etmək olmaz. Lakin buna baxmayaraq, respublikamızda iqtisadiyyatın ağır vəziyyətdən uğurla çıxarılması, əhalinin güzəranının yaxşılaşdırılması sahəsində ciddi dönüş yaradılması, neft sənayesinin maliyyə vəziyyətinin ağırlaşmasının qarşısının alınması hələlik təmin olunmamışdır. Düzdür, son illərdə bu sahədə iqtisadiyyatın bəzi sahələrində, o cümlə-

dən neft sənayesində müəyyən nailiyyətlər əldə edilmiş və gözəçarpan dərəcədə irəliləyişlər əldə edilmişdir. Bununla belə, müəssisə və təşkilatların bank ssudaları və qarşılıqlı hesablaşmalar üzrə vaxtı keçmiş borcları ildən-ilə artır. Düzdür, son illərdə dövlət tərəfindən həyata keçirilən bir sıra əməli tədbirlər nəticəsində müəssisə və təşkilatların bir-birilərinə olan borclarının həcmi müəyyən qədər azalmışdır, lakin bunu qənaətbəxş hesab etmək olmaz.

Bazar iqtisadiyyatına keçid dövründə hər bir müəssisənin maliyyə vəziyyəti bilavasitə onların istehsal-təsərrüfat fəaliyyətindən asılıdır. İstehsal proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi, əmək məhsuldarlığının artması, məhsulun keyfiyyətinin yaxşılaşdırılması və maya dəyərinin aşağı salınması müəssisələrin maliyyə vəziyyətinin yaxşı olmasının həlledici şərtidir. Bununla belə, istehsal proqramının yerinə yetirilməsi, istehsalın ahəngdarlığının təmin olunması və müəssisələrin fəaliyyətini xarakterizə edən digər göstəricilərin yaxşılaşdırılması onun maliyyə vəziyyətindən asılıdır. Əgər müəssisə və təşkilatların maliyyə təsərrüfatı yaxşı təşkil olunarsa, pul vəsaiti vaxtında və nəzərdə tutulmuş həcmdə daxil olursa və öz təyinatına uyğun olaraq istifadə edilirsə, onda müəssisə və təşkilatlar da istehsal proqramını yerinə yetirmək imkanına malik olur və bu zaman pul resurslarının çatışmaması kimi hallara rast gəlinmir. Əksinə, müəssisə və təşkilatlar öz maliyyə təsərrüfatını pis aparарlarsa, o zaman onların maliyyə vəsaiti çatışmaması kimi çətinliklə üzləşəcəklər ki, bu da istehsalın normal gedişatına, istehsal proqramı üzrə tapşırığın (sifarişlərin, müqavilələrin) yerinə yetirilməsinə mənfi təsir göstərəcəkdir.

Bazar münasibətləri şəraitində müəssisə və təşkilatlarda maliyyə resursları varidatının əsas mənbəyi, onların özlərinin pul gəlirlərindən ibarət olur. Müəssisənin pul gəlirlərinin həcmi isə bazarda satılan məhsulun miqdarından, onların keyfiyyətindən və qiymətlərindən bilavasitə asılıdır. Nə qədər çox məhsul istehsal edilib satılarsa, onların keyfiyyəti nə qədər yüksək olarsa, müəssisənin pul gəliri də bir o qədər çox olacaqdır. Fəqət



son illərdə əksər müəssisələr tam gücləri ilə işləmədiklərinə görə istehsal olunan və satılan məhsulların həcmi xeyli azalmış və beləliklə də onların maliyyə vəziyyətləri pisləşmişdir. Belə bir hal onların maliyyə vəziyyətinin yaxşılaşdırılmasını zəruri edir. Müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında onların yenidən qurulması, texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi mühüm rol oynayır.

Maliyyə vəziyyəti pis olan müəssisələrin yenidən qurulması kreditorların tələbini ödəmək məqsədilə müəssisənin mülkiyyətçisi, rəhbərliyi və ya onların səlahiyyətli nümayəndəsi tərəfindən onun malik olduğu əmlakı bölmək, hamısını və ya müəyyən hissəsini digər təsərrüfat subyektlərinə vermək yolu ilə müəssisənin strukturunun və fəaliyyət istiqamətinin dəyişdirilməsini nəzərdə tutur.

Məlumdur ki, müəssisənin texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi – fəaliyyət göstərən müəssisələrdə əsas istehsal fondlarının təkrar istehsalının mütərəqqi formalarından biridir. Müəssisənin texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılmasını, köhnəlmiş və fiziki cəhətdən aşınmış avadanlığın yeni, daha məhsuldar avadanlıqla əvəz edilməsini, həmçinin ümumzavod təsərrüfatının və yardımçı xidmətlərin təkmilləşdirilməsi üzrə kompleks tədbirlərin həyata keçirilməsini nəzərdə tutur.

# FƏSİL 9. NEFT SƏNAYESİNİN DÜNYA İQTİSADİYYATINA İNTEQRASİYA EDİLMƏSİ PROBLEMLƏRİ

## 9.1. Beynəlxalq iqtisadi inteqrasiya və neft sənayesinin ixracat potensialının artırılmasında onun rolu

Beynəlxalq əmək bölgüsü əməyin müxtəlif ölkələr arasında keyfiyyət və kəmiyyət nisbətlərində bölüşdürülməsini nəzərdə tutur. Bu, ölkələr arasında qarşılıqlı əlaqə, xidmət və ictimai faydalı nəticələrin mübadiləsi yolu ilə həyata keçirilir.

Beynəlxalq əmək bölgüsünün məqsədi ictimai istehsalın iqtisadi səmərəliliyini yüksəltməkdən, elm və texnikanın yeni nailiyyətlərini istehsalata tez tətbiq etmək əsasında milli müəssisələrin sosial-iqtisadi inkişafının yüksək sürətini təmin etməkdən, əmək kollektivlərinin həyat şəraitini yaxşılaşdırmaqdan, dünya ölkələrinin iqtisadi inkişaf səviyyələrində yaranmış fərqləri azaltmaqdan, əgər mümkündürsə aradan qaldırmaqdan ibarətdir. Bu məqsədə – ölkələr, müəssisələr arasında xarici-iqtisadi əlaqələri, əməkdaşlığı genişləndirməklə, ikitərəfli və çoxtərəfli iqtisadi, elmi-texniki və digər növ əməkdaşlıq proqramları, layihələri işləyib hazırlamaq, qəbul etmək və onları həyata keçirməklə nail olunur.

Bazar iqtisadiyyatına keçid dövründə ayrı-ayrı müəssisələr, təşkilatlar səviyyəsində beynəlxalq əmək bölgüsü yeni səviyyəyə qalxmışdır. İndi onun daha səmərəli forma və üsullarından (məsələn, xarici ölkələrin firmaları ilə birlikdə müştərək müəssisələrin, filialların yaradılması) getdikcə daha geniş istifadə olunur.

*Beləliklə,* ***beynəlxalq əmək bölgüsü*** *dünya ölkələrinin iqtisadiyyatının bir-birinə yaxınlaşması və müasir yüksək səmərəli milli təsərrüfat strukturunun formalaşması, iqtisadi inkişaf səviyyəsinin tədricən bir-birinə qovuşması və bərabərləşdirilməsi, iqtisadiyyatın, elm və texnikanın əsas sahələrində dərin və sabit əlaqələrin formalaşması, bu ölkələrin beynəlxalq bazarının genişlənməsi, möhkəmlənməsi və s. prosesidir. Başqa sözlə,* ***beynəlxalq əmək bölgüsü*** *– əməyin ictimai ərazi bölgüsünün yüksək forması olub, ayrı-ayrı ölkələrin istehsal etdikləri müəyyən növ əmtəə və xidmət üzrə ixtisaslaşması və həmin məhsulları öz aralarında mübadilə etməsidir.* Beynəlxalq əmək bölgüsünün zəruriliyi və onun dərinləşməsi cəmiyyətin məhsuldar qüvvələrinin inkişaf dərəcəsi ilə müəyyən edilir.



Bazar iqtisadiyyatı şəraitində dünya ölkələri arasında əmək bölgüsü kəskin rəqabət mübarizəsi və mənfəət ardınca qaçmaq gedişində baş verir. Dünyanın sənayecə inkişaf etmiş ölkələri arasında isə əmək bölgüsü sahələrdaxili ixtisaslaşma yolu ilə inkişaf edir. Bu prosesə kapital miqrasiyasının artması, nəhəng beynəlxalq trestlərin yaranması, istehsalın firmalararası ixtisaslaşdırılması və kooperasiyalaşdırılması haqqında sazişlərin yayılması kömək edir. Beynəlxalq əmək bölgüsü dünya ölkələrinin inteqrasiya qruplaşmaları çərçivəsində güclənir.

Beynəlxalq əmək bölgüsü ölkələr arasında ərazi əmək bölgüsünün yüksək mərhələsi olub, ölkələrin müəyyən növ məhsul istehsalı üzrə ixtisaslaşmasına və onların istehsal etmiş olduqları məhsulların qarşılıqlı şərtlər əsasında kəmiyyət və keyfiyyətcə mübadiləsinə əsaslandığından o, dünya ölkələrində təkrar istehsal prosesinin və iqtisadi artımın təmin edilməsi prosesinə xidmət edir. Bu baxımdan, beynəlxalq əmək bölgüsü istehsalın beynəlmiləlləşdirilməsi prosesində xüsusi rol oynayır.

Beynəlxalq əmək bölgüsündə dünya ölkələrinin iştirakı bəzi təbii və ictimai amillərlə bağlıdır. Bu amillərə texniki tərəqqi, sosial-iqtisadi və təbii-coğrafi (məsələn, təbii iqlim şəraiti, təbii resurslar, ölkənin ərazisi, əhalinin sayı və s.) amilləri aid etmək olar.

Təbii sərvətlərin bölgüsündə olan fərq dövlətlər arasında əmək bölgüsünün inkişafının ilk şərtidir. Buna baxmayaraq, müasir dövrdə beynəlxalq əmək bölgüsünün özünəxas xüsusiyyəti vardır. Məsələn, dünyanın sənayecə inkişaf etmiş ölkələrinin payına dünya əhalisinin 25%-i və ümumi milli məhsulun isə 80%-i düşdüyü halda, inkişaf etməkdə olan ölkələrin payına dünya əhalisinin 75%-i və ümumi milli məhsulun 20%-i düşür. Deməli, dünya əhalisi arasında ümumi milli məhsulun bölüşdürülməsində qeyri-mütənasiblik mövcuddur. Bu onu göstərir ki, inkişaf etməkdə olan ölkələr yenə də hazırda sənayecə inkişaf etmiş ölkələr üçün xammal mənbəyi və həmin ölkələrdən hazır məhsulların idxalçısı kimi çıxış edirlər.

Dünya ölkələrinin, müəssisələrinin beynəlxalq əmək bölgüsündə iştirak etməsində əsas məqsəd iqtisadi fayda əldə etməkdən ibarətdir. Belə ki, fayda istehsalın milli dəyəri ilə beynəlmiləl dəyər arasındakı fərqlə müəyyən edilir. Bu zaman ölkələr, müəssisələr dəyər qanununun tələblərini nəzərə almaqla fəaliyyət göstərirlər. Dəyər qanunu beynəlxalq əmək bölgüsünün əsas hərəkətverici qüvvəsi kimi çıxış edir. Lakin bir məsələni də nəzərə almaq lazımdır ki, əmtəələr dünya bazarına çıxarılarkən onlar beynəlxalq dəyərin və dünya bazar qiymətlərinin formalaşmasında iştirak edirlər. Burada bazar iqtisadiyyatı qanunları olan rəqabət, tələb və təklif qanunlarının da xüsusi rolu vardır.

***Rəqabət*** – latın sözü olub «toqquşma» mənasını verir. Rəqabətin meydana gəlməsi tarixən mülkiyyət ayrı-seçkiliyinin və əmək bölgüsünün şərtləndirdiyi əmtəə istehsalının meydana gəlməsi dövrünə təsadüf edir, əmtəə istehsalının inkişafı ilə iqtisadi inkişafın ən fəal ünsürlərinə çevrilir. İstehsal vasitələri üzərində xüsusi mülkiyyət rəqabətin mövcudluğunu şərtləndirir. Sadəcə desək, rəqabət bəhsləşmə deməkdir. Rəqabət nəticəsində istehsalçı və istehlakçılar bərabər imkanlara malik olmalarına baxmayaraq, bu imkanlardan daha səmərəli istifadə etməklə qalib gəlmək istəyi həmişə onları istehsalın nəticəsini yaxınlaşdırmağa stimullaşdırır. Geniş mənada rəqabət bazar münasibətlərinə cəlb edilmiş bazarın iştirakçıları arasında xüsusi formada təzahür edən münasibətləri, əlaqələri ifadə edir. O, bir tərəfdən istehsalçıların öz aralarında, digər tərəfdən, istehsalçılarla istehlakçılar arasında, üçüncü tərəfdən isə istehlakçıların öz aralarında mənafelərinin reallaşması uğrunda mübarizəsini əks etdirir. Onlar öz aralarında rəqabət mübarizəsi yolu ilə istehsalda, alqı-satqıda əlverişli şəraitə nail olmağa çalışırlar. Bu mübarizə isə həmişə onları istehsalı təkmilləşdirməkdə, inkişaf etdirməkdə maraqlı edir, çünki rəqabət mübarizəsinə dözməməkdə həmişə iflasa uğramaq təhlükəsi yaradır. Deməli, rəqabət bazar iqtisadiyyatı şəraitində müəssisələrin, xüsusi sahibkarlıq fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinin başlıca amilidir.

***Tələbat*** – fərdin şəxsiyyəti və mədəni səviyyəsinə müvafiq olaraq özünəxas formaya düşmüş ehtiyacıdır. Tələbatlar öz əksini cəmiyyətin mədəni sisteminə uyğun gələn vasitələrlə ehtiyacı ödəyə biləcək obyektlərdə tapır. Belə ki, cəmiyyət tərəqqi etdikcə, onun üzvlərinin tələbatı da artır. İnsanlar onların marağını və istəklərini oyadan çoxlu miqdarda obyektlərlə rastlaşırlar. İstehsalçılar öz tərəflərindən bu mallara malik olmaq istəyinin həvəsləndirilməsi üçün məqsədyönlü fəaliyyət göstərirlər. Onlar buraxdıqları məhsullar ilə insanların ehtiyacları arasında rabitə yaratmağa cəhd edirlər.



***Tələb*** – alıcılıq qabiliyyəti ilə möhkəmləndirilmiş tələbatdır. İnsanların tələbatları əslində nəhayətsiz, onların ödənilməsi üçün lazım olan vəsait mənbələri isə məhduddur. Buna görə də insan elə bir əmtəə seçəcəkdir ki, bunlar maliyyə imkanları çərçivəsində onu daha çox qane etsin. Bazar iqtisadiyyatı şəraitində tədiyyə qabiliyyətli tələb tələbatın spesifik təzahür forması olsa da, onlar arasında müəyyən kəmiyyət və keyfiyyət fərqləri, həmçinin ziddiyyət mövcuddur. Kəmiyyətcə fərq özünü tələbatın həmişə tədiyyə qabiliyyətli tələbdən çox olmasında göstərir, belə ki, əhalinin tələbatlarının ödənilməsi dərəcəsi onların tədiyyə qabiliyyətli imkanlarından (müəyyən pul məbləğindən) asılıdır və onunla məhdudlaşdırılır. Belə bir hal həmçinin tələbatla tələb arasında müəyyən ziddiyyətin də olduğunu göstərir. Digər tərəfdən, tədiyyə qabiliyyətli tələb təkcə müəyyən məbləğ pulla məhdudlaşdırılan tələbat deyildir, o, eyni zamanda bazara çıxarılan, yalnız orada reallaşdırılan, həm də bu zaman konkret əmtəə və xidmət növünə yönəldilmiş tələbatdır. Tələbatla tədiyyə qabiliyyətli tələb arasında keyfiyyət fərqi isə özünü onda göstərir ki, tədiyyə qabiliyyətli tələbin ödənilməsi mütləq bazarın mövcudluğunu tələb edir, tələbata gəldikdə isə onun meydana gəlməsi və ödənilməsi əmtəə-pul münasibətlərindən, deməli, bazar münasibətlərindən kənarda da baş verə bilər.

Beynəlxalq əmək bölgüsünün ən mühüm formaları istehsalın beynəlxalq ixtisaslaşması və kooperasiyalaşdırılmasından ibarətdir. ***Beynəlxalq ixtisaslaşma*** – ölkələr arasında əmək bölgüsünün, burada bir sahə və ya bir müəssisədə müəyyən növ məhsul istehsalının cəmləşməsi ilə xarakterizə olunan istehsalın təşkili formalarından biridir. İstehsalın ixtisaslaşdırılması müvafiq məhsulu ən az əmək sərfi ilə istehsal etmək imkanı olan ölkələrdə müəyyən istehsal sahələrinin üstün inkişafı deməkdir. Məsələn, dünya ölkələri içərisində ABŞ sənaye və taxıl istehsalı

üzrə, Böyük Britaniya kofe istehsalı üzrə, Meksika, Norveç, Küveyt, İraq və s. isə neft istehsalı üzrə ixtisaslaşmışdır.

Ölkələrdə ixtisaslaşdırmanın inkişafı sənayenin də sahə strukturunun dəyişməsinə səbəb olur, çünki texniki tərəqqinin və iqtisadi münasibətlərin genişləndirilməsinin təsiri altında sahə və müəssisələr daxilində əmək bölgüsünün dərinləşməsi baş verir, yəni yeni istehsal sahələri meydana gəlir və son nəticədə, ixtisaslaşdırılmış sahələrin, eyni zamanda ayrı-ayrı istehsalların və müəssisələrin miqdarı artır.

Qeyd edək ki, istehsalın ixtisaslaşdırılması ardıcıl olaraq sənayenin ixtisaslaşdırılması, müəssisələrin ixtisaslaşdırılması, müəssisələr daxilində sexlərin, istehsal sahələrin, briqadaların və ayrı-ayrı iş yerlərinin ixtisaslaşdırılması kimi mərhələləri keçir. Bütün bunlar müəssisədaxili əmək bölgüsünün dərinləşməsi nəticəsində baş verir.

Müəssisə daxilində əmək bölgüsü ictimai əmək bölgüsündən fərqlənir. Belə ki, ictimai əmək bölgüsü bütün ictimai-iqtisadi formasiyalar üçün ümumidir, lakin onun mahiyyəti və əhəmiyyəti tarixi inkişaf gedişində dəyişir. Müəssisə daxilində baş verən əmək bölgüsü isə ayrı-ayrı əmək növlərinin təcrid edilməsini, əmək kollektivlərinin ixtisaslaşdırılmasını ifadə edir. Müəssisədaxili əmək bölgüsünün əsas məqsədi icraçıların fasiləsiz işləməsini, əmək kollektivlərindən hər birinin öz işinin yerinə yetirilməsi üzrə zəruri olan əmək vərdişlərinə və dərin biliyə malik olmasını, onların iş vaxtlarından səmərəli istifadə olunmasını və son nəticədə məhsul istehsalının artırılmasının təmin edilməsindən ibarətdir. Müəssisədaxili əmək bölgüsünün aşağıdakı dörd növünü fərqləndirirlər:

***a) funksional əmək bölgüsü*** – dedikdə, müəssisənin əmək kollektivinin istehsal fəaliyyətində oynadığı rola və xidmət vəzifələrinin yerinə yetirilməsinə görə bölünməsi nəzərdə tutulur. Məsələn, funksional əmək bölgüsünə görə müəssisənin bütün işçiləri fəhlələrə, mühəndis-texniki işçilərə, kiçik xidmətedici heyətə, yanğından mühafizə dəstələrinə, şagirdlərə və gözətçilərə bölünür;

***b) texnoloji əmək bölgüsü*** – məhsulun hazırlanması prosesinin ayrı-ayrı fazalara və ya mərhələlərə bölünməsi ilə səciyyələnir;



***c) peşə-ixtisasa görə əmək bölgüsü*** – məhsulun mürəkkəblik dərəcəsi ilə bilavasitə əlaqədardır, yəni müxtəlif mürəkkəbliyə malik olan işləri (əməliyyatları, prosesləri, xidmətləri) yerinə yetirən işçilərin bilik və bacarığına görə bölünməsini xarakterizə edir;

***ç) əməliyyatlar üzrə əmək bölgüsü*** – istehsal prosesinin öz tərkib ünsürlərinə bölünməsini, hər bir hissənin (əməliyyatın, işin, xidmətin) müəyyən iş yerinə təhkim olunmasını və onun bir və ya bir qrup fəhlə tərəfindən yerinə yetirilməsini zəruri edir.

Dünya ölkələri arasında ixtisaslaşma inkişaf etdikcə və əmək bölgüsü dərinləşdikcə, həm bütövlükdə sənayedə, həm də ayrı-ayrı müəssisələrdə kooperasiyalaşdırma güclənir. İstehsalın kooperasiyalaşdırılması – hər bir ayrıca məhsul istehsalında ən artıq iqtisadi nəticə əldə etmək məqsədilə, bir-birini tamamlayan ixtisaslaşdırılmış istehsalların qarşılıqlı əlaqəsidir. Dünya ölkələri arasında kooperasiya əlaqələri əsasən iqtisadi, istehsal, elmi-texniki, mənzil, kredit, satış, kənd təsərrüfatı, firmadaxili, firmalararası, üfüqi, şaquli, qarışıq, ölkələrarası, regionlararası kooperasiya vasitəsi ilə həyata keçirilir.

Dünyanın müxtəlif ölkələri birgə müəssisələr yaratmaqla da geniş əməkdaşlıq edirlər. Belə ki, müəyyən növ məhsul və xidmətlər istehsal etmək məqsədi ilə bu cür müəssisələr təşkil edilir. Məsələn, hazırda respublikamızda karbohidrogenlər hasilatı üzrə bir çox xarici neft şirkətləri ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (ARDNŞ) arasında bir çox birgə müəssisələr yaradılmış və onlar müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

Beynəlxalq təcrübədə birgə sahibkarlığın yayılmış hüquqi formalarından səhmdar cəmiyyətləri, konsern, konsorsium və s. göstərmək olar. Səhmdar cəmiyyətlərinin dünya ölkələrində geniş yayılmasının əsas səbəbi istehsalın artması və buna müvafiq olaraq kreditə olan tələbatın çoxalmasıdır. Birgə sahibkarlıq fəaliyyətinin yaradılması istər ayrılıqda hər bir ölkənin spesifik mənafeyi, istərsə də birlikdə bütün ölkələrin ümumi mənafeyi nəzərə alınmaqla həyata keçirilir. Əgər belə olarsa, onda dünya ölkələri və ayrı-ayrı sahibkarlar öz istehsal imkanlarından daha yaxşı istifadə etmək, geniş miqyasda kütləvi istehsal təşkil etmək, istehsal xərclərini azaltmaq, buraxılan məhsulun keyfiyyətini yaxşılaşdırmaq və onun rəqabət qabiliyyətini artırmaq və

dünya bazarlarına çıxarmaq üçün geniş imkanlar əldə edirlər,

Dünya bazarı bir-birilə beynəlxalq ticarət, elmi-texniki biliklərin mübadiləsi, xidmətlər və s. vasitəsilə əlaqə saxlayan dövlətlərin milli bazarlarının məcmusudur. Dünya bazarının aşağıdakı formaları fəaliyyət göstərir: beynəlxalq əmtəə və xidmətlər bazarı; beynəlxalq kapital bazarı; beynəlxalq işçi qüvvəsi bazarı; beynəlxalq maliyyə-kredit bazarı; beynəlxalq qiymətli kağızlar bazarı və s.

Dünya bazarında əmtəə və xidmətlər dünya bazar qiymətləri əsasında hərəkət edir. Burada kəskin rəqabət mübarizəsi, qiymətlərin kortəbii surətdə qalxıb-enməsi, qeyri-ekvivalent mübadilə, bəzi ölkələrin digərlərini istismar və qarət etməsi halları mövcuddur. Bu onunla izah edilir ki, mənfəət ardınca qaçan sahibkarlar əmtəə və xidmətlər satmaq üçün yeni-yeni bazarlar və xammal mənbələri axtarırlar. Dünya bazarlarında əmtəələr beynəlmiləl (dünya) qiymətləri ilə alınıb-satılır. Müasir şəraitdə dünya qiymətləri ilə böyük miqyasda kommersiya, ixracat, yaxud idxalat əməliyyatları aparılır. Dünya qiyməti zəruri keyfiyyət göstəricilərinə cavab verən əmtəə və xidmətlərin beynəlmiləl dəyərinin pulla ifadəsinə deyilir. Hazırda dünya bazarında aşağıdakı qiymət növləri mövcuddur:

a) adi kommersiya əməliyyatları və ödəmələri üçün olan qiymətlər;

b) tam çevrilən (sərbəst) və qismən çevrilən valyuta ilə qiymətlər;

c) kliring razılıqları üzrə qiymətlər;

ç) kömək proqramı üzrə qiymətlər.

Göstərilən çoxlu dünya qiymət növlərindən hər hansı birinin dünya qiyməti rolunu oynaması üçün bir sıra tələbatlar ödənilməlidir. Dünya qiyməti, o qiymət növü hesab edilir ki, onun vasitəsi ilə irihəcmli kommersiya əməliyyatları həyata keçirilir, hesablaşmalar sərbəst çevrilən valyuta vasitəsi ilə aparılır (əgər əməliyyatlar qismən çevrilən valyuta ilə aparılarsa, onda qiymətlər artır). Konkret əmtəələrə gəldikdə isə onun əsas istehsalçılarının qoymuş olduğu qiymətlər və iri birjaların ixracat məhsullarına qoyduqları qiymətlər əsas götürülür. Məsələn, alüminium ixracatında Kanada dövlətinin, kauçuk ixracatında Sinqapur birjasının, xəz-dəri ixracatında Nyu-York və London auksionlarının qoymuş olduqları qiymətlər dünya qiymətləri kimi qəbul edilir.



İstehsalçılar çox vaxt xarici bazarlarda öz əmtəələri üçün nisbətən aşağı qiymət qoyurlar. Bu ilk növbədə mənfəətin aşağı düşməsinə səbəb olsa da, əmtəələrin isə tez bir zamanda satılmasına imkan verir. Əgər istehsalçı öz ölkəsində bazarı olmayan əmtəələri xaricdə dəyərindən aşağı qiymətlə satırsa bu demping (***Demping*** – qəsdən ucuzlaşdırılmış eksport – malların xarici bazarda daxili bazara nisbətən öz dəyərindən ucuz qiymətə satılması deməkdir. Çox vaxt qiymətlər istehsal xərclərindən aşağı qiymətlərlə müəyyən edilir. Rəqabət məqsədilə onlardan xarici bazarlarda texniki vəsait kimi istifadə olunur. Mallar qəsdən ucuzlaşdırılmış qiymətlə rəqiblərinin iflasına gətirib çıxarılmasına qədər satılır) siyasətidir. Bu baxımdan beynəlxalq bazarda çıxış edən müəssisə, firma və şirkət öz əmtəələrinin son istehlakçıya çatdırılması məsələsinə kompleks surətdə yanaşır. Belə ki, əmtəələrin dünya bazarına çıxarılması onun xarici ölkənin sərhədlərinədək çatdırılmasını təmin edir. Xarici bazara çıxış və satışla məşğul olmaq ixrac, müştərək sahibkarlıq fəaliyyəti və ya xaricdə birbaşa kapital qoymaq formasında ola bilər.

Beynəlxalq iqtisadi inteqrasiya dövlətlərin təsərrüfat və siyasi birləşməsi olub, milli təsərrüfatlar arasında əmək bölgüsünün müxtəlif səviyyələrdə həyata keçirilməsidir. Beynəlxalq iqtisadi əməkdaşlıq ayrı-ayrı ölkələr arasında müstəqillik, bərabərlik, bir-birinin daxili işlərinə qarışmamaq və tərəflərin qarşılıqlı səmərə əldə edilməsi prinsipi əsasında müxtəlif iqtisadi və elmi-texniki əlaqələrin həyata keçirilməsindən ibarətdir. Bunun əsasını isə beynəlxalq əmək bölgüsünün dərinləşməsi təşkil edir.

Beynəlxalq iqtisadi inteqrasiya əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və iş qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta-maliyyə, elmi-texniki, sosial, xarici və hərbi siyasətin razılığı ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin rifahını yüksəltməyə səy göstərirlər.

Beynəlxalq iqtisadi inteqrasiyanın ən mükəmməl forması ümumi bazardır. Ümumi bazarın yaradılması ilə ölkələr arasında qarşılıqlı ticarət, iş qüvvəsinin hərəkəti və kapitalın yerləşdi-

rilməsi sahəsində mövcud olan maneələr aradan qaldırılır.

Beynəlxalq iqtisadi inteqrasiyanın iki növünü: iqtisadi və valyuta ittifaqlarını fərqləndirirlər. ***İqtisadi ittifaq*** – ilk növbədə təsərrüfat subyektlərinə (məsələn, müəssisələrə) imkan verir ki, bütün region miqyasında iqtisadi resurslardan (maliyyə, maddi, əmək), yeni texnika və texnologiyadan istifadə etməklə iqtisadi inteqrasiyaya daxil olan dövlətlərin bazarlarının tələbatını ödəmək üçün məhsul istehsalını həyata keçirsinlər. ***Valyuta ittifaqı*** isə müəyyən ölkələrin bir ittifaqda birləşməsidir. Buna misal olaraq, 1979-cu ildən fəaliyyət göstərən Avropa valyuta ittifaqını göstərmək olar.

Müasir dövrdə dünya iqtisadi inteqrasiya prosesində iki meyl özünü göstərir: «beynəlxalq yaxınlaşma» və «regional yaxınlaşma». ***Beynəlxalq yaxınlaşma*** dünya ticarətində tətbiq edilən tarif və qeyri-tarif məhdudlaşmalarının vasitəsilə aradan qaldırılması yolu ilə həyata keçirilir; ***regional yaxınlaşmada*** isə regional iqtisadi birliklər yaradılmaqla üzv ölkələrin xarici iqtisadi əlaqələri və ümumiyyətlə, iqtisadi siyasəti uyğunlaşdırılır. Beynəlxalq iqtisadi inteqrasiyanın aşağıdakı formaları vardır.

***Azad ticarət zonası*** – zamanı qarşılıqlı ticarətdə gömrük rüsumları və kəmiyyət məhdudiyyətləri ləğv edilir. Burada hər bir dövlət üçüncü bir ölkəyə münasibətdə müstəqil ticarət siyasəti yeridir, bu zonaya daxil olan ölkələrdən əmtəə və xidmətlər yerlərini sərbəst dəyişə bilməz. Buna misal olaraq, Avropa Azad Ticarət Assosiasiyasını (Stokholm – 1960) göstərmək olar. Bundan başqa, Latın Amerikası Azad Ticarət Zonası (1961) və Şimali Amerika Sərbəst Ticarət Assosiasiyası (1994) fəaliyyət göstərir.

***Gömrükxana ittifaqı*** – zamanı müqavilə əsasında iki və daha çox ölkə vahid gömrükxana ərazisi yaranır, həmin məqsədlə vahid xarici gömrük tarifini müəyyənləşdirilir və vahid gömrük idarəsi fəaliyyət göstərir. Gömrük ittifaqları qeyri-məhdud və natamam olur. Bunlardan başqa, ödəmə ittifaqı, ümumi bazar, iqtisadi və valyuta ittifaqları da beynəlxalq iqtisadi inteqrasiyanın formalarındandır.

Beynəlxalq iqtisadi inteqrasiyanın obyektiv əsası ölkələrin təsərrüfat həyatının artan beynəlmiləlləşməsi, onlar arasında əmək bölgüsünün dərinləşməsi, onların qarşılıqlı iqtisadi əlaqələrinin və bir-birindən qarşılıqlı asılılığının güclənməsidir.



Təcrübə göstərir ki, beynəlxalq iqtisadi inteqrasiya bir tərəfdən, məhsuldar qüvvələrin yüksəlişinə, ictimai istehsalın elmi-texniki səviyyəsinin və iqtisadi səmərəliliyinin artmasına, strukturunun təkmilləşdirilməsinə, iqtisadi əlaqələrə girmiş ölkələrin milli iqtisadiyyatının müasir istehsal vasitələri və istehlak predmetlərinə artan tələbatının təmin edilməsinə, əməkdaşlıq edən ölkələrin əməkçilərinin maddi və mədəni həyat səviyyəsinin yüksəldilməsinə imkan verir. Digər tərəfdən, beynəlxalq əmək bölgüsünün dərinləşdiyi şəraitdə ölkələr arasında iqtisadi əlaqələrin coğrafiyası genişlənir, sahələrarası və sahələrdaxili istehsal əlaqələri güclənir və mürəkkəbləşir ki, bu da bir ölkənin səmərəli inkişafını (hətta bunun üçün bütün təbii ehtiyatlar olsa belə) təmin etməyə imkan vermir. Deməli, beynəlxalq əmək bölgüsü ümumi sosial-iqtisadi problemlərin həll edilməsi üçün müxtəlif ölkələrin elmi-texniki potensialını və ehtiyatlarını birləşdirməyi obyektiv zərurətə çevirir. Odur ki, yeni iqtisadi sistemə keçidi normal həyata keçirmək üçün Azərbaycan beynəlxalq iqtisadi inteqrasiyaya qoşulmalı və öz potensial imkanlarından istifadə edərək orada fəal iştirak etməlidir.

Azərbaycanda bazar iqtisadiyyatına keçid prosesi xüsusi mülkiyyətə əsaslanan on minlərlə müəssisə, cəmiyyət, birlik və təşkilatlara vasitəsiz xarici ticarət əlaqəsi yaratmağa və valyuta-təsərrüfat əməliyyatları aparmağa imkan vermişdir. Artıq istənilən müəssisə və təşkilat xarici iqtisadi fəaliyyətlə məşğul olmaq hüququna malikdir. Böyük təbii sərvətlərə və iqtisadi ehtiyatlara malik olan Azərbaycanın gələcək iqtisadi inkişafı, həlledici dərəcədə onun ümumdünya təsərrüfatı sisteminə fəal və səmərəli inteqrasiyası prosesindən asılıdır.

Xarici ölkələrlə iqtisadi əməkdaşlıq Azərbaycanın milli iqtisadiyyatının çoxsahəli inkişafını təmin etmək üçün böyük üstünlüklər verə bilər. Məhz buna görə Azərbaycanın milli iqtisadiyyatının formalaşması şəraitində xarici ölkələrlə qarşılıqlı iqtisadi əlaqələr və bu əlaqələrin inkişafı böyük əhəmiyyət kəsb edir.

Dünya ölkələri arasında iqtisadi-təsərrüfat, elmi-texniki və digər növ əlaqələrin yaradılması və inkişafı beynəlxalq müqavilələr əsasında həyata keçirilir. ***Beynəlxalq müqavilə*** dedikdə,

dövlət və beynəlxalq hüququn digər subyektləri arasında bağlanan saziş və ya niyyət protokolu nəzərdə tutulur. Bu saziş iqtisadi əməkdaşlıqda iştirak edəcək dövlətlərin, müəssisələrin, yaxud fiziki şəxslərin hüquq və vəzifələrini müəyyən edir.

Beynəlxalq müqavilələrin müxtəlif növləri vardır. Məsələn, beynəlxalq müqaviləni bağlayan təşkilatlardan asılı olaraq dövlətlərarası, hökumətlərarası, təşkilatlararası və müəssisələrarası beynəlxalq müqavilələr fərqləndirilir; iştirakçıların sayından asılı olaraq çoxtərəfli (məsələn, Azərbaycanda 1994-cü ildə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (ARDNŞ) ilə Qərb dövlətlərinin neft şirkətləri arasında bağlanmış müqavilə) və ikitərəfli (məsələn, Azərbaycan-Türkiyə, Azərbaycan-İran və s.), bəzən də birtərəfli beynəlxalq müqavilələr olur; fəaliyyət göstərmələrinə görə – beynəlxalq müqavilələr iki qrupa: müəyyən müddətə və müddətsiz bağlanmış beynəlxalq müqavilələrə ayrılır.

Beynəlxalq müqavilələr bağlanma müddəti başa çatdıqdan sonra tərəflərin razılığı ilə uzadılmamışdırsa, xitam edilir, yəni məcburi qüvvəsini itirir. Beynəlxalq müqavilə bağlanma müddəti bitmədikdə də xitam edilə bilər: tərəflərin razılığı ilə, habelə denonsasiya (***Denonsasiya*** – bir dövlətin o birisinə aralarında bağlanan müqavilənin ləğv edilməsi barədə xəbərdarlığıdır) yolu ilə, müstəsna hallarda isə müqavilədən birtərəfli qaydada imtina etməklə.

Beynəlxalq müqavilələrin adı və forması müxtəlif ola bilər: müqavilə, konvensiya, saziş, pakt, nizamnamə, protokol, məktublarla və ya notalarla mübadilə və s. Müqavilə – iki və ya daha çox tərəfin mülki hüquq və vəzifələrin yaranmasına, dəyişməsinə, yaxud xitam edilməsinə yönəldilmiş saziş; əqdin bir növü müqavilədən əmələ gələn mülki hüquq münasibətlərinin və yaxud yazılı formada bağlanmış müqavilənin məzmunundan ibarət sənəd də «müqavilə» adlanır.

Vətəndaşlar, hüquqi şəxslər, dövlət müqavilə iştirakçısı ola bilər. Xarici ticarətdə müqavilədən daha geniş istifadə edilir ki, bu halda o, kontrakt adlanır. Bağlanma qaydasından və tərəflər üçün hüquq və vəzifələr əmələ gəlməsi vaxtından asılı olaraq konsesual müqavilə, real müqavilə və formal müqavilə olur. Yalnız tərəflərin razılığı ilə bağlanan müqavilə konsensual



müqavilə (latınca – razılıq); müqavilə predmetinin faktik olaraq başqasına verilməsi ilə bağlanan müqavilə real müqavilə (latınca – şey) və qanunla nəzərdə tutulmuş formada bağlanmalı olan müqavilə isə formal müqavilə adlanır.

Müqavilənin əmələ gətirdiyi hüquqi nəticələrdən asılı olaraq qəti müqavilə və ilkin müqavilə fərqləndirilir. Qəti müqavilə tərəflər üçün onları maraqlandıran məqsədlərə çatmağa yönəldilmiş hüquq və vəzifələr əmələ gətirir, müqavilənin bütün şərtlərini müəyyən edir. İlkin müqavilə tərəflər üçün gələcəkdə müqavilə bağlamaq öhdəliyi əmələ gətirir. Bu müqavilədən çox zaman xarici ticarətdə istifadə edilir.

Müqavilənin bağlanması digər tərəfə müqavilə bağlamaq haqqında təklif – oferta (***Oferta*** – latınca təklif edirəm deməkdir. Oferta şifahi, telefonla, poçtla, teleqrafla göndərilə bilər) göndərməklə başlanır. Ofertaya verilən razılıq aksept adlanır. ***Aksept*** – daxili və beynəlxalq ticarət dövriyyələrindən ödənməyə razılıq və ya sənədlərin ödənilməsinə zəmanət vermək deməkdir. Aksept hesablaşma və əmtəə, yaxud mal sənədlərinin ödənişinə razılıq kimi tətbiq olunur. Tədiyyəçi aksept sənədlərini onların rekvizitlərinə əsasən verir. Aksept malını – kəmiyyət və keyfiyyətinə görə qəbul etdikdən sonra, hesablama sənədlərinin ödənilməsinə razılıq kimi ödəmə tələblərinin hesablamaları üzrə tətbiq edilir. Aksept müsbət və mənfi ola bilər. Müsbət halda aksept, tədiyyəçi hər bir ödəmə, tələblərinin ödənişinə yazılı razılıq verir. Mənfi halda aksept tədiyyəçinin razılığı, müəyyən edilmiş müddətdə onlara aksepdən imtina etməyi təqdim etməklə sayılır. Bundan başqa, aksept ilkin və axırıncı ola bilər. İlkin aksept dövlət ehtiyatlarına qoyulmuş ixrac edilən malların hesablarında tətbiq olunur. Akseptdən imtina etmə ödəmə müddətinin başlanmasına qədər təqdim edilir. Akseptdən imtina etmə ödəməni başa çatdırdıqdan sonra banka təhvil verilir.

***Konvensiyalar*** – bir qayda olaraq, hökumətlər xüsusi əməkdaşlıq sahəsində bu cür müqavilə bağlayırlar. Poçt konvensiyaları, rabitə konvensiyaları, konsul konvensiyaları, əmək konvensiyaları və s. fərqləndirilir. Konvensiyalar müəyyən müddət üçün, yaxud müddətsiz olaraq bağlanır; onlar ikitərəfli və yaxud çoxtərəfli ola bilər, onlarda dövlətlərlə yanaşı, beynəlxalq təş-

kilatlar da iştirak edə bilər.

*Nizamnamə* – dövlətin və ya ictimai təşkilatın müəyyən etdiyi qaydalar məcmuəsi olub, aşağıdakıları nizama salır:

– müəyyən müəssisənin, idarənin, təşkilatın fəaliyyətini, onların digər müəssisə, idarə və təşkilatlarla qarşılıqlı münasibətlərini;

– müxtəlif təşkilatların və vətəndaşların fəaliyyətini, onların dövləti idarə etməsi və yaxud təsərrüfat fəaliyyəti sahəsində hüquq və vəzifələrini.

Beynəlxalq müqavilələrin etibarlı olması şərtləri aşağıdakılardır: müqavilənin beynəlxalq hüquq subyektləri arasında bağlanması və həmin sazişin könüllülük və hüquq bərabərliyinə əsaslanması; beynəlxalq müqavilənin məzmununun beynəlxalq hüququn əsas prinsiplərinə uyğun olması; beynəlxalq müqavilənin onun iştirakçıları tərəfindən imzalanması (təsdiq etməsi).

Adətən, Azərbaycan Respublikasının dövlətlərarası müqavilələrini onun Prezidenti imzalayır. Müəssisələrarası, şirkətlərarası müqavilələri isə əməkdaşlıqda iştirak edən müəssisələrin, şirkətlərin rəhbərləri imzalayırlar. Ən mühüm beynəlxalq müqavilələr isə Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya, təsdiq edilir, Nazirlər Kabineti isə bağlanmış beynəlxalq müqavilələrin yerinə yetirilməsini təmin etmək üçün konkret tədbirlər işləyib hazırlayır və həyata keçirir.

## 9.2. Neft sənayesinin dünya iqtisadiyyatına inteqrasiya edilməsi problemləri

2005-ci il ölkə iqtisadiyyatının aparıcı sahəsi olan sənayesinin, xüsusilə onun aparıcı və başçıl sahəsi olan neft-qazçıxarma sənayesi üçün xüsusilə uğurlu olmuşdur. Dövlət Statistika Komitəsi məlumat verir ki, Azərbaycan sənayeçiləri cari ilin birinci yarısını uğurla başa vurmuşlar və həmin uğurlar 2005-ci ilin ikinci yarısında da davam etdirilir. Ölkə sənayesində 18,8 trilyon manatlıq və ya əvvəlki ilin birinci yarısı ilə müqayisədə 20,1% çox məhsul istehsal edilmiş və xidmətlər göstərilmişdir. 1942-ci ildən bəri Azərbaycanda belə yüksək inkişaf sürəti ilk dəfə müşahidə olunur. Sevindirici haldır ki, sənayesinin neft sektoru ilə yanaşı, qeyri-neft sektoru da kifayət qədər yüksək sürətlə irəliləyir – 113,3%. İstehsalın 94%-i sənaye mallarının,



6%-i isə sənaye xarakterli xidmətlərin payına düşür. Məhsul istehsalının 65,7%-ni həyata keçirilən qeyri-dövlət müəssisələrində 30,1%-lik artım müşahidə olunmuşdur.

Sənayenin mədənçıxarma bölməsində məhsul buraxılışı və sənaye xarakterli xidmətlərin həcmi 23,2%, emal bölməsində 16%, elektrik enerjisi, qaz və suyun istehsalı və bölüşdürülməsi bölməsində 4,5% artmışdır. Neft sektoru müəssisələrində məhsul buraxılışı keçən ilin birinci yarısının səviyyəsini 22,6% üstələmişdir. Ümummilli liderimiz, Azərbaycan Respublikasının yeni neft-qaz salnaməsinin yaradıcısı Heydər Əliyevin rəhbərliyi ilə imzalanmış iri neft-qaz layihələrinin reallaşdırılması uğurla davam etdirilir.

Digər tərəfdən, «Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin strukturunun təkmilləşdirilməsi haqqında» 24 yanvar 2003-cü il tarixli Respublika Prezidentinin fərmanının icrası istiqamətində həyata keçirilən tədbirlərin il ərzində davam etdirilməsi uğurlu nəticələrə səbəb olub. Təkcə onu demək kifayətdir ki, 2004-cü ildə Dövlət Neft Şirkəti üzrə 8 milyon 976,4 min ton neft çıxarılıb ki, bu da nəzərdə tutulduğundan 226,4 min ton, əvvəlki ilin göstəricilərindən isə 53,5 min ton çoxdur.

Son illər qurudakı köhnə yataqlara da xarici investorların marağı getdikcə artır. Bu heç də təsadüfi hal deyil. Belə ki, təqribən 150 ildən artıq istismarda olmasına baxmayaraq, ölkəmizin quru ərazisində çıxarılması mümkün olan ehtiyatlar hələ çoxdur. Digər tərəfdən, ölkəmizdəki əlverişli investisiya mühiti və Azərbaycanın yeni neft-qaz strategiyasının uğurlu nəticələri xarici neft şirkətlərini bu yataqlara da investisiya yönəltməyə sövq edir. 2004-cü ildə ölkəmizin qurudakı neft yataqlarının xarici şirkətlərlə işlənməsinə dair daha üç hasilatın pay bölgüsü sazişi imzalanaraq onların sayı 10-a çatdırılıb. Məlum olduğu kimi, ötən 12 il ərzində dənizdəki yataqlarla birlikdə Azərbaycanın karbohidrogen ehtiyatlarının xarici şirkətlərlə birgə işlənməsinə dair ümumi dəyəri 60 milyard dollardan çox olan 26 neft müqaviləsi imzalanmışdır. Sonuncu müqavilə 2005-ci ilin 6 avqust ayının 16-da Birləşmiş Ərəb Əmirliklərinin «Rafi Oyl» şirkəti ilə Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti arasında Suraxanı yatağının bərpası və işlənməsinə dair hasilatın pay bölgüsü üzrə sazişdir. Neft müqavilələrinin sayının artması

dünya təsərrüfatına səmərəli inteqrasiya olunması ilə yanaşı, ölkəmizdə neft hasilatının artırılmasına da imkan vermişdir. Belə ki, birgə müəssisələr və əməliyyat şirkətləri tərəfindən 1998-ci ildə 380 min ton neft çıxarılmışdırsa, 2004-cü ildə bu rəqəm 600 min tona çatdırılmışdır. 2005-ci ilin 7 ayı ərzində nəzərdə tutulduğundan artıq çıxarılmış 147 min ton neftin də məhz 80%-i adı çəkilən neftçıxarma müəssisələrinin payına düşür.

Məlumat üçün qeyd edək ki, Suraxanı neft yatağı 1904-cü ildən istismardadır. Ötən 100 ildə buradan 114 milyon 594 min ton neft, 10 milyard kubmetr qaz hasil edilib. Yataqda maksimum hasilat 1931-ci ildə olmuşdur. Bu zaman Suraxanı yatağından 4 milyon 189 ton neft hasil edilmişdir. Bütün istismar dövrü ərzində Suraxanı neft yatağında 2503 müxtəlif dərinlikli quyular qazılıb. Hazırda istismar fondunda 432 quyu vardır ki, onların da 234-ü işlək quyulardır. Aparılmış son geoloji tədqiqatlar yataqda 6 milyon 822 min ton qalıq neftin olmasını təsdiqləyib. «6-cı neft müqaviləsi» 25 il müddətinə nəzərdə tutulmuşdur. Pay bölgüsü belədir: 75% – «Rafi Oyl» şirkəti, 25» ARDNŞ. Bundan əlavə, «Rafi Oyl» şirkəti 13 kvadratmetrlik sahəni əhatə edən yatağın ərazisində infrastrukturu əsaslı şəkildə yeniləşdirməklə yanaşı, neft hasilatını 1,5 dəfə artırmalıdır. Saziş Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan sonra «Rafi Oyl» şirkəti 90 gün ərzində yatağın işlənməsi ilə bağlı proqramı işləyib hazırlamalı və ARDNŞ-ə təhvil verməlidir. Sənəd qüvvəyə mindikdən sonra «Rafi Oyl» şirkəti Azərbaycan dövlətinə 1 milyon dollar məbləğində bonus ödəyəcək. Sazişin şərtlərinə görə, podratçı şirkət hasil etdiyi nefti yerli bazar qiymətləri ilə ARDNŞ-ə təhvil verməlidir. Müqavilənin bu və digər şərtlərinə əməl olunmayacağı halda ARDNŞ sazişə xitam verə bilər. Bütün əvvəlki müqavilələrdə nəzərdə tutulduğu kimi, neftlə birlikdə çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil veriləcək. Suraxanı yatağının bərpası və işlənməsinə ilk dövrlərdə 100 milyon dollar, sonrakı dövrlərdə isə daha 300 milyon dollar həcmində investisiya yönəldilməsi nəzərdə tutulmuşdur. Əgər neftin dünya bazarındakı satış qiyməti 49 dollar məbləğində olarsa (ehtimal olunur ki, 2006-cı ildə dünya bazarında neftin qiyməti 49-50 dollar olacaqdır), Azərbaycan dövləti bu sazişin həyata



keçirilməsi nəticəsində 921 milyon dollar vəsait qazanacaq. Əgər işlər normal qaydada gedərsə, 2014-cü ildə Suraxanı yatağında neft hasilatını indiki səviyyədə olduğundan 3 dəfə artıraraq 257 min tona çatdırmaq olacaq. 22 müqavilələr üzrə proqnozlaşdırılan ehtiyatların həcmi cədvəl 62-də verilmişdir.

*Cədvəl 62*

***Müqavilələr üzrə proqnozlaşdırılan ehtiyatların həcmi***

| № | Müqavilələr | Neft, mln.ton | Qaz, mlrd. m³ | Kondensat, mln.t. |
|---|---|---|---|---|
| 1 | AİOC | 620 | 96 | 6 |
| 2 | CİPCO | 8 | – | – |
| 3 | Şahdəniz | – | 625 | 101 |
| 4 | NAOC | 11,9 | – | – |
| 5 | Lənkəran-Talış-dəniz | – | – | – |
| 6 | Oğuz | 70 | 53 | 3 |
| 7 | Abşeron | 120 | 3000 | 27 |
| 8 | Naxçıvan | 66 | 172 | 12 |
| 9 | D-222 | 50 | – | – |
| 10 | Kürsəngi-Qarabağlı | 17 | – | – |
| 11 | Zəfər-Məşəl | 140 | – | – |
| 12 | İnam | 50 | 100 | 100 |
| 13 | Yanan Tava, Muğan-dəniz, Ateşgah | 75-90 | – | – |
| 14 | Muradxanlı | 60 | – | – |
| 15 | Kurdaşı | 90-100 | – | – |
| 16 | Araz, Alov, Şərq | 500 | – | – |
| 17 | Cənub-Qərbi Qobustan | 15-20 | 20 | – |
| 18 | Savalan Dalğa, Cənub Lerik-dəniz | 100 | – | – |
| 19 | Padar-Xərami | 30 | – | – |
| 20 | Kəlaməddin-Muşovda | 9,9 | – | – |
| 21 | Hovsan-Zığ | 18-25 | – | – |
| 22 | Pirsaat | 7 | – | – |

Müqavilələr üzrə investisiyaların proqnozlaşdırılan həcmi 60 mlrd. dollar, kontrakt sahələrində proqnozlaşdırılan ehtiyatlar 4

milyard ton şərti yanacaq hesab olunur. 1994-cü ildən indiyə kimi qoyulan sərmayələrin həcmi 10,3 milyard dollara yaxındır. Lakin bağlanmış müqavilələrin bir qisminin ilkin geoloji kəşfiyyat işləri strukturlardan gözlənilən və ya kommersiya baxımından səmərəli hesab edilən ehtiyatlar aşkar edilməyib. Nəticədə müqavilələrdən gözlənilən sərmayənin həcmi hazırda azalıb və 49 milyard dollar səviyyəsində gözlənilir. Ayrı-ayrı müqavilələr üzrə proqnozlaşdırılan investisiyaların həcmi haqqında məlumatlar cədvəl 63-də verilmişdir.

Bütün yuxarıda göstərilən nailiyyətlərin əldə edilməsində Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti ilə dünyanın aparıcı neft şirkətləri arasında iqtisadi inteqrasiyanın genişləndirilməsi, neft sənayesində həyata keçirilən iqtisadi və institutsional islahatlar, xarici investisiyalı və müştərək müəssisələrin yaradılması mühüm rol oynamışdır. Bu baxımdan 2005-ci il Azərbaycanın neft-qazçıxarma sənayesinə yeni uğurlar vəd edir. Belə ki, bu il Xəzərin Azərbaycan sektorundakı daha bir zəngin neft yatağının istismarına başlanması ilə ölkəmizdə neft istehsalı kəskin şəkildə artacaq. «Azəri» yatağından il ərzində təqribən 5 milyon ton neft çıxarılması proqnozlaşdırılır. Nəticədə 2005-ci ildə Azərbaycanda neft hasilatının həcmi 20750 milyon ton olacaqdır. Ümumiyyətlə «Azəri», «Çıraq» və «Günəşli» yataqlarından çıxarılan neftin əsasən Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri vasitəsilə beynəlxalq bazarda satılması nəzərdə tutulur. Azərbaycan Respublikasında 2005-2008-ci illərdə neft hasilatının gözlənilən həcmi cədvəl 64-də verilmişdir.

*Cədvəl 64*

***2005-2008-ci illərdə Azərbaycan Respublikasında gözlənilən neft hasilatı, min ton***

| | 2005 | 2006 | 2007 | 2008 |
|---|---|---|---|---|
| Ümumi neft hasilatı ondan: | 20750 | 30050 | 30750 | 45750 |
| ARDNŞ | 8750 | 8750 | 8750 | 8750 |
| ABƏŞ | 12000 | 21300 | 22000 | 38000 |

***Məlumat üçün qeyd edək ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru neft kəmərinin işə düşməsi ilə əlaqədar ölkənin ixrac potensialının xeyli artırılacağı gözlənilir.*** Bundan əlavə, «Azəri» yatağının şərq və qərb hissəsinin, eləcə də «Günəşli» yatağının istismara verilməsi üçün nəzərdə tutulmuş tikinti-quraşdırma işləri də il ərzində davam etdirilir. 2005-ci ildə «Şahdəniz» qaz-kondensat yatağının işlənməyə cəlb edilməsi üçün tikinti-quraşdırma işləri də başa çatdırılmışdır. Bütün bunlar isə ölkəmizin neft-qazçıxarma sənayesinin infrastruktur potensialının artmasına səbəb olmuşdur. 2005-ci ildə ölkənin neft-qazçıxarma sənayesinə xarici investisiya axını davam etmiş və onun həcmi əvvəlki illəri bir qədər də üstələmişdir. Bununla bərabər Azərbaycan Respublikası Dövlət Neft Fondunun vəsaitləri də xeyli artmışdır. Neft-qazçıxarma sənayesinin dinamik inkişafı dünya təsərrüfatına inteqrasiya prosesinin sürətləndirilməsi üçün əlverişli şərait yaradır. Bu isə Azərbaycan iqtisadiyyatının dinamik inkişafına səbəb olur. Çünki dünya təsərrüfatına inteqrasiya dövlətlərin təsərrüfat və siyasi birləşməsi olub, milli təsərrüfatlar arasında əmək bölgüsünün müxtəlif səviyyələrdə həyata keçirilməsidir. Beynəlxalq iqtisadi əməkdaşlıq ayrı-ayrı ölkələr arasında müstəqillik, bərabərlik, bir-birinin daxili işlərinə qarışmamaq və tərəflərin qarşılıqlı səmərə prinsipləri əsasında müxtəlif iqtisadi və elmi-texniki əlaqələrin həyata keçirilməsin dən ibarətdir.

Beynəlxalq iqtisadi inteqrasiya əmtəə və xidmətlərin sərbəst hərəkəti, kapital və iş qüvvəsinin beynəlxalq hərəkəti, birgə iqtisadi, valyuta-maliyyə, elmi-texniki, sosial, xarici və hərbi siyasətin razılığı ilə həyata keçirilməsinə əsaslanır. Dünya dövlətləri iqtisadi inteqrasiya yolu ilə öz istehsal güclərini, istehsalın səmərəliliyini və bütün bunların nəticəsində isə əhalinin rifahını yüksəltməyə səy göstərirlər.

Müasir dövrdə dünya təsərrüfatına inteqrasiyanın ən ali formaları iqtisadi və valyuta ittifaqlarıdır. İqtisadi inteqrasiya prosesi, ilk növbədə, təsərrüfat subyektlərinə (müəssisələrə, firmalara) imkan verir ki, bütün region miqyasında iqtisadi resurslardan (məsələn, maliyyə, maddi və əmək resurslarından), yeni texnologiya və texnikadan istifadə etməklə iqtisadi inteqrasiyaya daxil olan dövlətlərin bazarlarının tələbatını ödəmək üçün məhsul istehsalını həyata keçirsinlər. İkincisi isə region miqyasında ölkələrin iqtisadi inkişaf səviyyəsinin bir-birinə yaxın-

laşması, yaranmış sosial problemlərin birgə həlli, əhalinin məşğuliyyəti, sosial təminatı və səhiyyənin gələcək inkişafı təmin edilsin.

Valyuta ittifaqı isə müəyyən ölkələrin bir ittifaqda birləşməsidir. Buna misal olaraq, 1979-cu ildən fəaliyyət göstərən Avropa valyuta ittifaqını göstərmək olar. Bu ittifaq yaradılarkən ilk növbədə ittifaq daxilində valyutanın sabitliyi, iqtisadi inkişafın təmin edilməsi, beynəlxalq valyuta, valyuta sisteminə tənzimləyici təsir göstərməyi qarşısına məqsəd qoymuşdur. Avropa valyuta sistemi ilk illər kollektiv valyuta olan «EKJU»-dən uzun müddət istifadə etmişlər. 80-ci illərdə Avropa valyuta sistemi böhran keçirdi və 90-cı illərdə bu böhran daha da dərinləşdi.

1991-1992-ci illərdə Avropa İttifaqına daxil olan dövlət iqtisadi və valyuta ittifaqlarının yaradılması barədə saziş bağladılar. Bu sazişə görə XX əsrin sonunda dövriyyəyə yeni pul vahidi (avro) və vahid valyuta pul-kredit mərkəzinin, Mərkəzi Bank və Mərkəzi Bankın İttifaqı ən böyük qruplaşma kimi fəaliyyət göstərir. Avropa İttifaqının işini tənzim etmək, əməkdaşlığı təşkil etmək üçün mexanizm mövcuddur. Belə ki, burada əlaqələndirmə komissiyası, məhkəmə və parlament fəaliyyət göstərir.

İqtisadi inteqrasiya prosesi bəzi amillərlə, məsələn, təsərrüfat həyatının qloballaşdırılması, beynəlxalq əmək bölgüsünün daha da dərinləşməsi, ümumdünya elmi-texniki inqilab və milli iqtisadiyyatın sərbəstliyinin artması ilə bağlıdır. XX əsrin ikinci yarısında dünya təsərrüfatında lider dövlətlər meydana gəldi ki, onların da ətrafında iqtisadi inkişafın sürətli inkişaf zonaları yaradıldı. Bu, Avropa İttifaqı, ABŞ və Yaponiyadır. Bu ölkələr elmtutumlu məhsulların istehsalı və ixracı ilə məşğul olan ölkələrdir. Bunlardan başqa, elektron texnikası istehsal edən Çin və Cənubi-Şərqi Asiyanın sənayecə inkişaf etmiş ölkələrini, məsələn, Cənubi Koreya, Tayvan, Sinqapur, Honkonq, Tailand, Malayziya, İndoneziya və s. göstərmək olar.

İqtisadi inteqrasiya təsərrüfat fəaliyyətinin beynəlmiləlləşməsi prosesi olmaqla ölkələr arasında əmək bölgüsünü dərinləşdirir, istehsalın inkişafına və səmərəliliyinin artmasına şərait yaradır. Əmək bölgüsünün çox yüksək səviyyədə olması Qərbi Avropada və Amerikada regional iqtisadi inteqrasiyanın geniş vüsət almasına səbəb olmuşdur. İqtisadi inteqrasiya Afrika və



Latın Amerikası ölkələrində, nisbətən güclü formada islam təşkilatına daxil olan ölkələr arasında da getməkdədir. İqtisadi inteqrasiyanın nümunələrindən biri Cənubi Asiyanın Regional Əməkdaşlıq Assosiasiyasıdır (SAAPK). Bu Cənubi Asiya ölkələrinin çoxcəhətli əməkdaşlığına yardım göstərən beynəlxalq təşkilatdır. İştirakçıları: Banqladeş, Hindistan, Nepal, Pakistan və Şri-Lankdır. Bu birlik 1985-ci ildə yaranmışdır. İşçi orqanı olan katiblik Katmandu şəhərində (Nepal) yerləşir.

Bundan başqa, dünyanın xammal istehsal edən ölkələrinin assosiasiyası da fəaliyyət göstərir. Bu assosiasiya dünya bazarına kollektiv surətdə təsir göstərilməsinin geniş yayılmış formasıdır. Assosiasiyanın üzvü olan ölkələr müəyyən xammalın, məsələn, neft, civə, mis, dəmir filizi və s. istehsalı və satışı sahəsində təsərrüfat fəaliyyətlərini əlaqələndirirlər. Hazırda dünyada 20-dən çox belə assosiasiyalar mövcuddur. Assosiasiyanın yaradılması təbii ehtiyatlar üzərində milli nəzarəti gücləndirməyə, ölkələrin beynəlxalq iqtisadi əlaqələrində bərabərhüquqlu olmağa şərait yaradır.

Beynəlxalq iqtisadi inteqrasiyaya əyani misal olaraq Şimali Amerikanın ərazisini əhatə edən və sərbəst ticarət üzrə razılıq əsasında yaradılan birlik – NAFTA fəaliyyət göstərir. Bu birlik 1994-cü ildə yaradılmış və tərkibinə ABŞ, Kanada və Meksika daxildir. NAFTA çərçivəsində tarif üzrə olan maneələr, idxal-ixrac üzrə rüsumlar aradan qaldırılır və ticarətin, əmtəələrin, xidmətlərin, kapitalların və iş qüvvəsinin sərbəst hərəkəti üçün şərait yaradılır.

Azərbaycan müsəlman respublikası olduğu üçün bir neçə beynəlxalq islam təşkilatlarına da üzv olmuşdur. Bunlardan ən nüfuzlusu İslam Konfransı Təşkilatıdır (İKT). Bu təşkilat 1969-cu ildə Rabatda (Mərakeş) yaradılmış, Asiya və Afrikanın 50 müsəlman ölkəsini özündə birləşdirən dövlətlər arası təşkilatdır. Azərbaycan 1991-ci ildən bu təşkilatın üzvüdür. İKT-nın iqtisadi və ticarət, sosial və mədəni komitələrində fəaliyyət göstərir. İslam İnkişaf Bankı və İslam Həmrəylik Fondu ilə Azərbaycan dövlətinə üç istiqamətdə investisiya qoyulmuşdur. Həmin xarici kapital, əsasən, meliorasiya və su təsərrüfatı sahəsinə yönəldilmişdir. Mil-Muğan kollektorunun və Samur-Abşeron kanalının yenidən qurulmasına 1997-ci ildə, müvafiq olaraq, 5

və 867,2 mln. dollar kredit ayrılmışdır.

Azərbaycan dövlətinin dünya təsərrüfatına inteqrasiya olunmasında İqtisadi Əməkdaşlıq Təşkilatının (EKO) xüsusi rolu var. Təşkilata Azərbaycan, İran, Türkiyə, Əfqanıstan, Pakistan, Qırğızıstan, Özbəkistan, Türkmənistan, Qazaxıstan və Tacikistan daxildir. Şimali Kipr Türk Respublikası təşkilatın texniki komitələrinin tədbirlərində səs hüququ olmadan iştirak edirlər. Təşkilatın katibliyi Tehran şəhərində yerləşir.

Azərbaycan dövləti Qara dəniz İqtisadi Əməkdaşlığının (QİƏ) təsisçilərindən biridir. Bu təşkilat 1993-cü ildə yaradılmışdır.

1991-ci ildə SSRİ-nin süqutundan sonra Rusiyanın təşəbbüsü ilə Minskdə Müstəqil Dövlətlər Birliyi (MDB) yaradılmışdır. Bu birliyin yaradılmasına münasibət birmənalı deyildir. O dövrdə SSRİ-nin tərkibində olan bəzi respublikalar MDB-yə daxil olmağa qəti etirazını bildirmiş (məsələn, Pribaltika respublikaları), digərləri isə tərəddüdlü mövqelərində qalmışlar. Rusiyanın özündə də MDB-yə münasibət və onun gələcəyinə ümid müxtəlifdir, çünki MDB böhranlı, problemli və çətin inteqrasiyadır. Azərbaycan ilk dövrlərdə bu birliyin üzvü olmamış, lakin 1993-cü ildən onun üzvü olmuşdur.

MDB yaradıcıları belə hesab edirlər ki, Moskvanın nüfuzunu artırmaq və milli dövlətlərin fövqündə duran qurumlar yaratmaq, gələcəkdə SSRİ-ni bərpa etmək üçün inteqrasiyadan istifadə etmək lazımdır. Digər qrup ölkələrə görə, MDB-yə daxil olan dövlətlər arasında iqtisadi əlaqələri imkan daxilində federativ əsasda qurmaq lazımdır ki, gələcəkdə onun təməlində SSRİ-ni bərpa etmək mümkün olsun. Sonuncu qrup isə müasir dünyada gedən milli dövlətçilik və inteqrasiya proseslərini dərk edərək MDB-yə müvafiq ölkələrin inteqrasiyası kimi baxır. Mövcud şərait sonuncu qrupun istəklərini ön plana çıxarır. Yaxın qonşularımız olan və geniş iqtisadi əlaqələrimizin olduğu Rusiya, Gürcüstan, Orta Asiya dövlətləri ilə regional əməkdaşlıq məsələlərini də diqqətdən qaçırmaq olmaz. Yaxın xarici ölkələrlə müxtəlif səviyyəli iqtisadi əlaqələrin qurulması zəruridir. Bu konsepsiya xarici siyasətdə iqtisadi amilin gücləndirilməsinə səbəb olmuşdur və Azərbaycan beynəlxalq aləmdəki bütün fəaliyyətinin tərkib hissəsinə çevrilmişdir.



Azərbaycan Respublikası 1992-ci ildən Beynəlxalq Valyuta Fondunun (BVF) və Beynəlxalq Yenidənqurma və İnkişaf Bankının (BYİB) üzvüdür. BVF-nun Bakı şəhərində nümayəndəliyi fəaliyyət göstərir.

Son illərdə yaradılmış qruplaşmalardan biri keçmiş SSRİ-nin məkanında Müstəqil Dövlətlər Birliyi (MDB) şəklində təşkil edilmiş inteqrasiyadır. MDB-yə daxil olan ölkələr iqtisadi əməkdaşlıq sistemində vahid energetika, nəqliyyat, telekommunikasiya və s. əlaqələrin yaradılmasını qarşısına məqsəd qoymuşdur. Məlumat üçün qeyd edək ki, bu birliyə daxil olan ölkələrin iqtisadiyyatı bir-biri ilə sıx bağlıdır. Məsələn, bu dövlətlərin təsərrüfat əlaqələrinin dörddə üç hissəsi təkcə Rusiya dövlətinin payına düşür. Bu cür inteqrasiyanın olmasının əsas səbəbi keçmişdə mövcud olmuş istehsal əlaqələri, istehsal və sosial infrastrukturun yaranması, vahid elmi-tədqiqat sferası və informasiya sisteminin formalaşmasıdır.

Hazırda dünya təsərrüfatına inteqrasiya prosesinin aşağıdakı iki meylini fərqləndirirlər: birincisi, «beynəlxalq yaxınlaşma». Belə yaxınlaşma dünya ticarətində tətbiq edilən tarif və qeyri-tarif məhdudlaşdırmaların (TTBS, YTT) vasitəsilə aradan qaldırılması yolu ilə həyata keçirilir; ikincisi, «regional yaxınlaşma» zamanı isə regional iqtisadi birliklər yaradılmaqla üzv ölkələrin xarici iqtisadi əlaqələri və ümumiyyətlə, iqtisadi siyasəti uyğunlaşdırılır.

Dünya təcrübəsi göstərir ki, dünya təsərrüfatına inteqrasiyanın ən sadə forması azad ticarət zonasının yaradılmasından ibarətdir. Belə zonanın yaradılması qarşılıqlı ticarətdə gömrük rüsumları və kəmiyyət məhdudiyyətləri ləğv edilir. Burada hər bir dövlət üçüncü bir ölkəyə münasibətdə müstəqil ticarət siyasəti yeridir, bu zonaya daxil olan ölkələrdən əmtəə və xidmətlər yerlərini sərbəst surətdə dəyişə bilməz. Buna misal olaraq, Avropa Azad Ticarət Assosiasiyasını (AATA) göstərmək olar. Bu məhəlli iqtisadi qruplaşması 1960-cı ildə Stokholm konvensiyası əsasında yaradılmışdır. AATA-nın əsasını azad ticarət zonası təşkil edir.

Bundan başqa, Latın Amerikası Azad Ticarət Zonası da normal fəaliyyət göstərir. Bu zona 1961-ci ildə yaradılmışdır. Dünya təsərrüfatına inteqrasiyanın mühüm formalarından biri

də gömrükxana ittifaqlarının yaradılmasından ibarətdir. Bu zaman müqavilə əsasında iki və daha çox ölkə vahid gömrükxana zonası təşkil edir və həmin məqsədə vahid xarici gömrük tariflərini müəyyən edir, vahid gömrük idarəsi fəaliyyət göstərir. Adətən, gömrük ittifaqları qeyri-məhdud və natamam olur. Gömrük ittifaqı ödəmə ittifaqı ilə tamamlanır, valyuta əməliyyatlarında hesablaşmaların çevrilən valyuta ilə aparılmasına xidmət edir.

Beynəlxalq iqtisadi əlaqələr bir çox səbəblərdən zəruridir. Belə ki, beynəlxalq iqtisadi əlaqələrin yaradılması ölkələr üçün çoxlu sayda əmtəə müxtəlifliyi yaradır. Beynəlxalq iqtisadi əlaqələrin əsasında isə ehtiyatlarda, zövqlərdə və psixologiyalarda olan müxtəliflik durur. 1920-ci ildə Azərbaycan Demokratik Respublikası müstəqilliyini itirdikdən sonra xarici iqtisadi əlaqələr Sovet İttifaqının dövlət inhisarı altında cəmləşmişdir. Azərbaycanın xarici iqtisadi əlaqələrinin Moskva tərəfindən müəyyən olunduğu bir şəraitdə respublikada bu sahənin idarə olunması üçün hər hansı bir qurumun yaradılmasına zərurət yox idi. 1991-ci ildə Azərbaycan iqtisadiyyatının sahələri üzrə məhsul göndərilməsi cəmi 12,2 mln. rubl olmuşdursa, ondan xaricə ixracat cəmisi 744 min manat idi. Həmin dövrdə Azərbaycanın xarici iqtisadi əlaqələri SSRİ-nin tərkibində mübadilə əlaqələrindən təqribən 16-17 dəfə az idi. Mövcud bu əlaqə də Moskva inhisarı altında həyata keçirilirdi. Texnologiyanın, işçi qüvvəsinin hərəkəti isə daha çox qapalı və birtərəfli xarakter daşıyırdı.

Azərbaycan müstəqillik əldə etdikdən sonra minlərlə müəssisə və idarələr, o cümlədən də neft-qazçıxarma idarələri xarici iqtisadi əlaqələrini iştirakçısı olmuşdur. Azərbaycan Respublikasının xarici iqtisadi əlaqələrinin əsas formalarından biri xarici ticarətdir. Son illərdə xarici ticarət dövriyyəsinin istiqaməti və strukturu müstəqil dövlətin atributları əsasında qurulmuşdur.

Dövlət gömrük Komitəsindən daxil olmuş məlumatlara görə 2004-cü ildə ölkədə fəaliyyət göstərən hüquqi və fiziki şəxslər dünyanın 119 xarici dövləti ilə ixrac-idxal əməliyyatları sahəsində əməkdaşlıq etmişlər. Bu dövrdə xarici ticarət dövriyyəsinin ümumi həcmi 7118,6 milyon ABŞ dolları, o cümlədən ixrac 3614,3 milyon, idxal 3504,3 milyon dollar təşkil etmişdir. Xarici ticarət əlaqələrinin 50,8%-ni ixrac, 49,2%-ni isə idxal təşkil



etmiş, ölkə üzrə 110 milyon dollar həcmində müsbət saldo yaranmışdır. 2003-cü illə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 36,4%, o cümlədən idxal 33,3%, ixrac isə 39,5% artmışdır.

Mal mübadiləsinin 51,0%-i sərbəst dönərli valyuta sövdələşmələri yolu ilə, 18,7%-i müəssisə və obyektlərin tikintisinə dair saziş-öhdəlik hesabına avadanlıq və materialların keçirilməsi yolu ilə aparılmışdır. 2003-cü illə müqayisədə sərbəst dönərli valyuta sövdələşmələrinin həcmi 34,4%, müəssisə və obyektlərin tikintisinə dair saziş-öhdəlik hesabına göndərilən mallar isə 24,3% artmışdır.

Ümumi dövriyyənin 5303,8 milyon dolları və ya 74,5%-i, o cümlədən ixracın 3000 milyon dolları və ya 83,0%-i, idxalın 3303,8 milyon dolları və ya 65,7%-i uzaq xarici dövlətlərin payına düşmüşdür. 2003-cü illə müqayisədə uzaq xarici dövlətlərlə ticarət dövriyyəsinin ümumi həcmi 31,5%, o cümlədən idxal olunan malların həcmi 29,8%, Azərbaycandan onlara göndərilən malların həcmi 32,9% artmış, nəticədə 696,2 milyon dollar məbləğində müsbət ixrac-idxal saldosu yaranmışdır.

Müstəqil Dövlətlər Birliyinə üzv olan ölkələrlə mal mübadiləsinin ümumi həcmi 1814,8 milyon dollar, o cümlədən idxal 1200,5 milyon, ixrac 614,3 milyon dollar olmuşdur. 2003-cü illə müqayisədə həmin ölkələrlə xarici ticarət dövriyyəsinin həcmi 53,2%, o cümlədən idxal 41,0%, ixrac 84,1% artmışdır. 2004-cü ildə idxal əməliyyatlarının 16,3%-i Rusiya, 12,0%-i Birləşmiş Krallıq, 6,8%-i Qazaxıstan, 6,4%-i Türkiyə, 5,7%-i Almaniya, 4,9%-i Ukrayna, 4,4%-i Niderland, 4,2%-i Çin, 3,8%-i ABŞ, 3,6%-i Yaponiya, 3,6%-i Malayziya, 3,3%-i Türkmənistan, 3,1%-i Fransa, 3,0%-i İtaliya, qalan 19,0%-i isə digər ölkələrlə aparılmışdır.

Ölkəmizə idxal olunan məhsulların 30,6%-ni maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 17,4%-ni az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 14,5%-ni mineral məhsullar, 11,8%-ni ərzaq malları, 6,9%-ni yerüstü, hava və su nəqliyyatı vasitələri, 3,8%-ni kimya sənayesi məhsulları, 2,5%-ni polimer materiallar, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, 2,1%-ni müxtəlif cihaz və aparatlar, tibbi və s. avadanlıq təşkil etmişdir. Ərzaq mallarının 65,7%-i MDB

ölkələrindən, 34,3%-i uzaq xarici dövlətlərdən gətirilmişdir.

2004-cü ildə ixracın 44,7%-i İtaliyanın, 9,0%-i İsrailin, 5,8%-i Rusiyanın, 5,2%-i Gürcüstanın, 5,1%-i Türkiyənin, 4,2%-i İranın, 4,0%-i Türkmənistanın, 3,6%-i İndoneziyanın, 3,0%-i Xorvatiyanın, 2,3%-i Rumıniyanın, 1,8%-i Fransanın, 1,4%-i Bolqarıstanın, 1,3%-i Tacikistanın, 1,0%-i Almaniyanın, 0,9%-i Çinin, 6,7%-i digər ölkələrin hesabına formalaşmışdır. Ölkəmizdən xarici ölkələrə göndərilən malların 82,3%-ni mineral məhsullar, o cümlədən 82,0%ni neft və neft emalı məhsulları, 4,0%-ni yerüstü, hava və su nəqliyyatı vasitələri, 4,3%-ni ərzaq məhsulları, 2,7%-ni az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 2,1%-ni kimya sənayesi məhsulları, 1,9%-ni polimer materiallar, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, 1,3%-ni toxuculuq materialları və məmulatları təşkil etmişdir.

Azərbaycanın dünya təsərrüfat sisteminə inteqrasiya olunmasının mühüm istiqamətlərindən biri də ölkəyə xarici kapital axıcılığını təmin olunmasından ibarətdir. Xarici kapital qoyuluşu 15 yanvar 1992-ci ildə «Xarici investisiyaların qorunması haqqında» Azərbaycan Respublikasının qanunu ilə tənzimlənir. «Əsrin müqaviləsi» adlanan məlum neft kontraktlarından sonra milli iqtisadiyyatın inkişafının neft amili üzərində qurulması təzahürləri müşahidə olunmaqdadır. Belə ki, ölkəyə daxil olan xarici kapitalın xeyli hissəsi neft müqavilələri ilə bağlıdır.

Ümumiyyətlə, Azərbaycan xarici investisiyaların cəlb edilməsi sahəsində bir çox ölkələrdən irəlidədir. Son illərin məlumatları göstərir ki, neft sektoruna yönəldilən xarici kapitalın strukturu 1995-ci ilə nisbətən təqribən 7-8 dəfə, digər sahələrdə isə 10 dəfə artmışdır. Bununla belə, ümumi şəkildə neft istehsalı sahələrindən fərqli olaraq, digər sahələrdə xarici kapital qoyuluşunun xüsusi çəkisi çox azdır.

## 9.3. Müştərək müəssisələr – sahənin dünya iqtisadiyyatına inteqrasiya edilməsinin mütərəqqi forması kimi

«Əsrin müqaviləsi» adlanan məlum neft müqavilələrindən sonra milli iqtisadiyyatımızın inkişafı, əsasən neft amili üzərində qurulmağa başlamışdır. Belə ki, 1995-ci ildən başlayaraq



respublikamızın iqtisadiyyatının inkişafı üçün daxil olan xarici kapitalın əksər hissəsi neft müqavilələri ilə bağlıdır.

2004-cü ildə neft sənayesinin inkişafına yönəldilmiş xarici kapital qoyuluşu 1995-ci ilə nisbətən təqribən 7 dəfə, iqtisadiyyatın digər sahələrinə isə 10,3 dəfə artmışdır. Buna baxmayaraq, iqtisadiyyatın digər sahələrinin inkişafı neft sənayesindəki kimi olmamışdır. Məsələn, neft emalı sahəsində yaranmış gerilik davam etməkdə qalmış, neft koksu istisna olmaqla qalan digər əsas neft emalı müəssisələrinin istehsalı 1998-ci ilə nisbətən azalmışdır.

Neft sənayesinə xarici kapital qoyuluşunun artmasında xarici neft şirkətləri ilə, milli neft-qazçıxarma idarələri ilə birlikdə yaradılan müştərək müəssisələr mühüm rol oynamışdır. Adətən, müştərək müəssisələr xarici ölkələrin firmaları, şirkətləri ilə milli müəssisələr tərəfindən yaradılır və öz fəaliyyətlərini tam təsərrüfat hesabı, özxərciniödəmə, özünümaliyyələşdirmə və rəqabət prinsipləri əsasında həyata keçirirlər. Müştərək müəssisələr sənayedə, kənd təsərrüfatında, ticarətdə, xidmət sahələrində, nəqliyyatda və s. sahələrdə yaradıla bilər. Əksər hallarda müştərək müəssisələr ikitərəfli (məsələn, Azərbaycan-Türkiyə) və çoxtərəfli (məsələn, ARDNŞ ilə xarici dövlətlərin aparıcı neft şirkətləri) müqavilələr əsasında yaradılır və onların bilavasitə nəzarəti altında fəaliyyət göstərirlər.

Müştərək müəssisələrin təsisçiləri bağlanmış müqavilələrə müvafiq olaraq sərbəst surətdə öz müəssisələrinin strukturlarını müəyyənləşdirir, maddi ehtiyatlar və istehsal vasitələri əldə edərək konkret istehsal-təsərrüfat fəaliyyətini həyata keçirir, müəyyən edilmiş həcmdə, çeşiddə, nomenklaturda və keyfiyyətdə məhsul istehsal edir və satır. Müştərək müəssisələrdə maddi istehsalın digər sahələrində olduğu kimi, istehsal-təsərrüfat fəaliyyəti elə təşkil olunmalıdır ki, o, mövcud elmi-texniki və istehsal potensialından, həmçinin maddi-enerji ehtiyatlarından daha səmərəli istifadə etməklə bağlanmış müqavilələrin vaxtında və nəzərdə tutulmuş həcmdə yerinə yetirilməsini, istehsalın yüksək son nəticələrinə nail olunmasını təmin etmiş olsun. Lakin bununla yanaşı, istehsalın konkret şəraitindən asılı olaraq, müştərək müəssisə və təşkilatların qarşısında bir sıra konkret vəzifələr qoyulur ki, onlara da aşağıdakılar aiddir:

– ***respublikamızın sənaye və ərzaq məhsullarına olan tələbatının ödənilməsinə yardım etmək.*** Məlumdur ki, respublika əhalisinin istər ərzaq, istərsə də sənaye məhsullarına olan tələbatının əksər hissəsi xarici ölkələrdən gətirilən məhsullar hesabına ödənilir. Bu, bir tərəfdən, istehsalın həcminin ildən-ilə azalması ilə, digər tərəfdən isə əhalinin məhsullara olan tələbatının onların respublikada istehsalına nisbətən daha üstün artması ilə əlaqədardır. Odur ki, müştərək müəssisələrin yaradılması belə bir qeyri-mütənasibliyin aradan qaldırılması məqsədini güdür;

– ***milli təsərrüfatçılığa qabaqcıl texnika və texnologiyanı, idarəetmə təcrübəsini, əlavə maliyyə və material ehtiyatlarını cəlb etmək.*** Qabaqcıl texnika və texnologiyanın mənimsənilməsi sadəcə olaraq istehsalın təkmilləşdirilməsi deyil, bu, onun keyfiyyətcə yeni səviyyəyə keçirilməsi deməkdir. Digər tərəfdən, qabaqcıl xarici texnika və texnologiyanın tətbiqi fəhlələr tərəfindən istehsala olan münasibətin dəyişməsini, əmək intizamının möhkəmləndirilməsini, texnoloji intizama ciddi əməl edilməsini, kadrların peşə-ixtisas hazırlığının artırılmasını və ya onların yenidən hazırlanmasını tələb edir. Xarici idarəetmə təcrübəsinin, əlavə material və maliyyə ehtiyatlarının istehsalata cəlb edilməsi elmi-texniki tərəqqinin son nailiyyətlərini özündə əks etdirən daha səmərəli istehsal vasitələrinin, yetkin istehsal və əmək təşkili formalarının və texnoloji proseslərin tətbiqinə, mövcud istehsal potensialından tam istifadə etmək hesabına istehsal miqyasının artırılmasına imkan verir. Bundan başqa, qabaqcıl xarici texnika və texnologiyanın istehsalata tətbiqi məhsulun material, enerji və əmək tutumunu xeyli azaldır və əmək şəraitini yaxşılaşdırır;

– ***istehsal mədəniyyətini yüksəltmək.*** Bu, mütərəqqi texnika və texnologiyanın, hər bir iş yerində əməyin elmi təşkilinin tətbiqini, əmək şəraitinin yaxşılaşdırılmasını, işçilərin peşə hazırlığının yüksəldilməsini, yüksək mütəşəkkilliyin yaradılmasını nəzərdə tutur. Bazar iqtisadiyyatı şəraitində iqtisadiyyatın intensiv inkişaf yoluna keçirilməsində və dünya təsərrüfat sisteminə səmərəli inteqrasiya olunmasında istehsal mədəniyyətinin yüksəldilməsi mühüm rol oynayır;

– ***qeyri-məhsuldar və istehsaldan kənar xərcləri minimuma***



***endirmək.*** Bu növ xərclər istehsalın təşkili və idarəetmə işlərindəki qüsurlar, əmək intizamının pozulması və s. nəticəsində əmələ gəlir. Qeyri-məhsuldar xərclərin aradan qaldırılması məhsulun maya dəyərinin aşağı salınması amillərindən biridir, çünki həmin xərclər məhsulun faktiki maya dəyərinin tərkibinə daxil edilir. Odur ki, qeyri-məhsuldar xərclərin aradan qaldırılması maya dəyərinin aşağı salınması amillərindən biridir. Qeyri-məhsuldar xərclərin qarşısını almaq məqsədilə onların əmələgəlmə səbəbləri təhlil edilməsi və bu səbəblərin aradan qaldırılmasına dair tədbirlər işlənib hazırlanmalı və həyata keçirilməlidir. İstehsaldan kənar xərclər məhsulun realizəsi ilə əlaqədar müəssisə xərcləridir. İstehsaldan kənar xərclərə aiddir: tara və qablaşdırma, məhsulun stansiyaya və ya yolasalma məntəqəsinədək daşınması, vaqonlara (gəmilərə, tankerlərə) yüklənməsi xərcləri, məhsulların realizəsi zamanı məhsulun topdansatış qiymətlərindən satış təşkilatlarının (vasitəçilərin) edilən güzəştlərin məbləği və s. İstehsaldan kənar xərclər xüsusi mühasibat hesabında nəzərə alınır və məhsulun tam maya dəyərinə daxil olur. İstehsaldan kənar xərclər konkret məmulatlar istehsalının maya dəyərinə mümkün qədər birbaşa əlavə olunur, qalan hallarda isə məmulatların kütləsinə, həcminə, istehsal maya dəyərinə görə onların arasında proporsional bölüşdürülür;

– ***respublikanın ixrac balansını yaxşılaşdırmaq və onun strukturunu təkmilləşdirmək*** – sahəsində son illərdə xeyli tədbirlər həyata keçirilsə də, onun mövcud strukturunu qənaətbəxş hesab etmək olmaz. Çünki mal qrupları üzrə ixrac strukturunun əsasını enerji daşayıcıları və xammal yönümlü mallar təşkil edir. Müasir dövrdə ixracatın strukturunun təkmilləşdirilməsində aparıcı meyl – onda hazır məmulatın və yarımfabrikatın, maşın və avadanlığın, komplektləşdirici məmulatın, sənaye və xalq istehlakı mallarının payının artırılmasıdır. İxracatın strukturunun yaxşılaşdırılması məhsulun keyfiyyətinin əsaslı surətdə yaxşılaşdırılması və bunun əsasında da dünya bazarında onun rəqabət qabiliyyətinin təmin olunması üzrə tədbirlər sisteminin həyata keçirilməsinə əsaslanır. Xarici iqtisadi fəaliyyətin təkmilləşdirilməsi, o cümlədən bir çox müəssisə və firmalara birbaşa xarici bazara çıxmaq hüququ verilməsi yolu ilə, müştərək

müəssisələrin yaradılması və digər tədbirlər də ixracatın səmərəliliyinin xeyli yüksəldilməsinə imkan yarada bilər.

– ***qeyri-səmərəli idxalın həcmini azaltmaq*** – milli müəssisələr tərəfindən məhsullar istehsalının həcminin artırılmasına imkan verir. İxracat dəyərcə idxaldan çox olduqda, ölkənin ticarət balansı aktiv olur. İdxalat malları alınması ölkəmizdə sosial-iqtisadi vəzifələrin müvəffəqiyyətlə yerinə yetirməyə, istehsalın səmərəliliyini yüksəltməyə, əhalinin tələbatını daha dolğun ödəməyə, beynəlxalq əməkdaşlığı və əmək bölgüsünü möhkəmləndirməyə kömək edir. Hazırda dövlətin qarşısında duran mühüm vəzifələrdən biri idxalın strukturunu təkmilləşdirməkdən ibarətdir. Bu məqsədlə idxalat siyasətində ciddi qənaət, valyuta vəsaitindən qayğı ilə, qənaətkarlıqla istifadə etmək, keçinə bilməsi mümkün olan məmulatların xaricdən satın alınmasından imtina etmək xətti yeridilir. Faktiki materialların təhlili göstərir ki, son illərdə xarici ticarət dövriyyəsində ixracatın xüsusi çəkisi artmış, idxalın həcmi isə azalmışdır.

Müştərək müəssisələr milli müəssisələrə nisbətən bir sıra üstünlüklərə malikdir. Belə bir hal onların yaradılmasına və inkişaf etdirilməsinə təsisçilərin marağını artırır. Odur ki, son illərdə iqtisadiyyatın digər sahələrində olduğu kimi, sənayedə də müştərək müəssisələrin sayı xeyli artmışdır (cədvəl 65).

Müştərək müəssisələr, digər özəl müəssisələr kimi, Azərbaycan Maliyyə Nazirliyində və respublikanın digər aidiyyatlı orqanlarda qeydiyyatdan keçdikdən sonra hüquqi şəxs statusu alaraq, öz nizamnamə fondlarını yaradır, ondan sərbəst surətdə istifadə edir və bankda hesablaşma hesabını açaraq, uçot-hesabat sistemini təşkil edir. Məlumat üçün qeyd edək ki, bazar iqtisadiyyatı ölkələrində müştərək müəssisələrin fəaliyyət göstərməsi bizim respublikamızda olduğundan fərqlənir. Belə ki, bazar iqtisadiyyatı ölkələrinin qanunvericiliyinə müvafiq olaraq, müştərək müəssisələr (şirkətlər, firmalar) hüquqi şəxs statusuna malik deyildir. Bununla belə, sahibkarlığın bu formasının əsas xüsusiyyətlərindən biri onun iştirakçıları arasında tərəflərdən hər birinin səlahiyyətini, vəzifəsini, qoyduğu payın həcmini və formasını, əldə ediləcək mənfəətdəki payını, müqavilə müddətini və s. müəyyən edən yazılı müqavilələrin bağlanmasıdır.



*Cədvəl 65*

***Müştərək müəssisələrin fəaliyyətinin əsas göstəricilərinin dinamikası***

| İllər | Fəaliyyət göstərən MM-rin sayı, | Onlarda çalışan işçilərin vahid sayı, nəfər | Orta aylıq əmək haqqı, min man. | Məhsulun həcmi, mlrd.manat |
|---|---|---|---|---|
| 1995 | 293 | 7000 | 157 | 31,0 |
| 1996 | 717 | 15000 | 278 | 839 |
| 1997 | 1124 | 24000 | 722 | 160 |
| 1998 | 1247 | 21426 | 773 | 2235 |
| 1999 | 775 | 18677 | 1217 | 2880 |
| 2000 | 549 | 22145 | 1042 | 6199 |
| 2001 | 609 | 25240 | 1680 | 7572 |
| 2002 | 748 | 21250 | 1976 | 7896 |
| 2003 | 809 | 43250 | 2218 | 13666 |
| 2004 | 814 | 54083 | 2968 | 19094 |

Müştərək müəssisələrin normal fəaliyyət göstərmələri üçün onların təsisçilərinin vəsaitləri və fəaliyyət dövründə əldə etdikləri gəlir və qənaət hesabına bəzi fondlar yaradılır. Bu fondlar yaranma mənbələrinə və təyinatlarına görə bir-birindən fərqlənirlər. Məsələn, yaranma mənbələrinə görə fondlar aşağıdakı qruplara ayrılır:

***a) müştərək müəssisələrin təsisçilərinin vəsaitləri hesabına yaradılan fond*** – həmin müəssisənin nizamnamə fondunu təşkil edir. Bu fondun həcmi müştərək müəssisənin istehsal-təsərrüfat fəaliyyəti dövrü ərzində artıb-azala bilər. Əgər müəssisə gəlirlə işləyərsə, onda həmin müəssisənin əldə etdiyi mənfəətdən fonda ayrılan vəsaitin həcmi də artar, mövcud vəsaitin bir qismi istifadə edilərsə isə azalar;

***b) məhsulun maya dəyərinin aşağı salınması hesabına yaradılan fond.*** Bu fondun həcmi müəssisənin istehsal-təsərrüfat fəaliyyəti dövrü ərzində istehlak olunan istehsal vasitələrinin dəyərindən, müəssisənin əmək kollektivinin əməyinin ödənilməsi səviyyəsindən və sığorta ayırmalarının məbləğindən asılıdır. Məhsulun maya dəyərinin strukturu ayrı-ayrı xərc maddələrinin xüsusi çəkisi ilə xarakterizə olunduğundan bu fondun

həcmi sənayenin, eləcə də iqtisadiyyatın digər sahələrinin spesifik xüsusiyyətlərini əks etdirir və ona görə də müxtəlif olur;

***c) vergidən əvvəlki mənfəətdən ayırmalar hesabına yaradılan fond*** – bəzi hallarda ehtiyat fondu adlanır və onun həcmi balans mənfəətinin məbləğindən və mənfəətdən ayırmalar üçün müəyyən edilmiş normativdən asılıdır. Özü də vergiyə cəlb olunan mənfəətdən ehtiyat fonduna ayırmalar, həmin fondun vəsaiti müştərək müəssisənin nizamnamə fondunun vəsaitinin 25%-ni təşkil edənə kimi davam etdirilir. Ehtiyat fonduna mənfəətdən illik ayırmaların məbləği, onun yaranma qaydası və ondan istifadə istiqamətləri müştərək müəssisələrin təsisçiləri tərəfindən müstəqil şəkildə müəyyənləşdirilir. Ehtiyat fondu istehsalın normal gedişatının təmin olunmasında, müəssisənin digər fondlarına nisbətən, daha fəal rol oynayır;

***ç) bütün məcburi ödənişləri yerinə yetirdikdən sonra müştərək müəssisənin sərəncamında qalan gəlir, qazanc hesabına yaradılan fond*** – müştərək müəssisələrin işçilərini maddi cəhətdən maraqlandırmaq məqsədilə yaradılır. Odur ki, bu fond istehsalın səmərəliliyinin yüksəldilməsində işçilərin təşəbbüskarlığının inkişaf etdirilməsi üçün geniş imkanlar açır;

***d) amortizasiya fondu*** – amortizasiya ayırmaları hesabına yaradılır və ondan əsas fondların tam bərpası, təmiri və modernləşdirilməsi üçün istifadə edilir. 2000-ci ildən başlayaraq amortizasiya ayırmalarının yeni normalarından istifadə edilir. İllik amortizasiya ayırmalarının məbləği istehsal əsas fondların dəyərindən və onların xidmət dövrünün uzunluğundan, davamiyyətindən asılıdır. Bu müddət nə qədər uzun olarsa, başqa şərtlər eyni olduqda, illik amortizasiya ayırmalarının məbləği də bir o qədər az olur. Əsas fondların xidmət müddəti azaldıqda isə illik amortizasiya ayırmalarının kəmiyyəti də artır.

Məlumat üçün qeyd edək ki, neft-qazçıxarma sənayesində iqtisadi islahatların aparılmasında müştərək müəssisələrin yaradılması mühüm rol oynamışdır və ona görə də son 6-7 ildə ARDNŞ ilə xarici ölkələrin aparıcı neft şirkətləri arasında aşağıdakı müştərək müəssisələrin yaradılması haqqında müvafiq müqavilələr imzalanmışdır.

***Birinci müştərək müəssisə*** «Azərpetoyl» adlanır. Bu müəssisə «Şirvanneft» NQÇİ ilə Türkiyənin «Petoyl» neft şirkəti tərəfindən «Kələməddin» neft yatağının birgə istismarı üzrə imzalanmış müqavilə əsasında 1990-cı ilin əvvəllərində yaradılmışdır. Lakin bəzi səbəblər üzündən bu müəssisə 1992-ci ilin mart ayına qədər fəaliyyət göstərməmişdir. «Azərpetoyl» müştərək müəssisəsinin fəaliyyəti 40 illik müddət üçün nəzərdə tutulmuşdur və bu müddət ərzində tərəflər arasında pay bölgüsü 50% müəyyənləşdirilmişdir.

***İkinci müştərək müəssisə*** «Anşad-Petrol» keçmiş «Neftçalaneft» NQÇİ-nin bazası əsasında yaradılmış, «Neftçala» və «Xıllı» yataqlarını əhatə etməklə 1994-cü ilin mart ayından fəaliyyət göstərən Azərbaycan-Türkiyə müştərək müəssisəsidir. Bu müştərək müəssisənin fəaliyyəti 30 il müddətinə nəzərdə tutulub və tərəflər arasında pay bölgüsü aşağıdakı kimidir: ARDNŞ – 51%; Türkiyənin «Atil Doqan Petrol» şirkəti – 49%.

***Üçüncü müştərək müəssisə*** «Azgerneft» 1994-cü ilin noyabr ayında «Balaxanıneft» NQÇİ-nin 7-ci neft-qazçıxarma mədəni bazası əsasında 25 il müddətinə Almaniyanın «Qrunvald İnterneşnl» LTD neft şirkəti ilə təşkil edilmişdir. Pay bölgüsündə ARDNŞ-i 40%, Almaniyanın «Qrunvald İnterneşnl» LTD – 60%.

***Dördüncü xüsusi statuslu müştərək müəssisə*** BMB OYL İNK – «prodakşin şerrinq» prinsipi (bu prinsip payların tərəflər arasında bərabər bölgüsünü nəzərdə tutur) əsasında Azərbaycan – ABŞ müştərək müəssisəsi 1994-cü ildə yaradılmışdır. Müştərək müəssisənin fəaliyyət zonası sahəsi 909,5 kvadrat km olan «Qaradağ», «Umbakı» və «Korgöz» yataqlarındadır.

***Beşinci müştərək müəssisə*** 1997-ci ildə «Şirvanneft» NQÇİ-nin bazası əsasında B. Britaniyanın «Şirvan» neft şirkəti ilə birlikdə yaradılmış və «Şirvan OYL MM» adlanır. Bu müştərək müəssisənin fəaliyyəti 25 il davam edəcəyi nəzərdə tutulub və iştirakçılar arasında pay bölgüsü 50% təşkil edəcəkdir.

***Altıncı müştərək müəssisə*** «Muradxanlı», «Cəfərli» və «Zərdab» yataqlarını birgə mənimsəmək üzrə ARDNŞ ilə B. Britaniyanın «Remko» neft şirkəti arasında 1998-ci ildə Londonda imzalanmış müqavilə əsasında yaradılmışdır. Bağlanmış müqaviləyə əsasən tərəflər arasında pay bölgüsü 50%-dir. «Remko» neft şirkətinin hesablamalarına görə göstərilən yataqlarda 5 milyard barel neft vardır. Bu müştərək müəssisənin ya-

radılmasına 1 milyard ABŞ dolları həcmində investisiya qoyulması nəzərdə tutulmuşdur.

***Yeddinci və səkkizinci müştərək müəssisələr*** – B. Britaniya, Kanada, ABŞ və Səudiyyə Ərəbistanının neft şirkətləri ilə ARDNŞ-i arasında bağlanmış iki müqavilə əsasında yaradılmışdır. Bu müştərək müəssisələr «Cənub-qərbi Qobustan» və «Kürsəngi-Qarabağlı» yataqlarını əhatə edir. Birinci müqavilədə ARDNŞ – 20%, B. Britaniya-Kanada alyansı «Komonvels Oyl Qaz» – 40», ABŞ-ın «Yunion Teksae» şirkəti – 40%; ikinci müqavilədə isə ARDNŞ – 50%, ABŞ-ın «Frontera Resoursas» şirkəti – 30%, Səudiyyə Ərəbistanının «Delta» və ABŞ-ın «Amirada Hess» birgə alyansı «Delta-Hess» – 20% paylar bölünmüşdür. Məlumat üçün qeyd edək ki, alimlərin hesablamalarına görə «Kürsəngi-Qarabağ» yataqlarında neft ehtiyatı 30-100 milyon ton həcmində olmalıdır. Layihənin təqribi dəyəri 200 milyon ABŞ dolları həcmindədir.

2005-ci ilin sentyabrınadək 15 ölkədən olan 34 şirkətlə 26 müqavilə imzalanmışdır. Müqavilələr üzrə investisiyaların proqnozlaşdırılan həcmi kontraktlar bağlanan ana 60 milyard dollar, hazırda isə 50 milyard dollar, kontrakt sahələrində proqnozlaşdırılan ehtiyat 4 milyard ton şərti yanacaq hesab edilir.

Xarici şirkətlərlə bağlanan müqavilələr məhsulun pay bölgüsü, qeyd etdiyimiz kimi, tiplidir. «Əsrin müqaviləsi» istisna olmaqla digər layihələr perspektivli strukturlar üzrə bağlanıb. Bu isə kəşfiyyat işləri aparılmasını və kommersiya əhəmiyyətli yataq açılarsa, onun işlənməsini nəzərdə tutur ki, bununla da əlaqədar investorlar kəşfiyyat dövründə investisiya qoyuluşunda müəyyən risk daşıyırlar.

Müqavilə şərtlərinə görə, perspektivli strukturlarda kəşfiyyat dövrü 3-5 il, əgər kommersiya əhəmiyyətli yataq açılarsa, onların işlənilmə dövrü isə 25 il nəzərdə tutulur. Əgər kəşfiyyat dövründə yataq açılmazsa, investorun kəşfiyyat işlərinə çəkdiyi xərclər ödənilmir. Deməк olar ki, dəniz sahələri üzrə imzalanmış bütün sazişlərə görə yataqların işlənilməsində əldə edilən ümumi gəlir müəyyənləşdirilmiş sxem üzrə bölünəcək və təmiz gəlirin təxminən 80%-i Azərbaycanın payına düşəcək.

Hər kontrakt üzrə Azərbaycanın hesabına bonus ödənilir (***Neft bonusu*** – mükafat xarakterli birdəfəlik ödənişlərdir. Beynəlxalq təcrübədə mineral resursların hasilatında tətbiq edilən ödənişlər arasında, məsələn, royaltı, vergilər, icarə haqqı və s. ödənişlər arasında bonuslar xüsusi yer tutur). Bonusun miqdarı yatağın perspektivliyindən, çıxarıla bilən neftin həcmindən və bu zaman əldə ediləcək təmiz (xalis) gəlirin miqdarından asılıdır. İmzalanmış müqavilələrin bəziləri üzrə Əməliyyat Şirkətləri yaradılıb və müvafiq kəşfiyyat işləri aparılıb və hazırda aparılmaqda davam etdirilir.



***1-ci müqavilə*** – «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının işlənməsi üzrə bağlanmış müqavilədir. Təsdiq edilmiş ehtiyatları 730 mln. ton neft, 96 milyard kubmetr qaz, 6 mln. ton kondensat. Layihənin işlənməsinə 11 milyard dollar investisiya qoyulacaq. Müqavilə 1994-cü il sentyabrın 20-də imzalanıb, həmin il dekabrın 12-də hüquqi qüvvəyə minib. Müqavilədə əsas tərəfdaşlar ARDNŞ (payı 10%), Böyük Britaniyanın «BP» (payı 34,4%), Amerikanın «Devon Energy» (payı 4,82%), «ExxonMobil» (payı 8,0%), «Unocal» (payı 10,4%), Norveçin «Statoil» (payı 8,56%), Türkiyənin «TPAO» (payı 6,75%), Yaponiyanın «İtochu» (payı 3,92%), «İnrex» (payı 10,0%) və Səudiyyə Ərəbistanının «Delta-Hess» (payı 3,76%) şirkətləridir.

***2-ci müqavilə*** – «Qarabağ» şirkətinin işlənmə layihəsi adlanır. Bu strukturda proqnozlaşdırılan invensiyalar 1,7 milyard dollar, faktiki qoyuluşlar isə 0,1 milyard dollar təşkil edib. Proqnozlaşdırılan ehtiyatlar 80 mln. ton neftə nəzərdə tutulduğu halda, faktiki olaraq isə 20 mln. tona bərabərdir. Kontrakt 1995-ci il noyabr ayının 10-da imzalanıb, 1996-cı ilin fevral ayının 23-dən qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 7,5%), Rusiyanın «LUKoyl» (payı 12,5%), Türkiyənin «LUKACİP» (payı 45,0%), Amerikanın «Pennzoyl» (payı 30,0%), İtaliyanın «Acip» (payı 5,0%) şirkətləri idi. Struktur Xəzərin Azərbaycan sektorunun şimal hissəsində, Bakı şəhərindən 120 km arada yerləşir. Dənizin dərinliyi 120 metrdir. 1965-ci ildə Azərbaycan neftçiləri tərəfindən kəşf edilib.

***3-cü müqavilə*** – «Şahdəniz» strukturunun işlənmə layihəsi adlanır. Proqnozlaşdırılan investisiyalar 4 milyard dollar həcmindədir. Təsdiq olunmuş ehtiyatların 700 milyard kubmetr qaz, 200 mln. ton kondensatdır. Kontrakt 1996-cı il iyulun 4-də imzalanıb və 1997-ci ilin dekabrın 10-da hüquqi qüvvəyə mi-

nib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 10,0%), Böyük Britaniyanın «BP» (payı 25,5%), Amerikanın «Statoil» (payı 25,0%), Fransanın «TotalFinaElf» (payı 10,0%), İranın «OLES» (payı 10,0%), Türkiyənin «TPAO» (payı 9,0%) və «LUKAСİР» (payı 10,0%) şirkətləridir. Struktur Xəzərin Azərbaycan sektorunun şimal hissəsində yerləşir. Kəşfiyyat quyuları qazıldıqdan sonra kommersiya cəhətdən sərfəli qaz ehtiyatları aşkar edilib. Təsdiq olunmuş ehtiyatlar 700 milyard kub metr, güman olunan proqnoz ehtiyatlar 1 trilyon kub metr təşkil edir. Qaz ixracı ilə bağlı Türkiyə, Azərbaycan və Gürcüstan arasında hökumətlərarası saziş imzalanıb.

***4-cü müqavilə*** – «Dan-ulduzu-Əşrəfi» strukturunun işlənmə layihəsini əks etdirir. Proqnozlaşdırılan invensiyalar 1,5 milyard dollar olduğu halda, faktiki olaraq isə 58,471 mln. dollar təşkil edir. Proqnozlaşdırılan ehtiyatlar 145 mln. ton neft, faktiki ehtiyatlar isə 11,9 mln. tona bərabərdir. Kontrakt 1996-cı il dekabrın 14-də imzalanıb, 1997-ci il martın 7-də hüquqi qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 20%), ABŞ-ın «Amoko» (payı 30,0%), «Unokal» (payı 25,5%), Yaponiyanın «İtoçu» (payı 20,0%) və Səudiyyə Ərəbistanının «Delta-Hess» (payı 4,5%) şirkətləri olub. Struktur Şimali Abşeron zonasında, Bakıdan təxminən 85 km-lik məsafədə yerləşir. Proqnozlaşdırılan ehtiyatların cəmi 10%-i aşkar edilib. Bu isə bütövlükdə 73 mln. barel təşkil edir.

***5-ci müqavilə*** – «Lənkəran-dəniz, Talış-dəniz» strukturlarının birgə işlənmə layihəsini özündə əks etdirir. Proqnozlaşdırılan ehtiyatlar 50 mln. ton neft, bərabərdir. Layihənin yerinə yetirilməsinə 1,5 milyard dollar vəsaitin sərf edilməsi nəzərdə tutulmuşdur. Kontrakt 1997-ci il yanvarın 13-də imzalanıb və həmin ilin iyul ayının 30-da hüquqi qüvvəyə minib. Kontraktda əsas iştirakçılar ARDNŞ (payı 25,0%), Fransanın «TotallFinaElf» (payı 35,0%), İranın «OLES» (payı 10,0%) və «Wintershall» (payı 30,0%) şirkətləridir. Struktur Xəzərin Azərbaycan sektorunun cənub hissəsində yerləşir. Sahəsi 420 kv. metrdir. Seysmik kəşfiyyat işləri başa çatıb, ilk kəşfiyyat quyusu qazılıb, lakin müsbət nəticə əldə edilməyib.

***6-cı müqavilə*** – «Yalama» strukturunun işlənmə layihəsi adlanır. Bu struktur üzrə ehtiyatların həcmi 50 mln. ton neft



müəyyənləşdirilib. Layihənin yerinə yetirilməsinə 1 milyard dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Kontrakt 1997-ci il iyulun 3-də imzalanıb və həmin ilin dekabrın 10-da hüquqi qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 20,0%), Rusiyanın «LUKoyl» (payı 80,0%) şirkətidir. Struktur Xəzərin Azərbaycan sektorunun şimal hissəsində yerləşir. Hazırda seysmik kəşfiyyat işləri gedir.

***7-ci müqavilə*** – «Oğuz» strukturunun kəşfiyyatı və işlənməsi layihəsidir. Kontrakt 1997-ci il avqustun 1-də ölkə prezidentinin ABŞ-a rəsmi səfəri zamanı imzalanıb və həmin ilin dekabrın 5-də hüquqi qüvvəyə minib. Bu struktur üzrə proqnozlaşdırılan ehtiyatlar 70 mln. tona neftə, 53 milyard kubmetr qaza və 3 mln. ton kondensata bərabərdir. Layihənin həyata keçirilməsinə 2 milyard dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Kontraktda əsas iştirakçılar ARDNŞ (payı 50,0%) və Amerikanın «EksonMobil» (payı 50,0%) şirkətidir. Struktur «Azəri-Çıraq-Günəşli» yataqlarından cənub-qərbdə yerləşir və təxminən 160 kvadrat mil sahəni əhatə edir. Strukturda ilk kəşfiyyat quyusu qazılıb, lakin müsbət eaticə əldə edilməyib.

***8-ci müqavilə*** – «Naxçıvan» strukturunun işlənmə layihəsidir. Kontrakt 1997-ci il avqustun 1-də ölkə prezidentinin ABŞ-a rəsmi səfəri zamanı imzalanıb və həmin ilin dekabrın 5-də hüquqi qüvvəyə minib. Struktur üzrə ehtiyatlar 66 mln. ton neftə, 172 milyard kubmetr qaza və 12 mln. ton kondensata bərabərdir. Layihənin həyata keçirilməsinə 2 milyard dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 50,0%) və Amerikanın «ExxonMobil» (payı 50,0%) şirkətidir. Struktur Bakı şəhərindən cənuba doğru 100 km məsafədə yerləşir. Blok dənizin təxminən 100-500 metrə qədər dərinliyindədir. Seysmik kəşfiyyat işləri 450 km$^2$ sahəni əhatə edir. Bu strukturda da kəşfiyyat quyusu qazılıb, lakin müsbət nəticə əldə edilməyib.

***9-cu müqavilə*** – «Abşeron» strukturunun işlənmə layihəsidir. Kontrakt 1997-ci il avqustun 1-də ölkə prezidentinin ABŞ-a rəsmi səfəri zamanı imzalanıb və həmin ilin dekabr ayının 5-də hüquqi qüvvəyə minib. Proqnozlaşdırılan ehtiyatlar 50 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 1 milyard dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Bu

kontraktda ARDNŞ-in payı 20,0% və Rusiyanın «LUKoyl» şirkətinin payı isə 80,0%-dir.

*10-cu müqavilə* – «Kürdaşı» blokunun işlənməsi layihəsidir. Bu bloka «Kürdaşı», «Araz-dəniz və «Kirdan-dəniz» yataqları daxildir. Kontrakt 1998-ci il iyunun 2-də imzalanıb və həmin ilin iyulun 30-da hüquqi qüvvəyə minib. Proqnozlaşdırılan ehtiyatlar 90-100 mln. ton neftə bərabərdir. Bu layihənin həyata keçirilməsinə 2,3 milyard dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Kontraktda əsas iştirakçılar ARDNŞ (payı 50,0%), İtaliyanın «Acip» (payı 215,0%), Yaponiyanın «Mitsui» (payı 15,0%), Türkiyənin «TPAO» (payı 5,0%) və İspaniyanın «Repsol» (payı 5,0%) şirkətləridir. Layihənin həyata keçirilməsinə 0,8 milyard dollar vəsaitin xərclənməsi proqnozlaşdırılır.

*11-ci müqavilə* – «Cənub-Qərbi Qobustan» strukturunun işlənmə layihəsi dalanır. Proqnozlaşdırılan ehtiyatları 20-50 mln. ton neftə 12 milyard kubmetr qaza bərabərdir. Layihənin həyata keçirilməsinə 0,9 milyard dollar həcmində investisiya qoyulması nəzərdə tutulmuşdur. Müqavilə 1998-ci il iyunun 2-də imzalanıb və həmin ilin noyabrında hüquqi qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 20,0%), Kanada-Britaniya birgə müəssisəsi olan «Commonvelth Oil Cas» (payı 80,0%) şirkətidir. Əvvəllər layihədə «Sooner» şirkəti də iştirak edirdi (payı 12,75%), lakin sonradan şirkət öz payından imtina edib.

*12-ci müqavilə* – «İnam» strukturunun işlənməsi layihəsini əhatə edir. Proqnozlaşdırılan ehtiyatlar 50 mln. ton neftə, 100 milyard kubmetr qaza və 100 mln. ton kondensata bərabərdir. Layihənin həyata keçirilməsinə 3 milyard investisiya qoyuluşu nəzərdə tutulur. Kontrakt 1998-ci il iyulun 21-də imzalanıb və həmin ilin dekabrında hüquqi qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 50,0%), «BP» (payı 25,0%) və «Shell» (payı 25,0%) şirkətləridir. Strukturda bir quyu qazılıb, lakin texnoloji çətinliklər üzündən axıra çatdırılmayaraq konservasiya olunub. Buna baxmayaraq strukturda kəşfiyyat quyularının qazılmasının davam etdirilməsi nəzərdə tutulub.

*13-cü müqavilə* – «Muradxanlı» strukturunun işlənməsi üzrə layihədir. Bu kontrakt üzrə proqnozlaşdırılan ehtiyatlar 60 mln. ton neftə bərabərdir. Layihənin yerinə yetirilməsinə 1,2 milyard dollar investisiya yönəldilməsi nəzərdə tutulmuşdur. Kontrakt 1998-ci il iyulun 21-də imzalanıb və noyabrında hüquqi qüvvəyə minib. Kontraktda əsas iştirakçılar ARDNŞ (payı 50,0%) və «Ramco» (payı 50,0%) şirkətləridir. Müqavilə hüquqi qüvvəyə mindikdən sonra strukturda ilk kəşfiyyat quyusu qazılıb və müsbət nəticə əldə edilmədiyindən «Ramco» şirkəti kompensasiya ödəyərək quyunu bağlamağa və kontraktdan imtina etmişdir.



*14-cü müqavilə* – «Araz»-«Alov»-«Şərq» strukturlarının birgə işlənməsi üzrə layihədir. Strukturlar üzrə ehtiyatların həcmi 500 mln. tona ekvivalent neft-qaza bərabərdir. Müqavilənin həyata keçirilməsinə 9 milyard dollar investisiyanın yönəldilməsi nəzərdə tutulub. Kontrakt 1998-ci il iyulun 21-də imzalanıb və 1999-cu ilin mart ayının 23-də hüquqi qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 40,0%), «BP» (payı 15,0%), «Statoil» (payı 15,0%), «ExxonMobil» (payı 15,0%), «TPAO» (payı 10,0%) və «Alberta Energy» (payı 5,0) şirkətləridir. Strukturda 2001-ci ildə seysmik kəşfiyyat işləri aparılmasına cəhd göstərilib. Lakin İranın hərbi təzyiqi nəticəsində həmin işlər hələlik dayandırılıb, yəni strukturda aparılan seysmik işlər dondurulub.

*15-ci müqavilə* – «Kürsəngi»-«Qarabağlı» strukturlarının birgə işlənməsi üzrə layihədir. Strukturlar üzrə proqnozlaşdırılan ehtiyatlar 17 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 0,8 milyard dollar həcmində investisiyanın yönəldilməsi nəzərdə tutulmuşdur. Kontrakt 1998-ci il dekabrın 15-də imzalanıb və 1999-cu ilin mart ayının 16-da hüquqi qüvvəyə minib. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 50,0%), «China National Oil and GasExploration and Development Corporation» (payı 30,0%) və «Delta-Ness» (payı 20,0%) şirkətləridir. Çin şirkətləri iştirak payını əvvəlki operator ABŞ-ın «Frontera Recousera» şirkətinin maliyyə öhdəliyini yerinə yetirə bilməməsi ilə əlaqədar əldə ediblər. Hələlik strukturda üç quyu qazılıb və istismara verilmişdir.

*16-cı müqavilə* – «Yanan-Tava»-«Atəşgah»-«Muğan-dəniz» yataqlarının işlənməsi üzrə layihədir. Kontrakt üzrə proqnozlaşdırılan ehtiyatlar 75-90 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 2,3 milyard dollar investisiya yönəldilməsi nəzərdə tutulub. Kontrakt 1999-cu il dekabrın 25-də imzala-

nıb və həmin ilin iyunun 17-də hüquqi qüvvəyə minib. Müqavilədə 50%-lik paya malik olan ARDNŞ-in əsas tərəfdaşları Yaponiyanın aparıcı neft şirkətləridir. Bu müqavilədə «Yapex» 22,5%, «İnpex» 12,5%, «İtochu» 7,5%, «Teykoku» şirkəti isə 7,5%-lik paya sahibdir. Hələlik strukturda dörd kəşfiyyat quyusu qazılıb və müsbət nəticələr əldə edilmişdir.

*17-ci müqavilə* – «Savalan», «Dalğa», «Lerik-dəniz» və «Cənub» yataqlarının birgə işlənilməsi üzrə layihəni özündə əhatə edir Bu müqavilə üzrə proqnozlaşdırılan ehtiyatlar 100 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 4,5 milyard dollar həcmində investisiyanın yönəldilməsi nəzərdə tutulmuşdur. Müqavilə 1999-cu il aprelin 27-də ölkə prezidentinin ABŞ-a rəsmi səfəri zamanı imzalanıb. Müqavilədə əsas tərəfdaşlar ARDNŞ (payı 50,0%) və Amerikanın «ExxonMobil» (payı 30,0%) şirkətidir. 20%-lik pay hələlik öz sahibini tapmayıb. Seysmik kəşfiyyat işləri Xəzərin statusunun hələlik müəyyən edilmədiyindən dayandırılıb və Azərbaycan parlamentinə təsdiq üçün təqdim edilməyib, yəni bu müqavilə hüquqi statusa malik deyildir.

*18-ci müqavilə* – «Zəfər»-«Məşəl» strukturlarının birgə işlənilməsi üzrə layihəni özündə əks etdirir. Proqnozlaşdırılan ehtiyatlar 140 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 2 milyard dollar həcmində investisiyanın yönəldilməsi nəzərdə tutulmuşdur. Müqavilə 1999-cu il aprelin 27-də ölkə prezidentinin ABŞ-a rəsmi səfəri zamanı imzalanıb. Kontraktda əsas tərəfdaşlar ARDNŞ (payı 50,0%) və Amerikanın «ExxonMobil» (payı 30,0%) şirkətidir. 2000-ci ildə Amerikanın «Conoco» şirkəti 20,0%-lik paya malik olması barədə hüquq əldə etmişdir. Müqavilə respublika parlamentində ratifikasiya olunub və ölkə böyük həcmdə – 90 mln. dollara yaxın xüsusi bonus alıb. Sərbəst qazma qurğusu olmadığına görə hələlik kəşfiyyat işlərinin aparılmasında müəyyən gecikmələr vardır.

*19-cu müqavilə* – «Padar»-«Xərami» sahəsi və ona bitişik perspektiv strukturların daxil olduğu onşor blokun işlənməsi layihəsi adlanır. Proqnozlaşdırılan ehtiyatlar 30 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 0,5 milyard dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Müqavilə 1999-cu il aprelin 27-də ölkə prezidentinin ABŞ-a rəsmi səfəri zamanı imzalanıb, 2000-ci ilin 25 iyununda Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən ratifikasiya olunub və həmin ilin 25 iyunundan hüquqi qüvvəyə minib. Müqavilədə əsas tərəfdaşlar ARDNŞ (payı 20,0%( və Amerikanın «Monscrif Oyl» (payı 80,0%) şirkətləri olub. Lakin 2003-cü ilin fevralında «Monscrif Oyl» şirkəti öz payını Kanadanın «Nations Energy» şirkətinə satıb. Hələlik bu layihə üzrə heç bir kəşfiyyat işləri aparılmayıb.



*20-ci müqavilə* – «Kəlaməddin»-«Mişovdağ» perspektiv strukturlarının daxil olduğu onşor blokun işlənməsi layihəsini özündə əhatə edir. Proqnozlaşdırılan ehtiyatların həcmi 9,9 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 0,14 milyard dollar həcmində investisiyanın yönəldilməsi nəzərdə tutulmuşdur. Kontraktın əsas tərəfdaşları ARDNŞ (payı 15,0%), Amerikanın «Moncrief Oyl» (payı 49,3%) və Türkiyənin «Petoil» (payı 35,7%) şirkətləri olub. 2003-cü ilin fevralın 27-də məxfi danışıqlardan sonra «Moncrief Oyl» və «Petoil» şirkətləri öz paylarını PSA müqaviləsinə əsasən Kanadanın «Nations Energy» şirkətinə satıblar. Nəticədə «Nations Energy» şirkəti layihədə 80,0%-lik paya malikdir. Bu layihənin həyata keçirilməsi üçün «Karasu Operating Company» (KOS) əməliyyat şirkəti yaradılıb.

*21-ci müqavilə* – «Zığ» və «Hovsan» neft yataqlarının daxil olduğu onşor blokun bərpası və işlənməsi layihəsidir. Proqnozlara görə ehtiyatların həcmi 18-25 mln. ton neftə bərabərdir. Layihənin həyata keçirilməsinə 250 mln. dollar həcmində investisiya qoyuluşunun sərf edilməsi nəzərdə tutulmuşdur. Kontrakt 2001-ci ilin yanvarın 9-da imzalanıb və həmin ilin iyunun 12-də hüquqi qüvvəyə minib. Müqavilədə əsas tərəfdaşlar ARDNŞ (payı 50,0%) və Rusiyanın «LUKoyl» (payı 50,0%) şirkətləridir.

*22-ci müqavilə* – «Pirsaat» neft yatağının işlənməsi üzrə layihəni özündə əhatə edir. «Pirsaat» neft yatağının birgə işlənməsinə dair PSA tipli müqavilə 2003-cü il iyunun 4-də Bakı şəhərində ARDNŞ (payı 25,0%) və Çinin «Sheng Lee» (payı 50,0%) şirkətləri arasında bağlanıb. Qalan 25,0%-in sahibi hələlik məlum deyildir. Proqnozlara görə «Pirsaat» yatağının qalıq neft ehtiyatı 60-63 mln. barel və ya 7 mln. tona bərabərdir.

Onun 1,5 mln. tonu çıxarıla bilən ehtiyat hesab edilir. Layihənin həyata keçirilməsinə 250 mln. dollar həcmində investisiyanın yönəldilməsi nəzərdə tutulur.

23, 24, 25-ci müqavilələr hələlik fəaliyyət göstərmir. Odur ki, 26-cı müqaviləni qeyd edirik.

***26-cı müqavilə*** – «Suraxanı» neft yatağının işlənməsi üzrə layihədir. Bu müqavilə 2005-ci ilin avqust ayının 16-da Bakı şəhərində ARDNŞ ilə Birləşmiş Ərəb Əmirliklərinin «Rafi Oyl» şirkəti arasında imzalanmışdır. Məlumat üçün qeyd edək ki, Suraxanı neft yatağı Abşeron yarımadasında, Bakı şəhərindən 14 km. Şimal-şərqdə yerləşir. Qaraçuxur və Balaxanı-Sabunçu-Ramana yataqları ilə həmsərhəd olan bu yataq 1904-cü ildən istismardadır. Ötən 100 ildə buradan 114 milyon 597 min ton neft, 10 milyard kubmetr qaz hasil edilib. Yataqda maksimum hasilat 1931-ci ildə olmuşdur (4 milyon 189 min ton). Bütün istismar dövrü ərzində Suraxanı neft yatağında 2503 müxtəlif dərinlikli quyu qazılıb. Hazırda istismar fondunda 432 quyu yardır ki, onların da 234-ü işlək quyulardır. Aparılmış son geoloji tədqiqatlar yataqda 6 milyon 822 min ton qalıq neftin olduğunu təsdiqləyir.

25 il müddətinə nəzərdə tutulmuş müqavilədə «Rafi Oyl» şirkəti 75,0%-lik və ARDNŞ-i isə 25,0%-lik pay bölgüsünə malikdir. Bundan əlavə, «Rafi Oyl» şirkəti 13 km$^2$ sahəni əhatə edən yatağın ərazisində infrastrukturu əsaslı şəkildə yeniləşdirməklə yanaşı, neft hasilatını 1,5 dəfə artırmalıdır. Saziş Azərbaycan Respublikasının Milli Məclisində ratifikasiya olunduqdan sonra «Rafi Oyl» şirkəti 90 gün ərzində yatağın işlənməsi ilə bağlı proqramı işləyib hazırlamalı və ARDNŞ-ə təhvil verməlidir. Müqavilə qüvvəyə mindikdən sonra «Rafi Oyl» şirkəti Azərbaycan dövlətinə 1 milyon dollar məbləğində bonus ödəyəcək. Sazişin şərtlərinə görə, podratçı şirkət hasil etdiyi nefti yerli bazar qiymətləri ilə ARDNŞ-ə təhvil verməlidir. Müqavilənin bu və ya digər şərtlərinə əməl olunmazsa ARDNŞ sazişə xitam vermək hüququna malikdir. Bütün əvvəlki müqavilələrdə olduğu kimi, neftlə bərabər çıxarılan səmt qazı təmənnasız olaraq Azərbaycan dövlətinə təhvil veriləcək.

«Əsrin müqaviləsi» çərçivəsində ilkin neftin «Çıraq-1» platformasından hasili 1997-ci ildən başlanıb. İlkin neftin ilk par-



tiyası 1998-ci ilin martında Novorossiysk Limanından yola salınıb. Supsada terminalın istifadəyə verilməsindən sonra Qərb istiqamətində tankerlərə ilk neft 1999-cu ilin aprelində vurulub. İndiyə qədər «Çıraq-1» platformasından 250 mln. barel neft hasil edilmişdir. İndiyədək qərb ixrac boru kəmərinə 23,4 mln. ton neft vurulub və Supsadan dünya bazarlarına 180-dən çox tanker yola salınıb. Azərbaycan Respublikası müqavilə çərçivəsində 3,1 mln. ton neft yola salıb.

Şimal xətti ilə 2005-ci ilin əvvəlinə 12,9 mln. ton neft yola salınıb. Məlumat üçün qeyd edək ki, ARDNŞ-in müqavilədən kənar hasil etdiyi neft də bura daxildir. Şimal xəttindən yola salınan 127 tankerin 75-i ARDNŞ-ə məxsus olub. Qalan tankerlər müqavilə neftini daşıyıb. Hazırda layihə çərçivəsində tammiqyaslı işlənmənin 3-cü Fazası həyata keçirilir. «Mərkəzi Azəri»də neft hasilatı 2005-ci ilin yanvarından başlanıb. «Qərbi Azəri»də neft hasilatı 2006-cı ilin aprelinə, «Şərqi Azəri»də 2007-ci ilin fevralına, dərin sulu «Günəşli»də 2008-ci ilin iyuluna nəzərdə tutulub. Təkcə «Qərbi Azəri» və «Şərqi Azəri» yataqlarının istismara verilməsi əlavə olaraq ildə 20 mln. ton neft hasilatına imkan verəcək. Hər bir müqavilə üzrə neft, qaz və kondensat ehtiyatlarının həcmi cədvəl 66-da verilmişdir.

## 9.4. Sahənin dünya iqtisadiyyatına inteqrasiya edilməsində neft kontraktlarının rolu və əhəmiyyəti

Aparılan araşdırmalar göstərir ki, XIX əsrin axırlarından başlayaraq Bakının neft sənayesində ciddi yüksəliş baş verib. Onun iqtisadi və strateji əhəmiyyəti də xeyli artıb. Həmin dövrdə Bakı neftini ələ keçirməkdən ötrü iri kapitalist dövlətləri arasında ziddiyyətlər dərinləşib. Əgər əvvəllər Avropa və Rusiya bazarlarında Amerika nefti üstün mövqeyə malik idisə, artıq Bakı nefti onu bu mövqedən sıxışdırıb çıxarmağa başlayıb. Çox keçməyib ki, Azərbaycanın neft sənayesi hasilatın artım sürətinə görə Amerikanı arxada qoyaraq dünyada birinci yerə çıxıb. Buna bir sıra amillər də təkan verib. Belə ki, Abşeronda zəngin neft yataqlarının olması, işçi qüvvəsinin ucuzluğu və çar Rusiyasının Azərbaycanın sərvətlərinə talançı münasibəti xarici sahibkarlara böyük qazanc gətirib, eyni zamanda da onların Ba-

*Cədvəl 66*

***Müqavilələrə görə neft, qaz və kondensat üzrə proqnozlaşdırılan ehtiyatlar***

| № | Müqavilələrin adları | Neft, mln. ton | Qaz, mlrd. kubmetr | Kondensat, mln.t. |
|---|---|---|---|---|
| 1 | AİOC | 620 | 96 | 6 |
| 2 | CİPCO | 8 | – | – |
| 3 | Şahdəniz | – | 625 | 101 |
| 4 | NAOC | 11,9 | – | – |
| 5 | Lənkəran-Talış-dəniz | – | – | – |
| 6 | Oğuz | 70 | 53 | 3 |
| 7 | Abşeron | 120 | 3000 | 27 |
| 8 | Naxçıvan | 66 | 172 | 12 |
| 9 | D-222 | 50 | – | – |
| 10 | Kürsəngi-Qarabağlı | 17 | – | – |
| 11 | Zəfər-Məşəl | 140 | – | – |
| 12 | İnam | 50 | 100 | 100 |
| 13 | Yanan-Tava, Muğan-dəniz, Atəşgah | 75-90 | – | – |
| 14 | Muradxanlı | 60 | – | – |
| 15 | Kürdaşı | 90-100 | – | – |
| 16 | Araz, Alov, Şərq | 500 mln. tona ekvivalent | | |
| 17 | Cənub-Qərbi Qobustan | 15-20 | 25 | – |
| 18 | Savalan, Dalğa, Cənub, Lerik-dəniz | 100 | – | – |
| 19 | Padar-Xərəmi | 30 | – | – |
| 20 | Kəlaməddin-Muşovdağ | 9,9 | – | – |
| 21 | Hovsanı-Zığ | 18-25 | – | – |
| 22 | Pirsaat | 7 | – | – |

kıya axışmasına zəmin yaradıb. Xarici kapitalın Azərbaycan neft sənayesinə daxil olma yolları da müxtəlif olub. Hansı xarici şirkət öz fəaliyyətinə rəsmi icarə ala bilibdisə, leqal fəaliyyət göstərib. Rəsmi icazə ala bilməyən şirkətlər isə Rusiya qanunları əsasında yaradılmış xarici şirkətləri satın alıblar.



XIX əsrin 80-ci illərində ölkədə yaranmış sosial-iqtisadi şərait xarici kapitalın Bakı neft sənayesinə üz tutmasını xeyli sürətləndirib. Bu yöndə Rusiyanın o zamankı maliyyə naziri S.Y.Vittenin yürütdüyü siyasət də xüsusi rol oynamışdır. O, borc kapitalını cəlb etməklə çarizmin iqtisadi siyasətini həyata keçirməyə çalışırdı. XIX əsrin 90-cı illərində Fransa-Rusiya münasibətləri pisləşdiyindən S.Y.Vitte İngiltərəyə müraciət edib və bundan sonra Rusiyaya kapital axını güclənib. İngilis sahibkarları daha çox neft sənayesinə üz tutublar. Buna qədər isə İsveçli Nobel qardaşları artıq Bakıda öz şirkətlərini qurmuşdular. İlk olaraq E.Qubbardın başçılıq etdiyi, Q.Uladstonun, D.Kistonun, Ç.Murun, V.Consonun, K.Vernerin daxil olduğu qrup 1897-ci ilin sentyabrında H.Z.Tağıyevin şirkətinin Rusiyanın bir sıra şirkətlərində olan mədənlərini, kerosin yağı və sulfat turşusu zavodlarını, neft boru kəmərini, neftdaşıma donanmasını, dəmir yol sistemləri parkını, kerosin-mazut anbarlarını 5 milyon rubla alıb. H.Z.Tağıyevin şirkətinin alınması Azərbaycanın neft sənayesinə ingilis kapitalının axınını gücləndirib. Nəticədə 1901-ci ildə Bakıda ingilislərin 11 səhmdar şirkəti fəaliyyət göstərib

İngilislərlə yanaşı alman, fransız, amerikan və digər xarici şirkətlər də Bakı neftinə kapital qoyub milyonlar qazanmağa nail olublar. «Nobel qardaşları», «Şelf», «Standart oyl», «Royyal datç», «Oleum» və başqaları o zamanlar Azərbaycan neft sənayesində üstünlük təşkil edən xarici neft şirkətləri idi. Xarici şirkətlər Azərbaycanda Sovet hakimiyyəti qurulanadək geniş fəaliyyət göstərib milyonların sahibi olmuşlar. Sovet hakimiyyəti bir çox sahələri olduğu kimi, neft sənayesini də milliləşdirib xarici şirkətlərin əmlakını dövlətin ixtiyarına verdi və beləliklə də xarici kapitalın Azərbaycan neft sənayesində fəaliyyətinə son qoyulmuşdur.

Faktiki materialların təhlili göstərir ki, neft Azərbaycan xalqının milli sərvəti olsa da, on illər boyu müstəqil Azərbaycan dövlətinin olmaması üzündən bu qiymətli sərvətin taleyi əvvəllər çar Rusiyasının, Sovet hakimiyyəti illərində isə Sovet dövlətinin əlində olmuşdur. Hər iki dövlətin mövcud olduğu dövrlərdə Azərbaycan nefti amansızcasına istismar olunub. Bununla belə, Azərbaycan Respublikası yenə də zəngin karbohidrogen

ehtiyatlarına malikdir. Bu ehtiyatların kifayət qədər çox olması müasir geofiziki üsullarla təsdiqlənir. 2000-ci ilin məlumatlarına görə, dünyada neft ehtiyatlarının dörddə bir hissəsi, yəni təqribən 262 milyard barel neft ehtiyatı Səudiyyə Ərəbistanına məxsusdur. Səudiyyə Ərəbistanına və onun OPEK kartelindəki müttəfiqlərinə 815 milyard barel neft dünya ehtiyatının dörddə üç hissəsidir. Müqayisə üçün qeyd edək ki, İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının üzvü olan ölkələr dünyadakı neftin çox hissəsini istehlak etdikləri halda, həmin ölkələrə məxsus neft ehtiyatları planetdəki ümumi neft ehtiyatlarının onda bir hissəsindən azdır. 2000-ci ildə Azərbaycan Respublikası neft ehtiyatlarının həcminə görə dünyada yeddinci yeri tuturdu. Dünya enerji ehtiyatlarına dair statistik məlumatlar cədvəl 67-də verilmişdir.

*Cədvəl 67*

***2000-ci ilin sonuna dünya neft ehtiyatları, milyard barel***

| Ölkələr | Neft ehtiyatı | Ölkələr | Neft ehtiyatı |
|---|---|---|---|
| S. Ərəbistanı | 261,7 | Rusiya | 21,0 |
| İraq | 100,0 | Çin | 20,0 |
| BƏƏ | 100,0 | Anqola | 20,0 |
| Kuveyt | 100,0 | Braziliya | 18,0 |
| İran | 66,0 | Əlcəzair | 17,0 |
| Venesuela | 66,0 | Əmman | 16,0 |
| Azərbaycan | 63,0 | ABŞ | 10,0 |
| Liviya | 55,0 | Niderlandiya | 10,0 |
| Qazaxıstan | 31,0 | Kanada | 9,0 |
| Nigeriya | 29,0 | Norveç | 8,0 |
| Meksika | 24,0 | B.Britaniya | 5,0 |

Zəngin neft ehtiyatlarına malik olmasına baxmayaraq, XX əsrin 70-ci və 80-ci illərində Azərbaycanda neft hasilatının tempi ildən-ilə daima aşağı düşürdü. Belə ki, Azərbaycanın həm quru ərazisində, həm də dənizin dayaz yerlərində o vaxta kimi istismar olunan iri yataqların artıq tükənməsi, yeni yataqların isə istismara verilməməsi ilə əlaqədar olub. O vaxtlar Azərbaycanda kəşf edilən yeni yataqlar dənizin daha dərin yerlərində və daha dərin qatlarda yerləşdiyindən bunların istismarı çox xərc tələb edirdi və çıxarılan neft baha başa gəlirdi. Həmin



dövrdə keçmiş SSRİ rəhbərliyi neft sahəsində başlıca diqqəti Rusiyanın şimalında yerləşən və istismarı çox ucuz başa gələn zəngin neft ehtiyatlarına yönəldilmişdi.

Məlumat üçün qeyd edək ki, Azərbaycanda çıxarılan neftin maya dəyəri dünyanın digər ölkələrindəkindən daha yüksəkdir. Məsələn, Ərəb ölkələrində neftin maya dəyəri Azərbaycanda çıxarılan neftin maya dəyərindən 8 dəfə ucuzdur. OPEK-in üzvləri olan ölkələrdə neftin maya dəyəri orta hesabla 35 dollar, yəni ARDNŞ-in müvafiq göstəricilərindən 6 dəfə ucuzdur. Ümumiyyətlə, dünya neft şirkətlərində bir barel neftin maya dəyəri Ərəb ölkələrində 8,0 $-ton, ABƏŞ üzrə 12 $-ton, YUKOS üzrə 13 $-ton, OPEK üzrə 35 $-ton və ARDNŞ üzrə isə 41 $-ton təşkil edir.

Lakin dövlət müstəqilliyini yenidən bərpa etdikdən dərhal sonra iqtisadiyyatı dərin tənəzzül keçirən Azərbaycanın ilk növbədə məhz özünün zəngin karbohidrogen ehtiyatlarından yararlanmaq istəməsi təbii idi. Çünki neft müasir kəskin beynəlxalq rəqabət şəraitində müstəqilliyini yenicə bərpa edən və bu müstəqilliyi «həzm etmək» istəməyən ölkələrin əhatəsində olan Azərbaycanın potensial olaraq dünya bazarına böyük həcmlərdə çıxara biləcəyi başlıca resurs idi. Neftdən gələn böyük gəlirlər ölkədə makroiqtisadi sabitliyi təmin edəcək və iqtisadiyyatı tənəzzüldən çıxaracaq başlıca vasitə hesab edilirdi. Lakin Azərbaycan öz gücü ilə neft yataqlarını istismar etmək imkanına malik deyildi. Belə ki:

– ölkənin neft sənayesində istifadə olunan texnika və texnologiya köhnəlmişdi və müasir tələblərə cavab vermirdi;

– Azərbaycan dənizin dərinliyi 40 metrdən artıq olan sahələrdə qazma işləri aparmaq üçün lazımi hidrotexniki qurğulara, neft hasilatı sahəsində müasir texnika və texnologiyaya malik deyildi;

– həmin neft yataqlarının işlənməsi çox böyük həcmdə investisiya qoyuluşu tələb edirdi ki, ölkənin o qədər maliyyə resursları yox idi. Həm də müstəqilliyini yenicə bərpa edən, mürəkkəb geosiyasi durumda olan, faktiki müharibə aparan və heç bir kredit tarixi olmayan Azərbaycana heç bir beynəlxalq maliyyə qurumu və xarici bank iri həcmlərdə kredit verməzdi;

– ölkəmizin neft sənayesində müasir menecment üsullarını bi-

lən, dünya bazarında əməliyyatlar apara bilən kadrların olmaması da mövcud idi.

Göstərilən vəziyyətdən çıxmağın və qeyd edilən iqtisadi problemləri həll etməyin ən real yolu xarici neft şirkətlərini və investorları qarşılıqlı fayda əsasında və milli mənafelər nəzərə alınmaqla birgə işə cəlb etmək idi. Azərbaycanın zəngin neft ehtiyatlarının istismarına dünyanın nəhəng neft şirkətlərinin cəlb edilməsində bu iqtisadi amillər mühüm rol oynasa da, burada ciddi geosiyasi amillərin rolunu da unutmaq olmaz. Həmin dövrdə Azərbaycanın siyasi durumu çox ağır olduğundan (bir tərəfdən Qarabağ müharibəsi, siyasi sabitsizlik, bölgədə strateji maraqları olan ölkələrin davamlı basqıları və s.) neft ehtiyatları ölkəyə irihəcmli xarici investisiyaların cəlb edilməsi və ayrı-ayrı dövlətlərin siyasi-iqtisadi maraqlarının nəzərə alınması yolu ilə Azərbaycanın özünün strateji siyasi və iqtisadi maraqlarını təmin etməsinin başlıca vasitəsi hesab edilirdi. Siyasi amillər sırasına aşağıdakıları göstərmək olar:

a) əlverişli coğrafi mövqeyə və zəngin neft ehtiyatlarına malik olması səbəbindən ölkəmiz dünyanın iri dövlətlərinin maraq dairəsinə daxil idi; Rusiya heç cür Azərbaycandan getmək və onu əldən buraxmaq istəmirdi; ABŞ və Qərb Azərbaycanda və bununla da bütün Cənubi Qafqazda möhkəmlənməyə çalışırdı; İran isə ABŞ-ı Azərbaycana «buraxmamaq», buranı öz təsir dairəsində saxlamaq niyyətində idi;

b) Rusiya və İranın dəstəklədiyi Ermənistan Azərbaycanla işğalçı müharibə aparırdı. Bu müharibə məhz Rusiya və İranın maraqlarına xidmət edirdi və Azərbaycanın ərazi bütövlüyünə və müstəqilliyinin möhkəmləndirilməsinə qarşı yönəlmişdi;

c) Rusiyanın təsiri ilə Gürcüstan-Abxaziya müharibəsinin də qızışması və bu müharibələrdə Rusiyanın birmənalı şəkildə erməni və abxaz işğalçılarının dəstəkləməsi bu ölkənin qonşularına münasibətdə əsrlərdən bəri davam etdirdiyi irticaçı mövqeyində qaldığını göstərirdi.

Bütün bunlar Azərbaycanın müstəqilliyinə ciddi təhlükə idi. Belə bir halda dünyanın inkişaf etmiş dövlətlərinin Azərbaycanda iqtisadi maraqlarının təmin edilməsi müəyyən mənada ölkənin müstəqilliyinin qarantı kimi çıxış edə bilərdi. Bu baxımdan inkişaf etmiş ölkələr, xarici investorlar və nəhəng beynəlxalq şirkətlər üçün ən cəlbedici istiqamət, Azərbaycan üçün isə onlara təklif edə biləcəyi əlverişli və perspektiv sahə neft ehtiyatlarının birgə mənimsənilməsi ola bilərdi. Məhz bu iqtisadi və geosiyasi amillərin məcmu təsiri altında Azərbaycan özünün neft ehtiyatlarının istismarını xarici şirkətlər üçün açıq elan elədi.



Artıq qeyd etdiyimiz kimi, 1994-cü ilin sentyabrında bu istiqamətdə ilk kontrakt «Azəri», «Çıraq» və «Günəşli» yataqlarının dərin su qatlarında (200 metrdən artıq) yerləşən hissəsinin birgə işlənilməsi üçün dünyanın ən nüfuzlu neft şirkətlərini cəlb etməklə «hasilatın pay bölgüsü» tipli «Əsrin müqaviləsi» imzalandı. Müqavilə şərtlərinə görə həmin yataqlardan çıxarıla bilən neft ehtiyatı 511 milyon ton, qaz ehtiyatı isə təxminən 200 milyard kubmetr həcmində qiymətləndirilirdi. Lakin sonrakı tədqiqatlar nəticəsində müəyyən edilmişdir ki, həm neft ehtiyatı, həm də qaz ehtiyatı göstərilən hədlərdən daha çoxdur. Yataqların işlənilmə müddəti 30 il nəzərdə tutulur və həmin yataqların işlənməsinə 7,5 milyard ABŞ dolları miqdarında investisiya qoyulacaq.

# FƏSİL 10. NEFT BİZNESİ VƏ AZƏRBAYCANDA ONUN TƏŞKİLİ PRİNSİPLƏRİ

## 10.1. Biznes fəaliyyətinin mahiyyəti və inkişaf mərhələləri

Azərbaycan Respublikası ikinci dəfə müstəqillik əldə etdikdən sonra, yəni 1991-ci ildən başlayaraq biznes, kommersiya, sahibkarlıq, təsərrüfatçılıq, marketinq, menecment və s. terminlər artıq leksikonumuza daxil olmuşdur. Müasir ədəbiyyatlarda bəzən «Biznes fəaliyyətini» «Sahibkarlıq fəaliyyəti», «Kommersiya fəaliyyəti» və «Təsərrüfatçılıq fəaliyyəti» ilə eyniləşdirirlər. Əslində isə onlar bir-birləri ilə sıx qarşılıqlı əlaqədə olsalarsa da, həqiqətdə həmin fəaliyyət növləri bir-birlərindən xeyli fərqlənirlər. Belə ki:

***Sahibkarlıq fəaliyyəti*** – «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq yaradılır və inkişaf etdirilir. Bu qanun Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin təşkili prinsiplərini, sahibkarların hüquq və vəzifələrini, onların dövlət tərəfindən müdafiə olunmasının forma və üsullarını, sahibkarlıq fəaliyyətinin dövlət və digər təşkilatlarla qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Qanunda göstərilir ki, sahibkarlıq fəaliyyəti ilə Azərbaycan Respublikasının hər bir vətəndaşı, hüquqi fiziki şəxslər, xarici ölkələrin vətəndaşları məşğul ola bilər. Lakin milli və xarici dövlət orqanlarının vəzifəli şəxsləri-məmurları sahibkarlıq fəaliyyəti ilə məşğul ola bilməzlər.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda sahibkarların hüquq və vəzifələrinin şərhinə də geniş yer verilmişdir. Bu qanuna görə ***sahibkarların aşağıdakı hüquqları vardır:***

– istənilən müəssisələr yaratmaq və onların idarəetmə orqanlarında iştirak etmək;
– dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakını tamamilə və ya qismən mənimsəmək, satın almaq;
– başqa müəssisələrin fəaliyyətində payçı kimi iştirak etmək;
– müəssisənin profilinə uyğun işçiləri işə qəbul etmək və onların əməyinin ödənilməsinin forma və sistemlərini müəyyənləşdirmək;



– təsərrüfat və maliyyə fəaliyyətini müstəqil həyata keçirmək, məhsul göndərmələri və istehsal olunan məhsulların istehlakçılarını seçmək və öz məhsulları üçün satış qiymətlərini müəyyənləşdirmək;
– sahibkarlıq fəaliyyətinin həyata keçirilməsindən əldə etdiyi mənfəətdən, gəlirdən müəyyən olunmuş məbləğdə gəlir vergisi ödədikdən sonra yerdə qalan gəlirdən, mənfəətdən müstəqil surətdə istifadə etmək;
– xarici-iqtisadi münasibətlərdə iştirak etmək.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununa əsasən ***sahibkarların aşağıdakı hüquqları vardır:*** işə qəbul edilən muzdlu işçilərlə əmək müqavilələri bağlamaq; işçilərin ictimai və siyasi partiyalarda birləşməsinə mane olmamaq; muzdlu işçilərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş əmək haqqının minimum məbləğindən az olmayan səviyyədə əmək haqqı vermək; dövlət sığorta fonduna müəyyən olunmuş qaydada və məbləğdə ayırmalar ödəmək; qanunvericiliklə müəyyən olunmuş həcmdə, məbləğdə vergilər ödəmək; işçilərə bağlanmış əmək müqavilələrində nəzərdə tutulmuş qaydada iş (əmək) şəraiti yaratmaq və onu müntəzəm surətdə təkmilləşdirmək və s.

Sahibkarlar təsis edilmiş təşkilat formalarından asılı olaraq tam və ya məhdud şəkildə əmlak məsuliyyəti daşıyırlar. Öz fəaliyyətini bağlaşma əsasında həyata keçirən sahibkar rəhbərlik etdiyi müəssisənin öhdəlikləri üçün bağlaşmada müəyyən edilmiş həcmdə məsuliyyət daşıyır. Bununla belə, sahibkarlıq fəaliyyətinin inkişafına köməklik göstərmək məqsədilə dövlət müəyyən təminatlar verir, sahibkarın hüquq və mənafelərini müdafiə edir.

«Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda həmçinin sahibkarlıq fəaliyyətinin dayandırılması və ona xitam verilməsi qaydalarından da danışılır. Qanunda göstərilir ki, sahibkarlıq fəaliyyətinin dayandırılması haqqında qərarı sahibkarın özü qəbul edə bilər. Lakin bəzi səlahiyyətli orqanlar sahibkarlıq fəaliyyətinin dayandırılması barəsində təqdimat vermək hüququna malikdir. Sahibkarlıq fəaliyyətinə xitam verilməsi haqqında qərarı da sahibkar özü və ya müvafiq rayonun məhkəməsi qəbul edə bilər. Sahibkar vəfat etdikdə

onun əmlakı varisinə keçir. Bağlaşma əsasında həyata keçirilən sahibkarlıq fəaliyyətinə aşağıdakı hallarda xitam verilir:

– bağlaşmanın müddəti başa çatdıqda;
– tərəflərin birgə razılığı olduqda;
– məhkəmənin qərarı çıxarıldıqda;
– bağlaşmada nəzərdə tutulmayan digər hallarda.

*Ümumiyyətlə, **«Sahibkar»** və **«Sahibkarlıq fəaliyyəti»** haqqında müxtəlif fikirlər, mülahizələr və anlayışlar mövcuddur. «Sahibkar» ifadəsi iki sözün: «sahib» və «kar» sözlərinin birləşməsindən əmələ gəlmişdir. «Sahib» sözü ərəb dili olub «yiyə», «mülkiyyətçi» deməkdir; «kar» ifadəsi isə fransız sözü olub «fəaliyyət», «iş» mənasını daşıyır.*

Sahibkar ifadəsi, sözü ilk dəfə olaraq Qərb iqtisadiyyatında fransız iqtisadçısı R.Kantilyon (1680-1734) tərəfindən işlədilmişdir. O, mənfəət götürmək məqsədilə digərlərindən məhsulu müəyyən qiymətlə alaraq bazarda özünə xeyirli qiymətə satmağa çalışan adamları sahibkar adlandırmışdır. Onun fikrincə sahibkar fəaliyyəti müxtəlif növ əmtəələr və tələblə-təklif arasında münasibət yaratmağa xidmət edir.

Sahibkarlıq fəaliyyəti haqqında fikirlər, mülahizələr A.Smitin (1723-1790) iqtisadi nəzəriyyəsində də öz əksini tapmışdır. Belə ki, o, sahibkarı öz istehsalını planlaşdıran və təşkil edən, onun nəticələri üçün risk edən mülkiyyətçi kimi nəzərdə tutur.

Daha sonralar sahibkarlıq fəaliyyətinin geniş anlayışı fransız iqtisadçısı J.B.Sey (1767-1832) tərəfindən verilmişdir. O, sahibkarı risk etməsinə baxmayaraq mənfəət götürmək məqsədilə hər hansı bir məhsul (iş, xidmət) istehsal edən və satan şəxs kimi qələmə verirdi. Lakin o, özündən əvvəlki iqtisadçılardan fərqli olaraq sahibkarlıq fəaliyyətinin klassik nəzəriyyəsini yaratmış və həmin nəzəriyyə bu gün də öz əhəmiyyətini itirməmişdir.

Sahibkarlıq fəaliyyətinin daha dolğun anlayışının verilməsində alman iqtisadçısı V.Zombartın (1863-1941) da rolu az olmamışdır. O, sahibkarlıq fəaliyyəti qarşısında duran məqsədi iki qrupa – əsas və asılı məqsədlər qrupuna ayırmışdır. Onun fikrincə, mənfəət əldə edilməsi sahibkarlıq fəaliyyətinin əsas məqsədi deyil, ikinci dərəcəli məqsədidir. Bu fəaliyyətin əsas məqsədi isə daima inkişaf etmək, çiçəklənmək, genişlənməkdir. O, göstərirdi ki, bu məqsədə çatmaq üçün sahibkar hər cür



risk etməyə hazır olmalıdır, inadkarlıq etməli və inam göstərməlidir, ümumi mənafe naminə bir çox insanları işə cəlb etməyi bacarmalıdır, yəni yaxşı təşkilatçı olmalıdır.

Sahibkarlıq fəaliyyəti haqqında anlayışın formalaşmasında Avstriya iqtisadçısı J.Şumperinin (1883-1950) də müəyyən xidmətləri olmuşdur. O, sahibkarı yenilikçi adlandıraraq, onun əsas vəzifəsi kimi istehsal amillərinin yeni kombinasiyasına və beləliklə də, iqtisadi tərəqqiyə nail olmağı irəli sürürdü. O, yazırdı ki, sahibkar olmaq, digərlərinin edə bilmədiyini etmək, əvvəlcədən görə bilmək, köhnəliyə zidd çıxmaq, yenilik tapmaq və onu tətbiq etmək, qorxmadan risk etmək, qabaqcadan verilmiş proseslər əsasında deyil, həmin prosesləri özü müəyyən etmək qabiliyyətidir. Onun fikrincə, sahibkarlıq fəaliyyətinin subyekti kimi həm istehsalın sahibi, həm də istehsalçı müəssisənin, bankın, səhmdar cəmiyyətinin idarəedicisi çıxış edə bilər.

Sahibkarlıq fəaliyyəti ilə bağlı fikirlərə A.Marşalın (1842-1924) iqtisadi əsərlərində də rast gəlmək olur. Lakin A.Marşalın əvvəlki iqtisadçılardan fərqi ondan ibarətdir ki, o, azad sahibkarlığı istehsal azadlığını iqtisadi azadlıqla eyniləşdirir, yəni A. Marşal sahibkarlıq fəaliyyətinin əsas sferası kimi istehsal sahəsini qəbul edir. Digər tərəfdən isə o, azad sahibkarlıqla bazar iqtisadiyyatının əsas şərti olan iqtisadi azadlığı eyniləşdirməklə sahibkarlıq fəaliyyətinin bazar iqtisadiyyatı mahiyyətindən doğan və onun əsas fərqləndirici cəhətlərini təşkil edən bir iqtisadi təzahür olduğu fikrini irəli sürür.

Beləliklə, sahibkarlıq fəaliyyəti haqqında baxışların, fikirlərin çoxillik tarixinə baxmayaraq, bu vaxta kimi onun barəsində yekdil fikir yoxdur. Sahibkarlıq fəaliyyəti haqqında öz fikirlərini söyləyən və ona tərif verən bütün iqtisadçıları fikir eyniliyinə görə aşağıdakı dörd qrupa ayırmaq olar.

***Birinci qrup iqtisadçılar*** sahibkarlıq fəaliyyəti dedikdə, kommersiya fəaliyyətini həyata keçirmək və mənfəət götürmək məqsədilə iqtisadi risk edən mülkiyyətçini nəzərdə tuturlar. Bu anlayış çox bəsitdir və müəyyən qüsurlara malikdir: əvvələ, bu anlayış sahibkarlıq fəaliyyəti dairəsini, sferasını məhdudlaşdıraraq, onu faktiki olaraq kommersiya fəaliyyəti ilə bağlayır; ikincisi, sahibkarın yerinə yetirdiyi çoxsaylı vəzifələrdən, funksiyalardan, məqsəddən yalnız birini – risk etmək xüsusiyyətini irəli

sürür; üçüncüsü, sahibkarlıq fəaliyyətinin subyekti kimi yalnız mülkiyyətçini qəbul edir, halbuki sahibkarlıq fəaliyyətinin subyekti kimi təkcə mülkiyyətçi deyil, həm də idarəedicilər, menecerlər çıxış edirlər.

***İkinci qrup iqtisadçılar*** sahibkarlıq fəaliyyəti dedikdə, yeni ideyaların yaradılması və mənimsənilməsini, keyfiyyətcə yeni növ məhsulların və texnologiyaların işlənib hazırlanmasını, istehsalın inkişafının perspektiv amillərinin əldə edilməsini, istehsalçılar tərəfindən xidmətin yeni üsullarının və investisiya tətbiqinin yeni sahələrinin, istiqamətlərinin aşkarlanması üzrə tədqiqatların aparılması və onların həyata keçirilməsini nəzərdə tuturlar. Verilmiş anlayışdan görünür ki, bu tərif, anlayış əvvəlkindən xeyli geniş olmasına baxmayaraq, o da bəzi qüsurlara malikdir: birincisi, burada sahibkarlıq fəaliyyətinin bilavasitə məqsədi, yəni mənfəət əldə etmək barədə heç bir söz deyilmir; ikincisi, anlayışda sahibkarın malik olduğu müxtəlif xarakterli fəaliyyət növlərindən yalnız bir xüsusiyyət – yenilikçi olması xüsusiyyəti nəzərə alınır, digər xüsusiyyətlər isə göstərilmir.

***Üçüncü qrup iqtisadçılar*** qeyd edirlər ki, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatı şəraitində qanunvericilikdə nəzərdə tutulmuş qaydada həyata keçirilib, mənfəət əldə edilməsinə yönəldilmiş, istiqamətləndirilmiş fəaliyyət növüdür. Bu anlayışın əvvəlkilərdən fərqli cəhəti ondan ibarətdir ki, burada, birincisi, sahibkarlıq fəaliyyəti haqlı olaraq bazar iqtisadiyyatına xas olan bir iqtisadi reallıq hesab edilir; ikincisi, sahibkarlıq fəaliyyətinin hər bir ölkənin mövcud qanunvericiliyinə müvafiq olaraq həyata keçirildiyi göstərilir. Lakin bu anlayışda da sahibkarlıq fəaliyyətinə xas olan bəzi xüsusiyyətlər, məsələn, yenilikçilik, riskli olması öz əksini tapmamışdır.

***Dördüncü qrup iqtisadçılar*** sahibkarlıq fəaliyyəti dedikdə, öz fikirlərini reallaşdırmaq və sosial-iqtisadi səmərəyə nail olmaq üçün yeni kombinasiyaları, proqramları, layihələri həyata keçirən təsərrüfatçılıq subyektlərini başa düşürlər.

Sahibkarlıq fəaliyyəti haqqında anlayış və mülahizələr «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanununda da verilmişdir. Bu qanunda sahibkarlıq fəaliyyəti dedikdə, fiziki şəxslərin, onların birliklərinin, həmçinin hüquqi şəxslərin mənfəət və ya şəxsi gəlir əldə edilməsi məqsədilə özlərinin cavabdehliyi və əmlak məsuliyyəti ilə, yaxud digər hüquqi və ya fiziki şəxslərin adından qanunvericiliklə qadağan edilməyən təsərrüfatçılıq fəaliyyətinin bütün növləri formasında həyata keçirdikləri müstəqil fəaliyyət növü nəzərdə tutulur. Göründüyü kimi, bu tərif, anlayış əvvəlkilərdən daha geniş və mürəkkəb olsa da, lakin bu da, bir sıra qüsurlara malikdir; belə ki, burada sahibkarlıq fəaliyyətinə xas olan əsas xüsusiyyətlər, məsələn, yenilikçi olması xüsusiyyəti, riskli cəhdi və s. unudulmuşdur.



Beləliklə, sahibkarlıq fəaliyyəti haqqında yuxarıda göstərilmiş hər bir tərif, anlayış bu mürəkkəb iqtisadi kateqoriyanın və səmərəli təsərrüfatçılıq formasının bütün fərqli cəhətlərini özündə əhatə edə bilməmişdir. Bu da təbii bir haldır, çünki birincisi, ona görə ki, sahibkarlıq fəaliyyəti insanın iqtisadi fəaliyyətinin müxtəlif sahələrini əhatə edir; ikincisi, sahibkarlıq fəaliyyəti nisbətən səmərəli təsərrüfatçılıq formasıdır, çünki bu ən az məsrəflərlə, əməyin və istehsalın təşkilinin ən mütərəqqi üsullarını tətbiq etməklə iqtisadi fəaliyyəti həyata keçirməyə imkan verir; üçüncüsü, sahibkarlıq mütərəqqi iqtisadi təfəkkürdür, çünki o, öz subyektlərində istehlakçıların tələblərinə uyğun məhsul istehsal etməyi və satmağı nəzərdə tutur.

***Təsərrüfatçılıq fəaliyyəti*** – istehsal ehtiyatlarının əvvəlcədən verilmiş kombinasiyasından, texnika və texnologiyasının mövcud səviyyəsindən olduğu kim, yəni heç bir yenilik, dəyişiklik və risk etmədən istifadə etməklə həyata keçirilir. Halbuki sahibkarlıq fəaliyyətinin əsas məzmununu, qeyd etdiyimiz kimi, təşəbbüskarlıq və yenilikçilik təşkil edir və müəyyən risk ilə bağlıdır. Ümumiyyətlə risk sahibkarlıq, təsərrüfatçılıq, biznes və kommersiya fəaliyyətlərində əsas rol oynayır. Odur ki, riskin bütün cəhətlərini dərindən öyrənmədən və onu lazımınca qiymətləndirmədən sahibkarlıq, həmçinin təsərrüfatçılıq, biznes və kommersiya fəaliyyətlərinin taktika və strategiyasını düzgün qiymətləndirmək olmaz. Təsərrüfatçılıq fəaliyyəti ilə əlaqədar olan risklərin aşağıdakı növlərini fərqləndirirlər:

***a) məhsulların nəql edilməsi və istehlakçılar tərəfindən alınması ilə bağlı risk.*** Məlumdur ki, hər bir yeni fəaliyyət növü və ya məhsul bazarda birdən-birə rəğbət qazana bilməz. Odur ki, təsərrüfatçı hər cür hadisələrə hazır olmalıdır;

***b) istehlakçıların tədiyyə qabiliyyətli tələbləri ilə əlaqədar***

***olan risk.*** Tədiyyə qabiliyyətli tələb cəmiyyətin pul formasında istifadə olunan tələbatıdır. Tədiyyə qabiliyyəti tələb müəssisənin istehsal vasitələrinə olan tələbinə və əhalinin tələbinə ayrılır;

***c) xarici mühitin təsiri, o cümlədən valyuta kursunun dəyişməsi ilə bağlı olan risk.*** Məlumdur ki, valyuta ölkənin pul vahididir. Valyuta konversiya olunan, yəni dəyişdirilən valyutaya, qismən konvensiya olunan valyutaya, yəni dəyişdirilməsi bu və ya digər valyuta əməliyyatı ilə məhdudlaşan valyutaya və konvensiya olunmayan valyutaya, yəni bir ölkə miqyasında fəaliyyət göstərən valyutaya ayrılır;

***ç) bazarın konyunkturasının formalaşmasında xüsusi əhəmiyyəti olan pul vəsaitlərinin köçürülməsinə, ixrac-idxal əməliyyatlarına və bir çox digər tədbirlərin həyata keçirilməsinə yönəldilən məhdudiyyətlər və qadağalarla əlaqədar olan risk.***

***Biznes fəaliyyəti*** – əsasən, qısa müddətli bir prosesdir, yəni o, birdəfəlik akt olub hər hansı bir konkret işin, əməliyyatın, xidmətin yerinə yetirilməsi, sövdələşmənin reallaşması ilə əlaqədardır. Bundan fərqli olaraq sahibkarlıq daimi bir prosesdir. Deməli, sahibkarlıq fəaliyyəti biznes fəaliyyətinə nisbətən daha geniş dairəni əhatə edir: birincisi, sahibkarlıq bazar iqtisadiyyatı fəaliyyətinin mahiyyətini daha dolğun əks etdirdiyinə görə, onu biznes iqtisadiyyatı deyil, sahibkarlıq iqtisadiyyatı adlandırırlar; ikincisi, sahibkarlıq təkcə yenilikçilik qabiliyyətini deyil, eyni zamanda tədqiqatçılıq və təşkilatçılıq, müstəqil qərar qəbul etmə və onları həyata keçirmə bacarığının məcmusudur.

Məlumat üçün qeyd edək ki, Qərb ölkələrində biznes fəaliyyətinə müxtəlif aspektlərdə yanaşılır və ona müxtəlif təriflər verilir. Məsələn, Texas və İllinoys universitetlərinin bizneslə məşğul olan alimləri S.Rozenblat, R.Brnninton və B.Nidlson özlərinin «Biznes konsepsiyası» adlı dərsliyində qeyd edirlər ki, biznes – işlərin idarə edilməsi sistemidir, yəni biznes – adamlara lazım olan məhsulların yaradılması ilə bilavasitə əlaqədar olan işdir, əmək fəaliyyətidir. Doğrudan da, ***«biznes» ifadəsi ingilis sözü olub, hərfi mənası «iş» deməkdir.*** Qərb ölkələrində «iş» sözü «biznes» sözü ilə eyniləşdirilmişdir. Əslində bazar iqtisadiyyatı ölkələrində biznes adamlar arasında münasibətlər, daha doğrusu, müəyyən bir işin iştirakçıları arasında işgüzar münasibətlər kimi nəzərdə tutulur. Məhz bu «iş»də iştirak etməklə onlar işgüzar adam kimi çıxış edirlər. Ona görə də adi həyatda belə «iş»lə məşğul olan adamlar «işgüzar», «iş adamı», «işlə məşğul olan adam», «bizneslə məşğul olan adam», «biznesmen» adlanırlar.



Ümumiyyətlə, sahibkarlıq və təsərrüfatçılıq fəaliyyətlərindən fərqli olaraq, biznes şəxsi təşəbbüslərə əsaslanan, gəlir məqsədi güdən iqtisadi fəaliyyətdir. Əsasən öz kapitalı və ya kredit üzrə iş görür. Bu fəaliyyət həm də əhəmiyyətli risklə bağlıdır. İnformasiya, intellektual əmək məhsulları, qiymətli kağızlar, pul vəsaitləri, istehsal vasitələri üzərində dövlət mülkiyyəti müasir dövlət biznesinin əsasını təşkil edir. Yeni iqtisadi şəraitdə sahibkar müstəvisi, işgüzar fəaliyyətin həyata keçirilməsi ilə bağlıdır. Mülkiyyət formasına görə fərdi, korporativ, fəaliyyət həcminə görə kiçik, orta, iri, həcminin beynəlxalq və digər subsektorial kommersiya funksionallığını əhatə edən, biri-biri ilə sıx qarşılıqlı təmas və rabitədə olan sahibkarlıq neft-qaz sektorunda da eyni ampuladan çıxış edir.

Neft dünyada ən nəhəng və geniş yayılmış biznes növüdür. Neft sənayesi və beynəlxalq münasibətlər üzrə tanınmış ABŞ eksperti Daniyel Yerqinin fikrincə, «Heç bir biznes növündə belə işıqlı və dəqiq risk düşüncəsi və mükafatlılığı, o cümlədən, müvəffəqiyyətə və taleyə güclü təsir edən məzmun yoxdur. XXI əsrə nəzər yetirdikdə burada mikroprosessorlarla yanaşı, neft çəlləklərinin də hakim mövqedə dayanmış olduğunu yəqin edərik. Bütün epoxaya davamlı təsir edən neft sənayesi keçmişdə olduğu kimi, yenə də ayrı-ayrı insanlar, şirkətlər, bütöv dövlətlərin rifah mənbəyi olaraq qalır».

Biznes fəaliyyəti mülkiyyət azadlığı və bazar subyektinin gerçək müstəqilliyinə əsaslanır. Biznes işində əsas prinsipial cəhət mənfəət əldə etməkdir. Lakin bu mənfəət yüksək effektivlik tələb edən amansız risk tələbindən keçir. Beynəlxalq təcrübə bəyan edir ki, biznesin sürətli inkişafı və genişləndirilməsi, əsasını iqtisadi, təşkilati, sosial səbəb və tələblərin təsiri qaynaqlandırır.

Beləliklə, biznes fəaliyyəti bazar təsərrüfat sistemində meydana çıxır və onun əsas halqasını təşkil edir. Biznes və bazar vəhdətdədir, ayrılmazdır, onlar birlikdə mövcud olur və inkişaf edirlər. Məlumdur ki, inzibati-amirlik təsərrüfat sistemi şərai-

tində mövcud olan müəssisələr biznes fəaliyyəti ilə deyil, təsərrüfat fəaliyyəti ilə məşğul olmuşlar.

Bazar iqtisadiyyatının təkmilləşdirilməsi və inkişafı ilə bağlı olaraq biznes fəaliyyətinin iqtisadi təşkilində dəyişikliklər baş verir. Hər şeydən öncə, dövlətin və ictimai təşkilatların iqtisadi rolunu gücləndirməklə əlaqədar olaraq sosial sifarişlərin xarakteri dəyişir. Dövlət yalnız sifarişçi kimi deyil, eyni zamanda biznes fəaliyyətinin tənzimlənməsi aləti kimi çıxış edir. İkincisi, maliyyə-kredit sisteminin inkişafı ilə əlaqədar olaraq, biznes fəaliyyəti borc vasitələrindən daha çox istifadə edir və onlardan asılı olur. Bank sistemi biznes fəaliyyətinin xüsusi obyektinə çevrilir. Üçüncüsü, biznes fəaliyyətinin təşkili prosesində mülkiyyət münasibətlərində dəyişikliklər baş verir. İdarəetmənin mülkiyyətdən ayrılması nəticəsində biznes fəaliyyətinin bilavasitə subyekti ixtisaslı idarəediciləri – menecerlər olur, ümumi nəzarət funksiyasını isə mülkiyyətçi özü yerinə yetirir.

Beləliklə, bu gün biznes fəaliyyəti dedikdə, həmin fəaliyyətin daxili və xarici mühitini təşkil edən şəxslər, təşkilatlar və bilavasitə istehsalın təşkilatçıları arasındakı münasibətlər sistemi nəzərdə tutulmalıdır. Biznes fəaliyyətinin daxili mühiti kapital sahibləri, menecerlər və muzdlu işçilər arasındakı münasibətlərlə, xarici mühiti isə biznes fəaliyyətin təşkilatçısı ilə dövlət və cəmiyyət, mal göndərənlər, kreditorlar və istehlakçılar arasındakı qarşılıqlı əlaqə ilə səciyyələnir.

***Kommersiya fəaliyyəti*** – biznes fəaliyyətinin tərkib hissəsi olub, insanın iqtisadi fəaliyyətinin yalnız bir sahəsini, yəni bilavasitə istehsal olunmuş məhsulların (işlərin, xidmətlərin) reallaşdırılması ilə əlaqədar olan ticarət sahəsini, sferasını – alqı və satqı münasibətlərini əks etdirir. Lakin bu gün kommersiya fəaliyyətini yalnız bir ticarət sahəsi kimi təsəvvür etmək düzgün olmazdı, çünki bazar iqtisadiyyatı şəraitində insanın iqtisadi fəaliyyətinin bu formasının rolu və əhəmiyyəti daha yüksəkdir, yəni kommersiya fəaliyyətinin konkret obyekti alqı-satqı prosesi olsa da, bir çox ölkələrin qanunvericiliyində alqı-satqı ilə bağlı münasibətlər sırf ticarət sferasından, sahəsindən kənara çıxır. Buna görə də hazırda kommersiya fəaliyyətinə əmtəələrin alqı-satqısı ilə yanaşı, həm də onların istehsalı, eləcə də bank, nəqliyyat, kənd təsərrüfatı, sığorta və s. sahələr-



lə əlaqədar fəaliyyət formaları da daxil edilir.

Kommersiya fəaliyyəti elmtutumlu texnologiyaya əsaslandığından və tənzimlənən olduğundan, istehsalın hər bir həlqəsinə və ünsürünə, həmçinin məhsulların realizə edilməsinə qeyri-standart yanaşıldıqda o, real ola bilər. Sahibkar müəssisənin əmək kollektivlərinin yaradıcılıq fəaliyyəti və əsl kommersiya məhz istehsalda dolğun demokratik münasibətlər olduğu hallarda mümkündür. Kommersiya münasibətləri sferası olduqca geniş və rəngarəngdir. Bura hər şeydən öncə, istehsal olunan məhsullar, pul və qiymətli kağızlar, o cümlədən səhmlər, vekselləri, xidmətlər, ixtiralar, firmanın markası, «nou-xau» (*«Nou-xau»* – beynəlxalq sazişlərin obyekti olan elmi-texniki biliklərin müxtəlifliyini xarakterizə edir. Geniş mənada «nou-xau» – texniki biliklərin, istehsalatın xüsusi bacarıq və sirlərinin məcmusudur və patent müdafiəsi ilə təmin edilməmiş ixtiraların həyata keçirilməsi deməkdir) və bu kimi digər maddi və qeyri-maddi nemətlər aiddir.

Kommersiya fəaliyyətinin ən başlıca xüsusiyyətlərindən biri sağlam kommersiya münasibətlərinin yaradılmasından ibarətdir. Bunun üçün kommersiya münasibətləri müqabil tərəfləri (partnyorları) müstəqil seçmək, realizə prosesində bütün şərtləri, yəni məhsulun həcmini, çeşidini, keyfiyyətini, qiymətini, müqavilə öhdəliklərini mütləq yerinə yetirilməsini, qarşılıqlı məsuliyyətini və s. prinsiplərini nəzərə almaqla formalaşmalıdır.

Məlumdur ki, kommersiya fəaliyyəti güzəştsiz ola bilməz, yəni kommersiya fəaliyyəti kompromis xarakteri daşıyan bir fəaliyyət növüdür. Tərəflər mənafelərə toxunmamaqla bir-birinə güzəştə getməyi bacarmalıdırlar. Bu o deməkdir ki, sahibkarın tapşırığı ilə sövdələşmə işinə mütəxəssis müqavilə bağlamaq üçün danışıqlar apararkən lazım gəldikdə tərəf-müqabil qarşısında əvvəllər qoyduğu güzəştli şərtlərdən onun razılığı ilə öz fikrindən, tələbindən dönməyi bacarmalıdır. O, eyni zamanda, analoji tərəf-müqabillər arasından gedən rəqabətdən istifadə etməyi, bu rəqabətdə özünə xeyri olan işləri götür-qoy etməyi də bacarmalıdır.

Real bazar iqtisadiyyatı kommersiya fəaliyyəti qarşısında ciddi tələblər qoyur. Belə ki, kommersiya fəaliyyətində tərəf-müqabillər bağladıqları müqavilələrin bütün şərtlərini lazımınca

yerinə yetirməli, qanunvericilik prinsiplərini, tələblərini rəhbər tutmalı və hər iki tərəf üçün səmərəli olmalıdır. Bununla yanaşı, tərəf-müqabillər arasında təmizlik, düzgünlük, doğruluq, işgüzar etika qaydalarına mütləq əməl etmək mühüm əhəmiyyət kəsb edir. Bu tələb və qaydaları pozan sahibkar-kommersant sivilizasiyalı işgüzar dairələr tərəfindən yaxşı qarşılanmır və gec-tez həmin sahibkar-kommersant müflisləşməyə (***Müflisləşmə*** – borclunun borc öhdəçiliyini yerinə yetirə bilməməsinin məhkəmə yolu ilə müəyyənləşdirilməsi deməkdir. Müflisləşmənin rəsmi şəkildə elan olunduğu gündən borclu öz əmlakını müstəqil şəkildə idarə etmək və sərəncam vermək hüququndan məhrum olur) düçar olur.

Kommersiya fəaliyyətinin ən ali məqsədi iqtisadi səmərənin əldə edilməsidir, mövcud qanunlara əməl etməklə maksimum mənfəət, gəlir götürməkdir. Buna nail olmaq üçün, ilk növbədə, sövdələşmələrdə, sonra təsərrüfat müqavilələrinin bağlanmasında və daha sonra isə bu müqavilələrin yerinə yetirilməsində yüksək peşəkarlıq keyfiyyətlərinin olmasıdır. Kommersiya bacarığı, məharəti, ustalığı, hər şeydən öncə, bundan ibarətdir ki, bu sövdələşmədə və bağlanan müqavilədə real iqtisadi marağı, fəaliyyətin nəticələrini qabaqcadan görə bilməsidir. Bunun üçün isə kommersiya fəaliyyətinin təhlilinə və kommersiya hesabının tətbiqinə diqqət yetirilməlidir. Çünki kommersiya fəaliyyəti heç də təkcə istehsalçı müəssisələrin çıxış bazaları vasitəsilə məhsul satışı və ticarət müəssisələrinin məhsullarla təchiz edilməsi şərtləri ilə əlaqədar olan ticarət deyil, eyni zamanda bazarda iqtisadi münasibətlərin həllinə, mövcud qanunların aliliyinə əməl etməklə maksimum gəlir, mənfəət qazanılması məqsədinə yönəldilmiş bazar fəaliyyəti deməkdir. Kommersiya fəaliyyəti isə iqtisadiyyatın bütün istiqamətləri üzrə fəal bazar siyasətidir. Bu siyasət özlüyündə olduqca mürəkkəb və həm də bazar iqtisadiyyatının nəzəri və praktiki məsələlərini, onun obyektiv qanunlarını yaxşı bilməyi, həmin qanunların tələblərindən irəli gələn vəzifə və funksiyalara qayğı ilə yanaşmağı bacaran sövdəgər olmağı tələb edən işdir.

Kommersiya fəaliyyətinin dayanaqlığı xeyli dərəcədə kommersiya sirri ilə bağlıdır. Kommersiya sirri iki əsas cəhəti: istehsal və sirrin mühafizə olunmasını əks etdirir. Kommersiya



sirrinin istehsal cəhəti elmi-tədqiqat, elmi-texniki, layihə-konstruktor, texnoloji tədqiqat işlərinin nəticələrinin və istehsal prosesində baş verən yardımçı aralıq vəzifələri, funksiyaları əhatə edir. Kommersiya sirrinin mühafizəsini xüsusi dövlət inzibati orqanları və güc strukturları təmin edir.

Kommersiya fəaliyyətinin təşkilində kommersiya sövdələşmələri xüsusi rol oynayır. Adi sövdələşmə və kommersiya sövdələşməsini bir-birindən fərqləndirirlər. Belə ki, ***adi sövdələşmə*** dedikdə, dəyərlərin iki tərəf arasında kommersiya mübadiləsi nəzərdə tutulur. Sövdələşmə prosesində tərəflər bir-birilərinin məqsədlərini aşkara çıxarmaqla sövdələşmə predmetinin kommersiya həllinin yollarını, üsullarını, məqsədyönlüyünü və əldə ediləcək son nəticələrin faydalılıq dərəcəsini götür-qoy edirlər. Bazar münasibətləri baxımından *kommersiya sövdələşməsi* dedikdə, tərəf-müqabillər arasında alqı-satqı məsələləri, iş, yaxud xidmətlər üzrə razılaşmaların nəticələrinə uyğun surətdə razılığa gəlmə nəzərdə tutulur. Mövcud kommersiya sövdələşməsini iki qrupa ayırmaq olar:

– ***əsas kommersiya sövdələşmələri*** – özündə məhsulların alqı-satqısı, elmi-texniki bilikləri, patentləri, lisenziyaları, «nou-xau»u və s. prosesləri əks etdirir;

– ***yardımçı kommersiya sövdələşmələri*** – yükdaşımalarını, yerlərin sığortalanmasını, məhsulların gətirilməsini, anbarlaşdırılmasını, qorunub saxlanılmasını və yenidən emalını, həmçinin bank əməliyyatlarının aparılmasını, yeni tərəf-müqabillər arasında hesablaşmaların həyata keçirilməsini və s. nəzərdə tutur. Göründüyü kimi, yardımçı kommersiya sövdələşməsinin bu tərkib ünsürləri əsas kommersiya sövdələşmələrinin bir növ infrastrukturu kimi çıxış edir, yəni bunlarsız əsas kommersiya sövdələşmələrinin baş tutması qeyri-mümkündür.

Məlumat üçün qeyd edək ki, kommersiya sövdələşmələri hansı formada olursa-olsun, onlar ya nağd, ya da nağdsız hesablaşmalarına əsaslanır. Lakin bununla yanaşı, təcrübədə barter, yaxud kompensasiyalı kommersiya sövdələşmələrinə də tez-tez rast gəlmək olur. Bu növ sövdələşmələr pulun iştirakı olmadan, bilavasitə mal mübadiləsi, necə deyərlər, «baş-başa dəyişmək» qaydası ilə həyata keçirilir. Barter sövdələşmələri, əsasən, iqtisadi cəhətdən zəif inkişaf etmiş ölkələrdə daha geniş tətbiq edi-

lir. Məsələn, kommersiya sövdələşməsinin bu formasından keçmiş SSRİ-nin tərkibində olmuş, indi isə müstəqillik əldə etmiş respublikalarda, o cümlədən də Azərbaycan Respublikasında istifadə olunur.

Kommersiya sövdələşməsinin həyata keçirilməsinin müəyyən metodları və əsasları vardır. Bütün sövdələşmələrin əsasını hüquqi sənədləşdirmələr təşkil edir. Həmin sənədlər müqavilələrdən, sazişlərdən və kontraktlardan ibarətdir. Məhz bu sənədlərdə kommersiya sövdələşmələrinin şərtləri müəyyənləşdirilir və konkretləşdirilir. Müqavilələr, sazişlər və kontraktlar, əsasən, alqı-satqı aktları, lisenziyalar, icarə, sığorta, yükdaşıma, mal göndərmə və bu kimi kommersiya əməliyyatları keçirildikdə işlənib hazırlanır və bağlanır.

Kommersiya sövdələşmələrinin metoduna gəldikdə isə, bu, ilk öncə, baş tutmuş sövdələşmənin iqtisadi səmərəliliyini təmin etməlidir. Kommersiya sövdələşməsinin həyata keçirilməsinin aşağıdakı üç metodunu fərqləndirirlər:

a) bilavasitə istehsalçı ilə istehlakçılar arasında yaranan sövdələşmələr;

b) bazar vasitəçilərinin iştirak ilə həyata keçirilən sövdələşmələr;

c) törəmə sövdələşmələri – yuxarıda göstərilən iki sövdələşmələrin uyğunlaşdırılmasından əmələ gəlir.

Yuxarıda göstərilən metodlardan ən əlverişlisi bilavasitə istehsalçılar ilə istehlakçılar arasındakı kommersiya sövdələşməsidir. Buna bəzən ticarət sövdələşməsi də deyilir, çünki bu, ticarət-kommersiya münasibətləri ilə bağlıdır. Bu növ kommersiya sövdələşməsi aşağıdakı üstünlüklərə malikdir:

– alıcının, istehlakçının məhz istədiyi məhsulları almaq imkanı yaranır;

– alıcı ilə satıcı arasında birbaşa əlaqə yaranır ki, bu da sövdələşmə zamanı orta çıxan məsələləri tez həll etməyə imkan verir;

– alıcı malgöndərənlərlə, yəni istehsalçı müəssisələrlə, fiziki şəxslərlə birbaşa əlaqə yaratmaq imkanı əldə;

– birbaşa sövdələşmələr gələcəkdə uzun müddətli əməkdaşlığın yaranmasına şərait yaradır.

***Vasitəçilər*** – əmtəələrin irəlilədilməsində, satılmasında və müştərilər arasında yayılmasında istehsalçı müəssisələrə yardım göstərən fərdi adamlar və yardımçı firmalar ola bilər. Onlara ticarət vasitəçiləri, əmtəənin irəlilədilməsinin təşkili üzrə agentlər və kredit-maliyyə idarələri aiddir. Vasitəçilərin iştirakı ilə kommersiya sövdələşmələri funksional baxımdan iki qrupa: ticarət-vasitəçilik sövdələşmə və ticarət vasitəçiləri qrupuna ayrılır. Kommersiya sövdələşməsinin aşağıdakı mərhələlərini fərqləndirirlər:



a) kontragentin axtarılıb tapılması və seçilməsi mərhələsi – kommersiya sövdələşmələrinin keyfiyyətinin müəyyənləşdirilməsində və tərəf-müqabillər üçün sövdələşmənin səmərəliliyində mühüm rol oynayır;

b) sövdələşmə üzrə sazişin bağlanmasına hazırlıq mərhələsi – mümkün tərəf-müqabilə, yəni istehsalçı-satıcıya göndərilən məktuba razılıq cavabının alınması anından başlanır. Bu mərhələdə texniki həllin təminatı, məhsulun keyfiyyətini, onun alıcıya çatdırılması qaydasını və s. məsələləri müəyyənləşdirmək üçün danışıqlar aparılır. Belə danışıqlar sənaye-ticarət sərgilərində, yarmarkalarda və s. bu kimi yerlərdə həyata keçirilir;

c) alqı-satqı müqaviləsinin bağlanmasına hazırlıq mərhələsi – məhsulların satın alınmasını, yəni məhsulun maya dəyərindən tutmuş, ta həmin məhsulun alqı-satqısı və son realizə edilməsi ilə əlaqədar olan bütün məsrəflər və özünün mənfəəti də daxil olmaqla bazar qiymətinədək iqtisadi hesablamaları özündə əks etdirir;

ç) bağlanmış müqavilələrin imzalanması mərhələsində müqavilənin hər bir maddəsi razılaşdırılır və həmin müqavilə paraflanır, yəni təsdiq edilir, tərəf-müqabillər tərəfindən imzalanır.

Beləliklə, kommersiya fəaliyyəti biznes fəaliyyəti ilə əlaqədardır. O, bilavasitə istehsal edilmiş məhsulların reallaşdırılması ilə məşğul olan ticarət sahəsini – alqı-satqı münasibətlərini əks etdirir. Müasir bazar iqtisadiyyatı şəraitində kommersiya fəaliyyətini təkcə bir ticarət sferası ilə əlaqələndirmək iqtisadi fəaliyyətin bu formasının rolunu və əhəmiyyətini tam əks etdirmir və onu xeyli məhdudlaşdırır. Məhz buna görə də kommersiya fəaliyyətinin əhəmiyyətinə qiymət verən iqtisadçılar problemə daha düzgün yanaşmış olurlar. Hazırda kommersiya fəaliyyətinə aşağıdakılar daxil edilir:

– sənaye, kənd təsərrüfatı, tikinti və s. müəssisələrin istehsal

fəaliyyətindən törəyən ticarət əməliyyatları;

– ticarət, bank və digər müəssisələrin əmtəə və pulların dövriyyəsinə aid edilən ticarət əməliyyatları;

– əmtəələrin alıcıya doğru hərəkəti ilə bağlı onların daşınması, sığortalanması, qorunub saxlanılması ilə əlaqədar olan nəqliyyat, sığorta və s. müəssisələrin ticarət əməliyyatları;

– ticarət fəaliyyətinin müxtəlif növ icarə, informasiya, injiniring (*İnjinirinq* – xarici sifarişlərlə müqavilə üzrə bəzi işlərin yerinə yetirilməsi deməkdir. Elmi tədqiqatın layihəqabağı mühəndis-axtarış işlərinin aparılması, texniki tapşırıqların, sənaye və başqa obyektlərin layihə tapşırıqlarının və tikintinin texniki-iqtisadi əsaslarının tərtib edilməsi, texniki sənədlərin işlənib hazırlanması, texniki və texnoloji obyektlərin layihələşdirilməsi və konstruktor işləmələrinin həyata keçirilməsi, iqtisadi, maliyyə və ya digər xarakterli məsləhətləri əhatə edir) xarakterli xidmətlərlə təmin edilməsi üzrə əməliyyatlar.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində biznes fəaliyyəti kommersiya, təsərrüfatçılıq və sahibkarlıq fəaliyyətlərindən müəyyən qədər fərqlənir. Düzdür, göstərilən növləri arasında ümumi və xüsusi cəhətlər vardır. ***Ümumi cəhətlərə aşağıdakılar aid edilir:***

– hər dörd fəaliyyət növünün reallaşdırılması bazar vasitəsilə baş verir;

– hər dörd fəaliyyət növünün ali məqsədi mənfəət əldə etməkdir;

– hər dörd fəaliyyət növündə maddi marağın ödənilməsi əmtəə istehsalı və yaxud xidmətlər göstərilməsi ilə bağlıdır;

– hər dörd fəaliyyət növü üçün zəruri iqtisadi mühit, hər şeydən öncə isə iqtisadi azadlıq şəraiti tələb olunur.

Bununla belə biznes fəaliyyəti ilə sahibkarlıq, təsərrüfatçılıq və kommersiya fəaliyyətləri arasında, qeyd etdiyimiz kimi, ***fərqli cəhətlər*** də vardır. Bunlara aşağıdakılar aid edilir:

– biznes və kommersiya fəaliyyəti tarixçilik baxımından daha tez, əmtəə istehsalının meydana gəlməsi ilə yaranmışdır. Sahibkarlıq və təsərrüfatçılıq fəaliyyətləri isə bazar iqtisadiyyatı şəraitində biznes və kommersiya fəaliyyətinin varlıq forması kimi çıxış edir;

– kapitalizm cəmiyyətində sahibkarlıq və təsərrüfatçılıq fəaliyyətlərinin məzmunu biznes və kommersiya fəaliyyətlərinin məzmununa nisbətən daha genişdir, çünki sahibkarlıq fəaliyyəti özünə hər şeydən öncə yenilikçilik axtarışı kimi bir fərqləndirici cəhəti daxil edir;



– biznes fəaliyyəti, əsasən, birdəfəlik bir akt kimi sövdələşmənin razılaşdırılması ilə əlaqədardır. Lakin, ondan fərqli olaraq, sahibkarlıq fəaliyyəti bazar iqtisadiyyatının daimi bir prosesi, həmin cəmiyyətin müəyyənedici şərti, onun mövcudluğunun və inkişafının başlıca hərəkətverici qüvvəsidir. Ümumiyyətlə, demək lazımdır ki, bu iqtisadiyyatın inkişaf dərəcəsi, sahibkarlıq fəaliyyətinin səviyyəsi, onun üçün yaradılmış iqtisadi mühitin xarakteri ilə müəyyən olunur. Qərb ölkələrinin müasir təcrübəsi sübut edir ki, sosialyönümlü bazar iqtisadiyyatının yaradılması istiqamətində həmin ölkələrin yüksək nailiyyətləri burada sahibkarlığın geniş inkişafının nəticəsidir. Buna görə də bəzi hallarda kapitalist iqtisadiyyatını biznes iqtisadiyyatı deyil, sahibkarlıq iqtisadiyyatı adlandırırlar;

– sahibkarlıq fəaliyyətinin subyekti kimi bir şəxs deyil, bir neçə sahibkar eynihüquqlu şəriklər, partnyorlar kimi çıxış etdiyi halda, onların hər biri və ya bir neçəsi biznesin konkret sahələri üzrə ixtisaslaşır və məhz bu sahənin fəaliyyəti ilə bağlı əsas qərarları qəbul edirlər.

## 10.2. Biznes fəaliyyətinin subyektləri və tətbiqi sahələri

Biznes fəaliyyətinin təşkili ilə əlaqədar olan məsələlərdən biri onun subyektinin düzgün müəyyənləşdirməkdən və biznes infrastrukturunun yaradılmasından ibarətdir, yəni biznes fəaliyyətinin subyekti və infrastrukturu elə müəyyənləşdirilməlidir ki, mövcud ehtiyatlardan daha səmərəli istifadə etməklə biznes fəaliyyətinin yüksək son nəticələrinə nail olunmasını, deməli mənfəətin əldə edilməsini təmin edə bilsin. İstehsalın konkret şəraitindən asılı olaraq biznes fəaliyyətini təşkil etdikdə əməyin elmi təşkilinin tələbləri, fiziologiya, psixologiya və gigiyena tövsiyələri, mühəndis texnologiyası və texniki estetikanın tələbləri nəzərə alınmalıdır. Bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, biznes fəaliyyətinin subyektləri kimi, sahibkarlıq fəaliyyəti, məhsul, iş və xidmət göstərən istehsalçılar, əmək

kollektivləri və dövlət orqanları çıxış edə bilərlər. Bazar iqtisadiyyatı şəraitində hər kəs özünə peşə seçməkdə tam azadlığa malik olduğu üçün, biznes fəaliyyəti ilə məşğul olmaqda da tam azaddır. Lakin bu zaman biznes fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir kəs, bazar iqtisadiyyatının digər strukturlarında olduğu kimi, müəyyən məbləğdə kapitala, əmlaka malik olmalıdır.

Məlumdur ki, hər fəaliyyət növünün özünə məxsus strategiyası və taktikası olur. Biznes fəaliyyətinin də özünə xas strategiya və taktikası vardır. ***Biznes fəaliyyətinin strategiyası*** dedikdə, onun son məqsədi, ***biznes taktikası*** dedikdə isə onun yaxın gələcək üçün müəyyənləşdirdiyi məqsədi və səmərəli taktiki yolların, metodların seçilməsi, problemin həllində çeviklik etdirilməsi nəzərdə tutulur. Biznes strategiyası, yəni onun son məqsədi dövlət qanunvericiliyinin aliliyinə hörmək, istehsalçı və istehlakçıların hüquqlarının mühafizəsi şəraitində maksimum mənfəət götürməkdir. Bu mənfəəti əldə etmək üçün biznesin müxtəlif taktiki variantlarının onu şərtləndirən əlamətlərlə uyğunlaşdırılması mühüm cəhətlərdən biridir. Həmin taktiki əlamətlərə aiddir:

– bazar subyektləri arasında əmək fəaliyyətinin mübadiləsi;

– mübadilədə iştirak edən tərəflərin öz şəxsi marağının hökmən həyata keçirməsinə nail olmaq cəhdi;

– qarşılıqlı razılaşmalar prosesində tərəf-müqabillərdən biri digərini qane etməyən şərtlərin qəbul edilməsinə nail olmaq;

– razılaşmaların, sazişlərin hazırlanması və həyata keçirilməsi prosesində şəxsi, yaxud kollektiv təşəbbüskarlıq göstərmək;

– sazişi əlverişli şərtlərlə həyata keçirmək naminə cəsarət göstərərək riskə getmək bacarığı;

– ən yüksək mənfəət əldə etmək məqsədini qarşısına qoyan şəxsin kəskin işgüzar əlaqələrin həyata keçirilməsi üçün müxtəlif səmərəli üsullardan istifadə etmək qabiliyyəti;

– bağlanacaq razılaşmaların və tərtib ediləcək sazişlərin nəticələrini qabaqcadan görməyi, onların ehtimallığını, yaxud həqiqətliliyini fərqləndirməyi bacarmaq;

– fəaliyyətindəki üstünlükləri qabaqcadan müəyyənləşdirməyi və işgüzar əlaqənin reallığını onlara inandırmağı bacarmaq və s.

Real bazar iqtisadiyyatı şəraitində işgüzar adamlar digər məqsədyönlü işlərlə yanaşı, sahibkarlıq fəaliyyətini də həyata



keçirir. Bu baxımdan, ***sahibkarlıq fəaliyyəti biznes fəaliyyətinin birinci subyektidir.*** Bir qrup iqtisadçılar biznesmeni, yəni bizneslə məşğul olan adamı biznes fəaliyyətinin yeganə subyekti olduğunu israr edirlər. Sözsüz burada müəyyən həqiqət vardır. Lakin nəzərə alınsa ki, biznes fəaliyyəti ilə fərdlərlə yanaşı kollektiv sahibkarlar, fərdi və kollektiv istehlakçılar, işçi və qulluqçular, hətta dövlət strukturlarında çalışan işçilər də məşğul olurlar, onda çətin ki, həmin iqtisadçılarla razılaşmaq olar. Deməli, biznes subyektlərinin birinci kateqoriyasına bilavasitə sahibkarlar aid edilməlidirlər.

***Biznes fəaliyyətinin ikinci subyekti məhsul, iş və xidmət istehlakçılarıdır.*** Söhbət həm fərdi, həm də kollektiv istehlakçılardan, həmçinin istehlakçılar ittifaqlarından gedir. Bu, biznes fəaliyyətinin xüsusi formasıdır. Birincisi, ona görə ki, istehlak biznesi bütün fərdlər tərəfindən həyata keçirilir və bununla bağlı o, işgüzar münasibətlər sistemində bütün işgüzar adamların iştirakını, iqtisadi fəaliyyətini özündə əks etdirir; ikincisi, istehlakçı biznesi, istehsalın, ticarətin və xidmətin son nəticələrində işgüzar adamların marağını özündə təzahür etdirir; üçüncüsü, istehlakçı biznesi, eyni zamanda sahibkarlıq biznesini stimullaşdırır, onun hərəkətə gətirilməsi və tarazlaşdırılması qüvvəsi kimi çıxış edir; nəhayət, dördüncüsü, istehlakçı biznesində yalnız fərdlər deyil, eyni zamanda yenidən emal etmək, satmaq və xidmət göstərmək məqsədilə digər istehsalçı müəssisələrin məhsullarını satın alan sahibkarlar da iştirak edirlər. Deyilənlərdən aydın olur ki, istehlakçılar sahibkarlarla sövdələşmədə heç də passiv tərəf kimi deyil, əksinə, onlarla birlikdə işgüzar münasibətlərdə bərabər hüquqlu iştirakçı kimi çıxış edirlər.

***Biznes fəaliyyətinin üçüncü subyekti bağladıqları müqavilələr əsasında muzdla işləyən əmək kollektivi, ayrılıqda götürüldükdə isə onların hər biridir.*** Bunlar da istehlakçı biznesi kimi, sahibkar ilə bağladığı sazişdə, müqavilədə passiv tərəf kimi deyil, aktiv rol oynayırlar. Muzdla işləyən işçilər əmək sərfində öz maraqlarını əsas tutaraq sahibkarlarla bağladıqları sazişdən varlanmaq məqsədilə spesifik xarakterə malik əmək biznesinə qoşulurlar. Bununla əlaqədar olaraq, qeyd edək ki, kapitalizmin ilk çağlarından fərqli olaraq bazar iqtisadiyyatı şəraitində muzdla işləyən işçilərin iş qüvvəsinin «alqı-satqı» obyekti

kimi qiymətləndirilməsinə heç bir əsas yoxdur. Əksinə, indi hüquq bərabərliyi şəraitində saziş iştirakçılarından biri əmək biznesinə qoşularaq işə götürülən, yaxud muzdla işləyən, digəri isə işə götürən, yaxud muzdlu işçi tutan sifətində qarşılıqlı faydalanma prinsipinə uyğun surətdə biznes fəaliyyətində iştirak edirlər. Bu halda muzdlu işçi ilə sahibkar arasındakı sazişin obyekti olan «iş qüvvəsi» mal deyil, sadəcə olaraq iş qüvvəsidir, çünki əvvəla, bazarda satılması üçün nəzərdə tutulan istehsal olunmuş «mal»da təcəssüm olunan zəruri şərtlər iş qüvvəsində yoxdur; ikincisi, iş qüvvəsi malda olduğu kimi birdəfəlik özgələşdirilmir, əksinə o, sərf edildikcə (istehlak olunduqca) daim yenidən bərpa olunur; üçüncüsü, iş qüvvəsi sadəcə olaraq öz sahibinin istəyi və arzusu ilə müəyyən bir müddətə kirayə verilir.

Məlumat üçün onu da qeyd edək ki, işəgirmə və işəgötürmə prosesinin sahibkar və işçi arasındakı bərabər hüquqlu sövdələşmə və razılaşma prinsipləri əsasında həll olunmasına baxmayaraq, burada ticarət əlamətləri gözə dəymir. Buna görə də real bazar iqtisadiyyatı ölkələrində «iş qüvvəsi bazarı»nın mövcudluğu ifadəsinin təsisinə də ehtiyac yoxdur. Odur ki, həmin növ sövdələşmələri də «iş qüvvəsi bazarı» adlandırmaq olmaz, çünki iş qüvvəsi, yuxarıda qeyd etdiyimiz kimi, canlı insanın yaradıcı qüvvəsidir, onun faydalı işgörmə qabiliyyətini büruzə verən qüvvədir. Həmin qüvvənin sahibləri – istər işçi olsun, istərsə də sahibkar – öz aralarında razılaşmalardan sonra saziş bağlayarkən, izlərinin şəxsi təşəbbüslərini təzahür etdirir, maddi və mənəvi maraqları naminə iqtisadi riskə gedirlər. Hər iki tərəf bu sazişdən mümkün qədər çox faydalanmaq istəyirlər. Bundan başqa, əgər sahibkar bu sövdələşmədə öz statusunu, mövqeyini qorumaq istəyirsə, muzdla işləyən işçi öz əmək fəaliyyəti prosesində yüksək əmək haqqı almaqla yanaşı, həm də özünün sosial statusunu dəyişmək haqqında düşünür, yəni işlədiyi müəssisənin səhmlərindən alıb tədricən xırda sahibkara çevirmək istəyir.

Nəhayət, biznes fəaliyyətinin dördüncü subyekti işgüzar təklifləri və fəaliyyəti ilə bazar münasibətlərinə qoşulan dövlət orqanlarıdır, yəni dövlət idarə və təşkilatlarıdır. Məsələn, qiymətli kağızların bir qrupu dövlət orqanları tərəfindən, digər qrupu isə həm sahibkarlar, həm də dövlət orqanları tərəfindən



realizə olunur. Bundan başqa, müvafiq dövlət orqanları tərəfindən çox mühüm ümumdövlət elmi-texniki, elmi-istehsal, xüsusən elmtutumlu, kapitaltutumlu proqramların həyata keçirilməsində dövlətin məqsədli marağı olur. Digər tərəfdən, bir çox strateji əhəmiyyətli sahələr, onların məhsulları, o cümlədən enerji daşıyıcıları, dəmir yolu, su yolu və hava nəqliyyatı, kənd təsərrüfatının bəzi məhsulları, məsələn, pambıq, barama, tütün, fındıq, qoz və s. məhsulların satışı dövlət tərəfindən idarə olunur. Dövlət orqanları işgüzar münasibətlərə girişir və həmin münasibətlərin digər iştirakçıları ilə bərabər hüquqlu tərəf-müqabil kimi iştirak edir. Bu orqanların işgüzar marağı digər biznes subyektlərinin işgüzar maraqlarından heç nə ilə fərqlənmir. Həmin maraqların nəticələrinin mənimsənilməsindəki fərq ondan ibarətdir ki, dövlət biznesdən əldə etdiyi gəliri özünün, cəmiyyətin, əhalinin mənafeyi naminə istifadə edir. Dövlət biznesinin əsasını dövlət mülkiyyəti təşkil edir. Beləliklə, biznes fəaliyyəti işgüzar adamların əmək fəaliyyətinin bütün sahələrində tətbiq edilir. Lakin iqtisadi təsərrüfat və sosial-iqtisadi baxımdan biznes fəaliyyətinin aparıcı sahəsi bazardır. Başqa sözlə, bazar eyni zamanda biznes sferasıdır.

***Bazar sferasında biznes fəaliyyəti həmişə rəqabətlə üzləşir.*** Rəqabət latınca toqquşma, mübarizə deməkdir. Bu toqquşma, mübarizə həmişə qarşılıqlı münasibətdə olan biznes subyektlərinin qrup daxili rəqiblər arasında gedir və bu mübarizədə hər iki tərəf müstəqillik hüququndan istifadə edərək özlərinin ali məqsədlərini – daha çox mənfəət götürmək arzularını həyata keçirməyə çalışırlar. Rəqiblər bu mübarizədə nəzakətli, doğruçu olmalı, işgüzar bacarığını göstərməli və s. Adətən, biznesmen-sahibkarlar cəhd göstərirlər ki, ya rəqabəti gücləndirməklə öz rəqiblərinin sayını azaltsınlar, ya rəqabətçilik qabiliyyətini artırsınlar, yaxud da öz riskini bir qədər azaldaraq digər müvafiq müəssisələrlə, sahibkarlarla əməkdaşlığa qoşulsunlar. Əslində bazar iqtisadiyyatı şəraitində başqa yol yoxdur, çünki rəqabət və inhisar bazar iqtisadiyyatının qoşa «əkizləri» kimi eyni zamanda meydana gəlmiş olsa da, bunlardan birincisi daimidir, digəri isə artıq öz fəaliyyətini dayandırmaq üzrədir. Bununla əlaqədar olaraq, müasir real bazar iqtisadiyyatı şəraitində «rəqabət-inhisar» nisbətlərini düzgün başa düşən bir qrup

biznesmen-sahibkarlar birləşmə yolunu, yəni qarşılıqlı əməkdaşlıq əsasında müəssisə yaradaraq birləşmə strategiyasını həyata keçirirlər. Deməli, real bazar iqtisadiyyatı şəraitində rəqabət zəruriliyi inkar edilməzdir, çünki o, bazarın atributlarından biridir, öz gərginliyi ilə bazarın inkişafına, münasibətlərin sağlamlaşdırılmasına təsir göstərən amildir. Dünya təcrübəsi göstərir ki, bazar iqtisadiyyatı münasibətləri inkişaf etdikcə rəqabətin şiddətlənmə səviyyəsi aşağıya doğru meyl edir. Bunu bazar və yüksək mənafelər uğrunda rəqabət münasibətlərinin nəticələri olan inhisarın meydana gəlməsi, onun təşəkkülü və inkişafı prosesində ən yüksək səviyyəyə çatması və tədricən zəifləyib aradan çıxmağa doğru yönəlməsi sübut edir.

## 10.3. Azərbaycanda neft biznesinin təşkili prinsipləri və xüsusiyyətləri

Dünya neft biznesinin oyun şərtləri, davranış qaydaları böyük sınaqlardan keçərək uzun illər ərzində formalaşmış və daima inkişaf etmişdir. Neft biznesi ilə məşğul olan işgüzar adamlar yaxın onilliklər üçün bu ənənəvi prinsiplərdə ciddi dəyişikliklərin olmamasını yəqin etmişlər və ona görə də dünyanın bütün neft rayonlarında, o cümlədən də Azərbaycan Respublikasında neft biznesinin təşkilinə diqqəti artırmış və mütərəqqi sahibkarlıq forması kimi inkişaf etməyə başlamışdır. Son illərdə neft biznesinin təşəkkül tapmasında və müvəffəqiyyətlə inkişaf etməsində müxtəlif amillər, o cümlədən təbii resurslar, tələb və təklif amilləri mühüm rol oynamışdır.

***Resurs*** – dedikdə, qeyd etdiyimiz kimi, əmtəə istehsalı və xidmətlərin göstərilməsi üçün tələb olunan təbii, əmək, kapital və sahibkarlıq qabiliyyəti kimi iqtisadi resurslar nəzərdə tutulur ki, bunlar da iki hissəyə ayrılır: a) maddi resurslar, yəni xammal, material, yanacaq, enerji və kapital; b) insan resursları, yəni əmək və sahibkarlıq qabiliyyəti. Resurslar bəzi əlamətlərə görə aşağıdakı kimi təsnifləşdirilir:

– ***kəşf olunma əlamətinə görə*** – resurslar kəşf olunmuş və kəşf olunmamış qruplara ayrılır. Kəşf olunmuş resurslar özləri də iki qrupa: kommersiya və qeyri-kommersiya qruplarına ayrılır. Kommersiya resurslarına yığılmış hasilat və ehtiyatlar aid



edilir. Kəşf olunmamış resurslar potensial resurslar hesab edilir;

– ***əsaslandırılması nöqteyi-nəzərindən*** resurslar iki cür olur: sübuta yetirilmiş və sübuta yetirilməmiş resurslar. Sübuta yetirilmiş resurslar da öz növbəsində işlənilən və işlənilməyən resurslara ayrılır. Sübut olunmamış resurslar da iki qrupa: ehtimal olunan və mümkün olan resurslara ayrılır;

– ***mənimsənilmə əlamətinə görə*** – resurslar yenə də iki qrupa: hasil edilməsi mümkün olan və hasil edilməsi mümkün olmayan resurslara ayrılır. Hasil edilməyən resurslar özləri də iki qrupa: konservləşdirilmiş və boru mühitində olan resurslara ayrılır.

Neft biznesinin təşkilində mühüm şərtlərdən biri neft və neft məhsullarının mövcudluğudur. Azərbaycanda neft biznesini yaratmaq və inkişaf etdirmək üçün böyük imkanlar vardır. Belə ki, son illərdə həm xam neftin hasilatı, həm də neftin emalı məhsullarının həcmi ildən-ilə artır. 2002-ci ildə yanacaq bazarına (ixrac da daxil olmaqla) 5,5 milyon ton və ya əvvəlki il səviyyəsinin 100,2%-i qədər neft məhsulları göndərilmişdir.

Əvvəllərdə qeyd etdiyimiz kimi, neft məhsullarının 47%-i yanacaq mazutunun, 29%-i dizel yanacağının, 12%-i aviasiya və s. üçün ağ neft, 1,1%-i avtomobil benzininin və digər neft məhsullarının payına düşür. Neft məhsullarının 55%-i ölkə daxilində satılmış, 45%-i isə xarici dövlətlərə ixrac olunmuşdur.

2002-ci ildə neft məhsullarının 52,7%-i «Azərenerji» Açıq Tipli Səhmdar Cəmiyyətinə, 21,3%-i «Azərnefttəchizat» Birliyinə, 11,6%-i «Azpetrol» holdinq LTD-yə, 8,3%-i «Azərbaycan Hava Yolları» Dövlət Konserninə göndərilmişdir. Nifbitumun 69,3%-i, mühərrik yanacağının 62,1%-i, dizel yanacağının 60,0%-i, avtomobil benzininin 39,0%-i, aviasiya üçün ağ neftin 27,8%-i «Azərnefttəchizat» Birliyinə, avtomobil benzininin 45,9%-i, dizel yanacağının 29,2%-i «Azpetrol» holdinq LTD-yə, aviasiya üçün ağ neftin 61,9%-i «Azərbaycan Hava Yolları» Dövlət Konserninə, məişət-soba yanacağının 86,8%-i və mühərrik yanacağının 37,9%-i Dövlət Xəzər Dəniz Cəmiyyətinə, yanacaq mazutunun 97,5%-i «Azərenerji» Açıq Tipli Səhmdar Cəmiyyətinə göndərilmişdir. «Azərnefttəchizat» Birliyi ölkə istehlakçılarına bazar fondundan ağ neftin 86,7%-ni, avtomobil benzininin 71,9%-ni, məişət-soba yanacağının 62,1%-ni, dizel yanacağının 46,6%-ni realizə etmişdir. Neft biz-

nesinin təşkilində, digər biznes sahələrində olduğu kimi, tələb və təklif mühüm rol oynayır. Tələb və tələbat daima dəyişilən və inkişaf edən dinamik bir proseslərdir. Tələbatla tələb arasında mürəkkəb qarşılıqlı əlaqə mövcuddur. Onlar vahid vəhdət təşkil edirlər, lakin bu birlikdə aparıcı mövqe tələbatın üzərinə düşür. Tələbat tələbi müəyyən edir və yaradır, onun əsas məzmununu ifadə edir. Tələb isə tələbatın mövcud olması üsulu sayılır. Tələbatdan asılı olsa da tələb, onun passiv təzahür forması deyildir. O, tələbata fəal təsir edir, onun fasiləsiz inkişafına və keyfiyyətcə təkmilləşməsinə səbəb olur. Tələb də tələbat kimi öz həcmi və tərkibi etibarı ilə konkret olaraq cəmiyyətin mövcud maddi həyat şəraiti, məhsuldar qüvvələrin inkişaf səviyyəsi və digər xüsusiyyətlər ilə şərtləndirilir. İstehsala münasibətdə də tələb və tələbat müxtəlif mövqelərdə dayanırlar. Tələb, adətən, istehsaldan əvvəl mövcud olmur, heç şübhəsiz müəyyən əmtəəyə tələb, həmin əmtəənin istehsal edilib, bazara çıxarılmasından sonra yaranır. Tələbata gəldikdə isə o, konkret əmtəələrin istehsalından xeyli əvvəl mövcud ola bilər. İnsan dünyaya gələndən, onun həyat fəaliyyətinin əsas məqsədi tələbatlarını ödəməkdir. Bazar iqtisadiyyatı şəraitində tələbat – tələb və təklif kateqoriyaları ilə üzvi şəkildə bağlıdır. ***Tələb*** dedikdə – ictimai tələbatların əmtəə-pul münasibətləri, bazar iqtisadiyyatı şəraitində təzahür edən spesifik forması kimi başa düşülür. Başqa sözlə tələb, alıcının müəyyən dövr ərzində hər hansı bir əmtəədən müəyyən qiymətdə və keyfiyyətdə əldə etmək arzusu və imkanı nəzərdə tutulur. Tələbat geniş anlamdır, tələb onun təkcə ödəmə qabiliyyəti ilə, yəni pulla təmin edilən hissəsinin təzahür formasıdır. Başqa sözlə, tələb bazara çıxarılan tələbatdır. Tələbat onun ödənilməsi üçün obyektiv imkanların mövcud olmasından əvvəl fəaliyyət göstərir. Bununla belə, tələblə tələbatı eyniləşdirmək olmaz. Ödəmə formasından asılı olmayaraq, tələb həmişə tələbatdan kəmiyyətcə azdır, belə ki, o, bazar münasibətləri şəraitində tədiyyə qabiliyyətli tələbə çevrilir. Tədiyyə qabiliyyətli tələb dedikdə, əhali tərəfindən hər hansı bir əmtəənin alınmasına və xidmət növündən istifadəyə görə real surətdə yönəldilən və ya yönəldilə biləcək müəyyən pul məbləği nəzərdə tutulur. Tələb pul ekvivalenti, mübadilə vasitəsilə təmin edilmiş tələbatdır. Deməli, tələb əm-



təə istehsalının iqtisadi kateqoriyası olub, bazara çıxarılmış tələbatı əks etdirir. Tələbin fərdi, bazar və məcmu formalarını fərqləndirirlər.

***Fərdi tələb*** dedikdə, konkret əmtəə bazarında qiymətin hər hansı bir müəyyən səviyyəsində hər bir fərdi alıcının tələbinin həcmi başa düşülür; bazar tələbi dedikdə, konkret əmtəə bazarında qiymətin hər hansı bir müəyyən səviyyəsində əmtəə almaq istəyən bütün alıcıların fərdi tələblərinin məcmusu nəzərdə tutulur; məcmu tələb dedikdə isə cəmiyyət miqyasında bütün növdən olan əmtəə və xidmətlər bazarında iştirak edən bütün alıcıların: fərdlərin, müəssisələrin, şirkətlərin və dövlətin hər hansı bir səviyyəsində formalaşan tələbinin həcmi nəzərdə tutulur. Cəmiyyət inkişaf etdikcə, onun üzvlərinin də tələbatı artır. Bunu nəzərə alan istehsalçı müəssisələr, fərdlər bazarda ən çox maraq doğuran və istehlakçıların tələbatını daha dolğun ödəyə bilən əmtəələrin istehsalı üçün məqsədyönlü fəaliyyət göstərirlər. Tələb kimi, tələbatın ödənilməsinin də müxtəlif növləri vardır. Onlara aşağıdakılar aiddir:

***a) mənfi tələbat*** – bazarda satılan əmtəələrin əksər hissəsini istehlakçıların, alıcıların bu və ya digər tələbatının ödənilməməsindən irəli gəlir. Başqa sözlə, bazarda satılan əmtəə alıcının xoşuna gəlmirsə, bu, o deməkdir ki, həmin əmtəə mənfi tələbat vəziyyətindədir;

***b) tələbatın olmaması*** – alıcıların bu və ya digər əmtəələrə marağının azalması nəticəsində baş verir. Tələbatın olmaması konkret tarixi şəraitdən asılı olaraq müəyyən edilir. Məsələn, hazırda Azərbaycan Respublikasında yaşayan əhalinin əksər hissəsinin maddi imkanları aşağı səviyyədə olduğundan onların yüksək keyfiyyətli və baha malların alınmasına tələbatı xeyli azalmışdır;

***c) gizli tələbat*** – bəzi əmtəələrin bazarda açıq şəkildə satıla bilməməsi ilə əlaqədardır. Məsələn, anaşa və digər narkotik şeylərə olan tələbatı gizli tələbat hesab edilir, çünki onlar bazarda açıq şəkildə satılmır;

***ç) aşağı düşən tələbat*** – əmtəələrə olan münasibətin dəyişməsi nəticəsində baş verir. Təcrübə göstərir ki, bu gün dəbdə olan əmtəə, sabah dəbdən düşə bilər;

***d) qeyri-müntəzəm tələbat*** – satışın həcminin mövsümdən,

gündən və hətta saatdan asılılığı ilə əlaqədardır. Məsələn, ictimai nəqliyyatın böyük bir hissəsi günorta vaxtı tam yüklənmir, gur saatlarda isə daşımaların öhdəsindən gəlmir; iş günündə bazara az alıcı gedir, istirahət günlərində isə onların sayı çoxalır;

***e) mükəmməl tələbat*** – ticarət dövriyyəsinin sabitliyi ilə xarakterizə olunur. Bu zaman alıcıların zövqünün dəyişməsinə və güclü rəqabətin olmasına baxmayaraq, tələbatın mövcud səviyyəsi sabit saxlanılır; ə) həddən artıq tələbat – mövsümi xarakter daşıyır. Məsələn, yay aylarında meyvə-tərəvəzə, soyuq içkilərə, dondurmaya və s. olan tələbat qış aylarına nisbətən daha yüksək olur;

***ə) məqsədəuyğun olmayan tələbat*** – insan sağlamlığı üçün zərərli olan tələbatdır. Məsələn, vərdiş doğuran siqaretlərin, spirtli içkilərin, narkotik maddələrin, odlu silahların və s. əldə edilməsinə qarşı mübarizə edilir və məqsədyönlü səyləri birləşdirir.

XXI əsrin əvvəlində dünya enerjidaşıyıcıları istehlakı aşağıdakı düzümdədir: Neft – 40,2%; daş kömür – 25,4%; təbii qaz – 23,8% və digər enerji daşıyıcıları – 10,6%. Göründüyü kimi, dünya enerji daşıyıcılarının 90%-ə qədəri qazıntı yanacağına, o cümlədən, 64%-i karbohidrogen resurslarının payına düşür. Cədvəl 68-də 2001-2003-cü illərdə dünya neftinə tələbin dinamikası verilmişdir.

Bazar iqtisadiyyatı şəraitində biznes fəaliyyətinin təşkili ilə bağlı əsas kateqoriyalardan biri də təklifdir. ***Təklif*** dedikdə, satıcının müəyyən dövr ərzində hər hansı bir əmtəəni müəyyən qiymətə və kəmiyyətə satmaq arzusu və imkanı nəzərdə tutulur. Təklifin əsas hissəsini əmtəə təklifi təşkil edir və o, bazarda əhalinin ödəmə qabiliyyətli tələbinə qarşı durur. Təklif istehsalla sıx bağlı olsa da, bu kateqoriyalar həm öz iqtisadi məzmununa, həm də həcminə görə bir-birindən fərqlənirlər. Belə ki, istehsal bilavasitə maddi nemətlərin yaradılma prosesini ifadə edən kateqoriyadır, təklif isə əsas etibarı ilə mübadilə, bazar münasibətlərini səciyyələndirir. Təklif öz həcmi etibarı ilə, adətən, istehsaldan azdır. Təklif dialektik xarakterə malik olub, daim hərəkətdədir. Təklifin formalaşmasına iki amil: qiymət və qeyri-qiymət amilləri təsir göstərir. Təklifin dəyişməsinə səbəb olan qeyri-qiymət amillərinə misal olaraq, məhsul istehsalına çəkilən iqtisadi resursların qiymətini, istehsalın texno-



*Cədvəl 68*

***2001-2003-cü illərdə dünya neftinə tələb, gündəlik mln. barel***

| Ölkə-region və təşkilatlar | 2001 | 2002 | 2003 |
|---|---|---|---|
| İqtisadi inkişaf və Əməkdaşlıq Təşkilatı ölkələrində | 47,7 | 47,6 | 48,1 |
| Cənubi Amerika | 23,9 | 24,0 | 24,3 |
| Avropa ölkələrində | 15,3 | 15,2 | 15,3 |
| Asiya Sakit Okean Regionu | 8,6 | 8,4 | 8,5 |
| İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatına daxil olmayan ölkələrdə | 28,8 | 29,2 | 29,7 |
| Keçmiş SSRİ-in tərkibində olan respublikalarda | 3,7 | 3,8 | 3,8 |
| Asiya ölkələrində | 12,3 | 12,5 | 12,8 |
| Latın Amerikası ölkələrində | 4,8 | 4,7 | 4,7 |
| Yaxın Şərq ölkələrində | 4,8 | 5,0 | 5,1 |
| Afrika ölkələrində | 2,5 | 2,5 | 2,5 |

logiyasını, dövlət vergilərinin həcmini, satıcıların sayını, məhsulun qiyməti ilə bağlı gözləmələri göstərmək olar.

Məlumat üçün qeyd edək ki, dünya miqyasında enerji daşıyıcılarına olan təklifin artması nəticəsində son 25 ildə enerji istehlakı 38% artmışdır. Bu artımda təbii qaz 65%, neft 12%, daş kömür 28%-lik çəkiyə malikdirlər. Ötən vaxt ərzində ilkin enerji resursları balansında təbii qazın xüsusi çəkisi 19%-dən 23,7%-ə yüksəlmiş, neft 49%-dən 40,1%-ə və daş kömür isə 30%-dən 26,2%-ə enmişdir. Proqnozlara görə dünya neft istehlakı 2010-cu ildə 4,4 mlrd. tona, 2020-ci ildə isə 5,3 mlrd. tona çatacaqdır. Müvafiq olaraq bu illər ərzində neft defisiti hər il bir və ya iki milyard ton təşkil edəcəkdir. Neft haqqında mülahizə yürüdərkən onun təbii qazla müştərək funksionallığı nəzərə alınmalıdır. Dünyada hər il təbii qazın istehsal və istehlak balansı genişlənməkdədir. Dünya qaz ehtiyatları 150 trilyon kubmetrə bərabərdir. Beynəlxalq Qaz İttifaqı proqnoz təbii qaz ehtiyatlarını 400 trilyon kubmetr hesab edilir. İstehlak sferasında yenə də İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı ön mövqedə dayanır. Bu ölkələrdə istehsal həcmi sabit qalsa da istehlak tələbi illik kəsikdə 2030-cu ilə qədər müntəzəm olaraq 1,5% ar-

tacaq və nəticədə 2030-cu ildə istehlak həcmi 2000-ci ilə nisbətən 2 dəfə yüksələrək 900 mlrd. kubmetri keçəcəkdir. 2001-2003-cü illərdə dünya neftinə təklifin dinamikası cədvəl 69-da verilmişdir.

*Cədvəl 69*

***2001-2003-cü illərdə dünya neftinə təklif, gündəlik mln. barel***

| Ölkələrin adları | 2001 | 2002 | 2003 |
|---|---|---|---|
| İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatı ölkələrində | 21,8 | 21,9 | 22,3 |
| Cənubi Amerika ölkələrində | 14,4 | 14,6 | 14,9 |
| Avropa ölkələrində | 6,7 | 6,6 | 6,6 |
| Asiya Sakit Okean Regionunda | 0,8 | 0,8 | 0,8 |
| İqtisadi İnkişaf və Əməkdaşlıq Təşkilatlarına daxil olmayan ölkələrdə | 23,1 | 24,4 | 25,3 |
| Keçmiş SSRİ-nin tərkibində olan respublikalarda | 8,6 | 9,4 | 10,1 |
| Asiya ölkələrində | 5,7 | 5,8 | 5,8 |
| Latın Amerikası ölkələrində | 3,8 | 3,9 | 4,0 |
| Yaxın şərq ölkələrində | 2,1 | 2,1 | 2,0 |
| Afrika ölkələrində | 2,8 | 3,0 | 3,1 |
| Emal prosesində baş verən itkilər | 1,7 | 1,8 | 1,8 |
| OPEK-in üzvi olan ölkələrdə | 30,1 | 30,2 | 30,3 |

Yaranmış yeni geosiyasi vəziyyət fonunda Xəzərin Azərbaycan sektorunda aşkarlanan nəhəng neft ehtiyatları obyektiv olaraq respublikamızı dünya neft bazarının aktiv iştirakçısına çevirmişdir. Böyük biznesdə səriştə və vərdişləri mükəmməl olmayan respublikaya dünya neft arenasına çıxışda, dünyanın aparıcı neft şirkətləri ilə bağlanmış kontraktlar mühüm rol oynamışdır.

Neft nəhəng biznes növü olduğundan tezliklə varlanmaq istəyən adamlar neft biznesi ilə məşğul olmağa can atırlar. Müasir dövrdə neftin dollarlaşması xassəsi neft və dolların simbioz gücü aşırımlardan keçərək səlis və rəvan biznesi ərsəyə gətirir. Kapitallaşan neft iqtisadi mükafatlandırma ilə yanaşı, həm də siyasi dividentlər gətirir. Neft məhdud resurslar silsiləsinə daxil olsa da, özü bir tükənməz kapital kimi çıxış edərək bütün biznes növlərinin fövqündə dayanır.



İqtisadiyyatın normal fəaliyyəti biznes işinin legitim çərçivəsində inkişafı ilə bağlıdır. Neft iqtisadiyyatının yeni dirçəliş mərhələsində ötən təcrübənin təhlili, buraxılmış səhvlərin təkrarlanmaması, sahədə toplanmış empirik elmi nailiyyətlər nəzərə alınmaqla sahəvi biznes işi hərəkətə gətirilməlidir. Sahibkarlıq potensialı yüksək olan ölkələrdə kiçik və orta biznes aparıcı mövqedə dayanaraq iqtisadi inkişafın mühüm təminatçısı rolunda çıxış edir. Qərbi Avropada, o cümlədən, ABŞ-da ÜDM-in üçdə bir hissəsindən çoxu kiçik və orta biznesin təmsilçiləri olan firmaların payına düşür. Fərqli olaraq əksər keçid iqtisadiyyatını yaşayan ölkələrdə isə mütərəqqi strukturlu biznes işi tam məzmunda kompleks xarakter almamış, bazar prinsipli qabaqcıl ölkələrin səviyyəsinə qalxmamışdır. Bir çox amillərlə səciyyəvi olan belə gerçəklik respublikamızın iqtisadiyyatının indiki çağında da xarakterikdir.

Azərbaycan Respublikası öz dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra iqtisadiyyatın dirçəlişini bazar prinsiplərinə uyğun strategiya əsasında formalaşmasına qərar vermişdir. Bazar iqtisadiyyatının inkişafında biznes işi və sahibkarlığın möhkəmləndirilməsində təcrübəli biznesmenlərin, kommersantların yetişməsi, bu xüsusda müəyyən əxlaqi dəyərlərin, müvafiq etikanın formalaşması, müasir idarəetmə bacarığının, biliyin mükəmməl təhsilin əldə olunması, liberal məzmunlu iqtisadi islahatların davam etdirilməsi ilə mümkündür. Digər mühüm amil sahibkarlıq və biznes işində sosial məsuliyyətin dərki ilə bağlıdır. Sahibkarlıq sosial ədalətin, iqtisadi demokratiyanın təminatçısı, daşıyıcısı kimi çıxış etmək, ölkənin ictimai-siyasi həyatını yaxşılaşdırmaqda xüsusi səylər göstərmək imkanları baxımından daha çox əhəmiyyətlidir. Bununla belə, ölkə iqtisadiyyatının strukturları ilə yanaşı, ictimai təşkilatlar, yeni institutsional təsisatlar, ayrı-ayrı intellektuallar, vətənpərvər insanların xidmətləri də yüksək olacaqdır. Əlbəttə, bütün bunların fövqündə qanunvericilik şəbəkəsinin müntəzəm təkmilləşməsi, yeni mütərəqqi qanunların qəbulu, kiçik və orta biznesi müdafiə edən çevik və dayanaqlı maliyyə-kredit siyasəti, yüksək investision təminat dura bilər.

Dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsi göstərir ki, iqti-

sadi dirçəliş, investisiya axını, texnoloji tərəqqi, yeniliklər sahibkarlıq potensialının qüdrətindən qaynaqlanır. Əmək, kapital, torpaq, bilik kimi iqtisadi resurslar sahibkarlığın unikal mahiyyətində dayanan təsərrüfatçılıq, risk və səriştəyə əsasən bazar mexanizmi toplusunda maksimal səmərəli istifadəni taparaq iqtisadi artımı həvəsləndirir. Sahibkarlığı hərtərəfli təqdir edən iqtisadi kurs dövlət xərclərinin, onun tənzimləyici yükünün azalmasına xidmət edir. Sahibkarlığın inkişafına qayğı, müvafiq sinfin formalaşması ümummilli məsələ kimi dövlətin strateji iqtisadi proqramların leytmotivini təşkil etməlidir. Hazırda respublikamızda kiçik və orta biznesin inkişafı üçün atılan ilk addımların, səylərin kəmiyyət və keyfiyyəti artmaqdadır. Yeni tənzimləyici dövlət təsisatlarının yaradılması, bank sistemindəki islahatlar, vergi qanunvericiliyinin təkmilləşdirilməsi də, neft biznesinin inkişafı üçün əlverişli şərait yaradır.

Azərbaycan Respublikasında iqtisadiyyatın inkişafı üçün ən yaxşı şəraiti təbiət özü bəxş etmişdir. Təbii sərvətlərin, xüsusilə neft-qaz resurslarının bolluğu belə inkişafın fundamental əsasında dayanır. 120-130 il öncə neftin sənaye erası start götürəndə bir çox azərbaycanlılar yeni biznes növünü təşkil etmiş, bu sahədə ən yüksək zirvəyə qalxmışlar. Bu isə o deməkdir ki, böyük sənaye biznesinin erkən formalaşma çağlarında çətin risk və uğura əsaslanan iqtisadi fəaliyyət növünü azərbaycanlı sahibkarlar yetərincə mənimsəmişlər. Avroatlantik məkanın biznes qartalları hesab edilən Rokfellerlərə, Rotşildlərə, Nobellərə qənim kəsilmişlər.

Azərbaycan Respublikasının neft sənayesinin inkişafının ilk mərhələsində Bakı mədənlərində birdən-birə elə neft fontanları olur ki, bu hər gün min tonlarla neft çıxarmağa imkan verir. Belə hal Azərbaycanda neft biznesinin yaranmasına və sürətli inkişafına səbəb olur və adi adamlar birdən-birə milyonların sahibkarlarına çevrilirlər. Hacı Zeynalabdin Tağıyev, Musa Nağıyev, Şəmsi Əsədullayev, Murtuz Muxtarov, İsabəy Hacınski və b. belə varlananlardan idi. Lakin, yüksək mənfəət götürmək ehtirası və neft yataqlarının vəhşicəsinə istismarı nəticəsində Azərbaycanda neft hasilatı azalmağa başlamış və neft biznesinin inkişaf sürəti zəifləmişdir. İndi isə yenidən neft biznesi formalaşmağa başlamış və yeni vüsət almışdır.



Respublikamızda kiçik və orta biznesim inkişafında köhnə istismar sahələri mühüm rol oynaya bilər. Bunun üçün son istismar mərhələsini yaşayan köhnə neft yataqlarında hasilatın artırılması üçün milli neft biznesmenlərə, neftçi kollektivlərə müəyyən vergi və kredit güzəştləri göstərməlidir. Belə olan halda az xərclərlə sahibkarlar, neftçilər qalıq nefti çıxara bilərlər. Belə bir təcrübə keçən əsrdə ABŞ-da geniş tətbiq edilmiş və müsbət nəticələr əldə edilmişdir.

Respublikamızda neft biznesinin inkişafında dövlət mülkiyyətinin özəlləşdirilməsi də mühüm əhəmiyyət kəsb edən məsələlərdəndir. Bunu nəzərə alaraq ölkəmizdə özəlləşdirmə sahəsində xeyli irəliləyişlər əldə edilmişdir. Belə ki, yalnız 2002-ci ildə ölkəmizdə 2026 kiçik dövlət müəssisə və obyekti özəlləşdirilmişdir. Özəlləşdirmə başlayandan bu günədək 200 mindən artıq kiçik dövlət müəssisə və obyekti xüsusi mülkiyyətə çevrilmişdir. Kiçik dövlət müəssisə və obyektlərinin özəlləşdirilməsindən indiyədək dövlət büdcəsinə 332,5 milyard manat, 2002-ci ildə isə 50 milyard manatdan çox vəsait daxil olmuşdur. Ümumən, indiyədək dövlət əmlakının icarəyə verilməsi üzrə 22404 müqavilə bağlanmışdır. Bu müqavilələr üzrə dövlət büdcəsinə daxilolmalar 67,3 milyard manat təşkil etmişdir. 2002-ci ildə dövlət əmlakının icarəyə verilməsi üzrə 1645 müqavilə bağlanmış, dövlət büdcəsinə 10 milyard manatdan çox vəsait köçürülməsi təmin olunmuşdur.

### 10.4. Neft biznesinin inkişaf istiqamətləri və infrastrukturu

Azərbaycan Respublikasının iqtisadiyyatında neft-qaz amili əsas yerlərdən birini tutur. Lakin, bunu da nəzərə almaq lazımdır ki, neft və qaz tükənən resurslar sırasına daxildir. Deməli, ən çox neft ehtiyatlarına malik olan Yaxın Şərq ölkələrində də neft ehtiyatı tükənməz deyildir. Bu reallıq ona dəlalət edir ki, ehtiyatların əbədi həyatı mücərrəd məsələdir. Regionun səhra və yarım səhra şəraiti, iqlim çətinliyi bütün flora və faunaların tam spektrdə yaranışı mümkün etməsə də, bol neft-qaz sərvətləri müəyyən boşluğun doldurulmasında əhəmiyyətli kapital stimulu olmuşdur. Azərbaycanda da neft ehtiyatı izafi həcmdədir. Neft satışının reallaşacağı əsas bazar isə ölkə hüdudlarından

kənardadır. Bu baxımdan Azərbaycanda da, neft strategiyası ilə yanaşı, postneft konsepsiyası da işlənib hazırlanmalıdır. Təşkil edilən Azərbaycan Respublikasının Neft Fondu, yanacaq qaz və digər perspektiv imkanlı enerji, mineral xammal fondları da məhz bu amillərə xidmət etməlidir.

Məlumat üçün qeyd edək ki, neft ehtiyatlarına görə dünyada birinci yeri Səudiyyə Ərəbistanı tutur. Bu ölkənin neft ehtiyatı 35,507 milyard ton, təbii qaz ehtiyatı isə 65,78 trilyon kubmetr təşkil edir. Ayrı-ayrı ölkələr üzrə neft və qaz ehtiyatları haqqında məlumatlar cədvəl 70-də verilmişdir.

Məlumdur ki, əmək fəaliyyəti sahələrinin hamısının öz infrastrukturu, yəni həmin sahələrdə zəruri işgüzar münasibətlərə təkanverici komponenti vardır. İnfrastruktur isə həmin fəaliyyət növlərindən səmərəli istifadəni təmin edir. ***İqtisadiyyatda infrastruktur*** dedikdə, konkret təsərrüfat sahəsinə xidmət edən digər fəaliyyət sahələrinin kompleksi kimi nəzərdə tutulur. Məsələn, istehsal üçün yolların, körpülərin, portların, kanalların və s. tikintisi, enerji, nəqliyyat və anbar təsərrüfatları, rabitə, su təchizatı və s. kompleksi onun infrastrukturu kimi qəbul edilmişdir.

İnfrastruktur biznesə uyğunlaşdırıldıqda, işgüzar münasibətlərin hərəkətini və bu münasibətlərin müxtəlifliyini və müxtəlif subyektliliyini bilavasitə göstərən təşkilati-hüquqi formaların məcmusudur. İşgüzar aləm təkcə özünün biznes subyektlərindən, yəni sahibkarlardan, istehlakçılardan, muzdla işləyən adamlardan və bilavasitə işgüzar sazişlərdə, sövdələşmələrdə iştirak edən dövlət strukturlarından ibarət deyil, eyni zamanda bu subyektlərin arasında və ayrılıqda həmin subyektlərin hər birinin tərkib ünsürləri arasında baş verən qarşılıqlı münasibətləri müəyyənləşdirən çoxlu miqdarda aralıq vasitəçilərin fəaliyyəti ilə şərtlənir ki, bu da münasibətdə olan subyektlərə öz işgüzar marağının realizə olunmasında kömək göstərir. Başqa sözlə, biznes infrastrukturunun mahiyyəti və spesifik cəhətləri ondan ibarətdir ki:

– infrastruktur xammal və material, maliyyə, əmək, intellektual, informasiya və s. resursların müstəqil mübadiləsinin təmin edilməsinə ən əlverişli şərait yaradan bir sistem kimi çıxış etməklə yanaşı o, maddi nemətlər istehsal etmir, işgüzar xidmətləri yaradır və həyata keçirir;



*Cədvəl 70*

***2000-2001-ci illərdə dünya ölkələri üzrə neft-qaz ehtiyatları***

| Regionlar və ölkələr | Ehtiyatlar | | | |
|---|---|---|---|---|
| | Neft, mlyard ton | | Təbii qaz, trilyon kubmetr | |
| | 01.01.2000 | 01.01.2001 | 01.01.2000 | 01.01.2001 |
| ASR ölkələri o cümlədən: | 6,030 | 6,020 | 10,29 | 10,34 |
| Avstraliya | 0,396 | 0,396 | 1,26 | 1,26 |
| Bruney | 0,185 | 0,185 | 0,39 | 0,39 |
| ÇXR | 3,288 | 3,288 | 1,37 | 1,37 |
| Hindistan | 0,663 | 0,648 | 0,65 | 0,65 |
| İndoneziya | 0,682 | 0,682 | 2,05 | 2,05 |
| Malayziya | 0,534 | 0,534 | 2,31 | 2,31 |
| Digər ölkələr | 0,282 | 0,287 | 2,26 | 2,31 |
| Qərbi Avropa ölkələri o cümlədən: | 2,549 | 2,354 | 4,43 | 4,50 |
| Danimarka | 0,146 | 0,146 | 0,09 | 0,09 |
| Almaniya | 0,049 | 0,052 | 0,34 | 0,33 |
| İtaliya | 0,085 | 0,085 | 0,23 | 0,23 |
| Niderland | 0,015 | 0,015 | 1,77 | 1,77 |
| Norveç | 1,478 | 1,294 | 1,17 | 1,25 |
| B. Britaniya | 0,706 | 0,685 | 0,75 | 0,75 |
| Digər ölkələr | 0,077 | 0,077 | 0,08 | 0,07 |
| Şərqi Avropa və MDB o cümlədən: | 8,085 | 8,085 | 56,70 | 56,70 |
| Azərbaycan | 0,161 | 0,161 | 0,13 | 0,13 |
| Qazaxıstan | 0,742 | 0,742 | 1,84 | 1,84 |
| Rumıniya | 0,195 | 0,195 | 0,37 | 0,37 |
| Rusiya | 6,654 | 6,654 | 48,14 | 48,14 |
| Türkmənistan | 0,075 | 0,075 | 2,86 | 2,86 |
| Ukrayna | 0,054 | 0,054 | 1,12 | 1,12 |
| Özbəkistan | 0,081 | 0,081 | 1,88 | 1,88 |
| Digər ölkələr | 1,123 | 1,123 | 0,36 | 0,36 |

| | | | | |
|---|---|---|---|---|
| Yaxın Şərq ölkələri o cümlədən: | 92,558 | 93,632 | 49,45 | 52,52 |
| Abu-Dabi | 12,630 | 12,630 | 5,55 | 5,55 |
| İran | 12,151 | 12,151 | 23,00 | 23,00 |
| İraq | 15,411 | 15,411 | 3,11 | 3,11 |
| Küveyt | 12,877 | 12,877 | 1,48 | 1,48 |
| Katar | 0,507 | 1,802 | 8,50 | 11,15 |
| Səudiyyə Ərəbistanı | 35,753 | 35,507 | 65,78 | 60,04 |
| Digər ölkələr | 3,224 | 3,254 | 2,12 | 2,19 |
| Afrika ölkələri o cümlədən: | 10,259 | 10,259 | 11,16 | 11,16 |
| Əlcəzair | 1,260 | 1,260 | 4,52 | 4,52 |
| Anqola | 0,741 | 0,741 | 0,04 | 0,04 |
| Misir | 0,404 | 0,404 | 0,99 | 0,99 |
| Qabon | 0,342 | 0,342 | 0,03 | 0,03 |
| Liviya | 4,041 | 4,041 | 1,31 | 1,31 |
| Nigeriya | 3,082 | 3,082 | 3,51 | 3,51 |
| Digər ölkələr | 0,389 | 0,389 | 0,76 | 0,76 |
| Qərb yarım kürəsi ölkələri o cümlədən: | 19,712 | 20,532 | 13,61 | 14,26 |
| Argentina | 0,377 | 0,421 | 0,69 | 0,75 |
| Braziliya | 1,008 | 1,110 | 0,23 | 0,23 |
| Kanada | 0,675 | 0,645 | 0,81 | 0,73 |
| Kolumbiya | 0,353 | 0,353 | 0,20 | 0,20 |
| Ekvador | 0,290 | 0,290 | 0,10 | 0,10 |
| Meksika | 3,890 | 3,871 | 0,85 | 0,86 |
| ABŞ | 2,881 | 2,979 | 4,65 | 4,74 |
| Venesuela | 9,945 | 10,529 | 4,04 | 4,16 |
| Digər ölkələr | 0,293 | 0,334 | 1,04 | 1,49 |
| **Dünya ölkələri üzrə cəmi** o cümlədən: | **139,184** | **140,885** | **145,73** | **149,48** |
| **OPEK** | **109,929** | **111,561** | **63,83** | **66,87** |



– biznes strukturu son dərəcə çox şaxəli biznes fəaliyyətinə təkan verici bir sistem kimi bazar iqtisadiyyatının bütün sahələrində sahibkarlıq və s. biznes subyektlərinin fəaliyyətini canlandırır və fəallığını artırır;

– aşağıda adları çəkilən infrastrukturun tərkib ünsürləri sferasında adamlar arasındakı işgüzar münasibətlərin sivilizasiyalaşmış formasıdır. Həmin biznes infrastrukturlarına aiddir: istehlak bazarının infrastrukturu (məsələn, anbar təsərrüfatı və digər maddi-enerji resurslarının saxlanılması sistemləri, malların nəql edilməsi və göndərilməsi, əmtəə birjaları, topdansatış ticarət, əhaliyə göstərilən məişət xidməti, rabitə və s.); istehsal vasitələri bazarının infrastrukturu (məsələn, broker kontorları, xammal və material birjaları, lizinq əməliyyatları, faktorinq, məhsulların nəql edilməsi və göndərilməsi, rabitə və s.); əmək bazarı infrastrukturu (məsələn, əmək birjası, əmək məşğulluğu üzrə dövlət xidməti və s.); kadrlar hazırlığı və yenidən hazırlıq infrastrukturu (məsələn, kadrların ixtisasının artırılması, miqrasiya proseslərinin idarə edilməsi strukturu); maliyyə-kredit infrastrukturu (məsələn, kommersiya bankları, sığorta şirkətləri, vençur bankları, qiymətli kağızlar birjaları və s.); informasiya infrastrukturu.

Neft sənayesində yeni yaradılmış infrastruktura misal olaraq ***Səngəçal terminalını*** göstərmək olar. 2002-ci ildə bu infrastrukturun dünya standartlarına uyğunlaşdırılması sahəsində geniş tədbirlər həyata keçirilmişdir. «Azəri» yatağının qurğu və obyektlərinin hazırlandığı «Şelflayihətikinti» İstehsal Birliyinin inşaat sahəsinin dünya standartları səviyyəsində modernləşdirilməsi istiqamətində xeyli iş görülüb. Artıq «Azəri» yatağının mərkəzi hissəsi üçün platformanın üst modullarının quraşdırıldığı sahənin modernləşdirilməsi başa çatdırılıb. 2002-ci ildə «Azəri» yatağının mərkəzi hissəsində hasilat, qazma və yaşayış platformalarının yerləşdiyi ərazidə sualtı qazma dayaq tavası quraşdırılıb ki, bu da dünyada Xəzər dənizində yerləşdirilmiş ən nəhəng qurğudur.

2002-ci ildə dəniz əməliyyatlarını səmərəli yerinə yetirmək məqsədilə «Xəzərdənizneftdonanma» idarəsinin gəmi və barjlarını dünya standartları səviyyəsində modernləşdirmək üçün tədbirlər həyata keçirilmişdir. «İsrafil Hüseynov» adına boru

düzən gəmisinin əsaslı təmiri başa çatdırılmışdır. Dənizdən nefti qəbul edib onu ixrac boru kəmərləri sisteminə vuran Səngəçal sahil terminalının genişləndirilməsi üçün 2002-ci ildə xeyli iş görülüb.

Yuxarıda deyilənlərdən əlavə biznes infrastrukturunun tərkibinə, onun bazar iqtisadiyyatındakı roluna və əhəmiyyətinə görə aşağıdakı ünsürləri də daxil etmək olar:

***a) vergi sistemi və vergi müfəttişliyi.*** Ümumiyyətlə biznes fəaliyyətində vergi sistemi elə təşkil olunmalıdır ki, o bir tərəfdən, ədalətli olmalıdır, yəni maliyyə resurslarının bölgüsünü düzgün həyata keçirilməsinə imkan verməlidir. Belə ki, respublikamızda həm mütərəqqi vergi sistemi olmalı, həm əhalinin yoxsul təbəqəsinin gəlirləri mühafizə olunmalı, həm də biznes fəaliyyətinin inkişafı üçün əlverişli şərait yaratmalı, onun geniş yayılmasına və bir tərəfdən biznesmenin, digər tərəfdən isə cəmiyyətin varlanmasına xidmət göstərməlidir.

Vergilər dövlətin, yerli orqanların, məsələn, bələdiyyənin və fiziki şəxslərin, o cümlədən biznesmenlərin gəlirlərinin formalaşdırılmasında mühüm rol oynayır. Odur ki, vergi sistemi müntəzəm surətdə təkmilləşdirilir və bazar iqtisadiyyatı münasibətlərinə uyğunlaşdırılır. Məlumat üçün qeyd edək ki, sosializmdə keçmiş SSRİ-də, o cümlədən Azərbaycan Respublikasında müəssisə və təşkilatların əldə etdikləri mənfəətdən büdcəyə bir neçə növ ayırmalar ödənilirdi. Bununla yanaşı, əsas vergi növləri kimi uzun illər ölkənin iqtisadiyyatında dövriyyədən vergi və satışdan vergi tətbiq edilirdi. Hər ikisinin iqtisadiyyat üçün bir sıra ümumi və xüsusi qüsurları vardır. Yeni təsərrüfatçılıq şəraitində inkişaf etmiş dünya ölkələrinin təcrübəsinə əsaslanaraq həmin vergilər, yəni dövriyyədən və satışdan vergilər artan dəyər (əlavə dəyər) və aksiz vergiləri ilə əvəz edilmişdir. Bu vergiləri ödəyənlərə hüquqi şəxs statuslu olan müəssisələr və təşkilatlar ölkənin adından mallar, işlər və xidmətlər realizə edən tam yoldaşlıq ittifaqları (cəmiyyətləri), fərdi, yaxud ailəvi xüsusi müəssisələr, müəssisələrin əlahiddələşdirilmiş firmaları, şöbələri, hüquqi şəxs statusuna malik və respublikamızın ərazisində kommersiya fəaliyyəti ilə məşğul olan beynəlxalq və xarici müəssisələr, hüquqi şəxs statusu olmayan, lakin sahibkarlıq fəaliyyəti ilə məşğul olan və mal (iş, xidmət)



satışından əldə etdiyi məbləğ 10 mln. manatdan çox olan fərdlər aiddir. Vergiqoyma obyektləri isə ölkəmizdə istehsal edilən məhsullar, xaricdən gətirilən mallar, həmçinin müəssisə daxilində özünün istehlakı üçün realizə edilən mallar (işlər, xidmətlər) üzrə dövriyyə və istehsal (tədavül) xərclərinə aidiyyatı olmayan məsrəflər, digər mallara (işlərə, xidmətlərə) mübadilə qaydası ilə realizə edilən mallar (işlər, xidmətlər) üzrə dövriyyə, başqa müəssisələrə, yaxud fərdlərə əvəzsiz verilən və ya dəyəri qismən ödənilən mallar (işlər, xidmətlər) üzrə dövriyyə aiddir.

Aksizləri ödəyənlər isə müəssisələr və təşkilatlar, o cümlədən xarici kapitaldan istifadə edən müəssisələr və onların təcrid olunmuş (yarım müstəqil) firmaları, şöbələri və s. struktur bölmələridir. Aksizlərin fərqli dərəcələri Maliyyə Nazirliyi tərəfindən müəyyənləşdirilir. Aksizlərin məbləği isə realizə olunmuş malların (işlərin, xidmətlərin)məcmu məbləği və aksiz normaları əsasında onları ödəyənlər tərəfindən müəyyən edilir.

Deyilənlərdən əlavə, digər növ vergilər də olmalıdır. Belə vergilərə aşağıdakıları aid etmək olar: ərazi vergiləri, avtomobil yollarından istifadə vergiləri, nəqliyyat vasitələrinin satışından əldə edilən mənfəətdən vergilər, torpaq vergisi, əhalidən gəlir vergisi və müəssisələrin mərkəzi pensiya fonduna (aylıq əmək haqqının 1% həcmində), məşğulluq fonduna və ictimai sığorta fonduna ayırmaları formasında vergilər. Lakin bütün hallarda vergilər biznes fəaliyyətinin inkişafı üçün maddi stimul yaratmalıdır.

***b) auditor xidməti*** – biznes fəaliyyətində potensial imkanları müəyyənləşdirməyə imkan verir. Auditor yoxlamaları, əsasən, müəssisə və təşkilatlarda, həmin struktur bölmələrin rəhbərliyinin təşəbbüsü və xahişi ilə aparılır. Belə yoxlamaların nəticələri işgüzar münasibətlərdə olan subyektlər arasındakı qarşılıqlı münasibətlərin mövcud durumunu araşdırmaq üçün istifadə edilir.

***c) konsaltinq şirkətlər*** – milli və dünya bazarlarında qiymətlərin ödənilməsi və proqnozlaşdırılması, siyasi-təsərrüfat şirkətlərinin, ixrac-idxal əməliyyatlarının qiymətləndirilməsi, beynəlxalq əməkdaşlıq obyektləri və müştərək müəssisələr yaradılması üçün iqtisadi-texniki əsaslandırmaların işlənib hazırlanması, idxalat və ixracat strategiyasının hazırlanması, daxili və xarici mühitin, həmçinin müəssisənin ixracat-idxalat üzrə

ticarət əməliyyatlarının həyata keçirilməsi obyekti olan konkret bazarın xarakterik cəhətləri nəzərə alınmaqla onların maliyyə-təsərrüfat fəaliyyətinə dair məsləhətlər verməklə xidmətlər göstərir. Ümumiyyətlə, konsaltinq – satıcılar və alıcılara müəssisələrin, firmaların, təşkilatların iqtisadi fəaliyyəti, həmçinin xarici iqtisadi sahədə geniş dairədə suallar ətrafında məsləhət vermək fəaliyyəti deməkdir.

***ç) biznes məsləhətçiləri*** – ilk dəfə 1920-ci ildə ABŞ-da yaradılmışdır. Bunlar bazar münasibətlərinin saflaşdırılmasında mühüm rol oynayırlar. Hazırda ABŞ-da belə məsləhətçilərin xidmətindən 80%-ə qədər müəssisə və təşkilatlar istifadə edir. Bu onunla izah edilir ki, biznesmenlərin çoxunun bazar iqtisadiyyatı şəraitində işləmək təcrübəsi kifayət qədər deyil. Hətta işgüzar adamların çox hissəsi qanunvericilikdən belə baş çıxara bilmirlər. Biznes məsləhətçiləri belə halların aradan qaldırılmasında müəssisə və təşkilatlara lazımi məsləhətləri verirlər.

***d) biznes informasiyası*** – idarəetmənin konyunktura sistemi və kommunikasiya vasitələri biznes infrastrukturunun çox mühüm ünsürləridir. İnformasiya biznesi özlüyündə məhsul və xidmət istehsalından başlayaraq hesablama texnikası da daxil olmaqla insan fəaliyyətinin çox geniş sahələrini əhatə edir. Müasir biznes infrastrukturunu inkişaf etmiş ölkələrin alimləri-iqtisadçıları müxtəlif baxımdan qiymətləndirirlər. Bunlardan ən yönümlüsü və informasiya infrastrukturunu anlaşıqla şərh edən professor L.Deyimin sxemidir. Biznesin informasiya infrastrukturunun təxmini sxemi cədvəl 71-də verilmişdir.

Sxemdə verilən səkkiz seqmentdən mühüm əhəmiyyət kəsb edəni «İnformasiya texnologiyası»dır. Çünki «İnformasiya texnologiyası» müasir biznes infrastrukturunun digər ünsürləri üçün əsas vasitədir. Bura, sxemdə göstərildiyi kimi, ən mütərəqqi texniki vasitələr – kompüterlər, terminallar, optik cihazlar, mikrofilmlər, lazer diski, mətbuat avadanlıqları və s. aiddir. Bununla belə, bazar iqtisadiyyatı şəraitində biznesin informasiya infrastrukturunun digər ünsürlərini nəzərdən qaçırmaq olmaz. Deməli, məsələyə kompleks yanaşılmalıdır.

Lakin biznes informasiya infrastrukturundan danışarkən, onu da nəzərə almaq lazımdır ki, informasiya texnologiyası daim inkişafda olmalıdır. İnformasiya sahəsində meydana gələn yeni



*Cədvəl 71*

***Biznesin informasiya infrastrukturunun tərkib ünsürləri***

| № | Seqmentlərin adları | Fəaliyyət növləri |
|---|---|---|
| 1 | Məzmunlu informasiya | Kinofilmlər, dövri mətbuat (qezetlər, jurnallar); mikro filmlər; informasiya bülletenləri, arayış və kitabçalar, elan etmə, videodisklər, plyonkalar. |
| 2 | Yardımçı xidmətlər | Risk kapitalı; banklar; süni intellektual sistemi; sistemlərin layihələşdirilməsi; sistemin iş vaxtı bölgüsü; proqramlaşdırma; sənədlərin elektron ötürücüsü; məlumatların işə salınması. |
| 3 | İnformasiya texnologiyası | Kompüterlər; terminallar; kontor avadanlığı; optik cihazları; mikrofilm; lazer diski; mətbuat avadanlıqları; uçot üçün blanklar; kseroköçürmə. |
| 4 | İnteqrallama texnologiyası | Terminallar; şəxsi kommutator; danışıq sistemləri; sənədlərin eyni ilə çıxarılmış surəti (klişesi); rəqəm məlumatları. |
| 5 | Rabitə vasitələri | Radio; televiziya; telefon; ötürücü sistemləri; poçt rabitəsi vasitələri; kommutatorlar. |
| 6 | Rabitə kanalları | Kuryer vasitəsilə göndərmə; poçt, teleqraf, telefon, beynəlxalq rabitə vasitələri; sputnik rabitəsi; kommersiya rabitə vasitələri; kabelli televiziya; səyyar və bloklu aparatura. |
| 7 | Teleradio verilişi | Radio şəbəkəsi; regional teleradio şəbəkəsi; kanalları teleşəbəkə; telefaks; qısadalğalı rabitə. |
| 8 | Mənalı xidmətlər | Xəbərlər xidməti; elektron və qeyri-elektron məlumatlar bankı üçün ilkin informasiya; fond birjası haqqında informasiya; informasiya dəllalları; kitabxanalar; videoteklər; məlumat banklarının sahibləri; danışıq (nitq) sistemləri. |

texnologiya mövcud texnologiya ilə birlikdə həm milli, həm də dünya bazarının hərəkətverici qüvvəsidir. Bunu da qeyd etmək lazımdır ki, biznes informasiya infrastrukturunun digər ünsürlərdən bəziləri, xüsusən kompleks mexanikləşdirmə və avtomatlaşdırma vasitələri biznes infrastrukturunun başqa ünsürləri ilə qarşılıqlı fəaliyyət qabiliyyətinə malik olmadıqda, informasiya texnologiyası biznes fəaliyyətinin inkişafının qarşısını almaq, yaxud onu ləngitmək amili kimi də çıxış edə bilər.

Ümumiyyətlə, informasiya biznesi bir tərəfdən, biznes infrastrukturu sisteminə daxil olur, digər tərəfdən isə biznesin müstəqil sferası kimi çıxış edir. İnformasiya biznesi müasir real bazar iqtisadiyyatı ölkələrində əsrimizin 60-cı illərində meydana gəlmiş, 70-ci illərdə müstəqil sahə kimi formalaşmış, 80-ci illərdə isə özünün infrastrukturu ilə birlikdə iri, çox sahəli kompleksə çevrilmişdir. 1990-cı ildə dünya informasiya texnologiyası istehlakının həcmi 2 trilyon ABŞ dallarına çatmışdır. ABŞ-da və Yaponiyada informasiya məşğulluq səviyyəsinə görə maddi istehsal sferasını ötmüşdü. Belə ki, 1980-ci ilin başlanğıcında ABŞ-ın bu fəaliyyət sahəsində bütün işləyənlərin 60%-i məşğul idi. İnformasiya biznesinin bugünkü inkişafının meyli artım sürətinə, məşğulluğuna və digər iqtisadi göstəricilərinə görə ənənəvi sahələrin inkişafını daim qabaqlayır. Biznes infrastrukturunun digər sahələri barəsində də eyni fikirləri söyləmək olar.

## 10.5. Azərbaycanda neft biznesinin inkişaf perspektivləri

Neft biznesinin təşkili neft sənayesinin inkişafı ilə bilavasitə əlaqədardır. Məlumat üçün qeyd edək ki, neft sənayesi mürəkkəb və uzun müddət istehsal prosesini həyata keçirən sahələrdən biridir. Odur ki, neft-qaz yataqlarının işlənməsi müddətində neft və qaz hasilatı həcminin artması, onun sabitləşməsi, azalması və habelə köhnə yataqlarda qalmış neft-qaz ehtiyatlarının mənimsənilməsi prosesi baş verir. Köhnə neft-qaz yataqlarının işlənməsi və mənimsənilməsi isə investisiya qoyuluşu həcminin müntəzəm surətdə artırılmasını, fasiləsiz olaraq yeni neft-qaz quyularının istismara verilməsini, fasiləsiz neft-qaz quyularının bərpasını və istismara qaytarılmasını tələb edir. Layihə-tədqiqat işlərinin başlanmasından ilkin neftin və qazın əldə



edilməsinədək olan vaxt müddəti orta hesabla 4-6 il təşkil edir. Deməli, neft-qaz yataqlarının mənimsənilməsi və bununla əlaqədar olaraq neft biznesinin təşkili çox risk tələb edir. ***Risk*** dedikdə, vəziyyətin müəyyən ehtimalla aydınlığı nəzərdə tutulur. Riskin müxtəlif növləri və təsir dairəsi mövcuddur. Odur ki, risklər aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

***Neft-qaz yataqlarının işlənməsi layihəsinə təsir xarakterinə görə*** – risklər qeyri-həyat qabiliyyətli risklərə, borcun ödənilməsi ilə əlaqədar olan risklərə və bitməmiş tikinti-quraşdırma işləri ilə bağlı risklərə ayrılır. Qeyri-həyat qabiliyyətli risklər neft-qaz yataqlarının işlənilməsi üzrə işlənib hazırlanmış layihənin kifayət qədər maliyyə vəsaitləri axını generasiya etmək qabiliyyəti olmaması imkanını nəzərdə tutur. Hətta daha yararlı layihələr də maliyyə vəsaitlərinin axını üzrə müvəqqəti problemlərlə və kreditlər üzrə faizlərin ödənilməsində imkansızlıqlarla qarşılaşa bilər. Belə növ imkansızlıqlar borcların ödənilməsi üzrə risklər adlanır. Yeni texnika və mütərəqqi texnologiya tətbiq edilən layihələrdə bitməmiş tikinti-quraşdırma riskləri çox böyükdür, baxmayaraq ki, bu layihələrin cari dəyəri əvvəlcədən nəzərdə tutulduğu dəyərdən əhəmiyyətli dərəcədə fərqlənir.

***Yaranma mənbələrinə görə*** – texniki, geoloji, qiymət, vergi, kredit, iqtisadi və siyasi riskləri fərqləndirirlər. ***Texniki risk*** dedikdə, yeni texnikanın yaradılması və mənimsənilməsi və mütərəqqi texnoloji proseslərin işlənib hazırlanması ilə əlaqədar olan risklər; ***geoloji risk*** dedikdə, neft-qaz yataqlarının işlənilməsi ilə əlaqədar layihələrin kifayət qədər geoloji cəhətdən yaxşı öyrənilməsi ilə bağlı risklər; ***qiymət riski*** dedikdə, həm layihənin məhsulunun, həm də layihənin həyata keçirilməsi zamanı istifadə olunan resursların qiymətlərinin dəyişməsi imkanları ilə əlaqədar olan risklər; ***kredit riski*** dedikdə, götürülmüş kreditlər üzrə bankların faiz tariflərinə yenidən baxılması və onların artırılması ilə bağlı risklər; ***iqtisadi risk*** dedikdə, ümumi iqtisadi vəziyyətin dəyişməsi və bu dəyişmələrin layihəyə təsiri imkanları bağlı risklər; siyasi risk dedikdə isə tam bir qrup mümkün problemlərin həlli ilə əlaqədar olan risklər nəzərdə tutulur.

***Aradan qaldırılması mümkünlüyünə görə*** – risklər müntəzəm və qeyri-müntəzəm risklərə ayrılır. Müntəzəm risklər iqtisadiyyatda baş verən proseslər nəticəsində əmələ gəlir və onu

diversifikasiya (*Diversifikasiya* – rəngarənglik, çoxcəhətli inkişaf; istehsalın diversifikasiyası – istehsalın bir-biri ilə əlaqəsi olmayan növlərinin eyni zamanda inkişafı, istehsal olunan məmulatın çeşidinin genişləndirilməsi deməkdir) yolu ilə aradan qaldırmaq mümkün olmur. Bu növ risklər ümumi risklərin təqribən 30-50%-ni təşkil edir. Qeyri-müntəzəm risklər isə risklərin diversifikasiya yolu ilə, yəni müxtəlif layihələrə vəsaitlər qoymaqla aradan qaldırıla bilinən risklərdir.

Məlumat üçün qeyd edək ki, respublikamızda fəaliyyət göstərən bir çox xarici neft şirkətlərinin kifayət qədər maliyyə vəsaitlərinə malik olmalarına baxmayaraq, uzunmüddətli borc maliyyələşdirilməsinə, kreditləşdirilməsinə üstünlük verirlər. Bu növ kreditləşmənin üstün cəhəti ondan ibarətdir ki, bu zaman riskin bir hissəsi borcu verən bank idarəsinə ötürülür. Uzunmüddətli borc maliyyələşdirilməsi kredit idarələri tərəfindən reqress dərəcələrinə görə üç qrupa ayrılır: birincisi, ***tam reqress hüquqlu kreditlər*** – borc vəsaitlərinin müəssisənin bütün vəsaitləri və istənilən maliyyə əməliyyatları hesabına qaytarılmasını; ikincisi, ***reqress hüququ olmayan kreditlər*** və yaxud layihə maliyyələşdirilməsi zamanı yaranan borc vəsaitlərinin yalnız həyata keçirilən layihələrdən əldə edilən gəlirlər hesabına ödənilməsini və nəhayət, üçüncüsü, ***məhdud reqress hüquqlu risklər*** isə tam reqress hüquqlu və reqress hüququ olmayan kreditlərin verilməsi qaydalarının eyni zamanda qarışıq tətbiqini nəzərdə tutur.

Məlumdur ki, bütün cəmiyyətlərdə iqtisadi proseslər, o cümlədən biznes fəaliyyəti kortəbii surətdə öz-özünə baş vermirlər. Onlar müxtəlif səviyyələrdə ayrı-ayrı qruplar tərəfindən tənzimlənir, istiqamətlənir və idarə olunur. Bazar iqtisadiyyatına keçid dövründə sosial-iqtisadi proseslərin idarə edilməsində və təşkilində müstəsna rol iqtisadiyyatın, biznes fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsinə məxsusdur. Dünya təcrübəsi göstərir ki, hər hansı bir iqtisadi sistemin normal fəaliyyətinin təmin edilməsində dövlət həlledici rol oynayır. Bu baxımdan dövlətlə neft biznesinin qarşılıqlı əlaqəsinin, dövlətin neft biznesi fəaliyyətinə müdaxiləsinin optimal nisbəti və hüdudunun gözlənilməsi məsələsi müasir dövrün əsas problemlərindən biridir.

Bildiyimiz kimi, tarixən sosial-iqtisadi proseslərin idarə edilməsi və tənzimlənməsinin formalaşmış iki əsas tipi məlumdur. Onlardan biri mərkəzləşdirilmiş planlaşdırma və idarəetməyə əsaslanan inzibati-amirlik sistemi, digəri isə iqtisadi üsullara əsaslanan azad bazar sistemidir. Bu gün ölkəmizdə həyata keçirilən əsaslı iqtisadi dəyişikliklərin əsas məzmunu da məhz inzibati-amirlik sistemindən bazar iqtisadiyyatına keçid təşkil edir. Bu heç də o demək deyildir ki, bazar iqtisadiyyatı şəraitində dövlət iqtisadiyyatdan təcrid olunmuş halda fəaliyyət göstərməlidir. Əksinə, dövlət müəyyən hədd daxilində daima iqtisadiyyata, o cümlədən biznes fəaliyyətinə müdaxilə etməlidir. Özü də hər bir konkret ölkədə bu müdaxilənin həddi müxtəlif ola bilər. Çünki müəyyən həddən yuxarı və aşağı səviyyədə dövlətin iqtisadiyyata müdaxiləsi eyni dərəcədə ziyanlıdır. Dövlət özünün iqtisadi tənzimləmə funksiyasını səmərəli surətdə yerinə yetirə bilməsi üçün, hər şeydən öncə, kifayət qədər tənzimləmə resurslarına malik olmalı, ikincisi, həmin vasitələrin imkanlarını aydın təsəvvür etməli və nəhayət, onların sosial-iqtisadi nəticələrini görməlidir. Məsələn, ABŞ-da 100-dən çox təşkilat və idarə müxtəlif səviyyələrdə iqtisadiyyatın tənzimlənməsi ilə məşğul olur və bu məqsədə ildə 100 milyard dollardan artıq vəsait sərf edir. Bu xərclərin bir hissəsi birbaşa istehsalın və qiymətin tənzimlənməsinə yönəlirsə, onun müəyyən hissəsi isə qanunvericilik aktlarının hazırlanması, onun yerinə yetirilməsi üzərində nəzarətetməyə, dövlət xətti ilə kadr hazırlığına, müvafiq hesabat sənədlərinin hazırlanmasına və s. məqsədlərə istifadə olunur.

Məlumat üçün qeyd edək ki, iqtisadiyyatın tənzimləməsi haqqında baxışlar olduqca müxtəlifdir. İlk dəfə olaraq, iqtisadiyyatın tənzimlənməsi haqqında fikirlərə A.Smitin əsərlərində rast gəlmək olur. Onun «görünməyən əl» təliminə görə, sərbəst iqtisadiyyat şəraitində hər hansı bir şəxsin özü üçün qazanc əldə etməyə, başqa sözlə, mənfəət götürməyə yönəldilən fərdi fəaliyyəti son nəticədə hərc-mərcliyə deyil, bazar ünsürləri vasitəsilə cəmiyyətdə qeyri-qanun yaradılmasına səbəb olur və «görünməyən əl» vasitəsilə fərdi mənafe ümumi mənafeyə uyğunlaşdırılır. A.Smit təliminə görə, bazar iqtisadiyyatı «görünməyən əl» vasitəsilə öz-özünü avtomatik tənzimləyən bir sistemdir. Buna görə də o, iqtisadi proseslərə dövlətin müdaxilə

etməsini məqsədəuyğun saymırdı. Sonradan A.Smit təliminin bu ümumi müddəaları L.Valrasın, U.Cevonsun, A.Marşalın, E.Bem-Baverkin, F.Vizerin. M.Fridmanın və b-nın əsərlərində daha da inkişaf etdirilmişdir.

Dövlətin iqtisadiyyata müdaxiləsi haqqında fikirlər C.Keynsin əsərlərində də öz ifadəsini tapmışdır. C.Keyns 1936-cı ildə çapdan çıxmış «Məşğulluğun, faizin və pulun ümumi nəzəriyyəsi» əsərində klassik və neoklassik təlimlərdən asılı surətdə fərqli olaraq sübut etdi ki, dövlət tələb səviyyəsinə təsir göstərməklə bütünlükdə iqtisadiyyatı tənzimləyə bilər. C.Keyns bu fikri «səmərəli tələb» ideyasına əsaslanaraq irəli sürmüşdür.

### 10.6. Dünya neft bazarında qiymət meylləri

Xam neftin qiymət meyli, dünya təsərrüfatında siyasi-iqtisadi proseslərə geniş təsiretmə gücünə malikdir. Bu baxımdan onun nizamlanması və proqnozlaşdırılması elmi-tədqiqat obyekti kimi aktual səciyyə daşıyır. Son 30 ildə isə bu aktuallıq daha da artaraq siyasi orbitdə çox dövr edən keyfiyyət almışdır.

1973-cü il ərəb embarqosu ilə başlanan ilə başlanan neft qiymətinin yeni tarixi bir çox olaylardan keçərək dünya iqtisadiyyatında əsas hərəkətverici qüvvələrdən biri olduğunu nümayiş etdirmişdir. Hadisənin qorxunc təəssüratı dünya neft sənayesinin inkişaf ssenarisini əsaslı götür-qoy etmədən yeni axtarış və kəşfiyyata sürət vermişdir. Bu illər ərzində ardıcıl olaraq dünya neft bazarında neftin qiyməti 1979-cu il İran inqilabı, 1990-cı ildə Körfəz müharibəsi və 1998-ci ildə Şərqi-Asiyadakı böhranla ciddi təsirlərə məruz qalmışdır. Eyni zamanda bu mərhələdə – 1988-ci ildə OPEK-in bazarı neftlə yükləməsi nəticəsində dünya neft bazarında xam neftin qiymətinin barel ölçüdə 10 dollardan aşağı düşməsi də böyük siyasi-iqtisadi gərginliklər yaratmış, dərin böhranlı vəziyyətdə olan Sovetlər İttifaqının çökməsinə sarsıdıcı zərbə vurmuşdur.

Məlumat üçün qeyd edək ki, bütün enerji mənbələri müqabilində neft hamıdan mühüm və daha çox problematik olmuş, onun strateji xarakteri, coğrafi bölgüdə və böhranlarda əsas rol oynamışdır. Neft və digər təbii ehtiyatlar həm də Sovetlər İttifaqının mövcudluğu tarixində ABŞ və Qərblə yeganə rabitə



əlaqəsi olmuşdur. Neftin diplomatik qüvvəsi də tarixi sınaqlardan çıxmışdır. Yaponiyanın Hitlerlə müttəfiq olmasına baxmayaraq, ABŞ Prezidenti T.Ruzvelt uzun müddət bu ölkəyə embarqo qoyulmasını uzadaraq, hesab etmişdir ki, nefti diplomatik alət kimi istifadə etmək silah tətiyindən xeyli yaxşıdır. Soyuq müharibənin tarixi məqamları müxtəlif hadisələrlə bağlı olsa da, tarixçilər bunu daha çox İran böhranı adlanan Şərqlə Qərb arasındakı çəkişmədən başlanğıc gətirmişdir. Bu baxımdan Sovetlər İttifaqının ikinci Dünya müharibəsində İranın Cənubi Azərbaycan bölgəsindən qoşunlarının çıxarılması təzyiqi də müəyyən mənada neft amili, onun dünya neft bazarında qiymət məsələsi ilə də bağlıdır. Sovetlər İttifaqının dağılmasında ABŞ Prezidenti R.Reyqanın neft kartından istifadəsi də siyasətdə qəbul edilən tarixi faktdır.

Yaxın keçmişdə 1999-2000-ci illər əhatəsində qiymətlərin davamlı enişi XX əsrin son ilinin ortalarından başlayaraq müqayisəsiz dərəcədə artmağa meyl göstərdi. Bu ərəfədə OPEK dünya neft bazarında xam neftin qiymətinin tənzimlənməsi prosesini öz öhdəsinə götürdü. Digər tərəfdən ABŞ-da dünya neft bazarında xam neftinin qiymətinin tənzimlənməsində mühüm rol oynayır. Çünki ABŞ-da həcmi 507 mln. barel olan strateji enerji fondu vardır və ABŞ-ın qanunvericiliyinə görə böhranlı anlarda iki ay müddətində 30 mln. barel neft daxili bazara çıxarıla bilər. B.Klinton administrasiya da bu qanundan istifadə etmişdir.

Beləliklə, dünya neft bazarında neftin qiyməti dəyişkən olaraq qalmaqdadır. Proqnozlara görə 2003-cü ilin sonundan 2020-ci ilə qədər neftin dünya bazar qiymətinin hər il orta hesabla 0,3% artımı gözlənilir. Bu isə faktiki olaraq 2005-ci ildə 1 barel 20 dollar, 2012-ci ildən sonrakı illərdə isə 27-28 dollara bərabərdir. Dünyanın aparıcı neft ixracatçı ölkələri cədvəl 72-də verilmişdir.

Dünya neft bazarında neft məhsullarının da qiyməti dəyişkən xarakter daşıyır. Belə ki, xam neftin dünya bazarında qiymətinin dəyişməsi neft məhsulların da qiymətinin dəyişməsinə səbəb olur. Statistik məlumatlara əsaslanaraq demək olar ki, ötən 13 il ərzində neft və neft məhsullarının qiymətində müəyyən enmələr nəzərə çarpsa da, ümumilikdə qiymət tendensiyasında artım müşahidə olunmuşdur. 2004-cü ilin noyabr ayının 1-nə

Cədvəl 72

**Dünyanın aparıcı neft ixracatçı ölkələri**

| Neft ixrac edən ölkələrin adları | İxracın həcmi, gündəlik mln. barel |
|---|---|
| Səudiyyə Ərəbistanı | 8,1 |
| Rusiya | 4,6 |
| İran | 3,7 |
| Norveç | 3,2 |
| Venesuela | 2,9 |
| İrak | 2,2 |
| Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) | 2,15 |
| Meksika | 1,39 |
| İndoneziya | 1,2 |
| Böyük Britaniya | 1,15 |

dünya bazarında 1 barel xam neftin qiyməti təqribən 55 ABŞ dollarına bərabər olmuşdur. Bu, son 14 ildə ən yüksək qiymətdir. Gələcəkdə onun həddinin 60 ABŞ dollarınadək qalxacağı gözlənilir. Cədvəl 73-də ARDNŞ-in Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi tərəfindən müxtəlif növ yağlar və sürtgü materiallarının satış qiymətləri verilmişdir.

## 10.7. Milli neft sektorunda qiymətin formalaşması amilləri

Hər bir təşkilat mənfəət əldə etmək baxımından fəaliyyət göstərdiyi bazar və onun xüsusiyyətlərindən asılıdır. İnkişaf etmiş bazar iqtisadiyyatı ölkələrinə mükəmməl və qeyri-mükəmməl rəqabət tipi qarışığı olan inhisarçı və bir neçə nəhəngin çalışdığı oliqorolik formalar xasdır. Azərbaycanda neft sənayesində bazar strukturu inkişafa qədəm qoysa da, meydanda hələ ki, bir şirkət – ARDNŞ güc sahibi kimi qüdrətini nümayiş etdirir. Bu gerçəkliyi isə hazırkı məqamda qeyri-təkmil inhisar rəqabəti kimi qiymətləndirmək olar.

Xəzər dənizinin Azərbaycan sektorundakı neft ehtiyatlarının mənimsənilməsi, şübhəsiz ki, Azərbaycanın daxili bazarında rəqabətin digər formalarının inkişafına səbəb olacaq. Ara-sıra



Cədvəl 73

***ARDNŞ-in Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi tərəfindən müxtəlif növ yağların və sürtgü materiallarının qiyməti***

| Sıra № | Yağların və sürtgü materiallarının adları | 1 tonun satış qiyməti, manatla |
|---|---|---|
| 1 | Mühərrik yağı M-10q2 | 1973300 |
| 2 | Niqrol | 1283300 |
| 3 | Salidol-S | 2801300 |
| 4 | Salidol-J | 2387429 |
| 5 | Litol-24 | 8041300 |
| 6 | Siatim-201 | 8041300 |
| 7 | Qrafit yağı | 8541300 |
| 8 | Salidol tipli «Plastol» | 2441300 |
| 9 | Litol tipli «Plastol-L» | 8351300 |
| 10 | Konstalin tipli «Plastol-K» | 4761300 |
| 11 | Press salidol – J | 2302628 |
| 12 | Konstalin-2 | 2977201 |
| 13 | Siatim-205 | 3200411 |
| 14 | M-10Q2K | 3581300 |
| 15 | J-13 sürtgüsü | 3459035 |
| 16 | Lqp-18 | 1929660 |
| 17 | MR-7 | 1929660 |
| 18 | MQE-489 | 1929660 |
| 19 | M6312Q1 | 1929660 |
| 20 | TAD-17 | 1929660 |
| 21 | TP-30 | 1929660 |
| 22 | XA-30 | 1929660 |
| 23 | Hidravlik yağ (qidromaslo) | 1929660 |
| 24 | Tserezin-70 | 6520700 |
| 25 | Tserezin-75 | 3637920 |
| 26 | Tserezin-80 | 3637920 |
| 27 | M-12VB | 1929660 |
| 28 | M-SV1 | 1929660 |

özünü nişan verən «kölgə iqtisadiyyatının» rəqabət təsiri zəifləyəcək, onun aradan qalxması gerçəkləşəcəkdir və beləliklə də indiki məqamda milli bazar daha çox rəqabətin mükəmməl formasına keçəcəkdir.

Azərbaycan nefti ilə bağlı klassik bir reallıq ondan ibarətdir ki, neftin qiyməti iki standartda – daxili və xarici qiymətlərdə əksini tapır. Bu tarixi ənənəvi gerçəkləşmənin obyektiv təzahürləri ilə yanaşı, digər formal tərəfləri də vardır. Emal məhsulunun məhdud assortimenti, köhnə texnologiyalarla əldə edilən aşağı keyfiyyət hələ qiymət fərqinə rəvac vermişdir. Analoji olaraq MDB məkanının neft hasilatçısı olan ölkələrində də mövcuddur. Məsələn, Rusiyada daxili qiymətlər, xarici qiymətlərdən xeyli aşağıdır. Burada ikili standartlardan vahid standarta keçidin yaxın perspektivdə qeyri-mümkünlüyü ölkə müəssisələrinin iqtisadi aktivliyi və sosial durumla əsaslandırılır. Azərbaycanda buna rəğmən əks tendensiya, daxili bazarda neftin və neft məhsullarının qiymətinin xarici bazarda və dünya qiymətlərinə qeyri-müvafiqliyi, müəyyən konyunktura hallarda isə çox zaman universal qiymətdən də yüksəkliyi müşahidə olunur. Quruda neft-qazçıxarma kompleksində isə neft məhsullarının maya dəyəri daxili bazardakı satış qiymətindən də yüksəkdə durur.

Azərbaycanın daxili bazarında satışa çıxarılan neft dövlət tərəfindən tənzimlənən qiymətlərlə reallaşdırılır. Hasiledici müəssisələrin Magistral Neft Kəmərləri İstehsalat Birliyinə neftin ötürülməsi, onlar da öz növbəsində emal müəssisələrinə çatdırılması reallaşdırılan mütləq texnoloji prosesdə və digər alternativ qurumların olmadığı şəraitdə qiymət dəyişiklikləri də dövlət nəzarətində qalır.



# FƏSİL 11. NEFT SƏNAYESİNƏ İNVESTİSİYA QOYULUŞU VƏ ONDAN İSTİFADƏ İSTİQAMƏTLƏRİ

## 11.1. Azərbaycanın investisiya siyasəti və onun əsas vəzifələri

İnvestisiya siyasəti onun əsas istiqamətlərini və həlledici sahələrdə cəmləşdirilməsi üzrə tədbirləri müəyyən edən təsərrüfat qərarlarının məcmusudur; ictimai istehsalın normal inkişaf sürətinə nail olunması, iqtisadiyyatın tarazlığı və səmərəliliyi, məsrəfin hər manatına görə daha çox məhsul və mənfəət artımı əldə edilməsi bu qərardan asılıdır.

İnvestisiya siyasətinin əsas vəzifəsi ehtiyat çıxaran, emal və istehlak edən sahələrlə investisiyalar arasındakı nisbəti yaxşılaşdırmaqdan, investisiyanı elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir. Bazar iqtisadiyyatına keçid dövründə investisiya siyasətinin səciyyəvi xüsusiyyəti ağırlıq mərkəzini yeni tikintilərdən mövcud müəssisələrin texnika ilə təchizinə və yenidən qurulmasına keçirməkdən, istehsal məqsədli investisiya qoyuluşunun ümumi həcmində bu məqsədlərə yönəldilən vəsaitin xüsusi çəkisini artırmaqdan, avadanlıq və maşınlar üçün məsrəfin payını yüksəltməkdən ibarətdir (cədvəl 74).

Cədvəl 74-ün məlumatlarından görünür ki, istehsalın inkişafına yönəldilmiş bütün investisiya qoyuluşunda mövcud müəssisələrin texnika ilə təchizatına və yenidən qurulmasına çəkilən xərclərin xüsusi çəkisi 1990-cı ildəki 43,1%-dən 2005-ci ildə 55,0%-ə qədər artmışdır ki, bu da fəaliyyət göstərən müəssisələrdə istehsal əsas fondların keyfiyyətcə təzələnməsinə, fiziki və mənəvi cəhətdən köhnəlməsindəki pis halların xeyli dərəcədə aradan qaldırılmasına imkan vermişdir. Digər tərəfdən, investisiya siyasətinin belə istiqaməti ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməyə də kömək etmişdir. 2005-ci ildə Azərbaycanda ÜDM istehsalı 26,4% artaraq, 11875,6 milyon manat olmuşdur.

İqtisadiyyatın bütün sahələrində istehsalın və əlavə dəyərin artımı müşahidə olunmuş və o özünü xüsusilə, tikintidə və emal sənayesində göstərmiş, həmin sahələrdə əlavə dəyərin artımı

Cədvəl 74

**İnvestisiya qoyuluşundan istifadə istiqamətləri, %**

| İllər | Cəmi | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | Mövcud müəssisələrin texniki təchizatına | Mövcud müəssisələrin genişləndirilməsinə | Yeni tikintiyə | Müəssisənin ayrı-ayrı obyektlərinə |
| 1990 | 100 | 43,1 | 19,6 | 37,0 | 0,3 |
| 1995 | 100 | 56,4 | 25,4 | 18,1 | 0,1 |
| 1996 | 100 | 38,8 | 6,8 | 52,3 | 2,1 |
| 1997 | 100 | 38,2 | 23,5 | 35,5 | 2,8 |
| 1998 | 100 | 51,7 | 8,9 | 37,2 | 2,2 |
| 1999 | 100 | 54,5 | 9,9 | 32,1 | 3,5 |
| 2000 | 100 | 55,0 | 9,7 | 33,0 | 3,3 |
| 2001 | 100 | 55,0 | 9,3 | 31,4 | 4,4 |
| 2002 | 100 | 51,7 | 8,9 | 37,2 | 2,2 |
| 2003 | 100 | 53,7 | 8,3 | 35,2 | 2,3 |
| 2004 | 100 | 54,1 | 8,5 | 34,4 | 3,0 |
| 2005 | 100 | 55,0 | 8,3 | 34,9 | 1,0 |

müvafiq olaraq 61,0% və 17,7% olmuşdur. İstehsal sahələrinin ümumi daxili məhsulda payı 2002-ci ildəki 60,1%-dən 63,1%-dək artmışdır. Adambaşına 1435,7 manatlıq (1517,6 ABŞ dolları), yaxud 2004-cü ildəkindən 25,1% çox məhsul istehsal olunmuşdur. Əlavə dəyərin 66,7%-i iqtisadiyyatın istehsal sahələrində əldə edilmiş və keçən ildəkindən 37,0% çox olmuşdur. Xidmət sahələrində əvvəlki ilə nisbətən 9,6% çox əlavə dəyər yaradılmışdır. ÜDM-nin strukturunda sənaye sahələri 47,5%, kənd təsərrüfatı 9,2%, tikinti kompleksi 10,0%, ticarət və pullu xidmət 6,9%, nəqliyyat 5,8%, rabitə 2,3%, digər sahələr isə 18,3% təşkil etmişdir.

Ümumiyyətlə, 1997-2004-cü illərdə sənaye məhsulu istehsalı 23,6% və ya orta hesabla hər il 3,6% artmışdır. Hasilat sənayesi ilə yanaşı, qeyri-neft sektoru – emal sənayesi də inkişaf edir. Son 4 il ərzində emal sənayesi sahələrində məhsul istehsalı 24%, o cümlədən yeyinti sənayesində 22%, kimyəvi məhsulların buraxılışında 1,5 dəfə, tikinti materialları istehsalında 3,5 dəfə, metallurgiya sənayesində 2,5 dəfə artmışdır.



2005-ci ilin əvvəlindən bütün maliyyə mənbələri hesabına ölkə iqtisadiyyatının inkişafına müəssisə və təşkilatlar tərəfindən 13,5% çox və ya 5,5 milyard manat investisiya əsas kapitala yönəldilmiş və onun 67,2%-i xarici sərmayədarlar tərəfindən qoyulmuşdur. İnvestisiyaların 4,2 milyard manatı və ya 76,8%-i sənaye sahəsinə – mövcud güclərin işlək vəziyyətdə saxlanılmasına, yeni obyektlərin inşası və genişləndirilməsi və digər məqsədlərə sərf edilmişdir. Milli iqtisadiyyatın inkişaf etdirilməsi üçün zəruri olan daxili maliyyə mənbələrinin məhdud olduğunu nəzərə alaraq, xarici investisiyaların cəlb edilməsi üçün daha əlverişli şəraitin yaradılmasına hələ böyük ehtiyac var.

Fəaliyyət göstərən müəssisələrin texniki təchizatında məqsəd istehsalı hər vasitə ilə intensivləşdirməkdən, istehsal gücünü artırmaqdan, əmək məhsuldarlığının yüksəldilməsini təmin etməklə məhsul buraxılışını artırmaqdan və keyfiyyətini yaxşılaşdırmaqdan, lüzumsuz iş yerlərini ixtisar etməkdən, məhsulun material tutumu və maya dəyərini aşağı salmaqdan, material və yanacaq-energetika ehtiyatlarına qənaət etməkdən, müəssisənin istehsal-təsərrüfat fəaliyyətini xarakterizə edən göstəricilərini yaxşılaşdırmaqdan ibarətdir. Mövcud müəssisələrin texniki təchizatına aiddir: istehsalın texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi, mexanikləşdirilməsi və avtomatlaşdırılması, əmək vasitələrinin modernləşdirilməsi, fiziki və mənəvi cəhətdən aşınmış əsas fondların yeni, daha məhsuldar əsas fondlarla əvəz edilməsi, həmçinin ümumzavod təsərrüfatının və yardımçı xidmətlərin təkmilləşdirilməsi üzrə kompleks tədbirlər. Göstərilən amilləri qısaca nəzərdən keçirək.

***İstehsalın texniki-iqtisadi səviyyəsi*** – dedikdə, istehsalın müəyyən vaxta görə texniki və iqtisadi vəziyyəti nəzərdə tutulur. İstehsalın texniki-iqtisadi səviyyəsi istifadə olunan istehsal aparatının yaş strukturundan, texniki vəziyyətindən, mexanikləşdirmə və avtomatlaşdırılması dərəcəsindən, tətbiq olunan texnoloji proseslərin mütərəqqiliyindən, buraxılan məhsulun keyfiyyətindən və istehsalın səmərəliliyindən, kadrların ixtisas səviyyəsindən, istehsalın və əməyin təşkilindən asılıdır. Müəssisədə nail olunmuş istehsalın texniki-iqtisadi səviyyəsi onun buraxdığı məhsulun sifarişçinin, dünya bazarının tələblərinə uyğun gəlməsi imkanlarını əks etdirir. Sənayenin ayrı-ayrı sa-

hələrində istehsalın texniki-iqtisadi səviyyəsinin diferensiallaşdırılmış göstəriciləri tətbiq edilir. Məsələn, qara metallurgiyada bu, domna sobalarının faydalı həcmindən istifadə əmsalı, 1 ton hazır prokata polad külçəsi sərfi, fasiləsiz üsulla poladtökmə kimi mütərəqqi üsuldan istifadə dərəcəsi; maşınqayırma və metal emalında – mütərəqqi plastik deformasiya metodlarından istifadə etməklə hissələr hazırlanması və s. deməkdir.

***İstehsalın kompleks mexanikləşdirilməsi*** – texnoloji prosesin bütün əsas əməliyyatlarında əl əməyinin maşınlarla əvəz edilməsi deməkdir. Kompleks mexanikləşmə bir-birinə uyğun gələn rejimlərdə maşın və digər avadanlıqlar yaradılması və tətbiqi əsasında həyata keçirilir; belə maşın və avadanlıqlar məhsuldarlığa görə bir-birilə əlaqəli olur və texnoloji prosesin daha yaxşı yerinə yetirilməsini təmin edir. Bu zaman əl əməyindən maşınları idarə etməkdə, nizamlamaqda və sazlamaqda, həmçinin əməyi yüngülləşdirmək və məhsuldarlığı yüksəltmək üçün mexanikləşdirilməsi o qədər də mühüm əhəmiyyət kəsb etməyən və iqtisadi cəhətdən məqsədəuyğun olmayan az əməktutumlu proseslərdə istifadə olunur.

***İstehsalın avtomatlaşdırılması*** – elmi-texniki tərəqqinin ən mühüm istiqamətidir; işçilərin fiziki əməyinin tam aradan qaldırılmasını və onun HEM daxil olmaqla maşın, avadanlıq, aparat və cihazlar sistemi ilə əvəz olunmasını təmin edir. İstehsalın avtomatlaşdırılması maşın, mexanizm və proseslərlə idarəetməni, onların üzərində tam, yaxud qismən nəzarəti, xüsusi maşınlar, cihazlar və maşın qurğularının köməyi ilə onların sazlanmasını və tənzimlənməsini nəzərdə tutur. Bu zaman işçi maşınların, cihazların və qurğuların işinə baxmaq və ona nəzarət etmək, onları sazlamaq və təmir etmək funksiyalarını yerinə yetirir. İstehsalın avtomatlaşdırılması şəraitində işçilərin mədəni-texniki və peşə-ixtisas səviyyəsinə tələb kəskin artır, onların əməyi öz məzmununa görə mühəndis əməyinin bir növünə çevrilir, daha çox yaradıcı xarakter kəsb edir.

***Əmək vasitələrinin modernləşdirilməsi*** – fəaliyyətdə olan əmək vasitələrinin təkmilləşdirilməsi və onlarda əməli dəyişiklik aparmaq, köhnə qovşaq və hissələri yenisi ilə əvəz etmək, yeni tərtibatlar və cihazlar quraşdırmaqla onların istehsalın müasir texniki-iqtisadi səviyyəsinə cavab verən vəziyyətə gətirilməsi deməkdir. Əmək vasitələrinin modernləşdirilməsi əsas fondların, başlıca olaraq, əmək alətlərinin və hər şeydən öncə maşın və avadanlıqların daim təzələnməsi formasıdır. O, maşın və avadanlıqların texniki səviyyəsinin yüksəldilməsini, işin iqtisadi göstəricilərinin yaxşılaşdırılmasını təmin edən bəzi konstruksiya dəyişiklikləri etməyi nəzərdə tutur. Bundan başqa, əmək vasitələrinin modernləşdirilməsi əsas fondların mənəvi aşınmasını qismən aradan qaldırmağa da imkan verir. Avadanlığın modernləşdirilməsi onun məhsuldarlığını, işinin dəqiqliyini və aşınmaya davamlılığını artırır, əmək şəraitini yaxşılaşdırır. Əmək vasitələrinin modernləşdirilməsinə çəkilən xərclər, adətən, qısa müddətdə (məsələn, iki-üç il müddətində) ödənilir.



***Əsas fondların mənəvi aşınması*** – əmək vasitələrinin texniki-istehsal xassələrini itirmə dərəcəsindən asılı olmayaraq öz ilk dəyərini tədricən itirməsi deməkdir. Əsas fondların mənəvi aşınmasının iki formasını fərqləndirirlər. Birinci forma onların istehsal edildiyi sənaye sahələrində əmək məhsuldarlığının yüksəldilməsi və eyni növ əmək vasitələrinin ucuzlaşdırılması nəticəsində əmələ gəlir. Əsas fondların mənəvi aşınmasının ikinci forması yeni, daha məhsuldar və qənaətcil texnikanın meydana çıxması ilə əlaqədardır. İstehsalda daha səmərəli əmək vasitələrinin geniş tətbiqi köhnə obyektlərin nisbi faydalılığının aşağı düşməsinə səbəb olur və onların dəyəri səmərəliyin aşağı düşməsinə proporsional olaraq azalır. Əsas fondların mənəvi aşınmasının birinci və ikinci formaları müəyyən növ əsas fondların istehlak dəyəri vahidinə düşən qiymətlərin müvafiq surətdə aşağı düşməsində əks olunur və amortizasiya normaları müəyyən edilərkən nəzərə alınır. İqtisadiyyatın müasir texnika əsasında yenidən qurulması, istehsalda texnikanın yeni nəsillərinin geniş mənimsənilməsi işlədilən avadanlığın mənəvi aşınmasını sürətləndirir, onun yeni, daha məhsuldar texnika ilə vaxtında əvəz olunması tələbini artırır.

***Əsas fondların fiziki aşınması*** – əsas fondların istismar nəticəsində, yaxud təbii olaraq köhnəlməsi deməkdir. İşləməkdən aşınma – əsas fondların istismarı prosesində onların istehsal istehlakı nəticəsində, təbii aşınma – təbii amillərin dağıdıcı təsiri nəticəsində olur. Beləliklə, əsas fondların fiziki aşınması həm əsas fondların istismarı müddətindən və intensivliyindən, həm

də onların saxlanılması şəraitindən asılıdır. Əsas fondların fiziki aşınması dərəcəsi əsas fondların faktiki və normativ xidmət müddətlərinin nisbəti ilə müəyyən olunur. Faktiki xidmət müddəti normativdən az olan obyektlər üzrə əsas fondların fiziki aşınması əmsalı – faktiki xidmət müddətinin normativ müddətə nisbəti kimi müəyyən edilir. Faktiki xidmət müddəti normativ müddətə bərabər, yaxud ondan yüksək olan obyektlər üçün əsas fondların fiziki aşınması əmsalı – faktiki xidmət müddətinin faktiki və qalıq xidmət müddətlərinin cəminə nisbəti kimi müəyyən edilir.

Fəaliyyət göstərən müəssisələrin yenidən qurulması, bir qayda olaraq, əsas təyinatlı binaları və qurğuları genişləndirmədən əsas, köməkçi və xidmətedici mövcud sex və təsərrüfatların (obyektlərin) yenidən qurulmasını nəzərdə tutur və elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın təkmilləşdirilməsi, onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə bağlıdır. Yenidənqurma texnoloji pillələrdəki qeyri-mütənasibliyin aradan qaldırılmasını, aztullantılı və ya tullantısız texnologiyanın, rəqəmli proqramla idarə olunan dəzgahların, emal mərkəzlərinin, çevik avtomatlaşdırılmış istehsalın tətbiq olunmasını, iş yerlərinin attestasiyasını, əmək məhsuldarlığının yüksəldilməsini, məhsulun material və enerji tutumunun azaldılmasını, maya dəyərinin aşağı salınmasını, fondveriminin artırılmasını və digər texniki-iqtisadi göstəricilərin yaxşılaşdırılmasını təmin edir.

***Qeyri-mütənasiblik*** – müəssisənin (sahənin) qarşılıqlı əlaqədə olan struktur bölmələrinin inkişafındakı uyğunsuzluqlardır; bunlar təkrar istehsalın normal gedişini pozur və səmərəliliyini aşağı salır. Bazar iqtisadiyyatı şəraitində qeyri-mütənasiblik hallarının vaxtında aşkar edib aradan qaldırılması mühüm əhəmiyyət kəsb edir, çünki bu zaman müəssisə daha çox mənfəət əldə etmək imkanı qazanır.

***Tullantısız texnologiya*** – tətbiq edildikdə istehsal itkiləri və tullantıları azalır. Onun məqsədi istehsal-istehlak kimi qapalı sistemə, yəni istehsal və istehlak sahələri ilə ətraf mühit arasında obyektiv şəkildə mövcud olan qarşılıqlı əlaqəni nəzərə almaqla qapalı tullantısız tsikl yaratmağa nail olmaqdan ibarətdir. Tullantısız texnologiyanın tətbiqinin səmərəliliyi xammaldan istifadə əmsalı, məhsul istehsalına çəkilən xərclərin azaldılması, hazır məhsul alınmasının artması, xammal hasilatına çəkilən məsrəflərin azalması, investisiya qoyuluşundan götürülən faydanın artması kimi göstəricilərlə ölçülə bilər.



***Çevik avtomatlaşdırılmış istehsalatlar*** – rəqəmli proqramla idarə olunan dəzgahların, emal mərkəzlərinin, mini HEM ilə birləşdirilən avtomatik anbarların daxil olduğu, müəyyən idarəetmə proqramları dəsti ilə təchiz olunan və çoxnomenklaturalı maşınqayırma istehsalının avtomatlaşdırılmasını təmin edən avtomatlaşdırılmış texnoloji sistemlər deməkdir. Belə bir sistem bir məmulatın emalından tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir. Çevik avtomatlaşdırılmış istehsalatlar istehsal tələbi ilə müəyyən olunan müxtəlif formalarda çox müxtəlif dəzgah hissələrinin, mühərriklərin, nəqliyyat maşınlarının, turbinlərin düzəldilməsi üçün tətbiq edilir.

***Rəqəmli proqramla idarə olunan dəzgahlar*** – xüsusi texniki şərtlərlə hazırlanan və tikilən, yaxud yenidən qurulan konkret obyekt üçün nəzərdə tutulan, uzun hazırlanma tsiklinə malik avadanlıq növüdür. Bu növ avadanlıqların səciyyəvi xüsusiyyətləri aşağıdakılardır: istehsalın fərdi xarakter daşıması; qəti müəyyən edilmiş məqsədyönlü olması; xüsusi hazırlanma texnologiyasının zəruriliyi; hazırlanma dəyərinin xeyli çox olması; quraşdırılmasının mürəkkəbliyi.

***İş yerlərinin attestasiyası*** – hər bir iş yerinin mütərəqqi texniki, texnoloji, təşkilati nəticələrə, əməyin mühafizəsi tələblərinə, qabaqcıl təcrübəyə, normativ və standartlara uyğunluğunun və təkmilləşdirilməsi məqsədilə kompleks qiymətləndirilməsidir. İş yerlərinin attestasiyasının əsas vəzifəsi – iş yerləri sayının işləyənlərin sayı ilə tarazlaşdırılmasından, istehsalın səmərəliliyinin yüksəldilməsindən, əmək məhsuldarlığının artırılmasından, əsas fondlardan və investisiya qoyuluşundan effektivli istifadə edilməsindən ibarətdir.

***Məhsulun metal tutumu*** – məhsul vahidinə metal sərfini xarakterizə edir. Müəssisə üzrə məhsulun metal tutumu natural ifadədə (məsələn, tonla) istehlak olunmuş metal həcminin əmtəəlik məhsulun həcminə olan nisbəti kimi hesablanır. Hazırkı dövrdə məhsulun metal tutumunun azaldılması istehsalın səmə-

rəliliyinin yüksəldilməsində və investisiya qoyuluşundan istifadənin yaxşılaşdırılmasında mühüm rol oynayır.

***Məhsulun enerji tutumu*** – məhsul vahidinə sərf olunmuş enerjini səciyyələndirən göstəricidir. Müəssisə üzrə məhsulun enerji tutumu məhsulun hazırlanması prosesində istehlak olunmuş enerjinin miqdarını əmtəəlik məhsulun həcminə olan nisbəti kimi hesablanır. Məhsulun enerji tutumunun azaldılması istehsalın intensivləşdirilməsinin, ehtiyatlara qənaət olunmasının mühüm istiqamətidir; buna enerji istehsalı və istehlakı proseslərinin hər vasitə ilə təkmilləşdirilməsinə yönəldilmiş texniki, texnoloji, təşkilati, iqtisadi və tərbiyəvi tədbirlər sisteminin həyata keçirilməsi ilə nail olunur.

***Fondverimi*** – müəssisənin (sahənin) istehsal əsas fondlarından istifadənin səmərəlilik səviyyəsini səciyyələndirən göstərici olub istehsal əsas fondların 1000 manatlıq, yaxud 10000 manatlıq dəyərinə düşən məhsul istehsalının miqdarını xarakterizə edir. Fondverimi məhsulun illik həcmini istehsal əsas fondların orta illik tam balans dəyərinə bölməklə müəyyən edilir. Fondveriminin yüksəldilməsinə – əsas fondların strukturunun təkmilləşdirilməsi, yəni onun tərkibində iş maşın və avadanlıqlarının payının artırılması, iş yerlərinin attestasiyadan keçirilməsi, növbədaxili boşdayanmaların aradan qaldırılması və artıq, lüzumsuz avadanlıqların satılması, yaxud icarəyə verilməsi, ona qulluq edilməsinin yaxşılaşdırılması hesabına nail olunur.

İnvestisiya siyasətinin düzgün həyata keçirilməsində «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının qanunu mühüm rol oynayır. Azərbaycanda həyata keçirilən düzgün investisiya siyasəti, iqtisadi islahatlar və digər təşkilati-texniki və iqtisadi tədbirlər xarici investorların respublikamızın iqtisadiyyatına maraq və inamın artması ilə müşayiət olunur. Son yeddi ildə ölkə iqtisadiyyatına, qeyd etdiyimiz kimi, 9 milyard ABŞ dolları həcmində investisiya qoyulmuşdur ki, bunun da 5 milyard dolları xarici sərmayələr təşkil edir. Təsadüfi deyildir ki, Azərbaycan 2002-ci ildə iqtisadiyyatına ən çox xarici investisiyalar cəlb edən MDB ölkələri sırasındadır.

Azərbaycan iqtisadiyyatına xarici kapital axınının intensivləşdirilməsi məqsədilə respublikamızın İqtisadi İnkişaf Nazirliyi ölkədə investisiya mühitinin münbitləşdirilməsi, xarici şirkətlərlə əlaqələrin genişləndirilməsi, investisiyaların hüquqi təminatının daha da yaxşılaşdırılması, xarici və yerli investorların hüquqlarının müdafiəsi istiqamətində tədbirlərin həyata keçirilməsini ardıcıl olaraq davam etdirir. Nazirliyin Hüquq Departamentinin əməkdaşları artıq «İntvestisiya fəaliyyəti haqqında» yeni qanun layihəsini işləyib hazırlamışlar. İnvestisiyaların tətbiqi ilə bağlı yeni müddəaların da daxil edildiyi qanun layihəsi əvvəlki qanuna nisbətən daha mütərəqqi və çevikdir.



«İnvestisiya fəaliyyəti haqqında» yeni qanun Azərbaycan Respublikası ərazisində investisiya fəaliyyətinin ümumi iqtisadi, təşkilati və hüquqi əsaslarını müəyyənləşdirir, ölkə iqtisadiyyatına fəal cəlb olunmasına, bu sahədə beynəlxalq iqtisadi əməkdaşlığın inkişafına, investisiya qoyuluşlarının tətbiqinə və mülkiyyət formasından asılı olmayaraq bütün investorların hüquqlarının müdafiəsinə təminat verəcək.

Azərbaycan Respublikasının investisiya siyasəti sahəsindəki birinci dərəcəli vəzifəsi ehtiyat çıxaran, emal və istehlak edən sahələrlə investisiya qoyuluşları arasındakı nisbəti yaxşılaşdırmaqdan, vəsaiti elmi-texniki tərəqqinin sürətləndirilməsini təmin edən sahələrin xeyrinə yenidən bölüşdürməkdən ibarətdir. Bazar iqtisadiyyatına keçid dövründə investisiya siyasətinin səciyyəvi xüsusiyyəti ağırlıq mərkəzini yeni tikintilərdən mövcud müəssisələrin texnika ilə təchizinə və yenidən qurulmasına keçirməkdən, istehsal məqsədli investisiya qoyuluşunun ümumi həcmində bu məqsədlərə yönəldilən vəsaitin xüsusi çəkisini artırmaqdan, texnoloji məqsədlər üçün maşın və avadanlıqların alınmasına daha çox vəsait ayrılmasından ibarətdir. İnvestisiya siyasətinin belə bir istiqaməti ölkənin sosial-iqtisadi inkişafını sürətləndirməyə imkan verir. Bunu son illərdə iqtisadiyyat sahəsində əldə edilən nailiyyətlər də sübut edir.

## 11.2. İnvestisiya qoyuluşunun mahiyyəti, tərkibi və strukturu

Sahənin (müəssisənin) inkişafına yönəldilmiş investisiya qoyuluşu əsaslı tikinti ilə bilavasitə əlaqədardır. Müəssisə (sahə) miqyasında əsaslı tikinti dedikdə, yeni obyektlərin tikilməsi, fəaliyyətdə olan müəssisələrin yenidən qurulması, texnika

ilə silahlanma səviyyəsinin yüksəldilməsi və genişləndirilməsi məqsədilə həyata keçirilən tikinti-quraşdırma işləri nəzərdə tutulur. Tikinti-quraşdırma işlərinin iqtisadi mahiyyəti sənaye istehsalının lazımi sürətini və miqyasını, istehsal və qeyri-istehsal təyinatlı obyektlərin inkişafındakı optimal nisbətləri, istehsalın maddi bazasının inkişafını, yeni texniki vasitələrin tətbiqini təmin etməkdən ibarətdir.

***Tikinti-quraşdırma işləri*** – istehsal və qeyri-istehsal obyektlərinin tikilməsi və onlarda avadanlıq quraşdırılması ilə əlaqədar görülən işləri özündə əhatə edir. Tikinti işlərinin tərkibinə aiddir: bina və qurğuların ucaldılması, avadanlıqlar üçün özül, bünövrə və dayaq konstruksiyaların qurulması, tikinti aparılacaq sahənin (ərazinin) öyrənilməsi və onun tikinti-quraşdırma işlərini aparmaq üçün hazırlanması, yaşıllaşdırma və abadlaşdırma işləri, sanitar-texniki və elektrik quraşdırma işləri və s. Avadanlığın quraşdırılması işlərinin tərkibinə aiddir: texnologiya, energetika, qaldırıcı-nəqliyyat və digər növ avadanlıqların yığılması və quraşdırılması ilə əlaqədar olan işlər.

Əsas fondların təkrar istehsalı formalarından asılı olaraq investisiya qoyuluşunun tərkibində tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə çəkilən xərclərin xüsusi çəkisi getdikcə azalır, mövcud müəssisələrin texniki cəhətdən silahlanma səviyyəsinin yüksəldilməsinə və yenidən qurulmasına sərf olunan məsrəflərin payı isə yüksəlir.

Tikinti-quraşdırma işləri əsas fondların geniş təkrar istehsalının başlıca mənbəyidir. O, müəssisənin (sahənin) maddi-texniki bazasının artırılmasını və möhkəmləndirilməsini təmin edir, əmək kollektivlərinin mədəni-məişət şəraitinin yaxşılaşdırılmasında aparıcı rol oynayır. Sənaye müəssisələrində tikinti-quraşdırma işləri iki üsulla: təsərrüfat və podrat üsullarla həyata keçirilir.

***Təsərrüfat üsulu ilə tikinti*** – zamanı obyekt, podratçı təşkilatlar cəlb edilmədən, bilavasitə müəssisələrin (sahələrin) öz gücü ilə tikilir. Tikinti-quraşdırma işlərinin təsərrüfat üsulu ilə aparılması və təşkili zamanı plan, layihə, smeta və digər sənədlərə olan tələb, onun podrat üsulu ilə aparıldığı vaxtda olduğu kimidir. Müasir şəraitdə təsərrüfat üsulu ilə tikintinin həcmi və xüsusi çəkisi xeyli artmışdır. Belə ki, 2002-ci ildə tikinti-



quraşdırma işlərinin həyata keçirilməsinə 4839106 mln. manat investisiya qoyuluşu sərf edilmişdir ki, bundan da 3216610 mln. manatı, yəni təqribən 66,5%-i təsərrüfat üsulu ilə tikinti-quraşdırma işlərinə çəkilən xərclər təşkil etmişdir. İlk növbədə istehsalın texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi ilə bağlı tikinti-quraşdırma işləri təsərrüfat üsulu ilə aparılır ki, bu da onların sürətlə görülməsinə imkan verir. Bu cür işlərin maddi-texniki cəhətdən təmin edilməsi birinci olaraq həyata keçirilir.

***Podrat üsulu ilə tikinti*** – müstəqil, daimi fəaliyyətdə olan tikinti-quraşdırma təşkilatlarının sifarişçi təşkilatlarla podrat müqaviləsi üzrə həyata keçirdikləri tikinti tsiklinin təşkili formasıdır. Sifarişçinin podrat tikinti təşkilatları ilə qarşılıqlı münasibəti obyektin tikintisi və ya yenidən qurulması haqqında qərar qəbul olunmasından və işin podratçı təşkilatın cari proqramına daxil edilməsindən sonra meydana çıxır. Podrat işləri tapşırıqlarının həm həcm, həm də bütün keyfiyyət göstəriciləri üzrə işlənib hazırlanmasını tikinti təşkilatları ilə sifarişçilər birgə həyata keçirirlər; bu iş obyektin titul siyahısında nəzərdə tutulan və işə salınma müddətlərinə uyğun olaraq aparılır. İnvestitsiya qoyuluşunun planlaşdırılmasında iştirak edən sifarişçi təşkilat tikintini layihə-smeta sənədləri, texnoloji, enerji və digər avadanlıqlarla və ayrı-ayrı material növləri ilə təmin edir, başa çatdırılmış tikinti-quraşdırma işlərini qəbul edir və haqqını ödəyir, həmçinin bir sıra funksiyaları həyata keçirir. Belə şəraitdə sifarişçi və podratçı tikinti təşkilatı arasında müqavilə münasibətləri tərəflərin lazımi maddi marağını və məsuliyyətini, qəbul edilmiş öhdəliklərin yerinə yetirilməsinə və tikinti obyektinin vaxtında işə salınmasına qarşılıqlı nəzarəti təmin edir.

Bütün tikinti dövrü üçün tikintinin bütün növləri üzrə podrat müqaviləsini sifarişçi bir təşkilatla – baş podratçı ilə bağlayır. Baş podratçı subpodrat əsasında tikintidə işləyən bütün subpodratçıların fəaliyyətini əlaqələndirir. Tikinti müddətinin qısaldılması və işin keyfiyyətinin artırılması hesabına investisiya qoyuluşunun səmərəliliyini yüksəltmək məqsədilə işin əsas növlərini iriləşdirilmiş kompleks təsərrüfat hesablı briqadalar yerinə yetirirlər. Tikinti zamanı baş podratçı lazım gəldikdə subpodrat əsasında ixtisaslaşdırılmış təşkilatları işə cəlb edərək layihələşdirmədə investisiya prosesinin bütün mərhələlərini,

avadanlıqların komplektləşdirilməsini, tikinti-quraşdırma və buraxılış-tamamlama işlərini yerinə yetirir.

Beləliklə, tikinti-quraşdırma işləri investisiya qoyuluşunun praktiki olaraq həyata keçirilməsi deməkdir. Buna görə də sənaye müəssisələrində tikinti-quraşdırma işlərini həyata keçirməkdən öncə investisiya qoyuluşunun istiqamətləri və həcmi müəyyən edilməlidir.

***İnvestisiya qoyuluşu*** – sənaye müəssisələrinin mövcud əsas fondlarının genişləndirilməsi, yenidən qurulması, texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə yönəldilən maddi-texniki, əmək və maliyyə ehtiyatları məcmusunun, kommunal və mədəni, həmçinin məişət tikintisi üçün məsrəflərin pul ilə ifadəsidir. Ümumiyyətlə, investisiya qoyuluşu istehsal və qeyri-istehsal sahələrində əsas fondların sadə və geniş təkrar istehsalı üçün nəzərdə tutulur və ona görə də hər bir konkret şəraitdə onun həcminin düzgün müəyyən edilməsi zəruri şərtlərdən biridir. Adətən, sənayenin inkişafına yönəldilmiş investisiya qoyuluşu iki qrupa: sənaye istehsalının inkişafı ilə bilavasitə əlaqədar olan tam investisiya qoyuluşuna ($\dot{I}_{q.t.}$) və əsas istehsal ilə əlaqədar olan infrastrukturun yaradılmasına, yəni «əlaqədar» investisiya qoyuluşuna ($\dot{I}_{q.ə.}$) bölünür. Sənaye istehsalının inkişafı ilə bilavasitə əlaqədar olan tam investisiya qoyuluşunun həcmini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$\dot{I}_{q.t.} = \dot{I}_{q.m.} + \dot{I}_{q.ə.} + \dot{I}_{q.d.} + \dot{I}_{q.h.};$$

burada $\dot{I}_{q.m.}$ – müstəqim investisiya qoyuluşunun həcmi, manat; $\dot{I}_{q.ə.}$ – əlavə, yəni «əlaqədar» investisiya qoyuluşunun həcmi, man.; $\dot{I}_{q.d.}$ – dövriyyə fondlarının yaradılmasına yönəldilmiş investisiya qoyuluşunun həcmi; $\dot{I}_{q.h.}$ – istehsal hazırlığına yönəldilmiş investisiya qoyuluşunun həcmi.

Müstəqim investisiya qoyuluşunun həcmi sənayenin maddi istehsal sahələrinin inkişafı ilə əlaqədar olan bütün məsrəfləri özündə birləşdirir və aşağıdakı düsturla təyin olunur:

$$\dot{I}_{q.m.} = \dot{I}_{q.ə.f.} + \dot{I}_{q.l.} + V_{zər.};$$

burada $\dot{I}_{q.ə.f.}$ – əsas fondların yaradılmasına yönəldilmiş investisiya qoyuluşu; $\dot{I}_{q.l.}$ – layihə-axtarış və hazırlıq işlərinin yerinə yetirilməsinə yönəldilmiş investisiya qoyuluşunun həcmi, manat; $V_{zər.}$ – əsas fondların ləğvi ilə əlaqədar yaranan zərərlərin ödənilməsinə sərf edilməli olan vəsaitin həcmi. Bu vəsaitin



həcmi aşağıdakı düsturla təyin edilir:

$$V_{zər.} = D_{q.d.} + X_{sök.} - D_{mat.}$$

burada $D_{q.d.}$ – ləğv edilmiş avadanlığın qalıq dəyəri, manat; $X_{sök.}$ – avadanlığın sökülməsinə çəkilən xərclərin həcmi, manat; $D_{mat.}$ – sökülmə zamanı material tullantılarının dəyəri, manat.

«Əlaqədar» investisiya qoyuluşunun həcmi əsas istehsalla əlaqədar olan infrastrukturun yaradılmasına yönəldilmiş investisiya qoyuluşu ilə həmin infrastrukturların inkişafı ilə bağlı xüsusi investisiya qoyuluşu hasilinin cəminə bərabərdir, yəni:

$$\dot{I}_{q.ə.} = \dot{I}_{in.} + \dot{I}_{x.}$$

Müasir dövrdə sənaye istehsalının inkişafına investisiya qoyuluşu müəyyən edilərkən mövcud istehsalın və yeni tikililərin inkişafının obyektiv zəruriliyindən çıxış edilir. Bu zaman həmin obyektlərin sənaye istehsalının həcminin artırılmasındakı rolu nəzərə alınır. Ümumiyyətlə, istehsal dedikdə, cəmiyyətin mövcud olması və inkişafı üçün zəruri olan maddi nemətlərin istehsalı və xidmətlər göstərilməsi prosesi nəzərdə tutulur. İstehsal cəmiyyətin inkişafının bütün pillələrində mövcuddur. Konkret istehsal şəraitindən asılı olaraq istehsalın məzmununu əmək prosesi təşkil edir və onun iki növünü: maddi və qeyri-maddi növlərini fərqləndirirlər.

***Maddi istehsal*** – insan fəaliyyətinin həlledici sahəsidir; maddi rifahın artması və ölkənin müdafiəsinin möhkəmləndirilməsi imkanı onun inkişafından asılıdır. Odur ki, hazırda təsərrüfat mexanizminin, investisiya və struktur siyasətinin, elmi-texniki tərəqqinin sürətləndirilməsi sahəsində həyata keçirilən kompleks tədbirlər ilk növbədə maddi istehsal sahəsinin hərtərəfli inkişafına və təkmilləşdirilməsinə yönəldilmişdir. Maddi istehsalın qeyri-maddi istehsal sahəsindən fərqləndirici cəhəti birincisi, insanın təbiət maddələrinə təsirilə; ikincisi, dəyişdirici təsiri ilə müəyyən olunur; üçüncüsü, bu, insanların elə bir əmək fəaliyyəti formasıdır ki, onların bütün fəaliyyətinin, qeyri-maddi istehsal fəaliyyəti də daxil olmaqla maddi əsasını təşkil etməklə həyata keçirilir. Bu üç fərqləndirici xüsusiyyət birlikdə maddi istehsalın mahiyyətini və onun bütün digər fəaliyyət növlərindən, eynilə insanın mənəvi fəaliyyətindən fərqini göstərir.

Beləliklə, qeyri-maddi istehsal sahəsinin fəaliyyəti maddi istehsaldan fərqli olaraq, təbiətin maddəsi və qüvvələrinə dəyiş-

dirici təsirlə əlaqədar deyil, bilavasitə əmək vasitələri yaradılması ilə səciyyələnmir və insanla təbiət arasında maddələr mübadiləsi kimi çıxış etmir. Onun təsir obyekti insan, insanın həyat və fəaliyyətinin sosial şərtləri, habelə ictimai orqanizm olan cəmiyyətdir. Qeyri-maddi istehsal sahəsindəki fəaliyyət bilavasitə ya maddi dünyanı insan başında əks etdirən (məsələn, elmi biliklər, incəsənət əsərləri və s.) mənəvi nemətlər yaradır, ya da əmək prosesinin özündə istifadə olunan faydalı səmərə formasında xidmət göstərən fəaliyyət növü kimi çıxış edir. Qeyri-maddi istehsal sahəsində əmək fəaliyyəti spesifik istehlak dəyəri – xidmətlər yaradır və reallaşdırır. Son illərdə istehsal və qeyri-istehsal təyinatlı obyektlər üzrə kapital qoyuluşunun dinamikası cədvəl 75-də verilmişdir.

*Cədvəl 75*

***İstehsal və qeyri-istehsal təyinatlı obyektlər üzrə kapital qoyuluşu, %***

| İllər | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | İstehsal təyinatlı | Qeyri-istehsal təyinatlı |
| 1990 | 100 | 63,5 | 36,5 |
| 1995 | 100 | 54,7 | 45,7 |
| 1996 | 100 | 77,5 | 22,5 |
| 1997 | 100 | 77,6 | 22,4 |
| 1998 | 100 | 83,7 | 16,3 |
| 1999 | 100 | 87,8 | 12,2 |
| 2000 | 100 | 81,8 | 18,2 |
| 2001 | 100 | 88,0 | 12,0 |
| 2002 | 100 | 89,2 | 10,8 |
| 2003 | 100 | 92,1 | 7,9 |
| 2004 | 100 | 90,5 | 9,5 |

Mülkiyyət formalarından asılı olaraq investisiya qoyuluşunun həcmi bir-birindən müəyyən qədər fərqlənir. Belə ki, sosializmdə əsasən dövlət mülkiyyəti olduğundan əsaslı vəsait qoyuluşu da həmin mülkiyyət formasının inkişafına yönəldilirdi. Bazar iqtisadiyyatı şəraitində isə müxtəlif mülkiyyət formaları mövcuddur və ona görə əsas kapitala yönəldilmiş investisiyalar həmin mülkiyyət formaları arasında bölüşdürülür. Özü də investisiya qoyuluşunun ümumi tərkibində dövlət mülkiyyətində olan



istehsalların inkişafına yönəldilən investisiya qoyuluşunun payı ildən-ilə azalır, qeyri-dövlət mülkiyyətində, xüsusilə xarici və müştərək müəssisələrdə isə, əksinə, artır. Bunu cədvəl 76-da verilmiş məlumatlar da sübut edir.

*Cədvəl 76*

***Əsaslı tikintinin mülkiyyət formaları üzrə əsas kapitala investisiyalar, %***

| İllər | Cəmi | o cümlədən: maliyyələşmə mənbələrinə görə | | | |
|---|---|---|---|---|---|
| | | Dövlət | Təşkilatların vəsaitləri | Əhalinin vəsaitləri | Xarici sərmayəçilər |
| 1995 | 100,0 | 13,0 | 44,0 | 8,0 | 35,0 |
| 1996 | 100,0 | 2,7 | 30,2 | 8,8 | 58,3 |
| 1997 | 100,0 | 2,2 | 26,0 | 5,7 | 66,1 |
| 1998 | 100,0 | 1,6 | 25,0 | 4,6 | 68,8 |
| 1999 | 100,0 | 1,5 | 20,5 | 5,8 | 72,2 |
| 2000 | 100,0 | 1,3 | 18,7 | 4,7 | 75,3 |
| 2001 | 100,0 | 1,5 | 16,0 | 5,0 | 77,5 |
| 2002 | 100,0 | 1,7 | 12,5 | 5,8 | 80,0 |
| 2003 | 100,0 | 1,8 | 13,7 | 6,0 | 80,5 |
| 2004 | 100,0 | 2,6 | 14,5 | 7,1 | 78,8 |

Ayrı-ayrı sənaye sahələrində investisiya qoyuluşunun tərkibi və quruluşu eyni deyildir. Lakin buna baxmayaraq, əksər sənaye sahələrində investisiya qoyuluşunun tərkibinə aşağıdakı məsrəflər daxil edilir: tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə çəkilən xərclər; maşın və avadanlıqların alınmasına və quraşdırılmasına çəkilən xərclər; geoloji-kəşfiyyat, axtarış, layihə-konstruktor işlərinə çəkilən xərclər; inzibati idarəetmə aparatının saxlanılmasına çəkilən xərclər; infrastrukturun yaradılmasına çəkilən xərclər; ətraf mühitin qorunmasına çəkilən xərclər.

İnvestisiya qoyuluşunun tərkibinə daxil olan xərclər arasındakı nisbətin faizlə ifadəsi onun quruluşunu xarakterizə edir. İnvestisiya qoyuluşunun texnoloji, sahəvi və təkrar istehsal quruluşunu fərqləndirirlər. İnvestisiya qoyuluşunun sahəvi quruluşu – sənayenin ayrı-ayrı sahələri arasındakı nisbəti səciyyələndirir. O, sənayenin ayrı-ayrı sahələrinin inkişaf istiqamətlərini,

səviyyəsini və sürətini müəyyən edir. Hazırda sənayenin inkişafına yönəldilmiş investisiyaların əksər hissəsi neft sənaye sahəsinin inkişafına sərf edilir.

İnvestisiya qoyuluşunun texnoloji quruluşu maşın və avadanlıqların alınmasına və quraşdırılmasına, tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə çəkilən xərclər arasındakı nisbətləri səciyyələndirir. İnvestisiya qoyuluşunun texnoloji quruluşu o halda mütərəqqi hesab edilir ki, onun tərkibində iş maşın və avadanlıqlarının alınmasına çəkilən xərclərin xüsusi çəkisi digər xərc ünsürlərinə nisbətən daha çox olur. Çünki bu zaman eyni həcmdə investisiya qoyuluşu ilə daha çox tikinti məhsulu əldə etməyə imkan yaranır. Nəticədə başa çatmış tikinti məhsulu vahidinə düşən əsaslı məsrəflər azalır və onların iqtisadi səmərəliliyi yüksəlir. Sənayenin texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsinin artmasına, mövcud maşın və avadanlıqların modernləşdirilməsinə, fəaliyyətdə olan müəssisələrin yenidən qurulmasına və genişləndirilməsinə çəkilən xərclərin xüsusi çəkisinin artması investisiya qoyuluşunun texnoloji strukturunun yaxşılaşdırılması istiqamətləridir. İnvestisiya qoyuluşunun texnoloji strukturunun dinamikası cədvəl 77-də verilmişdir.

*Cədvəl 77*

***İnvestiya qoyuluşunun texnoloji strukturu, %***

| İllər | Cəmi | o cümlədən: | | |
|---|---|---|---|---|
| | | Tikinti işlərinə | Avadanlıqların alınmasına | Sair işlərə |
| 1990 | 100 | 46,2 | 33,1 | 20,7 |
| 1995 | 100 | 52,4 | 23,5 | 24,1 |
| 1996 | 100 | 60,9 | 23,5 | 15,6 |
| 1997 | 100 | 67,9 | 16,4 | 15,7 |
| 1998 | 100 | 75,3 | 5,9 | 18,6 |
| 1999 | 100 | 52,8 | 30,6 | 16,6 |
| 2000 | 100 | 42,6 | 23,5 | 33,9 |
| 2001 | 100 | 33,0 | 15,9 | 51,1 |
| 2002 | 100 | 44,4 | 28,4 | 27,2 |
| 2003 | 100 | 44,1 | 30,4 | 25,5 |
| 2004 | 100 | 46,5 | 33,5 | 20,0 |



Ümumi həcminə görə faizlə ifadə olunmaqla bölüşdürülmüş və yeni müəssisələrin tikilməsinə, fəaliyyətdəki müəssisələrin, sexlərin və digər maddi istehsal sahələrinin genişləndirilməsinə, yenidən qurulmasına və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, mövcud müəssisələrin istehsal güclərinin artırılmasına yönəldilmiş investisiya qoyuluşları arasındakı nisbət investisiya qoyuluşunun təkrar istehsal quruluşunu təşkil edir. Göstərilən məsrəflər arasında mövcud müəssisələrin texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə yönəldilmiş investisiyaların payı daha çoxdur.

## 11.3. Sahədə investisiya qoyuluşunun obyektləri və maliyyələşdirilməsi mənbələri

Qeyd etdiyimiz kimi, sənayeyə qoyulan investisiyalar yeni sənaye obyektlərinin tikintisinə, fəaliyyət göstərən müəssisələrin yenidən qurulmasına və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, mövcud avadanlıqların modernləşdirilməsinə, yeni texnika və mütərəqqi texnoloji proseslərin tətbiqinə və qeyri-istehsal əsas fondların yaradılmasına yönəldilir. Bu baxımdan göstərilən obyektlər sənayedə investisiya qoyuluşunun obyektləri hesab edilir.

Məlumat üçün qeyd edək ki, investisiya qoyuluşunun müxtəlif istiqamətlərdə sərf edilməsi onun səmərəliliyini müəyyən qədər çətinləşdirir. Odur ki, investisiya qoyuluşunun təsnifləşdirilməsi zərurəti yaranır. İnvestisiya qoyuluşunun xərclərin təyinatından, maliyyələşdirilməsi mənbələrindən, daxilolma xarakterindən, əsas fondların təkrar istehsalının xarakterindən və əsaslı tikinti-quraşdırma işlərinin texnoloji strukturundan asılı olaraq aşağıdakı növlərini fərqləndirirlər.

Xərclərin təyinatına görə – istehsal təyinatlı obyektlərin tikintisinə, sosial obyektlərin tikintisinə, inzibati-idarəetmə binaların tikintisinə, geoloji-kəşfiyyat işlərinin aparılmasına, ətraf mühitin mühafizəsinə sərf olunan investisiya qoyuluşlarını fərqləndirirlər.

Əsas fondların təkrar istehsalının xarakterinə görə – yeni tikintiyə, mövcud müəssisələrin yenidən qurulmasına və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, avadanlıqların

modernləşdirilməsinə və əsaslı təmirinə sərf olunan investisiya qoyuluşlarını fərqləndirirlər.

Maliyyələşdirilməsi mənbələrinə görə – investisiyalar daxili və xarici investisiyalara ayrılır. Daxili investisiyalar ölkə daxilindəki müəssisələrin fəaliyyəti nəticəsində əldə edilən mənfəətdən, dövlət büdcəsindən tikinti-quraşdırma işləri üçün ayrılan vəsaitlərdən, əhalinin vəsaitlərindən yaranır; xarici investisiyalar isə xarici investorların vəsaitlərindən əmələ gəlir. Özü də ümumi investisiya qoyuluşlarının tərkibində xarici investorların vəsaitləri əksəriyyət təşkil edir.

Məlumat üçün qeyd edək ki, bazar iqtisadiyyatına keçid dövründə sənaye müəssisələrinin gəlirlərinin kəskin aşağı düşməsi ilə səciyyəvidir. Bu isə xüsusi ilə iri sənaye müəssisələrinin daha üstün xüsusi çəkiyə malik olduğu ölkələrdə müxtəlif səviyyəli büdcələrin gəlirlərinin kəskin azalmasına səbəb olmuşdur. Belə azalma geniş təkrar istehsalın maliyyələşdirilməsi üçün vəsait qıtlığına gətirib çıxarır. Keçmiş sovet məkanında olan dövlətlərin böyük əksəriyyətində büdcə gəlirlərinin azalması əsas kapitala investisiya qoyuluşlarında büdcənin xüsusi çəkisinin kəskin aşağı düşməsi ilə müşayiət olunmuşdur.

Faktiki materialların təhlili göstərir ki, sənayenin inkişafına yönəldilmiş investisiyaların xeyli hissəsi sənaye infrastrukturunun yaradılmasına sərf edilir. Nəqliyyat, yol təsərrüfatı və rabitə, infrastruktur kimi, istehsal və regionlararası əlaqələri təmin etməklə, həmin sahələr əhali yerdəyişməsi və informasiyalaşdırma üzrə cəmiyyətin tələblərinin ödənilməsinə xidmət edir.

Nəqliyyat və rabitə iqtisadiyyatın digər sahələri və sosial sferalarla sıx qarşılıqlı əlaqədə fəaliyyət göstərir. Xarici və yerli təcrübə göstərir ki, infrastrukturun inkişafı səviyyəsi keçid dövründə iqtisadi vəziyyətin sabitliyini şərtləndirən əsas amillərdən biri kimi çıxış edir. Postsovet məkanı və Şərqi Avropa ölkələrinin bazar iqtisadiyyatına keçid təcrübəsinin müqayisəli təhlili sübut edir ki, infrastrukturun kifayət qədər inkişaf etmədiyi ölkələrdə iqtisadi artıma nail olmaq olduqca çətindir və bəzi hallarda qeyri-mümkündür.

Dövlətin büdcə siyasətinin mühüm tərkib hissəsi olan tarif siyasəti nəqliyyat siyasətinin inkişafının güclü maliyyə tənzimləyicisi sayılır. Dəmir yolu, dəniz donanması kimi təbii inhisarların fəaliyyətinin tənzimlənməsi, bir qayda olaraq, ictimai məhsulun dəyərində onların xüsusi çəkisinin reqlamentləşdirilməsinə yönəldilir. Məqsəd məhsulun maya dəyərində daşınma xərclərinin artımını məhdudlaşdırmaqdır. Əlbəttə, bu halda infrastrukturun mühüm sahələri olan nəqliyyat və rabitənin korporativ maraqlarını da nəzərə almaq lazım gəlir.



Azərbaycan müasir nəqliyyatın bütün vasitələrinə malik ölkədir. Burada dəmiryolu, hava, çay, dəniz və boru kəməri nəqliyyatı, müxtəlif ölçülü avtomobil yollarının sıx şəbəkəsi vardır. Məlumdur ki, nəqletmə yol təsərrüfatının vəziyyətindən, bu təsərrüfat isə maliyyə təminatı mənbələrinin münasibətindən bilavasitə asılıdır. Keçid dövrü üçün xarakterik olan cəhət yolların bərpası və yol təsərrüfatının inkişafına ayırmaların azalması, ölkə iqtisadiyyatının ümumi ahəngdarlığına əhəmiyyətli dərəcədə təsir edir. Digər tərəfdən, sənaye və digər istehsalatın azalması daşımalar üzrə təklifi aşağı salır. Bu isə yolların istifadə intensivliyini azaltmış olur.

Nəqliyyatda rəqabət mühitinin dəstəklənməsi şəraitində dövlət tərəfindən tariflərin tənzimlənməsi prosesinin liberallaşdırılması şəraiti yaradılır. Bu halda dəmiryolu nəqliyyatında icra hakimiyyəti ilə müqavilə münasibətlərinin güclənməsi meyli müşahidə olunur.

İnfrastrukturun inkişafında bələdiyyələrin üzərinə də müəyyən vəzifələr düşür. Xüsusilə kənd yaşayış məntəqələri arası və digər magistraldankənar yolların bərpası və inkişafı yerli maliyyələşdirmə mənbələri hesabına həyata keçirilməlidir. Bu proses təzə başlanmışdır və hələ ki, əhəmiyyətli irəliləyişlər müşahidə olunmamışdır.

Dəniz nəqliyyatı sahəsində son dövrlər müşahidə olunan geriləmə bir qədər azalmış, yük daşımaları bir qədər artmışdır. Yüklərin dördə üç hissəsini neft və neft məhsulları təşkil edir. Dəniz nəqliyyatı təsərrüfatının maliyyə vəziyyəti onun tərəfdaşlarla qarşılıqlı hesablaşmaları qaydasından xeyli dərəcədə asılıdır. Sahəyə büdcə ayırmaları xüsusilə cari problemlərin həlli üçün cüzidir. Bir sıra terminalların yeniləşdirilməsi üçün son üç ildə büdcə vəsaiti ayrılmışdır.

Hazırda Azərbaycan Respublikasında yük daşımalarında yerüstü və dəniz nəqliyyatının birgə fəaliyyətinin təmin edil-

məsi üçün intermodal daşımalar kompleksi sistemi yaradılır. Bu sistemdə nəqliyyatın müxtəlif növləri bir-birini tamamlayaraq inkişaf edir, əlavə strukturların modullar proqramında iştirak edən sahələrinin təşkili sürətlənir. Ümumiyyətlə, infrastruktur istehsalın ümumi şəraitini və adamların həyat fəaliyyətini təmin edən kompleks təsərrüfat sahələridir. İstehsal və sosial-məişət infrastrukturu fərqləndirilir. İstehsal infrastrukturuna daxildir:

a) bütün nəqliyyat növləri və ümumiyyətlə nəqliyyat təsərrüfatları;

b) müxtəlif miqyaslı enerji sistemlərini əmələ gətirən elektrik xətləri;

c) məmulatların bir iş yerindən digərinə ötürülməsi vasitələri;

ç) təbii ehtiyatlardan səmərəli istifadəni təmin edən obyektlər və maddi nemətlər istehsalında bilavasitə istifadə edilməyən, lakin istehsalın normal davam etdirilməsi üçün lazım olan sistemlər və qurğular.

Sosial-məişət infrastrukturuna ticarət sahələri, səhiyyə, sərnişin nəqliyyatının və rabitənin bütün növləri, şəhər kommunikasiya qurğuları, mehmanxana təsərrüfatı, ictimai iaşə və qeyri-istehsal sahələrinin digər bölmələri daxildir.

İstehsal infrastrukturunun inkişafı istehsalın daha da intensivləşdirilməsinin, əmək kollektivinin daim artan maddi və mənəvi tələbatının ödənilməsi və insan amilinin formalaşması ilə bağlı olan sosial məsələlərin həllinin zəruri şərtidir. Beynəlxalq əmək bölgüsü dərinləşdikcə və dünya miqyasında iqtisadi inteqrasiyası inkişaf etdikcə ayrı-ayrı ölkələrin milli iqtisadiyyatına aid infrastrukturların bir-birlərinə bağlı olan ünsürlərinin reallaşdırılmış inkişafı və təkmilləşdirilməsi də xüsusi əhəmiyyət kəsb edir.

Ölkənin sosial-iqtisadi inkişafında mühüm əhəmiyyət kəsb edən tikinti-quraşdırma kompleksinin dinamik inkişafı yeni istehsal obyektlərinin tikilib işə salınmasını və yeni iş yerlərinin açılmasını təmin edir. Ölkənin sosial-iqtisadi inkişafında 2005-ci il ən uğurlu illərdən biri olmuşdur. Belə ki, il ərzində ölkəmizin dinamik inkişafının, xalqımızın rifahının təminatı olan bir sıra iqtisadi layihələr həyata keçirilib. Əsası ümummilli liderimiz Heydər Əliyev tərəfindən qoyulmuş sosial-iqtisadi baza, sabitlik, uğurlu daxili və xarici siyasət Azərbaycanın müstəqilliyinin daha da möhkəmləndirilməsinə imkan yaradıb. Müasir Azərbaycan Respublikası memarı ulu öndər Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı İlham Əliyevin rəhbərliyi ilə 2005-ci ildə ölkəmiz yeni tarixi uğurlara imza atıb. Ötən bir ildə xalqımız cənab İlham Əliyevin seçkiqabağı platformasının bütün istiqamətləri üzrə verdiyi vədlərin uğurla həyata keçirilməsinin bir daha şahidi oldu.



## 11.4. Sahədə investisiya qoyuluşundan istifadənin qiymətləndirilməsi

Qeyd etdiyimiz kimi, investisiya qoyuluşu müxtəlif istiqamətlərə yönəldilir. Odur ki, investisiya qoyuluşundan necə istifadə olunduğunu konkret şəraitdən asılı olaraq qiymətləndirmək lazımdır. Adətən, müxtəlif növ məsrəflərin iqtisadi səmərəliliyi istehlak edilmiş ehtiyatlardan istifadə olunması səviyyəsini, istehsalın son nəticələrinin aşkar edilməsi və qiymətləndirilməsi, həmçinin optimal variantın seçilməsi üçün müəyyən edilir. Bu məqsədlə müxtəlif göstəricilərdən istifadə edilir.

Məlumdur ki, investisiya qoyuluşunun iqtisadi səmərəliliyi, müəssisənin əsas fondlarının genişləndirilməsi və sadə təkrar istehsalına çəkilən xərclə bundan alınan nəticə arasındakı əlaqə və kəmiyyət asılılığını səciyyələndirən göstəricidir. İnvestisiya qoyuluşunun bilavasitə nəticəsi istehsal güclərinin genişləndirilməsi və qeyri-maddi istehsal obyektlərinin işə salınmasından ibarət olduğu halda, onun son nəticəsi – məhsul istehsalının, sənaye xarakterli xidmət və işlərin həcminin artmasıdır. Ümumi şəkildə, investisiya qoyuluşunun mütləq və müqayisəli iqtisadi səmərəliliyi fərqləndirilir.

Sahə miqyasında mütləq iqtisadi səmərəlilik xalis məhsul, müəssisə miqyasında isə mənfəət artımının, həmin artımı təmin edən investisiya qoyuluşuna olan nisbətidir. Xalis məhsul, yaxud mənfəət bilavasitə maddi istehsal sahələrində yaradıldığından investisiya qoyuluşu da yalnız bu sahələrdə, həm də geniş təkrar istehsala yönəldilmiş həcmdə nəzərə alınır, sadə təkrar istehsala, yəni amortizasiya fondu hesabına investisiya qoyuluşu isə nəzərə alınmır. Xalis məhsul, yaxud mənfəət artımı əvvəlki ilin investisiya qoyuluşuna aid edilir, çünki investisiya

qoyuluşu ilə bundan irəli gələn nəticələr arasındakı vaxta laq nəzərə alınır. Laq dedikdə, vaxt etibarilə bir hadisənin, əməliyyatın, prosesin onunla bağlı digər hadisəyə, əməliyyata, prosesə nisbətən geridə qalmasını, ya da onu ötüb keçməsini xarakterizə edən göstərici nəzərdə tutulur. Alınan nəticənin onu müəyyən edən amillərdən, hərəkətlərdən, mənbələrdən vaxta görə gecikməsini səciyyələndirərkən istifadə olunur. Məsələn, sənayenin inkişafına yönəldilmiş investisiya qoyuluşundan götürülən faydanın gecikməsi, yəni bu və ya digər sənaye obyektinin yaradılmasına yönəldilmiş vəsaitdən istifadə olunduğu vaxtla həmin obyektin layihə gücünə çatdırılmasına qədər olan vaxt arasındakı interval laq adlanır.

İnvestisiya qoyuluşunun mütləq iqtisadi səmərəliliyini qiymətləndirərkən bir sıra xüsusi, spesifik göstəricilərdən istifadə edilir. Belə göstəricilərə əmək məhsuldarlığını, fondverimini, fond tutumunu, istehsalın material tutumunu aid etmək olar. Əvvəllərdə fondverimi və əmək məhsuldarlığı haqqında bəhs edilmişdir. İndi isə fond tutumunu, istehsalın material tutumunu aydınlaşdıraq.

***Fondtutumu*** – fondveriminə əks olan kəmiyyətdir, göstəricidir. Bu göstərici məhsulun 1000 manatına düşən istehsal əsas fondların dəyərini xarakterizə edir. Müəssisə üzrə fond tutumu istehsal əsas fondların orta illik balans (aşınma çıxılmaqla) dəyərinin müəyyən dövrdə (məsələn, ildə, rübdə) buraxılmış xalis (əmtəəlik) məhsulun həcminə nisbəti kimi müəyyən edilir. Fond tutumunun aşağı salınması istehsalın səmərəliliyinin yüksəldilməsində və onun intensivləşdirilməsində mühüm istiqamətdir.

***İstehsalın material tutumu*** – pul ifadəsində məhsul (iş, xidmət) vahidinə düşən material sərfinin həcmini xarakterizə edən göstəricidir. İstehsalın material tutumu hesablanarkən bütün material ehtiyatlarını (məsələn, xammal, material, yanacaq, enerji, satın alınmış komplektləşdirici məmulatlar və yarımfabrikatlar) sərfi nəzərə alınır. Xalq təsərrüfatı, sahə, müəssisə və məhsul üzrə istehsal material tutumu fərqləndirilir. Xalq təsərrüfatı üzrə material tutumu ümumi ictimai məhsula, yaxud ümumi daxili məhsula görə, sahə və müəssisələr üzrə material tutumu isə əmtəəlik məhsula görə hesablanır. Məhsulun metal



tutumu, enerji tutumu və kimya tutumu istehsalın material tutumunun ayrı-ayrı tərkib ünsürləridir. Dəyər, natural-dəyər, yaxud natural ifadəsində hesablanan bu göstəricilərin köməyi ilə ümumi istehsalın material tutumu ilə maddi-texniki ehtiyatların konkret növlərinin sərfi normaları arasında əlaqə yaradılır. İstehsalın material tutumunu azaltmağın əsas amilləri – texniki tərəqqi, qənaəti maddi cəhətdən stimullaşdırmaq və ehtiyatlardan israfçılıqla istifadəyə görə məsuliyyəti artırmaq, onların ciddi uçotunu aparmaq, əmək kollektivinin hər bir üzvündə ictimai əməyin nəticələrinə qayğı ilə yanaşmaq hissi tərbiyə etməkdən ibarətdir.

Elm və texnikanın müasir inkişaf mərhələsi təsərrüfat məsələlərinin çoxvariantlılığı ilə xarakterizə olunur. Belə bir hal investisiya qoyuluşundan istifadəni qiymətləndirmək üçün müqayisəli iqtisadi səmərəlik göstəricisindən istifadə olunmasını zəruri edir. Müqayisəli iqtisadi səmərəlik göstəricisinə müxtəlif variantlar üzrə investisiya qoyuluşunun özünü ödəmə müddəti və effektivlik əmsalı, məhsulun maya dəyəri, illik qənaət, gətirilmiş məsrəflər, məhsulun əmək tutumu və keyfiyyəti aiddir. Bu göstəricilərin hər birini ayrı-ayrılıqda qısaca xarakterizə edək.

İnvestisiya qoyuluşunun özünü ödəmə müddəti – investisiya qoyuluşu həcminin il ərzində ondan istifadə nəticəsində əldə edilən gəlirə olan nisbəti kimi hesablanır, yəni $T_{öd.} = \dot{I}_{qoy.} : G_{il}$ Bir qayda olaraq, ayrı-ayrı variantlar müxtəlif həcmdə investisiya qoyuluşu və cari məsrəflər tələb edir. Çoxlu sayda variantlar içərisindən ən səmərəlisini seçmək üçün həmin variantlar investisiya qoyuluşu və cari məsrəflər üzrə cüt-cüt müqayisə edilir və onlardan ən az müddətdə ödənilən variant seçilir. Nəticədə investisiya qoyuluşunun və cari məsrəflərin nisbətləri üzrə variantların müqayisəli səmərəliyi aşağıdakı düsturla müəyyən edilir:

$$T_{öd.} = (\dot{I}_1 - \dot{I}_2) : (M_1 - M_2),$$

burada $\dot{I}_1$ və $\dot{I}_2$ – müqayisə edilən variantlar üzrə investisiya qoyuluşunun həcmi; $M_1$ və $M_2$ – həmin variantlar üzrə cari məsrəflərin həcmi.

Fərz edək ki, investisiya qoyuluşundan iki variant üzrə istifadə edilir. Əkər birinci variant üzrə investisiya qoyuluşunun hesablanmış özünü ödəmə müddəti həmin investisiya qoyulu-

şunun normativ özünü ödəmə müddətdən azdırsa, yəni $İ_1 < İn$-dirsə, onda birinci varianta yönəldilmiş investisiya qoyuluşu ikinci variantdakına nisbətən daha səmərəli hesab edilməlidir və yaxud da əksinə, $İ_2 < İn$ olarsa, onda ikinci varianta yönəldilmiş investisiya qoyuluşu birinciyə nisbətən daha səmərəlidir.

İnvestisiya qoyuluşunun səmərəlik əmsalı – həmin investisiya qoyuluşunun minimum effektivlik normasını ifadə edir və digər şərtlər eyni olduqda, bundan da aşağı səviyyədə olması məqsədəuyğun hesab edilmir. Başqa sözlə, investisiya qoyuluşunun effektivlik əmsalı il ərzində onun nə qədər hissəsinin ödənildiyini göstərir və investisiya qoyuluşunun özünü ödəmə müddətinə əks olan kəmiyyətdir. Adətən, hesablama zamanı normativ effektivlik əmsalı 0,15-ə bərabər götürülür.

Gətirilmiş məsrəflər – məhsulun maya dəyərində nəzərdə tutulan cari məsrəflərin məcmusundan ($M_{cari}$) və birdəfəlik investisiya qoyuluşundan ($İ_{qoy.}$) ibarətdir; investisiya qoyuluşunun cari məsrəflərlə müqayisəsinə həmin məsrəfləri investisiya qoyuluşunun normativ effektivlik əmsalına (*En*) vurmaqla nail olunur. Gətirilmiş məsrəflərin kəmiyyətini hesablamaq üçün aşağıdakı düsturlardan istifadə edilir:

$$Mgət. = Md. + En \times İqoy.$$

və ya

$$Mgət. = İqoy. + En \times Md.$$

Verilmiş düsturlarda *Md.* kəmiyyəti konkret şəraitdə sənayeyə lazım olan istehlak dəyərlərinin istehsalına çəkilən məsrəflərin normal məbləğini, (*En* × *İqoy.*) kəmiyyəti isə – normativ mənfəətin kəmiyyətini xarakterizə edir; bu kəmiyyət tikinti-quraşdırma işlərinin həyata keçirilməsinə çəkilən bütün ehtiyatlardan, yaxud istifadə olunan əsas və dövriyyə istehsal fondlarının dəyərindən alınır. Göstərilən düsturlardan istifadə edərək səmərəli variantın seçilməsi qaydasını nəzərdən keçirək.

Tutaq ki, cari ildə sənaye istehsalının inkişafına yönəldilmiş investisiya qoyuluşundan üç istiqamətlə (variantda) istifadə ediləcəkdir. Bütün istiqamətlər üzrə investisiya qoyuluşunun özünü ödəmə müddəti ($T_{öd.}$) 6,6 il və onun normativ effektivlik əmsalı (*En*) isə 0,15 müəyyən edilmişdir. Cədvəl 78-də verilmiş şərti rəqəmlərdən istifadə edərək ayrı-ayrı istiqamətlər üzrə investisiya qoyuluşunun iqtisadi səmərəliliyini hesablayaq.



*Cədvəl 78*

***İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliyinin hesablanma metodikası***

| İnvestisiya qoyuluşundan istifadə istiqamətləri | İnvestisiya qoyuluşunun həcmi, mln. manat | İllik məhsul buraxılışı, mln.man |
|---|---|---|
| 1-ci istiqamət – yeni istehsal obyektinin tikilməsi | ($İ_1$) 900 | (Md) 1200 |
| 2-ci istiqamət – mövcud istehsalın genişləndirilməsi | ($İ_2$) 1100 | (Md) 1150 |
| 3-cü istiqamət – avadanlığın modernləşdirilməsi | ($İ_3$) 1400 | (Md)1110 |

Cədvəl 77-nin məlumatlarından istifadə edək hesablama zamanı aşağıdakı nəticələr əldə edilir:

1-ci istiqamətdə:

$Md + En \times İ_1 = 1200 + 0,15 \times 900 = 1335$ mln. manat

$İ1 + Töd \times Md = 900 + 6,6 \times 1200 = 8820$ mln. manat

2-ci istiqamətdə:

$Md + En \times İ_2 = 1150 + 0,15 \times 1100 = 1315$ mln. manat

$İ_2 + Töd \times Md = 1100 + 0,15 \times 1150 = 8690$ mln. manat

3-cü istiqamətdə:

$Md + En \times İ_3 = 1110 + 0,15 \times 1400 = 1320$ mln. manat

$İ_3 + Töd \times Md = 1400 + 0,15 \times 1110 = 8726$ mln. manat

Beləliklə, görürük ki, bu üç istiqamətdən ən əlverişlisi 62-ci istiqamətdir, çünki burada gətirilmiş məsrəflərin həcmi digər istiqamətlərə nisbətən azdır.

Məlumat üçün qeyd edək ki, gətirilmiş məsrəflər şərti xarakter daşıyır və yalnız müqayisəli iqtisadi səmərəlilik hesablamaları üçündür və müvafiq obyektlərin hazırlanması və ya tikintisinin plan dəyərinin təyin olunması üçün əsas sayılır. Fərz edək ki, sənayedə tikinti-quraşdırma işləri iki variant üzrə həyata keçirilir və hər bir variant üzrə investisiya qoyuluşunun həcmi cədvəl 79-da verildiyi kimidir.

Verilmiş misaldan görünür ki, birinci varianta görə tikintinin birinci ilində ikinci variantla müqayisədə investisiya qoyuluşuna 20 mln. manat (30-10) məbləğində qənaət edilmişdirsə, üçüncü

*Cədvəl 79*

***İnvestisiya qoyuluşunun variantlar üzrə bölgüsü, mln. manat***

| Tikinti illəri | Variantlar üzrə investisiya qoyuluşunun həcmi | |
|---|---|---|
| | Birinci variant | İkinci variant |
| Birinci il üçün | 10 | 30 |
| İkinci il üçün | 10 | 20 |
| Üçüncü il üçün | 40 | 10 |
| Yekunu: | 60 | 60 |

variantla müqayisədə 30 mln. manat (40-10) artıq vəsait sərf edilmişdir. Deməli, tikintinin birinci variantla həyata keçirilməsi iqtisadi cəhətdən daha əlverişlidir. Müvəqqəti azad olmuş vəsaitlərdən sənayenin digər sahələrində istifadə oluna bilər.

İnvestisiya qoyuluşunun müqayisəli iqtisadi səmərəlilik hesablamaları çox hallarda planlaşdırma və layihələşdirmə zamanı hər hansı bir tədbirin optimal variantının seçilməsi üçün aparılır. Yaxşı variant mümkün variantlar içərisində müxtəlif üsullar ilə seçilə bilər. Əgər mümkün variantlar içərisində tətbiqi ən az investisiya qoyuluşu tələb edən variant olarsa, həmin variant səmərəli, optimal variant hesab edilir. Lakin təcrübə göstərir ki, ən az investisiya qoyuluşu tələb edən variant məhsulun maya dəyərinin aşağı salınmasına imkan vermir. Belə olan halda səmərəli variantı müəyyənləşdirmək üçün gətirilmiş məsrəflər müqayisə edilir.

Fərz edək ki, istehsalın həcmini 80 mln. manatlıq artırmaq üçün üç variant mövcuddur: birinci variant – mövcud istehsalın genişləndirilməsi; ikinci variant – yeni istehsal obyektinin tikilməsi və üçüncü variant isə mövcud istehsalın texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi. Cədvəl 80-də verilmiş şərti rəqəmlərdən istifadə edərək hansı variantın daha əlverişli olduğunu müəyyənləşdirək.

Verilmiş misaldan görünür ki, üçüncü variant, yəni mövcud istehsalın texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi iqtisadi cəhətdən daha əlverişlidir, belə ki, bu zaman gətirilmiş məsrəflərin məbləği ildə 80,2 mln. manat təşkil edir. Bu, birinci və ikinci variantlarda olduğundan xeyli azdır.



*Cədvəl 80*

***Əlverişli variantın seçilməsi metodikası***

| Göstəricilər | Variantlar | | |
|---|---|---|---|
| | 1-ci | 2-ci | 3-cü |
| Maya dəyəri üzrə məhsul buraxılışı, mln. manat | 80 | 70 | 73 |
| İnvestisiya qoyuluşunun həcmi, mln. manat | 42 | 98 | 60 |
| Normativ effektivlik əmsalı | 0,15 | 0,15 | 0,15 |
| Gətirilmiş investisiya qoyuluşunun məbləği, mln. manat | 5,05 | 11,76 | 7,20 |
| İnvestisiya qoyuluşunun normativ ödəmə müddəti, il | 8,33 | 8,33 | 8,33 |
| İllik məhsul buraxılışının həcmi, mln. manat | 666,4 | 580,1 | 608,1 |
| Gətirilmiş məsrəflərin məbləği, mln. manat | 708,4 | 681,1 | 668,1 |

***İllik qənaət*** – təkrar istehsalın bütün mərhələlərində material-enerji, əmək və maliyyə ehtiyatlarından daha səmərəli istifadəni xarakterizə edir. Ehtiyatlara qənaətin əsasını təbii və maddi ehtiyatlardan kompleks istifadə olunması, itkilərin və səmərəsiz məsrəflərin aradan qaldırılması, təkrar material-enerji ehtiyatlarının və onlarla bağlı olan məhsulların təsərrüfat dövriyyəsinə daha çox cəlb olunması təşkil edir. Qənaətin iki növünü: şərti-illik və ilin axırınadək qənaət növlərini fərqləndirirlər və onları hesablamaq üçün aşağıdakı düsturlardan istifadə edilir:

Şərti-illik qənaət: $Q_{ş.-i.} = (M_{d.pl.} - M_{d.baz.}) \times N_{il}$

İlin axırınadək qənaət: $Q_{i.ax.} = (M'd - Md) \times n_{ay} \times N_{il}$

burada $M_{d.pl.}$ və $M_{d.baz.}$ – plan və bazis illərindəki məhsul vahidinin tam maya dəyəri; *Md* və *M'd* – bu və ya digər tədbirin tətbiqindən əvvəl və sonrakı məhsul vahidinin tam maya dəyəri, manatla; $N_{il}$ – il ərzində istehsal edilmiş məhsulların miqdarı, ədədlə; $n_{ay}$ – tədbirlərin tətbiqindən ilin axırına kimi olan ayların sayı.

Tutaq ki, maşınqayırma zavodunda təşkilati-texniki tədbirlərin həyata keçirilməsi nəticəsində məhsul vahidinin maya dəyəri bazis ilində ($M_{d.baz.}$) 10000 manatdan, plan ilində ($M_{d.pl.}$) 9000

manata düşmüşdür. Plan ilinin hər ayında istehsal olunan məhsulların miqdarı 1000 ədəd və tədbirlər iyul ayının 1-dən həyata keçirilərsə, təşkilati-texniki tədbirlərin həyata keçirilməsi nəticəsində əldə ediləcək şərti-illik qənaətin məbləği 120 mln. manata [(9000 – 10000) × 1000 × 12] və ilin axırınadək qənaətin məbləği isə 60 mln. manata [(9000 – 10000) × 1000 × 6] bərabər olacaqdır.

***Məhsulun maya dəyəri*** – müəssisənin məhsul istehsalına və satışına sərf etdiyi cari xərcləri ifadə edir və pul formasında çıxış edir. Məhsulun maya dəyəri müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin bütün tərəflərini əks etdirən və onun işinin səmərəliliyini xarakterizə edən sintetik göstəricidir. Məhsulun maya dəyərinin strukturu ayrı-ayrı xərc növlərinin nisbəti ilə səciyyələnir və hər bir sahənin spesifik xüsusiyyətlərini əks etdirir. Belə ki, neft sənayesində ən çox xərclər əməyin ödənilməsi və əsas istehsal fondlarının amortizasiyasına çəkilən xərclərdir; yüngül və yeyinti sənayesində isə əməyin ödənilməsi xərclərinin xüsusi çəkisi nisbətən kiçik olmaqla xammal və materiala çəkilən xərclər təqribən 85-90% təşkil edir. Elmi-texniki tərəqqinin təsiri altında bütün sahələrdə maddi xərclərin payı artırılır və əməyin ödənilməsinə çəkilən xərclərin xüsusi çəkisi isə azalır.

***Məhsulun keyfiyyəti*** – məhsulun təyinatına müvafiq olaraq müəyyən şəxsi və istehsal tələbatını ödəmək qabiliyyətini şərtləndirən xassələrin məcmusudur. Məhsulun keyfiyyətinin yüksəldilməsi iqtisadi artımın ən mühüm amili, istehsalın intensivləşdirilməsinin vacib şərtidir. Bazar iqtisadiyyatına keçid dövründə məhsulun keyfiyyətinin yaxşılaşdırılması mühüm iqtisadi və siyasi vəzifə kimi çıxış edir. Bunu həll etmədən sürətləndirmənin özünü, cəmiyyətin yeni ictimai quruluşa keçməsini təmin etmək olmaz. Məhsulun keyfiyyətinin iqtisadi cəhətdən əsaslandırılmış yüksəlişi çox vaxt əlavə vəsait sərfi ilə bağlı olsa da xalq təsərrüfatı baxımından, bir qayda olaraq, əvvəlki keyfiyyətdə məhsul istehsalı həcmini genişləndirməyə nisbətən daha məqsədəuyğun sayılır. Ən yaxşı və daha təkmil texnikadan istifadə olunması onun tətbiqi imkanlarını genişləndirir, cəmiyyətin tələbatını daha dolğun və az məsrəflə ödəməyə imkan verir. Yüksək keyfiyyətli məmulat istehsalın götürülən iqtisadi səmərə hər bir məhsul vahidindən istifadə olunmasının



səmərəsindən və onun istehsal miqyasından asılıdır. Məhsulun keyfiyyətinin yüksəldilməsi – əhalinin tələbatının daha dolğun ödəməyin, əmtəə-pul tədavülünün normal fəaliyyət göstərməsinin, ölkənin ixracat imkanlarını artırmağın vacib amilidir.

***Məhsulun əməktutumu*** – məhsul vahidi istehsalına, yaxud müəyyən texnoloji əməliyyatların yerinə yetirilməsinə sərf olunan iş vaxtının göstəricisidir. Məhsulun əmək tutumu texnoloji, tam və xalq təsərrüfatı məhsulunun əmək tutumuna görə fərqləndirilir. Bundan başqa, əmək tutumunun faktiki, normativ və plan növlərini də fərqləndirirlər. Faktiki əmək tutumu məhsul vahidinin hazırlanması üçün bütün texnoloji əməliyyatların yerinə yetirilməsi üçün əsas fəhlələrin faktiki sərf etdikləri iş vaxtının məcmusuna bərabərdir. Normativ əmək tutumu mövcud vaxt normaları üzrə məhsul vahidinin hazırlanmasına əsas fəhlələrin sərf etdikləri iş vaxtının məumusuna bərabərdir. Plan əmək tutumu məhsul vahidinin hazırlanmasına əsas fəhlələrin plan üzrə iş vaxtı məsrəfini xarakterizə edir.

Faktiki materialların təhlili göstərir ki, əsas kapitala yönəldilmiş investisiya qoyuluşundan iqtisadiyyatın sahələri üzrə istifadə edilməsi eyni səviyyədə deyildir. Belə ki, əsas kapitala yönəldilmiş investisiyalardan ən çox sənayedə istifadə edilmişdir. İnvestisiya qoyuluşundan istifadəni qiymətləndirmək üçün investisiya qoyuluşunun müqayisəli iqtisadi səmərəliliyinin hesablanması zamanı alınan göstəricilər (nəticələr) plan göstəriciləri ilə, əvvəlki dövrün analoji göstəriciləri ilə və qabaqcıl müəssisələrin əldə etdikləri göstəricilərlə müqayisə edilir. Əgər hesablama zamanı alınan göstəricilər plan göstəricilərindən aşağı səviyyədə deyildirsə, onda investisiya qoyuluşunun baxılan istiqamətləri iqtisadi cəhətdən səmərəli hesab olunur.

Məlumat üçün qeyd edək ki, investisiya qoyuluşundan mütləq və müqayisəli səmərəlilik göstəriciləri arasında müəyyən keyfiyyət və kəmiyyət fərqləri vardır. Belə ki, mütləq səmərəlilik göstəriciləri ayrıca götürülmüş hər bir obyekt üzrə investisiya qoyuluşunun iqtisadi səmərəliliyini müəyyən etmək üçün hesablanır, müqayisəli səmərəlilik göstəriciləri isə ayrı-ayrı təsərrüfat və ya texniki məsələlərin iki və ya bir neçə variantı içərisindən ən səmərəlisini seçmək məqsədini daşıyır.

Bundan başqa, mütləq iqtisadi səmərəlilik göstəriciləri əsas

etibarı ilə məhsulun növü və həcmindən asılı olmayaraq qiymət və maya dəyəri arasındakı fərqdən əmələ gələn mənfəətin ölçüsünə əsaslanır. Müqayisəli səmərəlilik göstəricisi isə qarşılıqlı əvəz olunan məhsulun həcmi və qiymət səviyyəsi müqayisə edilən şəraitdə onun maya dəyərinin aşağı salınmasına əsaslanır.

Beləliklə, mütləq və müqayisəli səmərəlilik göstəriciləri nəinki bir-birinə ziddir, hətta bir-birini tamamlayır. Məsələn, müəssisədə yeni texnikanın və ya mütərəqqi texnoloji proseslərin tətbiqinin iqtisadi səmərəliliyini qiymətləndirərkən həm mütləq iqtisadi səmərəlilik göstəricilərindən, həm də müqayisəli iqtisadi səmərəlilik göstəricilərindən istifadə etmək daha məqsədəuyğundur. Bu ondan irəli gəlir ki, yeni texnika və ya mütərəqqi texnoloji proses həm ictimai istehsalın səmərəliliyinin yüksəldilməsini, həm də istehsalın rentabelliyini təmin etməlidir.

## 11.5. İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyinin hesablanma metodikası

İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyi, qeyd etdiyimiz kimi, material-enerji və maliyyə resurslarına qənaət olunması, əmək məhsuldarlığının yüksəldilməsi, tikinti məhsulunun maya dəyərinin aşağı salınması və onun keyfiyyətinin yaxşılaşdırılması ilə xarakterizə olunur. Deməli, investisiya qoyuluşunun iqtisadi səmərəliliyi o zaman hesablana bilər ki, o, bilavasitə istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasına, yeni texnika və mütərəqqi texnologiyanın yaradılmasına və mənimsənilməsinə, mövcud maşın və avadanlıqların modernləşdirilməsinə, istehsalın yenidən qurulmasına və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, tikinti məhsulunun maya dəyərinin aşağı salınmasına və onun keyfiyyətinin yaxşılaşdırılmasına, material-enerji, əmək və maliyyə ehtiyatlarının qənaət edilməsinə yönəldilmiş olsun.

Bu baxımdan, sənayenin inkişafına yönəldilmiş investisiya qoyuluşu tətbiq olunma miqyasına və iqtisadi səmərəliliyinin hesablanması metodikasına görə fərqləndirilir. Məsələn, tətbiq olunma miqyasına görə investisiya qoyuluşları maddi istehsal və qeyri-maddi istehsal təyinatlı obyektlərin tikintisinə, mövcud istehsalların yenidən qurulmasına, genişləndirilməsinə və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, istehsal proseslərinin mexanikləşdirilməsi və avtomatlaşdırılmasına, istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsinə, tikinti məhsulunun maya dəyərinin aşağı salınmasına və onun keyfiyyətinin yaxşılaşdırılmasına, həmçinin material-enerji, əmək və maliyyə resurslarına qənaət edilməsini təmin edən tədbirlərin həyata keçirilməsinə yönəldilən investisiya qoyuluşlarına ayrılır; iqtisadi səmərəliliyinin hesablanması metodikasına görə isə investisiya qoyuluşları iki əsas qrupa: iqtisadi səmərəliliyini birbaşa hesablamaq mümkün və mümkün olmayan investisiya qoyuluşlarına ayrılır. Bütün hallarda investisiya qoyuluşunun iqtisadi səmərəliliyinin aşağıdakı üç növünü fərqləndirirlər:



a) ilkin iqtisadi səmərə – investisiya və tikinti-quraşdırma işlərini planlaşdırarkən və ya layihələşdirərkən təyin olunur və ona görə də bu cür iqtisadi səmərə ehtimal xarakteri daşıyır;

b) gözlənilən iqtisadi səmərə – investisiya qoyuluşunun bu və ya digər istiqamətdə istifadə edilməsi haqqında qərar qəbul edildikdən sonra hesablanır və bu, həmin istiqamətlərə investisiya qoyuluşunun yönəldilməsi üçün əsas təşkil edir;

c) faktiki iqtisadi səmərə – investisiya qoyuluşundan tam istifadə edildikdən sonra müəyyənləşdirilir və o, investisiya qoyuluşunun konkret istiqamətlərinin qiymətləndirilməsində əsas götürülür.

Öz mahiyyətinə görə investisiya qoyuluşundan istifadə nəticəsində əldə edilən səmərə iqtisadi, texniki, sosial-iqtisadi və siyasi ola bilər. Əgər investisiya qoyuluşundan istifadə nəticəsində sahənin (müəssisənin) işinin iqtisadi göstəriciləri yaxşılaşarsa, onda əldə edilən səmərə iqtisadi səmərə adlanır; əgər investisiya qoyuluşundan istifadə müəssisənin əmək kollektivinin iş şəraitini yaxşılaşdırarsa, onda əldə edilən səmərə sosial xarakter daşıyır; əgər investisiya qoyuluşundan istifadə nəticəsində avadanlığın gücü, məhsuldarlığı, sürəti, etibarlığı, istismar rahatlığı və s. təmin olunarsa, onda əldə edilən səmərə sosial-iqtisadi səmərə adlanır; nəhayət, investisiya qoyuluşundan istifadə ölkənin müdafiə qabiliyyətini artırarsa və onun iqtisadi müstəqilliyini təmin edərsə, onda əldə edilən səmərə siyasi səmərə adlanır.

İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyinin

hesablanması metodikasını bəzi istiqamətlər üzrə nəzərdən keçirək. Əgər investisiya qoyuluşu tikinti məhsulunun keyfiyyətini yaxşılaşdırılması üzrə tədbirlərin və ya elmi-tədqiqat işlərinin həyata keçirilməsinə yönəldilmişdirsə, onda həmin investisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$S_{key.} = (ƏM_{cari} - En \times \dot{I}_{təd.}) \times N_{cari};$$

burada $ƏM_{cari}$ – keyfiyyəti yaxşılaşdırılmış tikinti məhsulunun cari ildə satışından əldə edilən əlavə mənfəətin məbləği, manat; $En$ – investisiya qoyuluşunun normativ effektivlik əmsalı; $\dot{I}_{təd.}$ – tədbirlərin həyata keçirilməsinə yönəldilmiş investisiya qoyuluşunun həcmi, manat; $N_{cari}$ – cari ildə keyfiyyəti yaxşılaşdırılmış tikinti məhsullarının miqdarı, ədəd.

Əgər investisiya qoyuluşu yeni texnikanın və mütərəqqi texnoloji proseslərin yaradılması üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdirsə, onda həmin investisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$S_{tex.} = [(X - X') - (En \times \dot{I}_{təd.}) : N_{il}] \times N_{il};$$

burada $X$ və $X'$ – tədbirin həyata keçirilməsindən əvvəl və sonra tikinti işlərinə sərf edilən xərclərin məbləği, manat; $N_{il}$ – il ərzində yaradılacaq yeni texnikanın miqdarı, ədəd.

Əgər investisiya qoyuluşu tikinti məhsulunun maya dəyərinin aşağı salınması məqsədilə həyata keçirilən tədbirlərə yönəldilmişdirsə, onda həmin investisiya qoyuluşunun iqtisadi səmərəliliyini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$S_{m.d.} = (M_{d.} - M'_{d.}) \times N_{il};$$

burada $M_{d.}$ və $M'_{d.}$ – tədbirin tətbiqindən əvvəl və sonrakı vahid tikinti məhsulunun tam maya dəyəri, manat; $N_{il}$ – cari ildə buraxılacaq tikinti məhsulunun miqdarı, ədəd.

Əgər investisiya qoyuluşu istehsal prosesinin mexanikləşdirilməsi və avtomatlaşdırılması üzrə tədbirlərin həyata keçirilməsinə yönəldiləcəkdirsə, onda həmin investisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyini qiymətləndirmək üçün investisiya qoyuluşunun özünü ödəmə müddətindən və onun effektivlik əmsalından istifadə edilir.

İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyini xarakterizə edən mühüm göstəricilərdən biri, qeyd etdiyimiz



kimi, əmək məhsuldarlığıdır. Əmək məhsuldarlığının yüksəldilməsində, digər şərtlərlə yanaşı, tikinti məhsulunun əmək tutumunun aşağı salınması, iş vaxtı itkilərinin və növbədaxili boşdayanma hallarının aradan qaldırılması, tikinti-quraşdırma işlərinin mexanikləşdirilməsi və avtomatlaşdırılması mühüm rol oynayır. Odur ki, əgər investisiya qoyuluşu tikinti məhsulunun əmək tutumunun aşağı salınması üzrə tədbirlərin həyata keçirilməsinə yönəldilmişdirsə, onda həmin investisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$ƏM_{məh.} = (100 \times K_{ə.t.}) : (100 - K_{ə.t.});$$

burada $K_{ə.t.}$ – tikinti məhsulunun əmək tutumunun azalma faizi.

Əgər investisiya qoyuluşu iş vaxtı itkilərini və növbədaxili boşdayanma hallarının aradan qaldırılması üçün tədbirlərin həyata keçirilməsinə yönəldiləcəkdirsə, onda iş vaxtı itkilərinin və növbədaxili boşdayanma hallarının aradan qaldırılması hesabına əmək məhsuldarlığının artma faizini hesablamaq məqsədilə aşağıdakı düsturdan istifadə etmək olar:

$$ƏM_{it.} = [(K_{it} - K'_{it}) \times 100] : (100 - K_{it});$$

burada $K_{it}$ və $K'_{it}$ – tədbirin tətbiqindən əvvəl və sonra iş vaxtı itkiləri, %.

Əgər investisiya qoyuluşu növbə ərzində işçinin iş vaxtı fondunun artırılması məqsədilə həyata keçirilən tədbirlərə yönəldilmişdirsə, onda növbə ərzində işçinin faydalı iş vaxtı fondunun artması hesabına əmək məhsuldarlığının artması faizini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$ƏM_{i.f.} = [(t'_{i.f.} - t_{i.f.}) \times 100] : t_{i.f.};$$

burada $t_{i.f.}$ və $t'_{i.f.}$ – təbirin tətbiqindən əvvəl və sonra işçinin faydalı iş vaxtı fondu, növbə-saat və ya adam-saat.

Əgər investisiya qoyuluşu işçilərin sayının azaldılması məqsədilə həyata keçirilən tədbirlərə yönəldilmişdirsə, onda işçilərin sayının azaldılması hesabına əmək məhsuldarlığının artma faizini hesablamaq üçün aşağıdakı düsturdan istifadə etmək olar:

$$ƏM_{iş.} = [(\dot{I} - \dot{I}') \times 100] : (\dot{I} - \dot{I}_{az.});$$

burada $\dot{I}$ və $\dot{I}'$ – tədbirin tətbiqindən əvvəl və sonra müəssisə işçilərinin sayı; $\dot{I}_{az.}$ – tədbirin tətbiqi nəticəsində cari ildə azad olmuş işçilərin sayı.

İnvestisiya qoyuluşunun iqtisadi səmərəliliyini avadanlıqların sərbəstləşdirilməsi hesabına əldə edilən qənaətlə də müəyyənləşdirmək olar. Əgər investisiya qoyuluşu avadanlıqların sərbəstləşdirilməsi məqsədilə həyata keçirilən tədbirlərə sərf edilərsə, onda avadanlığın sərbəstləşdirilməsi nəticəsində əldə edilən qənaətin məbləği aşağıdakı düsturla təyin edilir:

$$Qav. = [(A'_{ay.} : N'_{il}) - (Aay. : N_{il})] \times N_{il};$$

burada $A_{ay.}$ və $A'_{ay.}$ – tədbirin tətbiqindən əvvəl və sonra amortizasiya ayırmalarının məbləği, manat; $N_{il}$ və $N'_{il}$ – həmin dövrlərdə illik məhsul buraxılışının miqdarı.

Sənaye müəssisələrində investisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyini müəyyənləşdirmək üçün istehsalın rentabellik səviyyəsini xarakterizə edən göstəricidən də istifadə etmək olar. Məlumdur ki, müəssisələr istehsal etdikləri məhsulları müəyyən etdikləri qiymətlərlə realizə edərək gəlir əldə edirlər və həmin gəlirdən realizə etdikləri məhsulların istehsalına və satışına çəkdikləri xərcləri ödəyərək müəyyən məbləğdə mənfəət götürürlər. Gəlirin xərcdən artıq olması müəssisənin rentabelliyini səciyyələndirir. Müəssisənin rentabelliyi onun müəyyən dövr ərzində (məsələn, ildə) istehsal-təsərrüfat və digər növ fəaliyyətlərinin iqtisadi səmərəliliyinin ümumiləşdirilmiş göstəricilərindən biridir. Adətən, müəssisənin rentabellik səviyyəsini müəyyən etmək üçün iki göstəricidən: mənfəətin məbləği və rentabellik səviyyəsi göstəricilərindən istifadə edilir.

***Mənfəətin məbləği*** – müəssisə topdansatış qiyməti ilə məhsulun realizəsindən əldə edilən gəlirlə, həmin məhsulun plan maya dəyəri arasındakı fərq kimi müəyyən edilir. Mənfəət əmtəəlik məhsulun (işin, xidmətin) realizəsindən əldə edilən ümumi gəlirin bir hissəsidir; istehsala çəkilən xərclər həmin gəlirdən çıxıldıqdan sonra əmələ gəlir. Müəssisənin mənfəətinin əsas hissəsini əmtəəlik məhsulun (işin, xidmətin) realizəsindən əldə edilər mənfəət təşkil edir. Ona görə də eyni istehsal şəraitində realizə ediləcək məhsulun (işin, xidmətin) miqdarı və keyfiyyəti yüksəldikcə onun maya dəyəri aşağı düşdükcə müəssisənin mənfəətinin məbləği də artır.

Müəssisənin mənfəəti yalnız əmtəəlik məhsulun realizəsindən deyil, eyni zamanda onun digər fəaliyyət növlərindən də (məsələn, mənzil-kommunal təsərrüfat fəaliyyətindən, kommersiya fəaliyyətindən, yardımçı təsərrüfatlardan və s.) əmələ gələ bilər. Balans mənfəəti, əmtəəlik məhsul istehsalından əldə edilən mənfəət və hesablaşma mənfəəti fərqləndirilir.



***Balans mənfəəti*** – müəssisənin bütün istehsal-təsərrüfat fəaliyyətinin, istehsal və qeyri-istehsal fəaliyyətinin bütün növləri, o cümlədən realizədənkənar gəlir və itkiləri saldosu üzrə mənfəətin ümumi məbləğindən ibarətdir.

***Əmtəəlik məhsul istehsalından əldə edilən mənfəət*** – müəssisənin topdansatış qiymətində əmtəəlik məhsulun həcmi ilə onun tam maya dəyəri arasındakı fərqi bildirir. Ondan məmulat istehsalının rentabelliyini müəyyən etməkdə istifadə olunur.

***Hesablaşma mənfəəti*** – müəyyən edilmiş məbləğdə vergi və digər məcburi ödəmələri yerinə yetirdikdən sonra yerdə qalan balans mənfəətindən azdır. Məhsulun həcminin artırılması, maya dəyərinin aşağı salınması, məhsulun strukturunun dəyişməsi, qeyri-məhsuldar xərclərin və itkilərin azaldılması mənfəətin artırılması amilləridir.

***Rentabellik səviyyəsi*** – mənfəət məbləğinin istehsal əsas fondların orta illik dəyəri ilə normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyərinin cəminə nisbətinin faizlə ifadəsidir. İstehsalın rentabelliyi özü də iki formada – ümumi və hesablaşma rentabellik formasında olur. Ümumi rentabellik səviyyəsini müəyyən etmək üçün müəssisənin balans mənfəətinin məbləğini ($M_{bal.}$) istehsal əsas fondların orta illik dəyəri ($D_{əsas}$) ilə normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyərləri ($D_{vəs.}$) cəminə bölmək lazımdır, yəni:

$$P'_{üm.} = \frac{M_{bal.} \times 100}{D_{əsas} + D_{vəs.}}.$$

İstehsalın hesablaşma rentabellik səviyyəsini müəyyən edilmiş vergini ($S_{ver.}$) və digər məcburi ödəmələrin (məsələn, kreditlər üçün faizlər) məbləği qədər ($D_{öd.}$) azaldılmış balans mənfəətinin (buna hesablaşma mənfəəti deyilir) istehsal əsas fondların və normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyərlərinin cəminə nisbətini xarakterizə edir və aşağıdakı düsturla təyin edilir:

$$P'_{hes.} = \frac{M_{bal.} - (S_{ver.} + D_{öd.}) \times 100}{D_{əsas.} + D_{vəs.}}.$$

Ayrı-ayrı məhsul növlərinin istehsalı və satışı üçün müəssisənin xərclərinin səviyyəsini qiymətləndirmək üçün məhsulun rentabelliyi göstəricisindən istifadə edilir. Ayrı-ayrı məhsul növlərinin rentabellik səviyyəsini müəyyən etmək üçün həmin məhsulların bazar topdansatış qiymətləri ($Q_{top.}$) ilə tam maya dəyərləri ($M_{d}$) arasındakı nisbət fərqini məhsulun istehsalı ilə əlaqədar olan maddi xərclərin kəmiyyətinə ($X_{mad.}$) bölmək lazımdır, yəni:

$$P'_{hes.} = \frac{(Q_{top.} + M_{dl}) \times 100}{X_{mad.}}.$$

Realizə edilən məhsulun rentabellik səviyyəsinin göstərilən metodika ilə təyin edilməsi məhsulun maya dəyərinin tərkibində maddi məsrəflərin xüsusi çəkisi yüksək olan və həmçinin ayrı-ayrı məhsul növlərinin maya dəyərində həmin məsrəflər tez-tez dəyişilən, xammal və materialların əvəz edilməsi üçün texnoloji imkanı olan sənaye sahələrində (müəssisələrində) tətbiq edilir. Bununla yanaşı, ayrı-ayrı sənaye sahələrində (müəssisələrində) istehsalın konkret şəraitindən asılı olaraq realizə edilən məhsulun rentabellik səviyyəsinin təyin edilməsinin digər üsulları da tətbiq edilə bilər. Məsələn, realizə edilən məhsulun rentabellik səviyyəsi mənfəətin aşınma çıxılmaqla istehsal əsas fondların orta illik dəyəri iilə normalaşdırılan dövriyyə vəsaitlərinin orta illik dəyərinin cəminə olan nisbəti kimi, yaxud da mənfəətin məhsulun tam maya dəyərinə olan nisbəti kimi hesablanır.

İstehsalın rentabellik səviyyəsinin yüksəldilməsinin əsas amillərinə aiddir: sahənin mənfəətinin artırılması; məhsulun keyfiyyətinin yaxşılaşdırılması və onun maya dəyərinin aşağı salınması; material-enerji itkilərinin minimuma endirilməsi; texnoloji maşın və avadanlıqlardan səmərəli istifadə edilməsi; məhsulun material tutumunun azaldılması; qənaət rejiminə ciddi əməl olunması; normalaşdırılan dövriyyə vəsaitlərindən səmərəli istifadə edilməsi və s.

İstehsalın rentabellik səviyyəsinin yüksəldilməsi nəinki məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı salınması hesabına, həmçinin buraxılan məhsulun miqdarının artırılması nəticəsində də əldə edilir. Fərz edək ki, iki müəssisə topdansatış qiyməti ilə plan maya dəyəri eyni olan həmcins məhsullar istehsal edir və satır. Bu müəssisələrdən biri yaxşı işləyir, yəni realizə ediləcək məhsulların miqdarını daima artırır və onların maya dəyərini aşağı salır; ikinci müəssisə isə pis işləyir, yəni realizə olunan məhsulların miqdarını artırmır və onların maya dəyərini aşağı salmaq üçün heç bir tədbir həyata keçirmir. Məhsul vahidinin topdansatış qiymətlərinin və plan maya dəyərinin eyni olmasına baxmayaraq, onların həmin məhsulların realizəsindən əldə etdikləri mənfəətin məbləği müxtəlif olacaqdır.



İnvestisiya qoyuluşundan istifadənin iqtisadi səmərəliliyinin təmin olunmasında qənaət rejiminə əməl olunması mühüm rol oynayır. Qənaət rejimi – təkrar istehsalın bütün mərhələlərində bütün ehtiyat növlərindən daha səmərəli istifadənin təmin edilməsinə yönəldilmiş iqtisadi, istehsal-texniki, təşkilati və siyasi tərbiyəvi tədbirlər və şərtlər kompleksidir. Qənaət rejimi yeni texnika və mütərəqqi texnologiyanın, istehsalın mexanikləşdirilməsinin və avtomatlaşdırılmasının, əməyin elmi təşkilinin tətbiqini, əmək intizamının möhkəmləndirilməsini, maddi və mənəvi stimullaşdırmanın təkmilləşdirilməsini nəzərdə tutur. Qənaət rejiminə əməl edilməsi – bütün fəaliyyət sahələrində maddi, əmək və maliyyə ehtiyatlarından daha səmərəli istifadə etmək deməkdir. Bu isə investisiya qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas şərtlərindən biridir. Qənaət rejimi həm istehsal və tədavül sahəsini, həm də istehlak sahəsini əhatə edir.

# FƏSİL 12. SAHƏNİN İNFRASTRUKTURU VƏ ONUN YARADILMASINDA AZƏRBAYCAN BEYNƏLXALQ ƏMƏLİYYAT ŞİRKƏTİNİN ROLU

## 12.1. «Xidmət» anlayışı, onun formaları və obyektiv zəruriliyi

Xidmət dedikdə, müəssisənin, yaxud ayrıca şəxsin, fərdin müəyyən tələbatının ödənilməsinə yönəldilmiş qeyri-maddi fəaliyyətinin nəticəsi nəzərdə tutulur. Ümumiyyətlə, müəssisələrdə göstərilən bütün xidmətlər iki növ: istehsal (maddi) və qeyri-istehsal (qeyri-maddi) xarakteri daşıyır və bir qayda olaraq, onun icrası təsərrüfat müqaviləsi əsasında həyata keçirilir. Təsərrüfat müqaviləsi tərəflərin qarşılıqlı münasibətlərini konkretləşdirir, onların hüquq və vəzifələrini müəyyənləşdirir və hüquqi qaydada möhkəmləndirir. Təsərrüfat müqaviləsinin bağlanması mövcud normativ aktlar vasitəsilə qaydaya salınır.

Müəssisələrin müstəqilliyinin genişləndiyi və onların arasında birbaşa əlaqələrin inkişaf etdiyi şəraitdə təsərrüfat müqaviləsinin rolu əhəmiyyətli dərəcədə artır. Bu sahədə müqavilə intizamına riayət olunması mühüm rol oynaya bilər. Müqavilə intizamı dedikdə, tərəflərin müqavilələri, onlarda nəzərdə tutulmuş bütün öhdəliklərin tam və vaxtında icra edilməsi nəzərdə tutulur. Müqavilə intizamının gözlənilməsi – müəssisənin ahəngdar işinin və səmərəliliyinin yüksəldilməsinin zəruri şərtidir. Müqavilə öhdəliklərinin tam həcmdə yerinə yetirilməsində və vaxt müddətlərinə əməl olunmasında müəssisələr əmlak, maddi və mənəvi məsuliyyət daşıyırlar. Təsərrüfat mexanizminin yenidən qurulması, müəssisələr arasında birbaşa təsərrüfat əlaqələrinin inkişafı, onlar arasında müqavilə münasibətlərinin rolunun artması şəraitində müqavilə intizamına sözsüz əməl olunması müəssisə iqtisadiyyatının səmərəli fəaliyyətinin vacib ilkin şərtidir.

Xidmətlər maddi istehsal sahələrinə olan tələbatın ödənilməsi ilə əlaqələndirilərək şəxsiyyətin hərtərəfli inkişafına səbəb olur, əmək kollektivlərinin həyat səviyyəsinin yüksəldilməsi vasitəsi rolunu oynayır. Başqa sözlə, xidmət bir tərəfin digərinə təklif etdiyi və əsasən duyulmayan və nəyəsə malik olmaqla nəticələnməyən istənilən tədbir və ya faydadır, yəni xidmət dedikdə, fəaliyyətin və kommersiya məşğuliyyətlərinin müxtəlif növləri başa düşülür. Əmtəə isə – bazar iqtisadiyyatının əsasını təşkil edir və müxtəlif formalarda təzahür olunur. Məhsulun əmtəəyə çevrilməsi üçün mübadilə dəyərinin olması şərdir.



Beləliklə, xidmətlər istehsalı əmtəənin cismani şəkli ilə həm əlaqədar ola, həm də olmaya bilər. Məsələn, kassadan əmək haqqı (pul) alarkən, müəssisənin mərkəzi anbarından və ya sex anbarından material və digər istehsal-texniki təyinatlı məhsullar alarkən, avtomobillə gedərkən, müəssisənin tibbi məntəqəsinə müraciət edərkən, avadanlığı və ya digər texniki vasitələri təmirə verərkən, paltarları kimyəvi təmizliyə verərkən, yataqxanada yer alarkən və s. hallarda biz müxtəlif növ xidmətlərlə qarşılaşırıq. Lakin, onları biz əmtəə kimi əvvəlcədən görə və dərk edə bilmirik. Bu onunla izah edilir ki, əmtəələr xidmətlərdən aşağıdakı dörd əlamətlərə görə fərqlənirlər:

*1) Xidmətlər göstərilməmişdən əvvəl duyulmur*, yəni onları əldə edənədək görmək, dadına baxmaq, eşitmək və ya iyləmək qeyri-mümkündür. Deməli, xidmətlər duyulmazlıq xarakteri daşıdığı halda, əmtəələr əvvəlcədən görünür və duyulur;

*2) Mənbədən ayrılmazlıqla səciyyələnir*, yəni istər insan, istərsə də maşın və mexanizm olsun, xidmət öz mənbəyindən ayrılmır, halbuki əmtəə öz cismani şəkilində mənbəsinin olub-olmamasından asılı deyil;

*3) Keyfiyyətin qeyri-sabitliyi ilə*, yəni xidmətlərin keyfiyyəti onları göndərənlərdən, eyni zamanda göstərilməsi vaxtı və yerindən asılı olaraq geniş hüdudlarda enib-qalxır. Bu o deməkdir ki, əmtəələr vahid standartlara, texniki-şərtlərə və fabrik-zavod normativlərinə və digər normativ aktlara uyğun hazırlandıqları halda, xidmətlər göstərilən sənədlərə malik deyillər;

*4) Saxlanıla bilməməsi, yəni xidmətlər saxlanılma xarakterinə malik deyillər*, əmtəələr isə belə bir xassəyə malikdirlər. Tələbat sabit olduğu şəraitdə xidmətlərin saxlanıla bilməməsi problem deyil, çünki təşkilatı əvvəlcədən asanlıqla dəstləşdirmək olar. Tələbat qeyri-sabit olduqda, yəni enib-qalxdıqda isə müəssisə qarşısında ciddi problemlər baş qaldıra bilər. Məsələn, günün müxtəlif vaxtlarında nəqliyyat vasitələrinə olan tələbat xeyli artır, yəni gur saatlarda daşımalara olan tələbatı nəzərə almaqla, ictimai nəqliyyat müəssisələrinə bütün gün ərzin-

də sabit tələbat olduğu hallara nisbətən daha çox nəqliyyat vasitəsi lazım olur.

Ümumi şəkildə, əməyin xarakterindən və onun nəticəsindən asılı olaraq iki növ xidmətləri: maddi və qeyri-maddi xidmət növlərini fərqləndirirlər. Maddi xidmətlər maddi istehsal sahələrində, qeyri-maddi xidmətlər isə qeyri-istehsal sahələrində baş verir. Adətən, maddi xidmətlər maddi nemətlərin hazırlanması prosesində əsas istehsala texniki xidmət göstərilməsi ilə bilavasitə əlaqədardır və əşya formasını almır, lakin maddi nemətlərin istehlak dəyərini təzələyir və beləliklə də həmin maddi nemətlərin istismar müddətlərini uzadır. Buna görə də maddi xidmətləri, insanın istehsal fəaliyyətinin xarakterindən asılı olaraq qeyri-maddi istehsal sahəsinə deyil, xidmət sferasına aid edilir. Sonuncu qeyri-maddi istehsal sahəsindən onunla fərqlənir ki, burada əməyin nəticəsi müstəqil varlıq forması almır, lakin müxtəlif ictimai tələbatları ödəyən, səmərəli nəticəyə malik olan xidmət forması kimi çıxış edir. Bu baxımdan, xidmət sahəsi iqtisadiyyatın bir sıra sahələrini, məsələn, nəqliyyat və rabitə xidmətlərini, istehsal təyinatlı ticarət və ictimai iaşəni, məişət xidmətinin istehsal növlərini, habelə cəmiyyətdə mövcud olan bütün qeyri-maddi istehsal fəaliyyətinin növlərini təşkil edir. Beləliklə, ictimai əmək bölgüsü sistemində, iqtisadi mahiyyətinə və funksional roluna görə qeyri-maddi istehsal sahəsi ona daxil olan sahələrin tərkibinə görə «xidmət sahəsi» anlayışı ilə üst-üstə düşmür.

Ümumiyyətlə, qeyri-maddi istehsal sahəsi dedikdə, əhaliyə və maddi istehsal sahələrinə xidmət göstərən, bu xidmətləri idarə edən sahələrin və fəaliyyət növlərinin məcmusu nəzərdə tutulur. İqtisadiyyatın sosial inkişaf istiqamətlərinin gücləndirildiyi şəraitdə ictimai tələbatın ödənilməsində qeyri-maddi istehsal sahələrinin, yəni xidmət sahələrinin rolu xeyli yüksəlir və ona görə də həmin xidmət sahələrinə iş qüvvəsi axını baş verir. Bunu cədvəl 1-də verilmiş məlumatlar da sübut edir.

Elmi-texniki tərəqqinin təsiri altında xidmət sahələrinin maddi-texniki bazası möhkəmlənir, xidmətlərin xarakterinə və məzmununa müvafiq ixtisaslaşdırılmış məhsuldar maşın və avadanlıqlar, cihazlar yaradılır, xidmət sahəsində çalışan işçilərin peşəkarlığının (ustalığının) artırılması üçün tədbirlər həyata



keçirilir və ali məktəblərdə müxtəlif ixtisaslar üzrə xidmət sahələri üçün mütəxəssis kadrlar hazırlanır. Məsələn, hazırda Azərbaycan Dövlət İqtisad Universitetində «İstehsal və xidmət sahələrinin iqtisadiyyatı və idarə edilməsi» üzrə ixtisaslı kadrlar hazırlanır və onların sayı getdikcə artır.

Planlaşdırmada və statistikada qeyri-maddi istehsal sahəsinə aşağıdakı sahələr və fəaliyyət növləri aiddir: mənzil-kommunal təsərrüfatı və əhaliyə göstərilən məişət xidmətləri; sərnişin nəqliyyatı; rabitə; su təsərrüfatı; səhiyyə; bədən tərbiyəsi və idman; maarif, mədəniyyət və incəsənət; elm və elmi xidmət; kreditləşdirmə və dövlət sığortası; partiya və ictimai təşkilatlar.

Son zamanlar ədəbiyyatlarda, ictimai radio və televizorlarda «qeyri-maddi istehsal sahəsi» termini çox az-az hallarda işlədilir, yəni «qeyri-maddi istehsal sahəsi» anlayışı əvəzinə «Xidmət sahəsi», «Sosial-mədəni sahə», «Marketinq xidməti», «Sosial sahə», «Sosial infrastruktur» və s. bu kimi yeni anlayışlara rast gəlmək olur. Bu onunla izah edilir ki, «qeyri-maddi istehsal sahə» anlayışı bu sahələrdə heç bir şey istehsal edilməyən və ancaq istehlak edilən sahə kimi onlar haqqında düzgün olmayan təsəvvür yarada bilər.

Beləliklə, göstərilir ki, «qeyri-maddi istehsal sahə» anlayışı cəmiyyətin sosial-iqtisadi inkişafında xidmətlərin aktiv rolunu inkar edə bilər. Lakin deyilənlərlə razılaşmaq olmaz, çünki əsas məsələ hansı anlayışlardan istifadə olunması deyil, onların hansı iqtisadi məzmunu kəsb etməsindədir. Ona görə də «qeyri-maddi istehsal sahə» anlayışını leksikonumuzdan silmək olmaz, belə ki, «qeyri-maddi istehsal sahə» anlayışı pozitiv məna kəsb edir, o qeyri-maddi istehsal sahəsini qeyri-maddi nemətlər istehsal edən sahə kimi, cəmiyyətdə mövcud olan digər fəaliyyət növlərindən fərqləndirir.

Qeyri-maddi istehsal sahəsi qeyri-maddi nemətlər və xidmətlər yaradan sahələrin məcmusu kimi olduqca müxtəlif tərkibə malikdir. İctimai təkrar istehsaldakı yerindən və rolundan, tələbatların ödənilməsi xarakterindən asılı olaraq qeyri-maddi istehsal sahələrinin xidmətlərini iki qrupa: nəticələri bilavasitə insana təsir göstərən və nəticələri mövcud ictimai münasibətləri tənzimləyən fəaliyyət növlərinə ayırmaq olar.

## 12.2. Sahədə göstərilən xidmətlərin növləri və təsnifatı

Bazar iqtisadiyyatı şəraitində xidmətlər iqtisadiyyatın bütün sahələrində geniş yayılmışdır. Məsələn, ABŞ-da iqtisadiyyatın bütün sahələrində çalışan işçilərin 73-75%-i, Almaniyada – 40-45%-i, İtaliyada – 30-35%-i xidmət sahələrində çalışırlar. Hazırda əhalinin maddi rifah halının yüksəlməsi, asudə vaxtın artması və texniki xidmət tələb edən malların mürəkkəbləşməsi ABŞ-ı xidmətlər iqtisadiyyatı üzrə dünyada birinci ölkəyə çevrilmişdir.

Sənaye müəssisələrində göstərilən xidmətlər həddən artıq müxtəlif təyinatlı və məzmunludur. Adətən, müəssisələrdə maddi və qeyri-maddi istehsal sahələrinə xidmətlər həm mərkəzləşdirilmiş şəkildə müəssisənin köməkçi və xidmətedici sex və təsərrüfatları tərəfindən, həm qeyri-mərkəzləşdirilmiş qaydada müəssisənin sex və istehsal sahələrində yaradılmış köməkçi və xidmətedici qruplar, bürolar və briqadalar tərəfindən, həm də qarışıq formada, yəni xidmətlərin bir qismi mərkəzləşdirilmiş, digər hissəsi isə qeyri-mərkəzləşdirilmiş formalarda həyata keçirilir. Özü də xidmətlər öz təyinatlarına və xarakterinə görə bir-birlərindən əhəmiyyətli dərəcədə fərqlənirlər. Belə bir hal onların təşkilini, planlaşdırılmasını və idarə edilməsini müəyyən qədər çətinləşdirir. Odur ki, xidmətlərin təsnifləşdirilməsi zərurəti yaranır. Adətən, tələbatın ödənilməsi məzmunundan asılı olaraq müəssisələrdə xidmətlərin aşağıdakı növlərindən istifadə edilir:

***Marketinq xidməti*** – son zamanlar böyük əhəmiyyət kəsb edən xidmət növlərindən biridir. Ümumiyyətlə, marketinq bu və ya digər dərəcədə bazarla əlaqədar olan insan fəaliyyətidir. Marketinq insan ehtiyaclarının və tələbatlarının ödənilməsi məqsədilə mübadilənin baş verməsi üçün bazarla aparılan iş növüdür, fəaliyyət dairəsidir. O, bazarın kompleks təhlilinə əsaslanır, istehsal edilmiş məhsulların satılması prosesində maksimum mənfəət əldə edilməsi məqsədini daşıyır.

Məlumat üçün qeyd edək ki, marketinq ilk dəfə ABŞ-da XX əsrin əvvəllərində yaranmış və tətbiq olunmağa başlamışdır. Bu, istehsalın və kapitalın təmərküzləşdirilməsinin artması, satış bazarlarının inhisarlaşmasının güclənməsi, əmtəələrin realizə olunmasının kəskinləşməsi və iri inhisar arasında rəqabət



mübarizəsinin güclənməsi və dərinləşməsi ilə əlaqədardır. Müasir dövrdə ABŞ-da sənaye, ticarət və xidmət sahəsi şirkətlərinin 90%-i, Almaniyada və B. Britaniyada müxtəlif sahə firma və şirkətlərinin 75%-i bu və ya digər formada müntəzəm olaraq bazar tədqiqatları aparırlar. Deməli, marketinq mahiyyət etibarilə böyük biznesin rəqabət mübarizəsi alətidir. Məqsədli marketinq xidməti, əsasən aşağıdakı üç tədbirin həyata keçirilməsini tələb edir:

***a) bazarın məqsədli seqmentinin seçilməsi*** – dedikdə, öz məhsulu ilə bazara çıxmaq üçün bazarın bir və ya bir neçə seqmentinin qiymətləndirilməsi və seçilməsi nəzərdə tutulur;

***b) bazarda əmtəənin mövqeyinin möhkəmləndirilməsi*** – əmtəənin bazarda rəqabətə davam gətirən mövqeyinin təmin edilməsini və dəqiq marketinq kompleksinin işlənib hazırlanmasını nəzərdə tutur;

***c) bazarın seqmentləşdirilməsi*** – onun hər biri üçün ayrı-ayrı əmtəələr, ya da marketinq kompleksi tələb oluna biləcək alıcı qruplarına bölüşdürülməsidir. Bazarın seqmentləşdirilməsi aşağıdakı prinsiplərə əsaslanır:

– coğrafi prinsip üzrə seqmentləşdirmə – bazarın müxtəlif coğrafi vahidlərə: rayonlara, şəhərlərə və s. bölüşdürülməsini nəzərdə tutur. İstehsalçı müəssisə bir və ya bir neçə coğrafi rayonda (şəhərdə) fəaliyyət göstərə bilər;

– demoqrafik prinsip üzrə seqmentləşdirmə – bazarın cins, ailənin böyüklüyü, gəlirlilik səviyyəsi, məşğulluq növü, təhsil, dini etiqad, irq və milliyyət kimi demoqrafik dəyişikliklər əsasında qruplara bölüşdürülməsini xarakterizə edir;

– psixoqrafik prinsip üzrə seqmentləşdirmə – zamanı alıcılar ictimai sinfə mənsubluğu, həyat tərzi və s. əlamətlərə görə qruplaşdırılır;

– davranış prinsipi üzrə seqmentləşdirmə – alıcıların mədəni-texniki davranışını nəzərə almaqla qruplaşdırılmasını nəzərdə tutur. Bəzi hallarda bu prinsip bazarın düzgün seqmentləşdirilməsində mühüm rol oynayır.

Bazarı seqmentləşdirdikdən sonra istehsalçı müəssisə neçə seqmenti əhatə etmək və ən əlverişli əmtəələri neçə müəyyənləşdirmək məsələsini həll edir. Bu zaman marketinq tədqiqatçıları bazarı əhatə etməyin üç variantından: fərqləndirilmiş, fərq-

ləndirilməmiş və təmərküzləşdirilmiş marketinq variantlarından istifadə edirlər. Fərqləndirilmiş marketinq bazarın bir neçə seqmentində çıxış etməyi, fərqləndirilməmişdə – istehsalçı müəssisə seqmentlər arasındakı fərqi nəzərə almadan çıxış etməyi və nəhayət, təmərküzləşdirilmiş marketinq isə istehsalçı müəssisələrin səylərinin bazarın böyük bir hissəsində cəmləşdirilməsini nəzərdə tutur. Fərqləndirilməmiş marketinq xidməti marketinq xidmətinin digər variantlarına nisbətən daha qənaətcildir. Çünki bu zaman əmtəənin istehsalı, ehtiyatların saxlanılması, daşınması və reklam xərcləri nisbətən aşağı səviyyədə olur.

Marketin xidməti müəyyən xərc tələb edir, yəni hər bir istehsalçı müəssisə satış bazarları axtarmalı, istehlakçıların ehtiyaclarını müəyyənləşdirməli, rəqabət qabiliyyətli əmtəələri aşkar etməli və onların həcminin artırılmasının zəruriliyi haqqında müəssisə rəhbərliyini vaxtlı-vaxtında məlumatlandırmalıdır. Marketinq xidmətinin əsasında əmtəənin işlənib hazırlanması, elmi tədqiqatlar, əmtəələrin yaradılması və qiymətlərinin müəyyənləşdirilməsi, həmçinin servis xidmətinin inkişaf etdirilməsi kimi fəaliyyət növləri durur.

Beləliklə, marketinq xidməti bazar imkanlarının təhlilindən, məqsədli bazarın seçilməsindən, marketinq kompleksinin işlənib hazırlanmasından və marketinq xidmətinin daha da yaxşılaşdırılması üzrə təşkilati-texniki tədbirlər kompleksinin həyata keçirməkdən ibarətdir. Bu sahədə müəssisənin marketinq şöbəsi mühüm rol oynayır. Bəzi sənaye müəssisələrində marketinq şöbəsi əvəzinə marketinq üzrə mərkəzi marketinq xidməti aparatı yaradılır. Bu mərkəz müəssisənin marketinq xidməti üzrə məqsəd və strategiyasını işləyib hazırlayır (hər bir məhsul növü üzrə).

***Nəqliyyat xidməti*** – zavoddaxili nəqliyyat təsərrüfatı tərəfindən həyata keçirilir. Zavoddaxili nəqliyyat təsərrüfatının əsas vəzifəsi istehsal prosesini müntəzəm surətdə bütün zəruri maddi-enerji və əmək ehtiyatları ilə təmin etməkdən, nəqliyyat vasitələrinə texniki xidmət göstərməkdən, nəqliyyat vasitələrinin saxlanılmasına çəkilən xərcləri minimuma endirməkdən, yüksək səviyyədə xidmət göstərilməsini təmin etməkdən, nəqliyyat vasitələrindən tam istifadəni təmin etmək üçün onları vaxtlı-vaxtında təmir edərək işə hazır vəziyyətdə saxlamaqdan və s. ibarətdir. Adətən, nəqliyyat xidmətinin təşkili aşağıdakı



üç formada həyata keçirilir:

a) müəssisə miqyasında nəqliyyat xidmətinin mərkəzləşdirilmiş forması – ən çox yayılmış formadır. Bu zaman nəqliyyat xidmətinin əksər hissəsi zavoddaxili nəqliyyat təsərrüfatının köməyi ilə yerinə yetirilir;

b) müəssisə miqyasında qeyri-mərkəzləşdirilmiş, lakin sex daxilində mərkəzləşdirilmiş forması – əsasən, sexlərarası yüklərin daşınmasında tətbiq edilir. Bu forma əvvəlki formaya nisbətən az səmərəlidir, çünki bu zaman bütövlükdə müəssisənin sexləri arasında istehsal əlaqəsi zəifləyir;

c) sexdaxili nəqliyyat xidməti – yüklərin sex daxilində paylanmasını həyata keçirir. Bu əməliyyatlar sexin öz işçiləri tərəfindən aparılır və belə bir hal mövcud nəqliyyat vasitələrindən tam istifadə etməyə imkan verir. Odur ki, bu forma məhdudlaşdırılmış şəkildə tətbiq edilir.

İstehsalın təşkili tipindən asılı olaraq nəqliyyat xidmətinin formaları da dəyişilir. Məsələn, fərdi və kiçik seriyalı istehsal şəraitində nəqliyyat xidmətinin iki növündən: çağırışçı və çağırışsız növlərindən istifadə edilir. İri və orta seriyalı istehsal şəraitində nəqliyyat xidməti əvvəlcədən tərtib edilmiş qrafiklər üzrə, ya da günlük tapşırıqlar (sifarişlər) üzrə yerinə yetirilir.

Nəqliyyat xidmətinin təşkili zavoddaxili nəqliyyat təsərrüfatının fəaliyyətinə, deməli, müəssisənin istehsal-təsərrüfat fəaliyyətinə müəyyən təsir göstərir. Odur ki, nəqliyyat xidməti elə təşkil olunmalıdır ki, o, istehsalın səmərəliliyini aşağı salmasın, yəni elə etmək lazımdır ki, nəqliyyat xidmətinin həyata keçirilməsinə çəkilən xərclər minimum həddə və nəqliyyat təsərrüfatında çalışan işçilərin sayı az olsun. Çünki müəssisənin köməkçi və xidmətedici sex və təsərrüfatlarında çalışan işçilərin tərkibində nəqliyyat təsərrüfatında çalışan işçilərin xüsusi çəkisi təqribən 17-20%, nəqliyyat əməliyyatlarının yerinə yetirilməsinə çəkilən xərclər isə məhsulun maya dəyərinin 6-8%-ni təşkil edir.

***Sosial xidmət*** – əmək kollektivlərinin həyat səviyyəsinin və əmək şəraitinin yaxşılaşdırılmasını özündə əhatə edir. Müasir şəraitdə ETT-nin, istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi, əmək kollektivinin fəallığının artması, özünüidarəetmənin demokratikləşdirilməsi əsaslarının inkişafı, əmək kollek-

tivinin sosial inkişafının idarə edilməsi, istehsal prosesinin kompleks mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi müəssisənin bütün işçilərinin mədəni, texniki və iqtisadi bilik səviyyəsinin yüksəldilməsini tələb edir. Odur ki, müəssisənin rəhbərliyi öz işçilərinin hərtərəfli inkişafının qayğısına qalmalı və bunun üçün zəruri tədbirləri həyata keçirməlidir. Çünki müəssisənin əmək kollektivinin texniki-iqtisadi biliklərinin və mədəni səviyyəsinin yüksəldilməsi öz başına məqsəd daşımır. Belə ki, müəssisənin əmək kollektivinin mədəni, texniki və iqtisadi bilik səviyyəsinin yüksəldilməsi müəssisədə və onun ayrı-ayrı struktur bölmələrində həyata keçirilən əmək və texnoloji intizamın pozulması hallarının qarşısını alır, maşın və avadanlıqların tam yüklə işləməsini təmin edir, qeyri-məhsuldar iş vaxtını aradan qaldırır, məhsul vahidinin hazırlanmasına əmək və maddi-enerji sərfini azaldır ki, bütün bunların da əsasında müəssisənin mənfəətliliyi və deməli, istehsalın rentabellik səviyyəsi yüksəlmiş olur. Bu isə o deməkdir ki, müəssisənin əmək kollektivinin sosial inkişafının üzrə tədbirləri həyata keçirmək üçün maliyyə imkanları çoxalır.

Beləliklə, əmək kollektivinin sosial inkişafı dedikdə, ictimai münasibətlərin və onlara müvafiq təşkilati formaların dəyişdirilməsi prosesi başa düşülür. Müəssisə miqyasında sosial xidmətin əsas vəzifəsi əmək kollektivinin həyat şəraitini yüksəltməkdən, istehsal (əmək) şəraitini yaxşılaşdırmaqdan, təhlükəsiz iş şəraitini yaratmaqdan, ictimai münasibətlərin bütün sahələrində sosial ədalət prinsiplərini həyata keçirməkdən və s. ibarətdir. Bunun üçün çalışmaq lazımdır ki, hər bir əmək kollektivində əmək mənalı təşkil edilmiş olsun, əməkçi kollektivin sosial quruluşu daima təkmilləşdirilsin, bütün işçilərin ictimai fəallığı artırılsın, onların mədəni-məişət və yaşayış şəraiti yaxşılaşdırılsın. Bu baxımdan sosial xidmətin rolu əvəzsizdir.

***Təchizat xidməti*** – maddi istehsal sahələrinin maddi-enerji resursları ilə «qidalandırılmasında» mühüm yer tutur. Çünki o, təchizat planı ilə istehsal proqramını uzlaşdırır, istehsalı istehsal-texniki təyinatlı məhsullarla təmin edir. Müəssisənin təchizat xidməti dedikdə, onun struktur bölmələrinin materiallarla təchizatının təşkili və həyata keçirilməsi prosesi nəzərdə tutulur. Təchizat xidmətinə istehsalın həcmindən və xarakterindən



asılı olaraq müəssisənin maddi-texniki təchizat şöbəsi, qara metal və metal məhsulları təchizatı şöbəsi, komplektləşdirmə və avadanlıq şöbəsi daxildir.

Müəssisə miqyasında təchizat xidmətinin əsas funksiyalarından biri iş yerlərini alət və tərtibatlarla səmərəli təchiz etməkdən ibarətdir. İş yerlərinin alət və tərtibatlarla təchiz edilməsinin məqsədi növbə ərzində istehsal prosesinin fasiləsizliyini təmin etməkdən ibarətdir. Adətən, iş yerlərinə xidmət üç formada: mərkəzləşdirilmiş, qeyri-mərkəzləşdirilmiş və qarışıq formalarda həyata keçirilir. İş yerlərinə xidmətin mərkəzləşdirilmiş formasında xidmət üzrə bütün funksiyaları köməkçi və xidmətedici təsərrüfatlar, qeyri-mərkəzləşdirilmiş formada – fəhlənin özü, qarışıq formada isə – həm sex və təsərrüfatlar, həm də fəhlənin özü tərəfindən yerinə yetirilir. Bütün hallarda iş yerlərinə xidmət planlı xarakter daşımalı, qənaətcil olmalı, fəal-xəbərdaredici rola malik olmalı və kompleks xarakter daşımalıdır.

***Dispetçer xidməti*** – istehsal prosesinin operativ tənzimlənməsində və iş yerlərinə xidmət göstərilməsində mühüm əhəmiyyət kəsb edir. Dispetçer xidmətinin ən sadə forması XVIII-XIX əsrlərdə kustar və yarımkustar istehsaldan fabrik-zavod istehsalına keçidlə əlaqədar yaranmışdır. Onun ilk funksiyası iş qüvvəsini, xammal və materialları paylaşdırmaq və hazır məhsulları qeydə almaq olmuşdur. İri seriyalı və kütləvi istehsal şəraitinin inkişafı, əlaqədar müəssisələr arasında istehsal münasibətlərinin əmələ gəlməsi, həmçinin iri sənaye və energetika sistemlərinin yaranması və nəqliyyatın sürətlə təkmilləşdirilməsi ilə əlaqədar olaraq dispetçer xidməti öz yerini mükəmməl idarəetmə metodlarına və ən yeni rabitə, avtomatika, sənaye televiziyası, telemexanika və hesablama texnikası vasitələri ilə təchiz edilmiş nəzarətə əsaslanan müasir dispetçerləşdirməyəverdi.

İstehsalın xarakterindən asılı olaraq dispetçer xidmətinin qarşısında müxtəlif vəzifələr qoyulur. Məsələn, enerji üzrə dispetçer xidməti elektrik stansiyalarının, yardımçı stansiyaların, elektrik ötürmə xətlərinin və iri istehlak qurğularının ayrılıqda operativ idarə olunmasını həyata keçirir. Dispetçer xidməti enerji sisteminin etibarlı və fasiləsiz işini, elektrik enerjisinin qrafikə uyğun paylanmasını, enerji sistemi parametrlərinin lazımi həd-

də saxlanılmasını və s. təmin etməlidir. Böyük enerji sistemlərinin dispetçer məntəqəsi, bir qayda olaraq, idarəedici elektron maşınları ilə təchiz olunur.

Dispetçer xidmətinin işində operativlik, xeyli dərəcədə, onun texniki rabitə vasitələri ilə və istehsalın gedişi üzərində nəzarət vasitələri ilə təchiz edilməsi miqyasından asılıdır. Ən sadə və geniş yayılmış rabitə vasitəsi telefon rabitəsidir. Bu rabitə vasitəsi, eyni vaxtda bir neçə abonentlə danışmağa imkan verən dispetçer kommutatorunun yardımı ilə həyata keçirilir. Dispetçer, uzaq məsafədə yerləşmiş sexlərlə və müəssisənin digər bölmələri ilə teletayp və radio vasitəsilə də əlaqə saxlaya bilər.

Rabitə vasitələrindən başqa dispetçer xidməti, çağırma (səs və yaxud işıq) siqnalizasiyası – işarəsi vasitələri ilə də təchiz edilir ki, bu da lazım olan işçini tez tapmağa imkan verir. Özü də siqnallaşdırma fərdi (bu zaman siqnal qurğuları hər bir iş yerində qurulur) və qrupla (bu zaman siqnal qurğuları sex və istehsal sahələrində quraşdırılır və bir çox iş yerinə xidmət edir) ola bilər. Təsir obyektinə görə siqnallaşdırma müstəqim (birbaşa) və qeyri-müstəqim (dolayı) ola bilər.

Dispetçer xidmətinin sərəncamına, həmçinin televiziya qurğuları, kompüter və s. müasir texniki vasitələri də verilə bilər ki, bunların da köməyi ilə dispetçer, işin icra olunduğu yerdə onu müşahidə edə bilir. Dispetçer xidmətinin keyfiyyətini yüksəltmək üçün istehsalın gedişi üzərində uzaq məsafədən nəzarət və uçot vasitələrinin əhəmiyyəti böyükdür. Belə vasitələrə, işin gedişini bilavasitə iş yerindən dispetçer məntəqəsinə verən müxtəlif hesablayıcı və qeydəalıcı cihazlar aid edilir.

Müəssisələrin əksəriyyətində dispetçer xidməti üç pilləli quruluşa malikdir: istehsal-dispetçer şöbəsi, plan-dispetçer bürosu və sahənin dispetçeri. Adətən, istehsala operativ nəzarət dispetçer məntəqəsindən (otağından) həyata keçirilir.

***Anbar xidməti*** – müəssisənin anbar təsərrüfatı tərəfindən həyata keçirilir. Belə ki, anbar təsərrüfatı hazır və istehsal-texniki təyinatlı məhsulların qəbulu, yerləşdirilməsi, saxlanılması və buraxılışı üzrə nəzərdə tutulmuş xidmətləri yerinə yetirir. Deməli, müəssisə miqyasında sexlərin, istehsal sahələrinin və ayrı-ayrı iş yerlərinin material resursları ilə birqərarda və mütəşəkkil «qidalanması» işində anbar təsərrüfatı mühüm rol



oynayır. Anbar xidmətinin səmərəliliyi – onun ixtisaslaşdırılmasından, mütərəqqi xidmət növlərinin tətbiqindən, xidmət əməliyyatlarının mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsindən asılıdır. Elmi-texniki tərəqqinin təsiri altında anbar xidmətinin keyfiyyəti daima yaxşılaşır və təkmilləşir.

***İnformasiya xidməti*** – bazar iqtisadiyyatı şəraitində mühüm əhəmiyyət kəsb edir. Adətən, informasiyanın iki növünü: müəssisədaxili və müəssisəxarici informasiya növlərini fərqləndirirlər. Müəssisədaxili informasiya sistemi özündə satışın həcmini, xərclərin məbləğini, material ehtiyatlarının miqdarını, pul vəsaitlərinin hərəkətinin cari göstəricilərini, debitor və kreditor borcları haqqında məlumatları əks etdirir. Müəssisəxarici informasiya sistemi isə mənbələr və metodoloji üsullar dəstidir ki, bunların vasitəsi ilə müəssisə rəhbərləri kommersiya mühitində baş verən hadisələr haqqında gündəlik məlumatlar alırlar. Adətən, rəhbərlər xarici informasiyaları – kitabları, qəzetləri, ixtisaslaşdırılmış nəşrləri oxumaqla, müştərilər, mal göndərənlər, distributorlar və müəssisənin ştatına daxil edilməyən digər şəxslərlə söhbət etməklə, həmçinin, müəssisənin özünün başqa müdirləri və əməkdaşları ilə məlumat mübadiləsi vasitəsi ilə toplayırlar.

Müəssisədaxili informasiyalar istehsalın idarə edilməsinin ayrılmaz bir hissəsi olub, idarəetmə prosesinin həyata keçirilməsi vasitələrindən biridir, yəni hər bir müəssisədə idarəetmə prosesi, idarəedici təsir yalnız idarəetmə informasiyalar vasitəsilə həyata keçirilir, onların köməyi ilə idarəetmə obyektinin müəyyən optimal təsərrüfatçılıq fəaliyyətini konkret səmtə istiqamətləndirmək mümkün olur. Digər tərəfdən, idarəetmə obyektindən idarəolunan subyektə həmin obyektin təsərrüfat obyekti haqqında müəyyən məlumatlar verilir. Bütün bunlar müvafiq idarəetmə qərarlarının işlənib hazırlanması üçün əsas təşkil edir. Ona görə də hər bir informasiya obyektiv şəraiti, reallığı düzgün əks etdirməlidir, əks təqdirdə qəbul edilmiş təsərrüfat qərarları təhrifedici xarakter daşımalı olacaqdır. Bu baxımdan informasiyalar aşağıdakı tələblərə cavab verməlidir:

a) informasiyalar həqiqi olmalıdır və onlar kiminsə xeyrinə-ziyanına «prinsipi» üzrə tətbiq edilməməlidir;

b) informasiyalar konkret faktlara əsaslanmalıdır və faktlar isə həqiqi rəqəmlərlə təsdiq olunmalıdır;

c) informasiyalar müəyyən edilmiş qaydada toplanmalı, işlənməli və lazımi orqanlara verilməlidir, ötürülməlidir.

İstehsalın konkret şəraitindən asılı olaraq informasiyalar da müxtəlif olur. Bu isə onların toplanmasını, işlənməsini və ötürülməsini müəyyən qədər çətinləşdirir. Belə bir halın qarşısını almaq üçün informasiyaları təsnifləşdirmək lazım gəlir. Adətən, sənaye müəssisələrində informasiyalar aşağıdakı əlamətlərə görə təsnifləşdirilir:

– *təyinatına görə* – bütün müəssisədaxili informasiyalar iki əsas qrupa: idarəolunan obyekt haqqında informasiyalara və idarəedən obyektə təsir edilməsinin yaradılması ilə əlaqədar olan informasiyalara ayrılır;

– *daxilolma xarakterinə görə* – informasiyalar sistemləşdirilmiş və qeyri-sistemləşdirilmiş informasiyalara ayrılır;

– *daxilolma mənbələrinə görə* – yerli (məsələn, müəssisəyə, sexlərə, istehsal sahələrinə və s. aid olan), direktiv (məsələn, qanunvericilik və müxtəlif hüquqi informasiyalar), elmi-texniki, iqtisadi və xəbərdaredici (məsələn, istehsalın gedişatı haqqında operativ, ilkin məlumatlar) informasiyalara ayrılır;

– *funksiyalarına görə* – texnoloji, istehsal, texniki, iqtisadi, sosial və təşkilati informasiyaları fərqləndirirlər;

– *idarəçilik səviyyəsinə görə* – informasiyalar bütövlükdə müəssisə və onun bölmələri üzrə olan informasiyalara ayrılır;

– *fəaliyyətgöstərmə müddətlərinə görə* – daimi, şərti-daimi və dəyişən informasiyalar fərqləndirilir.

***Təmir xidməti*** – müəssisənin təmir təsərrüfatı tərəfindən həyata keçirilir. İstehsala texniki xidmət göstərilməsində, mövcud maşın və avadanlıqlardan tam istifadə olunmasında, müəssisənin əsas istehsal bölmələrinin fasiləsiz işləməsində və onların məhsul buraxma qabiliyyətinin artırılmasında təmir xidmətinin düzgün təşkili mühüm rol oynayır. Bu onunla izah edilir ki, maşın və avadanlıqlar istehsal prosesində iştirak etdikcə fiziki cəhətdən köhnəlir, məhsuldarlığını, sürətini, dəqiqliyini itirir və beləliklə də onlar vaxtından tez sıradan çıxmış olurlar. Məhz buna görədir ki, təmir xidməti belə halların qarşısını alır və avadanlıqları işə daima hazır vəziyyətdə saxlamağa imkan verir.

***Təmir xidmətinin əsas vəzifəsi*** – əsas fondların, ilk növbədə isə maşın və avadanlıqların vaxtından tez köhnəlməsinin,



dəməli sıradan çıxmasının qarşısını almaqdan, onların vəziyyətini müşahidə etməkdən, təmir və modernləşdirmə işlərini həyata keçirməkdən, təmir xidmətinin keyfiyyətini yaxşılaşdırmaq məqsədilə zəruri təşkilati-texniki tədbirləri işləyib hazırlamaqdan ibarətdir.

Elmi-texniki tərəqqi sürətləndikcə istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi yüksəlir, daha mütərəqqi avadanlıqlar istehsalata tətbiq edilir ki, bu da təmir xidmətinin təşkilinə olan tələbatı artırır. Təcrübə göstərir ki, hər il maşınqayırma zavodlarında texnoloji avadanlıqların təqribən 10-12%-i əsaslı, 20-25%-i orta və 65-70%-i isə cari təmirlərə məruz qalır.

Sənaye müəssisələrində təmir xidməti, əsasən, üç formada: mərkəzləşdirilmiş, qeyri-mərkəzləşdirilmiş və qarışıq formalarda həyata keçirilir. Birinci forma iri həcmli təmir xidmətinin göstərilməsində tətbiq edilir. Bunun üçün sənaye müəssisələrində xüsusi təmir xidməti bölmələri: təmir-texniki, elektrotəmir, təmir-quraşdırma və təmir emalatxanaları yaradılır; ikinci formada nisbətən kiçik həcmli təmir xidməti göstərilir və belə bir təmir xidməti, adətən, müəssisənin sex və istehsal sahələrində yaradılmış təmirçi bürolar və ya qruplar tərəfindən aparılır; üçüncü formada isə fərdi və kiçik seriyalı istehsal şəraitində daha çox tətbiq edilir. Bu zaman həyata keçirilək təmir xidmətinin bir qismi müəssisənin təmir strukturları tərəfindən, məsələn, təmir sexi tərəfindən, digər qismi isə sex və istehsal sahələrində yaradılmış təmirçi bürolar (qruplar) tərəfindən aparılır. Təmir xidmətinin mərkəzləşdirilmiş formada həyata keçirilməsi digər formalara nisbətən daha əlverişlidir. Çünki bu zaman təmir xidmətinin yerinə yetirilməsinə çəkilən xərcləri müəyyən qədər azaltmaq mümkün olur və təmir xidmətinin keyfiyyəti yüksəlir, təmir xidməti ilə əlaqədar işləri mexanikləşdirmək və avtomatlaşdırmaq üçün şərait yaranır ki, bütün bunların da əsasında təmir xidməti tsiklini qısaltmaq mümkün olur.

Sənaye müəssisələrində, qeyd etdiyimiz kimi, maddi istehsal sahələrindən başqa, sosial sahələrdə də xidmətlər göstərilir. Özü də belə xidmətlər pullu və pulsuz olur. Pullu xidmətlər əmək kollektivlərinin öz vəsaitləri hesabına, pulsuz xidmətlər isə müəssisənin əldə etdiyi mənfəət hesabına ödənilir. 2002-ci

ildə əhaliyə 2659 mlrd. manatlıq və ya əvvəlki ilə nisbətən 7,1% çox pullu xidmət göstərilmişdir. Artımın beşdə dörd hissəsindən bir qədər çoxu (86,5%-i) hüquqi şəxslər tərəfindən təmin olunmuşdur.

## 12.3. Sahədə infrastrukturun təşkili prinsipləri və ona edilən əsas tələblər

Sahə miqyasında istehsala texniki xidmətin təşkilində əsas məqsəd ayrı-ayrı iş yerlərində çalışan işçilərə əlverişli əmək şəraitini yaratmaqdan, əmək mühafizəsi və təhlükəsizlik texnikasını təmin etməkdən ibarətdir. Təcrübə göstərir ki, istehsala xidmətin düzgün təşkil edilməsi xidmət sahəsində çalışan işçilərin əmək məhsuldarlığının yüksəldilməsinə, istehsal-texniki təyinatlı məhsullardan qənaətlə istifadə olunmasına, maşın və avadanlıqlardan istifadənin yaxşılaşdırılmasına, iş vaxtının növbədaxili itkilərinin minimuma endirilməsinə, bəzi hallarda isə onların tamamilə aradan qaldırılmasına imkan verir.

Beləliklə, müəssisə miqyasında istehsala xidmətin təşkili dedikdə, ayrı-ayrı iş yerlərinin təchizat sistemi nəzərdə tutulur. Çünki maddi nemətlər hazırlanması və xidmətlərin göstərilməsi konkret iş yerlərində həyata keçirilir. Bu baxımdan, istehsala xidmətin təşkilinin əsas vəzifəsi – istehsal prosesində mümkün fasilələrin və avadanlıqların işindəki qüsurların, çatışmazlıqların vaxtında qarşısını almaqdan ibarətdir. Odur ki, istehsala xidmət sisteminin yaxşı təşkil edilməsi istehsal prosesinin normal gedişatına maneçilik törədən bu və ya digər hadisələrin aradan qaldırılması üçün böyük əhəmiyyət kəsb edir. Belə fəal xidmətin təmin olunması yüksək dərəcədə kompleks mexanikləşdirilmiş və avtomatlaşdırılmış istehsal şəraitində xüsusilə zəruridir. Adətən, müəssisə miqyasında iş yerinə (istehsala) xidmət ya işçinin özü tərəfindən, yaxud xüsusi təşkil edilmiş xidmətedici briqada tərəfindən həyata keçirilir. Əgər iş yerinə xidmət istehsal prosesini (əməliyyatı, işi) yerinə yetirən işçi tərəfindən həyata keçirilərsə, onda həmin işçinin əsas vəzifələri aşağıdakılardan ibarətdir:

***a) işə başlamazdan əvvəl*** – avadanlığın sazlığını, yəni işə hazır vəziyyətdə olmasını yoxlamaq və onu işə hazır vəziyyətə gətirmək, verilən tapşırıqla (sifarişlə) tanış olmaq və onun yerinə yetirilməsi üçün lazım olan bütün istehsal-texniki təyinatlı məhsulların olub-olmamasını nəzərdən keçirmək, bu və ya digər çatışmazlıqlar haqqında sex və istehsal rəisini, yaxud xüsusi yaradılmış xidmətedici briqadanı xəbərdarlıq etmək;

***b) iş prosesi dövründə*** – iş yerini səliqəli və təmiz saxlamaq, avadanlığın saz olmasını müşahidə etmək və onu daima işə hazır vəziyyətdə saxlamaq üçün baş vermiş kiçik qüsurları aradan qaldırmaq, əgər işçinin özü avadanlıqdakı qüsurları aradan qaldıra bilməzsə, onda xidmətedici briqadanı xəbərdar etmək;

***c) işi başa çatdırdıqdan sonra*** – istifadə etdiyi alətləri və digər texniki vasitələri yığışdırıb xüsusi yerlərə (məsələn, şkaflara) qoymaq, yaxud baş ustaya təhvil vermək, dəzgahı və köməkçi qurğuları təmizləmək, iş yerini onu əvəz edəcək işçiyə təhvil vermək.

Əgər iş yerinə xidmət xüsusi yaradılmış xidmətedici briqada tərəfindən yerinə yetirilərsə, onda həmin briqadanın əsas vəzifəsi istehsal prosesini həyata keçirən işçiləri lazımi texniki sənədlərlə və təlimatlarla təchiz etməkdən, iş yerlərini zəruri istehsal-texniki təyinatlı məhsullarla təmin etməkdən, iş yerlərini hazırlanmış məmulatlardan və tör-töküntülərdən təmizləməkdən, iş yerlərində istehsal vasitələrindən düzgün istifadə edildiyini yoxlamaqdan və avadanlığı daima işə hazır vəziyyətdə saxlamaqdan, onu silib-təmizləməkdən ibarətdir.

İstehsala (iş yerinə) xidmətin səmərəli təşkili onun xəbərdaredici xarakterdə olmasını nəzərdə tutur. Bu o deməkdir ki, istehsal prosesini həyata keçirmək üçün zəruri olan bütün istehsal-texniki təyinatlı məhsullar, texniki və uçot sənədləri işin əvvəlində iş yerlərində olmalıdır. Belə bir xidmət sisteminin təşkili növbədaxili iş vaxtı itkilərini aradan qaldırmağa və avadanlıqların boş dayanma hallarını aradan qaldırmağa imkan verir.

Məlumat üçün qeyd edək ki, istehsalın təşkili tipindən asılı olaraq iş yerlərinə xidmətin xarakteri də dəyişilir. Məsələn, kütləvi istehsal şəraitində xidmət sistemi qəti nizamlanan cədvəl-qrafik əsasında həyata keçirilməsi daha məqsədəuyğundur. Xidmətin bu sisteminin tətbiqi nəinki onun dəqiqliyini artırır, eyni zamanda xidmətedici sahələrdə çalışan işçilərin nizam-intizamlı olmasını tələb edir.

Seriyalı istehsal şəraitində iş yerlərinə xidmət, adətən, istehsalın təqvim tapşırığı əsasında təşkil edilir ki, bu da vaxt vahidi ərzində istehsal olunan məhsulların miqdarının artmasına imkan verir.

Fərdi istehsal şəraitində iş yerlərinə xidmət olunması növbə-günlük tapşırıqlar əsasında həyata keçirilir. Bu tapşırıqlar iş vaxtından dolğun istifadə etmək və əmək məhsuldarlığını artırmaq üçün şərait yaratmalıdır. Buna görə də, hər bir iş yeri üzrə növbə-günlük tapşırıqlar, hər bir işçi tərəfindən istehsal normasının yerinə yetirilməsi səviyyəsini nəzərə almaqla tam iş günü üçün tərtib olunur və bu tapşırığa yalnız elə işlər daxil edilir ki, bunların yerinə yetirilməsi üçün iş yerləri bütün lazım olan istehsal-texniki təyinatlı məhsullarla təmin olunmuşdur.

İş yerlərinə xidmətin təşkilində istehsal prosesini yerinə yetirən işçi ilə xidmətedici heyət arasında düzgün nisbətin təmin olunması mühüm əhəmiyyət kəsb edir. Bu nisbət iş yerinin təyinatından, yerinə yetiriləcək işin xarakterindən və mürəkkəblik dərəcəsindən, istehsal sahəsində və xidmətedici sahələrdə çalışan işçilərin peşəkarlığından (ustalığından, bacarığından) asılı olaraq müəyyən edilir. Belə bir nisbətin düzgün yaradılmasında məqsəd əsas fəhlələrin yüksək məhsuldar əməyini təmin etməkdən ibarətdir. İş yerlərinə xidmət elə təşkil olunmalıdır ki, istehsal prosesi zamanı nə əsas fəhlə, nə də texnoloji avadanlıq maddi-enerji və əmək resurslarının olmaması üzündən boş dayanmasın.

Müəssisə miqyasında istehsala xidmət, adətən, iki formada: mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş formalarda həyata keçirilir. Birinci halda istehsala xidmətin bütün funksiyaları müəssisənin köməkçi və xidmətedici sex və təsərrüfatları tərəfindən, ikinci halda isə – istehsal prosesini həyata keçirən işçi (fəhlə) tərəfindən yerinə yetirilir. Bundan başqa, bəzi müəssisələrdə istehsala xidmətin qarışıq formasından da istifadə edilir, yəni xidmət funksiyalarının bir qismi mərkəzləşdirilmiş qaydada, digər hissəsi isə qeyri-mərkəzləşdirilmiş formada həyata keçirilir.

İstehsala xidməti yüksək səviyyədə həyata keçirmək üçün onlar müəyyən tələblərə, prinsiplərə əsaslanmalıdır. Adətən, müəssisələrdə istehsala xidmətin təşkili aşağıdakı prinsiplər əsasında həyata keçirilir:



***a) xidmət prosesi planlı xarakter daşımalıdır.*** Bu o deməkdir ki, istehsala xidmət əvvəlcədən işlənib hazırlanmış plan-qrafiklər əsasında həyata keçirilməlidir. Bu plan-qrafiklər tərtib edilərkən növbələrarası və növbədaxili fasilələr nəzərə alınmalıdır;

***b) xidmət fəal-xəbərdaredici xarakterə malik olmalıdır,*** yəni texniki xidmət işləri profilaktik xarakter daşımalıdır. Bu növ xidmət sisteminə avadanlığı texniki xidmət göstərilməsi və onun təmiri üzrə tədbirlərin planlaşdırılması, hazırlanması, reallaşdırılması və uçota alınması daxildir. Planlı-xəbərdarlıq xidməti avadanlığın iş qabiliyyətinin saxlanılmasına və sıradan çıxmasının qarşısının alınmasına, kortəbii təmir işlərinin aradan qaldırılmasına kömək edir, müəssisənin təmir xidməti bölməsinin planauyğun işləməsini, zəruri əmək və maddi ehtiyatların vaxtında hazırlanmasını təmin edir;

***c) xidmət kompleks xarakterli olmalıdır,*** yəni xidmət işləri eyni vaxtda, paralel surətdə bütün sahələrdə yerinə yetirilməlidir. Belə bir hal xidmət işlərinin yerinə yetirilməsini sürətləndirir və xidmət prosesinin tsiklini qısaldır;

***ç) xidmətin keyfiyyətliliyi prinsipi*** – istehsalın ahəngdarlığının və birqərarlığının təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. İstehsalın ahəngdarlığı dedikdə, dövrlər (ay, ongünlük, gün, saat) üzrə bərabər, yaxud artan ölçüdə (əgər bu planda nəzərdə tutulmuşdursa) məhsul buraxılışı başa düşülür. Bazar iqtisadiyyatına keçid şəraitində, istehsalın ahəngdarlığının əhəmiyyəti kəskin surətdə artır. Ayrı-ayrı istehsal sahələrində məhsul buraxılışı ahəngdarlığının nisbətən az olması, müəssisənin digər struktur bölmələrində qeyri-mütənasibliyə və ahəngdarlığın pozulmasına gətirib çıxara bilər. İstehsalın qeyri-ahəngdarlığı istehsal güclərindən, maddi və əmək ehtiyatlarından istifadəni pisləşdirir, xidmətin keyfiyyətinə mənfi təsir göstərir;

***d) xidmətin qənaətliliyi prinsipi*** – xidmətedici heyətin optimal sayda olmasını nəzərdə tutur. Bu o deməkdir ki, xidmət işlərinin yerinə yetirilməsi ilə məşğul olan işçilərin sayı elə olmalıdır ki, onlar istehsala xidmətdə iş vaxtına qənaəti təmin etmiş olsun. Bundan başqa, xidmətin qənaətliliyi xidmət işlərinin yerinə yetirilməsi ilə əlaqədar olan maddi-enerji və maliyyə resurslarının qənaətlə işlədilməsi yolu ilə təmin olunmalıdır;

***e) xidmətin elmliliyi prinsipi*** – yəni xidmət mütərəqqi nor-

ma və normativlərə əsaslanmalıdır. Bu o deməkdir ki, xidmət işləri elmi-texniki tərəqqinin nailiyyətlərini və qabaqcıl istehsal təcrübəsini özündə əks etdirməlidir. Xidmətin elmi səviyyəsinin yüksəldilməsi, onun mütərəqqi infrastrukturunun formalaşmasına, istehsalın intensivləşdirilməsinə, müəssisənin mövcud istehsal və elmi-texniki potensialından səmərəli istifadə olunmasına təsirinin gücləndirilməsi nəzərdə tutulur.

Müəssisədə istehsala xidmətin istehsal hazırlığı, nəqliyyat, alət, sazlama-nizamlama, təmir, enerji, nəzarət, anbar, tikinti-təmir, təsərrüfat və təlimatlandırma funksiyalarını fərqləndirirlər. Biz, əvvəllərdə nəqliyyat, alət, təmir, nəzarət və anbar xidmətlərinin mahiyyətindən və onların əhəmiyyətindən bəhs etmişdik. İndi isə xidmətin istehsal hazırlığı, sazlama-nizamlama, energetika, tikinti-təmir, təsərrüfat və təlimatlandırma funksiyalarının hər birini qısa xarakterizə edək.

***İstehsal hazırlığı funksiyası*** – bütövlükdə müəssisənin və onun ayrı-ayrı struktur bölmələrinin birqərarda və ahəngdar işləməsinin təmin olunmasında mühüm əhəmiyyət kəsb edir. İstehsal hazırlığı ilə əlaqədar olan xidmət funksiyası sexin istehsal-dispetçer bürosu tərəfindən həyata keçirilir. Yeni məmulatlar buraxılışının layihələşdirilməsi və mənimsənilməsi mərhələsini əhatə edən texniki istehsal hazırlığı ilə texnoloji prosesin normal gedişini təmin edən təşkilati istehsal hazırlığı fərqləndirilir. Texniki istehsal hazırlığı texnoloji prosesin işlənməsini, texnoloji prosesləri təmin etmək üçün lazımi avadanlığın, qurğuların, xüsusi alətlərin layihələşdirilməsini, istehsal gücünün hesablanmasını, normativ sənədlərin hazırlanmasını və s. nəzərdə tutur. Təşkilati istehsal hazırlığı isə istehsal proqramının yerinə yetirilməsi prosesində müvafiq xidmətlərin fəaliyyətinin əlaqələndirilməsini nəzərdə tutur. Təşkilati istehsal hazırlığına sənədlərin icradan keçir müddətlərinin və marşrutlarının qaydaya salınması, sənəd dövriyyəsinin, maddi-texniki təchizatın təşkili daxildir. İstehsal hazırlığı işlərinə texniki sənədlərin və məhsul nümunələrinin yaradılması mərhələsində başlanılır. İstehsal hazırlığının kompleks vəzifələrinin texniki cəhətdən düzgün yerinə yetirilməsi yeni texnikanın yaradılması üzrə işlərə çəkilən xərclərin azaldılmasına və həyata keçirilmə müddətinin qısaldılmasına və onun səmərəliliyinin artırılmasına imkan



verir. Bazar iqtisadiyyatı şəraitində istehsal hazırlığına çəkilən xərclər müəssisənin mənfəəti hesabına ödənilir.

***Sazlama-nizamlama xidmət funksiyası*** – müəssisədə, əsasən, iki formada: mərkəzləşdirilmiş və qeyri-mərkəzləşdirilmiş formalarda həyata keçirilir. Əgər sazlama-nizamlama xidmət mərkəzləşdirilmiş formada həyata keçirilirsə, onda xidmət işləri xüsusi sazlayıcılar-nizamlayıcılar tərəfindən; yox, əgər qeyri-mərkəzləşdirilmiş formada yerinə yetirilirsə, istehsal prosesini (işi, əməliyyatı) yerinə yetirən fəhlə tərəfindən həyata keçirilir.

***Energetika funksiyası*** – üzrə xidmət müəssisənin energetika təsərrüfatı, daha doğrusu, müəssisənin enerji sexi tərəfindən həyata keçirilir. Xidmətin bu növündə energetika avadanlığının təmiri ilə əlaqədar işlər, enerji növlərinin müəyyən edilməsi və onların istehlakçılar arasında bölüşdürülməsi prosesi həyata keçirilir. Xidmətin energetika funksiyasının əsas məqsədi enerji daşıyıcılarına qənaəti təmin etməkdən ibarətdir, çünki hazırda məhsulun maya dəyərinin tərkibində enerji daşıyıcılarının xüsusi çəkisi əksəriyyət təşkil edir.

***Tikinti-təmir funksiyası*** – istehsalat binalarının işçi vəziyyətində saxlanılması və onların təmiri ilə əlaqədar olan xidmətlərin yerinə yetirilməsini nəzərdə tutur. Göstərilən xidmətlər mərkəzləşdirilmiş qaydada ya sex xidmətediciləri, ya da ümumi zavod xidmətçiləri tərəfindən təqvim qrafikinə uyğun olaraq həyata keçirilir. Lakin elə etmək lazımdır ki, tikinti-təmir xidmətini həyata keçirərkən istehsal prosesinin normal gedişatı pozulmasın.

***Təsərrüfat funksiyası*** – özündə iş yerlərində təmizliyin təmin olunması, su təchizatı, işçilərin xüsusi keyimlə təminatını, onların yuyulması, təmizlənməsi və təmir edilməsi, işçiləri duşla, soyunub-geyinmə otaqları ilə, gigiyena əşyaları ilə, ilk tibbi yardım üçün apteklə, radio ilə və s. digər xidmət növlərini əhatə edir. Bu növ xidmətlər ya sex rəisinin, ya da baş ustanın rəhbərliyi altında kiçik xidmətedici heyət tərəfindən həyata keçirilir.

***Təlimatlandırma funksiyası*** – fəhlələrin texnoloji prosesləri və xidmətləri, onların aparılması rejimini və avadanlıqlara xidmət olunmasını, texniki təhlükəsizlik qaydalarını və digər istehsal şəraitini mənimsəmək üçün onların təlimatlandırılmasının həyata keçirilməsini nəzərdə tutur. Fəhlələrin necə işləmə-

si, istehsalat tapşırıqlarını necə yerinə yetirməsi haqqında təlimatlandırılması baş ustaların, briqadirlərin, növbətçi-mühəndislərin bilavasitə vəzifəsidir. Özü də təlimatlandırma xidməti yazılı və şifahi formada həyata keçirilə bilər.

### 12.4. «Səngəçal» terminalı – onun xam neftin dünya bazarlarına çıxarılmasında rolu

İnfrastruktur anlayışı, öz hərfi mənasına görə iqtisadi sistemin əsası, onun daxili strukturu kimi başa düşülür. İlk dəfə bu ifadə iqtisadi təhlildən XX əsrin əvvəllərində silahlı qüvvələrin həyat fəaliyyətini təmin edən obyekt və tikililəri ifadə etmək üçün işlədilmişdir. Müasir iqtisadi inkişaf baxımından infrastruktur anlayışı dərin məzmuna malikdir. Ən ümumi mənada infrastruktur dedikdə, həm bütövlükdə iqtisadiyyatın, həm də onun ayrı-ayrı bölmələrinin normal fəaliyyəti üçün əlverişli şərait yaradan və bu məqsədə xidmət edən sahələrin məcmusu nəzərdə tutulur.

İnfrastrukturun əsas cəhətlərindən biri onun fərdi deyil, kollektiv və ictimai tələbatların ödənilməsinə xidmət etməsidir. Bundan başqa, iqtisadiyyatın infrastrukturu həm də ictimai təkrar istehsalın bütün fazaları: istehsal, bölgü, mübadilə və istehlak arasında qarşılıqlı əlaqələrin formalaşmasına yönəldilmişdir.

Makroiqtisadi səviyyədə istehsal və sosial infrastrukturlar fərqləndirilir. İstehsal infrastrukturuna ölkənin maddi istehsalı ilə bilavasitə əlaqədar olan sahələr, məsələn, bütün nəqliyyat növləri və bütövlükdə nəqliyyat təsərrüfatı (dəmiryol stansiyaları, dəniz və çay portları, doklar, depo, neft və qaz kəmərlərinin fasiləsiz işini təmin edən obyektlər və qurğular), müxtəlif miqyaslı enerji sistemlərini əmələ gətirən elektrik xətləri, məlumatların verilməsi və işlənməsinin qarşılıqlı təsir vasitələrinin məcmusu, təbii ehtiyatlardan səmərəli istifadəni təmin edən obyektlər və maddi nemətlər istehsalında bilavasitə istifadə edilməyən, lakin istehsalın normal davam etməsi üçün zəruri olan sistemlər və qurğular daxildir. İstehsal infrastrukturunun qurğuları və obyektləri, iqtisadiyyatda onların bolluğu xeyli dərəcədə bütövlükdə maddi istehsalın səmərəliliyini müəyyənləşdirir. İstehsal infrastrukturunun inkişafı istehsalın daha da



intensivləşdirilməsinin, cəmiyyətin artan maddi və mədəni tələbatının ödənilməsi və insan amilinin formalaşması ilə bağlı olan sosial məsələlərin həllinin zəruri şərtidir.

Sosial-məişət infrastrukturu ticarət sahələrini, səhiyyəni, sərnişin nəqliyyatının və rabitənin bütün növlərini, şəhər kommunikasiya qurğularını, mehmanxana təsərrüfatını, ictimai iaşəni və qeyri-istehsal sahələrinin digər bölmələrini özündə birləşdirir. ***Qeyri-istehsal sahəsi*** – əhaliyə və maddi istehsal sahələrinə xidmət göstərən, bu xidmətləri idarə edən sahələrin və fəaliyyət növlərinin məcmusudur. İqtisadiyyatın sosial inkişaf istiqamətinin gücləndirildiyi şəraitdə ictimai tələbatın ödənilməsində qeyri-istehsal sahəsinin rolu xeyli yüksəlir. İctimai istehsalın inkişafı xeyli dərəcədə iqtisadiyyatın, elm və mədəniyyətin təşkili və idarə edilməsindən asılıdır. Həm əhalinin tələbatının ödənilməsi üçün və həm də maddi istehsalın inkişafı üçün mənzil-kommunal təsərrüfatının, səhiyyənin, maarifin təkmilləşdirilməsinin böyük əhəmiyyəti vardır. Məlumat üçün qeyd edək ki, xalq təsərrüfatında çalışan işçilərin ümumi sayında qeyri-istehsal sahələrində çalışanların sayı ildən-ilə artır.

Beynəlxalq əmək bölgüsü dərinləşdikcə və dünya ölkələri arasında iqtisadi inteqrasiya inkişaf etdikcə ayrı-ayrı ölkələrin iqtisadiyyatına aid infrastrukturların bir-birinə bağlı olan ünsürlərinin reallaşdırılmış inkişafı və təkmilləşdirilməsi də xüsusi əhəmiyyət kəsb edir. Beynəlxalq istehsal infrastrukturu – xarici iqtisadi fəaliyyətə və beynəlxalq ünsiyyətə xidmət edən nəqliyyat sisteminin, informasiya və rabitə sisteminin, ətraf mühitin mühafizəsini, təbii ehtiyatlardan səmərəli istifadəni, müştərək obyektlərin normal fəaliyyətini təmin edən bir çox obyekt və qurğuların milli ünsürlərinin məcmusu deməkdir. Dünya təcrübəsi göstərir ki, infrastrukturun təkmilləşdirilməsi və inkişafı qarşılıqlı əmək bölgüsünün dərinləşdirilməsi və qarşılıqlı faydalı beynəlxalq təsərrüfat əlaqələrinin genişləndirilməsi üçün əlverişli şərait yaradır.

İqtisadi ədəbiyyatda bazar infrastrukturu anlayışına rast gəlinir. Belə ki, bazar infrastrukturu dedikdə, iqtisadiyyatın ümumi strukturunun bazar sisteminə xidmət edən və onun normal fəaliyyəti üçün lazımi şərait yaradan tərkib hissəsi nəzərdə tutulur. Məlumat üçün qeyd edək ki, inkişaf etmiş bazar sistemi çox

mürəkkəb və zəngin struktura malikdir. Müasir bazar münasibətləri şəraitində bazarın ən mühüm strukturlarından biri onun obyektlərinin iqtisadi təyinatına görə bir-birindən fərqləndirilməsi nəticəsində yaranır və özünə aşağıdakıları daxil edir: istehlak şeyləri bazarı, əmək bazarı, elmi-texniki yeniliklər bazarı və s. Bazar iqtisadiyyatı şəraitində bu bazarların hər birinin həm ayrılıqda normal fəaliyyəti, həm də onların səmərəli qarşılıqlı əlaqəsi inkişaf etmiş bazar infrastrukturu şəraitində mövcud olur və onun vasitəsilə həyata keçirilir.

Deməli, bazar infrastrukturu bazarın müxtəlif formalarının fəaliyyəti üçün zəruri iqtisadi mühitin yaranmasına xidmət edir, nəticədə isə bütövlükdə bazar iqtisadi sisteminin normal fəaliyyəti təmin edilir. Bazar infrastrukturunun ən mühüm tərkib hissələri kimi əmtəə, fond, valyuta və əmək birjaları, lizinq kompaniyaları, banklar, auksionlar, yarmarkalar və s. çıxış edirlər.

Neft sənayesində «Səngəçal» terminalı dünya səviyyəli infrastrukturlardan biridir. Bu terminal ölkəmizin yeni neft strategiyasının uğurla həyata keçirilməsində mühüm rol oynayır. «Əsrin müqaviləsi»nin imzalanması ilə həyata vəsiqə almış bu strategiya respublikamızın iqtisadi inkişafına təkan verməklə yanaşı, neft sənayesinin infrastruktur imkanlarının da xeyli genişləndirilməsinə səbəb olub. Artıq «Əsrin müqaviləsi»nin imzalanmasından 10 ildən çox vaxt keçmişdir. Ötən müddətdə Azərbaycanda dünya səviyyəli nəhəng sənaye obyektləri inşa olunub, ən müasir qurğu və avadanlıqlar quraşdırılıb, ölkəmizin karbohidrogen ehtiyatlarının dünya bazarına çıxarılması təmin edilib. Bu işlər indi də davam etdirilir. Hazırda Heydər Əliyev adına Bakı dərin özüllər zavodunda, Bibiheybət və Zığdakı tikinti sahələrində Xəzərinin Azərbaycan sektorunda yerləşən «Azəri» və «Şahdəniz» yataqlarının istismara daxil edilməsi üçün nəhəng dəniz obyektləri inşa edilir. Həmin yataqlardan çıxarılacaq karbohidrogen ehtiyatlarının dünya bazarına nəql edilməsi üçün Bakı-Tbilisi-Ceyhan əsas ixrac neft və Cənubi Qafqaz qaz boru kəmərinin çəkilişi davam etdirilir.

Hazırda Xəzərin sahilindəki Səngəçal qəsəbəsinin yaxınlığında dünyanın ən böyük neft terminalından biri fəaliyyət göstərir. Qeyd edək ki, Tekfen-Azfen alyansının podratçılığı ilə həyata keçirilən Səngəçal terminalının genişləndirilməsi proqramına 2001-ci ilin noyabr ayından başlanılıb. Podratçı adyans tərəfindən burada yüksək iş icrasına nail olunub: heç bir qəza baş vermədən 14 milyon-adam saatlıq iş yerinə yetirilib. Terminalın genişləndirilməsi işlərinə 3 mindən artıq adam cəlb olunub.



Terminal «Əsrin müqaviləsi»nin ilkin neft layihəsi çərçivəsində 1995-ci ildə tikilib istifadəyə verilib. «Çıraq» yatağından çıxarılan xam neftin Bakı-Novorossiysk və Bakı-Supsa boru kəmərləri ilə dünya bazarına ixracı Səngəçal terminalı vasitəsilə həyata keçirilib. Ötən müddətdə buradan 30 milyon tondan artıq xam neft ixrac olunub. Ümumi sahəsi 44 hektar ərazini əhatə edən terminalda hər birinin tutumu 150 min barel olan 4 çən tikilib istifadəyə verilib.

«Əsrin müqaviləsi»nin «Azəri» layihəsinin reallaşdırılması ilə əlaqədar neft hasilatının kəskin şəkildə artması mövcud terminalın genişləndirilməsini tələb edir. Artıq irimiqyaslı tikinti-quraşdırma işlərinin əksəriyyəti tamamlanıb, əsas avadanlıqların hamısı sahəyə gətirilib. Səngəçal terminalının ərazisi, nəhəng tikinti meydançasına çevrilib. Belə ki, hazırda terminalın ərazisi 540 hektar sahəsini əhatə edir. Terminalın genişləndirilməsi proqramı çərçivəsində burada bir sıra mülki tikinti işləri aparılıb: qrunt və sel sularını yönəltmək üçün bəndlər inşa olunur, arxlar çəkilib, 60 kilometr uzunluğunda yollara asfalt döşənilib. Bundan başqa, terminalın ərazisində işçilər üçün düşərgələr, müxtəlif istirahət mərkəzləri və digər mülki obyektlər tikilib.

Səngəçal terminalının genişləndirilməsi proqramı unikal bir layihədir. Hazırda terminalda «Azəri-Çıraq-Günəşli», «Bakı-Tbilisi-Ceyhan», «Şahdəniz» və «Cənubi Qafqaz» qaz boru kəmərləri layihələri üçün nəhəng tikinti-quraşdırma işləri həyata keçirilir. Həmin işlərin eyni tikinti sahəsində aparılması böyük əhəmiyyət kəsb edir. Bu, təqribən 200 milyon dollar vəsaitə qənaət etməyə imkan verir. Hazırda «Azəri-Çıraq-Günəşli» layihəsi çərçivəsində nəzərdə tutulmuş işlər sona yaxınlaşır. Artıq tikinti-quraşdırma işlərinin 98%-i yerinə yetirilmişdir. İndi «Azəri» yatağının mərkəzi hissəsindən çıxarılan neftin qəbulu üçün kifayət qədər qurğu və avadanlıqlar quraşdırılıb və fəaliyyət göstərir. Burada hər birinin tutumu 600 min barel olan üç iri neft çəni tikilib istifadəyə verilib.

Terminalda nefti qızdırıb onu qazdan və sudan ayırmaq üçün

tələb olunan qurğular da quraşdırılıb, neftdən ayrılmış suyu yenidən laylara vurmaq üçün xüsusi çən tikilib. 22 aqreqatdan ibarət olan qaza nəzarət qurğusu Kanadada inşa edilərək Bakıya gətirilmiş və terminalın ərazisində quraşdırılmışdır. Burada həmçinin təqribən 17 təyyarə gücünə malik olan 34 turbin quraşdırılıb. Terminalın ərazisində 1600 kilometr uzunluğunda kabellər çəkilib. Ötən ilin sonunda «Azəri-enerji» ASC tərəfindən burada 110 kilovoltluq elektrik yarımstansiyası tikilib istifadəyə verilib. Hazırda burada elektrik generatorları, kompleks nəzarət və təhlükəsizlik sistemi, hava soyuducuları fəaliyyət göstərir, cihaz və qurğular üçün pnevmatik sistemlərin istismara buraxılması həyata keçirilir.

«Azəri» yatağının qərb və şərq hissələrindən çıxarılacaq neftin qəbulu və onu texnoloji proseslərdən sonra çənlərə vurmaq üçün tələb olunan işlərin də əksər hissəsi başa çatmışdır. Hazırda qurğu və avadanlıqların quraşdırılacağı sahələr tikinti üçün hazır vəziyyətə gətirilir. Bütün bunlar Xəzərin Azərbaycan sektorundakı neft-qaz ehtiyatlarının dünya bazarına çıxarılmasını nəzərdə tutan layihələrin həyata keçirilməsi ölkəmizin neft sənayesinin infrastruktur imkanlarının genişləndirilməsi üçün yaxşı imkanlar yaradır. Ötən illər dünyanın iri tikinti təşkilatları tərəfindən Azərbaycanda nəhəng qurğu və avadanlıqlar, qeyd etdiyimiz kimi, inşa edilib.

Beynəlxalq standartlara cavab verən «Çıraq» platforması, sualtı neft kəməri, terminal, xam nefti dünya bazarına çıxarmaq üçün alternativ marşrutlar çəkilib. Dənizdə və quruda inşa olunmuş qurğu və avadanlıqlar ən müasir texnologiya ilə təchiz edilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir. İndi «Azəri» layihəsi çərçivəsində irimiqyaslı tikinti-quraşdırma işləri aparılır. «Azəri» yatağının şərq və qərb hissəsinin işlənməsi «Mərkəzi Azəri» ilə birlikdə adı çəkilən yatağın işlənməsini başa çatdıracaq «Azəri» yatağı üzrə vahid dəniz və quru işlənmə kompleksi yaratmaq üçün «Qərbi və Şərqi Azəri» layihəsinin obyektləri «Mərkəzi Azəri» layihəsinin obyektləri ilə birləşdiriləcək. «Qərbi Azəri» və «Şərqi Azəri» layihələri üzrə tikinti-quraşdırma işləri hər biri 48 quyu gövdəsinə malik iki ədəd yaşayış bloklu hasilat və qazma platformasını, Səngəçal terminalınadək əlavə bir 30 düyməlik neft boru xəttini, Səngəçaldakı mövcud terminalın və «Mərkəzi Azəri» qaz kompressoru və suvurma platformasının genişləndirilməsini əhatə edir.



«Qərbi Azəri» və «Şərqi Azəri» platformalarından ilk neftin hasil edilməsi müvafiq olaraq 2006-cı ilin ikinci rübündə və 2007-ci ilin birinci rübündə gözlənilir və bu da əlavə olaraq ildə 20 milyon tondan çox (gündə 420 min barel) xam neft hasilatına imkan verəcək.

Yatağın «Qərbi Azəri» və «Şərqi Azəri» hissəsində hasilatın pay bölgüsü sazişi dövründə hasil ediləcək neft ehtiyatlarının həcmi 210 milyon tondur (1,6 milyard barel). Bu hasilata nail olmaq üçün «Azəri» yatağının istismarı müddətində 96-yadək əlavə istismar, suvurma və qazvurma quyuları qazılacaq. Bundan əlavə, 113 maili qazma quyularının da qazılması nəzərdə tutulur.

Onu da qeyd edək ki, layihə Azərbaycana çoxlu mənfəət əldə edilməsinə imkan verəcəkdir. Bu gəlirlərin tərkibinə uzunmüddətli iri həcmli neft gəlirləri, gələcək potensial layihələrdə istifadə etmək üçün modernləşdirilmiş infrastruktur, yerli mal tədarükü və xidmətlərdən geniş istifadə olunması, eləcə də sanballı məşğulluq imkanları daxildir. 2007-ci ilədək layihə çərçivəsində iqtisadiyyata 4,7 milyon dollar məbləğində əsaslı sərmayə yönəldiləcəkdir ki, bu da ölkədə davamlı inkişafa təkən verəcəkdir.

Xam neftin texnoloji prosesindən alınacaq qaz Azərbaycanın qazpaylayıcı sisteminə təhvil veriləcəkdir. Bu məqsədlə hazırda terminaldan 5,1 kilometr uzunluğunda qaz boru kəməri tikilir. Məlumat üçün qeyd edək ki, tikintiyə 2004-cü ilin mart ayında başlacılıb və indiyədək işlərin 85%-i yerinə yetirilib, kəmərin 4 km-lik hissəsinin çəkilişi artıq başa çatdırılıb. Azərbaycan Dövlət Neft Şirkətinin sifarişçisi olduğu qaz boru kəmərinin tikintisi ilə bağlı təchizat işləri də uğurla davam edir. Yeni qaz xətti ilə bağlı işlər 2004-cü ildə başa çatdırılmışdır.

Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəmərinin baş nasos stansiyasının tikintisi üçün işlər də sona yaxınlaşmaqdadır. Artıq işlərin, demək olar ki, 90%-i yerinə yetirilmişdir. Stansiyada indiyədək 5 iri nasos quraşdırılıb. Terminalın ərazisində «Şahdəniz» layihəsi üçün ayrılmış xüsusi meydançada həyata keçiriləcək tikinti-hazırlıq işlərinə 2004-cü ilin oktyabr ayından baş-

lanılıb və indiyədək görüləcək işlərin 35-40%-i yerinə yetirilib. Hazırda burada qaz-kondensatın qızdırılması üçün oturacağının diametri 12 metr, hündürlüyü isə 76 metr olan qurğu tikilir. Qeyd edək ki, bu terminalın ərazisində ən hündür qüllə olacaq.

Xəzərin Azərbaycan sektorundakı «Şahdəniz» qaz-kondensat yatağının kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsü sazişinin reallaşdırılması istiqamətində həyata keçirilən tədbirlər infrastrukturun inkişafının genişləndirilməsi üçün şərait yaradır. Ötən ildə adı çəkilən yataqların birinci işlənmə mərhələsinə başlamağa dair qərar qəbul edildikdən sonra layihə tikinti-quraşdırma mərhələsinə daxil olmuşdur. «Şahdəniz» yatağında quraşdırılacaq TRG-500 platformasının inşası məqsədilə Bakının Zığ qəsəbəsindəki tikinti meydançasının dünya standartları səviyyəsində modernləşdirilməsinə başlanılmışdır. Burada isə işlər getdikcə sürətlənir, platformanın quraşdırılması üçün avadanlıqların alınması davam edir.

2004-cü ildə «Şahdəniz» layihəsi çərçivəsində daha bir mühüm məsələ öz həllini tapmışdır. «Yusif İbrahimov» üzən quru bloku əsaslı şəkildə təmir olunmuşdur. Bu, «Şahdəniz» birinci mərhələ layihəsi çərçivəsində tikinti-quraşdırma işlərinə təkan verəcəkdir. Məlumat üçün qeyd edək ki, bu dokdan əvvəlcə TRG-500 platformasının gövdə hissəsinin birləşdirilməsi üçün istifadə olunacaq. Artıq platformanın gövdə hissələri Volqa-Don kanalı vasitəsi ilə Sinqapurdan Bakıya gətirilib. Sonradan həmin hissələr üzən quru dokun yerləşdiyi Cənub buxtasına gətiriləcək. Dörd gövdə hissəsi quru dokun ərazisində dəqiq şəkildə yerləşdiriləcək və vahid üzən gövdə kimi birləşdiriləcək. Bütöv gövdə sonradan platforma ayaqlarının son quraşdırılması və üst modul qurğularının tamamlanması üçün Zığ tikinti-quraşdırma sahəsinə köçürüləcək.

Qeyd edək ki, «Şahdəniz» birinci mərhələ layihəsi ilk qazı 2006-cı ilin oktyabr ayının 1-dək Türkiyə bazarına çıxarmaq məqsədinə nail olmaq üçün müəyyən edilmiş qrafikə uyğun olaraq işləri yerinə yetirir. 2005-ci ilin əvvəlinədək tikinti-quraşdırma işləri çərçivəsində bir sıra mühüm addımlar atılmışdır. Belə ki, TRG-500 platformasının gövdə hissəsinin Bakıya gətirilməsi, qeyd etdiyimiz kimi, artıq başa çatdırılmış, platformanın üzən quru dokda dayandırılaraq birləşdirilməsinə başlanmışdır. «Şahdəniz» qazının dünya bazarına çatdırılmasını nəzərdə tutan Cənubi Qafqaz qaz boru kəmərinin tikintisi də bu yaxınlarda start götürüb.



Səngəçal terminalının genişləndirilməsi proqramı zamanı işçilərə təlim keçirilməsinə xüsusi diqqət verilir. Bu məqsədlə 2004-cü ildə terminalın ərazisində Xəzər Texniki Təlim Mərkəzi (TTM) yaradılıb. Bu mərkəz Petrofakt şirkəti tərəfindən idarə olunur və burada 30 nəfər işçi çalışırdı. 2005-ci ildə isə bu mərkəzdə çalışan işçilərin sayı 400 nəfərə qədər artırılmışdır. Tekfen və Azfen alyansının inşa etdiyi mərkəz hər cür zəruri avadanlıqlarla təchiz olunmuş üç binadan və 24 sinif otağından ibarətdir. Mərkəzdə qazma qurğusunda qazma borularının endirilməsi, yüksəkliklərdə işlərin yerinə yetirilməsi və forklifilərin idarə olunması kimi sahələrdə təlim keçmək üçün xüsusi sahə yaradılıb.

Səngəçal terminalının genişləndirilməsi Qaradağ rayonu ərazisində bir sıra sosial sərmayə və insan inkişafı proqramlarının həyata keçirilməsi üçün də geniş imkanlar açır. Artıq 27 belə layihə yerinə yetirilib, 12 layihə isə həyata keçirilməkdədir. Yaxın vaxtlarda daha 7 layihənin həyata keçirilməsinə başlanılacaqdır. Bütün bunlar əhalinin yeni iş yerləri ilə təmin olunmasına və bir sıra sosial problemlərin həllinə imkan verəcəkdir.

### 12.5. Sahənin iqtisadiyyatının inkişafında infrastrukturun rolu

Məlumdur ki, müəssisə ayrı-ayrı sex və təsərrüfatlardan ibarətdir. Onlar müxtəlif təyinatlı, xarakterli olurlar. Odur ki, sex və təsərrüfatlar bir sıra əlamətlərə görə qruplaşdırılır. Məsələn, məhsulun hazırlanmasındakı iştirakına görə müəssisənin sex və təsərrüfatları əsas, köməkçi, xidmətedici və yardımçı sex və təsərrüfatlara ayrılır.

***Əsas sex və təsərrüfatlar*** – bilavasitə maddi nemətlər istehsalı ilə məşğul olurlar. Odur ki, müəssisənin tərkibində əsas sex və təsərrüfatların xüsusi çəkisi nə qədər çox olarsa, bir o qədər də həmin müəssisənin məhsul buraxma qabiliyyəti, imkanı yüksək olar. Əsas sex və təsərrüfatlara misal olaraq maşınqayırma zavodlarında hazırlıq, emaletmə və yığma sexlərini; metal-

lurgiya kombinatlarında – domna, marten, prokat və koks sexlərini; toxuculuq fabriklərində – əyirici-toxucu və naxışvurma sexlərini göstərmək olar. ***Köməkçi sex və təsərrüfatlar*** – bilavasitə maddi nemətlər istehsalı ilə məşğul olmurlar, lakin əsas sex və təsərrüfatların normal fəaliyyət göstərmələri üçün bütün zəruri olan istehsal və əmək şəraitini yaradırlar. Köməkçi sex və təsərrüfatlara misal olaraq alət, təmir, model və qeyri-standart avadanlıqlar hazırlayan sex və təsərrüfatları göstərmək olar.

***Xidmətedici sex və təsərrüfatlar*** – köməkçi sex və təsərrüfatlar kimi bilavasitə maddi nemətlər istehsalı ilə məşğul olmurlar, lakin onlar həm əsas, həm də köməkçi sex və təsərrüfatların normal fəaliyyət göstərmələri üçün bütün zəruri istehsal və əmək şəraitini yaradırlar. Xidmətedici sex və təsərrüfatlara misal olaraq nəqliyyat və enerji sexlərini, kompressor stansiyalarını, eksperimental sexləri, anbar təsərrüfatını və s. göstərmək olar.

***Yardımçı sex və təsərrüfatlar*** – əsas sex və təsərrüfatların istehsal tullantılarından təkrarən istifadə edilməsi məqsədilə yaradılır və onlar müəssisədə hazırlanan məhsulların maya dəyərinin aşağı salınmasında, deməli müəssisə iqtisadiyyatının yaxşılaşdırılmasında mühüm rol oynayırlar. Belə sex və təsərrüfatlara misal olaraq tara hazırlayan sexləri, karxanaları, işlənmiş yağların regenerasiyası ilə məşğul olan sexləri göstərmək olar. Məlumat üçün qeyd edək ki, istehsal tullantılarından təkrarən istifadə edilməsi müəssisəyə qənaət əldə edilməsini təmin etməklə yanaşı, əlavə maddi-texniki ehtiyatların mənbəyidir. Onların istifadəsi sayəsində maya dəyəri aşağı düşür və investisiya qoyuluşunun xüsusi çəkisi azalır, iqtisadi artım sürətlənir. Təkrar maddi ehtiyatların əsas mənbələri istehsal və məhsul istehlakı tullantılarıdır. İstehsal tullantıları – məhsul istehsalında və xidmətlərin göstərilməsində əmələ gələn və ilk istehlak dəyərini tam və ya qismən itirən xammal, material, yarımfabrikat qalıqlarıdır. İstehlak tullantıları – fiziki və ya mənəvi aşınma nəticəsində öz istehlak xassələrini itirmiş məmulat və materiallardır. Təcrübədə istifadə edilməyən tullantılar (məsələn, hazırkı dövrdə onlar üçün istifadə şəraiti yoxdur), təkrar xammal (hazırkı dövrdə xalq təsərrüfatına təkrarən tətbiq oluna bilən) fərqləndirilir. Əvvəllər istehsal tullantılarından istifadəyə çox böyük fikir verilirdi. Son illərdə isə belə tədbirin həyata keçirilməsinə qayğı xeyli azalmışdır (bu barədə əvvəllərdə qeyd edilmişdir).



Beləliklə, sahədə infrastrukturun səmərəli təşkili sahənin iqtisadiyyatının yaxşılaşdırılmasında mühüm rol oynaya bilər. Bunu nəzərə alaraq, son illərdə köməkçi və xidmətedici sex və təsərrüfatların fəaliyyətinin yaxşılaşdırılmasına qayğı xeyli artmışdır. Bu onunla izah edilir ki, görülən tədbirlərə baxmayaraq, hazırda köməkçi və xidmətedici sex və təsərrüfatlarda çalışan işçilərin sayı müəssisədə çalışan ümumi işçilərin təqribən 50-52%-ni təşkil edir. Köməkçi və xidmətedici xidmətlərin ümumi həcminin təxminən 30-35%-ni nəqliyyat və anbar xidməti, 27-30%-ni təmir xidməti, 17%-ni alət xidməti, 7-8%-ni energetika xidməti və 12%-ni isə digər xidmətlər təşkil edir. Deməli, köməkçi və xidmətedici sex və təsərrüfatlarda xidmət işlərinin səmərəli təşkili iş qüvvəsinə xeyli qənaət edilməsini təmin edə bilər.

Köməkçi və xidmətedici sex və təsərrüfatlarda həyata keçirilən xidmət işlərinin həcmindən və mürəkkəblik dərəcəsindən asılı olaraq həmin bölmələrdə çalışan işçilərin sayı da xeyli dərəcədə bir-birlərindən fərqlənir. Belə ki, müəssisənin ümumi işçilərinin 17%-i nəqliyyat, 14%-i təmir, 9%-i alət sexlərində, 10%-i anbar təsərrüfatlarında və 6%-i isə texniki nəzarət şöbəsində çalışırlar. Bunun əsas səbəblərindən biri köməkçi və xidmətedici sex və təsərrüfatlarda çalışan işçilərin əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsinin əsas sex və təsərrüfatlarda olduğuna nisbətən xeyli dərəcədə aşağı olmasından ibarətdir. Məsələn, müəssisənin əsas sex və təsərrüfatlarında çalışan işçilərin əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsinin orta hesabla 65-70% olduğu halda, həmin rəqəm köməkçi və xidmətedici sex və təsərrüfatlarda cəmisi 25-30% təşkil edir.

Məlumat üçün qeyd edək ki, inkişaf etmiş bazar iqtisadiyyatı ölkələrində, məsələn, ABŞ-da, Yaponiyada, Almaniyada və s. ölkələrin sənaye müəssisələrində köməkçi və xidmətedici sex və təsərrüfatlarında çalışan işçilərin sayı bizdə olduğundan qat-qat azdır. Belə ki, ABŞ-ın sənaye müəssisələrində çalışan bütün işçilərin təxminən 5%-i təmir işlərində, 6%-i alət təsərrüfatında, 9%-i nəzarət işlərində və 8-9%-i nəqliyyat təsərrüfatında çalışırlar. Bu onunla izah edilir ki, ABŞ-ın sənaye müəssisələ-

rində köməkçi və xidmətedici işlərdə çalışan işçilərin əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsi bizdə olduğundan 2-3 dəfə yüksəkdir. Deyilənlərdən belə bir nəticəyə gəlmək olar ki, köməkçi və xidmətedici sex və təsərrüfatlarda çalışan işçilərin sayını azaltmaq üçün bizdə xeyli ehtiyat mənbələri vardır. Əsas məsələ həmin ehtiyatları vaxtında aşkara çıxarıb səfərbərliyə almaqdan ibarətdir. Bu sahədə ETT, xüsusilə onun mütərəqqi istiqamətlərindən biri olan robotlaşdırma mühüm rol oynaya bilər.

Faktiki materialların təhlili göstərir ki, sənaye robotlarının tətbiqi istər əsaslarda, istərsə də köməkçi və xidmətedici təsərrüfatlarda ağır fiziki əməyin aradan qaldırılmasında həlledici rola malikdir. Odur ki, son zamanlar bir sıra köməkçi və xidmətedici əməliyyatların yerinə yetirilməsində sənaye robotlarından geniş istifadə edilir. Məsələn, müəssisənin dəmirçi-press, rəngləmə, termiki emal, qaynaq və s. sex və təsərrüfatlarında sənaye robotlarından istifadə edilir ki, bu da həmin sahələrdə xeyli canlı əməyə qənaət etməyə imkan verir. Qeyd edək ki, sənaye robotlarının tətbiqi yalnız canlı əməyə qənaət deyil, eyni zamanda texnoloji proseslərin gedişini sürətləndirir, dəzgahların gücündən tam istifadə etməyə imkan verir və sosial məsələlərin həllinə yardım göstərir, yəni sənaye robotları zərərli, qaranlıq istehsal sahələrində fəhlələrin əməyini əvəz edir.

Məlumat üçün qeyd edək ki, son illərdə Azərbaycan Respublikasının sənaye müəssisələrində 400-dən artıq sənaye robotları tətbiq edilmişdir ki, bu da ağır və təhlükəli əməklə məşğul olan bir çox fəhlələrin həmin işdən azad olmasına imkan vermişdir. İstehsalata tətbiq edilən sənaye robotlarının 40-45%-i hazırlıqştamplama sexlərində, 10-12%-i mexaniki-emal sexlərində, 5-6%-i tökmə sexlərində, 2-3%-i rəngləmə işlərində və 1%-i isə qaynaqlama işlərində istifadə olunmuşdur. Ümumiyyətlə, son illərdə əməyin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi nəticəsində əlverişsiz əmək şəraitində çalışan işçilərin sayı daima azalır.

Beləliklə, köməkçi və xidmətedici sex və təsərrüfatların işinin yaxşılaşdırılması sənaye istehsalına öz müsbət təsirini göstərmişdir. Dövlət Statistika Komitəsinin məlumatlarına görə 2002-ci ildə ev təsərrüfatında sənaye məhsulu istehsalı, habelə



fiziki şəxs kimi sənaye sahəsində fəaliyyət göstərənlərin işi də nəzərə alınmaqla təqribən 14,8 trilyon manatlıq məhsul istehsal edilib, xidmətlər göstərilib. Bu isə 2001-ci illə müqayisədə 3% çoxdur.

2002-ci ildə hasilat sənayesində məhsulun həcmi 2,3%, emal sənayesində 3,3%, elektrik enerjisi, qaz və su təchizatı sektorunda isə 3,1% artmışdır. 2002-ci ildə istehsal edilmiş sənaye məhsulunun 52,7%-i hasilat, 37,3%-i emal, 10%-i isə elektroenergetika, qaz və su təchizatı müəssisələrinin payına düşür. Mədənçıxarma sənayesi müəssisələrində məhsul buraxılışının artması, əsasən, neft sektorunun inkişafı hesabına baş verib. Belə ki, 2002-ci ildə Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) tərəfindən «Çıraq» yatağından 6 milyon tona yaxın xam neft çıxarılıb ki, bu da 2001-ci ildə hasil edilən xam neftdən 500 min ton çoxdur. İlkin enerji ehtiyatları (şərti ekvivalentə çevirməklə) istehsalının ümumi həcmində neftin payı 2001-ci ildəki 73,6%-dən 2002-ci ildə 75,8%-ə, elektrik enerjisinin xüsusi çəkisi isə 0,6%-dən 0,8%-ə qədər artıb.

## 12.6. Yeni təsərrüfatçılıq şəraitində sahə infrastrukturunun təkmilləşdirilməsinin əsas istiqamətləri

Sənaye müəssisələrində ən az xərclə daha çox və rəqabət qabiliyyətli məhsul buraxılışı yalnız texnoloji əməliyyatların səmərəli həyata keçirilməsi və əsas istehsal fondlarının təkmilləşdirilməsi nəticəsində əldə edilmir. Rəqabət qabiliyyətli məhsul buraxılışının təmin olunmasında, onun maya dəyərinin aşağı salınmasında, deməli, istehsalın səmərəliliyinin yüksəldilməsində texnoloji maşın və avadanlıqların işə daim hazır vəziyyətdə olması, maddi istehsal sahələrinin xammal və materiallarla, yanacaq və enerji ilə, texnoloji alət və tərtibatlarla təmin olunması da mühüm rol oynayır. Bu isə öz növbəsində istehsala xidmətin təşkili səviyyəsindən bilavasitə asılıdır. Deməli, sənaye müəssisələrində əsas sex və istehsal sahələri ilə yanaşı, qeyd etdiyimiz kimi, köməkçi və xidmətedici sex və təsərrüfatlar da yaradılır ki, bunların da əsas vəzifəsi texnoloji maşın və avadanlıqları vaxtlı-vaxtında təmir etməkdən, istehsal prosesinin gedişatında baş verən və ya verə biləcək boşdayanmaları

aradan qaldırmaqdan (əgər bu mümkün deyildirsə, heç olmasa minimuma endirməkdən), zavoddaxilində yüklərin daşınmasını təmin etməkdən və s. ibarətdir.

Məlumdur ki, köməkçi və xidmətedici sex və təsərrüfatların məhsulları, əsasən, müəssisənin maddi istehsal sahələrində və xidməti tikililərində istehlak olunur. Maddi istehsal sahələrinin intensivləşdirilməsi şəraitində köməkçi və xidmətedici sex və təsərrüfatların rolu xeyli artır və ilk öncə müəssisənin texniki cəhətdən təchizatı və yenidən qurulması, əsas istehsalın texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi üçün şəraiti təmin etməkdən ibarət olur.

İstehsalın texniki-iqtisadi səviyyəsi dedikdə, istehsalın müəyyən vaxta görə texniki və iqtisadi vəziyyəti nəzərdə tutulur. İstehsalın texniki-iqtisadi səviyyəsi istifadə olunan istehsal aparatının yaş strukturundan, texniki vəziyyətindən, mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsindən, tətbiq olunan texnoloji proseslərin mütərəqqiliyindən, buraxılan məhsulun keyfiyyətindən və istehsalın səmərəliliyindən, kadrların ixtisas səviyyəsindən, istehsalın və əməyin təşkilindən və s. asılıdır. Müəssisədə nail olunmuş istehsalın texniki-iqtisadi səviyyəsi müəssisənin buraxdığı məhsulun (xidmətin) sifarişçinin, dünya bazarının tələblərinə uyğun gəlməsi imkanlarını əks etdirir. Ayrı-ayrı müəssisələrdə istehsalın texniki-iqtisadi səviyyəsinin diferensiasiya edilmiş (fərqləndirmə) göstəriciləri tətbiq olunur. Məsələn, qara metallurgiya kombinatlarında bu, domna sobalarının faydalı həcmindən istifadə əmsalı, 1 ton hazır prokata polad külçəsi sərfi, fasiləsiz üsulla poladtökmə kimi mütərəqqi üsuldan istifadə dərəcəsi; maşınqayırma zavodlarında – mütərəqqi plastik deformasiya metodlarından istifadə etməklə hissələr hazırlanması və s. deməkdir.

Müəssisənin texniki təchizatına aşağıdakılar aiddir: istehsalın texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi, mexanikləşdirilməsi və avtomatlaşdırılması, modernləşdirilməsi, köhnəlmiş və fiziki aşınmış avadanlığın yeni, daha məhsuldar avadanlıqlarla əvəz edilməsi, həmçinin ümumzavod infrastrukturunun və xidmətedici sex və təsərrüfatların təkmilləşdirilməsi üzrə kompleks tədbirlər. Fəaliyyət göstərən müəssisələrin texniki təchizatında məqsəd maddi istehsal sahələrini hər vasitə ilə intensivləşdirməkdən, istehsal gücünü artırmaqdan, əmək məhsuldarlığının yüksəldilməsini təmin etməklə məhsul buraxılışını artırmaqdan və keyfiyyətini yaxşılaşdırmaqdan, lüzumsuz iş yerlərini ixtisar etməkdən, məhsulun materialtutumu və maya dəyərini aşağı salmaqdan, material və yanacaq-enerji ehtiyatlarına qənaət etməkdən, müəssisə işlərinin digər texniki-iqtisadi göstəricilərini yaxşılaşdırmaqdan ibarətdir.



Fəaliyyət göstərən müəssisələrinin yenidən qurulması, bir qayda olaraq, əsas təyinatlı binaları və qurğuları genişləndirmədən əsas, köməkçi və xidmət təyinatlı mövcud sex və təsərrüfatların yenidən qurulmasını nəzərdə tutur və elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın təkmilləşdirilməsi, onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə bağlıdır. Yenidən qurma texnoloji pillələrdəki qeyri-mütənasibliyin aradan qaldırılmasını, aztullantılı və ya tullantısız texnologiyanın və çevik istehsalın tətbiq olunmasını, iş yerləri sayının ixtisar edilməsini, əmək məhsuldarlığının yüksəldilməsini, məhsulun materialtutumunun və maya dəyərinin aşağı salınmasını, fondveriminin yüksəldilməsini və digər texniki-iqtisadi göstəricilərin yaxşılaşdırılmasını təmin edir.

Beləliklə, müəssisə miqyasında istehsala texniki xidmətin təşkili özündə avadanlıqlardan istifadənin yaxşılaşdırılması, iş vaxtı itkilərini aradan qaldırılması, ehtiyatlara qənaət edilməsi, əmək mühafizəsi və təhlükəsiz texnikası, əməyin elmi təşkili, əmək şəraitinin yaxşılaşdırılması, xidmət mədəniyyətinin yüksəldilməsi, xidmətin təşkili və s. üzrə maddi-təşkilati tədbirlər kompleksini əks etdirir. Texniki-təşkilati tədbirlər kompleksi – elmi və texniki nailiyyətlərin istehsala tətbiqinin, xidmətin səmərəliliyinin və keyfiyyətinin artırılmasının mühüm şərtidir. Bu, xüsusilə bazar iqtisadiyyatı şəraitində daha böyük əhəmiyyət kəsb edir, çünki bazar iqtisadiyyatı ehtiyatlarından dolğun istifadəni nəzərdə tutur.

***Avadanlıqdan istifadə*** səviyyəsini müəyyən etmək üçün avadanlıqdan istifadə əmsalından istifadə edilir. Bu əmsal avadanlıqdan vaxta, gücə, istehsal olunan məhsulun və ya yerinə yetirilən xidmətin həcminə görə hesablanır. Vaxta görə avadanlıqdan istifadə əmsalını müəyyən etmək üçün avadanlığın faktiki iş vaxtını planlı vaxt fonduna bölmək, yəni avadanlığın plan-

da nəzərdə tutulan iş saatlarının miqdarına bölmək lazımdır; bu zaman nəzərdə tutulan dövrdə təqvim, bayram və istirahət günləri, iş rejimi, növbənin davamiyyəti, həmçinin planlı-xəbərdarlıq təmirinə ayrılan vaxt nəzərə alınır. Əgər dəzgah ayda 160 saat işləməli idisə, lakin planda iş vaxtı itkisi nəzərdə tutulmadığı halda boş dayanma üzündən əslində 150 saat işləmişsə, onda vaxta görə avadanlıqdan istifadə əmsalı, yəni ekstensiv yükləmə əmsalı 93,8% (150:160×100) olacaqdır. Bu o deməkdir ki, 6,2% dəzgah vaxtı itkisi olmuşdur. Əgər dəzgahda bir saat ərzində norma üzrə altı eyninövlü hissə emal olunmalıdırsa, əslində isə ancaq beş hissə emal olunursa, onda gücə görə avadanlıqdan istifadə əmsalı, yəni intensiv yükləmə əmsalı 83,3%-ə (5:6×100) bərabər olacaqdır. Avadanlığın gücündən istifadə olunması onun vəziyyətindən, vaxtından və keyfiyyətlə edilən xidmətdən, işçilərin ixtisas səviyyəsindən və səyindən asılıdır. İş (xidmət) həcminə görə avadanlıqdan istifadə əmsalı, yəni inteqral yükləmə əmsalı həm vaxtı, həm də onun gücündən istifadəni əks etdirir və onda faktiki istehsal edilən məhsulun (xidmətin) plan həcminə olan nisbətinə bərabərdir; bu da boşdayanmalar olmadan və müəyyən edilmiş güc ilə işlədikdə alına bilər. Əgər dəzgahda plana görə ay ərzində 950 hissə emal etmək nəzərdə tutulmuşdursa, əslində isə 750 hissə emal olunmuşdursa, onda avadanlıqdan istifadənin ümumiləşdirici, inteqral əmsalı 78,1% (750:950×100) olacaqdır. Avadanlıqdan istifadə əmsalının yüksəldilməsi – istehsalın (xidmətin) intensivləşdirilməsinin, mövcud istehsal qurğularında məhsul (xidmət) buraxılışını artırmağın mühüm zəminidir. Avadanlıqdan istifadə əmsalının yüksəldilməsinə boşdayanmaları ləğv etməklə, növbəlik əmsalını artırmaqla, planlı-xəbərdarlıq təmiri və avadanlığa xidməti təkmilləşdirməklə, əmək intizamını möhkəmləndirməklə, işçilərin ixtisasını artırmaqla nail olunur.

***İş vaxtı*** dedikdə, qanunla müəyyən edilmiş iş müddəti nəzərdə tutulur və bu müddətdə xidmətçi müəssisədə (sexdə, istehsal sahəsində və ayrı-ayrı iş yerlərində) öz əmək vəzifəsini yerinə yetirməlidir. Maddi istehsal sahələrində olduğu kimi, köməkçi və xidmətedici sex və təsərrüfatlarda da iş vaxtı zəruri və izafi vaxta bölünür. Zəruri iş vaxtı – xidmətçinin ümumi iş vaxtının bir hissəsidir; bu vaxt ərzində xidmətçi həyatının təkrar istehsalı üçün tələb olunan zəruri xidmət göstərir. Zəruri iş vaxtı müddətində xidmətçi həyat qüvvəsinin bərpasını, bacarığının hərtərəfli inkişafını, əmək qabiliyyəti olmayan ailə üzvlərinin saxlanılmasını təmin edən həcmdə xidmətlər göstərir. Bu baxımdan xidmətçilərin rifahı – iş vaxtından istifadəni yaxşılaşdırmaqdan, əməyin intensivliyini ictimai normal səviyyəyə qaldırmaqdan və ən əsası isə əmək məhsuldarlığının yüksəldilməsindən birbaşa asılıdır. İzafi iş vaxtı – izafi xidmətin göstərilməsi məqsədilə xidmətçilərin sərf etdikləri vaxtdır. Faktiki materialların təhlili göstərir ki, müəssisələrdə xeyli iş vaxtı itkiləri – boşdayanmalar, qeyri-məhsuldar iş vaxtı sərfi vardır; bunlar əməyin və istehsalın təşkilindəki qüsurlarla, maddi-texniki təminatla, əmək intizamının və qaydalarının pozulması ilə əlaqədardır. İş vaxtından istifadənin yaxşılaşdırılmasına – əməyin və xidmətin təşkilinin təkmilləşdirilməsi, əmək intizamının möhkəmləndirilməsi, əməyin təşkilinin kollektiv (briqada) formasının inkişafı, əmək şəraitinin və təhlükəsizlik texnikasının yaxşılaşdırılması hesabına xəstəlik və xəsarətlərin azaldılması, rəhbərliyin icazəsi ilə məzuniyyətlərin qısaldılması, iş yerlərinin attestasiyası və səmərələşdirilməsi və s. səbəb olur. Bütöv növbə ərzində və növbədaxili vaxt itkisi fərqləndirilir.



***Ehtiyatlara qənaət*** – ehtiyatlardan səmərəli istifadənin təmin olunmasına, başlıca olaraq qənaət hesabına müəssisənin ehtiyatlara artan tələbatının ödənilməsinə dair tədbirlər sistemidir. Müəssisə miqyasında xidmət işlərini elə təşkil etmək lazımdır ki, o, yanacağı, enerjiyə, xammal və materiallara artan tələbatın əksər hissəsini ödəmiş olsun. Ehtiyatlara qənaətin əsası – təbii və maddi ehtiyatlardan kompleks istifadə olunmasından, itkilərin və səmərəsiz məsrəflərin maksimum aradan qaldırılmasından, təkrar maddi ehtiyatlardan və onlarla bağlı olan məhsulların təsərrüfat dövriyyəsinə daha çox cəlb olunması imkanından ibarətdir. Ehtiyatlara qənaətə istehsalın və ehtiyatlardan istifadənin bütün mərhələlərində nail olunmalıdır: təbii xammalın, yanacağın və s. çıxarılmasının səmərələşdirilməsi (məsələn, neftin laylardan daha tam çıxarılması); çıxarılmış təbii ehtiyatlardan maksimum istifadə olunması, daşıma və saxlama zamanı itkilərin minimuma endirilməsi; istehsal prosesində və ya qeyri-istehsal istehlakı zamanı ehtiyatların daha səmə-

rəli tətbiqi; təkrar ehtiyatların aşkar edilməsi, uçota alınması və onların, hər şeydən öncə, birbaşa təyinat üzrə işlədilməsi, həmçinin tullantıların emalı və istifadəsi.

***Əməyin elmi təşkili*** – xidmət sahəsində çalışan işçilərin əməyindən daha səmərəli istifadəni təmin etməyə imkan verir. Müəssisə miqyasında xidmətçi heyətin əməyinin elmi təşkilinə daxildir: xidmətçilərin köməkçi və xidmətedici sex və təsərrüfatlarda səmərəli yerləşdirilməsi; briqada formasında əməyin təşkili; iş yerlərinin attestasiyası və onlara fasiləsiz xidmət göstərilməsi; əmək üsullarının təkmilləşdirilməsi; xidmətçilərin həddindən artıq yorulmasının aradan qaldırılması; xidmətçi heyətin özlərinin iştirakı ilə xidmət normalarının işlənib hazırlanmasının yaxşılaşdırılması; hər bir xidmətçinin yüksək son nəticələrə görə maddi və mənəvi stimullaşdırılmasının daha səmərəli metod və formalarının işlənib hazırlanması; rahat iş şəraiti yaradılması və xidmətçilər üçün rahat iş günü rejiminin tətbiqi; yaradıcılıq fəallığını həvəsləndirən şərait yaradılması.

***Əmək mühafizəsi və təhlükəsizlik texnikası*** – xidmət sahələrində təhlükəsizliyin təmin olunması, xidmətçilərin əmək şəraiti ilə bağlı olan müxtəlif növ zədələrdən və zərərli təsirlərdən qorunması, bunları doğuran səbəblərin aradan qaldırılması üzrə həyata keçirilən kompleks tədbirləri özündə əhatə edir. Son zamanlar əmək mühafizəsi və təhlükəsizlik texnikasının təmin olunması məqsədilə bir sıra tədbirlər həyata keçirilmişdir ki, bu da ağır fiziki əməklə məşğul olanların sayının xeyli azalmasına gətirib çıxarmışdır. Bunu cədvəl 81-dəki məlumatlar da sübut edir.

*Cədvəl 81*

***Ağır fiziki əməklə məşğul olanların sayı, nəfər***

| | 1990 | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Sənaye | 7804 | 4032 | 1751 | 4275 | 4616 | 210 | 1010 | 1948 | 1738 | 4406 | 6954 |
| Tikinti | 8019 | 3956 | 874 | 513 | 493 | 138 | 374 | 102 | 741 | 868 | 364 |
| Nəqliyyat | 836 | 924 | 1132 | 1023 | 1117 | 24 | 344 | 63 | 984 | 1154 | 1932 |
| Rabitə | 56 | – | – | – | – | 4 | 49 | 10 | 46 | 56 | 20 |

***Əmək şəraiti*** – xidmət mühitinə xas amillərin məcmusudur; bunlar xidmət prosesində işçinin vəziyyətinə, yəni sağlamlığına, iş qabiliyyətinə, əməyə münasibətinə, şəxsiyyətinin inkişafına və xidmətin nəticələrinə təsir edir. Əmək şəraiti sanitar-gigiyena, fizioloji və estetik əmək şəraitinə ayrılır. Öz nəticələrinə görə əmək şəraiti əlverişli, yəni əməyə yaradıcı münasibətin inkişafına kömək edən və qeyri-əlverişli, yəni yorğunluğu, peşə xəstəliyini, işə neqativ münasibəti doğuran şəkildə ola bilər. Əmək şəraitinin yaxşılaşdırılması insan amilinin rolunun yüksəlməsinə səbəb olur.



***Xidmət mədəniyyəti*** – xidmətin sahəsinin texniki-iqtisadi, təşkilati və estetik səviyyəsinə olan normativ tələblərin məcmusudur. Xidmət mədəniyyətinin müasir səviyyəsinə nail olunması – mütərəqqi texnika və texnologiyanın, hər iş yerində və ümumən müəssisədə əməyin elmi təşkilinin tətbiqini, əmək şəraitinin müntəzəm yaxşılaşdırılmasını, xidmət heyətə lazımi məişət şəraiti yaradılmasını, işçilərin peşə ustalığının artırılmasını, erqonomika, texniki estetika, ekologiya tələblərinə, xidmət sahələrində təmizliyə və qaydalara əməl olunmasını, yüksək mütəşəkkilliyi, əmək intizamını və xidmətçi heyətin yaradıcılıq fəallığını təmin edən sağlam sosial-psixoloji şərait yaradılmasını nəzərdə tutur. Xidmət işlərinin keyfiyyətli yerinə yetirilməsində xidmət mədəniyyətinin yüksəldilməsi mühüm rol oynayır.

***Xidmətin təşkili*** – konkret sosial-iqtisadi şəraitdə canlı əməyin xidmətin maddi ünsürləri ilə səmərəli əlaqələndirilməsinə dair kompleks tədbirləri əhatə edir. Xidmətin təşkili ehtiyat növlərindən daha səmərəli istifadə etməklə daha yüksək son nəticələr əldə edilməsini təmin etməlidir. Müəssisələrdə xidmətin təşkili köməkçi və xidmətedici əməliyyatların müvafiq təşkili ilə əlaqələndirilir və onlar konkret ictimai tələbatı ödəyən xidmət göstərilməsi naminə vahid prosesdə birləşdirilir. Xidmətin təşkili əməyin təşkili ilə bilavasitə əlaqədardır. Əmək bölgüsü və kooperasiyası bir tərəfdən xidmətin təşkilinin səmərəli ilkin şərtidir, digər tərəfdən xidmətin təşkilinin təkmilləşdirilməsi əmək məhsuldarlığının müntəzəm artmasını, əmək şəraitinin yaxşılaşdırılmasını, xidmətedici heyətin maddi və mənəvi səviyyəsinin yüksəlməsini təmin edir.

Sənaye müəssisələrində yaradılan köməkçi və xidmətedici sex və təsərrüfatların sayı, tərkibi və quruluşu istehsalın təşkili formasından, tipindən, üsulundan və miqyasından asılıdır. Ümumiyyətlə, istehsalın əsas, köməkçi və xidmətedici sex və təsər-

rüfatlara ayrılması şərti xarakter daşıyır, çünki bəzi köməkçi və xidmətedici sex və təsərrüfatların məhsulları digər müəssisələrdə, müəssisənin özünün əsas sex və istehsal sahələrində əsas məhsul kimi istifadə edilir, həmin məhsullar əsas sex və istehsal sahələrinin məhsulları kimi qiymətləndirilir və realizə edilmiş məhsulların tərkibinə daxil edilir. Sex və təsərrüfatların əsas, köməkçi və xidmətedici sex və təsərrüfatlara ayrılması nəticəsində ədəbiyyatlarda və təcrübədə bəzən «Əsas işlər», «Köməkçi işlər», «Əsas fəhlələr», «Köməkçi fəhlələr», «Əsas materiallar», «Köməkçi materiallar», «Əsas iş yerləri», «Köməkçi iş yerləri», «Əsas avadanlıq», «Köməkçi avadanlıq» və s. bu kimi terminlərə, sözlərə rast gəlinir.

Müəssisə miqyasında həyata keçirilən xidmət işləri mürəkkəblik dərəcəsindən və əhəmiyyətindən asılı olaraq standart, planlı-xəbərdarlıq və çağırışçı texniki xidmət növlərinə ayrılır. Standart texniki xidmət, əsasən, kütləvi və iri seriyalı istehsal şəraitində daha geniş tətbiq edilir və əvvəlcədən işlənib hazırlanmış plan-qrafiklər üzrə yerinə yetirilir. Bu məqsədlə köməkçi və xidmətedici sex və təsərrüfatlarda xüsusi xidmətedici briqadalar, qruplar yaradılır və onlar əsas sex və istehsal sahələrində texniki xidmət ilə əlaqədar olan işləri həyata keçirirlər. Planlı-xəbərdaredici texniki xidmət – orta seriyalı istehsal şəraitində tətbiq edilir və günlük qrafiklərə əsaslanır. Çağırışçı texniki xidmət – kiçik və fərdi istehsal şəraitində tətbiq edilir və burada da növbə-günlük tapşırıqlar, sifarişlər əsas təşkil edir.

Qeyd etdiyimiz kimi, hazırda köməkçi və xidmətedici sex və təsərrüfatların təşkilinə və təkmilləşdirilməsinə, onların maddi-texniki bazasının möhkəmləndirilməsinə, xidmət sahədə çalışan işçilərin əməyinin mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsinə diqqət xeyli artmışdır. Bununla belə, sənaye müəssisələrinin tərkibində köməkçi və xidmətedici sex və təsərrüfatların sayı az deyildir. Deməli, istehsala texniki xidmətin təşkilinin təkmilləşdirilməsi aktual problemlərdən biridir. Hazırda istehsala texniki xidmətin təşkilinin təkmilləşdirilməsinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir:

***a) eyni xarakterli texniki xidmət işlərinin mərkəzləşdirilməsi*** – sənaye müəssisələrində xüsusi ixtisaslaşdırılmış emalatxanaların yaradılmasına imkan verir ki, bu da mütərəqqi və daha məhsuldar avadanlıqlardan istifadə etməyə şərait yaradır, xidmət işlərinin dəyərini azaldır və onların keyfiyyətini yüksəldir, əməyin və xidmətin təşkilini sadələşdirir və xidmətçi işçilərin əmək məhsuldarlığını yüksəldir;



***b) xidmət işlərinin ixtisaslaşdırılması*** – texnoloji alət və təchizatların hazırlanması, bərpası və təmiri ilə əlaqədar olan əməliyyatların həyata keçirilməsi üzrə xüsusi ixtisaslaşdırılmış təmirçi briqadaların, qrupların yaradılmasına imkan verir. Xidmət işlərinin ixtisaslaşdırılması son zamanlar, digər sahələrdə olduğu kimi, geniş vüsət almışdır, çünki xidmət işlərinin ixtisaslaşdırılması səviyyəsinin yüksəldilməsi – xidmətin təşkilinin təkmilləşdirilməsinin, daha da intensivləşdirilməsinin mühüm amilidir;

***c) hissə və qovşaqların xüsusi ixtisaslaşdırılmış zavodlarda (sexlərdə) hazırlanmasının təşkili*** – onların hazırlanmasına çəkilən xərclərin minimuma endirilməsinə imkan verir, müəssisənin istehsal quruluşunu sadələşdirir, çünki bu zaman hissə və qovşaqların hazırlanması ilə bilavasitə bağlı olan sex və təsərrüfatlar ixtisar edilir. Hazırda kütləvi və iri seriyalı istehsal şəraitində istifadə olunan hissə və qovşaqların əksəriyyəti ixtisaslaşdırılmış zavodlarda hazırlanır və müəssisələr tərəfindən satın alınır. İxtisaslaşdırılmış xidmət xidmətin yekcinsliyi, xüsusi avadanlığın və bunlara müvafiq ixtisaslaşdırılmış xidmətçilərin olması ilə səciyyələnir. O, eyni zamanda elmi-texniki tərəqqinin həm şərti və həm də nəticəsidir;

***ç) sənaye müəssisələrində ixtisaslaşdırılmış anbarların yaradılması*** – kənardan xammal və materialların, yanacaq-enerji resurslarının qəbulunu, saxlanılmasını, çeşidlənməsini, markalanmasını, komplektləşdirilməsini, uçota alınmasını və paylanması proseslərini sürətləndirir və çəkilən xərcləri azaltmağa imkan verir;

***d) sənaye müəssisələrinin tərkibindən avtomobil və dəmiryol nəqliyyatlarının ayrılması***, yəni nəqliyyat vasitələrinin təmərküzləşdirilməsi, Bu iri avtobazaların yaradılmasına imkan verir ki, bu da nəqliyyat əməliyyatlarının yerinə yetirilməsinə çəkilən xərcləri azaldır, avtonəqliyyatda əmək məhsuldarlığını yüksəldir, nəqliyyat xidmətinin keyfiyyətini yaxşılaşdırır, yükləmə-boşaltma işlərinin təşkili səviyyəsini yüksəldir və s. Lakin, nəqliyyat vasitələrinin təmərküzləşdirilməsini elə etmək

lazımdır ki, o, müəssisənin mövcud ehtiyatlarından daha səmərəli istifadə etməklə xidmətlərin daha yaxşı yerinə yetirilməsini, yüksək son nəticələrə nail olunmasını təmin etmiş olsun;

***e) köməkçi və xidmətedici sex və təsərrüfatlarının tam təsərrüfat hesabına, yəni özxərclərini ödəmə və özünümaliyyələşdirmə prinsiplərinə keçirilməsi.*** Bu, həmin sex və təsərrüfatlarda çalışan işçilərin yüksək son nəticələr əldə edilməsinə marağını artırır, əmək məhsuldarlığının yüksəldilməsi və qənaət rejiminə əməl olunması üçün şərait yaradır.

## 12.7. ABƏŞ və onun yaradılmasının siyasi-iqtisadi əhəmiyyəti

Məlumdur ki, Azərbaycan bu günə kimi 15 ölkədən olan 34 şirkətlə 26 neft kontraktları imzalamışdır. Kontraktlar üzrə investisiyaların proqnozlaşdırılan həcmi 60 milyard dollar, kontrakt sahələrində proqnozlaşdırılan ehtiyatlar 4 milyard ton şərti yanacaq hesab edilir. 1994-cü ildən bu vaxta qədər qoyulan sərmayənin həcmi 8 milyard dollara yaxınlaşıb. Deməli, kontraktların müvəffəqiyyətlə həyata keçirilməsi mühüm əhəmiyyət kəsb edən problemlərdən biridir. Odur ki, bu problemi layiqincə həll etmək üçün Azərbaycan Beynəlxalq Əməliyyat Şirkətinin (ABƏŞ) yaradılması zərurəti meydana gəlmişdir.

***ABƏŞ 1994-cü ildə Xarici Neft Şirkətləri konsorsiumu ilə ARDNŞ arasında «Çıraq», «Azəri» neft yataqlarının və «Günəşli» yatağının Xəzərin dərinliklərində yerləşən hissəsinin birgə işlənməsi və Neft Hasilatının Pay Bölgüsü haqqında Saziş (HPBS) imzalandıqdan sonra, sazişi həyata keçirmək üçün illik İş Proqramlarının icrası məqsədi ilə yaradılıb. ABƏŞ gəlirsiz və büdcəsində kəsiri olmayan bir əməliyyat şirkətidir. Onun büdcəsi və iş proqramları hər il Azərbaycan hökuməti, ARDNŞ və xarici neft şirkətləri nümayəndələrindən ibarət Rəhbər Komitə tərəfindən təsdiq olunur. Komplektləşdirilmiş ştat sayına malikdir və Azərbaycan hökuməti qarşısında yerli işçilərin işə götürülməsi ilə bağlı öhdəliyi var.***

İndiyədək ABƏŞ xətti ilə tammiqyaslı işlənmə fazalarına qədər iki ilkin proqram həyata keçirilib. Bunlardan birincisi Məcburi İşlərin Minimum Proqramı; ikincisi isə İlkin Neft Layihəsi olub. Birinci layihə ABƏŞ-in ilkin iş proqramının əsasını təşkil edib. Bu proqrama görə, ABƏŞ öz üzərinə 9 öhdəlik götürüb və onları yerinə yetirib. Öhdəliklər çərçivəsində kontrakt sahəsində üçölçülü seysmik tədqiqat aparılıb, ərazidə geofiziki və geotexniki tədqiqat işlərindən ibarət mürəkkəb proqram həyata keçirilib, «Çıraq-1» platforması yoxlanılıb (müayinədən keçirilib), sahədə ətraf mühitin ilkin tədqiqatı aparılıb, 3 qiymətləndirmə quyusu qazılıb. Bundan başqa, ilkin ixrac kəmərləri müəyyənləşdirilib. 1996-cı ilin yanvarında Rusiya ilə, martında isə Gürcüstanla hökumətlərarası nəqliyyat sənədləri imzalanıb.



İkinci layihə 1995-ci ilin oktyabrından 1997-ci ilin sonlarına olan dövrü əhatə edib. Proqramın məqsədi «Çıraq-1» platformasından ilk neft hasilatını təmin etmək, ilkin kəmərlərin çəkilişi və neftin Qara dənizə ixracını reallaşdırmaq olub. Layihə hasilat platforması, neft və qaz boru xətlərindən istifadə etməklə ixrac sisteminin qurulması, Səngəçalda və Supsada yeni terminalların tikintisi və ilkin neftin daşınması üçün iki ixrac boru kəmərlərinin çəkilməsini nəzərdə tutub. Proqramın əsas nəticəsi 1997-ci il noyabrın 7-də «Çıraq-1» platformasından ilkin neftin hasilatı olub.

Hazırda ABƏŞ «Əsrin müqaviləsi» çərçivəsində tammiqyaslı işlənmə Layihəsinin 1 və 2-ci Fazası tam həyata keçirilmiş və «Faza-3» Layihəsi start götürmüşdür. «Faza-3» Layihəsinin həyata keçirilməsi 2008-ci ilin ortalarında «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsində neft hasilatına başlamağa imkan verəcəkdir. Məlumat üçün qeyd edək ki, «Günəşli» yatağı Bakıdan 120 km şərqdə yerləşir. Adı çəkilən yatağın dayaz hissəsi ilə «Çıraq» yatağının arasında yerləşən sahədə dənizin dərinliyi 175 metrdir. «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsinin çıxarıla bilən ehtiyatları təqribən 176 milyon tondur. Bundan əlavə, istismar müddətində buradan 350 milyon standart kub fut səmt qazının çıxarılması da gözlənilir. «Faza-3» layihəsi üzrə neft hasilatına 2009-cu ilin ortalarında başlanılacaq. Burada gündəlik neft hasilatının təxminən 300 min barel olacağı gözlənilir. Bütövlükdə isə «Faza-3» layihəsinin reallaşdırılması «Azəri», «Çıraq» və «Günəşli» müqavilə sahəsində gündəlik hasilatın bir milyon barelindən çox olacaqdır. Yanacaq tələbatları üçün işlədiləcək qaz istisna olmaqla bütün səmt qazı Azərbay-

canın qazpaylama sisteminə təmənnasız təhvil veriləcək.

«Faza-3» layihəsinin ümumi dəyəri 4,7 milyard dollardır. Həmin vəsaitin 3,2 milyard dolları obyektlərin tikintisinə, qalan hissəsi isə sualtı suvarma quyularının qazılmasına, eləcə də hasilat dövründə platformadan istismar quyularının qazılmasına sərf olunacaq.

Məlumat üçün qeyd edək ki, «Faza-3» layihəsinin dəniz obyektləri əsasən «Mərkəzi Azəri» obyektləri ilə oxşar olacaq. Dəni-z obyektlərinə suyun 175 metr dərinliyində yerləşən bir 48 quyu gövdəsinə malik qazma, texnoloji təchizat və yaşayış platforması, eləcə də ona körpü ilə birləşdiriləcək bir hasilat, kompressor, suvurma və texnoloji təchizat platforması daxildir. Hər iki platforma ilk neft əldə edilənədək istismara veriləcək. Lay təzyiqini sabit saxlamaq və hasilatın sürətli artımına şərait yaratmaq məqsədilə ilkin neftin əldə olunmasından əvvəl qazılacaq 10 suvurma quyusu üçün iki sualtı monifold quraşdırılacaq.

«Günəşli» yatağının dərinlikdə yerləşən hissəsində quraşdırılacaq dəniz obyektləri hazırda istismarda olan «Çıraq» yatağının qərb hissəsindəki potensial ehtiyatların işlənməsinə də imkan verəcəkdir. Bütövlükdə isə neft Səngəçal terminalına «Azəri» layihəsi üçün tikilmiş 30 düyməlik boru kəmərinə birləşdiriləcək yeni yataqdakı boru kəməri vasitəsilə nəql olunacaq. Hasil olunacaq səmt qazı isə sıxıldıqdan sonra 28 düyməlik sualtı qaz boru kəməri ilə adı çəkilən terminala çatdırılacaq.

«Faza-3» layihəsi çərçivəsində çıxarılacaq nefti və qazı qəbul etmək üçün Səngəçal terminalında əlavə genişləndirmə işləri aparılacaq. Neftin texnoloji emalı üçün iki ədəd texnoloji emal sistemi yaradılacaq, tutumu 800 min barel olan daha bir neft çəni və əlavə qaza nəzarət qurğusu inşa olunacaq.

Yeri gəlmişkən bildirək ki, «Faza-3» layihəsinə başlamağa dair qərarın qəbul edildiyi gün həmçinin ümumi dəyəri 1,1 milyard dollar olan 12 əsas tikinti müqaviləsi də imzalanmışdır. Bu müqavilələr ABƏŞ tərəfindən aparılmış geniş danışıqlar prosesi nəticəsində hazırlanmışdır. Təxminən altı ay çəkmiş danışıqlar prosesi «Faza – 1» və «Faza – 2» layihələri çərçivəsində Bakıda və digər yerlərdə hazırda davam etməkdə olan tikinti fəaliyyətlərindən indiyədək əldə edilmiş təcrübəyə əsaslanmışdır. «Faza-3» layihəsi üçün əsas müqavilələr isə aşağıdakılardan ibarətdir:



– «Halliburton İnternəşnl İnk» şirkəti ilə imzalanmış dəyəri təxminən 160 milyon dollar olan müqavilə mühəndis-layihə və tədarük xidmətlərinə dəstəyin təmin edilməsinə aiddir. Artıq müqavilədə nəzərdə tutulmuş müfəssəl mühəndis-layihə işlərinə başlanılıb və bu 2006-cı ilədək davam edəcək. Bu işlər London və Bakı şəhərlərində yerinə yetiriləcək;

– ARDNŞ-in Heydər Əliyev adına Bakı Dərin Özüllər zavodu ilə birgə müəssisəsi olan «Bos Şelf»lə platformaların dayaq bloklarının tikinti-quraşdırma sahəsində quraşdırılmasına dair imzalanmış müqavilənin dəyəri 200 milyon dollara yaxındır. Bu işlərə iki dayaq blokunun, bir sualtı dayaq davasının və onunla əlaqədar payaların quraşdırılması və yığılması daxildir. Quraşdırma işlərinə 2005-ci ilin birinci rübündə başlanılmış və 2007-ci ilin ikinci rübündə başa çatdırılacaq;

– «MakDermon Caspian Contraktors İnk» şirkəti və «Bos Şelf» birgə müəssisəsi ilə imzalanmış müqavilə qazma, texnoloji təchizat və yaşayış platformasının birləşmiş göyərtəsinin Heydər Əliyev adına Bakı Dərin Özüllər zavodunda quraşdırılması, yığılması, nizamlanması və istismara verilməsini nəzərdə tutur. 2007-ci ilin ikinci rübünədək başa çatdırılacaq bu müqavilənin dəyəri isə 140 milyon dollar olacaq;

– texnoloji emal, qaz kompressoru, suvurma və texnoloji təchizat platformasının birləşmiş göyərtisinin Bibiheybətdəki tikinti-quraşdırma obyektində quraşdırılması, yığılması, nizamlanması və istifadəyə verilməsinə dair müqavilə Amerk-Tekfon-Azfen konsorsiumu ilə imzalanmışdır. Dəyəri 175 milyon dollar olan həmin müqavilə üzrə nəzərdə tutulmuş işlərin bir hissəsi «Tekfen» şirkətinin Ceyhanadək obyektində yerinə yetiriləcək;

– İtalyanın «Saupem SA» şirkəti ilə imzalanmış müqavilə dayaq tavasının, platformaların dayaq bloklarının daşınması, dənizdə quraşdırılması və platformaların birləşmiş göyərtələrinin gəmidən sürüşdürülərək dayaq bloku üzərində oturdulmasını nəzərdə tutur. Bu işlərin yerinə yetirilməsi üçün ARDNŞ-in «Azərbaycan» kran və STB-1 daşıma barjlarından istifadə olunacaq. Daşıma və dənizdə quraşdırma əməliyyatlarına təxminən 90 milyon dollar həcmində vəsaitin xərclənməsi nəzərdə

tutulmuşdur. Bundan əlavə, gəmilərin modernləşdirilməsinə 50 milyon dollar sərf ediləcəkdir;

– İsveçin «Formadul Emtunqa AB» şirkəti ilə imzalanmış müqavilə. Qazma, texniki təchizat və yaşayış platformasının yaşayış blokunun mühəndis-layihə, tədarük və tikinti işlərini əhatə edən həmin müqavilənin dəyəri isə 22 milyon dollardır. Qeyd edək ki, işlərin əksəriyyəti İsveçdə, yığma və sınaq işləri isə Bakıda həyata keçiriləcək;

– «Günəşli» yatağının dərinlikdə yerləşən hissəsində istismara veriləcək qazma, texniki təchizat və yaşayış platformasının qazma modullarının quraşdırılması üzrə müqavilə Niderlandın «Merkon Stil Strakçəz BV» şirkəti ilə imzalanıb. 2006-cı ilin ikinci rübünədək tamamlanması nəzərdə tutulan bu işlərə 50 milyon dollar həcmində vəsait xərclənəcək;

– qazma, texniki təchizat və yaşayış platformasının qazma modullarının mühəndis-layihə və tədarük işləri isə Böyük Britaniyanın «KSA Doytaq Limited» şirkəti yerinə yetirəcək. 2007-ci ilin üçüncü rübünədək başa çatdırılması nəzərdə tutulan bu müqavilənin dəyəri 10 milyon dollardır;

– yataqdaxili və sualtı suvurma obyektlərinin quraşdırılması ilə bağlı müqavilə «MakDermoti Caspian Contraktors İnk»«şirkəti ilə imzalanıb. Bu müqavilənin dəyəri 90 milyon dollardır. Adı çəkilən şirkətlə sualtı boru kəmərlərinin quraşdırılması üçün mövcud müqavilə də imzalanmışdır. Bu da yataqdaxili boru və axın xətlərinin, həmçinin sualtı qurğuların tikintisini əhatə edəcək. Tikinti işləri 200502006-cı illərdə, birləşdirmə işləri isə bir sonra, yəni 2007-ci ildə başa çatdırılacaq. Bu zaman «İsrafil Hüseynov» gəmisindən istifadə ediləcək;

– Səngəçal terminalının genişləndirilməsi proqramının podratçısı olan «Tekfen-Azfen» konsorsiumu ilə obyektlərin əlavə genişləndirilməsinə dair imzalanmış müqavilənin dəyəri isə 80 milyon dollardır. 2005-ci ilin əvvəllərində bu işlərə başlanmış və 2008-ci ilin ikinci rübündə başa çatdırılması nəzərdə tutulmuşdur;

– «Faza-3» layihəsinə dair son iki əsas müqavilə sualtı nəzarət sistemlərinin və sualtı fontanabənzər armaturların təchizatı ilə bağlıdır. «Vetko Qrey Kontrolz Limited» şirkəti ilə imzalanmış müqaviləyə əsasən Böyük Britaniyada istehsal olunacaq sualtı



nəzarət sistemləri 2006-cı ilin üçüncü rübünədək Bakıya gətirilməlidir. Bu işlər üçün 10 milyon dollar həcmində vəsaitin xərclənməsi nəzərdə tutulmuşdur. Həmin ölkədə istehsal olunacaq sualtı fontanabənzər artmaturların təchizatına dair 15 milyon dollarlıq müqavilə isə «Kuper Kamerton Limited» şirkəti ilə imzalanıb.

Bütün bu müqavilələrdə ABƏŞ Azərbaycanın yerli ehtiyatlarından optimal istifadə öhdəliyini saxlayır. Tikinti işləri zamanı Azərbaycanın infrastruktur imkanlarından geniş istifadə olunacaq. Belə ki, üst modullar və dayaq blokları Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun və Bibiheybətdəki tikinti-quraşdırma sahələrində inşa ediləcək. ARDNŞ-in «Xəzərdənizneftdonanması» İdarəsinin borudüzmə, kran, daşıma barjları və dəniz donanması da işlərə cəlb ediləcək. Yerli subpodratçıların imkanlarından da maksimum istifadə olunması da davam etdiriləcək, tikintidə çalışan işçilərin 80%-dən çoxu Azərbaycan vətəndaşlarından ibarət olacaq.

Məlumat üçün qeyd edək ki, ABƏŞ Azərbaycanda işsizliyin aradan qaldırılmasında, deməli məşğulluq probleminin həllində mühüm rol oynayacaqdır. Belə ki, ARDNŞ-in bağladığı Hasilatın Pay Bölgüsü Sazişində (HPBS) Azərbaycan Respublikası üçün əlverişli şərtlər nəzərdə tutulmuşdur. Bu şərtlərdən biri kimi Podratçının əməliyyatların səmərəliliyi tələblərini nəzərə alaraq mümkün hədlərdə Birgə Əməliyyat Şirkətlərindən Azərbaycan Respublikası vətəndaşlarının işə götürülməsinə üstünlük verilməsini göstərmək olar. Vətəndaşların işə götürülməsi Birgə Əməliyyat Şirkətinin vaxtaşırı təqdim etdiyi siyahıya əsasən ARDNŞ-in tövsiyəsi üzrə baş verir. Bu zaman ARDNŞ-in tövsiyə etdiyi namizədlər işə qəbul edildikdən sonra boş yerlər qalarsa, Birgə Əməliyyat Şirkətinin ixtiyarı vardır ki, Birgə Əməliyyat Şirkətində və ya subpodratçıların təşkilatlarında öz mülahizəsi üzrə Azərbaycan Respublikasının vətəndaşlarını işə qəbul etsin. Birgə Əməliyyat Şirkətində çalışacaq işçi heyətində Azərbaycan vətəndaşlarının sayı aşağıdakı nisbətdə olmalıdır:

Yatağın tam miqyasda işlənilməsinədək:

| | |
|---|---|
| Mühəndis-texniki işçilər | 30-50% |
| Fəhlə heyəti | 70% |

Yataqların tam miqyaslı işlənməsi ilə hasilat başlananda:

Mühəndis-texniki işçilər 75%
Fəhlə heyəti 85%
Yatağın tam miqyasda işlənməsindən 5 il sonra:
Mühəndis-texniki işçilər 90%
Fəhlə heyəti 95%

İşçi heyətinin bu istiqamətdə müəyyənləşdirilməsi sazişlərin uzunmüddətli olması baxımından çox əlverişlidir. Lakin əgər nəzərə alınsa ki, Azərbaycan vətəndaşları işə ARDNŞ-in tövsiyəsi ilə götürülürlər və bu prosesin özü kifayət qədər şəffaf deyil, onda işəgötürülənlərin obyektiv və hamı üçün bərabər imkanlar səviyyəsində keçirilməsi barədə danışmaq mümkün deyil.

Podratçı Azərbaycan Respublikasının vətəndaşları olan kadrlara neft-qaz əməliyyatları ilə bağlı peşə öyrənilməsini təmin edir. Podratçının bu məqsədlərlə bağlı çəkəcəyi xərclər Rəhbər Komitə tərəfindən təsdiq olunur və bunlar neft-qaz əməliyyatları üçün məsrəflərin tərkibinə daxil edilir. 2004-cü ilin əvvəlinədək ABƏŞ-də 1100 nəfərə yaxın işçi çalışıb ki, onlardan da 800 nəfəri yerli vətəndaşlar olub.

Məlumat üçün qeyd edək ki, ABƏŞ-də çalışan xarici vətəndaşların aldıqları əmək haqqı ilə yerli vətəndaşların aldıqları əmək haqqı arasında xeyli fərq vardır. Xarici neft şirkətlərinin rəhbərliyi bildirir ki, neft sazişlərinin həyata keçirilməsi zamanı vətəndaşların olmaması səbəbindən işlərə əcnəbi mütəxəssislər dəvət edilir. Bu zaman həmin mütəxəssislərə onların mənsub olduğu ölkədə onların işi müqabilində verilən əmək haqqından az olmayaraq əmək haqqı ödənilir. Odur ki, yerli və əcnəbi işçilərin əmək haqqı arasında fərq bir sıra hallarda 4-5 dəfədən də çox olur. 2003-cü ilin məlumatına görə, neft şirkətlərinin də daxil olduğu mədənçıxarma sənayesində işçilərin orta aylıq əmək haqqı dövlət müəssisələrində 689228,8 manat, qeyri-dövlət müəssisələrində isə 5011197,4 manat olub. Ümumiyyətlə, mədənçıxarma sənayesində muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı haqqında məlumatlar cədvəl 82-də verilmişdir.

Azərbaycan iqtisadiyyatının inkişafında və ölkənin sosial problemlərinin həllində ABƏŞ mühüm rol oynayır. Bununla izah edilir ki, ABƏŞ dövlət büdcəsində hər il xeyli miqdarda vergi şəkilində vəsait ödəyir. Deməli, Azərbaycanın «Əsrin müqaviləsi» çərçivəsində gəlirləri təkcə mənfəət neftindən əldə edilən gəlirlərdən deyil, həm də xarici neft şirkətlərindən aldığı neft bonusları, vergi ödəmələri və yerli podratçılara sifarişlərdən formalaşır. Bu baxımdan mühüm maliyyə mənbələrindən biri də Əməliyyat Şirkətinin vergi ödəmələridir. ABƏŞ son illərdə Azərbaycan büdcəsinin əsas donorlarından birinə çevrilmişdir. İndiyə qədər ABƏŞ dövlət büdcəsinə 115 mln. dollardan artıq vergi, sosial ödənişlər formasında isə 310 mln. dollar həcmində vəsait ödəyib. Təkcə 2002-ci ildə ABƏŞ-in dövlət büdcəsinə keçirdiyi verginin məbləği 60,5 milyard manat olub. Beləliklə, mübaliğəsiz demək olar ki, ARDNŞ hazırda ölkə iqtisadiyyatının bel sümüyüdür. Şirkətin və onun tərkibinə daxil olan müəssisələrin əmlakı dövlət mülkiyyətindədir. Şirkət onda olan dövlət əmlakına münasibətdə qanunvericiliklə müəyyən edilmiş qaydada və hədlərdə sahibliyi, istifadəni və sərəncam verilməsini həyata keçirir.



*Cədvəl 82*

***Mədənçıxarma sənayesində muzdla işləyənlərin orta aylıq nominal əmək haqqı, manat***

| İllər | Cəmi | Dövlət sektorunda | Qeyri-dövlət sektorunda |
|---|---|---|---|
| 1999 | 630124,2 | 526826,9 | 1245641,5 |
| 2000 | 814539,6 | 611784,3 | 2843204,9 |
| 2001 | 1090745,1 | 588795,8 | 3076777,3 |
| 2002 | 1290457,7 | 624245,9 | 4251210,7 |
| 2003 | 1444922,7 | 689228,8 | 5011197,4 |
| 2004 | 2255640,0 | 847600,0 | 7775000,0 |

ARDNŞ-in əmlakı əsas fondlardan, dövriyyə vəsaitlərindən və digər maddi və qeyri-maddi aktivlərdən ibarətdir. Şirkətin əmlakı onun müstəqil balansında əks olunur. Şirkətin əmlakı aşağıda göstərilən mənbələr hesabına təşkil olunur:

a) kommersiya fəaliyyətinin həyata keçirilməsindən əldə edilən gəlir;

b) bankların və digər kreditorların kreditlərindən;

c) mülkiyyətçi və ya mülkiyyətçi tərəfindən səlahiyyətləndirilmiş orqan tərəfindən verilən əmlak;

ç) qanunvericiliklə qadağan olunmayan digər mənbələr.

ARDNŞ qanunvericiliklə nəzərdə tutulmuş vergiləri və digər

məcburi ödəmələri müəyyən edilmiş qaydada ödədikdən sonra, fəaliyyətindən əldə etdiyi gəlirə müstəqil sərəncam vermək hüququna malikdir. ARDNŞ dövlət büdcəsinə daxil olan bütün vəsaitlərin yarısına qədərini verir.

Neft müqavilələrinin reallaşdırılması ölkənin neft sektorunda fəaliyyət göstərən şirkətlərin sayının artmasına səbəb olub. Rəsmi məlumata əsasən, hazırda ölkəmizdə neft sahəsi ilə məşğul olan 400-dək müxtəlif şirkətlər fəaliyyət göstərir. Bu baxımdan xarici neft şirkətlərinin, həm əməliyyatçı, həm də podratçı və subpodratçı şirkətlərin vergilərə cəlb olunması məsələsi xüsusi maraq kəsb edir. Azərbaycanda karbohidrogen fəaliyyəti ilə məşğul olan Əməliyyat Şirkətlərinin vergiyə cəlb olunması prinsipləri ayrıca razılaşma protokolu ilə tənzimlənir. Bu fəaliyyət növü ilə məşğul olan şirkətlər bütün növ dolayı vergilərdən azaddırlar.

Qanunla təsdiq olunmuş hasilatın pay bölgüsü haqqında, Əsas İxrac Boru Kəməri haqqında və digər bu qəbildən olan sazişlər və ya qanunlar çərçivəsində Azərbaycan Respublikasında fəaliyyət göstərən müəssisə və şirkətlər üçün xüsusi vergi rejimi tətbiq edilir və belə müəssisə və şirkətlər «Xüsusi vergi rejimi müəssisə və şirkətlər» hesab edilir.

«Xüsusi vergi rejimi» dedikdə, müəyyən dövr ərzində vergilərin hesablanması və ödənilməsinin xüsusi qaydası nəzərdə tutulur. Qanun qüvvəsinə malik hər bir sazişdə, müəyyən edilən dövr ərzində bu saziş çərçivəsində fəaliyyət göstərən xüsusi vergi rejimli müəssisə və şirkətlər tərəfindən vergilərin hesablanması və ödənilməsi qaydası müəyyən edilmişdir. Bundan əlavə, sazişlərdən irəli gələn vergilərin tətbiqi və alınması mexanizmi Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı əsasında yaradılan İşçi Komissiyası ilə Podrat tərəflər arasında imzalanan Protokollarda (bu protokollarda «Mənfəət vergisi haqqında», «Əlavə dəyər vergisi haqqında», «Xarici subpodratçıların vergiyə cəlb edilməsi haqqında», «Əməkdaşlar və fiziki şəxslərin vergiyə cəlb edilməsi haqqında», «İdxal və ixrac vergiləri haqqında» qanunlar öz əksini tapır) tənzimlənir.

Sazişlər üzrə nəzərdə tutulmuş neft və qaz yataqlarının kəşfiyyatı və işlənməsi məqsədilə podratçı tərəflər müxtəlif işlərin yerinə yetirilməsi üçün subpodratçı təşkilatları, o cümlədən xarici subpodratçıları (Azərbaycan Respublikasında karbohidrogen fəaliyyəti məşğul olan və xarici dövlətlərin qanunvericiliyinə uyğun olaraq Azərbaycan Respublikasının hüdudlarından kənarda yaradılmış hüquqi şəxslər) karbohidrogen əməliyyatlarına cəlb edirlər. Xarici subpodratçılar üçün karbohidrogen fəaliyyəti ilə bağlı mənfəət vergisinin hesablanmasının sadələşdirilmiş mexanizmi müəyyən olunub. Belə ki, xarici subpodratçılar karbohidrogen fəaliyyətindən əldə etdikləri gəlirlərdən yalnız ödəniş mənbəyində mənfəət vergisinin ödəyiciləridirlər. Bu verginin dərəcəsi hər bir saziş üzrə, sazişin imzalandığı tarixə Azərbaycan Respublikasının vergi qanunvericiliyində mövcud olan mənfəət vergisi dərəcəsindən asılı olaraq 5%, 6,2%, 7,5% və 8% həcmində müəyyən edilib. Xarici subpodratçılarla ödənişlər aparan hər hansı bir şəxs həmin ödənişlərdən bu vergini tutur və ödəmə tarixindən sonra 30 gün ərzində dövlət büdcəsinə ödəyir. Görülmüş iş və ya göstərilən xidmətlərə (işlərə) görə xarici subpodratçılara aparılan ödənişlərdən mənfəət vergisindən başqa, heç bir vergi tutulmur və bununla da xarici subpodratçının vergi məsuliyyəti və öhdəlikləri tamamilə yerinə yetirilmiş hesab olunur.



Podratçı tərəflər isə karbohidrogen fəaliyyətindən əldə etdikləri mənfəətdən sazişin imzalandığı tarixdən Azərbaycan Respublikasının vergi qanunvericiliyində qüvvədə olan dərəcə ilə mənfəət vergisi ödəyirlər. Podratçı tərəflərin vergiyə cəlb olunan mənfəətinin hesablanması və xüsusiyyətləri hər bir saziş üzrə ayrı-ayrılıqda müəyyən edilir.

Sazişlərə müvafiq olaraq podratçı tərəfin, Əməliyyat Şirkətinin və ya onların ortaq şirkətlərinin, habelə subpodratçı müəssisələrin əməkdaşları, həmçinin xarici subpodratçı kimi fəaliyyət göstərən fiziki şəxslər – rezidentlər ölkəmizdəki əmək fəaliyyəti nəticəsində əldə etdikləri gəlirləri Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş qaydada və dərəcələrlə gəlir vergisi ödəyirlər və vergi orqanlarına müvafiq Protokolda nəzərdə tutulmuş formada hesabatlar təqdim edirlər.

Məlumat üçün qeyd edək ki, xarici əməkdaşların rezidentliyinin müəyyən edilməsində və onlardan vergi tutulmasında bəzi xüsusiyyətlər vardır. Karbohidrogenlərlə bağlı fəaliyyət göstərən xarici əməkdaşlar aşağıdakı şərtlərdən hər hansı birinə əməl edilməklə rezident hesab edilirlər:

– təqvim ili ərzində Azərbaycan Respublikasında ardıcıl olaraq 30 gündən artıq müddətdə əldə edilmiş gəlirlərdən ödənilir. Bu şəxslərin Azərbaycana hər gəlişi 30 ardıcıl gündən az, lakin

təqvim ili ərzində üst-üstə 90 gündən çox olarsa, vergi 90 gündən artıq olan günlər ərzində əldə edilmiş gəlirdən ödənilir;
– təqvim ili ərzində Azərbaycan Respublikasında nəzərdə tutulmuş qrafik üzrə işləyən xarici vətəndaşlar (rotatorlar təqvim ili ərzində 90 günədək olduqda, onlardan vergi tutulmur. Bu şəxslər, təqvim ili ərzində Azərbaycanda 90 gündən artıq qaldıqda, həmin 90 günün gəlirləri daxil olmaqla, ilk gündən başlayaraq əldə etdikləri gəlirdən vergi ödəməlidirlər.

Yuxarıda deyilənlərdən başqa, sazişlər çərçivəsində fəaliyyət göstərən şirkətlər tərəfindən karbohidrogen fəaliyyəti ilə bağlı olaraq onlara birbaşa və ya dolayısı ilə təqdim olunan, yaxud idxal olunan mallar, görülən işlər və ya göstərilən xidmətlər əlavə dəyər vergisindən azaddır. Mövcud qanunvericiliyə əsasən karbohidrogen fəaliyyəti ilə bağlı olan əməliyyatların əlavə dəyər vergisindən azad olunması haqqında podratçı tərəflərə, əməliyyat şirkətinə və ya onların ortaq şirkətlərinə, habelə subpodratçılara xüsusi Sertifikatın verilməsi nəzərdə tutulub. Belə Sertifikat, müraciət olunduqdan sonra 30 gün ərzində Vergilər Nazirliyi yanında İri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisə və şirkətlər ilə iş üzrə Departament tərəfindən verilir.

Vergi problemləri ilə bağlı mələləri arasında həmçinin ARDNŞ-in xarici şirkətlərlə yaratdığı birgə müəssisələri də qeyd etmək lazımdır. 1992-1994-cü illərdə müvafiq qanunvericilik və PSA tipli müqavilələr olmadığından dövlət hüquqi şəxslərlə birgə müəssisələr yaradıb. Azərbaycanda üç belə müəssisə var – bunlar «Azgerneft» (Almaniya), «Anshad Petrol» (Türkiyə-Malayziya) və «Shirvan Oil» (Böyük Britaniya) şirkətləridir. Birgə müəssisə formasında fəaliyyət göstərən bu şirkətlər rezident hüquqi şəxslərdir və adi qaydada vergiyə cəlb olunurlar. 2001-2002-ci illərdə xarici neft şirkətlərinin Azərbaycan dövlətinin büdcəsinə ödədikləri vergilərin məbləği haqqında məlumatlar cədvəl 83-də verilmişdir.

Azərbaycanın neft sektoruna yönəldilən investisiyanın əksəriyyəti ABƏŞ xətti ilə həyata keçirilir. «Əsrin müqaviləsi» layihəsi çərçivəsində yatırılan sərmayənin həcmi 2006-cı ilin əvvəlinə təxminən 7,5 milyard dollar təşkil etmişdir. Xərclər bütövlükdə iki istiqamətdə təsnifləşdirilir: əməliyyat və kapital xərcləri. Hər bir layihə başa çatdıqdan sonra, məsələn, İlkin Neft Layihəsi, Faza-1 və s. ilk növbədə sahədən əldə edilən neft tam həcmdə əməliyyat xərclərinin ödənilməsinə yönəldilir. Əməliyyat xərcləri tam qapandıqdan, ödənildikdən sonra əldə edilən neft 50% kapital xərclərinin ödənilməsinə, qalan 50% isə mənfəət nefti formasında bölüşdürülməyə yönəldilir.



*Cədvəl 83*

***2001-2002-ci illərdə bəzi xarici neft şirkətlərinin Azərbaycan büdcəsinə ödədikləri vergilərin məbləği, mln. manat***

| Şirkətlərin adları | 2001 | 2002 |
|---|---|---|
| BP | 112456,4 | 142708,7 |
| ExxonMobil | 17223,1 | 11273,7 |
| TotalFinaElf | 16280,6 | 1405,2 |
| Chevron | 13794,7 | 6050,0 |
| Statoil | 4609,2 | 2738,8 |
| LUKoil | 1765,0 | 501,1 |
| Unokal | 685,4 | – |
| TPAO | 150,9 | 254,5 |
| OLEC | 16,0 | – |
| İtochu | – | 347,4 |
| Delta-Hess | – | 533,0 |
| Agip | – | 1894,1 |
| Devon Energy | – | 629,6 |

Beləliklə, indiyədək ABƏŞ iki layihəni başa çatdırıb. Bu Məcburi İşlərin Minimum Proqramı (MİMP) və İlkin Neft layihəsidir (İNL). ABƏŞ-in ilkin iş proqramının əsasını təşkil edən MİMP-ə görə, ABƏŞ üzərinə 9 öhdəlik götürmüşdür. Öhdəliklərin yerinə yetirilməsinə 1995-ci ildə illik proqram üzrə 77,6 mln., 1996-cı ildə 93 mln., 1997-ci ildə 66 mln. dollar təsdiqlənmiş büdcə ayrılıb. 1995-ci ilin ortalarından 1997-ci ilin sonuna olan dövrü əhatə edən İNL-nin isə məqsədi «Çıraq-1» platformasından ilk neft hasilatına nail olmaq, ilkin neft kəmərlərinin çəkilişi və neftin Qara dənizə ixracını təmin etmək idi. 1995-ci ildə İNL-nin büdcəsi çərçivəsində 48,6 mln., 1996-cı ildə 321,7 mln. və 1997-ci ildə isə 566 mln. dollar həcmində vəsait ayrılıb. İlkin Neft Layihəsinin ən mühüm cəhətlərindən biri indiyədək hər barel neftə 2 dollardan az xərc çəkməklə layihəyə 2 milyard dollar sərmayə qoyulmuşdur ki, həmin məbləğin də təxminən yarısı dənizdəki əməliyyatlara sərf olunmuşdur.

# FƏSİL 13. MİLLİ İQTİSADİYYATIN FORMALAŞDIRILMASINDA QAZ AMİLİ

## 13.1. Milli iqtisadiyyat, onun növləri və formalaşması amilləri

Mövcud ölkənin milli iqtisadiyyatının mahiyyəti elmi-metodoloji yanaşma, onun prinsipləri, meyarı ilə səhih öyrənilə və dəqiq tədqiq oluna bilər. Ümumiyyətlə, obyekti, proses, hadisə elmi-metodoloji prinsiplər əsasında öyrənildikdə təməli olur, səhih bilik əldə edilir. Bu, tamamilə milli iqtisadiyyatın öyrənilməsinə də aiddir.

Elmi və tarixi təcrübə baxımından və mənafelər yanaşması ilə «milli iqtisadiyyat» müxtəlif təbiətli xassələri ifadə edir. Bunun üçün, ən azı, ölkələrin milli iqtisadiyyat modelinin qərarlaşması tarixinə, onların inkişaf qanunauyğunluqlarına, daxili anatomik strukturlarına və nəticə etibarilə, onların xalis milli və iqtisadi mənafelərə uyğun gəlib-gəlməməsi məsələsinə dərindən varmaq lazımdır. Məcmu şəkildə bunların vasitəsi ilə təhlil mövcud ölkənin milli iqtisadiyyat sistemi modelini səciyyələndirmək və müəyyənləşdirmək üçün sanballı elmi yanaşma üsulu hesab edilə bilər.

Deməli, «milli iqtisadiyyat» elə-belə götürüldükdə mücərrəd kateqoriyadır. Zahiri yanaşma yolu ilə onun hansı konkret mahiyyətə malik olması aydınlaşdırılmalıdır. «Milli iqtisadiyyatın» üç növünü fərqləndirirlər: sağlam milli iqtisadiyyat, müstəmləkə xarakterli milli iqtisadiyyat və yarımmüstəmləkə xarakterli milli iqtisadiyyat. Axırıncı iki qrup model təmənnalı asılılıq və iqtisadi struktur dərəcəsi ilə fərqlənən, fəqət bir-birinə nisbətən yaxın olan milli iqtisadiyyat növləridir (modelləridir). Belə milli iqtisadiyyata malik olan ölkələr, regionlar başqa dövlətlər tərəfindən istila edilmələri və qeyri-müstəqil olmaları ilə əlaqədardır. Bunların hər ikisində mövcud ölkənin bilavasitə milli və iqtisadi mənafeləri hesaba alınmır, zorakı və güc üsulu ilə iqtisadiyyat öz təbii-tarixi inkişaf xəttindən sapdırılır. ONların hər ikisinin iqtisadiyyat sistemi dərəcələri müxtəlif olan asılı iqtisadi inkişafyönümlü kimi xarakterizə olunmalıdır.

Müəyyən bir ölkənin milli iqtisadiyyatı kənardan asılı olaraq



formalaşırsa o, mövcud ölkənin, onun xalqının iqtisadi mənafelərini müvafiq şəkildə təcəssüm etdirə bilməz. Burada iqtisadiyyat ümumən xaricdən idarə olunduğu üçün oranın əsas mənafelərinin təzahürünü ifadə edəcəkdir.

Məlumdur ki, Azərbaycan 180 ilə yaxın bir dövrdə çar Rusiyasının, sonra da Sovet imperiyasının tabeçiliyində olmuşdur. Mərkəzdən yeridilən təmənnalı amirlik siyasəti sayəsində iqtisadiyyatımız ümumi mənafeyə uyğun qərarlaşmamışdır. Buna görə də iqtisadiyyatımızın strukturu bütövlükdə qeyri-sağlam xarakter almış, milli mənafelər isə ümumən nominal səciyyə kəsb edirdi.

Azərbaycanın siyasi, hüquqi və iqtisadi müstəqilliyə malik olması, burada Sovet imperiyasının təmənnalı mənafe tabeçiliyi nəticəsində mövcud iqtisadiyyat «sağlam iqtisadi inkişaf» modeli kimi qərarlaşmışdır. Odur ki, buradakı iqtisadiyyat, yuxarıda qeyd etdiyimiz səbəblərə görə sivilizasiyalı, sağlam, normal milli iqtisadiyyat modeli deyildir.

Tarixi təcrübə göstərir ki, «sağlam milli iqtisadiyyat» kateqoriyası ilə o ölkələr xarakterizə olunurlar ki, onlarda real siyasi, hüquqi, milli və ümumiyyətlə, dövlət müstəqilliyi keçmişdə hakim mövqe tutmuş və indi də tutmaqdadır. «Sağlam milli iqtisadiyyat» anlayışı öz adına müvafiq olaraq dolğun mütərəqqi, elmi və əməli məzmuna malikdir. O, aşağıdakı elmi nəticələrə gəlməyə əsas verir:

– mövcud ölkədə milli dövlət, siyasi hakimiyyət tam hökmran vəziyyətdə ardıcıl, müstəqil fəaliyyət göstərməlidir;

– dövlət hakimiyyəti təbii-tarixi prosesə uyğun iqtisadi siyasət yeritməlidir və beləliklə, özünü belə siyasət yeritməkdə qüdrət sahibi kimi göstərməlidir. Bu, hər şeydən öncə öz real ifadəsini mahiyyət etibarı ilə ölkənin milli və iqtisadi mənafeləri və bunlardan irəli gələn təbii inkişaf tələbatını rəhbər tutmaqda tapmalıdır;

– sivilizasiyalı milli iqtisadiyyat heç də təkcə sənayenin inkişafı ilə xarakterizə olunmur. O, digər milli istehsal sahələrinin də ahəngdar inkişafı ilə üzvi surətdə bağlıdır. Bunların arasında aqrar bölmənin öz xüsusi yeri olmalıdır. Maddi istehsal təbii amillərlə çox bağlı olsa da bu amillə kifayətlənib, strukturu yalnız bununla başa çatmış hesab etmək düzgün deyildir. İndi iqti-

sadi cəhətdən inkişaf etmiş ölkələrin heç də hamısı yüksək, hərtərəfli təbii zənginliyə malik deyildir. Amma iqtisadi cəhətdən qüdrətlidirlər. Bu sahədə hakimiyyətin qüdrət sahibi olması, intellektual mülkiyyət mühüm əhəmiyyət kəsb edir;

– iqtisadiyyatın bütün sahələrində sahibkarlığın, xüsusi ilə orta və kiçik sahibkarlığın yaradılması, hərtərəfli inkişafı və normal fəaliyyət göstərmələri üçün əlverişli şərait yaradılmalıdır. Sağlam milli iqtisadiyyatın formalaşmasında və inkişafında sahibkarların, biznesmenlərin fəallığı və əzmkarlığı, əhalinin iş qabiliyyətli hissəsinin işgüzarlığı, milli qeyrət hissi müstəsna əhəmiyyətə malikdir;

– istehsalın bütün infrastruktur sahələri də ahəngdar inkişaf etdirilməlidir. İnfrastruktur dedikdə, istehsalın ümumi şəraitini və adamların həyat fəaliyyətini təmin edən kompleks təsərrüfat sahələri nəzərdə tutulur. İstehsal və sosial-məişət infrastrukturu fərqləndirilir. İstehsal infrastrukturuna bütün nəqliyyat növləri, müxtəlif miqyaslı enerji sistemlərini əmələ gətirən elektrik xətləri, məmulatların verilməsi və işlənməsinin qarşılıqlı təsir vasitələrinin məcmusu, təbii ehtiyatlardan səmərəli istifadəni təmin edən obyektlər və maddi nemətlər istehsalında bilavasitə istifadə edilməyən, lakin istehsalın normal davam etməsi üçün lazım olan sistemlər və qurğular;

– azad iqtisadiyyat, başqa sözlə, sivilizasiyalı bazar münasibətləri real surətdə təşəkkül tapmalıdır. Daxili və xarici ticarət geniş meydan açmalıdır;

– sağlam milli iqtisadiyyat modelində keyfiyyət məsələsi onun bütün dairəsini əhatə etməli, məhsul istehsalı dünya standartları səviyyəsi ilə və beləliklə, rəqabət qabiliyyətli olması ilə xarakterizə olunmalıdır. O, bütün canlı orqanizm kimi mükəmməl anatomik struktura və fizioloji dövrana malik olmalı, burada iqtisadiyyat, müxtəlif istehsal sahələri birmənalı, üzvi bütöv şəkildə formalaşmalıdır. Başqa sözlə, bu obyektiv bir meyl kimi hakim olmalı və belə istiqamət götürməlidir. İqtisadi artım və inkişaf dinamik xarakter almalıdır.

Göründüyü kimi, «sağlam milli iqtisadiyyat» yaratmaq baxımından Azərbaycan dövləti qarşısında mürəkkəb, çətin, lakin şərəfli bir vəzifə durur. Məlumat üçün qeyd edək ki, «milli iqtisadiyyat» anlayışı ilə «makroiqtisadiyyat» anlayışı bir-birlərinə çox yaxındırlar, lakin onlar mahiyyətcə bir-birlərindən xeyli fərqlənirlər. Ölkənin makroiqtisadiyyatı dedikdə, ilk növbədə onun xalq təsərrüfatı sahələrinin məcmusu, orada təkrar istehsalın ünsürlərinin, yəni istehsalın, bölgünün, mübadilənin və istehlakın vəhdəti nəzərdə tutulur. Ölkənin milli iqtisadiyyatı dedikdə isə makroiqtisadiyyatın milli baxımdan, başqa sözlə, onun mənafeləri baxımından vəziyyəti, durumu, mahiyyəti nəzərdə tutulur. Beləliklə, milli iqtisadiyyat bazar münasibətlərinin inkişafının ana xəttini təşkil edir. O, rəqabət qabiliyyətli əmtəə dövriyyəsinə malik olur, iqtisadi sərbəstlik, sabit pul tədavülü, dinamik inkişaf, diversifikasiya meyli, yüksək rifah və s. onda səciyyəvi hal olur. Dünyanın super inkişaf etmiş ölkələri, məsələn, ABŞ, Yaponiya, İsveç, Finlandiya və s. hər şeydən əvvəl yaratdıqları sağlam milli iqtisadiyyatları ilə həmin zirvəni fəth etmişlər.



## 13.2. Milli iqtisadiyyatın inkişafında qaz amilinin rolu və yeri

***Faktiki materialların təhlili göstərir ki, 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun artım tempi 26,4% təşkil edib. 2006-cı ilin yanvar-fevral aylarında 2005-ci ilin müvafiq dövrü ilə müqayisədə ümumi daxili məhsul 50% artıb. Belə bir artım dünya miqyasında heç bir zaman baş verməmişdir. Sənaye məhsulunun artım tempi də əvvəlki illərə nisbətən xeyli artmışdır. Belə ki, 2006-cı ilin əvvəllərində 2005-ci ilin analoji dövrü ilə müqayisədə 40,2% təşkil etmişdir.***

Azərbaycanın neft sənayesinə investisiyaların, o cümlədən xarici investisiyaların artımı nəticəsində ölkədə neft hasilatı 43% çoxalıb. ÜDM istehsalında nəzərə çarpan ciddi irəliləyiş nəticəsində əhalinin gəlirlərinin sürətlə artması müşahidə olunur. 2006-cı ildə Dövlət büdcəsində səhiyyə (44%) və təhsil (25%) xərclərinin xeyli artımı nəzərdə tutulub.

Təbii ki, Azərbaycan yalnız ÜDM-in artımına görə irəliyə getməyib. Azərbaycan böyüklüyünə və əhalisinin sayına görə yeni iş yerlərinin yaradılması baxımından da yüksək nəticələr nümayiş etdirir. Məsələn, son iki il ərzində respublikamızda 349 mindən çox yeni iş yerlərinin yaradılması keçid dövrünün

problemlərini yaşayan ölkələrin əksəriyyəti üçün çox çətindir. Ümumiyyətlə, işsizlik problemi yalnız keçid dövrünü yaşayan ölkələr üçün problem deyil, həmçinin inkişaf etmiş ölkələr üçün də yeni iş yerlərinin yaradılması böyük problemdir. Bir sıra ölkələrdə işsizliyin səviyyəsi təhlükəli həddə yaxınlaşıb. Belə bir şəraitdə Azərbaycanın 340 min yeni iş yerinin yarada bilməsi dünyanın istər siyasi, istərsə də işgüzar dairələrində maraq doğurmaya bilməz. Yeni iş yerləri açılır, əhalinin gəlirləri artır və ölkədə iqtisadi-siyasi islahatların daha da uğurla aparılması üçün zəmin yaranır.

Beləliklə, 2005-ci ildə əldə edilmiş nailiyyətlər belə deməyə əsas verir ki, Azərbaycan hökuməti iqtisadi sahədə əldə etdiyi uğurları 2006-cı ildə də təkrarlayacaq və ölkənin iqtisadi qüdrətini artırmaqla yanaşı, beynəlxalq imicini də yüksəldəcək. Bu il mühüm hadisələrlə əlamətdar olacaqdır. Ölkə Prezidenti İlham Əliyevin sözü ilə desək 2006-cı ildə ölkəmizin gələcəyini müəyyən edən iki nəhəng enerji layihəsi tamamlayacaqdır. Bakı-Tbilisi-Ceyhan neft və Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri. Bu kəmərlər uzun illər Azərbaycana xidmət edəcək, ölkəmizi zənginləşdirəcək, çox ciddi maliyyə resursu bazası yaradacaqdır.

Məlumat üçün qeyd edək ki, təbii qaz təchizatı sisteminin inkişaf istiqamətləri barədə Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramında göstərilmişdir. Dövlət Proqramında qeyd edilir ki, Azərbaycanın qaz təchizatı sistemi özündə aşağıdakıları birləşdirir:

a) 4000 km uzunluğunda, diametri 1000-1200 mm-ə qədər, işçi təzyiqi 55 atmosfer, gündəlik qaz nəqletmə qabiliyyəti 70 milyon kubmetr, illik qaz nəqletmə qabiliyyəti 25 milyard kubmetr olan magistral qaz kəməri və onların qolları;

b) 36 min km-dən çox orta və aşağı təzyiqli qaz kəmərləri;

c) ümumi gücü 200 MVt olan 7 ədəd qaz kompressor stansiyası;

ç) 150 qazpaylayıcı stansiya;

d) aktiv həcmi 3,0 milyard kubmetrə qədər olan 2 yeraltı qaz anbarı;

Təbii qaz təsərrüfatının hazırkı vəziyyəti aşağıdakı kimidir: nəqletmə sisteminə qəbul edilən təbii qazın orta illik həcmi 8 milyard kubmetr, o cümlədən yerli və xarici qazın həcmi 4 milyard kubmetr; bütün iri şəhərləri və 32 rayon mərkəzini qazla təmin edən sistem fəaliyyət göstərir; təbii qazdan istifadə edən əhali abunəçilərinin mənzillərində artıq 67 min ədədə qədər sayğac quraşdırılıb və bu iş indi də davam etdirilir; digər istehlakçılarda sayğaclar quraşdırılır və bu iş davam etdirilir.



Ölkədə qaz təsərrüfatının inkişaf etdirilməsi istiqamətində görüləcək işlər, əsasən aşağıdakılardan ibarət olacaqdır: qaz təsərrüfatının maddi-texniki bazasının yaxşılaşdırılması və möhkəmləndirilməsi; qaz təsərrüfatında maliyyə intizamının gücləndirilməsi; sayğacların quraşdırılmasının sürətləndirilməsi; yığım, ödəmələr və qarşılıqlı borcların həlli istiqamətində tədbirlərin davam etdirilməsi, borcların həcminin azaldılması və maliyyə intizamının gücləndirilməsi investisiya proqramı çərçivəsində «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin inkişafı və texniki təminatı üzrə tədbirlərin həyata keçirilməsi; qazın keyfiyyəti və satış həcminin artırılması, itkilərin azaldılması.

Bütün yuxarıda deyilənlər onu göstərir ki, 2006-cı və daha sonrakı illərdə Azərbaycan iqtisadiyyatının sürətli inkişafının təmin olunmasında yalnız neft amili deyil, qaz amili də mühüm rol oynayacaqdır. Bu sahə «Şahdəniz» qaz yatağının istifadəyə verilməsi həlledici rol oynayacaqdır. Çünki 2006-cı il ölkəmizin regionun qaz ixrac edən bir ölkəsinə çevrilməsinə imkan verəcəkdir.

Məlumat üçün qeyd edək ki, hazırda Azərbaycanda hasil edilən qaz ölkənin daxili tələbatını ödəmədiyi üçün heç bir ölkəyə qaz ixrac olunmur. Son 12 ildə ölkədə qaz hasilatı bütövlükdə aşağı düşüb: 1990-cı ildə 9,926 mln. kubmetrdən 2005-ci ildə 5,820 mln. kubmetrə qədər. Daha ətraflı məlumat almaq üçün 9-cu cədvələ baxmağı məsləhət görürük. Buna baxmayaraq, hazırda «Şahdəniz» qaz-kondensat yatağının işlənməsi ilə əlaqədar Azərbaycan qazının bir sıra ölkələrə ixracı nəzərdə tutulur. Bu yatağın təsdiq olunmuş qaz ehtiyatları əvvəllər 400 mlrd. kubmetr hesab edilirdisə, indi onun həcmi 700 mlrd. kubmetr, ehtimal olunan proqnoz ehtiyatları isə 1 trilyon kubmetr təşkil edir.

Azərbaycan qazının potensial bazarı Türkiyədir. Qazın ixracı ilə əlaqədar Türkiyə, Azərbaycan və Gürcüstan arasında hökumətlərarası saziş imzalanıb. Razılaşmaya görə, Azərbaycan

Türkiyəyə 15 il ərzində hər il 6,6 mlrd. kubmetr olmaqla 89,2 mlrd. kubmetr təbii qaz satacaq. İlk təbii qazın 2006-cı ilin sonlarında Türkiyə bazarına çıxarılması nəzərdə tutulmuşdur. İlkin satış həcmləri ildə 2 mlrd. kubmetr olacaq, sonralar bu göstərici hər il artaraq 2008-ci ildə 6,6 mlrd. kubmetrə çatacaqdır.

Bundan əlavə, Gürcüstan yaxın gələcəkdə hər il Azərbaycandan 0,8 mlrd. kubmetr qaz almağı proqnozlaşdırır. Gürcüstan «Bakı-Tbilisi-Ərzurum» qaz kəmərinin onun ərazisindən çəkilməsinə görə bu dövlətə çatacaq tariflərin əvəzinə ötürülən mavi qazın 5%-ni alacaq. Əgər qaz boru kəməri tam yüklənərsə, Gürcüstan maksimum 1,5 mlrd. kubmetr qaz ala bilər. Bu ölkənin qaza olan hazırkı tələbatının cəmi 750 mln. kubmetr ödəyir.

Türkiyədən sonra Azərbaycan qazının potensial istehlakçısı Yunanıstan ola bilər. Hazırda Yunanıstan Rusiyadan ildə 3 mlrd. kubmetr qaz alır. 2010-cu ilə kimi bu rəqəmin təqribən iki dəfə artırılacağı gözlənilir. Lakin, bu o demək deyildir ki, Yunanıstanın Azərbaycan qazına olan marağı azalacaqdır. Əksinə, Yunanıstan üçün Azərbaycan qazımının əhəmiyyəti getdikcə artacaqdır. Çünki Yunanıstan qazı Sloveniya, Xorvatiya, Almaniya, İtaliya və Fransaya göndərmək niyyətindədir. Artıq Türkiyə və Yunanıstan arasında qaz kəmərinin çəkilişi üçün İtaliyanın «Edison Cas» şirkəti ilə razılaşma protokolu imzalanıb.

Azərbaycanın qaz sistemi iki əsas məsələni həll edir: birincisi, xalq təsərrüfatı obyektlərini və əhalini qazla təchiz etmək; ikincisi, Türkmənistan, Rusiya və İran təbii qazının digər ölkələrə Azərbaycan ərazisi ilə tranzitini təmin etmək.

Azərbaycan qaz nəqletmə sisteminin strukturuna 4000 km uzunluğunda, diametri 1200 mm-ə qədər, işçi təzyiqi 55 atmosfer, gündəlik qaz ötürmə qabiliyyəti 70 milyon kubmetr olan magistral qaz kəmərləri və onun qolları daxildir. Bundan başqa, 36 km-dən çox aşağı və orta təzyiqli qaz kəmərləri, ümumi qüvvəsi 200 MVt olan 7 ədəd kompressor stansiyası və 150 qazpaylayıcı stansiya da sistemin tərkib hissəsidir.

İnfrastrukturun tərkibinə daxil olan qaz kəmərlərini şərti olaraq 4 qrupa ayırmaq olar: tranzit qaz kəmərləri; məntəqə qaz kəmərləri; sistemlərarası texnoloji qaz kəmərləri və ayrı-ayrı istehlakçılara çəkilmiş qaz kəmərləri. Azərbaycanın tranzit qaz kəmərlərinin tərkibinə aşağıdakılar daxildir (cədvəl 84).



*Cədvəl 84*

***Azərbaycanın tranzit qaz kəmərlərinin tərkibi***

| Qaz kəmərlərinin adları | Xətlərin uzunluğu, km | Xətlərin diametri, mm | Xətlərin illik məhsuldarlığı, mlrd.kubmetr | Xətlərdəki işçi təzyiq, atmosfer |
|---|---|---|---|---|
| Mozdok-Qazı Məmməd | 700 | 1200 | 13 | 55 |
| Bind-Baland-Astara-Qazı Məmməd | 1475 | 1200 | 10 | 55 |
| Qazı Məmməd-Qazax | 378 | 1000 | 10 | 55 |
| Qazax-Gürcüstan | 500 | 1000 | 10 | 55 |
| Yevlax-Naxsıvan | 350 | 700 | 4,5 | 55 |

Məlumat üçün qeyd edək ki, Azərbaycanda hazırda təbii qaza olan tələbat ildə 12-14 mlrd. kubmetr səviyyəsindədir. Lakin ölkənin daxili qaz istehsalı bu tələbatı ödəmir. Qaz hasilatı ilə məşğul olan ARDNŞ-in illik istehsal həcmi 2006-cı ildə 5,820 mlrd. kubmetr olmuşdur. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti (ABƏŞ) «Çıraq» platformasından hasil etdiyi 540-550 mln. kubmetr səmt qazını ARDNŞ-ə təhvil verir.

Azərbaycanda mövcud və işləyən yataqlar üzrə qaz ehtiyatları tükənmək üzrədir. Proqnozlara görə, 2010-cu ildə respublikanın qaz hasilatı ildə 1 mlrd. kubmetrə düşəcək. Hazırda Azərbaycan qazının 30-40%-i «Bahar» qaz yatağından çıxarılır. «Bahar» strukturu ölkənin istifadədə olan ən böyük qaz yatağıdır. Bundan başqa, ölkənin iki böyük qaz yatağı – «Bulla-dəniz» və «8 Mart» yataqları da mövcuddur. Bu iki strukturun illik birgə hasilatı 2 mlrd. kubmetrə bərabərdir. Lakin 2005-ci ildən başlayaraq adı çəkilən qaz yataqlarında da hasilat azalmağa doğru meyl edir.

Bununla belə, geoloqlar ölkənin qaz ehtiyatlarının həcmini 200 mlrd. kubmetr, «Şahdəniz» yatağının istismara verildikdən sonra isə 1 trilyon kubmetr olacağını proqnozlaşdırırlar. Deməli, «Şahdəniz» qaz yatağı Azərbaycanın ən böyük qaz yatağı olacaq. 2010-2020-ci illərdə ölkədə 60 mlrd. kubmetr qaz çıxarılması gözlənilir ki, bu da nəinki Azərbaycanın təbii qaza olan tələbatını ödəyəcək, eyni zamanda Azərbaycandan təbii qaz xarici bazarlara nəql ediləcəkdir.

Alimlərin proqnozlarına görə neft və qaz 2030-cu ilə qədər əsas enerji daşıyıcıları olacaqdır. 2050-ci ilə qədər isə bir çox neft-qazçıxarma ölkələri neft və qazsız qala bilərlər. Bundan başqa, yaxın gələcəkdə karbohidrogen xammalını qiymətinin iki dəfə artması proqnozlaşdırılır, bu da həyat səviyyəsinin bahalaşmasına gətirib çıxaracaqdır.

Belə vəziyyətdə maliyyə, maddi və insan resurslarını neft və qaz çıxarmada prioritet məsələlərinin həll edilməsi üçün cəmləşdirmək son dərəcə vacibdir. Bu məqsədlə, akademik A. Mirzəcanzadə Azərbaycan neft-qaz sənayesində 2006-2010-cu illər üçün elmi tədqiqatların konsepsiyasını işləyib hazırlamışdır. Bu konsepsiyada neft-qaz sənayesinin inkişafının bir sıra vacib məsələlərini həll edilməsi nəzərdə tutulur.

### 13.3. Dövlət Neft Fondu və ondan istifadənin prioritet istiqamətləri

Neft strategiyasının həyata keçirilməsində ilk mərhələ 1997-ci il noyabrın 12-də «Çıraq–1» platformasında ilk neft quyusunun istismara verilməsi oldu. Hazırda «Çıraq-1» platformasında 14 neft və 2 suvurma quyusu qazılıb, yataqdan gün ərzində 14 min ton neft və 3 milyon metrkub səmt qazı çıxarılır. Neft hasilatının tədricən artırılması nəticəsində neft sənayesinin tənəzzülünün qarşısı alınmış və dinamik inkişaf üçün əlverişli şərait yaradılmışdır. 2005-ci ildə neft hasilatı 1995-ci ildəki 9,2 milyon tondan və 2000-ci ildəki 14,9 milyon tondan 20,750 milyon tona çatmışdır.

Hazırda «Əsrin müqaviləsi» üzrə birbaşa investisiya qoyuluşunun həcmi 2 milyard ABŞ dollarını ötmüşdür və bu məbləğin 250 milyon dolları görülmüş müqavilə işləri üçün milli və xarici neft şirkətləri ilə birlikdə yaradılmış müştərək müəssisələrə ödənilmişdir. Bundan əlavə, «Azəri», «Çıraq-1» və «Günəşli» neft yataqlarının istismarı ilə əlaqədar bağlanmış layihələr üzrə xarici neft şirkətləri tərəfindən vergilər şəklində 60 milyon dollar ödənilmiş, bonuslar və digər oxşar ödənişlər şəklində Azərbaycana 323 milyon dollar verilmiş, respublikanın fiziki və hüquqi şəxsləri icarə ödənişləri şəklində 27 milyon dollar almış, müxtəlif dövlət fondlarına 6 milyon dollar keçirilmişdir.

«Əsrin müqaviləsi»nin həyata keçirildiyi müddətdən indiyədək 70-dən çox yerli və xarici ölkələrin neft şirkətləri ilə birgə yaradılmış müştərək müəssisələrin köməyi ilə «Əsrin müqaviləsi»ndə nəzərdə tutulmuş işləri uğurla yerinə yetirmişlər. ABƏŞ və onunla əməkdaşlıq edən digər müəssisələrdə 3 min nəfərdən çox Azərbaycan vətəndaşı müvafiq işlə təmin edilmiş, həm də onların xeyli hissəsi xarici ölkələrdə təşkil olunmuş kurslarda öz ixtisaslarını artırmış və təcrübə keçmişlər ki, buna da 9,5 milyon dollar həcmində vəsait xərclənmişdir.



Beləliklə, neft strategiyasının başlanğıc mərhələsi olan «Əsrin müqaviləsi»nin həyata keçirilməsinin 12 illik tarixi Azərbaycan dövlətçiliyinin möhkəmləndirilməsində və milli iqtisadiyyatımızın dirçəldilməsində və ölkə üzrə sosial məsələlərin həllində mühüm mərhələ olmuşdur.

2005-ci ilədək neft layihələrinin həyata keçirilməsi üçün, qeyd etdiyimiz kimi, 2 mindən artıq Azərbaycan vətəndaşlarının çalışdığı bir çox müştərək müəssisələr yaradılmışdır ki, onlar nüfuzlu xarici neft şirkətləri ilə rəqabət mübarizəsində 381 milyon dollar dəyərində müqavilə işləri yerinə yetirmişlər. Deməli, neft strategiyasının ardıcıl həyata keçirilməsi müstəqilliyimizin möhkəmləndirilməsi və milli iqtisadiyyatımızın dirçəldilməsində bir vasitədir.

«Əsrin müqaviləsi» çərçivəsində işlərin uğurla yerinə yetirilməsi 1999-cu ilin dekabr ayında Azərbaycan Respublikasının payına 135 min ton həcmində ilk mənfəət neftinin ayrılmasına imkan vermişdir. Proqnozlara görə 2000-ci ildən başlayaraq Azərbaycan Respublikası hər il orta hesabla 200 milyon dollar məbləğində mənfəət nefti əldə edir. Gələcəkdə «Azəri», «Çıraq-1» və «Günəşli» neft yataqlarının istismar edilməsi və neft hasilatının çoxalması ilə əlaqədar olaraq bu gəlirin həcmi xeyli artacaqdır.

Dünya bazarında xam neftin dəyərinin səviyyəsindən asılı olaraq 2004-cü ildə Azərbaycan Respublikası mənfəət neftinin satışından 677,8 milyard manat, neftin Bakı-Supsa ixrac boru kəməri vasitəsilə Azərbaycan Respublikasının ərazisi ilə ötürülməsi üçün tranzit haqqından 47,7 milyard manat, bonus ödəmələrindən 7,9 milyard manat, akrhesabı ödənişlərdən isə 6,3 milyard manat təşkil etmişdir. Xarici şirkətlərdən alınmış aktivlərdən əldə edilən gəlir isə 2,3 milyard manata bərabər olmuşdur. Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitinin idarə olunmasından 77,8 milyard manat gəlir əldə edilmişdir. Bu vəsaitin xərclənməsində şəffaflığın təmin olunması məqsədilə, qeyd etdiyimiz kimi, Azərbaycan Respublikasının Prezidentinin fərmanı ilə Azərbaycan Respublikasının

Dövlət Neft Fondu yaradılmışdır. Xam neftin satışından əldə ediləcək gəlir bu Fondda cəmləşir, sonra həmin Fondun vəsaitindən respublikamızda sosial proqramların həyata keçirilməsinə, dövlət büdcəsinin kəsirlərinin bir qisminin ödənilməsinə, investisiya proqramlarının yerinə yetirilməsinə və s, tale yüklü proqramların həllinə sərf edilir. Beləliklə, neft strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsi, kimya, neft-kimya, neft maşınqayırma, metallurgiya, mədən, tikinti materialları sənayesi və digər əlaqədar sahələrin inkişafına, ümumiyyətlə, milli iqtisadiyyatımızın dirçəldilməsinə güclü təkan verəcəkdir. Dövlət Neft Fondunun 2006-cı il büdcəsinin gəlirlərinin 807842,6 min yeni Azərbaycan manatı (AYM), xərclərinin 954287,7 AYM, o cümlədən fondun idarə edilməsi ilə bağlı xərclərin 3976,7 min AYM məbləğində müəyyən edilmişdir.

Son illərdə mərhum Prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında işlənib hazırlanmış düzgün neft strategiyanın reallaşması nəticəsində Azərbaycan Respublikası həyatın bütün sahələrində, o cümlədən iqtisadiyyatda müəyyən nailiyyətlər əldə etmişdir. Respublika Dövlət Statistika Komitəsinin məlumatına görə 2004-cü ildə ölkədə bütün maliyyə mənbələri hesabına iqtisadiyyatın və sosial sahənin inkişafına, qeyd etdiyimiz kimi, 24196,6 milyard manat və ya 2003-cü illə müqayisədə 36,1% çox investisiya əsas kapitala yönəldilmişdi. Tikinti-quraşdırma işlərinə sərf edilmiş investisiyanın həcmi 2003-cü illə müqayisədə 57,5% artaraq 12202,3 milyard manat təşkil etmişdi.

Neft strategiyasının həyata keçirilməsi nəticəsində əhalinin sosial məsələlərinin həllinə də diqqət xeyli artmışdır. Belə ki, 2004-cü ildə əhalinin hər nəfərinə düşən pul gəlirləri keçən ilə nisbətən 19,6% artaraq 3670 min manata çatıb. 2004-cü ildə bir işçiyə hesablanmış orta aylıq əmək haqqı 26,2% çoxalaraq 483,4 min manat olmuşdu.

Gəlirlərin artması əhalinin alıcılıq qabiliyyətinin yüksəlməsinə müsbət təsir göstərib. 2004-cü ildə əhaliyə göstərilən pullu xidmətlər 16,4% artaraq 3472,9 milyard manat təşkil etmişdir. Pərakəndə əmtəə dövriyyəsi 13% artaraq 18649,7 milyard manata çatmışdır.

2004-cü ildə xarici ölkələrlə 7118,6 mln. dollarlıq ticarət əməliyyatları aparılıb, ölkədən 3614,3 milyon dollarlıq mal ixrac olunub və 3504,3 milyon dollarlıq məhsul gətirilib. Xarici ticarət dövriyyəsinin 50,8%-ni ixrac, 49,2%-ni idxal təşkil etmiş, ölkə üzrə 110 milyon dollar həcmində müsbət saldo yaranmışdır. 2003-cü illə müqayisədə xarici ticarət dövriyyəsinin ümumi həcmi 36,4%, o cümlədən idxal 33,4%, ixrac isə 39,5% artmışdır.



Mal mübadiləsinin 51,0%-i sərbəst dönərli valyuta sövdələşmələri yolu ilə, 18,7%-i müəssisə və təşkilatların tikintisinə dair saziş-öhdəlik hesabına avadanlıq və materialların keçirilməsi yolu ilə aparılmışdır. 2003-cü ildə müqayisədə sərbəst dönərli valyuta ödənişlərinin həcmi 34,4%, müəssisə və təşkilatların tikintisinə dair saziş-öhdəlik hesabına göndərilən mallar isə 24,3% artmışdır.

Ümumi mal dövriyyəsinin 5303,8 milyon dolları və ya 74,5%-i, o cümlədən ixracın 3000 milyon doları və ya 83%-i, idxalın 2303,9 milyon dolları və ya 65,7%-i uzaq xarici dövlətlərin payına düşmüşdür. 2003-cü illə müqayisədə uzaq xarici dövriyyələrlə ticarət dövriyyəsinin ümumi həcmi 31,5%-i, o cümlədən idxal olunan malların həcmi 29,8%, Azərbaycandan onlara göndərilən malların həcmi 32,9% artmış, nəticədə 269,2 milyon dollar məbləğində müsbət ixrac-idxal saldosu yaranmışdır.

Müstəqil Dövlətlər Birliyinə (MDB) üzv olan ölkələrlə mal mübadiləsinin ümumi həcmi 1814,8 milyon dollar, o cümlədən idxal 1200,5 milyon, ixrac isə 614,3 milyon dollar olmuşdur. 2003-cü illə müqayisədə həmin ölkələrlə xarici ticarət dövriyyəsinin həcmi 53,2%, o cümlədən idxal 41,0%, ixrac 84,1% artmışdır. 2004-cü ildə idxal əməliyyatlarının 16,2%-i Rusiya, 12,0%-i Birləşmiş Krallıq, 6,8%-i Qazaxıstan, 6,4%-i Türkiyə, 5,7%-i Almaniya, 4,9%-i Ukrayna, 4,4%-i Niderland, 4,2%-i Çin, 3,8%-i Amerika Birləşmiş Ştatları, 3,6%-i Yaponiya və Malayziya, 3,3%-i Türkmənistan, 3,1%-i Fransa, 3,0%-i İtaliya, qalan 19,0%-i isə digər ölkələrlə aparılmışdır.

Ölkəmizə idxal olunan məhsulların 30,6%-ni maşın və mexanizmlər, elektrotexnika avadanlığı, 17,4%-ni az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 14,5%-ni mineral məhsullar, 11,8%-ni ərzaq malları, 6,9%-ni yerüstü, hava və su nəqliyyatı vasitələri, 3,8%-ni kimya sənayesi məhsulları, 2,5%-ni polimer məhsullar, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, 2,1%-ni müxtəlif cihaz və aparatlar, təbii və sair avadanlıq təşkil etmişdir. Ərzaq məhsullarının 65,7%-i MDB üzvü olan ölkələrindən, 34,3%-i uzaq xarici dövlətlərdən gətirilmişdir.

2004-cü il ixracın 44,7%-i İtaliyanın, 9,0%-i İsrailin, 5,8%-i Rusiyanın, 5,2%-i Gürcüstanın, 5,1%-i Türkiyənin, 4,2%-i İra-

nın, 4,0%-i Türkmənistanın, 3,6%-i İndoneziyanın, 3,0%-i Xorvatiyanın, 2,3%-i Ruminiyanın, 1,8%-i Fransanın, 1,4%-i Bolqariyanın, 1,3%-i Tacikistanın, 1,0%-i Almaniyanın, 0,9%-i Çinin, 6,7%-i digər ölkələrin hesabına formalaşmışdır.

Respublikamızın xarici ölkələrə göndərilən malların 82,3%-ni mineral məhsullar, o cümlədən 82,0%-ni neft və neft emalı məhsulları, 4,0%-ni yerüstü, hava və su nəqliyyatı vasitələri, 4,3%-ni ərzaq məhsulları, 2,7%-ni az qiymətli metallar və onlardan hazırlanmış məmulatlar, 2,1%-ni kimya sənayesi məhsulları, 1,9%-ni polimer materiallar, plastik kütlə, kauçuk, rezin və onlardan hazırlanmış məmulatlar, 1,3%-ni toxuculuq materialları və məmulatlar təşkil etmişdir.

Məlumat üçün qeyd edək ki, son illərdə dövlət tərəfindən əhalinin sosial müdafiəsinin gücləndirilməsi, pensiya və müavinətlərin məbləğinin artırılması sahəsində mühüm tədbirlər həyata keçirilməsi, aztəminatlı ailələrə dövlətin diqqətinin və sosial qayğılarının gücləndirilməsi nəticəsində əhalinin sosial məsələlərinin yaxşılaşdırılmasına əyani sübutdur. Görülən tədbirlər nəticəsində 1996-cı illə müqayisədə ölkəmizdə orta aylıq əmək haqqı 3,6 dəfə, pensiyaların məbləği isə 3,4 dəfə artmışdır. 2005-ci ilin yanvar ayının 1-i vəziyyətinə olan məlumatlara görə, Azərbaycan Respublikasının Sosial Müdafiə Fondu sistemində 1339 min nəfər pensiyaçı qeydiyyatda olmuş və onlara təyin edilmiş aylıq pensiyaların orta məbləği 120,1 min manat təşkil etmişdir. 2004-cü ildə əhaliyə pensiya və müavinətlərin maliyyələşdirilməsi üçün ümumilikdə 1931 milyard manat vəsait yönəldilmişdir ki, bu da 2003-cü ilə nisbətən 289,3 milyard manat və ya 17,6% çoxdur. Kommunal, nəqliyyat və digər güzəştlərin əvəzinə 134,5 milyard manat müavinətlər verilmişdir. Müavinətlərin digər növləri üzrə xərclər 618,9 milyard manat təşkil etmişdir.

Bütün bunlar respublikamızda düzgün neft strategiyasının həyata keçirilməsi nəticəsində mümkün olmuşdur. Hazırda Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitindən sosial sahələrin inkişafına ayrılan hissənin xüsusi çəkisi ildən-ilə artır. 2005-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun gəlirləri 1078033,3 milyon manat, xərcləri 1072871,0 milyon manat məbləğində olacağı gözlənilir.

Qeyd etdiyimiz kimi, 2001-ci ildə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılması haqqında Əsasnamə Azərbaycan Respublikasının Prezidenti tərəfindən imzalanmışdır. Bu Əsasnamədə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun yaradılmasının ümumi qaydaları, fondun əsas vəzifələri, formalaşdırılması mənbələri, fondan istifadə olunması istiqamətləri, idarə edilməsi qaydası və s. göstərilmişdir.



Əsasnamənin ümumi müddəalarında qeyd edilir ki, Azərbaycan Respublikasının Dövlət Neft Fondu Azərbaycan ərazisində neft və qazın kəşfiyyatı, işlənməsi və hasilatın pay bölgüsünə dair ARDNŞ ilə xarici dövlətlərin aparıcı neft şirkətləri arasında bağlanmış sazişlərin həyata keçirilməsindən, həmçinin Azərbaycan Respublikasında, o cümlədən Xəzər dənizinin Azərbaycan sektorunda neft-qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsinə dair digər bağlanmış sazişlərin həyata keçirilməsində Azərbaycan Respublikasının əldə etdiyi vəsaitin səmərəli idarə olunması məqsədilə yaradılır. Bunun üçün:

a) Fond Azərbaycan Respublikası Prezidenti qarşısında hesabat verir və məsuliyyət daşıyır;

b) Fond büdcədənkənar dövlət təsisatıdır, hüquqi şəxsdir, bank təşkilatlarında hesablaşma və digər hesablara, üzərində Azərbaycan Respublikası Dövlət Gerbinin əksi və öz adı olan möhürə, müvafiq ştamp və blanklara malikdir;

c) Fondun vəsaitinin formalaşması və xərclənməsi üzərində ümumi nəzarət Müşahidə Şurası tərəfindən həyata keçirilir;

ç) Fond öz fəaliyyətini həyata keçirmək üçün Azərbaycan Respublikasının dövlət hakimiyyəti orqanları, fiziki və hüquqi şəxslərlə, habelə beynəlxalq təşkilatlarla əməkdaşlıq edir;

d) Azərbaycan Respublikası Prezidentinin Fərmanları və bu Əsasnamə ilə Fonda verilmiş hüquqlar və vəzifələr istisna olunmaqla Fond Azərbaycan Respublikasının hökuməti, digər dövlət hakimiyyəti orqanları, o cümlədən nazirliklər, dövlət komitələri, təsisatları, müəssisələri, təşkilatları və maliyyə institutlarına münasibətdə və onların qarşısında, habelə Azərbaycan Respublikasının və digər ölkə və yurisdiksiyaların hər hansı sosial fondları, ictimai və digər qeyri-hökumət təşkilatlarına münasibətdə və onların qarşısında heç bir hüquqa, vəzifəyə malik deyildir, heç bir öhdəlik və məsuliyyət daşımır;

e) Fond öz fəaliyyətində Azərbaycan Respublikasının Konstitusiyasını, qanunlarını, Azərbaycan Respublikası prezidentinin Fərman və Sərəncamlarını, habelə bu Əsasnaməni rəhbər tutur.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun əsas vəzifəsi respublikamızın vətəndaşlarının bugünkü və gələcək nəsillə-

rinin mənafeyi naminə neft və qaz ehtiyatlarının kəşfiyyatı və işlənməsi sahəsində bağlanmış sazişlərin həyata keçirilməsindən və fondun öz fəaliyyətindən əldə olunan valyuta və digər vəsaitin yığılmasını və səmərəli idarə olunmasını təmin etməkdir.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun formalaşması mənbələri aşağıdakılardan ibarətdir: birincisi, Azərbaycan Respublikasının payına düşən xam neftin və təbii qazın qatışığından əldə edilən gəlirlər (qanunvericiliklə nəzərdə tutulmuş ödənişlər çıxılmaq şərtilə); ikincisi, bonus ödənişləri; üçüncüsü, akrhesabı ödənişləri; dördüncüsü, xarici ölkələrin neft şirkətləri ilə bağlanmış müqavilələr çərçivəsində dövlət əmlakından istifadə üçün icazə haqqı; beşincisi, xarici ölkələrin neft şirkətləri ilə bağlanmış müqavilələrə uyğun olaraq Azərbaycan tərəfinə verilən aktivlərin satışından və digər daxilolmalardan əldə edilən gəlirlər; altıncısı, xarici ölkələrin aparıcı neft şirkətləri ilə birgə fəaliyyət nəticəsində əldə edilən gəlirlər; nəhayət, yeddincisi, Fondun vəsaitinin maliyyə idarələrində yerləşdirilməsindən əldə edilən gəlir. Əsasnaməyə görə Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitinin istifadə olunması qaydası aşağıdakı kimidir:

– investisiya məqsədləri üçün, əsasən fondun yüksək reytinqli kredit təşkilatlarında yerləşdirilən depozitlərindən əldə edilən gəlirlər istifadə edilir. Depozit əməliyyatları passiv və aktiv ola bilər. Passiv depozit əməliyyatları müəssisələrin, dövlət idarələrinin, bankların və əhalinin əmanət qoyduğu müddətli və tələb edilənə kimi vəsaitlərindən ibarətdir; bu, bank vəsaitlərinin əsas mənbəyidir. Aktiv depozit əməliyyatlar isə müvəqqəti boşalmış vəsaitlərin bir bankdan digər kredit idarələrinə yerləşdirilməsini göstərir;

– fondun vəsaitinin istifadəsi Azərbaycan Respublika Prezidentinin sərəncamları ilə hər il üçün təsdiq edilmiş əsas istiqamətlərə (proqramlara) uyğun olaraq həyata keçirilir;

– fondun vəsaiti ölkənin sosial-iqtisadi tərəqqisi naminə ən mühüm ümummilli problemlərin həllinə və strateji əhəmiyyətli infrastruktur obyektlərinin inşa və yenidən qurulmasına üçün istifadə edilə bilər. Məsələn, 2004-cü ildə ölkə ərazisində bəzi yeni istehsal və sosial obyektlərin tikintisində, bazar iqtisadiyyatı münasibətlərinə uyğun infrastrukturların yaradılmasında Azərbaycan Respublikasının Dövlət Neft Fondunun vəsaitindən istifadə edilmişdir. Özü də 2004-cü ildə sənaye, kənd təsərrüfatı, rabitə, ticarət, xidmət, tikinti və digər kommunal, sosial və fərdi xidmətlər sahəsinə yönəldilmiş vəsaitlərin həcmi 2003-cü ilə nisbətən xeyli artmışdır;



– fondun vəsaiti dövlət hakimiyyəti orqanlarına, dövlət və qeyri-dövlət müəssisə və təşkilatlarına kredit verilməsinə, eləcə də Azərbaycan Respublikasının yuristiksiyasında olan hər hansı bir obyektin borcunun və ya digər yüklənməsinin girovu qismində istifadə oluna bilər;

– fondun gəlirləri vergi, rüsum və digər məcburi ödənişlərdən qanunvericiliyə müvafiq olaraq azaddır;

– hər il fondun vəsaitinin istifadə edilməsinin təsdiq olunmuş istiqamətləri haqqında hesabat mətbuatda dərc edilir.

Azərbaycan Respublikasının Dövlət Neft Fondunun həcmi 2000-ci ildən başlayaraq ildən-ilə daima artır. Hesablamalara görə 30 il ərzində Neft fondundan Azərbaycan iqtisadiyyatına xalis gəlir 28 mlrd. ABŞ dolları həcmində olacaqdır.

Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında Əsasnamədə göstərilir ki, fondun fəaliyyətinə operativ rəhbərliyi fondun icraçı direktoru həyata keçirir. O, Azərbaycan Respublikasının prezidenti tərəfindən vəzifəyə təyin olunur və vəzifədən azad edilir. Fondun icraçı direktoru aşağıdakıları təmin edir:

a) fondun cari işini təşkil edir və ona operativ rəhbərliyi həyata keçirir;

b) fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərinə dair təkliflər hazırlayır və onu Müşahidə Şurasının rəyi ilə birlikdə təsdiq olunmaq üçün Azərbaycan Respublikasının prezidentinə təqdim edir;

c) fondun fəaliyyəti barədə illik hesabatı hazırlayır və onu təsdiq olunması üçün Müşahidə Şurasının rəyi ilə birlikdə Azərbaycan Respublikasının prezidentinə təqdim edir;

ç) fondun idarəetmə aparatının işçilərini qanunvericiliklə müəyyən edilmiş qaydada vəzifəyə təyin edir və vəzifədən azad edir, onlara münasibətdə həvəsləndirmə və tənbeh tədbirləri tətbiq edir;

d) Azərbaycan Respublikasının prezidentinin təyin etdiyi auditor tərəfindən auditin keçirilməsi üçün zəruri şəraitin yaradılmasını təmin edir və fondun illik fəaliyyətinin nəticələrini əks etdirən auditor rəyini mətbuatda dərc etdirir, fondun fəa-

liyyəti ilə bağlı analitik arayışlar hazırlayır, onları Azərbaycan Respublikasının prezidentinə və Müşahidə şurasına təqdim edir;

e) fondun fəaliyyətinə ümumi nəzarəti təmin etmək məqsədilə müvafiq dövlət orqanlarının və ictimai təşkilatların nümayəndələrindən, habelə digər şəxslərdən ibarət Müşahidə Şurası formalaşdırır və həmin şuranın formalaşmış üzvləri Azərbaycan Respublikasının prezidenti tərəfindən təsdiq olunur;

ə) Müşahidə Şurası fondun icraçı direktorunun təqdimatına əsasən fondun vəsaitinin istifadə edilməsinin əsas istiqamətlərini, onun illik hesabatını və balansını, habelə fondun illik xərclər smetasının layihəsini nəzərdən keçirir və onlara rəy verir. Müşahidə Şurası zərurət olduqca, lakin rübdə bir dəfədən az olmayaraq öz iclaslarını keçirir. Müşahidə Şurasının növbədənkənar iclasları fondun icraçı direktorunun və ya Müşahidə Şurasının üzvlərinin yarısının təşəbbüsü ilə də keçirilə bilər.

Azərbaycan Respublikasının Prezidentinin Fərmanı ilə yaradılmış Azərbaycan Respublikasının Dövlət Neft Fondu və həmin fonda yığılmış vəsaitlərə beynəlxalq maliyyə təşkilatlarının nəzarəti respublikamızda neftdən əldə olunan mənfəətlərdən səmərəli istifadə edilməsinə möhkəm inam yaradır. Qeyd edək ki, neft yataqlarının xarici neft şirkətləri ilə birgə işlənməsinə dair imzalanmış hasilatın pay bölgüsü sazişləri Azərbaycan Respublikasının böyük nailiyyətləridir. Bütün bunlar ölkənin iqtisadiyyatının gələcək inkişafına xidmət edir.

2004-cü ildə Neft Fondunun vəsaitlərinin istifadə edilməsinin əsas istiqamətləri çərçivəsində 15,7 milyard manat Ermənistan Respublikasının etnik təmizləmə və təcavüz siyasəti nəticəsində öz doğma yurdlarından didərgin düzmüş qaçqın və məcburi köçkün ailələrinin məskunlaşdırılması və sosial-məişət vəziyyətinin yaxşılaşdırılması üzrə tədbirlərin, 36,4 milyard manat Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru kəməri layihəsində Azərbaycan Respublikasının iştirak payının maliyyələşdirilməsinə yönəldilmiş, 488 milyard manat isə dövlət büdcəsinə transfer edilmişdir. 2004-cü ildə Neft Fondunun idarə edilməsi ilə bağlı xərclər 51,7 milyard manat, o cümlədən aparatın saxlanılması xərcləri 2,3 milyard manat, valyuta aktivlərinin yenidən qiymətləndirilməsi ilə bağlı xərcləri isə 49,4 milyard manat olmuşdur. Ötən dövr ərzində dövlət büdcəsinə köçürülmüş vergilərin miqdarı 33,6 milyard manat təşkil etmişdir.



# FƏSİL 14. FİSKAL SİYASƏT VƏ NEFT-QAZÇIXARMA İDARƏLƏRİNDƏ RENTABELLİ FƏALİYYƏTİN TƏŞKİLİ PROBLEMLƏRİ

## 14.1. Fiskal siyasət və onun həyata keçirilməsi mexanizmi

Məlumdur ki, məcmu tələblə fiskal siyasət arasında qarşılıqlı əlaqə və qarşılıqlı təsir mövcuddur. Fiskal siyasətdə hökumət çalışır ki, gəlirlərlə vergilər arasında əlaqələndirmə, tənzimləmə olsun, bu iş kortəbii surətdə həyata keçirilməsin, yəni müəyyən qanun və qaydalarla idarə olunmuş olsun. Dövlət xərcləri yalnız dövlət qurumlarının saxlanılması deyil, o eyni zamanda əmtəələr və görülən iş, yerinə yetirilən xidmətlər və s. alışıdır. Sonuncuya ölkədə yolların salınması, məktəblərin tikilməsi, tibb müəssisələrinin inşası, mədəniyyət obyektlərinin açılması, bəzi kənd təsərrüfatı məhsullarının dövlət tərəfindən alınması, xarici ticarət yolu ilə idxal-ixrac əməliyyatlarının həyata keçirilməsi, hərbi texnikanın alınması və s. aid etmək olar.

Fiskal siyasətin həyata keçirilməsi yolu ilə bir tərəfdən, büdcədə balanslaşdırmanın yaradılmasına cəhd edilir, digər tərəfdən isə bu siyasət vasitəsilə makroiqtisadi balanslaşdırmaya çalışılır. Fiskal siyasət eyni zamanda ümumi daxili məhsulun strukturunda dəyişilməsinə təkan verir. Bu baxımdan fiskal siyasət dövlətin xərcləri və gəlirləri arasında iqtisadi inkişafın sabitliyini təmin edilməsində müəyyən rol oynayır. Təcrübədə bu funksiya iqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi aləti kimi çıxış edir. Fiskal siyasət problemi milli istehsalın həcmi və əhalinin məşğulluğu ilə qarşılıqlı əlaqəlidir. Məşhur Amerika iqtisadçısı C.Helbreyt vaxtı ilə qeyd edirdi ki, vergi sistemi dövlət gəlirlərinin artırılması alətindən tələbi tənzimləyən alətə çevrilmişdir, bu isə sənaye sisteminin üzvi, qanunauyğun, yetkin tələbidir.

Fiskal siyasət eyni zamanda bazarda məcmu tələblə təklif arasındakı kortəbii baş verən qüsurları aradan qaldırmaq vəzifəsini də yerinə yetirir. Təcrübədə fiskal siyasət maliyyə, maliyyə-büdcə siyasəti kimi özünü büruzə verir. Onun fəaliyyət dairəsi dövlət xəzinəsinin əsas strukturlarına qədər gedib çıxır və əhatəlidir. Fiskal siyasətin mühüm fəaliyyət dairəsi dövlət

büdcəsi, vergilər, dövlətin pul gəlirləri və xərcləri sahəsidir. Deməli, fiskal siyasətin fəaliyyət dairəsi çoxcəhətlidir, o dövlət tərəfindən maliyyə resurslarının tətbiqi tədbirlərinin məcmusundan, bir də ki, həmin vəsaitlər hesabına ölkənin sosial-iqtisadi problemlərinin həlli vəzifələrinin icrasında özünü büruzə verir. Biz əvvəlki fəsillərdə vergilər haqqında danışmışdıq. İndi isə dövlət büdcəsi və dövlətin pul gəlirləri haqqında danışmağı məqsədəuyğun hesab edirik.

***Dövlət büdcəsi*** – dövlətin iqtisadi inkişafının təmin olunmasının maddi əsasını təşkil edir. İqtisadi münasibətlərin mühüm tərkib hissəsi hesab edilən maliyyə münasibətləri sistemində dövlət maliyyəsi adlanan dairədə dövlət büdcəsi əhəmiyyətli yer tutur. Məlumdur ki, dövlət bəzi iqtisadi vəzifələri yerinə yetirir, onun iqtisadi, sosial, siyasi və s. sahələrdə çoxşaxəli problemləri həll edir. Bütün bunlar isə böyük həcmli maliyyə resurslarının mövcudluğunu tələb edir. Maliyyə resursları dedikdə, müəssisə və təşkilatların sərəncamında olan pul vəsaitlərinin məcmusu nəzərdə tutulur. Maliyyə resurslarının tərkibinə mənfəət, amortizasiya ayırmaları, dövlət sosial sığorta büdcəsinə ödəmələr, əhalinin dövlət tərəfindən maliyyə sisteminə səfərbər edilən vəsaiti və s. daxildir.

Dövlət büdcəsi iqtisadi münasibətlərin bir hissəsi olan maliyyə münasibətlərinin müəyyən tərəfini ifadə edir. Cari halda biz bu münasibətləri hər şeydən öncə dövlət büdcəsindəki gəlirlər və xərclər arasındakı nisbətdə və əlaqədə görürük. Büdcə münasibətləri dövlətlə müxtəlif müəssisələr, idarə və təşkilatlar, əhali və s. arasındakı əlaqələri ifadə edir və həmin münasibətlərin toplusudur. Bu baxımdan dövlət büdcəsi hər bir ölkədə dövlətin maliyyə planı və proqramı deməkdir. Nəzərə almaq lazımdır ki, qarışıq iqtisadiyyat, müxtəlif mülkiyyət formalarının yarandığı və formalaşdığı bir dövrdə dövlət büdcəsinin əhatə dairəsi, münasibətlərinin genişlənməsi daha da artır, qarşılıqlı əlaqələrdə yeni-yeni subyektlər yaranır. Həmin əlaqələr hətta ölkə çərçivəsindən belə kənara çıxır, bəzi beynəlxalq maliyyə-kredit təşkilatları ilə əməkdaşlıq edilir və yeni münasibətlər yaranır.

Məlumat üçün qeyd edək ki, fiskal siyasətin həyata keçirilməsində fiskal mexanizmlərdən düzgün istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Fiskal mexanizmlər dedikdə, sahədə uçot işinin və daxili audit xidmətinin təşkili, vergi sistemi, müxtəlif növ ödəmələr (məsələn, bonus, royaltı, icarə haqqı və s.) nəzərdə tutulur.



***Uçot*** – ictimai istehsalın idarə edilməsi funksiyası olub, real təsərrüfat prinsipləri, onların nəticələri, istifadə olunmuş ehtiyatlar və s. haqqındakı məlumatların əldə edilməsi, qeydiyyat keçirilməsi, yığılması və işlənməsindən ibarətdir. Bu cür məlumatlar bütün səviyyələrdəki idarəetmə orqanlarına əsaslandırılmış qərarların qəbul edilməsinə imkan verir. Uçotun üç növünü: operativ, mühasibat və statistik növlərini fərqləndirirlər. Operativ uçot – operativ idarəetmə üçün zəruri olan ilkin məlumatların müşahidə edilməsi, ölçülməsi, qeydə alınması, ilkin işlənilməsi və ümumiləşdirilməsidir. Mühasibat uçotu – pul ölçüsündə ifadə oluna bilən bütün hadisə və proseslərin hərtərəfli, fasiləsiz əks etdirilməsi və qeydə alınmasıdır, o, müəssisə və təşkilatların vəsaitinin mövcudluğunu və hərəkətini əks etdirir, ciddi sənədli xarakter daşıyır və onların təsərrüfat-maliyyə fəaliyyətlərinin təhlili üçün əsas məlumat mənbəyidir. Statistik uçot – operativ və mühasibat uçotu nəticələrindən və xüsusi aparılmış yoxlama məlumatlarından istifadə edir. Statistik uçotun əsas vəzifəsi dövlət tapşırıqlarının və istehlakçıların sifarişlərinin yerinə yetirilməsinin gedişi və nəticələri haqqında, mövcud ehtiyatlar haqqında iqtisadiyyatın, bütün maddi istehsal və qeyri-istehsal sahələrinin inkişafı haqqında məlumatları toplamaq, işləmək, təhlil etmək və vaxtında səlahiyyətli orqanlara (sahənin müvafiq struktur bölmələrinə) çatdırmaqdan ibarətdir.

## 14.2. İstehsalın rentabelliyinin mahiyyəti və növləri

Hər bir sənaye müəssisəsi özünün hazırladığı məhsulu müəyyən etdiyi bazar qiyməti ilə reallaşdıraraq əldə etdiyi gəlirlə həmin məhsulun hazırlanmasına və satılmasına çəkdiyi xərcləri ödəməli və mənfəət götürməlidir. Gəlirin xərcdən artıq olması müəssisənin rentabelliyini (gəlirliliyini) xarakterizə edir. Gəlirin və mənfəətin müxtəlif növləri və yaranma mənbələri var. Bazar iqtisadiyyatı şəraitində gəlirlər və mənfəət problemi daha aktual olur və belə bir hal nəinki praktiklərin, eyni zamanda nəzəriyyəçilərin də diqqətini özünə cəlb edir. Odur ki,

mənfəətin təbiəti, onun mənbəyi və yaranma mexanizmi açılmayan əsas məsələ olaraq qalır. Bunu nəzərə alaraq biz mənfəətin mahiyyəti, növləri və mənbələri haqqında gələcəkdə daha ətraflı danışacağıq. İndi isə gəlirin mahiyyəti, növləri və yaranma mənbələrindən bəhs etməyi məqsədəuyğun hesab edirik.

İstehsalın hər bir amili öz sahibinə gəlir gətirməyə qabildir. Belə ki, «kapital» «mənfəət», «əmək» «əmək haqqı», «torpaq» isə «renta» gətirir. İstehsal amillərinin sahibi üçün gəlir olan şey həmin amilləri alan üçün xərcdir. Belə ki, iş qüvvəsinin sahibi üçün əmək haqqı gəlir, müəssisə üçün isə bu, istehsal xərcləridir.

İqtisadi nəzəriyyədə gəlir anlayışı iki mənada işlədilir: birincisi, xüsusi təsərrüfat anlayışı kimi, yəni mikrosəviyyədə gəlir. Bura muzdlu işlən, sahibkarlıq fəaliyyətindən və mülkiyyətdən gəlirlər aiddir; ikincisi, xalq təsərrüfatı anlayışı kimi, yəni makroiqtisadi səviyyədə gəlir.

Ümumiyyətlə, makroiqtisadi səviyyədə gəlir dedikdə, müəyyən vaxt ərzində istehsal-təsərrüfat fəaliyyəti nəticəsində əldə edilən pul vəsaiti nəzərdə tutulur. Bu, müəssisə, fiziki şəxs və ya bütün cəmiyyətin işinin pul ifadəsində, yəni manat, dollar, marka və s. ilə yekunudur. Adətən, gəlirlərin təsnifatı müxtəlif meyarlar üzrə aparılır. Əgər gəlirləri mənimsəmə subyektindən asılı olaraq fərqləndirsək, bu halda gəlirlər aşağıdakı kimi bölünür:

**1) Əhalinin gəlirləri** – əhalinin real gəlirinin əsasıdır. İctimai təkrar istehsal gedişində əhalinin pul gəliri milli gəlirin artımı və bölgüsü ilə, xalq istehlakı mallarının istehsalı və pullu xidmətlərlə bağlıdır. Əhalinin pul gəlirlərinin əksər hissəsini əmək haqqı təşkil edir. Əhalinin pul gəlirlərinin digər mənbələrinə mükafatlar, müxtəlif növ ödəmələr, istiqraz və lotereyalar üzrə uduşların ödənilməsi, sığorta haqları ödəmələri və s. aiddir. Əhalinin pul gəlirlərinin mənbələri, strukturu və səviyyəsi əhalinin ayrı-ayrı qrupları və təbəqələri üzrə fərqlənir. Əldə olunan və real sərəncamda qalan gəlirin kəmiyyətindən asılı olaraq əhalinin gəlirlərinin aşağıdakı növlərini fərqləndirirlər:

***a) əhalinin nominal gəliri*** – müəyyən iş dövrü ərzində fəhlə və qulluqçuların sərf etdiyi əməyin kəmiyyət və keyfiyyətinə uyğun olaraq pul ifadəsində ödənilən əmək haqqıdır. Əmək haqqının iki növünü: hesablanmış ümumi əmək haqqı, yəni fəhlə və qulluqçulara bütün çatası məbləğ və ələ verilən əmək haqqı, yəni vergilər çıxıldıqdan sonrakı əmək haqqı fərqləndirilir.

***b) əhalinin sərəncamında qalan və ya xalis gəlir*** – əhalinin əldə etdiyi ümumi gəlirlərdən dövlət büdcəsinə əhalinin vergiləri, rüsumları və digər məcburi ödəmələr, müxtəlif ictimai təşkilatlara könüllü ödəmələrin məbləği, əhalinin pul formasında əmanətləri, əhaliyə xidmət edən qeyri-istehsal sahələrinin mədəni-məişət müəssisələrində maddi məsrəflərin dəyərini ötüb keçən xidmətlərin ödənilməsi xərcləri çıxıldıqdan sonra əldə etdiyi xalis gəlirdən ibarətdir.

***c) əhalinin real gəliri*** – milli gəlirin əhalinin istehlakı, yaxud yığımı üçün istifadə edilən hissəsidir. Adambaşına real istifadə edilən və yığılan maddi nemətlərin və xidmətlərin həcmi əsasında müəyyən olunur. Bunun üçün əhalinin bütün pul və natural gəlirləri cəmləşdirilir. Gəlirə aiddir: əməyə görə pul və natural şəkildə ödəmə; ictimai istehlak fondlarından ödəmələr (məsələn, pensiya, müavinət, təqaüd və s.); şəxsi yardımçı təsərrüfatlardan götürülən xalis məhsulun dəyəri. Alınan gəlirlərin məbləğindən çıxılır: dövlət büdcəsinə əhalinin vergiləri, rüsumları və digər məcburi ödəmələri; müxtəlif ictimai təşkilatlara könüllü ödəmələrin məbləği; əhalinin pul formasında əmanətləri; əhaliyə xidmət edən qeyri-istehsal sahələrinin mədəni-məişət müəssisələrində maddi məsrəflərin dəyərini ötüb keçən xidmətlərin ödənilməsi xərclərinin bis qismi. Nəticədə həmin dövrdə əhalinin real istifadə etdiyi gəlirlərin ümumi məbləği alınır. Əhalinin real gəlirlərinin dinamikasını müəyyən etmək üçün müəyyən dövrdə əldə edilmiş gəlirlərin məbləği əmtəə qiymətləri və xidmət tariflərinin indeksinə bölünür. Beləliklə, müxtəlif dövrlər üzrə əhalinin real gəlirlərinin müqayisəsi alınır. Əhalinin real gəlirlərinin artımı ictimai istehsalın səmərəliliyindən, əmək məhsuldarlığının yüksəldilməsindən bilavasitə asılıdır. Real gəlir bütün əhali üzrə və ictimai qruplar üzrə hesablanır.

**2) Müəssisənin gəlirləri** – özündə onun illik mənfəətini və digər fəaliyyət növlərindən (məsələn, kommersiya fəaliyyətindən, mənzil-kommunal təsərrüfat fəaliyyətindən, yardımçı təsərrüfatlardan, əmək kollektivinə pullu xidmətlərin göstərilməsindən və s.) əldə edilən vəsaitləri əks etdirir. Gəlirin əsas his-

səsini müəssisənin mənfəəti təşkil edir. Deməli, müəssisənin gəliri kəmiyyətcə yalnız onun istehsal-təsərrüfat fəaliyyətindən əldə edilən vəsaiti deyil, eyni zamanda onun qeyri-istehsal sahələrindən əldə edilən vəsaitləri özündə birləşdirir. Dövlət müəssisələrinin gəlirinin üç növünü: ümumi, təsərrüfat hesablı və xalis gəlir növlərini fərqləndirirlər.

***Müəssisənin ümumi gəliri*** – onun iş nəticələrini səciyyələndirən mühüm iqtisadi göstəricilərdən biridir. Başqa sözlə, müəssisənin ümumi gəliri onun sərəncamına daxil olan pul vəsaitinin əməyin ödənilməsinin vahid fondunun və müəssisənin xalis gəlirinin yaradılmasına yönəldilən hissəsidir. Məhsulun, sənaye xarakterli işlərin və sənaye fəaliyyəti balansında olan əsas istehsalın və yardımçı təsərrüfatların xidmətlərinin realizəsindən götürülən qazancdan əmələ gəlir; bu qazanca, həmçinin müstəqil balansda olan və özünün qeyri-sənaye təsərrüfatına məhsul realizə etməkdən və əmək kollektivinə pullu xidmətlər göstərməkdən götürülən qazanc da (məhsulun və xidmətlərin istehsalına və realizəsinə çəkilən maddi məsrəflər çıxılmaqla) daxildir. İstehsaldan silinmiş və artıq qalmış əmlakın, əvvəllər alınmış maddi dəyərli malların realizəsindən əldə edilən qazanc müəssisənin ümumi gəlirinin tərkibinə aid edilmir, çünki onlar müəssisə fəaliyyətinin nəticəsi deyildir. Müəssisənin ümumi gəlirindən müəyyən edilmiş miqdarda gəlir vergisi ödənilir, bank kreditlərinə görə faizlər verilir, qalan məbləğ isə müəssisənin sərəncamına keçir. Müəssisənin ümumi gəliri əsasında təsərrüfat hesablı gəlir yaranır.

***Müəssisənin təsərrüfat hesablı gəliri*** – əməyin ödənilməsi üçün müəssisənin tam sərəncamına daxil olan (büdcə və digər öhdəlikləri yerinə yetirdikdən sonra) vəsait və mənfəətin bir hissəsidir. Təsərrüfat hesablı gəlir müəssisə kollektivinin istehsal və sosial inkişafının mənbəyidir. Təsərrüfat hesablı gəlir müəssisədən götürülə və yenidən bölüşdürülə bilməz. Təsərrüfat hesablı gəlir hesabına əməyin ödənilməsinin vahid fondu və digər maddi həvəsləndirmə fondları yaradılır. Təsərrüfat hesablı gəlir təsərrüfat mexanizminin yenidən qurulmasında, müəssisələrin təsərrüfat müstəqilliyinin genişləndirilməsində və istehsalın son nəticələrinin yaxşılaşdırılması üçün onların marağının və məsuliyyətinin artırılmasında mühüm rol oynayır.



***Müəssisənin xalis gəliri*** – müəssisə işçilərinin əməyi ilə yaradılmış izafi məhsulun pulla ifadəsi olub, məhsulun realizə qiymətində hesablanmış dəyəri ilə tam maya dəyəri arasındakı fərqi xarakterizə edir. Müəssisənin xalis gəliri onun pul yığımı və dövlət büdcəsi gəliri mənbəyidir. Müəssisənin xalis gəliri əməyin ödənilməsinin vahid fondu yaradıldıqdan sonra, qeyd etdiyimiz kimi, müəssisənin ümumi gəlirinin yerdə qalan hissəsidir. Xalis gəlirin ümumi məbləğində mənfəətin payı çoxdur və ona görə də müəssisənin mənfəəti onun xalis gəliri formasında çıxış edir.

Müəssisənin ümumi gəlirinin dinamikası göstərir ki, göstərir ki, müəyyən vəziyyət həddinə qədər əmtəə istehsalı ümumi gəliri artırır. Həmin həddən sonra onun səmərəsi aşağı düşür. Deməli, istehsalın miqyası maksimal həddinə doğru hərəkət etdikcə onun amillərinin gətirdiyi gəlir artmağa başladığı halda, sonra tədricən azalmağa meyl edir. Həmin həddən sonrakı son gəlir (xalis gəlir) də sıfıra çatır. Bazarın əmtəə kütləsi ilə dolduğu şəraitdə son gəlir, adətən, qiymətdən az olur. Bu onunla izah edilir ki, əmtəə təklifinin artması bazar qiymətlərinin azalmasına səbəb olur.

Ümumi istehsal xərclərinin və ümumi gəlirin müqayisəsi göstərir ki, müəssisə mənfəət əldə etdiyi halda, məhsul istehsal etməyin mənası vardır, yəni müəssisəni məhsul satışından gələn pul gəliri ilə istehsal xərcləri arasındakı fərq maraqlandırır. Ona görə müəssisə həmişə çalışır ki, «maksimum» gəliri və minimum itkini təmin edə biləcək miqdarda məhsul istehsal etsin. Ümumi gəlirin, xərclərin və istehsal edilən məhsulun kəmiyyəti arasında qarşılıqlı asılılıq vardır. Belə ki, istehsalın aşağı həddi daxilində ümumi xərclər ümumi gəlirdən çox olur və müəssisə zərər çəkir; lakin həmin həddən yuxarı qalxdıqda müəssisənin gəliri olur, burada o maksimum mənfəəti optimal bir həddə çatanda əldə edir. Sahibkar özü müəssisəsində istehsal amillərinin gəlirlilik səviyyəsini müəyyən etməkdə maraqlıdır. Onun məqsədi mənfəət normasında ifadə olunur. Mənfəət norması isə mənfəətin istehsal xərclərinə nisbəti şəklində göstərilir, yəni:

***Mənfəət norması = Mənfəət : istehsal xərcləri***

Deməli, mənfəət əmtəə istehsalı və bazar iqtisadiyyatının həm son məqsədi, həm də hərəkətverici əsasıdır. Bu, istənilən müəssisənin səmərəli fəaliyyətinin əsas stimulu və mühüm göstəricisidir.

**3) Dövlətin pul gəlirləri** – dövlətin, dövlət müəssisə və təşkilatlarının müəyyən dövr ərzində əldə etdikləri pul ehtiyatını xarakterizə edir. Dövlət büdcəsinin gəlir hissəsini təşkil edən mərkəzləşdirilmiş dövlətin pul gəlirləri ilə müəssisə və təşkilatların məhsulunun realizəsindən əldə edilən və təsərrüfat fəaliyyətinin həyata keçirilməsi üçün zəruri hesab edilən qeyri-mərkəzləşdirilmiş gəlir növləri fərqləndirilir. Dövlətin pul gəlirlərinin əsas mənbəyi – təsərrüfat fəaliyyətindən daxil olan gəlirdir. Bura aiddir: fond haqqı, əmək və təbii ehtiyatlara görə haqq şəkilində dövlət müəssisələrinin mənfəətindən ödəmələr, normativlər üzrə mənfəətdən ayırmalar və dövriyyə vergisi. Dövlət büdcəsinə daxil olan gəlirə – vergilər (məsələn, gəlir vergisi, torpaq vergisi və s.), müxtəlif cür rüsumlar və könüllü ödəmələr, həmçinin dövlət əmlak sığortası üzrə Dövlət sığortasının mənfəəti aiddir. Dövlətin cüzi hissə təşkil edən digər gəlirləri dövlət əmlakının özəlləşdirilməsindən daxil olan gəlir və dövlət müəssisələrinin pullu xidmətlərindən daxil olan gəlir aiddir.

**4) Cəmiyyətin gəlirləri.** Yuxarıda göstərilən bütün gəlir növlərinin məcmusu cəmiyyətin maksimum tələbini müəyyən edir.

Müəssisənin rentabelliyi, onun müəyyən dövr ərzindəki işinin iqtisadi səmərəliliyini ümumiləşdirici göstəricisidir. O, götürülən mənfəətin məbləğinin istehsalda istifadə edilən əsas istehsal fondlarının və öz dövriyyə vəsaitinin dəyərinə nisbəti kimi müəyyən edilir. İstehsalın rentabelliyinin artması müəssisənin və onun bölmələrinin fəaliyyəti üçün nisbətən az məbləğdə vəsait qoyması şəraitində, mənfəət kütləsinin artması deməkdir.

İstehsalın rentabelliyinin iqtisadi əsası – maddi istehsal sahələrində çalışan işçilərin əməyi ilə yaradılmış izafi məhsuldan ibarətdir. İzafi məhsul dedikdə, istehsal prosesində bilavasitə istehsalçıların zəruri məhsuldan artıq yaratdıqları ictimai məhsulun bir hissəsi nəzərdə tutulur. İzafi məhsul istehsalına çəkilən əmək sərfi izafi əmək adlanır. İzafi məhsulun meydana gəlməsi imkanı o şəraitdə yaranır ki, ictimai əmək məhsuldarlığının çatdığı səviyyə əmək prosesində sərf olunan həyat qüvvələrinin bərpasını, yəni bilavasitə istehsalçıların yaşamasını təmin etmək üçün zəruri olan miqdardan artıq maddi nemətlər istehsalına imkan yaranır.



Rentabellik ictimai əmək məhsuldarlığı artdıqca yüksəlir, bunun nəticəsində iş qüvvəsinin geniş təkrar istehsalı üçün lazım olan, əhalinin istehlak vasitələrinə sərf edilmiş məsrəflərin əvəz edilməsi üçün sərf etdiyi iş vaxtının payı müntəzəm surətdə azalır, eyni zamanda, onların əmək haqqı artır və bununla da həyat səviyyəsi yüksəlir. O, müəssisənin sərəncamında qalan vəsaitin səmərəliliyinin ölçüsüdür.

İstehsalın rentabelliyinin iqtisadi mahiyyəti məhsul vahidinin istehsalına canlı və maddiləşmiş əmək məsrəflərinin azaldılması ilə məhdudlaşmır. İstehsal prosesində iştirak edən vasitələrin kütləsi məmulatın hazırlanması ilə əlaqədar olan məsrəflərin məbləğinin daxil olduğu miqdardan əsaslı surətdə fərqlənir. Məhsulun hazırlanması prosesində binalarda, qurğularda, avadanlıq və inventarlarda böyük miqdarda maddiləşmiş əsas fondlar iştirak edir. İstehsal xərclərinə isə onların amortizasiyası, yəni onların dəyərinin istehsal edilən məhsulun maya dəyərinin üzərinə bu və ya digər vaxt dövründə keçirilən hissəsi daxil edilir. Dövriyyə fondları ilə də demək olar ki, vəziyyət eynidir. Bu fondların dəyəri istehsal xərclərinə yalnız məhsul hazırlanarkən sərf olunmuş məbləğdə daxil edilir. Dövriyyə vəsaitinin ümumi məbləğinə gəldikdə isə o, məhsulun maya dəyərinə daxil edilmir. Buna görə də istehsalın rentabelliyinin mahiyyəti xeyli genişlənir və istehsalın səmərəliliyinin müxtəlif aspektdə bu kateqoriya ilə əhatə olunması həmin kateqoriyanın istehsal-təsərrüfat kompleksinin sərəncamına ayrılan əsas və dövriyyə fondlarının dəyərinə mənfəətin nisbəti kimi şərh edilməsi ilə daha da genişlənir.

Müəssisənin rentabelliyini xarakterizə edən iki göstəricini: mənfəətin məbləğini və rentabelliyin səviyyəsini bir-birindən fərqləndirirlər. İstehsalın rentabelliyinin artmasının başlıca mənbələrindən biri müəssisə və təşkilatların əldə etdikləri ***mənfəət kütləsinin*** artmasıdır. Bu artım istehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salınması, istehsal olunan məhsulların strukturunun dəyişdirilməsi, yəni daha çox mənfəət əl-

də edilməsini təmin məhsul buraxılışının xüsusi çəkisinin artırılması nəticəsində və məhsul istehsalının miqyasının elə artması sayəsində əldə edilir ki, bu zaman mənfəət məbləği saxlanılmaqla, hər bir məhsul növü vahidinin realizə edilməsindən alınan mənfəətin ümumi məbləği artır.

***Mənfəət kütləsinin artmasının əsas amili*** – məhsulun maya dəyərinin aşağı salınmasıdır. Adətən, sənaye şəraitində məhsulun maya dəyərinin buraxılan hər bir məhsul növündən alınan mənfəətin məbləğinə təsirinin hesablanması məhsulun çoxnomenklaturluğu ilə əlaqədar olaraq, olduqca çətindir. Bundan başqa, perspektiv dövrlər üçün hər bir məhsul növü vahidinə məsrəflərin müəyyən edilməsi dəqiq nəticələr verə bilməz. Buna görə də belə hallarda mənfəətin hesablanması iriləşdirilmiş yolla aparılır: bazis dövründə əmtəəlik məhsulun realizəsindən əldə edilən mənfəətin məbləğini müəyyən edilir, sonra isə istehsalın həcminin nəzərdə tutulduğundan artım indeksini nəzərə almaqla faktiki mənfəəti hesablayırlar.

***Mənfəət kütləsinin artırılmasının digər mühüm amili*** – realizə olunmayan məhsul qalığının azaldılmasından və onun strukturunun dəyişdirilməsindən ibarətdir. Realizə məhsulu – istehsalçı müəssisədən sifarişçilərə göndərilən və onlar tərəfindən haqqı ödənilən məhsuldur. Sifarişçidən vəsaitin malgöndərən müəssisənin hesablaşma hesabına daxil olması anı realizə anı sayılır. Realizə məhsuluna sifarişçilərə göndərilmiş hazır məhsul, yarımfabrikat, kənar üçün görülmüş sənaye xarakterli işlər və xidmətlər daxildir. Görülən tədbirlərə baxmayaraq istehsalçı müəssisələrin anbarlarında realizə edilməmiş hazır məhsul qalığının kəmiyyəti ildən-ilə artır ki, bu da sənaye müəssisələrinə əlavə mənfəətin əldə edilməsinə imkan vermir. İstehsalçı müəssisələrin anbarlarında hazır məhsul qalığı haqqında məlumatlar cədvəl 84-də verilmişdir.

Rentabellik səviyyəsi mənfəət kütləsinin məhsulun tam maya dəyərinə nisbətinin faizlə ifadəsidir. Məsələn, əgər müəssisə realizə edilən məhsulun maya dəyəri 400 min manat olduğu halda 36 min manat mənfəət əldə etmişsə, onda həmin müəssisənin rentabelliyi 9%-ə (36:400×100) bərabər olacaqdır. Rentabellin göstəricisi həm pul yığımını, həm də müəssisənin təsərrüfat fəaliyyətinin səmərəliliyini göstərir. Bütün müəssisə-



*Cədvəl 84*

***İstehsalçı müəssisələrin anbarlarında hazır məhsul qalığı, mlrd. manat***

| Tarix | Bütün sənaye | o cümlədən: | |
|---|---|---|---|
| | | hasilat sənayesi | emal sənayesi |
| 01.01.2000-ci il | 552,7 | 50,4 | 502,3 |
| 01.04.2000-ci il | 609,3 | 47,3 | 562,0 |
| 01.07.2000-ci il | 646,5 | 59,0 | 587,5 |
| 01.10.2000-ci il | 622,0 | 97,7 | 564,3 |
| 01.01.2003-cü il | 535,6 | 21,3 | 514,3 |
| 01.04.2003-cü il | 650,3 | 73,6 | 576,7 |
| 01.07.2003-cü il | 588,1 | 43,3 | 544,8 |
| 01.10.2003-cü il | 533,2 | 34,7 | 518,5 |
| 01.01.2004-cü il | 746,3 | 47,6 | 698,7 |
| 01.01.2005-ci il | 759,0 | 57,3 | 701,7 |

lərin işinin rentabelli olmasının təmin edilməsi onları daha da inkişaf etdirmək və əmək kollektivlərinin maddi rifahını müntəzəm surətdə yaxşılaşdırmaq üçün böyük əhəmiyyətə malikdir. Müəssisələrin rentabelliyi yüksəldikcə, onlarda çalışan işçilərin də gəliri çoxalır və müəssisə sosial problemləri həll etmək üçün daha çox vəsaitə malik olur.

## 14.3. İstehsalın rentabellik səviyyəsinin hesablanma metodikası

Məlumat üçün qeyd edək ki, son vaxtlar iqtisadi ədəbiyyatda istehsalın rentabellik səviyyəsini hesablamaq üçün müxtəlif təkliflər irəli sürülür. Məsələ burasındadır ki, mənfəət canlı əməklə yaradılır. Maddiləşmiş əmək öz dəyərini, qeyd etdiyimiz kimi, hazır məhsulun dəyərinin üzərinə keçir və dəyərin artmasına səbəb olur. İstehsalın rentabelliyinin müasir ölçüsündə isə canlı əmək məsrəfləri praktik olaraq az miqdarda nəzərə alınır. Elə bir vəziyyət yarana bilər ki, əməyin texnika ilə aşağı səviyyədə silahlanması əsas istehsal fondlarının cüzi dəyərinə gətirib çıxarar. Bunun hesabına istehsalın rentabelliyi daha yüksək olacaqdır, halbuki eyni zamanda canlı əmək məsrəfləri çox olacaqdır. Belə bir vəziyyətdən çəkinmək üçün istehsalın ren-

tabelliyini aşağıdakı düsturdan istifadə edərək müəyyən edilməsi məqsədəuyğundur:

$$R_{ist.} = M_{il.} : (F_{əsas} + F_{dövr.} + F_{ə.h.});$$

burada $M_{il.}$ – məhsulun realizəsindən əldə edilmiş mənfəətin həcmi, manat; $F_{əsas}$ – əsas istehsal fondlarının dəyəri, manat; $F_{dövr.}$ – normalaşdırılan dövriyyə fondlarının dəyəri, manat; $F_{ə.h.}$ – istehsalda çalışan işçilərin əmək haqqı fondunun məbləği, man.

İstehsalın rentabelliyini verişmiş düsturla hesabladıqda, onun kəmiyyətinə yalnız istehsal prosesində iştirak edən maddiləşmiş əməyin kütləsi deyil, həm də əmək haqqı üçün avans edilmiş vəsaitin kəmiyyəti təsir göstərir. Planlaşdırma və uçot təcrübəsində rentabellik üzrə aşağıdakı göstəricilər tətbiq olunur:

***1) Ayrı-ayrı əmtəəlik məhsul növlərinin rentabelliyi.*** Məlumdur ki, hər bir məhsul növü üçün müəssisənin rəhbərliyi tərəfindən müəyyən edilmiş müəssisə topdansatış qiyməti olur. Ayrı-ayrı məhsul növlərinin rentabellik səviyyəsi, digər şərtlər eyni olarsa, həmin qiymətin kəmiyyətindən asılı olur. Belə müəssisə tərəfindən buraxılan məhsul vahidinin qiyməti artdıqca, ayrı-ayrı məhsul növlərinin rentabellik səviyyəsi də yüksəlir. Məsələn, əgər dəzgah üçün müəssisə topdansatış qiyməti 840 manata, nəzərdə tutulmuş maya dəyəri isə 800 manata bərabər olarsa, onda həmin dəzgah üzrə rentabellik səviyyəsi 5% [(40×100):800] olacaqdır. Müəssisənin buraxdığı ayrı-ayrı məhsul növlərinin rentabelliyi eyni deyildir: bəzi məhsullar çox, bəziləri isə az rentabelli ola bilər. Buna görə də müəssisənin rentabelliyinin ümumi səviyyəsi, buraxılan məhsulun ümumi çeşidində ayrı-ayrı məhsul növlərinin xüsusi çəkisinin dəyişməsi ilə əlaqədar olaraq dəyişə bilər. Müəssisələrin yüksək rentabellik ardınca qaçaraq «əlverişli» məhsul buraxması qeyri-qənaətbəxş hesab edilməlidir.

***2) Realizə məhsulunun rentabelliyi.*** Müəssisənin ümumi mənfəəti realizə edilən hər məhsul növündən əldə edilən mənfəətdən əmələ gəlir. Beləliklə, müəssisənin mənfəətinin məbləğinin artması realizə ediləcək məhsul vahidinin topdansatış qiymətinin səviyyəsindən (Qtop.), həmin məhsul maya dəyərindən (Md.) və miqdarından (Nr.il) asılı olur, yəni:

$$M_{r.m.} = (Q_{top.} - M_{d.}) \times N_{r.il.}$$

Verilmiş düsturdan görünür ki, qiymətin səviyyəsi eyni qaldıqda realizə məhsulunun maya dəyəri azaldıqca və miqdarı çoxaldıqca müəssisənin əldə edəcəyi mənfəətin məbləği də bir o qədər artır. Əksinə, maya dəyərinin artması və məhsul buraxılışının azalması müəssisənin mənfəətinin miqdarını azaldır.



Fərz edək ki, müəssisə il ərzində 4265 min manatlıq, topdansatış qiyməti ilə isə 5000 min manatlıq realizə məhsulu istehsal etməli və 735 min manat məbləğində mənfəət əldə etməlidir. Verilmiş şərtlər daxilində realizə məhsulun rentabellik səviyyəsi 17,2% olacaqdır.

***3) Müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin rentabelliyi*** – həm ayrı-ayrı əmtəəlik məhsul növlərinin, həm də realizə olunacaq məhsulların rentabellik səviyyəsindən asılı olaraq müəyyən edilir.

## 14.4. İstehsalın rentabellik səviyyəsinin təhlili

***Təhlilin məqsədi*** – müəssisə tərəfindən mənfəət üzrə müəyyən edilmiş göstəricinin necə yerinə yetirilməsini müəyyən etməkdən və onun rentabelliyini daha da yüksəldilməsi ehtiyatlarını aşkara çıxarıb səfərbərliyə almaqdan ibarətdir. Sənaye müəssisələrində aparılan təhlil zamanı, əsasən aşağıdakı üç göstərici: istehsalın rentabelliyi, realizə edilmiş məhsulun rentabelliyi və müəssisənin bütün istehsal-təsərrüfat fəaliyyətinin rentabelliyi öyrənilir.

***İstehsalın rentabelliyinin təhlili.*** Bu göstərici əmtəəlik məhsulun maya dəyərini mənfəətlə müqayisə etmək yolu ilə müəyyən edilir. Bu məqsədlə müəssisə üçün hər bir məhsul növü üzrə topdansatış qiyməti və plan maya dəyəri təyin edilir. Müəssisə topdansatış qiymətində buraxılan əmtəəlik məhsulun həcmini onun faktiki maya dəyəri ilə müqayisə edib, əmtəəlik məhsul buraxılışından əldə edilən mənfəətin məbləği müəyyən edilir. Şərti rəqəmlərdən istifadə edərək istehsalın rentabellik səviyyəsinin hesablanma metodikasını nəzərdən keçirək. Bunun üçün cədvəl 85-də verilmiş məlumatlardan istifadə edilir.

Planlaşdırılmış mənfəətlə faktiki mənfəətin müqayisəsi göstərir ki, müəssisə əmtəəlik məhsul buraxılışından əldə edilən mənfəət üzrə plan tapşırığını 81 min manat məbləğində artıqlaması ilə yerinə yetirmişdir. Bunun da nəticəsində istehsalın

Cədvəl 85

**İstehsalın rentabellik səviyyəsinin hesablanma metodikası**

| Göstəricilər | Plan üzrə | Faktiki |
|---|---|---|
| 1. Əmtəəlik məhsul buraxılışı, min manat | | |
| a) müəssisə topdansatış qiyməti ilə | 5000 | 5025 |
| b) maya dəyəri ilə | 4625 | 4209 |
| 2. Məhsul buraxılışının satışından alınan mənfəət, min manat | 735 | 816 |
| 3. İstehsalın rentabellik səviyyəsi, % | 17,2 | 19,4 |

rentabelliyi nəzərdə tutulduğu 17,2% əvəzinə, faktiki olaraq 19,4% olmuşdur.

Mənfəətin nəzərdə tutulduğundan artıqlaması ilə yerinə yetirilməsi ehtiyatlarını axtarıb tapmaq üçün, hər bir əmtəəlik məhsul üzrə qüvvədə olan müəssisə topdansatış qiymətini faktiki maya dəyəri ilə müqayisə etmək yolu ilə ayrı-ayrı əmtəəlik məhsul növlərinin rentabelliyini, həmçinin müqayisəli və müqayisəyə gəlməyən əmtəəlik məhsulların rentabelliyini nəzərdən keçirmək məqsədəuyğun olardı. Topdansatış qiymətində müqayisəli əmtəəlik məhsul buraxılışına və onun maya dəyərinə aid məlumatlardan istifadə edərək müqayisəli əmtəəlik məhsulun rentabelliyini hesablamaq olar və sonra ümumi göstəricilərdən müqayisəli əmtəəlik məhsula aid məbləği çıxmaqla müqayisəyə gəlməyən əmtəəlik məhsulun rentabelliyini müəyyən etmək olar.

Müqayisəli və müqayisəyə gəlməyən məhsulların istehsalın rentabellik səviyyəsinə təsiri müxtəlif olur. Fərz edək ki, əmtəəlik məhsulun müqayisəyə gələn hissəsi topdansatış qiymətində 3975 min manat təşkil edir. Müqayisəli və müqayisəyə gəlməyən məhsullar buraxılışının rentabellinin hesablanması metodikası cədvəl 86-da verilmişdir.

Hesablama göstərir ki, müəssisədə bütün əmtəəlik məhsul buraxılışı üzrə orta rentabellik 19,4% olmuşdur. Lakin müqayisəli və müqayisəyə gəlməyən əmtəəlik məhsul buraxılışı üzrə rentabellik müxtəlif olmuşdur. Belə ki, müəssisədə müqayisəyə gəlməyən əmtəəlik məhsul buraxılışı üzrə rentabelliyin səviyyəsi çox aşağıdır, yəni cəmisi 1% təşkil edir, halbuki müqayisəli əmtəəlik məhsul buraxılışı üzrə rentabellik səviyyəsi



Cədvəl 86

**Müqayisəli və müqayisəyə gəlməyən məhsulların rentabelliyi**

| Göstəricilər | Müəssisə topdansatış qiyməti ilə | Faktiki maya dəyəri ilə | Mənfəətin məbləği | Rentabellik, % |
|---|---|---|---|---|
| Bütün əmtəəlik məhsul, min manat o cümlədən: | 5025 | 4200 | 816 | 19,4 |
| müqayisəli məhsul | 3975 | 3169 | 806 | 25,4 |
| müqayisəyə gəlməyən məhsul | 1060 | 1040 | 10 | 1,0 |

25,4% olmuşdur. Deməli, yeni növ məhsul buraxılışı həcminin genişləndirilməsi üçün praktiki olaraq müəssisə maraqlı deyildir, çünki bu, müəssisənin mənfəət planının yerinə yetirilməsinə mənfi təsir göstərə bilər.

Təhlilin nəticəsində aşkar oldu ki, müqayisəyə gəlməyən əmtəəlik məhsulun tərkibinə daxil olan məmulatın maya dəyərini aşağı salmaq və bunun hesabına məmulatın rentabellik səviyyəsini artırmaq üçün zəruri təşkilati-texniki tədbirləri işləyib hazırlamaq və həyata keçirmək lazımdır. Özü də bu tədbirlərdə istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi, yeni texnika və texnologiyanın, elmi-texniki nailiyyətlərin istehsala tətbiqi öz əksini tapmalıdır. Texniki-təşkilati tədbirlərin həyata keçirilməsinin əsas məqsədi az istehsal xərcləri ilə yeni yüksək keyfiyyətli məhsul istehsalının mənimsənilməsi üzrə tapşırıqların (sifarişlərin) yerinə yetirilməsi, qabaqcıl təcrübənin tətbiqidir.

***Realizə edilmiş əmtəəlik məhsulun rentabelliyi.*** Məlumdur ki, müəssisələrdə istehsal edilmiş bütün əmtəəlik məhsullar dərhal realizə olunmur. Odur ki, bütün əmtəəlik məhsulun rentabelliyi ilə yanaşı, realizə edilmiş əmtəəlik məhsulların rentabelliyini də hesablamaq lazımdır. Realizə edilmiş əmtəəlik məhsulun rentabellik səviyyəsini təhlil etmək üçün əmtəəlik məhsulun realizəsindən əldə edilmiş faktiki məbləği nəzərdə tutulan məbləğlə müqayisə etmək lazımdır. Müqayisə, müqayisəli qiymətlərlə, yəni nəzərdə tutulmuş realizə qiymətlərilə aparılmalıdır. Əmtəəlik məhsulun reallaşdırılmasına dair mə-

lumatlarını təhlili metodikası cədvəl 87-də verilmişdir (rəqəmlər şərtidir).

Cədvəl 87

***Əmtəəlik məhsulun reallaşdırılmasına dair məlumatlar, min manat***

| Göstəricilər | Plan üzrə | Faktiki |
|---|---|---|
| 1. Müəssisə topdansatış qiyməti ilə məhsulun reallaşdırılmasından əldə edilən vəsaitin məbləği | 5000 | 4935 |
| 2. Reallaşdırılan məhsulun tam maya dəyəri | 4265 | 4138 |
| 3. Məhsulun reallaşdırılmasından əldə edilən mənfəət | 735 | 797 |

Cədvəldən görünür ki, reallaşdırmadan plan üzrə 735 min manat mənfəət əldə edilməli olduğu halda, faktiki mənfəət 797 min manat təşkil etmişdir, yəni nəzərdə tutulduğundan 62 min manat artıq mənfəət əldə edilmişdir. Realizəyə planı 5000 min manat olduğu halda, faktiki olaraq 4935 min manatlıq məhsul buraxılmışdır. Bu onu göstərir ki, cari ildə müəssisədə realizə edilməmiş əmtəəlik məhsul qalığı artmışdır ki, bu da əldə ediləcək mənfəətin azalmasına səbəb olmuşdur.

Təhlil əsasında müəyyən edilmişdir ki, realizə məhsulunun strukturunda edilən dəyişikliklər nəinki müqayisəli məhsulun maya dəyərinin aşağı salınmasından əldə edilən qənaətin miqdarına, həm də müəssisənin mənfəətinin məbləğinə təsir göstərir. Birinci halda, bu təsir ayrı-ayrı məmulat növlərinin maya dəyərinin aşağı salınmasına dair proqnozların müxtəlif olması ilə izah olunur. İkinci halda isə bu, ayrı-ayrı məmulatların rentabellik səviyyəsinin müxtəlif olmasından irəli gəlir.

Məhsulun strukturunda əmələ gələn dəyişikliyin məhsulun reallaşdırılmasından əldə edilən mənfəət proqnozunun yerinə yetirilməsinə təsirini, realizasiya proqramında göstərilən miqdardan az və yaxud çox realizə edilmiş hər məmul üzrə nəzərdə tutulan mənfəəti məbləğini hesablamaq yolu ilə müəyyən etmək olar. Hesablamanın nəticələri müəssisə üzrə proqnozlaşdırılmış rentabelliyinin orta səviyyəsi ilə müəyyən edilir.

Müəssisənin rentabellik səviyyəsi balans mənfəətinin məbləği ilə və həmin mənfəətin realizə edilmiş məhsulun maya də-



yərinə faizlə ifadə olunmuş nisbəti ilə xarakterizə edilir. Müəssisənin rentabelliyi realizasiya üzrə rentabellik səviyyəsindən və realizasiyadan kənar gəlir və itkilərdən asılıdır. Mənfəət və zərərlərin müəssisənin rentabellik səviyyəsinə etdiyi təsirin hesablanma metodikasını nəzərdən keçirək. Bunun üçün 88-ci cədvəldə verilmiş şərti rəqəmlərdən istifadə edək. Bu zaman nəzərə alınmalıdır ki, reallaşdırmadan plan üzrə əldə edilən mənfəətin məbləği 735 min manata, mənzil-kommunal təsərrüfatının istismarı üzrə nəzərdə tutulmamış zərin miqdarı isə 10 min manata bərabərdir.

Cədvəldən görünür ki, müəssisə tərəfindən mənfəət planının yerinə yetirilməsinin son nəticəsi hesab olunan balans mənfəəti 747 min manat (795 – 48) olmuşdur. Plan üzrə 725 min manat məbləğində (735 – 10) mənfəət əldə edilməsi nəzərdə tutulmuşdur. Deməli, müəssisənin 22 min manat məbləğində plandan əlavə mənfəəti olmuşdur.

Müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin təhlili göstərdi ki, rentabelliyi yüksəltmək və əldə ediləcək mənfəətin məbləğini artırmaq üçün müəssisə nə kimi ehtiyat mənbələrinə malikdir. Bu mənbələr, ilk öncə əmək məhsuldarlığını yüksəltmək, məhsul buraxılışının həcmini artırmaq və qeyri-məhsuldar itkiləri və xərcləri aradan qaldırmaq hesabına maya dəyərinin daha da aşağı salınması imkanlarından ibarətdir.

Məlumdur ki, müəssisənin istehsal fondlarının tərkibinə həm əsas və həm də dövriyyə istehsal fondları daxildir. İstehsal fondlarından istifadənin yaxşılaşdırılması böyük iqtisadi əhəmiyyətə malikdir.

Müəssisənin rentabellik səviyyəsini müəyyən etməklə yanaşı, onun fəaliyyətinə qiymət vermək üçün istehsal fondlarının dəyərinin hər 1000 manatına düşən mənfəətin miqdarını xarakterizə edən göstəricidən də istifadə olunur. Bu göstərici, istehsal fondlarından istifadə edilməsinin səmərəliyi haqqında təsəvvür yaradır.

Fondverimi göstəricisi müəssisə tərəfindən müəyyən dövr ərzində buraxılan məhsulun illik həcmini istehsal əsas fondların orta illik tam balans dəyərinə bölməklə müəyyən edilir. Fondvermi göstəricisini hesablamaq üçün məhsulun illik həcmi müəssisənin topdansatış qiymətində hesablanır, əsas fondlar

isə, əsas fondların aşınma dərəcəsi nəzərə alınmadan, onların ilk dəyəri ilə qiymətləndirilir.

Fondverimi göstəricisinin yüksəldilməsinə – əsas fondların strukturunun təkmilləşdirilməsi, yəni onların aktiv hissəsinin – maşın və avadanlığın xüsusi çəkisinin artırılması, köhnəlmiş və səmərəsiz əmək vasitələrinin yenisi, yüksək məhsuldarlı əmək vasitələri ilə əvəz edilməsi, iki-üç növbəli iş rejiminə keçirilməsi, növbədaxili boşdayanmaların və vaxt itkilərinin aradan qaldırılması, iş yerlərinin attestasiyadan keçirilməsi və artıq avadanlıqların satılması və s. hesabına nail olunur.

## 14.5. Müəssisə mənfəətinin artırılması – istehsalın rentabellik səviyyəsinin yüksəldilməsinin mühüm amilidir

Bazar iqtisadiyyatı şəraitində hər bir istehsalçının fəaliyyətinin nəticəsi mənfəətin kəmiyyəti ilə müəyyən edilir və mənfəətin artırılması istehsalın əsas məqsədi kimi çıxış edir. Məlum olduğu kimi, mənfəətin kəmiyyəti satışdan əldə olunmuş pulla ümumi istehsal xərcləri arasındakı fərqlə müəyyən edilir. Hansı iqtisadi sistemdə fəaliyyət göstərməsindən asılı olmayaraq bütün müəssisələr mənfəətin kəmiyyətini məhz belə hesablayır. Bununla belə mənfəətin mahiyyətinin izahında, indiyə qədər müxtəlif iqtisadi məktəblərin arasında ciddi fikir ayrılığı mövcuddur.

Marksist nəzəriyyəyə görə mənfəət, fəhlənin əməyinin istismarı nəticəsində yaranmış, izafi dəyərin çevrilmiş forması kimi istismarı pərdələyir Beləliklə, mənfəət xüsusi mülkiyyətin törəməsi olan istismarın nəticəsi kimi kapitalizmə xas olan istehsal münasibəti hesab edilir. Marksizmin tənqidçiləri istismarın xüsusi mülkiyyətlə bilavasitə əlaqəsi olmadığını qeyd edirlər.

Müasir iqtisadi ədəbiyyatda mənfəət, istehsal amillərinin, yəni əməyin, torpağın və kapitalın istifadə olunması şərtləri ilə izah edilir. Bu cəhətdən mənfəətin mahiyyətinə dair baxışlardan bəzilərini qeyd etmək olar. Mənfəət sahibkarlıq fəaliyyətinin nəticəsi – gəlirdir. Mənfəət istehsalın idarə edilməsində göstərilən istedad və yenilikçiliyin nəticəsidir. Mənfəət sahibkarlıq fəaliyyəti ilə əlaqədar məsuliyyət və riskə görə haqdır. Mənfəət istehsalçının, istehsal şəraiti və ya bazarda olan inhisarların nəticəsidir və s.



Gerçəklik göstərir ki, mahiyyətinin necə izah olunmasından asılı olmayaraq mənfəət, istehsalda məşğul olmaq məqsədini qarşısına qoymuş hər bir şəxsin, adamın əldə etdiyi nəticəni göstərir. Onun kəmiyyətinin artırılması isə istehsal şərtlərinin səmərəli istifadəsi və bazar şəraitinin düzgün qiymətləndirilməsindən asılıdır. İstehsal şərtləri baxımından mənfəətin yüksəldilməsinin aşağıdakı istiqamətlərini fərqləndirirlər.

– ***istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi.*** Bu zaman sənaye müəssisələrində əsas istehsalın təşkili köməkçi və xidmətedici proseslərinin müvafiq təşkili ilə əlaqələndirilir və onlar konkret ictimai tələbatı ödəyən məhsul hazırlanması naminə vahid prosesdə birləşirlər. İstehsalın təşkili əməyin təşkili ilə sıx bağlıdır. Əmək bölgüsü və kooperasiyası bir tərəfdən istehsalın təşkilinin səmərəli ilkin şərtidir, digər tərəfdən istehsalın təşkilinin təkmilləşdirilməsi əmək məhsuldarlığının müntəzəm artımını, əmək şəraitinin yaxşılaşdırılmasını, işçilərin maddi və mənəvi səviyyəsinin yüksəldilməsini təmin edir. Bazar iqtisadiyyatı şəraitində istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi müəssisənin mövcud ehtiyatlarından istifadə olunması, çoxlu xərc çəkmədən ictimai əmək məhsuldarlığının yüksəldilməsi üçün mühüm əhəmiyyət kəsb edir.

– ***iqtisadiyyatın bacarıqla idarə edilməsi.*** İstehsalın idarə edilməsi dedikdə, əvvəlcədən nəzərdə tutulan nəticələrə nail olmaq məqsədilə ictimai istehsal prosesi iştirakçılarına məqsədyönlü təsir göstərmək başa düşülür. Belə təsir müxtəlif idarəetmə üsullarının tətbiqi ilə əldə edilir. İstehsalın idarə edilməsinin başlıca vəzifəsi bunlardır: məhsulun zəruri miqdarda və çeşiddə, lazımi keyfiyyətdə və müəyyən olunmuş vaxtda hazırlanmasını təmin etmək; əmək kollektivinin sosial inkişafı, əməkçilərdə əmək təşəbbüskarlığının təzahürü, onların mədəni, məişət, mənzil və digər tələblərinin ödənilməsi üçün lazımi şərait yaratmaq.

– ***elmi-texniki tərəqqinin nailiyyətlərinin istifadə olunması*** – istehsalın texniki səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Yeni nəsildən olan texnikanın, prinsipcə yeni texnologiyanın tətbiqini təmin edən maşınqayırma ETT-nin sürətləndirilməsində aparıcı rol oynayır. Müasir dövrdə elm və texnika-

nın inteqrasiyası gücləndirilir, onların qarşılıqlı təsirinin yeni səmərəli formaları meydana çıxır, texnika yeniliklərinin, elmi kəşflərin və ixtiraların təşkili yaxşılaşdırılır, işlənilməsi və istehsalatda mənimsənilməsi müddəti azaldılır.

Bu istiqamətlər nəticə etibarı ilə istehsal xərclərinin aşağı salınmasına yönəldilir və mənfəətin artırılmasına səbəb olur. Göstərilən istiqamətlər əsasən müxtəlif formalarda canlı əməyə qənaət etmək hesabına, keçmiş əməkdən daha yaxşı istifadə etmək, yəni son məhsula düşən istehsal xərclərini azaltmaq yolu ilə səmərəliliyi artırmağa imkan verir. Bu, mənfəəti artırmağın çox mühüm yolu olsa da, bazar iqtisadiyyatına keçdiyimiz indiki dövrdə, daha çox istehlakçıların fərdi tələbatına uyğun, bazar tələb-təklifini nəzərə alaraq, kiçik partiyalarla, seriyalarla məhsul buraxan çevik istehsalın təşkili yolu ilə səmərəliliyi artırmaq üsullarının öyrənilməsi də böyük əhəmiyyət kəsb edir. Məlum məsələdir ki, özəlləşdirmə prosesinin həyata keçirilməsi nəticəsində və müştərək müəssisələrin yaradılması yolu ilə respublikamızın iqtisadiyyatında bir çox istehsalçı bu və ya digər səviyyədə istehsal vasitələrinin mülkiyyətçisinə çevrilmiş, nəticədə böyük olmayan müəssisələrin əhəmiyyəti xeyli artmışdır ki, bu da müəssisələrin mənfəətinin artmasına gətirib çıxarmışdır. İndi sahibkarların qarşısında istehsal xərcləri və qiyməti dəyişmədən, əvvəlkinə nisbətən daha keyfiyyətli, daha səmərəli yeni xassəyə malik olan əmtəələr istehsal etmək durur. Bu, müəssisə qarşısında həll olunmağa zəruri olan aşağıdakı tələbləri qoyur:

a) böyük çevikliyə malik olmaq, məhsulların çeşidini durmadan təzələmək. Buna çevik avtomatlaşdırılmış istehsalatların (ÇAİ) yaradılması yolu ilə nail olunur. ÇAİ bir məmulatın emalından tezliklə digərinə keçməyə, eyni zamanda müxtəlif əməliyyatları yerinə yetirməyə imkan verir. ÇAİ istehsal tələbi ilə müəyyən olunan müxtəlif formalarda çox müxtəlif dəzgah hissələrinin, mühərriklərin, nəqliyyat maşınlarının, turbinlərin hazırlanması üçün tətbiq edilir. ÇAİ-nin köməyi ilə geniş dairədə əməliyyatlar – kontur frezerləmə, səthin frezerləşməsi, burğu ilə deşmə, naxışkəsmə, xarratsıxac emalı, karusel dəzgahlarda emal, diş frezerlənməsi, cilalama və bir çox başqa əməliyyatlar yerinə yetirilir. ÇAİ dəqiqlik, itihərəkətlilik və davamlılıq kimi



ən yüksək tələblərə cavab verir;

b) istehsalda qabaqcıl texnologiyanın mənimsənilməsi vaxtını minimuma endirmək. Bu sahədə təcrübə istehsalının düzgün təşkili mühüm rol oynayır. Təcrübə istehsalı dedikdə, yeni məhsul növlərinin, yaxud texnoloji proseslərin yaradılmasının mühüm mərhələsi, təcrübə-konstruktor, yaxud elmi tədqiqat təşkilatlarının əsas fəaliyyət növlərindən biri nəzərdə tutulur. Təcrübə istehsalının düzgün təşkili qabaqcıl texnologiyanın mənimsənilməsi və yeni texnikanın istehsala tətbiqi vaxtını xeyli qısaltmağa imkan verir;

c) məhsulun keyfiyyətinə ciddi fikir vermək. Bu zaman sadəcə olaraq yaxşı məhsul buraxılışının təmin olunmasından başqa, istehlakçıya satışdan sonrakı xidmətlərin göstərilməsinə qayğını artırmaq lazımdır. Hər bir istehlakçının fərdi xüsusiyyətlərinə uyğun olaraq ona əlavə firma xidmətlərinin təşkili yaxşı olardı. Xidmətlər – müəssisənin, yaxud ayrıca fiziki şəxsin müəyyən tələbatının ödənilməsinə yönəldilmiş qeyri-istehsal fəaliyyətin nəticəsidir. Ayrı-ayrı xidmətlər istehsal xarakteri daşıyır. Xidmətlər, bir qayda olaraq, onun istehsalçısı ilə müqaviləyə əsasən göstərilir. Ödənilən tələbatın məzmununa görə xidmətlər aşağıdakılara ayrılır: məişət xidmətləri; mənzil-kommunal xidmətləri; nəqliyyat xidməti; rabitə xidməti; mədəniyyət müəssisələrinin xidmətləri; turist-ekskursiya xidmətləri; bədən tərbiyəsi və idman təşkilatlarının xidmətləri; sanatoriya-kurort və sağlamlıq idarələrinin xidmətləri; hüquqi xarakterli xidmətlər; dövlət və özəl sığorta müəssisələri və banklar tərəfindən göstərilən xidmətlər. Xidmətlər pullu və pulsuz ola bilər. Pullu xidmətlər əhalinin öz vəsaiti hesabına, pulsuz xidmətlər isə dövlət hesabına göstərilir. Faktiki materialların təhlili göstərir ki, əhaliyə göstərilən pullu xidmətlərin strukturunda məişət, rabitə, nəqliyyat və mənzil-kommunal xidmətlərinin xüsusi çəkisi daha yüksəkdir. Əhaliyə göstərilən pullu xidmətlərin strukturu cədvəl 89-da verilmişdir.

ç) istehsal xərcləri ilə yanaşı tədarük xərclərinin də aşağı salınması məqsədi ilə istehsalın idarə edilməsi təkmilləşdirilməlidir. Bu sahədə avtomatlaşdırılmış idarəetmə sistemlərinin (AİS) tətbiqi mühüm rol oynayır. Çünki AİS-nin tətbiqi istehsalın idarə edilməsinin səmərəliliyinin yüksəldilməsi ilə yanaşı,

Cədvəl 89

**1990-2004-cü illərdə əhaliyə göstərilən pullu xidmətlərin strukturu, %**

| Xidmətlərin növləri | 1990 | 1995 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|
| Cəmi<br>o cümlədən: | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| məişət xidmətləri | 28,0 | 18,0 | 25,0 | 25,0 | 25,0 | 24,5 | 24,3 |
| nəqliyyat xidmətləri | 35,0 | 50,0 | 15,0 | 15,0 | 18,0 | 16,4 | 17,2 |
| rabitə xidmətləri | 6,0 | 6,0 | 25,0 | 27,0 | 26,0 | 31,8 | 34,2 |
| mənzil-kommunal xidmətləri | 15,0 | 8,0 | 14,0 | 14,0 | 18,0 | 14,7 | 13,0 |
| təhsil sistemində xidmətlər | 8,3 | 1,3 | 3,4 | 4,8 | 5,0 | 4,7 | 4,2 |
| mədəniyyət xidmətləri | 2,3 | 0,3 | 1,1 | 1,1 | 1,1 | 1,0 | 0,8 |
| turizm xidmətləri | 2,7 | 0,9 | 3,3 | 3,3 | 3,1 | 2,8 | 2,4 |
| idman xidmətləri | 0,1 | 0,1 | 0,1 | 0,1 | 0,2 | 0,2 | 0,2 |
| səhiyyə xidmətləri | 1,8 | 4,3 | 1,3 | 1,4 | 1,3 | 1,3 | 1,2 |
| hüquq xidmətləri | 1,4 | 3,0 | 1,5 | 1,6 | 2,2 | 2,1 | 1,4 |
| sair xidmətlər | 3,2 | 1,4 | 10,0 | 6,5 | 0,4 | 0,5 | 0,4 |

idarəetmə xərclərinin də azaldılmasına imkan verir. Burada idarə olunan obyektin vəziyyəti haqqında məlumatların verilməsi, saxlanılması və yenidən işlənilməsi iqtisadi-riyazi metodların və modellərin, elektron-hesablama texnikasının köməyi ilə avtomatik yerinə yetirilir. AİS-də insanın rolu məlumatların işlənilməsinin metod və vasitələrini seçməkdən, həmçinin müvafiq qərarlar qəbul etməkdən ibarətdir.

Beləliklə, bazar iqtisadiyyatı şəraitində yüksək mənfəət əldə edib, bazar rəqabətinə tab gətirmək üçün həm istehsal xərclərinin dinamikasına nəzarət etmək, həm də müasir marketinqdən hərtərəfli istifadə etmək lazımdır. ***Marketinq*** – müəssisənin istehsal və satış prosesinin həyata keçirilməsində böyük rol oynayır, çünki marketinq bazarın kompleks təhlilinə əsaslanır, istehsal edilmiş məhsulun satılması və maksimum mənfəət əldə edilməsi probleminin həllinə yönəldilir. Marketinqin mühüm vəzifəsi istehlak tələbini məqsədəuyğun formalaşdırmaq və müəssisələrin mənafeyinə tabe etməkdir. Marketinq öz ilk addımını ABŞ-da XX əsrin əvvəllərində atmışdır. Bu, istehsalın



və kapitalın təmərküzləşməsinin artması, satış bazarlarının inhisarlaşmasının güclənməsi, satış problemlərinin kəskinləşməsi və iri inhisarlar arasında rəqabət münasibətlərinin güclənməsi ilə əlaqədardır. Müasir marketinq bazar tədqiqatlarına məhsul buraxılması proqramının işlənib hazırlanmasından əvvəl gələn istehsal fəaliyyətinin ilkin mərhələsi kimi baxır. Hazırda ABŞ-da sənaye, ticarət və xidmət sahəsi şirkətlərinin 90%-i, Almaniyada və Böyük Britaniyada müxtəlif sahə şirkətlərinin dördə üçü bu və ya digər formada müntəzəm olaraq bazar tədqiqatları tərəfindən aparılır.

Müəssisənin mənfəətinin artırılmasında mövcud iqtisadi resurslardan səmərəli istifadə olunması mühüm əhəmiyyət kəsb edir. Ümumiyyətlə, ***resurs*** dedikdə, istər-istəməz tələbatın ödənilməsi üçün zəruri olan vasitələr nəzərdə tutulur, yəni əmtəə istehsalı və xidmətlərin göstərilməsi üçün tətbiq olunan təbii, əmək, kapital və sahibkarlıq qabiliyyəti iqtisadi resurs formalarını təşkil edirlər. Bəzi hallarda bu resurslar iki qrupa, birincisi, maddi resurslara, xammal və materiallara və kapitala; ikincisi, insan resurslarına, əmək və sahibkarlıq qabiliyyətinə bölünərək istehsal amilləri kimi təsnifləşdirilir. İqtisadi resurslar, bir qayda olaraq, insanların hüdudsuz tələbatlarının ödənilməsinə yönəldiyindən onlar daima məhdud xarakter daşıyır.

Təbiətdə iqtisadi resursların müxtəlif növləri mövcuddur. İqtisadi resurslardan söhbət açarkən ilk növbədə təbii resursları qeyd etmək lazımdır. Çünki, o ilkin resurslardır. Təbii resurslara torpaqlar, meşələr, yerüstü və yerin təkində mövcud olan xammal, materiallar, mineral yataqlar, su hövzələri və s. daxildir. Fəqət bir cəhəti də nəzərə almaq lazımdır ki, bu resurs növündə əsas həlledici rola torpaq malikdir. ***Torpaq*** dedikdə isə birinci növbədə becərilən torpaqları, hasilat sənayesinə, tikintiyə və s. sahələrə cəlb olunan torpaqoarı nəzərə almaq lazımdır. Torpaq, onun münbitliyi və təkinin zənginliyi, bir növ Allahın insanlara bəxş etdiyi töhfə olduğundan, bütün digər resurs növlərindən müqəddəsdir.

İqtisadi resursların mühüm növlərindən biri də *əməkdir*. İqtisadiyyatda işlədilən əmək məfhumundan təsərrüfat prosesi zamanı insanın tətbiq etdiyi hər cür məqsədyönlü fiziki, mənəvi və əqli fəaliyyətinin məcmusu nəzərdə tutulur. Yalnız onun bir

fərdi xüsusi növ qabiliyyəti – sahibkarlıq qabiliyyəti əmək resurslarına daxil deyil. Klassik siyasi iqtisadın banilərindən olan A.Smit əmək resurslarına xüsusi əhəmiyyət vermiş və onun sərvətin mənbəyi olduğunu qeyd etmişdir. A.Marşal isə göstərir ki, hər cür əməyin məqsədi bu və ya digər nəticəni istehsal etməsidir. Deməli, əmək faydalı nəticənin əldə olunması üçün insanın məqsədyönlü fəaliyyətidir. Beləliklə, əmək resurs kimi sadəcə kəmiyyət, say etibarilə deyil, onun məhsuldarlığı və intensivliyi baxımından iqtisadiyyatda fəal rol oynayır. Deməli, mühəndisin, müəllimin, bənnanın, dülgərin və s. yerinə yetirdiyi iş bir məfhumda, əmək anlayışında əks olunur.

İqtisadi resurslar anlayışında ***kapitalın*** öz xüsusi yeri vardır. Kapital dedikdə, maddi nemətlər istehsalı və xidmətlərin gerçəkləşməsi üçün yığılan istehsal vasitələri ehtiyatları nəzərdə tutulur. Bura hər cür maşın və avadanlıqlar, qurğular, dəzgahlar, nəqliyyat vasitələri, pul-valyuta vasitələri və s. daxildir. Kapital istehsal vasitələri ilə eyni məzmuna malik deyil. Ancaq istehsal prosesi zamanı yığılmış istehsal vasitələri kapitaldır. Ona investisiya resursları da deyilir. Məlumat üçün qeyd edək ki, investisiya edilmiş istehsal vasitələri istehlak edilmiş istehsal vasitələrindən fərqlənir. Belə ki, investisiya üçün nəzərdə tutulmuş istehsal vasitələri istehsal prosesində dolayı yolla iştirak edir və təsərrüfatçılıq prosesində fəaliyyətdə olan kapitalın həcmini artırır. İstehlak üçün nəzərdə tutulmuş istehsal vasitələri isə istehsal prosesində birbaşa iştirak edir. Deməli, investisiyalı istehsal vasitələri istehlak olunan istehsal vasitələrinə təminat yaradır.

Kapital başqa əmtəələrin istehsalı üçün iqtisadi prosesdə yaradılmış uzunmüddətli istifadə olunan nemətlərdən ibarətdir. Buna görə də kapitalla real kapitalı fərqləndirmək lazımdır. Əgər faktik kapitala saysız-hesabsız qurğular, yollar, elektrik xətləri, pul resursları və s. daxildirsə, real kapitala alətlər, maşınlar, dəzgahlar və s. məhsullar daxildir. İqtisadi resurs kimi yalnız real kapital daha faydalıdır. Düzdür, kapitala pul formasında da baxılır və maliyyə kapitalı kimi iqtisadiyyatda təhlil edilir. Məsələn, C.Robinson göstərirdi ki, maliyyə resurslarında təcəssüm olunan, lakin investisiya edilməmiş kapital pul məbləğindən ibarətdir.



Kapitala olan baxışın müxtəlifliyindən asılı olmayaraq, onun bir ümumi xüsusiyyəti vardır ki, o gəlir gətirmək qabiliyyətinə malikdir. Avstriya iqtisadi fikir məktəbinin görkəmli nümayəndələrindən olan F.Vizer, K.Menker, E.Bem-Baverk qeyd edirdilər ki, kapital yüksək səviyyəli nemətdir. Məsələn, kartof aşağı səviyyəli nemətdir, çünki o tələbatı bilavasitə ödəyir. Kartof bişirilən qazan isə yüksək səviyyəli nemətdir, ona görə ki, o tələbatı bilavasitə deyil, dolayı yolla ödəyir. Deməli, kapitalın yüksək səviyyəli nemət kimi, insan sivilizasiyasının inkişafı, o cümlədən onların istehsalı üçün tətbiq olunan vasitələrin əhəmiyyəti durmadan artacaqdır.

İnsanların xüsusi növ qabiliyyəti kimi fərqlənən ***sahibkarlıq qabiliyyəti*** – iqtisadi resursların tərkibində fəal rola malikdir. İnsan biliklərinin, düşüncəsinin məhsulu olan sahibkarlıq, yeni imkanların tapılması, yeni istehsal üsullarının tətbiq olunması, köhnə, hər cür məhdudiyyətlərin aradan qaldırılması, yeniliklər naminə risk edilməsi qabiliyyətini əks etdirir. Sahibkarlıq daima axtarışlarla bağlı olduğundan o dinamik prosesdir. Yeni perspektiv istiqamətlərin müəyyən edilməsi ilə əlaqədar olaraq sahibkarlıq hər cür məhdudiyyətlərə üstün gəlir, mütərəqqi təşkilatçılıq və idarəetmə formasını törədir.

Lakin, sahibkarlıq yeniliklərlə bağlı olduğundan bu heç də o demək deyildir ki, o nəyinsə ixtirası və kəşf olunmasıdır. Bununla belə, o gəlir əldə etmək yolunda yeni biznesin axtarılmasıdır. Sahibkarlıq mövcud biznes sferasında mövcud resursların bölgüsündə və seçilməsində yeni təşkilatçılıq metodlarının həyata keçirilməsi, təşəbbüskarlığı malik olması və risk etmək qabiliyyəti ilə səciyyələnir.

Bəzən də sahibkarlıq qabiliyyətinə istehsalın üç amilin: təbii, əmək və kapital amillərinin daha yaxşı üsullarla birləşməsini axtaran proses kimi də baxılır. Lakin sahibkarlıq insanın xüsusi növ qabiliyyəti kimi, öz iş vaxtından, əməyindən, işgüzarlığından, mülkiyyətindən səmərəli istifadə etməklə əlavə gəlir əldə etmək qabiliyyətidir. Başqa sözlə, sahibkalıq qabiliyyəti mənfəətli işlərin görülməsinin əsasıdır.

Bütün yuxarıda deyilənləri nəzərə alaraq aşağıdakı ümumiləşdirmə və nəticələrə gələ bilərik:

a) istehsal xərcləri məhsul buraxılışı ilə əlaqədar müəssisə-

nin çəkdiyi bütün xərclərin cəmindən ibarətdir. Başqa sözlə, istehsal xərcləri dedikdə məhsul hazırlanmasına çəkilən canlı və maddiləşmiş əmək məsrəflərinin məcmusu nəzərdə tutulur. Əmtəə-pul münasibətləri şəraitində dəyər formasında çıxış edir. İctimai istehsal xərcləri və müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri fərqləndirilir. İctimai istehsal xərclərinə istehlak edilmiş istehsal vasitələrinin dəyəri və bütün yeni yaradılmış dəyər daxildir. Bu xərclər əmtəə dəyərinə bərabərdir və məhsulun satış qiymətinin formalaşdırılmasının əsasıdır. Müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri əmtəənin dəyərindən asılıdır. Bu xərclər məhsulun maya dəyəri formasında çıxış edir; maya dəyərinə isə istehlak edilmiş maddi ehtiyatlara və işçilərin əməyinin ödənilməsinə çəkilən xərclər daxil edilir;

b) müəssisənin kənardan aldığı iqtisadi ehtiyatlara (resurslara) verdiyi pulla (buna müəssisənin xarici xərcləri deyilir) yanaşı, məhsul istehsalında istifadə olunan müəssisənin özünə məxsus olan iqtisadi ehtiyatları onların gətirə biləcəyi gəlir həcmində (bunlara müəssisənin daxili xərcləri deyilir) istehsal xərclərinə daxil edilir;

c) istehsal xərclərinin daxili və xarici xərclərə ayrılması ilə əlaqədar müəssisənin mənfəəti, qeyd etdiyimiz kimi, üç səviyyədə fərqləndirilir: ***Mühasibat mənfəəti*** – satışdan əldə edilən pulla müəssisənin xərclədiyi nağd pul (xarici xərclər) arasında fərdən ibarətdir. ***İqtisadi mənfəət*** – satışdan əldə edilən pulla bütün istehsal xərcləri (xarici və daxili xərclərin cəmi) arasındakı fərqi səciyyələndirir. İqtisadi mənfəət müəssisənin xalis mənfəətidir. Mühasibat mənfəətinin xalis mənfəətdən artıq olan hissəsi isə daxili xərclər kimi istehsal xərclərinə aiddir. Bu kəmiyyətə, sahibkar sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu üçün «öz əməyinə görə haqq» kimi ***normal mənfəəti*** də daxil edir.

ç) məhsul buraxılışının həcmi ilə istehsal xərclərinin qarşılıqlı asılılığının təhlili üçün, istehsal xərclərinin məhsul buraxılışının həcmindən asılı olmayan, yəni sabit xərclər və məhsul buraxılışının həcmindən asılı olan, yəni dəyişən xərclərə bölünməsi zəruridir. Şərti-sabit xərclər – müəyyən dövr ərzində sabit qalır və ya istehsalın həcmi müəyyən dəyişikliklərə məruz qaldıqda cüzi, az dəyişir. Belə xərclərə misal olaraq istehsalat binalarının qızdırılmasına, işıqlandırılmasına, havasının təmizlənməsinə, avadanlıqların istismarına və onların daima saz halda saxlanılmasına çəkilən xərcləri, sex və ümumzavod xərclərini göstərmək olar. Şərti-dəyişən xərclər – istehsalın həcmindən bilavasitə asılıdır və ona müvafiq olaraq dəyişilir. Məsələn, texnoloji məqsədlər üçün istifadə edilən yanacaq və enerjiyə çəkilən xərclər, fəhlələrin əmək haqqı və s.;



d) məhsulun satış qiyməti ilə son hədd xərclərinin (əlavə məhsul istehsalı ilə əlaqədar ümumi xərclərin artımı) müqayisəsi məhsul buraxılışının optimal həddini müəyyən etməyə imkan verir. Qiymət – əmtəə dəyərinin pul ifadəsidir, onun kəmiyyət göstəricisidir. Dəyərin azalması ilə, bir qayda olaraq, əmtəənin qiyməti də azalır, onun artması ilə isə artır.

e) müəssisənin mövcud iqtisadi ehtiyatlarından istifadənin səmərəliliyini müəyyənləşdirərkən *alternativ istehsal xərcləri* də nəzərə alınmalıdır. Alternativ xərclərin nəzərə alınması bu və ya digər təsərrüfat fəaliyyətini həyata keçirmək üçün mövcud xərclərin sərf olunmasının iqtisadi cəhətdən nə dərəcədə əlverişli olub-olmamasının müəyyənləşdirilməsi zəruriliyindən irəli gəlir. Başqa sözlə, mövcud iqtisadi ehtiyatları mümkün təsərrüfat fəaliyyətlərindən hansına yönəltmək məsələsi meydana çıxdıqda alternativ xərcləri nəzərə almaq lazım gəlir. Məsələn, sahibkar öz pul ehtiyatlarını müxtəlif cür, həm mövcud istehsalın genişləndirilməsinə, yenidən qurulmasına və texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsinə, həm də yeni növ istehsalın təşkili üçün istifadə edə bilər. Seçmək üçün bu kəmiyyətlərin hər biri alternativ xərclər kimi müqayisə edilməlidir.

ə) mənfəət hər hansı sahibkarlıq fəaliyyətinin nəticəsinin göstəricisi olub, istehsalın son məqsədi kimi çıxış edir. Mənfəətin kəmiyyəti satışdan əldə edilən pulla ümumi istehsal xərcləri arasındakı fərqlə müəyyən edilir. Bu kəmiyyətin artırılması istehsal şərtlərinin səmərəli istifadəsi və bazar şəraitinin düzgün qiymətləndirilməsindən asılıdır.

## 14.6. İstehsalın rentabellik səviyyəsinin yüksəldilməsi yolları

İstehsalın rentabellik səviyyəsinin artırılması iqtisadi cəhətdən böyük səmərə verir; bu səmərə özünü istehsalın səmərəliliyinin yüksəldilməsində əks etdirir. İstehsalın səmərəliyi – onun nəticəliyi, istehsal fəaliyyətinin nəticələri ilə onlara nail olunmasına sərf edilən əmək və material ehtiyatlarının nisbətini xarakterizə edir.

İstehsalın səmərəliyinin yüksəldilməsi prosesinin mahiyyəti – məsrəfin hər vahidinə düşən iqtisadi nəticələrin yüksəldilməsindədir. Bazar iqtisadiyyatı şəraitində istehsalın səmərəliyinin başlıca göstəricisi – mənfəət norması, yəni mənfəətin avans edilmiş kapitala nisbəti olmaqla kapital sahiblərinin varlanması dərəcəsini göstərir. Müəssisə miqyasında onun həcmi xalis məhsulla onun istehsalına çəkilən cari məsrəflərin, yəni tam maya dəyərinin nisbəti kimi müəyyən edilir; bu məqsədlə, həmçinin istehsalın rentabelliyi göstəricisindən də istifadə olunur.

İstehsalın səmərəliyinin təhlili üçün, onun xüsusi göstəricilərindən – ehtiyatların ayrı-ayrı növlərinin tətbiq olunmasının səmərəliyi dərəcəsini ifadə edən əmək məhsuldarlığı, fondverimi və istehsalın material tutumu göstəricilərindən istifadə olunur. Müasir şəraitdə istehsalın səmərəliyinin əhəmiyyəti kəskin surətdə artır. Yalnız dönmədən yüksələn istehsalın səmərəliyi əsasında ölkənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə bağlı olan bütün məsələləri həll etmək olar. Odur ki, bazar iqtisadiyyatına keçid dövründə əsas vəzifə – elmi-texniki tərəqqini sürətləndirmək və istehsalı texniki cəhətdən yenidən qurmaq əsasında iqtisadiyyatı intensiv inkişaf yoluna keçirməklə istehsalın ən yüksək səmərəliyinə nail olmaq vəzifəsi qoyulmuşdur.

İstehsalın rentabellik səviyyəsinin yüksəldilməsinin əsas yolları aşağıdakılardan ibarətdir:

***a) məhsulun keyfiyyətinin yüksəldilməsi və maya dəyərinin aşağı salınması.*** Məhsulun keyfiyyətinin yüksəldilməsi iqtisadi artımın ən mühüm amili, istehsalın intensivləşdirilməsinin vacib şərtidir. Bazar iqtisadiyyatı şəraitində mühüm iqtisadi və siyasi vəzifə kimi çıxış edir. Bunu həll etmədən sürətləndirmənin özünü təmin etmək olmaz. Məhsulun keyfiyyətinin iqtisadi cəhətdən əsaslandırılmış yüksəlişi çox vaxt əlavə vəsait sərfi ilə bağlı olsa da xalq təsərrüfatı baxımından, bir qayda olaraq, əvvəlki keyfiyyətdə məhsul istehsalı həcmini genişləndirməyə nisbətən daha məqsədəuyğun sayılır. Ən yaxşı və daha təkmil texnikadan istifadə olunması onun tətbiqi imkanlarını genişləndirir, əhalinin artan tələbatının daha dolğun və az məsrəflə ödəməyə imkan verir.



Yüksək keyfiyyətli məhsul istehsalından əldə edilən iqtisadi qazanc hər bir məhsul vahidindən istifadə olunmasının səmərəsindən və onun istehsal miqyasından asılıdır. Məhsulun keyfiyyətinin yüksəldilməsi – əhalinin tələbatını daha tam ödəməyin, əmtəə-pul tədavülünün normal fəaliyyət göstərməsinin, müəssisənin ixracat potensialını artırmağın vacib amilidir.

Məhsulun maya dəyərinin aşağı salınması canlı və maddiləşmiş əməyə qənaəti əks etdirir, mənfəətin artmasını təmin edir, topdansatış və pərakəndə satış qiymətlərinin aşağı salınmasına imkan yaradır. Məhsulun maya dəyərinin aşağı salınması müasir dövrdə xüsusilə böyük əhəmiyyət kəsb edir, çünki bu, istehsalın sabit rentabelliyinin mütləq şərtidir.

Məlumat üçün qeyd edək ki, məhsulun maya dəyərinin strukturunun təkmilləşdirilməsi onun aşağı salınmasında mühüm rol oynayır. Məhsulun maya dəyərinin strukturu ayrı-ayrı xərc növlərinin nisbəti ilə xarakterizə olunur və hər bir müəssisənin spesifik xüsusiyyətlərini əks etdirir. Belə ki, neft-qazçıxarma sənaye müəssisələrində ən çox xərclər əməyin ödənilməsi və əsas istehsal fondlarının amortizasiyasına çəkilən xərclərdir, yüngül və yeyinti sənaye müəssisələrində isə əməyin ödənilməsi xərclərinin xüsusi çəkisi nisbətən kiçik olmaqla xammal və materiallara çəkilən xərclər 85-90% təşkil edir. Elmi-texniki tərəqqi nəticəsində bütün sənaye müəssisələrində maddi xərclərin xüsusi çəkisi artır və əməyin ödənilməsinə çəkilən xərclərin payı isə azalır.

***b) maddi və əmək ehtiyatları itkilərinin azaldılması.*** Maddi ehtiyatlar dedikdə, istehsal ehtiyatlarının mühüm hissəsi, ictimai məhsul istehsalı prosesində istifadə üçün nəzərdə tutulan əmək cisimlərinin məcmusu başa düşülür. Maddi ehtiyatlar natural-əşya tərkibinə görə hasilat sənayesi məhsullarından, kənd təsərrüfatı xammalından, həmçinin gələcəkdə yenidən emal,

yaxud yığılmaq üçün nəzərdə tutulan emal sənayesi məhsullarından, o cümlədən yarımfabrikatlardan, qovşaqlardan, hissələrdən, komplektləşdirici məmulatlardan və s.-dən ibarətdir. Maddi ehtiyatların dəyəri təkcə onların çıxarılmasına və istehsalına çəkilən xərcləri deyil, həm də daşınması, tədarükü xərclərini (o cümlədən təchizat və satış xərclərini) və s. xərcləri nəzərə almaqla formalaşır. Bir ildə sənaye müəssisələrində istifadə olunan maddi ehtiyatların dəyəri ödəmə fondu həcminə (amortizasiya ayırmalarının məbləği çıxılmaqla) bərabərdir. İstehsalın spesifikliyindən asılı olaraq istehsal xərclərinin tərkibində maddi ehtiyatların bu və ya digər növlərinin xüsusi çəkisi xeyli fərqlənir, müəssisələr isə müvafiq olaraq metal tutumlu, enerji tutumlu, yanacaq tutumlu olur və s.

***Əmək ehtiyatları*** – ölkə əhalisinin maddi və qeyri-maddi istehsal sahələrində işləmək üçün məcmu fiziki və mənəvi qabiliyyətə, ümumi-təhsil və peşə biliyinə malik hissəsi, ölkənin iqtisadi potensialının mühüm ünsürüdür. Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycanda əmək ehtiyatlarının tərkibində struktur dəyişikliklərinin xarakterik meyli – qeyri-istehsal sahələrində məşğul olanların xüsusi çəkisinin artmasından ibarətdir ki, bu da istehsalın səmərəliyinin yüksəldilməsini göstərir. Əmək ehtiyatlarının keyfiyyəti, hər şeydən öncə, istehsalın səmərəliyinin yüksəldilməsi üçün işçilərin elm və texnikanın ən yeni nailiyyətlərindən istifadə edə bilməsi qabiliyyətindən, onların istehsal dinamizminə nail ola bilməsindən asılıdır. Əmək ehtiyatlarından istifadənin planlaşdırılması onların həm keyfiyyət, həm də kəmiyyətcə xalq tələbatına uyğun gəlməsini (ixtisas və cins-yaş strukturu nəzərə alınmaqla), ictimai əmək məhsuldarlığının dönmədən artırılmasını, işçilərin ümumi və peşə hazırlığının genişləndirilməsini və təkmilləşdirilməsini, ölkənin müəssisələri arasında işçi qüvvəsinin yenidən bölgüsü təmin etmək məqsədi güdür.

***c) texnoloji maşın və avadanlıqlardan daha dolğun istifadə olunması.*** Texnoloji maşın və avadanlıqlardan istifadə olunmasını müəyyən etmək üçün maşın və avadanlıqlardan istifadə əmsalından istifadə edilir. Avadanlıqdan istifadə əmsalı – istehsal əsas fondların aktiv hissəsindən məhsuldar istifadə dərəcəsini xarakterizə edən göstəricidir. Vaxta, gücə (məhsuldarlığa),



istehsal olunan məhsulun həcminə və ya yerinə yetirilən işə görə hesablanır. Vaxta görə avadanlıqdan istifadə əmsalını müəyyən etmək üçün avadanlığın faktiki iş vaxtını planlı vaxt fonduna bölmək, yəni avadanlığın planda nəzərdə tutulan iş saatlarının miqdarına bölmək lazımdır; bu zaman nəzərdə tutulan dövrdə təqvim günləri, bayram və istirahət günləri, iş rejimi, növbənin davamiyyəti, həmçinin planlı-xəbərdarlıq təmirinə ayrılan vaxt nəzərə alınır. Əgər dəzgah ayda 160 saat işləməli idisə, lakin planda iş vaxtı itkisi nəzərdə tutulmadığı halda boş dayanma üzündən əslində 150 saat işləmişsə, onda vaxta görə avadanlıqdan istifadə əmsalı (ekstensiv yüklənmə əmsalı) 93,8% olacaqdır, yəni 6,2% dəzgah vaxtı itkisi olmuşdur ki, bu da həmin dəzgahdan istifadənin ehtiyatını təşkil edir.

Avadanlığın təkcə boş dayanmadan işləməsini təmin etmək deyil, həm də müəyyən olunmuş güclə, məhsuldarlıqla işləməsi təmin olunmalıdır. Əgər dəzgahda bir saat ərzində norma üzrə 6 eyni növlü hissə emal olunmalıdırsa, faktiki olaraq isə yalnız 5 hissə emal olunmuşdursa, onda gücə, məhsuldarlığa görə avadanlıqdan istifadə əmsalı (intensiv istifadə əmsalı) 83,3%-ə bərabər olacaqdır (5:6=0,833). Avadanlığın gücündən istifadə olunması onun vəziyyətindən, vaxtında və keyfiyyətlə edilən qulluqdan, işçilərin ixtisasından və səyindən asılıdır.

İş həcminə görə avadanlıqdan istifadə əmsalı (inteqral yükləmə əmsalı) həm vaxta, həm də onun gücündən istifadəni əks etdirir və onda faktiki istehsal edilən məhsulun plan həcminə olan nisbətinə bərabərdir; bu da boşdayanmalar olmadan və müəyyən edilmiş güc ilə işlədikdə alına bilər. Əgər dəzgahda plana görə ay ərzində 950 hissə emal olunması nəzərdə tutulmuşdur ki, əslində isə 750 hissə emal olunmuşdursa, onda avadanlıqdan istifadənin ümumiləşdirici, inteqral əmsalı 78,1% olacaqdır (0,938×0,833).

Avadanlıqdan istifadə əmsalının – istehsalın intensivləşdirilməsinin, mövcud istehsal qurğularında məhsul buraxılışını artırmağın mühüm amilidir. Avadanlıqdan istifadə əmsalının yüksəldilməsinə boşdayanmaları ləğv etməklə, növbəlik əmsalını artırmaqla, planlı-xəbərdarlıq təmirləri və avadanlığa qulluğu təkmilləşdirməklə, əmək intizamını möhkəmləndirməklə, fəhlələrin peşə-ixtisaslarını yüksəltməklə nail olunur.

***ç) qənaət rejiminə ciddi əməl olunması.*** Faktiki materialların təhlili göstərir ki, müəssisələrdə material-enerji ehtiyatlarından istifadəni yaxşılaşdırmaq üçün çox böyük ehtiyat mənbələri vardır. Əsas vəzifə həmin ehtiyatları vaxtında aşkara çıxarıb səfərbərliyə almaqdan ibarətdir. Ehtiyatlara qənaət mütərəqqi texnika və texnologiyanın, istehsalın mexanikləşdirilməsinin və avtomatlaşdırılmasının, əməyin elmi təşkilinin tətbiqini, əmək intizamının möhkəmləndirilməsini, maddi və mənəvi stimullaşdırmanın təkmilləşdirilməsini nəzərdə tutur. Qənaət rejiminə əməl olunması – bütün fəaliyyət sahələrində maddi, əmək və maliyyə ehtiyatlarından daha səmərəli istifadə etmək deməkdir.

Faktiki materialların təhlili göstərir ki, məhsul vahidinin istehsalına çəkilən xərclərin tərkibində material-enerji xərcləri əksəriyyət təşkil edir. Bu xərclər bütövlükdə sənaye üzrə 64-89%, mədənçıxarma sənayedə – 26-40%, emal sənayesində – 78-88%, kimya sənayesində – 73-81%, metallurgiya sənayesində – 41-65%, maşınqayırmada – 44-60%, elektroenergetikada – 40-60%, toxuculuq və tikiş sənayesində – 65-90% təşkil edir. Sənayedə məhsul istehsalına çəkilən xərclərin strukturu haqqında məlumatlar cədvəl 90-də verilmişdir.

*Cədvəl 90*

***Sənayedə məhsul istehsalına çəkilən xərclərin strukturu, yekuna görə %-lə***

| | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|
| Bütün xərclər<br>o cümlədən: | 100,0 | 100,0 | 100,0 | 100,0 | 100,0 |
| material xərcləri | 64,5 | 65,5 | 57,6 | 63,5 | 67,5 |
| əsas fondların amortizasiyası | 7,9 | 9,0 | 10,3 | 9,8 | 8,1 |
| əmək haqqı və sosial xərclər | 9,1 | 9,6 | 9,9 | 9,0 | 9,9 |
| sair xərclər | 17,6 | 15,9 | 22,2 | 17,7 | 14,5 |

Deməli, sənaye müəssisələrində material-enerji resurslarına qənaət etməklə dəyişən xərclərin payını xeyli azaltmaq olar. Sənaye müəssisələrində material-enerji ehtiyatlarına qənaət edilməsinin əsas yolları aşağıdakılardan ibarətdir:

– ***yeni texnikanın və mütərəqqi texnologiyanın tətbiqi*** – bir qayda olaraq, nəinki canlı əməyə, eyni zamanda material-enerji



ehtiyatlarına xeyli qənaət etməyə də imkan verir. ***Yeni texnika*** anlayışı – özünün texniki və iqtisadi göstəricilərinə görə fəaliyyət göstərənlərdən daha yüksək göstəriciləri olan yeni və təkmilləşdirilmiş (modernləşdirilmiş) konstruksiyalı maşın, mexanizm və cihazları, bina və qurğuları, xammalı, materialları, texnoloji prosesləri əhatə edir. Yeni texnikanın istehsalına çəkilən xərclər, əsasən, bu məqsədə yönəldilmiş investisiya qoyuluşundan, nəticəsi isə məhsul həcminin artırılmasından, ucuzlaşdırılmasından, keyfiyyətinin daha da yaxşılaşdırılmasından, əmək məhsuldarlığının yüksəldilməsindən ibarət olur. Kifayət qədər olmasa da, artıq tətbiq edilmiş yeni texnika ilə yanaşı, ən yeni, özünün istehsalı və tətbiqinə görə hələ başlanğıc mərhələsində olan texnika da mövcuddur. Belə texnikaya, məsələn, sürətli neytronlarla işləyən reaktorlar, yeni nəsildən olan kompüterlər, yeni növ robotlar və s. aiddir. Ən yeni texnikanın mənimsənilməsi, kütləvi istehsala verilməsi, tətbiq sahəsinə yönəldilməsi çox böyük investisiya qoyuluşu tələb edir, lakin sonradan çox yüksək səmərə verə bilər. Yeni texnika tətbiq olunmaq və təkmilləşdirmək üçün az xərc tələb edir, az həcmdə səmərə verir, lakin bu səmərə qısa müddətdə alınır və tez reallaşdırılır.

Mütərəqqi texnologiyanın ən mühüm istiqamətlərindən biri tullantısız texnologiya hesab edilir. ***Tullantısız texnologiyanın mahiyyəti*** – itkilərin və tullantıların maksimum mümkün olan qədər və hətta tam aradan qaldırılmasından ibarətdir. İstehsalın yüksək səmərəlik dərəcəsinə nail olunması tullantıların təkrar istifadəsini və zərərsiz olaraq qarşısının alınması zərurətini şərtləndirir. Tullantısız texnologiyanın tətbiqi kompleks prosesdir. Onun məqsədi istehsal-istehlak kimi qapalı sistemə, yəni istehsal və istehlak sahələri ilə ətraf mühit arasında obyektiv şəkildə mövcud olan qarşılıqlı əlaqəni nəzərə almaqla qapalı tullantısız tsikl yaratmağa nail olmaqdan ibarətdir. Tullantısız texnologiyanın səmərəliyi xammaldan istifadə əmsalı, məhsul istehsalına çəkilən xərclərin azaldılması, hazır məhsul alınmasının artması, xammal hasilatına çəkilən məsrəflərin azalması, investisiya qoyuluşundan götürülən faydanın artması kimi göstəricilərlə ölçülə bilər.

– ***əmək şəraitinin yaxşılaşdırılması.*** Əmək şəraiti – istehsal

mühitinə xas olan amillərin məcmusunu səciyyələndirir. Bunlar əmək prosesində işçinin vəziyyətinə (sağlamlığına, iş qabiliyyətinə, əməyə münasibətinə, şəxsiyyətinin inkişafına) və istehsalın nəticələrinə təsir edir. Əmək şəraiti sanitar-gigiyena, fizioloji və estetik əmək şəraitinə ayrılır. Öz nəticələrinə görə əmək şəraiti əlverişli, yəni əməyə yaradıcı münasibətin inkişafına gömək edən və qeyri-əlverişli, yəni yorğunluğu, peşə xəstəliyini, işə neqativ münasibəti doğuran şəkildə ola bilər. Əmək şəraiti əməyi yüngülləşdirmək, əmək kollektivlərin iş qabiliyyətini yüksəltmək, yaradıcılıq qabiliyyətini inkişaf etdirmək, peşə xəstəliklərinin qarşısını almaq, əməkdən razıqalma dərəcəsini yüksəltmək məqsədilə müntəzəm surətdə yaxşılaşdırılır. Buna baxmayaraq iqtisadiyyatda əlverişsiz əmək şəraitində çalışanların sayı hələ də az deyildir (cədvəl 91).

*Cədvəl 91*

***1995-2004-cü illərdə əlverişsiz əmək şəraitində çalışanların sayı, %***

| İllər | Cəmi | o cümlədən: | | | |
|---|---|---|---|---|---|
| | | sənaye | tikinti | nəqliyyat | rabitə |
| 1995 | 100,0 | 18,8 | 9,6 | 22,0 | 10,9 |
| 2000 | 100,0 | 17,4 | 2,4 | 7,2 | 2,6 |
| 2001 | 100,0 | 15,1 | 2,1 | 1,2 | 2,5 |
| 2002 | 100,0 | 13,4 | 3,9 | 8,7 | 2,5 |
| 2003 | 100,0 | 14,9 | 3,1 | 8,9 | 4,2 |
| 2004 | 100,0 | 19,2 | 4,6 | 12,8 | 5,3 |

– ***istehsal zayının ləğv edilməsi,*** yaxud minimuma endirilməsi – eyni miqdarda xammal və materialdan daha çox məhsul hazırlamağa və istehsalın həcmini artırmağa imkan verir. ***İstehsal zayı*** dedikdə, istehsal qüsuru olan məmulatlar, hissələr və yarımfabrikatlar nəzərdə tutulur. İstehsal zayının səbəbkarları ona görə maddi məsuliyyət daşıyırlar. Bu zaman müəssisənin ümumi xərcləri məhsulda olan qüsurların düzəldilməsinə çəkilən xərclər qədər azaldılır.

– ***material-enerji ehtiyatlarından təkrarən istifadənin təşkili*** – əlavə material-enerji ehtiyatlarının əldə edilməsinin mühüm ehtiyat mənbələrindən biridir. Onlardan istifadə edilməsi məh-



sulun maya dəyərini və investisiya qoyuluşunun həcmini azaltmağa, material-ehtiyatlarına olan tələbatı azaltmağa imkan verir. ***Təkrar maddi ehtiyatlar*** dedikdə, ilkin istifadədən sonra istehsalda törəmə xammal və ya məmulat kimi təkrarən tətbiq oluna bilən material və məmulatlar, əlavə maddi-texniki ehtiyatlar nəzərdə tutulur. Onların istifadəsi sayəsində məhsulun maya dəyəri və istehsal xərcləri, həmçinin investisiya qoyuluşunun xüsusi çəkisi aşağı düşür, iqtisadi artım sürətlənir. Təkrar maddi ehtiyatların əsas mənbələri istehsal və məhsul istehlakı tullantılarıdır. ***İstehsal tullantıları*** – məhsul istehsalında və işlərin yerinə yetirilməsində əmələ gələn və ilk istehlak dəyərini tam və ya qismən itirən xammal, material, yarımfabrikat qalığıdır. ***İstehlak tullantıları*** – fiziki və ya mənəvi aşınma nəticəsində öz istehlak xassələrini itirmiş məmulat və materiallardır. Təcrübədə istifadə edilməyən tullantılar (məsələn, hazırkı dövrdə onlar üçün istifadə şəraiti yoxdur), təkrar xammal (hazırkı dövrdə istehsalatda tətbiq oluna bilən) fərqləndirilir.

– ***məmulatın çəkisinin (vəzninin) azaldılması*** – metala qənaət edilməsinin əsas istiqamətlərindən biridir. Bu zaman məhsulun metal tutumu, deməli, müəssisənin dəyişən istehsal xərcləri xeyli azalır.

– ***məmulatın konstruksiyasının təkmilləşdirilməsi*** – onların texniki-iqtisadi parametrlərinin yaxşılaşdırılmasına, kütləsinin (vəzninin) azaldılmasına səbəb olmalıdır. İstehsalın strukturunun təkmilləşdirilməsi, istehsal olunan məhsulun öz tərkibinə, çeşidinə, keyfiyyətinə, ictimai tələbatın bütün istehlak xassələrinə uyğun gəlməsi də mühüm təsir göstərir. Metalın keyfiyyətinin yüksəldilməsi, pəstahların konfiqurasiyasının onlardan hazırlanan məmulatların formalarına yaxınlaşdırılması, metalların polimer, şüşə-plastik və digər mütərəqqi materiallarla əvəz olunması, istehsalın ümumi həcmində metal tutumlu məhsulun payının azaldılması istehsal xərclərinin azaldılmasına gətirib çıxarır.

İstehsalın həcmi artdıqca qənaət rejiminə ciddi əməl olunması daha çox əhəmiyyət kəsb edir, çünki bu zaman əldə edilən səmərənin, qənaətin həcmi daha yüksək olur. Digər tərəf-

dən, qənaət rejiminə ciddi əməl olunması ictimai istehsalı daha da inkişaf etdirmək üçün müəssisəyə əlavə vəsait əldə etməyə imkan verir. Bu bazar iqtisadiyyatının mühüm prinsiplərindən biridir.

Material-enerji ehtiyatlarına qənaətin yollarını müəyyən edərkən onun mənbələri və amillərini fərqləndirirlər. ***Qənaətin mənbələri*** dedikdə, qənaətin hansı ünsürlər və məsrəf maddələri hesabına əldə edildiyi nəzərdə tutulur. İstehsal prosesi ilə əlaqədar olan məsrəflərin aşağı düşməsini təmin edən şərtlər qənaət amilləridir. İstehsalın konkret şəraitindən asılı olaraq qənaətin müxtəlif mənbələri və amilləri vardır.

– ***nadir tapılan və bahalı materialların süni və tez tapılan materiallarla əvəz edilməsi.*** Bu sahədə konstruksiya materiallarından istifadə edilməsi mühüm rol oynayır. Konstruksiya materialları – əsas material növləridir. Onlardan maşın, avadanlıq və cihazlar hazırlanır, bina, körpü və digər konstruksiyaların karkasları qurulur və istifadə zamanı əsas ağırlıq onların üzərinə düşür. Konstruksiya materialları geniş əlamətlər üzrə təsnifləşdirilir. Məsələn, tətbiqinə görə maşınqayırmada və tikintidə; əmələgəlmə təbiətinə görə metal, qeyri-metal, kompozisiyalı material; xarici təsirlərə reaksiya verməsinə görə yanan, korroziyaya, istiyə, soyuğa davamlı material; müxtəlif emal üsulları zamanı meydana çıxan xassələrinə görə plastik, çətin əriyən, qaynaq edilən, çatlaq əmələ gəlməsinə meylli olan, tablanan və s. materiallar; alınma üsullarına görə ərintilər, preslənmiş, yayılmış, toxunmuş, qəliblənmiş materiallar, plyonkalar.

Konstruksiya materiallarının mühüm göstəriciləri onların möhkəmlik keyfiyyətləridir: sıxılmaya, dartılmaya müqavimətli, əyilməyə meylli, vibrasiya yüklənmələrinə davamlı olması, həmçinin maşınlar, avadanlıqlar, tikinti qurğuları layihələşdirilərkən nəzərə alınan bir sıra xüsusi xassələrin olması. Bu xassələr arasında müəyyən möhkəmlik keyfiyyətlərinə malik olmaqla yüngüllük, aşınmaya davamlılıq, elektrik və istilikkeçirmə, qazkeçirmə qabiliyyəti və s. xassələr var. Məmulatların layihələşdirilməsi prosesində konstruksiya materiallarını seçərkən onların texniki-iqtisadi parametrlərindən, yəni dəyərindən, istifadə əmsalından və müxtəlif emal şəraitində əmək tutumundan və s. istifadə edilir.



Bazar iqtisadiyyatına keçid dövründə məhsulun, xüsusilə maşın və avadanlıqların texniki səviyyəsinin və keyfiyyətinin əsaslı surətdə yüksəldilməsi maddi ehtiyatlara, deməli istehsal xərclərinə hər vasitə ilə qənaət edilməsi, ehtiyatlara qənaəti təmin edən mütərəqqi texnologiyanın tətbiq edilməsi, konstruksiyaların etibarlığının yüksəldilməsi, kütləsinin azaldılması məsələsi ön plana çəkildiyi vaxtda konstruksiya materiallarının keyfiyyət göstəricilərinə tələbat kəskin surətdə artmış və mürəkkəbləşmişdir. Məsələn, yüngül və eyni zamanda istiyədavamlı, həm yüksək, həm də aşağı temperaturda möhkəmliyini saxlayan, plastiki və zərbəyə yaxşı davam gətirən konstruksiya materiallarının olması zəruridir. Bu cür tələblər bir sıra yeni konstruksiya materiallarının meydana çıxmasına səbəb oldu. Alüminium, titan və xüsusilə maqnezium əsasında ərintilər perspektivli sayılır.

Möhkəmlik xassələrinə, həmçinin həmin xassələrin müxtəlif ekstremal şəraitdə saxlanmasına tələblərin artması yeni konstruksiya materialları alınmasının yeni istiqaməti ilə, daha doğrusu xassələrin hədd qiymətlərinə – müəyyən möhkəmliyin, çətin ərimənin, termosabitliyin və s. yüksək həddinə malik elementlərin ümumiləşdirilməsi ilə bağlıdır. Belə materiallar kompozisiyalı konstruksiya materiallarının yeni sinfini təşkil edir. Bunlarda müxtəlif liflərdən, saplardan, məftillərdən, sapaoxşar kristallardan, dənəvərlərdən, çox möhkəm və çətinəriyən dispers birləşmələrdən, turşulardan, karbidlərdən istifadə edilir, bunlar da konstruksiya materiallarının ya armaturunu, ya da kompozisiya aşqarını təşkil edir. Belə konstruksiya materialları müəyyən göstəricilərinə görə bütün məlum ilkin materiallardan üstün ola bilər.

# FƏSİL 15. İSTEHSALIN SƏMƏRƏLİ TƏŞKİLİ VƏ SAHƏDAXİLİ İQTİSADİ İSLAHATLARIN DƏRİNLƏŞMƏSİ PROBLEMLƏRİ

## 15.1. İstehsalın səmərəliliyinin mahiyyəti və meyarı

Məlumdur ki, ictimai istehsalın məqsədi – cəmiyyət üzvlərinin və cəmiyyətin özünün ehtiyaclarını müxtəlif əmək məhsulları və xidmətlərlə təmin etməkdir. Bu məqsədə nail olmaq üçün, ilk növbədə, cəmiyyətin malik olduğu iqtisadi potensialdan tam istifadə olunmalı, ictimai istehsalın iqtisadi səmərəliliyi yüksəldilməlidir. İctimai istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsi isə iqtisadi, sosial, təşkilati-texniki tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi ilə yanaşı, «istehsaldankənar» tədbirlərin tətbiqini də tələb edir. Başqa sözlə, ictimai istehsalın iqtisadi səmərəliliyini düzgün qiymətləndirmək üçün onun meyarı və göstəriciləri elmi-nəzəri və metodoloji cəhətdən dəqiq əsaslandırılmalıdır. Çünki hər hansı bir sosial-iqtisadi prosesin kəmiyyət və keyfiyyət cəhətlərini özündə tam və dəqiqliklə əks etdirən meyar və göstərici (yaxud göstəricilər sistemi) olmadan həmin prosesin idarə edilməsi qeyri-mümkündür.

***Ümumiyyətlə, meyar dedikdə hər hansı şeyə qiymət və tərif vermək, yaxud onu təsnif etmək üçün əsas əlamət nəzərdə tutulur.*** Məlumdur ki, hər hansı bir məhsulun hazırlanması prosesi maddiləşmiş və canlı əmək məsrəfləri nəticəsində baş verir. Müxtəlif istehsal şəraitində məhsul vahidinin istehsalı üçün müxtəlif miqdarda ictimai əmək sərf edilə bilər. Deməli, məhsul istehsalı üçün müxtəlif istehsal şəraitində müxtəlif miqdarda ictimai əmək sərf edilir. Beləliklə, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinin iqtisadi məzmunu məhsul vahidinin hazırlanması üçün ictimai əmək məsrəflərinin aşağı salınmasından ibarətdir.

İstehsalın iqtisadi səmərəliliyini müəyyən edərkən iki növ məsrəfləri: cari və birdəfəlik məsrəfləri fərqləndirirlər. ***Cari məsrəflər*** müəssisənin il ərzində məhsul istehsalına çəkdiyi bütün xərcləri səciyyələndirir və ona görə də bəzən buna istehsal xərcləri də deyilir. Müəssisə miqyasında cari məsrəflərə il ərzində sərf edilmiş bütün canlı və maddiləşmiş əmək məsrəfləri aid edilir. Cari məsrəflərdən fərqli olaraq, ***birdəfəlik məsrəflərə*** əsas fondların yaradılması və onların geniş təkrar istehsalı üçün istehsalın yeni texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsi məqsədinə yönəldilmiş investisiya qoyuluşu şəklində bütün vəsaitlər aiddir.



İqtisadi ədəbiyyatlarda ***«İqtisadi səmərə»*** və ***«İqtisadi səmərəlilik»*** anlayışları fərqləndirilir. İqtisadi səmərə ictimai istehsalın səmərəliliyinin artırılmasına yönəldilmiş bu və ya digər tədbirlərin həyata keçirilməsi sayəsində əldə edilən nəticəni xarakterizə edir. Özü də bu nəticə iqtisadi səmərədən başqa sosial və texniki-iqtisadi şəkildə də ola bilər. Əgər bu və ya digər tədbirin həyata keçirilməsi nəticəsində müəssisənin istehsal-təsərrüfat fəaliyyətini səciyyələndirən iqtisadi göstəricilər yaxşılaşarsa, onda əldə edilən səmərə ***iqtisadi***; əmək kollektivinin sosial şəraiti yaxşılaşarsa – ***sosial səmərə*** və nəhayət, maşın və avadanlıqların texniki parametrləri və buraxılan məhsulun keyfiyyət göstəriciləri, yəni texnikanın məhsuldarlığı, gücü, sürəti, istismar rahatlığı, yanacaq işlətmə qabiliyyəti və s. yaxşılaşarsa - ***texniki-iqtisadi səmərə*** adlanır.

İqtisadi səmərənin ölçüsü bu və ya digər tədbirin səmərəlilik dərəcəsi ilə ifadə olunur. Məsələn, yeni texnikanın tətbiqinin iqtisadi səmərəliliyi vaxt vahidi ərzində (vaxt vahidi kimi il, rüb, ay qəbul edilə bilər) əldə edilən iqtisadi səmərənin nəticəsinin sərf olunan canlı və maddiləşmiş əməyin kəmiyyətinə nisbəti kimi təyin edilir. Adətən, ictimai istehsalın iqtisadi səmərəlilik meyarı kimi ictimai əmək məhsuldarlığının səviyyəsi götürülür. Çünki onun yüksəldilməsi istehsal həcminin artmasına, canlı və maddiləşmiş əmək məsrəfləri arasındakı nisbətlərin dəyişməsi ilə bir vaxtda məhsul vahidinə düşən əmək məsrəflərinin ixtisar edilməsinə (azaldılmasına) gətirib çıxarır. Bu onu göstərir ki, ictimai əməyə mütləq qənaət edildikdə, məhsul vahidinə sərf olunan maddiləşmiş əməyin xüsusi çəkisi nisbətən artır və canlı əməyin payı isə, əksinə, azalır. Bunu əsas götürərək bəzi iqtisadçılar hazırda iqtisadi səmərənin əldə edilməsində canlı əməyin rolunu azaldırlar. Onlar göstərirlər ki, iqtisadiyyatda canlı əməyin payı azaldığı üçün, o, iqtisadiyyatın inkişafında artıq əsas amil kimi çıxış etmir.

Bu doğrudan da belədir. Hazırda sənaye müəssisələrində çalışan işçilərin sayı istehsalın mexanikləşdirilmə və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi nəticəsində getdikcə aza-

lır, yəni canlı əmək sərfi azalır, istehsal əsas fondların dəyəri isə artır. Lakin bunun əsasında iqtisadiyyatın inkişafında canlı əməyin həlledici rola malik olduğunu inkar etmək düzgün deyildir. Aparılan tədqiqatlar nəticəsində müəyyən olunmuşdur ki, ictimai məhsulun istehsalına canlı və maddiləşmiş əməyə qənaət əsasında əldə edilmiş ümumi qənaətdə canlı əməkdən alınan səmərə təqribən 60-75% təşkil edir.

Müxtəlif növ məsrəflərin iqtisadi səmərəliliyi istehlak edilmiş ehtiyatlardan istifadə olunması səviyyəsi, istehsalın son nəticələrinin aşkar edilməsi və qiymətləndirilməsi, həmçinin optimal variantın seçilməsi üçün müəyyən edilir. Bu məqsədlə müxtəlif göstəricilər sistemindən istifadə edilir. Lakin ictimai istehsalın səmərəliliyinin müəyyən edilməsində özünün miqyasına, öyrənilmə tarixinə, müəssisənin iqtisadi potensialının artırılmasındakı roluna, iqtisadi inkişaf və sosial tərəqqidəki əhəmiyyətinə və s. əlamətlərə görə investisiya qoyuluşu əvəz edilməzdir. Çünki investisiya qoyuluşunun iqtisadi səmərəliliyi, müəssisənin əsas fondlarının genişləndirilməsi və sadə təkrar istehsalına çəkilən xərclə bundan alınan nəticə arasındakı əlaqə və kəmiyyət asılılığını səciyyələndirən göstəricidir.

İnvestisiya qoyuluşunun bilavasitə nəticəsi istehsal gücünün genişləndirilməsi və qeyri-istehsal obyektlərinin işə salınmasından ibarət olduğu halda, onun son nəticəsi – məhsul istehsalının və sənaye xarakterli xidmətlərin həcminin artmasıdır. İnvestisiya qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsi – istehsalın intensivləşdirilməsinin mühüm istiqamətlərindən biridir. Bu məqsədlə investisiya qoyuluşu elə obyektlərə yönəldilməlidir ki, onlar tələbatı daha tam ödəmək şərtilə, ictimai istehsalın optimal proporsional artımını təmin etmiş olsun. Məsrəflərin mütləq (ümumi) və nisbi (müqayisəli) iqtisadi səmərəliliyini fərqləndirirlər.

## 15.2. Məsrəflərin iqtisadi səmərəliliyini xarakterizə edən göstəricilər sistemi

İstehsalın iqtisadi səmərəliliyini qiymətləndirmək üçün iki növ göstəricilər sistemindən: səmərəliliyin ümumi (mütləq) və nisbi (müqayisəli) göstəricilər sistemindən istifadə edilir.

Səmərəliliyin mütləq (ümumi) göstəricilər sistemi vasitəsilə



investisiya qoyuluşunun və müəssisənin istehsal əsas fondlarından istifadə olunması səmərəliliyinin səviyyəsi ölçülür. Mütləq (ümumi) iqtisadi səmərəlilik bir neçə göstərici ilə səciyyələnə bilər ki, onlardan hər biri müəyyən maddi istehsal sferasında bu və ya digər məsrəflərin səmərəliliyini təmin etmək məqsədini daşıyır. Bütövlükdə iqtisadiyyat üzrə, qeyd etdiyimiz kimi, investisiya qoyuluşunun mütləq iqtisadi effektivlik əmsalı ($E_{ef}$) milli gəlirin illik artımının ($MG_{a.il}$), bu artımı təmin edən və maddi istehsal sferasına qoyulan illik investisiya qoyuluşunun məbləğinə (İqoy) olan nisbətini xarakterizə edir, yəni:

$$E_{ef} = MG_{a.il} : İ_{qoy}$$

Ayrı-ayrı sənaye sahələri və texniki-iqtisadi problemlər üzrə investisiya qoyuluşunun mütləq iqtisadi səmərəlilik əmsalını hesablamaq üçün illik xalis məhsul artımını ($XM_{a.il}$), bu artımı təmin edən illik investisiya qoyuluşunun həcminə ($İ_{qoy}$) bölmək lazımdır, yəni:

$$E_{ef} = XM_{a.il} : İ_{qoy}$$

Müəssisələr üzrə investisiya qoyuluşunun mütləq iqtisadi səmərəlilik əmsalını illik xalis (normativ) məhsul həcmi artımının ($N \times M_{a.il}$) texniki-iqtisadi tədbirlərin yerinə yetirilməsi üçün lazım olan illik investisiya qoyuluşuna ($İ_{qoy}$) nisbəti kimi təyin edilir, yəni:

$$E_{ef} = N \times M_{a.il} : İ_{qoy}$$

Rentabelli, gəlirli işləyən müəssisələr üzrə investisiya qoyuluşunun mütləq iqtisadi səmərəlilik göstəricisini hesablamaq üçün illik mənfəət artımının məbləğini ($M_{a.il}$), bu artımı təmin edən illik investisiya qoyuluşunun həcminə ($İ_{qoy}$) bölmək lazımdır, yəni:

$$E_{ef} = M_{a.il} : İ_{qoy}$$

Zərərlə işləyən müəssisələr üzrə mütləq iqtisadi səmərəlilik əmsalını hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$E_{ef} = [(M_d - M'_d) \times N_{il}] : İ_{qoy}$$

burada $M_d$ və $M'_d$ – tədbirin tətbiqindən əvvəl və sonrakı məhsul vahidinin maya dəyəri, manat; $N_{il}$ – tədbirin tətbiqindən sonra istehsal edilən məhsulların miqdarı.

Yeni tikilən müəssisələr, sexlər və digər obyektlər üzrə mütləq iqtisadi səmərəlilik əmsalı mənfəətin investisiya qoyuluşuna nisbəti kimi müəyyən edilir və aşağıdakı düsturla ifadə olunur:

$$E_{ef} = (Q_{top} - M_d) : \dot{I}_{qoy}$$

burada $Q_{top}$ – müəssisə topdansatış qiyməti ilə illik məhsul buraxılışı, manat; $M_d$ – maya dəyəri üzrə illik məhsul buraxılışı.

Bütövlükdə iqtisadiyyat və onun sahələri üzrə mütləq iqtisadi səmərəlilik əmsalı fəaliyyətdə olan müəssisələr timsalında illik milli gəlirin (xalis məhsulun), ilin əvvəlində xalq təsərrüfatının əsas və dövriyyə fondlarının orta illik dəyərlərinin məbləğinə olan nisbəti kimi aşağıdakı düstur vasitəsi ilə hesablanır:

$$E_{ef} = MG_{il} : (D_{əsas} + D_{döv}) ;$$

burada $MG_{il}$ – illik milli gəlirin (xalis məhsulun) həcmi, manat; $D_{əsas}$ – əsas fondların orta illik dəyəri, manat; $D_{döv}$ – dövriyyə fondlarının orta illik dəyəri, manat.

Məsrəflərin mütləq iqtisadi səmərəliliyini qiymətləndirərkən bir sıra xüsusi göstəricilərdən – ehtiyatların ayrı-ayrı növlərinin tətbiq olunmasının səmərəlilik dərəcəsini səciyyələndirən əmək məhsuldarlığı, fondverimi, fondtutumu və istehsalın materialtutumu göstəricilərindən istifadə edilir. Bu göstəricilərin hər biri haqqında buraxılış işinin üçüncü fəslində daha ətraflı danışılacaqdır.

Elm və texnikanın müasir inkişaf mərhələsi istehsal məsələlərinin çoxvariantlı olması ilə xarakterizə olunur. Belə bir hal ***nisbi iqtisadi səmərəlilik*** göstəricilərindən istifadə edilməsini zəruri edir. Nisbi iqtisadi səmərəliliyin əsas göstəricilərinə investisiya qoyuluşunun həcmi, onun özünüödəmə müddəti və səmərəlilik əmsalı, məhsulun maya dəyəri, illik qənaət və s. aid edilir. Bundan başqa, istehsalın nisbi iqtisadi səmərəliliyini müəyyən etmək üçün əlavə nisbi iqtisadi səmərəlilik göstəricilərindən də istifadə edilir. Belə göstəricilərə aiddir: məhsul vahidinə düşən maddi məsrəflərin sərfi; məhsulun əməktutumu; işçilərin nisbi azad olması və s.

***İnvestisiya qoyuluşunun həcmi*** – maddi və qeyri-maddi istehsal sahələrində əsas fondların sadə və geniş təkrar istehsalı üçün nəzərdə tutulur. Qeyd etdiyimiz kimi, investisiya qoyuluşunun birbaşa nəticəsi – istehsal gücünün və qeyri-maddi istehsal obyektlərinin işə salınmasından; son nəticəsi isə – məhsulun və xidmətlərin həcminin artımının təmin edilməsindən ibarətdir. Odur ki, investisiya qoyuluşu elə obyektlərə yönəldilməlidir ki, onlar tələbatı daha tam ödəmək şərtilə, müəyyən dövr ərzində ictimai istehsalın optimal proporsional artımını təmin



etmiş olsun.

Müəssisənin bütün investisiya qoyuluşu ($\dot{I}_{qoy}$) iki qrupa: bu müəssisənin və ya onun ayrı-ayrı obyektlərinin inkişafı ilə bilavasitə əlaqədar olan tam investisiya qoyuluşuna ($\dot{I}_t$) və əsas istehsal ilə əlaqədar olan sahələrə investisiya qoyuluşuna, yəni «əlaqədar» investisiya qoyuluşuna ($\dot{I}_ə$) bölünür və aşağıdakı düsturla ifadə olunur:

$$\dot{I}_{qoy} = \dot{I}_t + \dot{I}_ə$$

Müəssisənin və ya onun ayrı-ayrı obyektlərinin inkişafı ilə bilavasitə əlaqədar olan tam investisiya qoyuluşunun həcmi aşağıdakı düsturla hesablanılır:

$$\dot{I}_t = \dot{I}_m + \dot{I}_ə + V_d + V_h ;$$

burada $\dot{I}_m$ – müstəqim investisiya qoyuluşunun həcmi; $\dot{I}_ə$ – əlavə investisiya qoyuluşunun həcmi; $V_d$ – müəssisənin dövriyyə vəsaitinin (fondların) yaradılması üçün lazım olan məsrəflərin məbləği, manat; $V_h$ – istehsal hazırlığı ilə əlaqədar məsrəflər, manat.

Müstəqim investisiya qoyuluşunun həcmi bu müəssisənin sənaye-istehsal obyektlərinə aid edilən məsrəfləri özündə birləşdirir və aşağıdakı düsturla təyin olunur:

$$\dot{I}_m = V_{ə.f.} + V_{l.a.} + D_{zər.} + V_{g.k.} + V_{təd.} ;$$

burada: $V_{ə.f.}$ – əsas fondların yaradılması üçün məsrəflər; $V_{l.a.}$ – layihə-axtarış işlərinə ayrılan məsrəflər; $D_{zər.}$ – tikinti ilə əlaqədar əsas fondların ləğv edilməsindən dəyən zərərin ödənilməsi məsrəfləri, manat; $V_{g.k.}$ – geoloji-kəşfiyyat işlərinə ayrılan məsrəflər; manat; $V_{təd.}$ – elmi-tədqiqat işləri üçün ayrılan məsrəflər, manat.

Tam investisiya qoyuluşunun həcmi elmi-texniki tərəqqinin ayrı-ayrı istiqamətləri üzrə də hesablana bilər. Məsələn, yeni texnikanın yaradılması və mənimsənilməsi ilə əlaqədar olan tədbirlərin həyata keçirilməsi üçün lazım olan tam investisiya qoyuluşunun kəmiyyəti aşağıdakı düsturla müəyyən edilir:

$$\dot{I}_{t.i} = (D_b + F_d + \dot{I}_ə) - (D_{av} + D_{is} + D_{zər}) ;$$

burada $D_b$ – əsas fondların balans dəyəri, manat; $F_d$ – baza və tətbiq edilən variantlar üzrə dövriyyə vəsaitlərinə tələbatlar arasındakı fərq; $\dot{I}_ə$ – infrastrukturun yaradılması ilə əlaqədar olan investisiya qoyuluşunun həcmi, manat; $D_{av}$ – əsas fondların aşınma dərəcəsi nəzərə alınmaqla faktiki dəyəri; $D_{is}$ – istehsal-

dan çıxarılan əsas fondların dəyəri; $D_{zər}$ – əsas fondların istehsaldan çıxarılması nəticəsində müəssisəyə dəyən zərərin həcmini göstərir və aşağıdakı kimi hesablanır:

$$D_{zər} = D_{ləğv} + X_{dem} + D_{tul}$$

burada $D_{ləğv}$ – avadanlığın ləğv (qalıq) dəyəri, manat; $X_{dem}$ – avadanlığın sökülməsinə çəkilən xərclər; $D_{tul}$ – material tullantılarının dəyəri, manat.

***Əlavə investisiya qoyuluşu*** dedikdə, maliyyələşdirmə mənbələrindən asılı olmayaraq ərazi və funksiyalarına görə müstəqim investisiya qoyuluşu obyektləri ilə əlaqədar olan obyektlərə vəsait qoyuluşu nəzərdə tutulur. Məsələn, tikinti meydançasından kənarda yerləşən giriş dəmir yolu, elektrik ötürmə xətləri və başqa mühəndis kommunikasiyaları. Adətən, əlavə investisiya qoyuluşunun həcmi (İə) həmin obyektlərin məhsulunun və ya xidmətinin istehlakı ölçüsünə uyğun götürülür və aşağıdakı düsturla ifadə olunur:

$$\dot{I}_ə = \dot{I}_{q.ə} + \dot{I}_{q.d};$$

burada $\dot{I}_{q.ə}$ – əsas fondların ünsürlərini göndərən müəssisələrdə əlaqədar investisiya qoyuluşu, manat; $\dot{I}_{q.d}$ – həmin müəssisələrdə əlaqədar investisiya qoyuluşu, manat.

Məlumat üçün qeyd edək ki, 2005-ci ildə dünyanın maliyyə-kredit təşkilatları tərəfindən ölkə iqtisadiyyatının kreditləşməsinə 8792700 mln. manat vəsait ayırmışdır ki, onun 4332800 mln. manatı qısamüddətli, 4459900 mln. manatı isə uzunmüddətli kreditlər təşkil etmişdir. Kredit qoyuluşunun 43,6%-i dövlət, 45,6%-i özəl, 10,8%-i qeyri-bank kredit təşkilatları tərəfindən həyata keçirilmişdir. İqtisadiyyata kredit qoyuluşunun dinamikası cədvəl 92-də verilmişdir.

***Məsrəflərin iqtisadi səmərəlilik əmsalı*** – həmin məsrəflərin minimum səmərəlilik normasını ifadə edir və digər şərtlər eyni olduqda, bundan da aşağı səviyyədə olması məqsədəuyğun deyildir. Başqa sözlə, məsrəflərin iqtisadi səmərəlilik əmsalı il ərzində onun nə qədər hissəsinin ödənildiyini göstərir. O, maya dəyəri üzrə məhsul buraxılışı həcminin fərqlərinin, müqayisə edilən variantlara qoyulan məsrəflər arasındakı fərqlərə nisbətini ifadə edir, yəni:

$$E_{ef} = (M_d - M'_d) : (V' - V)$$

***Məsrəflərin özünüödəmə müddəti*** – məsrəflərin normativ effektivlik əmsalına tərs olan kəmiyyət olub investisiya qoyuluşu ilə onun təmin etdiyi iqtisadi effektivlik arasında olan nisbət kimi müəyyən edilir. Müəssisə miqyasında məsrəflərin özünüödəmə müddətini təyin etmək üçün aşağıdakı düsturdan istifadə olunur:



*Cədvəl 92*

***Ölkə iqtisadiyyata kredit qoyuluşunun dinamikası, mln. manat***

| İllər | Cəmi | o cümlədən: | |
|---|---|---|---|
| | | qısamüddətli | uzunmüddətli |
| 1995 | 1448996 | 1264828 | 184168 |
| 1996 | 1819715 | 1675804 | 143911 |
| 1997 | 2041967 | 1901068 | 140904 |
| 1998 | 2133604 | 2087681 | 45923 |
| 1999 | 2215500 | 2160500 | 55000 |
| 2000 | 2321800 | 1672000 | 649800 |
| 2001 | 2431300 | 1769900 | 661400 |
| 2002 | 2600800 | 1871200 | 729600 |
| 2003 | 3351000 | 2435400 | 916100 |
| 2004 | 4947300 | 3503900 | 1443400 |

$$t_{öd} = (V' - V) : (M_d - M'_d)$$

***Gətirilmiş məsrəflər*** – qeyd etdiyimiz kimi, məhsulun maya dəyərində nəzərdə tutulan cari məsrəflərin məbləğindən ($C_m$) və birdəfəlik investisiya qoyuluşundan ($\dot{I}_b$) ibarətdir; investisiya qoyuluşunun cari məsrəflərlə müqayisəsinə həmin məsrəfləri investisiya qoyuluşunun (məsrəflərin) normativ effektivlik əmsalına ($E_n$) vurmaqla nail olunur.

***Məhsulun əmək tutumu*** – qeyd etdiyimiz kimi, məhsul vahidi istehsalına (norma-saatla, ya da adam-saatla) sərf olunan iş vaxtının miqdarıdır. Məhsulun əmək tutumu texnoloji, tam və xalq təsərrüfatı məhsulunun əmək tutumuna görə fərqləndirilir. Bundan başqa, planlaşdırma zamanı normativ, plan və faktiki əmək tutumu da fərqləndirilir.

***Məhsulun keyfiyyəti*** – onun təyinatına müvafiq olaraq, müəyyən şəxsi və istehsal tələbatını ödəmək qabiliyyətini şərtləndirən xassələrin məcmusudur. Məhsulun keyfiyyətinin iqtisadi cəhətdən əsaslandırılmış yüksəlişi çox vaxt əlavə vəsait sərfi ilə bağlı olsa da, xalq təsərrüfatı baxımından, bir qayda olaraq, əvvəlki keyfiyyətdə məhsul istehsalı həcmini genişləndirməyə nisbətən daha məqsədəuyğun sayılır. Deməli, məhsu-

lun keyfiyyətinin yüksəldilməsi iqtisadi artımın ən mühüm amili, istehsalın intensivləşdirilməsinin vacib şərtidir.

***Ehtiyatlara qənaət*** – təkrar istehsalın bütün mərhələlərində maddi, əmək və maliyyə ehtiyatlarından daha səmərəli istifadə etmək deməkdir. Ehtiyatlara qənaətin əsasını – təbii və maddi ehtiyatlardan kompleks istifadə olunmasından, itkilərin və səmərəsiz məsrəflərin (***Səmərəsiz məsrəflər*** – istehsalın təşkili və idarə edilməsindəki qüsurlar, müqavilə öhdəliklərinin və uçot intizamının pozulması nəticəsində əmələ gələn nəzərdə tutulmamış məsrəflər və itkiləri özündə əks etdirir) aradan qaldırılmasından, təkrar maddi ehtiyatların və onlarla bağlı olan məhsulların təsərrüfat dövriyyəsinə daha çox cəlb olunması imkanlarından ibarətdir.

Ehtiyatlara qənaətin təmin olunması texnikaya, texnologiyaya, istehsalın təşkilinə və qeyri-maddi istehsal fəaliyyətinə, təsərrüfat mexanizminə olan mühüm tələbdir. Yeni texnika ehtiyatlarından həm onların istehsalı prosesində, həm də istismarı prosesində az istifadə etməlidir. Yeni texnologiya, tullantısız və ya aztullantılı, azəməliyyatlı olmalıdır. Ehtiyatların ciddi uçotu, aşkara çıxarılması, hərəkəti, sərfi, onların yaxşı tətbiqində işçilərin maddi və mənəvi marağının olması, enerjiyə, yanacağa, suya, istiliyə və s. əmək kollektivinin qayğıkeş münasibəti – ehtiyatlara qənaətin əsas tərkib hissələridir.

Ehtiyatlara qənaətin obyektiv zəruriliyi – istehsalın intensiv inkişaf yoluna keçirilməsi ilə müəyyən olunur. Məhsulun maya dəyərinin aşağı salınması nəticəsində əldə edilən qənaətin üç növünü: şərti-illik, ilin sonunadək və keçici qənaət növlərini fərqləndirirlər. ***Şərti-illik qənaət*** dedikdə, bu və ya digər təşkilati-texniki tədbir tətbiq ediləndən sonra 12 ay ərzində əldə edilə biləcək qənaət başa düşülür. Əgər hesablama aparılan zaman gələn il üçün buraxılacaq məhsulun (işin, xidmətin) həcmi müəyyən edilməmişdirsə, şərti-illik qənaət cari ildə hazırlanan məhsulun miqdarına görə, ya da cari ilin, həmin məhsuldan ən çox istehsal edilmiş rübünün məlumatlarına əsasən hesablanılır. Şərti-illik qənaətin kəmiyyətini hesablamaq üçün aşağıdakı düsturdan istifadə edilir:

$$Q_{ş.-i} = (M_{d.s} - M_{d.ə}) \times N_{il} \times 12 \; ;$$

burada $M_{d.ə}$ və $M_{d.s}$ – tədbirin tətbiqindən əvvəl və sonrakı məhsul vahidinin maya dəyəri; $N_{il}$ – 12 ayda buraxılacaq məhsulların miqdarı, ədəd.



***İlin axırınadək qənaət*** dedikdə, bu və digər təşkilati-texniki tədbirin həyata keçirildiyi gündən cari ilin axırınadək olan dövr ərzində əldə ediləcək qənaətin məbləği başa düşülür və aşağıdakı düsturla müəyyən edilir:

$$Q_{i.a} = (M_{d.s} - M_{d.ə}) \times N_{il} \times N_{ay} \, ,$$

burada $N_{ay}$ – tədbirin istehsalata tətbiq edildiyi gündən cari ilin sonunadək olan ayların sayıdır.

***Keçici qənaət*** dedikdə, cari ildən sonrakı illərdə bu və ya digər təşkilati-texniki tədbirdən istifadə edilməsi nəticəsində əldə edilək qənaətin kəmiyyəti nəzərdə tutulur və aşağıdakı düsturla hesablanılır:

$$Q_{keç.} = (N_{məs.} - N'_{məs.}) \times N'_{il} ,$$

burada: $N_{məs.}$ və $N'_{məs.}$ – tədbirin tətbiqindən əvvəl və sonra məhsul vahidinin hazırlanması üçün məsrəf normaları, kq-la; $N'_{il}$ – cari ildən sonrakı illərdə həmin tədbirin tətbiqi ilə istehsal ediləcək məhsulların miqdarı, ədəd.

Ehtiyatlara qənaət edilməsində material-enerji ehtiyatlarından təkrarən istifadə mühüm əhəmiyyət kəsb edir. Təkrar maddi ehtiyatlar – ilkin istifadədən sonra istehsalda ilkin (törəmə) xammal və ya məmulat kimi təkrarən tətbiq oluna bilən material və məmulat olub əlavə maddi-texniki ehtiyatların mənbəyidir. Onların istifadəsi sayəsində məhsulun maya dəyəri və investisiya qoyuluşunun xüsusi çəkisi aşağı düşür, iqtisadi artım sürətlənir. Təkrar maddi ehtiyatlarının əsas mənbələri istehsal və məhsul istehlakı tullantılarıdır. İstehsal tullantıları – məhsul istehsalında və işlərin yerinə yetirilməsində əmələ gələn və ilk istehlak dəyərini tam və ya qismən itirən xammal, material, yarımfabrikat qalığıdır. İstehlak tullantıları – fiziki və ya mənəvi aşınma nəticəsində öz istehlak xassələrini itirmiş məmulat və materiallardır. Təcrübədə istifadə edilməyən tullantılar (hazırkı dövrdə onlar üçün istifadə şəraiti yoxdur) və təkrar xammal (hazırkı dövrdə onlardan istifadə etmək mümkündür) fərqləndirilir. Sənaye müəssisələri ən çox enerji ehtiyatları istehlak edirlər. Təkrar enerji ehtiyatlarından istifadə olunması cədvəl 93-də verilmişdir.

Sənaye müəssisələri ən çox xammal və material istehlak edən obyektlərdən biridir. Sənaye məhsulunun istehsalına çəkilən ümumi xərclərin tərkibində materiallara çəkilən xərclər bü-

Cədvəl 93

**Təkrar enerji ehtiyatlarından istifadənin dinamikası**

| İllər | İstilik enerjisi, min hkal | Yanacaq, min ton ş.y. | Qənaət, min ton ş.y. |
|---|---|---|---|
| 1990 | 974,2 | 87,0 | 15522 |
| 1995 | 23316,0 | 80,4 | 3977 |
| 1996 | 195,4 | 80,1 | 3422 |
| 1997 | 330,6 | – | 5122 |
| 1998 | 294,4 | – | 4988 |
| 1999 | 272,0 | – | 478 |
| 2000 | 250,7 | – | 440 |
| 2001 | 263,5 | – | 464 |
| 2002 | 260,0 | – | 475 |
| 2003 | 272,0 | – | 503 |
| 2004 | 288,0 | – | 612 |

tövlükdə sənaye üzrə 58-89% təşkil edir. Odur ki, xammal və materiallardan təkrarən istifadə edilməsi əlavə xərc çəkmədən istehsal olunan məhsulun həcminin artırılmasına imkan verir.

### 15.3. Azad sahibkarlıq – səmərəli təsərrüfatçılıq forması kimi, onun mahiyyəti və nəzəri əsasları

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin formalaşması və inkişafında «Sahibkarlıq haqqında» Azərbaycan Respublikasının qanunu mühüm rol oynamışdır. Bu qanun Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyətinin təşkili prinsiplərini, hüquq və vəzifələrini, onun dövlət tərəfindən müdafiə və təqdir olunmasının forma və üsullarını, dövlət və digər təşkilatlarla qarşılıqlı münasibətlərini müəyyənləşdirir. Qanunda göstərilir ki, sahibkarlıq fəaliyyəti ilə Azərbaycan Respublikasının hər bir vətəndaşı, hüquqi, fiziki şəxslər, xarici ölkələrin vətəndaşları məşğul ola bilərlər. Lakin milli və xarici dövlət orqanlarının vəzifəli şəxsləri-məmurları sahibkarlıq fəaliyyəti ilə ola bilməzlər.

«Sahibkarlıq haqqında» Azərbaycan Respublikasının qanununda sahibkarlığın hüquq və vəzifələrinin şərhinə geniş yer verilmişdir. Sahibkarların aşağıdakı hüquqları vardır: birincisi, istənilən müəssisələr yaratmaq və onların idarəetmə orqanlarında iştirak etmək; ikincisi, dövlət və digər mülkiyyət formalarına əsaslanan müəssisələrin əmlakını tamamilə və ya qismən mənimsəmək; üçüncüsü, başqa müəssisələrin fəaliyyətində payçı kimi iştirak etmək; dördüncüsü, yaratdığı müəssisənin profilinə uyğun işçiləri işə qəbul etmək və onların əməyinin ödənilməsinin forma və sistemlərini müəyyən etmək; beşincisi, təsərrüfat və maliyyə fəaliyyətini müstəqil həyata keçirmək; altıncısı, məhsul göndərənləri və istehsal olunan məhsulların istehlakçılarını seçmək və öz məhsulları üçün qiymətlər müəyyənləşdirmək; yeddincisi, sahibkarlıq fəaliyyətindən əldə edilən mənfəətdən müvafiq qaydada gəlir vergisi verdikdən sonra yerdə qalan mənfəətdən sərbəst surətdə istifadə etmək və nəhayət, səkkizincisi, xarici-iqtisadi münasibətlərdə iştirak etmək və s.



«Sahibkarlıq haqqında» Azərbaycan Respublikasının qanunda sahibkarların vəzifələri haqqında da geniş şərh verilmişdir. Belə ki, sahibkar işə qəbul etdiyi hər bir işçi ilə fərdi müqavilə bağlamalı və ona riayət etməlidir; işçilərinin ictimai və siyasi partiyalarda birləşməsinə mane olmamalıdır. İşçilərə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş əmək haqqının minimum məbləğindən az olmayan səviyyədə əmək haqqı verməlidir; dövlət sığorta fonduna müəyyən olunmuş qaydada və müddətdə ayırmalar ödəmək; qanunvericiliklə müəyyən olunmuş həcmdə vergilər vermək; işçilərə bağlanmış müqavilələrə müvafiq iş şəraiti yaratmaq və onu daima yaxşılaşdırmaq və s.

Sahibkarlıq fəaliyyətinin təşkili ilə əlaqədar olan ən mühüm məsələlərdən biri onun sahələrinin düzgün müəyyənləşdirilməsindən ibarətdir, yəni sahibkarlıq fəaliyyətinin subyekti elə olmalıdır ki, o, mövcud ehtiyatlardan daha səmərəli istifadə etməklə istehsalın yüksək son nəticələrinə nail olmasını təmin edə bilsin. İstehsalın konkret şəraitindən asılı olaraq sahibkarlıq fəaliyyətinin formalaşdırılmasında əməyin elmi təşkilinin tələbləri, fiziologiya, psixologiya və gigiyena tövsiyələri, mühəndis texnologiyası və texniki estetikanın tələbləri nəzərə alınmalıdır.

Bazar iqtisadiyyatı ölkələrinin təcrübəsi göstərir ki, sahibkarlıq fəaliyyətinin subyekti-sahələri kimi məhsul istehsalı, onların satışı və ya müxtəlif növ xidmətlər göstərilməsi formasında həyata keçirilən iqtisadi fəaliyyət növləri çıxış edə bilər. Bazar iqtisadiyyatı şəraitində hər kəs özünə peşə seçməkdə tam

azadlığa malik olduğu üçün, sahibkarlıq fəaliyyəti ilə məşğul olmaqda da tam azaddır. Lakin, bu zaman sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq istəyən hər bir adam-sahibkar müəyyən məbləğdə kapitala, əmlaka malik olmalıdır. Bununla belə, «sahibkarlıq fəaliyyəti»ni adi «təsərrüfatçılıq», «biznes» və «kommersiya» fəaliyyətlərindən fərqləndirirlər.

Bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyətinin müxtəlif növləri ola bilər. Belə bir hal sahibkarlıq fəaliyyətinin təşkilini və hüquqi tənzimlənməsini müəyyən qədər çətinləşdirir. Odur ki, sahibkarlıq fəaliyyətini bəzi əlamətlərə görə təsnifləşdirirlər. Adətən, sahibkarlıq fəaliyyəti mülkiyyət mənsubiyyətinə görə – fərdi, kollektiv və müştərək sahibkarlığa; fəaliyyətinin həcminə görə – kiçik, orta və iri sahibkarlığa; fəaliyyət sahəsinə görə – sənayedə, ticarətdə, nəqliyyatda, kənd təsərrüfatında və s. həyata keçirilən sahibkarlığa; fəaliyyətinin xarakterinə görə – kommersiya və ya xidmətlər göstərməklə əlaqədar olan sahibkarlığa; əhatə etdiyi əraziyə görə – yerli, region, ümumi respublika və beynəlxalq səviyyədə həyata keçirilən sahibkarlığa ayrılır.

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti kimi, əsasən, kiçik, müştərək, kooperativ müəssisələr və birjalar çıxış edir. Sahibkarlıq fəaliyyətinin hər hansı bir formasına üstünlük verilməsi adi bir hal deyildir. Bu onunla izah edilir ki, sahibkarlıq fəaliyyətinə bir sıra amillər təsir göstərir. Onlara aiddir: ölkədə mövcud olan siyasi, iqtisadi, sosial-psixoloji mühit; dünya ölkələri ilə əlaqələrin səviyyəsi; sahibkarlıq fəaliyyəti ilə bağlı olan dövlət siyasətinin xarakteri; sahibkarın malik olduğu ilk kapitalın həcmi; iqtisadi fəaliyyətin həyata keçirilməsi ilə əlaqədar sahibkarın daşıdığı iqtisadi məsuliyyətin xarakteri; ölkədə istehsal, sosial və bazar infrastrukturunun səviyyəsi və s.

***Fərdi sahibkarlıq fəaliyyəti*** öz iqtisadi məzmununa görə tam müstəqilliyə malikdir və buna görə də biznes fəaliyyətinin bütün məsələləri üzrə qərar qəbul edilməsində (məsələn, tərəfmüqabillərin seçilməsində, sazişlər bağlanmasında, fəaliyyət növünün müəyyənləşdirilməsində və s.) tam azaddır, əldə edilən mənfəətə şəriksiz sahib olduğuna görə istehsalın son nəticələri üçün maraqlıdır, öz müəssisənin sirrini etibarlı şəkildə qoruyub saxlaya bilir, fəaliyyətlərinə tam nəzarəti həyata keçirir və onların səmərəliliyini yüksəltmək məqsədilə bütün təşkilati, texniki, iqtisadi və sosial tədbirləri həyata keçirə bilir və s. Bundan başqa, sahibkarlar öz müəssisələrini satmaqda, bağışlamaqda və kimə isə vəsiyyət etməkdə də sərbəstdirlər. Lakin fərdi sahibkarlıq fəaliyyətinin aşağıdakı qüsur cəhətləri də vardır:



– fərdi sahibkarlıq fəaliyyəti digər sahibkarlar qarşısında öz üzərlərinə götürdükləri öhdəliklərinə görə tam maddi məsuliyyət daşıyırlar, yəni təkcə öz kapitalları ilə deyil, bütövlükdə malik olduqları əmlakla cavabdehdirlər. Odur ki, belə müəssisələrin maliyyə bazası, əsasən, sahibkarın özünün malik olduğu maliyyə imkanları ilə müəyyən edildiyindən xeyli məhduddur;

– fərdi sahibkarlıq fəaliyyəti, adətən, uzunmüddətli olmadığına görə digər sahibkarlıq strukturları, xüsusilə də maliyyə-kredit təşkilatları onlar ilə uzunmüddətli əlaqələrə girmirlər;

– bəzi hallarda fərdi müəssisələrin müvəffəqiyyəti onun ərazi üzrə yerləşməsindən, bina və malik olduqları maşın və avadanlıqların vəziyyətindən, sahibkarlıq fəaliyyətinin formasının növündən və keyfiyyətindən asılı olduğundan həmin müəssisələrə dəyən zərərin bütün ağırlığını sahibkar təkbaşına çəkməli olur;

– fərdi müəssisələrdə çalışan işçilərin sayı nisbətən az olduğundan, onların idarə edilməsində vəzifə bölgüsünü aparmaq məqsədəuyğun olmur.

Qeyd edək ki, fərdi sahibkarlıq fəaliyyətinin ən sadə forması olmasına baxmayaraq, o, hazırkı dövrdə də öz əhəmiyyətini saxlamaqdadır. Məsələn, ABŞ-da 15 milyondan çox müəssisə fərdi sahibkarlıq fəaliyyəti ilə məşğul olur ki, bu da həmin ölkədə qeydiyyatdan keçmiş bütün müəssisələrin təqribən 70%-ni təşkil edir. Fərdi müəssisələrə misal olaraq, kiçik ölçülü dükanları, kafeləri, emalatxanaları, bir sıra mütəxəssislərin (məsələn, həkimlərin, hüquqşünasların, müəllimlərin və s.) fərdi məsləhət məntəqələrini göstərmək olar.

Qeyd etdiyimiz kimi, bazar iqtisadiyyatı ölkələrində fərdi sahibkarlıq fəaliyyətinin təşkilati-hüquqi forması kimi, adətən, kiçik ölçülü müəssisələr çıxış edirlər. Lakin son zamanlar bazar iqtisadiyyatı ölkələrində ailəvi orta və iri fərdi müəssisələr də yaradılır. Məsələn, İsveçdə öz ölçüsünə görə ikinci yerdə duran Yunisonların maliyyə qrupu, Almaniya iqtisadiyyatının aparıcı sahibkarlarından olan Kruppun kompaniyası, Rotşildlər ailəsinə məxsus «Bank Rotşildfrer» kompaniyası, İtaliyada çox məşhur

olan «Olivetti» firması və s. vaxtı ilə iri ailə kompaniyası şəklində fəaliyyət göstərən fərdi sahibkarlıq formasının səhmdar cəmiyyətinə çevrilməsi əsasında meydana gəlmişdir.

Respublikamızda sahibkar birlikləri şəklində ***kollektiv sahibkarlıq*** forması çıxış edir. Bu növ sahibkarlıq fəaliyyəti, əsasən, bir neçə nəfərin (məsələn, iki-üç və daha çox şərikin) ümumi işə yönəltdikləri paya əsaslanır. Buna uyğun olaraq şərikli müəssisənin hər bir üzvü həmin müəssisənin həm də şərikli mülkiyyətçisi kimi çıxış edir. Məhz bu səbəbdən bəzi hallarda şərikli müəssisələrə tam ortaqlı müəssisələr də deyilir. Kollektiv sahibkarlığın fərdi sahibkarlıqla həm ümumi, həm də fərqləndirici cəhətləri vardır.

Ümumi cəhətlərdən biri ondan ibarətdir ki, fərdi sahibkarlıq fəaliyyəti kimi, kollektiv sahibkarlıq fəaliyyətinin bütün üzvləri müəssisənin öhdəlikləri üçün tam məsuliyyət daşıyır; ikincisi, fərdi müəssisələr kimi, kollektiv mülkiyyətə əsaslanan şərikli, kollektiv müəssisələr də ticarət reyestrinə daxil edilir. Lakin sahibkarlıq fəaliyyətinin kollektiv forması fərdi sahibkarlığın bəzi qüsurlarının aradan qaldırılması zərurətindən meydana gəlmişdir. Belə ki, fərdi sahibkarlıqdan fərqli olaraq kollektiv sahibkarlığın maliyyə bazasının, mənbəyinin həcmi daha geniş və nisbətən möhkəmdir, şəriklər arasında müəssisənin idarə edilməsi ilə əlaqədar olan vəzifələrin, funksiyaların bölgüsünü aparmaq mümkün olur və bəzi hallarda isə müəssisəni idarə etmək üçün şəriklərin ümumi razılığı ilə kənardan muzdla idarəedicilər, menecerlər işə cəlb olunur.

Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti kimi müştərək, kiçik, kooperativ müəssisələr və birjalar çıxış edir. Onların hər birinin müsbət və qusur cəhətləri, həmçinin tətbiqi sahələri vardır. Bununla belə, bazar münasibətləri şəraitində sahibkarlıq fəaliyyəti kimi, əsasən, kiçik və müştərək müəssisələr daha geniş yayılmışdır. Müştərək və kiçik müəssisələr sənayedə, nəqliyyatda, elm-texnika, ticarət və xidmət sahələrində yaradılır. Cədvəl 94-də Azərbaycanda bazar iqtisadiyyatı strukturlarının fəaliyyəti haqqında məlumatlar verilmişdir.



*Cədvəl 94*

***Bazar iqtisadiyyatı strukturlarının fəaliyyəti***

| Göstəricilər | İllər | Müəssisələr | | |
|---|---|---|---|---|
| | | Kiçik | Müştərək | Birja |
| Fəaliyyət göstərən müəssisələrin sayı, vahid | 2000 | 24254 | 549 | 3 |
| | 2001 | 25121 | 609 | 4 |
| | 2002 | 25113 | 748 | 6 |
| | 2003 | 21128 | 809 | 6 |
| | 2004 | 19462 | 814 | 5 |
| Həmin müəssisələrdə çalışanların sayı, nəfər | 2000 | 99776 | 22145 | 34 |
| | 2001 | 118714 | 25240 | 59 |
| | 2002 | 125804 | 21250 | 81 |
| | 2003 | 187521 | 43250 | 10456 |
| | 2004 | 135831 | 54083 | 11378 |
| İşçilərin orta aylıq əmək haqqı, min manat | 2000 | 170 | 1042 | 694 |
| | 2001 | 168 | 1680 | 432 |
| | 2002 | 190 | 1915 | 562 |
| | 2003 | 282 | 2218 | 733 |
| | 2004 | 369 | 2968 | 1048 |
| İstehsal olunan məhsulun həcmi, mlrd. manat | 2000 | 1890 | 6199 | 993 |
| | 2001 | 2165 | 7572 | 1153 |
| | 2002 | 3620 | 7896 | 1266 |
| | 2003 | 5419 | 13666 | 3745 |
| | 2004 | 7103 | 19094 | 5564 |

## 15.4. İstehsalın səmərəliyinin yüksəldilməsinin əsas istiqamətləri

Bazar münasibətləri şəraitində istehsalın səmərəliliyinin yüksəldilməsinin əhəmiyyəti kəskin surətdə artmışdır. Yalnız dönmədən yüksələn istehsalın səmərəliliyi əsasında müəssisənin sosial-iqtisadi inkişafının sürətləndirilməsi ilə əlaqədar olan məsələləri həll etmək olar. Odur ki, bazar iqtisadiyyatına keçid dövründə əsas məsələlərdən biri, bəlkə də ən başlıcası-sənaye istehsalının səmərəliliyinin yüksəldilməsini təmin etməkdən

ibarətdir. Müəssisələrin yeni iqtisadi strategiyasının həyata keçirilməsi – yalnız ictimai istehsalın daha da artırılması və onun strukturunun təkmilləşdirilməsi, bazar iqtisadiyyatına uyğun strukturların yaradılması və inkişafı, buraxılan məhsulların keyfiyyətinin yaxşılaşdırılması və rəqabət qabiliyyətliliyinin artırılması sayəsində mümkündür.

İctimai istehsalın səmərəliliyinin müntəzəm surətdə yüksəldilməsinə və strukturunun təkmilləşdirilməsinə nail olmaq üçün elm və texnikanın ən yeni nailiyyətlərindən istifadə etməklə mövcud müəssisələrin yenidən qurulmasını, genişləndirilməsini və yeni texnika ilə silahlanma səviyyəsinin yüksəldilməsini sürətləndirmək lazımdır.

***Mövcud müəssisələrin yenidən qurulması*** – bir qayda olaraq, əsas təyinatlı binaları və qurğuları genişləndirmədən əsas, köməkçi və xidmətedici təyinatlı mövcud sexlərin və obyektlərin yenidən qurulmasını nəzərdə tutur və elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın təkmilləşdirilməsi, onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə bağlıdır. Yenidən qurma texnoloji pillələrdəki disproporsiyaların (qeyri-mütənasibliyin) aradan qaldırılmasını, aztullantılı, tullantısız texnologiyanın və çevik istehsalın tətbiq olunmasını, iş yerləri sayının ixtisar edilməsini, əmək məhsuldarlığının yüksəldilməsini, məhsulun material tutumunun və maya dəyərinin aşağı salınmasını, fond fondveriminin yüksəldilməsini və digər texniki-iqtisadi göstəricilərin yaxşılaşdırılmasını təmin edir. Bazar münasibətləri şəraitində dövlətin iqtisadi strategiyası əsas diqqəti «ağırlıq mərkəzini yeni tikintidən mövcud müəssisələrin yeni texnika ilə silahlanmasına və yenidən qurulmasına keçirmək, bu məqsədlərə yönəldilən vəsaitin istehsal üçün investisiya qoyuluşunun ümumi həcmindəki payını xeyli artırmaq, avadanlıq və maşınlar üçün məsrəfin investisiya qoyuluşunda xüsusi çəkisini yüksəltmək» istiqamətinə yönəldir. Qarşıya qoyulmuş vəzifələrin uğurla həyata keçirilməsi üçün müəssisələrdə (sahələrdə) mövcud istehsalatların yenidən qurulması üzrə kompleks proqramlar işlənib hazırlanır və həyata keçirilir.

***Fəaliyyətdə olan müəssisələrin genişləndirilməsi*** – yeni layihə əsasında müəssisənin ikinci və sonrakı növbələrinin, əlavə istehsal komplekslərinin və istehsallarının tikilməsi, fəaliyyət göstərən müəssisələrin ərazisində yeni əsas istehsal sexlərinin və obyektlərinin tikilməsi və ya əvvəlkilərin genişləndirilməsidir. Mövcud müəssisələr genişləndirilərkən yeni tikintiyə nisbətən istehsal gücü, bir qayda olaraq, daha qısa müddətlərdə və az xüsusi məsrəflərlə artır.



***Mövcud müəssisələrin yeni texnika ilə silahlanması*** – istehsalın yeni texnika və mütərəqqi texnologiya ilə təchizi səviyyəsini xarakterizə edən göstəricidir. Bu göstəricini müəyyən etmək üçün istehsalata tətbiq edilmiş yeni texnikanın və mütərəqqi texnologiyanın orta illik dəyərini müəssisənin ümumi istehsal fondlarının orta illik dəyərinə bölmək lazımdır.

Mövcud müəssisələrin yeni texnika ilə yenidən silahlandırılması – yeni texnikanı və mütərəqqi texnologiyanı tətbiq etmək, istehsal proseslərini mexanikləşdirmək və avtomatlaşdırmaq yolu ilə ayrı-ayrı istehsal sahələrinin texniki səviyyəsini müasir tələblər səviyyəsinə yüksəltmək üzrə tədbirlər kompleksindən ibarətdir. Texnika ilə yenidən silahlandırma müəssisənin (sahənin) texniki inkişaf planına uyğun olaraq ayrı-ayrı obyektlər və iş növləri üçün layihələr və smetalar üzrə həyata keçirilir. İstehsalın yeni texnika ilə silahlanma səviyyəsinin artması əmək məhsuldarlığının yüksəldilməsi, müəssisənin sosial-iqtisadi inkişafının sürətləndirilməsinin mühüm amillərindən biridir.

Fəaliyyət göstərən müəssisələrin texniki təchizatına aiddir: istehsalın texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi; istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması səviyyəsinin yüksəldilməsi; əmək vasitələrinin modernləşdirilməsi; köhnəlmiş və fiziki aşınmış avadanlığın yeni, daha məhsuldar avadanlıqla əvəz edilməsi.

Mövcud müəssisələrin texnika ilə yenidən silahlandırılması, yenidən qurulması və genişləndirilməsi sənaye istehsalının səmərəliliyinin yüksəldilməsində və onun intensivləşdirilməsində mühüm rol oynayır. Genişləndirilmə və yeni tikintidən fərqli olaraq yenidən qurma və texnika ilə yenidən silahlandırılma zamanı mövcud bina və qurğulardan, mühəndis kommunikasiyalarından istifadə olunur. İnvestisiya qoyuluşunun böyük hissəsi yeni, daha məhsuldar avadanlıqların alınmasına və quraşdırılmasına sərf edilir, tikinti-quraşdırma işlərinin payı isə nisbətən az olur. Yenidən qurma və texnika ilə yenidən silahlandırılmanın iqtisadi üstünlüyü də məhz bundadır. Bazar iqtisadiyyatı

şəraitində ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətləri aşağıdakılardan ibarətdir.

Canlı və maddiləşmiş əməyə qənaət etməklə ictimai əmək məhsuldarlığının artımını təmin etmək. Bazar iqtisadiyyatı şəraitində elmi-texniki tərəqqinin sürətləndirilməsi, texnika və texnologiyada inqilabi dəyişikliklər, bütün təşkilati, iqtisadi və sosial amillərin səfərbərliyə alınması əsasında ictimai əmək məhsuldarlığının ən yüksək dünya səviyyəsinə çatdırmaq mümkündür. Əmək məhsuldarlığı istehsalın iqtisadi səmərəliliyini xarakterizə əsas göstərici olub maddi istehsal sahəsində əmək kollektivlərinin istehsal fəaliyyətinin nəticələrini, səmərəliliyini əks etdirir. Əmək məhsuldarlığının səviyyəsini vaxt vahidi ərzində yaradılmış məhsulun miqdarı və ya əksinə, məhsul vahidinin istehsalı üçün sərf olunmuş vaxtın miqdarı ilə səciyyələnir.

İctimai və fərdi əmək məhsuldarlığını fərqləndirirlər. Bunlardan birincisi məhsul vahidinin istehsalı üçün ictimai zəruri əmək, yəni canlı və maddiləşmiş əmək məsrəflərini ifadə edir. İkincisi isə müəyyən sahədə (müəssisədə) məhsul vahidinin istehsalı üçün yalnız canlı əmək məsrəflərini əks etdirir. İctimai əmək məhsuldarlığının artımı maddiləşmiş və canlı əmək məsrəflərinin ixtisar edilməsindən ibarətdir. Əmək məhsuldarlığının artması məhz ondan ibarətdir ki, əmtəə istehsalı prosesində canlı əməyin payı azalır, maddiləşmiş əməyin xüsusi çəkisi isə artır, lakin elə artır ki, əmtəədə təcəssüm edilmiş əməyin ümumi yekunu azalır; deməli, elə artır ki, maddiləşmiş əməyin ümumi miqdarının artmasına nisbətən canlı əməyin miqdarı daha çox azalır.

Fərdi əmək məhsuldarlığının artımı məhsul vahidinin istehsalı üçün canlı əmək məsrəflərinin ixtisar edilməsindən ibarətdir. Canlı əmək məsrəflərinə qənaət fərdi əmək məhsuldarlığının artımını göstərir ki, bu da bazar münasibətləri şəraitində iqtisadiyyatın maddi-texniki bazasının yaradılmasının zəruri şərtidir. İş vaxtına qənaət əsasında əmək məhsuldarlığının əldə edilən artımı istehsalın genişləndirilməsinə, məhsulun maya dəyərinin aşağı salınmasına və keyfiyyətinin yaxşılaşdırılmasına, istehsalın rentabellik səviyyəsinin yüksəldilməsinə, müəssisənin təsərrüfat hesablı gəlirinin artmasına gətirib çıxarır.

İstehsalın səmərəliyinin yüksəldilməsində məhsulun keyfiyyətinin yaxşılaşdırılması mühüm rol oynayır. Məhsulun keyfiyyətinin müntəzəm surətdə yaxşılaşdırılması bazar iqtisadiyyatının dinamik inkişafının mühüm şərtlərindən biridir. Keyfiyyətin yüksəldilməsi – bazar iqtisadiyyatının məqsədinin, yəni ən az xərclə daha çox mənfəət (gəlir) əldə etmək məqsədinin həyata keçirilməsinin başlıca şərtidir. Məhsulun keyfiyyətinin yaxşılaşdırılması əlavə əmək, material, yanacaq, enerji məsrəfləri çəkmədən məhsul buraxılışının artırılmasına bərabərdir. Müasir dövrdə keyfiyyət problemi böyük xalq təsərrüfatı problemlərinə çevrilmişdir. O, təsərrüfat məsələləri üzrə dövlətin tədbirlərində və qərarlarında öz əksini tapır. Çünki bu gün keyfiyyətli məhsul buraxmadan elmi-texniki tərəqqini sürətləndirmək mümkün deyildir.



Məlumat üçün qeyd edək ki, məhsulun keyfiyyəti problemi son zamanlarda dünyanın bütün ölkələrində aktual problemə çevrilmişdir. Məhsulun keyfiyyətinə ölkənin nüfuzunu yüksəltmək vasitəsi, milli qurur işi, dünya bazarını zəbt etmək və milli malların rəqabət qabiliyyətini artırmaq üsulu kimi baxılır. Məhsulun keyfiyyətinin müntəzəm olaraq yüksəldilməsi iqtisadiyyatın inkişafının məcburi şərtidir, çünki daha yüksək keyfiyyət göstəricilərinə malik məhsul buraxılışı ictimai əmək məhsuldarlığının, fond veriminin artmasına, istehsalın material tutumunun aşağı salınmasına kömək edir, istehsalın səmərəliliyinin yüksəldilməsinin mühüm amili olur.

Sosialist təsərrüfat üsulunda sənaye məhsulunun keyfiyyəti müəssisədə hazır məhsula nəzarət yolu ilə saxlanılırdı, belə ki, məhsulun texniki tələblərə cavab verməyən hissəsi çıxdaş edilirdi. Lakin bazar münasibətləri şəraitində məhsulun keyfiyyəti böyük əhəmiyyət kəsb etdiyindən onun keyfiyyətinin yaxşılaşdırılmasını təmin etmək və ona nəzarət etmək üçün elmi metodların işlənib hazırlanması xüsusi aktuallıq kəsb edir. Məlumdur ki, hər bir məmulat istehlak dəyərinə, yəni ictimai tələbatı təmin edə biləcək faydalı xassələr məcmusuna malik olmalıdır. Məmulatın keyfiyyəti isə onun bu tələbatı nə dərəcədə təmin edəcəyi ölçüsünü ifadə edir.

Sənaye məhsulları onları müxtəlif tərəfdən səciyyələndirən bir sıra xassələrə malikdir. Hər bir məmulatın bütün xassələrinin məcmusu onu başqa məmulatdan fərqləndirməyə imkan verir. Məhsulun xassələri onun layihələşdirilməsi, istehsalı, saxlanması, daşınması, istismarı və təmiri zamanı, yəni onun varlığının bütün mərhələlərində üzə çıxır. Lakin məhsulun heç də

bütün xassələri deyil, yalnız məhsulun müəyyən tələbatı ödəməsi ilə əlaqədar xassələri onun keyfiyyətini təyin edir. Məmulatın keyfiyyəti, məsələn, müxtəlif konstruksiya, texnoloji və istehlak xassələrini, məmulatın daşınma, saxlanma və cari təmir üçün yararlılığını əhatə edir. Məhsulun keyfiyyəti həmçinin onu təşkil edən məmulat və məhsulun keyfiyyətinə daxil olan bütün xassələri də əhatə edir. Məhsulun keyfiyyəti dedikdə, onun təyinatına uyğun olaraq, müəyyən tələbatı ödəmək üçün yararlılığını təyin edən xassələrin məcmusu nəzərdə tutulur.

***Keyfiyyətin yüksəldilməsi*** – məhsulun keyfiyyət anlayışına daxil olan xassələrinin yaxşılaşdırılması və ya yeni, hələ məlum olmayan xassələrin aşkar edilməsidir. Bu zaman məhsuldan onun təyinatına uyğun istifadə olunmalıdır, hətta yüksək keyfiyyətli məhsulun təyinatı üzrə istifadə edilməməsi qeyri-səmərəlidir. Elm və texnika nailiyyətlərinin istehsalatda tətbiqi keyfiyyət probleminə bilavasitə təsir edir. İstehsal edilən məhsulun keyfiyyətinin yüksəldilməsi öz növbəsində elmi-texniki tərəqqi sürətlərinə birbaşa təsir edir, istehsalın və elmi tədqiqatların müxtəlif sahələrinə onun nüfuz etmək imkanını genişləndirir.

Əmək alətlərinin keyfiyyətinin təkmilləşdirilməsi (modernləşdirilməsi) – onların gücünün, məhsuldarlığının artırılması, istismar xarakteristikasının yaxşılaşdırılmasıdır. Bundan əlavə, daha mükəmməl maşın və avadanlıqlardan istifadə edilməsi xammalı səmərəli emal etməyə, tullantıları azaltmağa və beləliklə də istehsalın qənaətçiliyinə bilavasitə təsir etməyə imkan verir. Yeni əmək alətlərinin yaradılması əmək cisimlərinin keyfiyyətinə tələbləri yüksəldir. Belə ki, konstruksiya materiallarından istifadə edilməsi onların fiziki, kimyəvi və mexaniki xassələrinə verilən tələblərin kəskin surətdə artmasına səbəb olur. Yüksək keyfiyyətli materialların yaradılması da öz növbəsində daha mükəmməl texnikanın yaradılmasına imkan verir. Beləliklə, məhsulun keyfiyyətinin yüksəldilməsi, ictimai istehsalın səmərəliliyinin yüksəldilməsinin əsas istiqamətlərindən biridir.

Məhsulun maya dəyəri onun istehsalı və satışı üçün istehsal müəssisələrinin cari məsrəflərinin pul formasında ifadəsidir. Ümumi şəkildə məhsulun maya dəyərinə sərf olunmuş xammalın, materialların, yanacağın, enerjinin, alətlərin dəyəri, sənaye-istehsal işçilərinin əmək haqqı, əsas fondların amortizasiyası və təmir məsrəfləri, məhsulun istehsalı və satışı ilə əlaqədar digər xərclər, eyni zamanda, sosial sığortaya ayırmalar, elmi-tədqiqat və təcrübə-konstruktor işləri üçün ayırmalar daxildir. Beləliklə, maya dəyəri yalnız canlı əmək məsrəflərini deyil, eyni zamanda əmək vasitələrində və cisimlərində maddiləşmiş keçmiş əməyi birləşdirir. Müxtəlif sənaye müəssisələrində (sahələrdə) məhsul vahidinin hazırlanmasına çəkilən xərclərin məbləği bir-birindən fərqlənir.



Buraxılan məhsulun (işlərin, xidmətlərin) maya dəyərinin müntəzəm surətdə aşağı salınması iqtisadiyyatın dinamik inkişafının və istehsalın iqtisadi səmərəliliyinin yüksəldilməsinin əsas mənbəyidir. Məhsulun maya dəyərində material resurslarından istifadə olunması səviyyəsi, əmək məhsuldarlığının əldə edilmiş nəticəsi və s. öz əksini tapır, yəni məhsulun maya dəyəri məhsulun hazırlanması prosesində əmək vasitələrindən, əmək cisimlərindən, əməyin özündən nə qədər səmərəli istifadə edilməsini göstərir. Maya dəyərinin aşağı salınması ümumi mənfəətin məbləğini artırmağın əsası hesab olunur. Çünki maya dəyəri müəssisə və onun istehsal bölmələri arasında təsərrüfat hesabı münasibətlərinin əsas elementidir. Adətən, maya dəyəri göstəricisindən yeni texnikanın, texnoloji proseslərin, yeni materialların tətbiqi, istehsalın təşkilinin təkmilləşdirilməsinin iqtisadi səmərəliliyinin hesablanması, investisiya qoyuluşunun əlverişliliyini təyini zamanı və bir çox digər hallarda istifadə edilir.

İstehsal əsas fondlardan istifadənin yaxşılaşdırılması hesabına fondveriminin artırılması da istehsalın səmərəliyinin yüksəldilməsinə müsbət təsir göstərir. Fondverimi – müəssisənin (sahənin) əsas sənaye-istehsal fondlarından istifadənin səmərəlilik səviyyəsini xarakterizə edən ümumiləşdirici göstəricilərindən biridir. Bu göstərici əsas sənaye-istehsal fondlarının 1 manatlıq, yaxud 1000 manatlıq dəyərinə düşən məhsul istehsalının miqdarını göstərir və məhsulun illik həcmini əsas sənaye-istehsal fondlarının orta illik tam balans dəyərinə bölməklə təyin edilir. Fondvermini hesablamaq üçün məhsulun illik həcmi müəssisənin topdansatış qiymətində müəyyən edilir, əsas sənaye-istehsal fondları isə, onların aşınma dərəcəsi nəzərə alınmadan ilk dəyərinə görə qiymətləndirilir.

Fondveriminin yüksəldilməsinə – əsas sənaye-istehsal fondlarının strukturunun təkmilləşdirilməsi (buna onların aktiv his-

səsinin artırılması, köhnəlmiş və səmərəsiz əmək vasitələrinin yenisi, daha yüksək məhsuldarlı əmək vasitələri ilə əvəz edilməsi yolu ilə nail olunur), iki-şç növbəli iş rejiminə keçirilməsi, növbədaxili boşdayanmaların aradan qaldırılması və ya minimuma endirilməsi, iş yerlərinin attestasiyasının keçirilməsi və artıq (izafi) avadanlıqların satılması, texnoloji maşın və avadanlıqların planlı-xəbərdarlıq təmirinin vaxtında və dəqiq yerinə yetirilməsi hesabına nail olunur. Azərbaycan sənayesində fondverimi göstərici son illərdə getdikcə aşağı düşür. Bunu cədvəl 95-də verilmiş məlumatlar da sübut edir.

*Cədvəl 95*

***İqtisadi fəaliyyət növləri üzrə fondveriminin dinamikası, əvvəlki ilə nisbətən faizlə***

| İllər | Bütün sənaye | o cümlədən: | | | | |
|---|---|---|---|---|---|---|
| | | Xam neft və təbii qaz | Metal filizi hasilatı | Mədənçıxarma, digər sahələri | Maşın və avadanlıq istehsalı | Elektrik avadanlıqları istehsalı |
| 1995 | 72,3 | 71,1 | 35,2 | 47,4 | 57,5 | 51,8 |
| 1996 | 71,0 | 72,0 | 78,0 | 16,0 | 76,0 | 100,0 |
| 1997 | 87,5 | 97,5 | 76,5 | 104,8 | 95,8 | 118,5 |
| 1998 | 99,2 | 110,0 | 48,2 | 28 d. | 88,8 | 92,9 |
| 1999 | 89,5 | 115,6 | 18,5 | 121,3 | 65,9 | 78,1 |
| 2000 | 104,1 | 100,0 | 12,5 | 71,4 | 144,4 | 120,0 |
| 2001 | 100,0 | 108,9 | 40,7 | 100,3 | 95,3 | 80,3 |
| 2002 | 97,7 | 94,1 | 25,0 | 184,4 | 134,5 | 124,2 |
| 2003 | 87,0 | 75,5 | 8,3 d. | 106,2 | 101,1 | 171,1 |
| 2004 | 88,6 | 75,1 | 3,3 d. | 134,4 | 117,4 | 125,5 |

Əsas sənaye – istehsal fondlarından istifadəni qiymətləndirmək üçün ümumiləşdirici göstərici olan fondverimi ilə yanaşı, onların texniki vəziyyətini səciyyələndirən xüsusi göstəricilərdən də istifadə edilir. Belə göstəricilərə misal olaraq əsas sənaye-istehsal fondlarının təzələnmə, ləğvetmə (sıradan çıxma), artım, köhnəlmə, yararlılıq, avadanlıqlardan istifadə əmsallarını göstərmək olar.

Əsas sənaye-istehsal fondlarının texniki vəziyyətini xarakterizə edən xüsusi göstəricilər içərisində əsas yeri ***təzələnmə əmsalı*** tutur. Bu əmsal hər hansı bir dövrdə istehsala verilmiş əsas sənaye-istehsal fondlarının ilk dəyərinin onların həmin



dövrün sonuna olan dəyərinə nisbəti kimi hesablanır.

Təzələnmə (yeniləşmə) əmsalı yeni əsas sənaye-istehsal fondlarının aşınması və əldə edilməsinə məsrəflərin həcmini və onların əsas sənaye-istehsal fondlarının ümumi dəyərində tutduğu payını özündə əks etdirir. Əsas sənaye – istehsal fondlarının təzələnmə əmsalı təkcə onların istismara verilməsi səviyyəsindən deyil, həmçinin də onların istehsalatdan çıxarılmasından asılıdır. İstehsalatdan çıxma əmsalı müəyyən dövr ərzində (məsələn, il ərzində) istehsalatdan çıxarılmış əsas sənaye-istehsal fondlarının ilk dəyərinin, həmin dövrün əvvəlinə olan ümumi dəyərinə bölməklə hesablanır.

Əsas sənaye-istehsal fondlarının ***köhnəlmə (sıradan çıxma) əmsalı*** hər hansı bir tarixə (məsələn, yanvarın 1-nə) əsas sənaye-istehsal fondlarının köhnəlmə dərəcəsini nəzərə alan kəmiyyətin onların ilk dəyərinə nisbəti kimi hesablanır. Bu əmsal həm əsas sənaye-istehsal fondların bütün növləri, həm də onun ayrı-ayrı ünsürləri üzrə hesablanır. Onu da qeyd edək ki, əsas sənaye-istehsal fondların köhnəlmə əmsalını hesablayarkən onun yararlılıq əmsalını da müəyyənləşdirmək zərurəti yaranır.

***Əsas sənaye-istehsal fondlarının yararlılıq əmsalı*** – həmin fondların köhnəlməmiş hissəsinin, yəni qalıq dəyərinin əsas sənaye-istehsal fondların ilk dəyərinə nisbəti kimi müəyyən edilir. Köhnəlmə əmsalı əsas sənaye-istehsal fondların köhnəlmiş, yararlılıq əmsalı isə köhnəlməmiş hissəsinin, yəni onların işə yararlı olan hissəsinin xüsusi çəkisini xarakterizə edir. Lakin, həm köhnəlmə və həm də yararlılıq əmsalı əsas sənaye-istehsal fondlarının təkrar istehsalı barədə heç bir məlumat vermir, yəni onların real vəziyyətini əks etdirmir.

***Avadanlıqdan istifadə əmsalı*** – əsas sənaye-istehsal fondlarının aktiv hissəsindən məhsuldar istifadə dərəcəsini xarakterizə edir. Vaxta, gücə (məhsuldarlığa), istehsal olunan məhsulun həcminə və ya yerinə yetirilən işə görə hesablanır. Avadanlıqdan təqvim, rejim (normal), faydalı (normativ, plan), faktiki və məhsuldar iş vaxtı fondlarını fərqləndirirlər.

Təqvim üzrə avadanlığın iş vaxtı fondunu müəyyən etmək üçün il ərzindəki günlərin sayını gün ərzindəki saatların miqdarına vurmaq lazımdır. Məsələn, il ərzində 365 iş günü varsa və həmin avadanlıq hər gün 24 saat işləyirsə, onda onun təqvim iş vaxtı fondu 8760 saata (365 × 24) bərabər olacaqdır.

Lakin bəzi sənaye müəssisələrində avadanlıq bütün il boyu və gün ərzində isə 24 saat işləmir. Odur ki, təqvim iş fondundan qeyri-iş saatlarını çıxmaqla, avadanlığın rejim iş vaxt fondu müəyyən edilir. Bu zaman avadanlığın işinin növbəliyi və gün ərzində işdə nəzərdə tutulmuş fasilələr nəzərə alınır. Məsələn, əgər ildə istirahət və bayram günlərini nəzərə almaqla 264 iş günü varsa və müəssisə 8 saatlıq iş günü ilə iki növbə işləyirsə, onda avadanlığın il ərzindəki rejim iş vaxtı fondu 4432 saat (264×8+104×2) olacaqdır.

Avadanlığın faydalı iş vaxtı fondu həmin avadanlığın planlı təmiri ilə əlaqədar boşdayanma vaxtı və habelə onun sazlanması və yenidən sazlanması vaxtı nəzərə alınmaqla onun rejimlə işləmə vaxtı əsasında hesablanır, yəni avadanlıqdan istifadə edilməsi üzrə planlaşdırılan boşdayanmaların hamısı rejim iş vaxtı fondundan çıxılırsa yerdə qalan vaxt həmin avadanlığın faydalı iş vaxtı fondunu təşkil edəcəkdir. Lakin, əslində avadanlıq heç də həmişə faydalı iş vaxtında tam işləmir. Odur ki, avadanlığın faktiki iş vaxtı fondu faydalı iş vaxtı fondundan artıq boşdayanma vaxtlarının kəmiyyəti qədər az və vaxtdan artıq işlənilən saatların kəmiyyəti qədər çox ola bilər.

Təcrübə göstərir ki, faktiki iş vaxtı ərzində də avadanlıq həmişə məhsuldar işləmir. Əgər müəyyən avadanlıqda istehsal edilmiş məhsulun bir qismi brak (çıxdaş, zay) olarsa, onda brak hesab edilmiş məhsulun istehsalına sərf edilmiş vaxt əslində həmin avadanlığın iş vaxtının itkisi deməkdir. Avadanlığın faktiki iş vaxtı fondundan qeyri-məhsuldar iş vaxtı çıxılarsa, yerdə qalan vaxt həmin avadanlığın məhsuldar iş vaxtı fondu olacaqdır.

Beləliklə, avadanlığın işləmə vaxtı fondlarını hesabladıqdan sonra ondan istifadə əmsallarını müəyyən etmək olar. Vaxta görə avadanlıqdan istifadə əmsalını müəyyən etmək üçün avadanlığın faydalı iş vaxtı fondunun kəmiyyətini faydalı iş vaxtı fondunun kəmiyyətinə bölmək, yəni avadanlığın planda nəzərdə tutulan iş saatlarının miqdarına bölmək lazımdır. Məsələn, əgər dəzgah-ayda 160 saat işləməli idisə, lakin planda iş vaxtı itkisi nəzərdə tutulmadığı halda boş dayanma üzündən əslində 150 saat işləmişdirsə, onda həmin dəzgahdan istifadə əmsalı 93,8%-ə (150:160) bərabər olacaqdır.

Avadanlığın təkcə boş dayanmadan işləməsini təmin etmək



deyil, həm də müəyyən olunmuş güclə, məhsuldarlıqla işləməsi təmin olunmalıdır. Əgər dəzgah bir saat ərzində norma üzrə 6 ədəd eyni növlü hissə emal etməlidirsə, əslində isə yalnız 5 hissə emal olunursa, onda gücə görə həmin dəzgahdan istifadə əmsalı (intensiv yükləmə əmsalı) 83,3%-ə (5:6) bərabər olacaqdır.

İş həcminə görə avadanlıqdan istifadə əmsalı (inteqral yükləmə əmsalı) həm vaxtı, həm də onun gücündən istifadəni əks etdirir və onda faktiki istehsal edilən məhsulun plan həcminə olan nisbətinə bərabərdir. Əgər dəzgahda plana görə ay ərzində 950 hissə emal etmək nəzərdə tutulmuşdursa, əslində isə 750 ədəd hissə emal olunmuşdursa, bu o deməkdir ki, həmin dəzgahdan istifadənin inteqral yükləmə əmsalı 78,1% (0,938×0,833) olacaqdır.

Avadanlığın yuxarıda göstərilən iş göstəricilərindən görünür ki, avadanlıqdan istifadə əmsalını yüksəltmək onun nəzərdə tutulmayan boş dayanma hallarını aradan qaldırmaq, əgər bu mümkün deyilsə onu minimuma endirmək, hər cür iş vaxtı itkilərini, yəni qeyri-məhsuldar iş vaxtlarını aradan qaldırmaq və gücündən tam və səmərəli istifadə olunmasını təmin etmək lazımdır.

***İstehsalın material tutumunun azaldılması – istehsalın iqtisadi səmərəliyinin yüksəldilməsinin mühüm ehtiyat mənbələrindən biridir.*** İstehsalın material tutumu – pul (dəyər) ifadəsində məhsul (iş, xidmət) vahidinə düşən material sərfinin həcmini xarakterizə edən göstəricidir. İstehsalın material tutumunu hesablayarkən bütün material ehtiyatlarını (məsələn, xammal, əsas və köməkçi materiallar, yaranacaq, istilik və elektrik enerjisi, satın alınmış yarımfabrikat və komplektləşdirici məmulatlar) sərfi nəzərə alınır. Xalq təsərrüfatı, sahə, müəssisə və ayrı-ayrı məhsul növləri üzrə istehsalın material tutumunu fərqləndirilir. Xalq təsərrüfatı üzrə material tutumu ümumi ictimai məhsula görə, sahə və müəssisə üzrə material tutumu isə əmtəəlik məhsula görə hesablanır. Məhsulun metal tutumu, enerji tutumu və kimya tutumu istehsalın material tutumunun ayrı-ayrı ünsürləridir. Bunlar barədə məlumatlar 7.5 bölməsində verilmişdir.

# FƏSİL 16. İSTEHSAL XƏRCLƏRİNİN VƏ MAYA DƏYƏRİNİN İDARƏ EDİLMƏSİ

## 16.1. İstehsal xərclərinin mahiyyəti, məhsulun maya dəyəri və qiymətinin formalaşdırılmasında onun rolu

Cəmiyyət heç vaxt maddi nemətlər istehsalı üçün zəruri olan təbiət, insan və istehsal olunmuş ehtiyatların kəmiyyətinə biganə qalmayıb. İqtisadi resurslar, maddi nemətlərin yaradılması üçün zəruri miqdarının optimal kəmiyyəti, bir qayda olaraq, bu kəmiyyətin azaldılması, həmişə cəmiyyət qarşısında həll olunması zəruri olan problem olmuşdur.

İqtisadi resurslar, istər təbii – torpaq, sular, faydalı qazıntılar, istər insan ehtiyatları, istərsə də cəmiyyət tərəfindən yaradılmış olan istehsal vasitələrinin miqdarı məhduddur. Əgər bu iqtisadi resurslar sonsuz miqdarda çox olarsa, iqtisad elminə ehtiyac olmazdı. Başqa sözlə, hər hansı istehsal-təsərrüfat fəaliyyətinin nəticələrinin, o cümlədən məhsul istehsalına sərf olunmuş iqtisadi resursların miqdarının müqayisəsi əhəmiyyətini itirmiş olardı. Fəqət həyat məhz bu iqtisadi resursların məhdudluğu şəraitində mövcuddur. Buna görə də hər bir istehsalçı, istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyi baxımından istifadə olunmuş iqtisadi resursların kəmiyyətinin ən əlverişli variantını seçməli olur.

Ümumiyyətlə, ***resurs*** dedikdə, istər-istəməz tələbatın ödənilməsi üçün zəruri olan vasitələr nəzərdə tutulur, yəni əmtəə və xidmətlərin istehsalı üçün tətbiq olunan təbii, əmək, kapital və sahibkarlıq qabiliyyəti iqtisadi resurs formalarını təşkil edirlər. Bəzi hallarda bu resurslar iki hissəyə, birincisi, maddi resurslara, xammal-materiallara və kapitala, ikincisi, insan resurslarına, əmək və sahibkarlıq qabiliyyətinə bölünərək istehsal amilləri kimi təsnifləşdirilir. İqtisadi resurslar, bir qayda olaraq, insanların hüdudsuz tələbatlarının ödənilməsinə yönəldiyindən onlar daima məhdud xarakter daşıyır.

Resursların məhdudluğu əməklə materialların səmərəli birləşməsinə, əmtəə və gəlirlərin müxtəlif fərd və ailələr arasında bölgüsünə səbəb olur. Resursların mövcudluğu onlardan istifadə olunması qaydası, seçilməsi üsulları onları iqtisadi kateqoriya edir. Əgər belə olmasaydı, onların heç bir nemətin istənilən səviyyədə istehsalında əhəmiyyəti olmazdı.



Məlumat üçün qeyd edək ki, istehsal-təsərrüfat fəaliyyətinin səmərəliliyi sahibkarın gəliri, istifadə olunmuş iqtisadi resursların miqdarı ilə yanaşı, həm də hazır məhsulun satış qiymətindən asılıdır. Qiymət ayrı-ayrı istehsalçıların məhsul vahidinə sərf etdiyi iqtisadi resursların miqdarından asılı olmayaraq, bazarda müəyyən olunur. Bu baxımdan, qiyməti müəssisə üçün əvvəlcədən verilmiş məlum kəmiyyət kimi başa düşmək olar. Həqiqətdə də istehsalçılar öz xərclərinin hesablarını bazar qiymətlərinə uyğun aparırlar.

Beləliklə, qiymətin məlum kəmiyyəti şəraitində hər bir istehsalçı üçün iqtisadi resursların miqdarının, strukturunun və dinamikasının təhlili xüsusi əhəmiyyət kəsb edir. Əmtəə-pul münasibətləri şəraitində məhsulun istehsalına sərf olunmuş iqtisadi resursların hesabı, sahibkarın bu ehtiyatların əldə edilməsinə, alınmasına sərf etdiyi pulun miqdarı ilə aparılır. Bu baxımdan, məhsulun istehsalı üçün zəruri olan iqtisadi resursların kəmiyyətini, müəssisənin bu resursların əldə edilməsinə sərf etdiyi pulun miqdarını istehsal xərcləri kateqoriyası əks etdirir.

İstehsal xərcləri çox böyük nəzəri və əməli əhəmiyyətə malik olan kateqoriyadır. Bu səbəbdən bütün iqtisadi məktəblər və görkəmli iqtisadçılar bu kateqoriyanın mahiyyətinə ciddi fikir vermişlər. Klassik məktəbin banilləri D.Rikardo və A.Smit istehsal xərclərinə istehsal qiyməti kimi baxırdılar. İngiltərə iqtisadçıları R.Torres, C.Mill, C.Mak-Kullox əmtəənin dəyərinin gəlirlərin (əmək haqqı, mənfəət və renta) cəmindən ibarət olması haqqında A.Smit fikrini əsas götürərək istehsal xərclərini «yığılmış əmək məsrəfləri» kimi izah edir və onu əmtəənin daxili dəyəri hesab edirdilər.

XIX əsrin sonunda Avstriya məktəbinin nümayəndəsi F.Vizer istehsal xərclərinin yeni konsepsiyasını işləyib hazırlayır. Onun subyektiv nəzəriyyəsinə görə, həqiqi istehsal xərcləri əmtəənin istehsal olunmasına sərf olunmuş iqtisadi resursların, onların cəmiyyət tərəfindən ən əlverişli şəkildə istifadə olunaraq əldə edə biləcəyi ən yüksək faydalılıqla müəyyən edilməlidir. XIX əsrin sonunda A.Marşal istehsal xərcləri nəzəriyyəsinin subyektiv və obyektiv variantlarını birləşdirməyə çalışmış-

dır. O, istehsal xərclərini fəhlələrin «əziyyətinə» və kapitalistlərin «imtinasına» səbəb olan xərclərin cəmi kimi izah edir. A.Marşal bu kəmiyyəti, ictimai xərclər kimi bütün sənaye müəssisələrini nəzərə almaqla hesablanmasını düzgün hesab edir. Marjinalist iqtisadi nəzəriyyə həmin kəmiyyətin ayrı-ayrı müəssisələr üçün hesablanmasının düzgün olduğunu sayırdı.

XIX əsrin ikinci yarısında yaranmış marksist iqtisadi nəzəriyyə istehsal xərclərinin mahiyyətini əmək-dəyər nəzəriyyəsi baxımından izah edir. Belə ki, istehsal xərcləri məhsul istehsalına sərf olunmuş əməyin (canlı və maddiləşmiş) məcmusu kimi müəyyənləşdirilir.

Müasir Qərb iqtisadi nəzəriyyələri həm mahiyyət etibarı ilə, həm də struktur və terminologiyasına görə istehsal xərclərinin marksist konsepsiyasından fərqlənir. Bu, hər şeydən öncə, XX əsrdə istehsalın inkişafında baş verən dəyişikliklərlə əlaqədardır. Belə ki, əvvəllər istehsal xərclərinin əsas hissəsini bilavasitə istehsalatda çalışan fəhlənin əmək məsrəfləri təşkil edirdisə, hazırda istehsal xərclərinin əksər hissəsini qeyri-istehsal sahələrində çalışan işçilərinin əməyi, elmi-tədqiqat işləri, marketinq, idarəetmə, reklam və s. xərclər təşkil edir. Bundan başqa, istehsalın həcmi və tempinin böyük sürətlə artması, qiymətlərin tez-tez dəyişməsi nəticəsində istehsal xərcləri, məhsul buraxılışının həcmi və satış qiyməti arasında olan əlaqə və asılılığın daha dərindən təhlil edilməsi zərurəti meydana çıxmışdır.

İstehsal xərclərinin öyrənilməsinə, hər şeydən öncə, bu xərclərin müəssisə üçün ***daxili və ya xarici xərclər*** olması baxımından yanaşmaq lazımdır. Belə ki, istehsal xərclərinin bir hissəsi əmək ehtiyatlarına, xammal və material, yanacaq, enerji, nəqliyyat və s. çəkilən xərclər olub, müəssisənin bu ehtiyatlara görə təchizatçılara verdiyi puldan ibarətdir. Bu xərclər müəssisənin kənara verdiyi xərclərdən ibarət olduğundan ***xarici xərclər*** adlanır. Bundan başqa, istehsal prosesində müəssisənin özünə məxsus olan iqtisadi ehtiyatlardan (məsələn, istehsal binasından) və sahibkarın öz əməyindən istifadə edilir. İstehsalda istifadə edilmiş bu iqtisadi ehtiyatlar da istehsal xərcləri kimi çıxış edir. Belə ki, bu ehtiyatlar məhsul istehsalına sərf edilməkdənsə başqa şəkildə istifadə edilərdi və bu, sahibkarlara pul gəliri gətirə bilərdi. Müəssisə ona məxsus olduğu binaları



icarəyə verib icarə haqqı və ya sahibkarın əməyini başqa müəssisədə tətbiq edərək əmək haqqı almaq olar. Bu səbəbdən sahibkar məhsul istehsalında istifadə edilən, özünə məxsus olan iqtisadi ehtiyatları onların hər hansı başqa şəkildə istifadə edərək ala biləcəyi pulun (məsələn, əmək haqqı, icarə haqqı və s. formasında) miqdarında istehsal xərclərinə aid edir. Bu iqtisadi ehtiyatlar üçün kənara pul xərcləndiyindən onlar ***daxili xərclər*** kimi çıxış edir.

Sahibkarın əməyinin daxili xərclərə aid edilməsinin xüsusiyyəti ayrıca qeyd edilməlidir. Bu cəhətdən sahibkarın öz əməyinin başqa şəkildə tətbiqi nəticəsində (məsələn, digər firmada menecer işləmək müqabilində) ala biləcəyi əmək haqqını müəssisənin məhsul buraxılışından əldə etdiyi mənfəətlə müqayisə etmək lazımdır. Əgər əmək haqqı mənfəətdən çox olarsa, menecer işləyərək sahibkarlıq fəaliyyətindən imtina etmək daha əlverişli olardı. Buna görə də sahibkar menecer işləyərkən ala biləcəyi əmək haqqından imtina etməyə görə haqq kimi, müəssisədən aldığı mənfəətin bu əmək haqqına bərabər kəmiyyətini istehsal xərclərinə aid edir. Müəssisənin əldə etdiyi gəlirin bu kəmiyyətə bərabər hissəsi ***normal mənfəət*** adlanır və sahibkar onu öz əmək haqqı kimi daxili xərclər sırasına hesablayır. İstehsal xərclərini daxili və xarici xərclərə ayırmaqla biz müəssisələrin mühasibat mənfəəti ilə iqtisadi (xalis) mənfəətini fərqləndirməliyik. Mühasibat mənfəəti məhsul satışından əldə edilən pulun miqdarından xarici xərclər çıxılmaqla hesablanır. İqtisadi (xalis) mənfəət məhsul satışından əldə edilən puldan bütün istehsal xərclərini çıxmaqla müəyyən edilir. İqtisadi mənfəət, istehsal xərclərinə aid olan, normal mənfəətdən əlavə alınmış xalis gəlirdir. Xalis mənfəət sahibkarın müəssisədə fəaliyyətini davam etdirməsi üçün əsas stimul, maraq rolunu oynayır.

***Beləliklə, istehsal xərcləri – məhsulun (işin, xidmətin) hazırlanmasına çəkilən canlı və maddiləşmiş əmək məsrəfinin məcmusudur. Əmtəə-pul münasibətləri şəraitində dəyər formasında çıxış edir.*** İctimai istehsal xərcləri və müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri fərqləndirilir. İctimai istehsal xərclərinə istehsalat edilmiş istehsal vasitələrinin keçirilmiş dəyəri və bütün yeni yaradılmış dəyər daxildir. Bu xərc-

lər əmtəə dəyərinə bərabər bir və qiymətlərin müəyyənləşdirilməsində əsas təşkil edir.

Müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəfləri əmtəənin dəyərindən azdır. Bu xərclər məhsulun maya dəyəri formasında çıxış edir; maya dəyərinə isə istehlak edilmiş maddi ehtiyatlara və işçilərin əməyinin ödənilməsinə çəkilən xərclər daxil edilir. Deməli, maya dəyəri müəssisədə buraxılan məhsulun ona neçəyə tamam olduğunu göstərir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 1996-cı il 16 avqust 111 saylı qərarı ilə təsdiq edilmiş «Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında» Əsasnaməyə görə məhsulun (işin, xidmətin) maya dəyəri istehsal prosesində istifadə olunan təbii ehtiyatların, xammalın, materialın, yanacağın, enerjinin, əsas fondların, əmək ehtiyatlarının qiymətləndirilmiş dəyərini, həmçinin onların istehsalına və satışına sərf edilən digər xərcləri özündə əks etdirir.

Məhsulun maya dəyəri istehsalın iqtisadi səmərəliyini xarakterizə edən ümumiləşdirilmiş göstəricilərdən biridir. Bu göstəricidən yeni texnika və mütərəqqi texnologiyanın, həmçinin yeni növ xammal və materialların tətbiqinin, istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsinin iqtisadi səmərəliyinin məqsədəuyğunluğunun müəyyənləşdirilməsində istifadə edilir. Məlumdur ki, məhsulun maya dəyərində material ehtiyatlarından istifadə olunması səviyyəsi və əmək məhsuldarlığının əldə edilmiş nəticəsi öz əksini tapır, yəni məhsulun maya dəyəri onun hazırlanması prosesində əmək vasitələrindən və əmək cisimlərindən, həmçinin əməyin özünün nə qədər səmərəli istifadə olunduğunu göstərir. Bu baxımdan, məhsulun maya dəyərinin aşağı salınması və istehsal xərclərinin zəruri səviyyəyə qədər azaldılması müəssisənin mənfəətinin (təsərrüfat hesabı gəlirinin) artırılmasının əsas mənbələrindəndir.

Bəzən məhsulun maya dəyəri ilə istehsal xərclərini, onun dəyəri ilə qiymətini eyniləşdirirlər. Əslində isə onlar bir-birlərindən fərqlənirlər. Məsələn, məhsulun maya dəyəri həmişə istehsal xərclərindən kəmiyyətcə artıq olur, yəni məhsulun maya dəyəri istehsal xərclərindən əlavə, «istehsaldankənar» xərcləri də özündə əks etdirir. ***«İstehsaldankənar» xərclər dedikdə, məhsulun realizəsi ilə əlaqədar müəssisə xərcləri nəzərdə tutulur. İstehsaldankənar xərclərə aiddir: tara və qablaşdırma xərcləri, məhsulun stansiyaya və ya yola salma görüşünə daşınması, vaqonlara (gəmiyə) yüklənməsi xərcləri, məhsulların realizəsi zamanı onların topdansatış qiymətlərindən satış təşkilatlarına ödənilən güzəştlərin məbləği və s.*** İstehsaldankənar xərclər xüsusi mühasibat balansında nəzərə alınır və məhsulun tam maya dəyərinə daxil edilir. İstehsaldankənar xərclər konkret məmulatlar istehsalının maya dəyərinə mümkün qədər birbaşa əlavə olunur, qalan hallarda isə onlar məmulatın kütləsinə, həcminə, istehsal maya dəyərinə görə məmulatlar arasında proporsional, mütənasib bölüşdürülür.



Məhsulun maya dəyəri və dəyəri arasında həm keyfiyyət, həm də kəmiyyət fərqləri vardır. Məhsulun maya dəyərinin onun dəyərindən kəmiyyətcə fərqi ondan ibarətdir ki, sənaye müəssisələrində yaradılan mənfəət maya dəyərinin tərkibinə daxil edilmir, həmin məhsulun dəyərinin tərkibinə isə daxil edilir. Məhsulun maya dəyərinin onun dəyərindən keyfiyyət fərqi ondan ibarətdir ki, istehlak edilən istehsal vasitələri məsrəfləri ilə həmin vasitələrə qoyulan qiymətlər arasında fərq mövcuddur, yəni məhsulun maya dəyəri həmin müəssisədə onun hazırlanmasına çəkilən xərclərin fərdi kəmiyyəti ilə, dəyəri isə – ictimai zəruri əmək məsrəfləri ilə müəyyən edilir.

Məhsulun maya dəyəri ilə onun qiyməti arasında sıx qarşılıqlı əlaqə vardır. Belə ki, məhsulun maya dəyəri onun qiymətinin əsasını təşkil edir (adətən, məhsulun qiymətinin tərkibində onun maya dəyərinin xüsusi çəkisi təqribən 80%-ə qədər olur). Deməli, məhsulun qiyməti onun maya dəyərindən aşağı ola bilməz, çünki belə halda müəssisə zərərlə işləmiş olar. Odur ki, məhsulun qiymətini azaltmaq üçün, digər şərtlər eyni qalarsa, onun maya dəyərini aşağı salmaq lazımdır. Bu, istehsalın səmərəliliyinin yüksəldilməsinin zəruri şərtidir.

Sənaye müəssisələrində məhsulun maya dəyərinin aşağı salınması texniki tərəqqi və əmək kollektivinin mədəni-texniki səviyyəsinin yüksəldilməsi əsasında əmək məhsuldarlığının müntəzəm surətdə artması, maddi-enerji və əmək ehtiyatlarından səmərəli istifadə olunması, istehsalın təşkilinin və üsullarının təkmilləşdirilməsi sayəsində aşağı salınır. Məhsulun maya dəyərinin aşağı salınması müəssisənin mənfəətinin artırılması-

nın, deməli, istehsalın rentabellik səviyyəsinin yüksəldilməsinin əsas mənbəyidir və həm də məhsul buraxılışı həcminin artırmağın vacib amilidir. Məhsulun maya dəyərini canlı və maddiləşmiş əməyə qənaət etmək hesabına aşağı salmaq olar. Maddi ehtiyatlarda maddiləşmiş keçmiş əməyə qənaət eyni miqdarda materialdan daha çox məhsul istehsal etməyə, canlı əmək məsrəflərinə qənaət isə, onun məhsuldarlığını artırmağa və beləliklə də, istehsal həcmini yüksəltməyə imkan verir. Odur ki, istehsalın həcmi artdıqca məhsulun maya dəyərinin aşağı salınması mühüm əhəmiyyət kəsb edir və daha çox effekt verir.

Sənaye müəssisələrində məhsulun maya dəyərinin aşağı salınmasının aşağıdakı yolları vardır: a) yeni texnikanın müntəzəm surətdə tətbiq edilməsi – istehsalın texnika cəhətdən təchiz olunması səviyyəsini yüksəldir; b) istehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsi səviyyəsinin yüksəldilməsi – istehsalın təkmilləşdirilməsinin və onun daha da intensivləşdirilməsinin mühüm amilidir; c) maddi istehsal sahələrində çalışan işçilərin əməyinin məhsuldarlığının yüksəldilməsi – eyni şəraitdə əmək haqqı və digər xərclərin qənaətini təmin edir; ç) ümumzavod və sex xərclərinin ixtisar edilməsi – idarəetmə aparatının sadələşdirilməsi və ucuzlaşdırılması nəticəsində əldə edilir; d) brak və qeyri-məhsuldar məsrəflər nəticəsində əmələ gələn hər cür itkilərin ixtisar edilməsi – məhsulun maya dəyərinin aşağı salınmasının mühüm ehtiyat mənbələrindən biridir; e) buraxılan məhsulun keyfiyyətinin yüksəldilməsi – müəssisəyə imkan verir ki, eyni miqdarda xərc qoyduğu halda məhsulun realizəsindən daha çox gəlir, mənfəət əldə etsin. Məhsulun keyfiyyəti pis olarsa, onun qiyməti də aşağı olar.

Məhsulun maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında Əsasnaməyə görə məhsulun maya dəyərinə daxil edilən xərclərin tərkibinə istehsalın təşkili və texnologiyasından irəli gələn, buraxılan məhsulların, görülən işlərin və yerinə yetirilən xidmətlərin keyfiyyəti və istehsal proseslərinə nəzarət üzrə məsrəflər də daxil olmaqla, məhsulun (işin, xidmətin) istehsalı ilə bilavasitə əlaqədar olan xərclər daxil edilir.

***Məhsulun maya dəyərinin tərkibinə daxil olan məsrəflər arasındakı nisbət, yəni məhsulun maya dəyərinin ümumi tərkibində müxtəlif növ məsrəflərin xüsusi çəkisi onun quruluşunu təşkil edir.*** Maya dəyərinin strukturu hər bir müəssisənin spesifik xüsusiyyətləri ilə əlaqədardır, yəni istehsalın texnika ilə silahlanma səviyyəsindən, mexanikləşdirilməsi və avtomatlaşdırılması dərəcəsindən, istehsal olunan məhsulların həcmindən və mürəkkəbliyindən, texnoloji proseslərin xarakterindən, istehlak olunan maddi ehtiyatların xüsusiyyətindən asılıdır. Bunun da nəticəsində ayrı-ayrı müəssisələrdə məhsulun hazırlanmasına çəkilən xərclərin quruluşu bir-birindən xeyli dərəcədə fərqlənir.



Məhsulun maya dəyərində hansı xərclərin üstün olmasından asılı olaraq sənaye müəssisələri, qeyd etdiyimiz kimi, materialtutumlu, yanacaqtutumlu, enerjitutumlu, fondtutumlu və əməktutumlu müəssisələrə ayrılır. Məsələn, neft sənaje sahəsinə mənsub olan müəssisələr, maşınqayırma zavodları, metallurgiya kombinatları və s. böyük fond və material tutumlu müəssisə hesab edilirlər. Məhsulun maya dəyərinin aşağıdakı növlərini fərqləndirirlər.

***Texnoloji maya dəyəri*** – bilavasitə texnoloji proseslərin (əməliyyatların) yerinə yetirilməsi ilə əlaqədar sex məsrəflərinin məbləğini özündə əhatə edir və müxtəlif texnoloji proseslərin içərisindən ən səmərəlisini seçmək üçün tətbiq edilir.

***Sex maya dəyəri*** – sexin müəyyən məhsulunun istehsalı ilə əlaqədar olan bütün məsrəfləri, yəni əsas və köməkçi materiallar, yanacaq, enerji məsrəflərini, istehsal fəhlələrinin əmək haqqını, avadanlığın saxlanması və istismarı xərclərini və sexin idarə edilməsi ilə əlaqədar olan sex xərclərini özündə cəmləşdirir.

***İstehsal maya dəyəri*** – məhsul növünün istehsalı üçün müəssisənin ümumi məsrəflərini səciyyələndirir. O, sex maya dəyərindən və ümumzavod xərclərinin cəmindən ibarətdir.

***Tam (kommersiya) maya dəyəri*** – məhsulun istehsalı və realizəsi ilə əlaqədar olan bütün məsrəfləri əhatə edir və ona görə də müəssisənin istehsal fəaliyyətinin son nəticələrini səciyyələndirir. O, sex maya dəyərindən, ümumzavod xərclərindən və istehsaldankənar xərclərdən ibarətdir.

***Fərdi maya dəyəri*** – istehsalın təşkili, avtomatlaşdırma və mexanikləşdirilmə, ixtisaslaşdırılma və təmərküzləşdirilməsi dərəcəsini xarakterizə edir və müxtəlif müəssisələrində eyni olmur.

***Orta sahə maya dəyəri*** – müəyyən növ məhsulun fərdi maya dəyərlərinin məcmusu kimi müəyyən olunur və əsas ölçü kimi, hər bir müəssisənin əmtəəlik məhsulunun həcmi qəbul edilir. Orta sahə maya dəyəri sənaye məhsullarına topdansatış qiymətlərinin qoyulması üçün əsas hesab edilir.

***Plan maya dəyəri*** – maddi-enerji, tədarük-nəqliyyat xərclərinin mütərəqqi məsrəf normaları, iş vaxtından, maşın və avadanlıqdan istifadə edilməsinin texniki norma və normativləri əsasında müəyyən edilir.

***Faktiki maya dəyəri*** – müəyyən dövr ərzində məhsulun istehsalına və realizəsi üzrə faktiki məsrəflər əsasında hesablanır. Əgər müəssisədə əsas və köməkçi materiallardan səmərəli istifadə olunarsa, əmək məhsuldarlığı artarsa və əsas fondlardan istifadə olunması yaxşılaşarsa faktiki məsrəflər plan məsrəflərindən aşağı səviyyədə ola bilər ki, bu da faktiki maya dəyərinin plan maya dəyərindən az olması deməkdir.

## 16.2. İstehsal xərclərinin təsnifatı və dinamikası

İstehsal xərcləri müəssisənin məhsul istehsalı üçün zəruri olan bütün xərclərinin cəmindən ibarətdir. Bu, istehsal binasının istismarına, dəzgah, maşın və avadanlıqların alınıb quraşdırılmasına, icarə haqqı, inzibati-idarəetmə işçilərin əmək haqqı, həmçinin xammal, əsas və köməkçi materiallar, enerji fəhlələrin əmək haqqı, yanacağa çəkilən və s. xərclərdir. Əgər bütün xərcləri diqqətlə nəzərdən keçirsək, görərik ki, onların bəziləri istehsal olunmuş məhsulun həcmindən asılı olmayaraq dəyişməyib sabit qalır (məsələn, istehsalat binalarının istismarına, maşın və avadanlıqların alınıb quraşdırılmasına, icarə haqqı, inzibati-idarəetmə işçilərin əmək haqqı kimi xərclər). Göstərilən xərclər hətta istehsalın sıfır həddində olduqda da mövcuddur. İstehsal xərclərinin digər hissəsi istehsal olunmuş məhsulun həcminin dəyişməsi ilə dəyişir. Belə xərclərə misal olaraq xammal və materiallara, yanacaq, enerjiyə çəkilən xərcləri, fəhlələrin əmək haqqı kimi xərcləri göstərmək olar.

Məlumdur ki, istehsal xərcləri ya iqtisadi ünsürlər üzrə, ya da kalkulyasiya maddələrinə görə təsnifləşdirilir. İqtisadi məzmununa və təyinatına görə eyni olan bütün istehsal xərcləri harada əmələ gəlməsindən və xərclərin obyektlərindən asılı olmayaraq ayrı-ayrı ünsürlər üzrə qruplaşdırılır. İqtisadi ünsürlər üzrə istehsal xərclərinin təsnifatı, qruplaşdırılması müəssisənin maddi-enerji ehtiyatlarına və yanacağa olan ümumi tələbatını, istehsal əsas fondlarının amortizasiyasını, əmək haqqı xərclərini, eyni zamanda, digər pul məsrəflərini müəyyən etməyə imkan verir.



1996-cı ilin iyun ayından məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclər onların iqtisadi məzmununa görə aşağıdakı ünsürlər üzrə qruplaşdırılır:

***a) material xərcləri*** (qaytarılan tullantıların dəyəri çıxılmaqla). Material xərclərinin tərkibinə məhsul istehsalına, iş və xidmətlərin həyata keçirilməsinə sərf edilən xammalın, materialın və digər növ ehtiyatların dəyəri daxil edilir;

***b) əmək haqqı xərcləri*** – qanunvericilikdə nəzərdə tutulan hədlər daxilində müvafiq məhsul istehsalında iştirak edən işçilərə (o cümlədən ştatdankənar) hesablanan əmək haqqı və müavinətlər üzrə xərcləri özündə əks etdirir;

***c) sosial ehtiyaclara ayırmalar*** – elementlərində qanunvericilikdə nəzərdə tutulmuş normalarla Dövlət Sosial Müdafiə Fonduna, Məşğulluq Fonduna, işçilərə hesablanan əmək ödənişlərinin (sığorta haqları hesablanmayan ödəniş növlərindən başqa) ümumi məbləğinə mütənasib olaraq hesablanan məcburi ayırmalar əks etdirilir;

***ç) əsas fondların köhnəlməsi (amortizasiya)*** – elementində əsas istehsal fondlarının balans dəyəri ilə hesablanmış məbləğləri əks etdirilir;

***d) sair xərclər*** – elementi üzrə xərclər aşağıdakı kimi qruplaşdırılır: istehsalın hazırlanmasına və mənimsənilməsinə sərf edilən xərclər; yeni müəssisələrin, sexlərin və aqreqatların mənimsənilməsinə sərf edilən xərclər; kütləvi və seriyalı istehsal üçün nəzərdə tutulmayan məhsul istehsalı hazırlığına və mənimsənilməsinə çəkilən xərclər; istehsalın təşkili və texnologiyasının təkmilləşdirilməsi, habelə məhsulun keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar olan xərclər; ixtiralar və səmərələşdirici təkliflərlə əlaqədar olan xərclər; istehsal prosesinə xidmət xərcləri; istehsal fondlarının işçi vəziyyətində saxlanılması xərcləri; normal iş şəraitinin yaradılması üzrə xərclər; istehsalın

idarə edilməsi ilə əlaqədar olan xərclər; təbiətin mühafizəsi üzrə olan xərclər; auditor, informasiya və məsləhət xidmətləri üzrə xərclər; ezamiyyə, reklam və nümayəndəlik xərcləri; texniki idarəetmə vasitələrinin saxlanılması üzrə xərclər.

Məlumat üçün qeyd edək ki, sənayenin ayrı-ayrı sahələrində məhsul vahidinin istehsalına çəkilən xərclərin miqdarı eyni deyildir. Çünki bu, istehsalın konkret şəraitindən, istehsal olunan məhsulun xarakterindən və mürəkkəblik dərəcəsindən, iqtisadi təyinatından asılıdır.

Konkret məmulatın, məhsul vahidinin maya dəyərini müəyyən etmək üçün xərclər kalkulyasiya maddələri üzrə və onların sərfolunma yeri və məqsədli təyinatı nəzərə alınmaqla qruplaşdırılır. Kalkulyasiya maddələrinin əksəriyyəti öz iqtisadi tərkibinə görə kompleks xarakter daşıyır və ona görə də onlar həm maddi məsrəflərin ünsürlərini (məsələn, xammalı, materialı və s.), həm də əməyin ödənilməsi üzrə xərcləri özündə əks etdirir. Kalkulyasiya maddələrinə görə məhsulun maya dəyərinin tərkibinə daxil edilən xərclər aşağıdakı kimi qruplaşdırılır: xammal və materiallara çəkilən xərclər; satın alınmış məmulat və yarımfabrikatların dəyəri; qaytarılan tullantıların dəyəri; texnoloji məqsədlər üçün yanacaq və enerjinin dəyəri; istehsal fəhlələrinin əsas və əlavə əmək haqqı; sosial ehtiyaclara ayırmalar; istehsalın hazırlanması və mənimsənilməsi xərcləri; alət və tərtibatların aşınması xərcləri; avadanlıqların saxlanılması və istismarı xərcləri; ümumzavod və sex xərcləri; zay məhsul hesabına itkilər; sair istehsal xərcləri və nəhayət, istehsaldankənar xərclər.

Deməli, istehsal xərclərini iki hissəyə ayırmaq olar: həcmi istehsal olunmuş məhsulun miqdarından asılı olmayan ***sabit xərclər*** və həcmi istehsal olunmuş məhsulun sayından asılı olan ***dəyişən xərclər***. Məlumat üçün qeyd edək ki, dəyişən xərclərin həcmi buraxılan məhsulun miqdarı ilə qarşılıqlı əlaqədə olsa da bu iki kəmiyyət arasındakı asılılıq mütənasib xarakter daşımır. İstehsala cəlb olunmuş əlavə dəyişən xərclər müəyyən həddə çatana qədər məhsul buraxılışının həcmi daha yüksək templə artır. Müəyyən həddən sonra məhsul buraxılışının artım tempi əlavə dəyişən xərclərə nisbətən aşağı düşür. Odur ki, istehsal xərclərinin optimal həddinin müəyyən edilməsi mühüm nəzəri və praktiki əhəmiyyət kəsb edir.



İstehsal xərclərinin dəyişən və sabit xərclərə bölünməsinin sahibkar üçün əhəmiyyəti vardır. Belə ki, qısamüddətli dövrdə sahibkar bazar konyunkturasına uyğun olaraq istehsal xərclərinin optimal həcmdə saxlanılmasına nəzarət etmək üçün yalnız dəyişən xərclərin həcmini tənzimləməlidir, çünki sabit xərclər bazar konyunkturasından asılı olmayaraq dəyişməz qalır. Dəzgahlar artıq alınıb, sex və iş yerlərində quraşdırılıb, onların haqqı ödənilib, icarə haqqı verilib və s.

Sabit və dəyişən xərclər müəssisənin bütünlükdə istehsal prosesinin həyata keçirilməsinə çəkdiyi xərclərə aid olunduğundan onları ümumi sabit və ümumi dəyişən istehsal xərcləri adlandırmaq olar. Belə olduqda müəssisənin ümumi istehsal xərcləri ümumi sabit və ümumi dəyişən xərclərin cəmi kimi hesablanır.

Ümumi istehsal xərclərinin strukturu, dinamikası, onların tənzimlənməsi nə qədər vacib olsa da, sahibkarı məhsul vahidinə çəkilən xərclər, başqa sözlə, orta istehsal xərcləri daha çox maraqlandırır. Məhz bu göstərici istehsal xərclərinin müqayisəli təhlilində mühüm rol oynayır. Adi hesablama vasitəsi ilə orta sabit və orta dəyişən xərclərin kəmiyyətini müəyyən etmək olar. Belə ki, ümumi sabit və ümumi dəyişən xərcləri istehsal olunmuş məhsulların miqdarına bölməklə müvafiq olaraq sabit və dəyişən orta xərcləri müəyyənləşdirmək (tapmaq) olar. Məlumdur ki, orta ümumi xərclər də orta sabit və orta dəyişən xərclərin cəmindən ibarətdir.

Müəssisənin məhsul buraxılışının həcmi istehsala cəlb olunmuş iqtisadi ehtiyatların miqdarından, dinamikasından asılıdır. Bu səbəbdən iqtisadi ehtiyatların miqdarının dəyişməsinin məhsul buraxılışına təsiri tədqiq edilməlidir. İqtisadi ehtiyatların strukturundan asılı olaraq, onların bəzilərinin miqdarının dəyişdirilməsi az, digərlərininki isə çox vaxt tələb edir. Bu baxım-dan qısamüddətli və uzunmüddətli dövrləri fərqləndirmək lazımdır.

Qısamüddətli dövr əmək, xammal, yanacaq, enerji və s. kimi iqtisadi ehtiyatların miqdarının dəyişdirilməsi üçün zəruri olan, fəqət müəssisənin əsas istehsal güclərinin yeniləşdirilməsi üçün kifayət etməyən vaxtdır. Bu dövrdə istehsal güclərini sabit saxlayaraq, onların daha intensiv istifadə edilməsini təmin etməklə, istehsalın həcmini artırmaq olar, yəni istehsala əlavə canlı

əmək, xammal və s. cəlb etməklə məhsul buraxılışının miqdarını artırmaq olar.

Uzunmüddətli dövr, istifadə olunan bütün iqtisadi ehtiyatların, o cümlədən əsas istehsal güclərinin dəyişdirilməsi üçün zəruri olan vaxtdır. Bu dövr istehsalat binası, maşın, qurğu, aqreqat və s. kimi iqtisadi ehtiyatların nisbətən gec-gec dəyişdirilməsi və onların quraşdırılıb istifadəyə verilməsi üçün daha çox vaxt tələb olunması ilə əlaqədardır. Məsələn, yeni istehsalat binası tikmək və ya əlavə dəzgah quraşdırmaq üçün müasir maşınqayırma müəssisələrində aylarla vaxt tələb olunur. Bundan fərqli olaraq, istehsalda çalışan fəhlələrin sayını və ya istifadə edilən xammalın miqdarını bir gün ərzində dəyişmək olar. Məlumat üçün qeyd edək ki, tədqiqatın qısa və uzunmüddətli dövrlərə ayrılması şərti xarakter daşıyır. Bir sıra istehsal sahələrində, məsələn, tikiş fabriklərində bir gün ərzində yeni tikiş maşınını işə salmaqla istehsal güclərini artırmaq olar. İstehsal xərclərinin hərəkətinin belə dövrlərə bölünməsi, vaxtın çox və ya az olmasına görə deyil, iqtisadi ehtiyatların miqdarının məhsul buraxılışının həcminə təsiri baxımından aparılır. Belə ki, qısamüddətli dövrdə əlavə xammal, işçi qüvvəsi cəlb olunmaqla məhsul buraxılışının həcmini artırmaq mümkündür, bu zaman nə istehsalat binalarının, nə də dəzgahların sayı dəyişməyə bilər. Buna görə də istehsal gücləri dəyişməz götürülən qısamüddətli dövrdə istehsala cəlb olunmuş xammal, işçi qüvvəsi və bu kimi iqtisadi ehtiyatların miqdarının çoxaldılmasının məhsul buraxılışına təsirinin tədqiqi daha da maraq doğurur. İstehsal xərclərinin qısamüddətli dövrdə dinamikasının öyrənilməsi, uzunmüddətli dövrdə müəssisənin istehsal güclərində və strukturunda ediləcək dəyişikliklər baxımından da əhəmiyyətlidir.

İstehsal xərclərinin dinamikası həmişə məhsul istehsalının artıb-azalmasına olan tələbə uyğun olaraq dəyişir. Başqa sözlə, məhsul istehsalı artmaqla istehsal xərclərinin ümumi həcmi də artmış olur. Fəqət təcrübə göstərir ki, ümumi istehsal xərcləri heç də həmişə məhsul buraxılışının həcminin artması nisbətində dəyişmir.

Hər bir sahibkar iqtisadi imkanlarından düzgün istifadə etmək üçün məhsul buraxılışının həcminin dəyişməsi ilə öz gəlirlərinin artıb-azalacağını müəyyən etməyə çalışır. Bunun üçün o,



istehsal olunmuş məhsulun optimal həcmini müəyyənləşdirməli və onun istehsalı üçün çəkdiyi xərclərin gəlirlilik baxımından az və ya çox olduğunu bilməlidir. Başqa sözlə, istehsal olunmuş məhsulun satışından əldə edilmiş ümumi pul gəlirlərinin həcmi və ümumi istehsal xərclərinin kəmiyyəti müqayisə edilməlidir. İkincilərin az olması istehsalın davam etdirilməsi üçün əsas şərtdir. Satışdan əldə edilən pul gəlirlərinin həcmi məhsul vahidinin bazar qiymətindən asılı olduğundan, müəssisənin mənfəətli işləməsi üçün orta istehsal xərcləri ilə məhsulun bazar qiymətinin müqayisəsində bilinir. Bu baxımdan sahibkar üçün ümumi istehsal xərclərindən daha çox orta istehsal xərclərinin dinamikası maraqlıdır. Buna görə də məhsul buraxılışının optimal həcmini və istehsal xərclərinin səmərəli istifadəsini təmin etmək üçün məhsul vahidinə çəkilən xərclərin və orta istehsal xərclərinin dinamikası təhlil edilməlidir.

Məhsul istehsalının artırılması üçün həmişə müəyyən miqdarda əlavə istehsal xərcləri tələb olunur. İstehsalın həcmini genişləndirdikdə əvvəlki miqdarda məhsul istehsalına çəkilən xərclərə müəyyən kəmiyyətdə yeni xərclər əlavə olunmalıdır. Məlum məsələdir ki, qısamüddətli dövr üçün bu əlavə xərclər yalnız dəyişən xərclərdən ibarətdir. Bu əlavə xərclərin kəmiyyəti məhsul həcminin genişləndirilməsi ilə əlaqədar ümumi istehsal xərclərinin artımının miqdarını göstərir. Bu baxımdan, əlavə xərclərin kəmiyyətinə nəzarət edilməsi, yəni idarə edilməsi və dinamikasının öyrənilməsi mühüm əhəmiyyət kəsb edir.

Əlavə xərclərin kəmiyyətinin dəyişilməsinə nəzarət etmək üçün, adətən, sonuncu bir məhsulun istehsalı ilə əlaqədar ümumi xərclərin strukturunda baş verən dəyişikliklər təhlil edilir. İstehsal olunmuş sonuncu məhsul ilə əlaqədar xərcləri, *N* miqdar məhsul istehsal edərkən çəkilən ümumi xərclərlə, *N*-1 miqdarda məhsul istehsalına çəkilən xərclərin arasındakı fərq kimi hesablamaq olar. Bu kəmiyyət məhsul buraxılışının əvvəlki həcminə çəkilən xərclərin son həddinə əlavə olunduğundan, göstərici kimi onu son hədd xərcləri ($X_{s.h.}$) adlandırırlar. Beləliklə, son hədd xərcləri nisbəti məhsul istehsalı ilə əlaqədar ümumi xərclərin artan kəmiyyətini göstərir. Məhsul istehsalı bir-bir artıqda, son hədd xərclərinin miqdarını ümumi istehsal xərclərinin qonşu kəmiyyətlərinin fərqi kimi müəyyən etmək

olar. Məhsul istehsalını çox miqdarda artırdıqda isə son hədd xərcləri, ümumi xərclərin artım miqdarının məhsul buraxılışının sayının artımına olan nisbəti kimi müəyyən edilir, yəni:

$$X_{s.h.} = (X_{s.} - X_{ə.}) : (N_{s.} - N_{ə.}) ;$$

burada $X_{s.}$ və $X_{ə.}$ – son və əvvəlki miqdarda məhsul istehsalı ilə əlaqədar ümumi istehsal xərclərinin miqdarı; $N_{s.}$ və $N_{ə.}$ – son və əvvəlki məhsul buraxılışının miqdarı.

Yuxarıda göstərilənlərdən başqa, məhsulun maya dəyərinin tərkibinə daxil olan xərclər aşağıdakı xərc növlərinə görə də qruplaşdırılır.

***Birbaşa xərclər*** məhsulun hazırlanması prosesi ilə bilavasitə əlaqədardır və onlar birbaşa uçot üsulu ilə ayrı-ayrı məmulat vahidlərinin maya dəyərinin tərkibinə daxil edilir. Birbaşa xərclərə aiddir: xammal və materialların və kənardan satın alınmış yarımfabrikatlar, istehsalat işçilərinin əsas və əlavə əmək haqqı, müəyyən edilmiş alətlər və tərtibatların alınması, yeni növ məhsul istehsalının mənimsənilməsi xərcləri və digər xüsusi xərclər. Birbaşa xərclərin xüsusiləşməsi istehsalın, texnika və texnologiyanın təşkili xüsusiyyətlərindən ibarətdir. Bir növ məhsul buraxılışı üzrə ixtisaslaşdırılmış müəssisələrdə bütün xərclər birbaşadır. Birbaşa xərclər müxtəlif ehtiyatların mütərəqqi məsrəf norması əsasında müəyyənləşdirilir.

***Dolayı xərclər*** – ayrı-ayrı məmulat vahidlərinin maya dəyərinin tərkibinə birbaşa deyil, dolayı yolla daxil edilir. Məsələn, binaların qızdırılması, işıqlandırılması, amortizasiya və s. bu kimi xərclər məhsul vahidinin maya dəyərinin tərkibinə mütənasib olaraq daxil edilir. Dolayı xərclərin ayrı-ayrı məhsulların maya dəyərinə qabaqcadan müəyyən edilmiş bazaya mütənasib surətdə aid edilir. Dolayı xərclərin bölgü bazası, məsələn, istehsal fəhlələrinin əsas və ya tarif əmək haqqı fondu ola bilər. Dolayı xərclərin bəzi növləri, məsələn, istehsaldankənar xərclər, məhsul növləri üzrə ayrı-ayrı məmulatların istehsal maya dəyərinə mütənasib surətdə bölüşdürülür. Avadanlıqların saxlanması və istifadəsi xərcləri ayrı-ayrı məhsul növlərinin maya dəyərinə daxil edilir və bu zaman, bir qayda olaraq, avadanlığın müvafiq məhsul növü vahidinə sərf etdiyi iş vaxtı hesaba alınır.

***Sadə xərclər*** – bir ünsürdən, məsələn, xammal və materiallara, satın alınan komplektləşdirici məmulatlar və yarımfabrikatlara, istehsal fəhlələrinin əsas əmək haqqına, texnoloji məqsədlər üçün istifadə edilən yanacaq və enerjiyə çəkilən xərclərdən ibarət olur.



***Kompleks xərclər*** – iqtisadi cəhətdən müxtəlif, fəqət istehsal təyinatına görə eyni olan ünsürlərdən ibarətdir. Kompleks xərclərə aiddir: texnoloji maşın və avadanlıqların saxlanılması və istismarına çəkilən xərclər; sex və ümumzavod xərcləri; zay məhsulda qüsurların aradan qaldırmaq üçün istifadə olunan xammal, material və kənardan satın alınan yarımfabrikatlara çəkilən xərclər; istehsal zayını düzəldən fəhlələrə verilən əmək haqqı.

Yuxarıda deyilənlərdən aydın olur ki, hər bir istehsalçı məhsul buraxılışının həcmini müəyyənləşdirərkən, müəssisənin gəlirliliyini təmin etmək üçün istehsala çəkilən faktiki xərclərin hamısını nəzərə almalıdır. Fəqət daha dərin iqtisadi təhlil və əməli təcrübə göstərir ki, istehsal-təsərrüfat fəaliyyətinin səmərəliyini müəyyən etmək üçün ümumi iqtisadi xərclər, yəni faktiki xərclərlə yanaşı alternativ xərclərlə də hesablaşmaq lazımdır. Alternativ xərclərin hesablanması bu və ya digər istehsal-təsərrüfat fəaliyyətini həyata keçirmək üçün məcmu xərclərin sərf olunmasının iqtisadi cəhətdən nə dərəcədə əlverişli olub-olmamasının müəyyənləşdirilməsi zəruriliyindən irəli gəlir.

Başqa sözlə, mövcud iqtisadi ehtiyatları mümkün istehsal-təsərrüfat fəaliyyətlərindən hansına yönəltmək məsələsi meydana çıxdıqda alternativ xərcləri hesablamaq lazım gəlir. Məsələn, sahibkar öz pul ehtiyatlarını müxtəlif cür, həm mövcud istehsalın genişləndirilməsinə, həm də yeni növ istehsalın yaradılması üçün istifadə edə bilər. Seçmək üçün bu kəmiyyətlərin hər biri alternativ kimi müqayisə edilməlidir. Hər hansı istehsal-təsərrüfat fəaliyyətindən birdəfəlik yüksək gəlir götürmək üçün alternativ xərclərin hesablanması daha çox zərurət kəsb edir. Bunu izah etmək üçün P.Samuelsonun göstərdiyi misal daha çox əhəmiyyət kəsb edir. Məsələn, hər hansı bir ölkədə, o cümlədən müharibə şəraitində yaşayan bizim ölkəmizdə 2006-cı ildə ordunun daha da gücləndirilməsi nəzərdə tutulub. Bu qərar baxımından alternativ xərclər nədən ibarətdir. Bu aktın həyata keçirilməsinin cəmiyyətə nəyə başa gəldiyini hesablamaq üçün, ölkənin hərbi büdcəsinin nə qədər artdığını bilmək

kifayət etmir. Nəzərə alınmalıdır ki, hərbiçilərin əmək haqqına, onlara edilən hər cür xidmətlərə, silahlandırmaya, ordunun artmasına çəkilən xərclərlə əlaqədar olaraq cəmiyyət nə qədər maddi və əmək ehtiyatlarını istehsala cəlb edə bilməmişdir, xalq nə qədər mülki məhsullardan məhrum olmuşdu.

Azərbaycanda Xəzər dənizinin dərinliklərindən çıxarılan, yüksək mənfəət verən neft hasilatına çəkilən xərclərə iqtisadi qiymət verməyə çalışaq. Ümumi iqtisadi xərclərə bilavasitə neft hasilatı ilə əlaqədar çəkilən xərclərlə yanaşı, eyni miqdarda iqtisadi ehtiyatların alternativ şəkildə istifadəsindən əldə edilə biləcək, «itirilmiş» maddi nemətlərin dəyər kəmiyyəti daxil edilməlidir. Başqa sözlə, həmin xərclər Abşeron yarımadasında kənd təsərrüfatının inkişafına, balıqçılığa, gəmiçiliyə və s. edilə bilərdi. Bu, aydın məsələdir ki, külli miqdarda maddi nemətlər istehsalı və yüksək mənfəət əldə etməyə imkan verərdi. Buna görə də itirilmiş bu mənfəətə neft hasilatı xərclərinin bir hissəsi kimi baxmalı və neftin satış qiyməti həmin mənfəətin dəyər kəmiyyəti miqdarında artırılmalıdır.

Beləliklə, hər hansı istehsal-təsərrüfat fəaliyyətinin ümumi iqtisadi xərclərinə bilavasitə istehsala çəkilən xərclərlə yanaşı, mövcud ehtiyatların ən əlverişli istifadə olunmasının dəyər kəmiyyətini əks etdirən alternativ xərclər də daxil edilməlidir.

Müəssisənin konkret istehsal-təsərrüfat fəaliyyəti üçün alternativ xərclərin nəzərə alınması xüsusi əhəmiyyət kəsb edir. Tutaq ki, müəssisə buraxdığı məhsulun müəyyən hissəsini daxili ehtiyatlar hesabına özü istehsal edir. Həmin hissənin istehsalı ilə əlaqədar ümumi orta xərclər 51 manatdır. Müəssisənin başqa müəssisədən həmin hissələri 46 manata almaq imkanı vardır. Belə olan halda biz müəyyənləşdirməliyik, yəni həmin hissənin kənardan alınmasına dəyər, ya yox? İlk baxışdan bu sadə və əlverişli görünsə də qoyulmuş suala yalnız iqtisadi təhlil nəticəsində cavab vermək olar. Hər şeydən öncə istehsal xərclərinin strukturu nəzərdən keçirilməlidir.

Tutaq ki, 51 manatın 12 manatı sabit, 39 manatı isə dəyişən xərclərdən ibarətdir. Qəbul olunacaq qərar iki alternativ variantın müqayisəsinin nəticəsindən asılıdır. Birincisi, bunu nəzərə almaq lazımdır ki, hissənin kənardan alınma qiyməti, yəni 46 manatı ümumi xərclərlə, yəni 51 manatla yox, yalnız dəyişən xərcləri, yəni 39 manatla müqayisə edilməlidir. Aydındır ki, hissənin kənardan alınması və ya müəssisə daxilində istehsal olunmasından asılı olmayaraq sabit xərclər, yəni 12 manat eyni kəmiyyətdə mövcuddur. Buradan belə qənaətə gəlmək olar ki, həmin hissənin kənardan alınması əlverişli deyil, əks təqdirdə 39 - 46 = 7 manat əlavə xərc çəkilməlidir. Fəqət ikinci, alternativ variantı nəzərə almadan qərar qəbul etmək düzgün deyildir. Belə ki, həmin hissənin kənardan alınması nəticəsində sərbəstləşən sabit və dəyişən ehtiyatlar digər məhsulların istehsalı üçün istifadə oluna bilər.

Əgər belə istifadə nəticəsində müəssisənin əldə etdiyi gəlir 7 manatdan yüksək olarsa, həmin hissəni kənardan almaq daha əlverişlidir. Beləliklə, hər bir müəssisə öz iqtisadi ehtiyatlarından səmərəli istifadə etmək üçün bu ehtiyatların istifadəsinin ən əlverişli variantını seçməlidir. Başqa sözlə, müəssisə öz xərclərinin hesablanmasında alternativ xərclərlə də hesablaşmalıdır.



## 16.3. İstehsal xərclərinin və maya dəyərinin idarə edilməsinin mahiyyəti və zəruriliyi

Sənaye müəssisələrində həyata keçirilən geniş təkrar istehsal prosesini şərti olaraq iki hissəyə: birincisi, maddi istehsalın özünə və ikincisi, idarəetmənin ixtisaslaşmış orqanlarına, yəni müəssisənin idarəetmə aparatını birləşdirən idarəetmə sisteminə ayırmaq olar. Xam materialların hazır məhsula çevrilməsinin maddi-əşya prosesi maddi istehsalın özündə həyata keçirilir və bunun üçün sərf edilən vəsaitlər istehsal xərcləri adlanır. Burada əmək cismi xammaldır, əmək alətləri – texnoloji avadanlıq, əmək məhsulu isə müəyyən tələbatı ödəyən hazır məhsuldur. İdarəetmə orqanlarında informasiya prosesi həyata keçirilir və onlara sərf edilmiş vəsait idarəetmə xərcləri adlanır. Burada əmək cismi informasiyadır, əmək aləti – təşkilat və hesablama texnikasıdır, hazır məhsul isə istehsalın qarşısında qoyulan vəzifələri daha tez həll etmək məqsədi bilavasitə istehsal sistemində məşğul olan əməkçi kollektivinə yönəldilən təsərrüfat qərarlarıdır.

Mürəkkəb istehsalda hər hansı bir proses gerçəkliyə çevril-

məzdən öncə informasiya cəhətdən dəqiq əsaslandırılmalıdır, yəni məhsulu, onun hazırlanması üçün avadanlığı, texnoloji prosesi layihələşdirmək, maddi-texniki təchizata olan tələbatı müəyyən etmək, istehsalı təşkilat və maddi cəhətdən qaydaya salmaq, onun səmərəliyini, daha da inkişaf edib genişlənməsi imkanlarını hesablamaq lazımdır. Əslində istehsal prosesindəki hər hansı bir dəyişiklik təsərrüfat rəhbərliyi sistemində qərarın qəbul edilməsindən başlanır. İnformasiya prosesi maddi istehsalın təzahürüdür və həmişə onunla yanaşı gedir, lakin eyni zamanda o, maddi prosesi müəyyən edir və onun inkişafını istiqamətləndirir. Onun idarəedici təsiri maddi prosesdə təzahür edir.

Sənaye müəssisələrində təsərrüfat rəhbərliyi qarşısında qoyulan məqsədlərə lazımi müddətdə və minimum istehsal ehtiyatları sərfi ilə nail olmağı təşkil etməyə yönəldilmiş idarəetmə orqanları ilə əmək kollektivlərinin qarşılıqlı əlaqədə həyata keçirdikləri tədbirlər sistemindən ibarətdir. Bazar iqtisadiyyatı şəraitində istehsalın əsas məqsədi cəmiyyətin və fərdi istehlakçıların lazımi miqdarda, çeşiddə və yüksək keyfiyyətli məhsula olan tələbatını daha dolğun ödəmək, material-enerji ehtiyatlarına qənaət etmək və əhali üçün ən əlverişli əmək, məişət və sosial inkişaf şəraiti təmin etməkdir. Üç hissədən ibarət olan bu məqsəd hər hansı xüsusi vəzifəni həll edərkən müəyyənedici şərtdir, həm də müəyyən obyekt üçün konkret dövrdə həmin üç əsas vəzifədən biri diqqət mərkəzində ola bilər.

Təcrübə göstərir ki, təsərrüfat rəhbərliyi prosesində bir neçə mərhələ həyata keçirilir. Onlardan hər biri sənayeni idarəetmə orqanlarının müəyyən vəsiləsi, struktur bölməsi tərəfindən yerinə yetirilir. Adətən, müəssisələrdə istehsal xərclərinin idarə edilməsi prosesi kompleks xarakter daşıyır və özündə aşağıdakı ünsürləri əhatə edir:

***a) istehsalın proqnozlaşdırmasını.*** Ümumi şəkildə proqnozlaşdırma dedikdə, gələcəkdə obyektin və ya hər hansı bir hadisənin həddi və arzu olunan vəziyyətləri, onlara nail olunmasının və reallaşdırılmasının alternativ yolları haqqında ehtimal təsəvvürün işlənib hazırlanması nəzərdə tutulur. Gələcəyi görə forması olan proqnozlaşdırma sosial-iqtisadi, elmi-texniki proqramların və planların işlənib hazırlanmasından öncə gəlir. Proqnozlaşdırma sahəsindən asılı olaraq proqnozlaşdırma aşağıdakılara ayrılır: sosial, iqtisadi və elmi-texniki proqnozlaşdırma; idarəetmə səviyyəsindən asılı olaraq – xalq təsərrüfatı, sahə, region və müəssisələrin inkişafının proqnozlaşdırılması. Bundan əlavə axtarış (yaxud tədqiqat) və normativ proqnozlaşdırılması da mövcuddur. Axtarış, yaxud tədqiqat proqnozlaşdırılması obyektin və ya hər hansı bir hadisənin perspektiv inkişaf meyllərinin qiymətləndirilməsini nəzərdə tutur. Normativ proqnozlaşdırma isə gələcəkdə proqnozlaşdırma obyektinin arzu olunan vəziyyətinə nail olunma yolları və müddətlərinin müəyyən edilməsidir. Proqnozlaşdırma plan qərarlarının əhatə dairəsinin genişləndirilməsini, onların uzunmüddətli nəticələrinin qiymətləndirilməsini təmin edir, onların əsaslandırılmasının artmasına səbəb olur. Bazar iqtisadiyyatına keçid dövründə cəmiyyətin inkişafında elmi-texniki tərəqqinin rolunun artması, uzun müddət üçün nəzərdə tutulmuş iri miqyaslı layihələrin, proqramların işlənib hazırlanması və həyata keçirilməsi ilə əlaqədar olaraq iqtisadiyyatda elmi proqnozlaşdırmanın rolu xeyli dərəcə artır;

***b) istehsalın planlaşdırmasını.*** Planlaşdırma dedikdə, müəssisə miqyasında sosial-iqtisadi inkişaf üzrə planların, həmçinin onların yerinə yetirilməsinə dair praktiki tədbirlər kompleksinin işlənib hazırlanması prosesi nəzərdə tutulur. Planlaşdırma istehsalın idarə edilməsinin mühüm funksiyalarından biridir. Bazar iqtisadiyyatına keçid dövründə planlaşdırma milli və beynəlmiləl mənafelərin əlaqələndirilməsi, elmilik, iqtisadi stimullaşdırma və məsuliyyət, sifariş və tapşırıqların yerinə yetirilməsinə nəzarət prinsiplərinə əsaslanır. Hazırda planlaşdırmanın elmi səviyyəsinin yüksəldilməsi, onun ictimai istehsalın mütərəqqi strukturunun formalaşmasına, istehsalın intensivləşdirilməsinə, tarazlaşdırılmış və mütənasib inkişafına, istehsal və elmi-texniki potensialdan səmərəli istifadə olunmasına təsirinin gücləndirilməsi nəzərdə tutulur;

***c) məsrəflərin normalaşdırılmasını.*** Məsrəflərin normalaşdırılması dedikdə, müəyyən keyfiyyətli məhsul (iş, xidmət) vahidi istehsalına maksimum sərf olunan maddi ehtiyatların miqdarı nəzərdə tutulur. Məsrəf normalarını müəyyən edərkən çalışmaq lazımdır ki, onlar mütərəqqi olsunlar, elmi-texniki tərəqqinin nailiyyətlərini əks etdirsinlər və ən yüksək son nəticələrə və ən az

ehtiyat sərfinə nail olmaq məqsədilə istehsal ehtiyatlarını maksimum səfərbərliyə almağa imkan versinlər. Bu məqsədlə normalar yenidən nəzərdən keçirilməli və təkmilləşdirilməlidir;

***ç) məhsulun maya dəyərinin kalkulyasiyasını.*** Kalkulyasiya – xərc növləri (kalkulyasiya maddələri) üzrə məhsul vahidinin (işin, xidmətin) maya dəyərinin hesablanması mexanizmidir. Təyinatından asılı olaraq plan, normativ və hesab kalkulyasiyası fərqləndirilir. Plan kalkulyasiyası növbəti plan dövrünə (rübə, ilə orta maya dəyərini müəyyən edir, bazar və yaxud topdansatış qiymətlərini təyin etmək üçün ondan istifadə olunur, iş vaxtının, materialların, elektrik enerjisinin və digər xərclərin mütərəqqi məsrəf normalarına əsaslanır. Normativ kalkulyasiya – istehsal vasitələrindən və iş vaxtından istifadənin texnoloji normaları əsasında hesablanır. Hesabat kalkulyasiyası isə istehsal xərclərinin mühasibat uçotu məlumatları üzrə tərtib edilir və maya dəyəri üzrə planın, tapşırığın yerinə yetirilməsinə nəzarət vasitəsidir. Onun dinamikasının öyrənilməsinə və məsrəflərin azaldılması yollarının axtarılmasına xidmət edir;

***d) təsərrüfat fəaliyyətinin təhlilini.*** Təsərrüfat fəaliyyətinin təhlili – ictimai istehsalın idarə edilməsi funksiyası olmaqla, müəssisənin bütün fəaliyyət növlərinin dərindən ətraflı öyrənilməsi vasitəsidir. Belə təhlilin aparılmasında əsas məqsəd – dövlət tərəfindən verilmiş tapşırıqların və istehlakçılar tərəfindən verilmiş sifarişlərin yerinə yetirilməsi yekunlarının qiymətləndirilməsindən, norma və normativlərdən kənarlaşma hallarının səbəblərini araşdırmaqdan və onların aradan qaldırılması üçün zəruri təşkilati-texniki tədbirlər kompleksinin müəyyənləşdirməsindən, ehtiyatların aşkar edilib səfərbərliyə almaqdan, elmi əsaslandırılmış planların işlənib hazırlanması üçün tələb olunan informasiyaların əldə edilməsindən ibarətdir;

***e) təsərrüfat fəaliyyətinə nəzarəti.*** Təsərrüfat fəaliyyətinə nəzarət – müəssisə miqyasında həyata keçirilən bütün işlərin (xidmətlərin) müəyyən olunmuş qaydada həyata keçirilməsinin yoxlanılmasını nəzərdə tutur. Bazar iqtisadiyyatı təsərrüfat fəaliyyətinə nəzarətin rolunun gücləndirilməsini və onun ciddi surətdə təkmilləşdirilməsini tələb edir;

***ə) istehsalın operativ tənzimlənməsini.*** İstehsalın operativ tənzimlənməsində onun operativ planlaşdırılması mühüm rol



oynayır. İstehsalın konkret şəraitindən asılı olaraq müxtəlif operativ planlaşdırma sistemləri mövcuddur. Məsələn, diskret xarakterli istehsalı olan müəssisələrdə, xüsusilə maşınqayırma zavodlarında operativ planlaşdırmanın aşağıdakı sistemləri daha çox tətbiq edilir: maşın-kompleks; kompleks-qovşaq; komplekt-qrup; hissələr üzrə; sifarişlər üzrə; anbar; standart-plan; şərti-komplekt və ya fasiləsiz operativ planlaşdırma. Göstərilən operativ planlaşdırma sistemlərindən ən təkmili fasiləsiz operativ planlaşdırma sistemidir.

İstehsal xərclərinin yuxarıda göstərilən ünsürləri arasında sıx qarşılıqlı əlaqə və qarşılıqlı asılılıq vardır. Müəssisədə onlar vahid idarəetmə sistemi təşkil edir. Digər tərəfdən, idarəetmənin informasiya prosesi istehsalın inkişaf yollarını müəyyən edərək, bilavasitə istehsalı qabaqlayır. O, istehsalın inkişafını operativ surətdə nizamlamağı təmin etməklə bilavasitə istehsal prosesini müşayiət edir. Ən nəhayət, informasiya prosesi maddi-texniki prosesi onun nəticələrini qiymətləndirməklə başa çatdırır və sonrakı təsərrüfat qərarlarını işləyib hazırlamaq üçün əks əlaqə yolu ilə alınmış lazımi informasiyanı ümumiləşdirir.

Təsərrüfat rəhbərliyi müəssisələrin idarəetmə orqanları sistemində, sənaye sahələrində və elmi-tədqiqat və layihə-konstruktor təşkilatlarında həyata keçirilir. Deməli, təsərrüfat rəhbərliyi idarəetmə fəaliyyətinin məzmununu müəyyən edir və həm bilavasitə idarəetmə qərarlarının qəbul edildiyi və onların yerinə yetirilməsi təşkil edildiyi orqanları, həm də qərarların işlənib hazırlandığı və təsir metodlarının işləndiyi müəssisələrin geniş şəbəkəsini əhatə edir. Beləliklə, istehsal xərclərinin idarə edilməsi dedikdə, onun aşağı düşməsinin planlaşdırılması prosesi nəzərdə tutulur və ona görə də gələcəkdə istehsal xərclərinin idarə edilməsi əvəzinə istehsal xərclərinin aşağı düşməsinin planlaşdırılmasından söhbət gedəcəkdir. İstehsal xərclərinin aşağı düşməsinin planlaşdırılması prosesində aşağıdakılar müəyyən edilir:

– istehsalın smetası işlənib hazırlanır və bu smetada məsrəf ünsürləri üzrə istehsal xərcləri, istehsal xərclərinin aşağı salınmasına dair tapşırıqlar və onların yerinə yetirilməsini təmin edən tədbirlər müəyyən edilir;

– ayrı-ayrı məhsul növlərinin maya dəyəri və ya çoxnomenkla-

turalı istehsalda – qrup çeşidi üzrə maya dəyəri müəyyən edilir;

– maya dəyəri üzrə planın yekun göstəriciləri müəyyən edilir; bu, məhsulun maya dəyərinin sabit nomenklaturu şəraitində müqayisə edilən əmtəəlik məhsulun maya dəyərinin aşağı salınmasıdır, məhsulun nomenklaturu tez-tez dəyişən istehsallarda isə hər 1 manatlıq əmtəəlik məhsula çəkilən xərclərdir;

– məhsulun realizə olunması və istehsalat-təsərrüfat, təşkilatları fəaliyyətinin başqa növləri nəticəsində alınmalı olan mənfəətin miqdarı aşkara çıxarılır;

– məhsulun rentabelliyi və istehsalın rentabelliyi hesablanır. İstehsalın rentabelliyinin artırılmasının əsas amilləri bunlardır: məhsulun keyfiyyətinin yüksəldilməsi və maya dəyərinin aşağı salınması, maddi və əmək ehtiyatları itkilərinin azaldılması, avadanlıqdan daha dolğun istifadə olunması və s. Sənaye müəssisələrində qənaət rejiminə əməl olunması istehsalın rentabellik səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

İstehsal xərclərini məqsədyönlü təhlil etmək və onun aşağı salınmasını planlaşdırmaq üçün istehsal xərclərinin tərkibini, səviyyəsini və dəyişmə meyllərini xarakterizə etməyə imkan verən göstəricilər müəyyən olunur. Bu göstəricilər sənayenin, onun sahələrinin və müəssisələrinin inkişaf planının digər bölmələri ilə üzvi əlaqədə işlənib hazırlanır. Bu zaman, adətən, təsərrüfat rəhbərliyi təcrübəsində istehsal xərclərini xarakterizə edən aşağıdakı göstəricilərdən istifadə edilir: ayrı-ayrı ünsürlər üzrə məhsul istehsalın çəkilən xərclərin məbləği; ümumi məbləğdə və kalkulyasiya vərəqəsinin maddələri üzrə əmtəəlik məhsulun maya dəyəri və ən mühüm məhsul növlərinin maya dəyərinin aşağı salınması; topdansatış buraxılış qiymətləri ilə əmtəəlik məhsulun hər 1 manatlıq dəyərinə düşən istehsal xərclərinin məbləği.

Sənayenin bütün sahələrində maya dəyəri planının ən mühüm bölməsi «İstehsal xərcləri smetası»dır. O, sadə iqtisadi ünsürlər həddində işlənib hazırlanır, maddi-texniki təminat planı və əmək haqqı fondu planı ilə sıx əlaqədardır və s. Bu halda istehsal xərclərinin planlaşdırılması obyekti sənaye müəssisənin bütün istehsal-təsərrüfat fəaliyyətidir.

İstehsal xərcləri smetası – İstehsal xərcləri smetasında hazır məhsulun istehsalı üzrə, yarımfabrikatlar və bitməmiş istehsal qalığının artımı üzrə plan məsrəfləri və habelə ümumi məhsulun tərkibinə daxil olmayan işlər və xidmətlər üzrə məsrəflər göstərilir. Beləliklə, istehsal xərcləri smetası əmtəəlik məhsulun maya dəyərindən onunla fərqlənir ki, əmtəəlik məhsulun maya dəyərinin tərkibinə bitməmiş istehsal üzrə müəssisənin özünün hazırladığı yarımfabrikatlar və alətlər üzrə qalıqların dəyişilməsi ilə əlaqədar olan məsrəflər, habelə ümumi məhsulun tərkibinə daxil olmayan işlərə və xidmətlərə çəkilən qeyri-məhsuldar xərclər daxil edilmir.



Bitməmiş istehsal dedikdə, istehsal prosesinin müxtəlif mərhələlərində olan və hazırlanması hələlik tam başa çatmayan məhsul nəzərdə tutulur. Bitməmiş istehsal dövriyyə vəsaitinin əsas ünsürlərindən biridir. İstehsalın müxtəlif sahələrində bitməmiş istehsalın həcmi və tərkibi eyni deyildir, o məmulatın və istehsal prosesinin xarakterindən, istehsal tsiklinin davamiyyətindən və istehsal xərclərinin kəmiyyətindən asılıdır. Müəssisədəki bitməmiş istehsal qalıqları xammaldan, materialdan, yarımfabrikatlardan ibarətdir; onlara, hazır məhsula çevrilməsi prosesində canlı əmək sərf edilmişdir. Bitməmiş istehsalın planlaşdırılması və uçotu – əmək, natural, dəyər və vaxt ölçüləri ilə aparılır. Bitməmiş istehsalın dəyər ifadəsində istehsalın bütün mərhələlərindəki xammalın, materialların, yarımfabrikatların yekun dəyəri iştirak edir. Günlərlə ölçülən ehtiyatlar bitməmiş istehsal qalığının maya dəyəri üzrə hazır məhsul buraxılışına olan nisbəti ilə müəyyən edilir. Bitməmiş istehsal həcminin azaldılmasına – istehsalın və əməyin təşkilati-texniki səviyyəsini yüksəltmək hesabına istehsal tsikli davamiyyətini qısaltmaqla nail olunur.

Yarımfabrikat – əmək məhsulu olub, bir və ya bir neçə emal mərhələsini keçdikdən sonra hazır məhsula çevrilir. Müəssisələrdə yarımfabrikatlara onun müəyyən sexində emal prosesini keçmiş, fəqət digər əsas sexlərdə emalı davam etdirilən bütün əmək məhsulları aiddir. Məsələn, metallurgiya kombinatında əridilmiş çuqun öz-özlüyündə yarımfabrikatdır. Belə ki, ondan həmin kombinatda polad istehsal edilir. Müəssisənin özünün istehsal etdiyi yarımfabrikatlarla, kənardan satın alınmış yarımfabrikatlar fərqləndirilir. Kənardan satın alınmış yarımfabrikatlara istehsal kooperasiyası nəticəsində alınmış məmulatlar aid

edilir. Məsələn, maşınqayırma zavodlarında onlara aiddir: ixtisaslaşdırılmış metallurgiya kombinatlarından və maşınqayırma zavodlarından alınan tökmələr, döymələr, maşın qovşaqları və hissələri.

Qeyri-məhsuldar xərclər – istehsalın təşkili və idarə edilməsindəki qüsurlar, müqavilə öhdəliklərinin vaxtında yerinə yetirilməməsi nəticəsində əmələ gələn nəzərdə tutulmamış məsrəflər və itkilərdir. Qeyri-məhsuldar xərclərə daxildir: vaxtın qeyri-məhsuldar sərf edilməsinin ödənilməsi çəkilən məsrəflər; ehtiyatlardan qeyri-məhsul istifadəyə görə çəkilən məsrəflər, malgöndərmə müqaviləsinin pozulmasına görə verilən faizlər və s. Qeyri-məhsuldar xərclərin aradan qaldırılması müəssisənin ümumi istehsal xərclərinin azaldılmasının mühüm ehtiyat mənbələrindən biridir. Qeyri-məhsuldar xərclərin qarşısını almaq məqsədilə onların əmələgəlmə səbəbləri təhlil edilir və bu səbəblərin aradan qaldırılmasına dair tədbirlər işlənib hazırlanaraq həyata keçirilir. İstehsalın intensivləşdirilməsi, istehsal, texnoloji və müqavilə intizamının möhkəmləndirilməsi üzrə tədbirlər qeyri-məhsuldar xərclərin azaldılmasını nəzərdə tutur.

İstehsal xərcləri smetası, məsrəflərin iqtisadi ünsürləri üzrə işlənib hazırlanır. Bu zaman istehsal xərcləri smetasının ayrı-ayrı ünsürləri müəssisənin biznes planının başqa bölmələri ilə əlaqələndirilməlidir. Məsələn, istehsal xərcləri smetasında əmək haqqı maddəsində göstərilmiş məbləğ əmək haqqı planında nəzərdə tutulmuş əmək haqqı fonduna uyğun olmalıdır. «Xammal və materiallar» maddəsində göstərilmiş məbləğ, həmin material resursları üzrə material-texniki təchizat planında nəzərdə tutulmuş məbləğə uyğun gəlməlidir və s. Şərti rəqəmlərdən istifadə edərək müəssisənin istehsal xərcləri smetasının işlənib hazırlanması metodikasını nəzərdən keçirək. Fərz edək ki, müəssisənin istehsal xərcləri smetası üzrə ümumi xərcləri 4,4 mln. manat məbləğində müəyyən edilmişdir. Planlaşdırma zamanı aparılan hesablamalar vasitəsilə ayrı-ayrı iqtisadi ünsürlər üzrə məsrəflər müəyyən edilmiş və həmçinin əmtəəlik məhsulun maya dəyərinə, bitməmiş istehsal qalığının artımına və qeyri-sənaye xarakterli işlərə və xidmətlərə aid olan məsrəflər aydınlaşdırılmış və bunların nəticəsi cədvəl 96-da verilmişdir.



*Cədvəl 96*

**İstehsal xərcləri smetası, min manatla**

| Göstəricilər | Məbləğ |
|---|---|
| Bütün əmtəəlik məhsulun maya dəyər | 4265 |
| Bitməmiş istehsalın və müəssisənin özünün hazırladığı alətlərin və yarımfabrikatların qalığının artımı üzrə məsrəflə | 102 |
| Ümumi məhsulun istehsalına çəkilən xərclərin məcmusu | 4367 |
| Qeyri-sənaye xarakterli işlər və xidmətlər üzrə məsrəflər | 33 |
| Müəssisə üzrə istehsal xərclərinin ümumi smetası | 4400 |
| o cümlədən ayrı-ayrı iqtisadi ünsürlər üzrə: | |
| xammal və əsas materiallar | 1515 |
| köməkçi materiallar | 320 |
| yanardan alınan yanacaq | 90 |
| kənardan alınan enerji | 85 |
| əsas vəsaitlərin amortizasiyası | 320 |
| əmək haqqı | 1865 |
| sosial sığortaya ayırmalar | 145 |
| sair pul xərcləri | 60 |

Ayrı-ayrı məhsul növlərinin maya dəyərini planlaşdırarkən ən mürəkkəb iş kalkulyasiya vahidinin seçilməsidir. Bu halda ən azı iki məsələ həll edilir. Birincisi, bütün növ məhsulu kalkulyasiya ilə əhatə etmək olarmı? Bu, praktik olaraq yalnız məhdud nomenklaturada məhsul buraxan müəssisələrdə mümkündür. Məhsul növləri çox olduqda əsas növü buraxılışdakı xüsusi çəkisinə, məmulatın əhəmiyyətinə və s. görə seçmək lazım gəlir, ya da təmsiledici məhsul növü üzrə qrup kalkulyasiyası tərtib etmək lazımdır. Sonuncu halda kalkulyasiya edilən məmulatlar qrupunun tərkibini düzgün müəyyən etmək vacibdir. İkinci məsələ kalkulyasiya vahidini əsaslandırmaqla əlaqədardır. Müəyyən növ konkret məmulatı kalkulyasiya etmək olar; bu, müxtəlif məmulatların kalkulyasiyasını, onların istehlak xassəsi müxtəlif olduğuna görə, müqayisə etməyi çətinləşdirir. Buna görə də ayrı-ayrı məhsul növlərini kalkulyasiya etməklə yanaşı, bir sıra hallarda istehlak xassələri də, daha doğrusu məmulatın faydalılığı kalkulyasiya edilir.

Sənayenin bəzi sahələrində müqayisə edilən əmtəəlik məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı salınması planlaşdırılır. Bu zaman vahid kalkulyasiyadan əlavə, müqayisə olunan əmtəəlik məhsulun, yəni keçmiş illərdə həmin istehsal-təsərrüfat təşkilatında buraxılmış məhsulun kalkulyasiyası da aparılır.

İstehsal xərclərinin idarə edilməsi istehsal məsrəflərinin daha dəqiq strukturunun tətbiq edilməsi ilə əlaqədardır. Hazırda istehsal xərclərinin strukturu xeyli dəqiqləşdirilmişdir. Onun tərkibində istehsalın hazırlanması və mənimsənilməsi məsrəfləri seçilir. Bu maddədə yeni müəssisələrin, istehsalların, sexlərin və aqreqatların mənimsənilməsinə (buna buraxılış xərcləri deyilir), yeni məhsul növlərinin hazırlanması və mənimsənilməsinə və texnoloji proseslərin həyata keçirilməsinə çəkilən bütün xərclər cəmləşdirilir. Hasiledici sənayedə bu maddəyə hazırlıq işlərinə çəkilən xərclər daxil edilir. Bundan başqa, bu məsrəflərə müəssisənin yeni texnikanın istifadə edilməsi fonduna və yeni texnikanın yaradılması üçün mükafatlandırma fonduna köçürdüyü ayırmalar da aiddir. Bu məsrəflərin ayrılması çox vacibdir.

Müasir şəraitdə istehsalın hazırlanması və mənimsənilməsi məsrəfləri çox əhəmiyyətli olur. Onların sex xərclərinə daxil edilməsi və şərti metodla müxtəlif məhsul növləri arasında bölüşdürülməsi maya dəyərinin təhrif olunmasına səbəb olur. Bundan başqa, bu da çox vacibdir ki, həmin məsrəflər məhsulun maya dəyərinə onların istehsal edildiyi anda daxil oluna bilmir, çünki mənimsəmə dövründə məhsul buraxılışı cüzi, mənimsənilmə xərcləri isə çox olur. Yeni məmulatların və ya yeni istehsalların vahidinə hədsiz məsrəf məbləği düşür. Buna görə də həmin məsrəfləri gələcək dövrlərin xərclərin tərkibinə daxil etmək və onları tədricən məhsulun maya dəyəri hesabına silmək qaydası qəbul edilmişdir. Fəqət bu qaydanı da həmişə tətbiq etmək mümkün olmur, çünki istehsalın hazırlanması və mənimsənilməsinə çəkilən xərclər onların mənimsənildiyi anda xeyli dövriyyə vəsaiti ayırmağı tələb edir və onların dövriyyəsini ləngidir. Nəticədə, həmin xərclər məhsulun maya dəyərinin üzərinə düşür və onu bahalaşdırır. Belə vəziyyət yeni istehsalların mənimsənilməsini ləngidir. Buna yol verməmək üçün



sənaye sahələri (müəssisəsi) çərçivəsində yeni məhsulun, yeni texnikanın mənimsənilməsinin və kadrlar hazırlanmasının mərkəzləşdirilmiş formalarını yaradırlar. Dövlət müəssisələri həmin istiqamətdəki məsrəflərin real həcmindən asılı olmayaraq məhsulun maya dəyərinin müəyyən hissəsini həmin fondlara ayırırlar. Vəsait yuxarı dövlət idarəetmə pilləsində toplanır və dövlət müəssisələrinin real gəlirlərindən asılı olaraq həmin istiqamətdə onların arasında bölünür. Beləliklə, məhsulun maya dəyərinin müasir strukturu elə yolla qurulur ki, məhsulun maya dəyərinin tərkibi konkretləşdirilir, şərti bölünən məsrəflərin həcmi azalır və kalkulyasiya sisteminin özü elmi-texniki tərəqqiyə, müəssisələrin maddi marağının yüksəldilməsinə səbəb olur.

## 16.4. İstehsal xərcləri və maya dəyərinin planlaşdırılması metodları

İstehsal xərclərinin aşağı salınmasına dair təşkilati-texniki tədbirləri işləyib hazırladıqda müxtəlif metodlardan istifadə edilir. Hazırda idarəetmədə və planlaşdırma təcrübəsində ən geniş yayılmış metodlar aşağıdakılardan ibarətdir:

***Normativ metodlar*** – məsrəflərə və işin nəticələrinə, onların bölüşdürülməsinə və onlardan istifadə olunmasına ictimai tələbləri əks etdirən norma və normativlərin köməyi ilə istehsal və qeyri-istehsal pillələrinin fəaliyyətini nizamlamaq metodlarıdır. Əmək kollektivini ən az əmək, material və maliyyə ehtiyatları sərf etməklə sifarişləri yerinə yetirməyə yönəldir. İctimai təkrar istehsal prosesinin, onun bütün cəhətlərinin və ünsürlərinin vəhdəti – qarşılıqlı əlaqədə olan norma və normativlərin vahid sisteminin formalaşmasının obyektiv imkanlarını təmin edir. Həmin sistemin əsas prinsipləri: idarəetmə səviyyəsindən və planlaşdırma sahəsindən asılı olmayaraq norma və normativlərin formalaşmasına yanaşmanın metodoloji ümumiliyi; norma və normativlərin mütərəqqiliyi; elmi-texniki tərəqqi və digər amillər əsasında istehsal prosesində və qeyri-istehsal sahələrində baş verən dəyişikliklərə müvafiq olaraq norma və normativlərin daim təzələnməsi; müxtəlif idarəetmə səviyyələrində formalaşan norma və normativlərin müqayisəli olması. Sənaye müəssisələrində normativ baza istehsalın texniki səviyyəsinin

yüksəldilməsi, istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi, məhsulun keyfiyyətinin yaxşılaşdırılması, onun tərkibi və həcminin dəyişdirilməsi kimi amillərin təsirinin nəzərə alınması əsasında hər il dəqiqləşdirilir. Normativ metodu ilə müəssisələrin maddi ehtiyatlara, əməyin ödənilməsi vəsaitlərinə olan tələbatı müəyyən edilir.

***Amillər metodu*** – istehsal xərclərinin idarə edilməsində və məhsulun maya dəyərinin planlaşdırılmasında daha geniş yayılmışdır. Bu metod, bir qayda olaraq, iri sənaye müəssisələrdə tətbiq edilir. Ondan istifadə edərkən məhsulun maya dəyərinə və istehsal xərclərinin səviyyəsinə təsir göstərən çoxlu amillərdən yekun göstəricisinə ən mühüm təsir göstərən, ən həlledici amil ayrılır. Sənayenin əksər sahələrində belə amillər aşağıdakılardır:

– ***material-enerji ehtiyatlarına qənaət etmək*** – mövcud ehtiyatlardan səmərəli istifadənin təmin olunmasına, başlıca olaraq qənaət hesabına müəssisənin material-enerji ehtiyatlarına olan tələbatının ödənilməsinə imkan verir. Material-enerji ehtiyatlarına qənaətin əsası – təbi və maddi ehtiyatlardan kompleks istifadə olunmasından, itkilərin və səmərəsiz məsrəflərin maksimum aradan qaldırılmasından, təkrar maddi ehtiyatlardan və onlarla bağlı olan məhsulların təsərrüfat dairəsinə daha çox cəlb edilməsi imkanlarından ibarətdir. Ehtiyatlara qənaətə istehsalın və ehtiyatlardan istifadənin bütün mərhələlərində nail olunmalıdır: təbii xammalın, yanacağın və s. çıxarılmasının səmərələşdirilməsi (məsələn, neftin laylardan daha tam çıxarılması), çıxarılmış ehtiyatlardan maksimum istifadə olunması, daşıma və saxlanma zamanı itkilərin minimuma endirilməsi, istehsal prosesində və ya qeyri-istehsal istehlakı zamanı ehtiyatların daha səmərəli tətbiqi, təkrar ehtiyatların aşkar edilməsi, uçota alınması və onların hər şeydən öncə, birbaşa təyinat üzrə – tamqiymətli xammal, istilik və ya enerji mənbəyi və s. kimi işlədilməsi, həmçinin tullantıların emalı və istifadəsi. Ehtiyatlara qənaətin təmin olunması - texnologiyaya, texnikaya, istehsalın təşkilinə və qeyri-istehsal fəaliyyətinə, təsərrüfat mexanizminə olan vacib tələbdir. Yeni texnika ehtiyatlardan – həm onların istehsalı prosesində, həm də istismarı prosesində az istifadə etməlidir. Yeni texnologiya, tullantısız və ya aztullantılı, azəməliyyatlı olmalıdır. Ehtiyatlara qənaətin obyektiv zəruriliyi – istehsalın intensiv inkişaf yoluna keçirilməsi ilə müəyyən olunur.



– ***əmək məhsuldarlığının artmasının orta əmək haqqının artmasından üstün olması.*** Bu, dəyişən xərclərin azaldılmasına səbəb olur. Əmək məhsuldarlığının yüksəldilməsinin əsas amilləri bunlardır: elmi-texniki tərəqqi, əmək kollektivlərinin mədəni-texniki səviyyəsinin artırılması, istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi, əməyin nəticələrinə görə işçilərin maddi və mənəvi maraqlandırılmasının gücləndirilməsi. Bazar iqtisadiyyatı şəraitində elmi-texniki tərəqqinin sürətləndirilməsi, texnika və texnologiyada köklü dəyişikliklər, bütün təşkilati, iqtisadi və sosial amillərin səfərbərliyə alınması əsasında ictimai əmək məhsuldarlığının ən yüksək dünya səviyyəsinə çatdırılması nəzərdə tutulmuşdur.

– ***istehsal miqyaslarının artması nəticəsində məhsul vahidinə düşən qeyri-proporsional xərclərin payının azalması.*** Bu, müəssisənin əmtəə istehsalına çəkdiyi pul məsrəflərinin, yəni dəyişən xərclərin azaldılmasına səbəb olur. Qeyri-proporsional xərclərin azaldılması istehsalın hazırlanması və mənimsənilməsinə çəkilən xərcləri, avadanlığın saxlanılması və istismarı xərclərini, sex və ümumzavod xərclərini, zay məhsula görə itkiləri, digər istehsal xərclərini və istehsaldankənar xərcləri nəzərdə tutur.

Deməli, hesablamanın amillər metodu məhsulun maya dəyərinin, deməli istehsal xərclərinin aşağı düşməsinin ümumi mümkünlüyünü müəyyən etməyə və həlledici amilləri ayıraraq, əmək kollektivinin diqqətini ona cəlb etməyə imkan verir. Bu zaman məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı salınmasına yönəldilmiş tədbirlər əmək məhsuldarlığının və əmək haqqının yüksəldilməsi, material-enerji ehtiyatlara qənaət edilməsi üzrə həyata keçirilən tədbirlərlə sıx əlaqədar olur.

***Analitik-hesablama metodu*** – keçən dövrdə məhsulun maya dəyərini və istehsal xərclərini dərindən təhlil etməyi nəzərdə tutur. Təhlil prosesində istehsal ehtiyatları aşkara çıxarılır. Ehtiyatlar müəssisənin istehsal-təsərrüfat fəaliyyətinin müxtəlif şəraiti nəticəsində aşkara çıxarılır. Şəraitin dəyişməsi istehsal xərclərinin azalmasına səbəb ola bilər. İstehsal xərclərinə qə-

naət və məhsulun maya dəyərinin aşağı salınması ehtiyatlarını aşkara çıxarmaqla, hər şeydən öncə, ən çox səmərə verə bilən həlledici elementləri müəyyən edirlər. Bu ayırma məsrəflərin strukturunun təhlilinə əsaslanır, həm də ümumi məsrəflərdə xüsusi çəkisi üstünlük təşkil edən və ya bunlara əsasən xeyli ehtiyatların olması güman edilən xərc elementləri seçilir. Üstünlük təşkil edən elementləri xarakterizə edən cəhətlərdən biri ayrı-ayrı obyektlər üzrə onların məsrəflərinin kəmiyyətində mühüm fərqlərin olmasıdır. Maya dəyərinin və istehsal xərclərinin aşağı salınmasının əsas mənbələrinin ayrılması kollektivin diqqətini ən çox səmərə verə bilən tədbirin həyata keçirilməsinə yönəldir. Maya dəyərinin və istehsal xərclərinin formalaşması şərtlərinin təhlili və müqayisə edilməsi onların aşağı salınmasının əsas elementlərini müəyyən etməyə imkan verir. Bu metodun amillər metodundan fərqi ondan ibarətdir ki, onu tətbiq edərkən təhlil əsasında ilkin baza göstəriciləri dəqiqləşdirilir, müəyyənləşdirilmiş göstəricilər isə təşkilati-texniki tədbirlərin səmərəliliyinin müstəqim hesabı metodu ilə müəyyənləşdirilir.

***Müqayisə metodu*** – məhsulun maya dəyərinin və istehsal xərclərinin ümumi dinamikasını və müxtəlif obyektlərdə konkret məhsul növlərinin maya dəyərinin və istehsal xərclərinin dəyişilməsini qiymətləndirmək üçün istifadə edilir. Həmin göstəricilərin kəmiyyətini qiymətləndirmək üçün onları normativlərlə müqayisə edirlər. Bu zaman normativ göstəricilərinin kəmiyyətini istehsalın həcminin dəyişməsinə uyğun olaraq təshih edirlər. Məlumat üçün qeyd edək ki, məhsulun maya dəyərində əldə edilmiş səviyyəni qiymətləndirmək üçün materialı müxtəlif müəssisələrdə istehsal edilmiş eyni təyinatlı və xarakterli məhsulun və ya yarımfabrikatın istehsal məsrəflərinin müqayisəsi verir. Bu müqayisə yalnız tam bənzər, oxşar məmulatların istehsalı zamanı aparılmaqdan ibarət deyil. Fərqləri olan eyni tip məhsul növləri hazırlanan halda, onların maya dəyərini təhlil edərkən bu fərqləri, istehlak dəyəri vahidinə uyğun olaraq, məsrəflərin məbləğini yenidən hesablamaqla (məsələn, məhsulun gücü, soyuducu kamera tutumunun vahidinə çəkilən xərclər, motorun gücü və s.) limitləşdirirlər. Müqayisəni həm ümumi maya dəyəri üzrə, həm də məsrəflərin ayrı-ayrı maddə və elementləri üzrə aparırlar, daha doğrusu, məhsulun maya dəyə-



rinin əsas mənbələrinin müəyyən edilməsinə nəyin səbəb olduğu tədricən dəqiqləşdirilir. İstehsal xərcləri və məhsulun maya dəyərinin müqayisəsi metodu onların kəmiyyətini səciyyələndirməyə, qiymətləndirməyə imkan verir, fəqət fərqlərin asılılıq səbəblərini aşkara çıxarmağa kömək etmir. Belə asılılıq səbəbləri çox vaxt amil təhlilinin köməyi ilə aşkara çıxarılır. Bu zaman istehsal xərcləri və məhsulun maya dəyəri göstəricilərinin dəyişməsinə təsir göstərən amillərin tərkibini aşkara çıxarırlar; bunların arasından nəticə göstəricilərinin kəmiyyətinə ən çox təsir edən əsas göstəriciləri ayırır və nəticə göstəricilərinin tədqiq edilən amillərdən asılılıq dərəcəsini və xarakterini müəyyən edirlər. Belə təhlil nəticəlilik göstəricilərinin dəyişmə səbəblərini aşkara çıxarmağa imkan verir və istehsalın qənaətliliyinin yüksəldilməsinə yönəldilmiş tədbirlərin işlənib hazırlanmasına gətirib çıxarır.

***Proqram-məqsədli metod*** – son zamanlar planlaşdırmada daha geniş yayılmışdır. Bu zaman bu və ya digər istehsal sistemində həll edilən bütün problemlərin içərisindən yerinə yetirilməsində bir çox obyektin iştirak etdiyi daha böyük məqsədli proqramlar ayrılır. Belə məqsədli proqramlar sahə və sahələrarası xarakter daşıya bilər, ayrı-ayrı müəssisələr çərçivəsində işlənib hazırlana bilər. Hər bir məqsədli proqram üzrə son vəzifə müəyyən edilir ki, bu vəzifə onu həyata keçirərkən həll edilməlidir, proqramın ehtiyatlarla təmin edilməsi, proqramı həyata keçirən təşkilatların tərkibi, onun həyata keçirilməsini təmin edən işlərin tərkibi və yerinə yetirilməsi qrafiki, proqramın hazırlanması və yerinə yetirilməsinə rəhbərlik sistemi müəyyənləşdirilməlidir. Proqram-məqsədli planlaşdırmanın əsas mərhələləri aşağıdakılardır: proqramın məqsədinin qısa və dürüst ifadə edilməsi; məqsədin ayrı-ayrı vəzifələrə və tədbirlərə bölünməsi, yəni məqsəd və məqsədlər şəcərəsinin (ağacının) formalaşması və elementlərinin qiymətləndirilməsi; proqramın məqsədlərinə nail olunmasında alternativ istiqamətlərin əsaslandırılması; məqsədlər ağacının ayrı-ayrı budaqları və maliyyələşdirmə sürətləri arasında ehtiyatlar bölgüsünün optimallaşdırılması; proqramın ayrı-ayrı məqsədlərinin, yaxud onlara nail olmaq istiqamətlərinin prioritetliyinin dəyişməsi; dəyişən xarici şəraitə proqramın məqsədli hissəsinin uyğunlaşdırılması.

***Balans metodu*** – planlaşdırmanın ən perspektivli metodlarından biri hesab edilir. O, sənaye istehsalının ayrı-ayrı sahələrinin və vəsilələrinin proporsional inkişafını təmin etməyə: müəyyən növ ehtiyatlara olan tələbatın və onların istehsal edilmə miqyasının uyğun gəlməsinə; planlaşdırılmış səmərəlilik göstəriciləri səviyyəsinin əldə edilməsinə səbəb olan amillərin yaradılmasına yönəldilmişdir. Balans metodu planın işlənib hazırlanmasına hər hansı bir yanaşmanın tərkib ünsürüdür. Balansın müxtəlif növlərindən ən mühümü sahələrarası balansdır, iqtisadiyyatın əsas sahələrinin inkişaf sürəti və istiqamətləri burada əlaqələndirilmiş, ayrı-ayrı istehsalların qarşılıqlı əlaqəsi müəyyən edilmiş və xalq təsərrüfatı istehsalına daxil olan son məhsulun formalaşması prosesi təkrar olunur. Belə yanaşmadan müəssisələrdə planın hazırlanmasının matrisa metodu şəklində müvəffəqiyyətlə istifadə olunur. Bu balans natural və dəyər ifadəsində işlənib hazırlanır. Birinci halda geniş təkrar istehsal prosesini sahə hüdudunda əks etdirir; ikinci halda isə təkrar istehsalın material-əşya əlaqələri barədə təsəvvür yaradır. Natural ifadəsində balans bir çox xüsusi maddi balansın sintezini təmsil edir.

Məhsul istehsalı və bölgüsünün sahələrarası balansı əsasında proqramlar işlənib hazırlanarkən ictimai məhsul və milli gəlir balanslarından irəli gələn xalq təsərrüfatı proporsiyaları ilə sənayenin sahədaxili proporsiyalarının və əsas növ məhsul istehsalı həcminin uzlaşdırılması təmin olunur. Bundan başqa, bu balans vasitəsi ilə məhsul istehsalı və istehlakının xüsusi maddi balanslar qarşılıqlı surətdə uzlaşdırılır, sənaye və iqtisadiyyatın digər sahələrinin nəzərdə tutulan inkişaf sürətləri və proporsiyaları ilə əmək ehtiyatlarından istifadə və investisiya qoyuluşu layihələri əlaqələndirilir. Hesabat balansı geniş təkrar istehsalın, ötən dövrdə yaranmış qarşılıqlı əlaqələrin və proporsiyaların hərtərəfli xarakteristikasını verir. Əməli işdə m,hsul istehsalı və bölgüsünün sahələrarası balansının statistik və dinamik modelləri təkrar istehsal prosesini əks etdirmə xarakterinə görə bir-birindən fərqlənirlər. Statistik model son məhsulun müəyyən edilmiş həcminə və həmin məhsulun sonradan balansdakı nomenklatura maddələrinə uyğun olaraq sahələr və istehsal üzrə bölgüsünə əsaslanır. Balansın dinamik modeli statistik modelin inkişafı deməkdir. Bu model bir sıra illər üçün iqtisadiyyatın bütün sahələri üçün istehsal əlaqələrini xarakterizə edir, təkrar istehsal prosesini dinamikada əks etdirir. İctimai istehsalın strukturunu proqnozlaşdırılmasının səmərəli vasitəsidir. Odur ki, bu balansın işlənib hazırlanması maddi ehtiyatlar sərfinin normativlər sisteminə əsaslanır; həmin sistem iqtisadiyyatın inkişafının əsas göstəricilərini qarşılıqlı əlaqəsini təmin edir.



***Variant metodu*** – istehsal xərclərinin optimallaşdırılması təşəbbüslərindən istifadə edilir. Məhsulun maya dəyərinin optimallaşdırma metodlarından müəyyən ehtiyatlar və aztapılan xammal, avadanlıq, əmək tutumunun azaldılması şəraitində maya dəyərinin planlaşdırılan səviyyəsinə nail olmaq şərtlərinin aşkara çıxararkən istifadə olunur. Bu halda optimallaşdırma müəyyən növ istehsal ehtiyatları məsrəflərinin normasına uyğun olaraq keçirilir, maya dəyərinin planlaşdırılan səviyyəsi isə məhdud səviyyədir.

***Matrisa metodu*** – son zamanlar sənayenin bəzi sahələrində maya dəyəri planını işləyib hazırladıqda istifadə edilir. Matrisa metodları maya dəyərini optimallaşdırmır, fəqət balans metodunun köməyi ilə kompleks maddələrin formalaşma mexanizmini aşkara çıxaran, bütün maddələri və məsrəf ünsürlərini üzvi surətdə əlaqələndirməyə imkan verir.

İstehsal xərclərinin planlaşdırılmasının mühüm tərkib hissəsi sənaye müəssisələrində istehsal xərclərinin planlaşdırılmasının, deməli idarə edilməsinin təşkilindən ibarətdir. İstehsal xərclərinin planlaşdırılması, əsasən, aşağıdakı mərhələlərdən ibarətdir:

– ***planqabağı təhliletmə mərhələsi*** – diaqnostik və proqnostik təhlilin əlaqəsi kimi aparılır. Bu halda onun diaqnostik xarakteri istehsal ehtiyatlarını dərindən aşkara çıxarmağı, işin nəticələrinin səbəb-asılılığının tapılmasını müəyyən edir ki, bu da plan dövründə istehsalın səmərəliliyini yüksəltməyə yönəldilmiş tədbirləri işləyib hazırlamağa imkan verir. Planqabağı təhlilin proqnostik aspekti rəhbərlik edilən obyektin plan tərtib edilərkən nəzərə alınmalı olan müxtəlif meyllərini və üstün tutulan variantlarını aşkara çıxarmağa yönəldilmişdir. Planqabağı təhlil qlobal xarakter daşıyır, daha doğrusu, o bütün rəhbərlik edilən obyektin fəaliyyətini və planqabağı dövrü əhatə edir. Bununla belə, bu təhlili apararkən istehsalın bütün sahələrinin və onun

fəaliyyət istiqamətinin bir bərabərdə tədqiq etmək olmaz. Planqabağı təhlilə verilən məcburi tələblərdən biri ondan ibarətdir ki, bu təhlili apararkən bütün obyektin fəaliyyətinə ümumi xarakteristika verməklə yanaşı, həlledici sahələri və problemləri ayırmaq və bunları daha dərin, dəqiq təhlil etmək lazımdır. Rəhbərlik edilən bütün obyektin işinin nəticələrini müəyyən edən istehsalın aparıcı vəsilələri, bütün sistemin inkişaf imkanlarını məhdudlaşdıran limitləşdirici bölmələrin fəaliyyəti və daha qabaqcıl sahələr, yaxud iş təcrübəsinin öyrənilməsi bütün sistemin ümumi iş səviyyəsini yüksəltməyə imkan verən istehsal-təsərrüfat təşkilatları belə sahələrdən olmalıdır;

– ***əsaslandırma mərhələsi*** – cari il üçün istehsalın inkişafının hərtərəfli əsaslandırmasını özündə əks etdirir. Məlumdur ki, müəssisələr özəlləşdirildikdən sonra onların fəaliyyəti istehlakçıların sifarişləri əsasında təsisçilərin özləri tərəfindən müstəqil şəkildə müəyyənləşdirilir. Bu mərhələnin həyata keçirilməsində müəssisənin bütün struktur bölmələri aktiv iştirak edirlər. Hər şeydən öncə, istehsalçı müəssisələr satış orqanları ilə birlikdə istehsal olunan və satılacaq məhsulların nomenklaturasını və həcmini müəyyən edirlər. Paralel surətdə müəssisənin texniki rəhbərlik strukturları texnikanın inkişafı və istehsalın, əməyin və idarəetmənin təşkili yolları və metodlarını işləyib hazırlayırlar. Maddi-texniki təchizat şöbəsi müəssisənin maddi ehtiyatlara və onların alınma mənbələrini müəyyən edir. Əmək və əmək haqqı məsələləri ilə məşğul olan bölmələr əmək və əmək haqqına aid planı işləyib hazırlayırlar. Maliyə şöbəsi isə maliyyələşdirmə və kreditləşmə məsələlərini həll edir. Plan-iqtisad şöbəsi istehsal xərclərini və məhsulun maya dəyərini müəyyən edir;

– ***plan layihələrinin işlənib hazırlanması mərhələsi*** – müəssisənin cari planlarının işlənib hazırlanması ilə əlaqədar olan bütün məsələləri özündə əhatə edir. Cari il üçün plan layihəsinin işlənib hazırlanması məqsədilə sənaye müəssisələrində xüsusi qruplar – yaradılır və bu qruplar planın ən mühüm göstəricilərinin və tapşırıqlarının müzakirəsinə qoşulurlar;

– ***işlənib hazırlanmış plan layihələrinin kollektivdə müzakirə olunması və həmin layihənin təsdiqlənməsi mərhələsi*** – mühüm mərhələlərdən biridir. İşlənib hazırlanmış plan layihəsini əmək kollektivi tərəfindən geniş müzakirə edilməsi prosesində onun gərginliyi və reallığı, ehtiyatlarla təmin olunma imkanları müəyyənləşdirilir və qəbul olunmuş layihə müəssisənin müdiri tərəfindən təsdiqlənir, beləliklə də onun həyata keçirilməsi məcburi xarakter daşıyır.

– ***işlənib hazırlanmış planların yerinə yetirilməsinə nəzarət mərhələsi*** – müəssisənin plan-iqtisad şöbəsi tərəfindən həyata keçirilir. Bu şöbə istehsalın operativ planlaşdırılmasını və hazırlığını təşkil edir, sexlər tərəfindən növbə-günlük tapşırıqların yerinə yetirilməsi üzərində müntəzəm surətdə nəzarət qoyur və istehsalın müəyyən edilmiş qrafik üzrə normal gedişatını təmin etmək üçün operativ tədbirlər görür.

***İstehsal xərclərinin qiymətləndirilməsi mərhələsi.*** Məlumdur ki, bazardakı tələbat müəssisənin öz məhsulu üçün istədiyi ən yüksək qiyməti müəyyənləşdirir. Ən aşağı qiymətlər isə müəssisənin xərcləri ilə müəyyənləşdirilir. Müəssisə məhsula elə qiymət qoymağa çalışır ki, göstərilən səylərə və riskə görə ədalətli mənfəət norması da daxil olmaqla, onun istehsalına, bölgüsünə və satışına çəkilən xərclər tamamilə ödənilsin. İstehsal xərclərini qiymətləndirərkən xərclərin üç növündən: ***ümumi, sabit və dəyişən xərclərdən*** istifadə edilir.

***Sabit xərclər,*** qeyd etdiyimiz kimi, dəyişməz qalan xərclərdir. Belə ki, müəssisə hər ay otaqların icarəsinə, istilik təchizatına görə haqq verməli, faizlər, qulluqçularına maaş ödəməlidir və s. İstehsalın təşkili səviyyəsindən asılı olmayaraq sabit xərclər həmişə mövcuddur.

***Dəyişən xərclər*** istehsal səviyyəsindən birbaşa asılı olaraq dəyişilir. Əmtəə vahidi hesabı ilə bu xərclər adətən sabit qalır. Ümumi məbləğin istehsal edilmiş əmtəə vahidlərinin sayından asılı olduğuna görə isə, onlar dəyişən adlanırlar.

***Ümumi xərclər*** istehsalın hər bir konkret səviyyəsində daimi və dəyişən xərclərin cəmidir. Rəhbərlik əmtəəyə elə qiymət qoymaq istəyir ki, o heç olmasa istehsalın ümumi xərclərini ödəyə bilsin. Təcrübə göstərir ki, xərclərin azalması ilə, bir qayda olaraq, məhsulun qiyməti də azalır, onun artması ilə isə artır. Bazar iqtisadiyyatı şəraitində qiymətin səviyyəsi rəqabət mübarizəsi nəticəsində bazarda müəyyənləşdirilir. Digər tərəfdən, istehsalın intensivləşdirilməsi şəraitində – əmək məhsul-

darlığının yüksəldilməsi, ən ciddi qənaət rejimi və ehtiyatlara qənaət əsasında istehsal xərclərinin müntəzəm olaraq azaldılmasından ibarətdir.

Makrosəviyyədə gəlir dedikdə, müəyyən dövr ərzində təsərrüfat fəaliyyəti nəticəsində əldə edilən pul vəsaiti nəzərdə tutulur. Bu, müəssisə, fiziki şəxs və ya bütün cəmiyyətin işinin pul ifadəsində, yəni manat, dollar, marka və s. ilə yekunudur. Gəlirin yaranma mənbələri olduqca müxtəlifdir. Məsələn, mənimsəmə subyektindən asılı olaraq gəlirlərin aşağıdakı növlərini fərqləndirirlər:

– ***əhalinin pul gəlirləri*** – əhalinin əldə etdiyi və topladığı pulun məbləği, əhalinin real gəlirinin əsasıdır. İctimai təkrar istehsal gedişində əhalinin pul gəlirləri ümumi daxili məhsulun artımı və bölgüsü ilə, xalq istehlakı mallarının istehsalı və pullu xidmətlərlə bilavasitə bağlıdır. Əhalinin pul gəlirlərinin əsas mənbəyi əməyə görə haqdan və müxtəlif növ güzəştlərdən və ödəmələrdən ibarətdir. Əhalinin əlavə gəlir mənbəyi – şəxsi yardımçı təsərrüfatlardan artıq qalan məhsulun satışından əldə edilən puldur. Əhalinin pul gəlirlərinin digər mənbələrinə – istiqrazlar üzrə uduşların ödənilməsi, sığorta haqları ödənilməsi və s. aiddir. Əhalinin pul gəlirlərinin mənbələri, strukturu və səviyyəsi əhalinin ayrı-ayrı qrupları və təbəqələri üzrə fərqlənir. Dövlət bazar iqtisadiyyatına keçid döv-ründə əmək məhsuldarlığının yüksəldilməsi, minimum əmək haqqı səviyyəsinin artırılması, əhalidən tutulan vergilərin azaldılması ilə əhalinin bütün təbəqələri və sosial qruplarının rifahının daha da yüksəldilməsi, əməyin ödənilməsinin artırılması yollarını və vəzifələrini müəyyənləşdirmişdir.

– ***müəssisənin gəlirləri*** – onun istehsal-təsərrüfat və digər növ fəaliyyəti nəticəsində əldə edilir. Adətən, müəssisənin gəlirinin aşağıdakı növlərini fərqləndirirlər:

***Müəssisənin ümumi gəliri*** – müəssisənin iş nəticələrini xarakterizə edən mühüm iqtisadi göstəricilərdən biri olub, daxil olan pul vəsaitinin əməyin ödənilməsi fondunun və müəssisənin xalis gəlirinin yaradılmasına yönəldilə bilən hissəsidir. Məhsulun, sənaye xarakterli işlərin və sənaye fəaliyyəti balansında olan əsas istehsalın və yardımçı təsərrüfatın xidmətlərinin realizəsindən götürülən qazancdan əmələ gəlir; bu qazanca, həmçinin müstəqil balansda olan və özünün qeyri-sənaye təsərrüfatlarına məhsul realizə etməkdən və əhaliyə pullu xidmətlər göstərməkdən götürülən qazanc da (məhsulun və xidmətlərin istehsalına və realizəsinə çəkilən maddi məsrəflər çıxılmaqla) daxildir. İstehsaldan silinmiş və artıq qalmış əmlakın, əvvəllər alınmış maddi dəyərli malların realizəsindən əldə edilən qazanc müəssisənin ümumi gəlirinin tərkibinə daxil edilmir, çünki onlar müəssisə fəaliyyətinin nəticəsi deyildir. Müəssisənin ümumi gəlirinin əsasında onun təsərrüfat hesablı gəliri yaranır.



Müəssisənin ümumi gəlirinin dinamikası göstərir ki, müəyyən vəziyyət həddinə qədər əmtəə istehsalı ümumi gəliri artırır. Həmin həddən sonra onun səmərəsi aşağı düşür. Deməli, istehsalın miqyası maksimal həddinə doğru hərəkət etdikcə onun amillərinin gətirdiyi gəlir artmağa başladığı halda, sonra tədricən azalmağa meyl edir. Ümumi istehsal xərclərinin və ümumi gəlirin müqayisəsi göstərir ki, müəssisə mənfəət əldə etdiyi halda, məhsul istehsal etməyin mənası vardır, yəni müəssisəni məhsul satışından gələn pul gəliri ilə istehsal xərcləri arasındakı fərq maraqlandırır. Ona görə müəssisə həmişə çalışır ki, «maksimum» gəliri və minimum itkini təmin edə biləcək miqdarda məhsul istehsal etsin. Ümumi gəlirin, istehsal xərclərinin və istehsal edilən məhsulun kəmiyyəti arasında qarşılıqlı asılılıq vardır. Belə ki, istehsalın aşağı həddi daxilində ümumi istehsal xərcləri ümumi gəlirdən çox olur və müəssisə zərər çəkir; fəqət həmin həddən yuxarı qalxdıqda müəssisənin gəliri olur, burada o maksimum mənfəəti optimal bir həddə çatanda əldə edir. Sahibkar öz müəssisəsində istehsal amillərinin gəlirlilik səviyyəsini müəyyən etməkdə maraqlıdır. Onun məqsədi mənfəət normasında ifadə olunur. Mənfəət norması isə mənfəətin istehsal xərclərinə nisbəti şəklində göstərilir. Deməli, mənfəət əmtəə istehsalı və bazar iqtisadiyyatının həm son məqsədi, həm də hərəkətverici qüvvəsidir. Bu, istənilən müəssisənin səmərəli fəaliyyətinin başlıca stimulu və əsas göstəricisidir.

***Müəssisənin təsərrüfat hesablı gəliri*** – əməyin ödənilməsi üçün müəssisənin tam sərəncamına daxil olan (büdcə, yuxarı orqanlar qarşısında öhdəliyi yerinə yetirdikdən, bank krediti üçün faizi ödədikdən sonra) vəsait və mənfəətin bir hissəsidir. Təsərrüfat hesablı gəlir müəssisə kollektivinin istehsal və sosial

inkişafının mənbəyidir. O, müəssisədən götürülə və yenidən bölüşdürülə bilməz. Təsərrüfat hesablı gəlir bazar iqtisadiyyatı şəraitində təsərrüfat mexanizminin yenidən qurulmasında, müəssisələrin təsərrüfat müstəqilliyinin təmin olunmasında və daha da genişləndirilməsində, istehsalın son nəticələrinin yaxşılaşdırılması üçün onların marağının və məsuliyyətinin artırılmasında mühüm rol oynayır.

***Müəssisənin xalis gəliri*** – müəssisə işçilərinin əməyi ilə yaradılmış izafi məhsulun pulla ifadəsi, məhsulun realizə qiymətində hesablanmış dəyəri ilə tam maya dəyəri arasındakı fərq, müəssisənin pul yığımı və dövlət büdcəsi gəliri mənbəyidir. Müəssisənin xalis gəliri əməyin ödənilməsi fondunu yaratdıqdan sonra müəssisənin ümumi gəlirinin yerdə qalan hissəsidir. Xalis gəlirin ümumi məbləğində mənfəətin payı çoxdur. Bazarın əmtəə kütləsi ilə dolduğu şəraitdə xalis gəlir, adətən, qiymətdən az olur. Bu onunla əlaqədardır ki, əmtəə təklifinin artması bazar qiymətlərinin azalmasına səbəb olur.

– ***dövlətin pul gəliri*** – dövlətin, dövlət və özəl müəssisə və təşkilatlarının əldə etdikləri pul ehtiyatlarıdır. Dövlətin pul gəlirlərinin əsas mənbəyi – təsərrüfatlardan daxil olan gəlirdir. Bura aiddir: fond haqqı, əmək və təbii ehtiyatlara görə ödəniş şəkilində dövlət və özəl müəssisələrinin mənfəətindən ödəmələr və s. Faktiki materialların təhlili göstərir ki, son illərdə mənfəətdən ödəmələr mütləq və nisbi olaraq artır.

## 16.5. İstehsal xərclərinin azaldılmasının və maya dəyərinin aşağı salınmasının əsas istiqamətləri

İstehsal xərclərindən istifadənin yaxşılaşdırılması iqtisadi cəhətdən böyük səmərə verir; bu səmərə özünü məhsul vahidi üçün material-enerji ehtiyatları məsrəfinin azaldılmasında əks etdirir. Məhsul vahidinin hazırlanması üçün material-enerji ehtiyatlarının xüsusi məsrəfinin azalması, eyni miqdarda material-enerji ehtiyatlarından daha çox məhsul istehsal etməyə, onun maya dəyərini və material tutumunu aşağı salmağa, müəssisənin maliyyə vəziyyətini yaxşılaşdırmağa və s. imkan verir.

Material-enerji ehtiyatlarından istifadəni qiymətləndirmək üçün bir sıra göstəricilərdən istifadə edilir. Bu göstəricilərdən



birincisi ilkin xammaldan hazır məhsul çıxımı əmsalıdır. Bu göstərici faizlə ifadə olunur və müəssisənin ilkin xammaldan nə qədər hazır məhsul istehsal etdiyini səciyyələndirir. Məsələn, xam neftdən benzin, sürgü yağları və s. məhsul çıxımı əmsalı. İlkin xammaldan hazır məhsul çıxımı əmsalına həmin xammalın ilkin emalı və saflaşdırılması həlledici təsir göstərir.

Xammal və materialdan istifadənin səmərəliliyini xarakterizə edən ikinci əsas göstərici ***materialdan istifadə əmsalıdır***. Bu əmsal məhsul hazırlanması prosesində əmələ gələn itkilərin miqdarını göstərir. Bu əmsalın plan və faktiki növlərini fərqləndirirlər. Xammal və materialdan istifadənin plan əmsalı məhsul vahidinin xalis çəkisinin, həmin məhsulun hazırlanması üçün material məsrəfi normasına görə sərf ediləcək materialın miqdarına olan nisbətidir; faktiki istifadə əmsalı isə – məhsul vahidinin xalis çəkisinin faktiki sərf olunmuş materialın miqdarına olan nisbətini xarakterizə edir.

***Yanacaqdan istifadə əmsalı*** – yanacaq işlədən avadanlığın faydalı iş vaxtı əmsalı ilə xarakterizə olunur. Bu əmsal, həmin avadanlıqda istilikdən nə dərəcədə faydalı istifadə edildiyini göstərir. Avadanlığın faydalı iş vaxtı əmsalı istifadə edilən yanacağın keyfiyyətindən, avadanlığı işlədən işçinin ixtisas dərəcəsindən və ona olan münasibətdən asılıdır. Avadanlığın faydalı iş vaxtı əmsalının artırılması, eyni miqdar avadanlıqdan daha çox məhsul istehsal etmək mümkün olur, deməli, avadanlığa tələbat azalır.

***Məhsulun metal tutumu*** – məhsul vahidinə düşən metal sərfini xarakterizə edən göstəricidir. Metal tutumu göstəriciləri natural və dəyər ifadəsində hesablanır. Məsələn, məhsul vahidinə, 1 milyon manatlıq əmtəəlik məhsula, xalis məhsula, ümumi ictimai məhsula tonla, yaxud manatla metal sərfi. Metal tutumunun xüsusi göstəriciləri sərf olunan metalın və istehsal olunan məhsulun növləri üzrə – məhsul vahidinə qara metal prokatı sərfi, çuqun və polad ərintiləri sərfi və başqa metal məhsulu növləri üzrə müəyyən olunur. Bütövlükdə xalq təsərrüfatı üzrə məhsulun metal tutumu natural ifadədə, məsələn, tonla istehlak olunmuş qara metal həcminin ictimai məhsula nisbəti kimi, ayrı-ayrı müəssisələr üzrə isə istehlak olunmuş qara metal həcminin əmtəəlik məhsulun həcminə olan nisbəti kimi hesablanır.

Müəssisələr üzrə məhsulun metal tutumu hesablanarkən ümumi qara metal istehlakı, həm satın alınmış, həm də öz istehsalı olan, o cümlədən metizlər, təmir üçün ehtiyat hissələr, hər cür istehsal ehtiyacları üçün borular nəzərə alınır. Məhsulun metal tutumunun natural və dəyər göstəriciləri dinamikası bir-birinə uyğun gəlmir. Məhsul vahidinə metalın xüsusi sərfi göstəricisi məmulatın konstruksiyasının mütərəqqiliyini səciyyələndirir. Eyni zamanda daha möhkəm, lakin həm də daha bahalı konstruksiya materialları tətbiqi hesabına məmulat kütləsinin azaldılması dəyər ifadəsində metal tutumu göstəricisinin yüksəldilməsinə səbəb ola bilər. Buna görə də məmulat istehsalına metal sərfini əks etdirən istehsalın metal tutumu ilə yanaşı istismar metal tutumu da müəyyən edilir və bu zaman metalın təkcə məmulat istehsalının deyil, həmçinin normativ xidmət müddəti ərzində istehlakı prosesində sərfi də nəzərə alınır.

İstismar metal tutumu məmulatın etibarlığını və uzun ömürlülüyünü artırmaq, təmirə və ehtiyat hissələrinə tələbatı azaltmaq hesabına azaldılır. Məhsulun istismar tutumunun azaldılması metala qənaətin, deməli istehsal xərclərinin azaldılmasının mühüm istiqamətlərindən biridir. Məhsulun metal tutumunu bir çox amillər ilə müəyyən edilir. Bunlardan ən başlıcası metal istehlak edən bütün sahələrdə, hətta qara metallurgiyanın özündə texniki tərəqqi, texnika və texnologiyanın təkmilləşdirilməsi hesab edilir.

Məmulatın konstruksiyasının təkmilləşdirilməsi onların texniki-iqtisadi parametrlərinin yaxşılaşdırılmasına, kütləsinin (vəzninin) azaldılmasına səbəb olmalıdır. İstehsalın strukturunun təkmilləşdirilməsi, istehsal olunan məhsulun öz tərkibinə, çeşidinə, keyfiyyətinə, ictimai tələbatın bütün istehlak xassələrinə uyğun gəlməsi də mühüm təsir göstərir. Metalın keyfiyyətinin yüksəldilməsi, pəstahların konfiqurasiyasının onlardan hazırlanan məmulatların formalarına yaxınlaşdırılması, metalların polimer, şüşə-plastik və digər mütərəqqi materiallarla əvəz olunması, istehsalın ümumi həcmində metal tutumlu məhsulun payının azaldılması istehsal xərclərinin azaldılmasına gətirib çıxarır.

İstehsalın həcmi artdıqca istehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salınması daha çox əhəmiyyət kəsb edir, çünki bu zaman əldə edilən səmərənin, qənaətin həcmi daha yüksək olur. Digər tərəfdən, istehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salınması ictimai istehsalı daha da inkişaf etdirmək üçün müəssisəyə əlavə vəsait əldə etməyə imkan verir. İstehsal xərclərinin və məhsulun maya dəyərinin müntəzəm surətdə aşağı salınması bazar iqtisadiyyatının mühüm prinsiplərindən biridir.



İstehsal xərclərinin və məhsulun maya dəyərini aşağı salmaq yollarını müəyyən edərkən qənaətin mənbələri və amillərini fərqləndirirlər. Qənaətin mənbələri dedikdə, qənaətin hansı ünsürlər və məsrəf maddələri hesabına əldə edildiyi nəzərdə tutulur. İstehsal prosesi ilə əlaqədar olan məsrəflərin aşağı düşməsini təmin edən şərtlər qənaət amilləridir. İstehsalın konkret şəraitindən asılı olaraq istehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salınmasının müxtəlif mənbələri və amilləri vardır.

Məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı salınması mənbələri dedikdə, bütövlükdə müəssisədə və onun ayrı-ayrı bölmələrində məhsulun maya dəyərinin aşağı salınmasının obyektiv imkanları nəzərdə tutulur. İstehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salmağın ən mühüm mənbəyi ***material ehtiyatlarına qənaət*** etməkdən ibarətdir. O, hər şeydən öncə, məmulatın layihəsini diqqətlə işləyib hazırlamaqla əldə edilir. Məhsulu hazırlamaq üçün istifadə edilən material növünün, məhsulun səmərəli tərkibinin və konfiqurasiyasının seçilməsi məhsulun yüksək keyfiyyətini təmin etməklə materiallaçılma qənaət etməyi də təmin edir. İstehsalın tullantılarını azaltmağa imkan verən texnologiya seçmək yolu ilə də material məsrəflərini azaltmağa nail olmaq olar. İndi sənayenin bir sıra sahələrində xammaldan kompleks istifadə edilməsi, ayrı-ayrı istehsallarda isə məhsulun tullantısız hazırlanması üsulu tətbiq edilir.

Məhsulun ***əmək tutumunun azaldılmasına*** yönəldilmiş tədbirlər mühüm nəticələrin əldə edilməsinə imkan verir. Hazırda istehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılmasının orta əmsalı, ləng də olsa, ilbəil yüksəlir; bu da məhsulun əmək tutumunun azaldılmasına səbəb olur. Bu sahədə əsas sabit meyl – orta əmək haqqının yüksəlməsinə nisbətən əmək məhsuldarlığının üstün artmasıdır. Bu, məhsul vahidinin istehsalına düşən əmək haqqına qənaət etməyin əsas mənbəyidir.

İstehsalın iqtisadi nəticələrinin yüksəldilməsinə xeyli dərəcədə ***məhsulun fond tutumunun azaldılması*** ilə müəyyən edilir. Bu proses məhsulun maya dəyərinə, deməli istehsal xərclərinə ikili təsir göstərir. Hər şeydən öncə, istehsalın normal inkişafı şəraitində avadanlığın məhsuldarlığının, yəni məhsul buraxma qabiliyyətinin artması onun dəyərini ötüb keçir və nəticədə məhsul vahidinə az amortizasiya məbləği düşür. İstehsal təkmilləşdikcə əsas fondların strukturu yaxşılaşır, yəni avadanlığın, binaların və qurğuların ümumi dəyərində onların aktiv hissəsinin payı artır. Bu da məhsul vahidinə görə istehsal xərclərinin aşağı düşməsinə səbəb olur. Əsas istehsal fondlarından daha yaxşı istifadə edilməsi məhsul istehsalını artırmaq üçün əlverişli şərait yaradır. Bu isə öz növbəsində məhsul vahidinə düşən qeyri-proporsional xərclərin azalmasına gətirib çıxarır. Beləliklə, məhsulun fond tutumunun azaldılması, sənaye məhsulunun maya dəyərinə kompleks təsir göstərir. Deməli, istehsal xərclərinin aşağı salınmasının əsas mənbəyi əmək prosesi elementlərinə qənaət etməkdir. Fəqət, nəzərə almaq lazımdır ki, bir qayda olaraq, bir elementə qənaət etmək başqalarının dəyişməsinə səbəb olur. Belə ki, əmək məhsuldarlığının artması onun fond təchizatının yüksəlməsinə əsaslanır; bu da istehsalın fond tutumunun bir qədər artmasına səbəb olur.

İstehsal xərclərinin və məhsulun maya dəyərinin aşağı salınmasının mühüm mənbələrindən biri də ***istehsalın material tutumunun*** azaldılmasından ibarətdir. ***İstehsalın material tutumu*** dedikdə, pul ifadəsində məhsul (iş, xidmət) vahidinə düşən material sərfinin həcmini səciyyələndirən göstəricidir. Adətən, sahə, müəssisə və məhsul üzrə istehsalın material tutumu fərqləndirilir. Sahə və müəssisə üzrə istehsalın material tutumu əmtəəlik məhsula görə hesablanır. Məhsulun material tutumu, məhsulun enerji tutumu, kimya tutumu və s. istehsalın material tutumunun ayrı-ayrı tərkib ünsürləridir. İstehsalın material tutumunun azaldılması istehsal xərclərinin aşağı salınması üzrə həyata keçirilən təşkilati-texniki tədbirlərin mühüm tərkib hissəsidir. İstehsalın material tutumunun azaldılmasının əsas amilləri – texniki tərəqqi (maşın və mexanizmlərin konstruksiyasını təkmilləşdirmək, parametrlərini yaxşılaşdırmaqla yanaşı kütləsini azaltmaq, elektronikanın son nailiyyətləri əsasında məmulatları miniatürləşdirmək və mikrominiatürləşdirmək, mütərəqqi materiallar tətbiq etmək, aztullantılı və tullantısız texnologiya tətbiq etmək), qənaəti maddi cəhətdən stimullaşdırmaq və ehtiyatlardan israfçılıqla istifadəyə görə məsuliyyəti artırmaq, onların ciddi uçotunu aparmaq, hər kəsbə sahibkarlıq, ictimai əməyin nəticələrinə qayğılı münasibət hissi tərbiyə etməkdən ibarətdir.



***Məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı salınması amilləri*** dedikdə, bu azalmanı təmin edən şərtlər nəzərdə tutulur. Məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı salınması amillərinə aiddir:

– ***elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalata tətbiqi*** – məhsulun maya dəyərinin və istehsal xərclərinin azaldılmasının mühüm mənbələrindən biridir. İstehsalın mexanikləşdirilməsi və avtomatlaşdırılması, qabaqcıl texnologiya metodlarının, daha səmərəli materialların, istehsalın və əməyin təşkilinin səmərəli formalarının tətbiq edilməsi iş vaxtına, materiallara, enerjiyə qənaət olunmasına kömək edir, məhsul istehsalının miqyasını artırır və bununla da məhsul vahidinə düşən idarəetmə və xidmətetmə xərclərini azaldır, yəni məhsulun maya dəyərinin əsas maddələrinə təsir göstərir. Müasir elmi-texniki nailiyyətlər əsasında müəssisələr texniki cəhətdən kökündən yenidən qurulur. Yeni nəsildən olan texnikanın, prinsipcə yeni texnologiyanın tətbiqini təmin edən maşınqayırma ETT-nin sürətləndirilməsində aparıcı rol oynayır;

– ***istehsalın təmərküzləşdirilməsi*** – məhsulun maya dəyərinin və istehsal xərclərinin aşağı düşməsinə böyük təsir göstərir. Müəssisələrin iriləşdirilməsi yeni, yüksək məhsuldar avadanlığın tətbiq edilməsi üçün və bununla da əsas fondlardan istifadəni yaxşılaşdırmaq və məhsul vahidinə düşən amortizasiya ayırmalarının məbləğini azaltmaq üçün yaxşı şərait yaradır. O, məhsul vahidinə düşən inzibati-idarəetmə xərclərini xeyli aşağı salır, material-enerji ehtiyatlarından istifadəyə müsbət təsir göstərir;

– ***istehsalın kombinələşdirilməsi*** – məhsul vahidinə sərf edilən material-enerji məsrəflərinin xeyli azalmasına səbəb olur. Bir çox sənaye sahələrinin müəssisələrində xammaldan kompleks istifadə edilməsi eyni xammal məsrəfləri ilə əlavə məhsul buraxmağa imkan verir ki, bu da məhsulun maya dəyərini

xeyli aşağı salır. Məsələn, metallurgiya kombinatlarında tullanın istilikdən və istehsalat tullantılarından təkrarən səmərəli istifadə edilir, bununla da enerji və xammal məsrəfləri azalır, bunlarla bərabər, aqreqatlara xidmətlə əlaqədar iş qüvvəsinə olan tələbat azalır.

– ***istehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsi*** – ayrı-ayrı məhsul növləri hazırlanmasının kütləviliyini artırır, xüsusi yüksək məhsuldarlı avadanlığın tətbiqini asanlaşdırır, istehsalın təşkilinin kompleks mexanikləşdirilməsinə və avtomatlaşdırılmasına, avtomatik axın ixətlərinin tətbiq edilməsinə səbəb olur. Nəticədə əmək haqqı sərfi azalır, istehsalın həcminin artması ilə əlaqədar olaraq, məhsul vahidinə düşən qeyri-proporsional xərclər azalır.

– ***sənaye müəssisələrinin səmərəli yerləşdirilməsi*** – materialların və yarımfabrikatların, həmçinin hazır məhsulların daşınmasına və saxlanılmasına çəkilən məsrəflərin azaldılmasına səbəb olur. Ölkəmizdə sənaye müəssisələrinin ərazicə yerləşdirilməsinin bir sıra prinsipləri vardır. Onlara aiddir: sənaye istehsalının hər vasitə ilə xammal mənbələrinə və sənaye məhsulunun istehlak rayonlarına yaxınlaşdırılması; iqtisadi rayonlar arasında əməyin səmərəli bölgüsü və iqtisadi rayonlarda təsərrüfatın kompleks inkişaf etdirilməsi; qarşılıqlı iqtisadi əlaqələrin yaradılmasına əsaslanan beynəlxalq əmək bölgüsü.

– ***idarəetmənin səmərəli təşkili*** – məhsulun maya dəyərinin aşağı salınmasına və ümumzavod xərclərinin azaldılmasına böyük təsir göstərir. İstehsalın ixtisaslaşdırılması və kooperativləşdirilməsinin daha da inkişafı, sahənin (müəssisənin) idarə edilməsində çoxpilləliyin aradan qaldırılması və təsərrüfata rəhbərlik edən orqanların istehsala yaxınlaşdırılması, lüzumsuz idarəetmə orqanlarının ixtisar edilməsi, müxtəlif idarəetmə pillələri arasında hüquq və vəzifələrin daha dürüst müəyyən edilməsi, idarəetmə aparatı işində operativlik və çevikliyin artırılması, idarəetmə bölmələrinin strukturunun təkmilləşdirilməsi idarəetmə xərclərini azaldır və beləliklə də onun səmərəliliyini yüksəldir. Bazar iqtisadiyyatına keçid dövründə sənaye müəssisələrinin idarə edilməsinin təkmilləşdirilməsi pilləliyin ixtisar olunmasını nəzərdə tutur.



## 16.6. Neft-qazçıxarma idarələrində karbohidrogenlər hasilatına çəkilən xərclərin azaldılması mənbələri və amilləri

Karbohidrogenlər hasilatına çəkilən xərclərin azaldılması ehtiyatlarından və onun xalq təsərrüfatı əhəmiyyətindən danışmazdan öncə istehsal xərclərinin, məhsulun (işin, xidmətin) dəyəri və maya dəyərinin mahiyyətindən, onlar arasındakı qarşılıqlı əlaqəyə diqqət yetirmək lazımdır (bu barədə 16.1 bölməsinə bax).

İstehsal xərclərinin azaldılması əsasında məhsulun maya dəyərinin aşağı salınması müəssisənin mənfəətinin artırılmasının, deməli istehsalın rentabellik səviyyəsinin yüksəldilməsinin əsas mənbəyidir və həm də məhsul buraxılışı həcminin artırmağın vacib amilidir. Məhsulun maya dəyərini canlı və maddiləşmiş əməyə qənaət etmək hesabına aşağı salmaq olar. Maddi ehtiyatlarda maddiləşmiş keçmiş əməyə qənaət eyni miqdarda materialdan daha çox məhsul istehsal etməyə imkan verir; canlı əmək məsrəflərinə qənaət isə, onun məhsuldarlığını yüksəltməyə və beləliklə də istehsal həcmini artırmağa imkan verir. Odur ki, istehsalın həcmi artdıqca məhsulun maya dəyərinin aşağı salınması və istehsal xərclərinin azaldılması daha çox əhəmiyyət kəsb edir və effekt verir. Digər tərəfdən, məhsulun maya dəyərinin aşağı salınması ictimai istehsalı daha çox inkişaf etdirmək və əmək kollektivinin maddi rifahını yüksəltmək üçün müəssisəyə əlavə vəsait əldə etməyə imkan verir.

İstehsal xərclərini azaltmaq üçün onları təsnifləşdirmək və hərtərəfli təhlil etmək lazımdır. Adətən, istehsal xərcləri birbaşa və dolayı, əsas və əlavə, şərti-sabit və şərti-dəyişən, sadə və kompleks, daimi və ümumi xərclər kimi təsnifləşdirilir.

Yeni iqtisadi sistemə keçid dövründə, milli iqtisadiyyat quruculuğunda azad iqtisadi münasibətlərin yaradılması və inkişafında böyük nailiyyətlər əldə etmiş qərb iqtisadiyyatında istehsal xərcləri problemi bütünlükdə iqtisadi inkişafın elementləri, prinsiplərinin öyrənilməsi elmi əhəmiyyət kəsb edən problemlərdəndir. Bu səbəbdən iqtisadçılar bu kateqoriyanın mahiyyətinə ciddi fikir vermişlər və hazırda da verməkdədirlər.

Klassik iqtisadi məktəbin baniləri D.Rikardo və A.Smit istehsal xərclərinə istehsal qiyməti kimi baxırdılar. B.Britaniya

iqtisadçıları R.Torrens, C.Mill, C.Mak-Kullok əmtəənin dəyərinin gəlirlərin (əmək haqqı, mənfəət və renta) məcmusundan ibarət olması haqqında A.Smit fikrini əsas götürərək, istehsal xərclərini «yığılmış əmək məsrəfləri» kimi izah edir və onu əmtəənin daxili dəyəri sayırdılar. Avstriya iqtisadçısı F.Vizer belə hesab edirdi ki, həqiqi istehsal xərcləri əmtəənin istehsal olunmasına sərf olunmuş iqtisadi ehtiyatların, onların cəmiyyət tərəfindən ən məqsədəuyğun qaydada istehlak olunaraq əldə edə biləcəyi yüksək səmərəliklə müəyyən edilməlidir. Alman iqtisadçısı A.Marşal istehsal xərclərini fəhlələrin «əziyyətinə» və kapitalistlərin (sahibkarların) «imtinasına» səbəb olan xərclərin məcmusu kimi izah edir. A.Marşal bu kəmiyyəti, ictimai xərclər kimi bütün sənaye müəssisələrini nəzərə almaqla hesablanmasını düzgün hesab edir.

XIX əsrin ikinci yarısında yaranmış marksist iqtisadi nəzəriyyə istehsal xərclərinin mahiyyətini əmək-dəyər nəzəriyyəsi baxımından izah edir. Belə ki, istehsal xərcləri, qeyd etdiyimiz kimi, məhsul istehsalına sərf olunmuş canlı və maddiləşmiş əməyin cəmi kimi müəyyənləşdirilir. Deməli, müasir Qərb iqtisadi nəzəriyyələri həm mahiyyət etibarilə, həm də struktur və terminologiyasına görə istehsal xərclərinin marksist konsepsiyasından fərqlənir. Bu, hər şeydən öncə, XX əsrdə istehsalın inkişafında baş verən dəyişikliklərlə əlaqədardır. Belə ki, əvvəllər istehsal xərclərinin əksər hissəsini bilavasitə istehsalda çalışan fəhlələrin əmək haqqına çəkilən xərclər təşkil edirdisə, XX əsrin ikinci yarısından başlayaraq, istehsal xərclərinin çox hissəsini qeyri-istehsal işçilərinin əməyi, elmi-tədqiqat işləri, marketinq, idarəetmə, reklam və s. xərclər təşkil edir. Digər tərəfdən, istehsalın həcmi və tempinin böyük sürətlə artması, qiymətlərin tez-tez dəyişməsi nəticəsində istehsal xərcləri, məhsul buraxılışının həcmi və satış qiyməti arasında olan əlaqə və asılılığın daha dərindən təhlil edilməsi zərurəti meydana çıxmışdır.

İstehsal xərclərinin mahiyyətini aydınlaşdırarkən, onlara iki tərəfdən: ***xarici və daxili xərclər*** baxımından yanaşılmalıdır. Məsələn, istehsal xərclərinin bir qismi əmək ehtiyatlarına, xammala, materiallara, yanacağa, enerjiyə, nəqliyyat əməliyyatlarına və s. işlərə çəkilən xərclər olub, müəssisənin bu ehtiyatlara görə təchizatçılara verdiyi puldan ibarətdir. Bu xərclər müəssisənin kənara verdiyi xərclər olduğundan, onlar xarici xərclər adlanır. İstehsal prosesində müəssisənin özünə məxsus olan iqtisadi ehtiyatlardan (məsələn, istehsalat binalarından) və sahibkarın öz əməyindən istifadə edildiyinə görə verilən pul vəsaitləri isə daxili xərclər kimi çıxış edir.



Bundan başqa, bazar iqtisadiyyatı şəraitində hər bir istehsalçı məhsul buraxılışının həcmini müəyyənləşdirərkən ***alternativ xərclərindən*** də istifadə edir. Alternativ xərclərdən istifadə edilməsi bu və ya digər təsərrüfat fəaliyyətini həyata keçirmək üçün mövcud xərclərin sərf olunmasının iqtisadi cəhətdən nə dərəcədə əlverişli olub-olmamasının müəyyənləşdirilməsi zəruriliyindən irəli gəlir. Məsələn, sahibkar öz pul ehtiyatlarını müxtəlif cür: həm mövcud istehsalın genişləndirilməsinə, həm də yeni növ istehsalın təşkili üçün istifadə edə bilər. Seçmək üçün bu kəmiyyətlərin hər biri alternativ kimi müqayisə edilməlidir.

Beləliklə, istehsal xərcləri elə bir iqtisadi kateqoriyadır ki, bazar iqtisadiyyatına keçid mərhələsində onun dünya təcrübəsində istifadə olunan prinsipləri və üsulları əsasında araşdırılmasına və öyrənilməsinə böyük ehtiyac var. Bu sahədə respublikamızda müəyyən işlər görülməlidir. Çünki istehsal xərclərinin ünsürlər üzrə araşdırılması və onun azaldılması üçün lazımi təşkilati-texniki tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi bazar iqtisadiyyatının özünün təbiətindən irəli gəlir və bu müəssisənin (sahibkarın) mənfəətinin artırılmasını təmin edir.

Respublikamızın neft-qazçıxarma mədənlərində neft-qaz quyularının uzun müddət ərzində istismar olunmasına baxmayaraq, burada istehsal xərclərinin azalması imkanları mövcuddur və hasilat göstəriciləri dünyanın bir çox neft-qazçıxarma ölkələrindən, o cümlədən ABŞ-ın neft şirkətləri üzrə müvafiq göstəricilərdən yüksəkdir. Dünya üzrə neft-qaz quyuları fondunun 80%-i ABŞ-ın payına düşdüyü halda, neft hasilatında bu ölkənin xüsusi çəkisi cəmi 15% təşkil edir. Yaxın Şərqdə hər qazılmış quyuya 225 min ton ehtiyat düşdüyü halda, bu rəqəm ABŞ-da 5-7 dəfə azdır. Bundan başqa, hər bir quyuya düşən neft ehtiyatı ABŞ-da 26040 min ton, quyunun gündəlik debiti isə 1,8 ton təşkil edir ki, bu da aşağı göstəricilər hesab edilir.

Məlumdur ki, bazar iqtisadiyyatı şəraitində neft sənayesinin sahə strukturu geoloji-axtarış, tikinti-quraşdırma, qazma, hasi-

lat, təchizat və ticarət bölmələrindən ibarətdir. Son illərdə bu struktur bölmələri arasında nisbət dəyişiklikləri baş vermişdir, yəni qazma işlərinə çəkilən xərclər azalmış, tikinti-quraşdırma işlərinə və geoloji-axtarış işlərinə çəkilən xərclər isə artmışdır. Bu onunla izah edilir ki, respublikamızda qazma işlərinin, xüsusilə də kəşfiyyat qazma işlərinin əksər hissəsi Xəzər dənizinin Azərbaycan sektorunda aparılır. 1995-2001-ci illərdə qazma işlərinin həcminin dinamikası cədvəl 97-də verilmişdir.

*Cədvəl 97*

***Qazma işlərinin həcminin dinamikası, metr***

| İllər | Ümumi qazma | o cümlədən: | |
|---|---|---|---|
| | | İstismar | Kəşfiyyat |
| 1995 | 38886 | 38218 | 668 |
| 1996 | 52811 | 50432 | 2379 |
| 1997 | 69041 | 65565 | 3476 |
| 1998 | 52445 | 50296 | 2149 |
| 1999 | 23589 | 23119 | 470 |
| 2000 | 40231 | 38594 | 1637 |
| 2001 | 30200 | 28336 | 1864 |

Məlumat üçün qeyd edək ki, son illərdə istər dünya miqyasında, istərsə də respublikamızda istehsal xərclərinin təsnifatı, məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında müxtəlif fikirlər söylənmiş, təkliflər irəli sürülmüşdür və onun iqtisadi işdə rolu ilə bağlı mübahisələr olmuşdur. Belə ki, bəzi xərclərin məhsulun (işin, xidmətin) maya dəyərinin tərkibinə daxil edilməməsi və ya bir müddət əmək haqqının yalnız 4%-nin istehsal xərclərinə aid edilməsi, qalan hissəsinin isə müəssisənin əldə etmiş olduğu mənfəət hesabına ödənilməsi həqiqi vəziyyəti əks etdirmirdi. İstehsal xərci barəsində söylənilən fikir müxtəlifliyinə son qoymaq məqsədilə, qeyd etdiyimiz kimi, 1996-cı il avqust ayının 16-da Respublika Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş xüsusi sənəd – «Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında» Əsasnamə işlənib hazırlanmışdır. Həmin Əsasnaməyə əsasən məhsulun (işin, xidmətin) maya dəyərini əmələ gətirən əsas xərclər onların iqtisadi məzmununa



görə aşağıdakı ünsürlər üzrə qruplaşdırılır:

a) material xərcləri (qaytarılan tullantıların dəyəri çıxılmaqla);

b) əsas fondların amortizasiyası;

c) əmək haqqı xərcləri və sosial ehtiyaclara ayırmalar;

ç) sair xərclər.

Neft sənayesində, iqtisadiyyatın digər sahələrindən fərqli olaraq, neft və qazın maya dəyərinin tərkibində müəyyən fərqlər vardır, yəni neft sənayesində məhsulun maya dəyərinin tərkibinə material xərclərindən, əsas fondların amortizasiyasından, əmək haqqı və sosial ehtiyaclara ayırmalardan və sair xərclərdən əlavə digər xərclər də daxil edilir. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti üzrə ayrı-ayrı xərc maddələri görə xam neftin maya dəyərinin dinamikası cədvəl 98-də verilmişdir.

*Cədvəl 98*

***1995-2004-cü illərdə xam neftin maya dəyəri, %***

| Xərc maddələri | 1995 | 1996 | 1997 | 1998 | 1999 | 2000 | 2001 | 2002 | 2003 | 2004 |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| Enerji xərcləri | 11,8 | 9,1 | 9,8 | 10,0 | 9,6 | 8,9 | 8,9 | 9,9 | 10,3 | 11,1 |
| Əmək haqqı | 0,1 | 0,1 | 0,6 | 0,6 | 0,8 | 1,0 | 1,1 | 1,2 | 1,4 | 1,5 |
| Sosial ayırmalar | 0,3 | 0,3 | 0,4 | 0,4 | 0,4 | 0,4 | 0,4 | 0,4 | 0,5 | 0,5 |
| Amortizasiya | 1,5 | 0,5 | 8,8 | 9,0 | 10,5 | 6,4 | 5,1 | 6,3 | 5,9 | 5,7 |
| Layvermənin artırılması | 2,1 | 1,5 | 1,8 | 1,5 | 2,0 | 1,9 | 1,8 | 1,9 | 2,1 | 2,2 |
| Neftin texniki hazırlanması | 1,6 | 1,2 | 1,4 | 1,0 | 1,3 | 1,0 | 1,0 | 1,2 | 1,1 | 1,3 |
| Neftin nəqli və saxlanılması | 4,1 | 3,9 | 5,0 | 5,2 | 5,8 | 5,3 | 6,2 | 6,8 | 6,9 | 7,2 |
| Ümumsex xərcləri | 2,3 | 3,2 | 3,8 | 5,9 | 6,4 | 5,7 | 4,7 | 5,2 | 5,5 | 5,7 |
| Ümummədən xərcləri | 4,6 | 4,7 | 6,3 | 6,6 | 8,4 | 7,9 | 8,8 | 9,1 | 9,5 | 9,7 |
| Geoloji kəşfiyyat | 2,2 | 1,5 | 1,2 | 1,0 | 0,4 | 1,8 | x | 1,5 | 1,7 | 1,9 |
| Avadanlıqların saxlanılması | 34,9 | 32,5 | 46,9 | 41,2 | 39,5 | 43,7 | 45,3 | 45,8 | 46,2 | 45,9 |
| Mədən vergisi | 0,1 | 13,9 | 12,5 | 9,1 | 9,2 | 10,4 | 10,0 | 10,8 | 11,3 | 12,0 |
| Sair xərclər | 34,4 | 27,6 | 1,5 | 8,5 | 5,7 | 5,6 | 6,6 | 2,3 | 4,5 | 4,9 |

Cədvəldə verilmiş məlumatlardan görünür ki, neft sənayesində istehsal xərclərinin və maya dəyərinin azaldılması sahəsində böyük imkanlar mövcuddur. Bu imkanları aşkara çıxarıb səfərbərliyə almaq üçün sahədə istehsal xərclərinin hər bir ünsür üzrə azaldılması imkanları müəyyən edilməli, hər bir neft-qazçıxarma idarəsinin fasiləsiz işləməsini, yüksək əmək məhsuldarlığını təmin edən elmi cəhətdən əsaslandırılmış təşkilati-texniki tədbirlər həyata keçirilməlidir. Bu zaman nəzərə almaq lazımdır ki, hər bir neft-qazçıxarma idarəsinin özünə məxsus xüsusiyyətləri vardır. Belə ki, neft sənayesində, sənayenin digər sahələrindən fərqli olaraq amortizasiya ayırmaları üzrə xərclər bütün istehsal xərclərinin təqribən 45-50%-ni təşkil edir. Müqayisə üçün göstərək ki, bu rəqəm emal sənayesində 2,7-4,5%, kimya və neft kimyasında 6-9%, maşınqayırma və metal emalında 3-4,5%, tikinti materialları sənayesində isə 7-11% təşkil edir. Neft sənayesində amortizasiya ilə bağlı xərclərin çox olması burada əsas fondların aktiv hissəsini özündə əks etdirən qurğuların, o cümlədən neft-qaz quyularının baha başa gəlməsi ilə əlaqədardır. Ona görə də quyu fondunun hər bir yataq üzrə optimal sayının müəyyən edilməsi əsaslı vəsait qoyuluşundan səmərəli istifadə edilməsinin mühüm amillərindəndir.

İstehsal xərclərinin azalmasına təsir edən ən başlıca amillərdən biri fəaliyyətsiz, yəni mövcud quyu fondundan səmərəli istifadə edilməsi təşkil edir. Əgər Azərbaycanda qurudakı neft-qazçıxarma idarələrinin inkişaf tarixinə nəzər salsaq, bu problemin daima böyük əhəmiyyət kəsb etdiyinin şahidi olarıq. Son illərə kimi Azərbaycanın neft sənayesi üzrə hər il orta hesabla 1000-1100 neft quyusu istismara verilirdi ki, onlardan da təqribən 65-70%-i fəaliyyətsiz (işləməyən) quyular təşkil edirdi.

ARDNŞ-də mövcud quyu fondundan necə istifadə edildiyini müəyyənləşdirmək üçün istismar üsullarına görə fəaliyyət göstərən quyuların bölgüsünü nəzərdən keçirmək məqsədəuyğun olardı. Çünki faktiki materialların araşdırılması göstərir ki, fontanla işləyən quyularının sayı, digər üsullara nisbətən ildən-ilə azalmağa doğru meyl edir (cədvəl 99).

Quruda neft-qazçıxarma idarələrində istehsal xərclərinin xeyli hissəsini enerji xərcləri təşkil edir. Bu onunla izah edilir ki, hazırda quruda fəaliyyət göstərən neft-qazçıxarma idarələ-



*Cədvəl 99*

***Fəaliyyət göstərən quyuların istismar üsullarına görə bölgüsü***

| İllər | Fəaliyyət göstərən quyuların sayı, ədəd | o cümlədən | | |
|---|---|---|---|---|
| | | Fontan | Kompressor | Nasos |
| 1997 | 5830 | 215 | 80 | 5535 |
| 1998 | 5725 | 214 | 72 | 5439 |
| 1999 | 5492 | 203 | 53 | 5236 |
| 2000 | 5574 | 152 | 46 | 5376 |
| 2001 | 5554 | 146 | 42 | 5352 |

rində neft hasilatı dərinlik nasosları və kompressor üsulları ilə əldə edilir və bunlar da çoxlu enerji sərfi tələb edir.

İstehsal xərclərinin tərkibində neft-qazçıxarma idarələrində həyata keçirilən tikinti-quraşdırma işlərinə çəkilən xərclər də mühüm yer tutur. Tikinti-quraşdırma işləri dedikdə, neft-qazçıxarma idarələrində istehsal və qeyri-istehsal obyektlərinin tikilməsi və onlarda avadanlıq quraşdırılması ilə əlaqədar görülən işlər nəzərdə tutulur. Əsas fondların təkrar istehsalı formasından asılı olaraq əsaslı vəsait qoyuluşunda tikinti-quraşdırma işlərinin xüsusi çəkisi əhəmiyyətli dərəcədə dəyişilir, yəni mövcud neft-qazçıxarma idarələrinin yeni texnika ilə təchizatına daha çox üstünlük verilir. Məlumat üçün qeyd edək ki, tikinti-quraşdırma işlərinə çəkilən xərclərin strukturunda onun ayrı-ayrı ünsürlərinin payı eyni deyildir.

Neft-qazçıxarma idarələrində istehsal xərclərinin tərkibində nəqliyyat xərcləri mühüm yer tutur. Deməli, istehsal xərclərinin azaldılmasının ehtiyat mənbələrindən biri nəqliyyat xərclərinin azaldılmasıdır. Hazırkı dövrdə quruda hasilatın azalması, quyu fondunun müəyyən hissəsinin fəaliyyət göstərməməsi neft-qazçıxarma idarələrinin nəqliyyat sisteminə də mənfi təsir etmişdir. Belə ki, neft-qazçıxarma idarələrinin tərkibindəki nəqliyyat sexinin maşın parkının gücündən bu və ya digər obyektiv və subyektiv səbəblərdən tam istifadə edilmir. Odur ki, neft-qazçıxarma idarələrinin sərəncamında olan nəqliyyat vasitələrindən səmərəli istifadə etmək məqsədilə onları icarəyə və ya müvəqqəti xidmət üçün digər təşkilat və ya şəxslərin sərəncamına vermək olar. Ehtiyacdan artıq avtomobil və traktorları pullu xidmətə cəlb etmək də məqsədəuyğun olardı. Belə-

*Cədvəl 100*

***Tikinti-quraşdırma işlərinə çəkilən xərclərin strukturu, %***

| İllər | Cəmi | o cümlədən | | | | |
|---|---|---|---|---|---|---|
| | | Material xərcləri | Əmək haqqı xərcləri | Sosial xərclər | Amortizasiya ayırmaları | Sair xərclər |
| 1995 | 100,0 | 43,7 | 24,2 | 8,4 | 1,6 | 22,1 |
| 1996 | 100,0 | 60,4 | 22,0 | 7,9 | 2,9 | 6,8 |
| 1997 | 100,0 | 64,5 | 15,8 | 6,2 | 4,1 | 9,4 |
| 1998 | 100,0 | 68,2 | 13,8 | 5,9 | 2,8 | 9,3 |
| 1999 | 100,0 | 56,0 | 16,4 | 7,4 | 4,4 | 16,0 |
| 2000 | 100,0 | 55,3 | 12,0 | 7,0 | 4,1 | 21,6 |
| 2001 | 100,0 | 58,2 | 14,8 | 6,6 | 4,4 | 16,0 |
| 2002 | 100,0 | 62,1 | 14,9 | 6,7 | 4,8 | 13,5 |
| 2003 | 100,0 | 62,2 | 11,2 | 3,8 | 3,7 | 19,1 |
| 2004 | 100,0 | 63,2 | 12,2 | 3,9 | 3,6 | 17,1 |

liklə, neft-qazçıxarma idarələrində lizinq əməliyyatından da müəyyən miqdarda qazanc əldə etmək olar.

Sənayenin digər sahələrində olduğu kimi, neft sənayesində də istehsal xərclərinin mühüm ünsürlərindən biri əməkdən istifadə ilə əlaqədar xərclərdir. Bu xərclər neft sənayesində xam neftin maya dəyərinin təqribən 20-25%-ni təşkil edir ki, bu da sənayenin digər sahələrinə nisbətən neft-qazçıxarma idarələrində orta aylıq nominal əmək haqqının yüksək olmasını təmin edir. Məsələn, 1999-cu ildə neft sənayesində orta aylıq nominal əmək haqqı 599 min manat təşkil etmişdir. Deməli, neft-qazçıxarma idarələrində işi səmərəli təşkil etməklə boşdayanma hallarını minimuma endirmək olar ki, bu da əmək haqqı xərclərini xeyli azaltmağa imkan verərdi.

İstehsal xərclərinin tərkibində sair xərclər də az deyildir. Belə ki, neft-qazçıxarma idarələrində 1 ton xam neftin maya dəyərində digər xərclər kateqoriyasına aid edilən sabitləşmə fonduna ayırmalar, mədən vergisi, torpaq üçün ödənişlər ümumi istehsal xərclərin təqribən 20%-dən çox hissəsini təşkil edir. Son zamanlar enerji daşıyıcılarının və materialların qiymətlərinin sürətlə artması nəticəsində istehsal xərclərinin ünsürləri arasındakı nisbətlərdə ciddi dəyişikliklərin əmələ gəlməsinə səbəb



olmuşdur. Hazırda 1 ton xam neftin hasilatında köhnə neft mədənlərində neftin çıxarılması üçün enerji və avadanlıqların saxlanılması və istismarı ilə əlaqədar xərclər maya dəyərinin çox hissəsini, təqribən 45%-ə qədərini təşkil edir.

Beləliklə, neft-qazçıxarma idarələrində karbohidrogenlər hasilatına çəkilən xərclərin azaldılmasının və onların maya dəyərinin aşağı salınmasının müxtəlif ehtiyatları və amilləri mövcuddur. Karbohidrogenlər hasilatına çəkilən xərclərin azaldılması və onların maya dəyərinin aşağı salınması ehtiyatları dedikdə, bütövlükdə neft-qazçıxarma idarələrində və onların ayrı-ayrı struktur bölmələrində karbohidrogenlərin maya dəyərinin və məhsul vahidinin istehsalına sərf edilən xərclərin aşağı salınmasının obyektiv imkanları nəzərdə tutulur. Bu növ ehtiyatların yaranma mənbələrinə aşağıdakılar daxildir: karbohidrogenlər hasil edilən struktur bölmələrində əmək məhsuldarlığının artırılması; texnoloji maşın və avadanlıqlardan istifadənin yaxşılaşdırılması; material-enerji ehtiyatlarından səmərəli və qənaətcil istifadənin təşkili; istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi və qabaqcıl istehsal təcrübəsinin geniş tətbiq edilməsi; mütərəqqi texnologiyanın, yəni tullantısız texnologiyanın tətbiqi; idarəetmə və xidmətetmə xərclərinin azaldılması və s.

Karbohidrogenlərin maya dəyərinin aşağı salınması və onların hasilatına çəkilən xərclərin azaldılması amilləri dedikdə, bu azalmanı təmin edən şərtlər nəzərdə tutulur. Məhsulun maya dəyərinin aşağı salınması və karbohidrogenlər hasilatına çəkilən xərclərin azaldılması amillərinə aiddir: istehsalın texnoloji cəhətdən yenidən qurulmasının təşkili; istehsalın və əməyin təşkilinin təkmilləşdirilməsi; buraxılan məhsulun strukturunun təkmilləşdirilməsi və s.

Yuxarıda deyilənlərdən və aparılan araşdırmalardan aydın olur ki, Azərbaycanın neft sənayesində istehsalın səmərəliliyini yüksəltmək və əməyin məhsuldarlığını artırmaq, bu sahədə dünyanın bir çox ölkələrində əldə edilmiş təcrübədən istifadə etmək, istehsal xərclərini azaltmaq neft hasilatının artırılması istiqamətində müəyyən müsbət nəticələr verə bilər.

Faktiki materialların təhlili göstərir ki, Azərbaycan Respublikasının Dövlət Şirkətində (ARDNŞ) neft və qazın maya dəyəri 1998-ci ildən başlayaraq, ta 2001-ci illədək aşağı düşməyə meyl etdiyi halda, 2002-ci ildən hazırkı dövrə qədər qalxmağa başlamışdır. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti üzrə neft və qazın maya dəyərini əks etdirən məlumatlar cədvəl 101-də verilmişdir.

*Cədvəl 101*

***ARDNŞ üzrə neft və qazın faktiki maya dəyərinin dinamikası***

| İllər | Neftin maya dəyəri, manat-ton | Qazın maya dəyəri, manat-kubmetr |
|---|---|---|
| 1998 | 509903 | 372902 |
| 1999 | 403665 | 282531 |
| 2000 | 467784 | 347950 |
| 2001 | 457755 | 365254 |
| 2002 | 159405 | 90208 |
| 2003 | 164946 | 90242 |
| 2004 | 189311 | 104797 |
| 2005 | 194731 | 120347 |



# FƏSİL 17. SAHƏDƏ MALİYYƏ MENECMENTİ VƏ LİZİNQ XİDMƏTİ

## 17.1. Sahədə maliyyənin zəruriliyi, mahiyyəti və funksiyaları

Bazar iqtisadiyyatına keçid dövrü, mərhələsi iqtisadiyyatın inzibati-amirlik üsulları ilə idarə edilməsindən yeni iqtisadi üsullara keçilməsini zəruri edir. Bu isə öz növbəsində güclü iqtisadi maddi-texniki bazanın yaradılmasını tələb edir ki, bu da düzgün maliyyə sisteminin həyata keçirilməsi ilə bilavasitə bağlıdır. Deməli, iqtisadiyyatın digər sahələrində olduğu kimi, neft sənayesində və onun struktur bölmələrində maliyyə siyasəti düzgün müəyyən edilməlidir. Bu sahədə dövlət maliyyə-kredit, vergi, qiymət və s. bu kimi iqtisadi alətlərdən geniş istifadə etməlidir. Maliyyə özü-özlüyündə mübadilə, dəyər, qiymət və s. bu kimi iqtisadi formalardan biridir. Onun mövcud olması və fəaliyyəti, alqı-satqı münasibətləri ilə şərtlənir və birbaşa əlaqəlidir.

Məlumdur ki, cəmiyyət mütləq idarə edilməlidir. Bu idarəetmə funksiyanı, adətən dövlət yerinə yetirir. Dövlətin isə idarəetmə sahəsindəki birinci dərəcəli funksiyası, vəzifəsi maddi imkanların idarə edilməsindən ibarət olmalıdır. Çünki maddi nemətlər düzgün və səmərəli idarə edilməzsə, iqtisadiyyatın digər sahələrinin idarə edilməsinə ehtiyac qalmaz. Belə imkan isə dövlətin sərəncamında toplanan pul vəsaitləri və onun qədəridir. Onu da nəzərə almaq lazımdır ki, axı, dövlətin idarəetmə sahəsindəki fəaliyyəti yalnız iqtisadiyyat sahəsi ilə məhdudlaşmır, ictimai həyatın sosial, siyasi, mədəni və s. sahələri mövcuddur. Digər tərəfdən, çoxtəsərrüfatlı iqtisadiyyat şəraitində istər-istəməz alqı-satqı münasibətləri baş verir, qarşılıqlı ödəmələr həyata keçirilir. Bütün bunlar isə maliyyə münasibətlərinin mövcudluğunu zəruri edir.

***Maliyyə*** dedikdə, sahədə pul vəsaitləri fondlarının bölgüsü, yenidən bölgüsü və istifadəsi ilə bağlı yaranan münasibətlər sistemi nəzərdə tutulur. Bu münasibətlər dövlətlə hüquqi və fiziki şəxslər, hüquqi şəxslər, həmçinin də dövlətlər arasında baş verir. Deməli, maliyyə münasibətləri iqtisadi münasibətlər-

lə bilavasitə bağlı olub, onunla üzvi vəhdət təşkil edir. İqtisadi münasibətlərin bir qismini özündə əhatə etdirən maliyyə, sahənin və dövlətin iqtisadi inkişaf səviyyəsindən asılıdır. Bu gün maliyyə, kredit və pul tədavülü kimi məsələlər keçid iqtisadiyyatı dövrünün ən mühüm, aktual və əhəmiyyət kəsb edən problemlərindən biridir. İndi möhkəm və sağlam maliyyə sistemi və resursları olmadan, təkrar istehsal prosesini normal həyata keçirmək mümkün olmaz. Odur ki, heç də təsadüfi deyildir ki, maliyyə ilə bağlı olan məsələlər daima dövlətin, o cümlədən də sahənin iqtisadi siyasətində xüsusi yer tutur və ona xüsusi diqqət yetirilir. Lakin buna baxmayaraq, ölkə iqtisadiyyatında və əhalinin rifah halının yaxşılaşdırılmasında hələlik ciddi dönüş yaradılmamışdır, yəni hazırkı durum bir o qədər də sevindirici və ürəkaçan deyildir. Odur ki, bizim əsas vəzifəmiz iqtisadiyyatın bütün sahələrində dinamik inkişafa nail olmaqdan ibarətdir. Bu isə yalnız yerli və xarici kapitalın gücü və yardımı hesabına həyata keçirilə bilər.

Bundan başqa, dünya ölkələrinin təcrübəsi göstərir ki, iqtisadiyyatı dinamik inkişaf etdirmək üçün hər bir dövlətin konkret şəraitdən asılı olaraq real vəziyyəti özündə əks etdirən iqtisadi inkişaf proqramı olmalıdır. İstər ölkə miqyasında, istərsə də sahə çərçivəsində iqtisadi inkişaf proqramını işləyib hazırlamaq üçün isə dövlətin və sahənin maliyyə imkanları mütləq nəzərə alınmalıdır. Deməli, maliyyə zəruri və vacib iqtisadi alətdir, o iqtisadi münasibətlərin mühüm tərkib hissəsidir. Maliyyə nəinki dövlətin, eyni zamanda sahənin iqtisadi siyasətinin həyata keçirilməsində fəal rol oynayır. Nəzərə almaq lazımdır ki, maliyyə, kredit və pul tədavülü ilk növbədə maddi istehsala əsaslanır və eyni zamanda istehsalın inkişafına birbaşa təsir göstərir.

Maliyyənin bölüşdürücü, nəzarət və operativ funksiyalarını fərqləndirirlər. Maliyyənin bölüşdürücü funksiyasının mahiyyəti ondan ibarətdir ki, bu zaman məcmu ictimai məhsul və milli gəlirin bölgüsü və yenidən bölgüsü prosesi həyata keçirilir. Nəzarət funksiyası özünü cəmiyyətdə, eləcə də sahədə pul vəsaitləri fondlarının əmələ gəlməsi, bölgüsü və istifadəsi üzərindəki iqtisadi nəzarətdə büruzə verir. Aydındır ki, nəzarət pul münasibətləri vasitəsilə yerinə yetirilir. Nəzarət sahənin geniş dairəsini, yəni istehsal sahəsindən tutmuş, ta qeyri-istehsal sahələrinə kimi olan fəaliyyəti əhatə edir. Maliyyənin mühüm əlamətlərindən biri maliyyə resurslarının hərəkəti ilə bağlıdır. Deməli, maliyyə resursları maliyyə münasibətlərinin maddi daşıyıcısı rolunu oynayır, yəni iqtisadi prosesləri maliyyə resurslarsız təsəvvür etmək olmaz. Bu baxımdan, maliyyə münasibətləri ictimai həyatda təsərrüfatçılığın müxtəlif formalarından asılı olmayaraq həmişə təkrar istehsalın ayrılmaz tərkib hissəsi kimi qalır və fəaliyyət göstərir.



## 17.2. Neft-qazçıxarma idarələrində maliyyə sistemi və onun subyektləri

Bazar iqtisadiyyatına keçid dövründə hər bir neft-qazçıxarma idarəsinin maliyyə vəziyyəti, respublikamızın digər müəssisə və təşkilatlarında olduğu kimi, bilavasitə onların istehsal-təsərrüfat fəaliyyətindən asılıdır. İstehsal proqramının müvəffəqiyyətlə yerinə yetirilməsi, əmək məhsuldarlığının artması və neft-qaz hasilatının maya dəyərinin aşağı salınması neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin yaxşı olmasının həlledici şərtidir. Bununla belə, istehsal proqramının yerinə yetirilməsi, istehsalının ahəngdarlığının təmin olunması və neft-qazçıxarma idarəsinin fəaliyyətini xarakterizə edən digər göstəricilərin yaxşılaşdırılması onun maliyyə vəziyyətindən asılıdır. Əgər maliyyə təsərrüfatı yaxşı təşkil olunarsa, pul vəsaiti vaxtında və nəzərdə tutulmuş həcmdə daxil olursa və öz təyinatına uyğun olaraq istifadə edilirsə, onda neft-qazçıxarma idarəsi də istehsal proqramını yerinə yetirmək imkanına malik olur və bu zaman pul resurslarının çatışmaması kimi hallara rast gəlmir. Əksinə, neft-qazçıxarma idarəsi öz maliyyə təsərrüfatını pis aparırsa, o zaman maliyyə vəsaiti çatışmaması kimi çətinliklə üzləşəcəkdir ki, bu da istehsalın normal gedişatına, neft və qaz hasilatı üzrə tapşırığın yerinə yetirilməsinə mənfi təsir göstərəcəkdir.

Hazırda respublikamızda fəaliyyət göstərən əksər müəssisələrin, o cümlədən də neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətləri bəzi obyektiv və subyektiv səbəblər üzündən müəyyən qədər pisləşmişdir. Belə bir hal onların maliyyə vəziyyətlərinin yaxşılaşdırılmasını zəruri edir. Neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin pisləşməsinin daxili və xarici səbəb-

lərini fərqləndirirlər. ***Daxili səbəblərə aiddir:*** neft-qazçıxarma idarələrinin təşkilati quruluşu; tətbiq olunan texnika və texnologiyanın vəziyyəti; xammal və materialların keyfiyyəti; maşın və avadanlıqların yaşı, yeniliyi və s.

Neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin pisləşməsinin ***xarici səbəblərinə aiddir:*** əmək, material və kapital resursları; istehlakçıların alıcılıq qabiliyyəti; rəqiblər; sosial-mədəni və siyasi amillər; elmi-texniki tərəqqi; istehsalın beynəlmiləlləşdirilməsi; xarici ölkə müəssisələri ilə əməkdaşlıq və s. Odur ki, neft-qazçıxarma idarələri istehsal əlaqəsində olduqları müəssisə və təşkilatların fəaliyyətini, tədiyyə qabiliyyətliliyini və digər parametrlərini müntəzəm surətdə izləməli, onlarda aparılan dəyişiklikləri yoxlamalıdır.

Neft-qazçıxarma idarəsinin maliyyə vəziyyətinin yaxşılaşdırılmasının ayrılmaz tərkib hissəsi kimi sanasiya və maliyyə vəziyyəti pisləşmiş idarənin yenidən qurulması çıxış edir. ***Sanasiya*** – borclunun ləğv edilməsinin qarşısını almaq məqsədilə onun mülkiyyətçisi, kreditorlar, əmək kollektivləri və ya digər şəxslər tərəfindən maliyyə yardımı göstərilməsi yolu ilə borclunun yenidən təşkil edilməsidir. Maliyyə vəziyyəti pisləşmiş ***neft-qazçıxarma idarəsinin yenidən qurulması*** isə kreditorların tələbini ödəmək məqsədilə onun mülkiyyətçisi, müdiriyyəti və ya səlahiyyətli nümayəndəsi tərəfindən həmin idarənin əmlakını bölmək, hamısını və ya bir qismini həmin əmlaka ehtiyacı olan digər təsərrüfat subyektlərinə vermək yolu ilə neft-qazçıxarma idarəsinin strukturunun dəyişdirilməsidir (ya da birləşdirilməsidir).

Bazar iqtisadiyyatı şəraitində maliyyə vəziyyəti pisləşmiş müəssisələrin sağlamlaşdırılması üçün biznes-plan (sanasiya layihəsi) işlənib hazırlanır. Adətən, sanasiyanın müddəti 18 ay müəyyən edilir, lakin zəruri hallarda onun müddəti 24 aya kimi uzadıla bilər. Sağlamlaşdırma prosesini həyata keçirərkən iki növ taktikadan: müdafiə və hücum taktikasından istifadə edilir.

***Müdafiə taktikası*** – müdafiə xarakterli tədbirlərə əsaslanır. Bura istehsal xərclərinin azaldılması, lüzumsuz və səmərəsiz istehsal və idarəetmə bölmələrinin ləğv edilməsi, istehsalın və satışın azaldılması və idarəetmə heyətinin ixtisar edilməsi üzrə tədbirlər daxildir. Bunlar da istehsal və satışla əlaqədar olan bütün xərclərin ixtisarını nəzərdə tutur. Bu da neft-qaz hasilatının azalmasına, satışın həcminin minimuma endirilməsinə və beləliklə də, mənfəətin azalmasına gətirib çıxarır. Belə taktikadan müəssisə əlverişsiz xarici mühitə malik olduqda istifadə edilir. Bazar iqtisadiyyatına keçid dövründə Azərbaycan Respublikasında fəaliyyət göstərən həm iri (məsələn, neft və neft-kimya müəssisələri, «Çinar» İstehsal Birliyi, «Bakkondisioner» İstehsal Birliyi, Dəniz Stasionar İstehsal Birliyi və s.), həm də kiçik müəssisələr bu cür taktikadan istifadə edirlər.



İnkişaf etmiş dünya ölkələrinin təcrübəsi göstərir ki, müəssisələr müdafiə taktikasından istifadə etdikdə, onların maliyyə vəziyyəti bir o qədər də yaxşılaşmır. Çünki bu zaman əsas diqqət müəssisədaxili operativ vəzifələrin həllinə yönəldilir. Həqiqətdə isə müəssisənin maliyyə vəziyyətinin pisləşməsi səbəbləri müəssisdən kənarda yerləşə bilər. Müəssisədaxili operativ vəzifələrə aiddir: zərərlərin aradan qaldırılması; xərclərin ixtisar edilməsi; maliyyə intizamının möhkəmləndirilməsi; kreditorlarla dil tapıb ödəmə müddətlərinin uzadılması; kadr dəyişiklikləri, yəni maliyyə işlərindən başı çıxmayan işçilərin maliyyə sistemindən uzaqlaşdırılması; bacarıqlı mütəxəssislərin işə cəlb olunması; mövcud istehsal və maliyyə resurslarından səmərəli istifadə edilməsi, güzəştli kreditlərdən istifadə edilməsi.

Beləliklə, müəssisənin maliyyə vəziyyətinin sağlamlaşdırılmasında hücum taktikasından istifadə edilməsi daha məqsədəuyğundur, çünki bu zaman əsas diqqət operativ vəzifələrin həllinə deyil, strateji məsələlərin həllinə daha çox üstünlük verilir. ***Hücum taktikasının*** əsasını istehsal ehtiyatlarından səmərəli istifadə, aktiv marketinq fəaliyyətinin təşkili, daha yüksək qiymət siyasəti, istehsalın təkmilləşdirilməsinə çəkilən xərclərin azaldılması, əsas istehsal fondlarının yeniləşdirilməsi, perspektiv və qabaqcıl texnologiyanın(məsələn, tullantısız və ya az tullantılı texnologiya) tətbiqi, həmçinin idarəetmənin təkmilləşdirilməsi təşkil edir. Konkret şəraitdən asılı olaraq sanasiyası nəzərdə tutulan hər bir müəssisə üzrə sanasiya konsepsiyası işlənib hazırlanır ki, burada da aşağıdakı tədbirlər əks etdirilir:

***a) müəssisənin maliyyə vəziyyətinin sağlamlaşdırılması üzrə tədbirlər*** – maliyyə resurslarından səmərəli istifadəni, dövlət büdcəsinə ödəmələrin vaxtlı-vaxtında və tam keçirilməsini, bank kreditlərinin qaytarılmasını, əmək haqqı fondunun

formalaşmasını və ondan istifadəni və s. nəzərdə tutur. Belə tədbirləri müəssisənin maliyyə şöbəsinin mütəxəssisləri işləyib hazırlayır və onların həyata keçirilməsi üzərində nəzarəti həyata keçirir;

***b) müəssisənin marketinq fəaliyyətinin sağlamlaşdırılması üzrə tədbirlər*** – müəssisənin istehsal və satış fəaliyyətinin idarə edilməsi, bazarın kompleks təhlili ilə əlaqədar işləri əhatə edir və istehsal edilmiş məhsulun satılması və maksimum mənfəət götürülməsi probleminin həllinə yönəldilir. Belə tədbirlərin həyata keçirilməsində əsas məqsəd istehlak tələbini məqsədəuyğun formalaşdırmaq və müəssisənin mənfəətliyinə tabe etməkdir;

***c) istehsalın texniki cəhətdən sağlamlaşdırılması üzrə tədbirlər*** – mövcud istehsalatların intensivləşdirilməsi, istehsal gücünün artırılması, əmək məhsuldarlığının yüksəldilməsi, buraxılan məhsulların (xidmətlərin) keyfiyyətinin yaxşılaşdırılması və s. məqsədini güdür. Bəzi hallarda istehsalın texniki cəhətdən sağlamlaşdırılması üçün fəaliyyət göstərən müəssisələr yenidən qurulur ki, bu da əsas təyinatlı binaları və qurğuları genişləndirmədən əsas, köməkçi və xidmətedici sex və təsərrüfatların yenidən qurulmasını nəzərdə tutur və elmi-texniki tərəqqinin nailiyyətləri əsasında istehsalın təkmilləşdirilməsi, onun texniki-iqtisadi səviyyəsinin yüksəldilməsi ilə bağlıdır. İstehsalın texniki cəhətdən sağlamlaşdırılmasına texnoloji pillələrdəki qeyri-mütənasibliyin aradan qaldırılması, aztullantılı və ya tullantısız texnologiyanın tətbiqi, lüzumsuz iş yerlərinin sayının azaldılması və s. ilə nail olunur;

***ç) idarəetmənin sağlamlaşdırılması üzrə tədbirlər*** – idarəetmə aparatının saxlanılması xərclərinin azaldılmasını nəzərdə tutur. İstehsalın idarə edilməsi aşağıdakı vəzifələrin həllinə yönəldilməlidir: məhsulun nəzərdə tutulmuş miqdarda, çeşiddə, keyfiyyətdə və vaxtlarda hazırlanmasını təmin etmək; əmək kollektivinin sosial inkişafı, əməkçilərdə əmək təşəbbüskarlığının təzahürü, onların mədəni, məişət, mənzil və digər tələbatlarının ödənilməsi üçün lazımi şərait yaratmaq;

***d) investisiyaların sağlamlaşdırılması üzrə tədbirlər*** – investisiya qoyuluşunun iqtisadi səmərəliyinin artırılmasını nəzərdə tutur. İnvestisiya qoyuluşunun iqtisadi səmərəliliyinin yüksəldilməsi – istehsalın intensivləşdirilməsinin mühüm istiqamətlərindən biridir. Bu məqsədlə investisiya elə sahələrə (obyektlərə) yönəldilməlidir ki, onlar tələbatı daha tam ödəmək şərtilə, müəssisənin fəaliyyət dövrü ərzində ictimai istehsalın normal gedişatını təmin etmiş olsun.



Maliyyə vəziyyəti pisləşmiş müəssisənin sanasiyasında mühüm sənəd sanasiya üzrə tədbirləri özündə əks etdirən sanasiya biznes-planıdır, sanasiya layihəsidir. Sanasiya biznes-planda müəssisənin istehsal, maliyyə, marketinq, texnika və digər fəaliyyət sferasında baş verən dəyişiklikləri göstərilir. Sovet dövründə bu plan əvəzinə müəssisənin texniki-sənaye-maliyyə planı işlənib hazırlanırdı. Lakin sanasiya biznes-planı həmin texniki-sənaye-maliyyə planından həm məzmununa və həm də fəaliyyət dövrünə görə fərqlənir. Belə ki, texniki-sənaye-maliyyə planı 12 ay müddətinə 13 bölmədən ibarət olaraq tərtib edilirdi. Müəssisənin sanasiya biznes-planı isə 18-24 ay, bəzən də daha uzun müddətə tərtib olunur və bir-birilə qarşılıqlı əlaqədə olan aşağıdakı iki vəzifəni yerinə yetirir.

Biznes-planın yerinə yetirdiyi birinci vəzifə maliyyə vəziyyəti pisləşmiş müəssisənin heyətinə və rəhbərliyinə lazımdır. Bura məhsul istehsalı və satışı ilə əlaqədar olan məqsəd və vəzifələrin əsaslandırılması və ya müəssisənin böhran vəziyyətindən çıxarılmasına və satış bazarında möhkəm mövqeyin qorunub-saxlanılmasına yardım edən dəyişikliklər daxildir.

Biznes-planın yerinə yetirdiyi ikinci vəzifə isə müəssisənin böhran vəziyyətindən çıxarılmasına yönəldilən maliyyələşdirməyə investorları inandırmaqdır. Sanasiya biznes-planı işlənib hazırlanarkən daha çox diqqət məhz bu vəzifənin yerinə yetirilməsinə yönəldilməlidir.

Müəssisənin maliyyə vəziyyətinin sağlamlaşdırılması üzrə işlənib hazırlanmış biznes-planlar tərkibinə, quruluşuna, yerinə yetirdiyi vəzifələrə və fəaliyyətlərinin miqyasına görə bir-birindən fərqlənirlər. Buna baxmayaraq, elə bölmələr vardır ki, onlar bütün biznes-planlarda öz əksini tapır. Adətən, sanasiya biznes-planı aşağıdakı bölmələrdən ibarət olaraq tərtib edilir:

– ***xülasə və annotasiya bölməsi*** – biznes-planın əsas bölmələrindən biridir. Çünki investorlar bu bölmə ilə tanış olduqdan sonra sanasiya üzrə tədbirlərin həyata keçirilməsi məqsədilə

təşkil olunmuş müsabiqədə iştirak etmək qərarına gəlirlər. Digər tərəfdən, əgər xülasə sanasiyada maraqlı olan tərəflərdə maraq doğurmasa onda sanasiya layihəsi müsabiqədən keçə bilməyəcəkdir. Xülasə və annotasiya bölməsinin həcmi dörd çap səhifəsindən artıq olmamalıdır. O, sadə və lakonik olmalıdır. Burada minimum terminlər işlədilməlidir və ən çox diqqət ona yönəldilməlidir ki, məhz neyə görə müəssisənin gələcək məhsulu və ya xidməti digər məhsul və xidmətlərdən fərqlənir və neyə görə istehlakçılar, alıcılar məhz həmin müəssisənin məhsul və xidmətlərini əldə etməyə çalışacaqlar. Sanasiya biznes-planında müəssisənin satış həcmi, satışdan əldə ediləcək mənfəətin məbləği, istehsal xərclərinin kəmiyyəti, borc aldığı vəsaitlərin nə vaxt qaytarılacağı və s. göstərilməlidir;

– ***müəssisə biznesinin ümumi xüsusiyyətləri bölməsi*** – biznes-planın digər bölmələrinin əsas göstəriciləri, bazara təklif edilən məhsul və ya xidmətin keyfiyyət parametrləri: etibarlılığı, uzunömürlülüyü, erqonomikliyi, patent təmizliyi, nəzərdə tutulan istehlakçıların vəziyyəti, istifadə ediləcək xammal və materiallar haqqında məlumatları özündə əks etdirir. Bundan başqa, bu bölmədə müəssisənin fəaliyyət göstərdiyi sahənin vəziyyəti, əsas rəqiblərinin iş təcrübəsi, satış və gəlirlərin artımı, bazara yeni daxil olan və çıxan subyektlər barədə də təklif və tədbirlər göstərilə bilər.

– ***satış bazarının qiymətləndirilməsi bölməsi*** – istehlakçıların alıcılıq qabiliyyəti, məqsədli bazarların seçilməsi, satış kanallarının və vasitələrinin qiymətləndirilməsi və bazardakı rəqabət ilə əlaqədar tədbirləri özündə əks etdirir. İstehlakçıların alıcılıq qabiliyyətinin həcmi vergi tutulmuş pul gəlirinin məbləğinə bərabərdir. İstehlakçıların alıcılıq qabiliyyətinin strukturu – qiymətlərin və tariflərin mövcud səviyyəsi ilə onların müxtəlif qrup mallar və pullu xidmətlər əldə edilməsinə çəkdiyi xərclər arasındakı nisbətdir.

Adətən, məqsədli bazarın seçilməsi özündə aşağıdakı dörd mərhələni birləşdirir: birincisi, tələbatın ölçülməsi və proqnozlaşdırılması mərhələsi – indiki və gələcək bazar həcmini daha dəqiq qiymətləndirməyə imkan verir; ikincisi, bazarın seqmentləşdirilməsi – istehlakçıların ehtiyaclarındakı, xarakterlərindəki və ya davranışlarındakı fərqlər əsasında bölgüsünü səciyyələndirir; üçüncüsü, bazarın məqsədli seqmentinin seçilməsi – ən səmərəli bazar seqmentinin müəyyən edilməsini məqsədini daşıyır; dördüncüsü, bazarda əmtəənin mövqeyinin müəyyənləşdirilməsi – şübhə doğurmayan, başqalarından aydın fərqlənən məhsul üçün bazarda və məqsədli istehlakçıların şüurunda arzu edilən yerin təmin olunmasıdır.



***Rəqabət*** latın sözü olub «toqquşma», «bəhsləşmə» deməkdir. Rəqabət nəticəsində istehsalçı və istehlakçılar bərabər imkanlara malik olmalarına baxmayaraq, bu imkandan daha səmərəli istifadə etməklə qalib gəlmək istəyi həmişə onları istehsalın nəticəsini yaxşılaşdırmağa stimullaşdırır. Adətən, rəqabət bir tərəfdən istehsalçıların öz aralarında, ikinci tərəfdən isə, istehsalçıların öz aralarında mənafelərinin reallaşması uğrunda mübarizəni əks etdirir. Bu mübarizə isə həmişə onları istehsalı təkmilləşdirməkdə, inkişaf etdirməkdə maraqlı edir, çünki rəqabət mübarizəsinə dözmədikdə həmişə iflasa uğramaq təhlükəsi var. Beləliklə, rəqabət bazar iqtisadiyyatı şəraitində müəssisələrin maliyyə vəziyyətinin yaxşılaşdırılmasının başlıca amilidir. Rəqabət nəticəsində təsərrüfat subyektləri həmişə bir-birini ötməyə və iqtisadi göstəricilərini yaxşılaşdırmağa sövq etdirir, bir-birindən geri qalmamağa çalışdırır;

– ***marketinq strategiyası bölməsi*** – özündə məhsul satışının stimullaşdırılması, reklam və satışdan sonra istehlakçılara göstərilən xidmətin qiymət siyasəti ilə bağlı tədbirləri əhatə edir. Marketinq strategiyasını işləyib hazırladıqda müəssisənin nəzərdə tutduğu satış həcminə hansı yollarla nail olacağı araşdırılır və rəqib müəssisələrin məhsul və xidmətlərinin güclü və «zəif» tərəflərinə real qiymət verilir. Müəssisənin məhsul və xidmətləri rəqib müəssisənin məhsul və xidmətlərinin qiymətlərinin səmərəliyi, etibarlığı, texniki xidmətin xüsusiyyətləri və s. ilə müqayisə edilir. Müntəzəm olaraq bazarın seqmentləşdirilməsi, məqsədli bazarın seçilməsi, müəssisənin bazarda mövqeyinin möhkəmləndirilməsi, satış kanallarının maliyyələşdirilməsi, satışın stimullaşdırılması, məhsul və xidmətlərin reklamlaşdırılması və təbliğatı yolları müəyyən edilir. Digər tərəfdən, marketinq strategiyası tərtib edildikdə qiymətqoymaya xüsusi fikir verilməlidir. Çünki məhsul və xidmətlərə qoyulan qiymət həddi bazarın konyunkturasına cavab verməlidir. Qiy-

mət müəssisədə təklifin səviyyəsini sabit saxlamağa və artırmağa, rəqabətin olmasına baxmayaraq bazarda müəssisənin iştirakını saxlamağa və genişləndirməyə, bunların nəticəsində mənfəət əldə etməyə imkan verməlidir. Marketinq strategiyasının müvəffəqiyyətlə həyata keçirilməsində reklam, satışın stimullaşdırılması və təbliğat mühüm rol oynayır. ***Reklam*** dedikdə, özündə maliyyələşdirmə mənbəyi dəqiq göstərilməklə, pullu informasiya yığımı vasitələrinin köməyi ilə şəxsi olmayan əlaqə formaları, ***satışın stimullaşdırılması*** dedikdə, bazarın cavab reaksiyasını sürətləndirmək və ya gücləndirmək üçün stimullaşdırıcı təsiri olan müxtəlif vasitələrdən istifadə olunması, ***təbliğat*** dedikdə isə özündə konkret vəzifənin həllinə köməklik göstərilməsi üçün müəssisənin mövcud və potensial müştəriləri tərəfindən oxunulması, baxılması və eşidilməsi məqsədilə münasib olan bütün informasiya yayımı vasitələrindən, redaksiya yerindən və ya vaxtından pulsuz istifadə olunması nəzərdə tutulur;

– ***məhsul və istehsal strategiyası bölməsi*** – məhsul və xidmətlər, operativ sifarişlər, istehsalın inkişaf perspektivləri, istehsal və əmək şəraitinin yaxşılaşdırılması üzrə təbirləri özündə əks etdirir;

– ***məhsulun yenidən işlənməsi və dizayn bölməsi*** – müəssisənin maliyyə vəziyyətinin yaxşılaşdırılmasında mühüm rol oynayır. Ona görə də sanasiya biznes-planın bu bölməsi tərtib edilərkən və istehsalın inkişaf konsepsiyası müəyyən edilərkən hansı vasitələrlə istehsal gücünün artırılması imkanları araşdırılır. Fəaliyyətdə olan müəssisə aşağıdakı üsullarla öz istehsal gücünü genişləndirə bilər: a) daxili maliyyə resurslarını səfərbərliyə almaqla; b) lisenziya almaqla; v) mənfəətlə işləyən digər müəssisəyə qovuşmaqla, birləşməklə; q) müştərək müəssisə yaratmaqla; e) hazırda müəssisəyə lazım olmayan maşın və avadanlıqları, həmçinin istehsal sahəsinin bir hissəsini, qismini icarəyə verməklə; ə) podrat müqaviləsi əsasında birgə tikinti-quraşdırma işlərini həyata keçirməklə və s.

– ***təşkilati və hüquqi bölmə*** – İdarəetmənin təkmilləşdirilməsi ilə əlaqədar olan tədbirləri əhatə edir. Çünki müəssisənin maliyyə vəziyyətinin sağlamlaşdırılmasının mühüm istiqamətlərindən biri istehsalın idarə edilməsi sisteminin təkmilləşdirilməsindən ibarətdir. Menecmentin müasir tələblərinə uyğun olaraq təşkilati quruluşda müvafiq dəyişikliklər aparılmalı və hakimiyyət xətti dəqiqləşdirilməlidir. Yeni yaradılan istehsal və funksional bölmələrin fəaliyyətləri, vəzifələri və səlahiyyətləri açıqlanmalıdır. İstehsalın idarə edilməsinin təkmilləşdirilməsinə və idarəetmə xərclərinin azaldılmasında texniki vasitələrdən, xüsusilə avtomatlaşdırılmış idarəetmə sistemindən (AİS) istifadə olunması mühüm rol oynaya bilər. AİS-də idarə olunan obyektin vəziyyəti haqqında məlumatların verilməsi, saxlanılması və yenidən işlənməsi iqtisadi-riyazi metodların və modellərin, elektron-hesablama texnikasının köməyi ilə avtomatik yerinə yetirilir. AİS-də insanın rolu məlumatların işlənməsinin metod və vasitələrini seçməkdən, həmçinin qərarlar qəbul etməkdən ibarətdir;



– ***risk və problemlər bölməsi*** – riskin idarə olunması, gözlənilməyən dəyişikliklərə və problemlərə reaksiya verilməsi və sığorta ilə əlaqədar tədbirləri əhatə edir. Məlumat üçün qeyd edək ki, neft sənayesi mürəkkəb və uzun müddət istehsal prosesini həyata keçirən sahələrdən biridir. Odur ki, neft-qaz yataqlarının işlənməsi müddətində neft və qaz hasilatı həcminin artması, onun sabitləşməsi, azalması və habelə köhnə yataqlarda qalmış karbohidrogen ehtiyatlarının mənimsənilməsi prosesi baş verir. Yataqların işlənməsi və istismarı investisiya qoyuluşları həcminin müntəzəm surətdə artırılmasını, fasiləsiz olaraq yeni neft-qaz quyularının işə salınmasını, dayanmış köhnə neft quyularının bərpasını və istismara qaytarılmasını tələb edir. Layihə-tədqiqat işlərinin başlanmasından ilkin neftin və ya qazın alınmasına qədər olan vaxt müddəti orta hesabla 4-6 il təşkil edir. Deməli, neft-qaz yataqlarının mənimsənilməsi çox risk tələb edir. Risk dedikdə, vəziyyətin müəyyən ehtimalla aydınlığı nəzərdə tutulur. Risklər məqsədlərinə, vəzifələrinə, yaranma mənbələrinə və aradan qaldırılması imkanlarına görə fərqlənirlər. Məsələn, neft-qaz yataqlarının işlənməsi layihəsinə etdiyi təsir xarakterinə görə risklər qeyri-həyat qabiliyyətli risklərə, borcun ödənilməsi ilə əlaqədar olan risklərə və bitməmiş-tikinti quraşdırma işləri risklərinə ayrılır; yaranma mənbələrinə görə – texniki, geoloji, qiymət, kredit, vergi, iqtisadi və siyasi risklər fərqləndirilir; aradan qaldırılması imkanlarından asılı olaraq risklər müntəzəm və qeyri-müntəzəm risklərə bölünür;

– ***elmi-tədqiqat və təcrübə-konstruktor işləmələri bölməsi*** – elmi-tədqiqat və təcrübə-konstruktor işləmələri ilə əlaqədar olan tədbirləri özündə əks etdirir. Elmi-tədqiqat və təcrübə-konstruktor işləmələri özünə təcrübə nümunələrinin layihələşdirilməsini, hazırlanmasını, sınaqdan keçirilməsini və sazlanmasını, həmçinin yeni məhsulun, yaxud yeni texnoloji proseslərin seriyalı və kütləvi istehsalının sonrakı təşkili üçün lazım olan texniki sənədlərin işlənib hazırlanmasını daxil edir. Təcrübə-konstruktor işləri nəzəri tədqiqatlara, ixtiralara, istehsal yenilikçilərinin təkliflərinə əsaslanır;

– ***maliyyə strategiyası bölməsi*** – müəssisənin maliyyə potensialından səmərəli istifadə olunması, mənfəətin artırılması və zərərlərin aradan qaldırılması, yaxud minimuma endirilməsi və mühasibat balansının təkmilləşdirilməsi üzrə tədbirləri əhatə edir.

Müəssisənin mövcud maliyyə potensialından səmərəli istifadə edilməsinin məqsədi elə iqtisadi və təşkilati vasitələr tapmaq və yoxlamaqdan ibarətdir ki, onların köməyi ilə əmək kollektivlərinin maddi mənafelərini sıx surətdə əlaqələndirmək, iqtisadi və sosial inkişafın sürətləndirilməsinin maliyyə ehtiyatlarını aşkara çıxarmaq üçün daha əlverişli iqtisadi şərait yaratmaq mümkün olsun. Bunun üçün bazar iqtisadiyyatına keçid dövründə müəssisələrin iqtisadi müstəqilliyi genişləndirilmiş, istehsalın son nəticələrinə görə onların maddi marağı gücləndirimlmiş və məsuliyyəti artırılmışdır. Müəssisələrin özxərclərini ödəməsi və özünümaliyyələşdirməsi prinsipləri əsasında işləməsi maliyyə potensialından səmərəli istifadəni təmin edən vacib şərtlərdən biridir.

Bazar iqtisadiyyatı şəraitində hər bir müəssisənin fəaliyyətinin nəticəsi əldə edilən mənfəətin məbləği ilə müəyyən edilir və mənfəətin artırılması istehsalın əsas məqsədi kimi çıxış edir. Məlumdur ki, mənfəətin məbləği satışdan əldə olunmuş pulla ümumi istehsal xərcləri arasındakı fərq kimi müəyyən edilir. Bazar iqtisadiyyatı şəraitində müəssisənin üç növ mənfəətini fərqləndirirlər: a) ***mühasibat mənfəəti*** – satışdan əldə edilən pulla müəssisənin xərclədiyi nağd pul (buna xarici xərclər deyilir) arasındakı fərqdir; b) ***iqtisadi mənfəət*** – satışdan əldə edilən pulla bütün istehsal xərcləri (bu, xarici və daxili xərclərin cəmindən ibarətdir) arasındakı fərqdir; c) ***normal mənfəət*** – sahibkar sahibkarlıq fəaliyyəti ilə məşğul olduğu üçün «öz əməyinə görə haqq» kimi aldığı gəlirdir (qazancdır). Gəlir dedikdə, müəyyən vaxt ərzində təsərrüfat fəaliyyəti nəticəsində əldə edilən pul vəsait nəzərdə tutulur. Müəssisənin ümumi, orta və son gəlir növlərini fərqləndirirlər. Ümumi gəlir bütün məhsulun (işin, xidmətin) reallaşdırılmasından əldə edilən məbləğə bərabərdir; orta gəlir – satılmış məhsul vahidinə hesablanmış məbləğdir; son gəlir isə əlavə məhsul vahidinin satışından əldə edilən ümumi gəlirin artmasını göstərir. O, ümumi gəlir artımının məhsulun kəmiyyət artımına nisbəti kimi hesablanır.



Məlumat üçün qeyd edək ki, son illərdə bəzi müəssisə və təşkilatların mənfəətlə işləmələrinə baxmayaraq, zərərlə işləyən müəssisələrin sayı da az deyildir. Zərərlə işləyən müəssisə nəinki öz istehsal-təsərrüfat fəaliyyətinin normal gedişatını təmin edə bilmir, eyni zamanda həmin müəssisə öz xərclərini, bank və qarşılıqlı hesablaşmalar üzrə borclarını da ödəyə bilmir. Öz xərclərini, bank və qarşılıqlı borcların ödənilməsi o halda təmin oluna bilər ki, müəssisənin məhsulun (işin, xidmətin) satışından əldə etdiyi pul istehsal xərclərindən çox olsun. Deməli, öz xərcini, bank və qarşılıqlı borcları yalnız zərərsiz, rentabelli işləyən müəssisələr təmin edə bilərlər. Əgər müəssisə zərərlə işləyirsə və satışdan əldə etdiyi pul onun istehsala çəkdiyi xərci ödəmirsə, onda o, mənfəətlə işləyən müəssisələr üçün nəzərdə tutulmuş bir sıra güzəştlərdən də məhrum olur. Sənayedə zərərlərin miqdarı haqqında məlumatlar cədvəl 102-də verilmişdir.

*Cədvəl 102*

***Sənayedə zərərlə işləyən müəssisələrin sayı***

| İllər | Zərərlərin miqdarı, mln. manat | Yekuna görə, %-lə |
|---|---|---|
| 1995 | 23006 | 14,3 |
| 1996 | 70204 | 21,0 |
| 1997 | 123098 | 40,0 |
| 1998 | 242547 | 46,0 |
| 1999 | 334997 | 6,6 |
| 2000 | 219400 | 9,5 |
| 2001 | 85400 | 6,5 |
| 2002 | 337200 | 6,2 |
| 2003 | 308600 | 6,9 |
| 2004 | 328400 | 7,0 |

## 17.3. Maliyyə menecmenti – neft-qazçıxarma idarələrinin maliyyə vəsaitlərinin formalaşmasını təmin edən idarəetmə sistemi kimi

Sahənin malik olduğu iqtisadi resurslardan dolğun və tam istifadə etməklə əmək kollektivlərinin qarşısında qoyulan məqsədlərə nail olmaq üçün onun səmərəli idarə edilməsi menecmentin mahiyyətini təşkil edir. Menecment ingilis sözü olub idarəetmə mənasını daşıyaraq istehsalın səmərəliliyini yüksəltmək və mənfəəti artırmaq məqsədilə istehsalın idarə edilməsinin prinsip, üsul və formaları haqqında nəzəri və təcrübi biliklər sistemdir.

Beynəlxalq təcrübədə menecment sahibkarlıq korporasiyası və səhmdar kampaniyası şəraitində sosial-iqtisadi proseslərin idarə edilməsinin sistemidir. «Menecment» sözünə dörd aspektdə yanaşmaq olar: birincisi, insanlarla davranış üsulu və idarəetmə bacarığı kimi; ikincisi, spesifik qabiliyyətlər və inzibati vərdişlər kimi; üçüncüsü, idarəetmə orqanı kimi və nəhayət dördüncüsü, inzibatçılıq vahidi kimi.

Ümumiyyətlə, sahənin əsas məqsədinin necə reallaşdırılacağı menecment üzrə qərarın qəbul edilməsi ilə bilavasitə bağlıdır. Sahə, menecment üzrə hər hansı bir qərarı qəbul edərkən konkret sahənin fəaliyyəti ilə bağlı olan daxili və xarici mühitə təsir göstərən amillərin hamısı nəzərə alınır. Hazırda menecmentin əsas vəzifələrindən biri daxili mühiti nəzərə almaqla xarici mühitdə baş verən, yaxud baş verə biləcək hər cür iqtisadi, siyasi, elmi-texniki və s. dəyişikliklərə uyğunlaşa bilmək üçün uzunmüddətli strategiyasını işləyib hazırlamaqdan ibarətdir. Lakin, bu o demək deyildir ki, sahənin uzunmüddətli strategiyasını işləyib hazırladıqda cari vəzifələr nəzərə alınmır. Adətən, istehsal, maliyyə və bazar menecmentlərini fərqləndirirlər.

***İstehsal menecmenti*** – təyin edilmiş vaxtda, minimum xərclərlə müəyyən miqdarda və keyfiyyətdə əmtəə istehsalı ilə məşğul olan idarəetmə sistemidir. İstehsal menecmenti – əvvəlcədən nəzərdə tutulan nəticələrə nail olmaq məqsədilə ictimai istehsal prosesi iştirakçılarına (ayrı-ayrı işçilərə, yaxud kollektivə) məqsədyönlü təsir göstərmək funksiyasını icra edir. Belə təsir müxtəlif idarəetmə üsullarının tətbiqi ilə əldə edilir.



İstehsal menecmentinin başlıca vəzifəsi bunlardır: məhsulun zəruri miqdarda və çeşiddə, lazımi keyfiyyətdə və müəyyən olunmuş vaxtda hazırlanmasını (işin yerinə yetirilməsini və xidmət göstərilməsini) təmin etmək; əmək kollektivlərinin sosial inkişafı, əməkçilərdə əmək təşəbbüskarlığının təzahürü, onların mədəni, məişət, mənzil və digər tələblərinin ödənilməsi üçün lazımi şərait yaratmaq.

***Maliyyə menecmenti*** – sahənin maliyyə vəsaitlərinin formalaşmasını təmin edən idarəetmə sistemidir. Maliyyə menecmenti yeni iqtisadi münasibətlərə keçid şəraitində get-gedə daha çox sahələri əhatə edir. Maliyyə menecmenti özündə kommersiya əsasında fəaliyyət göstərən müəssisələrin maliyyəsini, qeyri-kommersiya fəaliyyəti göstərən idarə və təşkilatların maliyyəsini, ictimai birliklərin maliyyəsini, dövlət büdcəsini, büdcədən kənar fondları, dövlət kreditini, sosial, şəxsi və əmlak sığorta ayırmalarını, bank sistemini, parabank sistemini birləşdirir.

***Bazar menecmenti*** sahənin kommersiya fəaliyyətinin idarə edilməsidir. Bazar menecmenti funksiyasını marketinq fəaliyyəti yerinə yetirir. Marketinq dedikdə, istehsal və satış fəaliyyətinin idarə edilməsi sistemi, bazarın kompleks təhlilinə əsaslanan, istehsal edilmiş məhsulun satılması və maksimum mənfəət əldə edilməsinə yönəldilmiş fəaliyyət növü nəzərdə tutulur. Marketinqin mühüm vəzifəsi istehlak tələbini məqsədəuyğun formalaşdırmaq və sahənin mənafeyinə tabe etməkdir. Marketinq öz ilk addımını ABŞ-da XX əsrin əvvəllərində atmışdır. Bu, istehsalın və kapitalın təmərküzləşdirilməsinin artması, satış bazarlarının inhisarlaşmasının güclənməsi, satış probleminin kəskinləşməsi və iri inhisarlar arasında rəqabət mübarizəsinin güclənməsi ilə əlaqədardır.

Müasir marketinq bazar tədqiqatlarına məhsul buraxılması proqramının işlənib hazırlanmasından əvvəl gələn istehsal fəaliyyətinin ilkin mərhələsi kimi baxır. Hazırda ABŞ-da sənaye, ticarət və xidmət sahəsi şirkətlərinin 90%-i, Almaniyada və Böyük Britaniyada müxtəlif sahə şirkətlərinin dördə üçü bu və ya digər formada müntəzəm olaraq bazar tədqiqatları aparırlar. Lakin bazarı yalnız inhisarlar hərtərəfli və kompleks tədqiq edə bilərlər. Buna görə də marketinq mahiyyət etibarilə böyük biznesin rəqabət mübarizəsi alətidir. Marketinq sistemində mühüm

yeri əmtəə istehsalı, yeni məhsul nümunələri yaradılması sahəsində şirkətlərin elmi-tədqiqat fəaliyyətinin təşkili, qiymətqoyma, maliyyələşdirilmənin əlaqələndirilməsi, həmçinin daşınma, qablaşdırma, texniki xidmət və satış da daxil olmaqla firmanın bütün fəaliyyətinin nizamlanması ilə bağlı olan məsələlər tutur. Satışı stimullaşdırmaq üçün reklamdan, istehlak kreditindən, satıcılarla firmanın şəxsi əlaqəsindən və s.-dən istifadə edilir.

## 17.4. Bazar iqtisadiyyatına keçid dövründə neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin pisləşməsi səbəbləri və sanasiyası

Məlumdur ki, Azərbaycanda 70 ildən çox sosialist iqtisadi-sosial quruluşu hökm sürmüşdü. 90-cı illərdə isə SSRİ məkanındakı bütün müttəfiq respublikalar kimi Azərbaycan da yeni, demokratik iqtisadi sistemə, bazar iqtisadiyyatına keçməyə qədəm qoymuşdu. Bu zamandan Azərbaycan keçid dövrünün problemlərinin həllinə başlamışdı. Sabiq iqtisadi-sosial quruluşun yeni iqtisadi-sosial quruluşa keçməsi bir dəfəlik akt deyildir, uzun tarixi bir proseslə bağlıdır. Bu prosesdə bazar iqtisadiyyatının yaranmasının və formalaşmasının bilavasitə özünəməxsus atributları tədricən bərqərar olmalıdır.

Keçid dövründə qarşıda elə ümumi, strateji proqram vəzifələri durur ki, onların həyata keçirilməsi bir tərəfdən yeni demokratik cəmiyyətin və eyni zamanda bazar iqtisadiyyatının yaradılmasının təməl daşı hesab edilir. Belə problemlərdən biri də sosialist sənaye müəssisələrinin, o cümlədən neft-qazçıxarma idarələrinin maliyyə vəziyyətinin yaxşılaşdırılması və sanasiyasıdır. Bazar iqtisadiyyatına keçid dövrü iqtisadiyyatın inzibati-amirlik metodları ilə idarə edilməsindən yeni iqtisadi üsullara keçirilməsini zəruri edir. Heç kəs üçün sirr deyildir ki, həmin dövr güclü iqtisadi bazanın yaradılmasını tələb edir. Bu isə düzgün maliyyə sisteminin həyata keçirilməsi və onun nəticələrindən xeyli dərəcədə asılıdır. Deməli, müəssisələrdə, eləcə də neft-qazçıxarma idarələrində maliyyə siyasəti düzgün təşkil edilməlidir. Bu işdə isə dövlət məharətlə, maliyyə-kredit, vergi, qiymət və s.-dən geniş surətdə istifadə etməlidir.

***Maliyyə*** – mübadilə, dəyər, qiymət və s. bu kimi iqtisadi



alətlərdən biridir. Kapitalist təsərrüfatında iqtisadiyyatın inkişafı alətləri olan maliyyə və kreditdən müvəffəqiyyətlə istifadə olunur. Bu alətlərin geniş və səmərəli tətbiq edilməsi neft-qazçıxarma idarələrinin maliyyə təsərrüfatının düzgün təşkil olunması ilə sıx əlaqədardır. Neft-qazçıxarma idarələrinin maliyyə təsərrüfatı pul resurslarının sistemli qaydada toplanması və məqsədəuyğun formada istifadə edilməsi ilə əlaqədar olan pul münasibətləri sistemindən ibarətdir. Pul resursları neft-qazçıxarma idarələrinə, əsas fondlar və dövriyyə vəsaitləri yaratmaq, büdcə ilə və malgöndərənlərlə hesablaşmaq, bank borclarını qaytarmaq və s. məqsədlər üçün lazımdır. Neft-qazçıxarma idarələri tərəfindən maliyyə resurslarının toplanması və məqsədəuyğun istifadə olunması ayrı-ayrı müəssisələr arasında, neft-qazçıxarma idarələri ilə dövlət və onların əmək kollektivləri arasında, neft-qazçıxarma idarələrinin özləri arasında olan pul münasibətlərinin müəyyən sisteminə əsaslanır.

Deməli, möhkəm və sağlam maliyyə sistemi olmadan, yaxşı və kifayət qədər maliyyə vəziyyəti yaratmadan təkrar istehsal prosesini təsəvvür etmək olmaz. Lakin buna baxmayaraq, respublikamızda iqtisadiyyatın ağır vəziyyətdən uğurla çıxarılması, əhalinin güzəranının yaxşılaşdırılması sahəsində ciddi dönüş yaradılması, neft sənayesinin maliyyə vəziyyətinin ağırlaşmasının qarşısının alınması hələlik təmin olunmamışdır. Düzdür, son illərdə bu sahədə iqtisadiyyatın bəzi sahələrində, o cümlədən neft sənayesində müəyyən nailiyyətlər əldə edilmiş və gözə çarpan dərəcədə irəliləyişlər əldə edilmişdir.

## 17.5. Neft-qazçıxarma idarələrində lizinq xidmətinin təşkili

Bazar iqtisadiyyatının strukturlarında müxtəlif xarakterli və təyinatlı xidmətlər göstərən kampaniyalar da fəaliyyət göstərirlər ki, bunlardan biri fiziki və hüquqi şəxslərə lizinq xidməti göstərən kampaniyalardır. Xidmətin bu növü Qərb ölkələrində əsasən XX əsrin 60-cı illərində başlayaraq geniş tətbiq olunmağa başlamışdır. Lizinq dedikdə, istehlakçıların sifarişi əsasında əmlakı satın almaqla onu istehlakçıya icarəyə vermək məqsədi ilə həyata keçirilən xidmət növü nəzərdə tutulur.

Lizinq kampaniyalarının obyekti kimi istehsal vasitələri, yə-

ni istehsal təyinatlı binalar, dəzgahlar, maşınlar, avadanlıqlar, nəqliyyat vasitələri və s. əmlak ola bilər. Lizinq kampaniyalarının obyektləri öz əmlakını lizinq kampaniyalarına satan hüquqi və fiziki şəxslər, əmlakı satın almaqla (öz əmlakına çevirməklə) onu icarəyə verən lizinq kampaniyaları, əmlakı icarəyə götürən hüquqi və fiziki şəxslərdən ibarətdir.

Deməli, lizinq iştirakçıları kimi tərəf, yəni satıcı, lizinq kampaniyası və icarəçi çıxış edir. Bununla belə bəzən lizinq xidməti iki tərəfin iştirakı ilə də həyata keçirilə bilər. Bu halda maliyyə vəsaitinə ehtiyacı olan kampaniya öz mülkiyyətində olan əmlakı lizinq kampaniyasına satdıqdan sonra, onu yenidən həmin kampaniyadan icarəyə götürür.

Müxtəlif ölkələrdə lizinq xidməti ya bu məqsədlə yaradılmış kampaniyalar və yaxud maliyyə-kredit təşkilatları tərəfindən həyata keçirilir. Lizinq əməliyyatı müəyyən mənada əmtəənin alqı-satqısını məhdudlaşdırsa da, ümumiyyətlə, mövcud istehsal vasitələrindən səmərəli istifadə üçün zəruri şərait yaradır. Bir sıra hallarda isə icarəyə götürən tərəf müqavilə müddəti başa çatdıqdan sonra həmin əmlakın qalıq dəyərini ödəməklə onu öz mülkiyyətinə çevirə bilər.

Lizinq xidməti bu prosesdə iştirak edən bütün tərəflər üçün: istehsalçılar, lizinq kampaniyaları və istehlakçılar üçün çox faydalıdır. İstehsal vasitələrinin istehsalçıları üçün öz məhsullarını lizinq kampaniyalarına verilməsinin aşağıdakı müsbət cəhətləri vardır: reklam, bazarın təhlili, alıcının tapılması ilə bağlı xərclərin azaldılması, qənaət edilmiş vəsaitin istehsal vəzifələrinin həllinə yönəldilməsi, istehsal edilmiş məhsulun möhkəm daimi satış bazarının olması və s.

Lizinq kampaniyalarının mənfəətinə daxildir: əmlakın icarəyə verilməsi ilə bağlı xidmətlər üçün verilən haqq; istehsalçıdan onun məhsulunu iri həcmdə aldığı üçün qiymət güzəştləri; icarə müddəti başa çatdıqdan sonra avadanlığın satılmasından əldə edilən gəlir və s.

İstehlakçının (icarəçinin) mənfəəti aşağıdakılardan ibarətdir: avadanlığın icarəsinin onun birdəfəlik alınmasından ucuz başa gəlməsi nəticəsində əldə edilən gəlir; istehsal vasitələrinin bütün fəaliyyət müddəti ərzində ona müəyyən formada yüksək keyfiyyətli xidmətin göstərilməsi sayəsində əldə edilən səmərə.



Məlumdur ki, neft-qazçıxarma sənayesi torpaq və əmək tutumluğu ilə yanaşı, həm də kapital tutumlu sahələrdəndir. Burada əsas istehsal fondlarının əksər hissəsini iş maşın və avadanlıqları, nəqliyyat vasitələri, qurğular və s. tutur. Hasilatın enməsi, ehtiyatların tükənməsi və digər texniki-iqtisadi çətinliklər mövcud əmlakdan səmərəli istifadəni imkansız edir. Bununla yanaşı, əsas istehsal fondlarının mənəvi aşınma, renovasiya prosesi, ETT-nin nailiyyətləri, mütərəqqi texnologiyaların, xüsusilə tullantısız texnologiyanın tətbiqi zərurətini yaradır. Digər tərəfdən, maliyyə dayanaqlılığının aşağı səviyyəsi isə mütərəqqi texnologiyaların mənimsənilməsini və innovasion fəaliyyəti məhdudlaşdırır.

Neft-qazçıxarma sənayesində aparılan islahatların indiki mərhələsində sahənin bazar prinsiplərinə daha geniş nüfuzu, adaptasiyası qeyd etdiyimiz kimi, əhəmiyyətli dərəcədə bank sisteminin təkmil olması ilə harmonikdir. Real sektorun, o cümlədən, neft-qazçıxarma idarələrinin ticarət-komisyon, faktorinq, tras əməliyyatları, veksellərin buraxılması, vençur kapitalı və digər riskli investisiya formalarının tətbiqindən faydalanması milli bank sisteminin müvafiq xidmət atributlarına münasibətlərindən asılıdır. Banklar həm də həyata keçirdikləri kredit strategiyasında maliyyə oriyentasiyalı icarə sistemlərindən də istifadəni mənimsəmişlər.

***Faktorinq*** – maliyyə sistemidir, bu sistemə müvafiq olaraq, mal tədarükçüsü ödəmənin böyük hissəsini dərhal almaq, borcların tam ödənilməsinə zəmanət vermək, hesabların idarə olunması xərclərini azaltmaq məqsədi ilə faktorinq kampaniyalarının ticarət sazişləri üzrə qısamüddətli tələblərdə başqasına güzəştə gedir. Faktorinq üzrə kreditin müddəti, adətən, 90 gündən 120 günə qədər olur, faiz norması isə rəsmi uçot normasından 2-4% çoxdur. Faktorinq kampaniyalarından yığılan xidmətlərə görə ödəmələr müqavilə dəyərinin 2%-ə qədərini təşkil edir.

***Veksel*** – ciddi təyin edilmiş forma qaydasında borc alanın (veksel verənin) kredit verənə ( veksel sahibinə) verdiyi yazılı borc iltizamıdır. Kredit verənin borc alandan pul məbləğinin vekseldə göstərilən müəyyən müddətdə ödənilməsini tələb etmək hüququ vardır. Veksellər sadə, yəni solo veksel – kredit verənin adına borc alan tərəfindən verilən iltizam və baratlı, yəni tratta – bir şəxsin (trassiant adlandırılan kredit verənin) digərinə (trassat adlandırılan borc alana, tədiyyəçiyə) üçüncü şəxsə (remitent adlandırılan təqdim edənə) müəyyən məbləğdə

pulu ödəmək haqqında yazılı əmr şəkilində, formasında olurlar. Kommersiya vekseli-borc alan tərəfindən malın əvəzinə zəmanət kimi verilən veksel; bank vekseli – xarici müxbirlərinə (xarici banklarına) həmin ölkənin bankları tərəfindən qoyulan barat vekseli (tratta); xəzinədar vekseli – öz xərclərini təmin etmək üçün dövlət tərəfindən buraxılan veksellərdir. Vekseli qəbul etdikdə aşağıdakı rekvizitlər tətbiq edilir: vekselin adı; müəyyən məbləği ödəmək haqqında şərtsiz əmr; tədiyyəçinin – trassantın adı; ödəmənin müddəti; ödəmənin yeri (ünvanı); remitentin (barat vekseli alanın) göstərilməsi, vekselin yeri və verilmə tarixi; veksel verənin imzası.

***Vençur kapitalı*** – innovasiya prosesinin həyata keçirilməsində mühüm rol oynayır. Vençur kapitalı risklə əlaqədar olan maliyyələşmə növüdür. Odur ki, vençur kapitalına bəzi iqtisadi ədəbiyyatlarda riskli kapital da deyilir. Əslində isə vençur kapitalı latın mənşəli ingilis sözü olub risk etmək, cəsarət etmək deməkdir. O, ABŞ-da hələ XX əsrin 40-cı illərində meydana gəlmiş, 60-70-ci illərdə isə maliyyə kapitalının müstəqil funksional formalarından birinə çevrilmişdir. Vençur kapitalının yaranmasının əsas səbəbi elmi-texniki tərəqqinin sürətləndirilməsi nəticəsində innovasiya prosesinə tələbatın xeyli yüksəlməsi və bu prosesləri maliyyələşdirmək üçün müxtəlif mənbələrdən daxil olan maliyyə imkanlarının mövcudluğu olmuşdur.

Vençur kapitalı bir çox təşkilati formalara malikdir, lakin bunların ən əsasları müstəqil innovasiya firmaları və korporasiyaların daxili vençur şöbələridir. Vençur firması – sənayenin "riskli» texnologiyaya çatdırılmasını təsdiq etmək üçün yaranan və bir qayda olaraq, bir neçə şəxsi kapitalların birləşməsi yolu ilə meydana gələn «riskli» müəssisədir. «Riskli» texnologiyaya ixtiralar, faydalı modellər və s. aid edilir. Bazar iqtisadiyyatı ölkələrinin bu sahədəki təcrübəsi göstərir ki, həmin ölkələrin iqtisadiyyatında vençur firmaları müəyyən rol oynayırlar. Məsələn, belə firmaların sayı ABŞ-da və Yaponiyada 14-15 min, Almaniyada isə 7 mindən çoxdur və onlar yüksək iqtisadi göstəricilərə malikdirlər. Belə ki, ABŞ-da bütün iri kəşflərin təqribən 50%-i, Almaniyada isə 30%-i bu firmaların payına düşür. Vençur funksiyasını həyata keçirən hüquqi və fiziki şəxslər investorlar və sahibkarlar arasında münasibətlərdə vasitəçilik edir, daha doğrusu, bu münasibətləri yaradırlar. Proses baş tutarsa, hər üç tərəf qazınır; özü də investorun, sahibkarın və vençur funksiyalarını həyata keçirənlərin gəlirdəki payı əvvəl-



cədən razılaşdırılır.

Vençur kapitalı sahibkarlığın inkişafında əhəmiyyətli amilə çevrilə bilər. Belə ki, onun köməyi ilə yeni texnologiyaların tətbiqini sürətləndirmək, elmi potensialı fəallaşdırmaq və inkişaf etdirmək, elmtutumlu ciddi layihələri reallaşdırmaq mümkündür. Vençur işgüzarlığı fəaliyyət iştirakçıları arasında yüksək etibar olmasını nəzərdə tutur. Şəraitə uyğun hərəkətlərə üstünlük verən və riskli layihələrdən çəkinənlər vençur biznesində təcrübə əldə edə bilmirlər.

Elmi-texniki tədqiqatların kommersiyalaşdırılması və tətbiqi üçün əlverişli şərait yaradan vençur kapitalının təşəkkülü peşəkar təşkilatların yaradılması ilə müşayiət olunur. İnkişaf etmiş ölkələrin təcrübəsi bunu dəfələrlə sübut etmişdir. Elmi-texniki tərəqqinin kommersiyalaşdırılmasına əsaslanan sahibkarlıq fəaliyyəti kimi vençur biznesi müvafiq hüquqi baza olduqda səmərə verir.

Bazar iqtisadiyyatı şəraitində fəaliyyət göstərən ölkələrin təcrübəsi göstərir ki, kampaniyalar (şirkətlər, firmalar) 30% əmlakı icarə yolu ilə alırlar. İcarə prinsipi istehsal və xidmət təşkiletmə həm maliyyə imkanlılığı və həm də risklilik baxımından olduqca faydalıdır. Beynəlxalq təcrübədə ən çox istifadə edilən icarə növləri aşağıdakılardan ibarətdir:

***a) əməliyyat icarəsi*** – bəzən servis icarə də adlanır. Aktivin həm texniki, həm də maliyyə xidmətini yerinə yetirir;

***b) maliyyə və ya kapital icarəsi*** – icarəyə verən aktivə texniki xidmət etmir, onun ləğvi olmur və burada amortizasiya tam məzmunda reallaşır;

***c) qaytarılan icarə*** – növündə icarəyə verən icarəçi aktivi əmlakın mülkiyyət hüququna sahiblik qismində verir;

***ç) kombinasiyalı icarə*** – daha geniş kreditli və daha çox istifadə olunandır.

Çox vaxt neft kampaniyaları böhranlı maliyyə axınını sabitləşdirmək üçün təchizat qrafikini şərtləndirir. Maliyyə axınının yaxşılaşdırılmasında bir çox korrektedici tədbirlərə də əl atılır. Belə tədbirlərə aiddir: istehsal xərclərinin azaldılması üzrə təşkilatı-texniki tədbirlər; kreditor borcların ödəniş müddətlərinin uzadılmasına nail olmaq məqsədilə həyata keçirilən təşkilati-texniki tədbirlər; investisiya proqramlarına düzəlişlər edilməsi ilə əlaqədar təşkilati-texniki tədbirlər; lizinqdən istifadənin yaxşılaşdırılması üzrə həyata keçirilən təşkilati-texniki tədbirlər; vergi ödənişlərinin minimumlaşdırılması ilə bağlı təşkilati-

texniki tədbirlər və nəhayət, veksel və məqbul maliyyə mexanizmi formasına keçid üzrə həyata keçirilən təşkilati-texniki tədbirlər.

Deyilənlərdən aydın olur ki, böhranlı maliyyə axınını sabitləşdirmək üçün həyata keçirilən təşkilati-texniki tədbirlər kompleksi sırasında lizinqdən istifadəyə də yer verir. İcarə növlərinin geniş yayıldığı müasir şəraitdə lizinq oriyentasiyalı strategiyaya maraq getdikcə daha çox artır. Lizinqə görə, icarəyə verən aktivə texniki xidmət edir. İcarəyə götürülən mənəvi uyğunsuzluğa və digər şərtlərə istinadən istənilən vaxt müqavilədən imtina edə bilər. Burada tam olmayan amortizasiya siyasəti baş verir.

Lizinqlə bağlı əməliyyatlar sırasında mütərəqqi forma kimi maliyyə lizinqi çıxış edir. Maliyyə lizinqinin digər analoji formalardan fərqləndirən xüsusiyyəti onun bank strukturu olması ilə əlaqədardır. Belə ki, prosesə müvafiq olaraq banklar maşın və avadanlıqlar, nəqliyyat vasitələri alaraq müəyyən müddət (adətən 5 ildən 10 ilədək) hesabı ilə onları müəssisələrə icarəyə verir. Əməliyyatın cəlbedici cəhəti onunla izah edilir ki, kreditləşmənin müəyyən forması kimi, müəssisələr ilkin olaraq maliyyə resursları sərf etmədən sifariş etdiyi texnika və avadanlığın istifadəçisinə çevrilir və bundan irəli gələn hər iki tərəf üçün məqbul hesab edilən alternativ vergi ödənişlərinə imkan əldə edir. Bazara iqtisadiyyatına keçid bir empirik aydınlıq da gətirir ki, dövlətin neft-qaz sektorunda maliyyə tənzimlənməsi korporativ menecmentlə təyin olunacaqdır.

Faktiki materialların təhlili və dünya təcrübəsi göstərir ki, lizinqdən istifadə olunması neft kampaniyalarına böyük investisiyaların cəlb edilməsinə şərait yaradır, yüksək səmərəli texnologiyaların əldə edilməsinə, istehsalın modernləşdirilməsinə imkan verir. Lizinq əməliyyatlarından əldə edilən mənfəət lizinq kampaniyalarının (təşkilatlarının) maliyyələşdirilməsinə yönəlir. Burada inflyasiya, qeyri-sabit maliyyə və s. ilə bağlı çətinliklər də baş verə bilər. Maliyyə lizinqinin geniş tətbiq edildiyi sahələr içərisində neft-qazçıxarma sənayesinin payı daim artmaqdadır. Ən böyük neft kampaniyaları hazırda sərmayə qoyuluşunda lizinq sistemli maliyyələşdirmədən geniş istifadə edirlər. Maliyyə lizinqi yalnız risk dərəcəsini sabitləşdirməyə xidmət etmir. O, istehsalın səmərəliliyinə də böyük təsir edir.



## ƏDƏBİYYAT


1. Abbasov A.B. Biznesin Əsasları. Dərslik. Bakı, 2005
2. Abbasov A.B. Sahibkarlıq fəaliyyəti: növləri, təşəkkülü və inkişaf problemləri. Bakı, 1998
3. Abdullayev Z.S. Yeni təsərrüfatçılıq şəraitində sənaye ehtiyatlarından səmərəli istifadənin əhəmiyyəti. Bakı, 1997
4. Abdullayev Z.S., Abbasov A.B. Neft sənayesinin iqtisadiyyatı və idarə edilməsi. Dərs vəsaiti. Bakı, 2000
5. Abdullayev Z.S., Bağırova Z.Ə. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı, 2003
6. Ağamaliyev M.Q., Məmmədrzayev M.M. Kommersiya fəaliyyətinin təşkili. Dərslik. Bakı, 2004
7. «Antiinhisar fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu
8. Atakişiyev M.S. Qazmada istehsal potensialından səmərəli istifadə problemləri. Bakı, 1998
9. Axundov M.Ə. Strateji idarəetmə. Bakı, 2001
10. Axundov Ş.Ə. Marketinqin əsasları. Dərslik. Bakı, 2001
11. «Azərbaycan Respublikasında Dövlət əmlakının özəlləşdirilməsi haqqında» Dövlət Proqramları
12. Azərbaycan Respublikasında iqtisadi islahatlar: ilkin nəticələr, problemlər və perspektivlər. Beynəlxalq elmi-praktik konfransın materialları. Bakı, 2003
13. Azərbaycan Respublikasında kiçik və orta sahibkarlıq. Bakı, 2000
14. Azərbaycan Respublikasında Rəqabətin Qorunması və təbii inhisarların tənzimlənməsi: qanunlar, normativ sənədlər, analitik materiallar. Bakı, 2000
15. «Azərbaycan Respublikasının Dövlət Neft Fondu haqqında» Əsasnamə. «İqtisadiyyat» qəzeti. 2001, 14 yanvar
16. Azərbaycan Respublikasının Mülki Məcəlləsi. Bakı, 2000
17. Azərbaycan Respublikasının Vergi Məcəlləsi. Bakı, 2003
18. Azərbaycan Respublikasının yanacaq-energetika kompleksinin inkişafı (2005-2015-ci illər) üzrə Dövlət Proqramı
19. Azərbaycan Sovet Ensiklopediyası. 1 – X cildlər
20. Azərbaycan SSR sənayesi (rus dilində). Bakı, 1987
21. Azərbaycanın sənayesi (statistik məcmuə). Bakı, 2006
22. Azərbaycanın statistik göstəriciləri. Bakı, 2006

23. Bazar iqtisadiyyatı terminləri lüğəti. Bakı, 1993
24. Əhmədov M.A. Yeni iqtisadi sistemə keçid mərhələsində milli iqtisadiyyatla – milli bazarın formalaşmasının qarşılıqlı əlaqəsi. İqtisad elmləri: nəzəriyyə və praktika. Bakı, 1998
25. Əlirzayev Ə. Q. Azərbaycanda sahibkarlığın inkişaf problemləri və həlli yolları: nəzəriyyə və təcrübə. Bakı, 2000
26. Əlirzayev Ə.Q. Azərbaycanın iqtisadi inkişaf konsepsiyası və proqramı. Bakı, 1999
27. Əlirzayev Ə.Q. İqtisadiyyat: düşüncələr, baxışlar. Bakı, 2002
28. Əliyev H.Ə. Azərbaycan nefti dünya siyasətində. Bakı, 1997
29. Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir. Bakı, 1997
30. Əliyev H.Ə. Qayıdış. Bakı, 1997
31. Əliyev İ.H., Muradəliyev A. Azərbaycan nefti dünya siyasətində. IV cilddə. Bakı, 1997-1998
32. Əliyev N.A., Mirzoyev M.A., Şahbazov Ə.K. Bakı-Tbilisi-Ceyhan Əsas İxrac Boru Kəməri: baxışdan reallığa doğru (rus dilində). Bakı, 2001
33. Hacızadə E.M. Azərbaycanın quruda neft-qazçıxarma kompleksində iqtisadi islahatlar və səmərəlilik problemləri. Monoqrafiya. Bakı, 1999
34. Hacızadə E.M. Neftçıxarma kompleksinin iqtisadi inkişaf modeli. Monoqrafiya. Bakı, 2002
35. Hacızadə E.M., Abdullayev Z.S. Neft təsərrüfatının iqtisadi strukturunun modernizasiyası. Monoqrafiya. Bakı, 2003
36. Hacızadə E.M., Paşayev T.Ə. Neft-qaz sənayesində yeni bazar mexanizminin formalaşdırılması istiqamətləri. Monoqrafiya. Bakı, 2000
37. Hüseynov T.Ə. Müəssisənin iqtisadiyyatı. Dərslik. Bakı, 2005
38. Hüseynov T.Ə. Sənayenin iqtisadiyyatı. Dərslik. Bakı, 2000
39. İlham Əliyev. Azərbaycanın Xəzər nefti (rus dilində). Monoqrafiya. Bakı, 2003
40. «İnvestisiya fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu
41. İqtisadi nəzəriyyə. Dərslik. Bakı, 1999
42. «Maliyyə-sənaye qrupları haqqında» Azərbaycan Respublikasının Qanunu
43. «Məhsulun (işin, xidmətin) maya dəyərinə daxil edilən xərclərin tərkibi haqqında Əsasnamə». 16 avqust, 1996
44. Meybullayev M.X. Yeni iqtisadi sistemə keçid problemlərinin



həllində dövlətin rolu. İqtisad elmləri: nəzəriyyə və praktika. Bakı, 1998
45. Mirzəcanzadə A.X. və b. Neft və qaz quyularının işlənməsi və istismarı. Dərslik. Bakı, 1960
46. «Müəssisələr haqqında» Azərbaycan Respublikasının Qanunu
47. Muradov Ş.M. İnsan potensialı: əsas meyllər, reallıqlar, problemlər. Bakı, 2004
48. Mustafayev M.M., Abbasov A.B. Qazma müəssisələrinin iqtisadiyyatı, təşkili və planlaşdırılması. Dərs vəsaiti. Bakı, 1967
49. Nazim Müzəffərli. İqtisadi etüdlər. Bakı, 1999
50. Neft – Azərbaycana (rus dilində). Bakı, 1980
51. Neft sənayesi üzrə: 100 sual – 100 cavab. Bakı. 2003
52. Nəsibli N. Azərbaycan geopolitikası və neft. Bakı, 2000
53. Rüstəmov R. İ. Neft müqavilələri ilə əlaqədar Azərbaycan Dövlət Neft Şirkətinin yenidən təşkili və inkişaf konsepsiyası. «Azərbaycan neft təsərrüfatı» jurnalı, 1996, № 9
54. Sadıqov K.F. Milli iqtisadiyyatın dövlət tənzimlənməsinin konseptual əsasları. Bakı, 1999
55. Sadıqov K.F., Rəhmanov F.P., Qafarov K.S. Milli iqtisadiyyat: təşəkkülü və tənzimlənməsi. Bakı, 1996
56. Şahbazov K.A. və b. Menecment. Dərslik. Bakı, 2005
57. «Sahibkarlıq fəaliyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu
58. «Səhmdar cəmiyyəti haqqında» Azərbaycan Respublikasının Qanunu
59. Vəliyev T.S. Bazar iqtisadiyyatının formalaşdırılmasında sahibkarlığın rolu. İqtisad elmləri: nəzəriyyə və praktika. Bakı, 1994
60. Yüzbaşova G.Z. Azərbaycan sənayesinin restrukturlaşdırılması (rus dilində). Monoqrafiya. Bakı, 2003
61. Yuzbaşova G.Z. Müasir inkişaf mərhələdə Azərbaycan iqtisadiyyatının strukturunun yenidən qurulması (rus dilində). Bakı, 1997
62. Yüzbaşova G.Z. Yeni inkişaf şəraitində Azərbaycan sənayesinin strukturunun yenidən qurulması problemləri (rus dilində). Monoqrafiya. Bakı, 1994
63. Голуба А., Струкова Е. Экономика природных ресурсов. М., 1998
64. Ермилов О.М., Миловидов К.Н. и др. Стратегия развития нефтегазовых компаний. М., 1998

*Kompüter dizaynı:* ***Sahib Ağayev***
*Yığılmağa verilmiş 11.03.2006.*
*Çapa imzalanmış 21.05.2006.*
*Şərti çap vərəqi 47,25. Sifariş № 214.*
*Kağız formatı 60x84 1/16. Tiraj 500.*

*Kitab* ***«Nurlan»*** *nəşriyyat-poliqrafiya müəssisəsində hazır diapozitivlərdən çap olunmuşdur.*
*Direktor:* ***prof. N.B.Məmmədli***
***E-mail: nurlan1959@rambler.ru***
*Tel: 497-16-32; 850-311-41-89*
*Ünvan: Bakı, İçərişəhər, 3-cü Maqomayev döngəsi 8/4.*